KAMAL ABDULLA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

II CİLD

894.361
ABD

Kamal Abdulla

# Seçilmiş Əsərləri

7 cilddə

roman, povest və hekayələr

# KAMAL ABDULLA

# *Seçilmiş Əsərləri*

**7 cilddə**

**Bakı**
**MÜTƏRCİM**
**2020**



**Oxucuya sevgi ilə,** 

**KAMAL ABDULLA**

**Seçilmiş əsərləri**

# II

**CİLD**

*Roman, povest və hekayələr*

Tərtibçilər:
*Şəlalə Nəqşani, Cavid Zeynallı,*
*İrina Tyaqay, Şəfəq Abasova, Elçin İbrahimov*

Buraxılışa məsul:
***Sərraf Balaxan***

Texniki redaktor:
***Rita Müslümova***

Dizayner:
***Cavid Kişiyev***

Korrektor:
***Günel Muxtarova***

***Üz qabığının dizaynı Gövhər Mehdi qızı Abdullayevaya məxsusdur.***

Kamal Abdulla. Seçilmiş əsərləri: 7 cilddə. II cild: *Roman, povest və hekayələr.*
– Bakı: Mütərcim, 2020. – 712 səh.

ISBN: 978-9952-28-488-1

© Kamal Abdulla, 2020
© Mütərcim, 2020

# Tərtibçilərdən

# Roman

# Sirlərin sərgüzəşti

# Müqəddimə

Yeni cəsədlər və köhnə skeletlər döyüş meydanlarından, zəlzələdən sonrakı viranlıqlardan, meşələrdən, dağlardan, dərələrdən, düzlərdən yığılıb qəbristanlıqlarda basdırılırdı.

Qəbristanlıqlara yaxın yerlərdə yaşayış yerləri salınırdı. Bu yaşayış yerləri bir az tez, bir az gec kəndlərə çevrilirdi.

Kəndlərdən bəziləri böyüyüb şəhər olurdu. Şəhərlər daha sonra ölkələr, dövlətlər yaradırdı. Şəhərlərdən bəziləri ölkələrin paytaxtı olurdu.

Dünya dönmədən düzənə doğru irəliləyirdi. Amma bu düzəni yaradanlar, onu addım-addım, əzab və məhrumiyyətlər hesabına həyata keçirənlər bilmirdilər ki, onlar düzənə doğru irəlilədikcə, eyni zamanda, həm də düzənsizliyə doğru irəliləyirlər.

Bütün bunlar onun (Həsən müəllimin) beynindən kinolenti kimi sürətlə, hətta az qala ildırım sürətilə keçirdi. O, dünyanın yaranışından üzü bu yana bütün inkişaf mərhələlərini bu cür gözləri önündə (özü də gözlərini bərk-bərk yumaraq) canlandıra bilirdi.

– Orta əsrlərdə adamın etibarlı olmasına dəlalət edən kəlam "Sər verərəm, sirr verməräm".

Bəlkə tarix elminə mümkün qədər vaqif olmuşdu – ona görə belə idi. Bəlkə də bütün keçmişdəkilər ona yuxu kimi görünürdü. Bəlkə onlar həqiqətən yuxu idilər – heç zaman real həyatda olmayan yuxu?! Amma o zaman bu vaqeələr hardan gəlib onun gözlərinin içinə dolurdu?!

Dünən, sırağagün, bir neçə il əvvəl baş verənləri, ətrafında dolaşan adamları xatırlamaq və tanımaq onun üçün artıq müşküldən müşkül ol-

muşdu. Bu, son zamanlar belə idi. Əvvəllər o, bundan əzab çəkirdi, məşəqqətlə də olsa, hər gün gördüyü adamları tanımağa, nəyi isə, kimi isə xatırlamağa, gözünə görünən və əriyib yox olan kölgələri unutmamağa cəhd edirdi. Mümkün olmurdu. Sonra Həsən müəllim buna getdikcə alışdı, bunun bihudə zəhmət olduğunu anladı və rahatlandı. Kölgələr yavaş-yavaş çəkilib yox oldular, elə bil, harasa qaçıb gizləndilər. Gözünə aydın şəkildə görünənlər öz keçmişində, yaxud xeyli qədim zamanlarda baş vermiş hadisələrdən səhnəciklər, bu səhnəciklərin iştirakçısı olan adamlar qaldı.

Onun xəstəliyi qəribə və nadir bir xəstəlik idi. Adına unutqanlıq da deyilə bilərdi. Doğma övladlarını tanımağa gücü çatmayan bu qoca kişi (Həsən müəllim) bütün ruhu ilə artıq keçmişin ılıq bir guşəsinə sığınmış, orada özünə rahat bir sığınacaq düzəltmişdi. Zaman və məkanın kəsişdiyi belə bir guşədə könül xoşluğu ilə ömür sürən Həsən müəllim həyatından xeyli razı idi. Burada hər şey onun ürəyincə idi. Ömür boyu arzusunda olduğu təkliyə və qəlbində yaşatdığı tənhalığa o, nəhayət ki, bu ahıl yaşında və məhz bu kəsişmə nöqtəsində qovuşa bilmişdi. Bir məsələdən isə onun özünün də xəbəri yox idi. O bilmirdi (bilməyi mümkün də deyildi) ki, bu kəsişmə nöqtəsində onun ruhu Hacı Mir Həsən ağa Səyyahın hücrəsinə sığınıb qalmışdı. Burası onun üçün doğma məkan idi. Və əslində, Həsən müəllim həm burda, həm də orda (!) ola-ola özü özü ilə özünün də bilmədiyi bir oyun oynayırdı.

Adı uzun olduğundan real həyatdakı bu uzun adın ifadəsi o qədim məkanda bəzi ətrafdakılar üçün anlaşılmaz səsləndiyindən hamı onu Səyyah çağırırdı. Sadəcə, Səyyah. Müəllifi olduğu və bütün Şərqdə ona böyük ehtiram qazandırmış risalələrində isə o, adətən, tam adını işlədirdi: Hacı Mir Həsən ağa Səyyah.

Ruhu ilə o uzaq məkana sığınmış Həsən müəllimin cismi (vücudu) öz evində, bu günlərin içində qalmışdı. Bu onun rahatsız etmirdi. Həsən müəllim, sadəcə, baş verəcək o qəribə hadisə barədə tam təsəvvürə malik olmayacaqdı və bu, onun üçün açılmaz sirrə çevriləcəkdi.

Hacı Mir Həsən ağa Səyyah öz dövrünün son dərəcə elmli coğrafiyaşünası və kamil mətnşünası idi. Yaşadığı şəhərin və yaxın, uzaq vilayətlərin

hakimləri onu tez-tez saraylarına dəvət edər, bir çox ciddi dövlət işləri, yaxın, uzaq məmləkətkər barəsində onun məsləhətlərini dinlərdilər. Səyyah bütün məhəllədə (hətta şəhərdə) ehtiram yiyəsi idi. Uşaqlı-böyüklü hamı ona hörmət bəslərdi. Onunla sidq-ürəklə sirr və dərdlərini bölüşər, cürbəcür məqamlara yazdığı məktubların cavabını böyük bir inamla gözlər və zənlərində də yanılmazdılar. Şikayət və xahiş məktublarını Səyyah elə bir ədəb və məntiqlə yazırdı ki, onların cavabı əksər (böyük əksəriyyət) halda şikayətçinin və ya xa-hişçinin xeyrinə olardı. Qərəz, Hacı Mir Həsən ağa Səyyahın günü-güzəranı xoş keçirdi. Əməli-saleh birisi kimi o, ətrafındakıları sevir, ətrafındakılar onu sevirdi.

Doğrudur, günlərin bir günü (bu risaləni yazmağa başladığı zaman) yaşadığı şəhər əhli ona öz isti münasibətini təmamən dəyişdi. Sevgi və məhəbbət nifrət və təqiblərlə əvəz olundu. Çünki hər kəs Səyyahın yazdığı risalədə öz sirrinin faş olunacağından bədgüman idi. Bu xəbəri (sirlərin faş olmasını) onlara bir başqa adam yox, əhvalının bəd vaxtında Hacı Mir Həsən ağa Səyyahın özü vəd eləmişdi. Nəticəsini də artıqlaması ilə gördü.

Dünya-aləm isə öz sərgüzəştində idi. İnsanlar həm düzənə, həm də düzənsizliyə doğru eyni zamanda, eyni coşqunluqla, eyni əzmlə yol gedirdi. İnsanlar dünyanın hansı yerində, nöqtəsində olmasından, yaxşı, yaxud pis olmasından, qara, ağ, yoxsa sarı olmasından qeyri-asılı hər an eyni işi görürdülər – onlar yaşlanırdılar. Macəra dolu sirləri ilə, qandonduran hadisələri ilə, ruh silkələyən məqamları ilə qəlbi dolu olan Həsən müəllim, yəni, Hacı Mir Həsən ağa Səyyah da onların içində olmaq şərti ilə.

×××

### *"Payız" fəsli*

Bu mükalimə qocaman elm xadimi, adını tarix elminin salnaməsinə qızıl hərflərlə yazmış Həsən müəllimin evində baş verdi.

Həsən müəllim yaşlı birisi idi və son aylar ciddi xəstəlik keçirirdi. O, demək olar ki, hamını və hər şeyi unutmuşdu, yadında qalanlar qədim

dövrlərlə bağlı idi. Qızı Həlimə atası xəstələndiyi üçün onun evinə köçmüşdü. Həlimə dəridən-qabıqdan çıxır, bütün əzmilə sevimli atasının dərdinə dərman olmağa çalışırdı.

– Niyə yemirsiniz xörəyinizi? Yoxsa xoşunuza gəlmədi?! Özüm bişirmişəm... – Həsən müəllimin qızı Həlimə xüsusi bir nəzakətlə və nigarançılıq içində (və pis gizlədilmiş bir incikliklə) atasından soruşdu. Həlimənin "siz" müraciətinə keçməsini atasının onunla xeyli rəsmi davranışı məcbur eləmişdi.

– İstəmirəm. – Həsən müəllimin cavabı yad adama verilən cavab kimi qısa və bir az da kəskin oldu.

Çarpayıda uzanıb gözlərini tavana dikmiş Həsən müəllimin yanındakı mizin üstündə çörək qabı, yanında qatıq vardı. Bunların da yanında içində yarpaq dolması olan dərin bir boşqab qoyulmuşdu və dolmalar az qala yağın içində üzürdülər. Həsən müəllim xörəyi yağlı sevərdi.

O, adətən, axşam yeməyini mətbəxdə yeyirdi. Sevimli, hündür söykənəcəkli stuluna oturub nə isə fikrində götür-qoy edə-edə (əslində, heç nə barədə düşünmədən və çeynəmlərini saya-saya) səliqə və aramla yeməyini yeyər və arada pəncərədən bayıra baxardı. Evlərinin qabağında hərdən suyu vuran, çox zaman isə boş dayanan fontanın ətrafında uşaqları əskik olmayan balaca bağça var idi. Oraya baxmağı, hər bir adamı ayrıca seyr eləməyi sevərdi. Baxışları yoldan ötənlərdən kiməsə sancılar (bu, hərdən olardı) və Həsən müəllim bu adamı yoldan keçirib tini dönənə qədər gözlərilə ötürərdi. Yerişindən çalışardı, onun nə cür adam olduğunu özü üçün müəyyən etsin. Heç kim deyə bilməzdi ki, bu, mümkün olurdu, yoxsa olmurdu. Sonra yenə yeməyinə davam edərdi. Bu dəfə isə Həsən müəllim evdəki səs-küydən qaçaraq mətbəxə keçməmişdi. Həlimə yeməyi onun yataq otağına gətirmişdi.

Evin o biri üç otağından (gah birindən, gah da o birisindən) şən, şaqrah uşaq səsləri eşidilirdi. Hər tərəfdə əməlli-başlı gurultu var idi, özü də hərdən bu gurultu dözülməz olurdu və bu zaman Həsən müəllimin uzandığı yerdəcə qaşları çatılır, üzündə qorxuyabənzər gərgin bir ifadə peyda olurdu. Uşaq səsləri onun beyninə iti xəncər kimi saplanırdı. Hərdən bu səslərə tap-

pıltı səsi də gəlib qarışırdı. Bu isə artıq o demək idi ki, nəvələr hansısa bir oyun oynayırlar və evin ortasında var gücləri ilə atılıb düşürlər (bəlkə də mərc gəlmişdilər ki, kim daha hündürə tullanar – bu isə daha dözülməz idi).

Bu uşaqlar dörd nəfər idi. Onların heç birinin məktəb yaşı çatmamışdı (amma yox, Həsən müəllimin böyük oğlu Əliqismətin qızı Nurlu artıq ikinci sinfə gedirdi). Həsən müəllim üçün ən dözülməz olan bu idi: hərdən-birdən bu dəcəllər nəsə yadlarına salaraq qaça-qaça gəlib onun çarpayısına yaxınlaşır, əyilib (lap kiçikləri Nuruş boyca da hamıdan balaca idi, o əyilmirdi, çarpayıya dırmaşırdı) əvvəlcə gözlərilə dolma qabındakı dolmaları az qala bir-bir diqqətlə süzür, sonra qucaqlayıb Həsən müəllimin o üzündən bu üzündən marça-marçla öpür, tezcə də qaçıb gedirdilər. Beləliklə, nəvə kimi "vəzifələrini" yerinə yetirmiş olurdular.

Həsən müəllim əlinin dalı ilə bu öpüşlərin tüpürcəyindən yaşlanmış üzünü bərk-bərk siləndən sonra gözlərini tavandan çəkib uşaqların arxasınca baxdı. O heç cür anlaya bilmirdi (xatırlamırdı) ki, bunlar kimdilər və ondan nə istəyirlər. Amma bununla belə onlara acıqlana bilmirdi və səbrlə bu məşəqqətin (səs-küyün, məhəbbət izharının və xüsusilə də başı üstündə dayanıb gözündə anlaşılmaz sevgi ilə bu dəcəl uşaqlara baxan qadındakı onu israrla yedirmək istəyinin) nə zaman bitəcəyini gözləyirdi. Qəribə olan isə o idi ki, Həsən müəllimin səbri tükənmirdi, Həsən müəllimin qəlbinə gəlib iki hiss dolmuşdu. Həsən müəllim həm bu məşəqqətin bitməyini gözləyirdi, həm də bitməsini istəmirdi. Nə isə var idi ki, onu ətrafında baş verənlərə bağlayırdı, amma bu "nə isə" nə idi, Həsən müəllim heç cür anlaya bilmirdi. Niyə tanımadığı bu dəcəl uşaqların hər hərəkəti onun qəlbini belə titrədirdi? Niyə Həsən müəllim onlara acıqlana bilmirdi? Niyə, niyə, niyə – niyələrin sayı-hesabı yox idi.

– Bəlkə bu dolmadan bir-iki dənə olsa da dadına baxasınız... axı özüm bişirmişəm...

Tanımadığı bu qadının artıq onu əsəbiləşdirən səsi (əslində, həlim səsi) yavaş-yavaş uzaqlarda itirdi.

Həlimə ürəyində qardaşlarını (iki qardaşı vardı: kiçik qardaşı Zaur hərbi xidmətdə idi, bir gün evdə olurdu, beş gün harda olduğunu heç kim

bilmirdi; böyük qardaşı Əliqismət dövlət arxivində işləyirdi, atasına elə hey arxivdən icazəsiz tarixi sənədlər gətirərdi) yamanladı. Onları yamanlayıb qınamaq üçün elə bircə bu gün burada baş verən mərəkə kifayət idi, çünki bu günkü həngamə məhz onların istəyi ilə yaranmışdı. "Səs-küy nə qədər çox olsa, bir o qədər xeyri var, bəlkə yadına nə isə düşər," – deyə Əliqismət belə bir əcayib fikir irəli sürmüşdü. Zaur və hətta əmisi Zöhrab da onunla razılaşmışdı. Amma Həlimə bilirdi ki, heç nə alınmayacaq. Çünki atası ilə gecə-gündüz qalan onlar yox, Həlimə idi və o görürdü ki, atasının gözlərinin dibində daha əvvəlki doğma işıqdan əsər-əlamət yoxdur. Bu gözlərin parıltısı sönüb. İndi bu gözlərə (onların dibinə) lal bir qorxu çökmüşdü. Həlimə atasının gözlərinin içinə baxdıqda hiss edirdi ki, bu adamın ürəyi də eyni qorxu və həyəcanla doludur. Həsən müəllim ətrafındakıları bir-bir unutduqca həyatı da, elə bil, göz görə-görə əriyib gedirdi. Və o hiss edirdi ki, artıq təklənib. Tək qalmayıb, tənha qalmayıb – təklənib. Onu nəinki tanıdığı doğma və yad adamlar tərk ediblər, onu tanımadığı, bildiyi və bilmədiyi hər şey tərk edib. Belə deyək: həyat onu təkləyib. Hərdən onun beyninə ani olaraq işıq dolur və bu zaman Həsən müəllim anlayırdı ki, o xəstədir, bu cür sağlam olmaq mümkün deyil. Əksər vaxtlarda isə Həsən müəllim bu təklənmiş vəziyyətini öz normal vəziyyəti kimi qəbul edirdi. İndi də o, evində baş verən bu hay-küyün içində öz normal vəziyyətində – təklənmiş halında idi.

... Həsən müəllimi oturduğu yerdəcə hərdən mürgü aparırdı. İndi də elə oldu. O, nə qədər qəribə olsa da, səs-küy içində əvvələr də yata bilirdi. Arvadı Bəyim rəhmətə gedəndən sonra (Bəyim xanımın ölümü öz-özlüyündə çox qəribə və ağlagəlməz bir hekayət idi) çox zaman gecələr yuxusu ərşə çəkilirdi. Belə zamanlarda gecənin bir aləmi o durub televizoru yandırar, səs verər, bir az o kanala, bir az bu kanala baxar, və sonra bu səs-küyün altında əməlli-başlı yuxuya gedərdi...

Həlimə atasının büzüşmüş, doğma üzündə nə isə axtarıb tapmağa çalışdı. Nə axtardığını özü də bilmirdi. Yox, bilirdi, axtardığı atasının üz-gözündə hansısa bir marağın olması idi – nəyə olursa olsun, nə cürlüyündən asılı olmayan bir maraq. Maraq yaddaşın qayıtmasının başlanğıcı ola bilər-

di. O isə yox idi. Həlimə köksünü ötürdü. Yanıqlı-yanıqlı ürəyindən bunlar keçdi: "Eh, ata, ata... Özünü də işə salmısan, elə hamını da. Belə də qəribə xəstəlik olar? Gəlib səni gərək elə bu xəstəlik tapaydı?! Bu nə işdi, bunun axırı necə olacaq?! Nə deyim vallah?! Qüdrətinə şükür, ilahi..."

Həsən müəllim artıq yuxuya getmişdi. Xoruldamağa başladı.

Həlimə yataq otağının qapısını ehtiyatla örtüb mətbəxə keçdi. Balaca dəcəllər indi də gəlib bura yığışmışdılar. Yenə nə isə danışıb bərkdən gülüşürdülər. Həlimə, güya ki, bunlara (əslində, yalandan) acıqlandı:

– Sakit olun. Babanız yatdı. Səsiniz gəlməsin. Keçin, durun, tez keçin kabinetə. Eşitməyim sizi.

Uşaqlar duruxmuş halda bir-birinin dalınca nizamlı əskərlər kimi kabinetə keçdilər. Həlimənin yeganə ovladı yeddi yaşlı Bəyim (anasının adı idi, onun faciəli ölümündən iki gün sonra doğulmuşdu) o biri otağa keçə-keçə yorğunluqdan heyi qalmamış anasına sanki ürək-dirək verdi:

– Ana, baba məni tanıdı. Mən gördüm, inanmırsan, o mənə göz vurdu.

Həlimə bilmədi ki, nə desin, bir əli ilə gözünə dolan yaşı sildi, o biri əli ilə qızının başını sığalladı.

× × ×

### *"Payız" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah yazırdı:

"Bir var sirri – əzəm, sirri – Xuda, sirri – ali.

Bir də var qonşu Həzrətqulunun sirri.

Mənim istədiyim elə bir risalə yazıb ərsəyə gətirməyim idi ki, onun içində hər şəxs öz sirrinə, ən vacibi isə bu sirrin səbəb və nəticəsinə vaqif olsun.

Bizim bu risalə "sirri – Xuda" deyilən sirr barəsində deyildir. Bizim bu risalə, qonşularımızın, tacirlərimizin, kargərlərimizin, kəndçilərimizin, dərvişlərin, şeyxlərin, vəzir-vükalənin, padşahların, əlqərəz, sevənlərin və sevilənlərin sirridir.

Və bu sirrlər donmuş, yatmış halətdə gözümüzə görükmürlər, onlar daim hərəkətdə, daim fəaliyyətdədirlər. Biz bilməliyik ki, onların öz macərası, sərgüzəşti vardır. İlahidən mənə elə bir güc verməsini təvəqqe edirəm ki, mən bu macəranı, sirrlərin sərgüzəştini heç nə artırıb əksiltmədən, olduğu kimi qələmin ucuna gətirə bilim. İnşallah belə də olar. Daim uca olan Allahın adı ilə..."

Məşhur səyahətçi, alim və mətnşünas Hacı Mir Həsən ağa Səyyah öz uzun adına isti paltar kimi bürünüb oturmuşdu öz evində balaca bir otaqda yazı mizinin kənarında və otağın bir küncündə dəmir sobanın içində odunlar çatır-çatır yanırdı.

Hacı Mir Həsən ağa Səyyah, yenicə yazmağa başladığı risalənin əvvəlini bu cür yazdı və qələmi qarşısındakı mizin üstündə qələmdana qoydu. Bir xeyli bu yazdığını kənardan seyr eləməklə məşğul oldu. Bir az sağa başını əyib baxdı, bir az sola əyib baxdı. Ona elə gəldi ki, başını sola əyib baxarkən hərflər göz önündəcə hərəkətə gəlib, elə bil ki, fırlanmağa, rəqs eləməyə başladılar. Onlardan hansısa yerini dəyişdi, hansısa yox oldu və öz yerini yenisinə verdi. Bəzi sözlər itdi, əvəzinə yeni sözlər üzə çıxdı. Bir də baxıb gördü ki, yeni mətnin başlanğıcı bir başqa şəkildə yazılmışdır, əvvəlki ilə həm eyni cür idi, həm də eyni cür deyildi. Amma Hacı Mir Həsən ağa Səyyahın bu başlanğıcların müəllifi ilə bağlı heç bir iddiası ola bilməzdi. Bu yeni mətndəki xətt də heç bir başqa şəxsin xətti deyildi, onun özünün – Hacı Mir Həsən ağa Səyyahın nəstəliqlə yazdığı xətt idi. Bu dəfə (yəni, başını sola əyib baxdığında) risalənin başlanğıcı belə idi:

"Uca olan Allah mənim könlümə ilham verdi və mən bu risaləni yazmağa həvəsləndim. İndiyənə qədər sirlərin sərgüzəşti deyərkən bir şəxsə məxsus sirrin nə cür başlandığını, nə cür var olduğunu düşünüblər. Çünki sirr də adam kimi doğulur, adam kimi yaşayır və adam kimi yox olur. Amma belə olarkən adamdakı kimi sirrin ruhu da cism ilə əlaqəsini adamın ölümündən sonra bilmərrə kəsməlidir. Hal bu ki, sirrin ruhu ölümdən sonra da öz yaşamağına davam edir. Bəs əgər belə isə sirrin ruhunun sərgüzəşti sirrin ölümündən sonra nə cür olur baş verir?! Bunun özü bir sirr deyilmi?!

Yazmağa başladığım bu risalədə ayrıca olaraq bir şəxsin - qonşularımızın, tacirlərimizin, kargərlərimizin, kəndçilərimizin, dərvişlərin, şeyxlərin, alimlərin, vəzir və vəkillərin, padşahların və əmirlərin, sevənlərin və sevilənlərin sirrindən söz açmaq niyyətimiz yoxdur. Daha vacib olan məsələ budur ki (elə bizə calib görünən də budur), onların sirrinin bir-birinə qarşı (bir-biri ilə) münasibəti vardır və bu münasibət ayrı-ayrı adamlara məxsus olan sirlərin ağlagəlməz sərgüzəşti ilə var olur. Sirlərdən yeni sirlər doğulur.

Xudavəndi-aləmdən bir təvəqqem budur ki, bu macəralı sərgüzəşti qələmə almaq üçün mənə qüvvət bəxş eləsin. Daim uca olan Allahın adı ilə ..."

Hacı Mir Həsən ağa Səyyah bir xeyli bu iki müxtəlif başlanğıca baxdıqca baxdı. Gah başını sağa əydi baxdı, gah başını sola əydi baxdı. Hər iki başlanğıc onun xoşuna gəldi. Hər ikisini risaləsinin əvvəli kimi qəbul etdi. "Xudavəndi-aləm mənə elə bir qüvvət və bacarıq versin ki, bu ağır işin öhtəsindən gələ bilim və inşallah, özüm öz qarşımda və ətrafdakılar qarşısında rəncidə qalmayım. İnşallah, Allah bilən məsləhətdir," – deyə düşünüb yazı mizindən bir az aralı, yerdən salınmış alabəzək, qalın döşəyin üstünə uzanıb elə o cür də alabəzək və qalın yorğanını başına çəkdi və gözlərini yumdu. Paltarını soyunmadı, çünki yatmaq fikri yox idi. Hava təzə-təzə qaralmağa başlayırdı. Fəsli payız zamanı gecələr uzun olur. Uzun gecələrə isə o alışqan idi. Karvan gedən yollara çökən gecələr ilə o, yoldaşlıq eləyə bilirdi, necə ki, illər uzunu bunu eləmişdi. Və Hacı Mir Həsən ağa Səyyah gözlərini yumub rahat-rahat düşüncələr aləminə qərq olmağa başladı.

Hacı Mir Həsən ağa Səyyah əsla "yazmağa başladığı başlanğıc necə oldu ki, ikiləşdi?" sualını özünə vermədi; bu onu qətiyyən maraqlandırmırdı. Çünki müəmmaların çözülməsinə o heç vaxt inanmamışdı. Bunu da bir müəmma kimi qəbul elədi və tezcə də unutmağa çalışdı. Unutdu.

Düşüncələr arasında var-gəl etməyə Hacı Mir Həsən ağa Səyyah gəncliyindən adətkərdə idi. Amma orası vardı ki, bu şəxs artıq öz gəncliyini xatırlamırdı, öz gəncliyini o unutmuşdu. Keçmişi onun üçün yox idi. Arvadı və uşaqları, qonşuları, yaxınları, doğmaları onun üçün yox idi – onlar hamısı onun keçmişində qalmışdılar. O belə düşünürdü: "İnsanlar, camaat bu qədər unutqandılarsa, dünənki yaxşılığa qəzəb, hikkə və nifrətlə cavab

verirlərsə, qəzəbsiz, hikkəsiz bir halətdə mən niyə unutqan olmayım?!" Gələcək zamana aid məkandan isə onun gözü qarşısında bələd olmadığı cür-bəcür qəribə vaqeələr canlanırdı. Qəribəliklər bəzən qorxulu idi, tanımadığı bir dünyaya düşən kimi olurdu. Buna görə də Hacı Mir Həsən ağa Səyyahın gələcəyə baxmağa xüsusi bir həvəsi yox idi. Daha doğrusu, o bundan qorxurdu. Hacı Mir Həsən ağa Səyyah çox-çox uzaqlardakı keçmişi diriltmək istəyirdi. Və bu risalə onu haman keçmişə aparmağın yeganə yolu idi. Gözlərini yumdu və gördüklərini (yuxuda, yoxsa gerçəklikdə?) yadında saxlamağa çalışdı. Amma ən əvvəl ağlına gələn bu oldu ki, yazmağa başladığı risalə dörd hissədən (fəsildən) ibarət olmalıdır. Və biriminci fəsil "Payız" adlanmalıdır. Çünki həm küçədə payız fəslidi, həm də bir az əvvəl yazdığı (yazılan) başlanğıclar öz dəruni qatlarında bir payız ruhu saxlayır. Onlardan payızın qoxusu gəlir: saralmış otların, havada uçuşan solğun yarpaqların, uzun-uzadı yağan yağışların, töylələrdə bir-birinə qısılmağa başlayan düyələrin, mal-qaranın, heç nədən hürməyə başlayan itlərin, səbəbsiz kişnəyən atların, daha nələrin, daha nələrin... Bütün bunlar isə, öz növbəsində yenə də böyük bir sirrə bağlanır.

Və o, bunları düşünüb böyük bir sərvət tapmış adamlar kimi yerindən sevincək və qəfildən dik atıldı (ağlına gələnləri unutmaqdan qorxmuşdu), tez dizlərini büküb yazı mizinin arxasında oturdu, bir az əvvəl vərəqdə yazdığı başlanğıclardan sonra böyük hərflərlə xətt sala-sala bunu yazdı:

"Sirlərin sərgüzəşti".

Və bu adın altından balaca hərflərlə belə bir əlavə etdi:

"Payız" fəsli (yəni, "Payız" hissəsi).

O biri fəsillərin (hissələrin) adı da, ömür vəfa eləsə, buna uyğun olacaqdı: "Qış" fəsli, "Bahar" fəsli və "Yay" fəsli.

×××

### *"Payız" fəsli (davamı)*

Həsən müəllimin kabineti böyük və işiqlı bir otaqdan ibarət idi. Dörd tərəfdə kitab, jurnal, dəftərlə dolu şüşəli və şüşəsiz kitab şkafları, divarlara vurulmuş kitab dolabları var idi. Bir divardan (bu divara Həsən müəllimin yazı masası dirənmişdi) orta əsrlərə aid Avropa və Asiya ölkələrinin xəritəsi asılmışdı. O biri divardakı kitab dolablarının arasında isə bir tutuquşu müqəvvası vardı və bu müqəvva sanki bilərəkdən buraya yerləşdirilmişdi. Hər adam onu ilk baxışda görə bilməzdi. Müqəvva o qədər öz orijinalına bənzəyirdi ki, bəziləri (kabinetə yeni girənlər) əvvəl-əvvəl onun həqiqətən canlı olduğunu güman edirdilər. Hətta belə bir şaiyə gəzirdi ki (yenə də kabinetə təzə girənlər arasında) Həsən müəllim öz qəribə və müəmmalı xəstəliyindən əvvəl (bəlkə də xəstəlikdən sonra) bu alabəzək müqəvva ilə canlı quşla danışan kimi danışırmış. Guya Həsən müəllim soruşurmuş, Tutuquşu da ona cavab verirmiş.

Onun tələbə ikən yataqxanada, sonra isə kirayə evdə yaşadığı zaman ən böyük arzularından biri bu idi ki, geniş və işıqlı bir kabineti olsun. Bu kabinetin hər yanı kitabla dolu olsun, özü də bunlar pərakəndə şəkildə otağın hər yerində atılıb qalsınlar. Divardan dünya xəritəsi asılsın. O zaman Tutuquşu müqəvvası proyektdə yox idi. Sonra Akademiyada çalışarkən oradakı kitabxananın əsaslı təmiri zamanı bu müqəvva ona qismət oldu (müdirin dostu olduğu üçün) və Tutuquşu Həsən müəllimin yeni aldığı bu böyük mənzilin kabinetində öz layiqli yerini tutdu (kitabxana müdirinin ev hədiyyəsi kimi).

– Nədi belə, sakit-sakit oturmusuz, cınqırınız da çıxmır... – Həlimə kabinetə keçib hərəsi bir küncə qısılmış və bütün diqqətlərini əllərindəki telefonlara vermiş balaca dəcəllərə üzünü tutdu. Yarı zarafatla soruşdu:

– Hələ deyin görüm, siz hansı şübhəli işlə məşğulsuz?

Balaca dəcəllər ona ötəri nəzər salıb yenə telefonların düymələrini oynatmağa davam etdilər. Həlimə bunları belə görüb az qaldı cin atına minə. Hirsindən qıpqırmızı qızardı. Bayaqdan cirə-cirə içinə yığılan əsəbini, hikkəsini bu balaca dəcəllərin üstünə tökdü:

– Heç utanırsız? Belə bacı-qardaşlıq olar?! Bir-birinizi bəyəm gündə görürsüz? Bir-birinizlə niyə söhbət eləmirsiz? Küsüşmüsüz?

Uşaqlar gülüşdü:

– Biz elə bir-birimizlə söhbət edirik də, bibi. Ancaq telefonda. – Yavaş səslə bibisinə cavab verən Nurlunun gözləri işıqlandı.

– Bizə hirslənmə, mama, – Bəyim gəlib anasına qısıldı. – Bax, mən Nuruşa yazdım ki, babam Həsənçiyə yox, mənə göz vurdu. O isə yazır ki, yox, ona göz vurdu. Bax, Həsənçik yazıb ki, mənə inanır, Nuruşa yox... Bax... – Bəyim hamını bir-birinə qarışdırandan sonra "eh" eləyib əlindəki telefonu anasına uzatdı.

Həlimə mat-məətəl qalmışdı:

– Siz bir-birinizin yanında bir-birinizlə telefonla danışırdız? – Sonra Həlimə gülməyini zorla saxlayıb cavab gözləmədən Həsənçiyin əlindəki telefonu gözucu süzdü və ancaq bunları deyə bildi:

– A bala, Həsənçik, sənin ki, hələ beş yaşın var, sən hardan öyrəndin telefonda yazmağı?

Balaca Həsənçik şəstlə gəlib onun qabağında dayandı:

– Həlimə bibi, mən yazmağı bilirəm. Mən pozmağı bilmirəm. İnanmırsan? – Bunları birnəfəsə deyib əlindəki telefonun hansısa düyməciklərinə barmağını basdı və sonra telefonu bibisinə uzatdı.

Uşaqlar gülüşdü. Həlimə bilmədi, bunlara qoşulub o da gülsün, ya neynəsin. Hirsi duman kimi çəkilib getdi. Başını "ay sizi..." deyə yelləyib atasının yataq otağına qayıtdı. Qapını ehtiyatla açıb içəri boylandı. Bayaqkı əhvalatı atasına danışmaq, kefini qaldırmaq istədi. Bunu edə bilmədi. Həsən müəllim öz yatağında uzanıb avazla xoruldayırdı.

Gecənin bir aləmi Həsən müəllim yuxusunu qəfildən kəsib yatağından qalxdı və kabinetinə keçdi. Nə qüvvə idisə onu aparıb yazı masasının arxasına oturtdu. Qarşısındakı ağ kağız qalağı sirli şəkildə, elə bil, canlı kimi nəfəs alırdı. Həsən müəllim az qaldı xoflansın. O, bu kağız qalağının üstündən bir vərəq kağız götürdü, diqqətlə nəzərdən keçirməyə başladı. Onun gözləri qarşısında ağ kağızda ərəb hərflərilə yazılmış yazılar üzə çıxıb görünməyə başladı. Onlar kağızın dərinliyindən dənizin dibindən yo-

sunlar çıxan kimi çıxır, zühur edəndən sonra rahat şəkildə kağızda öz yerlərini tuturdular. Həsən müəllim bu yazıları aramla oxumağa başladı. Yazılı varaqlar bir-birini əvəz edirdi. Onları, elə bil, kim isə uzaq keçmişdən əmanət kimi bu günə yazıb göndərirdi. Bu yolu necə gəlib bura çıxırdılar – Allah bilirdi. Sirri-xudamı? Sirri-xuda!

Həqiqətən də, bu yazılarda Hacı Mir Həsən ağa Səyyahın "Sirlərin sərgüzəşti" risaləsinin birinci sirri təsvir edilmişdi. Əhməd adlı bir odunçunun sirri.

× × ×

### *"Payız" fəsli (davamı)*

Uzaq məmləkətlərin birində Əhməd adlı bir kişi yaşayırdı və o öz ailəsini dolandırmaq üçün hər gün yaşadığı kəndin yaxınlığındakı Ala dağın ətəyinə qədər uzanıb gələn meşəyə gedər, orada odun qırar, şəhərə aparıb bazarda satardı. Sonra da ayın-oyundan alıb evinə qayıdardı. Günü-güzəranı bu minvalla ötüb keçərdi. Arvadı kənd əhlinin xəstəsinə baxar, dava-dərmanını verərdi (hətta qonşu kəndlərdən əlac üçün onun yanına gələnlər də var idi), iyirmi yaşına çatmış oğlu Məhəmməd onun-bunun qoyun-quzusunu otarmaqla məşğul olardı.

Günlərin bir günü Əhməd kişi yenə sübh tezdən evdən çıxıb meşəyə getdi. Amma bu dəfə getməyilə evə qayıtmağı bir oldu. Arvadı evdə tək idi. Ərinin pərişan halından rahatsız oldu, əlindəki işini buraxıb gəldi ərinin yanında oturdu və nəvazişlə sual sual dalınca yağdıraraq ondan soruşdu:

– Noldu, evə tez qayıtdın, həyatım?! Niyə qəmlisən?! Nə üçün kədərlisən? Gözlərin niyə nəmdi? Başına bir işmi gəldi? Nə dərdin var, aç ürəyini, mənə söylə, mənə söyləməsən, kimə söyləyəcəksən?

Əhməd kişi arvadına tanımadığı bir məxluqa baxan kimi baxıb ürəyində bir "eh" elədi və əvvəl-əvvəl istədi ki, əhvalının əsl səbəbini ondan gizlətsin:

– Bir şeyim yoxdu. Yorğunam. Bir az dincəlim, sonra təzədən oduna gedəcəyəm.

Əhmədin bundan xəbəri yox, arvadı cadugər idi. Onu aldatmaq mümkün deyildi. Zənni həmişə ona doğru olanı deyirdi. Bu dəfə də arvad baxıb gördü ki, kişisi ondan nə isə gizlədir, o dəqiqə duyuq düşdü ki, ərinin başına meşədə nə isə bir iş gəlib, ona kimsə cadu edibdi. Bu səbəbdən Əhmədin halı belə pərişandı. Arvad bu sirri öyrənmək istədi. Amma orası vardı ki, arvad Əhmədin özündən bəzi şeyləri eşidib biləndən ancaq sonra cadunu kimin elədiyini öyrənə bilərdi. Ona görə də səsinin qılıq yerinə salıb dübarə Əhməddən soruşdu:

– Əhməd, gözümün işığı, başımın tacı, nə baş verib? Meşədə bu gün kimi görmüsən, kiminlə danışmısan?

Əhməd tərsliyinə salıb yenə də düz-əməlli bir cavab vermədi:

–Heç kimi görməmişəm, bir kimsənə ilə də danışmamışam.

–Mənə yalan deyirsən?..

–Mən yalan demirəm. Yox, mən yalan deyirəm...

Arvad artıq cadusunu işə salmışdı. Cadunun gücü belə idi ki, Əhməd nə bilirdisə, olduğu kimi ona danışacaqdı. Ancaq həqiqəti öyrənəndən sonra (özü də Əhmədin dilindən) Əhmədə kömək eləmək, onu meşədəki cadudan təmizləmək mümkün olardı.

Arvadının təsiri ilə Əhməd tutuquşu kimi (bu yerdə Həsən müəllim başını yazıdan qaldırıb Tutuquşunun müqəvvasına baxdı) dil-dil ötməyə başladı, özündən qeyri-asılı hər nə vardısa olduğu kimi arvadına danışdı:

– Meşəyə çatdığım idi ki, bir qollu-budaqlı cökə ağacını gözaltı eləyib baltanı torbadan çıxardım və ağzını başladım itiləməyə. Elə itiləyib qurtarmışdım ki, "ya Allah" deyib ağacın kökünə baltanı saplamaq üçün başımın üstünə qaldırmağımı gördüm. Bu zaman həmən cökə ağacı dərindən, bütün qol-budağı ilə silkələnib canlandı və insan kimi dil açıb mənə yalvarmağa başladı:

– Əhməd, Əhməd, – dedi. – Gəl sən bu daşı ətəyindən yerə tök, gəl sən mənə qıyma. Mən ağac deyiləm, bir gənc, gözəl qızam, mənə cadu edib bu hala salıblar. Gəl, sən mənə rəhm elə. Əvəzində mən də sənə tükənməz sevgi, bir dünyalıq məhəbbət verərəm. Xoşbəxt olarsan, xoşbəxt.

Canımda qanım dondu. Ayağımın altından yer qaçdı. Az qala səndələyib düz ağacın altına yıxılacaqdım. Balta əlimdən yerə düşdü. Ağac yenə insan kimi danışmağa başladı:

– Görürəm, mənə inanmırsan... İstirsən əgər, bir anlıq sənin gözünə əsl qiyafətimdə görünüm ki, mənə inanasan. İstirsən? Sən Allahın, "yox" demə.

Handan hana özümdə güc tapıb "istirəm" dedim.

Cökə ağacı bir daha dərindən silkələnib yarpaqları, budaqları bir-birinə qarışdı və o, gözümün önündəcə qəfildən insan cildini alıb gözəl bir qıza çevrildi. Mən heyrətdən durduğum yerdəcə donub qalmışdım. Qızın gözəlliyi məni həqqən valeh eləmişdi. Bir xeylaq beləcə sükut içində qız mənə, mən qıza baxdım. Əlbəttə ki, daha nəinki onu, heç bir başqa ağacı da kəsə bilmədim və kor-peşman evə qayıtdım. Qız yenidən çevrilib cökə ağacına döndü və mən o yerdən uzaqlaşdıqca yarpaqlarının xışıltısı ilə arxamca mənə dualar oxudu. Səsi özündən gözəl idi, özü səsindən. Başıma gələnlər bunlardır.

Arvadı Əhmədi dinlədikdən sonra daha şəkk-şübhəsi qalmadı ki, meşədə ona cadu ediblər. Əri bir könüldən min könülə qız bildiyi həmən cökə ağacına aşiq olub. Cadu edən də həmən ağacın elə özüdü ki, var. Ərini bu cadudan qurtarmağın yeganə yolu gedib o ağacı kəsməyi idi, özü də Əhməd gərək ağacı öz istəyilə kəsəydi. Amma arvad bunu ona necə deyəcəyini bilmirdi. Ərinin bu işi görməsi üçün gərək ona öz sirrini açıb cadugər olduğunu əyan edəydi. Bunu isə arvad istəmirdi. Qorxurdu ki, bu ikisi birləşib onu evdən qovarlar. Arvadın cadusu oğluna təsir etmək gücündə deyildi. Bunun üçün də o, oğlu Məhəmməddən ehtiyat edirdi. Çünki onu çox istirdi. Hətta nə zamansa cadugərliyini ona buraxmağı düşünürdü. "Adamlara xeyri dəyər, dərdi olanı, xəstəliyi olanı sağaldar" düşünürdü. Arvadı Əhmədə dedi:

– Dur, yerini salım, yat, daha bu gün heç hara getmə. Mən axşama yemək hazırlığı görərəm.

Əhməd könlü istəməyə-istəməyə durub içəri otağa keçdi, alabəzək yorğan-döşəyinə girib gözlərini yumdu. Elə o dəqiqə meşədə cökə ağacına çevrilmiş gözəl qız gözləri önündə yenidən canlandı. Əhməd bu qıza bax-

dıqca onun hüsni-camalından doymurdu, qızın şabalıd rəngli saçı, qıpqırmızı yanaqları, qapqara gözləri, elə bil, ona "hardasan, gəl, gəl yanıma, gir qoynuma, mən ki səni sevdim, məni buraxma, məni burda tək-tənha qoyma, gəl, gəl..." deyirdi. Əhməd ha istəyirdi yataqdan qalxa, durub gedə meşədə o ağacı tapa, onun sıx budaqları arasında itə, elə itə ki, heç kim gəlib daha onu tapa bilməyə, amma bacarmırdı, çünki, yerindən qalxmaq istədikcə Əhmədin anlamadığı bir qüvvə onu təzədən döşəyə pərçim edirdi. Bu qüvvə Əhmədin arvadının cadusu idi.

Hacı Mir Həsən ağa Səyyah bura qədər dayanmadan yazdıqdan sonra nəfəsini dərdi. Əhmədin hekayəsi bir qəmli və sirli hekayə idi. Bu hekayənin sirri onda idi ki, sənin sirr kimi bildiyin bir şey, əslində, sirrilikdən çıxmışdı. Çünki artıq bu sirri onun arvadı bilirdi. Əvvəlcə Əhməd başına gələnləri arvadına danışmağı ağlına belə gətirmirdi. Onu danışdıran arvadının cadusu olmuşdu. Və Əhməd elə güman edirdi ki, onun sirrini, yəni, meşədə bir qollu-budaqlı cökə ağacına vurulmağını ondan başqa bir kimsənə bilmir.

Amma bir sirr ki, onu üçümüncü adam bildi, deməli, faş olma ehtimalı hər an artır. Deməli, sirr heç əvvəldən sirr kimi yaranmayıb. O sirr deyil, o, bir müəmmadır. Sirlə müəmma arasında fərqi isə Əhməd ha fikirləşdi, öz isti və qalın yorğan-döşəyində o tərəf, bu tərəfə çevrilə-çevrilə ha götür-qoy elədi, tapa bilmədi. Fərq isə var idi və fərqin var olduğunu Əhməd bütün qəlbi ilə hiss edirdi.

Beləliklə, günlər keçir, Əhməd hər gün, hər saat, hər dəqiqə meşədəki qızın (cökə ağacının) həsrətilə yanıb-qovrulur, yataqdan qalxmır (qalxa bilmir) və gündən günə rəngi-rufu saralıb solur, bayırda tüğyan edən payız küləkləri kimi get-gedə daha bədbin və kədərli olurdu. Hər səhər Əhmədin bu halını qəmli-qəmli seyr edən oğlu Məhəmmədin bir gün ürəyi daha dözmədi və o, atasına belə dedi:

– Ey mənim mehriban və əziz atam, gözümün işığı. Bir müddətdir ki, sən gözümüzün önündə damla-damla əriyib gedirsən. Dərdin nədir? Dərdin varsa, əlacın nədir? Bəlkə sənin dərmanın uzaq-uzaq ölkələrdədi, söylə

mənə, ayağıma dəmirdən çarıq geyərəm, əlimə dəmirdən çomaq alaram, mən sənin dərmanını gedib yerin deşiyindən də olsa tapıb gətirrəm.

Əhməd uzandığı yerdəcə tərpənməz bir halda gözlərini tavana dikib qalmışdı. Bu sözləri eşidib onun gözləri yaşlandı.

Məhəmmədin cadugər anasının ürəyi dözmədi, üzünü oğluna tutub o da belə dedi:

– Ey əziz oğlumuz Məhəmməd. Atanın dərdi varsa, dərmanı da var. Bu dərman uzaqda deyil. Dərman Ala Dağın ətiyindəki meşədədi. Atanı meşədə bitən bir cökə ağacı bu hala salıbdı. Dərd də odu, dərman da odu.

– Bu necə ola bilər? – Məhəmməd təəccüblə soruşdu.

– O meşədə bitən cökə ağacı atana sehr edib, gözünə qız cildində görüküb və özünü ona sevdirib. Sənin atan o ağaca bir könüldən min könülə aşiq olub.

Məhəmməd təəccüb dolu baxışla atasına baxır, atası məlul-məlul Məhəmmədə baxır. Məhəmməd üzünü döndərib anasından soruşur:

– Bə sən bunu hardan və necə bilibsən?

Anası anlayır ki, daha sirri açıb söyləmək zamanı gəlibdi. Odur ki, ürəyində qan ağlaya-ağlaya oğluna belə deyir. Amma elə deyir ki, Əhməd onları eşitsə də başa düşməsin:

– Oğul, Məhəmməd. Mən özüm də bir cadugərəm və bu sənət mənə anamdan yadigar qalıbdı. Odur ki, atanın başına nə gəldiyini, necə gəldiyini gözəl bilirəm.

Eşitdiyi xəbərdən Məhəmmədin gözləri dörd olur. Nitqi quruyur. Anası sözünə davam edir:

– Bəli, oğul, heç təəccüb etmə. Mən, həqiqətən, bir cadugərəm. Atanı mən də vaxtilə caduya salıb özümü ona sevdirmişəm. Başqa əlacı qalmamışdı mənə aşiq olmaqdan qeyri. Amma mən bir göyərçin idim, bir bəni-adəm məni sevib halallığa qəbul edəndən yalnız sonra mən insana çevrilə bilərdim. O bəni adəm də bura qədər olanları unutmalı idi. Amma əgər günlərin bir günü halalımı itirsəm, o məndən üz döndərsə, mən yenə də qayıdıb göyərçin olacam. İndi ki sən mənim sirrimi bildin, qərar sənin qərarındı. Necə desən qoy elə də olsun.

Məhəmməd bir xeyli fikirləşdi. Nəhayət, qərarını verdi. O, anasına dedi:

– Mən atamı sən deyən kimi o meşəyə aparacağam. Qoy həmən ağacı tapıb baltalasın. Mənim yanımda ağac ehtiyat edib adam cildinə girməz. Əgər girərsə, mən varam, o var!

Elə haman gün vaxt itirmədən ata və oğul meşəyə yola düşdülər.

× × ×

## *"Qış" fəsli*

Həsən müəllim gözlərini açıb bir müddət evdəki qulaqdeşən sükutu dinləməkdə oldu. Nə onun kabinetindən, nə də yan otaqlardan səs-küy gəlirdi. Durub Nuh əyyamından qalma xətli pijamasını geyindi, ürəyinə nə damdısa əvvəlcə arvadı Bəyimin yataq otağına keçdi. Burada gördü ki, bir cavan qadın çarpayıda uzanıb, özü də şirin yuxuya gedib. Bu qadını o tanımadı. Amma axır vaxtlar hər gün gördüyü haman qadın olduğunun fərqinə vardı. Bu qadın nə üçünsə o yaşayan evdə ev işlərini görür, xörək bişirir, bütün gün onun qulluğunda dururdu. Kim idi, nəçi idi – bunu Həsən müəllim bilmirdi. Evdə şütürüm ora-bura qaçan bu balaca uşaqlar da, elə bil, onun uşaqları idi. Bəs bu qadın kim idi ki, hərdən özünü ona son dərəcə məhrəm adam kimi göstərməyə çalışırdı?

Bu qadın, Həsən müəllimin qızı Həlimə idi. Həsən müəllim başını təəccüblə bulayıb ("Bu qadının yataq otağında nə işi var?!") kabinetə keçdi. Otaq onun alışmadığı tör-töküntü (əsl dağıntı) içində idi. Hansısa savaş sonucunda məğlub olmuş Tutuquşunun müqəvvası elə yazı masasının üstündəcə böyrü üstdə yıxılıb qalmışdı, stulların yeri dəyişmişdi. Bəzisi üzü üstə yıxılmışdı. Yazı masasındakı dəftər, kağız bir-birinə qarışmışdı. Elə bil, bu otağın içindən böyük bir ordu keçib getmişdi. Dəcəl uşaqlar tərəfindən həyata keçirilən "istilanın" bu otaq üçün ağır nəticələri Həsən müəllimin qanını əməlli-başlı qaraltdı.

O, ilk əvvəl Tutuquşunun alabəzək müqəvvasını götürüb yenə də öz yerinə - divardakı kitab dolablarının arasına yerləşdirdi. Sonra otağı diq-

qətlə gözdən keçirdi, yerdən yaşıl cildli sevimli kitabını ("Əsrlərin müqaviməti" adlı bu kitab, əslində, bir nüsxədən ibarət əlyazma idi) əyilib qaldırdı, təkrar yazı masasının üstünə qoydu. Ən xoşagəlməz hal isə yazı masasının üstündəki yazılı kağızlarla bağlı idi – onlar bir-birinə qarışmışdı, bəzisi yerdə idi, bə-zilərindən isə dəcəl uşaqlar uçan quş düzəltmişdilər, elə bil, bu uçan quşlar (əslində, kağızlar) hansısa uzaq-uzaq yerlərdən uçub gəlib bu otağa düşmüşdülər. Hərəsi bir tərəfə atılıb qalmışdı. Həsən müəllim dərindən bir "ah" çəkdi, ürəyində otağı bu günə qoyanların dalınca xeyli deyindi. "İndi mən buraları necə səliqəyə salacağam? Aləm qarışıb bir-birinə. O biri otaqda yatıb qalmış o qadından xahiş eləsəm, görəsən pis çıxmaz?! Belə də iş olar, mən düşdüm?!"

Həsən müəllim bu fikirləri beynindən keçirə-keçirə getdi durdu Tutuquşunun müqəvvasının önündə və diqqətlə ona tamaşa eləməyə başladı. Elə bil, o, Tutuquşunun lal baxan gözlərinin dibində nə isə axtarır, axtarır, (bəlkə suallarına cavab axtarırdı – bu savaşı törədənlərin kim olduğunu öyrənmək istəyirdi), tapa bilmirdi. Elə bil, gözlərilə Tutuquşunu yemək istəyirdi. Baxıb-baxıb birdən Həsən müəllim Tutuquşuna belə bir sual verdi:

– Bu işin axırı necə oldu? Odunçu tilsimdən çıxa bildi?

Müqəvva da öz növbəsində diqqətlə Həsən müəllimə baxırdı. Müqəvva, elə bil, incik düşmüşdü, susurdu. Həsən müəllim sualını təkrar elədi:

– Bu işin axırı oldu? Odunçu tilsimdən çıxa bildi??

Müqəvva yenə susdu. Həsən müəllim artıq cavab gözləmədiyi üçün keçib öz yerinə getmək istədi. Qəflətən müqəvva, elə bil, canlandı, tərpəndi, gözləri parıldadı və o, Həsən müəllimin sözlərini əsl Tutuquşu kimi yorulmadan təkrar eləməyə başladı. Amma Həsən müəllim dediyi cümlədəki in-tonasiyanı dəyişdi:

– Bu işin axırı oldu... Oduncu tilsimdən çıxa bildi... Bu işin axırı oldu...

Həsən müəllim rahatlıqla köksünü ötürdü və ağır addımlarla kabineti tərk edib (daha burda qalmağı lazım bilmədi) öz yataq otağına geri döndü.

Tutuquşu səsini kəsdi, amma gözlərindəki parıltı hələ uzun müddət sönmədi.

×××

### *"Payız" fəsli (davamı)*

Ata və oğul meşəyə yaxınlaşdıqda artıq qaranlıq yavaş-yavaş ətrafı bürüməyə başlamışdı.

– Ata, sən o ağacı görsən, tanıyassan, ya necə?? – Məhəmməd atasından soruşdu.

– Tanıyacam, oğul, tanıyacam. – Əhməd kişinin səsi, elə bil, quyunun dibindən gəldi.

Meşənin içinə doğru bir-iki addım atmışdılar ki, Əhməd haman qollu-budaqlı cökə ağacını gördü. Görən kimi də tanıdı. Ağac bütün budaqlarıyla, hətta payızda belə heç cür saralmaq bilməyən yaşıl yarpaqları ilə (meşənin içində də çölündəki kimi payız fəsli idi; digər ağacların yarpağı saralmışdı) qədd tutub durmuşdu. Cökə ağacı bunları görən kimi başa düşdü ki, Əhməd kişi və oğlu onu kəsməyə gəliblər. Sıx yarpaqları xışıltı saldı, şah budaqları tərpəşdi və bu qədd-qamətli ağac yenə də adam kimi danışmağa başladı. Onun nə dediyini ancaq Əhməd kişi anladı, oğlu Məhəmməd ağacın məşum xışıltısından başqa bir şey eşitmədi. Ağac deyirdi:

– Axır ki, gəldin, Əhməd. Bə niyə belə gec gəldin? Yolunu gözləməkdən daha səbrim qalmadı. Gəldin ki, məni kəsəsən, bilirəm. Nə üçün gəldinsə, ləngimə, çıxar baltanı. Bilirsən, mən bezdim ağac olub yaşamaqdan. İşini gör, qurtar. Mən bezdim səni gözləməkdən, səni uzaqdan-uzağa seyr eləməkdən. Mən bezdim səni sevməkdən (Əhmədin ürəyi şiddətlə vurdu: sən demə, ağac da onu sevirmiş...). Amma sən bezməyəcəksən. Məndən sonra ömrün boyu əzabla, məşəqqətlə məni ana-ana qalacaqsan. Mən sənin zülmün olacağam. İki yolun var, biləsən. Biriminci yol məni baltalayıb sevgimizi məhv eləməyin yoludu. İkiminci yol isə... Bu bir vüsal yoludur. Mənim qollarımın (budaqlarımın) arasına girsən, biz əbədiyyən səninlə bir yerdə olacağıq. Sevgi, hüzn, rahatlıq dolu bir aləmdə ömrümüzü başa vuracağıq. Mən sənə ağac ömrü bəxş edəcəyəm. Sən də mənim qədər bu meşə durduqca yaşayacaqsan. Seç. Seçim sənindir. Mən sənin üçün ölməyə hazıram, odunçu. Sən mənim üçün yaşamağa hazırmısan?

Xışıltı kəsildi. Əhməd kişi artıq qarşısında ağac deyil, yenə öz sevgilisi olan o gözəl qızı görməyə başlamışdı. Qəflətən Əhməd kişiyə bir həqiqət də əyan oldu. Ona əyan oldu ki, bütün ömrü boyu (əslində, əqli kəsəndən, evlənəndən bu yana) o, bir cadu içində olub. Əhməd kişi gözlərini bərk-bərk yumdu, damarında qanı dondu. O, həyatında ilk dəfə uzaq zamanda baş vermiş bir görüşü xatırladı. Əhmədin xatırladığı o görüş gözəl bir göyərçinlə idi. O zaman hardansa uçub gəlmiş o göyərçin də eynən bu ağac kimi sehirdən çıxıb bir qıza dönmüşdü və ona nələr vəd etməmişdi?! Amma onunla evləndikdən sonra Əhməd kişi hər şeyi unutmuşdu. Ailəsini dolandırmaq, gününü, güzəranını keçirmək üçün sabahdan axşamadək çalışmalı olmasından (və çalışmasından) başqa hər şeyi unutmuşdu. İndi isə bu cökə ağacı onu öz içinə səsləyir. Ona ölümsüzlük vəd edir. Əhməd kişinin beynindən bu sözlər (əslində, arzu) keçdi: "Bu ağacın içində məni gizlədəydilər, gəlib axtarsa da heç kim daha tapa bilməyəydi..."

Məhəmməd göz yumub açmağa macal belə tapmadı. Bir də gördü ki, ağacın içindən gələn işığın altında budaqlar aralanıb atasına yol verdi və atası gedib girdi ağacın işıldaşan budaqlarının arasına. Budaqlar yenidən birləşib Əhməd kişini qucaqladılar və Əhməd kişi budaqların arxasında gözdən itib yox oldu. Meşədəki digər ağacların da heyrətli və məşum xışıltısı ətrafı bürüdü. Məhəmməd cökə ağacının ətrafına dolana-dolana nə qədər "Ata, ata! Sən axı hara qeyb oldun? Xəbər versənə!" qışqırdısa da bir faydası olmadı. Əhməd kişi həqqən qeyb olmuşdu. Əslində, Əhməd kişi qeyb olsa da, həm vardı, həm də yoxdu. Onun üçün də ağaca balta vurmağa Məhəmməd ürək eləmədi. Düşündü ki, balta təkcə ağaca yox, atasına da zərər gətirər.

Atasını bu sayaq işıldayan cökə ağacının içində qeyb edəndən sonra kor-peşiman evə dönən Məhəmməd istədi ki, bu sirri açmasını cadugər anasından rica etsin. Ancaq nə qədər axtardısa anasını heç yerdə tapa bilmədi. Hardansa evlərində peyda olub sağa-sola səkə-səkə yeriyən bir göyərçindən başqa evdə daha heç bir canlı yox idi.

Bu sirli vaqeə buradaca bitir.

Risalə beləliklə, bu cür başladı və Səyyahın yazdığı kimi davamı bizi hələ çox-çox daha qədim dövrlərə aparıb çıxaracaqdı.

×××

### *“Payız” fəsli (davamı)*

Həsən müəllim yuxudan sübh tezdən ayıldı. Keçib əl-üzünü yudu, Nuh əyyamından qalma xətli pijamasını geyindi. Payızın soyuğu yavaş-yavaş evdə hiss edilməyə başlayırdı, onun üçün də bamazı köynəyini əyninə geyinib mətbəxə keçdi. Qəhvənin iyini artıq dəhlizdə duymuşdu. Həlimə tavada kartof qızardırdı. Bu, atasının sevimli sabah yeməyi idi.

Həliməni görüb Həsən müəllim yenə özünü namünasib bir əhvalda hiss elədi. “Heç yaxşı çıxmır. Bu qadın mənə lap doğma övlad sayağı qulluq edir. Axı bu kimdir? Evdə qulluqçu tutmamışam, xəstəxanadan da tibb bacısı göndərməyiblər. Bəs kimdir? Hər halda bu ki bu boyda zəhmət çəkir, xoş bir söz deyim gərək...” Bunları düşünüb Həliməyə mülayim üz göstərməyə çalışdı. Özünü məcbur eləyib ilıq bir təbəssümlə onu salamladı:

– Sabahınız xeyir. Sizə əziyyət olur. Zəhmət çəkirsiniz, çox sağ olun.

Həliməni atasının bu sözlərindən sonra qəhər tutsa da özünü o yerə qoymadı, qab-qaşığı şaqqaşaqla stola düzə-düzə rola girdi, titrək səslə cavab verdi:

– Sabahınız xeyir. Borcumdu. Heç narahat olmayın. Kartof qızardıram, başqa nəsə könlünüzdən keçir?

– Yox, yox, sağ olun. Elə bu mənim bəsimdi. Mən kartof qızartmasını çox sevirəm. Ələlxüsus səhərlər... – Həsən müəllim Həlimənin cavabından məmnun qaldı və keçib stolun arxasında öz həmişəki yerində oturdu. Pəncərədən bayıra tamaşa eləməyə başladı. Suyu gəlməyən fontanın yanında hələ heç kim görünmürdü.

Həlimə atasının sevimli, qara fincanına xoş ətri ətrafı bürüyən qəhvə süzdü və gətirib Həsən müəllimin qabağına qoydu. Süd kasası stolun üstündə idi:

– Südü istədiyin qədər tök. – Həlimə dedi. Sonra cəld özünə gələrək sözlərinə kiçik bir düzəliş verdi:

– Südü, zəhmət olmasa, istədiyiniz qədər özünüz əlavə edin.

Həsən müəllim bu xırda xətaya (ehtiyatsızlığa) əhəmiyyət vermədi, süd kasasındakı süddən qaşıqla götürüb fincanına tökdü. Və birdən-birə nədənsə ürəyi qüssə ilə doldu.

Səhər-səhər qəhvə qoxusu onun halına, özü də bilmədi, nə üçün belə bir pərişanlıq gətirdi. Masanın onunla üzbəüz tərəfində bir qadın obrazı (arvadı Bəyimin surəti idi) canlandı. O bu qadını tanımırdı, amma o vardı. Bəlkə də vaxtilə onu tanımışdı, onunla bağlı xatirələri olmuşdu – bilmirdi. Bu qadınla bağlı isti, gözəl anları xatırlamasa da, bircə buna inanırdı ki, onlar nə zamansa yaşanıb. Xatırlaya bilməmək, tanımamaq Həsən müəllimin qəlbini əzdi, o, əzab içində qaldı, amma yenə də başa düşə bilmədi ki, bu nə cür əzabdı çəkir və bu əzabı nəyə görə çəkir. Əzabın, məşəqqətin özü vardı, səbəbi yox idi.

– Qəhvənin gözəl qoxusu gəlir, – Həsən müəllim əlində qəhvəsi buğlanan fincan qəmli-qəmli gülümsəməyə çalışdı.

Atasının bu halı Həlimənin də ürəyini kədərlə doldurdu. Həlimə gördü ki, Həsən müəllimin gözləri yol çəkir, o kimisə xatırlayır, ya da xatırlamağa çalışır, amma bu alınmır. Həlimə bilirdi ki, bu adam onun anasıdır. Atasına bu an hava kimi, su kimi lazım olan adam başqa birisi yox, yalnız anası Bəyimdir. Başqa heç kim, o isə – yox... Həliməni yenidən qəhər boğdu (bu sabah o yamanca kövrək olmuşdu).

– Dadlı qəhvədir, o da belə bişirirdi... – atası bir daha fikirli-fikirli, elə bil, özü özü ilə danışırmış kimi dilləndi. Amma soruşan olsa idi, "O da, yəni, "kim?" – Həsən müəllim bu suala cavab verə bilməzdi.

Həlimə susdu.

– Bəli, elədir, – Həsən müəllim sanki yuxudan ayıldı. Bəyimin surəti gözünün qabağından yox oldu, getdi.

Sabah ağır-ağır açılırdı. Payızın gəlişi hər yerdə hiss edilirdi. Bayırda arasıkəsilməz yağışlar yağmağa başlamışdı. Evdə nəmişlik qoxusu var idi. Aşağıda fontanın yanından iki-bir, tək-tük adamlar başları üstə çətir o tərəfə-bu tərəfə tələsirdi.

Həsən müəllim sabah yeməyindən sonra kabinetinə girdikdə gördü ki, burada dünənki səliqəsizlikdən (tar-mardan) artıq əsər-əlamət qalmayıb. Hər şey sahman içində idi. Kağız quşlar yenidən kağız parçalarına çevrilib stolun üstündə yer almış, stullar səliqə ilə bir-birinin yanında nizami əskərlər kimi düzülmüşdü. Tutuquşunun müqəvvası kitab dolablarının arasında öz həmişəki yerində idi. Həlimə səhər tezdən öz işini görüb qurtarmışdı. Həsən müəllim Tutuquşuna göz vurub (əhvalı yaxşılaşdı) yazı masasının arxasına keçdi. Müqəvva ona olan diqqətə cavab kimi sanki yenidən dirildi, gözlərinə parıltı gəldi.

Həsən müəllim bir müddət sükut içində qarşısındakı ağ kağız qalağına baxdıqca baxdı. Onun gözləri ən üstdəki kağıza dikilmişdi. Qəflətən gördü ki, kağızın üstünə öz-özünə yenidən hansısa sözlər yazılır. Sözlər bu dəfə də heç nədən peyda olurdular, elə bil, kağızın dibindən üzünə çıxırdılar. Həsən müəllim anladı ki, onları ancaq oxumaqla kifayətlənmək olmaz. Bu, doğru deyil. Çünki onlar uçub gedər, yox olub itə bilərlər. Bundan əvvəlki yazını (Odunçunun hekayətini) başqa kağıza yazmadığı üçün Həsən müəllim onu unutmuşdu. Ona görə də Həsən müəllim indi kağız üzərində zühur edən sözləri oxuya-oxuya bu oxuduqlarını tələsik başqa bir kağıza köçürməyə başladı.

Kağızın lap yuxarısında yazılmışdı: “Payız” fəsli (davamı).

× × ×

### *“Payız” fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah öz risaləsinin ikinci hissəsini belə başlayırdı:

Bu dəfə biz yaxın tariximizin qəhrəman şəxsiyyətindən, ulu xanın sərkərdəsi olan bir qəhrəmandan söhbət açacağıq. Onun alplığı nağıl və rəvayətlərdə danışılır, camaatın hafizəsində yaşayır. Bu rəvayət ağasına öz həyatı bahasına olsa da xəyanət etməyən bir igid haqqındadır. Onu öz xain qəbilədaşları hiylə ilə ələ keçirib qətl edirlər. Qədim Oğuz elinin say-seçmə igidi olan bu şəxsin adı Bozatlı alp Beyrəkdir. Bu, o Beyrəkdir ki, həyatının

ən cavan çağlarını düşmən qalasında əsirlikdə, elindən-obasından ayrılıqda keçirmiş, nişanlısının, ata-anasının, doğmalarının, yar-yoldaşının həsrəti onun qəlbini bərkitmiş, zindan həyatının dözümsüzlüyünü əqli, zəkası, fərasəti hesabına özü üçün dözümlü və firavan bir həyata çevirə bilmişdir. Bayburd qalasında Beyrəyin həbsindən on altı il keçirdi.

Bu sirli hadisəni Hacı Mir Həsən ağa Səyyah Düzəngah yolunda qoyun otaran bir qoca çobanın dilindən yazmışdı. Çoban bunu haradan bilirdi, nə qədər xatırlamağa çalışmışdısa da – xatırlaya bilməmişdi.

× × ×

***"Qış" fəsli (davamı)***

Həsən müəllim qarşısındakı kagız qalağından gözünü çəkdi və özündən xəbərsiz yenə də gözü gedib divardan asılmış müqəvvaya dikildi. Quşun gözləri parıldayır, quş, elə bil, gözlərilə ona nə isə demək istəyirdi.

Həsən müəllim gözünü müqəvvadan çəkib yenidən ağ kağızda zühur edə-edə səliqə ilə bir-birinin yanında düzülən sözlərə baxdı. Bu sözlər kağızın dümağlığının dərinliyindən qara, qarmaqarışıq ləkələr kimi üzə çıxmağa başlayır, üzə çıxandan sonra müəyyən bir sahman alır, oxunan və başa düşülən sözlərə çevrilirdi. Həsən müəllim qəlbi həyəcanla döyünə-döyünə, eyni zamanda gizli bir şövqlə yazılanları höccələyə-höccələyə oxumağa başladı. Oxuduqca da onları başqa bir kağıza yazdı.

Həsən müəllimin qollarına, biləklərinə, barmaqlarına yeni bir güc gəlmişdi. Ürəyinə yeni ehtiras gəlmişdi. O cavanlıq dövründə olan kimi dayanmadan bir neçə saat çalışa bilcəyini düşündü. Amma bir az keçdi, o heydən düşdü, işini yarımçıq qoyub yataq otağına keçdi. Həsən müəllim pərişan idi.

× × ×

***"Payız" fəsli (davamı)***

...Qədim Oğuz diyarında Beyrək adlı alp bir ər yaşayırdı. Beyrək xeyli cəsur və igid bir gənc idi. Atası və anası evləndiklərindən uzun illər sonra onu dünyaya gətirmişdilər. Atası Bayburanın dostu vardı, adı Baybecan idi. Bayburanın oğlu olmurdu, bunun da qızı. Bir-birinə söz vermişdilər ki, övladları dünyaya gəlsə, onları evləndirəcəklər. Günlərin bir günü Bayburanın oğlu olur, adını Beyrək qoyurlar, Baybecanın da qızı olur, adını Banuçiçək qoyurlar. Ataları hamının yanında bu yeni doğulan oğlan və qızı bir-birinə beşikgərtmə nişanlı elan edirlər.

On səkkiz yaşına çatana qədər bu iki gənc bir-birini görmür. Banuçiçəyin atası Baybecan uzun sürən xəstəlikdən sonra dünyasını dəyişir, Dəli Qarcar adlı bir oğlu isə qaçaq-quldura qoşulub yolkəsənlik eləməyə başlayır. Banuçiçəyin dayəsi vardı, onu öz övladı qədər sevərdi, qızı bu dayə böyüdür. Günlərin bir günü uzaq Bayburd qalasından Banuçiçəyə elçi gəlir. Bu elçini Bayburd bəyi göndərmişdi. Qızı özünə istəyirdi. Bayburd bəyi Baybecanın yas mərasiminə gəldiyi zaman Banuçiçəyi görmüş və ona vurulmuşdu. Bayburd ürəyini Banuçiçəyin qardaşı Qarcar bəyə açıb belə demişdi:

– Qarcar, qız qardaşını istəsəm, mənə verərmisən? Səninlə dostuq, qohum belə olluq.

– Səninlə qohumluq mənə şərəf gətirər, Bayburd. Mən razı. Amma hələlik bunu bir adama söyləməyək. Kimsə bilməsin. Yası yola verim. Sonra yas mərasimi bitincə həmən elçilərini göndərərsən.

Qucaqlaşdılar, bir-birinə söz verdilər, Banuçiçəyin bundan xəbəri yox.

Günlərin bir günü atasının yası yenicə bitmiş Banuçiçək seyrana çıxır. Gözəl, sakit payız günlərindən biri idi. Yaxınlıqdakı Ala dağın ətəyində bir düzəngahda qırmızı çadırını qurdurur. Görür ki, bir az kənarda eynilə onun çadırına bənzər boz rəngli bir çadır da vardır və ətrafında gənc igidlər tonqal çatıb oturublar, yeyib içirlər, gülüş səsləri göyə ucalır.

Banuçiçəyin sevimli dayəsi yanında idi, bundan soruşdu:

– Dayə, bilmirsən o boz çadırın yanındakılar kimlərdir?

– Bilmirəm, canım-gözüm, Oğuzda nə çox igid... – Dayəsi cavab verdi.

Qızın ürəyinə nəsə dammışdı, dedi:

– Yox, bunlar mənim gözümə birtəhər dəydilər. Yadellilər olmasın?!

– Ürəyin istir, mən gedib bir soraq gətirrəm. – Dayəsi qızı xətircəm eləməkçün daha dayanmadı, bir ata minib oğlanların boz çadırına tərəf çapdı.

Oğlanlar gördülər ki, təzə qurulmuş qırmızı çadır tərəfdən bir atlı gəlir. Gəlib yetişərkən gördülər ki, bu, bir xanımdır. Ayağa durdular, hörmətlə qarşıladılar. Aralarından bir qarayanız, suyuşirin cavan irəli çıxıb dayədən soruşdu:

– Buyur, xanım, istəyiniz nədir? Ov ətindən pay verək. Odun verək, ocaq quraq sizin üçün. İstərsənmi?

Dayə atdan endi. Üzünü həmən suyuşirin cavana (bu isə Beyrək idi) tutub belə dedi:

– Buralara xoş gəldiniz. Çox sağ olun. Amma bizim heç nəyə ehtiyacımız yoxdur. Dövlətinizdən hər şey varımızdır. Mənim çadırda xanımım qaldı. Maraq edir ki, siz kimsiniz? Oğuz əhlisiniz, yoxsa yad ellərdənmi gəldiniz?

– Bəs sənin xanımın kimdir? Bizə deyərmisən? – Beyrək şux bir əda ilə yoldaşlarına baxdı. Gənclərin üzünə xoş bir təbəssüm qondu.

– Mənim xanımım Dış Oğuz bəyi rəhmətlik Baybecan bəyin qızı Banuçiçək xanımdır. Dəli Qarcarın bacısı. – Dayə xeyli ciddi və qururlu bir halda qədd tutub Beyrəyin sualına cavab verdi.

– Bəs siz kimsiniz? – deyə dayə dübarə soruşdu.

Beyrək dayənin cavabını eşitcək özünü yığışdırdı və o da xeyli ciddiləşdi. Çünki Banuçiçək barədə atasından, anasından çox eşitmişdi. Bilirdi ki, bu qız onun beşikgərtmə nişanlısıdır. Beyrək dayəyə dedi:

– Mənim adım Bozatlı Beyrəkdir. Bunlar da mənim yar-yoldaşlarımdır. Xanımın əgər izin verərsə mən ona gəlib baş endirərəm. “Xoş gəldin” deyərəm.

Dayə atına minib geri döndü. Banuçiçəyə dedi:

– Bunlar Oğuz əhlidilər. Bunların arasında bir mərifət sahibi bəyləri dəxi var – suyuşirin, igid, pəhləvan. Adı Beyrəkdir. Xatırladınmı, qız?

Banuçiçək cavab verdi:

– Atam mənə deyərdi ki, mən səni bozatlı Beyrəyə vermişəm. Bu olmasın? – Atasını yad etdi, Banuçiçəyin gözləri doldu.

– Budur, qız. Muradın öz ayağı ilə gəldi. Mənə nə söylədi, bilirsən? Bu istir, gəlsin, sənin qarşında baş endirsin.

Elə bu zaman eşikdə at kişnərtisi eşidildi. Elə bil, göydə ildırım çaxdı. Bayıra çıxdılar. Gördülər ki, çadırın önündə bir igid, pəhləvan oğlandı, peyda olub, mindiyi at da yerlə, göylə əlləşir. Bu, başqası deyildi, Bozatlı Beyrək idi. Ürəyi dözməyib icazə olmadan özü gəlmişdi.

Qızı görcək Beyrəyin ağlı başından getmədimi, getdi. Atından endi. Ədəblə salam verdi.

– Əleyküm-salam, – Banuçiçək oğlanın salamını aldı. Altdan-altdan da Beyrəyi süzməyində idi. Bu da Beyrəkdən xoşlanmışdı.

Beyrək ucaboylu, uzun, sünbül kimi sarı saçları çiyninə düşən, qonur gözlü, iti baxışlı bir igid idi. Hər qolundan beş igid asıla bilərdi. Onun boz atını bir at keçməzdi, yayını bir igid dartmazdı. Beyrək belə Beyrək idi.

Beyrək başını qaldırdığında bu iki gəncin baxışı bir-birinə dirəndi. Elə bu an göy üzündə, elə bil, şimşək oynadı, şəlalələr gürladı, dənizlərdə dalğalar şahə qalxdı. Gənclərin hər ikisinin ürəyi şiddətlə döyündü, onlar bir könüldən min könülə bir-birinə aşiq oldular. Amma heç biri özünü o yerə qoymadı.

– İgid, sən kimsən? Oğuzda kimlərdənsən? Adını dedilər. Bozatlı Beyrək sənmişsən? – Banuçiçək sinəsi ata-ata soruşdu. Qorxurdu ki, yenicə aşiq olduğu bu gənc Beyrək olmasın. Bu, bir başqası olsun.

– Mənəm, xanım, bəli.

Bunu eşidib Banuçiçəyin ürəyi yerinə gəldi.

– Sən də Banuçiçəksən, deyilmi? – Beyrək də ürəyi səksəkəli halda soruşdu. Bu da qorxurdu ki, sevdiyi bu qız Banuçiçək olmasın. Banuçiçək bunu aldatdı:

– Xeyir, bəy igid, mən Banuçiçək deyiləm. Mən Banuçiçəyin rəfiqəsiyəm.

Beyrək rəngi qaralmış halda maddım-maddım baxıb qaldı. Dayə istədi, ağzını aça, qız dayəyə gözünü ağartdı, yəni, "sən sus" dedi. Dayə dilini dişləyib susdu, ancaq gözlərinin dərinliyində bir gülüş gizlənmişdi. Beyrək kal səslə soruşdu:

– Bəs Banuçiçək sizinlə deyilmi? Ona bir salam verməyimə izin varmı?

– Banuçiçək elə qız deyil ki, sənə görsənə. Bizi o göndərdi. Söylədi ki, sənə deyək: onu görməyin öz yolu var.

– Nədir o yol?

– Bax, Banuçiçəyi görmək istirsənsə gəl səninlə şərt kəsək.

Dayə gizli-gizli güldü.

– Nə şərt? – Beyrək heç nə başa düşmürdü və hələ də anlamırdı ki, dayə nə üçün belə xısın-xısın gülür və gülməyini nə üçün çox böyük çətinliklə gizlətməyə çalışır.

Banuçiçək üzünü Ala dağın ətəyi boyu uzanan yola tutub dedi:

– Banuçiçəyi görməzdən öncə mənimlə yarışmalısan. Görürsənmi o yolu? – Beyrək qız göstərən istiqamətə baxdı. Banuçiçək sözünə davam elədi. – Səninlə o yolda at çapaq. Sənin atın mənim atımı keçərsə, hesab et, Banuçiçəyin də atını keçmisən. Səninlə ox ataq. Mənim oxumu yararsansa, hesab et, Banuçiçəyin də oxunu yarmış oldun. Səninlə güləşək. Məni yıxarsansa hesab et, Banuçiçəyi də yıxdın. Banuçiçək yalnız o zaman səninlə görüşər və özünü sənə göstərər. Nə deyirsən?

Beyrək dil-dil ötən bu zərif cüssəli, amma cəsur qıza lağ ilə baxdı, qəlbində qəti qorxu duymadı və ürəyində belə dedi: “Mən bu qızın qarşısından çəkilmiş, qaçmış olsam, Oğuz elində adıma şəbədə qoşarlar. Bundanmı qorxacağam?!”

– Buyur, xanım. Atları qoşduraq. Sən önə düş, mən arxandan...

Beyrəyin sözü ağzında qaldı.

Banuçiçək nökərlərin yüyənindən çəkib gətirdikləri Yel atının belinə sıçradı, elə bil, qızın zərif vücudunun içinə nəsə girdi, səsi dəyişdi, alovlu səslə bir nərə çəkdi, bir nərə çəkdi ki... Bayaqdan yerlə, göylə əlləşən Yel at şahə qalxdı, yerindən götürüldü, nə götürüldü. Beyrək toz-dumanın dalınca baxa-baxa qaldı. Boz at (heç elə bil, əvvəlki vüqarlı və nəhəng at bu deyldi) yazıq-yazıq bir neçə dəfə yerində fırlandı. Nəhayət, handan hana yalandan kişnədi (bu səs də artıq ildırım şaqqıltısı deyildi) və özünü tozanağın düz içinə dürtdü.

Beyrək toz-duman içində bir xeyli gözü heç nə seçmədən yol getdi. Gəlib-gəlib bir quyunun başına çatdı. Toz burada göyə sovrulurdu. Gördü, bayaqkı qız atından çoxdan enib quyudan su çəkir. Gəlib ona kömək eləmək istədi.

– Harda qaldın, igit?! Yolunu gözləməkdən gözlərimin qarası getdi. Banuçiçəyindəmi arxasınca bu cür addım-addım gələcəksən? – Qız şaqrah bir səslə gülərək soruşdu.

Beyrək at yarışını uduzduğundan pərt olmuşdu, ona görə də dinmədi. Quyunun suyundan bunlar içdikcə içdilər. Sonra atlarına su verdilər. Sonra atlar bir-birinin yanı ilə gedib (Boz at Yel atın yanında yabı kimi görünürdü) saralmaqda olan bir çəmənlik tapdılar və özlərini ota vurdular. Yaşıl otdan seçib yedikcə yedilər.

Beyrək və qız quyunun kənarında oturmuşdular.

Qız soruşdu:

– İgid, sən heç Banuçiçəyi görmüsənmi?

– Xeyir, qismət olmadı. Amma atam deyir ki, o mənim beşikgərtmə nişanlım olub. Onu mənə veriblər. Çox görmək istərdim.

– Görməsən yaxşıdır.

– Niyə? – Beyrək təəccüb etdi.

– Oğuzda onun kimi çirkin qız nə qədər axtarsan yenə də tapa bilməzsən.

Beyrək qaşqabağını salladı. Nişanlısının söhbətini eləmək heç xoşuna gəlmədi. Banuçiçək dedi:

– Amma sən onu yox, məni özünə nişanlı seçsən, sənin hər günün, hər gecən şən və mənalı keçər. Mənə elçi göndərib atamdan istərsən? – Banuçiçək başladı Beyrəyi sınaqdan keçirməyə. Əslində, onun sədaqətini yoxlayırdı.

– Yox, istəmənəm. – Beyrək boğuq səslə cavab verdi. – Taleyimdə ancaq Banuçiçək ola bilər ki, o da olacaqdır. İstər heç həyatımda olmasın. İstər İç Oğuzda, Dış Oğuzda, istər bütün aləmdə Banuçiçək ən çirkin qız olsun. Mən onun izini buraxmanam. Hər nə cür varsa, mənə xoşdur, qəbulumdur.

– Çirkin də olsa qəbulunmudur?

– Qəbulumdur.

– Ağıllı olmasa da qəbulundur?

– Qəbulumdur.

– Bəs belə isə biləsən. Sənə ərə gəlsə də o səni heç vədə sevməyəcək. Onun qəlbi başqasına məxsusdur. – Banuçiçək hiylə işlədib son yalana əl atdı.

– Ömründə olmaz. O məni sevsə də, sevməsə də ona elə belə də söylə: o, mənimki olacaq. – Beyrək ayağa qalxıb Boz atını səslədi. Boz at könülsüz halda, fınxıra-fınxıra gəldi. Beyrək sıçrayıb ata mindi.

– Hara gedirsən, igid?! Bəs biz ox atacaqdıq, güləşəcəkdik?! Unutdun? Ya qorxdun?

– Unutmadım. Qorxmadım. Sənin söylədiklərin xoşuma gəlmədi.

– At çapmaqda uduzdun. Atım atını keçdi. İndi gəl səninlə ox ataq.

– Ataq. – Beyrək artıq yavaş-yavaş qeyzlənirdi. Təkrar atından endi. Çiynindəki oxdanından bir ox çıxardı, üç kişi çəkə bilməyən yayını bir dəfəyə dartdı.

Banuçiçək də öz oxdanından ox çıxarıb kamana qoydu. Kamanını göyə tuşlayıb oxunu atdı. Beyrək də bunun dalınca oxunu göyə atdı. Oxlar bir-birinin ardınca iki şahin kimi süzüb göy üzünün ənginliklərinə doğru yol aldılar.

Banuçiçək göydə süzən oxların dalınca gözünü qıyıb baxa-baxa dedi:

– Görürəm, Banuçiçəklə bağlı mənim dediklərim heç xoşuna gəlmədi.

– Gəlmədi. – Beyrək qaşqabaqla cavab verdi.

–Sən ki, Banuçiçəyi görməmisən. Birdən mən deyənlər doğru çıxdı, onda necə? Məni gəlib halallığa alarmısan?

– Bəy qızı, sən gözəl, göyçək, igid bir qızsan – buna mənim sözüm yoxdur. Amma Baybura qızı Banuçiçək mənim beşikgərtmə nişanlımdı. Taleyimdi. Bizi birləşdirən xəttlər var. Mən onu bir deyil, bəlkə yüz dəfə röyalarımda görmüşəm. Necə ola bilər? El-oba nə deyər?

– Röyalarında onu necə görmüsən? Kimə oxşayır? – Banuçiçəyin gözləri maraqla doldu, nəfəsi az qala dayandı.

Beyrək başını aşağı dikib günahkar adamlar kimi pıçıldadı:

– Sənə oxşayır.

Banuçiçək rahatlıqla nəfəs aldı.

Oxlar göydə üzü yuxarı artıq yanaşı süzürdülər. Sonra Banuçiçəyin oxu Beyrəyin oxunu özündən irəli buraxdı və arxadan həmlə edib onu ikiyə böldü. Bundan sonra hər üç ox parçası geriyə yol aldı və gəlib oğlanla qızın qarşısında yerə düşdü. Banuçiçək öz oxunu tanıdı:

– İgid, oxunu gördünmü?

Beyrək pərt halda dedi:

– Gördüm.

– Mənim oxum salamat qayıtdı, səninki iki parçadır. Bu dəfə də qalib mən çıxdım. Nə dersən, güləşəkmi? Bəlkə bəxtin bu dəfə gətirə.

Beyrəklə Banuçiçək bir-birinə quşandılar. Bu güc gələr, yenə bilməz, o güc gələr, yenə bilməz. Beyrək istədi, qıza hiylə gəlsin, alınmadı, qız istədi hiylə gəlsin, alındı. Qız götürüb bir badalaq vurdu, bir badalaq vurdu ki, Beyrək binəva hər iki kürəyi üstə yerə dəydi. Az qaldı canı ağzından çıxa. Banuçiçək bunun üstünə yıxıldı:

– Oğlan, bu gün sənin günün deyil. Uduzdun. Burax, ayağa qalxım.

Beyrək ki, qızın altında qalmışdı, əlləriylə onu qucaqlayıb durmuşdu. Buraxmaq istəmirdi. Gözlərini də elə bərk-bərk yummuşdu ki, utandığından aça bilmirdi. Beləcə bir müddət keçdi.

Banuçiçək qərara gəldi ki, həqiqəti deməyin zamanı gəlmişdir. Dedi:

– İgid, aç gözlərini, yaxşı-yaxşı aç və yaxşı-yaxşı bax, röyalarında gördüyün Banuçiçək bil ki, mənəm, bəlli bil.

Beyrəyin sevinci yerə-göyə siğmadı. Elə bil, göylərdən buna güc gəldi və Beyrək uzandığı yerdəcə çevrilib bu dəfə qızı öz altına aldı:

– Bəli, sənsən ki, varsan. Ürəyimə dammışdı. Bəy qızı, izin ver, səni öpüm.

– Olmaz. – Bu dəfə Banuçiçək utandığından qıpqırmızı qızardı, üzünü yana qaçırdı və gözlərini yumdu, ancaq gözləri yumulu halda olsa da Beyrəyin aşağıdan yuxarı onun üzünə xəfifcə toxunan saçlarının hərarətini,

oğlanın alışan gözlərini, qan daman dodaqlarını qəlbi ilə görür, sinəsində ürəyi az qalırdı yerindən çıxsın.

– Sirr saxlaya bilirsənmi, canım oğlan? – Banuçiçək soruşdu.

– Bilirəm, bəy qızı, – Beyrək pıçıldadı.

– Səni görən kimi mən də sənə bir könüldən min könülə aşiq oldum, biləsən.

– Taleyimsən. Sən mənim taleyimsən… – Beyrək sərxoşlar kimi təkrar elədi.

– Sirr saxlaya bilirsənsə, o zaman öpə də bilərsən.

Beyrək dəlicəsinə qızı öpüşlərə qərq eləməyə başladı. Üç öpüb bir dişlədi, bir öpüb üç dişlədi, sevişdilər. Nəhayət, bunların dodaqları, əlləri, ayaqları, bədənləri yoruldu və sevgililər birtəhər ayağa qalxdılar.

– İgid, bəs indi sənin irəli durman gərəkir. Amma... Bir şərtim var. Gərək bir adam bilməsin ki, mənim atım sənin atını keçdi, mənim oxum sənin oxunu yardı, güləşdik, mən səni yıxdım. Başına qaxınc olmasın.

Bu sözlər Beyrəyin ürəyindən oldu. Kefi açıldı, qaşqabağı quş kimi uçub getdi:

– Mən də sənə söz verirəm ki, bir adam bilməyəcək mənim səni öpüb-öpüb sevdiyimi. Sənin də başına qaxınc olmasın.

– Bir adam bilməsin. Bu bizim sirrimiz olsun.

– Olsun, bəy qızı. O zaman bu üzüyü məndən qəbul et. – Beyrək barmağındakı altun üzüyü çıxarıb qızın barmağına keçirdi. Sonra onlar atlarına minib alaçıqlar dikələn tərəfə üz tutdular.

Bu dəfə xeyli yavaş-yavaş yol gedən atların ayağı altında torpaq artıq bərkiməyə başlamışdı, fəsli-payız öz yerini yavaş-yavaş qışa verirdi. Hava sazaq idi və bu iki gənc hər nəfəs aldığında ağızlarından (eynən atlar kimi) ağ dumana bənzər buğ çıxıb havada əriyirdi. Qəlblərində isə bir rahatlıq, hüzn və sevinc vardı. Bu sevincin adı – sevgi sevinci idi.

× × ×

### *"Qış" fəsli (davamı)*

Həsən müəllim yorulmuşdu, dincini alıb kabinetə qayıtdı. Oxumağını davam etdirmək istəyirdi. Kağız üzərində sözlər bir-birinin dalınca üzə çıxmağa (yazılmağa) davam edirdi. Hacı Mir Həsən ağa Səyyahın nə zamansa yazdıqları indi burda Həsən müəllimin kabinetində işıq üzü görürdü. Əgər Səyyah özü də oturduğu otaqda bir az əvvəl yazdığı kağızları qaldırıb baxsa idi, görərdi ki, yazdığı yazı indi artıq kağızın üzərində yoxdur. O hansısa sirli bir şəkildə yazılandan sonra yox olur və yazılmış kağız yenə də özünün ilkin ağlığına qayıdır. Haman hərflər, haman sözlər zamanın burulğanından keçib, fırlana-fırlana gəlib Həsən müəllimin kabinetində onun yazı masasının üstündəki kağızda zühur edirlər. Sonra burdan da da yox olurlar.

Axşam Həsən müəllimin qardaşı oğlu Zöhrab gəldi. Əvvəlcə yemək yedi. Sonra onlar (Həlimə və əmisi oğlu Zöhrab) mətbəxdə oturub bir xeyli söhbət etdilər.

Zöhrabla Həlimə arasında yaş fərqi böyük olsa da, Həlimə də, qardaşları da Zöhrabı az qala özlərinə qardaş hesab edirdilər. Əslində, Zöhrab Həsən müəllimin qardaşı oğlu yox, əmisi oğlu idi. Onu şəhərdə oxudub sənət sahibi edən Həsən müəllim olmuşdu. Zöhrab ev-eşik yiyəsi olana qədər Həsən müəllimgildə ailənin bir üzvü kimi yaşamışdı. İndi artıq onun öz evi, ailəsi, əziyyətlə qurduğu ticarət mərkəzi var idi. Pulu, dövləti başından aşırdı. Amma yolunu azmamışdı. Zöhrab bu gün də Həsən müəllimin ailəsinə qardaşlıq edirdi.

Zöhrab Həlimənin fədakarlığını yüksək qiymətləndirirdi. Həlimə təvazökarlıq elədi:

– Elə demə. Bu, mənim borcumdu. Bəs mən eləməsəm, kim edəcək?!

– Hər adam bu ağır yükün altına girməyə cəsarət etməz. Sənə halal olsun.

– Zöhrab, yaxşı da, başqa söhbət elə. Bu gün Nuruş, bilirsən, nə deyib mənə?

– Yox. Nə deyib?

– Deyir, baba mənə göz vurdu. Bilmirəm, inanım, ya inanmayım. – Həlimənin yorğunluq yağan üz-gözündə təbəssümə oxşar ifadə yarandı.

– Nə deyim, vallah. Yəni, deyirsən, ola bilər? Həkim sənsən, sən bilərsən... – Zöhrab çaşıb qaldı.

– Yox, ola bilməz. – Həlimə ciddiləşdi. – Uşaqdı, gözünə elə görüküb. O artıq nəvələrini də tanımır. Heç kim yadında deyil. Çox qəddar xəstəlikdi bu xəstəlik. Hərdən mənə elə gəlir, anamı xatırlayan kimi olur. Nə deyim, bəlkə mənə elə gəlir... Çay içirsən?

Zöhrab dünənki dolmanı artıq yeyib qurtarmışdı:

– Olar, – dedi və stəkan-nəlbəkini stolun üstü ilə Həliməyə tərəf sürüşdürdü. – Əmicanımı çox istəyirdi, olar.

Zöhrab gedərkən üzürxahlıq elədi:

– Çox istərdim, əmimi görüm, ancaq incimə, görə bilməyəcəyəm. Ürəyim onun bu halına dözməz. Sən Allah, incimə. Bunları da tez elə soyuducuya qoy – hər ehtimal. Zöhrab gətirdiklərini nəzərdə tuturdu.

Gətirdiyi ayın-oyun bir neçə zənbilin içində qapının ağzında idi.

– Sağ ol, ay Zöhrab. Mən səni başa düşürəm. Görmək onu, özü də bu halda – ağırdı, ağır... Sağ ol, əziyyət çəkmisən...

... Həsən müəllim kabinetdə yazı masasının arxasında əyləşib dərin fikrə dalmışdı. Qarşısındakı divardan asılmış xəritədə yaxın uzaq ökələr, şəhərlər, bir-birindən aralı dağlar, dənizlər daha onun üçün maraqlı deyildi. Uşaqları ilə birgə bu xəritədəki şəhərləri xəyalən az gəzməmişdi, onlar üçün əsl Sindbad kimi dənizlərdən dənizlərə az üzməmişdi. Amma artıq onun diqqətini özünə cəlb edən qarşısındakı bu rəngli xəritə deyildi. Onun üçün artıq həyatının ən vacib məsələsi qarşısındakı ağ kağızlar və onların üstündə hardansa gəlib peyda olan yazılar idi.

Get-gedə Həsən müəllimin təkcə marağı yox, həm də təəccübü artırdı. Qarşısındakı kağızların dərinliyindən üzə çıxıb canlanan yazıları oxuduqca qoca professorun beyninə qəribə fikirlər, suallar girirdi:

“Necə olub ki, o, “Kitabi-dədə Qorqud” dastanını dərindən bilən (bəlkə də pis bilməyən) Kamal Abdulla adlı bir alim dostu ilə Dastanı dəfələrlə müzakirə edib, amma bu incə məqama diqqət yetirməmişdi?! Dostu Kamal

müəllim də bu barədə ona heç bir söz deməmişdi?! Yəqin heç o özü də bunu bilmirdi.

Necə olub ki, dastan haqqında dəyərli yazılar yazan başqa alimlər də Beyrək və Banuçiçək münasibətlərindəki bu vacib məqama fikir verməyiblər?! Həqiqətən də, bu iki gəncin yarışmasında əsl qalib hansı olmuşdu?!" "Dədə Qorqud" dastanı ilə bağlı Həsən müəllimin özünün özünə yeni-yeni sualları yaranırdı.

Həsən müəllimin beyninə dolan və ona rahatlıq verməyən bu sualları ağ varaqlarda canlanan yazılar qoyurdu.

Onu da demək lazımdır ki, Həsən müəllimin şübhələri əsaslı idi. Dastanın hər iki qədim mətni və bu mətnlər əsasında hazırlanan bütün nəşrlər deyirdi ki, bu yarışların qalibi Beyrəkdir. Onun atı Banuçiçəyin atını keçir, onun oxu Banuçiçəyin oxunu vurub yarır və güləşəndə məhz o, yəni, Beyrək qalib gəlir. Bu, bir həqiqətdir ki, ona yüz illər boyu müxtəlif nəsillər inanıb və bu iki gəncin sevgi münasibətlərinin məhz bu cür başlanması heç kimdə zərrə qədər şübhə doğurmayıb.

Amma! Amma və lakin sən demə, bu məqamla bağlı bir başqa həqiqət də varmış. Yazılarda üzə çıxan, Hacı Mir Həsən ağa Səyyah tərəfindən ona göndərilən həqiqət.

Həsən müəllim düşünür, düşünür və qarşısında zühur edən mətnin (Səyyahın mətninin) ikinci həqiqətini beynindən hec cür silib ata bilmirdi. Kağızlar əsrlərdən üzü bu yana gətirib-gətirib bu sirri ona, nəhayət, faş etmişdilər. Gözü ilə gördüyü və oxuduğu bu yazılarda başqa, indiyə qədər bildiklərinə tamam əks fikirlər yer almışdı. Bu yazı bütövlükdə tanış olmayan qəribə mətləblər üzə çıxarırdı. Bu yazıya əsasən, məlum olurdu ki, Beyrəklə Banuçiçəyin yarışmasının qalibi məhz Banuçiçək olmuşdur. Beyrək yox, Banuçiçək! Məhz Banuçiçəyin atı Beyrəyin atını vurub keçmiş, məhz Banuçiçəyin oxu Beyrəyin oxunu havada yarmış, nəhayət, məhz Banuçiçək güləşərkən Beyrəyi yerə yıxmışdı. Bu yeni həqiqət Həsən müəllimin həqiqəti deyildi, bu yeni həqiqət göz qabağında öz-özünə doğulan ağ kağızlardakı qara hərflərin həqiqəti idi. Hacı Mir Həsən ağa Səyyahın həqiqəti idi. Və bu həqiqətlərin (yeni və köhnə həqiqətlərin) toqquşamsından yenə də sirr yara-

nırdı. Həsən müəllim ciddi elmi dəlillərə və möhkəm məntiqə inanan bir adam kimi yeni həqiqətin amansız gəlişini qəbul etməkdən başqa çıxış yolu görmürdü. Bunu qəbul etməyin əsl məntiqi səbəbi barədə bu yazılar öz sözünü hələ sonra deyəcəkdi. Beyrək nişanlısı Banuçiçəyin toyuna gəlib çıxandan sonra (Dastan belə deyir) onların arasındakı mükalimənin dərin qatında yatan sirr məhz o zaman aşkar olacaqdı. Və yeni həqiqətin həqiqiliyinə daha heç bir şübhə qalmayacaqdı. Həsən müəllim hələ yazının bu yerinə gəlib çıxmamışdı. Daha doğrusu, yazı hələ bu yerinə qədər zühur etməmişdi.

Həlimə mətbəxdə yemək hazırlayır, beynində isə yeddi yaşlı qızı Bəyimi bu payız hansı məktəbə qoyacağını götür-qoy edirdi. Atasının köməyinə ümid eləmirdi, amma hər halda o, xəstə olmasa idi, məsləhət verə bilərdi. Həlimə onun münasib vaxtını tutub bu barədə söhbət salacaqdı. Amma yox. Daha doğrusu o olardı ki, bu barədə Zöhrabla danışsın, çünki onun dostu-tanışı olmayan yer yox idi.

Həsən müəllimin axşam yeməyi üçün yemək otağına gəlməsinə beş dəqiqə qalırdı. Düz beş dəqiqə. Həlimə xatırlamırdı ki, atası nə zamansa gündə üç dəfə – səhər 8:30-da, günorta 1:30-da, axşam isə 19:30-da yemək otağına gəlməsin. Əlbəttə ki, bəzən xüsusi axşamlar olurdu, rəhmətlik anası ilə toya, yasa, hansısa məclisə getdikləri axşamları və yaxud ezamiyyətdə olduğu günləri nəzərə almasaq, Həsən müəllimin yemək rejimi az qala bir rituala çevrilmişdi. Həlimənin ürəyi qısıldı. Yadına bir hadisə düşdü.

Anası rəhmətə gedəndən az sonra o, bir dəfə axşamüstü atasıgilə gəlməyə gecikmişdi, təngnəfəs evə çatıb qapını öz açarı ilə açdı. Hər tərəf sakitlik içində idi. Həlimə mətbəxə keçib diksindi. Gördü ki, atası don vurmuş adamlar kimi öz yerində oturub, gözlərini də pəncərəyə dikib. Qarşısındakı boşqab tərtəmiz idi, qaz piltəsində Həlimənin sabahdan qoyub getdiyi xörək dolu qazan dururdu. Yeməyi, sadəcə, qazandan götürüb boşqaba çəkmək lazım idi. Həsən müəllim bunu etməmişdi. İstəməmişdi, ya bacarmamışdı?! Orası da var idi ki, o vaxtlar Həsən müəllimin bu qəribə xəstəliyi təzə-təzə başlayırdı, özünün şiddətli "pik" nöqtəsinə hələ çatmamışdı. O, təzə-təzə adları unudur, qohumları yaddan çıxarırdı. Bəlkə xörəyi götürüb qaba çəkmək də yadından çıxmışdı?! Hər halda Həlimə belə düşündü.

Həlimə saata baxdı. 8-dən keçirdi. Deməli, atası 19:30-da mətbəxə gəlmiş, öz yerinə keçib oturmuş, ancaq xörəkdən çəkib yemək üçün heç nə eləməmişdi, bir söz, əlini ağdan qaraya vurmamışdı. Eləcə, gözlərini pəncərəyə dikib oturduğu yerdəcə dinməz-söyləməz qalmışdı. O zaman atasının yolçəkən gözlərinin dərinliyində Həlimə rəhmətə getmiş anasının əksini görmüşdü. Həsən müəllimin çənəsi əsirdi. Həlimənin ürəyi yamanca sıxılmışdı.

Bundan sonra Həlimə öz arxayınçılğı üçün səhər və axşam yeməyi zamanı mütəmadi olaraq atasıgilə gəlməyə başladı. İllər boyu müəyyənləşmiş vaxtda onun yeməyini qaba özü çəkdi. Ta ki, atası birdəfəlik xəstələnənə qədər bu belə davam elədi. Bundan sonra isə o, öz evindən çıxıb atasının evinə köçdü. Qızı balaca Bəyimlə birgə burda yaşamağa başladı. Əri ilə münasibəti onsuz da əvvəldən gərgin idi. Şahin (Həlimənin əri) üçün bu variant, üzdə göstərməsə də, ürəyindən oldu. Qızını görməyə istədiyi vaxt gələ bilirdi, bundan kənarda isə – yaşasın Azadlıq! (əgər azadlıq bu qədər bəsit idisə və Şahinlə xəstəxanada bir yerdə işləyən tibb bacısı Esmeralda (Esya) ilə məhdudlaşırdısa, belə azadlığın düz üç qəpiklik qiyməti var). Həlimə ikrahla və acı-acı gü-lümsədi.

Bu dəfə Həsən müəllim mətbəxə vaxtında gəldi və keçib öz yerində oturdu. Həlimə yeməyi (toyuq qızartmasını) onun qabağına qoydu. Həsən müəllim həvəslə çəngəl-bıçağı işə saldı. Bir qədər keçəndən sonra:

– Səndən, qızım, bir məsələ barəsində soruşmaq istəyirəm, – Həsən müəllim yeməyinə ara verdi və Həliməyə xüsusi bir nəvazişlə müraciət etdi.

– Buyurun, Həsən müəllim, – Həlimə təəccüblənsə də, bunu biruzə verməməyə çalışdı. Atası xeyli vaxt idi ki, ona bu cür istiqanlılıqla müraciət etməmişdi.

– Sənin ali təhsilin var?

– Var.

– Hansı ixtisasın sahibisən?

– Jurnalistəm (əslində, həkim idi, ancaq son zamanlar əri Şahinlə bir yerdə işləməmək üçün həkimliyə nifrət edərək peşəsini atıb jurnalistika ilə məşğul olurdu).

– Əla. Onda, mən güman edirəm ki, sən mənim sualıma cavab verə biləcəksən. – Həsən müəllim yerindəcə canlandı və yenə də həvəslə yeməyinə davam elədi.

Həlimə ondan daha heç nə soruşmadı. Çünki bilirdi ki, atası nə zaman hansısa mətləbi başlayırsa, onu hökmən axıra çatdırır. Sual verməklə onu bu mətləbdən ancaq yayındırmaq olardı. Həlimə isə bunu istəmirdi.

Həlimənin qəlbinə dəli bir ümid doldu. Bəlkə atası nəyi isə xatırlayıb, yaxud xatırlamaq istəyir?! Bəlkə Bəyimin o gün dediyi sözlər (babasının ona göz vurması) heç də uydurma deyil?! Bütün bunlar axı belə davam edə bilməz. Bunun bir axırı olmalıdı axı. Necə ola bilər ki, insanın beyni bu cür təmizlənsin, hər şeydən azad olsun?! Belə necə yaşamaq olar?! Necə dözmək olar?! Yada salmaq əziyyətdisə, xatırlamamaq axı əsl məşəqqətdi...

Ürəyi ata-ata Həlimə atasının sualını gözləyirdi. Həsən müəllim həmişəki kimi yeməyini aramla (ağzındakı çeynəmləri saya-saya) yeyib qurtardı, gümrah bir halda ayağa qalxaraq Həliməyə təşəkkür elədi:

– Çox sağ olun. Hər şey olduqca dadlı idi. Mən kabinetə keçirəm. Zəhmət olmasa, siz də ora gəlin.

Bir qədər sonra kabinetə daxil olan Həliməyə Həsən müəllim (o artıq öz yazı stolunun arxasında oturmuşdu) əli ilə yastıqlı divanda yer göstərdi. Həlimə keçib oturdu. Həsən müəllim kreslosunu ona tərəf döndərdi.

– Balaca necədi? Bu gün nəsə ondan səs-səmir gəlmədi, – deyə Həsən müəllim Həlimədən dəcəl qızı (öz nəvəsi) barədə soruşdu.

– Yatır. Bu gün havada çox olub, əldən düşüb. Səs-küy salmağa heyi də yox idi.

Həlimə günorta Həsən müəllim yatandan sonra balacanı gəzməyə aparmışdı. Sahil bağında Bəyim, elə bil, quş olub qanad açmışdı, həvəslə ora-bura qaçmış, yelləncəkdə kef çəkib qışqıra-qışqıra doyunca yellənmişdi. Onlar geri dönəndə Həsən müəllim hələ də yatırdı.

Həsən müəllim Həlimənin cavabını qulaqardına vurub (cavab ona maraqlı deyildi) belə bir qısa girişdən sonra dərhal mətləbə keçdi:

– Siz "Dədə Qorqud"u, yəqin ki, oxumusunuz... Dastanı deyirəm.

Həlimə tutuldu. O, peşman olmuşdu. Çünki əlbəttə ki, başqa sual gözləyirdi. Amma neynək? “Dədə Qorqud” da pis deyil. Hər halda keçmişlə əlaqə “Dədə Qorqud” vasitəsilə də baş tuta bilərdi. Ümid buna qalmışdı.

“Mən “Dədə Qorqud”u oxumuşammı? Azı mənə bunu beş dəfə oxudan sən olmamısan?” – deyə düşünüb təmkinlə cavab verdi:

– Bəli, oxumuşam.

– Əla. Çox gözəl. Çox pakizə (bu “pakizə” sözünü Həsən müəllim tez-tez və sevə-sevə işlədərdi). Onda bir məsələni mənim yadıma salarsınızmı, qızım?

– Buyurun, hansı məsələni deyirsiniz?

“Bəlkə yaddaşı bu cür qayıdır, – yavaş-yavaş?! Dədə Qorqud vasitəsilə?! Allah, sən özün kömək ol.” – Həlimə düşündü.

– Yadınızdamı Beyrəklə Banuçiçəyin ilk görüş səhnəsi?

Həlimənin cavabı ləngimədi:

– Bəli, yadımdadı.

– O zaman söyləyin görüm, onların yarışmaları nə yarışma idi və bu yarışmalarda kim qalib gəlmişdi?

Həsən müəllim gözlərində gizli bir ümid Həliməni süzməyə başladı. Çünki o, əslində, özünə yenicə əyan olmuş həqiqətin qum sarayı kimi dağılmasını gözləyirdi. Ona elə gəlirdi ki, Həlimənin cavabı bu müəmmanı alt-üst edəcək və o, yenə əvvəlki kimi öz düzənli aləminə qayıda biləcəkdi. Bu düzənli aləmdə yarışda qalib gələn Beyrək olurdu, – “İki” üstəgəl “iki” “dörd” edən kimi buna da şəkk-şübhə yox idi. İndiki həqiqət isə başdan-başa şübhələrin və gümanların içində idi və Həsən müəllimin düzəninə əməlli-başlı xələl gətirirdi. O bu ikinci həqiqəti, hardansa uzaq zamanlardan özü öz ayağı ilə gəlib onun yazı masasına quş kimi qonan həqiqəti qəbul etmək çətin idi. Nə isə itirdiyini duyan və bununla itkisinin daha da böyüyəcəyindən qorxan bir adam kimi o bunu istəmirdi.

Həlimənin cavabı onun gözlədiyi cavab olmadı.

– Yaxşı. Bu sual elə də çətin sual deyil. Qızın şərti belə olur ki, onlar at çapıb ötüşsünlər, ox atıb yarışsınlar və ... – Həlimə duruxdu.

– Və?.. – Həsən müəllimin gözləri işıldadı.

– Hə, bir də güləşsinlər. Mən təsəvvür eləmirəm, o qədim zamanda oğlanla qız necə güləşə bilərdi?!

Həsən müəllim Həlimənin son sualını qulaqardına vurdu.

– Bəs bu yarışlarda qalib gələn kim olur? – Həsən müəllim səbirsizliklə soruşdu.

– Kim olacaq? Beyrək! Əlbəttə ki, Beyrək. Dastanda belə yazılır.

– Əminsən? – Həsən müəllimin əli-qolu sustalıb yanına düşdü. Və o çarəsiz adamlar kimi qətiyyətsiz bir halda yavaş səslə soruşdu:

– Əminəm, – Həlimə köhnə komsomolçular kimi qətiyyətlə cavab verdi.

Bu şəkildə həm Həsən müəllim, həm də Həlimə bir-birindən gözlədiklərini ala bilmədilər. Onun üçün də hər ikisi pəjmürdə olmuşdu. Həsən müəllim ona görə pəjmürdə olmuşdu ki, ona agah olan yeni həqiqətin "ayaq tutub yeriməsi"nin qarşısını ala bilməmişdi. Həlimə isə ona görə pəjmürdə olmuşdu ki, atasının yaddaşının qayıtmasına olan ümidi növbəti dəfə boşa çıxmışdı.

Həlimənin düşüncə tərzi, oturuşu, duruşu, ədası, hərdən qəflətən doluxsunması (Həsən müəllimə qızın bu halı tam əsassız olaraq, xeyli süni görünürdü) yavaş-yavaş Həsən müəllimi darıxdırmağa başlamışdı. Beyrəklə bağlı mükalimə isə (qızın inamlı cavabı, elə bil, ondan nə isə gözləyən gözləri) Həsən müəllimi lap hövsələdən çıxardı. Amma o səfər Həsən müəllim özünü zorla saxladı, qıza artıq-əskik bir söz demədi, dəftər-kağızını bir yerdən o biri yerə götürüb qoymağa başladı. Bu o demək idi ki, söhbət qurtarmışdır və Həlimə gedə bilər. Həlimə kabinetdən çıxıb qızı Bəyim yatan otağa keçdi.

Həlimə gedən kimi Həsən müəllim bir daha Hacı Mir Həsən ağa Səyyahın mətnini gətirən yazılı kağızları qarşısına çəkdi və yenidən onları oxumağa başladı. Şəkk ola bilməzdi – həmən yazı, həmən həqiqət! Yenə də bütün yarışların qalibi Beyrək yox, Banuçiçək idi. Həsən müəllimi bu dəfə əməlli-başlı xof bürüdü. Elə bil, daim arxasında hiss elədiyi, kürəyini söykədiyi bir divar yavaş-yavaş sökülür, o isə yuxudaymış kimi nə qədər çabalasa da bunun qarşısını almaq üçün heç nə edə bilmir. "Dədə Qorqud" bir

bəhanə idi, əslində, onun həyatının bundan əvvəlki böyük bir hissəsi o divar kimi (ya da o divarla birgə) yox olurdu. Əriyib adam kimi sonsuzluğa qovuşurdu. Həsən müəllimin ürəyi bərk-bərk döyünür, o, təlaş içində ancaq bunları hiss eləyirdi. Hiss eləyirdi ki, keçmişlə əlaqəsi birdəfəlik üzülür, kəsilir, özü də bu geriyədönməz bir şəkildə baş verir. Buna görə də keçmiş özünü onun yadına bu cür salırdı – kağız üzərində hardansa gəlib peyda olan yazılar vasitəsilə. Bu yazılar bitən zaman bir filosofun sözləri olmasın (Həsən müəllimin yadına alman filosofu Niçşe düşdü, onun adını isə unutmuşdu), "səhra böyüyüb böyüyüb" onu – Həsən müəllimi də öz içinə alacaqdı.

Həsən müəllim pəncərədən bayırda tüğyan edən tufana baxdı və ev kifayət qədər isti olsa da üşüdü. Öz-özü ilə zarafatından da qalmadı. "Qışda üşüməmək ən azından ayıbdır" deyə düşündü.

× × ×

### *"Qış" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah Beyrək haqda zaman-zaman eşidib duyduqlarını yazarkən (bəlkə də o bunları bir çobandan eşitmişdi – indi dəqiq xatırlaya bilmirdi), elə bil, duyuq düşmüşdü ki, risalə ilə tanış olanları bu həqiqətə inandırmaq üçün sonda xüsusi və möhkəm bir dəlilə böyük ehtiyac vardır. Və bu dəlili, yəni, Beyrəklə Banuçiçəyin ilk görüşündə baş verənlərin sirrə çevrilməsini və bu sirrin sonrakı sərgüzəştini o, belə təsvir edir.

Beyrək on altı il Bayburd hasarında həbsdə qalır. Nəhayət, atasının göndərdiyi bəzirganlar uzaq-yaxın ölkələri çox gəzib dolaşdıqdan sonra onun izinə düşüb soyuq bir qış axşamı Bayburd qalasına yaxınlaşırlar. Onlar ağızlarından ağappaq buğ çıxa-çıxa soyuqdan titrəyərək qala divarları altında saz çalıb Beyrəyə xəbər çatdırırlar ki, Oğuzda onu hamı ölmüş bilir və nişanlısı Banuçiçəyi Oğuz gənclərindən birinə ərə vermək tədarükünə başlayıblar. Düyünə artıq çox az qalıb.

Beyrək bir hiylə ilə (bu hiylə, əslində, başqa bir mətləbin mövzusudur – bu mövzu isə Bayburd bəyinin qızının sirridir) Bayburd həbsindən qurtulub qaça bilir. O, özünü Oğuza çatdırır və təğyir-libas olub öz halalca nişan-

lısının toyuna gəlir. Oğuz Xanı Salur Qazan Beyrəyi ozan bilib ona iltifat edir. Cəsarətə gəlmiş Beyrək Xana belə bir arzusunu bildirir:

– Xan, izin ver, düyünü olan qız üçün mən saz çalım, o da oynasın, – deyir.

Xan ki, Beyrəyi tanımır, amma ozanın cürəti onun xoşuna gəlir və buna izin verir. Beyrək qadınlar oturan alaçığa gəlir. Deyir:

– Mən saz çalacağam, ərə gedən qız da oynayacaq.

– Mənim bu ozandan heç gözüm su içmədi. – Ərə gedən Banuçiçək ətrafında çevrə qurub oturmuş qızlara deyir. – Mən onun çaldığına heç zaman oynamanam.

Beyrək Banuçiçəyin sözlərinə heç bir fikir vermir, bardaş qurub xalça üstünə oturur və ahəstə-ahəstə sazını çalmağa başlayır. Çala-çala özünü Banuçiçəyə tanıdır. Beyrəyin çaldığı mahnı çox qəmli və həsrətli bir mahnı idi. Sazın sədaları sanki dil açıb Beyrəyin nakam taleyini danışır. On altı il Bayburd zindanı, el-oba həsrəti, yar-yoldaşın kiminin dönük çıxması, kiminin də ömrünü başa vurması, nakam məhəbbəti, hər gün, hər gecə xatırladığı sevimli yarı oxuduqca dinləyənlərin gözü qarşısında xəyal kimi canlanır. Bu zaman Banuçiçəyin ürəyi qısılmırmı, qısılır. Amma yenə də Banuçiçək üz-gözünü saqqal basmış, saçı az qala topuğuna çatan bu dərvişin dediklərinə inanmır. İnanmır ki, gördüyü, sevdiyi o yaraşıqlı Beyrək bu ozandır. Beyrək naəlac qalıb daha bilmir, nə etsin. Sonunda kor-peşman bir halda belə deyir:

– Yaxşı, mənə ki inanmadın, məni ki Beyrək olaraq qəbul etmədin, o zaman barmağındakı üzüyü qaytar, onu sənə mən vermişəm.

Banuçiçəyin bu zaman ürəyinə xal düşür, zənlə bir daha dəli ozanı diqqətlə təpədən dırnağacan süzür. Yenə də onu gördüyü və bir könüldən min könülə aşiq olduğu gənc Beyrəyə oxşada bilmir.

– Bu üzüyün sirri var, – Banuçiçək deyir. – Sən Beyrəksənsə əgər, bu sirri bilməlisən. Söylə o zaman görəlim, üzüyün sirri nədir?

Beyrək gülümsünmürmü, gülümsünür. Əlbəttə ki, o, bu sirri yaxşı xatırlayırdı. Bayburd qalasının zindanında Banuçiçəklə ilk görüş səhnəsi gözünün qabağında hər gün canlanır və uzun müddət yox olub getmirdi. Beyrək deyir:

– Bax, üzüyün sirrini sən istədin, mən açım. Taxsır məndən getdi. Biz səninlə ilk görüşümüz zamanı at çapıb yarışmadıqmı? Ox atmadıqmı? Güləşmədikmi?

Banuçiçək mat-məəttəl, əli ağzında qalır. O artıq duyuq düşür ki, qarşısındakı Beyrəkdir. Amma yenə də ondan soruşur:

– Bəs, yarışdan qalib kim çıxdı?

– Yarışdan qalib çıxan mənim qarşımda dayanıb durub.

Banuçiçək artıq məsələni başa düşür. Amma Beyrəyi son sınağa çəkmək istəyir:

– Sonra, sonra nə oldu, bəy yigit? – Banuçiçək titrək və zəif səslə, az qala pıçıltı ilə soruşur. Bu zaman qızın əqli başından az qalır çıxsın.

– Sonra mən səni... Sirri açımmı? – Beyrək gözlərini qıydı.

Elə ki Beyrək gözlərini qıydı, daha Banuçiçək bu ozanın Beyrək olduğuna qətiyyən şəkk-şübhə etmədi, bilmərrə inandı. İşarət barmağını dodaqları üstünə qoydu, yəni, "Sus".

– Aman... dur, danışma. Sənsən, bəli, sənsən ki, varsan! – Banuçiçək üzünü çadırdakı qadınlara tutdu. Qadınlar hamısı diqqət və maraqla bu söhbətə qulaq asırdılar, amma söhbət ki, sirli bir məcrada gedirdi, əlbəttə ki, onlar heç bir şey anlamırdılar. – Bəli, hamı qoy bilsin, bu, həqqən odur, Beyrəkdir!

Banuçiçək bu sözləri qətiyyətlə deyib özünü Beyrəyin ayaqlarına atıb qucaqladı, göz yaşlarına qərq oldu. Amma bu göz yaşları sevincdən doğan göz yaşları idi.

Beyrəklə Banuçiçəyin sirri Beyrəyin onu üç öpüb bir dişləməsinin (sevişmələrinin) sirri idi ki, Beyrək bu vacib dəlili sonadək açıb ortaya qoymur və verdiyi əhdə bivəfa çıxmır. Banuçiçək də öz növbəsində yarışların qalibi olduğunu dilinə gətirmir. Bunlar bir-birinin sirrini beləcənə qoruyurlar.

Beyrəklə Banuçiçəyin sirri açılmadan tarixin qaranlığında əriyib yox olur. Mən, Hacı Mir Həsən ağa Səyyah bu sirri sirlərin sirri sayıram və Beyrəyin sonrakı faciəli məhvini də qismən bu sirr ilə əlaqələndirmək mümkündür, deyə iddia edirəm.

× × ×

### *"Qış" fəsli (davamı)*

Günlərin bir günü qəribə bir hadisə baş verdi. Əslində, bu hadisə yalnız Həsən müəllim üçün qəribə sayıla bilərdi, Həlimə bu hadisədən, sadəcə, pərişan olmuşdu.

Mətbəxdə səhər yeməyi zamanı yenə ikisi idi. Həlimə çaşıb Həsən müəllimə "ata" demişdi. Həlimə fərqinə varmadan (fikri özündə deyildi):

– Ata, bir stəkan da çay içərsən? – deyə soruşdu.

Həsən müəllim əməlli-başlı səksəndi.

"Ata" demək var, "ata" demək var. Bir var "ata" müraciəti sənə kənar bir adamdan gəlir və bu müraciət, əslində, hörmət mənasında işlədilir, elə bu cür də başa düşülür. "Amma "ata" sözü bu yad qızın dilində – Həsən müəllim fikirləşə-fikirləşə qalmışdı, – sadəcə, hörmət əlaməti kimi səslənmədi. Həsən müəllim bu sözün səslənişində başqa bir nəvaziş tutmuşdu. Bu səslənişdə Həsən müəllimin unutduğu və xatırlamadığı bir əzizlik var idi. "Ata" sözünü bu cür ancaq doğma övlad dilinə gətirə bilərdi. Həsən müəllim çaşıb qalmışdı.

Həlimə, elə bil, özü də bunları duydu və sözünü dəyişib başqa cür təkrar elədi:

– Həsən müəllim, çay içirsiniz? – Sonra da gözlərində qorxaq (daha çox – yaltaq) bir ifadə Həsən müəllimin üzünə baxdı. Yəni, "bağışlayın", söz dilimdən çıxdı.

Həsən müəllim qızın daxili təlaşını hiss eləsə də, bunu üzə vurmadı, əksinə, Həliməni sakitləşdirməyə çalışdı. O da öz cavabına bir "qızım" sözünü əlavə elədi. Düşündü: "Qoy pərtliyi getsin":

– İçərəm, qızım. Nə bildin ki, mənim könlümdən elə bu dəqiqə çay içmək keçdi?! Özü də qəşəng, pürrəngi...

Əlbəttə ki, Həlimə Həsən müəllimin ona "qızım" deyə müraciət etməsini adi bir müraciət kimi qəbul elədi. Həm də ürək ağrısı ilə hiss elədi ki, atasının bu sözündə içdən, dərindən gələn heç nə yoxdur. Həsən müəllim küçədə yanından keçən naməlum bir qadına, qıza da bu şəkildə ("qızım" deyə) müraciət edə bilərdi. Həlimə doluxsundu. Atasının bu vəziyyəti onu

yavaş-yavaş əməlli-başlı incidirdi, qəribə və anlaşılmaz duyğular aləminə salırdı, sakitliyini və rahatlığını əlindən alırdı. Bu necə ola bilərdi ki, atası ona həm yaxın idi, həm də xeyli uzaq?! Bu necə ola bilərdi ki, Həlimənin hər günkü çalışması – nəvazişi, sözsüz məhəbbəti, hər arzusunu az qala onun özündən əvvəl hiss edib yerinə yetirməsi atasına təsir etmirdi. Atası bunu elə qəbul edirdi ki, sanki Həlimə bu evə xidmətçi kimi gedib-gəlir. Və heç cür anlaya bilmirdi ki (bəli, anlaya bilmirdi, Həlimə bunu onun gözlərindən oxuyurdu), bu qadın, yəni, Həlimə nə üçün onlarda qalır, nə üçün bu balaca, dəcəl qız da onunla bir yatağda yatır. Həlimə özündən xəbərsiz artıq hər şeydən qıcıqlanır, bəzən hətta dözülməz olurdu. Bundan ilk zərbəni, əlbəttə ki, onun qızı və qardaşları qəbul edirdi. Həlimənin bu halı istər-istəməz ətrafdakılara da təsir edirdi. Həsən müəllim artıq bu hirsli qadının yanında özünü rahat hiss eləyə bilmirdi.

× × ×

### *"Payız" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah uzandığı yerdəncə otağının pəncərəsindən eşikdə yağan payız yağışının ağır damlalarına baxa-baxa düşünürdü: "Görəsən, Beyrəyin və Banuçiçəyin sirri ilə tilsimə düşmüş odunçunun sirri arasında bir rabitə varmıdır, ya yoxmudur?! Ya ki, bu rabitənin mövcudluğunu o öz beyninin içinə olmayan yerdən gətirib salmışdır?!"

Onun payız qədər sevdiyi və ləzzət aldığı başqa mövsüm yox idi. Elə bu sevgisinə görə də risaləsini "Payız" fəsli ilə başlamışdı. Eşikdə yağış yağa, hava tutqun, buludlu, küləkli ola, sən də girəsən isti bir otağa və bütün bu soyuğa, zillətə sobada çatır-çatır yanan odun parçalarının ruhu dincəldən çıqqıltısı altında pəncərə arxasından tamaşa eləyəsən. Həqqən, payız fəsillərin şahıdır, çünki qeyri-müəyyəndir, qəti deyildir, sözünü sonadək demir və sənə qarşı biganədir – yay kimi yandırmır, qış kimi dondurmur, bahar kimi ürəyi qüssə ilə doldurub ümidsizləşdirmir. Bəli, bahar ki var, insanda olan bütün ümidləri öldürür. İnsanı öz ətri ilə, rayihəsi ilə, civildəşən və sevişən

quşlarının səsi ilə, torpağın oyanışı ilə, yaşamaq həvəsi ilə əvvəlcə yerindən oynadır, sonra zinhara gətirir, daha sonra isə az qalırsan hər şeyə, ətrafında nə varsa, hər şeyə nifrət edəsən.

"Payızı sevirəm, çünki bilirəm ki, payızın tutqun, boz, adamı riqqətə gətirən havasında insan kənar heç nəyə diqqət yetirmək istəmir. Özün öz içinə, özün özünə qayıda bilirsən, səni öz içindən kənarda heç nə saxlamır. Yalançı ümidlər yox, vədlər yox... Ancaq bu tutqunluq, ancaq bu külək, ancaq bu yağış, eşikdəki palçıq, qəlbdəki intizar payızla gəlir. İsinmək həvəsi, unutmaq hə-vəsi, ancaq özün üçün yaşamaq həvəsi payızla gəlir. Sonra qış girir və bütün bunları dondurur. Sonra bahar gəlir və bunları məhv edir. Yay fəsli hər şeyi yenidən diriltməyə çalışır, amma alınmır – çünki yay fəsli huşsuzluq zamanıdır. Fəsil fəsli-payızdır ki var. Görəsən, Beyrək Banuçiçəyə məğlub olmasını, onu öpüb əzizləməsini gizli bir şəkildə qıza açıb xatırlatmasaydı (o bunları on altı ilin həbsində ikən unuda bilərdi), Banuçiçək Beyrəyi tanıyacaqdımı?! Lap elə tanısaydı da qəbul edəcəkdimi? Görəsən bütün bunlar payız ayında olmasaydı (bu hadisənin isə payızda baş verməsinə Hacı Mir Həsən ağa Səyyah sidq-ürəkdən inanırdı), bu cür var ola biləcəkdimi?" Məsələnin canı bu idi.

Payız yağışının ruh təmizləyən səsi altında Hacı Mir Həsən ağa Səyyahı yavaş-yavaş huş apardı və o, mürgü vurmağa başladı. Nə zaman yuxuya getdiyindən xəbəri olmadı. Yuxusunda alabəzək bir tutuquşu gördü. Tutuquşunun ətrafı cürbəcür risalələrlə dolu idi. Bu tutuquşu qəribə bir otaqda divardan sallanıb qalmışdı və cır səsilə qışqırırdı: "Buraxın məni gedim, buraxın məni gedim, mən kiməm, mən kiməm, bilmirəm, bilmirəm, bilmirəm..."

×××

### *"Yaz" fəsli*

Növbəti sirr oğuz elinin qəvi düşməni Təpəgözlə bağlı idi. Hacı Mir Həsən ağa Səyyah bunu belə təsvir edir:

Rəvayət edirlər ki, Oğuz zamanında bədheybət məxluqat mövcüd imiş və bu məxluqat zaman-zaman insanlara əziyyət verirmiş.

Oğuz elinin əsas su mənbəyi Selləmə çayı idi. Bu çay suyu, balığı bol bir çay idi. Mənşəyini Qaf dağlarından alıb gəlirdi. Oğuz düzəngahına çatana qədər aramsız və səbirsiz, dəli bir həvəslə axırdı. Fəqət düzəngaha çatdıqdan sonra çay kəməndə düşüb məğlub olmuş at kimi sakitləşir, arif bir insan kimi təmkin göstərirdi. Hətta onun hansı səmtə axdığını belə bir baxmaqla görmək mümkün olmurdu.

Selləmənin dəlisov bir nöqtəsi vardı, oğuzların əsas məskəni Günortac adlı yerdən yuxarılarda idi. Çay məhz burada dağların-daşların arasından qəflətən burulub birnəfəsə və birbaşa min ilin həsrətliləri kimi özünü atırdı Oğuz düzəngahına.

Günlərin bir günü Selləmənin burulduğu bu yeri gəlib Təpəgöz adlı əcayib bir məxluq tutdu və suyun məcrasını dəyişdirib çayın üzünü yaxınlıqdakı dərəyə yönəltdi. Dərə dərin bir dərə idi və yavaş-yavaş ora axan çay onu dənizə döndərdi.

Təpəgözlər Oğuz diyarına uzaq-uzaq ellərdən gəlmə idilər. Onların adi adamlardan xeyli uca boyu, tənumənd bədəni, qüvvətli qolları var idi. Ən əcayib olan isə bu idi ki, təpəgözün adi adamlar kimi iki yox, təpəsində bir gözü var idi. Şəcərəsi uzaq yunan adalarına gedib çıxırdı. Mən (Hacı Mir Həsən ağa Səyyah özünü nəzərdə tutur) o adalarda olduğum zaman mənə hətta Təpəgözlərin yaşadığı mağaraları da göstərmişdilər. Bu mağaralarda artıq Təpəgözlər yaşamırdı. Burada onlardan xatirə kimi yalnız qalaq-qalaq insan və heyvan sümükləri qalmışdı. Ən əcayib olan isə bu idi ki, Təpəgözlər adam əti yeyirmişlər. Bir də mağaradakı divarlara qəribə yazılar cızılmışdı. Yerlilər bu yazıları nə "illah" edirdilərsə oxuya bilmirdilər. Zahirən gül-çiçəyə bənzədikləri üçün əhali bu yazılara "Çiçəkli yazı" adını qoymuşdu.

Oğuz diyarına gələn Təpəgöz, çox güman ki, yunan adalarından didərgin düşən məhluqatdan biri imiş. Onun buralara gəlmə sirrini və səbəbini kimsə bilmirdi. Bu Təpəgöz Oğuza gələn çayın qarşısını kəsir və Oğuz əhlindən yemək üçün gündə iki adam tələb edir. Oğuz əhli öz içindən Dədə Qor-

qud adlı bir mötəbər şəxsi seçib Təpəgözlə sövdələşməyə göndərir. Onlar sövdələşib razılığa gəlirlər və Oğuz camaatı suyun ağzını açmaq üçün Təpəgözə hər gün yeməyə bir adam və on qoyun verməyə başlayır. Bu minvalla xeyli zaman keçir.

Oğuz elinə gəlib çıxmış bu Təpəgöz, əslində, ürəyiyumşaq bir məxluq imiş. İnsan əti yeməyi onun günahı deyildi, məcazı belə idi. Yoxsa ki, o bunu insanlara bəslədiyi bədniyyəti ucundan etmirdi. Başqa cür, sadəcə, bacarmırdı. Gündüzlər yediyi adamlar üçün gecələr qəlbi qan ağlayır, bəzən göz yaşlarına elə boğulurdu ki, özü-özünə nifrət edirdi. Oğuzların Təpəgözü hətta olurdu ki, yemək üçün göndərilən gənc oğlan və qızları rəhm edib Oğuza geri qaytarır, haman gecə yarıac, yarıtox yatırdı. Yuxusunda doğulduğu və uşaq ikən, gənc ikən yaşadığı uzaq və yaşıl adanı görürdü. O ada üçün darıxdıqca darıxırdı. Yuxusunda sevdiyi və qarşılıqlı məhəbbətinə layiq görülmədiyi su pərisini (əslində, nəhəng, insanabənzər balığı) görürdü, elə yuxusundaca köksünü ötürüb doluxsunurdu...

× × ×

### *"Qış" fəsli (davamı)*

Həsən müəllim gözləri önündə canlanan bu yazıları oxuduqca özünü haman uzaq zamanda görürdü. O, düşünürdü ki, bu Təpəgöz həm bizim Dastandakı Təpəgözə oxşayır, həm də ona oxşamır. Bizim Təpəgöz yerlidir, Səyyahın Təpəgözü – gəlmə. Bizim Təpəgöz əzazildi, onun-bunun qulağın yeyir, burnun yeyir, Səyyahın Təpəgözü – mülayım və rəhmdildi. Bu necə ola bilər?!

Həsən müəllim yerindən qalxıb Tutuquşunun onünə keçdi.

Axır vaxtlar çətin, cəngəl bir məqamla qarşılaşanda o belə eləməyə başlamışdı. Sanki müqəvvadan kömək istəyirdi. Müqəvva da ona öz köməyini əsirgəmirdi. Quşun (müqəvvanın) cansız gözləri yenə diqqətlə ona baxmaqda idi. Elə bil, quş gözləyirdi ki, Həsən müəllim onunla danışsın, o da Həsən müəllimlə danışmasın. Həsən müəllim quşa müraciətlə dedi:

– Bilmirəm.

Tutuquşu ona cavab vermədi.

– Mən kiməm? – Həsən müəllim bu dəfə quşa belə bir sual ünvanladı.

Tutuquşu yenə də susdu. Bu dəfə də Həsən müəllim ondan heç bir cavab ala bilmədi. Həsən müəllim qayıdıb yerinə oturdu. Elə ki, oturub yerini rahatladı, yazılar gözəgörünməz yazı makinəsi tərəfindən yenidən "yazılmağa" başladı; onlar kağız üzərində həqiqətən yoxdan var olurdular. Həsən müəllim işinə başladı. O bu yazıları öz xəttilə yeni varağa köçürməyə güclə çatdırırdı.

×××

### *"Yaz" fəsli (davamı)*

...Bir gün heç nədən xəbəri olmayan Basat adlı igid, qoçaq bir Oğuz gənci (Aruz Qocanın oğlu) adamyeyən Təpəgözün əməllərindən xəbər tutur. Basat hərbi səfərdən yenicə qayıtmışdı. Onun gətirdiyi əsirləri Təpəgözə yemək üçün vermək istədilər. Basat:

– Bu əsirlər sizin nəyinizə gərəkdir? – deyə qeyzlə soruşdu. – Onları mən savaş meydanında qan töküb qənimət kimi əldə etdim. Onlar mənimdilər.

– Basat, oğul! – Basatın atası Aruz ona cavab verdi. – Basat, oğul, – dedi. – Bu əsirləri biz Təpəgözə göndərəcəyik. Ona hər gün yeməyə bir adam verməliyik. Yeyib-yeyib Oğuz əhlini o, az qala tükədəcək. Ümid artıq əsirlərə qaldı.

Atası bunları dedi, Basatın vaqeədən xəbəri yox.

– Təpəgöz hələ kimdir? – deyə soruşdu.

– Təpəgöz uzaq-uzaq ellərdən gəldi. Başımıza bəla gəldi. Selləmənin burulğacında çayın qabağını kəsib bizi su üzünə həsrət qoydu. İçməyə suyumuz yox. Aş qazanına tökməyə suyumuz yox. İnsanlardan daha çox mal-qara tələf oldu. Zəbun olduq, oğul. Heç kim onunla cəngə girə bilməz. Onu qılınc kəsmir, ona ox batmır. Təpəsində bir gözü varmış, əslində, yüz göz əvəzidi. Onu məğlub etmək mümkün deyildir. Bunu heç ağlına belə gətirmə.

Atası Basatın çılğın xislətini bildiyindən bu minvalla onu Təpəgözlə savaşdan kənar saxlamağa cəhd etdi. Basatı qorxutmaq istədi.

Basat atasına bir söz demir, amma gizli şəkildə Təpəgözlə cəngə hazırlaşır. Günlərin bir günü o, Təpəgözün çadır qurub yaşadığı yerə gəlir. Təpəgözün bir xidmətçisi vardı. Yeməyini bişirər, paltarını yuyardı. Oğuz əhlinin göndərdiyi bir əsir idi. Təpəgözlə Dədə Qorqud arasında danışıq belə olmuşdu ki, Təpəgöz ona dəyib toxunmasın.

Basat gəldiyində Təpəgöz təzəcə yatmışdı. Basat səsini qısıb bu xidmətçidən soruşur:

– Bu məxluqu qılınc kəsirmi? Buna ox batırmı?

– Yox, ağam, – deyə xidmətçi cavab verir. – Buna nə ox batır, nə də ətini qılınc kəsir, biləsən.

Basat çox düşünür-daşınır, Təpəgözün vücuduna aşağıdan yuxarı, yuxarıdan aşağı diqqətlə baxıb görür ki, bunun bədəni başdan-başa dəmirdəndi. Fəqət bir yerində ət var, o da tək gözüdü.

Basat Təpəgözü gözündən vurub öldürmək niyyətinə düşür. Bir ağacın böyük bir budağını kəsib ucunu ox ucu kimi çərtir və qızarana qədər oda tutur.

Nəhayət, Basat bu bir başı qızmar, odlu budağı əlinə alıb Təpəgöz yatdığı yerə yaxınlaşır və "ya Allah" deyib nagahandan bu odlu budağı Təpəgözün tək gözünə soxur. Elə soxur ki, Təpəgözün nərəsi ərşə qalxır. Sıçrayıb yerindən durur, iki əlilə yanar budağı gözünün içindən çəkib çıxardır. Gözündən fışqıran qan hər tərəfi bürüyür. Ağrıdan olmazın zülüm çəkən Təpəgözün ahı, naləsi qulaq deşir.

Basat bir daşın dalında gizlənib gözləyir. Kor olmuş Təpəgöz əllərini havada oynada-oynada onu bu hala salanı tutmaq istəyir, amma nə fayda, bunu bacarmır.

– Kimsən sən? Sən kimsən? Çıx, çıx meydana. Mən sənə can necə dadlı olur, göstərim, ah gözüm, vay gözüm...

Təpəgözün acı naləsi Basatın qəlbini zərrə qədər yumşaltmır. Basat onu məhv etmək fikrində israrlıdır.

Nəhayət, Təpəgöz heydən düşür və alacığın qabağında diz çöküb böyrü üstə yıxılır. İnildəyə-inildəyə qalır.

– Kimsən sən? Sən kimsən? – Təpəgöz pıçıldayır. Amma o, bu pıçıltısını artıq öz-özünə ünvanlayır (əslində, havaya ötürmüş olur). Bir qədər də keçir və Təpəgöz tamamən susur. Ətrafa ölü bir sükut çökür. Təpəgözün kor olmuş tək gözünün ağrısı ona hətta pıçıltı çıxarmağa imkan vermir. Bu bədheybət məxluq bütün gücünü itirib yerə sərələnib uzanmış və taqətsiz bir hala düşmüşdü. Bu zaman Basat əlində yalın qılınc gizləndiyi yerdən (daşın dalından) çıxıb arxadan yavaş-yavaş, ehtiyatla Təpəgözə yaxınlaşdı...

× × ×

### *"Qış" fəsli*

Həsən müəllim yenə çaşqın bir halda idi. Eynən Beyrəyin və Banuçiçəyin sirri ilə bağlı hissədə olan kimi Təpəgözün də sirrinin açılması hekayətin əvvəli üçün deyil, sonu üçün nəzərdə tutulmuşdu. Bu necə sirr idi və nə üçün Səyyah onun açılmasını (təkcə açılmasını deyil, hətta mövcudluğunu) axıra saxlayırdı? "Kitabi-Dədə Qorqud"un Drezden nəşrində (ona tanış digər nüsxə və nəşrlərdə) Təpəgözün heç bir sirri yox idi. Bəlkə, bu, ilkin, üstqatda olan oxunuşda belə görünür?! Bəlkə Təpəgözün də hamıdan gizli, məxsusi sirri varmış?! Uzaq yunan adasından buralara gəlməsi – sirr! Nə üçün bədəninin ancaq göz hissəsini kəsmək olar – sirr! Nə səbəbə gecələr yatmır və əzab çəkir – sirr! O, kimi sevib və niyə onun bu məhəbbətinə cavab verməyiblər – sirr! Sirr... sirr... sirr...

Yazılar isə kağız üzərində peyda olmağa davam edirdi.

× × ×

### *Yaz" fəsli (davamı)*

Basatın ona yaxınlaşdığını hiss edən Təpəgöz dikəlib Basatın qarşısında diz çökür və yenidən inildəməyə başlayır. Bir tərəfdən oyulmuş gözünün

dəhşətli ağrısı, digər tərəfdən yaxınlaşmaqda olan qurtuluş hissinin ləzzəti onun bütün vücudunu bürüyür. O, qurtuluşun, nəhayət, yaxınlaşdığını həyəcan içində vuran qəlbi ilə hiss edir. İnanılmazdır, amma bu, onu sevindirir. Ürəyini ümidlə doldurur. Dəfələrlə tənha keçirdiyi ağrılı-əzablı, məşəqqətli gecələrdə özünü öldürməyi, dünyaya vida eləməyi arzulamamışdımı?! Arzulamışdı. Qoyun kimi kəsib-şaqqaladığı və ətini yediyi adamlar, onların ah-zarı ona rahatlıq vermirdi. Təpəgöz bilirdi ki, onun üçün əvvəl-axır belə bir gün gələcək, öz əməllərinə görə o, cavab verməli olacaq. Oğuz camaatı ondan gec də olsa intiqamını alacaq. Təpəgöz gözləyirdi.

Ölü kimi düşüb qalmış Təpəgöz Basatın hənirtisini duyub birtəhər dizi üstə qalxdı. Basat əlində yalın qılınc gəlib onun böyründə səssiz bir halda dayanıb durdu. Təpəgöz heysiz-heysiz pıçıldadı:

– Mən səni gözləyirdim. Niyə belə gec gəldin?! Qurtar məni bu əzabdan. Burax məni gedim. Öldür məni. Elə gün olmayıb ki, mən intihar barədə düşünməyim. Elə gün olmayıb ki, əməllərimə cavab axtarmayım və o cavabı ancaq özümü öldürməyimdə görməyim. Elə bir gün olmayıb. Sənə bir sirr açımmı? Sağa baxıram, sola baxıram, darıxıram.

Basat heyrət içində Təpəgözə qulaq asırdı. O, Təpəgözü tamam başqa cür təsəvvür edirdi – zalım, ədalətsiz, amansız... Amma yenə də bu bədheybət məxluqun ürəyində gəzdirdiyi sirri – özünə qəsd eləmək ehtirası və beləliklə, günahını yumaq istəyi Basatın qətiyyətini zərrə qədər azaltmadı.

Basat qılıncının qəbzəsindən ikiəlli bərk-bərk yapışıb onu Təpəgözün başı üzərinə qaldırdı. Təpəgöz dodağının ucu ilə zorla gülümsünüb dedi:

– Sənin qılıncın məni kəsməz. Al, götür bunu.

Təpəgöz belindəki qılıncı (balaca, əyri qılınc idi) qınından çıxarıb ehmalca öz yanında torpağın üstünə qoydu. Bir daha yavaşcadan, elə bil, özü özü üçün təkrar elədi:

– Burax məni gedim. Öldürsə, məni bu öldürər.

Basatın əyilib Təpəgözün qılıncını götürməyilə onun boynunu vurmağı bircə anın içində baş verdi. Təpəgözün başı top kimi yerə, bədəninin önünə düşdü. Bədəni isə eləcə diz çökdüyü vəziyyətdə qaldı. Bir az da keç-

di. Basat boylanıb Təpəgözün xidmətçisini çağırmaq istədi. Xidmətçi bayaq qaçıb getmişdi, izi-tozu da qalmamışdı.

Basat qərara gəldi ki, Təpəgözün nəşini qazıb torpağa basdırsın. Bir də gözünü döndərəndə gördü ki, Təpəgözün nə başından, nə də vücudundan əsər-əlamət var. Təpəgözün başı da, vücudu da yox olmuşdu.

Basat buna təəccüb eləmədi. Çünki Təpəgözün arzusu yerinə yetmiş, Basat onu buraxmış və o çıxıb getmişdi. Basat atına minib yavaş-yavaş Selləmə çayının sahili ilə üzüaşağı Oğuz düzəngahına doğru yol aldı. Selləmənin tutulmuş ağzı açılmış və yaz suları sel kimi axıb Oğuzun içinə doğru gedirdi. Basatın qulağında isə Təpəgözün yalvarış dolu bu sözləri səslənə-səslənə qalmışdı: "Burax məni çıxım gedim. Burax məni çıxım gedim...

× × ×

### *"Qış" fəsli (davamı)*

Yazılar zühur eləməklərini bir ləhzə durdurdular. Hacı Mir Həsən ağa Səyyahın yazdığı risalənin "Kitabi-Dədə Qorqud"la bağlı hissələri burada sona çatırdı. Həsən müəllim son səhifəni oxuyub bitirdi. Tilsimə düşmüş odunçunun sirrinə Beyrəyin, Banuçiçəyin, Təpəgözün də sirri qatılmış oldu.

Həsən müəllim həmişə belə düşünmüşdü ki, həqiqətə çatmağın yolu cavabdan yox, sualdan başlayır. Və o, bir tarixçi kimi, mədəniyyətşünas kimi "Dədə Qorqud" dastanına öz suallarını, demək olar ki, həyatı boyu, yəni, bu dastanla məşğul olmağa başladığı zamandan verirdi. İndi ona elə gəldi ki, o suallardan birini bir daha səsləndirməyin vaxtı çatıb. Sual belə idi: Dədə Qorqud, Qazan xan, Beyrək, Banuçiçək, Şirşəmsəddin, Burla xatun və Oğuz cəmiyyətindəki digər obrazlar bir-biri ilə aydındır ki, qədim Oğuz dilində danışırdılar. Hətta Dədə Qorquda həqarətlə yanaşan Dış Oğuzlu Dəli Qarcarla da Dədə Qorqudun dil problemi yox idi. Məsələnin bu tərəfi aydın idi. Sirli olan isə başqa bir şey idi. Sirli olan bu idi: bəs Qanturalı Sarı donlu Selcan Xatunla hansı dildə danışırdı?! Selcan Xatun axı

yadelli və kafir qızı idi – Trabzon təkurunun qızı. Bəs Beyrək Bayburd bəyi (o da kafir idi) ilə, onun qızı ilə hansı dildə danışırdı?! Bayburd bəyi Dəli Qarcarla hansı dildə danışırdı?! Və nəhayət, Dədə Qorqud Təpəgözlə hansı dildə danışırdı?! Kağızların bəyazlığında zühur edən Təpəgözün axı Oğuz elinə dəxli yox idi. Kitabdakı Təpəgöz, bəli, bu dili uşaqlığından üzü bəri öyrənə bilərdi, bəs Səyyahın göndərdiyi risalədəki Yunan adalarından gələn Təpəgöz oğuzların dilini necə və nə zaman öyrənmişdi?! Suallar, suallar, sirlər, sirlər...

Bu sirli, müəmmalı məqamlar nəyin üzərinə qaranlıq salırdı, nəyi bizdən gizlədirdi?! Onların açılması kimə və nə üçün lazım idi?! Bu sirrlərin içindən yeni sirrlər doğacaqmıydı?! Həsən müəllimin bu suallara cavabı yox idi. O yorulmuşdu. Həsən müəllim daha oxuduqlarının həqiqət, yaxud yalan olduğu barədə düşünmürdü. O, kabinetin pəncərəsinə yaxınlaşıb bayıra – fontan tərəfə baxdı. Bayırda payız küləyi payız yağışı ilə boğuşurdu, deyəsən, onlar şəhərin qədim zamanlarında olan kimi ölüm-dirim savaşına çıxmışdılar. Bir nəfər əllərini başı üzərinə çətir edib qaça-qaça fontanın yanından ötdü və tindəki kafeyə girdi.

Qəflətən Həsən müəllim Tutuquşunun səsini eşidən kimi oldu. Müqəvva təzədən quşa dönmüşdü, gözləri par-par yanırdı. Tutuquşu deyirdi:

– Burax məni çıxım gedim. Burax məni... burax məni...

Həsən müəllim Təpəgözün son sözlərini xatırladı: “sağa baxıram, sola baxıram, darıxıram.

Bəyimin böyük bir sirri var idi. Bu həm də Həsən müəllimin sirri idi. Bu sirri onlar Həsən müəllimlə bir yerdə tələbəlik illərindən ta ki, uşaqlar böyüyənə qədər (daha doğrusu lap elə bu günlərə qədər) hər kəsdən gizlətmişdilər. Bu sirri Bəyim yalnız İnstitutun son ilində sevgilisi olmuş Həsən müəllimə açmışdı.

Bir məhzun yaz axşamı Həsən dənizkənarı parkda hər ikisinin sevimli skamyasına oturub Bəyimi gözləyirdi. Qızı görən kimi gözləri güldü, qəlbi sevindi və tez yerindən qalxıb, əlində səliqəylə tutduğu dama-dama pencəyini Bəyimin çiyinlərinə saldı. Bəyim qürurla, bir az da nazlana-nazlana,

pencəyi çiynində yerinə oturda-oturda keçib skamyanın sağ künçündə əyləşdi. Həsən onun yanında oturdu. Söhbəti elə bu zaman başladılar.

– Niyə gecikdin? – Həsən soruşdu. Əslində, sual ritorik idi, qız bir elə də gecikməmişdi, söhbətə isə başlamaq lazım idi.

– Otağımızı (Bəyim qızlar yataqxanasında qalırdı) yoxlamağa gəlmişdilər. Təmizkarlığımıza qiymət verirdilər. Güclə canımı qurtardım.

– Qiymət verdilər?

– Vaxt verdilər. Həmkarların sədri dedi ki, bir həftə vaxtınız var. Hər yer gül kimi parıldamalıdır.

– Gül parıldamır axı. – Həsən gülümsədi.

– Ağlıma gəlmədi, yoxsa ona elə belə də deyərdim. Sən nəyə gülürsən? Kefin kökdü, yoxsa nə isə baş verib? Düzün de, nə baş verib, noolub?

Həsənə baxıb Bəyimi gülmək tutdu. Həsən gülümsəyəndə dodaqları qəribə gülməli vəziyyət alırdı, elə bil, bir az büzülürdü. Bu, Bəyimin, çox xoşuna gəlirdi.

– Hə, yenə dodaqların büzüldü... Nə var, desənə, noolub?

– Heç, sənə bir xəbərim var. Bizimkilər səni görməyə gəlmək istəyir – anam.

– Niyə?? – Bəyimin bir an içində qanı qaraldı, rəngi qəflətən qaçdı, ürəyi az qaldı dayana.

– Necə yəni, niyə? Bəs danışmamışdıq?

– Nəyi?? – Bəyim artıq məsələni anlamışdı, amma düşünmək üçün vaxt udmaq istəyirdi.

– Bilmirəm. – Həsən narahat oldu, o hiss elədi ki, Bəyim nəyisə ondan gizlətməyə çalışır. Və susdu.

Bir az keçdi. Bəyim də Həsən kimi qanıqara oturmuşdu. Heç biri dinib danışmırdı. Həsənin qanının qara olması Bəyimlə bağlı idi. Ona elə gəlirdi ki, Bəyim evlənmək məsələsinə "pəl" vurmaq istəyir, onunçün də anası ilə görüşdən yaxasını qaçırır. Bəs Bəyim nə üçün qanıqara idi – bunun isə ayrıca ciddi səbəbi vardı.

– Mən başa düşə bilmirəm, anamın gəlməsi səni niyə belə qorxutdu?

– Məni? – Bəyim üzünə "anlamadım" deyə qəribə bir ifadə verərək soruşdu.

– Bəli, səni.

– Niyə? – Bəyim, birsözlü suallarla bu qəliz söhbətdən canını qurtarmaq istəyirdi. Ürəyindən isə bu zaman qara qanlar axırdı.

Həsən müəllim o günü yaxşı xatırlayırdı. Bəyimin bu sualından sonra o, Bəyimdən aralanıb bir qədər kənara çəkilmişdi. Həqiqətən, Həsən müəllim  incimişdi, Bəyimin anlaşılmaz hərəkətini bir yerə yoza bilmirdi.

Bəyim səsinin nəvaziş dolu yerinə saldı. Uşaq kimi əzildi:

– Küsmə, nolar küsmə. Mən axı o mənada demədim. Mən sənin anan ilə görüşməkdən utanıram.

– Yox, utanmırsan. Bunun nəsə başqa səbəbi var.

– Nə ola bilər ki?.. – Bəyimin təkcə gözləri deyil, səsi də yol çəkdi. Bir daha, bu dəfə pauzalarla təkrar elədi. – Nə ola... bilər... ki?

– Bilmirəm. Buyur, sən söylə görək. Niyə bu xəbər səni belə çaşdırdı.

– Çaşdırmadı. – Bəyim uşaq rolundan çıxdı. Artıq Bəyimin səsi boğuq idi və çox-çox uzaqdan gəlirdi. – Bu evlənmək məsələsi bir az tez deyil?

Həsən bu dəfə əməlli-başlı pərt oldu. Amma biruzə vermədi, özünü ələ almağa çalışdı.

– Bəs deyirdin, sizinkilər razıdı?..

– Deyirdim? Hə, deyirdim.

– Nooldu?

– Nooldu? Heç...

Həsən müəllim hiss elədi ki, həyəcandan damarda qanı donur. Nə olursa, olsun, bu mənasız söhbəti qurtarmaq lazım idi. Dünənə, yox, elə bu gün günortaya qədər onu sevdiyinə, onunla evlənməyə razı olmasına inandığı Bəyim, elə bil, indi heç özü deyildi, bir başqa Bəyim idi, üz-gözü də dəyişmişdi, səsi də. Nə düşündüyünü anlamaq hələ heç mümkün deyildi. Həsəni naməlum yad bir hiss bürüməyə başladı. Bunun adına qısqanclıq deyirlər. Ona elə gəldi ki, Bəyim ondan soyuyub, nəinki soyuyub, hətta meylini başqa birisinə salıb. "Kim, kim ola bilər, kimdi, kimdi, o?" – Həsənin beynində cürbəcür suallar dolaşır, o, fikrini bir yerə cəm eləyə bilmirdi.

– Bilirsən, Həsən, mənim səndən saxladığım bir məsələ var. – Nəhayət, özünü topladı və qəti bir qərara gələrək Bəyim birnəfəsə dedi.

Həsən qızdan bu sözləri eşidib daha tam əmin oldu ki, şübhələri doğruldu, onların sevgisi baş tutası deyil. Amma necə xəyallar qurmuşdu?! Hansı ümidlərlə yaşayırdı? Bəyimlə bir yerdə Azərbaycanı deyil, dünyanı fəth edəcəkdi, olmadı. "Deməli, kimsə var arada. Ürəyimə nahaqdan dammamışdı. Kimsə var..."

Külək əsməyə başladı. Həsənin gur qara saçlarını dağıdıb üzünə, gözünə vurdu. Bəyim istədi həmişə olduğu kimi onun saçlarını oxşasın, qoxlasın, bu dəfə ürək eləmədi. "Bu sevda bura qədər imiş. Bu gün son gün olacaq. Olsun. Qismət deyilmiş. Amma ona bu sirri açmalıyam. Nə olursa olsun."

Bəyim bu qərara gəldikdən sonra daxilən sakitləşdi, amma görürdü ki, Həsən əməlli-başlı əzab çəkir və bu əzabı Həsən onun üçün çəkir. Buna görə Bəyimin özü də həyəcan içində idi və bu həyəcandan heç cür xilas ola bilmirdi. Nəhayət, özünü ələ alan Bəyim Həsənin üzünə baxmaya-baxmaya, gözünü dənizdəki uzaq bir nöqtəyə dikib (onların sevimli skamyaları ağacların arasında olsa da, dəniz tərəf açıq idi və onlar dənizi sevə-sevə burdan seyr edə bilirdilər) danışmağa başladı:

– Əzizim Həsən. Bəlkə də mən bunu sənə çoxdan deməliydim, yaxşı olardı ki, məktubla yazaydım. Amma qorxdum... nəysə... Belə alındı. Yəqin ki, bir vaxt mən bunu onsuz da deməliydim. Ürəyimi sənə açmayıb kimə açasıyam ki... Səni çox sevirəm, əzizim Həsən...

Həsən Bəyimə "bəs onda bu nə oyundu çıxarırsan?" demək istədi, amma susdu, qızın sözünü kəsmək istəmədi, indi o qızı təkcə qulaqları ilə deyil, bütün vücudu ilə, bütün ruhu ilə dinləyirdi, nəfəs çəkməyə belə qorxurdu, qorxurdu ki, Bəyimi ürkütsün, o da sözünün dalını gəyirməsin.

– Səni çox, lap çox sevirəm... – Bəyim təkrar elədi. – Amma səndən saxladığım bir sirrim var. – Bəyim bunu deyib susdu.

Əhvalı artıq birdəfəlik xarab olmuş Həsən az qala sinəsində öz ürək döyüntülərini eşitməyə başladı.

– Bir sirrim var, bəli. Bunu heç kəs bilmir. Həsən, sən biləsən ki, mən özüm üçün bir bioqrafiya uydurmuşam. Özüm üçün, sənin üçün, qızlar üçün, müəllimlər üçün. Həsən, mənim anam, atam, qardaşım, bacım yoxdu, şəhərim, kəndim, bəlkə heç vətənim də yoxdu. Heç kimim yoxdu.

Həsən müəllim təəccüb içində başını döndərib qıza baxdı: "Necə yəni, bu nə danışır görəsən?" Beynindən bunlar keçsə də, amma yenə susdu, ürəyi ata-ata Bəyimin dediklərinin davamını gözlədi. Bəyim bir qədər ara verib sözünə davam elədi:

– Mən bir yetimxana qızıyam, Həsən. Sənə də layiq deyiləm, biləsən. Atam kimdi, anam kimdi – bilmirəm. Məktəbi də internatda oxumuşam. Sonra oxuyub İnstituta daxil olmuşam, yataqxanada yaşayıram. Bundan sonrasını sən bilirsən. Sənə kəndimizdən danışırdım – yoxdu o kənd, Həsən. Sənə atamdan, anamdan danışırdım – yoxdular onlar, heç bilmirəm də ki, hardadılar. Bəlkə heç olmayıblar. Nadinc qardaşımdan, ədalı bacımdan danışırdım – yoxdular. Uff...

Bəyim günahkar adamlar kimi dərindən köksünü ötürüb susdu. Elə bil, ürəyinin başına uzun zamandan bəri sancılıb ona rahatlıq verməyən bir neştər vardı, onu, nəhayət, çıxardı. Və Bəyim ürəyi həyəcandan üzünə baxmağa cəsarət etmədiyi Həsənin ona nə deyəcəyini gözləməyə başladı. Deməyə daha söz qalmamışdı. Yəqin ki, Həsən elə bu dəqiqə ayağa qalxıb təkcə bu bağdan deyil, onun həyatından birdəfəlik gedəcək. Onu birdəfəlik tərk edəcək. Əlbəttə, Həsən onu artıq qəbul etməz. Etməyəcək, etməyəcək...

Həsənin qəlbində heç bir təlatüm, fırtına, qasırğa tüğyan etmədi. Əksinə, o sakitləşdi:

– Noolsun? – qısqanclığını bir anda unutmuş Həsən öz sualı ilə Bəyimin qaynayıb yanan başının üstünə, elə bil, bir vedrə soyuq su tökdü. – Noolsun? Sən necə düşünə bilərsən ki, mən səni buna görə ata bilərəm?! Olmasın. Heç kimin olmasın. Mən ki, varam... Sənin atan da, anan da, qardaşın da, bacın da mənəm... – Həsən qızışıb hələ çox danışacaqdı. O, qız tərəfə baxmağı da deyəsən, unutmuşdu. Sağ əli, özü-özünə gedib Bəyimin çiyinlərini qucaqladı. Birdən Həsən hiss elədi ki, Bəyimin çiyinləri tir-tir titrəyir.

– Ay dəli... – Həsən deməyə başqa söz tapmadı.

Bəyim başını çöndərib Həsənin əlindən öpdü, sonra əyilib dizlərini qucaqladı və hönkür-hönkür ağladı.

Həsənin ürəyi elə sıxıldı, elə sıxıldı, o bilmədi ki, neyləsin... Eləcə "noolsun?" deyə-deyə qaldı. Əli ilə Bəyimin saçını tumarladı. Onun da gözləri yaşarmamışdımı, yaşarmışdı. Sonra o, Bəyimin başını qaldırıb üzünü, gözünü, saçlarını öpüşlərə qərq etdi.

× × ×

### *"Qış" fəsli (davamı)*

Risalənin yazıları zühur etməyinə davam edirdi:

Məmləkət şəhərlərindən birinin yaxınlığında (bəlkə də girəcəyində) xalq arasında adına Oğuz düzəngahı deyilən bir düzəngah vardı. Bu düzəngaha burulan yolun sağ tərəfində (şəhərə doğru gedərkən) bir təpə vardı. Bu təpənin varlığı ilə yoxluğu tam bir müəmma idi. Deyilənlərə görə o bəzən ona baxan adama görünür, bəzən isə görünmürdü. Amma əslində, bu təpə heç kimə görünmürdü. "Gördüm" deyənlər yalan deyirdi. Təpə həm var idi, həm də yox idi. Bunun üçün də adı Görükməz təpə idi. Çox az adam tapılardı ki, bu təpənin varlığına inansın. Əksər əhali elə bilirdi ki, təpə, əslində, yoxdur. Ancaq təpəyə qalxan olardısa (bu isə "qurd ürəyi" yemiş birisi ola bilərdi) yalnız o zaman boşluqda hava ilə göyə doğru addımlayan adamı görmək olardı. Ayaqlarının altında daş-torpaq olsa da, kənardan baxana boşluqda yuxarı yeriyən kimi görükən bu adam özü də ayağını basdığı torpağı görmürdü. Təpənin başına qalxdığı zaman aşağıdan ona baxanlar bu adamın boşluqda, hava ilə yuxarı qalxmasını görür və Allahın qüdrətinə şükürlər edirdilər.

Görükməz təpənin qarşı tərəfindən (yolun o biri tərəfindən) bir dərə açılırdı. Dərə vadi kimi uzanırdı. Dərənin sehri var idi. Yaz-yay, payız-qış bu dərə də, vadi də solmayan bir yaşıllıq içində olardı. Qışın oğlan cağında belə havası mülayim, xoş, hündür ağaclarının üstü cürbəcür meyvələrlə dolu idi. Daim yaşıl ağaclar, kollar, gur suyu çağlayan bulaqlar, şən-şən

cəh-cəh vuran quşlar bu dərəni valehedici, füsunkar bir məkana çevirmişdi. Dərədə yaşayanlar var idi. Bunlar sehirbaz idilər. Onlar dərə boyu ora-bura səpələnmiş mağaralarda (hücrələrdə) yaşayırdılar. Dərənin adı ətrafa elə belə də yayılmışdı: Sehirbazlar dərəsi. Şəhər əhli və hətta uzaq-uzaq şəhərlərdən caduya-pitiyə, sehrə ehtiyacı olanlar bu dərəyə gələr, orada hər hansı sehirbazla razılaşıb dərdini söylər, çarəsini gözlərdi.

Sehirbazlar hər gün iki-iki, üç-üç dərənin dibində gəzişib, bir-birilə söhbət edərdilər. Oxuduqları kitab və risalələri təhlildən keçirərdilər. Müştəri gəldiyində hər sehirbaz qazandığı pul-paranı dərədə yaşayanların ümumi güzəranı üçün xərclərdi, heç kim şəxsən özünə mənfəət gözləməzdi.

Qəribə idi, sehirbazlar bu məkana gələnlərdən yox, özləri özlərindən dünyada baş verənləri öyrənir və bir-birini ən uzaq məmləkətlərdə baş verən hadisələr barədə xəbərdar edərdilər. Onlar bunu hardan, necə öyrənirdilər – bunu bilmək asan iş deyildi. Bəlkə də onların təkliyə qısıldıqları vaxt vardı, onun içində bir göz qırpımında dünya-aləmi dolaşıb yenə bura, bu möcüzəli, həmişəyaşıl məkana qayıdırdılar. Ola bilərdimi?! Ola da bilərdi, olmaya da bilərdi. Sirr idimi, sirr idi və bu sirr qonşu Həzrətqulunun sirri deyildi.

Sehirbazların bir yerdə gün keçirmələrindən əlavə, bir-birindən ayrıca, tək-tənha keçirdikləri vaxtın adına "təkcənəlik vaxtı" deyilirdi. Təkcənəlik vaxtı bir qəribə zaman kəsiyi idi. "Təkcənəlik vaxtı" hamı sehirbazlar bir-birindən gizlənər və ayrı-ayrılıqda hərəsi bir tərəfə çəkilib huşa gedər, sanki bu yerlərdən quş kimi aralanıb tamam başqa məkanlara uçardılar. Bu vaxtın içinə girənlər özlərini və ətrafdakıları unutmuş bir halətə gələrdilər, heç nəyə diqqət edə bilməzdilər. Məhz bu vaxt onlar gedib uzaq-uzaq ölkələri gəzir və öz sehirləri üçün güc yığırdılar. Sonra isə bu gücü lazım olan istiqamətə yönəldirdilər.

"Görükməz təpə" deyilən bu təpənin yaxınlığında bir şəhər var idi. Bu şəhərdə bir tacir yaşayırdı. Onun üçün dünyada alış-verişdən daha sevimli bir məşğuliyyət yox idi. Bu sevgisi ona rəhmətlik atasından miras qalmışdı. Atası uzaq-uzaq ölkələrlə ticarət edər, özü də tez-tez səfərə çıxar, nəfis mal yükü ilə dolu karvanları məmləkətə gətirərdi. Şəhər bazarında

Əhmədəli tacirin xüsusi hörməti var idi. İşini sevər, alış-veriş olmayan gününü ömürdən saymazdı.

Hətta bir dəfə belə bir hadisə olmuşdu ki, onun oğlu tacir Məhəmmədəlinin hafizəsindən bu gün də silinmirdi. O uzaq dəhşətli gecəni tacir Məhəmmədəli bu gün də qanı damarında donmuş, ürəyi bərkdən döyünə-döyünə xatırlayır, heç cür unuda bilmirdi.

Bir dəfə səfərə çıxdıqları ölkələrin birində ata və oğul dəniz sahilində bir gəmini mal ilə doldurub dəniz yolu ilə yollarına davam edirlər. O biri sahildə onları artıq böyük bir dəvə karvanı gözləyirdi. Məmləkətə yol alacaqdılar. Qış fəslinin ortaları idi. Gecə vaxtı qəfildən tufan qopur, amansız dalğalar gəmini qoz qabığı kimi belədən elə, elədən belə atmağa başlayır. Hamı gəmidəkilər kəlmeyi-şəhadətləri dillərində ümidlərini ancaq və ancaq bir olan Allaha bağlayır. Amma Allahın dünyanı unutduğu günlərdən biri imiş. Getdikcə gəmiyə su dolur, gəmi yavaş-yavaş sağ böyrü üstə əyilir və batmağa başlayır. Özünü şahə qalxmış dalğaların qucağına atan kim, gəminin sol küncünə sığınıb əlləri göydə dualar edən kim... Qərəz, gəmi yavaş-yavaş sulara qərq olur, Əhmədəli tacirin bütün malını dənizin rəhmsiz suları udur və mallar balıqların yeminə çevrilir. Ata və bala özlərini bir qayığa zorla sala bilirlər və aramsız atılıb-düşən bu qayığın içindən batmaqda olan gəmini məyus-məyus seyr edirlər. Tacir Məhəmmədəli atasına deyir:

– Ata, bu nə işdi gəldi bizim başımıza? Nə dəhşətli bir gün oldu bu gün...

Atası qəm içində cavab verir:

– Elədi, oğul, elədi. Amma bundan daha pis ola bilərdi! Buna da şükür.

– Ay ata, sən nə danışırsan? Biz hələ də ölümün cəngindəyik. Hələ də canımız tam qurtulmayıbdır. Bundan daha pis nə ola bilər ki?

– Ola bilər, oğul, ola bilər. Bundan daha pis kasad bazar ola bilər.

Səhərə yaxın hava mülayimləşir və dalğalar sakit olur. Allahın möcüzəsi ilə ata və bala ölümün caynağından qurtulur. Amma o gündən etiba-

rən onlar bir daha dəniz səyahətinə çıxmır. "Kasad bazar" söhbətini isə tacir Məhəmmədəli bu günə qədər xatırlayir.

Məhəmmədəlinin tacirliyi dillər əzbəri idi. Deyirdilər ki, o, daşdan da pul çıxara bilirmiş. Bəziləri isə onun "əl kimya" elminə vaqif olmasından danışır və misi qızıla çevirə bilmək qabiliyyətini tərif edirdi. Tacir Məhəmmədəli dövlətli olduğu qədər də xəsis və pulgir birisi idi. Onun xəsisliyi dillər əzbəri idi. Hətta özgə malına göz dikməyi də var idi. Ucuzuna mal-mülk alıb varidatına əlavə edərdi. Qızıl dolu kisələrini harda gizlədirdi – bunu heç kim bilmirdi, hətta evdə uşaqlarının da bundan xəbəri yox idi. Kisələr isə yaşadığı mülkün dal həyətindəki bağçada çoxlu sayda ağacın arasındakı baharda gəlin kimi ağappaq yarpaq açıb qol-budaq atan armud ağacının altında səliqə ilə torpağa basdırılmışdı.

Tacir Məhəmmədəlinin iki oğlu var idi. Böyük oğlu Nəzərəli atasının ticarət işlərində ona kömək edirdi. O, atasının bazardakı dükanlarında çalışır, satmağa mal gətirmək üçün səyahətə çıxır, sifarişlə gedib yaxın-uzaq ölkələrdən mal gətirirdi. Kiçik oğlu Novruzəli isə yaşı iyirmiyə çatsa da hələ bir işin sahibi olmamışdı.

Bir gün Novruzəli atasına xitabən deyir:

– Ey mehriban ata!

– Bəli, oğul. – Tacir Məhəmmədəli cavab verir.

– Mən səyahətə çıxmaq, dünyanı görmək istirəm. Çərxi-fələk deyilən bir ölkə var, ordakı adamlar hər bir işlərini fırlana-fırlana görürlər. Hara gedirlərsə fırlana-fırlana gedirlər. Çox sirli və qəribə bir məkandır. Mən Çərxi-fələk ölkəsinə səyahət etmək istirəm. Nə deyirsən?

Atası bu sözləri eşidib bərk hirslənir:

– Çərxi-fələkdə elə bircə sənin kimi ağıldan kəm tüfeyli əksik idi, sən də ora getsən, onların işi tamamən düzələr. Çərxi-fələyə getmək istəyir bu. Heç bilirsən bu səyahətin xərci nə qədərdi?! Sən yaxşısı budu, qardaşına kömək elə. Boş-boşuna ortada gəzirsən. Bu səfərin heç kimə faydası yoxdur. İşlə, çalış. Əlbəttə, gün gələr, Çərxi-fələyə də gedib çıxarsan. Elə ordaca fırlana-fırlana qalarsan və geri dönməzsən, inşallah.

Böyük qardaş Nəzərəli atasının bu sözlərinə ürəyində gizli-gizli gülürdü. Onun kiçik qardaşı Novruzəlini görməyə gözü yox idi, Novruzəlinin bundan xəbəri yox.

Novruzəlinin hər gün şəhərin yaxınlığındakı Görükməz təpəyə tərəf getdiyini bunlar bilmirdilər. Görükməz təpə bir sirli təpə idi. Baxana görükmürdü, amma mövcud idi. Addım-addım yeriyib başına çıxmaq olardı. Kənardan baxan bu zaman elə bilirdi ki, adam hava ilə addım-addım üzü yuxarı göylərin yeddi qatına qalxır.

Təpənin bu kəramətini onunla bağlayırdılar ki, qarşısındakı düzəngah yolundan o tərəfə böyük bir dərə açılırdı. Dərədə sehirbazlar yaşayırdı. Bəlkə də izi azdırmaq üçün bu təpəni elə sehirbazların özü görükməz etmişdi, kim bilirdi?! Bunun özü də böyük bir sirr idi.

Novruzəli dərviş Hüsnükərəmi tanıdıqdan sonra, demək olar ki, hər gün gedib bu təpənin başına çıxar, yolun qarşı tərəfindəki sehirbazlar dərəsini oradan seyr edərdi.

O, soyuqdan üşüsə də, başına qar yağsa da qışın oğlan çağındakı Sehirbazlar dərəsinin yaşıllıqlarına, bahar dolu mənzərəsinə baxdıqca baxır, əvvəlcə əhvalına, sonra da vücuduna bir istilik yeridiyini duyurdu. Qışdan baharı seyr elədikcə hiss edirdi ki, qəlbinə qəribə hislər dolur, getmək, gözdən itmək, uzaqlarda dolaşmaq, gəzmək, görmək, öyrənmək, qayıtmaq, yenə getmək arzusu bütün vücuduna hakim olurdu. Xeyli müddət əvvəl o, şəhər bazarında Sehirbazlar dərəsində yaşayan dərviş Hüsnükərəm adlı bir sehirbazla tanış olmuşdu. Sehirbazlar şəhərə tez-tez gəlirdilər. Novruzəli ondan sehir barədə bəzi şeylər öyrənmək istəmişdi. Bu sehirbaz ona demişdi:

– Görükməz təpənin altındakı dərəyə gəl, məni soruş, orda görüşüb danışaq.

– Bə sənin adın nədi? Mən orada kimi soruşum?

– Mənim adım dərviş Hüsnükərəmdi.

Beləliklə, dərviş Hüsnükərəmlə Novruzəlinin dostluğu bu cür başlayır. Onlar Görükməz Təpənin altında tez-tez görüşməyə başlayırlar.

İlk görüşdə dərviş Hüsnükərəm Novruzəliyə deyir:

– Bax, sən istəyirsən, bu təpənin başına qalxasan. İstəyirsən, Çərxi-fələyə gedəsən. Amma bilməlisən ki, bu təpəyə çıxdıqdan sonra camaat səndən qaçmağa başlayacaq. Elə biləcəklər ki, səndə cadu var, cadugərlik var. Cadu ilə sehir isə eyni şey deyildir. Bunu bilməyini istəyirəm.

Gün dolandı, ay dolandı. Atası heç bir vəchlə hər gün daha çox ürəyi sıxılan, buralardan getmək dərdinə mübtəla olmuş oğlunu (Novruzəlini) Çərxi-fələk həvəsindən çöndərə bilmədi. Gizlində qardaşı Nəzərəli onu bu əmələ hətta təşviq edib belə deyirdi: "Sehirbaz olsan, sən də könlün istədiyi kimi yaşayacaqsan, ürəyindən keçəni edə biləcəksən". İstəyirdi ki, Novruzəlinin ürəyi ticarət işlərindən tamamən soyusun. Novruzəli isə bunsuz da qarşısına məqsəd qoymuşdu: o, sehirbaz olacaqdı. Ətrafda yaşayan fəqir-füqəranın həyatına bir fayda gətirəcəkdi, işlərinə yarayacaq, həyatlarını daha gözəl edəcəkdi.

– Bunları etmək üçün, əlbəttə ki, sehirbaz olmağın vacibdir. Yoxsa, mümkün deyil. – Dərviş Hüsnükərəm deyirdi. – Sən gərəkdir, Çərxi-fələk ölkəsinə gedəsən. Burada sən sehirbazlığı heç kimdən öyrənə bilməyəcəksən. Əsl sehirbazlığı Çərxi-fələkdə müdriklər müdriki Ağ dərvişdən öyrənəcəksən. Ağ dərviş mənim ustadımdır. Amma bir məsələ var. Sən Çərxi-fələk ölkəsinə elə-belə gedəmməssən. Əvvəlcə əməli-saleh birisi olmalısan. Əməli-saleh olmasan o şəhərə aparan yolu tapa bilməyəcəksən.

– Niyə? Bu şəhərin hamıya bəlli yolu-izi yoxdur? – Novruzəli soruşdu.

– Var. – Dərviş Hüsnükərəm cavab verdi. – Olmaz olarmı? Amma əməli-saleh deyilsənsə, sən o şəhərin ətrafında fırlana-fırlana qalacaqsan. Şəhər özünü sənə göstərməyəcək. Eynən Görükməz təpə kimi.

Dərviş Hüsnükərəm əməli-saleh olmağın şərtlərini də Novruzəliyə demişdi. Bunun düz üç şərti var idi.

Ən əsas biriminci şərt bu idi ki, insanın gərək dünya malında gözü olmaya.

İkiminci şərt – adam gərək ona yaxşılıq eləyən birisinə minnətdar olmağı bacara.

Üçümüncü şərt bu idi: səndən hələ imdad istəməmiş sən gərək ehtiyacı olanın imdadına yetişəsən və əvəzində heç nə tələb etməyəsən.

– Hər adam bu üç şərtin üçünə də eyni zamanda talib ola bilmir, – dərviş Hüsnükərəm davam edirdi, – amma ən azından ikisinə riayət etməyin vacibdir. Ağ dərviş ən azından iki şərti yerinə yetirməyəni şəyirdliyə qəbul eləməz.

Atası Novruzəlinin arzusundan xəbər tutduqda xeyli pərişan olmuşdu.

– Oğul, – deyirdi. – Heyif və bir daha heyif. Mən sənə böyük ümidlər bəsləyirdim. Mənim malım-mülküm məndən sonra kimə qalacaqdır?! Əlbəttə ki, sənə və qardaşına qalacaqdır. Sən böyük tacir və mal-dövlət sahibi olacaqsan. O yaxşılıqlarını da bunları əldə etdikdən sonra həyata keçirmək olmazmı?

– Xeyir, əziz ata, bu mümkün olmaz. Çünki mən o var-dövləti doğru-düzgün yolla qazanmış olmayacağam. Onlar sən qazandıqlarındır. Mənə sənin dövlətindən heç zad lazım deyildir. Mən Çərxi-fələk ölkəsinə, Ağ dərvişin yanına getmək istirəm.

Ata çarəsiz qalıb böyük oğlu Nəzərəlini yanına çağırır. Ona belə deyir:

– Oğul, Nəzərəli. Sənin qardaşının əqli həqqən çaşıbdır. O buraları buraxıb Çərxi-fələk vilayətinə getmək istir. Ağ dərviş adlı bir sehirbaza şəyirdlik eləmək arzusundadır. Mən dedim, əsər eləmədi. Bəlkə sən onunla danışasan. Başa sal. Mən artıq qocalmışam. Bu gün varam, sabah – yox. Mənim axı malımın-mülkümün sahibləri səninlə odur. Getməsin. Burda qalsın.

Nəzərəlinin kefi durulur. O, çoxdan idi ki, Novruzəlinin dalından dəyib onun ata mirasındakı payına sahib çıxmağı düşünürdü. Ya onu aldadıb bunu edəcəkdi, ya da onu öldürüb bunu edə biləcəkdi. İndi isə hər şey öz-özünə əmələ gəlirdi. "Novruzəli özü gedər-gəlməz bir yola düşmək istəyir. Hələ burdan qalxıb Çərxi-fələk ölkəsinə gedib-qayıdan bir adam olmayıb. Gedən bəlkə də olmuşdu, qayıdan olmamışdı. O ölkədə ki, bütün yollar bir-birinin başına fırlanır, o yolun ki birinə düşdün, daha geri qayıtmağı huşundan çıxara bilərsən. Adam fırlana-fırlana qalacaq, hara getsə,

yenə gəlib hərəkətə başladığı yerə çıxacaq. Novruzəlinin ola ki, bundan xəbəri yoxdur. Nə cür olursa, olsun, onu təşviq edib bu gedər-gəlməz yola salmaq lazımdır." Nəzərəli belə düşündü, amma fikrini atasına başqa cür bildirdi. Özünü elə apardı ki, guya atası ilə razıdır:

– Ata, çox doğru buyurursan. Biçarə Novruzəlini o məmləkətə getməyə qoymaq olmaz. Gedərsə, bir daha qayıtmaz. Hamı deyir ki, ora gedən qayıtmır. Mən bu işə bir əncam çalışıb çəkərəm.

Nəzərəli çox gözüac və xəsis birisi idi. Qardaşı Novruzəli nə qədər əliaçıq və rəhmdil idisə, bunun özü heç kimə acımaz, gözü elə onun-bunun cibində, qazancında olardı.

Atasına dediyinin tam əksi olaraq Nəzərəli günbəgün qardaşını bu səfərə çıxmaq üçün daha da təşviq etməyə, həvəsləndirməyə, qulağını doldurmağa başladı:

– Deyirlər, Çərxi-fələk bir ölkədi, bir ölkədi ki, tayı-bərabəri yoxdur. Dünyanın bütün məşhur sövdəgər və səyyahları, cadugər və sehirbazları orada məskən salmışlar. Hətta belə deyirlər ki, səyyah Sindbad bu günün özündə də orada yaşayır. Hər şəhərə gələn şəxslə şəhər bazarında şətrənc oynayır. Təsəvvür edirsən? Uduzsa, o adamı evində mehman saxlayır, udsa özü ona sehirbazlığın sirrini öyrədir. İstər uduz, istər ud – hər ikisinin mənfəəti var.

– Bəs məşhur səyyah Sindbad axı çoxdankı bir zamanda yaşayıb...

– Yox, elə deyil. Deyirlər ki, onun gəmisi günlərin bir günü dənizdə azır və dalğalar onu bir zamandan o biri zamana ataraq bu günə qədər gətirib çıxarır. Öz zəmanəsində isə hamı Sindbadı itkin sayır. Həqiqət budur.

"Gərək dərviş Hüsnükərəmdən bu məsələni araşdıram", Novruzəli düşündü.

– Nə deyirsən, gedirsən?

– Gedəcəyəm. Mütləq gedəcəyəm. Nə olur, qoy olsun. Orda Ağ dərviş deyilən bir sehirbaz var. Gedib ona şəyirdlik edəcəm.

– Ay bərəkallah. Getsən o ölkə ilə alış-verişə də başlaya bilərik. Yaxşı qazanc əldə edərik. Amma bəs indi biz atamıza nə deyək?

– Alış-veriş, sövdəgərlik mənim işim deyildir, sənin işindir. Mən gedib elmlər öyrənmək və qayıdıb burada mədrəsə açmaq, adamlara elm, mərifət öyrətmək istirəm.

Üzdə bir söz deməsə də, Nəzərəli qəlbində belə dedi: "Sən get elmlə, irfanla məşğul ol, mən də burda dəridən-qabıqdan çıxım, sənin üçün pul-para qazanım. Atam öləndən sonra da ortalıqda nə qalacaqsa, səninlə bölüşüm, eləmi?! Mən bunu özümə rəva billəm?! Bunu görməyəcəksən!"

Novruzəli isə qardaşının dildə dediklərinə inanaraq sidq-ürəklə ona kömək etmək istədiyini görüb sevinirdi.

– O zaman sən də çalış, atamızla danış, onu razı sal, – deyə Novruzəli qardaşından təvəqqe elədi.

– Xətircəm ol, mən sən deyəni edərəm. Atamızla danışaram.

Nəzərəli Novruzəlini arxayın etdikdən sonra gedib atasına məsələni tamam başqa cür deyir:

– Ata, mən Novruzəli ilə danışdım. Deyir, mənim heç kimin sözünə qu-laq asmaq niyyətim yoxdur. Gedəcəyəm ki, gedəcəyəm. Heç kim də mənə mane ola bilməz. Hələ atam heç mane ola bilməz.

– Niyə hələ mən heç mane ola bilməzmişəm? – Tacir Məhəmmədəli qəlbi qüssədən az qala partlasa da, səmimi-qəlbdən təəccüb edir.

– Deyir, atam qocalıbdır, bu gün sabah, dilim də gəlmir deməyə, öləcəkdir. Mən də onun pullarını aparıb Çərxi-fələkdə küləklərə verəcəm. Onun bu sözlərinə mat və məəttəl qaldım, ey mehriban ata.

– Deməli, bu mənim ölməyimi gözləyir?! Sonra da mənim pullarımı aparıb Çərxi-fələkdə küləklərə verəcəkmiş?! – Tacir Məhəmmədəli ürəyi yana-yana dillənir. – Yaxşı, görərik.

Həqiqətən, axır vaxtlar tacir Məhəmmədəli tez-tez xəstələnirdi. Yaşı keçmişdi, cavanlığından əsər-əlamət qalmamışdı. Sevimli oğlunun sözləri onu xeyli pərişan edir:

– Ax, nacins övlad, ax, etibarsız övlad... Heç "kasad bazar" da bu qədərinə əzablı ola bilməz. –Tacir Məhəmmədəli atasını, vaxtilə dəryada batdıqları zaman onun dediyi sözləri yadına salır.

Tacir Məhəmmədəli bir neçə gün fikirli gəzir, sonra çox düşünür, daşınır, nəhayət, bir gün axşam düşərkən vəkil Məşdəlinin evinə gedir.

– Məşdəli dadaş. Sənin evinə gəlməyimin bir səbəbi var. Mən vəsiyyətnaməmi dəyişmək istirəm, – deyir.

Vəkil Məşdəli tacir Məhəmmədəlinin hüquq işləri ilə məşğul olurdu, bu səbəbdən, vəsiyyətnaməsini də o tərtib eləmişdi. Bütün əmlakını tacir Məhəmmədəli iki oğlu arasında zərgər dəqiqliyilə bölüb kağıza yazdırmışdı. İndi isə vəkil Məşdəli gördü ki, müştərisinin fikri dəyişib.

– Yaz, vəkil. Yaz ki, məndən sonra bütün əmlakım son qəpiyinədək böyük oğlum Nəzərəliyə çatacaq.

Vəkil Məşdəli qaşlarını çataraq bir kəlmə demədən bunları qələm ilə yazıb vəsiyyətnaməyə əlavə elədi. Sonra:

– Bura imza atmağın gərəkdir, – deyib kağızı tacir Məhəmmədəliyə tərəf uzatdı. Tacir Məhəmmədəli sənədi oxumadan qətiyyətli bir hərəkətlə kağızda yazılanların altından öz imzasını qoydu (vəkil Məşdəliyə etibarı böyük idi), sonra yanıqlı-yanıqlı bir ah çəkdi. Ortalığa namünasib bir sükut çökdü.

– Bir şey soruşa bilərəm, tacir ağa? – vəkil Məşdəli, nəhayət, sükutu pozdu.

Tacir Məhəmmədəli ki, öz aləmində idi, onun sualını eşitmədi:

– Nə dedin?

– Bir şey, dedim, soruşa bilərəm?

× × ×

### *"Payız" fəsli (davamı)*

– Sabah nə bişirim sizə? Könlünüz nə istəyir? – Həlimə yalançı bir gümrahlıqla kabinetə keçib atasından soruşdu.

Başını qarşısındakı kağızdan zorla ayıran Həsən müəllim sualı eşitmədi:

– Nə dedin? – deyə soruşdu.

Həsən müəllimin gözləri kağızda olsa da, əslində, o başqa şeylər barədə düşünürdü. Həlimə sualını verən zaman onun yadına uzaq illər bundan əvvəl baş vermiş bir əhvalat düşmüşdü. Həsən müəllim orta məktəbdə birinci sinfə getməyini və elə birinci gün qonşu partada əyləşən göygöz bir qıza vurulmağını (əslində, onunla ilk gün öcəşdiyini) xatırlamışdı.

– Nə dedin? – deyə Həsən müəllim dübarə Həlimədən soruşdu, amma əslində, Həlimədən yox, göygöz Gülzardan soruşurdu. Göygöz Gülzar illərin o tərəfindən bu günə (əslində, qonşu partadan onun partasına) əyilib belə bir sual vermişdi:

– Sənin adın Həsəndi. Eviniz də dərənin lap ağzındadı, eləmi?

Həsənin diqqəti çox-çox uzaqlarda idi. Qızın səsini eşidirdi, amma nə dediyini anlamırdı.

– Nə dedin? – deyə soruşdu.

Bu göygöz qızın sinifdə dərs gedə-gedə qəflətən nə üçün məhz ona müraciət etməsi Həsəni çox da düşündürmədi. O, bunu tez yadından çıxardı. Qız isə, elə bil, zəli kimi ona yapışmışdı, dediyini deyirdi. Tənəffüs zamanı Gülzar yenə ona yaxınlaşdı:

– Sənin adın Həsəndi. Mən səni tanıyıram. Sən məni tanımadın?

Həsən ətrafına göz gəzdirib yaxasını bu göygöz qızdan qurtarmaqçün bir yalan uydurdu. Əlbəttə ki, o siniflərindəki oğlanların diqqətini cəlb etməkdən utanır və göygöz Gülzardan aralanmaq üçün bəhanələr axtarırdı. Bəhanə tapılmadı və Həsən, Gülzara heç bir cavab vermədən, nə sənə, nə mənə, dalını qıza çevirib məktəb həyətindəki tut ağacının altında bir-birilə söhbət edən oğlan uşaqlarının yanına qaçdı.

Uşaqlarla ağacdan tut dərib şirin-şirin yediyi zaman qəflətən hiss elədi ki, arxasında kimsə durub. Çönüb gördü ki, bu yenə də haman göygöz Gülzardı. Qız eləcə səssiz-səmirsiz nə vaxt idi ki, gəlib bunun arxasında dayanıb durmuşdu. Yavaşca Həsənin qolundan çəkdi:

– Sən məni tanımadın?

Uşaqlar tutu buraxıb maraqla onlara tamaşa edirdi. Həsən az qala qulaqlarının dibinəcən qızarmışdı. Fikirləşib-fikirləşib o, Gülzarı "tanıdı".

Yalandan gülə-gülə bərkdən dedi:

– Tanıdım, göygöz Gülzarsan. Sənin adın göygözdü, göygöz. – Həsənin kallaşmış səsində kinayə var idi.

Qız pərt olub susdu. Başını yerə dikdi, elə bil, gözlərini o biri uşaqlardan gizlətmək istədi. Heç bir cavab vermədən sakit-sakit dönüb sinfə qayıtdı. Oğlan uşaqları yüngülvari gülüşüb heç nə olmamış kimi yenə də tuta daraşdılar.

Həsən özünü itirmişdi. Əvvəlki namünasiblik oğlanların yanında bu balaca qızın onunla köhnə tanışlar kimi danışığına görə idisə (bundan isə o özü də bilmədi ki, niyə utanır), indiki namünasiblik qızın özünə görə idi. O, başa düşürdü ki, qızı xınc eləyib. Həsən başını aşağı dikmiş halda sinfə getdi. Məktəbin gözətçisi (həm də xidmətçisi) Ələmdar əmi əlindəki dinyə ilə eyvanda divardan asılmış dəmir lövhəni döyəcləməyə başladı. Bu o demək idi ki, dərs başlayır və həyətdəki uşaqlar sinif otağına keçməlidirlər. Həsən dərs boyu çalışdı ki, başını yana döndərib göygöz Gülzara sarı baxmasın və buna nail ola bildi. Amma nəydisə, Həsənin ürəyi bərk sıxılırdı və özü də bilmirdi ki, bu niyə belədi. Gülzarın da ürəyi sıxılırdı, amma o bilirdi, bu niyə belədir – Gülzar özünü dünyanın ən bədbəxt adamı sayırdı.

O biri günlər Həsən bu qızdan, bu qız da Həsəndən qaçdıqca qaçdı. Gülzar bir də gözünü açıb gördü ki, yeddinci sinfə gəlib çatıblar və ürəyində Həsən adlı bu qaraqaş, uzun boylu oğlandan başqa heç kimə və heç nəyə yer yoxdur. Səhər yuxudan ayılanda hələ gözlərini açmamış Həsənin surəti gəlib dururdu gözünün qabağında. Gecə yuxuya gedərkən gözlərini yuman kimi yenə də haman çatmaqaş Həsən gəlib girirdi beyninə. Gündüzlər də ki, öz yerində. Həsəni hər gün məktəbdə görürdü (görməmək, əslində, mümkün deyildi), amma nə özü ona bir söz deyirdi, nə də ondan bir söz eşidirdi. Birinci sinifdə eşitdiyi kinayəli "göygözsən, sən göygöz Gülzarsan" sözləri onun ürəyini yüz yerdən yaralamışdı. Uşaq yaşında isə yaralar hələm-hələm sağalmır.

×××

### *"Yaz" fəsli (davamı)*

Həsən müəllim bütün bunları həm xatırlayırdı, həm də xatırlamırdı. Günlərin bir günü (bu hadisə onlar yeddinci sinifi bitirdikləri zaman baş verdi) elə oldu ki, bu ikisi məktəbə hamıdan tez gəldi. Həsən sinif otağına gircək gördü ki, Gülzar artıq öz yerində oturub. Dərsin başlanmasına yarım saat qalırdı. Gülzarla ondan başqa otaqda heç kəs yox idi. Bir istədi, dönüb sinifdən çıxsın getsin məktəb həyətinə və Gülzarla tək qalmaq məşəqqətindən canını qurtarsın – amma nədənsə bunu etmədi. O da keçib öz yerində oturdu və dodaqaltı salama bənzər bir şey mızıldadı.

Qız gözünü yazı taxtasına dikib maddım-maddım baxmağında idi. Güya ki, bu yazı taxtasından başqa dünyada heç nə yox idi və güya ki, həyat üçün vacib olan bütün məsələləri yığıb bu yazı taxtasına yazmışdılar. İndi də Gülzar onları oxumasaydı, dünya-aləm bir-birinə qarışacaqdı. Amma əsas məsələ yazı taxtasında deyildi. Həsənin gəlişi onun qəlbini yerindən oynatmışdı. Gözü yazı taxtasına zillənmişdi, bütün fikri-zikri isə Həsənin yanında idi.

Həsən özü də bilmədi, necə oldu ki, çevrilib ondan iki parta arxada oturan Gülzara sarı baxdı. Gülzar əynində çil-çil paltar, başında güllü yaylıq gözlərini yazı taxtasından ayırıb o da səssiz və məlul bir halda sual və təəccüb dolu baxışını Həsənin üzünə dikdi (yəni, "nədi, nə baxdın, nə olub?"). Bir müddət Gülzar susdu, Həsən susdu, eləcə baxışlar baxışa calandı. Handan-hana Həsəndən zəif bir səs çıxdı:

– Gülzar... – Həsən qızın adını çəkdi. Bu, müraciət deyildi, eləcə, Həsən sanki qızın adını səsləndirib eşitmək istəyirdi.

Gülzar ona cavab verdi. O da:

– Həsən... – dedi və Gülzarın səsində də eyni istək var idi.

Bu adlar səsləndikdən sonra ətrafa yaz mehi kimi yayıldılar. Onlar, elə bil, bağlandıqları vücudlarından ayrılıb bir-birinə tərəf gəldilər. Onları hətta gözlə görmək olurdu – biri yaz rənglərinə – yaşıla, qırmızıya, sarıya bürünmüşdü – bu "Gülzar" adı idi, o biri isə payız rənglərindən – qaradan, çəhrayıdan, qırmızıdan ibarət idi – bu da "Həsən" adı idi.

Adlar ürkək-ürkək bir-birinin içində əriməyə, bir-birinə qarışmağa başladılar. Bir-birindən doymayan sevgililər kimi qucaqlaşıb durdular. Adlar eləcə bir-birinə qarışmış halda dəlicəsinə rəqs eləməyə başladı. Onlar hərdən bir-birinə qısılırdılar, hərdən də bir-birindən doymuş kimi aralanıb sevdalı-sevdalı bir-birinə baxırdılar. Bütün dünya bir tərəfə, bu rəqs o biri tərəfə idi. Sonra bihuş və bihal bir vəziyyətdə bu adlar süst düşüb bir-birindən aralandı, hərəsi gedib öz aid olduğu vücudun içində əridi.

Hər ikisi, elə bil, yuxuda idi, bir-birlərini həm görürdülər, həm də görmürdülər. Gözlərinin qarşısından bir anda kino lenti kimi illər uzunu məktəbdə, küçədə, orda-burda qarşılaşdıqları bütün səhnələr gəlib keçdi. Bir-birindən qaçdıqları, bir-birinin üzünə baxmaq istəmədikləri anlar canlandı. İndi isə bir-birilə sanki ilk dəfə idi, baxışırdılar. Ürəyi şiddətlə vuran, nəfəsi az qala kəsilən Həsən birdən anladı ki, özünün indiki yeniyetmə yaşına qədər hələ bu gözəlliyində heç bir kəsi görməyib. Yəni, bu haman göygöz Gülzar idi?! Bəli, bu qız gecələr yuxularına girən haman qız idi. Və şübhə qalmamışdı – bəli, o haman qız Gülzar idi. Həsən buna inana bilmirdi. Ürəyinə isə sonsuz bir sevinc hissi girmişdi. Qəlbi heç nədən, eləcə özü-özünə sevinirdi o, hara, hansı tərəfə baxırdı, mehriban üzlər, gözəl mənzərələr görürdü, ona elə gəlirdi ki, bu an onun ürəyinə elə bir güc daxil olub ki, hamını, bütün dünyanı sevməyə bəs edər. Bütün dünya onun üçün Gülzar adlanan bu qızın şəxsində mövcud idi.

Gülzar böyümüş, ətə-cana gəlmişdi. Qız kimi qız, qadınlığın astanasına çatmış, dəniz suyu kimi göy gözlərinin dibində sirr (sirr içində sirr) gizlənmiş, yanaqları allanmış, sinəsi qabarmış, ay üzünün sol yanağında zənəxdanlı Gülzar olmuşdu. Gözlərini qaçırmağa çalışan, amma bacarmayan Gülzar! Min ilin həsrətlisi Gülzar! Bu tərəfdən Gülzar da eynən deyikmiş ceyran kimi Həsənə baxır, baxır, baxmaqdan əsla doymurdu. Gözlərinin dibi yaşlanmadımı, yaşlandı. Bir anın içində Gülzar bütün umu-küsüsünü Həsənə bağışlamadımı, bağışladı. Gülzarın üzünü işıqlı, işığı içindən çıxan bir təbəssüm bürüdü. Beləcə, bu ikisi qarşı-qarşıya, nəfəs-nəfəsə, göz-gözə dayanıb durdular. Həsən titrək əlini qıza uzatdı və Gülzarın titrək (və tərli) əlindən tutdu. Gülzar əlini qaçırmadı.

– Gülzar... – Həsənin təkrar pıçıltısı bütün bu illər ərzində dilinə gətirmədiyi "Gülzar"ları öz içinə yığıb gizlətdı.

– Həsən... – Gülzarın pıçıltısı isə bütün bu illərin qəlb döyüntülərini öz içinə yığdı.

Məktəb uşaqları yavaş-yavaş gəlməyə başladı. Sinif otağına onlarla bir yerdə ilk baharın təravəti – gül-çiçəyin qoxusu, deyib-gülmək həvəsi, şən və sevinc dolu söz-söhbət, deyişmələr daxil oldu.

Hər şey belə başladı. Buna biz ilk məhəbbət də deyə bilərik. Və indi Həsən müəllim o uzaq zamanda sinif otağında baş vermiş haman unudulmaz üzbəüz görüşü bütün təfərrüatı ilə xatırlamasa da hiss edirdi ki, gözləri yaşla dolur, boğazına qəhər gəlir.

× × ×

### *"Qış" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah yazırdı:

Novruzəligilin hasar bir qonşuları var idi. Külfətin sahibi Həzrətqulu adında bir molla idi. Molla Həzrətqulu (ona hərdən Allahqulu da deyirdilər) öz böyük ailəsini dolandırmaq üçün kiminınsə yasını yola verir, kiminəsə məktub, ya ərizə yazır, kiminə uzaq yerdən gələn məktubu oxuyub məğzini danışır, kiminə də Quran oxumaq öyrədirdi. Mollanın bir qızı var idi, adı Güllü idi, özü də bu qız on altı yaşına təzəcə girmişdi. Novruzəlinin gözü qonşuluqda yaşayan bu qıza düşmüşdü. Hələ xəlvətə salıb hasarın bir tərəfində bu, o biri tərəfində Güllü bir xeyli söhbət də eləmişdilər. Novruzəli Güllüyə evlənib onu da özü ilə birgə Çərxi-fələk ölkəsinə aparmaq istəyirdi. Güllü dinləyib-dinləyib sonra ona bircə sual vermişdi:

– Mən qızlarla bağçada "qaçdı-tutdu" oynayanda başım gicəllənir. Bə mən orada bayırda-bacada fırlanan zaman necə olacam?!

Novruzəli gülmüşdü. Qıza təskinlik verdi:

– Hamı fırlanmır ki. Yolunu doğru-düzgün getməyənlər yalnız fırlana-fırlana qalırlar. Sənin bundan qorxun olmasın.

Güllü sakitləşmişdi:

– Atam necə deyər, elə də olar. Məni ondan istə, versə, mən də sənə gələrəm. Çərxi-fələyə də bir yerdə gedərik. – Bunu deyib qız hasarın o tərəfində bərkdən gülmüş və qaçıb evlərinə getmişdi.

Bunların münasibəti uşaqlıqdan var idi. Balaca ikən oğlanlı, qızlı bir həyətdə çox oynamışdılar. Güllü Novruzəlinin xeyli zəki olduğunu yaxşı bilirdi. Bir dəfə belə bir hadisə baş verdi. Yazın əvvəlləri idi. Bağçada gül-gülü, bülbül bülbülü çağırırdı, quşların səsi hər tərəfi bürümüşdü. Uşaqlar (beş nəfər idilər – Nəzərəli, Novruzəli, Güllü, Zəhra, Gülsənəm, Gülzar – iki evin uşaqları) yenə də Güllügilin həyətinə yığışmışdılar. Bu dördünün başı "beş daban, üç daş" oyununa bərk qarışmışdı. Çox sevdikləri bir oyun idi. Novruzəli onlara qoşulmayıb eləcə gendən seyr edirdi. Nəhayət, əlindəki çubuğu yerə atıb uşaqlara yaxınlaşdı və dedi:

– Mən istəsəm, sizlərdən hər hansınızı kəhriz başına susuz aparıb susuz gətirərəm. Bir qurtum da içməzsiniz.

– Ömründə ola bilməz. – Güllü canfəşanlıqla özünü ortalığa atdı. – Ola bilməz! Gedərəm də, içərəm də.

– Gedək?

– Gedək.

Oyun dağıldı. Uşaqlar maraq içində bir-birilə baxışıb bu yeni oyunun necə bitəcəyini gözləməyə başladılar. Güllü və Novruzəli həyətdən çıxıb məhlənin başındakı kəhrizin yanına gəldilər. Ətrafda heç kim yox idi. Güllü elə əyilib sudan içmək istəyirdi ki, Novruzəli əlini ataraq onun əlindən yapışdı və dedi:

– Nə edirsən? Dayan.

– Niyə? – Güllü təəccüb elədi. – Demirsən içəmmərəm? Su içirəm.

– Bəs kim inanacaq sənin suyu içdiyinə? Şahidin var? – Novruzəli səmimi-qəlbdən təəccüb elədi.

– Şahid – sən. Sənə arxayınam.

– Yox, mənə arxayın olma. Gedək şahid gətirək, o zaman içərsən.

Güllü cəld ovcuna doldurduğu suyu qaytarıb kəhrizə tökdü, dedi:

– Gedək. Gedək şahid gətirək. Düz deyirsən. Sənə arxayın olmaq olmaz.

Həyətə qayıtdılar. Novruzəli bir andaca uşaqlara qoşulub Güllünü, elə bil, yaddan çıxardı.

– Məni də sayın, məni də sayın, – deyib oyuna qatıldı.

Bu dəfə "Üç apardın, beş qaytar" oynayırdılar və Nəzərəli yenə həmişəki kimi bərk-bərk Zəhranın yanında durub kənara çəkilmək istəmirdi.

– Bəs getmirik? – Güllü arxadan Novruzəlinin ətəyindən dartdı. – Novruzəli, ay Novruzəli...

– Nədi? Nə deyirsən? Hara? – Novruzəli bütün diqqətini ki, oyuna vermişdi, arxaya çönmədən soruşdu.

– "Hara" nədi? Kəhrizə! Demədin şahid aparaq?

– Nə şahid?

– Su içməyimi görməsi üçün. Sənə bel bağlamıram.

Novruzəli oyundan çəkildi.

– Ay uşaq, buna bir baxın. Şahid axtarır. Mən səni kəhrizə apardım?

Güllü ürəyinə nə damdısa qıpqırmızı qızardı:

– Apardın.

– Sən su içmək istədin?

– İstədim.

– İçdin?

Güllünün səsi lap yavaşdan çıxdı. Onun cavabını ancaq Novruzəli eşitdi:

– Yox. İçmədim.

– Bərkdən de. Utanma!

– İçmədim... – Qız səsini azacıq qaldırdı.

– Daha məndən nə istəyirsən? Susuz getdin, susuz qayıtdın.

Uşaqlar gülüşdü.

Güllü pərt halda çevrilib evə getdi. O gün daha həyətə çıxmadı. Gözlərindən axşamadək yaş töküldü, nə töküldü. Novruzəliyə nifrətin nifrətini elədi, qarğış qarğış dalınca tökdü. Nə biləydi? Nə biləydi ki, gün gələcək, onun barəsində düşünmədən bir saat belə keçirə bilməyəcəkdi.

Novruzəli hələ bir müddət öz həyətləri tərəfdə hasarın altında durub qızdan bir səs-səmir gözlədi. Güllü isə bayaq burda idi, indi artıq evlərində idi. Oturub atası molla Allahqulunun dərsini nə zaman bitirəcəyini gözləyirdi. İstəyirdi ki, ondan Çərxi-fələk ölkəsi barədə soruşacaqlarını soruşsun. Atasını gözləyə-gözləyə Güllü dodaqaltı özü-özü üçün yavaşdan hardansa gəlib beyninə girmiş bu misraları nəğmə kimi oxuyurdu:

*Miz üstündə yumurta*
*Oğlan, məni unutma.*
*Əgər məni unutsan*
*Məktubumu unutma.*

Bunu dodaqaltı bir neçə dəfə oxuyandan sonra Güllü belə bir fikrə gəldi ki, Novruzəliyə məktub yazsın. Atası ilə edəcəyi söhbəti ona bu məktub vasitəsilə çatdırsın.

Ertəsi gün Novruzəli sabah tezdən hasarın altında eyni yerdə durub o tərəfdən Güllünün gəlməsini gözləyən zaman hasarın o biri üzündən Novruzəlinin ayağı altına bir daş gəlib düşdü. Daş bir kağız parçasına bükülmüşdü. Bu kağız parçası adi kağız deyildi, onun üstündə uşaq xəttilə yazılar yazılmışdı. Bu, bir məktub idi. Güllü öz məktubunu belə başlayırdı:

"Nuri-didə Novruzəli, mən dünən axşam dədəmdən soruşdum ki, Çərxi-fələk deyilən bir məmləkət var, o hardadı, yaxındadı, ya uzaqdadı? Dədəm mənə hirsləndi:

– Qız, sənin Çərxi-fələklə nə işin? Ora gedənlər bir də dönüb geri qayıtmır. Elə oradaca fırlana-fırlana qalırlar. Niyə soruşdun?

– Heç... Gülsənəm (xalasının qızı idi, molla Allahqulu ona Quran oxumaq öyrədirdi) mənə dedi ki, o ölkədə məşhur səyyah Sindbad yaşayır. Sən mənə onun nağılını danışmışdın, yadında?

– Yadımda, yadımda. Ay key Balaxanım (Molla Allahqulu qızına hirslənəndə onu belə çağırardı), indiyə Sindbad qalar? O çoxdan Allahın rəhmətinə gedibdir.

– Gülsənəm bir də bunu dedi. O ölkədəki zamanla bizim ölkədəki zaman bir-birinə uyğun gəlmir. O ölkədə zaman yavaşıyır. Bəlkə Sindbad yaşayır?

– Ay bədbəxtin qızı, Gülsənəm də qələt (səhv) eləyir, sən də. Zaman bütün ölkələr üçün, bütün məmləkətlər üçün eynidir. Sindbad çoxdan ölüb gedib, sümükləri də çürüyübdür. Bir də bu cürənə boş, cəfəng söhbətlərlə mənim başımı dəng eləmə. Sindbad, yox bir... Əflatun...

Mən gördüm ki, dədəmin bu söhbətdən heç xoşu gəlmədi. Amma Çərxi-fələk ölkəsinə mənim marağım nəinki azaldı, hətta bir xeyli artdı. Məni sən dədəmdən istə. Verər, verər, verməsə, mən sənə qoşulub Çərxi-fələyə qaçmağa həmişə hazıram. Mən səninlə ha yana desən qaçıb getməyə hazıram. Mənimçün sən olanda gün çıxır, sən olmayanda gün batır. Nuri-didə Novruzəli! Sən mənim udduğum havamsan, bilirsən... Amma bir təvəqqem var. Sən bundan sonra Çərxi-fələk barədə heç kimə bir kəlmə demə. Bu qoy bizim sirrimiz olsun.

Məktubumun sonunda isə istirəm biləsən ki, oraların, deyilənə görə, qışı çox soyuq olur. Gülsənəm deyirdi. Sənin isti paltar tədarük etmən gərəkir. Novruzəli, bunu da biləsən. Sənə şeir yazmışam. Oxuyub məni xatırlarsan."

Güllünün məktubu belə bitirdi:

*"Miz üstündə yumurta*
*Oğlan, məni unutma.*
*Əgər məni unutsan*
*Məktubumu unutma."*

× × ×

### *"Yaz" fəsli (davamı)*

Daha Həsən və Gülzar bir-birindən ayrı dura bilmirdilər. Hər kəs onları məktəbdə bir-birindən ayrı görəndə təəccüb edirdi. Bu ikisi bir-birilə nəfəs alırdı. Bir-birini bircə gün görməyəndə dünya-aləm dağılırdı. Axır

vaxtlar Gülzar lap dəliyə dönmüşdü. İllah da ki, Həsənin şəhərə oxumağa gedəcəyini bildikdən sonra həyatı əsl zillətə dönmüşdü. Çünki o özü şəhərə gedə bilmirdi, kənddə qalacaqdı. Öz-özünə heç nədən, durduğu yerdəcə gözünə yaş dolurdu, ahı ah dalınca çəkirdi, saatlarla evin bir küncündə yerdən oturub dizlərini qucaqlayıb qalır, heç kimlə kəlmə kəsmirdi. Özünə dərd eləmişdi ki, atalığı Nakam və onun bir sözündən çıxa bilməyən anası Sünbül Gülzarı şəhərə buraxmaq istəmirlər. Bir dəfə evdə ona çay gətirən Gülzarın arxasınca baxıb-baxıb gözünü ondan çəkə bilməyən Nakam qəfildən ürəyinin şiddət və həyəcanla döyünməsindən özü də qorxuya düşdü və gecə yerinə uzanarkən fikirli-fikirli Sünbülə dedi:

– Qız daha böyüyüb. Saxlamaq çətin olacaq. Bunu şəhərə buraxmaq olmaz.

...Həsən artıq birinci kursda oxuyurdu. Yaz təzəcə girmişdi. Qonşu kənddə yaşayan əmisi oğlu Həmid axşam yataqxanada gəlib onu tapdı. Həmidin qalmağa yeri yox idi. Həsən onu bir günlüyünə yataqxanada öz qaldığı otaqda yerləşdirdi. Özüaçılan yatağı üç çarpayının arasına birtəhər yerləşdirdilər. Yoldaşları da (otaqda üç yoldaş idilər), sağ olsunlar, narazılıq etmədi.

Həmid şəhərə meyvə satmağa gəlmişdi. Bazardakı dəllarlara meyvəni uyğun qiymətə təhvil verdi, sonra da Həsənin və yoldaşlarının yanına əliboş gəlmədi. İki şüşə araq, soyutma toyuq, kolbasa, təndir çörəyi, pendir, pomidor-xiyar və turşu alıb gətirmişdi. Otaqda xudmani bir məclis düzəltdilər. Həsənlə bir fakültədə oxuyan o biri iki yoldaşı həvəslə əl-ayaq edib Həmidin gətirdiklərini stolun üstünə düzürdülər. Həsənlə Həmid pəncərəni açıb siqaret çəkə-çəkə söhbət etməyə başladılar. Həmid kənddən təzə xəbərlər gətirmişdi. Xeyli ordan-burdan danışdı. Həsənə bütün bunlar artıq o qədər də maraqlı deyildi. Fikri tamam başqa yerdə idi. Ayın axırına qədər Həmiddən borc pul almaq istəyirdi. Ayaqqabısı su buraxırdı. Daha təmir də kömək eləmirdi. Beynində fırladırdı ki, bunları Həmidə necə desin. Həmid həmişə olduğu kimi böyük-böyük, ərklə ondan soruşanda "əmoğlu, nə lazımındı, korluğun yoxdur ki?" o zaman deyəcəkdi. Həmid isə başqa şeydən danışırdı:

– Atangil yaxşıdılar. Anan xəstələnmişdi, şükür, sağaldı. Gəlməmiş gedib görüşdüm. Səməd evlənməyə hazırlaşır, amma qız tapa bilmir, hi–hi–hi–... Həyətinizin mer-meyvəsini çor vurmuşdu, o boyda həyətdən bir quru ərik də çıxmadı. Nə isə...

"Deməli, bu ay da, ola bilər, gələn ay da kənddən pul gəlməyəcək. Hayıf." Həsən dilxor oldu. Yenə hər gecə vağzala yük boşaltmağa gedəcəkdi.

Bir də ki, Həsən Həmidə Gülzara yazdığı məktubu verəcəkdi. Onsuz yaşaya bilmədiyini, gecə-gündüz onu düşündüyünü Həsən bu məktubunda elə həsrət dolu sözlərlə ifadə eləmişdi ki. Sonunda o da öz məktubunu bütün kənd oğlan uşaqlarının məktublarının bitdiyi şeir parçası ilə bitirirdi:

*"Stol üstündə yumurta*
*Ay qız, məni unutma*
*Əgər məni unutsan,*
*Məktubumu unutma."*

Həmid isə artıq başqa mətləbdən danışırdı:

– Sizin kənddə bir qız vardı, özünü evlərinin töyləsində asıb öldürdü. Dayan görüm adı nə idi... hə, Güllü.. Eşitməmisən?

Həsənin ürəyi nədənsə sancdı. Amma qızın adını eşidib bir balaca toxdadı. Hələ bu Güllü kimdi?

Amma toxdamağı fəlakətin qarşısını almadı. Gülzarın adı uzaq və yaxın keçmişdə olan kimi vücudundan ayrılıb ildırım sürətilə ona sarı gəldi. Həmid beynində nəyisə götür-qoy edib təkrar dedi:

– Yox, dayan görüm, Güllü deyildi qızın adı, Gülzar idi, Gülzar...

Gur həvəslə yaz yağışı qəflətən yağmağa başladı. Həmid siqaretdən dərin bir qüllab vurdu, üzünü tutdu pəncərədən yağışa. Daha sonra o nə dedi, nə demədisə, Həsən eşitmədi. Qulağına uğultu girmişdi. Həsən bir onu bildi ki, dizləri titrəyir, yıxılmamaq üçün birtəhər yanındakı çarpayının üstünə oturdu. Gözlərini duman örtdü. Səsi güclə, o biri dünyadan gəldi:

– Niyə?
– Heç kim bilmədi. – Həmid fikirli-fikirli cavab verdi.

×××

### *"Yaz" fəsli (davamı)*

Molla Allahqulu onun qabağına Hindistandan gəlmə qara otun suyunu (çay) qoyan artıq boya-başa çatmış qızı Güllünün arxasınca göz qoya-qoya aralarında bu sabah baş verən söhbəti xatırladı. Çərxi-fələk yadına düşdü. Molla Allahqulu fikrə getdi və öz-özünə dodaqaltı belə dedi: "Qız daha böyüyüb, vermək lazımdı getsin... Çərxi-fələyi də unutsun".

Novruzəli Güllünün məktubunu ürəyinin başında gəzdirir, hər boş dəqiqəsində ətrafındakılardan aralanıb dönə-dönə oxuyurdu. Artıq Novruzəli, demək olar ki, bu məktubu əzbərləmişdi. Ürəyində sözbəsöz, cümləbəcümlə o da qıza cavab məktubu yazmağında idi. Onun məktubu Güllünün məktubu bitən yerdən, bir-iki xırda düzəlişdən sonra belə başlayırdı:

*Miz üstündə yumurta*
*Ay qız, məni unutma.*
*Əgər məni unutsan*
*Məktubumu unutma.*

Novruzəli bir də yazırdı ki, Çərxi-fələyə getmək üçün artıq yavaş-yavaş qış tədarükünə başlayıbdır. Özünə və Güllüyə rus diyarından gələn iki xəz üstlük alıb. İsti corabları, ayaqqabıları da tezliklə alacaq. Ən əsası isə bu idi ki, böyük qardaşına deyəcəkdi, atası ilə danışsın və ailələri bu evlənmək məsələsinə artıq başlasınlar. Novruzəli yazırdı ki, nə yaxşı əziz qardaşı Nəzərəli onu belə sevir və vasitəçilik edib onun xahişini atalarına çatdırır. Yoxsa, bütün bu münasibətlər gərginləşəcəkdi və Novruzəli məsələnin nə cür bitəcəyini xəyalına belə gətirə bilməyəcəkdi.

Novruzəli yazırdı ki, dünyada onun qədər xoşbəxt ikiminci bir şəxs tapmaq mümkün deyil, çünki əvvəla, bir könüldən min könülə vurulduğu Güllünün də qəlbinə ələ ala bildiyi üçün, ikiminci, ən vacib arzusuna – Çərxi-fələk məmləkətinə getmək arzusuna qardaşının və qızın, yəni, Güllünün də şərik olduğu üçün. Qalan başqa heç nə Novruzəlinin vecinə deyildi. "Sən mənə arxayın ola bilərsən, sevgilim. Mən səni heç vədə pəşmürdə etmənəm. Heç vədə". – Novruzəli yazırdı. Qız məktubu oxuyub xoşbəxt olmuşdu, göz yaşlarını saxlaya bilməmişdi.

Günlərin bir günü Novruzəli qəlbindəki sirri açıb qardaşı Nəzərəliyə danışır və ondan təvəqqe edir ki, atasına onun arzusunu çatdırsın və atası gedib molla Allahquludan qızı istəsin.

Nəzərəli qardaşına söz verir. Bunun üstündən bir müddət keçir. Nəzərəli məqam gözləyir və günlərin bir günü atasına belə deyir:

– Əziz ata, mən çox şübhəliyəm. Novruzəli gözümə heç yaxşı dəymir.

– Yenə nədi? – Tacir Məhəmmədəli dilxor oldu və ürəyi səksəkəli halda soruşdu.

– Hər nədisə artıq olubdu.

Tacir Məhəmmədəlinin ürəyinə nə damdı nə dammadısa, əhvalı dəyişdi. Axır vaxtlar o, səksəkəli idi – hər dəqiqə gözləyirdi ki, Novruzəli barəsində nə isə bir bəd xəbər eşidəcək, bunu da Nəzərəlinin sayəsində indicə eşitdi. Eşitcək, elə bil, bir az da qəmə, dərdə batmaq əvəzinə, əksinə, asudə oldu. Hansısa yükdən canını qurtardı. Bu yük oğlu Novruzəliyə bəslədiyi məhəbbət və sevgi yükü idi. Tacir Məhəmmədəli Nəzərəlini dinlədikcə qəlbindəki bu yükün onu artıq tərk etdiyini anladı. Heç bir ağrı-fılan da hiss etmədi. Hər şey asan başa gəldi. Nəzərəli deyirdi:

– Ata, bir gör hələ bu indi nə söyləyir?!

Tacir Məhəmmədəli oturduğu yerdə tövrünü dəyişmədən xeyli laübali bir halda (hələ bir balaca kinayə ilə) ondan soruşdu:

– İndi nə söyləyir? İstədiyi nədir?

– Ata, bu mənə deyir ki, mən (yəni, Novruzəli) bilirəm, atamız malını-dövlətini harda gizlədib. Bu yer bizim arxa bağçada bir ağacın dibindədi. Bihudə deyil ki, atamızın yataq otağındakı pəncərə də o bağçaya baxır. Özü

də tez-tez gecələr bağçaya gəzməyə çıxır, görünür, pul-para basdırdığı yerə bir o qədər etibarı yoxdur. Oğrudan-quldurdan, əlbət, ehtiyat edir. Gəl, biz ikimiz gecə vaxtı onu güdək, qızılların yerini dəqiq öyrənək. Gecəyə ümid yoxdu, gündüzlər o, bazarda olarkən biz işimizi görək, pulları, qızılları götürüb aramızda bölüşək. Sonra mən çıxıb gedəcəm Çərxi-fələyə, sən özün bilərsən... Ata, Novruzəli mənə bunları dedi. – Nəzərəli səsini kəsib gözlərini yana dikdi.

Tacir Məhəmmədəlinin üzündə həyatı boyu çəkdiyi əzab-əziyyət müqabilində qazandığı dərin qırışların biri belə tərpənmədi. Elə bil, söhbət onun sevimli oğlunun xəyanətindən getmirdi. Elə bil, söhbət tamam başqa, yad bir adam barəsində gedirdi. Çünki tacir Məhəmmədəlinin Novruzəli barədə fikri qətiləşmiş, sidqi ondan sıyrılmış, ürəyində onu özünə bağlayan son xətti kəsib atmışdı.

– Deməli, belə... – Handan hana, bir xeyli susduqdan sonra tacir Məhəmmədəli, nəhayət, dilləndi. – Sən ona belə de. De ki, onunla razısan. Bu gün keçdi, gəl sabah gecə bu işi görək de.

Bu sözləri deyəndən sonra tacir Məhəmmədəlinin üzünün qırışları, nəhayət, elə bil, dərin bir yuxudan ayılıb tərpənən kimi oldu, sonra yenidən sərtləşdi, qaşları çatıldı və o, dərin bir fikrə getdi.

Nəzərəli elə haman axşam evdə qardaşını bir tərəfə çəkib atası ilə olan söhbəti, amma tamam başqa şəkildə ona çatdırdı. Nəzərəli belə dedi:

– Gəl biz sabah gecə atamızı izləyək.

– Nə üçün? – Novruzəli sidq-ürəkdən təəccüb etdi. Təəccübün səbəbi isə bu idi ki, qardaşı Nəzərəlinin onun dili ilə atalarına dediklərindən xəbəri yox idi.

– Çünki o hər gecə bağçada gəzir, ağacların arası ilə ora-bura gedir. Qaçaq-quldur, oğru-azğın olar, gəlib buna xətər yetirər.

– Hə...

– Biz onu izləyək ki, arxasınca düşən olsa, dadına çataq.

– Doğru deyirsən. Bu işi görək. O axı bizim sevimli atamızdır. Özünə deyək? – Novruzəli soruşdu.

– Yox, deməyək. Qoy əsəbnak olmasın.

Nəzərəli məsələni kökündən həll eləmək istədi:

– Amma gəl, bu işə bu gecə yox, sabah gecə başlayaq.

– Bə belə niyə?

– Tədarükümüzü görək ki, quldurlarla qarşı-qarşıya gəlsək, cavablarını verə bilək.

– Yenə də doğru deyirsən. Tədarükümüzü görək.

Qardaşlar şərtləşdilər. Elə haman gün Nəzərəli gəlib atasına belə dedi:

– Ata, Novruzəlinin fikri sabah gecə silah-sursat götürüb səni izləmək və sənin arxanca bağçada gəzib basdırdığın dəfinənin yerini öyrənməkdir.

– Gəlsin, gəlsin. Deməli, silah-sürsatla gələcək, eləmi?! Deməli, sabah gecə... Noolar?! Mən ona dəfinə necə olur, göstərrəm... – Tacir Məhəmmədəli sözünə bir ləhzə ara verib sonra yenə davam etdi. – O mənim arxamca gəldiyi zaman sən də onun arxasınca gəl. Bağçada armud ağacının altında iki boğaz öskürərsən. Elə öskür ki, mən eşidim. Özün də öskürəndən sonra get gir evə, daha bağçada görünmə.

× × ×

### *"Qış" fəsli (davamı)*

Qardaşları ilə Həlimənin arasına son zamanlar sanki bir soyuqluq girmişdi. Üzdə, dildə əvvəlki kimi idilər – mehriban, gülərüz... Amma ürəklərində, ürəklərinin dərinində qarşısıalınmaz narazılıqlar yaranmaqda idi. Bunun əsl səbəbini heç biri dilinə gətirmirdi. Amma bu iki qardaş və bir bacı narazılığın əsl səbəbini bilirdi. Səbəb ataları ilə, onun indiki xəstə vəziyyəti ilə bağlı idi. Son zamanlar həftələrlə ata yanına gəlməyən qardaşlar (hər birinin öz evi, ailəsi var idi) yenidən ata evinə ayaq açmağa başlamışdılar. Əvvəl-əvvəl Həlimə bunu ancaq atasının xəstəliyi ilə yozdu. Sonra aralarında baş verən söhbətlərin məcrası get-gedə dəyişdi. Bu söhbətlərə yeni mövzular, yeni çalarlar daxil edilməyə başladı – əvvəlcə ehtiyatla, eyhamla, sonra isə açıq-aşkar şəkildə qardaşların əsl məqsədi üzə çıxdı, dəruni istəkləri agah oldu.

Məqsəd və istəkləri isə bundan ibarət idi: atalarının evini satıb pulunu bölmək. Bu məsələni indi ataları dünyadan hələ köçmədən (hesab edirdilər ki, məqam yetişib, əlverişlidir) həll etmək istəyirdilər. Həliməni hövsələdən çıxaran o idi ki, qardaşlar bu barədə çox asanlıqla, adi bir məsələdən danışırmış kimi danışırdılar. Düşünürdülər ki, ataları onsuz da harda yaşadığını xatırlamır, bilmir, yaşadığı yerin onunçün heç bir fərqi yoxdur. Beş otaqlı mənzil ol-masın, bir otaqlı, uzaqbaşı ikiotaqlı mənzil olsun. Ya da lap elə bağ evinə köçmək olar. Balaca təmirdən sonra oraları əla vəziyyətə gətirmək mümkündür. Həlimə ilk dəfə bu söhbəti eşidəndə diksinmişdi:

– Mənə, biləsiz, bu evlə bağlı heç nə lazım deyil. Amma axı ayıbdı, qonum-qonşu var... Qohum var. Bu məsələni qaldırmağın vallah, vaxtı deyil axı...

Həsən müəllimin beşotaqlı mənzili Sahil bağına yaxın bir yerdə idi. Bu uzun və dairəvi binanın iki tərəfdən girişi olan böyük həyəti var idi. Bu həyətdə maşın saxlamaq problem olmasa da, bununla belə həyətin yuxarı tərəfində bir-birinin yanına inkubator cücələri kimi sıxılmış dörd dəmir qarajdan biri Həsən müəllimə məxsus idi və o köhnə zamanların yadigarı olan öz yaşıl rəngli "Volqa" maşınını bu dəmir qarajda saxlayırdı. Bu "Volqa" sapsağlam bir maşın idi, az sürülmüşdü – Bəyimin sağlığında bazar günü həftədə bir dəfə – bağa. Vəssəlam. Qardaşların hərəsinin öz maşını vardı. Həsən müəllimi evdən işə, işdən evə rəhbərlik etdiyi institutun xidməti maşını aparıb gətirirdi. Bəyimin ölümündən və Həsən müəllim xəstəlik tapandan sonra isə "Volqa", ümumiyyətlə, qarajdan çıxmamışdı. Həsən müəllimin özünün son dəfə evdən nə zaman çıxmağı isə heç kimin yadında deyildi. "Volqa" da elə o zamandan bəri qaraja pərçim olub qalmışdı.

Bu dəfə də söhbəti üçü bir yerdə olan zaman Həsən müəllimin böyük oğlu Əliqismət saldı. O özünü bu cür problemli məsələlərdə usta bilirdi:

– Bilirsiniz, vəziyyət ki, bu cürdü, kişinin sağalmağına inam get-gedə azalır. Allah eləsin, başqa cür olsun. Amma... Nə edəcəyik? – Əliqismət ehtiyatla soruşdu.

Zaurun cavabı ləngimədi:

– Biz bu məsələni əvvəl-axır həll eləməliyik. Yaxşı ki, sən bu söhbəti saldın. Nə qədər tez olsa o qədər yaxşıdı. Evlər get-gedə qiymətdən düşür.

Qardaşlar öz aralarında məsələni artıq götür-qoy eləmişdilər. Bir qalmışdı "pəncşənbənin" nöqtələrini düzmək, yəni, "necə satmaq", "necə bölmək", "kimin payına nə düşəcək?" kimi suallara cavab tapmaq. Bəlkə də (hər halda belə güman etmək mümkün idi) onlar Həlimənin ağzını arayırdılar.

Həlimə üz-gözünü turşudub dedi:

– Mənim gözüm heç nədə yoxdu, biləsiniz. Amma mən istəyirəm ki, atam ömrünün axırınadək bu evdə yaşasın. Noolsun, heç nə yadında deyil. Dəxli yoxdu. Bu evdə!.. – Həlimə doluxsundu. – Sonra nə edərsiz, etməzsiz, özünüz bilərsiz.

– Mən deyirəm, amma sən qulaq asmaq istəmirsən. Ay qız, evlər gün-gündən qiymətdən düşür, başa düşürsən? Bu proses nə zaman bitəcək – bilinmir. Görürsən, şəhərdə nə qədər ucamərtəbəli evlər tikilir?! Qiymətlər... – Zaur çoxmənalı şəkildə sözünü bitirdi.

– Yox, yox, yox. Mən sözümü dedim. – Həlimə öz fikrində qəti idi.

Zaur Əliqismətin üzünə mənalı-mənalı baxdı. Əliqismət bir az düşünüb üzünü yenə Həliməyə tutdu:

– Bəlkə sənin ərini də çağıraq, məsələni onunla bir yerdə müzakirə edək?..

– Axı bu adam (atasını nəzərdə tuturdu) heç özü də bilmir ki, hansı evdə yaşayır, kiminlə yaşayır, eh... – Zaur əlini yellədi. – Onunçün fərqi var?!

– Hə, bu da doğrudur... – Əliqismət yenə də fikirli-fikirli dilləndi.

– Olsun. Heç kimi çağırmaq lazım deyil. Biz bu məsələni, hər necə olsa da, indi heç cür həll edə bilməyəcəyik. – Tanıdı, tanımadı. Mən deyirəm: olmaz! – Birdən Həlimə dözmədi, hönkürtü vurub ağladı və göz yaşları içində hıcqırıqla sözünü belə tamamladı. – Siz heç bilirsiz, neynirsiz? Sizə ayıb deyil?! Sağ bir adamın, özü də kimin – doğma atanızın malını bölüşürsüz. Bunu Allah götürər?

Həlimə susdu və üzünü əlləri arasına alıb bərk-bərk örtdü, heç kimi daha görmək istəmədi. Əliqismət onun titrəyən çiyinlərini qucaqlayıb

üzündən (əslində, üzünü örtən əllərindən) öpə-öpə sakitləşdirməyə çalışdı. Gözünü Zaura ağardaraq (yəni, "sən danışma, sonra... sonra") dedi:

– Yaxşı, qızım (Əliqismət bacısına xüsusi nəvaziş zamanı "qızım" deyə müraciət edərdi), sakit ol. Biz indi nə dedik ki? Bu saat nə ev satan var, nə də ev alan. Qalsın... qalsın münasib vaxta,.. yəni, başqa vaxta. Sakit ol, bax belə... sakit ol...

Həlimə hikkə ilə ayağa qalxdı və daha heç bir söz demədən çıxıb getdi anasının otağına, qapını da arxasınca bağladı. Bəyim artıq yatırdı. O, qızının yanına uzandı.

Bir azdan Həlimə bayır qapının şaqqıltı ilə örtülməsindən başa düşdü ki, qardaşları çıxıb getdi.

Yan otaqdan Həsən müəllimin amansız xorultusu eşidilirdi. Bu xorultunun səsinə ancaq anası Bəyim dözə bilərdi, necə ki, illər boyu (daha doğrusu, gecələr boyu) dözmüşdü. Həlimənin üzünə ılıq bir təbəssüm yayıldı.

Qardaşlar üçüncü mərtəbədən pilləkənlə üzüaşağı qanıqara bir halda dinməzcə endilər və blokdan çıxaraq həyətin soyuq qış havasını acgözlüklə ciyərlərinə çəkdilər. Hava qar havasına oxşayırdı. Yağacaqdı, yağmayacaqdı – Allah bilirdi. Əliqismət dedi:

– Belə-belə işlər, mən sənə dedim axı, çətin olacaq.

– Hə... bunun əri ilə danışmaq lazımdır. Özü deməklə deyil ki. O, bundan ağıllı çıxar. Buna qulaq asmayaq. Şahini də söhbətə qataq.

– Əvvəlcə sən onunla ayrıca danış, sonra çağır. Yaxşı?! Di, xudahafiz.

– Yaxşı, danışaram. Sağ ol.

Onlar əl-ələ vermədən ayrılıb iti adamlarla həyətin müxtəlif tərəflərinə doğru getdilər. Həyətdə biri bu başa, biri də o biri başa aparan iki giriş (çıxış) vardı. Hər biri başqa-başqa küçələrə aparırdı.

Sonra, gecənin bir yarısı yuxudan ayılan Həsən müəllim yaxşı başa düşə bilmədi ki, yuxusunda indicə aydın şəkildə gördüyü bu vaqeə nə deməkdir, bəzən qarmaqarışıq, bəzən son dərəcə aydın yuxu parçaları necə olur ki, bir-bi-rinə qovuşub mənalı və məntiqli bütöv əmələ gətirirlər?! Əlbəttə, bu da bir sirr idi. Amma Həsən müəllimə o da aydın olmadı ki, bu növbəti sirri o öz yuxusunda görmüşdü, yoxsa bu da digər sirlər kimi onun

yazı masasının üstündəki kağızlarda üzə çıxırdı. Bir şeyə şübhə yox idi, istər yuxu olsun, istər olmasın – bu sirri də Səyyah göndərmişdi.

× × ×

### *"Yay" fəsli*

Hacı Mir Həsən ağa Səyyah növbəti göndərişini bu dəfə belə başlayırdı: Mən səyahətlərimin birində gəlib böyük bir dəryanın ortasında yerləşən Şra Sinda adlı adaya yetişdim. Bu ada çox böyük bir ada idi, hətta bir ucu quru ilə gedib Hindistana çatırdı. Bu adanın il boyu təbiəti çox mülayim olur və adamları, demək olar ki, yarıçılpaq gəzirlər. Əhali gəlmələrə hörmətlə yanaşır. Böyüyə ehtiram, yaşlı adamlara nəzakətli davranış var. Onlar bizim ölkəmiz barədə məlumata malik deyillər. Amma onların Çərxi-fələk barədə xəbərlərinin olma-sı məni təəccübləndirdi. Mən onlara Görükməz Təpə və Sehirbazlar dərəsi barədə danışdım. Mənə elə gəldi ki, onlar mənə inanmadılar. Onlar elə bilirlər ki, sehirbazlar, cadugərlər yalnız Şra Sinda məmləkətində ola bilər. Yerli adamlar mənə öz nağıllarını, rəvayətlərini danışdıqca, onlardan bəzilərini mən özümçün yazdım. Şra Sinda rəvayətlərindən biri belə idi. Olduğu kimi danışıram. Sirr bu rəvayətin hər cümləsindən boylanır, açılışı isə o biri cümləsində yenidən gizlənir...

Qədim zamanların birində Şra Sinda adlı Cadugərlər ölkəsində bir sənətkar yaşayırdı. Günlərin bir günü istinin dözülməz bir vaxtında – günorta cağı o öz kölgəsini çiyninə alıb (kölgəsinə bürünüb) evinə gedən yerdə sonuncu döngənin ayrıcına çatıb adəti üzrə sağa dönmək istərkən qəflətən hiss elədi ki, kölgəsi bədənindən ayrıldı və sola döndü. Sənətkar kölgəsinin arxasınca təəccüblə baxıb yoluna davam etdi. Yaşadığı evin qapısına qədər kölgəsiz gəldi. Çox bərk isti idi.

Kölgəsizlik – bu, qəribə bir hiss idi və indiyənə qədər sənətkar heç zaman belə vəziyyətə düşməmişdi. O, quş kimi yüngül olmuşdu, elə bil, çəkisi yox idi. Evə çatan kimi bu məsələnin mahiyyətini, hadisənin ona nə kimi zərər verə biləcəyini öyrənmək istədi. Məhəllədə bir neçə cadugər

vardı. Ən yaxında olanı iki küçə o yanda yaşayırdı. Onun dalınca adam göndərdi.

Cadugər gəldiyində Sənətkar günorta vaxtı baş verən hadisəni olduğu kimi ona danışıb hadisəyə aydınlıq gətirməsini xahiş elədi. Kölgəsiz necə olacaqdı? Kölgəsiz yaşamaq bir adama indiyə qədər müyəssər olmuşdumu? Bu, qorxulu deyilmiydi? İstidən axı ölmək olardı.

Cadugər onun suallarını diqqətlə dinlədi və gözlərini yumub bir dəqiqəyə yaxın sükut içində qaldı. Elə bil, dünya-aləmdən ayrıldı, harasa uzaqlara getdi, qayıtdı, getdi, qayıtdı... Sonra yenidən özünə gəldi və belə dedi:

– Sən bu gün həmən döngədə bir cadugərə çevrilmisən. Bunu mələklər də edə bilər, şeytanlar da. Onlar zaman-zaman bunu edirlər. Mən də anamın qarnında cadugər olmamışam. Axşamların birində çox-çox illər bundan əvvəl mənim də kölgəm bədənimdən ayrılmışdı. Mən o vaxtdan cadugər oldum. İnsanlara xidmət eləmək yolunu seçdim. İsti də mənə artıq kar eləmədi.

Sənətkar bunu eşidib sevindi. Cadugərə qiymətli hədiyyələr verdi. Cadugər gedərkən sənətkar ondan xahiş elədi:

– Səndən ricam budur ki, bu hadisəni hələlik heç kimə danışmayasan. Mən cadugərliyimdən ancaq özüm üçün istifadə etmək istəyirəm.

Cadugər cavab verdi:

– Əsas məsələ budur ki, sən cadugərliyini gizlədib insanlara xidmət eləməkdən vaz keçsən, kölgən yenidən gəlib səni tapmaq, sənə yapışmaq istəyəcək. Sən bacardıqca öz kölgəndən qaçmalısan. Kölgən səni tapsa, o daha sənin davamın olmayacaq, o səndən dəhşətli bir intiqam alacaq. Bir dəfə cisimdən ayrılan bir daha cisimə birləşməz. Kölgənin yenidən sənin cisminə qayıtması sənin ölümün deməkdir. Sən Karanın (ölüm mələyinin) diyarına gedəcəksən.

Bu sözlərdən sonra Sənətkar dərin düşüncələrə daldı. Kölgəsindən qaçıb gizlənməyi necə həyata keçirəcəkdi, buna necə nail olacaqdı, bunun üsulunu axtarmağa çalışdı. Yata bilmədi və bütün gecəni yatağında düşüncələr içində keçirdi. Nəhayət, kölgəsindən gizlənməyin (xilas olmağın) yolunu tapdı.

Sənətkara bir cadugər həyatı lazım deyildi. O öz sənətkar həyatını davam eləməyi, özü üçün yaşamağı qərara aldı. Ona qibtə edənlərə o belə deyirdi: "Siz yerdə sürünənlər mənə göylərdə pərvaz etdiyim üçün həsəd aparırsınız. Mən isə sizə deyirəm:, bilin və agah olun. Göylərdə sizin üçün maraqlı heç nə yoxdur. Göylərdə, ümumiyyətlə, maraqlı heç nə yoxdur".

Sənətkar kölgəsini bir daha görməmək üçün (daha doğrusu, kölgəsinin onu bir daha tapa bilməməsi üçün) ilk öncə öz adını dəyişdirməklə onu azdırmaq istədi. Adını yanına çağırdı. O artıq bunu edə bilirdi. Və o təəccüb eləmədi ki, adı bir anın içində onun çağırışı ilə qarşısında zühur elədi. Bu, bir qəribə, yaşıl, qurbağaya oxşar məxluq idi.

– Mən istəyirəm ki, sən dönüb başqa bir sözün libasına bürünəsən və görünüşünü dəyişəsən. Biz kölgəmizdən gizlənməliyik. O bizi yenidən tapmamalıdır.

Adı onun qarşısında müticəsinə baş əyib dedi:

– Necə arzu edirsiniz, elə də olsun.

Adını dəyişəndən sonra Sənətkar istədi ki, öz görünüşündə də müəyyən dəyişiklik eləsin. Bunu da eləmək çətin olmadı. Bir anın içində Sənətkar ağbəniz birindən qarabəniz və daha cavan bir adama çevrildi. Köhnə görüntüsü mütəəssir bir halda ondan (köhnə görüntüsünün fikrinə görə vəfasız “ondan”) uzaqlaşıb havadaca əridi. Daha sonra evi dəyişmək, iş yerini dəyişmək, qohum-əqrabasından üz döndərib onların gözündən yox olmaq lazım idi. Sənətkar bunları da etdi. O, işi elə qurdu ki, qohumları artıq onu görə bilmirdi, o isə istədiyi zaman qohumlarını görüb başqa qiyafətdə, başqa ad altında onlarla söhbət edə bilirdi.

Sənətkar bununla da kifayətlənmədi. Ən çətin məqam yaxınlaşırdı. Sevgilisini dəyişmək lazım idi. Bu elə də asan olmayacaqdı. Kölgə onun sevgilisini elə onun özü qədər tanıyırdı. Bu sədaqətli qız sənətkara elə isnişmişdi ki, nə zamansa ondan ayrı ola biləcəyini ağlına belə gətirmirdi. Amma Sənətkar bu çətin işin də öhdəsindən gələ bildi. İndi o əvvəllər, yəni, kölgəsi olan zaman tanımadığı gözəl bir qızla sevişirdi. Hər gün onlar qızın bağçasında görüşürdülər. Qızın bağçası köhnə sevgilisinin qonşuluğunda idi. Bu yeni məhəbbətin gözəlliyi Sənətkarın həsrətilə ağlayıb-ağlayıb gözlərinin nurunu

itirmiş köhnə, sədaqətli sevgilisini də (qız artıq Sənətkarı tanımırdı) riqqətə gətirirdi. Yeni sevgilisi ağ-ağ çiçəkləri açmış gilas ağacının altında oturub onun başını nəvazişlə dizləri üstünə alır, incə barmaqları ilə yorğun gicgahlarını yumşaq-yumşaq ovuşdurur, zərif səsilə Sənətkarın bəstələdiyi mahnıları onun özü üçün oxuyurdu.

O bu məftunedici səsi dinlədikcə ruhu dincəlir, köhnə sevgilisini gördüyü zaman ona əzab verən düşüncələrdən xilas olurdu.

Bir dəfə gecənin bir yarısı evində yatdığı zaman Sənətkara elə gəldi ki, həyətdən kimsə onu çağırır. Ayağa durub eşiyə çıxmaq istədi, amma qapını açan zaman qəflətən fikrini dəyişdi. Həyətdən gələn səs onun kölgəsinin səsinə oxşayırdı. Cadugər olduğu üçün o bunu son dəqiqədə hiss edə bilmişdi. Səs elə yazıq-yazıq, elə yanıqlı-yanıqlı (bu həm də bir uşaq, yaxud pişik səsi ola bilərdi) onu çağırırdı ki, Sənətkarın ürəyi sıxıldı, amma o yenə də özünü ələ alıb evin qapısını bərk-bərk bağladı və qulaqlarına pambıq tıxadı.

Sabahı gün Sənətkar başına gələn əhvalatı sevgilisinə danışdı. Beləliklə, sevgilisi onun sirrini bilən yeganə canlı, cadugər olmayan insan oldu. Qız həmişəki nəvazişlə onun başını dizləri üstə alıb sığalladı və bu dəfə ona tanış gəlməyən hansısa qəmli bir mahnını dodaqaltı zümzümə eləməyə başladı. Mahnını tanımaması Sənətkara qəribə gəldi. Çünki o, cadugər idisə bu mahnını tanımalıydı.

– Bu mahnını sən başqa adın və başqa vücudun içində yaşayanda bəstələmisən. Sən onu unutmusan? – Yeni sevgilisi zərif səslə ondan soruşdu.

– Unutmuşam… – O, gözlərini yana qaçırıb tutqun və fikirli bir halda cavab verdi.

Sənətkarın qorxduğu başına gəlmişdi. Mahnını unutması o demək idi ki, kölgəsi onu tapıb. Sona qədər kölgədən gizlənmək mümkün olmayıb. O gecədən sonra onun cadugərliyinin gücü əriməyə, azalmağa başladı.

Bir gün sənətkar sevgilisinin yanına gələndə onu evdə görmədi. Sevgilisi görüş yerini səhv salmışdı. Qonşuluqda yaşayan köhnə sevgilisi həmən ağ libaslı gilas ağacının altında oturmuşdu. O, sənətkara dedi ki, sevginiz sizinlə sizin evdə görüşəcəyini güman edirdi. O indi şəhərin dar küçələri ilə

sizin evə tərəf gedir, bir az tələssəniz, onun arxasınca gedib ona çata bilərsiniz. Gedə-gedə o mahnı oxuyur. Siz onun səsindən yapışa bilsəniz, özünü də tapacaqsınız.

Sənətkar nə qədər gücünü bir yerə yığdısa da sevgilisinin hansı küçə ilə getdiyini özü üçün aydınlaşdıra bilmədi. Bir cadugər kimi onun gücü xeyli zəifləmişdi. Son gücünü toplayıb qızın zərif səsini qulaqlarında zorla eşidə bildi. Sənətkar bu səsdən yapışıb əyri-üyrü dar küçələrdən keçə-keçə sevgilisinin iziylə getdi. Küçələr daraldıqca səs də get-gedə zəifləyirdi. Amma Sənətkar yaxşı bilirdi ki, bu səs onun çox-çox əvvəllər bəstələdiyi qəmli mahnını oxuyur.

Səs onu tanış yolla köhnə evinə sarı apardı. Həmən tanış döngəyə çatanda sevgilisinin səsi qəfildən qırıldı və elə bu an Sənətkarın bədəninə ağır bir yük daxil oldu. Kölgəsi ondan ayrılan yerdə yenidən onun bədəninə girdi.

Sevgilisi Sənətkarın evinə çatıb qapını döyəndə içəridən səs gəlmədi. Kimsə qapını açmadı. Yol ilə gedən bir cadugər qıza kömək elədi. Səsini ucaldıb alçalda-alçalda dua oxuyub qapını açdı, "bizim işimiz cadugər olma-yanlara xidmət eləməkdi" deyib qızın nədənsə qorxduğunu hiss etdi və onunla bir yerdə içəri daxil oldu.

Sevgilisi çarpayıda tərpənməz bir halda uzanmış bu ağsaçlı, ağbəniz adamı az qala tanımadı. Sənətkarın açıq gözləri təəccüblə ona baxırdı. Ağzı balıq ağzı kimi açıq qalmışdı. Bədəni hələ isti idi. O, bir az əvvəl keçinmişdi.

× × ×

### *"Yaz" fəsli (davamı)*

Novruzəli və Nəzərəli əllərinə balta alıb, bellərinə xəncər bağladılar. Onlar gecənin düşməsini və ataları Tacir Məhəmmədəlinin adəti üzrə arxa bağçaya gecə gəzintisinə çıxmasını gözləyirdilər. Nəhayət, gecənin bir aləmi Tacir Məhəmmədəli evdən həyətin dal bağçasına çıxdı. Oğlanları ki atalarını gözləyirdilər, bunun dalınca (5-6 addım aralı) getdilər. Özləri də tez-tez

ətrafa boylanıb baxırdılar görsünlər ki, bağçada yad adam vardır, ya yoxdur. Divar boyu ay işığının düşdüyü yerdə bir-iki kölgə göründü, tez də yox oldu. "Bu kölgələr nahaqdan deyil", deyə düşünən Novruzəli əli ilə qardaşının diqqətini o tərəfə yönəltmək istədi, lakin fikrindən daşındı, düşündü ki, kölgədən ha qorxmayacağam, Nəzərəli mənim barəmdə nə düşünər?!

Bir xeyli bağçada sağa-sola dolaşan Tacir Məhəmmədəli, nəhayət, yolunu armud ağacının yanından saldı. Bir an əli ilə ağacın budaqlarına ehmalca toxunub keçdi. Nəzərəli atasının sözlərini unutmamışdı, qardaşlar armud ağacına yaxınlaşdıqda Nəzərəli Novruzəlini özündən qabağa buraxdı, bir ləhzələngidi və yavaşdan üç dəfə öskürdü (guya boğazını arıtlamaq istədi). Sonra Nəzərəli daha durmadı, atasının tapşırığına əməl edərək qaranlıqda dalı-dalı çəkilib Novruzəlidən ayrıldı, tez evə qayıtdı, qapını açıb içəri girdi, pəncərənin önünə keçdi. Ürəyi səksəkəli və şiddətlə vura-vura üzünü pəncərəyə yapışdırdı, qaranlıq həyətdə nə isə görməyə çalışdı. Heç nə görə bilmədi.

O gecədən Novruzəli yoxa çıxdı. Onu daha heç kim heç harda görmədi. Güllü saatlarla divar dibində dayanıb hasarın o biri üzündən bir işarət (əslində – asqırmaq, çünki görüş yerinə gəlməklərini bir-birinə bu cür xəbər verirdilər) gözləməkdən yoruldu. Güllü düşündü ki, Novruzəli, yəqin, yenə uşaqlıqda olan kimi hiylə gəlib onu aldatdı və Çərxi-fələk ölkəsinə onsuz yola düşdü. Bir-iki gün ağladı, sonra kiridi. "Vəfasız Novruzəli" deyə-deyə qəlbində sevgilisini yamanladı. Amma hər dəfə evlərinin yaxınlığındakı kəhrizin yanından keçəndə Novruzəlinin onu kəhrizə susuz aparıb susuz gətirdiyini yadına salır, gözlərinə yaş dolu təbəssüm dolurdu, ürəyi isə bu zaman sıxıldıqca sıxılırdı.

Nəzərəli uzun zaman qorxu içində yaşadı və atasından qardaşını soruşmağa belə cürəti çatmadı. Anası ki, çoxdan Allahın rəhmətinə getmişdi, Novruzəlini heç kim axtarıb eləmədi. Hərdən bazara kimsə xəbər gətirirdi ki, Novruzəlini Görükməz təpənin altında Sehirbazlar dərəsində görüblər, guya o, sehirbazlarla bir yerdə dərə boyu gəzişirmiş. Gah da xəbər uzaq-uzaq ellərdən karvanla gəlirdi, Novruzəlini, tacirlər deyirdi ki, Çərxi-fələkdə bazarda sarı əbalı, qırmızı papaqlı, uzunsaqqal, hər barmağında qızıl

üzük olan bir kişi ilə şətrənc oynayan yerdə görüblər. Guya ki, bu kişi bütün dünyanı gəzib dolaşan məşhur bir tacir imiş. Gah da deyirdilər ki (uzaq Çərxi-fələkdən gələnlər), guya Novruzəli adlı onların həmşərisi cadugərlərin və sehirbazların mürşidi Ağ dərvişin yanında xidmət edir. Başqaları isə deyirdi ki, yox, onun yanında deyil, haman alabəzək geyimli (eynən Tutuquşu kimi) uzaq məmləkətdən gəlmiş tacirin yanında xidmət edir. Amma iş orasında idi ki, Novruzəlini öz doğma şəhərində də görənlər yox deyildi. Qonşular deyirdi ki, Novruzəli bu gün sübh tezdən evlərinin darvazasından çıxıb bazar tərəfə üz tutdu. Onun Molla Allahverdinin qapısı ağzındakı tut ağacının altında bir müddət tək-tənha dayandığını da görən olmuşdu. Narahat halda sağa-sola boylanır, sanki kimisə gözləyirdi. Sonra isə xəbər yayda buz kimi əriyib itirdi və Novruzəli yenə də gözdən iraq əlçatmaz bir məkanda qalmağına davam edirdi.

Sevimli oğlu Novruzəlidən hər hansı xəbər gələndə isə Tacir Məhəmmədəlinin qaşları çatılır, üz qırışları dərinləşir və o, dərin fikrə gedirdi. Belə zamanlarda bu qoca kişinin sulanmış gözlərinin dibinə qüssə və kədər çökürdü.

× × ×

### *"Qış" fəsli (davamı)*

Həsən müəllim daxili bir fəhmlə hiss edirdi ki, ağ kağızların üstündə sehirli şəkildə yazılan yazılarla onun yuxuları artıq bir-birinə qarışmağa başlayır. Sirlər bir-birinin içinə girir. Həsən müəllim bir şeydən xüsusilə ehtiyat edirdi. O qorxurdu ki, sirlər biri birinin içinə elə bir hücmlə girər ki, daha onları bir-birindən ayırıb müəyyən bir məsafədə saxlamaq mümkün olmaz. Beləcə, təbiətin fəsilləri bir-birinin içinə girir. Qış fəslində payız nəfəsi, yay fəslində yaz havası gəlib özünü göstərən kimi. Qədim zamanlarda yəqin ki, belə ola bilməzdi. Qışın qış yeri vardı, yazın yaz yeri.

Həlimə ilə aralarındakı söhbətin ertəsi günü Zaur Həlimənin əri Şahinə zəng elədi:

– Salam. Nə var, nə yox?

– Salamatlıqdı. Kişi necədi? – Şahin soruşdu.

– Əvvəlki kimi.

– Heç irəliləyiş yoxdu?

Şahin həkim (kardioloq) idi və yaxşı bilirdi ki, bu xəstəliyin "irəliləyişi" ancaq dərinləşməsi və bir qədər də inkişafı ola bilər. Sualını da nəzakət xətrinə verirdi.

Zaur onun sualına cavab vermədən birbaşa mətləbə keçdi:

– Səninlə görüşüb bir məsələni danışmaq istəyirəm. Nə zaman görüşə billik?!

– Nə zaman istəsən. Axşam yeddindən sonra boşam. Xeyirdi?

– Görüşüb danışarıq.

– Oldu. Axşam yeddidə xəstəxananın qapısında. Küçə tərəfdə. Sən maşında olassan?

– Hə. Necə ki?..

– Dal-qabaq gedib bir yerdə bir tikə yemək yeyərdik. Necə baxırsan? – Şahin Zaurun danışıq tərzindən başa düşdü ki, söhbət ən azından maraqlı olacaq. Ürəyində düşündü ki, söhbət Esyadan (onun şöbəsindəki tibb bacısından) getsə, Zauru birdəfəlik yerində oturdar. Onun şəxsi həyatına nə Zaur, nə onun qardaşı, nə də lap elə Həlimə burnunu soxa bilər.

– Oldu. Danışdıq. 7-də mən orda.

– Görüşərik.

Zaur telefonu söndürüb maşınını işə tərəf sürdü. Özünü rahat hiss eləmirdi. Şahinlə axşamkı görüşün ağırlığı onu indidən əzməyə başlamışdı.

Həsən müəllim yazdığı varaqlara bir-bir baxır və onları sahmana salmağa çalışırdı. O istəyirdi ki, hər bir sirli hekayət ayrıca yazılsın, öz yerini ayrıca tutsun. Sirlər bir-birinə qarışmasın, yoxsa bu mürəkkəb labirintdən çıxmaq olmaz. Həsən müəllim başa düşürdü ki, son yazılarda tacir Məhəmmədəlinin və oğlu Novruzəlinin sirrinə Cadugərlər ölkəsində yaşayan sənətkarın sirri qarışıb. Həsən müəllim indi onları yerbəyer eləməklə, hər birinin ardıcıllığını qorumaq şərtilə yazıya köçürməklə məşğul idi. İş xeyli ağır idi.

Tutuquşu maraq və diqqətlə ona baxırdı.

× × ×

### *"Yaz" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah miz üstdəki ucları bir-birinə yapışdırılmış kağız qalağına baxaraq köksünü ötürdü: "Görəsən bu dünyada nə zamansa dincəlmək, heç nə barədə düşünməmək, qayğıdan, dərddən kənar asudə həyat sürmək mənə qismət olacaq, ya olmayacaq?!" Onun ürəyini sıxan bu kağızlar idi. Yazdığı risalədə mətnin ayrı-ayrı mövzuları bir-birinin içinə girməyə başlamışdı – buna isə imkan vermək olmazdı. Gör bir payızın içində qış ola bilərmi, yaxud baharda payız nəfəsi özünü göstərərmi?! Diqqətli olmaq lazımdır. Tacir Məhəmmədəli uzaq bir ölkədəki Cadugəri necə oldu ki, öz sirrinin içinə buraxdı, bu elə hansısa bir yadellini öz evinin içinə, birbaşa əndəruna buraxmaq kimidir. Yazıları səliqəyə salmaq lazımdır. Yoxsa bir-birinə elə qarışarlar ki, daha bu sərgüzəşt olmaz, bu olar qatmaqarışıqlıq.

Hacı Mir Həsən ağa Səyyah dizini yerə vurdu, mizin üstündəki varaqlara qorxa-qorxa baxıb öz işinə başladı. O hiss edirdi ki, burada bu işi özü görməsə, o uzaq zəmanədə bu işi onun əvəzinə görən tapılmayacaq. Çox çətin olacaq. Onun isə adətində deyildi ki, öz işini bir başqasının ümidinə qoysun. Birdən Səyyahın əqlinə qəribə bir fikir gəldi. "Bəlkə elə – Hacı Mir Həsən ağa Səyyah əlindəki kağızların o üzünə, bu üzünə baxa-baxa düşündü, – əsl səyahət elə budur?! Sirlərin bir-birinin içinə girməsidir?! Onların öz aralarında münasibətin yaranmasıdır?!" Yadına düşdü ki, risalənin öz-özünə zühur edən ikinci başlanğıcında bu barədə yazılmışdır. Əslində, o bu sirləri qələmə alarkən hər birini odunçuda, Beyrəkdə, Təpəgözdə olan kimi bir-birindən aralı yox, bir-bi-rinin içində görməli idi. Bunun zəif işartısı tacir Məhəmmədəlinin oğlu Novruzəlinin sirrinin Şra Sinda cadugərinin sirrinə qarışmasında özünü biruzə verdi. Hacı Mir Həsən ağa Səyyah qərara gəldi ki, bir daha sirlərə toxunub onları yerbəyer eləməsin, Allah-taala onun könlünə, oradan da qələminin ucuna o sirləri hansı şəkildə, necə və nə təhər göndərəcəksə o cür də qələmə alsın, daha heç bir düzəliş aparmasın. "Uf..." deyib rahatlıqla nəfəs aldı, onun işi, beləliklə, çətinləşmir, ağırlaşmırdı. Əksinə, yüngülləşirdi.

Bayırda yaz günəşi çıxmışdı. Şüaları həvəslə evin içinə girir, tavanda, divarlarda dəcəl-dəcəl oynayır və sanki Hacı Mir Həsən ağanı əmin eləmək istəyirdi ki, qorxma, mən öz içimə heç bir kənar nəfəsi qəbul edib sala bilmənəm. Arxayın ol.

×××

***"Payız" fəsli (davamı)***

Həsən müəllim bu gün qəribə hisslər keçirməyə başladı. Sabahdan bəri sanki ürəyində üzücü, qəmli bir yük vardı. Mətbəx otağında Həlimə adlı bu qadın (qızı Həlimə) ona qəribə suallar verməyə başlamışdı. İlk sualı bu olmuşdu:

– Sizin həyatınızda xoşbəxt günlər heç oldumu?

Həsən müəllim az qaldı qəhvə fincanını əlindən salıb sındırsın. O, belə bir məhrəm sualı Həlimə xanımdan, ev işləri ilə məşğul olmağa gəlib onunla bir mənzildə qızı ilə birgə yaşamağa başlayan bir adamdan heç gözləmirdi. Onun qızı Bəyim də özünü anası kimi (son dərəcə məhrəm adamlar kimi) sərbəst aparırdı. Heç kimi bu balaca qızcığaz vecinə almır, bir də görürdün, nagahandan arxadan gəlib onu qucaqlayır, sonra da qaçıb gedirdi. Elə bil, yüz dəfə, min dəfə oynadıqları sevimli oyunu təkrar oynamaq istəyirdi. Həsən müəllim onun dalınca qaçmayanda Bəyim dodaqlarını büzür, inciyirdi. Həsən müəllim heç nə başa düşmürdü. Bu balaca dəcəlin anası da, özü də bu mənzildə (əslində, bura hara idi – bəlkə xəstəxana idi, bəlkə istirahət ocağı idi – Həsən müəllim anlaya bilmirdi) özlərini çox rahat, xeyli rahat (az qala özbaşına) hiss edirdilər. Bu isə hər bir işdə nizam-intizam sevən Həsən müəllimin o qədər də xoşuna gəlmirdi.

Həsən müəllim çaşqın bir vəziyyətə düşmüşdü. Həlimə xanımın sualına birbaşa cavab verə bilmədi:

– Əvvəlcə biz gərək müəyyənləşdirək görək ki, "xoşbəxtlik" nə deməkdir...

– Düzdü. Onda deyin görüm, siz onu necə başa düşürsünüz?

– Xoşbəxtlik... Xoşbəxtlik məncə budur ki, sevimli işinlə məşğul olmaq imkanın var.

– Bu bir... Yəni, bu – birinci şərt.

– İstədiyin adamların əhatəsindəsən ("daha mənim kimi yox..."). Bu – iki.

– Bu iki...

– Xoşbəxtlik... Hə... bir də bu... – Həsən müəllimin səsi bir anlıq doğmalaşdı, əvvəlki kimi məhrəm oldu. O, elə bil, xəyala getdi. – İşdən evə qayıdanda qapını açarınla yox, zəngi basasan, gəlib açalar... – Bu yerdə Həsən müəllim söhbətin məğzini itirdi. – Mən bilmirəm axı xoşbəxtlik nədir... Bu nə sualdır verirsiz? Necə cavab verə bilərəm mən sizin sualınıza?! Kim, ümumiyyətlə, bu suala cavab verə bilər? Məncə, heç kim.

– Həsən müəllim, sizin bu həyatda sevdiyiniz insanlar olub? Məsələn, həyat yoldaşınız... övladlarınız... nəvələriniz...

Balaca Bəyim mizin o biri başındakı stulda oturmuşdu və istəməyə-istəməyə səhər yeməyini yeməklə məşğul idi. Maraqla babasına baxdı, elə bil, ağzını açıb demək istəyirdi ki, "mən burdayam, baba?! Axı sən deyirdin ki, mən sənin həyatının ən xoşbəxt hədiyyəsiyəm?!" Anası ona gözünü ağartdı, Bəyim sözlərini ağzındakı tikəsinə qatıb "uddu" və susmağına davam elədi.

Həsən müəllim bilmədi ki, Həlimənin bu son sualına necə cavab versin. Ona elə gəldi ki, sabahın belə suallarla başlaması nahaqdan deyil. Həmişə ehtiyatlı olan, həkimin məsləhəti ilə Həsən müəllimi süni sürətdə keçmişə aparmağa cəhd etməyən Həlimə bu gün nədənsə aqressiv olmuşdu, sualları ilə Həsən müəllimin yaddaşına ciddən təsir göstərmək, atasının sağalma sürəsini tezləşdirmək istəyirdi. Sanki onu "qaçdı-qovdu" məngənəsinə salmışdılar. "Axı ola bilməz ki, sən anamı, məni xatırlamayasan, bu körpələri xatırlamayasan, onları min dillə əzizləyib sevən sən deyildinmi?!" – Həlimə düşünürdü. – "Tez sağal, tez, tez... Öz evinin, eşiyinin özün ağası ol. Ata, ata.. Bu nə gündü biz gəlib düşdük?! O əziz günlər necə oldu, unuduldu?!"

– Həyat yoldaşınızın adı nə idi? Onu da unutmusunuz?!

– Bəyim... – Həsən müəllim sövqi-təbii şəkildə nəvazişlə nəvəsinin (Həlimənin qızının) adını çəkdi. Bunu nə üçün etdiyini anlamadı və elə o dəqiqə də huşundan qovub çıxardı. – Balaca, o qəndqabını mənə tərəf itələ. – dedi.

Həlimə durduğu yerdə quruyub qaldı. Əvvəlcə atasının ilk sözünü və bu sözdən sonrakı pauzanı eşidib-duyub sevincindən az qaldı qışqırsın. Atası anasının adını çəkmişdi. Amma bir azdan Həlimə başa düşdü ki (əslində, bununla barışdı), Həsən müəllim balaca Bəyimə xitab edir və sevinci bir anda uçub getdi. Həsən müəllim Həlimənin qızı balaca Bəyimin adını bilirdi, amma bilmirdi ki, nə üçün ona qənd lazım olmaya-olmaya bu balaca, dəcəl qıza "Bəyim" deyə müraciət etmişdi və xəstəlikdən sonra ilk dəfə bu adı dilinə gətirmişdi.

Əsl "müsibət" isə axşama yaxın baş verdi. Həlimə atasının iş yerindən (Həsən müəllim tarixçilər qurumunun sədri idi) ən yaxın dostlarını, keçmiş tələbələrini, indi isə adlı-sanlı alimləri evə dəvət etmişdi. Onlar az qala qarğa-quzğun kimi, səs-küylə içəri doluşanda (hamısı eyni vaxtda gəlmişdi, təxminən, 10-12 nəfər idilər), Həsən müəllim əvvəl-əvvəl qorxan kimi oldu və öz yataq otağına qaçıb "aradan çıxmaq" istədisə də, Həlimə buna imkan vermədi:

– Bu adamlar sizi görməyə gəliblər. Bir baxın, görün içərilərində sizin də tanıdığınız varmı?!

"Niyə bu adamlar məni görməyə gəlsinlər?! Bunlar kimdilər?! Məndən nə istəyirlər?! Yox, mən bunların heç birini tanımıram..."

Məcburən Həsən müəllim böyük otağa keçib qonaqlarla o da masa arxasına oturdu. Həlimə xahiş eləmişdi ki, qonaqlar işdən-gücdən, bu gün tarix və mətnşünaslıqda olan problemlərdən, hətta intriqalardan söhbət açıb danışsınlar, xəstə ilə xəstə kimi rəftar etməsinlər, bəlkə də, kim bilir, bu söhbətlərin təsiri özünü göstərər və Həsən müəllim təbii şəkildə köhnə həyatına qayıdar, nəyi isə, kimi isə xatırlayar... kim bilir?! Allah, sən özün kömək ol.

Həmən axşam köhnə dostların, cavan tələbələrin maraqlı söhbətləri bir-birini aramla (bəzən səbirsiz) əvəz edirdi. Bu söhbətlər onların köhnə

rəhbərlərinə (Həsən müəllimə) qəribə və tanış olmayan bir adanın sirləri qədər anlaşılmaz gəlirdi. Kimsə kimisə tənqid eləmişdi, tarix elminin ağsaqqalı Həsən müəllim (onun adaşı?) üçün xaricdəki dostları bərk darıxıblar, Nafiz müəllim təzə ev alıb, Mürvətin altıncı uşağı doğulub, ümumdünya konqresinə hazırlıq zamanı Akademiyada əməlli-başlı savaş düşüb, Samir, nəhayət ki, ağlını başına yığıb evləndi, özü də kimə, kimə – Samirəyə... Bu söhbətlər, onların arxasındakı həyat Həsən müəllimə yad və maraqsız idi. Həsən müəllim öz-özünə sual verib düşünürdü: "Bunların arasında mənim nə üçün ürəyim sıxılır?! Niyə bunlar məni bu qədər sevirlər?! Üz-gözlərindən niyə hörmət, ehtiram, əzizlik yağır?! Eh, bezdim mən. Sağa baxıram, sola baxıram – darıxıram. Nə üçün?"

Həlimənin arzusu yerinə yetməmişdi. Həsən müəllim deyilənlərə qətiyyən maraq göstərmədi və bir dəfə də olsun söhbətə qatılmadı. O, dumanlı şəkildə bu adamları belə "gördü": onlar uzaq bir adanın sakinləridir və Həsən müəllim öz bənövşəyi yelkənlərini qaldırmış gəmisində o adadan uzaqlaşdıqca tanımadığı bu adamlar onun arxasınca əl edirlər. Bu dəfə Həsən müəllim öz libasında deyildi, səyyah Sindbadın alabəzək libasında idi.

Əslində isə, Həsən müəllim huşsuzluq aləminə keçid vaxtı (təxminən yeddi-səkkiz ay bundan əvvəl), dünyanı tam unutmadığı günlərin birində qızı Həlimədən sevimli dostlarını və tələbələrini (elə indikiləri) evə dəvət etməsini xahiş eləmişdi. Onlar yığışanda (elə bu salonda eyni adamlarla birgə indiki kimi gözəl bir məclis qurulmuşdu) Həsən müəllim məclisin şirin yerində əlində konyak badəsi gözlənilmədən və gümrah bir halda ayağa qalxdı. Hamı susdu. Hər birinin həyatında, elmi yüksəlişində müstəsna xidməti olan bu möhtərəm insan görəsən, nə deyəcəkdi?! Həsən müəllim əvvəldən nitq hazırlamışdı, onu deməyə başladı:

– Mənim əzizlərim! Əziz dostlarım! Əziz övladlarım! (Həlimə, Əliqismət, Zaur, Həmid də burda idilər). Bu dünyada bizi bir-birimizə çox xətlər birləşdirdi və zaman göstərdi ki, bu xətlər xeyli möhkəm və etibarlıdı. Sizə elə gəlir ki (bu dostlara aid müraciət idi), mən yüngül xəstələnmişəm və sabah, o biri gün yenə də işə çıxacağam...

Onun sözünü məclisdəkilər kəsdi:

– Allah qoysa...

– İnşallah, müəllim.

– Ustad, hamı sizi sevənlər darıxıb durub...

Həsən müəllim bu səmimi sözlərdən sonra əməlli-başlı duruxdu (əslində, qəhərlənmişdi), amma özünü ələ alıb sözünə yenə də aramla davam elədi:

– Bu, belə deyil. Mən bir daha qayıtmayacağam.

Həsən müəllim mənalı-mənalı Həliməyə baxdı.

Məclisdəkilər də bir-biriylə baxışdılar. Bir Həlimədən və qohumlardan başqa heç kəs burada nə baş verdiyini və deyilənləri anlamırdı.

– Mən qayıtmayacağam. Ona görə yox ki, bunu istəmirəm. Mən qayıda bilməyəcəyəm. Siz gərək buna alışasınız. Mən yəqin ki, yaşamağa davam edib həyatımı yenə də sürəcəyəm, yəqin ki, həyat eşqim, yazmaq həvəsim (inamım bunadır) qalacaq. Amma mən artıq mənə əziz, doğma olan heç kimi xatırlaya bilməyəcəyəm. Mən hamını unudacağam. Bu da belə bir xəstəlikdir. Bunu söyləmək ağırdı, amma bu belədi. Bu xəstəlikdən sağalma ehtimalı sıfırla bir arasındadı. Əziz dostlar, həqiqət bundan ibarətdir.

Biz sizinlə, sözün əsl mənasında öz qalamızda daşı daş üstə qoyaraq, düşmən qalasında daşı daş üstə qoymamışıq (bu sözlər onun sevimli sözləri idi və dostları, tələbələri bu sözləri müxtəlif uyğun məqamlarda həvəslə təkrar edirdi). Böyük işlər görmüşük. Elmimizin təəssübünü çəkmişik. Ondakı sirli, müəmmalı boşluqları doldurmuşuq. Bunları biz cəsarətlə etmişik. Əl-ələ verərək etmişik. Bunları çiyin-çiynə söykəyərək etmişik. Edə bilmişik. Asan olmayıb. Mənim əzizlərim, artıq ayrılmaq vaxtıdı. Necə deyərlər, vida zamanıdır. Mən hamınızdan sabah sizi tanımayacağım üçün bu gün üzr istəyirəm. Sizə elmi uğurlar, sevimli işlə məşğul ola bilmək xoşbəxtliyi, ən vacibi isə... möhkəm cansağlığı arzulayıram. Ümid edirəm ki (bu yerdə Həsən müəllim doluxsunduğunu heç cür gizlədə bilmədi), mən vəfasız çıxdımsa da, siz vəfasız çıxmazsınız, xatırlarsınız. Məni bağışlayın.

Salona sükut çökdü. Həsən müəllim boynunu büküb günahkar adamlar kimi qızına baxdı (Həlimə ona içməyi qadağan etmişdi) və konyak qədəhini tələsik başına çəkdi, sonra yerinə oturdu:

– Hə, nə oldu? – Həsən müəllim sükut içində donub qalmış məclisdəkiləri "ayıltmaq" üçün şən bir halda ətrafa boylanıb soruşdu. – Mənim sözlərimə elə də fikir verməyin. Yeyin, için, əziz qonaqlar. Bu mənə də xoş gələr. Nazif, başla. Buyurun, buyurun, davam edək...

Əlbəttə ki, daha əvvəlki əhval-ruhiyədən əsər-əlamət qalmadı. Amma qonaqlar məclisi birtəhər yola verə bildilər. Məclis dağılarkən dəhlizdəki azərbaycansayağı uzun-uzadı sağollaşma qısa vidalaşma ilə əvəz oldu. Hamı bayıra çıxmağa tələsirdi.

× × ×

### *"Qış" fəsli (davamı)*

Zaurla Şahinin görüşü qarşılıqlı anlaşma şəraitində keçdi. Şahin hətta məsələyə yeni bir çalar gətirdi: pul çaları.

Şahin dedi:

– Evi ("ev" məsələsini) yaxşı qaldırırsız, bağı da həmçinin. Çox vaxtındadı. Amma bir məsələ də var, onu da unutmayaq ki, kişinin yəqin ki, köhnədən qalma kalan pulu var. Bunun kitablarının qonorarı, mükafatları hara getdi?! Özü də ola bilər ki, təkcə kitabların arasında, banklarda deyil, bəlkə də hardasa gizlədilib. Məsələn, bağda...

– Düz deyirsən, – Zaur onun dediklərini təsdiq elədi. – Ola bilər... bəlkə də bağda harasa basdırıb... Sonra da – xəstəlikdən sonra yüz faiz yadından çıxıb... – Zaurun səsində acı bir ittiham vardı.

– Bəli, tamamilə doğrudur. Niyə də yox? Bu barədə də düşünmək lazımdı. Əliqismətə deyərsən.

Şahin ani olaraq fikrə getdi, sonra sözünə davam elədi:

– Özünün yəqin ki, sən demiş, yadından çıxar, ancaq... alqoritmini tapsaydıq, elə bilirəm, mümkün olardı. Bunun son vaxtlar...

– Xəstəliyinə qədər?

– Hə, əlbəttə, xəstəliyinə qədər hansı plan və sxemlə hərəkət eləməsini, bağda haralarda gəzməsini, evdə zirzəmini, taxtaların, polun altını yoxlamaq pis olmazdı.

– Adam dəqiq bilə ki, nəsə var, lap elə o evi (bağ evini) söküb təzədən, başqa cür tikmək də olar... – Zaur fikirli-fikirli dedi.

– Ay sağ ol. Niyə də yox?! – Şahin səpdiyi toxumun cücərdiyini hiss elədi.

Qərarlaşdılar ki, bir-iki gün ara verəndən sonra məsələni Həlimə ilə görüşüb bir daha müzakirə eləsinlər və bu dəfə söhbətə Şahin də qatılsın. Şahin ürəyində buna sevinirdi, amma biruzə vermirdi.

Zaur da, Şahin də görüşdən razı qalmışdılar. İllah da ki, Şahin. "Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım" prinsipi ən gözəl şəkildə onun bu şəraitdəki durumuna əla uyğun gəlirdi.

Görüşdən sonra yeyib-içmiş və kefi kökəlmiş Şahin maşınına əyləşib əvvəlcə əl telefonu ilə kiməsə zəng elədi. Telefonu bir qadın götürdü və onu tanıyıb istehzalı səslə "salam" yerinə belə dedi:

– Hə, yeyib-içmisən əzizlərin yadına düşüb?!

× × ×

### *Yay" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah yazırdı:

Belə nəql edirlər ki, Çərxi-fələk ölkəsində günlərin bir günü qəribə bir adam peyda olur. Bu adam öz zəmanəsinin müdriklərindən imiş. Bu onun Tutuquşu kimi qəribə rənglərə bürünmüş geyimindən (onun qırmızı papağı, sarı əbası, hər barmağında bir, ya iki böyük qaşlı qızıl üzüyü vardı), xüsusi əda tərzindən, ətrafındakı adamlarla rəftarından (bu rəftar çox mehriban idi) o dəqiqə hiss olunurdu. Saatlarla şəhər bazarında gəzər, bazar çayxanasında yeməyini yeyər, çayını içər və öz sevimli məşğələsinə şüru etməklə vaxtını keçirərdi. Onun sevimli məşğələsi arzu edənlərlə şahmat oynamaqdı. O bu şəhərə haradan gəlmişdi, hansı rüzgar onu bu məmləkətə ataraq unutmuş və

uçub getmişdi – bunu bilən yox idi. Gözlərinin dərinliyində gizlənmiş kədərdən, niskildən hiss olunurdu ki, bu adam öz doğma vətəninin həsrətini çəkir. Neçə dəfə yola çıxıb doğma tərəfə üz tutsa da yenə fırlanıb-fırlanıb Çərxi-fələyə qayıtmışdı. Qismət deyildi. Torpaq yolu ondan üz döndərmişdi. Ümid qalmışdı dəniz yoluna.

Günlərin bir günü bu müdrik adam çayxanada ikən içəri kasıb qeyimli bir gənc daxil olur. Bu, bir yadelli idi. Ora-bura baxmağından, sual və təəccüb dolu baxışlarından onun bu yerlərə təzəcə gəldiyi asanlıqla hiss edilirdi. Gənc üzünü çayxanadakılara tutub ədəblə belə dedi:

– Əleyküssəlam, ey bu gözəl şəhərin əməli-saleh şəxsləri. Mən uzaq ellərdən gəlib bura çıxmışam. Başıma çoxlu macəralar gəlib. Dəfələrlə ölümlə qarşılaşmışam. Amma məqsədimdən dönməmişəm. Məqsədim sizin məmləkətin müdriki Ağ dərvişlə görüşmək, yanında qalıb ona şəyirdlik etməkdir. Allah xətrinə, mənə yardım edin və onun evini mənə nişan verin.

Çayxanadakılar qəmli və hüznlü şəkildə bir-birinin üzünə baxa-baxa qaldılar. Bu gəncin ürək titrədən, həsrətli səsi onların qəlbinin dərinliyinə nüfuz etmişdi. Fəqət bu biçarələr ona bir köməklik edə bilməyəcəkdilər. İki gün əvvəl haqq dünyasına qovuşmuş müdriklər müdriki Ağ dərvişi bütün şəhər əhli ağlaşa-ağlaşa aparıb şəhərin əsas qəbristanlığında torpağa tapşırmışdı.

Qırmızıpapaq, sarı əbalı tacir ağa qarşısında oturmuş bir nəfər şəhər əhli ilə şahmat oynayırdı. Oyunu yarımçıq kəsərək bu gənci dinlədi, ona ürəyi ağrıdı, üz-gözündən hiss elədi ki, bu gənc acdır, amma yeməyə imkanı yoxdur. Onu öz yanına dəvət elədi:

– Ey gənc, mənimlə yemək yeyərsənmi? Səni süfrə başına dəvət edirəm.

Gənc oğlan ədəblə ona yaxınlaşdı. İşığı zəifləmiş gözləri həqqən dil açıb deyirdi ki, o, neçə gündür acdır, dilinə yemək dəyməyib.

– Otur, Allah xətrinə, bir loxma yemək ye. Sonra səninlə söhbət edərik.

Yemək gətirdilər. Gənc oğlan qarnını doyurdu, çayını içdi və üzünü xeyirxahına tutub belə dedi:

– Allah səndən razı olsun. Neçə gün idi ki, ac idim. Məni doyurdun. Sən kimsən? Adın nədir? Mən kimə borclu olduğumu bilmək istərəm.

– Sən heç kimə borclu deyilsən o bir olan Allahdan savayı. Mənim adımı sorursan, cavab verirəm. Mən dənizlərdən dənizlərə üzən bir səyyah və tacirəm. Vətənim Bağdad şəhəridir, Adım Sindbaddır. Çərxi-fələkdə bir müddət qalıb Allahın köməyilə vətənimə qeri dönəcəm. Mənimlə gedərmisən? Mənim köməkçim olarsan.

– Mən Ağ dərvişin yanına gəlmişəm. Onunla görüşmək istəyirəm.

Çayxanadıkılar yenə də hüznlə başlarını aşağı dikib susdular. Gənc bunlara baxıb bir şey başa düşmədi. Bu zaman Sindbad dedi:

– Ey gənc, bil və agah ol ki, sən heç bir zaman Ağ dərvişi görə bilməyəcəsən. Amansız əcəl onu iki gün əvvəl bizdən ayırdı. Onu itirdik.

Gənc şaşqınlığından bilmədi ki, nə desin. Bir müddət hüznlə başını yerə dikib səssiz-səmirsiz qaldı.

– Bəs belə çıxır ki, mənim buralara gəlməyim ki böyük bir həsrətlə bunu arzu eləmişəm – bihudə zəhmət imiş?! – dodaqaltı pıçıldadı.

– Görürəm, sən ağıllı birisən. Həm də təmiz adama oxşayırsan. Biləsən ki, əcələ çarə yoxdur. Qismət deyilmiş. Hər nə baş verirsə, ona Allahın rizası var. Bunu unutma. Mənim dediklərimlə razısansa, o zaman gedək karvansaraya. Orda qalıb bir az dincələrsən, sonra biz səninlə gəmiyə yük vurmaq tədarükünə başlarıq. Çərxi-fələkdən (Allah bu diyarın insanlarını xoşbəxt eləsin) quru yolla çıxıb getmək mümkün deyil. Hansı tərəfə getsən fırlanıb-fırlanıb yenə bura qayıdacaqsan. Mən səyyah Sindbad bunu bir neçə dəfə sınaqdan keçirmişəm. İndi fəsli yaydır. Dənizlər imkan verər və biz sağ-salamat gedib vətənə çıxa billik.

Çayxana əhli təşəkkür dolu baxışlarla onu dinləyirdi. Həm də onlar gənc oğlanın Sindbada nə cavab verəcəyini maraq edirdi. Gənc "mənim bu şəhərdə nə işim ola bilər? Ağ dərviş ölmüşdür, mənə isə başqa mürşid lazım deyil" düşünüb belə cavab verdi. Səsləndirdiyi cavab nədənsə düşüncəsinin tam əksi oldu:

– Ey əməli-saleh Sindbad. Mən sənin barəndə çox eşitmişəm. Amma mənim vətənimdə hamı səni çoxdan Allahın rəhmətinə getmiş sanırdı.

Həmd olsun Allahın birliyinə – sən sağsan. Yəqin başına cürbəcür vaqeələr gəlib, əziyyətlər çəkmisən. Sənin təklifin mənim üçün çox vacibdir. Mən onu böyük bir minnətdarlıq hissilə qəbul edirəm. Hara desən gedək.

Sindbad oğlanın onun təklifinə belə asanlıqla (əslində, çətinliklə) razılıq verdiyinə çox sevindi. Qarşısındakı tacir ağa ilə ki, şahmat oynunu qələbə ilə başa vurmuşdu, şərt üzrə pul mükafatını götürüb gəncə belə dedi:

– Biz açıq dənizə çıxa bilsək, sən yeni bir zəmanəyə düşəcəksən. Yeni vətənin olacaq. Bu zəmanə ilə əlaqən kəsiləcək, inşallah. Gedək. Görüləsi işlərimiz çoxdur. Amma hər şeydən əvvəl sənə yeni libas almaq lazımdır. Vaxt itirməyək. Gedək...

×××

### *"Qış" fəsli (davamı)*

Həsən müəllim başqa kağıza köçürdüyü cümləyə nöqtə yox, üç nöqtə qoyandan sonra bərk fikrə getdi. İndi o, Çərxi-fələkdəki alabəzək libas geyinmiş o insan barədə düşünürdü. Onun kim olduğunu götür-qoy edirdi. Doğrudanmı, bu adı əvvəlki yazılarda keçən Sindbad idi?! Ola da bilər, olmaya da bilər.

Bu yerdə Həsən müəllimin özünü də gülmək tutdu.

Tutuquşuya müraciətlə:

– Sindbad? – deyə soruşdu.

Heç bir cavab almağa ümid etmədiyi halda yenidən gözlərinə işıq gəlmiş müqəvva Həsən müəllimin sual intonasiyasını bu dəfə də təsdiqediciyə çevirərək onun dediyini təkrar elədi:

– Sindbad... Sindbad...

Bu, bəlkə də yuxu idi, bəlkə də yuxu deyildi. Həsən müəllim bu həqiqəti heç zaman öyrənə bilmədi. İnstitutda oxuduğu ikinci ilin sonunda ilboyu ya-nında oturduğu qarayanız, saçı kəsik, bəstəboy, iti baxışlı bu qızı günlərin bir günü o sanki ilk dəfə gördü. Bu qızdan (adı Bəyim idi) o gün qəribə bir ətir qoxusu gəlirdi. Bu qoxu bütün günü Həsən müəllimin sakit-

sakit dərsə diqqət cəm eləməyinə mane oldu, onu özünə tərəf – Bəyimin saçını qoxulamağa, üzünü onun üzünə yaxınlaşdırıb rayihəsini canına çəkməyə, əlindən tutub buraxmamağa, gözlərinin içinə baxdıqca baxmağa çəkdi. Bu, "zəli kimi tutdu, buraxmayan" bir hiss idi. Bəlkə də bu gənc yaşınadək belə yaxından heç bir qadın-dan, qızdan bu cür rayihə hiss etmədiyi üçün Həsən müəllim həm o gün dərs zamanı, həm də dərsdən sonra soyuq yataqxana otağında gecə yerinə girənə qədər bihuş kimi oldu. Həsən o qoxunun əsirinə çevrilmədimi, çevrildi. O qoxu həmən vaxtdan gənc Həsəni, sonralar Həsən müəllimi bir daha asudəliyə buraxmadı, onun əl-qolunu bağladı və beləcə bu günədək gətirib çıxardı. O qoxu olmasaydı Gülzarın yoxluğu ağır bir məngənə kimi onu əzməkdə davam edəcəkdi. O özü ilə heç nə edə bilmirdi. Unutmaq istəyirdi – unutmurdu, düşünməmək istəyirdi – bacarmırdı, gözlərinə çöküb qalmış göygöz Gülzar gözlərinin görünməz dərinliyində gizlənmişdi və qız özü nə zaman istəyirdisə o zaman onun gözləri qarşısında zühur edirdi. Həsən müəllim bu faciədən sonra bir müddət hətta güzgüyə baxdığı zaman Gülzarın gözünün rənginin onun öz gözünə keçdiyini görmüşdü (əslində, hiss eləmişdi). Həsən müəllimin gözləri bir müddət göy rəngə çalmışdı. Gülzarın özünə qəsd eləməsinin ağırlığı həm də onda idi ki, hadisə, onun səbəbi sirli bir pərdə arxasında, duman içində qalmışdı. "Niyə"lərin, "nə üçün"lərin sayı-hesabı yox idi. Onlara cavab vermək isə mümkün deyildi. "Sən vurmadın, mən yıxılmadım" prinsipi burada heç cür işləmirdi. Həsən çaş-baş qalıb bilmirdi ki, nə eləsin. Bütün bunlardan onu haman qoxu xilas elədi, onu havalandırdı, qaldırdı, uçmağa çağırdı. Qəlbini ümid və sevinc hissi ilə bürüdü. Və o, qanad açıb rahat bir tövrlə bu günə qədər uçub gəldi. Təxminən, bir il əvvəl qoxu yox oldu. Həsən müəllim onu burnu ilə axtara-axtara qaldı. Kimi axtarırdı – özü də bilmirdi, nəyi axtarırdı bilmirdi, amma qaşığı da əlinə alanda əvvəlcə burnuna tuturdu. Haman qoxu qayıtmırdı. İndi onun burnuna başqa bir qoxu qayıtmışdı.

Onlar institutu bitirib evlənəndən sonra bir müddət kirayə evdə yaşadılar. Allah, necə soyuq günlər idi. Evdə soba da yandırmağa icazə vermirdilər və Həsən müəllimlə Bəyim bir-birini öz nəfəsləri ilə isidirdilər. Amma

evin müsbət cəhəti də var idi. Bu evin heç bir şəraiti olmasa da əsas olan o idi ki, ev Dövlət Tarix kitabxanasına yaxın yerdə idi. Həsən müəllim axşamlar gecə məktəbində işləyirdi (dərs deyirdi), günortaya qədər – oxuduğu universitetin kitabxanasında. Günorta ev, sonra axşam dərsinə qədər Tarix kitabxanasında dissertasiya üzərində çalışmalar. Bu minvalla günlər bir-birinə oxşaya-oxşaya keçib gedirdi. Gəzməyə-geyinməyə həsrət qalan Bəyim bir dəfə də dilinə gətirib demədi ki, "bu nə həyatdı, ilahi, bu nə zülmdü?! Mənim bəyəm arzularım gecə-gündüz dörd divarın arasında qalıb ömrümü çürütmək idi?! Mən bununçün on il məktəbdə, beş il institutda oxudum?! Atamın, anamın qohum-qardaşımın yoxluğunu belə unudacaqdım?! Bir evin qulluqçusu olmaq üçün?! Bu kişinin corablarını yumaq, köynəklərini ütüləmək, şalvarını yamamaq üçün?! Xörəyini bişirmək, axşamlar ayağını isti suya salıb yumaq üçün?! Səhərə qədər xorultusundan göz yuma bilməmək üçün?! Mən axı kiməm?!" Dilinə gətirmədiyi bu amansız sözlər Bəyimin ürəyindən keçirdimi – bunu heç kəs bilmirdi və bilmədi də. Bəlkə heç özü də bilmədi.

Həyat öz rəvan axarına sonra düşdü, Əliqismət anadan olandan sonra. Bu uşaqla evə sanki bir rahatlıq, hüzn gəldi. Həsən müəllim əvvəlcə müdafiə elədi, tarix elmləri namizədi oldu. Çalışdığı kafedranın müdiri qəflətən vəfat edəndən sonra Həsən müəllimi müdir vəzifəsinə icraçı təyin elədilər. Seçkiyə qədər Həsən müəllimin mülayim, səmimi xasiyyəti, təmizliyi, obyektivliyi, kiçiklə kiçik, böyüklə böyük ola bilmək qabiliyyəti, heç bir adamın xahişini yerə salmamaq xasiyyəti təkcə kafedra daxilində deyil, fakültədə deyil, artıq bütün institutda dillər əzbəri idi. Elə buna görə də kafedra müdirliyinə seçki formal əlamət daşıdı. Həsən müəllimin cavan yaşında həm elmlər namizədi, həm də kafedra müdiri olması onun özündən çox, ətrafını sevindirdi. Qəribə idi, bu böyük pedaqoji institutda bəlkə də o, yeganə adam idi ki, bədxahı, düşməni yox idi. Qəribə bir daxili mədəniyyət sahibi olan bu adam ən kəskin elmi mübahisələri belə şəxsi münasibətlər zəminindən uzaq tutmağı bacarırdı. Onun tənqidinə, amansız elmi təzyiqinə məruz qalan hər kəs çox keçmirdi, ona minnətdar olurdu. Bir dəfə Bəyim ondan soruşdu:

– Bu adam, Nazifi deyirəm, ən çox onun işini tənqid edən sən oldun. Müdafiəsi gecikdi, məqalələri qaldı. Amma yenə də səndən əl çəkmir, səni özünə ustad bilir. Əslində, düşmən olmalıydı. Amma yox, gözlərindən görürəm ki, ürəkdən səni istəyir. Haqqında danışanda birinci o dəstək verir.

– Sən hardan bunları bilirsən? – Həsən müəllim arvadının həssas müşahidəsinə heyran qaldı.

– Neçə dəfə bizdəki məclislərdə xüsusi fikir vermişəm. Düz demirəm?

– Düz deyirsən, qızım (Həsən müəllim kefi kök olanda Bəyimi bəzən elə hamının yanında da "qızım" deyə çağırırdı), düz deyirsən. Bilirsən, Napoleonun belə bir sözü var. Deyir ki, qırx namizədin içindən birini seçib özümə nazir təyin edirəm, nəticədə otuz doqquz düşmən qazanıram, bir nəfər də... vəfasız, namərd. Adam gərək özü vəfalı olmağı bacarsın ki, başqaları da ona eyni münasibəti bəsləsinlər. Mən Nazifin cəfasını çox çəkmişəm. Ev növbəsində köməyim dəyib, elmi yanaşması ilə qətiyyən razı olmasam da, Leninqrada Beynəlxalq konfransa göndərmişəm, gedib, nə zaman işdən icazə istəyib, vaxt olub ki, onun dərslərini özüm əvəz eləmişəm. Qərəz, elmi münasibəti gərək insani münasibətə qatmayasan. Bizdə bir nəfər var – xoşu gəlmədiyi, özünə düşmən bildiyi adamların üstünə köhnə qız aspirantlarını qızışdırıb salır, bir növ, arvadların arxasında gizlənir. Olarmı? Özü də elə bilir, heç kimin xəbəri yoxdu. Yox bir. İlana zəhər verən hansı kərtənkələdi, hamı bilir. Kərtənkələni hamı görür və tanıyır.

– Kimi deyirsən? Sən Allahın, kimdi o?

– Heç. – Həsən müəllim ad çəkmədi. Ona elə gəldi ki, ad çəkərsə, o da həmən kərtənkələnin yanında gedib duracaq. – Heç. Bilməsən, yaxşıdı.

Əliqisməti əzizləyəndə (atıb-tutanda) Həsən müəllim Bəyimə baxırdı, Bəyim Həsən müəllimə və bu zaman ikisinin də dağa dönmüş ürəyindən, demək olar ki, eyni sözlər keçirdi: "Əziz balam, sən evimizə xoşbəxtlik, uğur gətirdin, qədəmlərin düşərli oldu, Allah səni xoşbəxt eləsin"

Beləcə, Əliqismətdən sonra dünyaya Həlimə (atası onu Həliş çağırırdı) gəldi. Həlimənin gəlişi bu dəfə evə qəribə bir sahman gətirdi. Əliqismət uğur idisə, Həlimə bu uğurun doğru-düzgün istiqamətə tuşlandırılması idi.

Həsən müəllim elmlər doktoru oldu. Professor adını aldı. İki uşaq böyüdən Bəyim gecə uşaq səsinə yuxudan ayılarkən xorultusu aləmi başına alan və bu vaxt dünya-aləm vecinə olmayan Həsən müəllimi bir dəfə də olsun şirin yuxudan oyatmadı. Ona qıymadı. Ev işinə yaxın buraxmadı. Evində dizini qatlayıb oturdu, bir dəfə də olsun dilindən narazılığa bənzər söz çıxmadı. Həsən müəllim evin xarici işlər naziri idi, Bəyim xanım – daxili işlər naziri. Həliş də elə ki, bir azca böyüdü, oldu səliqə-sahman naziri. Artıq üçüncü övladları Zaur dünyaya gələndə beş yaşlı Həliş hər bir işdə anasının əməlli-başlı köməkçisi olmuşdu. Bir dəfə Bəyim xanım Əliqismətin tənbəlliyindən, Həlimənin zirəkliyindən gecə yatağa girərkən ərinə söz açıb dedi:

– Mən iki nəfərdən birini seçib özümə səliqə-sahman işində köməkçi təyin eləmişəm, nəticədə ikisi də mənə son dərəcə minnətdardır. Biri təyin olunduğuna görə, o biri təyin olunmadığı üçün. Beləliklə, biz Napoleon sindromundan yan keçdik, biləsən...

×××

*"Qış" fəsli (davamı)*

Kağızlar üzərinə isə yazılar yazılmağa davam edirdi. Həsən müəllim buna daha əvvəlki kimi mat-məəttəl qalmırdı. O alışmışdı. Həlimə də hərdən evdəki qulaqdeşən sakitliyə dözməyib başını kabinetdən içəri salanda atasının aludəçiliklə işlədiyini (yazıları bir vərəqdən o biri vərəqə köçürdüyünü) seyr edir, bu zaman ürəyinə çılğın bir ümid və rahatlıq hissləri dolurdu. "Deməli, – Həlimə belə düşünürdü – işləyə bilir, deməli, ümid var. Çünki işləyirsə, yaddaşı işə salmadan olmaz, onun deməli, yaddaşı oyanır. Hansısa məsələləri xatırlayır. Allah eləsin, bəlkə elə bizlər də yadına düşdük".

Həlimə hələ də atasından ümidini üzməmişdi. Atasının sağalacağını, günlərin bir günü onu tanıyıb əvvəlki kimi doğma səslə "qızım" deyə müraciət edəcəyini o hələ də gözləyirdi. Günlər, aylar keçir, bu isə baş vermirdi. Həsən müəllimin gözlərinin dibindəki soyuqluq getmirdi ki, getmirdi.

×××

### *"Qış" fəsli (davamı)*

Dünən günortadan bəri yağmağa başlayan qar hər tərəfi dümağ pərdəyə bürüdü. Qar, elə bil, yalnız bu şəhərə deyil, bütün dünyaya yağır, bütün aləmi öz yumşaq ağuşuna alırdı. "Bu ağ pərdə, – Hacı Əliəkbər pəncərə qarşısında dayanıb fikr edirdi, – hər yanı örtmüş ağ kəfənə bənzəyir. Qış hər yanı öz buz nəfəsi ilə öldürüb durubdu."

Hacı Əliəkbər şəhərdə sayılıb-seçilən bir şəxs idi. Varlı birisi idi, dükanlarının sayını bəzən özü də çaşdırırdı. Bir dəfə bazarda bir dükanın önündən keçdiyində maraqlanıb anladı ki, şəhərdə bu dükanın malına xeyli ehtiyac var. Onun bütün suallarına dükandakı tacir böyük bir ədəb və mərifətlə cavab verdi. Dükanı gözü tutmuş Hacı aralanandan sonra öz köməkçisinə buyurdu ki, bu dükanı almaq pis olmazdı, çünki xeyri böyük ola bilər. Köməkçisi qımışıb demişdi:

– Ağa, o dükanı sənə satmazlar. Onun qüdrətli sahibi var.

– Niyə? – Hacı Əliəkbər əsəbi halda soruşdu. – Alın! – Deyə əmr etdi. – Nə pula olursa olsun. Alın.

– Ağa, mümkün deyil. Çünki o dükan elə səninkidi ki, var.

Hacı Əliəkbər alış-verişini uzaq vilayətlərlə edirdi. Çayı Hindistandan gəlirdi, ipəyi Çindən. Böyük bir həyəti vardı, orada bir zəfəranlıq salmışdı. Onun zəfəranı bütün dünyada məşhur idi. Bişmişə vuranda, suda dəmləyəndə qoxusu bir neçə məhəllə o tərəfə gedirdi. Bu şəhərdə yaşayanlar hər müşküllərini ona gəlib danışardılar. Hacı ağa bəqədri-qüvvə əlindən gələni heç kimdən əsirgəməzdi. Köməyinin müqabilində camaatdan (xüsusilə, füqəradan) heç bir faiz-filan almazdı, amma xüdahafizləşəndə həmişə kömək əlini uzatdığı adama bir söz deyərdi: "Unutma!" Həmən şəxs də əli ürəyinin başında "haşa", "heç vədə" deyə-deyə böyük bir razılıq içində çıxıb gedərdi. Beləliklə, Hacı ağanın hörməti, izzəti məhəllədən məhəlləyə şəhərin, sonra da vilayətin hər bucağına yayılmışdı.

Hacı ağa evinin ikinci mərtəbəsindəki böyük pəncərənin qarşısında diz çöküb əyləşmişdi və ürəyində böyük bir rahatlıq hissi bayırda ikinci gün sərasər yağan qara tamaşa edirdi. Axşam yavaş-yavaş düşürdü. Hər

tərəfi alan qaranlıq, ağ qarın (kəfənin) üstünə qara torpaq kimi tökülürdü. Hacı ağa elə istəyirdi ki, yataq otağına keçib yatmamışdan əvvəl Hacı Mir Həsən ağa Səyyahın (mənim) Hindistan səfəri barədə yazdığı səyahətnamənin bir-iki səhifəsini oxusun, sonra isti yerinə girib yorğanı başına çəksin və rahat-rahat ağır qış yuxusuna getsin, bu zaman həyət qapısı tərəfdən gələn xəfif bir səs onun diqqətini çəkdi. O bu səsi cəftə səsinə oxşatdı. Səs çox zəif idi, amma bu zəiflikdə çətin duyulan bir oğrunluq da var idi.

İtlər hürmədi. Mırıldana-mırıldana bir-birinin ətrafında vurnuxdular. Sonra hər tərəfə ölü bir sükut çökdü. Hacı Əliəkbər yüksək səslə "Ya Allahın adı" deyə-deyə bilərəkdən ayaqlarını yerə bərk-bərk vurub pəncərənin önündən ayrıldı və elə o mərtəbədə dəhlizin o biri başındakı yataq otağına tərəf getdi.

O xəfif və oğrun səs birinci mərtəbinin bağlı pəncərəsinin dəlmə-deşiyindən tüstü kimi keçib içəri girdi. Sonra evdə artıq dəfələrlə olmuş adam kimi otağın sağ küncünə gedib ordakı pilləkənlə yavaş-yavaş yuxarı qalxmağa başladı. Qəribə olan o idi ki, bayırda qar hər yeri bürümüşdü və yenə də yağmağına davam edirdi. Amma otaqda və pilləkəndə heç bir iz, heç bir qar əlaməti yox idi. Elə bil, otağa ruh daxil olmuşdu. Ruhun səsi olarmı, olmaz. O zaman evdəki bu xəfif səs nə idi?! Sonralar, çox sonralar anlaşıldı ki, və mən (Hacı Mir Həsən ağa Səyyah) buna inandım – səs Hacı Əliəkbərin ürəyinin səsi idi, belə vururmuş. Yoxsa bu səs başqa hardan gələ bilərdi ki...

Səhər tezdən evin xidmətçisi (Hacı ağanın köməkçisi) Səfər ağa həyətə girəndə əvvəl-əvvəl ona təəccüb elədi ki, qapı cəftədə deyil (halbuki axşama yaxın ağasından icazə alıb gedərkən qapını özü cəftələyib bərk-bərk bağla-mışdı). Sonra isə Səfər ağa itlərin hərəkətinə təəccüb elədi. Adətən onun üstünə cumub ayaqlarına dolaşan, ondan əl çəkməyən bu əjdəhalar hərəsi həyətin bir tərəfində lal-dinməz yerə sərilib qalmışdılar. Onların zingiltisi, yazıq-yazıq baxmaları Səfərin heç xoşuna gəlmədi.

Evin içində isə səs-səmir yox idi. Hər yer dərin sükuta batmışdı. Səfər "ağa, ağa!" deyib çağıra-çağıra özünü ikinci mərtəbədəki yataq otağına atdı. Otağın içində gördüyü mənzərə onu sarsıtdı, bütün bədəni titrədi, gözləri dəhşətdən dörd oldu. Yataqda öz yerində Hacı Əliəkbər arxası üst-

də uzanıb qalmışdı. Gözləri açıq idi, sanki dili ilə deyə bilmədiklərini gözlərilə demək istəyirdi. Döşəyin yanında Hacı Mir Həsən ağa Səyyahın "Səyahətnamə" risaləsi vərəqləri səpələnmiş şəkildə düşüb qalmışdı. Hacı ağanın sinəsində dibinədək qəlbinə sancılmış xəncərin qəbzəsi görünürdü. Onun özü isə ikiəlli bu qəbzədən yapışmışdı. Elə bil, qəməni ürəyinə bu adam özü soxmuşdu. Ya da ki, onu sinəsindən dartıb çıxarmaq istəyirdi.

× × ×

## *"Qış" fəsli (davamı)*

Həsən müəllim fikirli bir halda köçürdüyü yazıya bir daha diqqətlə nəzər yetirdi. Bu da bir qəribə mətn idi. Şəhərdə, hətta vilayətdə hədsiz hörmət sahibi olan, heç bir düşməni olmayan bir şəxsin gecənin bir çağı öz evində yatağında qətlə yetirilməsini (ya da ki, özünə etdiyi sui-qəsdi), nə cür izah etmək olar?! Sadəcə, qarətləmi?! Səyyah hətta bu şəxsin onu tanıdığına da işarə edir. Hacı Əliəkbər hər gecə onun risaləsinin "Hindistan səfəri" adlı hissəsini maraqla oxuduğunu qeyd edir – əslində, Səyyah özü özü barədə məlumat verir. Həsən müəllim düşündü: "Hindistan səfəri" ayrıca bir risalədi, yoxsa Səyyahın ümumi risaləsindən bir parçadır? Onun bu əsərdən xəbəri yox idi. Hər nə olursa olsun, amma bəs nə üçün bu ölüm hadisəsi öz dövrü üçün müəyyən maraq kəsb etsə də Səyyah başqa heç bir əsərində Hacı Əliəkbər haqqında söz demir?! "Nə üçünlər" yenə də az deyildi. Bu "Hindistan səfəri" risaləsini hökmən tapıb oxumaq lazımdır. Bəlkə bu sirli vaqeənin açarı o səyahətnamədədir, kim bilir?!"

Həsən müəllim artıq az qala inanmışdı ki (eynən Səyyah kimi), Hacı Əliəkbəri heç bir başqa adam yox, onun özü qətlə (sui-qəsd) yetirib. Amma nə üçün? Niyə? Səbəb? Bu suala bir cavab yox idi. Bəlkə məsələnin canı başqa yerdədir?!

Bəlkə bu qətli o adam edib ki, Hacı Əliəkbərin yaxşılığının, xeyirxahlığının dadını görüb. Ondan "unutma" sözünü eşidib, amma unutmaq istəyib. Həsən müəllim yaşının bu vaxtında artıq bir həqiqəti özü üçün aydın

etmişdi ki, bəzi adamlar minnətdar olmağı bacarmır. Bacarmır. – vəssalam. Onların genində bu hiss yoxdur. Onlar qorxaq, ya da cəsur ola bilərlər, ağılsız, ya da ağıllı ola bilərlər, bir az ondan, bir az bundan ola bilərlər. Amma onlar minnətdar ola bilməzlər. Onlar bunu, sadəcə, bacarmırlar. Xislətlərində yoxdur. Minnətdar olmamaq üçün isə nəsə etmək lazımdır. Xeyirxahlığını gördüyün adamı məhv eləmək lazımdır. Hacı bu adamlardan birinin güdazına getməsin?!

Həlimə qardaşları ilə, axır vaxtlar, demək olar ki, kəlmə kəsmirdi. Gəldiklərində dinməz-söyləməz çaylarını verir yenə də dinməz-söyləməz istədiklərini gətirirdi. Onun üz-gözündəki sərt ifadəni görüb nə Əliqismət, nə də Zaur bir daha o gecəki məlum söhbətə qayıtmırdılar. "Nəsə hazırlayıblar, bunlar qan iyi almış akulalardı, elə-belə əl çəkməzlər". – Həlimə acı-acı düşünürdü.

Bu dəfəki söhbətdə hardansa peyda olmuş Şahin də iştirak edirdi. Həlimə onun girdə sifətinə baxıb az qala iyrəndi: "Bunu hardan tapıblar? Elə bilirlər ki, mənə təsir edə biləcəklər. Qoy elə bilsinlər..."

Onlar mətbəxdə oturmuşdular. Şahin özünü elə aparırdı ki, sanki Həlimə ilə aralarında yarım il bundan əvvəl (Həlimə atasıgilə köçəndən sonra) heç bir münaqişə baş verməyib.

– Sınıxmısan, elə bil. Bilirəm, bilirəm, ağırdı, amma neyləmək olar, dözməliyik.

"Dözməliyik". Bu da Şahinin növbəti həyasızlığı. Sən nəyə dözməlisən?? Bütün bunlar nə zaman sənin vecinə oldu?! Gülməlidi. Həlimə, əlbəttə ki, Şahinin bu sözlərinə heç bir əhəmiyyət vermədi. Sadəcə, ikrah və istehza ilə onun üzünə baxdı, tez də baxışlarını qaçırdı.

– Həliş, – Əliqismət Həliməni atası çağıran kimi çağırdı, ürəyini almaq istədi. – Həliş, biz o söhbətə yenə qayıda bilərik?

Həlimə susub oturmuşdu.

– Vallah, Həliş, sən axı bilməlisən ki, biz hamımız kişinin salamat olmağını istəyirik. Ürəkdən istəyirik. Amma axı, nə qədər ağır olsa, həyat davam edir. Mən inanıram ki, onun da arzusu belə olardı. – Əliqismətin səsində bir kövrəklik vardı.

– Axı onunçün onsuz da fərqi yoxdur harada yaşamağın... – Zaur yenə öz əvvəlki ampluasında idi. – İndi yaxşı bir müştəri də tapılıb... – Amma Əliqismətin zəhmli baxışı Zauru susdurdu.

– Bağa! Bəli, bağ!.. Ən yaxşı variant bağa köçməkdir. Bəlkə havası kömək edər. Ən azından rəngi-rufu düzələr. Yaman saralıb... – Şahin ortaya yeni bir versiya – bağ məsələsini atdı.

Şahin qəti əmin idi ki, Həsən müəllimin əsas varidatı bağda – ya bağ evinin zirzəmisində, ya döşəmənin altında, ya da həyətdəki ağaclardan birinin dibindədir. Həlimə ona yenə də ikrahla baxdı. O heç cür (xüsusilə də, axır zamanlar bu barədə daha tez-tez düşünürdü) anlaya bilmirdi ki, bu adamı necə olub sevib?! Yəni, bu Şahin, onun əvvəllər görüb tanıdığı Şahin idi – bunu Həlimə heç cür ağlına yerləşdirə bilmirdi. Hərdən ikisinin ilk görüşü yadına düşürdü. Elə bil, yarışa çıxmışdılar. Bu, fakültədaxili "Bilik" yarışı idi. Xüsusi se-çilmiş on nəfər oğlan və on nəfər qız (dərs əlaçıları – iki oğlan, iki qız – bütün kurslar üzrə) bir otaqda oturub verilmiş suallara cavab yazırdılar. Şahinin bütün suallarının cavabını Həlimə yazıb ona ötürdü. Bunu Şahin ondan xahiş eləməmişdi. Bu barədə yardım üçün Şahin dililə yox, qıyıq gözlərilə ona yalvarmışdı. Göz də bu dərəcədə yazıq-yazıq baxa bilərmiş. Həlimə təsirlənmişdi.

Arxa partada oturan Şahinin işi daha arxayın şəkildə Həlimədən aldığı hazır cavabları gözləmək oldu. Ötürmələrin biri (son ötürmə) onlara nəzarət edən müəllimin gözündən yayınmadı. Müəllim onları ayağa qaldırıb nə qədər hədələdisə də Həlimə heç nəyi boynuna almadı. Hətta müəllim soruşanda ki, kim kimə cavab ötürürdü, Həlimə belə dedi:

– O mənə.

Zaur susdu.

Mətbəxə sükut çökmüşdü. Sükutu Həlimə pozdu:

– Bəs sonra necə olacaq? – O, mətbəxdəkilərdən heç birinin üzünə baxmadan gözünü pəncərədən bayıra dikdi. – Evi satdız, pulu da böldüz... Sonra da bağı satmaq fikrinə düşəcəksiniz, elədi, elə deyil? Bəs o zaman nə edəcəyik? Hara köçürəcəksiniz onu? Qocalar evinə?

– Aha, bu fikir də pis deyil. – Şahin gözlərini qıyıb (bilirdi ki, gözlərini qıymağı Həlimənin xoşuna gəlir) Həlimənin bu son sözlərindən yapışdı. – İndi elə gözəl qocalar evləri var ki. Öz evindən yaxşı... – Ətrafındakıların ona qaşqabaq və təəccüblə baxdığını görüb başa düşdü ki, daha ağ eləyib, sözlərinə yumşaqlıq gətirmək istədi. – Kinoda görmüşəm. Hamı bir-birilə mehriban, yanlarında baxıcıları, həkimləri...

– Əyri oturaq, düz danışaq. Evin pulunu üç yerə bölərik. Lap elə sabah bağı da satsaq yenə üç yerə bölək. Bağdan sonra bir ev də almaq olar, normal bir ev, mən qocalar evi tərəfdarı deyiləm, o ev də sonra... – Zaur susdu.

– Qocalar evindən söhbət gedə bilməz. O ev də sonra qalar Həliməyə! Nə qədər əziyyət çəkib, halalıdı.– Əliqismət qətiyyətlə Zaurun sözlərini tamamladı.

Həlimə hiss elədi ki, ürəyi daha dözmür ("sonra" deyirlər, Ay Allah!), çığırmasa, qışqırmasa qan başına vura bilər (əslində, onu özlərinə şərik eləmək üçün bu şəkildə satın almaq niyyətləri var). Həlimə qışqırmaq, haray salmaq istəyirdi. Amma qorxurdu ki, atasını narahat edər. "Nə yaxşı ki, o heç nə başa düşmür, Allah, bu xəstəliyin də faydası varmış. Kişi bir anlıq özünə gəlib xatırlasaydı, yəqin, dözməzdi, ölərdi." – Həlimə belə düşündü və son dərəcə sərt bir şəkildə az qala qışqırdı:

– Axı bir başa düşün, axı siz niyə anlamaq istəmirsiz? Niyə, nə üçün belə edirsiz? Olarmı? Allah bunu götürərmi? Siz necə nacins adamlarsız... Hamınızı görüm...

Bu zaman Həsən müəllim heç kimin gözləmədiyi halda ağır-ağır mətbəxə girdi. Ordakıları təəccüblə bir-bir nəzərdən keçirdi. Qaşlarını çatıb öz məşhur qaşqabağını tökdü. Həsən müəllim Həlimənin son sözlərini eşitmişdi. Bir qadının tanımadığı bu kişilərə dediyi sərt sözlər (ən çoxu da sərt intonasiya) onu əsəbiləşdirdi. Qərara gəldi ki, bu qadına həddini göstərmək vaxtı çatıb. Bunu da o etməlidir, çünki bu mehriban kişilər (onu görən kimi oğlanları və Şahin üz-gözlərinə son dərəcə mülayim bir ifadə vermişdilər) bu təhdidə və təhqirə layiq deyillər. Və bu dərsi hökmən o verməlidi, çünki o burda yaşca hamıdan böyükdür. Bir növ ağsaqqaldı.

– Olmaz, belə danışmaq sizə yaraşmaz. Mən istəməzdim burda oturanların arasında hər hansı anlaşılmaz məqam olsun. Mən istəmirəm ki, siz (Həliməyə deyirdi) haqsız olaraq bu adamlarla belə yüksəkdən danışasınız. Belə sözlər deyəsiniz. Ayıb olsun. Sizdən gözləməzdim. Siz isə (bunu isə qardaşlara və Şahinə dedi) onu bağışlayın. Yaxşı deyil, heç yaxşı deyil. Ayıb olsun.

Həsən müəllim son sözlərini özü-özünə dedi və səssizcə gəldiyi kimi, səssizcə də mətbəxdən çıxıb titrək əllərini gicgahlarına sürtə-sürtə özünü sakitləşdirməyə çalışdı. Amma fikirləşə-fikirləşə qalmışdı, görəsən o bu adamlardan nə istəyirdi?! Niyə onların söhbətinə qarışdı?! Ən əsası – mətbəxə nə üçün gəlmişdi?! Həsən müəllim bunu unutmuşdu.

Həsən müəllim mətbəxdən çıxan kimi Şahin qələbə çalmış adamlar kimi:

– Gördün? – Həliməyə müraciət etdi.

Həlimə əllərilə başını tutub qaldı. Qardaşlar susdu, Şahin isə belə bir situasiyada yenə də münasib söz axtarmağa başladı. Ona elə gəldi ki, tapdı:

– Gördünüz bu adamın necə təmiz ürəyi var?! Həliş, sən eşitdin atanın sözlərini?! O bununla bizim məsələyə öz razılığını bildirdi. Kişi razıdır. Məncə, bu iş alınacaq. Birinci ondan başlamaq lazımdır ki...

Şahini artıq heç kəs dinləmirdi. Həlimə təəccüblə, yeni tanıdığı bir adamı öyrənirmiş kimi zənlə ona baxır, hər iki qardaş isə başını aşağı dikib susmuşdu.

× × ×

### *"Qış" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyah çölə tamaşa edir və yağıb-yağıb hər tərəfi ağ mələfəyə (başqa yazılışda: kəfənə) bürümüş qara göz dolusu baxdıqca baxırdı. Təkcə gözləri deyil, bu zaman onun ruhu dincəlirdi. Qar özü ilə qəribə bir rahatlıq, sakitlik gətirirdi. Birdən onun diqqətini pəncərənin yanında donub qalmış böyük bir taxtabiti cəlb elədi. Ürəyi bulandı. Xidmətçinin

qarasınca deyindi. Bir istədi taxtabitini götürüb ata çatır-çatır yanan ocağa, bu fikirindən nədənsə vaz keçdi. Dodaqucu gülümsədi. Çünki yadına makallar diyarında ona nəql edilən bir rəvayət düşmüşdü. Hardasa yazılarının bir küncündə bu rəvayəti ona necə danışmışdılarsa o cür də yazmışdı. Əvvəl-əvvəl bu müdrik şəxs rəvayətin mənasını dərk eləməkdə çətinlik çəkmişdi. İndi isə bu taxtabiti, deyəsən, onu haman rəvayəti anlamağa kömək eləmişdi (əslində, bununla taxtabiti öz həyatını da xilas etmişdi).

Hacı Mir Həsən ağa Səyyah divardakı dolablarda saxladığı köhnə yazılarını ələk-vələk eləməyə başladı. Bu rəvayət təzə yazdığı risaləyə uyğun bir rəvayət idi. Taxtabitinin və devlərin rəvayəti. O xatırlayırdı. Rəvayətin özü devləri təsvir edirdisə də, onların sevdiyi məxluqu təsvir etmirdi. Bu məxluqun sadəcə adı var idi, onun anlaşılmaz qalması isə bütövlükdə dərk edilməsinə mane olurdu. Budur, indi rəvayətin əsas açarı tapıldı: sevimli məxluq taxtabiti idi, əlbəttə ki, taxtabiti.

Nəhayət, bir xeyli vaxt düşüncələr içində axtarışa sərf etdikdən sonra Hacı Mir Həsən ağa Səyyah makal rəvayətini "Hindistan dəftəri" əlyazmasının içindən tapdı. Və vaxtı fotə verməyib risaləsini bu rəvayətlə davam etdi. O, pəncərəyə baxıb gözü ilə taxtabitini axtardı. Taxtabiti tərpənməz halda (təkcə uzun bığları hərdən tərpənirdi) yenə də öz yerində qalmışdı və Səyyaha görə çölə, özü də elə-belə çölə yox, çöldəki qara baxırdı.

Səyyah dodaqaltı gülümsədi. O bu taxtabitini artıq tanıyırdı. Onun adı Adı özündən uzun Gülü qah-qah xanım idi.

Makal rəvayəti isə bundan ibarət idi.

×××

### *"Yay" fəsli (davamı)*

Qədim zamanlarda makallar məmləkətində devlər yaşardı. Bir gün bir-birilə möhkəm dost olan Sarı divlə Kələ divin sözləri bir sevgili nigar üzündən çəp düşür. Bu deyir, o eşitmir, o deyir, bu eşitmir. Uzun illərin ayrılmaz könül sirdaşı olsalar da, nəhayət, onların da arasından Şırşır bula-

ğın dəcəl suları özünə yol eləyib axıb keçir... Bu ayna kimi təmiz və lal suların üzündə Adı özündən uzun Gülü qah-qah xanımın gözəl, zərif və unudulmaz çöhrəsi, elə bil, yapışıb qalmışdı. Dağın-daşın ceyranı, cüyürü, vahiməli meşələrin pələngi, ayısı, çölün-düzün qurdu, çaqqalı su içmək üçün başını Şırşır bulağın dadlı suyuna əyəndə bu çöhrəni görüb tanımışdılar. Dörd bır tərəfdə söz-söhbət ancaq bu münaqişədən gedirdi. İki qardaş divin bir-birindən küsməsi, küsmək azmış, bir-birinə hətta savaş günü təyin etməsi cəmi məxluqat və heyvanat aləmini məyus və pərişan etmişdi.

Bu acı xəbər dağları, düzləri aşaraq gəlib Adı özündən uzun Gülü qah-qah xanıma çatdı. Adı özündən uzun Gülü qah-qah xanım ağ eyvanlı, büllur çilçıraqlı sarayında oturub aya deyirdi, sən çıxma, mən çıxacağam, günə də deyirdi, yox, sən də çıxma, mən çıxacağam. Xəbəri eşidən kimi işıqlı çöhrəsinə kölgələr düşdü, qaşları çatıldı, nə çatıldı. Çox düşündü, çox daşındı, nəhayət, belə bir qərara gəldi. Məmləkətinin ən güclü pəhləvanlarını yanına istədi.

Hamıdan əvvəl hələ heç bir kimsənin qaldıra bilmədiyi qoşa pərli əmudunu əlində quş lələyi kimi oynada-oynada Təxtiçiraq pəhləvan gəldi, diz çöküb söylədi:

– Əmr etmisən, mən gəlmişəm. Ayağına sərilmişəm. Nə istəyin varsa söylə. Canla-başla yerinə yetirməyə hazıram, biləsən.

Bunları söyləyib əlindəki əmudu sağına-soluna elə bir sürət ilə fırlatdı ki, qoşa pərli əmud az qaldı bunun əlindən çıxsın və Adı özündən uzun Gülü qah-qah xanımın düz başından dəysin.

Gülü qah-qah xanım həmişəki kimi öz mehriban tərzilə Təxtiçiraq pəhləvanı birtəhər sakitləşdirib oturduğu taxtın sağında ona yer göstərdi. Təxtiçiraq pəhləvan elə təzəcə bardaşını qurub oturmuşdu ki, saray həyətindən bir dəli nərə səsi eşidildi. Az keçmədi, çox keçdi, çox keçmədi, az keçdi, bunlar oturan taxt otağının qapısı birdən taybatay açıldı, otağa par-par parıldayan sivri bır qılınc yavaş-yavaş girməyə başladı. Qılıncın ucu yox, bucağı yox. Üç dəfə taxt otağını dolanandan sonra, nəhayət, qılıncın qəbzəsi göründü. Sonra bu qəbzədən bərk-bərk yapışmış barmaqlar, sonra da bir dəmirbilək əl göründü. Əl öz arxasınca dəmirbilək Nəhəngani-

nəhəng pəhləvanı çəkib içəri saldı. Bu da gəlib Gülü qah-qah xanımın oturduğu taxtın düz qarşısında dizlərinin hər ikisini yerə basdı, sonra xeyli uca səslə belə dedi:

– Əmrinə müntəzir mənəm. Hər cəfana dözən – mənəm. Canım sənə fəda, canım. Nə istərsən, istə, sənin sözün mənim üçün qanundur.

Adı özündən uzun Gülü qah-qah xanım bu pəhləvana da xeyli şəfqətlə nəvaziş etdikdən sonra özünün sol tərəfində ona yer göstərdi. Nəhəngani-nəhəng pəhləvan keçib ədəblə taxtın sol tərəfində əyləşdi.

Üçüncü gələn Əş-Əş pəhləvan idi. Əş-Əş pəhləvan divdən dönmə pəhləvan idi. Başı az qalırdı, göylərə çata. Kimin yanında əlini ağzına tutub qışqırsaydı, qulağı partlardı. Kimə qaşlarını çatıb zəhmlə baxsaydı, bağrı yarılardı.

Bu da gələn kimi üzünü Gülü qah-qah xanıma tutub çox uçadan səsləndi:

– İkiləri xan əkbəri!..

Bunları deyib nə illah etdisə daha sözünün dalını gətirə bilmədi, kirimişcə Gülü qah-qah xanımın qarşısında durub qaldı, qəzəbindən şeşə bığları əsim-əsim əsməyə başladı. Bunun bığları hələ çox əsəcəkdi, amma Adı özündən uzun Gülü qah-qah xanım incə bir ədayla işarə edib Əş-Əş pəhləvanı da qənşərində oturtdu.

Hər üç pəhləvan yerlərində qurcuxub bir-birinin üzünə maddım-maddım baxmaqda idilər. Nəhayət, Adı özündən uzun Gülü qah-qah xanım nazik boğazını yüngülcə arıtlayıb onların intizarına son qoydu və həmişəki naz-qəmzə ilə sözünə belə başladı:

– Gün buralara, kölgə dağlara...

Bu sözlərdən sonra hamı ətrafdakılar qulaqlarını şəkləyib tam bir sükut içinə girdilər. Anladılar ki, mətləb çox ciddi mətləbdir, Adı özündən uzun Gülü qah-qah xanım söhbətinə davam etdi:

– ...kölgə dağlara. Ey mənim məmləkətimin adlı-sanlı, seçmə pəhləvanları! Bəs bilin və agah olun ki, küfəzlikdə misli-bərabəri olmayan Sarı divlə məmləkətin ən göyçək divi sayılan Kələ div arasında savaş günü artıq təyin olunmuşdur...

Bu yerdə pəhləvanların sinəsindən təəssüf dolu odlu bir "ah" nidası çıxdı. Hər üçü sidq-ürəklə, dərindən dərin köks ötürdü.

– Bəli, həqiqətən, belədir ki var. – Adı özündən uzun Gülü qah-qah xanım qətiyyətlə sözünə davam elədi. – Təəssüf ki, bu dünyada heç nə əbədi deyildir. Necə ki, bizim bu divlərin də qardaşlığı əbədi olmadı. Qismət deyilmiş. Bir də hayıf, min də hayıf, min üstünə bir də hayıf... Məmləkətin düşmənləri sevinə-sevinə bir deyəcək, yüz güləcək, yüz deyəcək, bir güləcək. Mən sözümü dedim. Gün buralara, kölgə dağlara.

Adı özündən uzun Gülü qah-qah xanım sözlərini bitirib şümayil barmaqlarını bərk-bərk bir-birinə sıxaraq dizlərinin üstündə daraqladı. Kədərli çöhrəsi halsız-taqətsiz bir tərzdə gup-gup guppuldayan sinəsinə əyildi. Bir xeyli sükut içində beləcənə vaxt keçdi.

Pəhləvanların ürəyi yeddi dağ keçisinin dərisindən tikilmiş yay kimi sıxılmışdı. Hərdən-birdən başlarını qaldırıb dərindən bir ah çəkirdilər və sonra naçar-naçar başlarını yenə də yerə dikirdilər. Ətrafdakı sükutu pozmağa heç kimin cürəti çatmırdı.

– İkiləri xan əkbəri! Anam-bacım Adı özündən uzun Gülü qah-qah xanım! – Nəhayət, sükutu pozan Əş-Əş pəhləvan ağır-ağır dilləndi. – Anam-ba-cım, günahların hamısı... İkiləri xan əkbəri...

Əş-Əş pəhləvanın sözünü bu yerdə Təxtiçiraq pəhləvan yarımçıq kəsdi:

– Ey Əş-Əş pəhləvan! Doğrudur, sən divdən dönmə pəhləvansan, sözün qanundur. Amma biləsən ki, indi kiməsə günah oxumağın heç vaxtı deyil. Biz gərəkdir düşünək ki, nə tövr edək, bu ixtilafın qarşısını alaq. Təki bizim məmləkətdə divlər arasında hərb olmasın. Bütün aləm bizə qah-qah çəkib gülər.

Son sözlərini deyəndə Təxtiçiraq pəhləvan altdan-altdan Adı özündən uzun Gülü qah-qah xanıma baxdı görsün ki, danışığı onun xoşuna gəldi, ya yox. "Qah-qah çəkib gülər" ki, demişdi, narahat oldu ki, Güli qah-qah xanım bunu özünə aid edər. Gülü qah-qah xanım başını ehmalca razılıqla tərpətdi.

Bunların bu cür gizli baxışmasını Nəhəngani-nəhəng pəhləvan da gördü. O da təcili Təxtiçiraq pəhləvanın dediyini təsdiq etməyə başladı. "Düz deyir, düz deyir..." dedi.

– Bəs onda bir tədbir tökün, indi biz nə edək? – Adı özündən uzun Gülü qah-qah xanım soruşdu.

Hər üç pəhləvan, artıq Əş-Əş pəhləvan da onlara qoşulmaq qərarına gəlmişdi, cani-dildən, səmimiyyətlə bir-birinin sözünü kəsməyə başladılar:

– Bunun ancaq bir yolu vardır! Başqası yoxdur. İkiləri xan əkbəri!..

– Nə yoldur o yol?

– O yol o yoldur ki...

Bu yerdə nökərlər xəbər gətirdi ki, bəs bir atlı çapar gəlib təcili Gülü qah-qah xanımı görmək istəyir.

– Gəlsin. – Gülü qah-qah xanım əmr etdi. Hamı hüzurdakılar təlaşla yeni bir bədxəbəri gözləməyə başladı.

Çapar içəri girən kimi Gülü qah-qah xanım incə, uzun boynunu ona sarı çöndərib nəvazişlə soruşdu:

– Səni kim göndərib?

Çapar başını əyib cavab verdi:

– Mən Sarı divdən Adı özündən uzun Gülü qah-qah xanıma xəbər gətirmişəm.

– O zaman məhtabın adını söylə!

– Məhtabın adı "Naqquli"dir. - Çapar cavab verdi.

– Gülü qah-qah xanım mənəm, nə xəbər gətirmisən, söyləyə bilərsən. – Adı özündən uzun Gülü qah-qah xanım məhtabın adını qəbul edib açıq-aşkar təşviş içində üzünü çapara tutdu.

– Ey Adı özündən uzun Gülü qah-qah xanım! Bütün divlərin ən məşhuru Sarı divin vəsiyyətini dinlə! Sarı div əmr etdi sənə söyləyim ki, artıq sabah sübh tezdən sənin mübarək adını əlində və qəlbində bayraq edərək o, amansız və ölümcül bir savaşa qədəm qoyacaqdır. Uzun illər boyu gözəlliyindən aldığı şərəfi və... bağışla məni, ləzzəti ona halal et və onun son hədiyyəsini qəbul elə!.. Sarı div sənə bu sehirli almanı vəsiyyət etdi. Onu yesən ölüm Allahı səndən həmişə gen gəzəcək. – Çapar birnəfəsə dediyi bu

sözlərdən sonra nəfəsini dərdi və dediklərinə yavaş səslə bu sözləri əlavə etdi. – Sən özün bu dünyadan bezənə qədər.

Sonra çapar çiynindəki xurcundan bir qızıl alma çıxartdı, Adı özündən uzun Gülü qah-qah xanımın önünə qoydu və başını ədəblə aşağı endirib susdu. Bu çapar susunca nökər dübarə hövlnak içəri girdi:

– Qibleyi-aləm, bir təzə çapar da gəldi. Bu da səni çox təcili görmək istəyir.

– Gəlsin... – Adı özündən uzun Gülü qah-qah xanım bütün vücudu (həm də qəlbi) ilə dərin bir qəm dəryasına batdı.

Bu çapar da içəri daxil olan kimi gedib Gülü qah-qahın qarşısında diz çökdü. Gülü qah-qah bu çapardan da haman sehirli sözü, yəni, mehtabın adını söyləməsini istədi. Bu çapar da dedi: "Naqquli". Bundan sonra çapara "danış" əmri verildi və "danış" əmrini alınca çapar dərin bir hüzn içində sözünə başladı:

– Mənim ağam, mənim sahibim Kələ div sənə öz sevgili salamlarını göndərir. Bil və agah ol! Sabah sübh tezdən Kələ div dilində və ürəyində sənin mübarək adın ölümcül savaş meydanına qədəm qoyacaq. Bu fani dünyanı əgər tərk etməli olacaqsa, tərk etməzdən əvvəl o istədi ki, sənə özündən bir yadigar qoyub getsin. O yadigar budur! – Belə deyib çapar heybəsindən bir yekə qızıl üzük çıxarıb Gülü qah-qah xanımın ayaqlarının altına qoydu:

– Bu üzük sehirli üzükdür. Onu barmağına taxdınsa səni bir bəniadəm görməz. Yalnız div görər! – Çapar məclisdəki pəhləvanlara "xala, xətrin qalmasın" baş endirib sözlərinə belə bir əlavə etdi.

Gülü qah-qah xanım nökərlərə əmr etdi ki, uzun yol gəlib yorulmuş bu çaparların xidmətində dursunlar, yemə-içmələrini versinlər. Bunlar da dincəlib onun qərarını gözləsin. Çaparlar baş endirib çıxdılar. Gülü qah-qah xanım bircə-bircə sağında-solunda qəmə batıb oturmuş pəhləvanları yenə də kədərli bir baxışla süzüb söylədi:

– Gün buralara, kölgə dağlara. İndi sözünüz nədir? Vaxta az qaldı. Bu hərb gərəkdir baş tutmasın. Amma necə? – Əş-Əş pəhləvanın yerində qurcuxduğunu görüb Gülü qah-qah xanım sözünü belə bitirdi:

– Vaxta lap az qaldı. Gəlin bu işin günahkarını lap elə indi axtarmayaq. Lazım olsa, sonra axtarıb taparıq.

Pəhləvanlar Adı özündən uzun Gülü qah-qah xanımla razılaşdı. Hamı yenidən dərin fikrə getdi. Bir xeyli beləcənə ağır bir sükut içində vaxt yavaş-yavaş ötməyə başladı. Gülü qah-qah xanım çox düşündü, çox daşındı, nəhayət, belə bir qərara gəldi. Əlini əlinə vurub nökərlərə buyurdu:

– Mərcani cadu xanımı çağırın, gəlsin!

Çağırdılar, Mərcani cadu xanım tək gəlmədi, ətrafında üç xanımla bir yerdə gəldi. Bunlar Sədət Qönçə xanım, Xanı xanım və Minagərdən xanım idi.

Mərcani cadu xanım Adı özündən uzun Gülü qah-qah xanımı görən kimi gözünü yumub ağzını açdı, ağzını yumub gözünü açdı, dişinin dibindən çıxanı çıxarıb qoydu ortalığa:

– Əkil-bəkil quş idi? Bir dama qonmuş idi? Xeyirdimi, şərdimi, olandımı, yalandımı? Bu qədri vaxt noolmuşdu? Nə oldu ki, indi yada düşdük? Qarğa uçub sar qalıb, yeri, yurdu dar qalıb. İş ki çətinə düşübdü, sənə ahuzar qalıb... Bilirəm, nə baş veribdi, yaxşı bilirəm. Yaydan sonra yaz gələr. Sənə bu da az gələr. Vaxtında mən sənə söyləmədimmi, qız ki, bu binəva-biçarələrə yazığın gəlsin, bunlar da... nolsun, divdilər, nədilər, bunların da axı qəlbləri-ürəkləri var?! Söylədim? Söylədim! Eşitdin? Eşitdin! Amma bir qulağından alıb o biri qulağına ötürdün, o biri qulağından alıb bu biri qulağına ötürdün. Mən sənə söyləmədimmi, qız ki, gəl sən razılıq ver, mən bir cadu edim, sən Adı özündən uzun Gülü Qönçədən cəmi vur-tut iki dənəcə düzəldim, gedin, siz də xoşbəxt olun, o binəva-biçarələr də xoşbəxt olsunlar?! Söylədim ki, söylədim! Başa düşürsən, onların ikisi də səni dünyalar qədər seviiiir... Bircə bu nazənin huri mələklərə bax... – Mərcani cadu xanım Sədət qönçə xanıma, Xanı xanıma və Minagərdən xanıma işarə etdi. – Bax, bir də bax, görürsən necə xoşbəxtdilər?! Necə bir-birinə oxçşayırlar?! Deyə bilərsənmi bunların hansısı hansından yaranıb? Bu dünyaya qan udduran pəhləvanlar da elə bunun arzusunda deyilmiydilər?! Desinlər. İdilər! Onların sifarişidir, biləsən. İndi nə oldu, nə olmadı, gəldin çıxdın mən qoca nənən deyənə, çıxmadın?! Onda razı olmadın, indi daha məndən nə istəyir-

sən? Niyə qoymursan məni, bu gözəl-göyçək qızlarımla bir yerdə bu gen dünyada rahat nəfəs alım, yaşayım?! Sən bir Əş-Əş pəhləvana bax! Sən bir buna bax... (Sədət Qonçə xanımı göstərir) Necə bunlar bir-birinə yaraşırlar... Bu təbiətin yaratdığı, bu da mən qoca nənənin yaratdığı!!! Əkil-bəkil quş idi? Əkil-bəkil quş idi!!! Bir dama qonmuş idi? Bir dama qonmuş idi!.. Eh, gidi dünya, axır vaxtlar nəsə çox darıxıram.

Mərcani cadu xanım bunları təngnəfəs deyib bir ləhzə nəfəsini dərdi, bardaş qurub bir tərəfdən bu da əyləşdi.

Bu məqamda Təxtıçiraq pəhləvanın gözü qalmışdı Xanı xanımda, Əş-Əş pəhləvanın gözü qalmışdı Sədət qönçə xanımda və Nəhəngani-nəhəng pəhləvanın da gözü qalmışdı Minagərdən xanımda. Gözlərini bunlardan bircə an belə çəkə bilməyən bu pəhləvanlar, elə bil, cuşa gəldilər, bir-birinin sözünü kəsə-kəsə Mərcani cadu xanımın dediklərini təsdiq etməyə başladılar:

– Düz deyir, doğru söyləyir, doğru deyir, düz söyləyir. Elə biz də onu deyirdik... demək istəyirdik... Gəl sən bu işə razılıq ver. İkiləri xan əkbəri...

Bunlar belə deyəndən sonra Adı özündən uzun Gülü qah-qah xanım başa düşdü ki, Kələ divlə Sarı divin bir-birilə savaşa girməsinin qarşısını ancaq və ancaq Mərcani cadu xanımın təklifinə razı olmaqla ala bilər.

– Nə deyirəm ki... mən razı. – Nəhayət, o, utancaq bir halda dilə gəlib gözəl başını yana əydi və hamı hüzurdakıların ürəyindən, elə bil, tikən çıxartdı.

Mərcani cadu xanımın məqsədi vardı. Devlərin Gülü qah-qaha göndərdikləri sehirli hədiyyələrə tamah salmışdı. Odur ki, soruşdu:

– O alma ilə o üzüyü mənə bağışlarsanmı? Əkil-bəkil quş idi?..

Adı özündən uzun Gülü qah-qah xanım:

– Bağışlaram, niyə bağışlamayım ki? Gün buralara, kölgə dağlara... – deyə ona cavab verdi.

Mərcani cadu xanım hamıya işarət etdi ki, otaqdan çıxsınlar. Otaqda qaldı bir Gülü qah-qah xanım, bir də Mərcani cadu xanımın özü. Bir müddət keçdi, Mərcani cadu xanım da otaqdan çıxdı.

Pəhləvanlar və xanımlar təkrar otağa girdikləri zaman bir-birilə üzbəüz oturmuş və diqqət içində bir-birinin ora-burasına baxan iki huri-mələk gördülər. Bu dünya gözəllərinin ikisi də Adı özündən uzun Gülü qah-qah xanımlar idi. Hamı ürəyində Mərcani cadu xanıma "əhsənül-əhsən" deyib rahatlıqla köks ötürdü. Qərara aldılar ki, gecənin xeyrindənsə səhərin şəri yaxşıdır, sübh tezdən Adı özündən uzun Gülü qah-qah xanımların hər ikisi və o biri xanımlar, pəhləvanlar, nökərlər, naiblər, qaravaşlar, cariyələr, qərəz bütün saray hamılıqla divlər məskəni Naqquli vadisinə, bu qardaş davasının qarşısını almağa yola düşsünlər.

Bəli, o biri gün sübh tezdən yola çıxmaq üçün səfərə hazırlaşmağa başladılar. Artıq gecəyə az qalırdı. Divlər məskəni Naqquli vadisinə qədər yol asan yol deyildi, bir ağır yol idi. Gethaget, axşamacan yol gedəcəkdilər. Hamı dərin bir fikir içində sabahkı günün onlara nə nəsib edəcəyini düşünə-düşünə hərə bir küncə çəkilib gözlərinin acısını almağa başladı.

Sübh tezdən yay günəşinin qızmar şüaları hələ büllur sarayın minalı gümbəzində bərq vurmağa macal tapmamış çaparlar sevincək atlarına süvar olub xoş xəbərlə Divlər vadisinə doğru çaparaq yola düşdülər. Sarayın qarşısında kəcavələr artıq bəzədilmiş, atlar, qatırlar yəhərlənmişdi. Nökərlər, qara-vaşlar yola çıxmaq əmrini gözləyirdi. Pəhləvanlar atlara, xanımlar qatırlara mindilər. Adı özündən uzun Gülü qah-qah xanımlar ikisi də bir kəcavəyə əyləşdi. Karvanbaşı işarət etdi, karvan hərəkətə gəldi.

Bərk isti idi. Yol boyu dəvələrin boynundan asılmış zınqırovların ahəngdar səsinə qulaq verə-verə Köhnə Adı özündən uzun Gülü qah-qah xanım dərin düşüncələrə qərq olub qalmışdı. Üzünə gözəl bir təbəssüm qonmuşdu. Naqquli vadisində hər iki divlə keçirdiyi məhtablı gecələrin vaqeələri bir-bir gözlərinin qarşısından gəlib keçirdi. Budur, Sarı div yenə də ağzı köpüklənə-köpüklənə özünün cürbəcür şücaətindən danışır... Budur, Kələ divin göyçək çöhrəsini yenə qara buludlar alıb... Adı özündən uzun Gülü qah-qah xanım belə düşünürdü: "Görəsən, vaxtında Divlər məskəni Naqquli vadisinə yetişib qardaş divlər arasındakı savaşın qarşısını ala biləcəyəmmi?! Günahkar mənəm, mən özüməm, heç bir başqası deyil. Mərcani cadu xanım çox doğru deyirdi. Sarı div də, Kələ div də məni bütün qəlbləri

ilə sevirlər. Məhtablı gecələrdə onlar bunu mənə dəfələrlə sübut ediblər. Bütün məmləkətin bu məhəbbətdən xəbəri var. Mən isə... mən isə tək ola-ola hər ikisinə mehr bağlamışdım, bu düzgün deyil, heç düzgün deyil. Onlardan ancaq biri mənimki ola bilər. Amma hansı?? Gün buralara, kölgə dağlara. Gün buralara, kölgə dağlara..."

Bunları düşünə-düşünə köhnə Adı özündən uzun Gülü qah-qah xanım başını çöndərib təzə Adı özündən uzun Gülü qah-qah xanımı sınayıcı nəzərlə süzdü. Təzə Gülü qah-qah xanımın gözləri, elə bil, işıqla dopdolu idi, üzünün bütün əzalarını təbəssüm bürümüşdü. O da öz düşüncələrinin burulğanında batıb qalmışdı. O da Naqquli vadisindəki məhtablı gecələri, amma bir az başqa cür xatırlayırdı. Budur, Sarı div yenə də ağzı köpüklənə-köpüklənə özünün cürbəcür şücaətindən danışır... Budur, Kələ divin göyçək çöhrəsini yenə qara buludlar alıb... Düşünürdü: "Görəsən, vaxtında Divlər məskəni Naqquli vadisinə yetişib qardaş divlər arasındakı savaşın qarşısını ala biləcəyəmmi?! Günahkar mənəm, mən özüməm, heç bir başqası deyil. Mərcani cadu xanım doğru deyirdi. Sarı div də, Kələ div də məni bütün qəlbləri ilə sevirlər. Məhtablı gecələrdə onlar bunu mənə dəfələrlə sübut ediblər. Bütün məmləkətin bu məhəbbətdən xəbəri var. Mən isə... mən isə tək ola-ola hər ikisinə mehr bağlamışdım, bu düzgün deyil, heç düzgün deyil. Onlardan ancaq biri mənimki ola bilər. Amma hansı?? Gün buralara, kölgə dağlara. Gün buralara, kölgə dağlara..."

Bu cür fikirlərə qərq olub pərişan bir halda xeyli yol getdilər.

O biri yolçuların da başları biri-birinə elə qarışmışdı ki, özlərindən başqa hər şeyi unutmuşdular. Təxtiçiraq pəhləvanın atı az qala Xanı xanımın qatırına yapışacaqdı. Pəhləvan Xanı xanıma bir bəni-insanın qaldıra bilmədiyi qoşapərli əmudunu ilk dəfə qaldırmağının tarixçəsini şirin-şirin nəql etməkdə idi.

Nəhəngani-nəhəng pəhləvan ağzını, gözünü bacardıqca gen açıb huş-guşla onu dinləyən Minagərdən xanıma öz uzun qılıncını havada silkələyə-silkələyə cürbəcür hərəkətlər göstərirdi və əlinin deyil, lazım olanda qılıncının boy atıb uzanmasının sirrindən danışırdı.

Əş-Əş pəhləvan isə tam bir sükut içində, bir kəlmə danışmadan hayıl-mayıl olaraq ondan gözlərini heç cür çəkə bilməyən Sədət Qönçə xanımın əlindən bərk-bərk yapışmışdı və onlar da biri at, biri qatır üstündə beləcə dinməzcənə yol gedirdilər.

Köhnə Gülü qah-qah xanım bu sevgililəri hüsn-rəğbətlə süzərək belə bir qərara gəldi. "İlk seçim Təzə Gülü qah-qah xanımınkı olmalıdır. Gün buralara... Nə görüb hələ o bu dünyada?! Heç nə görməyib. Devlərin hansı onun xoşuna gəlsə, qəbulumdu, eybi yoxdur, qoy o biri mənimki olsun. Kölgə dağlara. Təki bu savaşın qarşısı alınsın."

O biri Təzə Gülü qah-qah xanım isə bundan fərqli olaraq belə düşünürdü. "İlk seçim təzə Gülü qah-qah xanımınkı olmalıdır. Gün buralara... Nə görüb hələ o bu dünyada?! Heç nə görməyib. Divlərin hansı onun xoşuna gəlsə, qəbulumdu, eybi yoxdur, qoy o biri mənimki olsun. Kölgə dağlara.. Təki bu savaşın qarşısı alınsın."

Bunların ikisi də, beləliklə, özünü Köhnə Gülü qah-qah xanım sayırdı. Nə üçün belə idi – heç kim bunu bilmirdi.

Karvan Naqquli vadisinə çataçatda idi. Zınqırovların səsi ətrafdakı istidən heysiz düşüb qalmış ağacların budaqlarına ilişib batırdı. Yolun sağında-solunda karvanı izləyən bir vahimə gəzirdi. Pəhləvanlar artıq səslərini çıxarmırdılar, onlar əməlli-başlı quzuya dönmüşdülər. Xanımlar böyük bir maraq içində ətrafı seyr edirdi. Hamının ürəyi təlaşla vururdu. Sarı divlə Kələ divin savaşının qarşısı alınıbmı, alınmayıbmı? Çaparlar vaxtında yetişib Mərcani cadu xanımın hünərindən Naqquli vadisindəki canlılara və cansızlara xəbər çatdıra biliblərmi, bilməyiblərmi?..

"Savaşın qarşısı alınıbsa – xoş. Yox, əgər alınmayıbsa... Bunu yaratmağın nə mənası vardı?" – Köhnə Adı özündən uzun Gülü qah-qah xanım təzə Adı özün-dən uzun Gülü qah-qah xanıma qaşlarını çatıb qəfildən iti bir nəzər saldı.

Təzə Adı özündən uzun Gülü qah-qah xanımın isə gözlərindən xeyli səmimi bir mehribançılıq və sevgi yağdı. Gözlərini qaçırmadan köhnə Gülü qah-qah xanımın düz gözlərinin içinə baxa-baxa o da ürəyində başqa cür

düşündü: "Savaşın qarşısı alınıbsa – xoş. Yox, əgər alınmayıbsa... bunu yaratmağın nə mənası vardı?"

Elə bu zaman gün boyu günəş altında alışıb-yanan Naqquli vadisinə yavaş-yavaş sərin bir axşam düşürdü.

Hacı Mir Həsən ağa bu qəribə və sirli rəvayəti birnəfəsə yenidən kağıza köçürüb arxayın oldu ki, o yazdıqca rəvayət göz önündəcə yox olur, deməli, əsl ünvanına yetişir. Yorulmuşdu, qələmi yerinə qoyub qollarını gen açdı və gərnəşdi. Gözü ilə pəncərə önündə qalmış taxtabitini axtardı, amma onu tapammadı. Taxtabiti (Adı özündən uzun Gülü qah-qah xanım) yox olmuşdu.

× × ×

### *"Payız" fəsli (davamı)*

Həsən müəllimi qəhər boğurdu. Hönkürtü vurub ağlamaqdan özünü zorla saxlayırdı. Buna görə hətta özü-özünə nifrət edirdi. Yeni rəvayət, nə sirr idisə, onun əhvalına əməlli-başlı rahatsızlıq gətirmişdi. Əvvəl-əvvəl o, heç nə anlamadı. Burda nə sirr var idi axı?! Burda heç bir sirr yox idi. Bəli, olsun ki, ayrı-ayrı məqamların sirri yox idi. Amma bütövlüyün sirri var idi. Bu isə Həsən müəllimin ürəyini parçalayırdı. Çünki o, qəribə bir aydınlıqla uzaq uşaqlıq illərində kənddəki həyətlərini, uşaqlarla yığışıb həyətdə teatr çıxartmalarını xatırlamışdı. Səslər qulağına dolurdu. Onların içində indicə oxuyub qurtardığı rəvayətdən gələn səslər də var idi. Bu səslər həyəcanlı idi:

– Noldu, başlayın...

– Nəyi gözləyirsiz?..

– Yorulduq gözləməkdən...

Qonşular, yaxınlar kamali-ədəblə həyətin bir tərəfində – kim əlində nə gətirmişdisə altına çəkib oturmuşdu. Onlara Həsən və başqa qonşu uşaqlar teatr çıxarmaq vədini vermişdilər. Özü də Hüseyn Cavidin "İblis" əsərini oynayacaqdılar. Neçə vaxt idi, hazırlaşırdılar. Həsən müəllim Arif

olacaqdı, Zahid – İblis. Rejissorları yox idi. Kim əsərin harasından, necə istəyirdi, elə də deyəcəkdi. Hətta Arif hərdən İblisin də sözlərini deyəcəkdi. Əsas ağırlıq aparıcıda idi. O gərək tamaşaçını (onlar da əsasən ətrafdakı qonum-qonşudan ibarət idi) ilk sözləri ilə ələ alaydı və söhbətin nədən getdiyini bəyan edəydi. Nurəddini (aparıcılıq tapşırılmış qonşu oğlanı), nəhayət ki, itələyib həyəcandan rəngi ağarmış halda, ağ mələfənin (pərdənin) önünə çıxardılar. Bu mənzərəni Həsən müəllim sanki kabinetdə oturduğu yerdəcə indi bir daha, gözlərinin önündə olan kimi seyr edirdi.

Nurəddin duruxmuş halda ağ mələfənin qarşısına keçib elə duruxmuşca da donub qaldı. "Səhnə" arxasındakı kəsik səslər tamaşaçıların səsinə qarışdı:

– Noldu, niyə susdun?

– Başla, başla...

– Noldu, səsini kim aldı sənin??

– Ha – ha – ha...

Nəhayət, Nürəddin sağ əlini yavaş-yavaş göyə qaldırdı, hamı susdu. Ciyərlərinə bolluca hava çəkib Nurəddin bu havanı səsə, sonra da səsi sözə çevirdi. Amma bu sözlər onun və teatroçuların hamılıqla hazırladığı giriş sözləri deyildi. Nurəddin bunların hamısını unutmuşdu. Dəhşət içində vəziyyətdən necə çıxacağını düşünürdü. Kinayəli, ağır baxışlar altında ağlına hardansa qəribə sözlər gəlib girirdi və Nurəddin ancaq o qəribə sözləri deyə bildi:

Gün buralara, kölgə dağlara,
Bu yer, bu göy, mən getdim.

O, gülüş və qışqırıq səsləri altında həm "səhnəni", həm də Həsəngilin həyətini qaçaraq tərk elədi və həyətin dalındakı bağçada gözdən itdi. Fəlakət! Tamaşa başlamadan dağıla bilərdi. Birtəhər Həsənlə Zahid onu yola verdilər, hardan nə gəldi, dedilər. Amma tamaşaçılar çox şən idilər.

İndi bu rəvayətdə də Nurəddinin o gün özündən uydurduğu sözlər yazılmışdı. Həsən müəllim o uzaq və əziz günü həzin bir "ah" çəkməklə xatırlayıb gözləri dolmadımı, doldu. Gün buralara, kölgə dağlara...

× × ×

## *"Qış" fəsli (davamı)*

Qardaşlar və Şahin hər bir şeyi artıq hazırlamışdılar. Bütün əməliyyat üç hissədən ibarət olacaqdı: evin satışı (bu zaman Həsən müəllimi bağ evinə köçürürdülər); bağın satışı (bu zaman Həsən müəllimi şəhərdə alacaqları birotaqlı mənzilə köçürürdülər); nəhayət, (bu, Həsən müəllimin fani dünyanı tərk edəcəyindən sonra baş verəcəkdi) birotaqlı mənzili də satıb pulunu bölürdülər.

– Mən birotaqlının Həliməyə hədiyyə verilməsinin əleyhinəyəm. – Zaur Əliqismətə təklikdə demişdi. – Evi var, eşiyi var. Ayrılacaqlarsa, Şahin zəhmət çəksin öz evini bölsün, iki yerdə mənzil alsın.

– Yaxşı, bu barədə əvvəlcədən danışmaq lazım deyil. Hər şeyi korlarsan. Hər şey öz növbəsində, öz vaxtında. Tələsmə. Mən deyəndə də mənə qarşı söz demə. Hələ əsas işləri həll edək, o sonuncu asan məsələdi. – Əliqismət böyük qardaş olduğunu xatırlayıb kəskin tona keçdi.

– Yaxşı, sən deyən kimi olsun. Amma mən sözümü dedim, bax, unutma. – Zaur üz-gözünü turşutdu.

Şahinlə qardaşlar bir qış (bazar günü idi) günü bağ evinə getdilər. Hava heç qış havasına oxşamırdı. Ağaclar az qala tumurcuqlayacaqdı. Qışın ortasına bahar girmişdi. Qardaşlar bağa getmələri barədə Həliməyə heç bir söz demədilər. Məqsəd bağda otaqları, bütün şübhəli yerləri, hətta ağacların altını yoxlamaq idi. Gü-nortayacan işlədilər. Yoxlama heç bir nəticə vermədi. Bağda, həyətdə gəzmədikləri yer, qazmadıqları ağac dibi (bağ həyəti döyüşdən sonrakı acınacaqlı bir məkanı xatırladırdı, bircə ölüləri yox idi), evdə tappıldatmadıqları yer qalma-dı. Bir xeyli atılıb düşdülər. Heç yerdən boğuq səs gəlmədi. Üçü də bərk yorulmuşdu. Şahin evdə atılıb düşməkdən başqa heç nə eləmirdi. Atılıb düşərkən səsi dinləyirdilər. Əgər ayaq səsi sərt olurdusa – heç, bu onlara lazım deyildi, onlar boğuq səs axtarırdılar, boğuq səs o demək idi ki, döşəmənin altı boşdur və orada nəsə ola bilər.

Çox axtardılar, heç nə tapa bilmədilər. Günortadan xeyli keçmiş həyətdəki tut ağacının altında (insafən hava heç qış havası deyildi) yeməyə

oturdular. Üçü də peşman və pərt idi. Zaur maşından yekə bir bağlama gətirdi. Bağlamanın içi yeməklə, su şüşələri ilə dolu idi.

– Sən nə oyun çıxarmısan?! Burda hər şey var ki... – Gözlərinə işıq gəlmiş. Şahin bağlamanın içindəkiləri həvəslə bir-bir çıxarıb süfrəsiz stolun üstünə düzdükcə öz duzsuz zarafatından da qalmadı.

Peşmançılığın acığını qardaşlar və Şahin iki şüşə araqla çıxardılar. Sonra artıq axşam düşəndə hər üçü üşüməyə başladı. Şahin "soyuq oldu" deyib "Ayıq sürücü" xidmətinə zəng etdi.

Həlimə bilirdi ki, qardaşları və Şahin atasının bağ evinə mal-dövlət axtarışına gediblər. Bunu ona qardaşları yox, Şahin demişdi:

– Bilirsən, mən bu işdə kənar adamam, mənə sənin maraqlarını müdafiə eləmək qalır. Sənin və uşağın. Sən bunu başa düşməssən. Yoxsa, bir də görəssən ki, quru yerdə qalmısan. Niyə?

Həlimə telefonda Şahinə qulaq asırdı, amma səsini çıxarıb heç nə demirdi.

– Sabah bağa gedirik. Məncə, ordan nəsə tapılacaq.

Həlimə daha ona qulaq asmayıb telefonun dəstəyini asdı. Bu, Şahinin vecinə də olmadı. "Hm" – eləyib əlindəki dəstəkdə uzun-uzadı kəsik telefon səslərini dinlədi. Dodaqlarına kinayəli bir təbəssüm qondu.

Həsən müəllim özü də bilmirdi niyə, amma axır vaxtlar ürəyi tez-tez sıxılırdı. Başa düşmürdü ki, niyə belə olur?! O həmişə belə məqamlarda (beyninin dərin bir yerindən keçdi ki, əvvəllər də hərdən-birdən belə məqamlar olurdu) məsələnin kökünü, səbəbini axtarıb tapmağa çalışırdı. Səbəb tapıldısa ürək sıxıntısı ilə mübarizə etmək artıq çətin olmurdu. Səbəb tapılmasa idi, istər yüz oyundan çıx, bəli, özün-özünü aldadacaqdın, ürək saxıntın isə qaldıqca qalacaqdı. Əsas olan səbəb idi, səbəb! Həsən müəllim indi də bu səbəbi axtarırdı axtarırdı, ona elə gəlirdi ki, çox şey bu axtarışın nəticəsindən asılıdır, səbəb tapılsa çox şey dəyişəcək, başqa cür olacaq – o zaman Həlimə adlı bu qadın da yox olub onun həyatından birdəfəlik gedəcək, bəs sonra, sonra nə olacaq? Həlimənin yerini kim tutacaq? Axı heç bir yer boş qalmır, yer varsa, hökmən kim tərəfindənsə tutulmalıdır. Həsən müəllim bu sadə suallara cavab tapa bilmirdi və ona, nəhayət, aydın oldu

ki, ürəyi bundan yana sıxılır. Yəni, bu axırdır? Bəlkə heç axır deyil? Bəlkə axır artıq baş vermişdir, o da axırdan sonra yaşayır?! İndi də ətrafındakı adamlar, onu sorğu-suala tutanlar (xüsusilə, Həlimə) o biri dünyanın xəfiyyələridir?! Həsən müəllim gülümsədi. Hələ bu xəfiyyə nədi, ağlıma gəldi. Olsa-olsa bunlar müasir inkir-minkir ola bilər. Niyə də yox?! Həqqən, müasir inkir-minkirlərdi ki, durublar.

Bəs belə vəziyyətdə o nə etməlidir? Canını qurtara bilərmi? Qurtara bilməz – bu aydındır. Amma bunun üçün çalışmaq da lazım deyil? Çalışmaq ki, qadağan deyil. Qaçmaq! Buralardan baş götürüb qaçmaq! Başqa əlacı yoxdur. Amma qaçarsa, kim zəmanət verər ki, bura Çərxi-fələk ölkəsi (əlbəttə ki, müasir variantda) deyil və qaçdığı yol təzədən fırlanıb-fırlanıb onu qarşısında fontanı olan bu evin bu mənzilinə gətirməyəcək?! Qəzavi – qədərmi? Qəzavü – qədər. Bəs nə etməli? Qəzavü qədəri aldatmaq mümkündürmü?! Yox, bu mümkün deyil. Bu barədə heç düşünmə, Həsən müəllim, bunu ağlından belə keçirmə. Sən axı dünyagörmüş kişisən. Xeyir. Yox.

Həsən müəllimin birdən əti ürpəşdi, o, əvvəlcə, necə deyərlər, kəsdirə bilmədi ki, niyə özü-özünə "Həsən müəllim" deyə müraciət edir. "Kimdir bu Həsən müəllim? Mən onu tanıyıram? Tanıyıramsa niyə unutmuşam? Yox, Bəyimlə məsləhətləşmək lazımdır. O bu işləri sahmana qoyar. Bəyim, Bəyim, hardasan? Görəsən, Bəyim hardadır?! Yaxşı, bəs bu Bəyim kimdir?!"

– Kim var? Həlimə! Hardasan? Evdə kim var? – Həsən müəllimin yataq otağında az qala pıçıltı ilə verdiyi bu suallar xeyli zəif səsləndi və onun səsini mətbəxdə oturub gözlərini pəncərəyə dikərək bayırda yağan qara tamaşa edən Həlimə eşitmədi. Aylarla, illərlə həsrətində olduğu bu sual mətbəxə çatmamış havada əridi.

Bir az keçdi. Həlimə pəncərədən baxıb gördü ki, topa-topa yağan qarın altında fontana ahəstə addımlarla bir kişi yaxınlaşdı. Başına şlyapa qoymuş bu kişi, elə bil ki, ev geyimində idi. Həlimə seçə bilmədi (son vaxtlar Həlimənin gözləri uzağı yaxşı görmürdü, həkimə getməyini isə günü günə satırdı) ki, bu kişinin əyninə geydiyi pijamadı, yoxsa normal pencəkdi. Əlində qəribə bir fiqur tutmuşdu. Quş fiquruna oxşayırdı. "Necə qəribə adamlar varmış. Qışın oğlan çağında, bu qarın altında paltosuz...

xəstələnəcək..." deyə Həlimə düşündü, sonra ayağa qalxıb çaydanı qaz niltəsinin üstünə qoydu. Səkkizin yarısına az qalırdı. Bir azdan atası mətbəxə şam yeməyinə gələcəkdi. Bu gün yenə də dolma bişirib. Atasının sevimli yeməyini. Həlimə hövlnak və qeyri-ixtiyari halda bir daha pəncərədən aşağı baxdı. O əcayib adam artıq fontanın yanında yox idi. "Hara yox oldu bu adam?!" Qəflətən beyninə girən fikirdən Həlimənin damarında qanı dondu.

– Ata! – Həlimə qışqırıb özünü Həsən müəllimin yataq otağına atdı. Otaq boş idi.

Səsə balaca Bəyim qaçaraq gəldi.

– Ana, ana, mən qorxdum. Sən niyə qışqırdın?

– Baba, baba hardadı?

Həlimə istədi kabinetə keçsin. Atasını orda tapacağını düşündü, amma balaca Bəyimin sözləri onu saxladı:

– Ana, baba çıxıb getdi. Mən ona dedim, hara gedirsən? O mənim başımı sığalladı, ana, o mənim üzümdən öpdü, məni adımla çağırdı, "Bəyim" dedi. Sonra gülümsədi və mənə göz vurdu. Əlini dodaqlarının üstünə qoydu, bax belə ... mən də onun kimi elədim. Sonra getdi. Paltosunu geyinmədi.

Həlimə həyacanla Bəyimi dinləyib "otur oturduğun yerdə, mən gəlirəm" deyib şalını başına çəkdi və özünü qapıdan bayıra atdı. Fontanın yanına necə çatdığını bilmədi. Hövlnak sağa, sola baxdı, amma gözünə heç kim dəymədi. O, bilmədi ki, hansı yolla getsin. "Polisə, ancaq polisə xəbər vermək!" Həlimə pərçimlənib durduğu yerdəcə qalmışdı və ağlamaqdan, hönkürtü vurub könül dolusu ağlamaqdan başqa əlindən bir iş gəlmədi. "Hara, hara getdin sən? Haranı axı tanıyırsan, sən ki, hamını, hər kəsi unutmusan... Ata, ata, niyə? Niyə?" Soyuqdan titrəyə-titrəyə göz yaşlarına boğularaq ürəyində məngənə içindəymiş kimi qəmli sıxıntı evə qayıtmaqdan başqa çarəsi qalmadı.

Bir saat keçmədi qardaşları və Şahin özlərini çatdırdılar. Həlimə əməlli-başlı şokda idi.

– Yaxşı, yaxşı, özünə gəl, heç nə olmaz. Harda olsa, polis onu tapar, – Zaur bacısını sakitləşdirməyə çalışırdı.

Əliqismət polisə zəng edirdi, amma nədənsə nömrə yığılmırdı (qış ayları telefon xətləri tez-tez kəsilir). Əliqismətin qanı qaraldı:

– Yaxşı, mən özüm gedirəm polisə. Bunlara zəng çatmır. Vaxt itirməyək.

Şahin isə heç nə danışmırdı, ancaq altdan-altdan, heyranlıqla Həliməni süzür, və düşünürdü: "Nə ağıllı qız imiş bu. Mən bunun qədrini bilməmişəm. Ən doğru olan yolu seçdi. Necə də azdırdı kişini?! Pişik kimi aparıb azdırdı. Kimin ağlına gələ bilərdi?! Vallah, adamla yüz il yaşa, yenə tanımaya bilərsən..."

Əliqismət üz-gözünə qar vura-vura, külək vıyıltısının üzücü sədası altında, nəhayət, özünü polis məntəqəsinə çatdırdı. Növbətçi polis qapı ağzında onu saxladı:

– Ağsaqqal (Əliqismət diksindi), ağsaqqal, hara?

– Mən... mənim problemim var. Atam itib...

– Necə yəni itib? Nə zaman, hardan?

Əliqisməti polisin sualları hövsələdən çıxardı:

– Sizdə bu işlərlə kim məşğul olur? – Sərt şəkildə soruşdu.

Növbətçi onun səsindəki ötkəmliyə qiymət verərək:

– Bir dəqiqə gözlə. İndi çağıraram – dedi.

Sonra o, telefonun dəstəyini qaldırıb daxili nömrə ilə kiməsə zəng elədi:

– Burda bir nəfər var, sizinlə görüşmək istəyir. Deyir, atamızı itirmişik. Buraxım yanınıza?

Telefonda növbətçiyə nə dedilərsə, o, bədənini tarıma çəkib cavab verdi:

– Anladım. Anladım. Özüm gətirirəm. Oldu. Oldu, cənab kapitan. Baş üstə. Sən Allah, elə demə...

Sonra növbətçi dəstəyi ehtiyatla yerinə qoyub ətrafına boylandı. Şüşə arxasında əyləşmiş o biri növbətçiyə – cavan leytenanta dedi:

– Mən yuxarı, Həsənzadənin yanına qalxıram. Gözün qapıda olsun. Gedək, – deyə Əliqismətə müraciət etdi. Əliqismət növbətçi ilə bir yerdə ikinci mərtəbəyə qalxdılar.

Əliqismət üstündə "Kapitan Həsənzadə" yazılmış qapını yavaşdan taqqıldadıb otağa daxil oldu.

– Olar? – Soruşdu.

– Buyurun, gəlin. – Kapitan Həsənzadə səliqəli mülki geyimdə, saçı hamar daranmış cavan bir adam idi. Diqqətlə Əliqisməti başdan-ayağa süzüb onunla hörmətlə danışmağa başladı:

– Keçin bura, oturun. Nə baş verib?!

– Atamız itib...

– Necə itib? Nə zaman?

– Mənim atam tarixçi alimdir. Həsən Hüseynov. Uzun zamandı xəstədi. Heç kimi tanımır. Alsqeymer. Bu gün axşam üstü evdən çıxıb gedib...

– Evdə adam var idi?

– Bacım var idi, ona baxır. O da görməyib.

Kapitan Həsənzadə telefonun dəstəyini götürdü, hansısa düyməni basdı, gözləri Əliqismətin üzündə gəzə-gəzə kiminləsə danışmağa başladı:

– Qafar, bayaq deyirdin ha, qoca bir kişi gətiriblər, heç nə anlada bilmir. Harda yaşadığını da bilmir. Tutuquşu müqəvvası? Aydındı. Bir nəfər gəlib, – Kapitan Həsənzadə bu dəfə Əliqismətə zənlə baxdı, – atasını axtarır. Bəlkə deyirəm... Yaxşı. Gözləmə otağındadı? Aha, oldu, oldu.

Gözləmə otağı balaca dar qapılı bir otaq idi. Qapıda yuxarı yerdə bir qarış eni, bir qarış da uzunluğu olan şüşə pəncərə vardı. Otağın içində divar boyu qoyulmuş skamyadan başqa heç nə yox idi. Bu skamyada Həsən müəllim tək-tənha və sakit-sakit oturmuşdu. Tutuquşunun müqəvvası da onun yanında idi.

– Baxın, burdan. – Kapitan əlini şüşə pəncərəyə uzatdı. – Baxın, görün, atanızdı, ya atanız deyil?

Əliqismət içəri baxanda ürəyi qısıldı. O, atasını heç vaxt belə fağır, belə yazıq görməmişdi. Büzüşmüş, beli əyilmiş, əllərini dizi üstə qoyub gözlərini qarşısındakı məchul bir nöqtəyə dikərək səssiz-səmirsiz nəyəsə tamaşa edirdi. Əlbəttə ki, heç nə görmürdü. Yox, o da var ki, Həsən müəllim, əminliklə demək olmazdı ki, heç nə görmürdü. O nöqtəyə ki, o zilləmişdi gözünü, o nöqtə yavaş-yavaş böyüyüb-böyüyüb başqa bir mənzərə-

yə çevrilirdi. O nöqtə qalın bir meşə olurdu. Ağaclar, ağaclar, hər tərəf ağac idi. Həsən müəllimə elə gəlirdi ki, o qalın bir meşənin içindədi. Qar yağır, dörd tərəf ağappaq qara bürünüb. Ağappaq qardan bütün qol-budağı ağarmış bir ağacın içində bir nəfər kəmali-ədəblə oturub, ona əl edir, onu öz anına, ağacın içinə çağırır. Öz yanında ona yer verir. Və bu zaman Həsən müəllim daha ləngimədi, ağacın içindəki adama tərəf cəsarətlə və qorxmadan irəlilədi...

Əliqismət baxdıqca baxırdı və dözmürdü. Ürəyi elə şiddətlə döyünürdü ki, az qalırdı yerindən çıxa. Atasını həm tanıyırdı, həm də tanımırdı. Bu, məgər Həsən müəllim idi? Bu, Həsən müəllim deyildi. Əliqismət bir xeyli atasına baxıb, baxıb, nəhayət, yaşlanmış gözlərini şüşədən çəkdi. Kapitan Həsənzadə soruşdu:

– Odur?

Əliqismət cavab verdi:

– O deyil.

Bu sözləri dediyi zaman Əliqismətə elə gəldi ki, Həsən müəllim başını çöndərib ona tərəf baxdı. Onu gördümü, görmədimi, tanıdımı, tanımadımı – Əliqismət anlaya bilmədi.

Kapitan Həsənzadə Əliqisməti pilləkənin başına qədər ötürdü. Sağollaşanda Əliqismət kapitandan soruşdu:

– Bir şey soruşmaq olar?

– Buyurun.

– Bu kimsəsiz adamlar ki, var, elə bu kişini götürək, onları hara yerləşdirirlər?

– Ağzınızda "kimsəsiz" deyirsiz. Elə kimsəsizlər evinə. Başqa hara yerləşdirəcəkdik ki?..

Əliqismət daha dayanmadı. Tələsik polis idarəsindən çıxıb atasıgilə qayıtdı. Yolda gedə-gedə özü-özünə təskinlik verirdi: "Kimsəsizlər evi hamısından yaxşıdı. Tapşırarıq, yaxşı baxarlar. Yanına tez-tez gedərik. Həkimi, medsestrası... Belə yaxşıdı, hər şey öz-özünə düzəldi..."

Atasıgildə səbirsizliklə onu gözləyirdilər. O, evə girən kimi hamı qapı ağzına toplaşdı.

– Heç nə. Gördüm deyən olmadı. – Əliqismət paltosunu soyunub böyük otağa keçdi.

Hər kəs dinməz-söyləməz onun arxasınca keçib yerinə oturdu. Balaca Bəyimin gözləri qaynayırdı, sanki nəsə demək istəyirdi, amma bilmirdi desin, ya deməsin.

× × ×

### *"Yaz" fəsli (davamı)*

Hacı Mir Həsən ağa Səyyahı, gecənin bir aləmi yuxudan sinəsinə, elə bil, biz soxub ayıltdılar. Durub geyimini əyninə çəkdi, qış çuxasını geyindi, bayıra çıxdı. Gözə ins-cins dəymirdi. Səyyahı, elə bil, hansısa çox doğma bir səs hardansa səsləyirdi, harasa çağırırdı. O bu səsin kimə məxsus olduğunu unutmuşdu. Ona qəribə gəldi ki, bu səs hələ də onu tanıyır.

Hacı Mir Həsən ağa Səyyah səsin dalınca yola düzəlib şəhərdən çıxdı və Düzəngah yoluna tərəf irəlilədi. Beyrəklə Banuçiçəyin ox atdıqları quyunun yanından ötüb qalın bir meşəyə girdi. Məşənin içinə doğru getdi. Yaz fəsli idi, amma qar yağırdı. Qar dənələri üzünə-gözünə vurmurdu, böyük-böyük ağacların başına, budaqlarına ilişib qalırdı. Birdən Səyyahın gözünə bir cökə ağacının içində bardaş qurub oturmuş iki adam dəydi. Adamlar bir-biri ilə mehribancasına danışa-danışa qalmışdılar və bu adamlar ağacın içində elə rahat oturmuşdular ki... "Kim ola? Bu, haman odunçu olmasın?! Bəs o biri kimdi?!" – Səyyah düşündü. Ağac qollu-budaqlı bir ağac idi. Üstü tamamən qarla örtülmüşdü. Qaranlıqda ağappaq işıldayan, gözlərə, ürəklərə təskinlik gətirən qarla...

Hacı Mir Həsən ağa Səyyah qarın işıldayan ağlığına baxıb-baxıb daha dözə bilmədi, geri dönüb təngnəfəs bir halda yeyin-yeyin, sonra da az qala qaçaraq meşədən çıxdı, üz tutdu Düzəngah yolunun qırağında bir təpənin döşündəki Hüngür mağarasına.

× × ×

## Epiloq

Şaxtalı bir qış gecəsi idi. Hacı Mir Həsən Ağa Səyyah Düzəngah yolunda təpənin köksündəki Hüngür mağarasında özünün təkcənəlik vaxtına bürünüb bir soyuq daşın üstünə oturmuşdu. Qarşısında günortadan qaladığı ocaq var idi. Ocaq artıq özünün son alov parçasını mağaranın qara divarlarına təntənəli bir tərzdə elə indicə göndərdi, parıldaşan dili ilə onları bir anlıq nura qərq elədi və bu zaman divarda cürbəcür kölgələr peyda oldu, guya ki, burda çox adam var idi, təkcə Hacı Mir Həsən ağa deyildi. Səyyah yenicə tamamladığı və bir yekə kağız qalağından ibarət olan bir qalın əlyazmanı dizlərinin üstündə bərk-bərk sıxıb tutmuşdu. Bir az əvvəl biriminci səhifənin üst tərəfində öz adını, sonra da əsərinin adını xətt salasala yazmışdı: Hacı Mir Həsən ağa Səyyah – "Sirlərin sərgüzəşti". O gözlərini bu yazıdan çəkə bilmirdi.

Onun illər əvvəl hamıdan aralanıb tərki-aləm olmasının və bu gözdəniraq mağaraya sığınmasının əsl səbəbi uzun və iztirablı günlərinin, gecələrinin bəhrəsi olan bu qorxulu yazı idi. Onu yazmağa başlayandan az sonra şəhər əhlinin ona münasibəti qəflətən dəyişdi. Əhalinin təhdid və hədələrindən, tənə və təqiblərindən, evinin yandırılmasından, küçədə gedərkən arxasınca təngnəfəs gələnlər tərəfindən az qala daşqalaq edilməsindən sonra, nəhayət, bir zülmət gecə yarıyacan yanmış evinə yapışıq töylənin bir küncünə qısıldığı vaxt gizlicə gəlib onun həyətinə girənlərin açıq-aşkar təhdidlə dolu belə bir söhbətini eşitdi. Və o söhbətdən sonra Səyyah, nəhayət ki, qəti qərara gəldi.

O ulduzsuz zülmət gecə həyətə üç kişi girmişdi. Əvvəl-əvvəl öz aralarında yavaşdan danışırdılar. Səyyah təkcə qulağı ilə deyil, bütün vücudu ilə bayırdan gələn və ürəyinin döyüntüsünə qarışan bu səsləri tutmağa, eşitməyə çalışdı. Bu elə də çətin olmadı. Çünki mövzu bəlli, bu adamların nə dedikləri yaxşı məlum idi. Təzə bir şey demirdilər, bütün şəhər əhlinin yek fikrini dilə gətirirdilər. Şəhərdə hər kəs müqtədir bir mirzə və alim kimi tanınan, dünyanın hər bir yerində olub və bu yerlərdən hikmətlər öyrənib özü ilə gətirən Hacı Mir Həsən ağa Səyyahın yenicə yazmağa girişdiyi

"Sirlərin sərgüzəşti" risaləsini bilxassə özünə qarşı bir qəsd hesab edirdi. Onlara elə gəlirdi ki, hər kəsin ki sirri var, o sirri bu şəxs ordan-burdan, bəzən yaxından, bəzən də getdiyi uzaq ölkələrdən hansısa üsul ilə öyrənib aləmə faş eləməyə başlayacaq. Sirri-əzimlərin aşikar olacağı gecəni Səyyah bir dəfə şəhər əhlinin seçmə adamlarma vəd eləmişdi. Bunu onun öz dilindən eşidənlər olmuşdu və xəbər ildırım sürətilə dörd bir tərəfə yayılmışdı. İndi o anlayırdı ki, səhvin böyüyünü elə bu zaman özü edib. Təlaş və tüğyan edənlərin sayı bir deyildi, yüz deyildi. Buna dözmək olardımı, olmazdı.

...Həyətə girənlərdən biri onun öz qonşusu, can dostu Həzrətqulu idi. Həzrətqulu birdən-birə yanında durub pıçıltı ilə danışanların sözünü kəsdi, onlardan fərqli bir halda səsini başına atdı və xeyli ucadan səslənib belə dedi:

– Sabah son vədədi. Biləsiniz, camaatın səbr kasası daha daşdı. Onu kəsib dağda-dərədə quşlara, heyvanlara yem edəcəyik.

– Yavaş ol... – Yanındakı kim idisə Həsənəlinin bərkdən danışmağına mane olmaq istədi. Bu adamı Səyyah səsindən tanımadı.

– Bəli, doğru buyurursan. Səbr kasası daşdı. Sabah, hökmən sabah bu iş, nəhayət ki, baş tutsun, nəhayət ki, bu adamın təhdidlərinə son qoyulsun... – Bunu deyərkən təkrarən pıçıltıya keçəni isə Səyyah tanıdı. Şəhər həkimxanasının rəisi yanında gecə baxıcısı idi.

– Sən təhdid nəyə deyirsən? De ki, böhtanları... – Yenə Səyyahın tanımadığı adamm səsi gəldi. Qonşusu Həsənəlinin gur səsi bu yerdə danışanın sözünü yenə də səbirsiz kəsərək gecənin qaranlığında şimşək kimi çaxdı:

– Bax, sübh tezdən bu iş bitməlidi və bitəcək. Ağalar siz də gələrsiniz, bütün şəhər sel kimi bura axışacaq. Sübh tezdən ha, eşitdiniz?

– Eşitdik, eşitdik. Bağırma. Yatanı da oyadarsan...

İndiyənə qədər Səyyah anlamır ki, bu sözləri Həsənəli kimə ünvanlayıb deyir, ona, yoxsa yanındakılara. Həzrətqulu belə bərkdən qışqırırdı, o eşitsin deyəmi?! Bəlkə də, belə idi. Deməli, bu iş sabah tezdən baş verəsidi. Ona ölüm fitvasını, demək ki, artıq çıxarıblar və bu, küçədə-bacada ona hücum edib söyüş yağdıranların, daş atanların kortəbii işinə

bənzəməyəcəkdi. Əlbəttə ki, qonşusu Həzrətqulu, gənclik illərinin can və qəlb dostu bu adamların yarında belə bağırmağıyla bu xəbəri məhz ona eşitdirirdi, şübhəsiz, bu belə idi. Mağarada həvəsi olanda və keçmişdə baş verənləri acı bir yuxu kimi beynində götür-qoy etmək istəyi yarananda Səyyahın dodaqlarının ucuna xəfif bir təbəssüm qonurdu. Amma bəlkə də, belə deyildi, bəlkə də, Həzrətqulunun ona nifrəti o dərəcədə idi ki, bu tənumənd kişi hislərini, hətta səsini artıq qısa bilmirdi. Bəlkə də, Həzrətqulu özünün o ağır sirrini heç cür unuda bilməmişdi?! Unutduğunu dəfələrlə and içib onu əmin-aman etsə də, unuda bilməmişdi. Dəfələrlə and içməyin özü elə bu sirrin unudulmadığına açıq-aşkar işarət deyilmiydi?! Və indi sirrin faş olmasının qorxusu deyilmiydi Həzrətqulunu belə qeyzləndirən?! Amma səsini başına nahaqdan atmadı, bunun bir mənası var idi. Səyyahın dodaqlarına yenə o ürkək, bu mağaraya yolazmış təbəssüm gəlib qondu. Gur yanan tonqalın alov dilləri mağaranın zülmət gecəni xatırladan qara divarlarında oynadı.

...Elə haman gecə Hacı Mir Həsən ağa Səyyah yanmış evinin bəzi salamat əşyalarını toplayıb vəfalı eşşəyini töylədən çıxardı, əşyaları onun belinə şellədi, bir hissəsini də çiyninə aldı. Həyətdən çıxdığında ikiqat olmuşdu, birtəhər belini dikəldib baxışını Həzrətqulunun üzbəüzdəki evinə saldı. Evin işıqları yanmırdı. Bir pəncərənin pərdəsi isə yarıyacan açıq idi, elə bil, orda pərdənin arxasında kimsə durmuş idi və o kimsə gözlərini gecənin qaranlığına zilləyib ona doğru tuşlanmış baxışları ilə bu qaranlığı deşməkdə idi. Səyyah həyəcandan ürəyi ata-ata məhlədən uzaqlaşıb tini döndü, amma bu zaman ürəyi yenə dözmədi, qayıdıb başını tinin ucundan çıxardı və Həzrətqulunun pəncərəsinə tərəf bir də baxdı. Bu dəfə pəncərənin ucuna şam qoyulmuşdu və onun zəif işığı gəlirdi.

Elə haman gecənin qaranlığındaca birbaşa bura, Hüngür mağarasına gəlib yetişdi. Eşşəyin yükünü boşaldandan sonra onu təkrar aparıb aşağı kəndlərdən birində bir dirəyə bağladı. Heyvanın izinə düşüb onu mağarada tapa bilərdilər. Heyvan heyvanlığı ilə ayrılarkən sanki nəsə duyub başını onun ayağına sürtdü, qoxladıqca qoxladı. Sonra, artıq işıqlaşana yaxın Səyyah mağaraya qayıtdı, evdən imkan edib gətirdiklərini yavaş-yavaş

mağaranın sol küncündə yerbəyer etməyə başladı. "Son günlərim burda, tək-tənhalıq içində keçəcəkmiş..." "Ah" çəkərək düşündü və sonra Səyyahın gözlərindən axan yaş ağarmış saqqalından süzülüb yerə töküldükcə töküldü.

O zamandan Səyyah Hüngür mağarasına sığındı. Görünür, dünyalar gəzib mərifət və əxlaq, fəzilət və iman sahibi olmuş bu şəxsin alnına belə yazılıbmış: sən öz həyatını mənalı bildiyin, amma mənasız, mənasız bildiyin, amma mənalı bir əməlin yolunda puç edəcəksən. İllərlə qazandığın hörmətini və izzətini gəlib beyninə girmiş və səni gecələr yatmağa qoymayan, ürəyində hövr edən boş bir amalın uğrunda bada verəcəksən. Sirləri açmaq, sonra da çözmək, səbəb və nəticələri bir-birinin yanına düzmək istəyəcəksən. Düşmənlərini sevindirəcək, dostlarını pərt edəcəksən. Və ömrünə burada, heç kimin görüb tapa bilməyəcəyi, Allahın da unutduğu bir mağarada son verəcəksən. Uşaqlıqda elə hey eşidərdi, deyirdilər, bu mağarada qorxulu bir ruh gizlənib. Müdhiş bir tilsimi var buranın. Buna görə ətraf kəndlərin adamları belə bu yerdən kənar dolanmağa çalışırdılar, ondan yan keçirdilər. Bura gələn cığır çoxdan itib yox olmuşdu. Mağara zaman-zaman tamam qərib bir yerə dönmüşdü. Bir də onu deyirdilər ki, mağaranın divarlarında qorxulu yazılar yazılıb. Amma Səyyah bu yazıları nə qədər axtardı, görə bilmədi. Bəlkə, qaranlıq idi, ondan, amma bəlkə də, gözləri artıq yaxşı seçmirdi, ondan. Təkcə onu seçə bildi ki, mağaranın divarlarında ayrı-ayrı yerlərdə çiçəyə oxşar ləkələr var. Bu ləkələr çox hündürdə idi, bəzi yerlərdə silinib pozulmuş kimiydilər və Səyyah onları əhəmiyyətsiz saydığından daha bu ləçəklər barədə düşünmədi, Səyyah onları unutdu.

Zaman beləcə keçib getməyə başladı. Aylar, illər – sürətlə, günlər, saatlar – zülümlə, yavaş-yavaş. Onu dəli olmaqdan xilas edən bir şey var idi, o da yazdığı və bu zaman özünü belə unutduğu əlyazma idi. Bir də onun özü üçün uydurduğu, əslində, onun yox, buralara yaxın Görükməz təpə deyilən yerin qarşısından açılan Sehirbazlar dərəsinin sakinlərinin özləri üçün uydurduqları, nə zamansa onu da buna inandırdıqları "təkcənəlik" deyilən vaxt. O artıq bu vaxtın içinə girməyi bacarırdı. Əvvəl-əvvəl çətin olurdu, çünki nəfəsini lazım olan qədər içinə yığıb saxlaya bilmirdi. Ya-

vaş-yavaş, inadla məşqlər etdi, dərədəki sehirbazların təlimini xatırladı və nəhayət, istədiyinə nail oldu. İndi artıq təkcənəlik vaxtının içinə girib yazdığı mətn özü quş kimi uçub onu arxasınca çəkib aparırdı. Özü ilə gətirdiyi vərəqlər saatbasaat, günbəgün qaralır, onun binayi-əzəldən bərbad, əyri-üyrü xətti ilə dolurdu. Mağara geniş idi deyin, du-rub içində gəzişə bilir, bu zaman dünyanın gəzib gördüyü ayrı-ayrı şəhər və məmləkətlərini bir daha gözləri önünə gətirir, vaxtın qədim bir düyünündə qalmış uzaq ölkələrin rayihəsini, elə bil, burnunda, dilində hiss edirdi. Amma yaxınlarda baş verənlər yadından çıxmağa başlamışdı. Niyə bura qaçıb gəldiyini artıq güclə ya xatırlayır, ya xatırlamırdı. Bir şeyi isə dəqiq bilirdi. Mağara onun xilas yeridir və buranı tərk etmək olmaz. Yaş o yaş deyil ki, yeni bir səyahətə çıxasan – gedər-gəlməz səyahətə. Ürək də o ürək deyil – ölümü gözləməkdən qeyri bir diləyi yox.

Qulaq verərdi, mağaradan kənardakı səsləri bir-birindən ayırardı. Əsasən, yaxınlıqdan qurd-quş səsi gələrdi, uzaqlarda at kişnər, bəzən qoyun-quzu mələşərdi. Bu səslərə uyğun olaraq günün vaxtını və yaxınlıqda kimsənin olub-olmamasını ayırd edib ayağını mağaradan kənara qoyar, bir, ya iki saat təmiz havanı ciyərlərinə çəkərdi. Beləcənə, zaman keçdi, o, mağaraya alışdı, mağara ona. Özü-özünü azuqə axtarmağa və tapmağa öyrəşdirdi.

Bir dəfə bura gəldiyinin birinci ayının sonunda, qəribə bir iş oldu. Bütün diqqətini kağıza, qələmə verib təkcənəlik vaxtının içinə girməyə çalışdığı bir məqam idi. Birdən mağaranın ağzından ona xeyli tanış və doğma olan eşşək səsi gəldi. Əvvəlcə Səyyahın canını qorxu aldı. Amma səsdən sonra ətrafa ölü bir sükut çökdü və bu sükutun içində o öz sevimli heyvanının səsini bir daha eşitdi. O bu səsə inanıb bayıra çıxdı. Mağaranın ağzında durub boynunu əymiş heyvanın belində böyük bir yük tayı var idi. Səyyah bu vəfalı heyvanı titrək, kövrək səsilə əzizləyə-əzizləyə yük tayını (o isə azuqədən ibarət idi) yerə boşaltdı. Heyvanın boynunu bərk-bərk qucaqladı, qulağına çoxdan içində saxladığı sözləri pıçıldadı:

"Ətrafda olan hər şey güya ki, ölümün min bir təzahürüdü. Sadəcə üzünə niqab tutubdu və bizdən guya ki, gizlənibdi. Qətiyyən belə deyildir. Sağa baxıram, sola baxıram, darıxıram".

Hacı Mir Həsən ağa Səyyah bunları deyib bir xeyli bu vəfalı heyvanın boynunun tükünü tumarladı, içini dərindən çəkib yüngülcə, sığallayırmış kimi əlini yanbızına vurdu. Heyvan itaətlə başını aşağı salıb gəldiyi cığırla dönüb geri qayıtdı və aşağıda gözdən itdi. Sonralar, ayda bir, ya iki dəfə o heyvan gəlib mağaranın ağzında durar, fınxırtısından Səyyah bilərdi ki, azuqə payını yenə kimdisə (qonşu Həzrətquluya ağlı gedərdi) aşağıdan göndərib. Dodağı qaçardı, ürəyi qısılardı.

Mağaranın girəcəyi bu yeri tanımayanların gözündən yetərincə gizlətmişdi. Səyyahın bu gizli mağaraya sığınması, burada yarıac, yarıtox olsa da, amma sakit və mütəvazi bir həyat sürməsi bir tərəfdən həyatını qoruması üçün idisə, o biri tərəfdən beynini və qəlbini deşib ona rahatlıq verməyən bu yazını yazıb sona çatdırmağın ehtiraslı həyəcanı ilə bağlı idi. Hamıya görk olsun deyə uzun, məşəqqətli bir yola çıxmışdı. "Siz hamınız padşahınıza layiqsiniz" dediyi və padşahlarına həqqən asi olan həmşəriləri onun üçün ən təhlükəli adamlar idi və onların hamısı, əlbəttə ki, təkcə həmşərilər deyildi. Bu məmləkətin hamısı əməlli-başlı onun qanına susamışdı. Adamların üzü ondan birdən çönmüşdü. Əvvəlki sevgi bu risalə səbəbindən nifrətə çevrilmişdi. Adamlar amansız idilər, çünki Səyyahın ağıllı, məntiqli ittihamları üzə çıxardısa, bu onlar üçün ölümdən bətər olacaqdı. Padşahdan yox, Səyyah bu adamlardan qorxmuşdu və qaçıb canını onlardan qurtarmağa çalışmışdı. İndi isə, nəhayət, qorxu və təlaş, amma daxilindəki yüksək əzm və mətanət hesabına yazıb başa çatdırdığı bu mətn artıq, budu, doğulub. Bir qalaq vərəq onun titrəyən dizlərinin üstündədir. Səyyah bu mətnin (risalənin) az qala ürək döyüntülərini eşidir, nəfəsini duyurdu. Əlyazmanı tamamlayıb öz yaralı ürəyindən tikən çıxardan Səyyah yalnız bir şeyi dumanlı və yorğun beynində fırladıb-fırladıb ona cavabı heç cürə tapammırdı: bütün bu ağrı-acıdan sonra o indi xoşbəxtmi idi, yoxsa bədbəxt?! Bütün bu zillətə, qəmə-qüssəyə, acılara, məhrumiyyətlərə bu əlyazma dəyərdimi?

Əlyazma isə Səyyahın dizləri üstündə özünə sakit bir ana qucağı tapmışdı və dərin, rahat bir yuxuya getmişdi. Səyyah özü də heyrətli bir sükut içində idi. Əlyazmanın doğuluşundan sonra o, öz təkcənəlik vaxtının içindən çıxmağa hələ ki, tələsmirdi və qımıldanmadan yenicə doğulmuş bu əlyazmadan ibarət vərəqlər yığınına heyranlıqla tamaşa edirdi. Burda onun ömrü, xalqının, dövlətinin taleyi, tanıdığı, rastlaşdığı padşahların, hakimlərin, ağaların, xanların həyatı, onların sevdikləri və nifrət etdikləri zövcələrinin, sevgililərin, övladların və qardaşların həyatı, onun özünün ilk məhəbbətindən tutmuş, itirdiyi əzizlərinin həyatı, keçmiş dünyada, neçə-neçə ölkələrdə görüb tanıdıqlarının, uzaq Kəhrəbalar diyarındakı ustadlarının və şəyirdlərinin, sevib sevildiklə-rinin həyatı, bəlkə, dünyanın, bəlkə, kainatın həyatı, nəhayət onun böyük, müqəddəs həqiqəti öz gizlinləri ilə, öz sirləri, tilsimləri, möcüzləri ilə onun, ancaq onun qəlbindən, gözlərindən keçib, dilinə, ağzına, sonra da qələminin ucuna hərdən göz yaşı, hərdən də qəhqələrlə axıb sözbəsöz, cümləbəcümlə bu lənətə gəlmiş, amma yenə də sevimli vərəqlərə bir dağ seli kimi tökülmüşdü. Səyyahın vücudu soyuqdan titrəyə-titrəyə qalmışdı, ancaq Səyyahın üşüməyi yox idi. Buna səbəb əlyazmanın tamamlanmasından dolayı vücuduna yayılan həzin və hıçqırıq dolu bir hərarət idi. O, donmuş əllərini hərdən əlyazmadan aralayıb ağzından çıxan şaxtalı nəfəsinin buğu ilə isidir və qarşısında nə zamansa gur tonqal kimi çatılmış bu böyük kül yığnağına yorğun bir baxışla göz qoya-qoya, dodağının ucunda haman yolazmış təbəssüm beynindən bunu keçirir:

"Bura niyə belə qarardıq zülmətə döndü?! Bu mağaranın ki, içi həmişə gur işığa qərq olardı?! Bu tifil ki, yatıbdı, yuxudan axı ayılar və bu qaranlıqdan qorxar..."

Səyyah əlyazmanın dərdini çəkir. O unudubdur ki, bu, bir uşaq deyil, bu, bir kağız topasıdı. Amma yox. Onun beynində yenə də iki şey bir-birinə qarışır. İndi də ona elə gəlir ki, qucağındakı kağız topası deyil, körpə uşaqdı. Və Səyyah artıq sönmüş tonqala baxıb bu dəfə də belə düşünür:

"Görəsən bu lənətə gəlmiş, amma dünyanın ən gözəl yaranışı olan, içi ilan-qurbağa yazısı ilə dolu yazını artıq közərən və sönməyə tələsən və elə indicə sönməyə hazır olan bu tonqalın içinə atsam, onu yenidən alışdırıb

gur işığını bir daha görə billəm, yoxsa, yox?! Mən onu axı bu adamlara etibar edə bilmərəm. Bu tifil də gözlərini açandan sonra artıq üşüməsəydi, bir azca da olsa canı qızışsaydı, və haman işığı görə bilsəydi, nə dərdim, qoxmazdı... Neyləyim, mən neyləyim?!"

Hacı Mir Həsən ağa Səyyah başını tərpədərək, durmadan aşağı, yuxarı əydikcə əyir, barmaqları isə ondan xəbərsiz dizlərinə qısılmış əlyazmanın vərəqlərini bir-bir sığallayır, sığallayır...

Həsən müəllimin evindəki böyük qonaq otağında hərə çəkilib bir tərəfdə oturmuşdu. Dinib danışan yox idi. Şahinin gözləri ora-bura qaçırdı, üzünə isə sanki bu sözlər yapışmışdı: "Belə-belə işlər..." (üç nöqtəsilə bir yerdə). Zaur bərk fikrə getmişdi. Pencəyinin qolundan çəkərək ona nəsə deməyə çalışan Bəyimi dinləmirdi. Əliqismətin əzilmiş üzündə yad bir təbəssüm var idi və işığın altında kölgə-kölgə titrəyirdi. Həlimə qızını qucaqlamışdı, ağlamaq istəyirdi, amma ağlaya bilmirdi.

Həlimə diqqətlə Əliqismətə baxırdı. "Gör necə dərdə batıb. Nəhayət, başa düşdü ki, ata nə deməkdir. Yoxsa sağ bir adamı evindən çıxarmaq istəyirdilər. Olarmı? Olmaz. Bu ki siqareti atmışdı. Nooldu? Siqareti bax belə calayarsan siqaretə. Ata yox olanda necə olarmış – indi bilərsən. Amma yazığın (Əliqismətin) təzyiqi qalxacaq. Rəngi də qaralıb. Dərd dərdə qarışmasın. Ax, of... "Əliqismət, doğrudan da, siqareti siqaretə calayırdı. Gözlərini dikmişdi otağın qarşı divarına vurulmuş atası ilə anasının birlikdə çəkdirdikləri şəklə. Bu, bir ailə şəkli idi. O şəkildə övladlar valideynlərinin arxasında ayaq üstə dayanmışdı. Hamısının üzü gülürdü. Hamısı çox xoşbəxt idi. Dərddən, qüssə-qəmdən əsər-əlamət yox idi.

Əliqismət salonda dinməz-söyləməz oturmuşdu və nə barədə düşünmək istəyirdisə alınmırdı. Fikri bir yerdən o biri yerə qaçırdı. Hansısa bir məqamın üzərində dayana bilmirdi. Əlindəki siqaretə (Zaurdan aldığı siqaret qutusu boşalmışdı) son dəfə dərin bir qüllab vurdu. Siqareti söndürdü. Oturduğu yerdəcə tərpənməz qaldı. Gözləri yenə şəklə baxırdı, ancaq Əliqismət şəkildəkiləri daha başqa cür görürdü – gənc anası qocalmışdı və üzündə pərişan bir ifadə vardı. Bacısının gözlərinin dərinliyinə kədər çökmüşdü. Zaur açıq-aşkar iztirab içində idi. Əliqismətin özünün üzündəki

xoşbəxt təbəssüm silinib getmiş, dodaqlarına yalançı bir gülüş qonmuşdu. Atasının şəkildəki cavan, üzügülər, yanaqlarıdolu halından əsər-əlamət yox idi, o indi polis məntəqəsindəki qəbul otağı deyilən balaca otaqda vücudu büzüşmüş, qəddi əyilmiş həmən qoca kişiyə bənzəyirdi. Gördüyü bu ürəksıxan qəribə mənzərə sirli idi. Şəkil göz önündəcə dəyişib başqa bir şəklə çevrilmişdi.

Salondakılar bir xeyli beləcə sükút içində oturub qaldılar. Qəflətən Zaur hönkürtü vurdu. Göz yaşlarını saxlaya bilmədi. Buna heç kəs təəccüblənmədi və heç kəs Zauru sakitləşdirməyə çalışmadı.

Həlimə gözlərini bir nöqtəyə zilləyib qalmışdı.

Əliqismət ayağa qalxdı. Üzünü bir adama tutmadan dodaqaltı öz-özünə nə isə mızıldanıb cəld otaqdan çıxdı. Bu elə sürətlə baş verdi ki, heç kim heç nə anlamadı. Sonra bayır qapısı açıldı, bağlandı.

Balaca Bəyim anasına qısılıb qalmışdı. O, göz yaşlarını əlləri ilə silən və çiyinləri hələ də əsən Zaura böyük bir sirr verirmiş kimi (əslində, onu sakitləşdirmək üçün) xısın-xısın deyirdi:

– Zaur dayı, Zaur dayı, mən düz deyirəm, baba getməmişdən qabaq məni qucaqlayıb öpdü, sonra da mənə göz vurdu, barmağını bax belə, dodaqlarına tutdu.

– Balaca Bəyim işarə barmağını şaquli xətt kimi aparıb dodağının üstünə qoydu. “Sus” işarəsi alındı.

... Kim idisə çox-çox uzaqlardan yorğun addımlarla yavaş-yavaş yol gəlirdi. Onun zümzüməsini özündən başqa eşidən yox idi:

– Qurban olum, axı mənəm,
Aç qapını bax, mənəm,
Qayıtmışam sağ – mənəm.
Əvvəlki mən deyildim...

*2019-cu il*

# Povest

# *Tarixsiz gündəlik*

**Sentyabrın ilk günü. Məktəb həyəti.**
**1-ci dərsdən əvvəl.**

Elə bil yuxu görürəm. Amma bu yuxu yavaş-yavaş reallığın ölçülərini alır. Üzlər, gözlər həmən-həməndir. Amma baxışlar o baxışlar deyil. Bu adamlar doğrudanmı iki ay bundan əvvəlkilərdir? Heç inanmaq olmur. Amma həqiqət bundan ibarətdir. Həqiqət Mariya Semyonovna deyən kimidir: nə azdır, nə çoxdur; nədirsə odur. Ətli-canlı, sözlü-söhbətli Mariya Semyonovna yadıma düşən kimi o dəqiqə kefim düzələn kimi olur. İndi də bu sözləri yaza-yaza hiss edirəm ki, dodaqlarım qaçıb...

***Qeyd.* Mariya Semyonovna bizim rus dili müəllimənizdir. Dərsdən çox bizimlə həyat haqda, məktəbimiz haqda, futbol haqda dartışır, rus dilini az-çox bildiyimizə görə bizim dil qabiliyyətimizi bu cür canlı söhbətlər vasitəsilə möhkəmlədir, onun dərslərini bütün sinfimizin uşaqları səbrsizliklə gözləyir. Asudələşirik, özümüz özümüz oluruq. Çox zaman isə aləm qatışır bir-birinə, ağız deyəni qulaq eşitmir sinifdə. Xoşbəxtlikdən bu il də rus dili müəlliməmiz odur.**

Yox, yüz faiz bu uşaqlara nəsə olub, ya bəlkə mənə nəsə olub?! Bunlar axı nə üçün belə həddindən artıq səmimi, həddindən artıq mehriban olublar?! Mən onların iki ay əvvəlki, yəni yay tətilindən əvvəlki adi baxışlarını xatırlayıram. O zaman mənə münasibət indiki kimi... necə deyim, qeyri-adi deyildi. Hələ bir dəfə qəliz bir hadisə də baş vermişdi, Aslan deyildi, az qala onunla yumruq davasına çıxacaqdıq?.. İndi isə... Aslan da, İlkin də, Azər də elə mehribanlaşıblar ki. Bəlkə artıq 10-cu sinfə çatdıq, axırıncı ildi bir yerdə olacağıq - ondandır? Sonra kim hara gəldi getdikcə gedəcək...Yəni başlarına romantika havası girib?! Nə oldu bunlara – nə cür sürətlə baş ver-

di bütün bu dəyişikliklər?! Oğlanlar bir yana, sinfimizin qızlarını hələ tanımaq olmurdu. Məktəbdə oxuduğumuz doqquz il ərzində heç bir sinifdə bunlar mənə bu cür xüsusi diqqət yetirməmişdilər. Bəlkə bütün bunlar mənə belə gəlirdi? Gizli-gizli mənə baxıb pıçıldaşanlar nədənsə gözlərini məndən yan qaçırırdılar. Sonra da xüsusi bir məhəbbətlə mənə baxdıqca baxırdılar. Bunlar deyəsən hamısı birdən-birə, bir anın içində mənə vurulublar, nədi? Yay o qədər də isti keçməmişdi elə bil, hamısının da başı birdən xarab olmayıb çox güman...

**Həmən gün. Üçüncü dərsdən sonrakı böyük tənəffüs zamanı.**

İlkin hamının yanında heç bir mətləbə dəxli olmadan belə dedi:

– Nazim qədər ədəbiyyatı məktəbdə oxuyan yoxdur. Mən həmişə bunu bilirdim. Sən mənə bu il ədəbiyyatdan kömək edərsən? Əvəzinə sənin yaxşı bir şəklini çəkərəm. (İlkin rəssam idi). Kitab oxumağa hövsələm çatmır. "Robinzon Kruzo"nu oxumusan?

Sonra cavab gözləmədən hamının qarşısında əsl qəhrəman ədası ilə sözlərinə nöqtə, yox, nida qoydu:

– Mən yayda istədim oxuyam, oxuya bilmədim!

Mən indi durub desəydim ki, mən "Robinzon Kruzo"nu az qala birnəfəsə oxumuşam, əlbəttə ki, yaxşı alınmayacaqdı. İlkinə cavab verməmək qərarına gəldim, əslində heç özü də cavab gözləmirdi. "İlkin Robinzon Kruzonu oxuya bilməyib" – o tərəfdə oturub qulaqlarını biz tərəfə lokator eləyən qara Ziba bərkdən, heç kimə yox, özü-özünə bu sözləri istehza ilə dedi, sonra dediklərinə belə bir əlavə də elədi: "Çox böyük qəhrəmanlıq eləmisən..."

Qara Ziba sözü şax deməyin ustası idi, yeri gəldi-gəlmədi tökərdi ortalığa ağzına gələni. Amma bu dəfə də bir çox başqa dəfəkilər kimi ona məhəl qoyan tapılmadı. Hamı dodaq büzdü. Yəni milçəkdi vızıldadı, yan keçdi... Hamı bilirdi ki, Zibanın İlkindən, onun da Zibadan zəhləsi gedir. İlkin keçən il qızın çox biədəb karikaturasını çəkib az qala bütün sinifdə onu biyabır eləmişdi. Qızın özü şəkli görməsə də ucundan-qulağından eşit-

məmiş olmazdı. Amma bəlkə də və çox güman ki, görmüşdü, indi isə özünü bu işdən bixəbər kimi aparırdı.

***

Robinzon Kruzo ilə bağlı suala isə mənim cavab verməməyim qızlarımızın gözündə məni lap qaldırdı, çünki bu cür susmağım çox belə... mənalı alındı, guya ki: "susuram, amma, əlbəttə ki, oxumuşam".

Mənim qoltuqlarım bir xeyli şişdi. İlkin sayılıb-seçilən uşaqlardan idi, mənim onunla xüsusi dostluğum var idi. Buna baxmayaraq, indi onun mənim haqqımda dedikləri mənim üçün bir qədər gözlənilməz oldu. Amma deyəsən bu təkcə mənim üçün gözlənilməz oldu. O biri uşaqlar İlkindən elə bil məhz bunu gözləyirdilər. Ya bəlkə də hər kimdənsə bir işarə gözləyirdilər – məni mənim üçün tərif eləməkdən ötrü. Mən bunu hiss edirdim. Nə düzdü, o düzdü – sinifdə həmişə xüsusi çəkim olmuşdu. Amma bu il mənə münasibətdə, mənə daha çox istilik, məhrəmlik göstərməkdə dostlarım elə bil yarışa çıxmışdılar. Çoxbilmiş Arif də, adətən qaraqabaq Natiq də, hətta "bütün zəmanələrin və bütün siniflərin gözəli", yanağında qara xalı, İlkinə hər dəfə yeri gəldi-gəlmədi iynə-sancaq batıran gözəllər gözəli Qənirə də, hamının ciddiliyinə çox hörmət elədiyi Arzu da müşahidələrimin təsdiqi kimi bir-birinin sözlərini kəsə-kəsə İlkinin dediklərini cani-dildən təsdiq eləməyə başladılar.

– Yox, e, bunun oxuduğu kitabları bir yerə yığsan... Natiq xeyli ciddi bir görkəmlə dedi. Bu qaraqabaqdan belə sözlər...

– Yığa bilməzsən, oğlum. – Arif bu il hamıya, hətta yanında əyləşən qara Zibaya da "oğlum" deməyə başlamışdı. Maraqlıdı, iki ay yay tətilini bu harda keçirib?! Atası həvəskar alpinistdi, bəlkə alpinistlərin dəstəsində olub, hansısa yüksəklikləri fəth edib, hansısa dağlara dırmaşıb... Sözə bax: "oğlum"... Çox maraqlı sözdü.

– Nə özünü çəkib dağ başına qoymusan, oğlum, gör millət səni necə göylərə qaldırır... – Bu dəfə "oğlum" mənə aid edilmişdi. "Dağ" sözünü də Arif xüsusi bir tərzdə işlətdi, elə bil, söhbəti bu şəkildə çəkib özünə tərəf döndərmək istəyirdi.

Gözəllər gözəli Qənirə də, nəhayət, tənbəl-tənbəl, sözləri ağzında aktrisalar kimi uzada-uzada (ağzında söz əvəzinə elə bil saqqız vardı) dilləndi:

Mən özüm... elə gözəl bir roman oxudum ki, yayda... elə gözəl... amma adını... unutmuşam.

– Sağ ol! – Arif mat qaldı. Onun bu "sağ ol"unda çox böyük bir rişxənd vardı.

Qənirə Arifə heç fikir də verməzdi, əgər İlkin söhbətə qarışmasaydı...

İlkin Qənirəyə saymazyana baxaraq, yəni "səni bütün aləm sevə bilər, bəlkə də nə bilim, sevir, amma... bunu bil: məndən başqa", söhbətə qarışdı:

– Sən... nəsə oxumusan? Yəqin əlifba kitabı olub. – İlkin dedi.

Biz gülüşdük. Qənirə isə gözlənilmədən əməlli-başlı pərt oldu. Qaşqabağını tökdü.

– Yaxşı, yaxşı, zarafat eləyirəm. Sən axı ədəbiyyatla havaxtdan belə maraqlandın?! – İlkin elə bil Qənirəyə kobud davrandığını başa düşdü, bunu yumşaltmaq istədi və bu dəfə mülayim tərzdə ondan soruşdu.

– Sənə dəxli var?! Özüm bilərəm. – Qənirə də öz növbəsində İlkinə kobud bir cavab verdi, elə bil ki, Arifin də hirsini İlkinin üstünə tökməyə hazırlaşdı. Aydın məsələdi: küsmək istəyirdi. Bəhanə axtarırdı. Axtarırdısa, bundan yaxşı bəhanə?!

...Qənirənin küsməyindən yox idi. Adamdan öz-özünə küsər, öz-özünə barışardı, sənin heç xəbərin olmazdı. Mənim başıma gəlib. Səkkizinci sinifdə. O zaman... yox, bu barədə danışmaq istəmirəm. Bir məsələ ki öz məntiqi sonluğuna çatmadı, onun barəsində danışmaq düzgün deyil.

– Küsmüşdüm səndən.

– Niyə?

– Səndən "Fizika"nı istədim, sən isə...

– İstəmədin axı, Qənirə.

– Nolsun ki... İstəsəydim, onsuz da verməyəcəkdin.

Bu idi Qənirə!

İndi də barışdırıcı mövqedən "xeyirdi bu söhbətlər?" kimi bəzi sözlər deməyə hazırlaşırdım ki, zəng vuruldu və hamı öz yerinə keçməyə başladı.

Qənirənin qaş-qabağı hələ də yerlə gedirdi. Elə İlkinin özü də deyəsən pərt idi.

Təsadüfdən, ya da ki qeyri-təsadüfdən üçüncü dərsimiz ədəbiyyat dərsi idi. Nabat müəllimə sinfə girdi və mən onun çatılmış qaşlarına baxıb bayaqkı söhbət haqda düşüncələrimi bir başqa vaxta saxladım.

**Üçüncü dərsin sonunda.**

***Qeyd.*** ***Keçən ilki sinif rəhbərimiz Nabat müəllimə yenə həmişəki kimi dodaqlarından daha çox qaşları ilə danışır. Onun çatılmış qaşları neçə-neçə növcavanın (yəni bizimkilərin) qanını qara rəngə büryan eləmişdi, nə bilim, daha necə deyərlər... bir sözlə, onun çatma qaşları qanımıza acı soğanı az doğramamışdı.***

Dərs boyu Nabat müəllimə ondan, bundan yayda nə edib-etmədiyini, kimin hansı kitabı oxuyub-oxumadığını soruşub, demək olar ki, hamını pərt edib qızartdı. Dərsin sonuna yaxın birdən Nabat müəllimənin yadına nə düşdü, nə düşmədisə üzünə, mən bilən, süni bir təbəssüm gəlib qondu və Nabat müəllimə enli, çatma qaşlarını, nəhayət, rahat buraxıb birdən-birə mehribanlaşan gözlərini bu dəfə mənə dikdi:

– Nazim... təzə şeirlər yazmısan, bala, yay zamanı?

Sinfin üstündən ağır bir gərginlik götürüldü. Hamı dərindən asudə bir nəfəs aldı və bütün sinfin diqqəti mənə sarı yönəldi. Əcəb işə düşdük. Amma... çünki oldun Koroğlu, yox, dəyirmançı, o zaman çağır gəlsin dəni...

***Qeyd.*** ***Mən məktəbin rəsmi şairi idim, bütün yığıncaq və görüşlərdə, şanlı-şöhrətli, adlı- sanlı qonaqların qarşısında böyük məktəb zalında direktorumuz Sona müəllimənin "indi isə öz yazdığı şeiri oxumaq üçün söz verilir IX sinif şagirdi Nazimə..."***

*sözlərindən sonra məktəb uşaqları ilə dolu zal az qala partlayırdı, mənə əlbəttə ki, məktəbimizə qonaq gəlmiş xalq şairlərindən daha çox əl çalırlar. Yuxarıda qonaqlarla bir prezidiumda əyləşən Zərbəli müəllim bu zaman az qala kövrəlirdi.*

*Qocaman ədəbiyyat müəllimim Zərbəli müəllim özü mənə hələ səkkizinci sinifdə"mirzə" ləqəbini vermişdi. Mirzə Nazim...*

*Amma yaxşı ki, mən Mirzə Nazim ola bilmişdim, yoxsa, sinifdə baş verən bütün dələduzluqları həmişə iki nəfərin boynuna yıxır-dılar və bu haradasa həqiqətdən o qədər də uzaq deyildi. Bu iki nəfərdən biri İlkin idi, o biri - mən.*

*Məktəb bəlkə də məni çoxdan özündən uzaq eləmişdi və yaxud yəqin ki, çoxdan mən tamam başqa bir mən olardım, hörmətli qonaq-qara qarşısında Sona müəllimə bu sözləri deməkdən ləzzət duymasaydı: "İndi isə öz şeirini məktəbimizin şagirdi Nazim Hüseynov oxuyacaq..."*

Kim isə arxadan "failatun, failatun, failun" deyə pıçıltı ilə Zərbəli müəllimi bu şəkildə yada saldı, əruz vəzninin bəhrilə bağlı bu qəribə sözlər onun dilindən heç düşməzdi və bu sözlər bizim üçün nə isə bir sirr libasına bürünmüşdülər, çünki bu klassik şeir bəhrlərini heç birimiz, hətta mən də dərindən anlamırdım. Biz də ki... Amma bu pıçıltının adı "pıçıltı" idi və o qəflətən nəzərdə tutulduğundan xeyli bərk səsləndi, buna görə də onu hamı eşitdi, dodaqlara zorla gəlib qondarma bir təbəssüm qondu, elə bil hamımız gözlədik ki, Nabat müəllimənin bu "pıçıltıya" reaksiyası necə olacaq, amma onun üzündə bir əzələ belə tərpənmədi. Belə olanda həmən qondarma təbəssüm bizim də dodaqlarımızdan çox tez silindi, çünki maraqlı idi, görəsən Nabat müəllimə eşitmişdi bu "pıçıltını", ya yox?!

Nabat müəllimə eşitdi, eşitmədi, özünü heç o yerə qoymadı, məncə eşitmişdi, amma eşitməzliyə vurdu özünü. Mən ayağa qalxmaq istədim.

– Otur, otur. – Nabat müəllimə əli ilə mənə işarə etdi ki, ayağa qalxmaya bilərəm. Mən eləcə yarımqalxmış, bir az da gülməli vəziyyətdə donub qaldım, sinifdə bu halıma astaca pıqqıldayan da tapıldı, sonra ayağım birdən-birə qıc olub büzüşdü və mən özümdən asılı olmadan yavaş-yavaş təzədən yerimə oturdum.

Mənim "bəxtimdən" hamı məndən cavab gözləyirdi. Əlbəttə Azər, Aslan, İlkin və digər "lotular" ürəklərində sevinirdilər, çünki bir azdan zabitəli Nabat müəllimənin bayaqdan başlayıb qurtarmayan ümumi danlaqları yavaş-yavaş onların konkret adları və familiyaları ilə əvəzlənməyə başlayacaqdı, növbə onlara çataçatdaydı, artıq onun qaşları oxa dönür, sinifdəki onun sözüylə desək, "tüfeyli" canlı hədəflərə sərrast atəşlər açılırdı. Belə bir məqamda hardan bu arvadın yadına düşdü mənim şeirlərim?!..

– Belə də... - Ümumi sözlərlə yayda şeir yazıb-yazmamağım barədə Nabat müəllimənin əttökən sualından mən çalışdım yaxamı qurtarım və diqqət mərkəzini öz üzərimdən yayındırım.

– Bax, Nazim, bala, lap elə bu günlərdə məktəbimizə çox adlı-sanlı yazıçılar, şairlər qonaq gələcək. – Nabat müəllimə üzünə xeyli ciddi bir ifadə verib baxışları ilə sinfi dolanıb gəzdi, partan bir-bir dolaşdı, səsi yenə də ani olaraq cingildədi. – Bilirsiz ki, məktəb 65 yaşını qeyd edəcək. – Bundan sonra onun baxışları yenə orta cərgənin orta sırasında məni tapdı, bayaqkı cingiltili səsi yenə mülayimləşdi. – Nazim, bala, sənə yəqin deyəcəklər Sona müəllimənin adından. Hazırlaş. Bəs siz nə ilə gələcəksiniz məktəbin yubileyinə? – Nabat müəllimə mənə qəribə də olsa anlaşılmaz bir təbəssüm göndərəndən sonra, yəni "səninlə qurtardıq", gözləri yenə partaların arası ilə sürətlə sağa-sola fırlandı və çox keçmədi onun qəzəbli baxışları bir istiqamətdə donub qaldı. Qaşlar yenə ox və yaya çevrildi. Bu dəfə hədəf Aslan oldu. "Failatun"! Deməli, eşitmişdi. Heç nəyi də bağışlamırdı.

– Sən, Aslan, qalx ayağa görüm. Qalx, qalx, xəncərinin qaşı düşməz. Yayda bir de görüm əlinə heç kitab almısan? – Və s. və i.a. düz dərsin

sonunacan. Aslanın sifəti min bir rəngə düşdü və "failatun"un acığı beləcə alınmış oldu.

Dərsdən sonra hamımızın fikri bir oldu: Nabat müəllimə keçənilki sinif rəhbərliyini unutmayıb, elə bilir, bu il də sinif rəhbəri cavan, yaraşıqlı Şərqiyə müəllimə deyil, özüdür. Görünür, bu il bizim işimiz xeyli ağır olacaq.

**Həmən gün. Altıncı dərsdən sonra.**
**Məktəb həyəti.**

... Altı dərs və tənəffüslər azlıq etmişdi. Uzun yay tətilindən sonra hamımızın bir-birinə deyiləsi nə qədər sözümüz vardı. Kim yayı harda, necə keçirdi?! Nə gördü, hara getdi, həyatda maraqlı nə baş verdi?! Çoxumuz yay tətili zamanı bir-birini görməmişdik, əlbəttə ki, bir-birimizçün darıxmışdıq. Bir-birimizin sözünü kəsə-kəsə hər kəs ancaq özündən, öz yay "macəralarından" danışmağa cəhd edirdi:

– Mən isə...

– Qulaq as...

– Yox e... Bilirsən nə gözəl qızlar var orda?!

– qaraldım, bir qaraldım ki, indi-indi keçir.

Bəs mən nədən danışacaqdım?! Bircə mən idim susan. Bunun da səbəbi var idi. Elə ona qulaq asırdım, buna qulaq asırdım. Məktəbin həyətindən uzun müddət dağılışmaq bilmədik.

Mən təşviş içində sentyabrın birinci dərs gününün bitməsindən sonra gözlədim ki, yenə də keçənilki şit zarafatlar, "şairəm çünki vəzifəm budur... ənam alım" kimi atmacalar... Bunu Arif uydurmuşdu və hər dəfə ədəbiyyat xaric bəzi o biri dərslərdən məsələn, cəbrdən, həndəsədən, kimyadan qeyri-obyektiv aldığım yazıq "üç"lərə, "dörd"lərə (əlbəttə ki, bunlar mənim ədəbi "uğurlarımın" məktəb tərəfindən bir növ "cavabı" idi) beləcə mənim arxamca yana-yana istehza edirdi. Yəni şairliyinin hesabına o biri dərslərdə sənə edilən güzəştləri elə bilmə başa düşmürük - eşşək deyilik və çörəyi də ağzımıza yeyirik...

Qəribədi, bu dəfə heç bir atmaca, zarafat olmadı. Elə bil sözləşiblər. Əksinə, hamısı, Arifin özü də mənə nəsə qəribə bir... baxışla baxırdılar, gözlərində istilik vardı...

***Qeyd.* Mən bunu nə zamansa deməliyəm, indi deyirəm. Şeir yazmaq çox asandır mənim üçün. Qafiyəni bildinsə, ritmi tutdunsa dalı asandır. Məktəbin yubileyinə də şeiri artıq yazmışdım. Bu yay ilk dəfə xəstəxanada yatası oldum, boş vaxt çox idi, müayinələr hərəsi gündə bir saat, saat yarım vaxt aparırdı, sonra boş vaxt nə qədər istəyirsən.**

***Sərin, amma balaca palatada tək idim, gün ərzində yanımda həmişə adam olurdu, anam və atam, qohum-qardaş. Amma axşama yaxın tək qalırdım. Belə tək qaldığım axşamların birində necə oldusa məktəb özü özünü mənim yadıma saldı, başladım nə başladım, misra misranın dalınca gəldi, bəzən məndən qaçıb gizləndi, gedib tapıb qulağından tutub saldım "dördlüy"ün içinə, pəncərəyə vurulan bu dörd dəmir milin hər biri kimi cağbacağ dayandılar bir-birinin yanında, ortalarından ancaq balaca bir quş uçub keçə bilərdi, o da xəstəxana həyətindəki ağacın budağında idi, haradan gəlib düşəcəkdi o çəlimsiz quşcuğaz xəstəxananın bu balaca palatasına?!***

***

...İlk dəfə idi ki, gecələr istədiyim yuxunu görə bilirdim. Xəstəxanada yatdığım müddətdə buranın bir xeyri o oldu ki, öyrəşdirdim artıq özümü buna, yəni ürəyim istəyən yuxunu görməyə. Demək olar ki, sifariş kimi idi, hansı yuxunu, hansı məzmunda istəyirdim, özüm-özümə sifariş edirdim (əlbəttə ki, xüsusi üsulu var idi bunun). Ən çox sevdiyim yuxu isə üzməklə

bağlı idi. Elə-belədə üzməyi demək olar ki, bacarmıram. Bax, bizim aramızda əsl üzgüçü İlkindir. Saatlarla üzə bilir - qəribədir. Mən isə "demək olar"-sız da üzməyi bacarmıram, həqiqəti demək lazımdır. Amma yuxuda... Sürətlə, əl-qolumu geniş ata-ata, az qala bütün dənizi qucaqlaya-qucaqlaya hər gecə nə zaman, nə qədər istəsəm üzdükcə üzürəm. Ləzzət eləyir.

**İki gün sonra. Məktəbin həyəti. Birinci dərsə 10 dəqiqə qalmış.**

Mən özümü həyətə yetirəndə birinci Azəri gördüm. Təhər-tövründən başa düşdüm ki, məqsədi nədi - şatal! Üçüncü gün idi məktəbə gəlirdik – artıq "şatal" başlandı demək. Bəlkə də nə zamansa bu gündəliyi oxuyanlar tapılsa, onlar bilməyəcəklər ki, bu söz nə deməkdir. Heç indinin özündə də bu sözün əsil mənasını çox adam bilmir. Kim icad edib onu? İlk şatala gedən kim olub?! Bilmirəm. Bəlkə heç bu söz bizim məktəbin hüdudlarından kənarda biz anladığımız mənada başa düşülmür?! Ona görə də izah edirəm: "Şatal" dərsdən qaçmaq deməkdir.

***Qeyd.* Bir dəfə Nabat müəllimə dedi: şatal – "шататься" sözündəndir. Siz hamınız... – düşündü, düşündü, sonra qəribə bir söz tapdı, – səndirləyirsiniz, – dedi. Mariya Semyonovnadan soruşduq, təsdiqlədi.**

Özü də "şatal" bir dərsdən yox, buna müəllimlər "dərsdən yayınmaq" deyirlər, şatal bütün dərs gününü aradan çıxmaq deməkdir. "Aradan çıxmaq" - bunu da biz deyirik. Hər halda bizim 10"b" sinfinin anlayışında şatal bütün günə bərabərdir. Şatal bizim üçün azadlıq deməkdir. Şatal sabah nə olacağını, təkrar edirəm, bu gün yox, sabah nə olacağını düşünməmək deməkdir. "Nə isə" isə hökmən olacaqdı – Nabat müəllimə – o, keçən il bizim sinfimizə sinif rəhbəri təyin edilmişdi, bütün keçən ili bizə qan uddurdu. Çox az oldu ki, qorxusuz, düz-əməlli şatala gedə bilək. Daha bundan böyük bədbaxtçılıq ola bilməzdi – qaşlar düyün-düyün – iki yalın qılınc kimi, sinif iclasları, açıq-saçıq ifadələr eynən məhkəmədəki kimi və s. və i.a. Bu-

nun əksi şatal isə – tam azadlıq idi. Kino – birinci seans! Prodmaqdan ("Azərbaycan" kinoteatrının yanındakı böyük ərzaq dükanı) alınmış buterbrodlar, fransız bulkası, arasında da nazik, bu tərəfindən baxanda o biri tərəfi görünən kolbasa dilimləri! Qarın açırdıq seansda elə bil. Bu buter-bordları yeyə-yeyə baxanda kino da gözəlləşirdi. Kinodan sonra isə bulvar – qızlı, oğlanlı (baxır şatala necə adam gedir) əl-ələ verib kölgəli bir bucaq tapıb orada "əldəntutma" oynamaq. Bu oyunun mənası belədir: oğlan-qız əl-ələ yapışıb bir-birinin arxasında canlı tunel yaradırdıq. Bir nəfər tək qalır. O gəlib əyilə-əyilə bu canlı tunelin içindən keçir və seçdiyi qızın əlindən tutub gedib sırada axırıncı durur. Bu biri tək qalmış oğlan gəlib bu dəfə tuneldən bu keçir.

***Qeyd.* Mən keçən il həmişə Onun əlindən tutub aparmaq istəmişəm. Amma... olmaz. Etməmişəm. O da mənim əlimdən tutmayıb. Biz hətta onunla il boyu gün ərzində danışıb da eləmirik. Elə-belə. Bəlkə hansısa ümumi sözlər... "Hə – yox". "Salam. Sağ ol". Telefon zəngləri xaric. Amma məndən gizlədə bilməz. Mən hiss eləmişəm.**

***Mənimlə üz-üzə gələndə bütün vücudu tarıma çəkilir, gərginliyi artır, üz-gözünə bir qəribə, süni biganəlik gəlib maska kimi yapışır. Mənim isə... ürəyimin səsini qulaqlarımda eşidirəm. 9-cu sinifdə yazdığım bütün sevgi şeirlərimi ona həsr eləmişəm. Onsuz hər şey boşunadı, hər şey.***

...Azər məni görəndə elə bil sevinən kimi oldu. Hər halda mənə belə gəldi. Azər dedi:

– Aslanı gözləyirəm. Gedirsən bizimlə şatala?

– Şatal? Dərs başlayanı üçüncü gündü - xəbərin var? Hara gedirsiz?

– "Azərbaycan"a. Dünəndən şərtləşmişik. Sən "Samurayları" görmüsən?

– Yox, görməmişəm. – Mən düşündüm ki, əcəb ilişdim. Getsəm birinci dərs cəbrdi – dünən evdə bütün axşam məsələ əzbərləmişdim – deməli, o məşəqqətim boşuna gedəcək. Əgər "şatala" getməsəm (həvəs həmişə olmur) – bunlar sonra keçən ilki kimi yenə məni zorla da olsa özləri ilə aparmaq üçün yeri gəldi-gəlmədi başlayacaqlar: "Şairəm, çünki vəzifəm budu... dərsə gedim". "Samuraylar" da maraqlı tilovdur. Gedim, getməyim?! Gedim, getməyim?!

Amma yox, heç indi də, sonra da mənimlə heç bir şit zarafata-filan başlamadılar. Neçə gündü sakitlikdir. Keçənilki atmacalar, zarafatlar (bir dəfə yazdığım şeirə yüngülvari, o da paxıllıqdan rişxənd etdiyi üçün Səbuhi ağzının partlaması ilə cavab vermişdi) bütün bunlar kiminsə möcüzəli çubuğunun işarəsi ilə deyəsən birdəfəlik yox olub uçub getmişdi. Burda nə isə bir sirr var.

Azər mənə baxıb cavab gözləyirdi. Gözlərindən görürdüm ki, çox istəyir mənim də şatala getməyimi. Amma həm də istəmir. Nə üçün belədir – keçənilki şatalların ruhvericisi mən deyildim məgər?! Bəyəm mən deyildim onları Nabat müəllimədən qorxmamağa ruhlandıran?! Bütün söz baqajımı işə salırdım. Mənsiz şatal olurdu bəyəm?! İndi isə mən açıq-aşkar görürdüm ki, Azər nəsə tərəddüd edir. Gözlərindən görürdüm. "Niyə"sini isə bilmirdim. Və bu məni üzürdü. Eybi yox, əvvəl-axır öz-özünə bu sirr də açılacaq...

– Gedirəm. - Mən tərsliyə düşdüm. "Amma evdə bilsələr..."

***<u>Qeyd:</u> "Ev" yazdım, atamın da, anamın da, hətta balaca bacımın da son zamanlar nəsə xətrimə heç dəymək istəmədiklərini xatırladım.***

***Xüsusən, bacım Fidan. Mən evdə olanda başıma fırlanır – gün haradan çıxıb, görəsən?! Əvvəllər xırda dəcəlliyim üçün,*** sözə ***baxmamağım üçün saatlarla üzü danlanan mən indi evdə "sahibi-dövran" olmuşdum.***

Az qalmışdı, bir azdan zəng çalınacaqdı.

– Onda gəl çəkilək o tərəfə. - Azər nigaran- nigaran yola boylanıb başı ilə qonşu məktəbin balaca, dar həyətinin yanındakı bağçaya işarə elədi, Aslan ora gələcək. Üçümüz olarıq. Başqa bir adama gəl deməyək.

Aslan birinci dərsin zəngi çalınıb bitəndən az sonra təngnəfəs özünü yetirdi. Mənə təəccüblə baxdı, yəni "sən burda neynirsən, sənə niyə dedi Azər?".

–Sən də gedirsən? – Mənə elə gəldi, Aslan bunu şübhə ilə, həvəssiz soruşdu.

–Mən də gedirəm, – deyə mən tərs-tərs cavab verdim.

– Bəlkə...

– Gedir, o da gedir. Getdik. – Azər məktəb tərəfə boylanıb qabağa düşdü.

Biz Monolit adlanan binanın qarşısındakı Nizami heykəlinin yanına qədər görən olmasın deyə arxamıza, yan-yörəmizə baxa-baxa az qala birnəfəsə gəldik. Sonra daha qorxunu atdıq bir kənara, xeyli sərbəstləşdik. Artıq heykəlin yanından bir az da aşağı gedib Nizami muzeyinin küncünə çatanda kənardan baxan bizim ən azı yerişimizdən də başa düşərdi ki, heç bir işimiz-gücümüz yoxdur, avara-avara gəzib vaxt öldürürük.

– "Azərbaycan"da saat 9-dadı birinci seans. – Aslan dedi.

– Neyləyək? - Azər soruşdu və mənə baxdı.

– Gedək Prodmaqa? Məndə pul var. – Cibimdəki xırdalı-böyüklü qəpikləri təsəvvürümdə ancaq üç buterbroda və üç stəkan kakaoya çevirə bildim.

– Məndə də bir az var. – Aslan əlini cibinə salıb dilləndi.

– Onda getdik...

Nizami muzeyinin yanından sağa burulduq. Bu da qəm-qüssə içində oturmuş Natəvanın heykəli. Alasında da "Azərbaycan" – şatallar məskəni! Biz "Azərbaycan" kinoteatrına yaxınlaşdıq. Elə oldu ki, mən gözüm divardakı kino-vitrində qaldığı üçün Azərlə Aslan məndən bir azca qabağa düşdülər və bir an mənə belə gəldi ki, onlar mən eşitməyim deyə tələsik nə isə bir-birilə xosunlaşdılar. Sonra Aslan qəflətən mənə tərəf döndü:

– Nazim, sən incimə, bəlkə... sən qayıdasan məktəbə? Biz heç, biz dəvəsi ölmüş ərəbik.

Bu sözləri Aslan dedi. Azər isə pərt halda susub durmuşdu. Bunlara yenə nə oldu? Niyə mənim qeydimə belə qalırlar?

Mənim pörtmüş sifətimə baxıb deyəsən hər ikisi başa düşdü ki, qələt eləyiblər. Günahkar bir halda susdular, sonra nə düşündülər, nə düşünmədilər, bir-birilə ani baxışdılar və elə bil birdən- birə onların da çiyinlərindən daş götürüldü.

– Getdik. Nə olar, olar. Amma bax, sonra bizdən şeir yazmayacaqsan ha... - Aslan zarafata salıb güldü və guya ki, zarafatla mənim əlimdən qaçıb gedib girdi Prodmaqa.

– Bəsdi də, sən yenə gic-gic danışırsan?! - Bu dəfə Azər Aslanın arxasınca çımxırdı və biz hayla-küylə Aslanı təqib edərək özümüzü Prodmaqa buterbrod və kakao almağa dürtdük.

**Bir gün sonra. Üçüncü dərs. Ədəbiyyat dərsi yerinə sinif iclası.**

– Siz bilirsiz, sizin yeriniz hardadı? Bilirsiz, bilmirsiz? Çayxanada! Sizin yeriniz məktəbdə deyil! Çayxanadadı...

Kim isə bizi satmışdı. Nabat müəllimə böyük bir həvəslə dünənki "şatal" hadisəsini ədəbiyyat dərsi əvəzinə keçirdiyi sinif iclasında müzakirə edirdi.

***Qeyd.* Əslində onun artıq belə müzakirələr aparmağa ixtiyarı çatmırdı, o bunu keçən il kefi istəyən qədər eləmişdi. Bu ilki sinif rəhbərimiz Şərqiyə müəllimə isə cavan müəllimlərdən idi. Nabat müəllimə bəlkə də elə buna görə özünü hələ də bizdən sarı cavabdeh hiss edirdi.**

Bütün dərs, demək olar ki, bu ağır "cinayətə" həsr olunmuşdu. Əsas qəzəbini isə Nabat müəllimə Azərin və Aslanın üstünə tökürdü. Mən deyəsən onun yadından çıxmışdım. Birdən qısa bir müddətə mən də yada düşdüm.

– Bu... fağırı da qoşmusuz özünüzə. ("Fağır?!") Onu da öz mənfi təsirinizin altına salmısız. Bəli, bəli, siz! Siz ikiniz! Nazimin yenə fitri istedadı var, bəs sizin nəyiniz var, ay yazıqlar, siz nəyə arxayınsınız? Heç utanırsınız? Yenə keçən ildəki kimi payıza qalmaq istəyirsən, Aslan? Yenə qovulmaq istəyirsən, Azər? Nolar, nə istəyirsiz edin. Görüm mən ki ya, siz məktəbi necə qurtaracaqsınız?!

O biri uşaqlar böyük maraq içində cəzanın nədən ibarət olacağını gözləyirdilər. Onlar üçün vacib olanı bu idi: Cəza! özün günahsız olanda başqasının aşağıdan yuxarı, yuxarıdan aşağı danlaq çirkabına bulaşmasına rahat-rahat parta arxasında oturub tamaşa etməkdən gözəl nə ola bilərdi?! Bizim Nabat müəllimə aparan sinif iclaslarımız dəhşət maraqlı olurdu. Bir şərtlə ki, özün günahkar olmayasan. İndi də ən böyük cəza gözləyirdi şatalçıları. Hansı idi bu cəza? Məsələn, valideynin məktəbə çağırılması ən böyük cəza idi. Bundan dəhşətli heç nə təsəvvür edə bilmirəm. Amma yox. Bundan dəhşətli bəlkə o ola bilərdi ki, Sona müəllimə, direktor özü valideyni çağıraydı. Bu həqiqətən əsl dəhşət idi. Bircə bu olmayaydı... Bu dəfə Allah üzümüzə baxdı, bizim cəzamız gözlənilməz şəkildə bir balaca yüngül oldu.

– Sabah valideynsiz məktəbə gəlmirsiz! Valideynləriniz mənim yanıma gəlsinlər! – Nabat müəllimə "mənim" sözünü xüsusi vurğuladı, qaşları qəzəblə qalxıb endi, dediklərinə beləcə yekun vurdu və bu zaman səsindəki amiranəlik yenə ən yüksək həddə çatdı. Zəng də təsadüfdən hamını diksindirərək elə bu zaman vuruldu.

Uşaqlar sakitcə, Aslan, Azər və mən isə suyu süzülmüş halda bir-bir sinifdən çıxarkən Nabat müəllimə məni saxladı. Mən onun oturub nazik şagird dəftərlərini sahmana saldığı masaya yaxınlaşdım. Nabat müəllimə oturduğu yerdəcə yavaş səslə mənə belə dedi:

– Yaxın gəl. Ay Nazim, bax, bir də səni belə hərəkət eləyən görməyim. Sən bu tüfeylilərə niyə qoşulmusan? Mən bilirəm, bunlar səni... (söz tapa bilmədi). Belə elə. Sən evdəkiləri narahat eləmə. Onlara bir söz demə. Amma mən səndən gözləməzdim. Get, özün-özünçün nəticə çıxart.

Mən mat və məətəl qaldım. Əslində heç bir şey başa düşmədim. Niyə mənim valideynim məktəbə çağrılmasın?! Nə üçün Nabat müəllimə mənə belə güzəşt edirdi?! Azərlə və Aslanla təcili məsləhətləşmək lazım idi. Birdən elə bilərlər (əslində heç zaman elə bilməzlər, amma yenə də...) məsələ mən tərəfdən açılıb. Mən kor-peşman halda sinifdən çıxıb pilləkənlərlə aşağı düşdüm. Gördüm ki, həyətdə heç kim qalmayıb, uşaqlar artıq dağılışıblar. Arxadan mənə məktəbin qapısında haradansa qaçaraq gəlib Aslan çatdı. Yaman tələsirdi, özü də həyəcanlı idi. Gedə-gedə ancaq bunları dedi:

– İlişdik! Mən sənə dedim qayıt məktəbə?! Dedim, demədim? Gördün, sən də ilişdin. Mən bilirəm bizi kim satıb. Hayıf. Sonra sənə deyərəm. Sonra...

Bu sözləri birnəfəsə dedi və qaçıb getdi. Səsində zərrə qədər rişxənd yox idi. Həyəcan və peşmançılıq var idi. Mənim əvəzimə. Amma rişxənd, kinayə yox idi. Bəs axı Aslan tamam başqa cür danışmalı idi... Keçənilki kimi. Təxminən bu cür.

**<u>Keçən il. Yay tətilinə 10 gün qalmış.</u>**
**<u>Sabir bağı. Qala divarlarının yanı.</u>**
**<u>Şatal zamanı.</u>**

Aslan bu sabah nədənsə hirsli idi və xeyli müddət acı-acı məhz mənə baxmağında idi. Səbəbi mənə məlum deyildi. Xeyli sonra səbəbini özüm özümçün belə aydınlaşdırdım. Yəqin, bu münasibət mənim Səbuhinin vurub ağzını partlatdığım üçündür. Mənə hamının yanında "şair, necəsən?" demişdi. Səsində bir balaca lağ hiss eləmişdim. Dodağından xeyli qan gəldi.

Aslan Səbuhinin havadarı sayılırdı və həmişə onun tərəfini saxlayırdı, əvvəl-axır o məndən bu hadisənin hayıfını çıxmaq istəyəcəkdi. Sinifdə nüfuz itirmək olmazdı. Nəhayət, Aslan şatal zamanı rişxəndlə mənə dedi:

– İndi ədəbiyyat dərsi olacaq. Nə işin var sənin burda? Zərbəliyə sonra nə cavab verəcəksən?

Provakasiya! Səbuhi o tərəfdə kirimişcə durmuşdu. Aslan isə əməllibaşlı məni qızışdırmaq istəyirdi. Özünü bəlkə də Səbuhiyə göstərirdi. Mən qəzəbimi içimə salıb hələ ki birtəhər susdum. Bir az da artıq-əskik danışsay-

dı, dava eləyəcəkdim. Hamının yanında buna bir bax, gör nə deyir?! Amma əslində nə bir kənarda oturub dedi-qodu edən qızlar, nə də siqareti siqaretə calamağa başları qarışmış oğlanlar onun sözlərinə məhəl qoymadılar.

– Nə işin var onunla? - Natiq mənə qahmar çıxdı. – Siqaret çəkirsən?

– Ver, – dedim.

– Amma mənsiz, bax a, bu siqaretləri gəlib burdan götürdü – yoxdu! – Natiq Sabirin heykəlindən bir qədər aşağıda və sağda, qala divarlarının hansısa daşının altında, ya da yanında bir oyuqda həmişə gizlətdiyi qəşəng, xarici siqaret paçkalarından yana niyarandı. Bu sözləri demək olar ki, hamıya deyirdi. Natiqdə həmişə pul olardı, o, "Azərbaycan" kinoteatrının "ştatlı" əlavə bilet satanı idi. Axşam seanslarına satdığı biletlərdən qazandığı pullan da Natiq deyəsən elə siqaret paçkalarının arasında, bu oyuqda gizlədirdi. Bizim isə vaxt-bivaxt çəkdiyimiz siqaret "yerli" maldan başqa bir şey olmazdı.

– Bu öz mal-dövlətindən niyarandır. – Kimsə atmaca atdı.

– Camaat qızıl gizlədir, mal-dövlət gizlədir, sən də gör nəyin dərdini çəkirsən... - Bu sözləri elə bil mənim ürəyimdən keçənləri duyub qara Ziba o tərəfdən dedi. Gülüşdük. Aslan isə hələ də yumşalmamışdı:

– Eşitdin Natiq deyəni? - Aslan bu dəfə az qala gizli bir təhdidlə məndən soruşdu.

– Sən ağlını itirmisən? - Mən onun bu cür gizli təhdidinə lap elə açıq təhdidlə cavab verdim və ağzımı açıb bir az da dərinə gedəcəkdim ki... İkimiz də oturduğumuz daş skamyadan ayağa qalxdıq.

– Aslan, nə istəyirsən sən səhər-səhər camaatdan? Sakit ol. Qurtarın mübahisələri. – Arzu işə qarışmasa idi, mübahisənin nə ilə bitəcəyi məlum deyildi.

– Ayıb deyil sizə?..

– Qoyun yaşayaq da... – Daş oturacağa yayxanmış Qənirə də o tərəfdən uzatdı.

– Yaxşı, qalsın sonraya. – Mən hirsimi güclə cilovladım.

– Yaxşı, yaxşı... qurtarın.

Demə, qızların bir qulağı burda, biz oğlanların arasında gedən söhbətdə imiş. Arzunun isə həmişə qulağı da, gözü də Aslan olan yerdədir. Aslan Arzunun sözlərindən sonra altdan-altdan məni süzüb quzu kimi səsini kəsdi. Bircə Səbuhi pərt olub oturduğu yerə necə mıxlanmışdı, elə də axıracan qaldı.

Bu hadisə keçən il olmuşdu. Biz Aslanla qısa bir müddət küsülü qaldıq, sonra yenə həmən yerdə Arzu və Qənirə barışdırdılar bizi. Səbuhi bu zaman yenə də az qala paxıllığından partlayırdı, amma başını aşağı salıb ağzına da su alıb bir kəlmə söz danışmadı, ölsəydi, yenə taxsırını boynuna almazdı. "Xala, xətrin qalmasın" özüm əl uzadıb onunla da barışdım. Sevindi. Bunu Aslan da qiymətləndirdi, "düz elədin sən" dedi. Daha sonralar Aslanla mənim aramızdan bu günə qədər su keçmədi.

**Bu gün. Axşam saat 9-un yarısı.**
**Aslana necə kömək eləməyi düşünürkən.**

Hər şey necə sürətlə dəyişir. Dünənki Aslan bugünkü Aslan deyil. Təkcə Aslanmı? Bütün sinif, məktəb dəyişib. Müəllimlər dəyişib. Evdəkilər dəyişib. Adamın az qala gülməyi, yox... qorxmağı gəlir. Niyə belə olsun? Aslandan bu gün soruşdum ki, bizi satan kimdir, yenə demədi, "özüm onunla ayırd edəcəyəm, sənin işin yoxdur", – deyə cavab verdi. Bu niyə məsələni az qala sirrə döndərib? Sonra mənə bunu dedi:

– Sən şeiri yaz. Yazdın məktəb haqda şeiri?

– Yox, hələ yazmamışam.

– Bəs yaz da. Zərbəli müəllim sənə bir söz demədi?

– Yox...

– Mən bu il heç inanmıram, bu adam mənə qiymət versin. Mən bu il batdım. Şərqiyədən bir təhər keçərəm. Zərbəli – çətin. – Aslanın kədəri sonsuz idi, dərdini mənə açırdı, sinifdə qala bilərdi. Zərbəli müəllimin nə isə tutması tutmuşdu ona qarşı.

Zərbəli müəllim Aslanın adını "pəncərə" qoymuşdu. Nə zaman onu dərs danışmağa çağırsaydı, Aslan ayağa qalxaraq üzünü yanında oturduğu pəncərəyə dikib susardı.

– Pəncərə! Sən gün olacaq ki əlinə bir dəfə kitab alasan? Elə üzün pəncərədən dönməyəcək sənin? İki!

– Darıxma, bu məsələni mən həll edərəm.

– Mən birdən Aslana dedim.

– Doğrudan? – Aslan inanmaq istəmədi.

– Necə?

Özüm bilirdim ki, necə?! Söz idi, gəldi, dedim. Zərbəli müəllim mənim xətrimi çox istəyir, uzaq başı bir dəfə kefinin kök olan vaxtına salaram, deyərəm ki, Aslanı ədəbiyyatdan mən hazırlaşdıracağam, daha başqa nə deyə bilərdim ki?!. Şeir yazıb Aslanın adından vermək də olardı. Amma bu lap ağ olardı, Zərbəli müəllim "Pəncərə"nin birdən birə şeir yazmağına heç inanmazdı.

– Aslan soruşduğu şeiri isə mən artıq yazmışdım.

**Həmən axşam. Evdə. Saat 9 tamam.**
**Onun telefon zəngini gözləyə-gözləyə.**

Məktəbimiz haqda yazdığım şeir bu idi:

**Əziz məktəbim**

Sən öyrətdin oxumağı, yazmağı,
Məktəb, bizi qucağında bəslədin.
Sən öyrətdin sevməyi, yaşamağı,
İşıqlı bir gələcəyə səslədin.

***

Yaratmaq istədik, duymaq istədik,
Hər bir işimizdə göstərdin qayğı.
Elmin qucağına birgə atıldıq,
Bu həyat sevməyir avaralığı.

***

Sən işıq doldurdun gözlərimizə,
Bala da anadan heç ayrılarmı?
Həyatın sirrini öyrətdin bizə,
Sənin qucağından isti yer varmı?

***

Dedin hər kəs bir iş sahibi olsun,
öyrətdin sevməyi vətənimizi.
Qoy sinən hər bir vaxt vüqarla dolsun
İnsanlıq sənətə səsləyir bizi.

***

Əziz müəllimim, əziz məktəbim,
ötüb keçsə belə nə qədər illər,
Səni unutmarıq bircə an da biz,
Həm gedən, həm də ki gələn nəsillər.

Gərək sabahda, birigündə bu şeiri Zərbəli müəllimə göstərim. Həmişəki kimi nə yazıramsa ona göstərirəm, bu dəfə də elə. Guya ki, yubileydən-zaddan xəbərim yoxdur. Görək hələ nə deyəcək, şeirə necə qiymət verəcək?! Xoşuna gələcəkdir, bilirəm. Hələ olmayıb ki, mənim ona verdiyim şeiri bəyənməsin. Papirosunun tüstüsünü ağzının yanından kənara püflədə-püflədə mehriban-mehriban gözucu mənə baxaraq deyəcək: "Mirzə Nazim, yaxşıdır, mən səni özümlə deyəsən televiziyaya aparmalı olacağam. Bu şeiri də oxuyarsan orda". İki ildi televiziyaya gedirik, gedirik, gedib çıxa bilmirik. Görək bu il nə təhər olur?!

Saata baxıram: əqrəblər doqquzu göstərir. Yadıma düşür ki, dünən məktəbdə Uzunla danışıb şərtləşdik ki...

***Qeyd. Demək olar ki, sinifdə hərəmizin bir ləqəbi var. Hətta mənim ləqəbimi Zərbəli müəllim özü***

*qoyub, bunu o biri müəllimlər də bilir. Mənim ləqəbim Mirzə Nazimdir. Çoxlu bədii ədəbiyyat oxuduğuma görə. Yəni mütaliəmə görə.*

*Eləsi də var ki, məsələn, boyuna görə ləqəb qazanıb. "Uzun"un adı Nurulladı, qoca-fəndi addı, buna görə də hamımız onu "Uzun" çağırırıq, boyu hamımızdan uzundur.*

*Bir dəfə Azər dedi: "Bunun ağlı boyundadı, uzundraz-beynəmaz, xeyrə, şərə yaramaz..." Amma yox, sakit, başıaşağı oğlandı, hamının dərdinə yanandı. Sadəcə boyu uzundu, özünün nə günahı?!*

Uzunla şərtimiz belə idi. Evdə mən Uzunu, Uzun məni nə zaman xatırlasa, saata baxacaqdıq görək, bu ayrı-ayrı məkanlarda baş verən xatırlamalar həm də eyni zaman ərzində baş verir, ya yox?! Bu məsələ necə olmuşdusa gəlib girmişdi beynimə və məni yaman düşündürürdü. Mənə elə gəlirdi ki, insanlar arasında onları uzaq məkanlarda belə birləşdirən gizli, gözəgörünməz biotok cərəyanlar var. Bu cərəyanlar eyni vaxtda işə düşürlər.

Mən Uzunu xatırlayanda saat 9-dur. Sabah məlum olacaq, o məni saat neçədə xatırladı. Ümumiyyətlə xatırladı, ya yox.

Artıq yorulmuşam.

Bu günlük dəftər-kitab bəsdi, qurtardıq, yorulub lap əldən düşdüm. Evdə görüm telefonla danışan yoxsa, bircə Ona zəng edim. Bununla da - bu günlük qurtardıq.

Yatmağa gedirəm. Yoxsa gec qalanda səhər tezdən yuxudan ölə-ölə dururam. Mən yazıq. Evdən trolleybus dayanacağına. Trolleybusdan sonra məktəbə piyada!

Telefonda isə... bir azdan yenə də mən susacağam, O susacaq. Ürəyimizdə danışacağıq bir-birimizlə: "Salam". "Necəsən?"... Neçə müddətdir ki, biz bu cür səssiz "danışırıq" bir-birimizlə. Bax, belə:

– "Salam".

– "Necəsən?"

– "Belə də."
– "Sabahkı cəbri öyrənə bildin?"
– "Öyrəndim, anam kömək elədi."
– "Bəs sən?"
– "Mən yox... Sabah yenə Şərqiyə "iki"ni yapışdıracaq."
– "Sən də bu şeiri yaz qurtar da..."
– "Yazdım."
– "Təbrik! Daha nədən qorxursan?"
– "Heç nədən."
– "Yaxşı gecən xeyrə."
– "Gecən xeyrə."
– "Başqa sözün yoxdu?"
– "Yox... Var."
– "Yox, yoxdu."
– "Gecən xeyrə!"
– "Alo..."

Təxminən bu cür bir o qədər də uzun olmayan söhbət həcmindəki sükutdan sonra mən telefonun dəstəyini yerinə qoyacağam. Amma telefonun yanından uzaqlaşmayacağam. Bilirəm. Beş-on saniyədən sonra – nə az, nə çox – mən buna əminəm – bu dəfə bizim telefonun zəngi çalınacaq. Mən dəstəyi götürəcəyəm. Xəttin o biri başında isə yenə də susacaqlar. Bu dəfə də elə oldu:

– Alo!

İndi də o tərəfdə sükut var. O da susur.

– "Deməli başqa sözün yoxdu?"
– "Var."
– "Buyur”
– "Bir daha gecən xeyrə qalsın."

Və kəsik-kəsik telefon səsləri. Ürək döyüntüsü kimi. Bu son zəngin mənası o idi ki, mən bilirəm, sənsən mənə zəng edib dəstəyə susan, əslində "susmayan". Sən də bil: bu da mənəm. Biz onunla bir-birimizi belə sorğu-suala demək olar ki, hər axşam çəkirik.

Hər dəfə belə "söhbət"dən sonra beynimə hardansa gəlib bu sözlər girir:
Telefonun səsi aramsız,
Telefonun səsi kəsik...
Qulağıma ürəyin tək döyünür tez-tez.

**Sabahkı gün. İkinci dərsdən sonra.**
**Birinci mərtəbədəki idman zalına (üçüncü dərs idman dərsi idi) gedən zaman.**

Uzun da, mən də bir-birimizə baxıb elə bil nəsə yadımıza düşdü, ikimiz də birdən-birə soyunma otağında bir-birimizin yanında boş yer axtarmağa başladıq, tapdıq, paltarlarımızı yanaşı soyunub divardakı yanaşı asqılarda asdıq. Gözlədik, nəhayət hamı idman paltarını geyinib soyunma otağından çıxdı, otaqda lap axıra biz qaldıq. Axırıncı Natiq çıxdı otaqdan (fürsət tapıb yenə otağı tüstüyə döndərmişdi, hardansa əzik- üzük bir siqaret tapıb bir-iki qullab vurmuşdu).

– Noldu? – Uzun səbirsiz soruşdu.

– Səndə saat neçə idi? – Mən suala sualla cavab verdim.

– Saat 6 idi. 7-yə beş dəqiqə işləyirdi.

– Yox, alınmadı. Məndə 9-dan keçmişdi. – Mən təəssüf etdim. Uzun isə deyəsən əməlli-başlı dilxor oldu.

**Həmən gün. Axşam. Evdə.**
**"Hamı boydayam, yoxsa bir sən hamıdan ucayam?" sualı qarşısında.**

Nəhayət, hər dəfə gəlib beynimə zorla girən o misralar bu gün yeni bir şeirə döndü. Onunla telefon söhbətlərimizə həsr olunmuş şeirə. O şeir budur:

Sözlərin aramsız,
sözlərin kəsik...
Ürəyin də döyünürmü tez-tez?
Qırıldım, dağıldım çəkildi duman, sis...
Hamı boyda yenə özüm qaldım.

Bir sən uca idim mən başqalarından axı.
Görən kim qaldım
başqalarından bir ümid də kiçik?!
Telefonun səsi aramsız,
telefonun səsi kəsik.
Qulağıma ürəyin tək döyünür
tez-tez...

**İki gün sonra. Böyük tənəffüs.**
**Müəllimlər otağı.**

Müəllimlər otağında bizdən başqa heç kim yox idi. Məni bura çağıran Zərbəli müəllim fürsətdən istifadə edirdi, otaqda adam olmadığına görə rahat-rahat papirosundan yağlı bir qullab vurub tüstünü topa bulud kimi ağ saçlarının yanından əlinin dalı ilə qovaraq üzü tavana yönətdi.

– Mirzə Nazim, gəl, keç bura, əyləş. – Məni yanında otuzdurdu və papiros çəkməyini bu cür "bəraətə" çıxardı. – Mənim papiros çəkməyimə fikir vermə, dişlərim ağrıyır, onunçün çəkirəm, bir az ağrı yüngülləşir. İndi mənə qulaq as. - Zərbəli müəllim mətləbə keçdi. – Səni niyə çağırtdırdım?! Məsələ belədi, iki gün vaxtın var, məktəb şeiri yazmalısan. Bu gün həftənin ikinci günüdür, beşinci gün axşam biz səninlə televizora çıxırıq. Məktəbimizə, bilirsən də, orden veriblər, o münasibətlə. Aydındır?

Zərbəli müəllim çox arxayın danışırdı. Əlbəttə, mən sarıdan idi arxayınçılığı. Elə bil arxayındı ki, Nazimə nə var, gedib oturub ilhamını işə salıb ikicə günə şeiri yazıb gətirəcək. Onun bu arxayınçılığı elektrik cərəyanı kimi mənə də keçdi. Elə bil mənim bədənimə doğrudan da tok buraxdılar. Coşub daşmağa başladım.

Məktəbdən evə qayıdan zaman elə trolleybusdaca beynimdə misralar gəlib bir-birinin yanında mil kimi durdular. Bircə yadımdan çıxmayaydılar, evə çatıb onları dəftərə köçürə biləydim.

Evə özümü necə çatdırdım, bilmədim. Yadımdan çıxmamışdılar misralar. Evə çatan kimi üst-başımı da dəyişmədən yazı masamın üstünə çöküb elə ayaqüstə tələs-tələs yazdım bir varağa şeiri. Anam bir az qorxdu,

dalımca otağa keçib görəndə ki, bu vəziyyətdə yazı yazıram, qorxusu keçdi. "Hamıya şeir yazdın məndən başqa" yarızarafat gileyləndi. "Bunu düz deyirsən, nəzərə alarıq" — dedim. Uf!.. Alındı deyəsən. Sabah. Sabah hökmən aparıb verəcəyəm Zərbəli müəllimə. Görüm nə deyir?! Amma yaxşı ki, ordenli məktəbə layiqli şeir alındı, nə düzdü, düzdü. Xüsusilə də son iki misrası. Sonluqdan çox şey asılıdır. Sonluq gərək güclü ola, gözəl ola. O şeir budur:

**Məktəb**

Doqquz il səninlə bir addımlayıb
Hər ikimiz tanış yollarla getdik.
Candan sevdiyimiz müəllimlərlə
Elmin sarayına hücum da etdik.

***
Sən işıq doldurdun gözlərimizə
Bala da anadan heç ayrılarmı?
Həyatın sirrini öyrətdin bizə
Sənin qucağından isti yer varmı?

***
Başımız üstündə yanan günəş tək
Sən işıq verərək gözlərimizə,
Doğma ana kimi, ey əziz məktəb,
Doğru yol göstərdin həyatda bizə,

***
Sənə nə gözəl söz desəm yeridir
Qoynunda duymadım nə kədər, nə qəm.
Sanma ki, aldığın nişan yenidir
Mən onu döşündə çoxdan görmüşəm.

***<u>Qeyd.</u> Bu şeir məktəb haqqında yazdığım o biri şeirə bənzəyir – deyəcəksiniz. Bəli, bənzəyir. Əslində əsas şeir budur. Əvvəlkinin ayrı-ayrı uğurlu misralarından isə mən istifadə eləmişəm, onları bu əsas şeirin içinə salmışam. Məncə alınıb!***

**<u>Həmən günün səhəri. Məktəb. Üçüncü mərtəbə. Böyük tənəffüs.</u>**

Mən səliqə ilə üzünü bir varağa köçürdüyüm bu "möhtəşəm" şeiri Zərbəli müəllimi üçüncü mərtəbədə taparaq üzümə son dərəcə təvazökar bir ifadə verib ona təqdim elədim. O da tələsmədən elə ayaqüstəcə, hansısa sinfə girəcəkdi, sinfin qapısı ağzında, mənim yanımda şeiri oxudu, gözlərinin parıldamağından gördüm ki, şeir ona ləzzət verib. Amma tərifləməkdən vaz keçdi. O, ümumiyyətlə münasibətini sözlə deyil, əməllə bildirənlərdəndir.

– Yaxşıdı, Mirzə Nazim, yaxşı yazmısan. Hazır ol. Verilişdə elə bu şeiri də oxuyarsan. Mən sənə sabah deyəcəyəm, hara gəlməlisən.

"İndi deyim, ya sonra?"

Beynimdən keçən bu sözlər idi. Aslanın məsələsini həll eləmək istəyirdim. Amma ürək eləmədim. Zərbəli müəllim heç nədən qızışıb hirslənə bilərdi. Düşündüm ki, tələsiyə salmayım, qoy qalsın sabah televiziya verilişindən sonra demək daha yaxşı olar. Verilişdən sonra mən, təbii ki, bütün məktəbdə qısa bir müddətə də olsa 1 N-li qəhrəman olmalıydım.

***

Beynimdən keçən bu sözlər idi. Aslanın məsələsini həll eləmək istəyirdim. Amma ürək eləmədim. Zərbəli müəllim heç nədən qızışıb hirslənə bilərdi. Düşündüm ki, tələsiyə salmayım, qoy qalsın sabah televiziya verilişindən sonra demək daha yaxşı olar. Verilişdən sonra mən, təbii ki, bütün məktəbdə qısa bir müddətə də olsa 1 №-li qəhrəman olmalıydım.

...Mənə hərdən elə gəlir ki, mən bu dünyada yaşamıram. Mən başqa bir dünyada yaşayıram. O başqa dünyada da məktəb var, o başqa dünyada da hər şey bu dünyada olan kimidir, amma həm də bu dünyada olan kimi deyil. O başqa dünyadakı başqa məktəbdə bir başqa Zərbəli müəllim mə-

nim xahişimlə bağlı hansı qərara gələcəkdi?! Bunu mən iki gündən sonra biləcəyəm. Amma bir şey yüz faiz aydın idi ki, burada hansı qərar olacaqsa, orada, o başqa dünyada bu yox, başqa bir qərar olacaqdı.

**Televiziya verilişindən sonra. Evdə. Axşam saat 9 tamam.**
**Bizim həmişəki lal "söhbətimiz" və nigarançılıq.**

Telefon bu dəfə səsini astaca çıxardı. Buna qədər telefonumuz düz bir saat haray-həşirlə susmaq bilməmişdi. Uzaq-yaxın qohumlar, dostlar, qonşular... Artıq evdə də, telefonla da bütün təbrikləri demək olar ki, yığıb qurtarmışdım. Amma bu zəngə diksindim. O dəqiqə başa düşdüm ki, Odur. Əmin idim. Ürəyimə damdı. Elə bil sözləşmişdik. Düz saat 9-da. Cumdum telefona, şnuru çəkib dartdım dəstəyi o biri balaca otağa.

Fidan öz kiçik çarpayısında artıq yatmışdı, yuxuda nə isə mızıldanıb qurcuxdu yerində. Gözümün ucuyla gördüm ki, o biri otağa keçən zaman atamla anam bir-birilə maraqla baxışdılar, mənim televiziya çıxışımla bağlı onların sevinci hələ tam bitib qurtarmamışdı, nəyə görə isə atam başını mənalı-mənalı buladı, anam yarıgülər, yarıqəmgin üzünü yana çevirdi, amma mənə bir söz belə demədilər.

Telefonda isə yenə sükut vardı:

– "Təbrik edirəm".

– "Sağ ol".

– "Çox gözəl şeir idi, gözəl də oxudun. Təzə yazmısan?"

– "Ən gözəl şeirim deyil, ən gözəl şeirimi sənə yazmışam".

– "Yalan!"

– "Vallah, düz sözümdü"

– "Sən məni aldadırsan..."

– "Sabah gələcəksən məktəbə?"

– "...Bilmirəm. Bəlkə gələ bilmədim."

– " Nə olub ki?"

– "Sonra. Sonra. Gecən xeyrə qalsın. Bir daha təbriklər. Böyük şair olanda bizi yaddan çıxarma. Mənə yazdığın şeiri də ver mən özüm oxuyum. Haqqım var, yox?"

– "Yaxşı, verərəm. Əlbəttə, haqqın var".

– "Sağ ol. Xeyrə qarşı. Sabah gəl. Hökmən gəl..."

Az qalıb. Sabah, ya da birisi gün biləcəyəm. Nəhayət biləcəyəm ki, mənim özüm-özümçün uydurduğum bu telefon söhbətlərimizi o da özü özü üçün uydurur, ya yox.

**Səhəri gün. Məktəbdə.**

Uşaqdan müəllimə qədər hamı məni gördüyündə təbrik elədi. O biri siniflərin uşaqları, bizimkilər... həm müxtəlif mərtəbələrdə, müxtəlif dəhlizlərdə... həm də sinifdə...

Bütün sinif az qala məndən daha çox sevinirdi. Tam müvəffəqiyyət. Mən təbii ki, çox təvazökar idim. Əsas məsələ o idi ki, müəllimlər mənimlə çox mehriban davranırdılar. Mariya Semyonovna dedi ki, məndən yaxşı aktyor çıxar. Qara Zibanın "o elə aktyordu da..." atmacasından sonra rus dili dərsində az qala hay-küy düşdü. Həmişə onun dediklərini qulaq ardına vuranlar bu dəfə əməlli-başlı düşdülər qara qızın canına. O da, çox qəribə idi, o saat təslim oldu, "qələt elədim, qələt elədim" deyə-deyə məsələni zarafata saldı. Bütün bunlar bir yana, əsas məsələ o idi ki, daha rüb sarıdan arxayın olmaq olardı. Arada Aslanın da məsələsini həll eləmişdim.

Dünən verilişdən sonra televiziya mərkəzinin binasından çıxıb evə qayıdarkən elə yoldaca fürsət tapıb Zərbəli müəllimə belə dedim:

– Mən Aslanı hamiliyə götürmək istəyirəm. Oxumağa böyük (?) həvəsi var. Siz icazə versəniz əgər...

Zərbəli müəllim ciddi bir görkəmlə icazə verdi. "Deyirsən Pəncərəyə ümid var? Nolar, Mirzə Nazim, sən məşğul ol... mən nəzərə alaram."

***

O isə bu gün məktəbə gəlməmişdi. Sinifdə bir boşluq vardı. Oğlanların, qızların maraq dolu baxışları, mənalı-mənalı məni süzmələri (xüsusilə qızların) məndən yan keçdi. Boşluq. Tam bir boşluq!..

**O biri gün. İkinci dərsdən əvvəl.**
**Nigarançılığın sonu.**

Sinfə daxil olan kimi gözümlə otağı dolaşdım, Onu görüb sonra sakitləşdim. Birinci dərs bitəndən sonra O yenə də sinifdə sakitcə öz yerinə çəkilib oturdu və adəti üzrə tənəffüsə çıxmadı. Növbəti dərsimiz tarix dərsi olacaqdı, qarşısındakı kitabın açıq səhifəsinə baxırdı, amma mən bilirdim, gözlərilə əslində mənim hər hərəkətimi gizlincə izləyir. Varağı iki yerə qatlayıb (şeiri bu varağa köçürmüşdüm) kitabının açıq səhifəsinin arasına buraxdım. Yavaşca varağı götürüb çantasına qoydu. Mən sinifdən çıxdım.

Ürəyim şiddətlə, mənim özümə indiyənə qədər tanış olmayan qəribə bir ləzzətlə vurdu. Deməli, mənim özüm özümçün uydurduğum telefon "söhbət"lərini təxminən, ya da olduğu kimi (?) O da özü özü üçün uydurmuşdu. Buna heç bir şübhə ola bilməzdi. Belə olmasa idi... Yox, elə belə idi ki, vardı. Bu da Uzunla apardığımız eksperiment deyil. Şeir isə bu idi:

Səmalar o nurlu baxışlarındır,
Anacaq qəlbimdə hər dilək səni.
Saymaz ötüb keçmə, bir dayan, bir dur,
Ürəyim sevibdir, sevəcək səni.

***

Hicran həmdəmimdir, kədər yoldaşım,
Tənhalıq dost olub mənə hər zaman.
Olmazın əzablar çəkibdir başım,
Sənə "əzab" sözü gəlməsin asan.

***

Günəş hərarətlə öpər gözündən
Ulduzlar heç sənin tayın da olmaz.
Lütf eylə, özünü gizləmə məndən,
Sən bax, mənsə duyum, dincəlim bir az.

***

Anıram gözünü hər axşam, səhər
Anıram hər vaxtda, hər bir zamanda.
Məhəbbət insanda ümmana bənzər
Çağlayar, gurlayar dursa zaman da.

***

Məni sevməsən də gülsün diləyin
Sevərsən birini, çoxdur insanlar.
Anacaq bilirəm, məni ürəyin
Əfsuslar olsun ki, o vaxt gec olar.

***

Vüsala qaldırsan, heç vaxt enmərəm.
Qovaram başımdan dumanı, çəni.
Zəhər ver – içərəm, öldür – dinmərəm
Sonra məzarda da sevərəm səni.
Necədi – "Sonra məzarda da sevərəm səni..."?

Bu şeirin başlığına belə bir ad seçib yazmışdım: Sənə yazdığım şeirlər (birinci şeir).

**Həmən gün. Axşamçağı. Evdə.**
**Lal "söhbət'lərdən səsli söhbətlərə keçid.**

Axşam yenə eyni vaxtda, saat 9-da telefon zəng çaldı, mən səbirsiz dəstəyi götürdüm. Bu dəfə dəstəkdən səs gəldi. Onun səsi. Biz ilk dəfə idi ki, bir-birimizlə telefonda danışdıq. Təbii ki, hər ikimiz özümüzü elə apardıq ki, guya bu danışığımız, əlbəttə ki, ilk danışığımız deyil.

– Salam. Mənəm.
– Tanıdım. Necəsən?
– Sən həmişə belə qəmli yazırsan?
– Bilmirəm.

– Bu, birinci şeir idi. O biriləri də oxumaq istəyirəm.

– Yaxşı.

– Gecən xeyrə qalsın.

– Xeyrə qarşı.

İlk dəfə! İlk dəfə biz telefonda qısa da olsa bir-birimizlə, nəhayət ki, söz deyib söz eşitdik - danışdıq. Təlaşlı niyarançılığın sonu gəldi. Bu gecə tələm-tələsik ürəyim hələ də həyəcandan çırpına-çırpına o biri şeirləri də seçib ayırdım. Dörd şeir idi, üzlərini tələsə-tələsə birnəfəsə bir dənə on iki vərəq dama-dama dəftərə köçürdüm. Sabah dördünü də ona verməyi düşünürəm.

Gedib yerimə uzandım, amma uzun müddət yata bilmədim. Gözümə yuxu getmir ki, getmir. Hər şey – yaxınlar, uzaqlar, dostlar, tanışlar – hər kəs, hər şey birdən, bir yerdə gəlib girirlər ağlıma. Elə bil bütün dünyanı mənə bağışlamışdılar. Ürəyim "gup-gup", "gup-gup" elə sürətlə vururdu ki... Mən hələ bu cür heç kimi sevməmişdim. Deməli, əslində belə də demək olardı: bu, mənim birinci həqiqi sevgimdir. Həqiqət bundan ibarət idi: nə az, nə çox. Mariya Semyonovna müəllimə deyən kimi.

***Qeyd.* Amma onu da deyim ki, mən yamanca vəfasız imişəm. Bəs bu sonuncu sinfə qədər sevdiyim qızlar hara uçub yox olmuşdular, bilmirdim. Axı mən onları da belə, "ömürlük" sevmişdim. Xüsusilə Qənirəni. Hamısı yenə dörd ətrafımda idilər, gözəllər gözəli Qənirə kimi. Amma yenə də yox kimi idilər. O, yalnız O. Ondan başqa heç kim yox idi.**

Dəftərə yazdığım o biri şeirlər isə bunlar idi:

**Şeir №2.**

Toxunub qəlbimdə köhnə yaraya
Soruş ki, gözlərim nəyə bənzəyir?!
Şöləsi ulduza, rəngi qaraya
Deyərdim hikməti göyə bənzəyir.

***

Sənə məxsus olub bütün varlığım
Nəşəli həm də ki, qəmli çağımsan.
Sən mənim ən böyük narahatlığım,
Sən mənim ən böyük rahatlığımsan.

***

Sahildir, bir sənsən, bir də... yenə sən!

***<u>Qevd.</u> Yəni mən də dönüb "sən" olmuşam***

Sular qarışıbdır göydə buluda.
Söyüd də danışır öz Xəzərindən
Bir sənə, bir mənə, bir də sükuta.

***

Gözlərin odlayıb yaxıb qəlbimi
Səni and verirəm həmən gözlərə.
Qoy mən pıçıldayım o söyüd kimi
Sən isə layiq ol sevən Xəzərə.

**Şeir №3**

Kədərlənmərəm o qədər,
Ömür nəğməmi də çalsam.
Ancaq bil ki,
bircə gün sənsiz qalsam
Səsini, sədanı
özündə saxlayaraq
Səni həmişə səsləyəcək ürək.

Kiçik bir balıqqulağının
dənizə
sevgisi tək.

*<u>Qeyd.</u> Balıqqulağını qulağa tutanda dəniz səsi gəlir. Bu onun dənizə sevgisidir.*

**Şeir №4**
Min günəşin istisinə isinmərəm,
İldırımlar şaqqıldaya diksinmərəm
Sən olmasan...

***
Çaylar, sellər belə coşmaz, belə axmaz.
Nərgiz küsər, qızılgül də mənə baxmaz,
Sən olmasan

***
Çox sevdiyin ulduzlar da qalar yetim
Qoca Hamlet sualının qarşısında

*<u>Qeyd.</u> "Olum, ya ölüm" sualı nəzərdə tutulur*

Bilmərəm ki, mən nə edim –
Sən olmasan...

**Şeir №5**
Sonsuz asimandan və dənizlərdən,
Nakam köçüb gedən min əzizlərdən
Tükənməz ilhamla söz açaram mən,
Yeni bir dünyaya göz açaram mən
Sən məni sevsən...

***

Təmiz səma idim, bulud sən oldun.
Mən bir haray idim, sükut sən oldun.
Harda olsan belə yanında varam,
Mən sənə bir ömür bağışlayaram Sən məni sevsən…

***

Nifrətlər quruyub heykələ dönər,
Bizdən gələcəyə qalar yadigar.
Bir yağış yağar ki, alovlar sönər,
tökülər dənizə bütün silahlar

***<u>Qeyd.</u> Bu son söz aydındır ki, qafiyə xatirinə işlədilir.***

Sən məni sevsən...

**<u>O biri gün. Axşam. Evdə.</u>**

Beş şeirin beşini də bir nazik dəftərə köçürüb (əlbəttə ki, ˝qeydlər"siz) bu gün Ona verdim. Dəftəri məndən alanda üzümə baxmadı. Baxışlarını gizlətdi, elə bil nəsə bir günahı vardı.

***<u>Qeyd.</u> ...Yadımdan çıxıb hansısa sinifdə, ya yeddinci sinif idi, ya da iki il əvvəl, səkkizinci sinif idi, bir dəfə iş nə cür oldusa biz dərs zamanı yanaşı oturduq. Nədənsə hökmən Onu söhbətə çəkmək, Ona nəsə demək, Onu danışdırmaq istəyirdim. Çox düşündüm, fikirləşdim. Amma daha bundan mənasız bir söz tapa bilmədim. Mən Ona belə bir sual verdim:***

***– Yenidən uşaq olmaq istəyirsən?***

***Bir xeyli susdu. Düşünürdü. Nəhayət, yavaş və ciddi səslə:***

*– İstəyirəm. Amma indiki ağlımı, bildiyimi itirməyəydim, - cavab verdi.*

*– Sən lap ağ elədin ki...*

*Mən heyrətləndim. Belə cavabı gözləmirdim.*

*Üzünü mənə sarı döndərib qara, yaraşıqlı gözlərini diqqətlə üzümə dikdi. Elə bil indiyənə qədər o baxışla mənə baxmaqda davam edir.*

**Arzunun ad günü münasibətilə evlərində sinif uşaqlarına qonaqlıq verdiyi gün. Axşama yaxın.**

– Hardan sən... tapırsan e bu sözləri?.. – Gözəllər gözəli Qənirə gözlərini süzdürüb yenə də sözləri uzada-uzada dilləndi.

Elə indicə məni məcbur edib tost söylətmişdilər, hətta sonda öz-özümdən coşub çoxdan, keçən il yazdığım bir şeiri də oxumuşdum. Yerinə düşmüşdü. Bu idi şeir:

**Dostuma**

Qaranlıq yolumda yansa bir işıq,
Çətinlik yüz dəfə görünsə asan,
Cəsarətli olsam həddindən artıq
Demək, sən hardasa yaxınlıqdasan.

***

Sənə lazım deyil şöhrətim, adım
Kim olsam dost kimi mənimsən yenə.
Qəlbim ki dənizdir, bir inci oldun,
Atıldın qəlbimin dərinliyinə.

***

Yaxşı tanıyıram, yaxşı mən səni.
Bilirəm uzaqda, yaxında olsan,

Yorulsam, çiyninə alarsan məni,
Büdrəsəm, əlimdən yapışacaqsan.

***

Qəlbimə yazaram hər bir arzunu,
Sənə qardaş kimi sarılaram mən.
Sən itsən, demərəm itirdim onu,
Dönərəm bir anda sən olaram mən.

Qızlar şeirdən, oğlanlar isə həm şeirdən, həm də "Kəmşirin" şərabından məst olmuşdular. Onun isə gözləri par-par parıldayır, üzü çıraq kimi alışıb yanırdı. (Elə bil, o da çaxır içmişdi. Amma əslində içməmişdi).

– Uşaqlar, mən tost demək istəyirəm! – Azər qəflətən qətiyyətlə ayağa qalxıb badəsini çaxırla doldurdu.

Ağız deyəni qulaq eşitmirdi. Azərə fikir verən olmadı.

– Mən küsüb gedirəm. – Azər əlindəki çəngəli şərab dolu badəsinə vurub cingildədə-cingildədə yarızarafat, yarıgerçək Arzuya baxdı.

– Sənin evin deyil bura? Sakit elə də bu avaraları! Mənim ürəyimdə sözüm var… Ürəyimdə qalsın sözüm?! Oğlum, əgər məni təhqir etmək niyyətiniz vardısa... (Bu isə artıq "Məşədi İbad" filmindən idi.)

Arzu ev sahibəsi kimi məsələyə ciddi şəkildə qarışandan sonra yemək masasının arxasında bir-birinə qısılıb oturanlar arasında az-çox sakitliyə bənzər bir şey yarandı. Azər sözünə belə başladı:

– O gün evdə atam mənə görün nə deyir? Deyir ki, siz, yəni biz, bütün sinfimiz, uşaqlıq çox edirik, başa düşmürük bu günümüzün qədrini. Vaxt gələcək, oğlum, deyir, məktəbçün, müəllimlərçün, biri-birimizçün bizim burnunuzun ucu göynəyəcək. Bunu atam deyir...

Yerdən söz atmağa başladılar:

Nabatçün?

– Yox, Zərbəli müəllimçün.

– Mən Mustafa müəllimçün darıxacağam.

– Mən Sadıq müəllimçün.

Əlbəttə, hamısı yüngülvari rişxənd edirdilər, yenə hay-küy, gülüş başladı... Kimsə çəngəl ilə yenə stəkanını döyəclədi:

Sakit, sakit.

– Qoy kişi (yəni: Azər) sözünü bitirsin.

– Oğlum... – Azər sözünə konkret heç kimə müraciət etmədən elə səs-küyün içində davam etdi, yavaş-yavaş yenə hamı ona qulaq asmağa başladı. – Oğlum, sizə deyirəm, birdən-birə mən başa düşdüm ki, kişi, yəni atam çox doğru deyir. Kim kimin üçün darıxacaq, hansı müəllim kimin üçün daha əzizdir – bu bir başqa söhbətdi. Amma biz belə etməyəcəyik. Əsas məsələ odur ki, oğlum, biz bir-birimizçün darıxmayaq. Başa düşürsüz? – Azər bu yerdə bir pauza verdi. - Yəni məktəbi qurtarandan sonra da, illər keçsə də, elə olsun ki, biz tez-tez görək bir-birimizi, bir- birimizin yanında olaq. Həmişə!

– Malades!

– Yox, sən Nazim kimi danışa bilmirsən...

– Niyə ki? Yaxşı dedi. Nəyin sağlığına içirik?

Azər ani sükut edib sözünü belə tamamladı.

Bu sonluq, açıq deyim, mənim özüm üçün də çox gözlənilməz oldu.

– İçək Nazimin sağlığına. Ona cansağlığı, bir daha cansağlığı arzulayaq. O ki belə şeir yazıb dostluq barədə, halal olsun ona. Mənim çox xoşuma gəldi.

Hamı "sağ ol" dedi və içdilər mənim sağlığıma. Amma sağlıq doğrudan da gözlənilməz idi.

Bu minvalla bir az da keçdi. Artıq axşam düşmüşdü. Bu dəfə Aslan çox ciddi bir görkəmlə ayağa qalxdı:

– Burda bir-birindən gözəl sözlər, sağlıqlar deyildi. Mən içirəm analarımızın sağlığına, başda Arzunun anası olmaqla. Zəhmət çəkib, belə gözəl süfrə düzəldib...

Səbuhi az qala yenə gicləyəcəkdi, yaxşı ki, onun yavaşdan dediyi "gör qaynanasına indidən necə padxalimlik eləyir?!" sözlərini bir-iki adamdan başqa heç kəs eşitmədi. Balaca üzünə gülsəydik, Səbuhi ucundan yapışıb ucuzluğa gedəcəkdi. Guya bu, zarafat eləyir. Səbuhi ona-buna baxsa da,

özünə istədiyi "dayağı" tapmadı. Bu dəfə də Aslan deyən sağlığa içdilər. Oğlanlar yarısərxoş bir hala düşürdülər yavaş-yavaş. Evdə məndən bərk-bərk söz almışdılar ki, dilimə içki dəyməyəcək. Uşaqlar da, gərək düzünü deyəsən, qətiyyən məni məcbur eləmirdilər. Bunun özü də elə bir tərəfdən mənə qəribə gəldi. Bir sağlıq xüsusilə yadımda qaldı. Bu sağlığı Arzu söylədi. Axırda.

Sağ olun ki, gəldiniz. – Arzu dedi. – Allah hamınızı xoşbəxt eləsin, hamınıza ürəyincə versin. Doğrudan da bizdən xoşbəxti yoxdur. Var? Yoxdur axı! – Yenə, bu dəfə bir az da bərkdən elə bil kiməsə sübut edirdi, təkrar elədi. – Yoxdur!

Arzu bir neçə an susub sanki nəyisə dinləməyə çalışdı. Həyəcanlı idi, tez-tez nəfəs alırdı. Sakitlik çökdü, hamımız ev sahibəsinə qulaq asmağa başladıq. Arzu davam elədi:

– Belə... mən uzun danışmağı sevmirəm, gözəl sözlər də ağlıma gəlmir Nazim kimi. Nə gözəl şeir idi, Nazim... – Arzu mənə xüsusi məhəbbətlə baxdı və ürəyindəkiləri böyük bir şövqlə bizimlə bölüşdü. - Amma bilirsiniz, yayda kəndə getmişdik, Bilgəhə, nənəmə baş çəkməyə. Hava elə gözəl idi... Həyətdə böyük tut ağacımız var. Onun altında oturmuşduq, nənəm qoca arvaddı, dedi, ad günündü, Arzu, ay qız, bu tut ağacı da çox müqəddəs ağacdı, müharibədə nə qədər adamı acından ölməkdən xilas edib, sən də ürəyində arzu tut, yerinə yetəcək. Mən birdən gördüm ki, tut ağacı da yaşıl yarpaq dolu budaqlarıyla deyir mənə elə bil: "ürəyində niyyət elə". Hardansa uçub iki qaranquş gəldi qondu ağacın budağına, quruldadılar, quruldadılar, dimdiklərini bir-birinə vurdular, onlar da elə bil bunu dedilər, "görürsən hər şey necə gözəldi, niyyət elə". Otlar, ağaclar, güllər, çiçəklər, kollar-koslar birdən-birə bir-birinə sarmaşdılar, elə bil canlandılar. Mən də... niyyət elədim.

– De görək nə niyyət etdin sən? – Oğlanlar yenə səs-küy saldılar.

– Nə niyyət etdin? – Aslanı mən heç vaxt belə qəmgin görməmişdim.

– Niyyət elədim, bu bir sirdir, özüm bilərəm. – Arzu gözlərini düz Aslanın göy gözlərinə dikib çoxmənalı-çoxmənalı məhz ona cavab verdi. Aslan o dəqiqə susdu və daha heç nə soruşmadı.

Sonra isə yenə aləm qarışdı bir-birinə. Səs- küy, dedi-qodu, qeybət...

– Eşidirsən, ay qız, Mariya Semyonovna o gün gördün necə dedi sumkam barədə...

– Yox, necə dedi ki?..

– Səndən mənim gözüm su içmir!

– İçmir?

– Azad bir quşdum,

Yuvamdan uçdum.

Bir bağa düşdüm

Bu gənc

Quş haqqında son sözləri isə həmən məşhur mahnı kimi oxuyan artıq mən idim. Aslan mənə öz sərxoş və cır səsilə züy tutdu:

– Uçdum... uçdum... uçdum...

– Bu dəm olub, hazırdı... – Azər Arzuya baxıb Aslana işarə etdi.

– Mən? – Qazdan ayıq olan Aslan ondan danışıldığını əlüstü başa düşüb Azər ilə məni axan gözlərilə süzdü. – Məni deyirsiz?! Mən a? Məni içki tutmur ki, siz bilmirsiz bəyəm?!

Sonradan bu söz də dilimizə düşdü: Aslanı içki tutmur...

İndi gecədən xeyli keçməsinə baxmayaraq yazı masamın arxasında öz qədim xal-xal stuluma oturub bunları yaza-yaza birdən Arzunun tostunu və Onun bu zaman mənə zillənmiş par-par alışıb yanan gözlərini xatırlayıram. Əslində xatırlamıram, xatırımdan çıxmadılar ki, həkk oldular beynimə, ömürlük.

Niyyət elə, Nazim, niyyət elə!

Niyyət?! Niyə mən görəsən niyyət eləməyə qorxuram?!

**On gün sonra. Xəstəxana. Palatada.**

**Anamı güldürmək istərkən.**

Gündəliyə bir xeyli ara verməli olmuşam. Bir həftədir ki, xəstəxanadayam. Yenə həmən palata, həmən pəncərə. Hər gün müayinə, iynələr... Heç bilmirəm, məni burda niyə saxlayıblar?! Anama bu gün belə dedim:

– Evə istəyirəm.

– Nə var evdə? Evə gedib neyləyəcəksən ki? – Arvad qorxa-qorxa mənə baxdı.

– Stullarımızı öpəcəyəm, ən çox da xal-xal stulumu. – Mən zarafat eləmək istəmişdim, anam isə məni başa düşmədi. Məndən gizlədə bilmədi, bir də gördüm, göz yaşları gəlib doldu gözlərinə. Naçar çöhrəsi bircə anın içində elə bil gözəlləşdi. Buna nə oldu, zarafat-zad anlamır?!

Gecələr artıq palatada tək qalmıram, bir küncdəki çarpayıda hərdən yuxuda diksinə-diksinə anam yatır.

**Beş gün sonra. Saat 6 tamam. Evdə.**

Nəhayət, bu gün məni xəstəxanadan evə buraxdılar. Artıq evdəyəm. Amma məktəbə hələ olmaz, deyirlər, "getmə, zəifsən..." Zəifəm.

**Üç gün sonra. Evdə. "Son dəfə"nin hikmətini anlayandan sonra.**

Çox tənbəlləşmişəm. Əlimə qələm alıb yazmağa da tənbəllik edirəm. Çarpayıdan qalxmaq belə istəmirəm. Halım yoxdur. Anama bu gün belə dedim:

– Olar, uşaqlar yanıma gəlsinlər? Evə?!

– Olar, oğlum, niyə olmur?! Bir balaca özünə gəl, rəngin-rufun düzəlsin, özüm qəşəng bir plov bişirib onları qonaq çağıracağam.

Güzgüyə baxıram, rəngim doğrudan da öz rəngim deyil, xeyli agarmışam.

Onunla (artıq adı ilə yazacağam, adı Firəngizdir) hər gün telefonla danışırıq. Yeganə adamdır ki, bütün sirlərimi bircə-bircə bilir. Bu gündəlik də artıq onun üçün sirr deyil. Gec zəng edəndə özümə evdə yer tapmıram. Belə baxanda mən də az aşın duzu deyiləm, özüm zəng eləmirəm. Elə bil onunla danışmaqdan alacağım ləzzətin gəlməsi vaxtını bilə-bilə uzadıram. Həm də bu zaman lal "söhbətləri" davam edirəm. Ürəyimdə.

...Nə zamansa son dəfə, hansısa dostumdan hansısa sualıma son dəfə bir cavab gözləyəcəyəm. Son dəfə bir səhər açacağam. Hansısa gecəm son gecə olacaq. Ürəyimin son dəfə vurduğu an... Son siqaretin son qullabı...

Son dəfələr muncuq kimi yığılacaq ömrümün müxtəlif zamanlarından bir yerə. Yalnız sən "son dəfə" ilə məhdudlaşmırsan.

Sən sürəkli və fasiləsizsən.

**İki ay əvvəl. Sabir bağı. Qala divarlarının yanı. Şatal zamanı.**

Arzudan başqa deyəsən bütün dəstəmiz burda idi. Arzunu ona görə özümüzlə aparmadıq ki, bugünkü əsas mövzumuz ona ad günündə alacağımız hədiyyənin müzakirəsi idi. Ancaq Aslana uşaq kimi sözsüz qulaq asdığına görə Aslan ona əmrvari şəkildə dedi: "Sən getmə. Qal dərsdə." O da getmədi, qaldı.

Nə gözəl şeydi, sevdiyin, bağlandığın kimsə adamın sözünə etirazsız-filansız qulaq asanda. Aslana sədaqətli gözlərilə "baş üstə" dedi. Sakitcə dönüb getdi sinfə. Firəngiz də belə olsa idi...

– Bu, nəçi olmaq istəyir? – Natiq siqareti az qala kötüyünəcən ciyərlərinə çəkib canını sovurdu yelə.

– Onun məsələyə nə dəxli var? – Aslan təəccüb elədi.

– Var dəxli, düz deyir Natiq. – Azər sözə qarışdı. – Bəlkə Arzu jurnalist olacaq?! Yaxşı bir qələm dəsti alardıq.

– Ondan yaxşı yurist çıxar. – Qara Ziba özündən icad elədi.

– Evdar qadın olacaq. Mən bilirəm... – Qənirə fikirli-fikirli uzatdı.

– Bəlkə özündən soruşaq? – Uzun təklif verdi.

– Bəlkə heç özü bilmir?! – Kim idisə etiraz etdi.

– Sən özün nəçi olacaqsan, bilirsən?! – İlkin üzünü Uzuna tutdu.

– Mən? Nə bilim? Necə bəyəm? – Uzun çaşan kimi oldu. – Bəs sən özün nə fikirləşmisən?

– Bilmirərn. – İlkin cavab verdi.

– Mən bəs hardan bilim?! – Uzun çiynini çəkərək sualı özü də bilmədi kimə verdi.

Söhbət yavaş-yavaş istiqamətini dəyişməyə başlamışdı. "Kim nə olacaq?" sualının cavabını bir xeyli axtardıq, tapa bilmədik.

– Mən də bilmirəm. – Aslan da bu təzə söhbətə qoşuldu.

– Mən də bilmirəm, nə istəyirəm... – Qənirə dalğın halda yenə də elə bil özü-özü ilə danışırdı.

– Kim özü bilir ki?.. – Bu Azər idi. – Bəlkə Nazimdən başqa heç birimiz nə istədiyimizi bilmirik.

– Atalarımız bizdən yaxşı bilir. – Qənirə əminliklə dedi.

"Niyə məndən başqa?" təəccüb etsəm də, susdum. Əslində heç mən özüm də bunu bilmirdim. Dalğadı, düşmüşük içinə, hara aparacaq, aparacaq.

Bu söhbət qəfildən başladığı kimi qəfildən də kəsdi. Ümumi hədiyyə planı baş tutmadı. Hər kəs öz hədiyyəsini özü seçsin qərarına gəldik.

Amma bu söhbət bütün gün mənim yadımdan çıxmadı. Doğrudan da artıq seçim etməyin yavaş-yavaş vaxtı gəlirdi. Həyat məktəbdən sonra necə qurulacaqdı?! O bizə, lap elə konkret danışsaq, mənə nə hazırlayırdı?! Hamımız əlbəttə ki, ali məktəbə daxil olmağı arzulayırdıq. Hamımızın arzusu yerinə yetəcəkdimi? Daxil ola bilməyənlər daxil ola bilənlərin sevincinə sevinə biləcəkdilərmi? Nə isə qəliz məsələlərdi...

O biri başqa dünyadakı başqa şatal zamanı oradakı bu uşaqlar bəlkə də həyatdan nə istədiklərini yaxşı bilirlər" – düşündüm və getdim yatmağa.

**<u>Arzunun ad günündən iki gün sonra.</u>**
**<u>Riyaziyyat dərsi zamanı.</u>**

Sadıq müəllim riyaziyyat müəllimimiz idi. O həm də məktəbin zavuçu idi. Çox abırlı kişi idi. Nadir hallarda hirslənib səsini qaldırardı. Bu dəfə isə dözmədi. Çox əsəbi bir hala düşmüşdü. Biz hələ onu belə əsəbi halda görməmişdik. Səbəb var idi. Səbəb – Natiq idi. Natiq onu əməlli-başlı özündən çıxartmışdı.

– Sən düz gəlib dayanmısan uçurumun yanında – xəbərin var? Kimə oxşadırsan özünü? Tum satanlara, çayxanada girlənənlərə? Kimə? Ətrafında bir adam tapmırsan özünü oxşadasan?!

Dünən Sadıq müəllim Natiqi axşamçağı – "Azərbaycan" kinoteatrının yanında görmüşdü.

O yer Natiqin məskəni idi. Oçeredli kinolara bilet satardı bahasına. İndi də onun oduna yanmışdı. Sadıq müəllim Natiqi elə öz "işi"lə məşğul

olduğu yerdə görmüşdü. Bilet satan yerdə. Özü də kimə? Ən maraqlısı və ən gülməlisi bu idi. Sadıq müəllimin doğmaca uşaqlarına satmışdı Natiq biletləri. Kino kişinin burnundan gəlmişdi - bu öz yerində, amma Sadıq müəllim deyəsən hirsindən gecəni də yatmamışdı. Kinoteatrın qabağında balaca oğlunun və qızının yanında özünü birtəhər saxlayıb Natiqə bir kəlmə də olsun başqa söz deməmişdi. Özünü tanımazlığa vurmuşdu. Yalnız Natiq bileti uşaqlara satandan sonra Sadıq müəllim onlara yaxın gəlmişdi. Bu gün isə...

– Sən heç başa düşürsən ki, sənin hərəkətin nə hərəkətdir? Sən hamımızı, bütün məktəbimizi biabır edirsən? Nəticə çıxardırsan özün özün üçün?

Natiq yazı taxtasının yanında durmuşdu, başı aşağı, rəngi taxtanın qara rəngindən fərqlənmirdi. Cınqırı da çıxmırdı.

Zəng vurulana qədər Sadıq müəllim özünə gəlmədi ki, gəlmədi. Nədən danışdısa, yenə sözünü qaytarıb gətirirdi Natiqin üstünə. Tənəffüsdə biz hamımız, təbii ki, Natiqin başına toplaşdıq.

– Bilet satmışam, əcəb eləmişəm. – Natiq Sadıq müəllimin acığını indi o gedəndən sonra bizlərdən kimin üstünə tökdüyünü heç özü də bilmirdi. Havaya danışırdı.

– Kimə oxşadıram özümü? Özüm billəm kimə. Bir bilet satmaqla guya ki dünya dağıldı... Mən olmasaydım tapa biləcəkdilər bilet?..

– Bəxtə bax e...

– Təsadüfə baxırsan?..

– Sadıq özü uşaqlarıyla gəlmiş idi kinoya, oğlum, ya ki, ordan keçirdi?

– Ordan keçirdi.

– İşə bax. Bəs sən onu necə oldu görmədin?

– Görmədim də. Nə bileydim uşaqlar onun uşaqlarıdı? Alınlarında yazılmışdı? Özləri mənə yaxınlaşdılar. Mən də itələdim onlara ən baha qiymətə. Əcəb elədim.

– Vay, vay, vay...

– Natiq, bu gün axşama bilet var? 8 seansına.

– Var, var! Sən atanla gələcəksən, çuvakınla? – Natiq qəzəblə Qənirənin yerinə düşməyən zarafatına başını qaldırıb bu cür kobud şəkildə çımxırdı. Qənirə pərt oldu, ya olmadı, bu bilinmədi, amma barmağı ilə gicgahına işarə elədi, yəni "Natiqin başı onsuz da xarabdı". Biz Qənirəyə fikir verməyib Natiqə "başsağlığı" verməyə davam elədik:

– Oğlum, ürəyinə salma.

– Olub, olub. Gördün, heç demədi ki, valideyinin gəlsin. Sevin.

– İki gündən sonra yaddan çıxacaq.

– Atama oxşayacağam. Sözə bax: kimə oxşayacaqsan? – Natiq deyirdi. – Nolar evdə gec-gec olur. Dənizdədi, gəmidə üzür. Bilirsən nə ölkələr gəzir?! Atama, ancaq atama. Yox bir, bunun deməyinə bax, semiçka satana bax hələ... görərsən...

Natiq yarıpıçıltı, yarıhıçqırtı ilə sanki kiməsə nəsə sübut edərək özü-özünə bütün tənəffüs boyu elə bu sözləri deyib durdu.

**Həmən gün. Evdə. Axşam saat 9.**
**"Sən alın yazısına inanırsan?"**

Axşam Firəngiz ilə telefonla danışarkən mənə dedi ki, xalası Natiqgilin qonşusudur. Üç uşaqla atası bunun anasını atıb, bunlar balaca olanda çıxıb hara gedib indiyənəcən bilinmir. Firəngizin ürəyi yumşaqdır. Dedi ki, bəlkə də Natiq bilet sata-sata anasına kömək eləyir?! Belə-belə işlər...

– Sən necə baxırsan bu məsələlərə?

– Bilmirəm, bircə onu bilirəm ki, heç kimə oxşamaq istəmirəm. Özüm də bilmirəm ki nəçi olacağam.

– Necə yəni, düz sözündü?

– Əlbəttə, düz deyirəm, nədi, günahdı? Həyatı da plan üzrə qurarlar? Nə cür alınacaqsa, o cür də alınacaq! Dalğa! Dalğadı, aparır bizi.

– Səndən gözləməzdim.

– Niyə?

– Bilmirəm.

Bir xeyli sükutdan sonra:

– Amma bəlkə də sən haqlısan. Nə gözləyir bizi, kim bilir?.. Alnımıza nə yazılıbsa o da olacaq. Sən alın yazısına inanırsan?

– Sən alın yazısına inanırsan?

– Yox, – dedim – İnanmıram.

**Həmən gün. Bir saat sonra.**

Onsuz da nədisə bu gecə gözümə yuxu getmir. Beynim maşın kimi gup-gup vurub işləyir. Anam neçənci dəfədi otağa girib deyir yat, bəsdi yazdın. Mən isə heç cür əlimdəki yazını qurtara bilmirəm. Cümlə cümləni zorla gətirir. Arzunun ad günündə dediyi sözlər heç yadımdan çıxmır. "Niyyət elə. Niyyət elə". Asan məsələ deyil. Niyyətin öz vaxtı olmalıdı. Havaxt gəldi, necə gəldi - niyyət olmaz. Mən özüm də nə qədər olub fikir vermişəm. Bir məqam olur, ətrafda nə var, elə bil ətriylə, qoxusuyla, rayihəsiylə bütün varlığıyla gəlib gözlərindən, qulağından, daha nə bilim harandan keçib girir adamın canına. Bu, həmişə olmur. Bu məqamı tutmaq lazımdır. Bu zaman mən quş kimi oluram, daha doğrusu, özüm elə bil quşa dönürəm, hamını, hamını sevmək, hamıya təbəssüm bağışlamaq istəyirəm. İstəyirəm bina-bina, mərtəbə-mərtəbə, küçə-küçə əriyim bu şəhərin içində, istəyirəm atım özümü Xəzərə, üzüm, üzüm o başından çıxım və bir də istəyirəm hamı, hamı xoşbəxt olsun. Tanıdıqlarını da, tanımadıqlarını da, hamı. Amma görürəm ki, heyim çatmır, bütün bunları hələ eləməmişəm, amma eləmiş kimiyəm, artıq yorulmuşam.

"Niyyət elə!" Mən də elə indicə ürəyimdə bir niyyət elədim.

**Səhəri gün. Evdə. Hələ yataqda ikən.**
**Tənbəllik içində.**

– Mənə elə gəlir ki, mən öləndə (ilk dəfədi ki, bu sözü yazıram, amma ölüm haqdı, hamı kimi mən də nə zamansa bu dünyadan köçüb gedəcəyəm – "Sonra məzarda da sevərəm səni?!"), deməli belə, mən öləndə elə o an, dünyadan köçdüyüm o an hardasa doğulan bir körpə olacaq və o körpə mən olacağam. Amma bir məsələ var ki, mənə heç cür rahatlıq vermir: indi mən tanıdığım adamları o körpə də böyüyə-böyüyə tanıyacaq, yoxsa yox?!

...Gecə pis bir yuxu görmüşəm. Görmüşəm dağ başındayam, bir yekə qartal alıb məni caynaqlarına, uçaraq yuxarı – səmanın yeddinci qatına qaldırdıqca qaldırır. Üzümə nəvazişlə sərin, məstedici meh vurur. Mən bilirəm ki, bu yuxudu və qorxmuram. Amma aşağıda haray salıb ağlayıb-qışqıran, özünü öldürən anam bunu bilmir.

Bu, sifarişsiz yuxu idi. Sifarişi hazırlamaq yadımdan çıxmışdı.

...Mənə elə gəlir ki, biz bu dünyaya bumeranq kimi kiminsə tərəfindən kiməsə dəymək, sonra yenidən atıldığımız yerə qayıtmaq üçün gəlmişik. Bu mövzuda şeir də yazmışam. O şeir budur:

**Bumeranq**
Nəyə isə dəyəcəyəm
Hələ yoldayam.
Çalışıb
yalana, yamana pisə dəyəcəyəm.
Çalışıb
nadana, qanmaza əyriyə, xəbisə dəyəcəyəm.
Nə üçünsə doğulmuşam,
Nə üçünsə yaşayım gərək,
Nəyə isə dəyəcəyəm.
Atılmışam bu dünyaya bumeranq tək – hələ yoldayam.

**<u>Xəstəxanadan on beş gün əvvəl. Axşam.</u>**
**<u>Evdə. "Mənim sirrim varmı?"</u>**

Bu gün ədəbiyyat dərsimiz var idi. Amma zəngdən sonra Nabat müəllimənin əvəzinə sinfə Zərbəli müəllim daxil oldu. Biz, əlbəttə ki, ayağa qalxıb onu böyük hörmətlə qarşıladıq. Bu il bizə dərs deməsə də əslində Zərbəli müəllim bizim bir çox müəllimlərimizin müəllimi olmuş şəxsdir və buna görə də hörməti vacibdən vacib idi.

"Salam, salam, necəsiniz uşaqlar, siz necəsiniz, Zərbəli müəllim?" Bu cür "xoş-beşdən" sonra Zərbəli müəllim adəti üzrə asta-asta sözünə başladı, məqsədini açıb ortaya qoydu, özü də həmişə bütün sinfə demək istədikləri-

ni adəti üzrə bir adama üzünü tutub deyərdi, o bir adam da mən olardım. İndi də elə etdi:

– Mirzə Nazim, belədi də... Sizin sinifdə eksperiment eləməyi pedsovet mənə tapşırıb. Bizdən də bunu nazirlik tələb eləyib. İnşa yazacağıq. Mövzu bir mövzu olacaq, hamı da onu yazacaq. Amma bu inşa o birilərindən fərqlənəcək. Həmişə olduğu kimi bu inşa vərəqinin üstündə ad, familiya olmayacaq. Ürəyindən nə keçir, onu da olduğu kimi vərəqə yazacaqsan. Aldığın qiyməti də ancaq sən özün biləcəksən. Çünki baxmayaraq ki, mövzu bir mövzudur, hər yazıya sizin hər biriniz istədiyiniz, amma ki, mövzuya uyğun bir ad qoyacaqsınız. Bu ad da olacaq sizin şifrəniz.

Partaların arasından xəfif bir uğultu keçdi. Doğrudan da bizdə indiyənə qədər belə bir şey olmamışdı, bu eksperiment yeni bir şey idi. Hər mövzunun öz adı?! Amma mövzu hamı üçün bir olacaqdı?! Nə idisə təzə şeydi. Maraqlıdır.

– Bəs ümumi mövzu nəylə bağlı olacaq? – Sualı arxadan kimsə özünü də, səsini də gizlədərək xeyli yavaşdan verdi.

Zərbəli müəllim sualı eşitdi, təmkinini pozmadan cavabı yenə mənə ünvanladı:

– Mövzu həsr olunacaq, Mirzə Nazim, sizə. Hər birinizə. – Sonra sinfi uzun müddət mənalı-mənalı süzdü, sözünə yenə də həmişəki təmkinilə davam etdi, – Bəli, sizə. Sizin ürəyinizdə illərlə saxladığınız və heç kimə indiyə qədər demədiyiniz sirrinizə. Ümumi mövzu belədir: Mənim sirrim!

Mənim sirrim??? Sinifdə açılmış ağızlar açıq qaldı, böyümüş gözlər bir az da böyüdü. Mən durub az qala etiraz edəcəkdim, amma özümü zorla saxladım. Zərbəli müəllim hirslənə bilərdi. Yeri deyildi. Etiraz etsəydim də, yəqin ki, qəbul edilməyəcəkdi. Nazirlikdən gələn göstərişdir. Yəni Nazirlik bizim sirlərimizlə maraqlanır, bizim qəlbimizə girməyə çalışır?! Haqqı var? Bəlkə bunu bizim öz məktəbimizin müəllimləri uydurublar, indi də yıxırlar Nazirliyin üstünə? Yaxşı, lap elə tutalım, bütün bunlar bu cürdür, bəs onda məhz bizim sinfimizin "günahı" nədir? Niyə məhz bizim sinif hədəf seçilib?! Zərbəli müəllim bu ekperimenti öz dərs dediyi siniflərdən birində

niyə aparmır? "Mənim sirrim?!" Öz sirrini kim faş edər?! Kim öz sirrini eksperimentə açar, kim?!

...Adam hər gözü ilə başqa-başqa kitablar oxuya bilsəydi, nə gözəl olardı... Hər birimizin inkişafı çox sürətlə gedərdi. Bəlkə mən özüm başlayım bu üsula, görüm alınar, yoxsa yox?!

Elə indicə sınaqdan keçirdim. Alınmadı.

**İki ay əvvəl. Dənizkənarı parkda bacım Fidanla bir yerdə.**

– Nazim, bu dəniz niyə belə böyükdür? – Fidan ayaq barmaqlarının ucuna qonaraq öz boyundan uca məhəccərə güclə çənəsini çatdırıb dənizə boylana-boylana sualı sual dalınca yağdırırdı.

– Bilmirəm. Sən niyə balacasan? – Mən öz sualımla onun suallar selinin qarşısını kəsmək istədim. Kəsə bilmədim.

– Mən böyüyəcəyəm. İnanmırsan? – Fidan balaca, qəşəng başını mənə sarı çevirib şeytan-şeytan cavab verir, sonra cavab gözləmədən yenə nadinc bir sual ünvanlayır mənə. – Dəniz də böyüyəcək?

– Yox, o daha böyüməyəcək. Onunku bəsdi. Marojna alım sənə?

– Al. Nazim bu dəniz olmasaydı, nə olardı?

– İstidən bişib ölərdik. – Yaxamı onun əlindən qurtarmağım asan deyildi. Amma o bu cavabımı bəyənmədi. Gözlərindən gördüm, nəsə demək istədi, demədi.

– Yaxşı, – mən gülümsədim – amma heç kimə açma ha bu sirri, bax heç kimə deməzsən?

– Yooox... – Onun gözləri təşviş içində böyüdü. – Mamaya da deməyim?

– Demə. Bu dəniz olmasaydı... onun yerində böyük, çox böyük, dərin, çox dərin bir... dərə olardı.

– Heç kimə demərəm, qorxma. Nazim, qoy bu bizim sirrimiz olsun. - Dözmədi, yenə sözünü sualla bitirdi. - Olsun?

**<u>İki ay əvvəl. Məktəb həyətində.</u>**

**<u>Aslanla ikimizik.</u>**

Mən bir daha diqqətlə ona baxdım. Deyim, deməyim?! Qəti əmin deyildim ki, o bu məsələyə ciddi yanaşacaq. Aslan şövqlə futboldan danışırdı:

– Bilirsən, yadıma düşəndə ki, iki gün sonra sevimli komandam oynayacaq, hər dərdimi unuduram. Səndə belə olmur?

– Yox.

– Məndə olur. Aldığım "iki"lər, danlaqlar... hər şey uçub gedir. Adam heç nədən xoşbəxt olur. İnanırsan?

– Hə.

– Sən elə bil sözlü adama oxşayırsan?! – Nəhayət "lütf eləyib" mənə diqqətlə baxdıqdan sonra Aslan söhbəti dəyişdi.

– Sənə bir söz demək istəyirəm. – Mən qərara gəldim.

– De. Mən – magila!

– Yox, elə bir şey deyil. Bilirsən, gəl səninlə evdə yoxlayaq görək biz biri-birimizin yadına necə düşəcəyik? Eyni vaxtda, ya ayrı-ayrı vaxtlarda?

– Necə? Bir də başa sal görüm...

Deyəsən mənim dediklərimi axıracan başa düşmədi. Bəlkə elə bildi, dolayıram onu?! Bəlkə də elə bildi, aldadıram?! Amma xətrimə dəymək istəmədi, üzə vurmadı. Hər halda mənə belə gəldi. Biz onunla şərtləşdik.

...Sən mənə inanmırsansa, əzizim, axı bu hələ o demək deyil ki, mən səni aldadıram.

**<u>Bir gün sonra. Məktəbdə. İkinci tənəffüsdə.</u>**

Bu dəfə də alınmadı. Aslan məni gecə saat 11-dən sonra, təxminən özü dediyi kimi, 12-yə on beş dəqiqə işləmiş hələ yatmamışdı, televiziya ilə bədii film bu zaman bitmişdi, filmdən sonra xatırlayıb. Mən isə gün ərzində (axşam vaxtı) onu bir neçə dəfə, amma 11-ə qədər (11-də mən artıq yatmağa getdim) xatırlamışdım.

Alınmadı.

**Məktəbdə "anonim" inşa yazmaqdan iki gün əvvəl.**

Sinifdə hamımız qəribə bir gərginlik içindəydik. Elə bil bir-birimizə bir azca yadlaşmışdıq nəydi, söhbətlərimiz dərinə getmirdi, üzdən gedirdi. Hamı öz içinə çəkilmişdi elə bil. Hər birimiz öz sirrini axtarmaqla məşğul idik. Az qalmışıq bir-birimizin üzünə də dik baxmağı yadırğayaq.

Bu gün bu "anonim" inşa ilə bağlı çox gözlənilməz bir hadisə də baş verdi. Yenə Nabat müəllimənin dərsi zamanı baş verdi bu. Dərsin başlanmasından beş dəqiqə keçməmişdi ki, qapı açıldı və yenə də Zərbəli müəllim ağır-ağır içəri girdi, mənalı-mənalı Nabat müəllimənin üzünə baxdı və Nabat müəllimə başını aşağı salıb sakit, səssiz gedib sinifdən bayıra çıxdı.

Zərbəli müəllim bir xeyli qara yazı taxtasının qarşısında qapıdan pəncərəyə tərəf, pəncərədən qapıya tərəf var-gəl elədi. Bütün sinif nəfəsini içinə çəkib onun nə deyəcəyini gözləyirdi. Sonra Zərbəli müəllim gəlib jurnal masasının yanında dayandı, üzünü sinfə tutdu, son zamanlar hamımızın ürəyindəki gizli arzunu elə ilk sözlərilə yerə basdırdı.

***Qeyd. Arzumuz isə bundan ibarət idi: kimsə xəbər buraxmışdı ki, inşanı son momentdə ləğv edəcəklər, guya ki bu, Zərbəli müəllimin şəxsi ideyası idi, məktəbin pedsovetindən bu ideyanı keçirib, nazirlik isə öz qəti sözünü deyib, razılıq verməyib. Biz hamımız ümid edirdik ki, bu elə belə də olacaq.***

Zərbəli müəllim dedi:

– Güman edən varsa ki, inşa ləğv olunubdur, səhv edir, inşa ləğv olunmayıb. Mən gəlmişəm görəm, bəlkə sualınız var inşaya aid?! Varsa soruşun. - Zərbəli müəllim nəfəsini dərdi, azacıq öskürən kimi oldu, yenə gözlərilə sinfi bir baxışla nəzərdən keçirib süzdü, tam sakitliyi gözlədi və sonra... bu dəfə söylədikləri isə az qala açıq səmada şimşək kimi çaxdı!

– Mirzə Nazim, belədi, pedsovetin qərarı ilə bu inşaları səninlə mən, biz ikimiz yoxlayıb qiymətləndirəcəyik. Bir nəfər qocaman, təcrübəli müəllim, bir nəfər istedadlı şagird. Bax belə...

Ağzım açıla qaldı. Nə az, nə çox. Mən? İnşa yoxlayan? Sinifdə bütün uşaqlar bir-birinə təəccüb və heyrətlə baxdı. Kim isə sevindi bəlkə də. Amma nəyə?! Aydındı nəyə! Söz sözə, səs səsə qarışdı. Hamının mat və məəttəl qaldığı belə bir anda əslində bu, an deyildi, bəlkə uzun dəqiqələr gəlib keçdi, sinif dəniz kimi coşub qurtarandan sonra biz bir də başımızı qaldırıb gördük ki, Zərbəli müəllim artıq sinifdə yoxdur, yenə həmən Nabat müəllimə öz yerində oturub sinif jurnalına nəsə yazır, üzü qıpqırmızıdı, arvad pörtmüşdü, alışıb yanırdı elə bil.

...Bu gün yağışlı bir gün oldu. Payızın ilk günlərində yağış bizim şəhərimiz üçün nadir hadisədir. Hələ yay günlərinin istisi bədənimizdən çıxmayıb. Kim isə Bakını Kislovodska oxşatdı, kim isə Nalçikə.

Bərk yağdı, gur yağdı. Ucundan tut, göyə çıx! Bizim bir gözümüz pəncərədə qalmışdı. Bayırda elə bil başdan-başa bomboz bir duman idi, yağışdan savayı heç nə görükmürdü. Mariya Semyonovna dedi:

– Şəhərin bütün çirki-pası getdi, amma çox hayıf ki, köhnə məhlələr də üzüaşağı selin qabağında əsir-yesir qaldılar...

Biz məktəbdən çıxanda yağış-filan artıq yox idi, gün çıxmışdı. Səs-küylə balaca su gölməçələrinin üstündən atlana-atlana, bəzən də onları bilərəkdən şappıldada-şappıldada o biri uşaqların üstünə gölməçə suyunu dağıdaraq hərə öz yolu ilə dağılışdıq. Heç kim məktəb həyətində qalıb söhbət eləmək istəmədi. Sabah inşa günü idi.

...Aslan məni üçüncü dərsdən əvvəl bir kənara çəkib xəbər verdi ki, dünən onlar Arzu ilə söz qoyubmuşlar ki, yoxlasınlar bir-birini xatırladıqları zamanı.

– Mən ona bu gün onu xatırladığım vaxtı dedim. O isə dedi ki, düz gəlmədi. Amma onun özünün məni xatırladığı vaxtı nə qədər yalvardım, mənə demədi.

Yenə alınmamışdı.

Arzu... Arzu... Sənin Aslana doğru uzanan ciddi və səmimi baxışlarının içindən belə bir nida çıxır: "Sən uzun və fasiləsizsən..." Aslan bunu nə zamansa hökmən başa düşəcək. Təki belə olaydı.

**<u>Günlərin bir günü. Evdə. Günortaçağı.</u>**
**<u>Quş kimi qanad açıb uçan balkonu xatırlarkən.</u>**

Artıq daha çox nə zamansa olmuş hadisələri xatırlamağa başlamışam. Çoxdandır məktəbdə olmuram, yəqin ona görədir. Həkimlərin sözü ilə evdən bayıra çıxmıram. Müxtəlif illərdən müxtəlif hadisələr gəlib yadıma düşür. Uşaqlığım, hələ məktəbə getmədiyim illər, daha sonra məktəbliləri, köhnə məhəlləmiz evimizin qarşısındakı iki nəhəng tut ağacının altında top əvəzi, əski-üsküdən öz düzəltdiyim balaca, yumru dəyircəklə guya futbol oynamağım...

Atamı küçənin o başında tində görəndə dördayaq evə cumardım, təngnəfəs hardasa özümə yer tapıb, adətən bu çarpayının altı olardı, orada gizlənərdim... ürəyim az qala yerindən çıxardı, gup-gup vurardı, çünki yenə də küçəyə icazəsiz çıxmışdım.

– Balkon uçdu, ay bala, bir az sakit-sakit oyna. Sənə nə olub belə? – Anam mənə acıqlanardı. – Balkon uçdu axı...

Küçəyə çıxmaq qadağan olanda evdə həngamə qopararmışam. Hər halda indi bunu mənə yatağımın yanından bir addım belə kənara çəkilməyən anam deyir, mənim uşaqlığımdan cürbəcür "nağıllar" danışır.

- Mən sənə tez-tez acıqlanırdım. Sakit durduğun olurdu heç?! Elə nadinc idin... Rübabə müəllimə hər məni görəndə "uf, uf... Nazimin əlindən..." deyərdi.

***Qeyd. Rübabə müəllimə bizim ibtidai sinif müəlliməmiz olmuşdu. 1-ci sinifdən dördüncü sinfə qədər bizi o gətirmişdi. İlk müəllimənmiz idi. Bircə ona heç bir zaman lağ eləməzdik, dalıyca danışmazdıq. Sonralar hər dəfə məktəbdə təsadüfən bizi görəndə (onun dərs növbəsi həmişə başqa vaxta düşərdi) gözləri parıldayardı.***

***Rübabə müəllimə iki il əvvəl rəhmətə getdi. Aslan danışırdı ki, (o, Rübabə müəllimənin qonşusu***

***idi) ömür boyu tək, tənha yaşamış Rübabə müəllimə yeniyetmə, yetim bir qızı övladlığa götürüb öz iki-otaqlı mənzilinə kitaba salır. Qızı bir nəfər istəyir, qız da ona ərə getməyə razılıq verir. Rübabə - müəllimə onlara toy edir, oğlana da qızla birgə öz evində yaşamağa icazə verir. Bu ikisi qoca arvadı bir müddət sonra gününü göy əskiyə büküb evdən qaçaq salırlar. Həyatının sonuna qədər məcbur olur qohum-qonşu evində yaşayır...***

..."A bala, balkon uçdu"... Qəribədi, mənə həmişə, lap elə yaşlandığım bu vaxtacan elə gəlib ki, anamın sözlərindən sonra balkonumuz doğrudan da quş kimi qanad açıb harasa uçacaq.

**Yenə həmən günlərin biri.**

Nədənsə bu gün də futbol oynamağım yadıma düşüb. İlk dəfə qonşumuzun oğlu İlqar var idi, onunla küçəmizdə əlimizə nə keçirdisə dəyircək, yəni topa oxşar bir şey düzəldib, onu haldan çıxaranacan ora-bura vurub tər bədənimizdən su kimi axdıqca qaçardıq.

Sonralar, biz böyüdükdən sonra futbol məktəb həyətindən bizi dərsdən sonra da xeyli vaxt "ayaqlarımızdan tutub" buraxmırdı. İnsafən, özümü qətiyyən öymədən deyə bilərəm ki sinifdə mənim kimi futbol oynayan yox idi. Ley kimi idim. Topla elə rahat uçurdum ki... Məktəb həyətində suda balıq kimiydim. Mən məktəbin ancaq şairi deyildim, mən həm də futbolçu idim. Bir dəfə keçən il qonşu məktəblə məktəb-məktəbə oynayırdıq. Qolların dördündən üçünü mən vurdum. Özü də necə? Qəşəng! İndiyənəcən xatırlayıram, ləzzət eləyir. Amma bu il oynamaq mən istəyən kimi alınmayacaq — hiss edirəm. Qaça bilməyəcəyəm əvvəlki kimi.

İki-üç addım atandan sonra təngnəfəs oluram. Dərman çox içirəm, bəlkə ondandır?!

Yadıma futbolla bağlı başqa bir hadisə düşür. Sinfimizin tarixində çox "razborkalar", yəni araşdırmalar olub. Ən məşhur araşdırma isə hamı razı

olar ki, futbolla bağlıdır. İndiyənə qədər onu müxtəlif tədbirlərdə, şatal zamanı, ad günlərində ləzzətlə xatırlayırıq, detallarına qədər təhlil edirik. Ən məşhur araşdırma biz yeddidə oxuyanda sinifdə futbol oynayan yerdə sinif pəncərəsini kimsə topla vurub sındırandan sonra oldu. Qızları sinifdən qovmuşduq, partaları çəkdik və balaca meydança düzəltdik, başımız qızışdı... "Bəxtimizdən" təsadüfən bu zaman sinfin yanından Sona müəllimə keçirmiş. Sınmış şüşənin səsinə sinfin qapısını itələyib Sona müəllimə qasırğa kimi içəri girdi, biz əfsunlanmış kuklalar kimi hərə öz yerində donub qaldıq, otaqda hərəkət edən yalnız o divara, bu divara, masalara, ora-bura dəyib-düşən top oldu, yavaş-yavaş o da hərəkətini xərcləyib qurtardı, günahkar-günahkar gəlib düz Sona müəllimənin əzəmətli mücəssəməsinin qarşısında dayandı. Bir an sonra bu lənətəgəlmiş top hardansa özündə əlavə güc tapıb öz-özünə sınıq pəncərənin yanındakı küncə tərəf dığırlandı. Deyəsən onu ora Sona müəllimənin dəhşətdən dörd olmuş gözlərinin görünməyən gücü itələmişdi.

Sona müəllimənin səsi az qala tavanı deşib göylərə ucaldı. Ən yaxında kim var idi?! Birinci özünü hövlnak otağa salan Arif müəllim oldu. Arif müəllimin üzünə hədsiz qorxu və çaşqınlıq yapışıb qalmışdı.

***Qeyd. Arif müəllim məktəbimizin ən cavan müəllimlərindən idi. Vaxtilə o da Şərqiyə müəllimə kimi bizim məktəbimizi bitirmişdi. Deməli, Sona müəllimənin zəhmi onda da var idi. O bizim rəsmxət müəllimimiz idi və onun dərsi bizim söhbət və qeybətlərimiz üçün biz tərəfdən ən əlverişli vaxt kimi dəyərləndirilirdi. Arif müəllim özü də həvəslə bizim bu qayğısız söhbətlərimizə qoşular, biz də onu az qala öz dostumuz bilərdik.***

***Ancaq bu, "razborka"ya qədər belə oldu.***

Sona müəllimənin gözlərini heç vaxt unutmayacağam. Onun dəhşətdən böyümüş gözləri sinifin pəncərə tərəfdəki küncünə sığınmış zavallı

topa ilişib qalmışdı. Yer şüşə çilikləri ilə dolu idi. Yaxşı ki, ancaq otaq tərəfdəki şüşə sınmışdı (şüşə ikiqat idi), bayır şüşə ancaq çatlamışdı, sinif üçüncü mərtəbədə idi, aşağı həyətə qırıntı-zad düşməmişdi. İndi düşünürəm ki, o vaxt Sona müəllimə nahaqdan qorxmadı, hər şey ola bilərdi, şüşə parçaları həyətdə kiminsə başına düşə bilərdi. Əsl xatadan qurtarmışdıq. Allah qurtarmışdı.

Sona müəllimə yaxınlaşıb pəncərəyə diqqətlə baxdı, əmin oldu ki, aşağıya, həyətə şüşə parçası düşməyib, yalnız bundan sonra yenə də gözü ilə topa məhvedici bir nəzər salaraq Arif müəllimin üzünə belə baxmadan əmr elədi:

– Arif, mən sənə tapşırıram ki, sən indi sinfə bu topun kim tərəfindən gətirildiyini öyrənib mənə xəbər verəsən. Yoxsa... İndi dərs ləğv olunur. Arif müəllimin icazəsi olmadan heç kim evə getməyəcək. – Son sözləri Sona müəllimə qəti ittihama çevirib az qala şapalaq kimi üzümüzə vurdu.

Sonra Sona müəllimə necə ki gəlmişdi, o cürə gəldiyi kimi sərt bir dönüşlə çönüb sinifdən çıxdı.

Xidmətçi gəlib otağı deyinə-deyinə təmizləyib çıxıb getdi. Arif müəllimi tanımaq olmurdu. O bir anın içində dönüb tamam başqa bir Arif müəllim olmuşdu. Qəzəbdən, hirsdən üz-gözü dəyişmişdi, əlləri qoca əlləri kimi əsirdi.

– Kim, kim gətirib bu topu məktəbə?

Top nadir muzey eksponatı kimi müəllimin jurnal masasının üstünə qoyulmuşdu, yazıq günahkar-günahkar susurdu. Biz artıq hərə öz yerində kirimişcə oturmuşduq. Arif müəllim isə robot kimi öz sualını artıq neçənci dəfə eynən olduğu kimi (ancaq müxtəlif intonasiyalarla) təkrar eləyirdi:

– Kim gətirib məktəbə bu topu?

Sinif susurdu.

**<u>Haman gün. İki saat sonra. Həqiqətin deyiminin tərzi olurmu?</u>**

Sonrakı dərslərimizin hamısı ləğv olundu. Daha sonra dərs günümüzün bitməsindən də bir saat keçdi, amma bizi evə buraxmırdılar. Sinifdə hakimi-dövran Arif müəllim idi. Əvvəl-əvvəl o, qəribə bir metod seçdi.

Bizə ("bizə" deyəndə ki, əsasən oğlanlara) hədə-qorxu gəlməyə başladı. Ay belə asaram, belə kəsərəm, siz hələ məni yaxşı tanımırsınız, kim istəyirsə çıxaq bayırda ayırd eləyək (bəli, bəli, Arif müəllim elə belə də dedi) və s. və i.a. Amma çox tez anladı ki, bu "qeyri-pedaqoji" yolla bizdən heç nəyə nail ola bilməyəcək, taktikasını dəyişdi. Dostluq, həmrəylik, məhəbbət barədə mənasız-mənasız söhbətlərə keçdi. Az qala dəridən-qabıqdan çıxırdı. Biz söhbətdə, təbii ki, iştirak edirdik, amma əsas məsələyə gəlib çatanda hamımız yenə də lal-karlar kimi susurduq. Heç kim guya ki, bu başıbəlalı topun kim tərəfindən gətirildiyini bilmirdi.

***Qeyd. Topu isə məktəbə İlkin gətirmişdi. Amma, adamın Allahı var, İlkin deməmişdi, gəlin sinifdə futbol oynayaq. Bizim fikrimiz dərslərdən sonra məktəb həyətində futbol oynamaq idi. Hövsələmiz çatmadı, sinifdən başladıq.***

Məni bir məsələ rahat buraxmırdı. Yaxşı bu topu məktəbə kimin gətirməyinin nə əhəmiyyəti vardı, onu tutalım İlkin yox, qara Ziba da gətirə bilərdi. Pəncərəni vurub sındıran kim idi – bunu müəyyənləşdirmək lazımdır. Bu isə "istintaqı" aparan Arif müəllimin də, "istintaqın sifarişini verən" Sona müəllimənin də yadından çıxmışdı. Pəncərəni sındıran Arif müəllimi qətiyyən maraqlandırmırdı. "Topu məktəbə kim gətirib?" – Onun bütün həyəcan və marağı bu sualın ətrafında idi, "topu kim gətirib?". Çünki Sona müəllimənin tapşırığı məhz topu məktəbə gətirəni tapmaq idi, vəssalam.

– Mənə inanın, söz verirəm sizə. – Arif müəllim gördü ki, təkcə sözlə bəlkə də iş keçməyəcək. – Məni tanıyırsız. Namusuma, vicdanıma and içirəm, o adama heç bir şey olmayacaq... Mənə inanmırsız? Partbiletimi göstərim?

"Daha o zaman topu gətirəni neyləyirdiniz? İki saatdır ki, boş-boşuna çənə vurursan?!"

– Mən özüm lazım gəlsə Sona müəllimədən xahiş edəcəyəm. - Sonra Arif müəllim qəfildən üzünü mənə tutdu. – Nazim, sən futbolun bilənisən, əla da oynayırsan, özüm görmüşəm məktəb həyətində. Yadında o gün sə-

nin oyununu nə qədər təriflədim? Özünə də dedim... Sən gətirmisən? Dost kimi, söylə... - Arif müəllim bir o qaldı ki, əlavə eləsin: "Mən – magila. Heç kimə deməyəcəyəm."

– Yox, Arif müəllim, mən gətirməmişəm.

– O gətirməyib. O gətirməyib... – Qızlar bir ağızdan mənə tərəf çıxdılar.

- Bəs kim... gətirib? Sən günahkarı gizlədirsən?? - Arif müəllimin gözləri "dəhşətdən" böyüdü. Nədənsə məhz mənim sorğu-sualım uzanırdı.

– Bilmirəm. – Mən bu dəfə səsimi bir azca qaldırdım.

– Yaxşı, otur! – Arif müəllimin üzü də, səsi də dəyişdi – Otur! "Bilmirəm." (Mənim sözümü təqlid elədi) Bşs bu top göydən gəldi, özü düşdü sizin sinfin içinə?! Sonra özü də getdi pəncərəni sındırdı? Özünüzü dolamısız?! – Arif müəllim daha heç cür dözməyib yalançı mülayimlik pərdəsini üzündən tam cırıb atdı bir kənara, əsl iç üzünü indi göstərməyə başladı. "İstintaq" yeni istiqamətdə, yeni energiya ilə davam etdi.

Vaxt keçdikcə sinifdə ümumi həyəcan əhvalı da artırdı. Arif müəllimi isə bu qətiyyən maraqlandırmırdı, o həmən eyni sualı hər dəfə başqa ton və intonasiya ilə eynən tutuquşu kimi təkrar eləməyində idi:

– Bu topu məktəbə kim gətirib? Məktəbə bu topu kim gətirib? Kim bu topu məktəbə gətirib? Və s. və i.a.

Artıq bu sual gah çox mülayim, gah çox sərt, gah hiyləgər bir sadəlövhlüklə, gah yorğun, gah da əksinə xeyli aqressiv şəkildə səslənir. Hamımız yorulmuşuq. Qızlar xüsusən. Nəhayət, Qənirə qətiyyətlə ayağa qalxıb söz istədi:

– Arif müəllim, dərslər çoxdan qurtarıb. Bizi evdə gözləyirlər axı. Bizim (yəni biz qızların) günahımız nədir? Bizi buraxın gedək. Bunlarla özünüz bilərsiniz.

Xəyanət!! Qənirənin işi yaxşı olmayacaqdı. Qala divarlarının yanında onun yaxın gələcəkdəki məhkəməsi az qala canlı şəkildə gəlib gözlərimin önündə canlandı.

Arif müəllim əməlli-başlı çaşıb qalmışdı. Bilmirdi ki, nə eləsin, nə cür qərar qəbul eləsin. Və nəhayət... Bu zaman İlkin ağır-ağır ayağa qalxdı. Hamımızın çiynindən dağ götürüldü. Yəqin təsəvvür etdiniz niyə. Topu axı

ilkin gətirmişdi və bunu ancaq onun özü boynuna ala bilərdi. Yazılmamış qanunlar var.

Özü də təsadüfdən İlkin Arif müəllimin sevimlisi idi. Sona müəllimənin caynağından Arif müəllim onu özü bilərdi necə xilas edərdi.

***Qevd. Bəli, İlkinin fitri istedadı vardı, o əməlli-başlı rəssam idi, bir dəqiqədə elə gözəl mənzərələr, portretlər çəkirdi ki, Arif müəllimin özünün ağzı açıq qalırdı. Onlar çox mehriban idilər. Qərəz, mən Zərbəli müəllim üçün kim idimsə, İlkin də Arif müəllim üçün o idi. Hətta çox zaman məktəbin plakat yazmaq, şəkil çəkmək kimi rəssamlıq işlərini Arif müəllim yerinə yetirəndə onun biriminci köməkçisi həmişə İlkin olardı.***

Bayaqdan İlkindən hamı bu addımı gözləyə-gözləyə qalmışdı. Niyə boynuna almırdı, başa düşə bilmirdik. "Topu kim gətirib?" – İlkin deyə bilərdi ki, nolsun mən top gətirmişəm, topu hamı gətirə bilər, şüşəni ki mən sındırmamışam. İlkin belə deyə bilərdi. Bütün bu "istintaq" zamanı biz bir-birimizlə gözlə-qaşla danışırdıq:

– "Bu niyə susub?"

– "Durub desin də. Nə olacaq ki?!"

– "Hamımız onsuz da yanmışıq. Sən gətirmisən, özün dur, de də bunu".

Arif müəllim görəndə ki, İlkin ayağa qalxıb nəsə etiraf eləmək istəyir, əvvəlcə çaşdı, sonra "sakit, sakit..." deyib sinfi sakitləşdirdi:

– Buyur, İlkin. Kim gətirdi məktəbə bu topu? — Arif müəllim "bu" sözünü xüsusi şəkildə vurğulayıb hələ üstəlik barmağını da masa üstündəki topa tuşladı, guya ki, söhbət başqa bir topdan da gedə bilərdi.

– Arif müəllim, topu məktəbə... mən gətirmişəm. - İlkin udqunub nəhayət ki, qətiyyətlə boynuna aldı.

Sus! – Arif müəllim ona sözünü də qurtarmağa imkan vermədi, ağzından vurdu, üstünə də az qala qışqırdı. – Sus! Bu qəhrəmana bir bax.

"Mən gətirmişəm". Mən səni çox gözəl başa düşürəm, sən başqasının günahını öz üstünə götürürsən. Alicənablıq etmək istəyirsən? Alınmaz! Sənin ürəyin yumşaqdır – ona görə belə deyirsən. "Mən gətirmişəm". (Bu dəfə ilkinin ağzını hirslə əydi). Sən gətirməmisən topu! Sən gətirməmisən. Otur!! Yox bir!

Hamımız təəccübdən quruyub qaldıq. Bizim "qəhrəman" İlkin isə, gözünə dönüm, sakitcə oturdu yerinə, öz borcunu yerinə yetirmiş, vicdanı qarşısında üzü ağ, alnı açıq adamlar kimi ora-bura boylandı: "Mən daha nə edə bilərəm? İnanmır da mənə".

***Qeyd. Amma əslində İlkin çox incə bir "xod" eləmişdi. Bunu sonralarçox müzakirə etsək də ona sübut edə bilmədik. İlkin "topu mən gətirmişəm" sözlərini elə bir tonda dedi ki, əslində bu, "topu mən gətirməmişəm, amma daha neyləməli, alıram boynuma başqasının yerinə" mənasına uyğun gəlmişdi. Arif müəllimin bu incəliyi duyub-duymamasını deyə bilmərəm, amma onun İlkini müqəssir rolunda görmək istəməməsi əlbəttə ki, ona olan simpatiyasından irəli gəlirdi, bu yüz faiz belə idi.***

O "razborka"nın aqibəti çox... acınacaqlı və komik oldu. Arif müəllim sonrakı siniflərdə bizə dərs deməsə də bizimlə, bizlərdən kim iləsə görüşəndə həmişə müqəssir kimi baxışlarını gizlədərdi, çünki sonra əlbəttə, məlum olmuşdu ki, topu məktəbə həqiqətən İlkin gətirib. Bu xəbər Sona müəllimədən çıxdı. Arif müəllimin isə 3-4 saatlıq ağır və gərgin zəhməti tam şəkildə boşuna getmişdi.

Onu hökmən qeyd eləməliyəm ki, "istintaq"ın sonunda Arif müəllim bizə kiçik bir tənəffüs verdi. Elə bu tənəffüsdən az sonra Sona müəllimə həmişə olduğu kimi yenə də qəfildən sinif qapısını açıb bu dəfə arxasınca Şərqiyə müəllimə, ikisi sinfə girdilər. Şərqiyə müəllimə direktorun arxasınca az qala qaça-qaça gəlirdi.

***Qeyd. O zaman sinif rəhbərimiz elə Şərqiyə müəllimə idi. O da Arif müəllim kimi bizim məktəbimizin məzunu olmuşdu. Buradakı yaşlı müəllimlər vaxtilə onun da müəllimləri idilər və o da Sona müəllimənin yanında hələ də özünü ən azı yuxarı sinif şagirdi kimi aparırdı. Riyaziyyat müəlliməsi idi, hamımız onunla "dil" tapıb dostlaşmaq istəyirdik, xüsusilə də bizim dəstə – cəbr, həndəsənin "alimləri"... Açığını desəm, dostluq alınmışdı.***

– Sən, qalx ayağa görüm. – Sinfə girən kimi Sona müəllimə İlkinin az qala gözünə soxdu barmağını. – Mən dedim sizə ki, (üzünü Şərqiyə müəlliməyə tutdu) bu iş ya İlkinin işidi, ya da Nazimin? Sabah valideynsiz məktəbə gəlmə.

Sona müəllimənin son sözləri, təbii ki, ancaq İlkinə aid idi. Sinifdə hamı rahat nəfəs aldı. Boynuma alım ki, elə mən özüm də. Təkcə Arif müəllimin ya heyrətdən, ya təəssüfdən üz- gözü tanınmaz bir şəklə düşmüşdü.

Məktəbin həyətində isə araşdırma davam edirdi. Ancaq bu araşdırma artıq bizim araşdırmamız idi və biz yalnız bir suala cavab axtarmaqdaydıq: bizi kim satıb? Daha doğrusu: İlkini kim satıb?!

Əslində əvvəlinci sual daha məntiqli idi. İlkini satan elə bizim hamımızı satmışdı. Vaxt keçirdi. Amma heç birimiz məktəb həyətindən dağılmağa tələsmirdik. Satqın kim idi? Kim iki daşın arasında xəbəri gedib Sona müəlliməyə çatdırmışdı?

– Kinoya gedəndə ilişdik... – Azər beynində bütün məqamları götür-qoy edirdi.

– Üçümüz idik. – Mən çoxdandan bəri mənə rahatlıq verməyən bu mövzudan həvəslə yapışdım və məsələni dəqiqləşdirməyə çalışdım. Bu, Aslanın xoşuna bəlkə də gəlməyəcəkdi. – Ya bizi məktəbdən gedəndə görüb bu adam, deməli həmən gün dərsə gecikən kim olub, kimin yadındadı?

– Yada?..

– Ya da birinci dərsə kim gəlməmişdi – o. Bizi yəqin saat 9-a yaxın "Azərbaycan"ın ətrafında görüb...

Əsas məsələdən yayındıq. - Aslan mənə tərəf həvəssiz halda başını bulayıb bu söhbəti dəyişmək istədi, yenə də "top"un üstünə qayıtdı.

– İlkini iki daşın arasında kim satdı? Kim satdısa 5 dəqiqəlik tənəffüsdə satdı...

– Aşağı, direktorun yanına kim düşdü? Görən oldu kimisə?..

Natiq:

– Üçüncü mərtəbəyə, Şərqiyənin də yanına gedə bilərdi. Müəllimlər otağına... – dedi.

– Doğrudur. – Biz yenə növbəti müəmma ilə üzbəüz qaldıq.

– İndiyə ancaq bir nəticə çıxarmaq olar.

– Mən heç cür "şatal" satqınını unuda bilmirdim.

– Şatalın şipyonluğunu eləyən və İlkini satan – eyni adamdır!

– Bəli, oğlum, düz deyirsən. Daha bir sinifdə neçə şipyon ola bilər?! Biri bəsdi də. – Arif də mənim tərəfimi tutdu.

Nə qədər çalışdıq yada sala bilmədik, Arif müəllimin "razborkası" zamanı (tənəffüsdə) müəllimlər otağına, yaxud Sona müəllimənin kabinetinə tərəf kim gedib?! Qərara gəldik ki, qızlarla da bir məsləhətləşək, sonra görək neynirik.

– Bütün bu söhbət zamanı mən bircə dəfə də olsun Aslanın üzünə baxmadım. Aslan da gözlərini məndən qaçırdı. Fikirləşdim ki, lazım bilsə "bizi satanın" kim olduğunu özü deyər. Demirsə, səbəbi var. Bəlkə dərinə getməmək daha məsləhətlidir?! Ayrılanda Aslan mənə gözlərilə "sağ ol" dedi (əslində təşəkkür elədi).

## Yenə də o günlərdən biri. "Onun dəniz kimi gömgöy gözləri vardı..."

– Bu gün səhərdən yadıma görün nə düşüb?! Velosiped!

– Mənim özümün velosipedim olmayıb. Amma onunkunu-bununkunu bol-bol sürmüşəm. Özü də ilk dəfə velosipedə mindiyim günü heç zaman unutmaram.

***Qeyd. Təbii ki, söhbət ikiçarxlı velosipeddən gedir. Üççarxlı velosiped qaldı "uşaq bağça"sı dövründə!***

– Nə zaman velosiped görürəm, o gəlib durur gözlərimin önündə. Alnının üstündə telindən başqa tərtəmiz qırxılmış, bədəninə görə bir balaca böyük başı ilə, Xəzərin suları kimi dumduru, gömgöy gözləri ilə. Şalvarının balağı paltar sərəndə arvadların istifadə elədikləri tutqacla sıxılardı (velosiped sürəndə balaqlar çarxa ilişməsin deyə). Köhnə məhəllədəki qonşumuzun oğlu, mənim həmyaşıdım...

– Adı Nizami idi onun, Nizami. Mənim ilk dostum. Məktəbəqədərki illərin əziz adamı.

...Uşaq vaxtı köhnə məhəllədəki evimizin düz qabağında qoşa tut ağacı o biri üzbəüz səkinin altından nə zamansa yanbayan ucalmışdı, budaqlarının kölgəsi küçənin biz tərəfinə qədər çatırdı. İkinci mərtəbədə balkonumuz var idi, o balkonun pəncərələri açıq olanda tut ağacının (demək də çətin idi hansının, hər ikisinin yuxarı budaqları bir-birinə sarılıb qarışmışdı) bu bir-birinə qarışmış budaqları yarpaqlarını zor-güc də olsa balkonumuzun içinə soxurdu. Bu balkon çox zaman mənim əsas oyun meydançama dönərdi. Nə qədər atdanıb-düşərdilər burda?! "Balkon uçdu, a gədə..." Anamın səsi... Hələ o zaman məktəbə getmədiyim vaxtlar idi. Balaca həyətimizdə ancaq gizlənpaç oynamaq mümkün idi, ortada yekə, qara bir krant var idi, krantdan sağa, sola, irəli, arxaya iki metrdən çox məsafə olmazdı. Biz də gizlənməyə yavaş-yavaş başlamışdıq küçəyə çıxmağa.

Bizim küçə çox maraqlı bir dünyanın başlanğıcı idi, o vaxtlar bizim üçün çox nəhəng idi. Bu yaxınlarda yolum ordan düşmüşdü. Ensiz və balaca göründü mənə. Tut ağacları da yəqin ki, qurumuşdu, onları kimsə dibindən kəsmişdi. Amma küçə yenə də böyüməmişdi. Köhnə həyətimizin yanından keçəndə açıq həyət qapısından içəri boylandım. Həyətdə heç kəs yox idi. Elə küçə də demək olar ki, bomboş və qəmli idi.

O vaxtlar isə bizim bu "nəhəng" küçədən tanış və tanış olmayan nə qədər gəlib adamlar keçərdilər. Hər şey necə rəngbərəng, canlı, səsli-küylü idi. Yubkalar təzəlikcə yavaş-yavaş yuxarı qalxırdı, köynəklər yavaş-yavaş

bədənlərə yapışmağa başlayırdı. Biz evimizin səkisində oturub Nizami deyən kimi edirdik. Ondan soruşmuşdu bir dəfə anası ki, nə edirsiniz burada siz, boş-boşuna sakit-səssiz oturmusuz, sizdən nə əcəb? Nizami bu suala belə cavab vermişdi: "Gedənlərin dalına baxırıq, gələnlərin qabağına". Bunu deyib bic-bic sonra mənə göz də vurmuşdu.

– Nizamigilin ailəsi biz köçəndən bir qədər sonra şəhərin yuxarı məhlələrindən birinə, yeni salınan Yasamala köçdü. Ora köçəndən bir neçə il sonra (biz artıq 6-cı, ya da yeddinci sinfə gedirdik) Nizaminin həyatı faciə ilə bitdi. Onu öz sinif yoldaşı məktəblərinin həyətində bıçaqla vurub öldürdü. Nizami, sən demə, bu alçaqdan kimisə həmişə qoruyurdu, döyülməyə qoymurdu. Bu da bundan yığmışdı. Hər halda sonralar bu bıçaqlaşmanın səbəbini belə izah etdilər.

– Bəlkə də Nizami mənim ilk dostum idi. Yəqin ki, bu belə idi. Mən onu ən azından hər dəfə küçədə, ya da bağda kimisə velosiped sürməyə cəhd edən görəndə xatırlayıram. Mənə velosiped sürməyi o öyrədib. Atası ona, biz hələ o zaman məktəbə getmirdik, təzəlikcə cağ bir velosiped almışdı. Nizami bu velosipedə minib küçədə o baş-bu başa maşın sürətilə uçub gedərdi, elə sürərdi ki, elə bil ömrü boyu həmişə velosiped sürmüşdü. Nə zaman bu öyrəndi sürməyi? Yadımdadı, bir dəfə məni zorla öz velosipedinə otuzdurub (bu mənim üçün ilk dəfə idi) ikiəlli tarazlığımı qoruya-qoruya belə dedi:

– Nəbadə ayaqlarının altına, ya da çarxa baxasan. Başını dik tut, ancaq qabağa, irəli bax.

Nizaminin gömgöy, sakit, dəniz sularına bənzəyən gözləri, xeyirxah ürəyi vardı. Çox yaşamaq qisməti olmadı. O, xəstəxanada ölüm ayağında ikən, təsadüfə bax, mən də həmən xəstəxanada, həmən mərtəbədə, iki palata bu tərəfdə yatırdım. Bu hadisəni eşidib ona baş çəkməyə getdim. Palatanın qabağı adamla dolu idi.

– Nazim, sən də burdasan? Görürsən başımıza nə gəldi?! – Nizaminin atası palatanın qabağında məni görüb doluxsundu. Anasının və bacılarının gözlərindən yaş su kimi töküldü. Elə mənim özümü də qəhər boğmağa başladı. Köhnə qonşularımızın dərdi doğrudan da böyük dərd idi.

– Gedək yanına, hələ görək səni tanıyacaq?! - Atası ərklə məni çiynimdən qucaqlayıb az qala zorla Nizaminin palatasına saldı. Yanında həkimlər var idi, hazırlaşırdılar çıxmağa.

– Gör yanına kim gəlib, Nizami?! - Atası səsinə süni şuxluq verərək çarpayıya yaxınlaşdı. Mən də yaxınlaşıb çarpayının ayaq tərəfində durdum. Nizami göy gözləri ilə gözucu mənə sarı baxdı, başını divara döndərdi, susdu.

– Biz uzun zaman olardı, bəlkə də bir neçə il olardı, görüşməmişdik. "Tanımaz məni yəqin" – düşündüm. Köhnə məhəllədən köçəndən sonra artıq hər birimizin öz məktəbi, öz yeni dostları, öz güzəranı... Bir-birimizə uzaqdan-uzağa, hərdən kiminləsə "salam" göndərirdik, ya da təsadüfən şəhərdə hardasa görüşəndə (bu bir, ya da iki dəfə olmuşdu) bir xeyli söhbət edib hal-əhval tutur, uşaqlığımızı xatırlayır, bir-birimizin yadına müxtəlif hadisələri salırdıq. İki sözümüzdən biri "yadındadı?" olardı. Qoca qonşumuz Badam nənə, Nadir kişi, küçədə üzbəüz dalandakı evdə yaşayan İlham, həyətimizdəki Nyura xala, Cabir, Vasif, daha kimlər... bir-bir gəlib yada düşərdilər.

***Qeyd. Badam nənə sözün əsl mənasında mənə nənə kimi idi. Mən körpə olanda anama məni saxlamaqla bağlı çox köməkliklər etmişdi. Bir evli kimi idik. Məni öz oğlu Cabiri sevən qədər sevərdi. "Qoşulma sən bu vələduznalara, sənin onlarla nə işin var, onlar düz adam deyillər..." Mənə bu cür öyüdlər verər, küçədə heç kimlə oynamağa qoymazdı. Badam nənə, Badam nənə... "Damdabaca gəlib səni aparar, bax, nə deyirəm, saxla yadında, qoşulma bu vələduznalara..."***

İndi isə Nizaminin halsız-taqətsiz bir quru taxta parçası kimi uzatmışdılar çarpayıya. Rəngi-rufu altına salınmış mələfə rəngində idi, huşu gedib-qayıdırdı, heysiz nəfəsini nəfəsini güclə alırdı. Nizaminin ancaq göy gözlərinin rəngi həmənki idi.

– Nizami... tanıdın, kim gəlib? – Bu dəfə anası ağlar səslə ahəstəcə onu səslədi.

Üzünü divara çevirmiş Nizami heç kimin ondan gözləmədiyi son dərəcə aydın, dəqiq, hətta bir az da mən deyərdim, şax səslə ucadan:

– Nazim Mehdi oğlu Hüseynov! – deyə, səsləndi. Hamımız mat qaldıq.

* * *

Axşama yaxın mən yenə (bu dəfə anamla) Nizaminin yanına getdim. Artıq həkimlərdən öyrənib bilmişdik. Nizaminin vəziyyəti son dərəcə ağır idi. Yara ölümcül idi. Palataya hamısı birdən toplaşmışdı – atası, anası, bacıları... Onun anası anamla öpüşüb ağlaşdılar. Bir xeyli müddət səssiz bir hıçqırtı içində qaldı hamısı. Elə bil nəyisə gözləyirdilər.

Qəfildən nə baş verdi, vermədi. Nizaminin atası ilə anası uca səslə "vay" deyib hönkürtü vurdular, atası üzünü əlləri ilə qamarlayıb sürətlə palatadan çıxdı. Mən bir şey anlamadım. Çünki görürdüm ki, bunun gözləri hələ açıqdır, axı bildiyim bu idi: insan gözlərini yumub ölür. Bunun göy gözləri isə hələ açıq idi. O zaman niyə Nizaminin gözlərini bağlayırdı?! Niyə bunlar elə bilirlər ki, bu ölüb?! İstədim qışqıram ki, axı niyə, niyə sizə...

"– İrəli bax, Nazim, irəli. Nəbadə ayağının altına baxma. Ancaq irəli!.." – Nizami son dəfə mənə bu sözləri gömgöy gözlərilə pıçıldadı və bu gözlər həkimin barmaqları altında elə bil kiçik bir himə bənd idi, çox asanlıqla yumuldu.

**Arif müəllimin "istintaq"ından iki gün sonra.**

Bizə uzun müddət İlkinin top gətirməsi ilə bağlı çuğulluq edən "şpiyonun" kim olduğu məlum olmadı. İlkinin bəxti gətirdi. Arif müəllim Sona müəllimə ilə nə danışdı, nə danışmadı, İlkin hətta dərslərdən də azad edildi. Bütün günü Arif müəllimin "Qırmızı guşə"sindən çıxmırdı. Bizim məktəbin əlamətdar hansısa günü yaxınlaşırdı, bütün şüarları İlkinə yazdırdılar. Əli, barmaqları bütün rəng idi, hələ çox uzun müddət bu rəng barmaqlarından getmədi.

**Sabir bağı. Qala divarlarının yanı.**
**Dərsdən sonra. "Satqınlıq nədir?"**

Daha şatala gedənlər də çox ehtiyatla gedirdilər. Adımız vayqanlı idi. Hər addımımızı, hər hərəkətimizi çox ciddi şəkildə izləyirdilər, "nəzarətə götürmüşdülər". Ona görə də dərslərdən sonra qızlarla razılaşdıq ki, Sabir bağında həmişəki "şatal" yerində görüşək. Təbii, onlar gecikdilər. Ancaq ikisi gəlmişdi - Qənirə və Arzu.

– Bizim aramızda satqın yoxdur! – Qənirə daş skamyaya yayxanıb birbaşa, özü də qətiyyətlə dedi. – Öz aranızda axtarın, taparsınız.

– Sən vurmadın, mən yıxılmadım, noldu bəs bu? - Mən əsəbi halda ilk yadıma düşən atalar sözündən istifadə etdim.

– Nazim, sən əsəbiləşmə. Biz ayırd edəcəyik. – Azər məni sakitləşdirməyə çalışdı.

– Kim satqınlıq nədir sualına cavab verər? - Arzunun səsi elə bil çox uzaqdan gəldi.

– Satqınlıq odur ki, satqınlıq odur ki... – Aslan çox həyəcanla Arzunun qabağında mil durub ona elə bil nəyisə sübut eləmək istədi, amma bundan başqa bir söz tapıb deyə bilmədi.

Biz susurduq. Qənirə və Arzu daş skamyalarda oturmuşdular. Natiq öz xəzinəsindən (yəni: oyuğundan) siqaret axtarırdı, ya da bəlkə oyuğun özünü axtarırdı, yerini itirmişdi nəydi, başı bərk qarışıq idi. İlkin, Səbuhi, Azər və mən ora-bura gəzişir, hərdən qızların yanında durub onlardan öz aləmimizdə hiylə ilə nəsə öyrənmək istəyirdik. Çünki qəti əmin idik ki, bizim axtardığımız satqın məhz sinfimizin qızlarının arasındadır və Arzu ilə Qənirə də bizə bunu əvvəl-axır açıb deyəcəklər. Ya xoşluqla, ya da hiylə ilə. Amma tərsliklərinə salıblar, kim idisə rəfiqələrinin ayağını vermək istəmirlər.

– Mənim qara Zibadan gözüm su içmir. Biz şatala gedəndə o dərsə gəlmişdi? – Azər səsinin şirin yerinə salıb qızlardan soruşdu.

Dərsdə idi, dərsdə idi, arxayın ol.

– Bəs kim yox idi birinci dərsdə? – Mən sualın yönünü dəyişdim.

– Mən! — Arzunun səsi çox qətiyyətli çıxdı. – Mən yox idim, Nazim. Gecikmişdim, ikinci dərsə gəldim. Mən! Başqa sözünüz var?

– Səndən danışan var? Sən niyə özünü ortaya soxursan? – Aslan Arzunun sözünü demək olar ki, ağzında kəsdi.

Mən, bax, bu zaman, necə deyərlər, barmağımı dişlədim. Amma bundan əvvəl Aslan tərəfə baxdım. Aslan ayaq üstə az qala səndirləyirdi. Bu zaman hər şey mənə artıq aydın oldu. Amma niyə? Niyə bunu Arzu etməliydi? Səbəb nə idi? Arzu ağıllı qız idi, onun hər sözünün, hər hərəkətinin bir səbəbi, məntiqi olurdu. Niyə?

Niyə, Arzu?! Mən bunu ondan gözləməzdim. Ürəyimdə nəsə qırıldı.

– Bəli, mən dərsə gecikmişdim. – Arzu, "dayan, dayan" – deyə onu saxlamaq istəyən Qənirənin əlini itələdi, heç kimə heç bir fikir vermədən sözünə davam elədi. – Mən birdəfəlik bu məsələni açmalıyam, qoy hər şey aydın olsun, yoxsa, bəzi adamlar (Arzu Aslana tərəf baxdı) elə bilirlər ki...

Eh, Arzu, Arzu...

**Xəstəxanadan sonra. Evdə qaldığım günlərdən biri.**

Bu dəfə isə yadıma qəşəng bir uşaq oyunu düşür:

– Bənövşə, bənövşə,
Bizdən sizə kim düşə?
– Adı gözəl, özü gözəl filankəs...

Bu oyun uşaqlığın ən gözəl oyunlarından idi. İki dəstə düzəldərdik, hər birində də beş-altı uşaq, özləri də bərk-bərk bir-birinin əlindən tuturlar. Bu qafiyəli sual-cavabdan sonra (bənövşə-düşə) gözəl adı çəkilən o gözəl oğlan, ya da o gözəl qız qaça-qaça gəlib bu biri dəstənin bir-birindən yapışmış əl çəpərinə özünü çırpır; ya çəpəri yarır, ya da ki, çəpər möhkəm çıxır, deməli, əl əldən möhkəm yapışıb.

– Bənövşə! Bənövşə!..

Bir dəfə məktəb həyətində belə bir oyun zamanı (ya üçüncü, ya da dördüncü sinifdə idik) mən kiminləsə əl-ələ verib ürəyimizdə qəzəbə qarışmış ləzzətlə bizə tərəf sürətlə az qala uçan Elçini səbirsizliklə gözləyirdik.

***Qeyd. Elçin birinci sinifdən dördüncü sinfedək bizimlə bir oxumuşdu. Evləri bizim köhnə məhləmizə yaxın yerdə idi. Məktəbdən sonra hərdən bizə gələrdi. At kimi idi, bərk qaçmağı vardı. Elə qaçanda da ayaqlarını hündürdən atır, kişnəyib at kimi çapırdı. Buna bizim evdə anam necə qulluq edərdi, Elçin yeyərdi, içərdi, sonra mən onu evlərinə ötürməyə çıxardım. Yarı yolda birdən məni pis-pis söyüb götürülərdi, mən yana-yana onun dalınca baxıb qalardım, çünki qaçmağımın mənası yox idi, onsuz da çata bilməyəcəkdim ona.***

Mənim əlimdən yapışan Aslan idi. "Adı gözəl, özü gözəl" Elçin qarşı dəstədən at kimi yenə də kişnəyib bizə tərəf götürüləndə ani olaraq Aslanla mən baxışdıq. İkimiz də onun əlindən yetərincə yığmışdıq. Elçin ildırım sürətilə bizə çatıb özünü var gücülə məhz mənimlə Aslanın əl çəpərimizə çırpmazdan ikicə an əvvəl mən və Aslan əllərimizi buraxdıq. Elçinin gözləri son anda dəhşətdən dörd oldu, bu son anda o bizə qəribə bir yalvarışlı nəzər saldı, ancaq çox gec idi, Elçin təpəsi üstə yerə aşdı. Bir ay məktəbə başı sarıqlı gəldi. Sonralar Elçin ümumiyyətlə məktəbi tərk edib hara getdi, harda itdi, heç kim bilmədi.

Bənövşə!
Bizdən sizə kim düşə?
Adı gözəl, özü gözəl...
Elçin... Elçin. Yenə də Elçin!

* * *

...Mən gün ərzində ən çox günəşin artıq batdığı, amma qaranlığın hələ düşmədiyi bir vaxtı sevirəm. Qürub vaxtını. Çox qısa vaxtdır. Şəhərin əsl rəngi bu zaman üzə çıxır. Məncə bu, boz rəngdir.

**<u>Eksperimental inşa yazılandan bir gün əvvəl. Məktəbdə.</u>**

Böyük tənəffüs zamanı mən məktəbin bufetinə - ikinci mərtəbəyə endim. Yenə sosiska və çörək üçün böyük bir növbə var idi. İlkin növbədə çox irəlidə idi. Mən əlimlə ona işarə etdim, yəni: iki dənə! O, başını əyib "yaxşı" deyə cavab verdi.

İlkinin pulunu verəndə almaq istəmədi, amma mən güclə sosiskaların pulunu ona verdim.

– Nazim, - sosiskanı ləzzətlə yeyə-yeyə İlkin mənə iki daşın arasında "nağıl danışmağa" başladı. – Nazim, sən inşaları yoxlayan zaman bizə əməlli-başlı kömək eləyə bilərsən...

– Necə? – Mən təəccüb etdim.

– Salam, salam. – İlkin, kim idisə qonşu sinifdən, salam verib salam aldı, sonra yenə üzünü mənə tutub xısın-xısın davam etdi. – Çox asanlıqla. Mən, məsələn, sənin üçün yazıda işarə qoya bilərəm.

– Nə işarə? – Mən özümü xamlığa vurmağa çalışdım. – Başa düşərlər, nə danışırsan?!

- Heç kim başa düşməz.

"Heç kim başa düşməz?!" indi mənim vəziyyətimi başa düşən lazımdı. Mən nə edəcəkdim?! Əgər hərə öz işarəsi ilə gəlib yaxamdan yapışsa idi, o zaman mən bu işarələr burulğanının içindən necə çıxacaqdım?!

– Qiymət olmayacaq ki... Sən nədən qorxursan? – Mən ürək-dirək vermək məqsədilə İlkindən soruşdum.

İlkin nəhayət, anladı ki, məndə ona kömək etmək həvəsi yoxdur, daha dərinə getmədi.

– Yaxşı, sonra danışarıq, – deyib söhbəti bitirdi.

Aslan isə dərsdən əvvəl məsələni daha kəskin şəkildə qoydu:

– Sən öz payına düşən inşaları harda yoxlayacaqsan, demədilər sənə? – Aslan soruşdu.

– Zərbəlini bəs bu gün görməmisən? – Arif də mənim cavabımı gözləmədən söhbətə qatıldı, sual verdi.

– Yox. – İkisinə də eyni cavabı verdim.

Elə bu zaman mənim dalımca sinfə Şərqiyə müəllimə gəldi və dedi ki, Nazim, sən mənimlə müəllimlər otağına getməlisən, Zərbəli müəllim səni çağırır.

Müəllimlər otağında Zərbəli müəllim artıq məni gözləyirdi. Sadıq müəllim də burda idi. Onlar üçü – Zərbəli müəllim, Sadıq müəllim (o, məktəbin zavuçu idi), Şərqiyə müəllimə bir tərəfdə və mən o biri tərəfdə otağın ortasındakı dəyirmi stolun ətrafına əyləşdik.

– Mirzə Nazim, hazırsan? – Zərbəli müəllim müəllimlər otağında adam olduğu üçün siqaret çəkə bilmədiyinə görə əməlli-başlı dilxor idi.

– Bəli, Zərbəli müəllim, – ayağa qalxıb cavab verdim.

– Otur, otur...

Sadıq müəllim diqqətlə məni süzdükdən sonra adəti üzrə yavaş-yavaş, sakit bir tərzdə sözlərini deməyə başladı:

– Nazim, sən ağıllı oğlansan. Şairsən... Məktəb sənə böyük etimad göstərir. Burda ən əsas şərt obyektivlikdir. Sən ilk dəfə özün, müstəqil şəkildə öz yoldaşlarına qiymət yazacaqsan.

Şərqiyə müəllimə də asta səslə əlavə elədi:

– Böyük məsuliyyətdir.

– Elədir. Mirzə Nazim öhdəsindən gələcək. Mən yanında olacağam. Məsləhət lazım olsa...

Mən sədaqət dolu baxışlarımı bu sözləri deyən Zərbəli müəllimin üzünə dikdim. Zərbəli müəllim mənim üzümün ifadəsini lazımınca qiymətləndirdi və razılıqla sözünə davam elədi:

– Sabah axırıncı dərsdən sonra gələrsən müəllimlər otağına. Biz səninlə burda dəftərləri iki yerə ayırıb elə burdaca yoxlamağa başlayacağıq. Sabah sənə yoxlamanın prinsiplərini başa salaram. İndi isə get dərsə, get, ləngimə.

Mən hamıya ümumi bir "sağ ol" deyib müəllimlər otağından çıxdım. Qayıdıb sinif otağımıza girəndə artıq özümdən də asılı olmadan sifətimdə çox ciddi və hətta ağır bir ifadə var imiş. Axşam telefonda bunu mənə Firəngiz dedi.

**Eksperimental inşanı yazandan sonra.**
**Tənəffüs zamanı.**

Bir topa inşa yazılmış dəftəri dərsin axırında Zərbəli müəllim yığışdırıb apardı. Sinifdən çıxanda o üzünü mənə tutub dedi:

– Mirzə Nazim, axırıncı dərsdən sonra gələrsən müəllimlər otağına. Məktəbdə ləngiməyin barədə evdə xəbər eləmisən?..

– Bəli, Zərbəli müəllim. - Mən ədəblə ayağa qalxıb cavab verdim.

Sinifdə çox qəribə bir əhval-ruhiyyə var idi. Heç kim heç kimin üzünə baxmaq istəmirdi. Hamı özü üçün nə isə bir iş axtarıb tapmışdı, onunla məşğul idi. Sonra elə bil birdən yada düşdü ki, axı indi tənəffüsdür, sinifdən çıxan çıxdı, qalan yenə də başıaşağı - ya kitab oxuyur (guya!), ya da nəsə yazırdı.

Bir gün əvvəl biz hamımız sinifdə təntənəli şəkildə söz verdik ki, bu inşa məsələsinə ciddi yanaşacağıq və doğrudan da ürəyimizin ən dərin guşəsində hamıdan qoruya-qoruya saxladığımız sirrimizi nəhayət faş edəcəyik.

– Sən neçənci məhəbbətindən yazdın? – Səbuhi öz neştərini mənə sinifdən çıxa-çıxa elə bir şəkildə sancdı ki, bunu Firəngiz eşitsin. O da eşitdi, dodaqaltı acı-acı gülümsündü.

Səbuhi əvəz çıxırdı. Onun yerinə inşanı bir gün əvvəl yazmadığıma görə məndən öz aləmində bu cür hayıf alırdı. Pis öyrətmişdim onu. Hər dəfə əvəzinə inşa yazıb gətirirdim, o da ilan-qurbağa xətti ilə özü köçürürdü. Bəsidi, ***daha yazmayacağam.*** Əslində mən bu inşaları onun üçün "havayı" yazmırdım. Əvəzində o da riyaziyyatdan yazılı olanda, mənim heç vədə başım çıxmayan məsələləri həll edib mənə ötürürdü. Zalım riyaziyyatı əla bilirdi.

Onun arxasınca sinifdən mən də təngnəfəs çıxdım. Sinifdən çıxan kimi yaxasından tutub ***(arıq,*** sısqa bədəni vardı) bir dənə podnoşka ***verdim*** ki, təpəsi üstə gəlsin ***yerə,*** uşaqlar ortaya ***girib*** ayırdılar.

– Bəsdi, nə edirsiz, uşaqsız siz?

– Nazim, Nazim, burax bunu...

– Sona gəlir, sakit!..

Biz tələsik aralandıq. Sona müəllimə gəlib sinfimizin qabağından keçəndə bizə elə baxdı ki, nəhəng balinalar bu cür okeanda onların ətrafında dəcəl-dəcəl üzüb o tərəf bu tərəflərinə keçən balaca şıltaq balıqlara belə baxardılar.

– Yazdınız inşanı? – Sona müəllimə bizdən soruşdu, gözləri isə o tərəfdə, artıq o biri qonşu otağın qarşısına toplanmış, nəyi isə qızğın müzakirə edən başqa sinfin o biri oğlanlarında idi. Sonra mənim pörtmüş sir-sifətimə diqqətlə baxdı. Bir söz əlavə eləmədi.

– Yazdıq, Sona müəllimə.

– Çox maraqlı idi...

– Yenə olsun...

Azərin bu son sözlərindən sonra mən Molla Nəsrəddinin kəndlilər üçün Teymur Ləngdən əlavə bir fil də istəməsini xatırladım. Gülüşümü ağzımda zorla boğdum. Sona müəllimə bizə heç bir cavab vermədən keçib o biri sinif qapısına yaxınlaşdı, səkkizinci sinif idi, biz uzaqdan görürdük, Əjdər adlı bir oğlanın (nə etmişdi, nə etməmişdi bilinmədi) qulağının dibindən elə yapışdı ki, yazığın başı qulağının dalınca dartıldı. Beləcə qulağından darta-darta Sona müəllimə az qala sürüyüb saldı bunu sinfə.

**Həmən gün. 6-cı dərsdən sonra.**
**Müəllimlər otağı. Mən əsl müəllim**
**kimi inşa yoxlayıram.**

Zərbəli müəllim bir qalaq dəftəri masanın siyirməsindən çıxarıb ortalığa qoydu. Tən yarıdan (təbii ki, gözəyarı, deyəsən, onun payına bir az çox düşdü) böldü, mənim hissəmə düşəni mənə tərəf itələdi:

– Mirzə Nazim, diqqətlə oxuyursan, – dedi. – İmla səhvi, fikir dolaşıqlığı olan yerlərdə altından qırmızı qələm... – Zərbəli müəllim cibindən qırmızı yazan sadə bir qələm çıxarıb mənə verdi. – Qırmızı qələmlə altından xətt çəkirsən. 7 səhvin qiyməti "iki"dir. 4 səhvdən 6 səhvə qədər "üç" qiymət yaza bilərsən. İki ya da üç səhvə "dörd" qiymət verilə bilər. Heç bir səhvi olmayan mövzunu əhatə edən yazı "beş"likdir. Sualın olsa mən burdayam. Başladıq?

– Zərbəli müəllim. – Mən ehtiyatla soruşdum. – Bəs mən qiyməti özüm elə götürüm yazım?

Zərbəli müəllim hər ehtimala qarşı müəllimlər otağına bir də göz gəzdirib cibindən "Kazbek" papirosunun qutusunu çıxardı, içindən bir papiros götürüb barmaqları ilə onu eşib-eşib nəhayət ağzına qoyub yandırdı. Bir dərin ləzzətli qullab alıb tələsmədən dedi:

– Yaz, əlbəttə, yaz. İmzanı da qiymətin yanında qoy. Heç ehtiyat eləmə. Mən sənə inanıram. Sən başla, çətinliyin olsa, soruş.

Biz başladıq. Mən dəftər oxuya-oxuya hərdən başımı qaldırıb Zərbəli müəllimə baxırdım. Heç gözləməzdim. Bu, əsl tamaşa idi. Kişinin üzü-gözü, dodaqları elə bil güzgü kimi, oxuduğu mətni başqa bir ahəngdə təkrar edirdi – gah dodaqları qaçırdı, gah alnının qırışları düyünlənirdi, gah bu adam dodağının ucunda nəsə mızıldanırdı, gah papirosun filtr əvəzi kağızını çeynəyirdi, gah da fikrə gedir, hər şeyi unudur, bu zaman gözlərinə hardansa gəlib qəribə bir işıq dolurdu.

– Mən də bir istədim, onu təqlid edəm, onun kimi yoxlayam. Üz-gözümü, alnımı qırışdırdım. Alınmadı.

– Mən, əlbəttə ki, uşaqlardan bəzisinin xəttini tanıyırdım. Firəngizin xəttini isə nə qədər çalışdım, yadıma sala bilmədim. Bəlkə də onun inşası Zərbəli müəllimdə idi. Dilxor oldum. Dəftərləri bir-bir yoxlamadan gözdən keçirməyə başladım. Vərəqləyə-vərəqləyə bəzi məqamlarda diqqətim ilişib qaldı da. Məsələn, diqqətimi belə ifadələr çəkdi:

– "Mənim heç bir sirrim yoxdur. Adamın sirri ancaq özünün bildiyi bir hadisə ola bilər. Mənim isə atamdan-anamdan heç bir sirrim yoxdur, ola da bilməz" – bunu yazan kim ola bilərdi?! Xətti tanıya bilmədim.

Yaxud başqa bir yazıda belə bir parça var idi: "Nə sirr? Mənim ürəyim sirlə doludur. Niyə mən onu eksperimentə açmalıyam?! Bu mənim sirrimdir. Heç kimə də deməzrəm." Bu xətti də tanımadım.

Və yaxud:

"Mən həyatım boyu bir nəfəri sevmişəm. Bu mənim sirrimdir. O adam məndən çox böyükdür. Mən bilirəm ki, mən doğru yolda deyiləm, bu sevginin xoşbəxt axırı yoxdur, amma... Nə edə bilərəm?! O bizim müəlli-

mimizdir..." Bunu yazan yüz faiz ki, qızdır. Dayan, dayan, deyəsən bu xətt qara Zibanın xəttidir axı...

– Mirzə Nazim! – Qəfildən Zərbəli müəllimin səsi məni diksindirib işimdən ayırdı. Mən başımı qaldırıb gördüm ki, o diqqətlə məni süzür. – Mirzə Nazim, oğul, qulaq as mənə. Sən çalışma xətt ilə yoldaşlarından kimisə tanıyasan. Bu sənə heç nə verməyəcək. Bizdən sonra bizim yoxladıqlarımızı başqa adamlar da yoxlayacaq, verdiyimiz qiymətlərə münasibət bildirəcəklər. Burda üzgörənlik eləmək olmaz! Çalış yoldaşlarını unut, fikrini-diqqətini ancaq dəftərlərə yönəlt.

Mən indi başa düşdüm ki, xətti tanıyıb tanımamağımın heç kimə heç bir xeyri olmayacaq. "Günah məndən keçdi, uşaqlar yəqin məni başa düşərlər" düşünüb yavaş-yavaş, bir-bir, dəftər dəftər dalınca yazıları bu dəfə daha böyük diqqətlə oxumağa başladım.

Qəribə bir aləmə düşmüşdüm. Açıq deyim ki, bu yazılardan bəzilərini, müəlliflərini tanıya bilsəm belə heç vaxt oxumaq istəməzdim.

**Həmən gün. Axşam. Evdə. Nə edəcəyimi götür-qoy edə-edə.**

Hələ də oxuduğum müxtəlif inşaların, agah olduğum gizli sirlərin təsiri altındayam. Amma... qəribədi, bu iki daşın arasında mənə əməlli-başlı ilham gəlib. Elə indicə nədənsə Xəzərə həsr olunmuş dalbadal bir neçə şeir yazdım. Silsilə kimi alındı.

**"Xəzər" silsiləsi**

**Xəzər axşamçağı**

Səhərin eşqilə xəyala dalıb
Qağayılarımı anır Xəzərim?!
Artıq ki gecədir, ay işığından
Od tutub elə bil yanır Xəzərim.

* * *

Ətrafda bir sükut, bir də ki Bakı...
Tənha qalmamışam sahilində mən.
Gecə bir hüsnün var, səhər bir hüsnün
Doymaq da olmayır gözəlliyindən.

* * *

Sözlə demək olmaz bu gözəlliyi,
Heç kəs ona layiq qiymət verməyib.
Xəzərlə Bakını bir hiss etməyən
Dünyada yeni bir dünya görməyib.

* * *

Xəzər, bir də Bakı - bu ikicə söz
Solmamış, solmayıb, solmayacaqdır.
Bakı olmasaydı, bəlkə Xəzər də
Əsl Xəzər kimi olmayacaqdı.

**<u>Xəzərin bir qış günü (ikinci şeir)</u>**

Səhərdir,
günəş çıxıb
Bakı da oyanıbdır.
Xəzərimin suları
nə günəşdən nur alıb
qızıla boyanıbdır,
nə də hələ yanıbdır.

* * *

Bəlkə də bütün günü
olub indiki kimi
Xəzər nurlanmayacaq,
heç alovlanmayacaq?!

Bilirəm ki, mən ancaq
günəşdən yanmasa da
Xəzər özündən yanar.
Qarşıdakı tufanın
həsrəti, eşqi ilə
nə susar, nə dayanar.
Günəşdən yanmasa da
Xəzər özündən yanar.

* * *

Xəzərimin sirdaşı
qağayılar çığrışır.
özlərini gah suya
vurur,
gah da ki, ondan
uçaraq uzaqlaşır.
Daha yaxşı bələddir
Xəzərə qağayılar.
Tufan varmı, yoxmudur
onlar daha tez duyar.
Çünki diləkləri də
bilirəm ki, tufandır,
çünki ürəkləri də
bilirəm ki, tufandır.
Göyə baxırsan, o da
Sakitliyi vəd etmir.
Ətraf da qaşqabaqlı,
buludlar da qəmlidir –
nə dayanmır,
nə getmir.

* * *
Bəli, tufan olacaq!
Ləpələr çırpılacaq
Yenə də sahilinə şaqqıltıyla,
şiddətlə -
Ən uzaq ayrılıqdan
gəlib yetişən kimi.
Aşacaqlar hiddətlə
bir-birinin üstündən
biri o biri ilə
sanki ötüşən kimi.

* * *
Xəzərim, bir qulaq as
ürəyimin səsinə.
Günəş sənə nurunu
bu səhər verməsə də,
"ʻqızıl şəfəqlərilə
zinətləndirməsə də,
tufanın eşqi ilə
yenə parla, yenə coş.
Yadında da saxla ki,
gözəlin bəzəksizi
bəzəklidən daha xoş...

**Xəzərim (üçüncü şeir)**
Ümmanlar önündə yalan, Xəzərim
özü öz hüsnünə dalan Xəzərim...
Ürəyim qəlbinə elə bağlı ki,
Səninlə sanıram bir yaranmışam,
Səni mən ən gözəl nəğmə sanmışam.

* * *

Alsa, ya almasa üstünü duman
Xəzərim, dünyada bir vaxt, bir zaman
Sənin xəyalınla, sənin eşqinlə
Yadında saxla ki, mən də yanmışam,
Günəşi, atəşi, odu danmışam.

* * *

Ya uzaq, ya da ki, yaxın xəyalsa
Bir gün sənsiz keçən günüm sayılsa
Qəlbsiz insanların yeri olmayan
Dünyadan sansınlar aralanmışam,
Ya da ki, qəlbimdən yaralanmışam.
Günəşdən nur alıb coşub daşanda,
Ən gözəl çağına yaxınlaşanda,
Xəzərim, dünyada olmasam belə
Səni anacağam, ya da anmışam,
Ya da o vaxtınla alovlanmışam.

**Sular (dördüncü şeir)**
Səhərlər günəşdən, gecələr aydan
Nur alıb hər zaman parlayan sular,
Sular, ay sular!
insanlar xəyala, sənə baxarkən
Gah yerin tərkinə, gah asimana
Gah zaman boyunca müxtəlif yana,
dalar, hey dalar...

* * *

Dözmək mümkün olmur intizarına.
Düşüncəm qəlbimdən gəlib keçəni

Yazır arzu kimi dalğalarına,
sular, ay sular.
Dalğaların kimi arzum da coşqun,
Onun kimi bu da
Bax bu dünyada
qalar, hey, qalar,
Sular, ay sular...

***

Könül bir quşdur ki, yaman tələsir.
Hər axşam, hər gecə sahilinizi
Özüm olmasam da xəyalım gəzir.
Xəyalım dünyadan köçüb gedəndə
O zaman bilirəm keçmişi anıb
Baxaraq bir zaman mən duran yerə
Məni də yadına vəfalı sular
Salar, hey salar...

**Dəniz haqqında nəğmə**
**(beşinci şeir)**
Qızardır üfüqü şəfəqlər,
boylanan günəşlə
açılır səhər.
Dəniz ayılıb yuxudan
ovuşdurur gözlərini,
sanıram ki, dinləyir sözlərimi:..
"Dəniz, dəniz...
istərdim ki,
ən xoşbəxt,
ən kədərli anım da
olmasın sənsiz.

Axşamının bir hüsnü var,
səhərinin bir hüsnü.
Bilmək istərsənsə düzünü
könüllərin könlünlə
bir vurmasını,
ahəngini,
gözlərin gözünə çalan rəngini
sevirəm.
Sularını da,
duyğu, arzularını da
sevirəm...
Sən göy qədər təmiz, dərin,
həm coşqun, həm həzin,
həm də ki, qəzəblisən, dəniz.
Neçə-neçə ürəklisən, qəlblisən, dəniz.
Gah mazut, gah da
məhəbbət qoxulu dalğaların,
Sakit, qorxulu dalğaların
kimisə çağırar,
kimə isə bağırar dəniz.
Qaralar, bozarar,
ağarar, dəniz.
Əzəldən*''
mən ki, sənə vermişəm qəlbimi.
Gülümsəyirsən üzümə uşaq kimi
istəyirəm duzlu üzündən
öpüb səni bağrıma basım.
Gözəlliyindən ömrüm boyu
Yazım, yazım...
Sən dünyanın gözüsənmi, Xəzərim,
İnsanlara ən qiymətli
Hədiyyəsi, sözüsənmi, Xəzərim?!

Səhərdir.
Artıq sənin
şəfəqlərlə oynayan vaxtındır.
Bu günün eşqilə
qaynayan vaxtındır,
istərdim ki,
ən xoşbəxt,
ən kədərli anım da
Olmasın sənsiz.
Dəniz... dəniz...

* * *

Zərbəli müəllim görək bu şeirlərə nə deyəcək?! Məncə sevinəcək və öz həmişəki təmkini ilə ahəstə-ahəstə "Mirzə Nazim, yaxşıdı..." deyəcək.

Bir şeir də məndə o gündən yazılıb qalıb, amma bilmirəm, onu bu silsilənin yanında yerləşdirim, yoxsa yox?! Dənizlə bağlı deyil mövzusu. Belə birtəhər alındı, özüm də başa düşmədim necə oldu yazıldı. Birnəfəsə yazıldı:

**Gəl gedək**
Bu dünyada
ürəkləri nurlu, təmiz
dankolar da yaşasalar,
qaranlığa bürünməsin
deyə bizim Yer kürəmiz
bir günəşin gücü çatmır –
Günəşlərə ehtiyac var.
Yaşayacaq ömrümüzü
insanlara bəxş edək.
Sonra isə gəl gedək
Günəş olub Yer üzünə
saçaq-saçaq
nur saçaq.

**Yenə həmən eksperimental inşa yazılan**
**və yoxlanan günün axşamı. Evdə.**

Firəngizin telefondakı səsi məni elə bil yuxudan ayırdı. Hələ də günün həyəcanı canımdan getməmişdi.

– Noldu, yoxladız inşaları? Neçə "iki" yazdın?

– Nə bilim, saymadım. (Əslində yadımda idi, üç dəftərə "iki" yapışdırmışdım, biri yüz faiz əmin idim ki, İlkinin dəftəridir. Onunçün də qanım bir az qara idi).

– Mənə neçə yazdınız, Nazim müəllim? – Mənə elə gəldi ki, Firəngiz "Nazim müəllim" sözlərini xüsusi hörmət, hətta ehtiramla səsləndirdi. Mən hiss etdim ki, artıq lovğalanmağa başlaya bilərəm. İndi mən Firəngizə necə deyim ki, sənin xəttin yadımda deyildi? Aləm qarışar yəqin bir-birinə. Belə şeyi demək olar?!

– Sənin dəftərin məndə deyildi, Zərbəli müəllimdə idi...

– Aaaa... belə de. Sən onu özün götürə bilməzdin yoxlamağa?!

– Yox. O böldü dəftərləri.

– Aaaa... Bu daha yaxşı...

– Belə...

– Qiymətlərimizi nə vaxt biləcəyik?

– Ola bilsin, sabah. Dəftərlərin hamısını yoxlamışıq. Belə...

– Yaxşı, görürəm danışmağa həvəsin yoxdu. – Yox, niyə ki?..

– Yox, mən hiss edirəm. Yəqin yorulmusan.

– Bir az.

– Onda sağ ol. Gecən xeyrə.

– Yaxşı. Sağ ol.

**Səhəri gün. İkinci dərs (rus dili) başlanan zaman.**
**Eksperiment inşanın əsl səbəbi məlum olur.**

– Dərsin ortasında məni gəlib sinifdən Sona müəllimənin yanına çağırdılar. Mariya Semyonovna təbəssümlə dedi: "Özünü bərk tut, nazirlikdən adamlar gəlib, eksperimentlə bağlı ola bilər ki, sənə suallar versinlər. Biz səninləyik!" Sinifin dodağı qaçdı.

– Mən Sona müəllimənin otağının qapısını açıb içəri girəndə burada artıq Zərbəli müəllim və ondan başqa tanımadığım bir kişi və bir qadın da var idi.

Sona müəllimə həmişə olduğu kimi qonaq yanında mənə xeyli mehriban-mehriban "gəl, gəl, keç otur, Nazim." - dedi.

Mən yavaşca otağa sürüşüb bir kənarda gözümlə yer axtarıb tapdım, özümü verdim bu yerə.

Tanımadığım bu adamlar mənə diqqət və maraqla baxırdılar. Mənə elə gəldi ki, mən gəlməmiş bu otaqda söhbət məhz məndən gedib.

Sona müəllimə əllərini masa üzərində daraqlayıb bədəni ilə mənə tərəf əyildi:

– Nazim, bala, bu İdris müəllimdi, bu da Nailə xanımdı. Bizim nazirlikdən gəliblər. Eksperimentin necə keçməsi ilə maraqlanırlar. Sən nə deyə bilərsən?

– Mən... nə deyə bilərəm? – Mən sözləri uzatmağa başladım, vaxt udurdum, fikirləşirdim. – Nə demək olar ki?.. Yaxşı keçdi. Yazıları dünən yoxladıq. Qiymətləri yazdıq...

Ağsaçlı, eynəkli İdris müəllim üzündə mülayim bir ifadə mənə belə bir sual verdi:

– Nazim, uşaqlar bu cür inşa yazmağa nə cür münasibət bəslədilər, deyə bilərsənmi?

– Normal.

– Heç etiraz edən olmadı?

– Belə də. Qiymətlərin anonim olacağını biləndən sonra bir söz deyən olmadı.

Söhbətə Nailə xanım qarışdı:

– Bəs demədilər ki, niyə bu müəllimlər, nazirlik bizim sirrimizi öyrənmək istəyir? - Nailə xanımın üzündəki təbəssüm o dəqiqə mənim xoşuma gəlmədi, süni idi.

– Elə bir fikir ortaya çıxdı. Yadımda deyil kim dedi...

– Səndən heç kim soruşmur ad çəkəsən... – Zərbəli müəllim əlüstü mənim qəribə bir çətinlik çəkdiyimi və nə üçün bu çətinliyi çəkdiyimi çox

gözəl hiss edib mənim sözümü yumşaq şəkildə kəsdi və əslində bununla mənə söhbəti hansı tərzdə aparacağıma istiqamət vermiş oldu.

– Bəli, etirazlar var idi... – Mən ürəkləndim.

– Var idi... – İdris müəllim mənim son sözlərimi düşüncəli-düşüncəli təkrar elədi. - Bəs sənin dəftər yoxlamağına nə cür baxdılar?

– Belə də. Pis baxmadılar.

Bu dəfə Zərbəli müəllim daha qətiyyətlə söhbətə qarışdı. Əvvəlcə o, Sona müəllimə ilə baxışdı. Elə bil Sona müəllimədən gizli bir icazə aldı, sonra boğazını arıtlayıb belə dedi:

– Mən axı sizə artıq dedim ki, Nazim Hüseynov adi şagird deyil, onun ədəbiyyat biliyi son dərəcə yüksəkdir, mütaliəsi çox genişdir, onun yazdığı şeirləri divar qəzetimizdə çap edirik, hətta bu şeirləri o özü televiziyada (!) səsləndirib...

"Televiziya" sözünü Zərbəli müəllim elə bir tərzdə tələffüz etdi ki, hətta mən özüm bir balaca özümü yığışdırdım. Qonaqlar da bir-birilə baxışıb başlarını təsdiq edirmiş kimi tez-tez əydilər. Sonra idris müəllim bir daha üzünü mənə tutdu:

– Biz sənə təşəkkür edirik, Nazim. Amma istəyirik biləsən: bu eksperimentin əsas canı onun mövzusu deyildi, heç anonimlik də deyildi...

" Bəs nə idi?" – mən düşündüm, "iki aydı camaat azar-bezar olub."

– Əsas məsələ... – Ani sükutdan sonra İdris müəllim ciddi şəkildə sözünə davam etdi. – Əsas məsələ bir şagirdin yoxlama və qiymətvermə prosesinə cəlb edilməsi idi. Bu bir yenilikdir. Bunu biz Ümumittifaq konfransa Nazirliyimizin yeniliyi, nailiyyəti kimi təqdim edəcəyik.

Sona müəllimənin gözləri parıldadı – Əlbəttə, hər necə də olsa, bu onun məktəbinin də uğuru idi. Zərbəli müəllimin də üzündən-gözündən artıq razılıq tökülürdü. Mən beynimdə o dəqiqə öz xeyrimi çıxardım, o dəqiqə sevinc hissi məni bürüdü, o qədər sevindim ki... əgər bilsəniz nəyə görə? Bu il məktəbi bitirənə qədər nə istəyirəmsə edəcəkdim – ona görə. Heç kim də mənə "gözün üstündə qaşın var" deyə bilməyəcəkdi.

– Sağ ol, Nazim. – Bu dəfə Nailə xanımın da səsi artıq ciddiləşdi. – Biz sənin yoxladığın dəftərlərə baxdıq. Əsl müəllim kimi yoxlamısan. Doğru, düzgün qiymətlər yazmısan.Gələcəkdə səndən gözəl müəllim çıxar...

– Yaxşı, onda... sən... getsin Nazim sinifə? – Zərbəli müəllim əvvəl mənə, sonra qonaqlara, sonra da Sona müəlliməyə baxıb qaldı.

Sona müəllimə üzünü qonaqlara tutdu, yəni "siz nə deyirsiz?"

– Getsin, getsin. – Qonaqlar razılıq verdilər. Hamı mənimlə mehriban-mehriban sağollaşdı. Mən ürəyim həyəcandan vura-vura sinfə qayıtdım.

– Nə oldu, oğlansan, qız? - Mariya Semyonovna soruşdu.

Sinif ağzını açıb nəfəsini dərmədən mənim cavabımı gözləyirdi. Ta ki rus dili dərsinin sonuna qədər söhbət bu adıyaman eksperiment ətrafında uzanıb getdi.

**O biri gün, axşam. Evdə. Sirlər... sirlər...**

Yoxladığım bir neçə inşa var idi ki, məni yamanca "tutmuşdu". Heç cür orda yazılanlar fikrimdən çıxmırdı.

– Niyə belə fikirlisən Nazim, özünü necə hiss edirsən? - Anam elə hər şeyi mənim səhhətimlə ölçürdü.

Mən isə doğrudan da son zamanlar nəsə belə birtəhər idim. Axşamlar öz-özünə hardansa qızdırma gəlirdi, canımı alırdı. Öz-özünə gəldiyi kimi öz-özünə də çıxıb gedirdi. Səhərlər isə yenə də yaxşılaşırdım. Məktəbə ge-dib-getməməyi evdə artıq mənim öz öhdəmə buraxmışdılar, "istəyirsən get, istəmirsən getmə". Hətta anam çox zaman təkid edib məni evdə saxlamaq istəyirdi. Mən razılaşmırdım. Əvvəla məktəbsiz, uşaqlarsız darıxırdım. Bir də ki, bu inşa məsələsini yola vermək, bitirmək lazım idi. Bundan sonra isə... bundan sonra isə bir az evdə qalıb "istirahət" eləmək də olar. Amma alınmayacaq deyəsən. Anamla, atamın bir-birilə gizli söhbətləşməsindən və qayğılı baxışlarından belə aydınlaşırdı ki, mənim nəsə çox dərində bir xəs-təliyim var, heç cür canımdan çıxmır ki, çıxmır. Mən yenə də xəstəxanaya yatmalıyam, bu dəfə deyəsən uzun bir müddətə. Qanım qaralmışdı. Bu xəstəxana da az qala evi əvəz elədi mənə. Görək, axırı xeyir olsun.

***Qeyd. Bir dəfə mən yatmağa gedəndən sonra nə üçünsə qayıdıb bu biri otağa keçmək istədim. Böyük otağımızın qapısı yarım açıq idi. Atamla anamın yarı pıçıltı ilə apardıqları söhbətlərindən çox şey anlamasam da, bəzi şeylər mənə məlum oldu. Bu barədə yazmaq belə istəmirəm.***

O dediyim inşalardan birinin təqribi məzmunu budur. İnşanın adı belə idi: Qonşumuzun qızı.

"...Dörd il əvvəl. O günün səhəri ilk dəfə məktəbə qonşumuzun qızı ilə bir yerdə gəldim. Bütün yolu yalvardım, yaxardım (...indi artıq özümün özümə gülməyim gəlir!), axırda bu zalımın qızı insafa gəldi, özünün məktəb çantasını "etibar" etdi verdi mənə, mən də onun çantasını məktəbin həyətinəcən fəxrlə daşıdım. Amma sevincim sonadək sürmədi. Tərslikdən məktəbə çataçatda Nazim – o indiyənə qədər mənim sinif yoldaşımdır – qarşımıza çıxdı.

Mən – uşaq ki uşaq – Nazimin yanında özümə sığışdırmadım ki, qız çantası daşıyaram, utandım, atdım çantanı yerə, qaçıb getdim, girdim məktəbə. Yox, məktəbə girməyinə, girdim, ancaq gedib gizlicə üzümü yapışdırdım birinci mərtəbədəki küncdə balaca bir pəncərəyə və başladım ürəyim döyünə-döyünə içəridən onları izləməyə.

Nazim gedib qonşumuzun qızının çantasını yerdən qaldırdı, tozunu əli ilə sildi, sonra çantanı qıza verdi. Sonra başladı nəsə ona deməyə. Qonşumuzun qızı da həvəslə onu dinləyirdi. Hətta uzaqdan mənə belə gəldi ki, o nə üçünsə gülümsəyir. Təbəssüm qızın onsuz da qəşəng sifətini bir az da yaraşıqlı edirdi. Mənə elə gəldi ki, yaraşıqlı görünmək hələ heç kimə bu qədər yaraşmayıb. Əsl gözəllər gözəli idi. Sonra qonşumuzun qızı gəlib məktəbə girdi, mən qorxdum ki, o məni görər, görmədi, üzü-gözü işıldaya-işıldaya az qala yanımdan keçib getdi. O bizdən iki sinif yuxarı oxuyurdu, deyəsən o zaman 7-ci, ya da ki, 8-ci sinifdə olardı...

Mən gizləndiyim yerdən çıxıb qəfildən Nazimin qabağında peyda oldum (İnşada "peyda oldum" yerinə "dayandım" yazılmışdı – Nazim Hüseynov).

– Sənin o qızla nə işin vardı? Nə dedin ona? - Mən Nazimdən kobud şəkildə soruşdum.

– Heç... – Nazim mənimlə bu barədə, belə başa düşdüm ki, danışmaq belə istəmir.

– Səndən söz soruşuram. Nə dedin ona, o elə gülürdü? – Mən təkid elədim.

– Sənə nə olub? Nə istəyirsən? – Nazim həvəssiz-həvəssiz soruşdu.

– Bu nə cür danışıqdır danışırsan mənimlə? Dava eləmək istəyirsən? - Mən açıq-aşkar Nazimi davaya çəkirdim.

Məktəbin dal həyətinə keçdik. Tutaşdıq əməlli-başlı. Mən Nazimə, Nazim mənə yumruq, təpik, podnojka... Əyin-başımız cırılan cırıldı, köynəklərimiz köynəklikdən çıxdı...

Təbii ki, biz birinci dərsə getmədik. Arxamızı bir-birimizə çevirib elə məktəbin həyətindəcə ağacların altında oturduq. Gözlədik. İkinci dərsə üst-başımızı birtəhər düzəldib özümüzü çatdırdıq. Sona müəllimə qəflətən sinfə girəndə hələ də üz-gözümüz qıpqırmızı idi, qızdırmalı adamlar kimi yanırdıq. Haradan bilmişdi Sona müəllimə dava elədiyimizi?! Bizim ikimizi də – məni də, Nazimi də Sona müəllimə sinifdən çıxarıb valideynlərimizin dalınca evə göndərdi. O gün nə mən, nə də Nazim daha məktəbə qayıtmadıq.

Bir il biz Nazimlə küsülü qaldıq. Mənim ağlıma nələr gəlib girmədi. Qısqanclıqdan partlayırdım. Mən axmağa elə gəlirdi ki, dostum mənim sevdiyim qızı mənim əlimdən alıb. Bundan böyük xəyanət təsəvvür eləmirəm.

Bir xeyli müddət keçdi. Özümü ancaq toplayıb yay tətili zamanı mən bir dəfə cəsarət edib yenə o qızın dalınca düşdüm. Harasa gedirdi, deyəsən biz tərəfdən iki tin o tərəfdəki böyük çörək dükanına tərəf gedirdi.

Buna qədər utandığımdan neçə ay oldu ki, onun həndəvərindən keçmədim, qorxumdan gözünə görünmədim. Ancaq uzaqdan-uzağa bacardımsa gözlərimlə izlədikcə izlədim. Ürəyimdə sevdim onu. Sirrimi də indiyənə qədər Nazimdən başqa bir adama danışmamışdım. Ürəyimdə özümü elə hey söyürdüm ki, niyə Sirrimi ona vermişəm?!

Allah, mən qonşumuzun o qızını necə sevirdim?! Gecələr başımı yorğanımın altına dürtüb onun adını yüz dəfə, min dəfə özüm-özümçün nə

qədər pıçıldayırdım. Bu adı pıçıldadıqca sanki adın sahibi də mənə daha yaxın olurdu...

O qız ərə getdi. Məktəbi qurtaran kimi iki il bundan əvvəl toyu oldu. Məhləmizdən bir tin yuxarıda yaşayan sayılıb-seçilən oğlanlardan biri onu özünə arvad aldı. Hərdən anasıgilə gələndən gələnə uzaqdan görürəm onu ancaq. Başqasının arvadını sevmək yaxşı iş deyil.

Bilirəm. Amma neyləyim, mən onu bu günə qədər sevirəm.

...Çörək dükanından çıxanda elə bil duyuq düşmüşdü ki, mən dalıyca düşmüşəm, özü mənə yaxınlaşdı:

– Sən də çörək alırsan?

– Hə... – yalandan dedim.

– Niyə yalan danışırsan? – O, diqqətlə gözlərimə baxdı. – Gedək.

Yanaşı getdik. Evə gedən yolu o özü qəsdən başqa bir küçədən salıb uzatdı. Mən başa düşdüm ki, bu nahaqdan deyil.

Mənim ürəyim yol boyu sıxıla-sıxıla qalmışdı. Elə bil bunu o da hiss edirdi, bir kəlmə danışmadan, amma yenə də çox yavaş-yavaş yoluna davam edirdi.

Nəhayət, yolumuz bir dalanın yanından keçəndə o, qəfildən dalana fırlanıb dayandı. Mən də onun arxasınca dalana döndüm. İlk dəfə üzbəüz, sifət-sifətə durduq.

– Nə deyirsən, söhbət eləyək? – O, mənim üzümə baxmadan, baxışını gizlədə-gizlədə bir az da şıltaqcasına dilləndi.

– Hə, eləyək. – Mən robot kimi təkrar elədim.

– Sən yaxşı oğlansan, mən bilirəm. – O, söhbəti belə başladı.

– Sağ ol.

– Kəsmə sözümü. Dəyməz. Bunu mən demirəm, öz yoldaşların deyir.

– Yoldaşlarım? – Mən təəccüb elədim. – Kim deyir?

– Yadında, səninlə bir yerdə məktəbə getməyimiz?! Məktəbə çataçatda çantamı üstümə atıb qaçıb getdin. Amma sənin sinif yoldaşın, o şair oğlan var e – o, gəlib çantamı yerdən qaldırdı, təmizlədi, mənə verdi. Bilirsən nə dedi mənə?

Mən nəfəs almağa da qorxurdum ki, bu onu fikrindən ayırar. O isə gülümsəyib sözünə davam elədi:

– O mənə dedi ki, fikir verməyim mən sənin bu kobudluğuna. Sən məni guya çox, nə bilim, lap çox... sevirsən.

– O belə dedi?

– Hə. Nədi, yalan deyirdi?

- Yalan deyirdi, de də...

Mən bir xeyli sükutdan sonra cavab verdim:

– Yox, niyə ki... yalan demirdi.

– Hə. Sonra da dedi ki, sən sinfinizin gözüsən. Bütün yoldaşların sənin xətrini çox istəyir. Kişi adamsan. – O yenə gülümsədi. – Düz deyirdi bunu da?

– Nə bilim? Daha nə dedi?

– Heç nə. Dedi ki, mən də sənə üz göstərsəm, yəni üzünə xoş baxsam, başa düşürsən də... səni yəni sevsəm, bu çox gözəl olar. Biz bir-birimizə çox yaraşırıq dedi – səninlə mən.

– ...Belə-belə işlər. Mən axmaq isə onunla dava eləmişdim. Onun barəsində pis düşünmüşdüm. Heç Nazim özü də mənə sonralar bu hərəkəti barədə bir söz deməmişdi. İndi anlayıram ki, mən nə qədər haqsız imişəm...

– Ayrılanda qonşumuzun qızı dedi ki, sən qayıt, əvvəlki yolunla get, dalımca gəlmə. Bir də gözəyarı məni aşağıdan yuxarı, yuxarıdan aşağı təəssüflə süzüb bunu dedi:

– Həmişə yaxşı oğlan ol. Ağıllı oğlan ol. Amma... Axı sən məndən kiçiksən... Niyə belə balacasan sən?..

– Sonra tələsik addımlarla uzaqlaşıb getdi."

* * *

İkinci inşa işinin adı belə idi: İntihar. Nə az, nə çox. Yox, deyəsən tam adı "Baş tutmamış intihar" idi. Ondan da yadımda qalan ancaq ümumi məzmunu oldu. Məzmunu belə idi:

– "...Mənim ilk dəfə özümü öldürmək istədiyim gün yadımdadır. Bu beş il əvvəl olmuşdu.

Bizim balaca həyətimiz var. O həyətdə çoxlu qonşular yaşayır. Həyətin ortasında məhəllədəki bütün həyətlərdə olan kimi su krantı var. Yekə, qara su krantı. Həmişə bu krantın başında kimsə olur: ya xalça yuyurlar, ya su götürürlər, ya da yayda əl-üzlərinə buz kimi soyuq su vurub sərinləyirlər.

O gün günorta vaxtı mən həyatımda ilk dəfə ölmək istədim. Uşaq idim, nə yaşım vardı?! Mən məktəbdən qayıdan zaman hələ həyətimizə girməmişdim, amma elə bil ürəyimə damdı ki, orada nəsə baş verir. Həyət qapısının yanında donub qaldım. Krantın yanında atamı gördüm. O bir nəfər qadın xeylağı ilə xısın-xısın nədənsə danışırdı. Tez-tez ora-bura boylanırdı. Mən qadını tanıdım. Üzbəüz həyətə bir tibb bacısı köçmüşdü, bəlkə iki ay əvvəl, o idi. Onu görəndə hamı arxasıyca xeyli baxa-baxa qalırdı, indi xatırlayıb anlayıram ki, çox yaraşıqlı idi.

Atam nədənsə elə hey onun əlindən tutmaq istəyirdi, bu isə şıltaq-şıltaq əlini qaçırırdı. Bu zaman anamın ucadan səsi gəldi:

– Yədulla, harda qaldın?

Elə öz səsinin dalıyca da anam gəlib krantın yanında göründü.

Atam pərt halda susub durdu. Anam bu tibb bacısına nə dedi, nə demədi, tibb bacısının əlində oynatdığı qırmızı yaylıq kimi üzü qıpqırmızı qızardı. Atam anam tərəfə nəsə çımxırdı. Yox, mən anamı atamın sözündən çıxan heç görməmişdim, bu dəfə isə...

Anam sıyrılıb atamın əlləri arasından necə çıxdı, bilmədim. Tibb bacısı dalı-dalı çəkilməyə başladı. Anam isə bir anda onunla üz-üzə dayandı. Anamın səsi dəyişmişdi, qəzəblə dediyi sözlər də bu səsin içində az qala itib-batırdı:

– Ləçər, ləçərsən sən, nə işin var sənin xalxın ərində? Mən sənə göstərərəm...

Bu an, anam bu arvadın arxasından həyət qapısında məni gördü, səsini "xıp" kəsdi, süst qaldı. Atam da elə bu zaman anamı arxadan hop eləyib qaldırdı, elə qucağındaca sürüyə-sürüyə aparıb bizim evin qapısından içəri

saldı. Tibb bacısı məni elə bil görmədi, heç nə olmamış kimi qırmızı-qırmızı düz keçib yanımdan çıxdı küçəyə, birdən-birə yox oldu.

Bizim evin içindən qab-qacaq səsi, qışqırıq səsi gəlməyə başladı.

Atamdan gözləməzdim. Bilmirdim nəyi. Amma anamın halının bu cür olmasına o bais olmuşdu, qonşu arvad bais olmuşdu, mən anlayırdım ki, atam nə isə qəbahət bir iş tutub, amma "nə iş idi bu iş, mahiyyəti nə idi?" – onu anlamırdım. Ev qapımızın yanına gəlib açmaq istəyəndə artıq içəridə səs-küy yatmışdı, içəridən ancaq anamın ağlamaq səsi gəlirdi...

Mənim həmin gün həyatımda ilk dəfə evə girməyim gəlmədi. Qonşumuz var idi – Səlimə xala, getdim onlara, onlarda oturdum, axşam düşəndə isə anam şux bir halda gəldi dalımca. Anam elə bil bir neçə saat əvvəlki o adam deyildi. Qızarmış gözləri işım-işım yanırdı. Elə bil heç nə olmamışdı. Səlimə xala ilə ordan-burdan bir az danışdılar, sonra biz evə qayıtdıq.

Gecə yerimə girib yorğanı başıma çəkdim, ağladıqca ağladım, sonra fikirləşməyə başladım.

Çox fikirləşdim ki, necə edim, özümü öldürüm?! Bu necə olur?! Yəqin ki, bundan sonra atam öz günahını başa düşər, bir daha anamı yad adamların ucbatından bu hala salmaz. Amma orası var ki, bundan sonra anam başlayacaq özünü həlak edəcək. Amma o da bilsin. Bilsin ki, hər dəfə ağlaya-ağlaya, üzünə müti qul kimi təbəssüm qondura-qondura, alçala-alçala bu kişini dəyişdirə bilməyəcək. Necə yuxuya getdim, bilmədim.

Səhər alatoranlıqda yuxudan ayılanda mənə elə gəldi ki, artıq ölüb dirilmişəm. Hər şey o qədər əvvəlki kimi idi ki... Atamla anam yenə üzbəüz əyləşib həmişəki kimi bir yerdə səhər yeməyi yeyirdilər. Anam ona elə nəvazişlə qulluq edirdi ki, elə bil dünən heç nə baş verməmişdi. Sonra atam işə getdi. Mən məktəbə hazırlaşdım. Anam böyük bir həvəslə mənə də səhər yeməyi hazırladı. Biz dünənki hadisə barədə bir-birimizə bir kəlmə söz belə demədik. İlk dəfə idi ki, hər şey mənə son dərəcə gözəl göründü: anam, evimiz, həyətimiz, küçəmiz. Bircə həyətdən keçəndə o qara böyük kranta baxmaq istəmədim. Üzümü yana çöndərib yanından tələsik keçdim.

Atam iki il əvvəl ağır xəstəliyə tutuldu. Yataqdan qalxa bilmirdi. Onun bütün əziyyətini anam çəkdi, "uf" da demədi. Atamı basdırmağa aparanda arvad az qala özünü öldürəcəkdi. Ürəyi getdi, yıxıldı, həkimlər, iynə...

Neçə gün anamı tək qalmağa qoymadılar. Dedilər, özünə qəsd edə bilər. Xalam gəldi bir gün qaldı, bibim gəldi... İndiyənə qədər arvad atamın yasını saxlayır, saçları ağarıb, özü də qoca qarılara oxşayır. Onun isə hələ otuz beş yaşı var..."

* * *

Üçüncü yadımda qalmış inşaya belə bir ad qoyulmuşdu: "Tumsatan Nənəxanım." O inşanın da məzmunu təxminən belə idi:

"...Biz hələ balaca olanda məhləmizin uşaqları köhnə dəmir mis pulları arxa tərəfindən sürtüb-sürtüb parıldadır, bu köhnə mis pulları yeni çıxmış ağ qəpiklərə oxşadırdılar. Küçəmizin tinində həmişə, qoca bir arvad vardı, adı Nənəxanım idi, o oturardı, ağ tum, qara turp satardı. Stəkanı bir manata köhnə pulla. Biz həmişə, məhlə uşaqları, tumu ondan alardıq. Çox dadlı qovururdu satdığı tumu, özü də çox ayıq arvad idi. Nə qədər çalışmışdılar, hələ heç bir uşaq onu aldada bilməmişdi. Dəmir pul qəpiklərini beş dəfə o tərəf bu tərəfinə çevirib az qala gözlərilə yeyə-yeyə yoxlayardı.

Bir dəfə mən məhləmizin uşaqları ilə mərc qoşdum. "Mən onu aldadaram", deyə lovğa- lovğa "fəxrlə" elan etdim.

Nənəxanım mən verdiyim pulun ora-burasına baxıb şübhələnmədi. Yalançı, par-par parıldayan qırmızı üç qəpikliyi ağardılmış tərəfindən guya utana-utana ona uzatdım. Böyük bir çay stəkanını ağzından daşanacan tumla doldurub cibimə boşaltdı. Hələ on qəpik (təzə pulnan) artıq da qaytardı mənə.

Nənəxanım cibimi tumla doldura-doldura mənə belə dedi:

– Qoca arvadam, a bala, gözlərim də daha başlayıb pis görməyə. Bu evi tikilmişlər də aldatmaq istəyirlər məni, ciyərləri yanmasın. (Səhərdən axşama qədər boş-boş gəzən məhlə uşaqlarını deyirdi).

– Neyləyirlər ki? – Mən ədəblə soruşdum.

– Neyləcəklər?! Üç qəpikliyi sürtüb-sürtüb parıldadırlar, təzə pula oxşadırlar, elə bilirlər anlamıram, iyirmi qəpik kimi verirlər mənə. Hamısı vələduznadı. Sən isə ağıllı oğlansan, onların tayı deyilsən, qoşulma onlara. Dərsdən qaçmırsan ki?

– Yox. – Mən cavab verdim.

– Qaçma, dərslərini yaxşı oxu. Pulun olmasa da gəl hərdən mən sənə pulsuz da tum verərəm.Çırtla ozün üçün.

– Sağ ol.

– Sən də sağ ol, bala, get, özündən muğayat ol.

Nə idisə Nənəxanımın mənə xüsusi rəğbəti vardı. Bəlkə həmişə çox səliqəli məktəbli formasında olurdum - ona görə?! Hər nə isə, mənim üçün onu aldatmaq su içmək kimi bir şey oldu. Çətini dal tərəfi ağardılmış üç qəpiklik ümumi qəpiklər atılan fincana düşənə qədər idi. Sonra kim kimə nəyi sübut edə biləcəkdi? Hər necə olsa da mərci mən udmuşdum.

O zaman çox balaca idim, vecimə deyildi, indi isə tez-tez xatırlayıram Nənəxanımı, onun mənə dediyi sözləri, mənim hərəkətimi... Bilirəm, o yenə həmən tində oturub tum satır. Gözləri, deyirlər, demək olar ki, görmür. Pulları ancaq barmaqları ilə yoxlayır. Hələ də heç kim onu aldada bilməyib.

Öz pulum olanda, gələcəkdə pul qazananda onun borcunu min dəfə artıqlaması ilə qaytaracağam... Amma o zaman mən onun yadına düşəcəyəm görəsən?!"

Nəyə görə mənim diqqətimi çəkib yadımda məhz bu inşalar qaldı – bilmirəm. Bəs mənim özümün sirrim... Heç özüm yazdığım inşa barədə danışmaq belə istəmirəm. Çünki əslində bu mənim sirrim deyil, bu mənim anamın sirridir. Anam elə bilir ki, onun sirrindən mənim xəbərim yoxdur. Mənim isə xəbərim var. Bir dəfə xəstəxanada həkimlə elədiyi söhbəti onlardan xəbərsiz mən də eşitdim. İndiyənə qədər heç kimə bildirməmişəm bunu.

Başqasının sirrindən o adamın xəbəri olmadan agah olmaq çox ağır şeydir.

**<u>Axırıncı dəfə xəstəxanaya getməzdən bir gün əvvəl. Evdə.</u>**

Sabah yenə xəstəxanaya! Bezdim daha. Camaat məktəbə gedir, imtahanlara hazırlaşır, mən isə... Bezdim. Anama deyəcəyəm ki, mən xəstəxanadan yaxşılaşıb yox, birdəfəlik sağalıb çıxmaq istəyirəm. Qoy həkimlər məni sağaltsınlar, sonra evə qayıdım. Dəftər-kitabımı da bu dəfə özümlə aparmayacağam. Aparanda elə bil alışıram xəstəxanaya. Palata dönür evə.

Mənə isə sağalmaq lazımdır. O qədər sözüm var ki deməyə... Həyat elə ləzzətlidi ki!..

Elə buna görə də... əlvida, gündəlik. Sənin adını "Tarixsiz gündəlik" qoyuram. Tarixi yoxdu, ona görə. Bir də səninlə xəstəxanadan qayıdan zaman görüşərik. Hökmən.

Firəngizlə sağollaşanda hiss etdim ki, xəttin o biri başında qız qəhərlənib.

"Niyə?" – düşündüm. – "Elə bil nə isə bilir?!" – Yox, sən fikir vermə, məndə olur belə şeylər...

– Amma mən hiss elədim ki, sən dəsmalla burnunu silirsən.

– Mən sənin şeirlərini əzbərləmişəm, bilirsən?!! – Firəngiz söhbəti dəyişsə də yenə burnunu çəkə-çəkə dedi.

– Doğrudan deyirsən? – Mən bilmədim sevinim, ya kədərlənim.

– Doğru sözümdü. Tez qayıt nolar, tez qayıt. Söz verirsən? Tez, tez, tez... Söz ver! Söz ver!

– Söz verirəm... – Mən sadəcə cavab verdim.

– ...Bu dünyada, sakit həyat axtarma, qardaşım. Gözəl həyat qura bilərsən, rahat həyat düzəldə bilərsən, dərdin-qəmin olmaz, hamını dost kimi görərsən, hamı da sənə dost kimi baxar... Amma bu dünyada sakit həyat yoxdur.

– Heç olmasa gecə ki, özün-özünlə qalacaqsan. Yorğanını başına çəkib gün ərzində gördüklərinin haqq-hesabını çəkməyə başlayacaqsan. Hirs səni götürəcək, ürəyin az qala partlamaq istəyəcək və nəhayət ki, dilə gələcək: "bəsdir!" deyəcək.

– Deyəcək və istəyəcək ki, uçub getsin bir ağacın budağına qonsun, bir balaca quş gözü ilə ordan baxsın görsün nə olacaq, nə olmayacaq səndən sonra.

– Bəlkə də hər şey yaxşı oldu. Dostların da gəlib ürəkdən qəmləndilər, yaxınların da ağlamaqdan özlərini həlak elədilər və bu zaman sən, daha doğrusu, o quşcuğaz istəyəcək ki, bir az da yaxına uçub gəlsin, o mehriban üzlərə son dəfə yaxşı-yaxşı baxa bilsin.

...Ən sevimli bir adamın göz yaşını silə-silə eyvana çıxacaq. Görəcək ki, məhəccərə balaca bir quş qonub. Əli ilə o quşu qovalayıb qaçıracaq.

## 1-ci EPİLOQ

**Üç ay sonra. Məktəbdə. Böyük tənəffüs zamanı.**

"Mənim adım Firəngizdir. Bu gündəliyi Nazimin anası iki gün əvvəl məktəbə gətirdi. Məni soruşdu, biz onunla üçüncü mərtəbədə bir tərəfə çəkilib pəncərənin önündə dayandıq.

Nazimin anası qəmli gözləri ilə pəncərədən bayıra baxa-baxa belə dedi:

– Qızım, mən istəyirəm, bu gündəliyi sənə verəm. Çünki burada adı keçənlərin hamısından daha çox sənin haqqın çatır buna.

Mən buna təəccüb etmədim. Amma bir söz də deyə bilmədim ona. Boğazımın elə bil yolu tutulmuşdu. Bir az da keçsəydi hönkürəcəkdim... Gözlərim doldu.

– Allahın işidi, qızım. Allah verdi, Allah da aldı. Allahıma qurban olum, o, sevimli bəndəsini tez aparır yanına.

Nazimin anası daha durmadı, gündəliyi mənim sinəmə sıxdı, mən gözlərimi yumdum, onun titrək barmaqlarını saçlarımda hiss elədim. Sonra o mənim üzümdən öpüb tələsik çıxıb getdi.

İnanırsınız, mən bilmirdim ki, Nazim gündəlik yazır. Mənə elə gəldi ki, onun gündəliyində ən əsas məsələ öz xəstəliyi barədə məlumatının olmasıdır. Mən bunu hiss elədim. Bilirdi və heç kimə də bunu bildiyini axıracan demədi.

Necə böyük dərdi varmış Nazimin. Bu boyda ağır dərdlə o hələ bizimlə bir gülüb şənlənə də bilirmiş, şeir yazırmış... özü də təkcənə çəkib bu dərdi, ən yaxın adamına da, mənə də deməyib. Çox dözümlü idi, çox.

Onun mənə verdiyi şeirlərinin biri belə bir misra ilə bitir:

"...Sonra məzarda da sevərəm səni..."

Mən gündəliyi dözməyib Şərqiyə müəlliməyə göstərdim. Bir qəfil fikir gəldi başıma, onu da bildirdim. Şərqiyə müəllimə cavab verdi ki, Zərbəli müəllimlə məsləhətləşmək lazımdır.

Bir müddət keçdi. Günlərin bir günü Şərqiyə müəllimə və arxasınca Zərbəli müəllim axırıncı dərsin qurtarmasına 5 dəqiqə qalmış bizim sinfimizə daxil oldular.

Zərbəli müəllim hüznlə üzünü sinfə tutub kövrək səslə bunu dedi:

– Uşaqlar, rəhmətlik Nazimin gündəliyini mənə verdilər, mən də oxudum. Onun itkisi təkcə sizin sinfinizin itkisi deyil. Onun itkisi bütün məktəbimizin itkisidir. Mənim itkimdir... Mən nə təklif edirəm?! Kim əgər istəyirsə, könüllü, əlbəttə könüllü olaraq, bu gündəliyə Nazimlə bağlı öz ürək sözlərini yazsın, beləliklə gündəlik davam eləsin, yarımçıq qalmasın. Onun da ruhu şad olar...

Demək olar ki, bütün uşaqlar ani sükutdan sonra dörd tərəfdən "çox doğrudur", "hökmən davam etdirək", "biz onu unutmayacağıq" kimi sözlər dedilər. Şərqiyə müəllimə Zərbəli müəllimdən icazə alıb üzünü sinfə tutdu:

– Gündəlik, belə qərara gəlmişik ki, məndə qalacaq. Kim istəsə gəlib məndən alsın, öz sözlərini yazsın, sonra yenə mənə qaytarsın. Nə deyirsiniz?

Hamımız razılaşdıq. Şərqiyə müəllimə ilk olaraq mənə verdi gündəliyi. "Sən başla" dedi. Mən gündəliyi ondan aldım.

İndi gündəlik qabağımda, evdəyəm. Oturub düşünürəm: nə yazım? Nə yazacağımı bilmirəm. Mənası varmı yazmağın? Onu da bilmirəm. Nazim indi bizim səsimizi eşidə bilirmi? Kim bilir?!

Yadıma bir hadisə düşür. Yeni yazdığı bir şeiri verdi mənə ki, oxuyum. Mən oxudum və nə üçünsə qəzəbləndim. Çünki orada heç nəyin mənasını anlamayan, qədirbilməz, yelbeyin bir qız təsvir edilmişdi. Mən nə üçünsə o qızı özümlə eyniləşdirdim. Nə isə dedim və Nazimin xətrinə dəydim. Elə bil ki, küsməyə bəhanə axtarırdım. Beləcə küsüşdük. Bir neçə gündən sonra isə ikimiz də bir-birimiz üçün artıq elə darıxmışdıq ki... Bir himə bənd idik – barışdıq. Elə bil dənizdə az qala batırdıq, suyun üzünə çıxıb çoxluca nəfəs aldıq. Nazim dedi:

– O şeiri cırıb atdım. Amma sən nahaq özünə götürdün.

– Gəl bu barədə danışmayaq...

– Bir söz deyim, sonra bu mövzunu birdəfəlik qapayaq, plastinkanı da dəyişək. Deyim?

– De...

– Mənim sənə sevgim sənin mənə sevgindən güc alır. Mən bilməsəm ki, hiss eləməsəm ki, sən məni nə qədər... sevirsən...

– Aydındı, aydındı, yaxşı, qurtardıq bu söhbəti... – Mən birdən-birə nə üçünsə utandım.

O söhbəti bir daha təzələmədik. Mənə indi elə gəlir ki, onun şeirlərinin ümumi siyahısında bu şeir yoxdur, çünki mənə dediyi kimi yəqin ki onu cırıb atmışdı.

Qəribədi, Nazim o şeiri Henrix Heyneyə həsr eləmişdi. Alman şairinə.

– Niyə məhz Henrix Heyneyə? – Mən ondan soruşan zaman o mənə belə cavab verdi:

– Çox qəribədi, mən onun şeirlərini oxuyanda valeh oldum. Bu şeir də öz ruhu, quruluşu ilə onun bir çox şeirinə oxşayır, onların təsiri ilə yazılıb. Əslində şeirin adını "Heynevari" də qoymaq olardı.

Mən heç nə daha demədim. Henrix Heynenin şeirlərini oxumamışam. Amma Nazimin bu şeiri o biri şeirlərindən nə iləsə kəskin fərqlənirdi. Mən bu fərqi açıq-aşkar hiss etmişdim. Bundan sonra Henrix Heyneni də təsəvvür etdim. O artıq mənim üçün həmən "nə isə" deyilən fərqdən ibarət idi. O şeir budur. O cırıb atmışdı, mən isə onu saxlayıram:

O vaxt ki, eşqimiz çiçəklənirdi,
O vaxt ki, hər tərəf laləzar idi
mənim nəzərimdə
Sən məni atdın...
Nə deyim, bəlkə də arzuna çatdın.
Ürəyin yanmadı bir an qəlbimə
Qara gözlərinlə yanan qəlbimə
çəkərək yaraq
Ümidlər, arzular məhv olsa belə

Getdin gülə-gülə, acımayaraq.
Səndən mənə qalan nə oldu, dillən
Əziz xatirəmi, ya da ki şəkil?!
Onların canına bəsdir bu illər
Ya bir il, ya üç il, ya da ki dörd il...
Bəs səndən yadigar nə qalır mənə
Ki, həyat yolumda olsun gərəyim?!
...Elə bu zaman da ürəyim sancdı –
Ah, odlu ürəyim, odlu ürəyim!..

Nazimdən mənə məhz odlu ürək qaldı. O məni indi eşidir, eşitmir - mən bilmirəm. Ancaq bu odlu ürəkdə o həmişə yaşayacaq. Həmişə!!!"

* * *

"Mənim adım Aslandır. Biz on il Nazimlə bir sinifdə oxumuşuq. Sonuncu il natamam il oldu. Nazimin anası keçən yay tətilindən əvvəl biz 9-cu sinfi bitirən zaman Nazimdən xəbərsiz qəfildən məktəbə gəldi. Şərqiyə müəllimə ilə ikilikdə bir xeyli danışandan sonra onlar məni axtarıb tapdılar və bu acı xəbəri ilk əvvəl mən bilmiş oldum.

– Aslan, – Şərqiyə müəllimə ağır-ağır dilləndi, – sən ki Nazimin anasını tanıyırsan...

– Bəli, – mən cavab verdim. – Əlbəttə, tanıyıram.

– Siz deyirsiz, mən deyim? – Şərqiyə müəllimə qəmli üzünü Rəhilə xalaya, yəni Nazimin anasına tutdu.

– Siz deyin. Məni bağışlayın, mən gedim... – Rəhilə xala az qala ağlaya-ağlaya çıxıb getdi.

Görəsən nə baş verib? İlk ağlıma gələn o oldu ki, bəlkə... Heç demək də istəmirəm ağlıma nə gəldi.

Sən demə, Nazim ağır xəstə imiş. Həkimlər deyirmiş ki, tibb aləmində hələ ki, bu xəstəliyin əlacı yoxdur. Mənə elə gəlirdi ki, Şərqiyə müəllimə zarafat eləyir. Belə də zarafat eləmək olar?

– Siz uşaqlar, – Şərqiyə müəllimə qəmli-qəmli dedi, - gərək tətildən sonra elə edəsiz ki, Nazim xəstəliyini hiss eləməsin. Mehribançılığınızı artırın, onu əsəbiləşdirən hərəkət eləməyin. Çox ağır xəbərdi bu xəbər. Heç özümə gələ bilmirəm. Yazıq... Necə ürəyi var onun, necə şeirlər yazır... Hayıf, hayıf...

Biz uşaqlarla sözləşib şərtləşdik ki, Şərqiyə müəllimə deyən kimi hərəkət eləyək. Amma biz gərək elə eləyək ki, Nazim özü bundan duyuq düşməsin. O özü axı gündəliyinin əvvəlində yazır ki, uşaqların ona münasibətindəki dəyişikliyi hiss edir, amma izah edə bilmir.

Nazim bizimlə olmayanda sözümüz-söhbətimiz ancaq o olardı. Biz mat qalmışdıq ki, necə ola bilər ki, bu gün bizimlə bir yerdə deyən, gülən, qaçan, qovan dostumuz Nazimin artıq həyat saatı qurulub, möhlət üçün heç bir il də qalmayıb, söhbət artıq aylardan, həftələrdən gedir...

Biz Nazimi çox sevirdik. O əsl dost idi. Mənə çox köməyi dəymişdi. Bu barədə gündəlikdə özü yazıb. Amma bir məsələ var, mən onu deməliyəm.

Nazim Zərbəli müəllimlə mənim rüb qiymətimi həll eləyəndən sonra bu şad xəbəri mənə verəndə onun üzünü, gözlərini görmək lazım idi. Nazim məndən çox sevinirdi..."

* * *

"...Mənim adım Azərdir. Biz uşaqlarla söz verdik ki, məktəbin axırına qədər bu gündəliyi yazacağıq. Nazim onu başladı. Şəxsən mən heç zaman gündəlik yazmamışam. Amma yazsaydım yəqin ki, Nazimin yoxladığı inşalardan birinin məzmununu ora yazardım. "Qonşumuzun qızı" adlı inşanı mən yazmışdım. Nazim özü mənə bu inşaya görə "beş" qiymət vermişdi. Ondan əla müəllim, əla şair çıxardı. Necə ki böyüklər deyir, Allah rəhmət eləsin ona. Qəbri nurla dolsun.

Onun məndə heç kimin bilmədiyi bir şeiri var. O zaman şeiri mənə verdi ki, öz adımdan, guya ki, mən yazmışam şeiri, verim həmən qonşu qıza. Mən də saxladım, saxladım, özümdə bir cəsarət tapa bilmədim ki,

şeiri verim. O vaxtdan məndə qalıb. Dünən köhnə dəftərlərimin arasından tapıb çıxardım o şeiri. O şeir budur:

**Könül**
Dirçələn çiçəklər güləndə üzə,
Min ziynət verəndə çəmənə, düzə,
Gələndə iki gənc birdən göz-gözə
Xırda uşaq kimi şadlanır könül.

* * *

Xəzərə oxuyar nəğmə küləklər.
Küləklərlə birgə uçar diləklər.
Yananda vüsalla sevən ürəklər
Bilmirəm, nədənsə odlanır könül.

* * *

Yüz gülə versəm də mən ürəyimi
Yaddan çıxarmaram bir gərəyimi.
Günahı yoxsa da müqəssir kimi
Yenə də qarşında dayanır könül."

* * *

"...Mənim adım Qənirədir. Nazimin itkisi ailəsi üçün olduğu kimi biz yoldaşları üçün də ağırdır. Mən açıq yazıram. Bizim Nazimlə çox isti münasibətimiz vardı – xüsusilə səkkizinci sinifdə. Nazim məni o zaman qənirsiz Qənirə çağırardı, mənə elə gəlirdi ki... Yox bunları yazmaq düzgün olmazdı. Mən ancaq bunu deyəcəyəm: çox incə ürəyi vardı, elə gözəl şeirləri o cür ürək olmadan yazmaq mümkün deyil..."

* * *

"...Mirzə Nazim, bala, bunları da mən yazıram. Sənin qoca müəllimin. Amma heç bilmirəm, nə yazım?! Bu qoca yaşımda məni ağlatdın. Axı sən hələ yaşamalı, uca zirvələr fəth eləməliydin. Sənin fitri istedadın nə üçün belə tez söndü? Şimşək kimi çaxdı və söndü. Heç nə yaza bilmirəm. Ürəyim sızıldayır. Mən ağlayıram, Mirzə Nazim..."

* * *

"...Mənim adım Arzudur. Nazim mənim üçün çox doğma adam idi. Qardaş kimi doğma idi. Onun xəstəliyi barədə ilk günlər səhər-axşam düşünürdüm. Aslan axırda mənə dedi:

– Sən özün xəstələnəcəksən.

– Axı sən başa düş...

Onları (Aslanı, Azəri, Nazimi) kinoteatrın yanında görəndə çox... belə birtəhər oldum. Qəzəbləndim Aslana və Azərə. "Utanmazlar!" — düşündüm. – "Bunlar bilmirlər ki, Nazim nə haldadır?! Hələ onu məktəbdən də qaçmağa təhrik edirlər?!". Ən çox da Aslana hirslənmişdim.

Məktəbə gələn kimi Şərqiyə müəlliməni axtardım, o bizim sinif rəhbərimizdir, məsələni ona danışdım. İstədiyim o idi ki, Nazimi... qoruyaq. Hamımız. Bacarmadıq.

Rahat yat, qardaşım. Sən sinfimizin yaraşığı idin, elə də xatirimizdə qalacaqsan..."

* * *

"...Mənim adım Şərqiyə müəllimədir. Nazimin ölümündən sonra güclə özümüzə gəlirdik ki, daha bir ağır xəbər məktəbi sarsıtdı. Qocaman müəllim, əməkdar müəllim, Sosialist Əməyi Qəhrəmanı bizim əziz Zərbəli müəllim dünyasını dəyişdi. Faciəli şəkildə rəhmətə getdi.

Fikirli-fikirli küçəni keçəndə onu maşın vurmuşdu. Xəstəxanaya çatdıranda hələ sağ idi. Maşınla onu vuranı da tanımışdı, öz qonşuları idi. Amma yaxınlarının hamısına Zərbəli müəllim qəti qadağan elədi bu adamın adını çəkməyə, istintaq açıldı, xəstəxanaya milisin biri gəldi, o biri getdi, amma nə qədər soruşdularsa, maşın sürən kim idi, maşının nömrəsi nə idi, nə Zərbəli müəllim, nə də onun ailə üzvləri qəzanın səbəbkarı barədə heç bir söz demədilər, iki gündən sonra Zərbəli müəllim keçindi. Zərbə, əlbəttə ki, bu qoca yaşında onun üçün çox ağır olmuşdu.

Zərbəli müəllim Nazimi "Mirzə Nazim" deyə çağırardı. Nazim onun sevimlisi idi. Həyatdı, nə eləmək olar?! Bu gün Nazimin ailəsi üçün ağırdır, sinif yoldaşları üçün ağırdır. Elə uşaqlar da sağ olsunlar, tez-tez qəbir üstünə gedirlər. Təsadüfə bax. Nazimin və Zərbəli müəllimin ikisinin də qəbirləri təzə qəbirstanlıqda yanaşıdır. Əvvəl Nazim, sonra Zərbəli müəllim gəlir. Eyni çiçəklərin yarısı onun, yarısı müəlliminin sinə daşının üzərinə qoyulur. Müəlliminin yanında basdırılmaq özü böyük bir xoşbəxtlikdir, deyirlər. Yəqin elədir..."'

## 2-ci E P İ L O Q .

**Xəstəxanada. Nazim qəm dəryasına batmış anasının əhvalını qaldırmaq istəyir.**

– Ana, ay ana, darıxmışam e... evə istəyirəm.

– Nə var evdə? Gedib evdə neynəyəcəksən? – Anası gizlicə əlinin dalı ilə göz yaşını silə-silə soruşur.

– Stullarımızı öpəcəyəm... O xal-xal stulum var ha, onu.

Sonra da Nazim anasını güldürmək üçün min oyundan çıxır – üz-gözünü əyir, gözünü dolandırır, dilini çıxarır...

***

**P.S. Təkcə "Epiloq"lara deyil, bütün burada yazılanlara aiddir.**

...O biri, başqa dünyada Nazim, təbii ki, xəstə deyil, təbii ki, xəstəxanada heç vaxt olmayıb, təbii ki, şeir də yazıb eləmir. O artıq yaşlı bir adamdır. Kəsbkarlığı ilə məşğuldur. Öz həyatından, güzəranından heç bir ləzzət almadığını yalnız özü-özü üçün nadir hallarda etiraf edir. Görünür, o biri başqa dünyadakı həyat bu dünyadakı kimi deyil. Ola da bilməz.

# Hekayələr

# Qərar

Tül pərdə arxasındaydı sanki hər şey. Şahın sadiq nökəri cəllad Məmmədqulu ömrü boyu ən cəsarətli addımlarını düşünmədən atdığı kimi əvvəl-əvvəl elə bilmişdi ki, bu qərar da həmişəki kimi asan olacaq. Ömrünün axırına hələ bir xeyli vaxt qalmağına baxmayaraq qolunda, belində güc gücün üstünə yığışıb yatışmışdı və belə bir güc qalağının, tənumənd heykələ bənzər vücudun, istirahət nə olduğunu bilməyən, bilmək istəməyən bir adamın qəflətən bu cür bir gözlənilməz qərara gəlməyi hamıdan əvvəl onun özünü çaşdırmalıydı ki, bu nədi, düşündün daşındınmı, yoxsa yoldan çıxaran oldu səni, elə yatdın-durdun, bəlkə ağlına gəldi-gəlmədi fikir söylədin, yumruğunu yerə vurdun, "bəsdi" dedin, "yoruldum" dedin, bir az da səninlə yaşamaq, ömrümün sonlarını bu gözəl, bu işıqlı bu dağların başında, bu qarşısını bulud parçası almış, bu aya yaxın şəhərdə, bu əyri küçədəki bu kiçik evdə keçirməkdən başqa sən demə heç nə istəmirəm.

Qərara gəlməyinə gəlmişdi, amma nə sirdisə ürəyi də səksəkədə idi, ürəyinin içində nəsə başlamışdı gizildəməyə, özü də nəydisə bu gizilti təzə-təzə gəlib girirdi ürəyinin içinə, girdiyi zaman da elə o an beyni də başlayırdı sanki ala-bula dumanların içində gizlənirdi, keyiyirdi, hər şeyi, hər

şeyi unudurdu və nə vəchlə çalışırdı, nə illah eləyirdi özündə qüvvə tapa bilmirdi, nəyisə, kimisə bu zaman xatırlasın ki, bəlkə çox zəif bir şəkildə ancaq bunu düşünə bilirdi, bəlkə xatırlasaydı kimisə, yainki nəyisə, bu ağrıya çevrilən gizilti də, vücudunun, elə bil, uçurmuş kimi yırğalanması da, başının içinin keyləşməsi də fövrən keçib gedəcəkdi, yox olacaqdı.

Heç nəyi əməlli-başlı xatırlaya bilmirdi. Ağrıdan qurtulmaq imkansız idi, amma ağrıdan qurtulmaq dadlı xəyal kimiydi. Gəl Allahın işinə bax, lazım idimi ona bu göylərdən cəza kimi, başqa heç bir ad tapıb qoyammırdı buna – cəza, ancaq cəza, cəza kimi göndərilən bu sevgi, bu eşq, bu mənasız və heç zaman inanmadığı, çünki heç zaman görməmişdi eşitmişdisə də görmədiyindən inanmadığı bu eşq, bu sevda, yəni bu belə şirin olurmuş, xudaya?!

"Bəlkə bu qız məni qorxduğundadı sevir, çünki məndən qorxanların indiyənədək hamısı eşq-məhəbbət andı içiblərsə də, mənə bol-bol, şirin-şirin vədlər veriblərsə də, amma hər hansısıyla yorğan-döşəyə uzanan zaman gözlərinin dibindəki iyrəntinin üstünə yorğan kimi atılıb gizlədilən qorxunu görüb fövrən anlamışam: yox belə deyil, bu məhəbbətdisə, bu mənə lazım deyil, bircə tez bitəydi bu iş, durub rədd olub gedəydi cəhənnəmə bu naməhrəm oğlunun qızı naməhrəm."

Bu dəfə isə bu qızla arasında heç bir qorxu, heç bir yadlıq yox idi və həm də heç bir şübhə yox idi ki, bu baş verən nədisə ilk dəfədi baş verir, bura qədərkilər cəfəng-cəfəng işlər, cəfəng-cəfəng söhbətlər imiş.

O öz qərarını vermişdi. Bu boyda qoşunun özü ilə ən vacib əşya kimi ölkədən ölkəyə, şəhərdən şəhərə bəsləyə-bəsləyə, gəzdirə-gəzdirə apardığı on cəlladdan biri – ucaboy, cüssəli-şaqqalı, ömrünün əllisini artıq yaşamış, kefinin kök vaxtlarında özü-özünə «yazıq Allah bəndəsiyəm» deyən cəllad Məmmədqulu. Qərar ondan ibarət idi ki, artıq qoşunla, onu boya-başa çıxarmış padşahla, haqq-sayını heç vaxt qaytara bilməyəcəyi vəzir Məşdəli ilə burada, bu Allaha bir az da o birilərindən yaxın olan şəhərdə artıq vidalaşacaq, üzrxahlıq, peşiman-filanlıq dolu sözlər, göz yaşları, «nökərinəm ölənəcən» və sairə və sairə nələr deyəcəkdi, əl-ayaqlarına düşüb vəzirin əfv diləyəcəkdi özünə və gözünün ağı-qarası bircə oğlunu ona atalıq etmiş və-

zirə əmanət edib çəkilib bu sakit, dar, əyri-üyrü yolu üzü yuxarı baş alıb gedən və harda qurtardığı bəlli olmayan daş döşəməli küçəyə qayıdacaqdı. Cəllad öz xidmətini qurtarmışdı, davam etdirməməyə, elə hesab eləyirdi ki, haqqı çatır, çünki sədaqətlə qulluq etdiyi, cani-dildən könül verib bağlandığı padşahı buna bir qiymət verməli idi, verməyə bilməzdi.

Padşahın «Cəllad!» çığırmağı kifayət idi ki, pərdə arxasından bu sözün səslənişi hələ bitməmiş atardı özünü vəlinemətinin hüzuruna, ikiquylu olardı, qarşısında başı əyilərdi əyilə bildiyi qədər, amma gözlər, o iri və işım-işım işıldayan gözlər Məmmədqulunun sifətində yerini dəyişib daz başının təpəsinə qalxırdı dikilirdi padşahın üzünə və daha qibleyi-aləmin ikinci sözünə ehtiyac qalmırdı. Padşah sözünü cəllada baxışıyla deyirdi.

Hər cəzanın öz baxışı vardı. Başı bədəndən ayırmaq lazım idi – padşahın gözlərinin içindəki bəbəklər, elə bil, üşüyürdü, titrəşən kimi olurdu. Göz tökmək – göz qapaqları yavaş-yavaş çökürdü, qara qaranlıq kimi qapayırdı qibleyi-aləmin gözlərinin işığını və bu işıq son dəfə göz qırpıb Məmmədqulu cəllada məxsusi bu səfərki cəzanın sirrini açırdı. Qulaq kəsmək – qibleyi-aləmin qulaqları yuxarı dartınırdı, xarab eləmək – üz-gözü ikrahdan büzüşürdü.

Qibleyi-aləmin ağlına da gəlmirdi ki, Məmmədquludan gözlədiyini söz şəklində əlavə eləmək lazım ola bilər, Məmmədqulu bilməyə bilər cəzanın necəliyini, sirrini. Bir əliylə qurbanını boğazlayıb dik qaldırırdı yerdən, son dəfə qibleyi-aləmin üzünə baxırdı ki, bəlkə fikri dəyişib bəlkə bu cəzanı başqasıyla əvəz eləmək istəyir, ya da günahkarın günahından keçir, amma bircə dəfə olmuşdu bu, bütün bu uzun günlər və qısa illər ərzində bircə dəfə qibleyi-aləm Məmmədquluya əliylə «get» demişdi, Məmmədqulu onun gözlərindən «burax bu binəvanı, get» sözlərini oxumuşdu. Qibleyi-aləmin bir an əvvəlki üşüyən göz bəbəklərində ya bir parıltıydı bu, ya həqiqətən bir damla yaş görünmüşdü Məmmədquluya və o, çaşqın halda bir əliylə boğazladığı o qocanı qaytarıb təzədən ayaqları üstə buraxmışdı, yerə əyilmişdi, baş əymişdi – gözləmək istəmişdi, bilməmişdi, bu qədər vaxt ömrü sarayda, padşahın həndəvərində keçən, onun hər bir hərəkətini bədəniylə, bədəninin ucundakı tükləri̇lə duyan bu adam ilk dəfə bilməmişdi,

neyləsin, getsin, yoxsa qalsın. Qibleyi-aləm onun bu çaşqınlığını görüb belə demişdi: «Çəkil, Məmmədqulu, get, get... ah, zalım qoca... burax, burax bu binəvanı...»

Gözlər cəllada elə baxmışdı ki, Məmmədqulu tez əlləri döşündə çəkilmişdi bir kənara.

– Qoca, deyirlər oğlunu öldürüb onun övrətinə sahib çıxmısan, doğrumu deyirlər? – Qibleyi-aləm cəllad çağırmamışdan əvvəl qocadan soruşmuşdu.

Qoca yerə sərili başını qaldırmadan:

– Doğru deyirlər, qibleyi-aləm, – deyə güclə çıxardığı pıçıltı ilə cavab vermişdi.

Padşah nə düşünmüşdü, nə düşünməmişdi, sonra öz-özüylə danışırmış kimi belə demişdi:

– Yox, doğru demirlər, mən bu məsələni kökündən öyrənmişəm, doğrusu olan budu ki, kəndxudanın işidi bu, özü də sənə deyib ki, mənim hüzurumda boynuna götürməsən əgər bu məsələni, yəni oğlunu qətlə yetirməyini, o zaman o sənin nəvələrini... nəvələrin varmı, qoca, hə, var, iki körpə nəvən var... deməli, nəvələrini, bir söz, bu kəndxuda... adı nəydi onun, Bayraməli deyilmiydi, Bayraməli idi, bu Bayraməli də o zaman sənin nəvələrini öldürməyə and içir.

– Mən öldürmüşəm, qibleyi-aləm, mən, mən bədbəxt, mən məzlum, mən fəqir, mən müzür...

Özünü-sözünü bilməyən qocaya baxıb «bununla niyə axı vaxt itirirəm?» düşünən padşah «Cəllad!» çağırmışdısa da sonra yenə nəysə düşünmüş, amansız fikrindən vaz keçmişdi.

– Ax qoca, ax qoca, mərdi-mərdanə hər şeyi olduğu təki danışsana... Çağırın o Bayraməlidi, nədi, o it oğlu iti bura, yox, gedin, sürütdüyün gətirin, yıxın yerə, boynuna alana qədər vurun, motal kimi leşini salın, amma məbadə öldürəsiniz, bu qoca öldürəcək onu, eşidirsənmi, qoca, oğlunun intiqamını sən özün almalısan.

Padşah, önündə üzüqoylu yerə sərilib tərpənməz qalmış qocaya nəzər salıb belə demişdi. Padşahın son sözlərindən sonra qocanın zəif çiyinlərindən bir diksinti keçmişdi.

Bəli, Bayraməlini sürütdəyə-sürütdəyə gətirmişdilər yıxmışdılar qibleyi-aləmin ayaqlarının altına və qibleyi-aləm ondan soruşmuşdu:

– Bilirmisən, səndən nəyə görə şübhələndim?

Sonra isə cavab gözləmədən:

– Çünki bu kənddə artıq ikiminci hadisədi bu, lənətulla!– Özü öz sualına cavab vermişdi.– O təkgöz qocanı da iki il əvvəl, o binəvanı da sən mənə öldürtdün günahsız-günahsız, it oğlu it, noldu bu boyda məmləkətdə elə təkcə sənin kəndində atalar oğullarını öldürüb övrətlərinə tamah salmağa başladılar, noldu bunlara birdən-birə elə hamısı ağıllarını itirdi, itin oğlu it?

Bayraməli kəndxuda döyülməkdən bihal olsa da anlamışdı ki, iş işdən keçib, qibleyi-aləmə hər şey artıq məlumdur, başını başlamışdı çırpmağa zərblə yerə dəyəndə başı cəsarəti çatmamışdı ki, bir kəlmə söz deyə və eləcə başını yerə çırpa-çırpa qalmışdı.

– Sənin heç atan olmayıbmı, pədərsüxtə?! – Padşah ona ikrahla baxa-baxa soruşmuşdu. – Bu qocaların təqsiri nədi, tamahının qurbanı niyə bu binəvalar olmalıydı, hə?..

Qibleyi-aləmə bir cavab yerinə Bayraməli kəndxuda yenə də başını yuxarı-aşağı taqətsiz yerə çırpmağında davam etmişdi. Bu dəfə Məmmədqulu heç imkan verməmişdi ki, padşahın ağzından «cəllad» kəlməsi çıxsın, ürəyi həyəcandan və nifrətdən parçalana-parçalana özünü atmışdı pərdənin arxasından içəri hüzura və bir göz qırpımında gözünün ucuyla sezib görmüşdü ki, qibleyi-aləmin göz bəbəkləri səyridi, üşüməyə başladı, elə o andaca boğazlamışdı mənfur Bayraməli kəndxudanı və sürüyə-sürüyə çıxarmışdı taxt-tacın hüzurundan eşiyə çıxan kimi yenə sürüyə-sürüyə taqətsiz, şüursuz halda, amma hardansa güc tapıb dirənib heç cür getmək istəməyən bu adamı «gəl, ay Allahın bəndəsi, qaldır ayağını, dirənmə, gəl qibleyi-aləmə şükürlər elə ki, nəslinə qıymır, bir canın var, bu gün-sabah onsuz da tənini tərk edəcək, uçacaqdı, çıxıb gedəcəkdi, gəl, gəl, qorxma, qorxma...» deyə-deyə aparıb

bir kənara divanxananın iç həyətindəki qətl yerinə gətirmişdi və orada artıq onu gözləyən köməkçilərinə «tez olun, tutun bunun ayaqlarını, bay, bay, buna bax ha, ay allahın heyvanı, sakit ol, sakit ol, məni çıxartma hövsələdən, təpik atır, təpik atma, eşşək oğlu eşşək, atma təpik, dedim»,– demişdi, Bayraməlinin başına bıçağı dayayıb boylanmışdı, gözlərilə qocanı aramışdı. Bir kənarda gəlib duran qoca baxışını yana döndərmişdi. Bundan sonra elə beləcə danışa-danışa cəllad Məmmədqulu Bayraməlinin başını yavaş-yavaş ləzzət ala-ala, xırıldada-xırıldada kəsmişdi.

Məmmədqulu padşahın sevimli cəlladı idi. Qibleyi-aləm onun gənclik illəri barədə vəzir Məşdəlidən bəzi şeylər eşitmişdisə də bu söz-söhbət o qədər əcayib idi ki, əvvəl-əvvəl inanmağı gəlməmişdi, amma düşünmüşdü, nə düşüb vəzirə ki, yalan danışsın, ya da dürüst bilmədiyi bir şeyi cəsarət edib onun, yəni, padşahın hüzurunda bu cür inamla söyləsin.

Vəzir isə belə deyirdi:

– Anasını öldürüb, sonra da dağlara çəkilib bir ara guşənişin olandan sonra üzə çıxdı, qulluğa gəldi, ondan əvvəl bir ins-cins ilə heç bir əlaqəsi olmadan yaşadı, hər kəs ondan qaçdı, o hər kəsdən qaçdı. Hər kəs elə bildi ki, bu boyda cinayətin müqabilində adamlardı Məmmədquludan üz döndərib, amma əslində, o hər kəsdən üz döndərmişdi, bir müddət dağda, daşda, dərədə, düzdə, gəzib dolaşdıqdan sonra dözmədi təkliyə indi də gəlib üzə çıxsın, qulluğa girsin. Rəhmətlik atasını tanıyırdım...

Bir də belə dedi vəzir Məşdəli:

– Atası yaxşı bir kişiydi, sakit adam idi, ömrü-günü səyahətdə keçərdi. Ölümü də öz evində oldu, çox qaranlıq qaldı ölümü, quldurların üstünə yıxdılar, guya bununla Ərəbistandan bir yerdə yol gələn bələdçilər gecəylə gəlib çıxırlar bunun evinə qarət məqsədilə girib özünü öldürürlər, balaca oğlu, bu Məmmədqulu necəsə qaçıb canını qurtarır, arvadına da, qibleyi-aləm sağ olsun, olmazın işgəncə verirlər guya ki, pulların, qızılların yerini öyrənmək istəyirlər, amma istəklərinə nail olmurlar o səbəbdən ki, övrət ağıllı çıxır, biclıklə bunları bir tövr aldadıb ərinin əmisi oğlu da ki, qonşularıydı – tacir Zəbulla, bu qonşularıgilə qaçıb gedir. Amma, qibleyi-aləm sağ olsun şayiələr də boş yerdən yaranmayır, uşaq böyüdükcə onunla bahəm

bu şayiələr də böyüdü. Başladılar deməyə ki, anası öldürüb atasını oynaşıyla, bu tacir Zəbullayla bir yerdə bu qurğunu onlar qurublar, nə bilim qarətdi, nədi, karvan bələdçiləridi kimdi, guya gəlib qarət ediblər, öldürüblər. – bütün bunlar yalan söhbətlərdi. Doğru olan budu ki, kişini arvadı, bu Məmmədqulunun anası öz qonşuları, kişinin doğmaca əmisi oğlu ilə – Zəbulla ilə bir yerdə söz qoyub öldürüblər və guya bu çoxdan qurulmuş bir tələ olub və guya bunlar bir-birilərini sevirmişlər və guya kişidən qorxublar ki, qürbətdən qayıdandan sonra aralarında baş verən bu eşq macərasından, gecələr qonşu evdən qonşu evə açılan gediş-gəlişdən xəbər tutub bunlara qorxunc qəzəb edər.

Bütün bunlar, həqiqətən, vəzir Məşdəli deyən kimi idi. Məmmədqulu o zaman yeniyetmə yaşına təzəcə qədəm basmışdı. Ayaq alıb gəzən şayiəni, söz-söhbəti, dedi-qodunu o da eşidir və anasının bu yaşda atasının əmisi oğlu ilə eşq macərasına heç cürə biganə qala bilmir. Bir gecə anasına deyir:

– Su istəyirəm, mənə quyudan su gətir!

Arvad yerindən durub yaylığını başına atır, su kuzəsini götürüb həyətdəki quyudan su almağa gedir, arxadan da gizlənə-gizlənə Məmmədqulu gəlib yetişir, bir an düşünmədən itələyir arvadı başıaşağı salır quyuya. Bircə allı-güllü bir yaylığ qalır Məmmədqulunun əlində. Arvadın ağzından ancaq kəlmeyi-şəhadətinin ilk sözləri çıxır və quyunun dibinəcən bu sözlər gedib təkrar quyunun ağzına qayıdır:

– Əşhədu ən lə iləhə illallah və əşhədu ənnə Muhəmmədən rasulullah...

Məmmədqulu bu hadisədən sonra ilim-ilim itmişdi, amma itməzdən əvvəl yenə gecənin bir vədəsi qonşuları tacir Zəbullanın həyətinə girib aylı-ulduzlu gecədə Zəbulla yatdığı yerdə, kişi isti yay günündə həyətdə yatmışdı, və xorultusu bütün həyəti götürmüşdü başına, bəli, bunun yatdığı yerdə əlindəki qəməni düz ürəyinə saplamışdı. Öləndə gözlərini açıb Məmmədqulunu görəndə, deyəsən, əvvəl-əvvəl onu tanımamışdı, son gücünü toplayıb nə illah eləmişdisə dikəldə bilməmişdi başını və eləcə baxa-baxa qalmışdı Məmmədqulunun üzünə və birdən nə üçünsə gülümsəməyə başlamışdı, tanımışdı elə bil. Öləndə dodaqlarının ucunda o xəfif təbəssüm öldü getdi.

Bu işləri görəndən sonra uzun müddət Məmmədqulunun sorağı heç yerdən gəlmədi. Günlərin bir günü şər qarışan vaxtı bir nəfər Məşdəli vəzirin qapısına gəlib Həsən Səyyahın adını verdi: "Bəs gedin vəzirə deyin Həsən Səyyahın adından gəlmişəm, onunla görüşmək istəyirəm."

Həsən Səyyah Vəzir Məşdəlinin uşaqlıq dostu və Məmmədqulunun günahsız qətlə yetirilən atasının adı idi.

Vəzir Məşdəli bu adamı evə dəvət edib zənlə baxdı gördü ki, saç-saqqal üz-gözünü basmış ucaboylu, cüssəli, gənc bir adamdı Həsən Səyyahın adından gələn bu adam, elə bil, tanınmağını o qədər də istəmir, gözünü gizlətməyə çalışır. Ürəyinə nə damdısa qəfildən soruşdu: «Məmmədqulu sənsən?»

Saç-saqqallı, cüssəli bu adam vəzirin sözlərindən sonra diksindi və daha onun Məmmədqulu olmağına vəzirdə heç bir şübhə qalmadı.

– Xeyirdimi gecənin bu vaxtı, Məmmədqulu? – Vəzir udqunub dübarə soruşdu.

– Xeyir olmağına… xeyir olmamış nə olacaqdı ki…

– Hal-qəziyyə nə cür oldu, Məmmədqulu? Sən bu işi niyə tutdun?

Məmmədqulu bir xeyli nala-mıxa vurandan sonra əsl həqiqəti açıb vəzirə söylədi və gəlişinin məramını bildirdi:

– Şahın qulluğuna girmək istəyirəm, üzə çıxmaq istəyirəm. Yoruldum dağda, daşda avara – sərgərdan həyat sürməkdən, bezdim. Kölgələr düşüb dalımca gəzir hər səhər, hər axşam amanım, bezarım yoxdu bu kölgələrin əlindən. Az qalmışam dəli olam. Sənə pənah gətirmişəm. Atamın dostu, xeyirxahı olmusan, sən bilirsən ki, mənim bütün bu işlərdə Allah qarşısında da, şah qarşısında da günahım yoxumdur. Atamın çörəyi tutardı məni, hər gecə yuxuma girirdi. Bala, deyirdi, sən mənim balam deyilsən məgər, bəs sən nə təhər rahat yata bilirsən, bunlar ki, atanı öldürüb hər gecə də girirlər onun yatağına, söyürlər doyunca goruna, bəs sən nə təhər dözürsən buna, bala, Məmmədqulu, soruşurdu məndən atamın ruhu. Daha soruşmur. Hal-qəziyyə budur.

Vəzir Məşdəli daha dərinə getməmişdi. Bir xeyli düşündükdən sonra Məmmədquludan «Şahın qulluğu deyirsən, nə deyirsən, nə təhər qulluq

istərdin özünə?» soruşmuşdu və Məmmədqulunun cavabından sonra bədənindən soyuq bir vicvicə keçmişdi, qanı damarında donmuşdu, az qala kürəklərindən soyuq tər axdığını, axıb tumanınacan gəldiyini hiss eləmişdi.

– Cəllad olardım, ağa. – Məmmədqulunun səsi mis kimi cingildəmişdi.

– ...Cəlladlıq sən bildiyin qədər də asan peşə deyil, oğul Məmmədqulu. – Vəzir özünə gəlib handan-hana dillənmişdi. – Etibar yiyəsi olmalısan, sənin üçün ağız açanın, dil tökənin olmalıdı. Bircə istək bəs eləməz.

Bayaqdan şax bir tərzdə duran Məmmədqulunu bir an içində dəyişib ora-burasını əymişdilər, ilan dili ilə danışmağa başlamışdı:

– Nolar, ağa, nolar, qurbanın olum, bir söz de, dil tərpət qibleyi-aləmin hüzurunda məndən ötrü. Səndən başqa kimim var mənim, nolar, ağa, qurbanın ollam.

Onun bu halını seyr edən vəzir Məşdəli barmağını dişləyib belə düşünmüşdü: "Yəni, belə mehribanmış bu iş bunun üçün? Yox, burda nəsə bir sirr var..."

Məmmədquluya isə vəzir belə demişdi:

– Nolar, bu cürə ki, sən maraq göstərirsən bu peşəyə, eyb eləməz, mən bir fikirləşərəm. Baxım görüm, sənə köməyim necə dəyə bilər?!

"Cəllad ha!.. Əlbəttə ki, burda bir sirr olmamış deyil!" Vəzir Məşdəlinin beynində dolaşan həmən fikir onu yenə də rahat buraxmamışdı.

Sonralar, çox sonralar vəzir Məşdəli onu rahat buraxmayan köhnə haq-hesabdan, dostluq minnətindən can qurtara bilməyib, padşaha, o zaman hələ cavan padşaha Səyyah Həsənin oğlu Məmmədqulu barəsində saqqal tərpədib ağız açanda, padşah da onun təvəqqesini qulaq ardına vurmayıb bu işə əncam çəkəndən və Məmmədqulunu əmrə müntəzir cəlladlar dəstəsinə qulluğa götürəndən çox sonralar vəzir Məşdəli Məmmədqulunu iş gördüyü zaman seyr edərkən, bəli, yalnız o zaman sirr bildiyi həmən o məsələ vəzirə agah olmuşdu. Çox böyük həvəslə, ürəklə girişmişdi cavan Məmmədqulu öz işinə, elə cani-dildən, elə can yandırırdı ki, dəstənin yaşlı, "üzü üzlər görmüş" cəlladları hətta mat-məəttəl qalırdılar. Hərə bu cəhdi bir yerə yozurdu, amma Məmmədqulunun tarixçəsini bilənlərin arasında bir qoca köməkçisi qul vardı, o deyirdi:

– Bunun belə ciddi-cəhdlə, ləzzətlə əzab-işgəncə verməsi, baş kəsməsi, uşaq boğması bunun öz dərdini buna unutdurur. Dərd isə böyük dərddi, ona dözmək asan məsələ deyil, mənim balam, ölümlə belə oyun oynamağı, asmağı-kəsməyi həmən o böyük dərdin böyüklüyünü hər dəfə bir az silib aparır, o böyük dərdi dərdsizləşdirir əgər ki, dərdsizləşdirə bilirsə...

Qoca qul dünyagörmüş, ağ-qaranı seçən bir adam idi. O bu cür deyirdisə, bu deyilənlər gəlib vəzir Məşdəlinin qulağına çatan zaman vəzir Məşdəli də qaşlarını çatıb «yəqin ki, bu sözlərdə bir həqiqət var» düşünürdü.

Beləcə günlər gəlib keçirdi şah qəsrinin qabağındakı qaraqabaq gözətçi əsgərlərin atdığı yorğun addımlar kimi: eyni addımlar, eyni ahəng, eyni məchul bir nöqtəyə dikilmiş gözlərin dərinliyindəki eyni zəhmli ehtiras… Yeni müharibələr həsrəti, yeni talan və qarətçilik həvəsi bu zəhmli və ehtiraslı baxışları hər Allahın verən günü, günü nədi, saatı götürüb gətirirdi şahın nəzərinin qarşısına. Qibleyi-aləmin qaş-qabağından bu zaman zəhər tökülürdü, əhvalı tamam pozulurdu, özünü-sözünü bilmirdi. Ona görə də günlərin bir əvvəlkilərə oxşamayan günündə padşah çox götür-qoy edəndən sonra gördü ki, daha dözmür ondan cavab gözləyən bu qaraqabaq baxışlara "yaxşı" dedi, çəng təbilinin çalınmasını və çəng bayrağının qəsr önündəki tuğdana vurulmasını istədi.

Bu xəbəri eşidib paytaxtı bir an içində sevinc sədaları bürüdü, nökər-naibin, əsgərin üzünün qırışığı açıldı, buzlar əridi, onbaşılar, yüzbaşılar, minbaşılar hərəkətə gəldilər, pal-paltarlarını səliqəyə salıb, əlbisələrini qaydasına gətirdilər, əmrə müntəzir durdular. Məmləkətin ucqar bir şəhəri vardı, bu şəhər qiyam etmişdi. İndi hamı məmləkət əhli bu şəhərə hücuma gedəcək əsgərlərə əvvəlcədən böyük bir müharibənin qalibləri kimi baxırdı, camaat şahın Allahdan ömrünün uzanması üçün şükür-dualar edirdi, tacirlər, töycü yığanlar, torpaq, ev alıb satanlar gizlicə əllərini bir-birinə sürtərək bol qazanclı günlərinin sevincini bəri başdan yaşamağa başlamışdılar.

Məmmədqulu adam göndərib axşamçağı oğulluğu onbaşı Şahverəni yanına çağırdı. Səfər barədə danışacaq, haraya, nə üçündü səfər, nə müddətədi, məqsəd nədi, səbəb nədi və sairə bu cürə söhbətlər edəcəkdilər. Çoxdan idi görüşmürdülər. Şahverən axır vaxtlar sərbazlıqdan onbaşılığa

yüksəldikdən sonra daha evdə az-az görünürdü, canı ilə, qanı ilə dəstəsinin yanındaydı hər gün, çox zaman gecəni də əsgər evində əsgərlə bir dam altında yatırdı.

Şahverən hələ gəlib çıxmamışdı. Məmmədqulu sabah tezdəndən bazardan aldığı mer-meyvəni, çərəzi, qovrulmuş noxudu ortaya düzdü. Şahverən qovrulmuş noxudu çox sevirdi və axşamçağı Şahverən gəlib, nəhayət, evə yetişəndə bu bir azcana yanmış noxudun iyi burnuna dəyən kimi qəfildən başa düşdü ki, o da atalığı üçün bərk darıxıb, düşündü ki, heç yaxşı iş görmür Məmmədqulunu yaşının yavaş-yavaş yaşlandığı bir vaxtda, tək-tənha gəzib dolaşdığı bir vaxtda, işdən başqa heç nə ilə və heç bir kimsə ilə başını qata bilmədiyi bir vaxtda – bir qoca quldu, bir özü – başlı-başına buraxıb günlərlə olur ki, halını da xəbər almağı unudur, gəlib baş çəkməyi də. Amma ata əvəzi olub atalıq olmayıb Məmmədqulu ona elə sidq-ürəklə bağlanıb ki, bunun əvəzində heç yaxşı iş görmür Şahverən, oğulluq borcunu layiqincə yerinə yetirmir. Bunları düşünüb Şahverənin ürəyi qısıldı.

Şahverən iki yaşı olanda atasını şahın əmri ilə Məmmədqulu o dünyalıq eləmişdi, qohum-əqrəbası, yeddi arx o yana kimi var, kimi yoxdusa, hamısı birbəbir cəllad Məmmədqulunun əlinin zərbini dadmışdı, bircə bu iki yaşına təzəcə girmiş kürən oğlan uşağından başqa Şahverdilər nəsli ilim-ilim itmişdi yer üzündən. Şaha xainlik eləmişdilər, köç sürüb çayı keçib bir başqa məmləkətə gedib məskunlaşmaq istəmişdilər. Nədən qaçırdılar, nəyə tuş gələsiydilər?! Kim bilirdi, kim bilmirdi ki, bu şahın əlindən baş götürüb qaçmağın yalnız bir yolu vardı – yalnız cəhənnəmə çıxıb gedə bilərdin, istiqamət yalnız o biri dünya idi. Xainlər cəzalarına çatmışdılar, ancaq tir-tir titrəyən bu balaca oğlan uşağını heç gözləmədiyi halda şahın icazəsi ilə "götür, verdim sənə, sədaqətinin cavabı olsun!" – sözlərindən sonra, Məmmədqulu bir balaca küçük kimi götürüb evinə aparmışdı, qonşuluqdan bir dayə tapıb onun qulluğunda saxlamışdı, boya-başa çatdırmışdı, ərsəyə gətirmişdi. Adını Şahverən qoymuşdu və bu balaca binəva körpəyə səbəbini bilmədən ya yavaş-yavaş, ya da ki, qəfildən elə isnişmişdi ki, Şah-

verəni öz doğma balası bilmişdi və bunu belə biləndən sonra körpəni ona bəxşiş edən şahın özünə məhəbbəti birə on artmışdı.

– Şahverən, oğul, səfərdən nə danışırlar, qoşun içində meyli olmayan heç varmıdır səfərə?

– Ağa, səfər elə səfərdi, həmişəkilərdən biridi, eləsi var əsgərin birinci səfəridi, bərk sevinir.

– Məmmədqulu noxudu ovuclayıb yanmışını bişmişinə, bişmişini yanmışına qatıb xırc-xırc yeyən oğluna altdan-altdan baxıb üzündəki məmnunluqdan başa düşdü ki, səfərə sevinənlərin içində o da var. "İlk cəng səfərinə çıxacaq, cavandı, qanı qaynayır, yeni şəhərlər, adamlar görəcək, ayağına çökənlər, yalvaranlar olacaq, kim bilir bəxtinə nə yazılıb bəlkə səadətini tapacaq o şəhərlərin birində, məni qoyub gedəcək?!" – düşünən Məmmədqulu nəvazişlə bığ yeri yavaş-yavaş tüklənən bu cavandan gözünü çəkə bilmir, altdan-altdan ona baxmağında davam edirdi: "Bığlar şəvə olacaq, gözlər qap-qara, kürən saçlar payız çəmənliyidi, elə bil, oğlum, oğlum, mən səni o Allah bilir, nə qədərinə sevirəm, həyatım mənim, bircə dənəm, bircəm, ömrüm, günüm sənsən, ancaq sən, kimsə bunu bilmir, bəlkə heç sən özün də bilmirsən, oğlum, iki gözüm, canım-ciyərim…"

Yadına gəlib o məşum gün düşdü və gözləri önündə balaca tifil yenə də ona məlul-məlul baxmağa başladı.

Noxuddan yeyə-yeyə Şahverən atalığının ona necə diqqət yetirdiyini əlüstü hiss edib amma büruzə vermədi ki, kişi birdən hislərinin, aşkarlanmağından rəncidə olar. Məmmədqulu sirriçində bir adam idi və sirriçindəliyi hamını onunla ehtiyatlı davranmağa sövq edirdisə də oğlu – addım-addım, söz-söz, baxış-baxış böyütdüyü və indi də onbaşı olub fəxrlə gümüşü qəbzəli qəməni kəmərindən yan keçirən oğlu Şahverən yaxşı bilirdi ki, bu sirriçindəliyin arxasında nə var, nə yoxdur, və bildiyindən idi ki, o da belə düşünürdü və düşünə-düşünə Məmmədqulunun ona bu tövr gizlin baxmasına mane olmamağa səy edirdi. "Ata, ata.. – Şahverən düşünürdü – atam mənim, böyüyüm mənim, kimim var bu dünyada səndən özgə, heç kim mənə min il qala lazım deyil mənə mal da, dövlət də, bircə sənin borcunu verə biləydim bu dünyada bundan böyük arzum ola bilməz,

ölməyəydim sən qocalanda borcumu verəydim, qaytaraydım sənə, atam mənim, atam əvəzi böyüyüm mənim".

Şahverənin beyninin dərinliyindən şeşə bığlı, əlləri qanlı, amma gözləri şəfqətdən əriyib gedən cavan bir kişinin əksi çıxdı və o, ürəyi qorxudan ata-ata balaca uşaq kimi bu kişiyə qısılmaq istədi.

Heç kim bu iki adamın üzbəüz oturub dinməz-söyləməz birinin oğrun-oğrun hərdən-birdən o birini süzməsindən, o birinin də bunu duyuq düşüb hiss eləməsindən bir məsələ anlaya bilməzdi, onların səssiz söhbətlərini duymazdı, ancaq özləri, ancaq Məmmədqulu və Şahverən, ancaq bu iki adam bir-birinə ürək qızdırıb bu cür ürək aça bilərdi, necə ki, ürək açırdılar və necə ki, bir-birini səssiz-sözsüz anlayırdılar. Bütün bunlardan savayı Məmmədqulu onu da dərk eləmişdi ki, insan insanı, lap elə ata balasını olsun, bu boyda sevə bilməz, bu boyda məhəbbət ola bilməz, Allahın lütfüdü bu. "Və bir də Allahın lütfü odur ki, ən çox istədiyin adam, bax, bu cür göz qabağında bardaş qurub ədəblə otura və sən hiss edəsən ki, balaca işarən ya qımıltın bu cavan adamı yerindən sıçradıb ona ən ağlagəlməz işi gördürə bilər, bəli, əsl sevgi, əsl məhəbbət, əlbəttə, budur, bundan başqa heç bir şey deyil, yəqin Allahın lütfüdü və əgər Allah o lütfü mənə inayət edirsə, yəqin, o bir olan Allah… günahımdan da keçib. Mənim qəlbimə məhəbbət göndərən Allahım, dərgahına şükür, şükür sənə, xudaya, bu tifilə qoymadın qıyalar, o zaman ki, verdin mənə onu, bildim böyüksən, ey mənim Allahım, canım sənin yolunda fəda... əlbəttə, sən olmasaydın, və sən istəməsəydin mən iki yaşlı uşağı alıb sənin əllərindən çırpacaqdılar divara, dağılacaqdı beynim, ürəyim param-parça olacaqdı ki, sən qoymadın, irəli gəlib qaldırmasaydın məni əllərində göyə və qurtarmasaydın canımı o qırğının içindən... kim bilir, mən indi vardım, yoxsa yoxdum, amma sən qoymadın qıyalar mənə… heç bilmirəm, necə oldu ki, qurd ürəyi yedim, şahdan bu tiflə imdad istəyəndə məni də qatardı bunun atasına, nəslinə, yox edərdi, yer üzündən silərdi, parçalardı... etmədi, bağışladı səni də, məni də, Allah, sən özün şahımızı bədnəzərdən qoru, necə ki, qoruyursan". Fikir fikrə, duyğu duyğuya qarışırdı və beyin də bir idi, ürək də bir idi.

Vaxt bir səbirsiz uşaq kimidi. Günlərin bir günü ikicə günün içində məğlub olub imdad diləyən bu şəhərdə Məmmədqulunun gördüyü və Məmmədqulunu çaşdıran gözlərinin rəngi yaşıl o cavan gəlin qoca qarı nənəsiylə yuxarı məhəllədəki əyri-üyrü küçələrin birində yaşayırdı. Əri həmən ikicə günlük döyüşdə o dünyalıq olmuşdu. Bu əyri küçədə o gəlinin düz həyətinə açılırdı Məmmədqulunun içinə girib özünə ev elədiyi mülkün ikinci mərtəbəsindəki yeganə pəncərə günəşin təzəcə göydən göründüyü vaxt nə qədər işıq yığa bilərmiş içinə, xudaya?! Qalib ordunun cəlladından bütün məhəllə içini çəkə-çəkə ehtiyatla danışırdı. «Gəldi, yox, gördün, gördüm, evdə qılıncdan çox qılıncı, baltadan çox baltası, cəlladdı üzünə baxdınmı diqqətlə, zərrə boyda mərhəmət yoxdu üzündə, elə bil, hər qırışı donub qalıb. Bax, bax, gəlir, yox, o deyil, indicə atlanıb getdi, nəsə Pərnisəgilin həyətinə çıxan pəncərədən ayrılmır, yapışıb qalıb o pəncərəyə. Bunlara arvad almaq olmaz, niyə olmur, bə o qarabığ kürən cavan nəyidi, oğludu da bunun, gəlir, gedir ha, onbaşı…» Bunun kimi, buna oxşar söhbətlər ayaq tutub məhləni yavaş-yavaş gəzməyə başlamışdı.

Məmmədqulu özü də bilmədi ki, niyə belə tələsir, evə tələsmir, deyəsən tələsdiyi pəncərənin qənşəridi, bir azdan gün batandan sonra nə qədər baxırsan bax, heç nə görə bilməyəcək deyin, atının yüyənini səbirsiz tərpətdi. Ürəyi yenə də şiddətlə atmağa başladı. Bu evə köçəli ikinci gün idi. Pəncərəyə yanaşıb tənbəl-tənbəl uzaqdan görünən cümə məscidinin günbəzinə baxanda birdən hiss eləmişdi ki, aşağıdan, qonşu həyətdən kiminsə baxışıdı üzünü az qalır deşə. Deşərdi də, çünki bu baxışların ucu iti mizraq kimi idi. Bəstəboy və arıq bir gözəl qız əlindəki taxta qabdan yuyulub sıxılmış pal-paltarı bir-bir çıxarıb iç həyətdə sərməyə hazırlaşırdı ki, Məmmədqulunun pəncərəyə dirsəklənib məscid tərəfə dalğın-dalğın baxdığını görüb bir xeyli bu adamın üzündən gözlərini ayıra bilmədi: "Allah, Allah, bunların da Allahı olurmuş, cəlladın da üzündə-gözündə rəhm olarmış..." – düşündü.

Gözəl Pərnisə bir ilin cavan ərini itirmişdi. Bir ay əvvəlki savaşda, şəhərin müdafiəçilərindən biri idi əri və o tələsik gedib belə tez öləndən sonra elə bil bu deyib gülən, dodağından gülüşü əskik olmayan cavan gəlini dəyişmişdilər, qonum-qonşu hamı dərdli idi, amma onu da anlayırdı ki, günahın var

və bu boyda ordu, bu boyda şah, vəzir-vükarə, sərkərdə, əmniyyə, xidmətçi, əsgər hamısı bir yerdə sənin kefini xəbər almağa gəlməyib, əlindən nə gəlirsə edəcəkdir, sənin cınqırını da çıxarmağa cürətin ola bilməz.

Şahın hirsi soyumuşdu, nəydi, icazə verməmişdi şəhəri talan və qarət eləsinlər, səfər katibinə söyləmişdi:

– Yaz, Mirzə Sədrəddin, yaz ki, iki saata aldıq bu dikbaş şəhəri.

Bir daha buyurmuşdu:

– Bunlar bizim din qardaşlarımızdılar, yollarını azmışdılar, bir şapalaq idi vurduq, ağılları gəldi yerinə, öz məmləkətimiz, öz əhalimizdi, qarət-filandan söz ola bilməz, qarət edən, ya barəsində şikayət gələn əsgər birbaşa özü mən demədən cəllad Məmmədqulunun xidmətinə getsin, cəzasını o verəcək, ixtiyar onundu.

Hamı bir nəfər kimi – həm ordu, həm şəhər əhli əmrə tabe olub sağ qalanlar ölənlərinə ağlamaqla, yaralılarını sağaltmaqla məşğul oldu. Bir müddət ağlayıb-ağlayıb sonra yenə toxtadılar, sabahkı qəsbkarlığın fikri zehinlərə hakim kəsildi, əsgərlər özlərini daha qalib kimi yox, dərdə-qəmə şərik adamlar kimi aparmağa başladılar, amma bu şəhərdə iki nəfər gözünün yaşı qurumayan vardısa, biri, heç şübhəsiz, gözəl Pərnisə idi.

– Hansı cəhənnəmdə qaldın, qız Pərnisə, noldu bu paltar sərmək nə mücür iş oldu, sərilib qurtarmadı?!

Evin içindən qoca qarının səsi eşidilincə gözəl Pərnisə vəhşi heyvan iyi alan ceyran kimi hürkdü, nəmli gözlərini tez-tez sildi, baxışlarını birtəhər pəncərədən ayırdı, paltarları silkərək başladı ipə sərməyə və elə bu zaman qoca qarının səsinə çönən Məmmədqulu bu balaca həyətdə bu balaca gözəl qızı ilk dəfə gördü. «Nə incə boynu var, birdəfəlik boynu var ki bunun» – ağlından sürətlə keçən ilk fikir bu oldusa da tez bu fikri, elə bil, kimsə əl-qol atıb qovaladı. "Nə qədər gözəldi, üzü bunun bə niyə belə açıqdı?!" düşündü və qayıdıb qızın boy-buxununu, duruşunu, əl-qol eləməsini, paltarı ipə keçirərkən pəncələri üzərinə qalxıb əndamının sanki tarıma çəkilməsini rahat-rahat seyr eləməyə başladı. İndi də ağlına gələn fikir bu oldu: "Bihudə deyil bu açıq-saçıqlıq, məni görməyinə gördü, amma vecinə almadı..."

Gözəl Pərnisə bir də ayıldı ki, bəs nə hərəkət edirsə, – əyilib durursa, bədənini balıq kimi qıvrıldırsa, çiyninə sürüşmüş kələğayını üzünə tutmağa tələsmirsə, hərdən duruxub guya fikrə gedirsə, qərəz nə edirsə, pəncərədən utanmaz-utanmaz boylanan bu yaşı ötmüş şələ bığlı kişinin ona bu cür baxdığından ötrü edir. Pal-paltarı sərib qurtarmamış qaçdı, getdi, evin qapısından içəri girəndə gözəl başını döndərib Məmmədquluya tərəf bir də bir baxış atdı, saçını əli ilə tələsik yığıb guya ki, belə dedi: "Bil bunu, sənə görə qaçıram, bilirəm səhərdən orda durub abırsız-abırsız mənə baxırsan. Hamı səndən qorxur, mənsə səndən zərrə qədər qorxmuram, sən deyirlər qayda-qanun adamısan, qayda-qanun yaradırsan, başlar kəsib doğramısan, amma mən zərrə qədər qorxmuram səndən, amma niyə, özüm də bilmirəm".

Handan hana qoca qarı nənə yanını basa-basa gəldi, yerə tökülüb qalan paltarları ölə-ölə ipə sərməyə başladı, özü də küpəgirən qarılar təkin dodaqaltı deyinməyindən qalmırdı.

Göz yaşları qurumaq bilməyən gözəl Pərnisə o gündən sonra nə zaman arxa həyətə çıxdısa qonşu pəncərədə həmin ətli sifəti gördü, bildi ki, onu izləyir bu baxışlar, ona görə belə kədərlidi bu adam, heç də deyəsən utanmaz deyil, ömrü boyu əsl sevincin, əsl məhəbbətin, əsl həsrətin, əsl nəşənin nə olduğunu bilməyib, amma bu adam bunları bilməkdən ötrü bunları dadmaqdan ötrü həyatını qurban verər. Harasa səsləyirdi, harasa ahənruba kimi aparırdı qızı Məmmədqulunun çaşqın gözləri, kənardan baxan olsaydı belə anlarda elə bilərdi ki, cəllad Məmmədqulu deyil bu gözlərin sahibi, kimdisə, nəçidisə Məmmədqulunun içində oturan bir başqa adamdı, heç əri də, özünün halal birillik əri də ona elə baxa bilməmişdi ki, Pərnisənin ürəyi bu cür titrəsin şirin bir yuxudaymış kimi nə zamansa ayılacağını güman edib hələlik nə istəsə eləsin...

...buna bax, buna, bu ki, yuxarıdan ona əlilə işarə eləyir, nə təhər utanmazmış, Allah... Lap elə acığa nərdivan qoyub qalxasan ikinci mərtəbədəki pəncərədən təslim eləyəsən özünü o əllərə ... yox, heç cür olmaz bunu eləmək, olmaz, gör bir nə gəlir ağlına, Allah... Amma ay işığı həyəti doldurub qoca qarı nənənin xorultusu evi başına götürəndə özünün özünə inanmağı gəlmədi, bir də gördü həyətdə pəncərənin altındadı və nərdivanla pillə-pillə

yuxarı qalxır, Məmmədqulu da əlini sallayıb onun belindən tutur və quş kimi qaldırıb, pəncərədən keçirib qoyur otağın düz ortasına... aman, Allah, eşitsə, bilsə öldürəcək məni, qurban olum, burax, burax məni gedim, mənim burda nə işim vardı, ay Allah... Sənə qurban ollam, gəl sabah görüşək, gedəcək kəndə, sabah, yaxşımı, bu gün burax məni, burax gedim, görüb eşitsə, daşqalaqlığam mən, mən bədbəxt, mən biçarə niyə, niyə mən… bu boyda şəhər… kimi istəsən… dayan, dayan, səbrin olsun, yoxdu sənin səbrin, niyə yoxdu sənin səbrin, ay Allah, ay Allah…

Pərnisənin pıçıltısı yavaş-yavaş ağır qaranlığın sükutunda əriməyə başladı, çünki «burax məni...» deyən kimi ayın qabağını bir parça bulud gəlib elə tutdu ki, o ayın işığıyla həmişə dolu olan həyət birdən-birə qatı bir zülmətə qərq oldu. Bu bir parça bulud nə zaman çəkilib ayın qabağından gedəcəkdi – bunu təkcə o bir olan Allah bilirdi.

Məmmədqulu belə bir zamanda və belə bir yerdə zənən üçün bombalanboş qəlbinə gəlib bu cür coşqun bir eşqin dolmasını Allahın inayəti kimi qəbul elədi. Elə bil, Allahı ona demişdi: «görürsən bu qızı, götür onu, onu sənə verirəm, qurtar onu hər cür dərddən-bəladan hifz elə, buraxma əlindən, heç vədə heç yerə buraxma!». Bu sözlər sonralar da fikrindən tez-tez gəlib keçirdi və Məmmədqulu bu zaman yatağında elə bərk-bərk sıxırdı gözəl Pərnisənin başını öz geniş köksünə ki, qız hövlnak və təntimiş bir halda ancaq bunu deyə bilirdi: «Vay, nəfəsim darıxdı, vay, burax, burax, öldüm, Allah, nə edirsən sən, dəli olmusan? Dəlisən, sən dəlisən, Məmmədqulu...»

Məmmədquluya şirin gələn qızın naz dolu səsi, nəvazişi idi, ona qulaq asmaqdan ləzzət alırdı, sözlərin mənasına isə heç fikir verməzdi. Qəribə idi, Məmmədqulunun özü son zamanlar ürəyinin elə dərin yerindən səslənib elə şirin-şirin danışmağa başlamışdı ki, hamı məəttəl qalmışdı, elə bil, həmənki qeyzli, zəhmli Məmmədqulu bu deyildi, işini görəndə də bir başqa adam olurdu. Əvvəllər işini görməyə hövlnak can atırdısa indi əli işdən açıq-aşkar soyumuşdu, özünü ancaq məcbur edib nəyinsə qulpundan yapışa bilirdi. Çalışırdı ki, gözə çox dəyməsin, belə, birtəhər bu günü də yaşasın, çıxıb getsin evə. Onunku ay işığı həyətə dolanda idi. Gözəl Pərnisə-

nin sürütdəyə-sürütdəyə gətirdiyi nərdivanın ucu pəncərəyə «taq» edib söykənəndə ürəyində, elə bil, nəsə qırılırdı. Qız bu dörd-beş pilləni qalxınca o da otaqda aramsız var-gəl eləyir, az qala o dünyaya gedib gəlirdi, amma əgər əvvələr ona desəydilər ki, kiməsə beləcə səksəkəli ürəyin ata-ata gözləyəcəksən və bu gözləmə sənin üçün bu qədərinə şirin olacaq, şəksiz gülərdi, inanmazdı.

« – Sən də gedəcəksən şah çıxıb gedəndə onunla?».

« – Mən buyruq quluyam, getməyə bilmənəm».

« – Demək gedəcəksən?»

« – Gedəcəyəm. »

« – Bəs mən?»

« – Nə sən?»

« – Mən də. Bəs sevmirsən məni, deyirdin sevirəm...»

« – Sevirəm?»

« – Hə də...»

« – Yaxşı, yaxşı, sevirəm».

« – Yox, sevmirsən, tük qədərinə sevmirsən sən məni».

Özünə qıraqdan baxırdı, görürdü ki, uzanıb yerdən sərilmiş yorğan-döşəyə zırpı, dazbaş, şələbığ bir kişidi, qoynunda da uzun və ağappaq əndamı ağlı başdan çıxaran göyçək bir gül butası. Bu söhbətlər də ona çox qəribə gəlirdi, bilmirdi nə cavab versin qıza. Saatlarla sabah açılanacan «sevirsən-sevmirsən» söhbətini uzada bilirdi gözəl Pərnisə. Məmmədqulu da ki, dediyinin fərqinə varmadan ağzına gələni deyirdi, özü də min tövrlə çalışırdı birtəhər eləsin cavabdan qaçsın, qızı çox dinləsin istərdi, onun yastı-yastı danışmağını bir dəfə izləmişdi, elə belə bir ay işığında ata həyətində tut ağacının... yox, qarağacın altında yorğan-döşək salıb qucaqlaşıb yatışan anası ilə təkqıç Zəbullanın hərdən-birdən vurnuxub çönüb söhbətləşmələrindəki eyzən anasının danışığıydı. Eyzən anası idi Gözəl Pərnisə.

«Qız, yavaş bir az, qulağım getdi...» Sözlərə qədər eyniydi bu danışıq. «Nolar, kim gedir getsin, kim gəlir gəlsin, səndən mən əl çəkən deyiləm, mənə ər lazımdı, mənə səndən başqa heç bir adam lazım deyil, sən məni atmazsan, ata bilməzsən, sən məndən heç hara qaça bilməzsən, heç hara

yanımdan gedə bilməzsən, Zəbulla ağa, mənim canım, mənim həyatım... düz demirəm, Məmmədqulu???»

Anasının səsini hər dəfə qulağıyla yanındaymış kimi eşidir, "lənət şeytana" deyib, ürəyindəki qara-qura fikirləri uzağa qovurdu, amma ürəyinin ən dərin, ən qara, ən çirkli yerinə gedib yenə də görürdü ki, həmən qarağacın altında bir yorğan-döşəyə girmiş o iki xəyal öz gözəgörünməz söhbətlərini davam etməkdədilər və qəribəsi də o idi ki, Məmmədqulu elə buradan, bu balaca otağından baxıb onları həsrətli baxışla, heyran-heyran seyr eləməyindən doymur. Qəribə olan həm də oydu ki, artıq kin, nifrin zərrə qədər belə qalmamışdı bu baxışda və əlləri də bu zaman özündən asılı olmadan heç cürə alışa bilmədiyi bir işə başlayırdı – qucaqlayırdı gözəl Pərnisənin dəcəl-dəcəl sinəsində ora-bura vurnuxan başını, nəvazişlə sığalladıqca sığallayırdı. Gözəl Pərnisənin uzun, dağınıq saçlarında Məmmədqulunun cod barmaqları dalğın-dalğın gəzirdi və bu zaman o təkcə cismi ilə deyil, ruhu ilə də bərk-bərk qısılırdı gözəl Pərnisəyə – körpəykən doğmaca anasının qarnına qısıldığı kimi. Bundan aldığı ləzzət bir başqa ləzzət idi...

Nəhayət, Məmədqulu qərara gəldi. Gedib vəzir Məşdəli xana belə deyəcəkdi: «Yox, ağa, mən qayıdası olmadım, yıxılacağam qibleyi-aləmin ayaqlarına, torpaq versin bir ovuc mənə, qalıram burda, yaşımın bu vaxtında daha torpaqdan başqa bir işin qulpundan yapışmaq istəmirəm. Dil tərpət, ağa, qurbanın olum, dil tərpət sən də mənim üçün...» Bunları deyəndən sonra xeyli yüngülləşəcəkdi. Necə düşündüsə, elə də elədi.

Yavaş-yavaş bu xəbər yayıldı qoşuna. Xəbəri eşidən çaşdı, eşidən inanmaq istəmədi. Ancaq Məmmədqulunun həyətdəki gecə macərasından xəbərdar olanlar bilirdilər ki, bu söz elə-belə söz deyil, boşuna deyilməyib və ən vacibi bu istəyin, bu arzunun əsası var, şeytanın qızı şeytan elə çıxarmayıb şahın bu sadiq bəndəsini haqq yolundan ki, təzədən onu o yola qaytarmaq mümkün olsun.

Hamı Şahın qəzəbini gözləməyə başladı, çünki qulaqlarda bir sırğaydı, Şah həmişə səfər zamanı belə deyərdi:

«Kim mənimlə səfərə gedibsə, o adam mənimlə də paytaxta dönəcək, cürəti var dönməsin...».

Bu sözlər ordunun dilinin əzbəri idi və intizar olub saray əhli qalmışdı ki, görsün Şah bu asi Məmmədquluya qəzəb edəcək, ya etməyəcək, icazə verəcək, ya verməyəcək. Biri deyirdi, Məmmədquluya qibleyi-aləm çox böyük bir qəzəb edəcək, o biri deyirdi, yox, şah Məmmədqulunun xətrinə dəyməz, xidmətində Şahın az zəhməti olmayıb, bir cəllad əskik olsun, nolacaqdı ki, maşallah, qoşunla on, on beş cəlladdan ibarət dəstə gedir, Şahın bir sözünə, bir qaşını tərpətməsinə can verməyə hazır olan bu dəstədə Məmmədqulunun yoxluğu, varlığı bir elə şey deyil. Amma Şahımız həmişə bunu da deyir:

«Kim məğlub olmuş məmləkətdə, yaxud şəhərdə qalıb məskun olmaq niyyətinə duşsə, bütün nəsli zay çıxacaq, çünki buranın havası da az qala ikiqat əyilib özü-özünü soxur adamın ciyərinə, buranın havası da, daşı da, suyu da, arpası, çörəyi də bu məğlubiyyəti görən nəyi varsa, hər zadı artıq axtalandı!».

Hamı bu sözlərə möhkəm inanmışdı. Hələ heç kim gəlib Şahdan rüsxət istəməmişdi getdiyi yerdə qalmaqdan ötrü. «Məni bəyənməyənlər ancaq bu fikrə düşə bilər!!!», – Şah bir də bu cür deyirdi, – «qayıtmıram hələ nə deməkdir, filan-filan şüdə?!»

...Cəllad Məmmədquluya bir neçə gün heç kim bir kəlmə söz demədiyindən qalmışdı nigaran. Artıq bilirdi ki, başından böyük qələt eləyib, amma iş işdən keçmişdi. O, şübhə və tərəddüd içində düşünürdü: «Oğlum var Şahın qoşununda mən əvəzi, heç olmasa Şahverən əvəzi məni buraxarlar inşallah, buraxarlar görən?!».

Ağlına gələn Məmmədqulunun adətən həm də dilinə gələrdi. Ürəyini bir sabah öz köməkçisi qoca qula açdı. Onun bu sözlərinin müqabilində qoca qul artıq hamıdan ancaq gözlərilə cavab gözləyən Məmmədquluya «Allaha təvəkkül» cavabını verdi. Amma bu zaman gözlərində bir gizli qorxu hilləndi Məmmədquludan ötəri, çünki Məmmədquluya həqiqətən sidq-ürəkdən bağlanmışdı və başına pis bir işin gəlməyini istəmirdi. Ta uzun illər idi ki, bu qoca qulun ondan yaxın heç kimi yox idi.

Şah hirsini əvvəlcə vəzir Məşdəlinin üstünə tökdü:

– Belə... Bu cəllad əvvəl-axır zatıqırıqlığını göstərəcəkdi, göstərdi. Hayıf, çox hayıf. Deməli, bizim qulluğumuzda durmağı yaraşdırmır daha özünə. Nəyə güvənir bu, vəzir, sən bəlkə biləsən, sən bilməmiş olmazsan, sənin adamındır, unutdunmu, çəkib çıxartdın başımıza, asılasaydı bu, pis iş gördük, adam elədik, qulluğa götürdük. Nə oldu – indi cəllad qaçarsa da elə hamı çıxıb getsin də, hələ məni neynirsiz, nədi susursan, nə deyirsən, düz demirəm bəlkə, vəzir?! Yadımdan elə bilirsən, çıxıb bunun hekayəti?! Hayıf, sən danışmırdın, bunun uşaq vaxtındakı "şücaətindən", dağa-daşa düşməyindən? Budur mənim xeyirxahlığımın əvəzi? Nə susub durmusan?

– Nə deyim, gözümün işığı, nə deyim, Allah əvəzim? Günahım var. Mən, mən nə biləydim, qibleyi-aləm, ki bu, çiy süd əmib, qancıq südü əmib, nə biləydim mən, bunun üçün ağız açdım, doğru buyurursan, gözümün işığı, zatı qırıq çıxdı bu, qudurdu, azdı yolunu indi də deyir oğlum qalır qulluqda bəsdi, belə deyir qudurmuş, gözümün işığı... var, var mənim günahım. – Vəzir Məşdəli qorxmuş və pərt bir halda cavab verdi.

– O məlun, o xain Şahverdinin oğlunu deyir, onu qoyacaqmış əvəzinə, eləmi? Bu mənə hələ nə edəcəyimi əmr edəcəkmiş, eləmi?! Vəzir!! Mənim boş işlərə sərf eləməyə nə vaxtım var, nə həvəsim, yoxdu həvəsim, amma bu asinin dərsini verməliyəm, hamıya görk olsun. Yaxın gəl, qulaq as...

Şahın gözlərinin dibinə elə bil qış çökdü, gözləri birdən-birə soyuqdan üşüyən kimi donmağa başladı.

Axşam vəzir Məşdəli hüzurdan çıxıb yaşadığı mülkə geri dönəndə ürəyində həm sevincə, həm də qorxuya bənzər bir şey vardı. Bilirdi ki, Məmmədqulu bir neçə saat sonra hər günkü kimi yenə gəlib təvəqqesinə şah tərəfdən bir cavab olub olmamasını maraq edəcək. Allahın hər verən günü gəlir, məzlum-məzlum durub baxır, sonra sakitcə çıxıb gedir, sakit-sakit bu gün də gələcək, amma bu dəfə vəzir evinə çatan kimi hər ehtimal xidmətçibaşını çağırıb tapşırdı ki, bir adam buraxmasın bu axşam onun yanına, nəsə başı yaman ağrıyır, deyəsən bərk xəstələnib. Sonra nə fikirləşdi, nə fikirləşmədisə, bir daha bərk-bərk tapşırdı ki, dünənki xidmətçilər indi dincəlirlər eləmi, durquz onları, bu gün növbətçilərin sayı evdə qoy çox olsun, qapı-bacanı da indidən bağlayın. Bunları xidmətçibaşına deyib,

vəzir getdi girdi iç otaqların birinə, dərindən nəfəs aldı, «Allah, bu bəladan da belə qurtardıq, şükürlər olsun, Şahın qəzəbi bizdən keçdi, min şükür kəraminə...» – düşünüb dodaqaltı dua etdi...

Gecə qaranlıq bir gecə idi, ayın qabağını yenə hardansa gəlib həmən o parça bulud kəsmişdi və həyətə yenə ağır bir kölgə çökmüşdü. Məmmədqulu, əli xumar-xumar yatmağında olan Gözəl Pərnisənin dağınıq saçlarında…

Qəfildən küçədən taraqqa-taraq at nalının səsi gəldi. Səs gəlib həyət qapısına yetişəndə lapdan kəsdi və sanki bütün dünyaya ölü bir sükut çökdü. Məmmədqulu dirsəklənib yerində dikəldi, nə üçünsə ürəyi başladı şiddətlə çırpmağa, sükutu yarıb qulağına bayırdan bir səs gəldi: «Xain Məmmədqulu, xain Məmmədqulu!! Al, bu da sənin xainliyinin cavabı. Budu sənin cavabın, xain Məmmədqulu, xain Məmmədqulu, xain...»

Nəydisə guppultuyla yerə dəydi və at nalları küçəni son dəfə tələsik döyəclədi, uzaqlaşıb bir daha eşidilmədi. Məmmədqulu elə dirsəkləndiyi vəziyyətdəcə donub qalmışdı, tük qədər tərpənməyə cürəti gəlmirdi. Nəfəs belə almağa taqəti və heyi yox idi ki, "birdən – düşünürdü, – nəfəs alaram, Pərnisə yerində tərpənər, tərpənmək, cınqır çıxartmaq isə olmaz, heç cür olmaz!"

Məqamın sirri vardı – donuqluğundaydı.

Bir xeyli beləcənə vaxt keçdi. Artıq sükut qulaq deşməyə başlayanda gözəl Pərnisəni, elə bil, dümsükləyib yuxudan oyatdılar ki, bəs aç gözlərini, bax, gör sənin yanındakı niyə belə dikəlib heykələ dönüb bədəni, üzü, gözü niyə belə büzüşdü, bu niyə birdən-birə belə qocaldı?! Gözəl Pərnisə yuxulu gözlərini ovuşdura-ovuşdura mat-məəttəl qalmışdı.

Məmmədqulu gözəl Pərnisənin bu şaşqınlığından cürətə gəldi, yavaşca yerindən qalxdı və aram-aram geyinməyə başladı.

Gözəl Pərnisə «nə olub, hara?» pıçıldasa da ona cavab vermədi. Ancaq taxta pilləkənlərlə aşağı, həyətə düşəndə dodağına hardansa gəlib qəribə və əyri bir təbəssüm qondu. Elə o an qəfildən məqamın sirri quş kimi uçub getdi. Məmmədqulu bu zaman hiss elədi, bildi ki, baş verən, gumbultuyla səkiyə dəyən, nədi. Küçəyə çıxıb yenə də üzündə həmən əyri

təbəssüm gördü ki, qapının ağzındakı böyük bir torbadı. İçi dolu bu torbanı sürüyə-sürüyə həyət qapısından içəri salanda torba sürüşdüyü yerdən qalın zolaq kimi qara bir iz salmağa başladı. Bu qara izdən tünd bir qoxu yayıldı, bu qoxu Məmmədquluya yad gəlmədi, yaxşı tanıyırdı o bu qoxunu. Yenə də dodağı öz-özünə qaçdı və o ömründə ilk dəfə ayaqlarında taqət hiss eləmədi, bütün vücudu titrədi, dizləri üstə yerə çökdü, bircə onu bildi ki, əlləri ilə üzünü bərk-bərk tutdu və bir də barmaqları arasından «Şahverən... vay...» pıçıldadı.

...Şahverənin nəşini köməkçisi qoca qulla bir yerdə aparıb şəhərdən kənarda bir körpə bulağın dəcəl-dəcəl axdığı uca, dik qayalıqların ayağında gözəl bir çəmənlik vardı, məzar qazıb orda basdırdı və elə bildi Məmmədqulu ki, Şahverəni yox, özünü basdırdı. Özü qazdı torpağı, özü cəsədi qoydu qəbrə və özü quyladı. Qoca qul da kirimişcə bir qıraqda oturdu, baxdı, baxdı, bir də gördü ki, qəbrin üstündə torpağı düzəldə-düzəldə Məmmədqulunun dodağı qaçıb, kişi, elə bil, gülür və qoca qul bərkdən bir «əstəğfürullah, Allahu–əkbər!» deyib boğazını arıtladı, öskürməyə başladı...

Bir neçə gündən sonra başda Şah qoşun artıq qiyamçı şəhərdən çıxmışdı və Məmmədqulu öz qərarından dönməyib, tənha yeganə adam idi bu şəhərdə qalıb gözəl Pərnisəni rəsmən özünə arvad eləmişdi. Vaxt keçdi, günlərin bir günü bunların bir balaca oğlan uşaqları da anadan oldu və fikirləşib-fikirləşib Məmmədqulu bu tiflin adını Allahverdi qoydu...

Uzun gecələrin birində, gözünə heç cür yuxu getməyən Məmmədqulu, yanında mışıl-mışıl yatmış gözəl Pərnisəni çılpaq çiynindən yavaşca itələdi, titrək barmaqları ilə saçını tumarlayıb, «qalx,– dedi,– vaxtdı» və gözəl Pərnisə yuxulu gözlərini ovuşdurub dinməz-söyləməz yerindən qalxdı, geyinib ikisi də düzəldilər yola, yavaş-yavaş gəlib çıxdılar həmən o altında çəmənliyi olan qayalığın üstünə.

Aşağı dərin bir dərə idi, bulağın suyu yenə də dəcəl-dəcəl, ilan kimi qıvrıla-qıvrıla axıb o dərəyə gedirdi və o dərənin dibindəki tənha qəbir bu yerdən yaxşı görünürdü. Bu ikisi xeyli vaxt bir-birinə yenə də təkcə vücud-

ları ilə deyil, həmişə olduğu kimi didərgin və titrəşən ruhları ilə qısılmış bir halətdə sakit-səssiz qayalığın üstündə yerdən çöməlib oturdular.

Bir xeyli beləcənə oturub suyun qıjıltısına qulaq asandan sonra əvvəlcə Məmmədqulu ayağa durub dedi «Ya Allah!», ondan sonra gözəl Pərnisə ayağa durub dedi: «Ya Allah!». Məmmədqulu daha bir ləhzə nəfəs dərmədən, heç nə düşünmədən bir əli ilə Gözəl Pərnisənin belindən yuxarı və o biri əli ilə ayaqlarından bərk-bərk yapışıb dimdik qaldırdı yuxarı. Bu dəm özü də başını qovzayıb göy üzünə nəzər saldı, gördü ki, göy üzü eyzən daş duzdu, ulduzları parçalayıb səpiblər asimana topa-topa – bircə-bircədilər, səf-səfdilər... Məmmədqulunun elə o dəm dəxli olmadan beynindən keçdi ki, sabah bərk isti olacaq və bir də beynindən o keçdi ki, sabah səhər çağa yuxudan durub qarı nənənin belindəki qundaqdan sallana-sallana çığırdıqca çığıracaq, çığıracaq... Qarı nənənin qulaqları kar, ya da özünü karlığa vuracaq. Sonra əlacsız dodağı altında bəzi anlaşılmaz sözlər mızıldayacaq: «yat, yat, yat... yatıb göyçək bala olsan, qarağacın kölgəsi hər yana düşəndə o kölgədən sənə də pay düşər, mən də sənə o kölgənin altında oturub göy üzünə qaçaraq damdabacadan gizlənmiş ulduzların nağılını danışaram, amma əgər yatmasan, o müzür damdabaca gəlib səni aparacaq... damdabaca gəlib aparacaq, aparacaq...» Çağa da onu, qəribədi ki, başa düşəcək. Qarı nənə öz müdhiş və qartımış səsi ilə «yat, yat, yat...» pıçıldaya-pıçıldaya onu, həqiqətən, yatıracaq, çağa yavaş-yavaş huşa gedəcək, heç nəyi anlamayan yarımaçıq gözlərinə, dodaqlarına hardansa bir ılıq, amma əyri təbəssüm gəlib qonacaq.

"Bunun günahı nəydi, yoxdu axı bunun günahı!". Qəfildən belə düşünüb Məmmədqulu yüngülləşmiş bir ürəklə istədi başı üstündə dimdik saxladığı bu qızı qaytarıb təzədən qoysun yerə, amma hiss elədi ki, əllərində həmən ağırlıq yoxdu, ürəyinin yüngüllüyü əllərinə keçmişdi, kimi qoyurdu yerə?! Vay Allah, bu nə iş idi, yox idi, yox olmuşdu Gözəl Pərnisə. Əlləri ilə bir an əvvəl bərk-bərk tutub saxlamamışdımı onun gözəl vücudunu, indi uçub getmişdi, yox olmuşdu, noldu buna, niyə yox oldu, hara yox oldu Allahın bu biçarə bəndəsi, niyə boş, bomboş əlləri göyə iki yalın qılınc təki açılıb qalıb, nə zaman uzatdı ulduzlara əllərini, yanına salmaq

istəyir, sala bilmir, elə bu an təkqıç tacir Zəbulla gəldi gözlərinin qabağında dayandı, ölüm ayağında dodağında iyrənc təbəssüm Zəbulla niyə belə gülür, əlləri niyə belə daşa dönüb, yana əyilir quş qanadı kimi və gözlərini, nəhayət, əllərindən bir təhər ayırıb ulduzlara tərəf baxanda Məmmədqulu gördü ki, onlar artıq yavaş-yavaş əriyib sönməyə başlayıblar, elə bil, bu işıq zərrələri tül bir pərdənin arxasındadılar, bəs belə isə hara itdi bu qız, hara qeyb oldu, noldu buna?!" – Cəllad Məmmədqulu bu işə mat-məəttəl qalmamışdımı, qalmışdı.

Səhər ağır-ağır açılırdı.

*1996-cı il*

# İlişin qayıtmağı

Yavaş-yavaş hamı kənddə bir-birindən xoflanmağa başlamışdı və hamının ürəyində bir qorxu əmələ gəlmişdi ki, bu qorxunu da özüylə çox qəribə bir şayiə gətirib çıxarmışdı. Bir ay on gün əvvəl ölüm xəbəri uzaq və soyuq şəhərlərin birindən gələn İlişin başında qəza, doğrudu, çoxdan idi ki, fırlanırdı, buna kənddə inanmayan yox idi, özü də ona görə qəti inanmışdılar ki, İlişi çox pis öldürmüşdülər, çox vəhşicəsinə qətlə yetirmişdilər. Bir söz, su qabı suda çatlar və İliş də bu kəndin başına olmazın oyunlar gətirdiyi üçün haqlı cəzaya tuş gəlmişdi, sadəcə, vaxt məsələsi idi, bu işin başa gəlməyinin geci-tezi vardı.

İliş kənddə sözü keçən, sayılan bir cavan idi. Atası Xudadin kişi ağsaqqalığa çəkilib kənd ortası çayxanaya kirayənişin olandan üzü bu yana İlişin hörməti birə beş artmışdı. Xudadin kişi çox zaman yanına məsləhətə gələnlərə bilərəkdən belə deyərdi: “mənim ağlım kəsən iş deyil, sən bir İlişin yanına get, gör o nə məsləhət edir?!” Bu zaman gözaltı bu adamlara baxıb üz-gözü ilə, göz-qaşı ilə həm də bunu əlavə edərdi: “onun başı çıx-

mayan iş yoxdu, ürəklə xahiş eləsən sənin işini düzəldər, çünki düzələsi olmayan işləri də İliş düzəldir".

Bir çox cavanlar, yaşlılar İlişə elə indidən başlamışdılar ağsaqqal kimi baxmağa. Atası Xudadin kişinin hörməti, üstəgəl qohum əqrəbanın nüfuzu, paytaxtın az qala ən böyük iş otaqlarına gedib çıxan əlaqələr və sairə və sairə İlişi bütün kəndin başbiləni etmişdi.

Bir il bundan qabaq İliş əvvəlcə birdən-birə yox oldu. Bunun üstündən çox yox, cəmisi bir ay keçəndən sonra sorağı uzaq və soyuq bir şəhərdən gəldi. Kəndi, elə bil, istidən çıxarıb soyuğa atdılar və İlişsizlikdən yavaş-yavaş donu açılan kənd cavanları yenə də alışdıqları həmişəki qəm dəryasına batmaq üzrəydilər ki, bəs zalım oğlu zalım yenə də dəyirmanın o başından ölü girib bu başından diri çıxdı, deyəsən, özü də lap qəddarlaşıb, deyilənlərə görə indi kəndə gəlir, lovxəbər də göndərib ki, çayçıda artıq-əskik söhbətlər olub, o da gəlib çatıb qulağıma. Özüm gəlib ayırd eləyəcəyəm bu söhbətləri kimlər atıb ortalığa, kimlərə xeyri var, kim və nə üçün onun ad elədiyi qız barəsində söz danışıb?!

Aydın olan o idi ki, bütün bunlar qupquru bəhanədən başqa bir şey deyil. Quru palçıq divara yapışmadığı kimi bu söz-söhbətin də canı-mayası yox idi. Bu söz-söhbət ancaq ona görə lazım idi ki, hamı curlar bir az da başı aşağı olsunlar İlişin yanında, günahkara dönsünlər ki, daha onun bir sözü də ömür-billah iki olmasın. İlişin ən böyük arzularından biri o idi ki, atası Xudadin kişinin hesabına qazandığı hörmətin üstünə özü də nə isə bir əlavə eləsin. Bəhanələr axtarırdı, amma bu bəhanələr bir-bipindən gülməliydi – kim cürət edib onun ad elədiyi qız barədə nə isə deyə bilərdi?! Kim onun hansısa bir hərəkətini müzakirə edə bilərdi?! Qərəz hamı təəccüb içində, hamı mat-məətəl qalmışdı və hamı gözləyirdi ki, görsün, bu məsələnin axırı nə cür qurtaracaq. İliş demişdisə özüm kəndə qayıdıb ayırd edəcəyəm, deməli belə də olacaqdı. Nə isə, bu sözdən heç kimin gözü su içmirdi. Çünki kənddə divara qısnamadığı, yerə əymədiyi, xınc eləmədiyi bir nəfər cavan, elə bil ki, qalmamışdı, qalmışdısa da öz qohum-əqrəbası idi və bu adamlar da aydın idi ki, İlişin tez zamanda qayıdıb bütün kəndə qəzəb eləcəyini üfürüb-üfürüb birə min şişirtməklə məşqul idilər.

«Havaxt gəlir?» – soruşanlara, «darıxma, az qalıb, görün gəlib başınıza nə oyunlar açacaq... qan qusacaqsız, qəpiyinə qədər gətirib sayacaqsız pulları!» cavabı verilir və qandonduran bir təbəssüm də bu sözlərə ayrıca medal kimi əlavə edilirdi. Bu cavaba isə bir cavab var idi. Gecələr kəndin dar, əyri-üyrü küçələrindən adam səsləri kəsilən zaman ancaq nəfəslə qızınan buz kimi soyuq evlərdə soyuğa alışqan yorğanların altından buğ verən nəfəslərə qarışa-qarışa əyilib-burulub göylərə sarı bir dua yol alırdı: «Allah, itir bu vəhşi oğlu vəhşini ilim-ilim, qoyma, qaytarma onu bir də bu kəndə...»

İliş bu kəndin göz görə soyğunçusu idi. Yavaş-yavaş hamıdan xərac almağa başlamışdı, onu görəndə baş əyməliydin, hər müşkülünü birinci ona gəlib danışmalıydın, partkom, profkom, milis, nə bilim, daha nə... onun yanında yalan olmuşdu. Balaca kənd idi, hamını çaşdırıb durmuşdu.

Onun ölüm xəbəri, elə bil, xırda bir gəminin lövbərlərini bir andaca suyun üzünə qaldırmışdı və bu xırda gəmi özünü düzəldib yelkənlərini indi-indi səmt küləyinə açmaq istəyirdi. Gəmini, yəni, bu kəndi az qala yer üzündə demək olar ki, hamı, hətta nəhəng bir dünya müharibəsindən yenicə çıxmış ucsuz-bucaqsız ölkə də unutmuşdu. Gəmidəkilərin özlərinin də böyük dünya ilə bir elə alış-verişləri yox idi. Balaca paytaxtdan nə o qədər az, nə də o qədər çox aralıda yerləşirdilər. Bu adamların məşquliyyəti gündüz-səhər eşitdiklərini axşam üstü çayxanada bir-birinə nağıl edib müzakirəyə çöndərmək olardı.

İliş barədə gələn bu ikinci xəbər çayxanada əsl tufan qopardı. «Olmadığı bu bir ilin də gəlib xəracını yığacaq, day biz batdıq, ay Allah, başımız-qulağımız necə dinc idi... Getmişdi, xəbəri də gəlmişdi, noldu, niyə belə oldu?!» Kəndin ortasındakı balaca, amma isti çayxanada dildə olmasa da gözlərdə, düşüncələrdə ancaq bu sözlər dolaşıb gəzirdi. Bu xəbər hamı üçün ağır xəbər idi. Deyirdilər, atası Xudadin də bu kənddə əzazil bir gənclik keçirmişdi, amma o bunun yanında toya, bayrama getməliydi, bir-iki qəssabdan, baqqaldan, ambardardan, şəhərə gedən avtobusların sürücülərindən sakitcə pulunu yığardı və daha ay sən mənə niyə elə baxdın, ay niyə bu küçəni keçəndə başını qaldırıb filan pəncərəyə nəzər saldın, göz qoydun, ay nə bilim, mən bu yerişi yeriyirəmsə, sən mən yeriyən yerişi niyə ye-

riməyə çalışırsan kimi söhbətləri eləməzdi, özünü ağır tutardı. İndi İlişin həm atası kimi xərac yığması, həm də bu cür hoqqaları kənd camaatının qəribəsinə gəlirdi. Adamlar belə hesab edirdilər ki, əgər onlar İlişə pul verirlərsə daha işgəncəyə, ələ salınmağa, saymazlığa dözmələri düzgün iş deyil, amma daha nə etmək olar, artıq İlişin dəmir məngənəsinə əməlli-başlı ilişiblər və bu məngənədən çıxmaq aydın idi ki, onlar üçün çətin olacaq. Çünki İliş yavaş-yavaş öz hərdəmqəmbəl istəklərini, öz kefini, nazını hansısa bir qanuna mindirirdi. «Nənəm mənə kor deyib, gəlib-gedəni hökmən vur deyib!». Qaraqaş, qaragöz, içkililər kimi həmişə süzgün baxışlı İlişin qarşısına qoyduğu məqsəd bu idi. Hətta çox zaman camaata elə gəlirdi ki, kənddə iki hökumət var – biri heç, hökumətin hökumətidir, o biri isə, əsl olan – yeni yaranan, öz qanun-qaydasıyla, olar-olmazıyla, hədə-qadağasıyla şartapart gələn və kəndi hörümçək toru kimi yavaş-yavaş öz toruna salan İlişin hökumətidir.

İlişin ölüm xəbəri gəlib kəndə çatanda Xudadin kişi həmişəki kimi yenə də curları ilə kəndortası çayxanada çay içməyə və cavanlıq söhbətlərinə qulaq asmağa məşğul idi. Qardaşı oğlu Səbri hövlnak çayxanaya girib hədəqəsindən çıxan gözlərilə əmisini axtardı. Xəbəri eşidib heç kimə heç nə demədən Xudadin kişi ayağa durdu, rəhgi ağappaq olsa da halını büruzə vermədi, ağır-ağır çayxanadan çıxdı. Ətrafındakılar onun üzünə baxıb təəccüb etdilər ki, bu zəhmli kişinin üzünün qırışığının açıldığını bir adam görmədiyi halda indi bu nə təbəssümdü gəlib qonub bunun sifətinə?! Yenə də başını dik tutub gedəcəkdi, amma çayxananın çıxışda iki-üç pilləkəni vardı, ayağı o pilləkənlərdə nəyəsə ilişdi və Xudadin kişini o ayağa qalxan zaman onunla bir, eynən komandir yanında əsgər kimi ayağa duran curları qolundan tutub saxlamasaydılar, hellənib yıxılacaqdı və kim bilir, heç ayağa dura biləcəkdi, ya yox?!

Çayxanadan çıxıb Xudadin kişi heç kimlə görüşmədən qolundan tutanları yüngülcə itələyib üzündə həmən gizli təbəssüm evinə tərəf əvvəlcə yavaş-yavaş, sonra az qala qaçmağa başlayanda ürəyində hələ ki, bir dəli ümid var idi. “Yalan olar, inşallah, yalan olar...” deyə-deyə, özü-özünə danışa-danışa o bu xəbərə inanmaq istəmirdi. Xəbəri gətirənlə şəxsən görüşməyənə qədər, ondan bu sözləri öz qulağıyla eşitməyənə qədər inan-

mağı gəlmirdi ki, gəlmirdi. «Mənim gözümün qabağında vurdular, mən özüm gördüm yıxılanda sonra isə, sonra başını...»

Xəbər ülgüc kimi kəsən zaman ilk anlar, yəni, ilk bir-iki an ağrılı olmur. Amma o bilirdi, dəfələrlə özü sınamışdı – ağrı sonra gələcəkdi. Ülgüc artıq kəsdiyini kəsmişdi, qan çıxmışdı və yara vardı. Əlini yaraya vurana qədər, barmaqları bu qana batana qədər isə bir qəribə təəccüb beynində sual kimi dolaşırdı: «Bu yara, yəni, mənim yaramdı?». O bir-iki an keçib gedəndən sonra əsl ağrı ki başladı, ona artıq qəti aydın oldu ki, bəli, bu yara onun yarasıdır.

Kənd özü də bir az Xudadin kişiyə oxşayırdı, camaat hələ bilmirdi ki, bu xəbərə sevinsin, ya ağlasın. Heç nə hələ sonadək bəlli deyildi. Dünən, sırağagün gəlməyini ürək döyüntüsü ilə, iyrənə-iyrənə gözlədikləri bir adamın bu gün qətl xəbəri gəlmişdisə də bu xəbər hələ xəbərlikdən çıxıb hamı üçün həqiqətə çevrilməmişdi. Çünki xəbər gərək yavaş-yavaş hamının alışdığı saçyoldusuna, şivənə, həyətdə ocağa qoyulmuş iri və qara düyü qazanlarında buğlanan buxara, mollanın, kənd ağsaqqallarının tələsdikləri yas yerinə çevriləydi. Əgər qəbir qazılmamışdısa və ən vacibi – ölü ortalıqda yox idisə, xəbər hələ xəbərliyində qalırdı. Ona inanmamaq inanmaqdan daha asan, daha etibarlı idi. Nahaqdan deyildi ki, hamını belə bir sual düşündürürdü. Xudadin kişi o uzaq və soyuq, o uzaq və yad şəhərə nə zaman yola düşəcək, oğlunun cəsədini nə zaman kəndə gətirəcək, torpağa tapşırıb ehsan verməyə başlayacaq?! Bəli, ancaq o zaman cəsədi görüb, mollanın səsini eşidib, mafəni evin qabağına qoyub, nəhayət, qəbiri qazıb onlar bu xəbərə inanacaqdılar.

Xudadin kişi özü də bu həyəcanı, bu yarımçıqlığı hiss eləyirdi, amma camaatın nigarançılığını əyilmiş, cılız çiyinlərinə götürməyə tələsmirdi. Əslində, bilə-bilə tələsmirdi. Xəbərdən bir-iki gün sonra səsə salmadan qardaşı oğlu Səbrini həmən o uzaq şəhərə göndərdi. Səbrinin bir ayağı orda, bir ayağı burda, Səbri çox tez qayıdıb gəldi. Xudadin kişi Səbrinin üz-gözünü görüb daha ondan heç bir şey soruşmadı. Ancaq bu zaman xəbərə inandı və köksünü ötürdü. «Olsun, – dedi. – Allah verdi, Allah aldı. Çadırı qurun!»

Yas tədarükünə başladılar. Qohum-əqraba, yaxın-uzaq, qonum-qonşu həyətdə təcili qurulmuş çadıra yığışdı. Onun özü isə yuxarı başda əyləşib

gözlərini çadırın qapı yanındakı xırdaca deşiyindən heç kimin görə bilməyəcəyi bir nöqtəyə zilləmişdi. O nöqtədə nə vardı – özü də anlamırdı. Onun hara zilləndiyi bilinməyən ağır baxışları çadırda bir-birinə qısılıb əyləşmiş bir çoxunun canına yenə üşütmə saldı. Yasdan sonra nə olacaqdı, nə olmayacaqdı, kimdən görüləcəkdi bu iş, kimdən qisas alınacaqdı, işin ucu hara gedib çıxacaqdı – bunları düzüb qoşmaq hələ ki, çox çətin idi. Xudadin kişiyə sərf eləyən «qatil», əslində, kim olacaqdı?! Bunu bilmək hələ ki, mümkün deyildi.

Məsələnin bu biri tərəfi də vardı və bu tərəf Xudadin kişini bir başqa cür narahat edirdi. Xudadin kişi düşünürdü ki, İlişin öldüyü, qaldığı gərək üstüörtülü, açılmamış qalsın. O özü üçün bir "İliş" istehkamı ucaltmalı idi. Onun hələ çox işi vardı, qocalığa qədər dözməli idi. Qisas!!! Hələ qisas alınmalı idi. Həyat hələ ona lazım olcaqdı. İndi isə... dözmək, yıxılmamaq, əyilməmək, ancaq dözmək!!! Bütün yas mərasimi çoxmənalılıq üzərində qurulmalıdı. Eyham, şayiə, müəmma... Hələ o sirli, istehzalı təbəssüm... Bunlar Xudadin kişinin adamlara təlqin etmək istədiyi həmən fikrin üzörtükləri idi. Xudadin kişi bunları sifətinə həkk edib yas məclisinin ağırlığından – arvad-uşağın göz yaşlarından, haray-həşirindən, hər günkü eyni söhbətlərin sonsuzluğundan səliqə və ehtiyatla şaqqıltıyla axan dağ çayının üstündən keçirən kimi keçirməyə başladı. İliş qayıda bilər, xəbər yalan ola bilər... Əlbəttə, əlbəttə ki, qayıda bilər. Xudadin kişi «mən tənha deyiləm!» sözlərini məhz bu şəkildə ifadə edə bilirdi. Əlbəttə, o bu sözləri heç bir zaman dilinə gətirə bilməz. Ancaq eyham, ancaq işarə! Heç bir zaman!..

Yas mərasimi "yeddi"dən başladı. Əvvəl "yeddi" verildisə də hamı başa düşürdü ki, bir ölünün ki "üçü" verilmədi, qəbiri qazılmadı, "il"inə qədər nə edirsən et, hamısı boş-boş şeylərdi. "Yeddi"dən sonra cümə axşamları sakit-sakit gəlib keçməyə başladı və "qırx" yaxınlaşdıqca kənd camaatının həyəcanı buğ atmağa başladı. Ölüsü ölən, aydındı ki, "qırx"a qədər arzu-kamını yerinə yetirmək üçün gedib təzə qəbrin daşdan üstünü götüzdürür. Burda isə qəbir yox, meyit yox... Qırxa qədər, el adətiydi, qətlə yetirilənin hökmən intiqamı gərək alınaydı, kəsilən baş yerinə baş kəsiləydi, ya da Xudadinin təhər-tövründən belə də demək olardı: «başlar

kəsiləydi». Hamı intizarla, ürək döyüntüsüylə nəsə gözləyirdi. Çox zaman qəfildən ayılıb nə gözlədiklərini bilməyən bu adamların ürəklərinə yenə möhkəm xof çökmüşdü. Adamlar bir himə bənd idilər ki, Xudadin kişinin ayaqlarına yıxılsınlar, taxsırsızlar hətta əfv diləməkdən ötrü növbəyə yazılma məqamlarını gözləyə-gözləyə qalmışdılar.

Bütün bunlara birdən-birə son qoyuldu. Yeni bir şayiə kəndi gəzməyə başladı, ev-ev, adam-adam, qapı-qapı... Deyirdilər ki, guya əstəğfurulla, İliş kəndə qayıdıb, onu çayçıda, ad elədiyi qızın küçəsində, evlərinin yanında, avtobus qarajında, nə bilim daha harada görənlər olmuşdu. Biri deyirdi ki, lap elə bu saat gördüyümdü, danışdı mənimlə, dedi, get çayçıda uşaqlara de, gəlirəm, tərpənməsinlər, məni görənlər qoy görməyənlərə desin, hamı bilsin, mən qayıtmışam... və sair və ilaxır. Gah da uzaqdan bir naməlum gələni göstərib deyirdilər ki, bax, odu, İlişdi, nəhayət gəldi, gəlib çatmamış o adam ya tini dönürdü, ya da göz qabağındaca, elə bil, əriyib yox olurdu. İliş əməlli-başlı cadulu idi – gözə görünmürdü ki, görünmürdü.

Xudadin kişi çayçıya çoxdan getməsə də, canına soyuq dəymişdi, nəydi, evdən çıxa bilmirdi, havalar da artıq isti deyildi, soyumuşdu, bir az qulağına çatmışdı bəzi sözlər, amma heç özünü o yerə qoymurdu, İlişlə bağlı heç kimdən heç bir kəlmə də soruşmurdu. Kənd İlişi axtarmaqla məşğul idi və hamı istəyirdi ki, onu elliklə tapıb Xudadin kişinin həyətinə gətirsinlər, həyətdəki yas yerini, böyüdülmüş qara şəkli ona göstərəndən sonra doyunca gülə-gülə zarafatlaşsınlar, məzələnsinlər, ərkyanalıq etsinlər, çünki hamının ürəyinin dərinliyində bir ümid gizlənmişdi. Hamıya nədənsə elə gəlirdi ki, ölüm xəbəri çıxan adam dirilsə daha əvvəlki bəd əməllərini vacibdir ki, götürüb qoysun bir qırağa, deməli, Allah-taala onu daha bağışlayıb və əgər bağışlayıbsa, gərək bu adam Allahın alicənablığı müqabilində özü də dəyişə, qəlbi dəyişə, insan ola. Amma yenə də buna inanmayanlar – İlişin qayıtmasına inanıb onun dəyişməyinə inanmayanlar tapılırdı və bu adamlar İlişin kənddən, kəndin cavan-cuvanından nəsə bir intiqam almağa gəldiyindən, bununçun da iz azdırdığından, evlərinə belə yaxın düşməməsindən, atasıyla hətta günün günorta çağı, göz qabağında görüşməməsindən şübhələnən adamlardılar. Elə bil, İliş hər biri-

nin ürəyinə girib belə deyirdi: «Mənim başımı kəsiblər, məni öldürüblər, siz də durub gəlib bu işi ayırd eləmək əvəzinə, bu hayıfı yadellilərdən çıxmaq əvəzinə bu xəbərə inanmısınız. İnanmaq bir yana, hələ bir ürəyinizdə sevinmisiniz də buna. İndi görərsiniz siz...»

İlişin beynində bir qurması olmasa bu boyda kənddə qoz ləpəsi kimi yoxa çıxmaz, hamının olduğu yerə gəlib camaata salam verər, salam alar, mənim dərdim budu, qarnımın azarı budu, budu mənim düşmənim, budu mənim dostum deyər, bunları eləmirsə nəsə bir gümanı var, qurma qurub.

Kəndin söz-söhbəti İliş idi, dərdi-səri İliş idi: «İlişi gördün, gördüm, görmədim, nə dedi, heç elə bir şey demədi, getdiyi yerlərdən danışmadı bəs qızlardan, arvadlardan nə deyir, əşi belə də, indi gələr, özündən soruşarsan, mən görməmişəm onu, o gün axşam bizə gəlibmiş, məni xəbər alıb anamdan, hayıf olmamışam evdə. Vallah, elə qucaqlayıb birbaşa gətirərdim bura. Bütün söz-söhbətlər də qurtarardı...»

...Qırxa düz iki gün qalmış gecə vaxtı Xudadin kişi üzünü pəncərəyə dayayıb zülmət qaranlıqda nəsə seçməyə çalışırdısa da düz əməlli bir şey görə bilmirdi, qarağacın altında kimdi bu, elə bil, kölgə kimi durub həyətdə o da buna baxır. Baxır, baxır... elə bil, bunu yanına çağırır, əl eləyir ki, gəl bura, sözüm var sənə, axı sən mənim atamsan, böyüyümsən bu dünyada səndən yaxın, səndən əziz heç kimim yoxdu, ola da bilməz mənimçün.

Xudadin kişi sehrlənmiş kimi durub çıxır bayıra, gəlir qarağacın altına, yenə düz-əməlli bir şey görə bilmir, gördüyü, seçdiyi yalnız həmən bu kölgə olur və bu kölgə də ona yavaşca, lap yavaşca, az qala pıçıltıyla «Gedək mənimlə, işim var, sözüm var, sənə deyir, sən mənim atamsan, böyüyümsən, qorxma məndən, bir dənə bel götür özünnən, gəl, gəl, qorxma».

Əlinə bel alan Xudadin kişi hiss eləmədən gözündən sakit-sakit yaşlar süzülməyə başlayır, özü də quzu kimi dinməzcə düşür bu kölgənin dalınca və kölgə irəlidə, bu arxada gəlib yetişirlər kənd qəbiristanlığına çatandan sonra qəbirlərin arasıyla Xudadin kişinin mərhum atasının qəbrinə çatanda kölgə dayanır. Kölgə Xudadin kişi ilə adam kimi danışmağa başlayır, deyir: «Keç bu tərəfə, keç, tanımadın məni, mənəm, İlişəm.» Bu belə deyəndə oğlunu tanıyan Xudadin kişinin yaş dolu gözlərinə işıq gəlir, o, sevincək

düşünür: "Əlbəttə, İlişdi, düzdü deyilənlər. İliş qayıdıb, qayıdıb gəlib Xudadin kişinin ömrünün, həyatının mənası gəlib, gəlib..."

Xudadin kişi istəyir yıxsın özünü yeganə oğlunun ayaqlarına, qucaqlasın, öpsün onun ayaqlarını, Allaha dualar eləsin, könül dolusu ağlasın, ağlasın... Kölgə imkan vermir, hürkən kimi olub azca kənara çəkir özünü. Sonra kölgə qayıdıb ona deyir ki, "ey ata, mənim sənə deyiləsi sözlərim var, sən başla işə. Mən yavaş-yavaş danışacağam nə oldu, necə oldu, çünki bunları bilməlisən, sən bilməlisən bunları, sən bilməsən olmaz, heç olmaz." "Hansı işə, oğul, mən başlamalıyam?" soruşan Xudadin kişiyə kölgə bir də qayıdıb deyir ki, "qazı bu torpağı bu qəbrin yanında" və babasının köhnə qəbrini göstərir. Nə üçün, niyə soruşmadan kişi başlayır əlindəki bellə torpağı qazımağa. Gözündən yenə biixtiyar yaşlar tökülməyə başlayır. Qazıyır, qazıyır, bu qazıdıqca da kölgə ona nəsə danışır.

Başının kəsildiyi son məqamda neçə-neçə kəsik baş gəlib keçib İlişin yumulan gözlərinin qabağından – hamısı da alma kimi bir-birinə oxşayıb, saç-saqqalları ancaq başqa-başqa olub. Bir böyük qarağacın altında bu qana boyanmış, gözləri bərələ qalmış başlar bir-birinin yanında atılıb qalıbmış. Hamısının da dodağında bir incə təbəssüm...

Qanlı günəş çıxhaçıxda bir atlı sürətlə çaparaq gəlib bu qarağacın altına yetişdi. Qarağacın kölgəsi hər yanı bürüyürmüş yavaş-yavaş. Atlı atından düşdü, yerə diz çöküb əyildi və bir-bir diqqətlə bu kəsik başları əlinə alaraq gözlərinə tutub baxıb təzədən yerə qoymağa başladı, elə bil, hansınısa seçib özüylə aparacaqdı. Amma heç birini seçmədi, bir-bir hamısına əl sürtüb açıq bərələ qalmış gözlərini bir-bir qapadı. Durub belindən asılmış yalın qılıncını çıxardı. Elə qarağacın altındaca bir çuxur qazmağa başladı. Qazıb qurtardı çuxuru və bu kəsik başları dodaqlarındakı təbəssüm qarışıq bir-bir bu çuxura yığmağa başladı. İlişin də başı bu başların arasında idi.

"Ona görə də mənim başımı, sən ata, gözləmə. Başım o biri qarağacın altında, o biri mehriban və əziz başların yanındadır. Mənim vücudumu yalnız burada tapşır bu torpağa."

Xudadin kişi gözləri yaşlı torpağı qazıdıqca qazıdı, kölgəni dinlədikcə dinlədi və ancaq bunu düşünə bildi ki, Allah, niyə bu belə oldu, niyə mən oğluma qəbir qazası oldum, niyə məni öldürmədin, Allah, niyə oğlum mənə qəbir qazmadı, Allah, niyə?

Səhərə qədər kölgə o kəsilmiş başlardan çox şeylər danışdı, Xudadin kişi onun sözünü bir dəfə də kəsmədən dinlədi, elə bil ki, bu başsız kölgə hər şeyi, ürəyində bütün bu illər ərzində atasından saxladığı nə qədər çox şey vardı... hər şeyi açıb danışdı. Xudadin kişi hər şeyi səssiz-səmirsiz dinlədi, başa düşdü. Hardan gəlmişdi İlişə bu bilgi bircə onu anlamadı, ancaq hər şeyi başa düşdü.

Səhərə yaxın kölgə susdu və sakitcə vidalaşıb-eləmədən gedib girdi o qazılmış qəbrə və Xudadin kişi də dinməz-söyləməz o qəbri bayaq qazıdığı torpaqla doldurmağa başlayıb qurtaranda gördü ki, bu dəfə torpaq çatmır, qazıyıb bir kənara bellədiyi torpaq doldurduğu torpaqdan azdı, o tərəfə baxdı, bu tərəfə baxdı, qəbri torpaq hesabına bir az dikəltmək lazım idi, bir kənarda təzə bir çuxur açmağa başladı ki, onun torpağını qazdığı qəbrin torpağına qatsın. Bir bel, iki bel atmışdı ki, belin ucu nəyəsə ilişdi, əyilib gördü ki, çox böyük və qurumuş bir ağac kötüyüdü, dibindən elə kəsiblər ki, yer üzündə izi-tozu da qalmayıb, amma yer altından bu ölü kötüyün bir-iki vici, elə bil, istəyir bunun içindən çıxsın, cücərsin. Nə kötükdü, nə ağacdı bu, havaxt bu ağac burda vardı, kim kəsdi, havaxt kəsdi bunu – xatırlamadı. "Bu qəbirləri qazanda burda belə böyük ağacın olmasını bir adam bilmirdi gərək ki..." – düşündü, – "yəni, qarağacdı bu?" – beynindən ildırım sürətilə bu sual keçdi və Xudadin kişi əlini belinə tutub ağır-ağır dikəldi. "Sabah hamını qəbr üstünə dəvət eləmək lazımdı. Hamı qoy qəbri görsün. Hamı rahat nəfəs alsın. Heç kimin günahı yoxdu. Heç kimin. Mənimdi günah, mənimdi..." Xudadin kişi belə düşündükcə qəlbinə təskinlik dolmağa başladı.

Səhər ağır-ağır açılıb qurtarmışdı.

*1996-cı il*

# Son gəliş

Bir dəfə Zərdüşt yol ilə gedirdi. Qarşısına bir uzunsaqqal kişi çıxır. Bu kişi uzaq bir kənddən gəlirmiş. O kəndin belə bir adəti var idi. Yol ilə gedərkən rast gəldikləri adama, əgər o adam tanış adam olmazsa, hörmət və ehtiram bildirmək üçün qarşısında diz çökər, torpaq öpər, alınlarını yerə sürtər, ta ki, o adam özü irəli gəlib yerə çökmüş bu kəndlini çiyinlərindən yapışıb ayaq üstə durquzmayanacan bu halətdə qalmaqlarına davam edərdilər. Bu dəfə də belə olur. Qarşısında yerə sərilmiş bu adamı diqqətlə süzdükdən sonra Zərdüşt ona belə bir sual verir:

– Sənin tanımaza-bilməzə mənə göstərdiyin buehtiram məni riqqətə gətirdi. Ölüm Allahın kimdir, sən onu tanıyırsan?

–Tanımaz olmurmuyam?! Ölüm Allahımla mən hər ötən ildə bir dəfə görüşürəm. O gün mənim bütün yaşadığım illərin eyni günüdür.

Zərdüşt kəndlinin bu cavabını bəyənir və yenə soruşur:

– Bəs Həyat Allahını necə, onu da tanıyırsan?

– Yox, onu tanımıram. – Kəndli səmimiyyətlə etiraf edir.

– Ona görə tanımıram ki, doğum günüm mənim yadımda deyil.

Zərdüşt görür ki, kəndli onun suallarına ağıllı cavablar verir, söhbəti davam etmək qərarına gəlir, ona sərildiyi yerdən ayağa durmağa kömək edir, hər ikisi yoldan çıxır və boz daşlar arasında bir balaca otluqda otururlar. Ətrafa həzin bir axşam düşürmüş. Günün yorğunluğu yavaş-yavaş ətrafda nə vardısa hər şeyin canından çıxırmış. Yolboyu bitən ağaclar, kollar, koslar, yol kənarındakı daşlar, kəsəklər süst bir halda imişlər, hər biri dərindən nəfəs alıb verirmiş, elə bil, dincəlirmiş. Cırcıramalar səslərini başlarına atmışdılar, hərdən qəfildən susurdular, onlar susan kimi yaxından-uzaqdan cır quş səsləri idi, girirdi bu sükutun içinə, bəzənisə çox-çox uzaqlardan, başı ağaran dağlar tərəfdən qartal qıyı yuxarıdan aşağı yorğun-yorğun elə o dağlardan enən bu yolun düz ortasına qədər gəlib çatırdı.

– Sən dedin ki, ölüm Allahınla ildə bir dəfə eyni gündə görüşürsünüz. Sən o günü necə tanıyırsan? – Zərdüşt kəndlidən soruşur.

– Mən o günü indi tanımıram, mən o günü ölən zaman tanıyacağam.– Kəndli Zərdüştə bu dəfə də belə cavab verir.

– O zaman sən ölüm Allahının üzünü belə görməmisən?!

– Yox, görməmişəm. Mənə ondan danış.

Zərdüşt baxıb görür ki, kəndli həqiqi bir maraqla onun söhbətini gözləyir, yol gəlməkdən yorulmuş ayaqlarını ovuşdura-ovuşdura ona belə cavab verir:

– Bu söhbət indinin söhbəti deyil. Bizdən çox-çoxqədim zamanların söhbətidir. O zamanlar allahlar yer üzünə tez-tez gəlib gedərdilər. Bizim babalarımızla onların sıx ünsiyyətləri olardı. İndi daha belədeyil. İndi allahlar bir-biri ilə cəng edirlər. Həyat allahının və Ölüm allahının bir-birini görməyə gözləri yoxdur. Amma vaxt var idi, dost idilər…

–Bir neçə il bundan əvvəl bizim kəndə qərib birisi gəlmiş idi. O da belə deyirdi.

– O qəribin adı nə idi? – Zərdüşt maraq edərək soruşdu.

– Əsl adını heç kim bilmədi. Hamı onu Ərmən çağırırdı.

Zərdüşt bunu eşidib fikrə getdi.

...Ərmən hələ uzaqdan bu kəndi görüb seçmişdi. Dörd tərəfi böyüklü-kiçikli quru dağlar, elə bil, döyüşə hazır əsgərlər idi. Bir böyründən suyu çoxdan sovulmuş çayın enli beşiyi qalmışdı; bəlkə də nə vaxtsa suyu yenə gələcəkdi, sağ böyründən isə tikanlı bir çöl başlayırdı. Kənd evlərinin çəpəri başdan-başa bu çölün tikəni idi. İndi Ərmən tikanlı çöl ilə addım-addım bu kəndə yaxınlaşdıqca seçiminin doğru olduğuna bir daha inandı. Kəndin adamları qəribə adamlar idilər. Qarşısına çıxan hər bir kəndli onun önündə dərhal diz çöküb alnını torpağa sürtürdü. «İtaətkar camaatdır». – Ərmən belə düşündü. – «Bu adamları həqiqətlə sirdaş eləmək çətin olmayacaq».

Onu qarşılayan kəndlilərlə bir yerdə kəndin ortasındakı qollu-budaqlı ağacın altına yetişəndə artıq kəndin kişili-qadınlı ayağı yer tutan kimi vardısa, hamısı burada cəm olmuşdu. Adamlar onu araya aldılar, başladılar böyük maraq və ehtiramla onu dörd tərəfdən seyr etməyə, bəziləri də qaçışaraq tamaşaya gəlmiş tumançaq balaca uşaqlara böyük bir sevinc içində nə isə qışqıra-qışqıra əllərilə onu göstərirdilər. Nəhayət, camaatın içindən qırmızısaqqal, uzun və ağappaq libasa bürünmüş bir ortaboylusu çıxıb irəli gəldi, Ərmənin qarşısında durdu. Bu, kəndin cadugəri idi. Ərmənlə cadugər bir müddət bir-birinə baxa-baxa qaldılar. Sonra Ərmən sağ qolunu çırmayıb cadugərə nəsə göstərdi. Cadugər diqqət və ehtiramla Ərmənin qoluna baxdı. Bu zaman camaat da sakit oldu, hər tərəfi sükut bürüdü. Bu sükutun içində qırmızısaqqal cadugər hər iki əlini açaraq Ərmənə sarı uzatdı və uca səslə onu salamladı:

– Xoş gəlmisən, Ərmən!

Kənd adamlarının ürəyindən qopan şadyanalıq və sevinc sədaları ağacın altından sıyrılaraq asimana qədər baş alıb getdi...

Zərdüşt fikirdən ayrılaraq yanında bardaş qurub mərifətlə oturmuş bu kəndlidən soruşur:

– O Ərmən dediyin ölüm Allahının özü idi, deyilmi?

– Bəli, – kəndli cavab verir. – Ərmən ölüm Allahının özü idi ki, vardı. Amma biz bunu sonradan bildik.

Zərdüşt yenə fikrə gedir. Düşünür: «Deməli, yenə gedib-gəlirlər… Unutmayıblar. Əgər bu kəndlinin dedikləri doğrudursa, bu gəlişin çox böyük mənası olmalıdır»..

Bu minvalla Ərmən o kənddə bir müddət qalıb yaşayır. Kəndin kürəyini verib daldalandığı balaca dağın döşündəki bir mağaraya sığınır, hərdən də cadugərin yaşadığı komada qalır. Kəndin camaatı Ərməni tanıyandan sonra qorxu-hürkünü birdəfəlik unudur. Hər şeyin, hətta ölümün belə gözünə dik baxmağa başlayır. Yavaş-yavaş Ərmənin sorağı yaxın və uzaq ətrafa yayılır. Ərmən bu kəndə yerləşəndən sonra onunla təmas edən adamlar ona böyük ehtiram göstərirlər. Hətta cadugərin özü belə onun qarşısında əmrə müntəzir dayanır. Bir gün bu cadugərin yanına göz işlədikcə uzanıb gedən sıralı dağların o tərəfindəki uzaq kənddən bir adam gəlir.

– Mən sənin sorağınla kənd-kənd, oba-oba gəzirəm. – Bu gəlmə adam cadugərə deyir. – Mənim dərdimin çarəsini ancaq sən çözə bilərsən.

– Sən kimsən və nə dərdin sahibisən? – Cadugər Gəlmədən soruşur.

Gəlmə cadugərə belə cavab verir:

– Mən öz oğlumu axtarıram. O, günlərin bir günü yoxa çıxdı. Nə qədər axtardıq, onu tapa bilmədik. Bu yaxınlarda isə eşitdim ki, sizin kənddə bir yeni adam peyda olubdur. Mən onu görmək istəyirəm. Bəlkə…

Cadugər çönüb otağın dibində, Gəlmənin gözündən qıraq bir küncdə bardaş qurub əyləşmiş Ərmənə baxır Ərmən başını yerə dikir. Bir müddət heç biri dinmir.

– Sən məndən nə etməyimi istəyirsən? – Nəhayət, Cadugər dərd əlindən özünə yer tapmayan, üzündən-gözündən, üstündən-başından acı bir yorğunluq tökülən Gəlmədən soruşur.

Gəlmə ah çəkib belə cavab verir:

– Sənin möcüzələrinin tərifi dağları aşıb biz tərəflərə çoxdan yetişibdir. Mənə kömək etsən sən edəcəksən. Oğlumun yerini lütf eylə, mənə söylə.

Bunlar üzbəüz dayanıb söhbət etdiklərindən yana Gəlmə Ərmənin üzünü hələ görmür. Söhbətin bu yerində Ərmən otağın dibindən, oturduğu

yerdən qalxıb irəli, üzü işığa çıxır və Gəlmə bu zaman Ərməni görür. Görməyilə də yerindəcə qupquru quruyub qalır, dili ağzındaca topuq çalır. Nəhayət, birtəhər edib özünə gəlir və iztirablı səslə Ərmənə belə deyir:

– Oğul, bəs sən nə üçün belə etdin? Yoxsa məndən bir yamanlıqmı gördün? Niyə ilim-ilim itdin, hara yox oldun, gecəmin-gündüzümün yiyəsi?

Ətrafdakılar hamı maraq göstərib bunların ətrafına yığışır. Hətta Cadugər özü belə Gəlmənin bu cür söhbətinə mat-məəttəl qalır. Ərmən əvvəl-əvvəl çaşqın kimi görünür, amma tez özünü ələ ala bilir. Ərmən Gəlməyə belə deyir:

– Sən kimsən və məndən nə istəyirsən?..

Zərdüşt kişinin söhbətinə maraq ilə qulaq asır. Bu yerə çatanda artıq ona məsələnin canı tamamən aydın olur. Dodağının ucu ilə gülümsünüb kişinin dediklərini artıq özü davam edir:

– Gəlmə onu öz doğma oğlu bilir. Əslində, sizin Ərmən dediyiniz şəxs o gəlmə kişinin oğlunun qiyafəsində imiş. Bədbəxt adam Ərməni görcək oğlunu tapdığını zənn edir.

– Sən bunları haradan bilirsən? – Zərdüştün həmsöhbətinin təəccübdən gözləri böyüyür. Zərdüşt ona məhəl qoymadan davam edir.

– Sonra Ərmən Gəlməyə belə deyir:

– Mən sənin oğlun deyiləm.

– Bəs sən kimsən, a bala? – Gəlmə sidq-ürəklə təəccüb edir:

– Mən öz doğma oğlumu tanımaz olurmuyam? Bu nə cür danışıqdır sən danışırsan?

Bunları deyə-deyə Gəlmə üzündə acizanə yalvarış ətrafındakı adamlara baxıb yaşlı gözlərilə onlardan imdad istəyir. Amma ətrafda heç kim cəsarət edib bir kəlmə danışa bilmir. Hətta Cadugər belə çaşqınlıq içərisində susub qalır.

– Mənim kim olduğum sənə, bax, bundan bəllidir.

Ərmən ağ köynəyinin sağ qolunu çırmayır və bu zaman dirsəyindən yuxarıda qoluna basılmış işarəti Gəlməyə göstərir. Bu tanış işarəti görən kimi Cadugər bu dəfə üzüqoylu olub Ərmənin qarşısında yerə sərilir və

tərpənməz qalır. Yenə bir müddətdən sonra Ərmən Cadugərin beyninə «Qalx ayağa!» əmrini göndərir, bundan sonra Cadugər yavaş-yavaş, əlini yerə dayaq verib qalxır ayağa, amma yenə bir müddət maddım-maddım baxaraq Ərməndən gözünü çəkə bilmir.

– Bəs sən bunları haradan bilmisən? Sən ki orada yox idin?! – Zərdüştün həmsöhbəti yenə də ondan böyük bir maraq içində soruşur.

– Sənə mən bu barədə heç bir şey deməyəcəyəm. – Zərdüşt yavaş səslə, amma qətiyyətlə cavab verir. – Davam edim, yoxsa… Ərmən görür ki, ətrafdakı adamlar Cadugərin onun qarşısında bu cür diz çökdüyünü görəndən sonra ona qorxu içində baxmağa başladılar. Bu zaman Ərmən başa düşür ki, bu kənddə o artıq qala bilməyəcək…

Zərdüşt nəfəsini dərir. Düşüncələri yenə onu uzaqlara aparır. Son dəfə Ərməni gördüyü günü xatırlayır. Payız idi. Zərdüşt yorulmuş bir halətdə böyük bir qarağacın altında əyləşib çiynini ağacın gövdəsinə söykəmişdi. Bu qarağac yaşıllığı isti yaydan qalmış canlı budaqlarını çətir edib Zərdüştün üstünə tutaraq onu leysan kimi yağan yağışdan qorumaq istəyirdi. Gözlərini yumub ləzzətlə dincini alan Zərdüşt birdən gözünü açıb yanında peyda olmuş ağsaçlı, bığı-saqqalı ağappaq, amma xeyli cavan çöhrəli bir adam görür. Bir xeylaq Zərdüşt diqqətlə bu adama, bu adam da Zərdüştə baxa-baxa qalırlar.

– Sən ömrün boyu məni axtara-axtara qalmısan, bilirsən?! – Nəhayət, cavan çöhrəli, ağ saqqallı buadam Zərdüştdən gözünü çəkib Qarağacın yarpaqlarından ağır-ağır süzülən qara və ikicanlı yağış damlalarına ötəri nəzər yetirib dillənir.

Zərdüşt bir daha bu adamı diqqətlə süzür. Onun səsindəki qəribə ahəng Zərdüştü xeyli həyəcana gətirir. Boğazına nədənsə qəhər dolur. Hətta az qalır gözündən yaş gəlsin. Bu zaman leysan kimi yağan yağış birdən kəsir. Yağış kəsən kimi Zərdüşt yanında oturan cavan çöhrəli bu adamın kim olduğunu anlayır. O adam Zərdüştə bir daha bunları deyir:

– Həmişə məni axtarmısan, amma onu tapmısan. Sən adamlarda mənə qarşı kin, nifrət yaratmısan. Mən … Sənə bu barədə danışmaq belə istəmirəm… Mən, əslində, səni cəzaya düçar etməliyəm, amma niyə bunu

etmirəm, özüm də bilmirəm. Hanı, hardadır sənin havadarın, xeyirxahın? Bax, mən burdayam. Mən səni, nəhayət ki, bu Qarağacın altına salıb təkliyinin canını ovcumun içində sıxdım. Bəs o haradadır və o niyə səni təkliyinin içinə buraxdı? Mən axı səni çoxdan, lap çoxdan ovlayıram, bunu o da bilir. Hanı o, Zərdüşt, sən mənə deyə bilərmisən, hanı o?.. Sən ki onu bu qədərinə sevirsən… Amma hanı o?..

Zərdüşt bir cavab tapa bilmir ki, Ərmənə verə. Özündən ixtiyarsız gözləri yaşla dolur və Zərdüşt başlayır ağlamağa. Səssiz-səmirsiz bir xeyli gözlərindən yaş axır üzünə, üzündən də saqqalına töküldükcə tökülür. Əlinin dalı ilə gözlərini bərk-bərk siləndən sonra bir də baxır görür ki, Ərmən artıq yanında yoxdur. Qarağacın altında Zərdüşt beləcənə bir xeyli vaxt tək-tənha oturub dərin fikirlər aləmindən ayrıla bilmir…

– O bir daha gəlməyəcək… –Zərdüşt üzünü çöndərib son dərəcə böyük maraqla ona qulaq kəsilən kəndliyə xüsusi bir diqqət ilə baxır. – Səndən bir şey soruşmaq istəyirəm.

Sonra da kəndlidən cavab gözləmədən sualını verir:

– Oğlunu itirmiş o kişi oğlunu tapdımı?

– Bəli. Ərmən yoxa çıxan kimi əziz oğlum o dəqiqə yanımdaca peyda oldu.

– Deməli, o kişi sən idin… – Zərdüşt bu dəfə sual vermir, elə bil, xəyal içində öz dediyini təsdiq eləyir.

– Mən idim… – Kəndli cavab verir.

Daha bunlardan heç biri o birisinin sükutunu pozmur. Arabir uzaq, boz və quru dağlar tərəfdən heysiz, zor-güc bura gəlib çatan qartal qıyına, hərdən də onlara qarışan cırcırama səslərinə qulaq verə-verə hər ikisi bir xeyli zaman kirimişcə yol kənarında üzbəüz, diz-dizə oturmaqlarına davam edirlər.

*2006-cı il*

# Xaron, mərhəmətli, Xaron

Stiks çayının qoca sifətində bircə qırış belə yox idi. Çay heç nəfəs də almırdı, canına hopmuş hərəkətsizliyi hürkütməkdən qorxurdu. Sular balaca tərpəşsəydi bu hərəkətsizlik quş kimi uçub gedəcəkdi. Əslində, bu hərəkətsizliyi çaya pərçimləyən, onu uçub getməyə qoymayan bir şey vardısa, o da sahilə yan almış bu kiçik qayıq idi. Qayıq donuq bir halda dərin yuxuya getmişdi.

Stiks çayının bu sahili qızılaçalan ılıq qum dənəciklərinin parlaq işıltısından başqa bir şey deyildi. Amma yox, burda bir adam da vardı, o bu qızıl qum sahilində kürəyi üstə uzanıb əllərini yana açdıqca açmışdı və onu bu halda gördükdən sonra hərəkətsizliyin can dincəldən rahatlığı günəşin son şüası kimi birbaşa elə bu qumluğun üstü ilə qıvrıla-qıvrıla gəlib onun təəccüb dolu gözlərinə doldu…

…Xaron uzandığı yerdəcə artıq duymuşdu ki, kiminsə inadlı baxışları onun vücuduna ilişib qalıb. Dincəlməyə, bir azca da olsa rahatlığa qovuşmağa yenə zamanı çatmamışdı. Hamı tələsir. Hamı o biri sahilə can atır. Niyə? Bu sualın cavabını Xaron heç özü də bilmir. Xaron qulaqlarına

dolduqca dolan və heç cürə onu rahat buraxmayan qarmaqarışıq səsləri istəyir ki, başını yelləyib uzağa qovsun, bunu yenə də bacarmır:

– Xaron, Xaron…

– Xaron, ədalətli Xaron…

– Bizi o biri sahilə keçir. Bizi buralarda tək qoyma.

– Xaron, mərhəmətli Xaron…

O özü də, nəhayət ki, kölgəyə çevrildi. O biri kölgələrə nə zaman qarışmışdı, bunu bilmədi. Xaronun balaca qayığında bir kölgəlik yer var idi və o indi qarşı sahilə keçmə növbəsini gözləyən kölgələrlə bu yer uğrunda itələşirdi. Xaronu dilə gətirmək onun üçün çox vacib idi. Dilinin altında tanış olmayan daddan yaxa qurtarandan sonra, yəni, dilinin altında yatıb qalmış Xaronun zəhmət haqqı olan qızıl sikkəni ona verəndən sonra, bax, o zaman əsl azadlıq başlayacaqdı. Stiks çayının sahilinə qədər gəlib yetişmək, əlbəttə ki, hələ əsl azadlıq deyildi. Beynindəkilərdən, qəlbindəkilərdən birdəfəlik azad olmalıydı. Amma bu zaman ona birdən elə gəldi ki, bu azadlıq artıq ona gərək deyil.

– Xaron, Xaron…

– Xaron, mərhəmətli Xaron…

Xaron tənbəl-tənbəl uzandığı qumun üstündən ayağa qalxmağa başlayır. Əvvəlcə yana açılmış əllərini köksü üstünə daraqlayıb özü özü ilə əl-ələ verir, sağ və sol əllərinin barmaqlarını bir-birinə keçirib bir xeyli beləcə qalır. Sonra Xaron sağ əli üstə dirsəklənib sağ böyrü üstə çönür. Onun hərəkətə gəldiyini görən kölgələr elə o andaca onun sağ tərəfində peyda olurlar, az qala özlərini onun gözlərinin içinə dürtürlər. Xaron ah çəkir, bu dəfə sol böyrü üstə çönür. İndi də kölgələr keçib Xaronun sol tərəfində peyda olurlar.

– Xaron, ədalətli Xaron…

Xaron bu zəhlətökən səslərdən təngə gəldiyini qətiyyən büruzə vermir. Heç nəyi, heç kimi eşitməyən və görməyən adamlar kimi bu kölgələrə məhəl qoymur, o öz işindədir, yavaş-yavaş ayağa qalxmağını bitirib qurtarır.

– …Xaron, mərhəmətli Xaron…

Nə baş verəcək, nə baş verməyəcək – heç kim bunu bilmir. Hələ bu kölgələr heç bilmirlər. Hər şey artıq onlar üçün arxada qaldı. Xaronun qayığına oturub Stiks çayının o biri sahilinə keçməkdən başqa bu kölgələr heç nə barədə düşünmək istəmirlər. Çayın ortasına çatanda isə, onlar bunu bilirlər, həmən o asudəlik, azadlıq məqamı başlayacaq. Arxada nə qaldısa – xatirə, yaddaş, düşüncə, duyğu – kölgələr hamısını Xarona ötürəcəklər. Xaron da şərtə görə onların bu yükünü qəbul etməyə məhkumdur. Hərdən Xarona elə gəlir ki, şərtə bağlı olmasaydı belə o, kölgələrin bu yükünü qəbul edəcəkdi, çünki… Xaron rəhmdildir, Xaron ədalətlidir, Xaron…

İndi isə əsas məsələ qayığa minməkdir. Düzdür, Xaron bəzən özünü tənbəlliyə vurmağı sevir, amma kölgələr artıq bu tənbəlliyin arxasında hansı məqsədin gizləndiyini yaxşı bilirlər. Xaron öz qızıl sikkəsini almayana qədər heç kimi Stiksin o biri sahilinə, mütləq azadlıq məkanına keçirmir. Xaron əsla tənbəl deyil. Xaron, sadəcə, dünya malına biganə deyil. Kölgələrə bu qəribə və gülməli gəlir, onlar Xaronun ətrafında dəcəl uşaqlar kimi atılıb-düşür, onunla hətta məzələnirlər:

– …Xaron, yaraşıqlı Xaron…

– Bizə rəhmin gəlsin, şəfqətli Xaron…

– Xaron ədalətlidir, o bizi yolun sonunda tək buraxmaz.

– Xaron, bəsdi tənbəllik etdin. Qalx, qalx, səbrimizi tükətmə…

Heç kim bilmir ki, Xaronun yeni sirlərə vaqif olmaqdan qorxduğu və bundan iyrəndiyi heç bir başqa şey yoxdur. Xatirə, yaddaş və bu kimi geridə qalan nə vardısa hər şey sirr idi. Hər dəfə kölgələr çayın ortasına qədər ona bütün qəlbi ilə etiraf edir, çayın ortasında isə bütün sirlərdən azad olan kimi hər şeyi unudurdu. Və bu zaman Xaronun beyni əsl Aid zülməti ilə dolurdu. Heç əbədi Xaosun özü belə bu zülmətdə ağı qaradan seçə bilməzdi.

…Həmən gün Stiksin sahilində kölgələr çoxalmağa başladı. Xaron qayığa tərəf yönəldi. Bir kölgə seçməliydi, gözünün qırağı ilə məhz onu axtardı. Yalvara-yalvara arxasınca itələşən kölgələrin arasında, nəhayət, onu gördü. Xaron bu kölgəni təkcə ona görə seçməmişdi ki, o, Xarona bir qızıl sikkə əvəzinə uzaqdan iki qızıl sikkə göstərib vəd edirdi. Əlbəttə, bu

səbəb də vacib idi, ancaq yeganə deyildi. Xarona elə gəldi ki, bu kölgənin heç bir sirri, xatirəsi, yaddaşı yoxdur və Xaron bu dəfə Stiks çayının ortasında həmişəki kimi zəhlətökən, nimdaş, bir-birinə oxşayan sirləri qabar olmuş beyninə doldurmağa məcbur olmayacaqdır.

Bu bir məzlum qadın kölgəsi idi və ilk dəfə Xarona məhz bu kölgə son dərəcə nəvazişli səslə belə müraciət eləmişdi:

– …Xaron, mərhəmətli Xaron…

Xaronu hər cür çağıran olmamışdı, «yorulmaz» demişdilər, «şəfqətli» demişdilər, hətta «yaraşıqlı» demişdilər, amma ona «mərhəmətli Xaron» deyə müraciət edən hələ olmamışdı. Zevs, ulu Zevs, sən bir bu səsdəki məlahətə qulaq ver: …Xaron, Xaron, mərhəmətli Xaron…

Xaron seçib ayırdığı kölgəyə başı ilə «sən qayığa min» işarəsini verir, yan-yörəsini bürümüş o biri kölgələrin içindən keçə-keçə qayığın yanına gəlir, qumluqda eynən öz qolları kimi açılıb bir kənara atılmış avarları əyilib götürür. Əvvəlcə Xaron, arxasınca kölgə qayığa minirlər. Xaron yerini rahatlayır, avarları işə salır və qayıq yavaş-yavaş burnunu Stiks çayının o biri sahilinə tutur. Kölgənin səsi qayığın içində də Xaronun qulaqlarına dolmaqdadır:

– Xaron, mərhəmətli Xaron…

Xaronun qayığı Stiks çayının lal və dinməz sularına az qala toxunmaya-toxunmaya çayın ortasına üzüb çatır və beləliklə yolu yarı edir. Xaron başını döndərib kölgəni axtarır, onu qayığın baş ucunda tapır və bu zaman təəccüb edir. Kölgə üzünü sahilə, gedib çıxacağı yox, gəldiyi sahilə tutub durub, gözlərindən isə əməlli-başlı yaş axır. Bir kölgənin gözündən həqiqi yaş axdığını Xaron ilk dəfə idi ki, görürdü. Bu zaman Xaron kölgədən soruşur:

– Nə edirsən?

Sonra deyir:

– Vaxtdı, başla, yolu yarı etdik. Nə söyləyəcəksən daha söylə. Sən ki şərti bilirsən…

Kölgə Xarona belə cavab verir:

– Mənim gözümdən gələn yaş səni təəccübləndirməsin, mərhəmətli Xaron. Balaca-balaca körpələrimi qoyub gedirəm. Gecələrimin sahibini qoyub gedirəm. Onları heç, heç unutmaq istəməzdim. Sənə deyəsi bir sözüm yoxdur. Mən körpələrimin xatirəsini özümlə ora aparmaq istəyirəm.

– Sən bu hiyləgərliyi edə bilməzsən. – Xaronun səsi codlaşır.

– Sən mənə kömək edərsən, Xaron, çünki sən mərhəmətlisən…

– Şərti poza bilməzsən. Sən o biri dünyada bu dünyanı xatırlaya bilməzsən, özünü və məni aldatmağa çalışma.

– Sən mərhəmətlisən, Xaron… Mərhəmətli Xaron… – Kölgənin səsi yenə də həmənki kimi məlahətli, nəvazişli, hətta qılıqlıdır.

Və Xaron ilk dəfə öz vəzifəsini sonadək yerinə yetirmir. Avar çəkməyini dayandırmır, qayığın burnu o biri sahilə toxunanda Xaron imkan verir ki, kölgə sahilə qədəm qoysun və Aidin zülmətində əriyib gözdən itsin. İlk dəfə olaraq bir kölgə Aidin səltənətinə öz yaddaşı ilə daxil olur.

Kölgə sahilə çıxandan sonra çevrilib Xarona son dəfə ilıq bir nəzər salır, dodaqları səssizcə tərpənir. Xaron heç nə eşitməsə də kölgənin nə dediyini, necə dediyini çox gözəl bilir və Xaronun üzünə özündən xəbərsiz yad bir təbəssüm qonur.

…Xaron, mərhəmətli Xaron…

*2006-cı il*

# Dəvə yağışı

Bu gün axşam xəbərlərin sonunda hava haqda məlumatı bütün şəhər dinlədi və rahatlıqla köks ötürdü. «Sabah, – xəbərdə deyilirdi, – göydən yerə dəvə yağacaq». İki gün əvvəl göydən yerə şir yağmışdı və bu daha təhlükəli idi.

Şirləri bu dəfə də birtəhər aldadıb – əslində, bu onların ən çox zəhləsi gedən bir şey idi, buna ovsunlamaq deyirdilər – ağızlarını heyvanxanaya döndərmişdilər. Amma heç də hamısına qəfəs çatmamışdı. Ona görə də indi şəhərin ən böyük problemi beş-beş, on-on bir qəfəsdə daldalanan bu şirləri ovsundan hələ tam ayılmamış birtəhər hardasa yerləşdirmək olmuşdu. Müxtəlif təkliflər gəlirdi və hər bir təklif o saat müxtəlif TV-lər tərəfindən ictimai müzakirəyə çıxarılırdı. Təkliflərin ən maraqlısı bu idi və deyəsən Elmlər Akademiyasından gəlmişdi:

– Şirləri öyrədib onlardan əsl döyüşçülər dəstəsi yaratmaq lazımdır. Şir dili bilənləri, hərbçiləri bu işə cəlb etmək məqsədəuyğun olardı.

Yeni, böyük zoopark tikib şirləri ora yerləşdirmək, şirlər üçün ərazi, başqa sözlə, əsl savanna yaratmaq, təbii şəkildə ətraf təbiəti şirlərin həyat tərzinə uyğunlaşdırmaq təklifi ilə Mədəniyyət Nazirliyi çıxış etdi. Özü də bu işə xarici investisiyaların cəlb olunma zərurətini də ortaya atdı.

Bir qədər kəskin, hətta çoxuna bu, qəddar qərar kimi gəldi, təklifi müştərək «Xəz – Dəri – Kürk» adlı «Azad Müstəvi» Birləşməsinin işçiləri verdi:

– Şirləri öldürüb, dərilərini ixrac etmək şəhərə çox ciddi ulduz axını gətirər…

Təkliflərdən biri isə kifayət qədər gülməli olduğundan hətta televiziya diktoru bu təklifi səsləndirərkən təbəssümünü heç cürə gizlədə bilməmişdi:

– Şirlər üçün məktəb açmaq lazımdır. Onların dilində tədris aparmaq, onların mədəniyyətini inkişaf etdirmək biz insanların irqi borcudur. – Bu təklifi də Heyvanları Müdafiə Komitəsi Təhsil Nazirliyi ilə bir yerdə irəli sürmüşdü.

…Dəvələr dolu kimi yağırdı. Ovsunçulara şirlərlə iki gün əvvəl bütün güclərini sərf etdikləri üçün dincəlmək, özlərinə gəlmək icazəsi verilmişdisə də, dəvə yağışı gec ara verdiyindən bir daha onların, yəni, ovsunçuların köməyindən istifadə etmək məsələsi ortaya çıxdı.

Göydən düşə-düşə bir dəvə o birinə deyirdi:

– Bu insasanlar heç də qorxaq deyilmişlər.

O biri cavab vermək istədi:

– Bəs sən bilmirdin ki… – sözünü bitirə bilmədi, çünki guppultuyla yerə dəydi, tez vurnuxub ayaqları üstə qalxdı. Ora-bura boylanıb gördü ki, o biri dəvələr də onun kimi yıxılıb böyrü üstə qalıblar – görünür, yerə enərkən düzgün aerodinamik avtozərbə mövqeyi seçmədiklərinə görə. O birilər, düzgün mövqe seçənlər – güclə də olsa ayağa qalxır, onun kimi tez özünə gələnlərin isə, deyəsən, heç nə veclərinə deyil, donqarlarını dik tutub, odu ha, səhrada yelkən kimi enib-qalxıb ora-bura qaçışırlar. Hər biri öz cərgə yoldaşını arayır.

Ovsunçular gələnəcən belə bir anlaşılmaz – hərc-mərclikmi deyək, anlaşılmazlıqmı deyək, hal davam etdi.

Ovsunçular yarıyuxulu idilər və, deyəsən, ovsun-ları özləri bunu istəyən kimi kar etmirdi, bir sözlə, dəvələrin hələ ki, biri də könüllü şəkildə gəlib «Maqnus-180» – istifadəyə bu yenicə buraxılmış elektromaqnit mühərrikli nəhəng aerobuslara girmək istəmirdilər.

– Lap elə gəlib girdilər bu maşına, sonrası nə olsun? – Ovsunçular deyinirdilər. – Hara aparacağıq bunları?!

– Əvvəl savannanı yaratmaq lazım idi, sonra bunlar barədə fikirləşmək olardı.

– Şirlər, bunları şirlərin yanına buraxmaq! Həngamə o zamandı. Biz də dincələrdik.

Dəvə yağışı, nəhayət ki, kəsdi. Qəfəsdəki şirlər az qala ağızlarının suyu axa-axa «Maqnus-180»lərdən quzu kimi aşağı hoppanan dəvələrə baxır, ürəklərində gülməklərini güclə saxlayırdılar. Doğrudan da, dəvələri ovsunçular, nəhayət ki, bir təhər ovsunlayıb gətirib yığırdılar heyvanxananın qabağına. Yaxın ətrafda yaşayan insasanlar tək-tək, cüt-cüt, ürəklənən irəli çıxıb, cəsarəti çatmayan uzaqdan bu mənzərəni seyr edirdilər.

– Dəvə ətinin yaxşı qutabı olur. «…mətbəxləri» kitabında görmüsən? – Yaşlı bir insansan əlindən tutduğu nəvəsinin üzünü dəvələrə sarı döndərdi. Uşaq heç cür yola gəlib dəvəyə baxmaq istəmirdi, ağlayıb dururdu, evə qayıtmaq istəyirdi, qorxmuşdu nədi?!

– Bax, bu, dəvədir, – deyə insansan nəvəsinin könlünü almaq istəyirdi və bir gözü ilə də əlində işi olmayan bir ovsunçu axtarırdı ki, uşağı yola gətirsin, onun ürəyinə girib dəvəyə maraq yaratsın. Amma bütün ovsunçular dəvələrlə məşğul idi.

– Evə istəyirəm, evə gedək – Uşaq get-gedə daha da israrlı olurdu.

– Ay səni, bir bax, axı sən heç zaman əsl dəvə görməmisən.

– İstəmirəm bu dəvəni. Mən evə istəyirəm. İndi «Səhrada gəmi» başlayacaq. Evə gedək… Niyə görməmişəm. Mən dəvə görmüşəm…

«Səhrada gəmi» son zamanların ən dəbdə olan, ən sevilən virvizual filmi idi. İçinə cürbəcür heyvanlar dolmuş gəmi səhra ilə qumluqda «üzür» və sənin istəyinlə televizor ekranından keçib bir başa otağın içinə girə bilirdi. Virvizual ekran son texniki nailiyyət idi və çox da bahaya başa gələn ləzzət idi. Baba bütün sonrakı təqaüdünü bir yerə toplayıb ailəyə kömək etməsəydi bu ekranı almaq mümkün olmayacaqdı. Nəvə çox yalvarmışdı. Amma açıq demək lazımdır ki, babanın özündə də az yox idi, o da get-gedə öz uşaqlığına daha çox yaxınlaşırdı. Virvizual ekrana baxmaq ondan ötrü də çox maraqlı idi. Bu ekran bütün ailə büdcəsinin ziyanına – Ana heç cür razı olmurdu, güclə baba onu dilə tutdu, sonra isə Ana Uşağın göz yaşlarına dözmədi – bəli, məhz büdcənin ziyanına alınmışdı və indi nəvəsi həmin «Səhrada gəmi» filminin növbəti seriyasına baxmaq üçün evə can atırdı.

– Ay səni, dəcəlsən ki, dəcəl. Yaxşı, gedək evə. Bu dəvə axı sənin o gəmindəki dəvədən deyil. Bu həqiqi dəvədi. O isə… Eh…

– Yox, o dəvə yaxşıdır. O mənim dostumdur. Mənimlə danışır. O məni gözləyir.

Ovsunçular, nəhayət, dəvələrin hamısını – bir-ikisi, hələ bəlkə daha çoxu tapılmamışdı – heyvanxananın qabağına yığdılar. Kiçik bir müşavirə keçirdilər:

– Olan-qalan gücümüz çatacaqmı bu dəvələri şirlər üçün toxunulmaz edək?! Odur bax, necə gözləri ilə yeyirlər bunları…

– Yox, gücümüz çatmayacaq. Şirlərin qarnını ovsunla doldura bilmərik.

– Vəziyyətdən çıxış yolu görürsünüzmü? – Məsələ belə qoyulurdu və bütün ovsunçular taqətsiz halda bu suala cavab axtarırdılar.

Elə bu zaman Baba ilə Uşaq gəlib Damdabacalar küçəsindəki evlərinə çatdılar. Uşaq yamanca tələsirdi. Baba isə, artıq onun yorğunluğu aşkar hiss olunurdu, ayaqlarını güclə çəkirdi.

– Gəl, gəl gecikirik.

Saat Günəş vaxtından Ay vaxtına keçdi. Buludlar göy üzündə şahə qalxıb dondular. Şəhərətrafı səhradibi evlər bir-bir üzə çıxdı.

– Vaxtdı. Tez ol, baba, tez ol… – Uşaq lap səbirsizləşdi.

– Gəlirəm, ay səni… Bir dayan görüm, sən məni lap karıxdırdın.

Qapını onlara açan Ananın üzünə Uşağı görən kimi ılıq və bir az da narahat təbəssüm qondu: «Buna nə olub?!»

Tez-tələsik özünü ananın yanından içəri dürtən uşaq bir təhər özünü virvizual ekranın yanına çatdırdı. «Mən gəldim» tanıma sözünü elə qışqırdı ki, evdəki əşyalar da az qaldı cingildəsin. Virvizual ekran dərhal işıqlandı. Uşaq elə durduğu yerdəcə donub qaldı, gözlərini ekrana dikdi, elə bil, bu dəqiqə onu yeyəcəkdi, yanında gəlib səssizcə kresloya özünü yetirən Babaya astaca:

– Baba, bax. İndi özün görəcəksən. Bu dəvə o dəvələrdən daha gözəldi, – dedi.

Ovsunçuların ayaqüstü müşavirəsində son sözü Şəhər «İnsasanlarla heyvanlar arasındakı münaqişələrin Çözüm Komissiyası»nın üzvü dedi. Və onun təklifi artıq əməlli-başlı əldən düşmüş ovsunçular tərəfindən o saat qəbul edildi. Təklif isə bundan ibarət idi. Biz gərək elçilər dəstəsini hərəkətə gətirək. Şirlərdən söz alaq ki, dəvələrə dəyməyəcəklər. Ta ki, ovsunçular öz güclərini bərpa edəndən sonra şirləri yenidən ovsuna tutmaqla dəvələrin aqibətinin necə olacağını götür-qoy eləmək olar». «Bəs, şirlərə nə vəd eləyə bilərik?» sualına «Çözüm» Komissiyasının üzvü burnunun altında «onlar üçün savanna yaratmağı» mızıldandı. Gərək ki, ictimaiyyətdən gələn təkliflərdən biri də elə bu idi.

Heç kim məsələnin bu cür asanlıqla həll olacağına inanmırdı. Ay vaxtı artıq başlamış, hamı yorulmuşdu. Elçilər dəstəsinin nümayəndəsi şirlərin yanından qayıdıb əvvəlcə dövlət TV-sinə, sonra da özəl TV-lərə intervyü verdi ki, şirlər qısa məsləhətləşmədən sonra onlara edilən təkliflə razılaşdılar. Öz növbələrində: «təki, ovsunçular gəlməsin. Biz hər şeyə razıyıq» dedilər. Beləliklə, hamı rahat nəfəs aldı. «Yağış anı» üzrə koordinator olan qoca Şir və «Ümumi sülh saatı»nın nümayəndəsi ortaya çıxıb öz səliqə-sahmanlarını yaratmağa başladılar

…Gəmi uzaqdan gəlib yavaş-yavaş qum dənizində böyüməyə başlamışdı. Uşaq o anı gözləyirdi ki, ekranın altındakı virsaniyə düyməsini

bassın, çünki gəminin içindəkilər yalnız bu zaman içəri otağa daxil ola bilərdilər. Baba lap səbirsizləşdi. Diqqəti tarıma çəkildi.

«Vaxtdı!» – Uşaq bağırdı və gəmi virtual-vizual sərhədə burnunu soxan kimi düyməni basdı – «Dəvəni istəyirəm» – bu dəfə pıçıltıyla dedi.

Elə germetik təsəvvür yarandı ki, nəhəng gəmi bu virvizual ekranı parça-parça edib otağa girəcək. Əlini uzatsan, gəmiyə toxuna biləcəksən. Artıq neçənci dəfə uşaq da belə düşündü. Baba özü əvvəllər, təzə-təzə az qala bu tələyə düşmüşdü. Amma başqa cür oldu. Gəminin burnundan onların yanınadək bir yol açıldı. O yolla otağın içinə tərəf yeriyən dəvə göründü.

Dəvə əvvəlcə kiçik idi, sonra böyüməyə başladı. Artıq yolla gəlib virvizual ekrandan otağın içinə girəndən sonra dəvə öz təbii ölçüsünü alıb qurtardı. Uşağın sevinc və təəccübdən matı qurumuşdu. Onun qarşısında onun yaratdığı, onun seçdiyi canlı virvizual bir dəvə var idi.

– Di yaxşı, daha bəsdi, qaytaraq onu gəmiyə. Buraları tamam batırıb duracaq. Hə, balası?! – Baba dedi. – Ay vaxtı da bitmək üzrədi, sən isə hələ heç öz nağılının içinə də girməmisən. Qapadaq bu ekranı. Bu gecəlik bəsdi. – Baba son dövr xüsusi inkişaf etmiş bütün bu texnoturbosillabik yeniliklərə bir qədər şübhə ilə yanaşırdı. – Bax nağıl da artıq səni gözləyir.

– Yox, mən nağıl istəmirəm. Mən bu dəvəni istəyirəm. Bizdə qalsın! – Uşaq, nəhayət ki, arzusunu dilə gətirdi. O yavaş-yavaş deyəsən inada düşürdü.

– Di yaxşı, bəsdi. Babanın sözünə bax! – Ana da mətbəxdən gəlib söhbətə qarışdı. – Nağıla girmək vaxtıdı. Dünən ay vaxtı meşədə haracan getdin?

– Yox, mən nağıl istəmirəm. Nolar, ana, ay ana, dəvəni saxlayaq da, heç olmasa bir gün.

Bu zaman Baba Ananın, Ana da Babanın üzünə baxmışdı. Nə edəsən? Uşağın tərsliyi tutmuşdu. Bu, heç də yaxşı nəticə verməyəcəkdi. Nağıla girməməsi yaxşı yatmaması demək idi, bu isə öz növbəsində Günəş vaxtının zərrəsinə çatmamaq, az qala dünyanın o biri başında yerləşən «Döyüşən öküzlər» məktəbinə geçikmək demək idi.

– Yaxşı, razılaşdıq. Dəvəni həyətə apar. Amma şərtimiz şərtdi. Sabah axşam o, gəmiyə qayıdır. – Ana öz qərarını verdi. «Nə edə bilərik?» – beynindən Babaya sensorlu məlumat göndərdi.

Uşaq sevincək virvizual ekranı daimi energiya rejiminə keçirdi və sonra Babasına tərəf qələbə çalmış on beşinci Günəş əbədiyyətinin dördüncü minilliyinin kiçik qum zabiti kimi baxdı və dəvənin boynundan asılmış əvvəlcədən heç kimin görmədiyi və indi apaydın görünən ipdən tutdu. Onlar – Uşaq və dəvə həyətə çıxdılar.

Xəbər gəlmişdi ki, Şirlər qəfəslərinin ağzının açılması təklifi ilə Çözüm komissiyasına müraciət etmək qərarına gəliblər. «Bir halda ki, razılıq əldə edilmişdir və biz dəvələrə dəyməyəcəyik, o zaman bizi bu dar qəfəslərə yığıb ağzını bağlamaq nə deməkdir?! Məgər bizə inanmırlar? Bu bizə təhqirdir. Biz ki, söz verdik». – Yağış anı üzrə koordinator olan Qoca Şir Çözüm komissiyasının sədrinə belə bir məlumat göndərmişdi.

Qəfəslərin ağzı açıldı. Şirlər qəfəslərdən çıxdılar və dəvələrin arasında sakit-sakit dolaşmağa başladılar. Amma bu sakitliyin öz vahiməsi vardı. Hamı nəyinsə baş verəcəyini gözləyirdi. Nəhayət, Ay axşamı vaxtının nabələdlərə kömək zamanı gəldi… Ay tərəfdən düz heyvanxananın qapısınacan Ay zolağı açıldı. O zolaqla bayaqdan cınqırları çıxmayan və indi, nəhayət ki, asudə nəfəs alan dəvələri Aya yola salmağa başladılar. Bu zaman şirlər anladı ki, onlarla insanlar arasındakı razılığın birinci bəndi yerinə yetirilməyə başladı.

Axırıncı dəvənin görüntüsü Ay zolağında hələ itməmişdi ki, heyvanxananın qarşısında bir sükut yarandı. Amma bu sükut uzun çəkmədi. Qısa bir müddətdən sonra bu sükut qəfildən pozuldu. Ovsunçu gəlməmiş onların qoxusunu havadan alan şirlər məsələni artıq başa düşmüşdülər. «Xəyanət! Xəyanət! Savanna yalanmış. Ovsunçular gəlir. Bizi aldatdılar. Bizi aldatdılar». Şirlər arasında əsl vurnuxma, hay-küy başladı. Amma şirlərin bu hay-küyü daha heç kim üçün qorxulu deyildi. Çünki bu zaman ovsunçular artıq şirlərin başının üstünü almışdılar. Qısa bir zamandan sonra şirlərin biri də ayaq üstə dura bilmədi. Güclərini özünə qaytarmış ovsunçular ovsundan sonra laybalay torpağa sərilən şirləri quş lələyi kimi

qaldırıb qəfəsin içinə atırdılar. Aldadılmış şirlər hər şeyi unutmuşdular. Artıq onların göz qapaqlarından ağır-ağır ekstramaqnit daş parçaları asılmaqda idi. Şirlər yavaş-yavaş ağır yuxuya gedirdilər.

Bir hadisə baş verməsəydi şirlərin aqibəti Şəhər üçün, yəqin ki, uzun müddət həlledilməz qalacaqdı.

Uşaq və arxasınca dəvə – bu, sonradan TV məlumatlarında məhz belə şərh olunurdu – evin həyətinə çıxan zaman dəvə özünü qəribə aparmağa başlayır. O, uşağın rəsmi əmrlərinə tabe olmur, heç nəyə məhəl qoymadan həyətdən birbaşa Damdabacalar küçəsinə çıxır. Virvizual ekran artıq onu idarə edə bilməmişdi. Heç kimin gözləmədiyi halda, sensor yaxın kosmik idarə üsulu tərəfindən komanda olmadan Dəvə inamla küçəbəküçə heyvanxana istiqamətində irəliləyir. Sonrakı şərhə görə dəvə Ay zolağına girən dəvələrin ardınca qaçmağa başlayır. Özünü zolağa salmaq istəyir. Məqsədi virvizuallıqdan çıxmaqmış.

Uşaq dəvənin ardınca düşüb heyvanxanaya qədər gəlir. Zorla dəvəyə çata bilir. Bəzən onu gözüylə izləyir. Heyvanxananın lap yanında artıq məlum olur ki, Ay zolağının üstünə sonuncu dəvə keçir. Virvizual dəvə Ay zolağının önündəcə torpağa pərçimlənib durur. Gözlərindən yaş axmağa başlayır. Zolaq və sonuncu dəvə gözdən itirlər. Bir özəl TV məqbulsuzluq zonasına girib – sonralar bu TV ciddi cəzaya məruz qaldı və ay proqramlarından məhrum oldu – bu barədə belə demişdi: Ay zolağı, elə bil, virvizual dəvədən canını qurtarmaq istəyirdi.

Və bu zaman həmən o hadisə baş verir. Uşaq bunu belə danışır: Mən özümü çatdırıb gördüm ki, dəvənin gözlərindən artıq yaş axır. Bu zaman qəfəslərin içindəki şirlər ovsundan çıxmağa başladılar. Ən qəribə və izahedilməz məqam da elə bu idi. Şirlər ovsundan ayılıb qəfəsdən çıxmağa başlayırlar. Əlbəttə, belə etinasızlığı, yəni, qəfəslərin qapısının nə üçün bağlanmamasını sonralar ovsunçular təhqiqat komissiyasına heç cür izah edə bilmədilər. Və TV-şərh də bunu ovsunçularda çoxdan diqqəti cəlb etməkdə olan özündənarxayınçılıq halı kimi qələmə verdi. Şirlərin ovsundan özbaşına çıxmaqlarını mütəxəssislər Ay zolağından sonrakı elektromaqnit atmosferə kəskin naməlum qıcıqlandırıcı impulsların – bu isə dəvənin sulu

məhlul olan göz yaşından yayılan şüalar idi – daxil edilməsinin nəticəsində baş verdiyini iddia etdilər. Sonralar bu fərziyyənin doğruluğu elmi cəhətdən də sübuta yetdi – naməlum məhlulun dərin termoelektrik təhlili aparıldı və o, ovsundan çıxma üsullarının əsas maddələrindən birinə çevrildi.

Mütəxəssislərə o da qəribə gəlmişdi ki, qəfəsdən çıxan şirlər əvvəl-əvvəl Uşağı və dəvəni əhatəyə almış, bir xeyli ətraflarında var-gəl etmişdilər. Uşaq və dəvə bir-birinə qısılıb qalmışdılar. Şirlərin çoxu «Bizi aldatdılar – intiqam, intiqam!» deyə fınxırırmış. Bu məqamda hadisə yerinə özünü Ana və Baba da yetirmişdilər. Hətta ovsunçular dəstəsi də gəlib çıxmışdı. Amma nə onlar, nə də hadisəyə yığılmış başqa əmniyyət hissələri qəzəbli şir sədlərini keçib Uşağa və dəvəyə yetişə bilmirdilər. Faciənin qarşısı isə gözlənilməz şəkildə öz-özünə alınmışdı.

– Biz bunu etməyəcəyik! – Dal pəncələri üstə çöküb bayaqdan bəri yorğun qıyıq gözlərini düz dəvənin gözü yaşlı üzünə dikmiş Yağış anı üzrə koordinator olan qoca Şir, nəhayət ki, dillənmişdi.

Şirlərin bəzilərinin qəzəbi bir az da artsa da Qoca Şir ikinci dəfə:

– Biz bunu etməyəcəyik! – demişdi. Sonra belə bir əlavə etmişdi:

– Biz gedirik. İnsasanlar bizi aldatdılar. Biz gedirik və bir də yağış kimi insasanların şəhərinə yağmağı mən əbədiyyən şirlərə qadağan edirəm.

Bundan sonra şirlər əmrə tabe, dinməz-söyləməz Uşaqla dəvəyə heç bir fikir vermədən heyvanxananın yanından uzun bir cərgəyə düzülüb Şəhərdən çıxma qapısına doğru yol almışdılar.

*2004-cü il*

# Adaşlar

*X.L.Borxesin xatirəsinə*

Yenə uzun zamandan bəri gördüyü eyni yuxunu doyunca seyr edib həmişəki kimi axşam saat 6-da ayıldı. Elə bil, yuxu ilə sözləşmişdilər. Hər gün saat 2-də – gündüz saat ikidə – gecəymiş kimi soyunub yerinə girər, gözlərini yumar, saat 6-da isə gözlərini açıb yuxudan oyanardı. Eyni yuxu, eyni əhval və bir də yuxudan sonrakı eyni ovqat, ağzındakı eyni dad… Nə üçün belə bir ahəngə tabe olmuşdu – bilmirdi. Günorta yatanlara həmişə qəribə baxmışdı. İndi isə özü hər gün öhdəlik götürmüş adam kimi eyni vaxtda yuxu ilə görüşə tələsirdi.

Yuxu bu idi. Uşaqlıq və yeniyetməlik çağının çox qısa bir vaxtını keçirdiyi evlərində özünü görərdi. Küçəyə çıxan bağlı balkonları vardı, balkonun da düz qabağında ensiz küçənin o biri tərəfində qoşa tut ağacı necə deyərlər, «göylərə baş vururdu». Yuxu dərinləşdikcə tut ağacları eynən o vaxtkı kimi canlanır, yarpaqlar sıxlaşır, budaq budağa calanır və bu budaqlar öz yaşıl əlləri ilə özlərini balkonun açıq pəncərəsindən içəri

dürtürdü. Balkondakı əşyalar rəng almağa başlayırdı. Bu onun kiçik yazı masası, bu kətil, bu məktəb çantası, bir-iki kitab, dəftərlər…

Anası mətbəxdə olardı. Bu yuxunun özəlliyi ondaydı ki, o bu yuxunun içində öz indiki halını heç cür unutmurdu. Yuxuda adətən hər şeyi unudursan, o isə yox, kim olduğu, hansı yaşın içində olduğu, hansı maraq və ehtirasların sahibi olduğu bir an belə yadından çıxmırdı. Həm o vaxtkı uşaq idi, həm də bu günki ortayaşlı, həyatını artıq yaxşı-pis qurmuş qələm əhli, ədəbiyyat adamı…

Yuxunun dərin və mürəkkəb bir quruluşu yox idi. Çox sadə və sadə olduğu qədər də cazibədar idi. Onun üçün doğma idi. Əllərini yazı masasına sürtər, hətta bəzən cəhd edib adını da tozlu masa üstündə yazardı. Kitabları bir-bir götürüb sığallayar, məhəbbətlə tut ağacının budaqlarını, yarpaqlarını tumarlayardı. Belə etdiyi zaman o bilirdi ki, yuxunu görmək üçün eyni vaxtda yerinə girən ortayaşlı həmən o adamdır. Və birdən başlardı bu balkonda atılıb-düşməyə. Bu zaman isə ortayaşlı kişi itər, o uşaq, böyük bir coşqu və həvəslə, anası deyən tərzdə, şuluq eləməyə başlardı.

– A bala, bəsdi şuluq elədin. Sakit ol. Özünə yazığın gəlmir, bizə yazığın gəlsin.

Anasının, guya ki, zəhmli səsi mətbəxdən, əslində isə uzaqdakı illərin o tayından zəifləyə-zəifləyə amma hələ gəldikcə o daha böyük şövqlə ayaqlarına güc verərdi, balkondakı səs-küy ən yüksək həddinə çatanda isə anası durub məcbur olardı mətbəxdən balkona gələrdi, üz-gözünə son dərəcə ciddi bir ifadə verib, qorxulu-qorxulu pıçıldardı. Və yuxunun kulminasiyası da bu pıçıltının mahiyyətində idi. Pıçıltı bu idi:

– Bəsdi, a bala, bu qədər atdanıb-düşmə daha. Balkon uçar. Sən istəyirsən ki, balkon uçsun?!

Bax bu sonuncu sözlər idi onu hər gün günortanın oğlan çağı yuxu ilə görüşə aparmağa məcbur edən qüvvə. «Balkon uçar».

Yuxu olanda nə olar?! Möcüzə onda idi ki, anasının bu sözlərindən sonra balkon həqiqətən tut ağaclarının onu buraxmaq istəməyən budaqlarından silkinib, o boyda binadan ayrılar (ev ikinci mərtəbədə idi),

vertolyot kimi dimdik göyə ucalar və burnunu dəniz tərəfə tutub uçmağa başladı, o da balkonun içində. Anası evin bir balkon boyda açıq qalmış ağzında durub onun ardınca baxa-baxa yenə deyinərdi: bəsdi, a gədə, əl çək bu həngamələrindən, hara gedirsən?.. Sən uçmağı hardan öyrəndin?!

Hər dəfə axşam saat 6-ya qədər, yəni, yuxudan ayılana qədər uçduqca ləzzətlə uçardı. Saat 6-da isə yuxudan ayılmaq vaxtı gəlirdi və o gözlərini açan kimi haman eyni ovqat, o həmişəki məhrəm duyğular, narahat fikirlər yenə beyninə hakim kəsilirdi. Bu fikirlərin canı belə idi ki, bizim yaşadığımız və tanıdığımız dünya öz mövcudluğunda tək deyil. Onunla bərabər ona qismən bənzər digər dünyalar da sonsuz fəzada mövcuddurlar. Hətta bizim hər birimiz o biri paralel dünyalarda tamam başqa-başqa tərzlərdə öz yaşamağımızı davam etdiririk. O xatırlayırdı ki, nə zamansa həkim olmağı arzulamışdı. Necə oldu ki, sonralar gedib filoloq oldu – bunu artıq xatırlamır. Yəqin, indi o biri dünyaların birində həkimdir. Həkim olmağı niyyət etməsi isə – bu yaxşı yadındadı – qonşularında yaşıdı vardı, adı Nizami idi, onun ölümündən sonra olmuşdu…

Nizami ilə bir həyətdə qonşu idilər. Həyətin böyründəki ayrıca pilləkən birbaşa onların mənzilinə aparırdı, Nizamigil isə həyətdən keçib ümumi pilləkənlə yuxarı, ikinci mərtəbədəki evlərinə qalxırdılar. Balaca həyət günün çox balaca hissəsi – bu, adətən, günortaya qədər bir, ya iki saat çəkərdi – ancaq onlara məxsus olardı. Qonşular kimi işdə, kimi bazar-dükanda… Bəzən bu həyət də onlara darlıq edərdi. Nizami onu küçəyə alışdırdı. Nizami daha çox sərbəst idi, müstəqil idi və ən vacibi, nəzarətsiz idi.

O isə… Bir tərəfdən anasının yuxarıdan daim onu axtaran narahat baxışları, digər tərəfdən axşam işdən geri dönən zəhmli atasına «satılmaq» qorxusu. Nizami bu qorxulardan azad idi. Başının üstünü qılınc kimi alan hərəkətlər, gediş-gəlişinə sərhəd qoyanlar yoxdu.

Hələ heç məktəbə də getmirdilər. Nizamiyə atası qırmızı-göy rəngdə iki çarxlı velosiped almışdı. Bu o zaman üçün əsl «Mersedes» idi. Əlbəttə ki, onlar həyətdə bu velosipedi dəqiqədə bir silib-silib üfürür, zınqrovunu çala-çala «yüyən»indən tutub dövrələmə – ortadakı yekə su krantının

ətrafında gəzdirirdilər. Əlbəttə ki, bunlar Nizami üçün çox az idi. Axırda günlərin bir günü velosiped onları küçəyə çıxartdı.

Küçə geniş bir dünya idi. Ucu-bucağı yox idi. Hətta hərdən – bu gün bu nə qədər qəribə görünsə də – bir-iki maşın da gəlib keçirdi evlərinin qabağından. Adamlar sağa gedirdilər, sola gedirdilər, danışıq səsləri, deyişmələr, gülüşlərin içindən doğma, əziz bir səs də gündə bir dəfə sıyrılıb ucalırdı, miss kimi zil bir səs: «Marooojnı!» Dondurmasatan məhlədən beləcə özünün əsl zəfər yürüşünü bu səsin müşayiəti ilə içindəki buz parçalarının üstünə, altına necə gəldi yığışmış meyvəli, qəhvəli, südlü dondurmalarla dolu təkərli dondurma arabasını itələyə-itələyə keçib gedərdi.

Yaddaşında daşlaşıb qalmış daha bir şey var idi. İsti yay günlərində qol-budaqlı, yaşıl yarpaqlı qoşa tut ağacının yarpaqları arasından küçəyə süzülən gün işığı. Göy üzündən keçib gedən günəş, elə bil, bu bir neçə işıq parçasını salıb itirib, yaddan çıxarıb gedirdi. Çünki günəş evlərinin başı üstündən çəkiləndə belə bu işıq parçaları hələ bir müddət yaşıl yarpaqların arasından öz süzülməklərində davam edirdilər.

Vəssəlam. Yuxu ilə görüş onu bu uzaq illərə aparırdı. Hə, bir məqam yaddan çıxdı. Küçəyə çıxdıqları o ilk gün Nizami elə birdən, nə mənə, nə sənə, velosipedinə minib bərk-bərk və tez-tez pedalları tərpədə-tərpədə, sağa, sola yırğalana-yırğalana odu hey gedib haralara çıxdı, gözdən itdi, bilinmədi, amma bir müddət sonra yenə göründü; bu dəfə velosiped daha tarazlı hərəkət edirdi. Gəlib düz onun yanında qəfildən saxladı velosipedi:

– Otur! – dedi. – İndi də sən sür.

– Yox. – O dedi. – Mən bacarmaram.

– Otur. – Nizami qətiyyətlə təkrar elədi.

Zorla onu velosipedə mindirib hər iki əli ilə tarazlığını saxlamağa kömək edə-edə ( o isə yavaş-yavaş uzaqlaşırdı):

– İrəli, ancaq irəli bax, ayaqlarının altına baxma. İrəli…

Nizaminin səsi artıq çox arxada idi…

O gün yenə də adəti üzrə axşam saat 6-da gözlərini açdı. Bir an olur, adam bilmir ki, indicə ayrıldığın, uzaqlaşdığın yuxunun hələ içindəsən,

yoxsa yox. Yavaş-yavaş özünə gəlirsən. Bax, belə bir an qəflətən o biri otaqdan bir tanış səs gəldi. Ruhu qədər tanış və doğma bir səs. O biri otaqda heç kim olmamalı idi. Amma o and içə bilərdi ki, bu səsi aydın şəkildə eşitdi. Anasının səsi idi:

– Kamal, bala, necəsən?

Bu yəqin ki, bir təkan oldu. Həmən axşam köhnə məhləyə, vaxtilə yaşadıqları evin yanına getməyi qərara aldı. Düzdü, oradan köçəndən sonra yenə nə isə onu oradan özünə tərəf ahənrubə kimi çəkirdi. Amma heç zaman bu axşamkı kimi dözülməz olmamışdı.

Aşağıdan burulub üzüyuxarı qalxdı. Köhnə evlərinin yanına çatanda artıq qaranlıq düşmüşdü. Bütün yolu günəş işığının çəkildiyi, qaranlığın isə hələ tam düşmədiyi bir vaxtda gəlmişdi. Evin qabağı, elə küçənin özü də ( o biri tində, mağaza olan yerdə bir balaca işıq vardı, o işığı nəzərə almasaq) qaranlıq içində idi. O bu qaranlıqda iki şeyi ancaq seçə bildi. Tut ağaclarının ikisi də yox olmuşdu, onları kökündən mişarlamışdılar. Bir də ikinci mərtəbədəki balkonları artıq bağlı şüşəbənd deyildi, açıq balkon idi.

Uzaqdan o adamı görəndə ona elə gəldi ki, bir-birlərini tanıyırlar. Doğma nə isə var idi – duruşunda, bəlkə geyimində. Hər halda ona oxşayışı şübhə doğurmadı. Bir müddət uzaqdan-uzağa bir-birilərini seyr etdilər. Sonra ikisi də eyni vaxtda bir-birinə tərəf gəlməyə başladı. Qoşa tut ağacının mişarlanmış gövdələrinin arasında üzbəüz durdular. Birdən yuxarıdakı mərtəbələrin hansı otağındansa işıq gəldi. Hər ikisi gözlərinə, üzlərinə düşən bu qəfil işıq topasından başlarını qaçırdıb yana çəkildilər. Qaranlıq olsa da artıq üz-gözləri, saçları, burun-qulaqları bir az daha aydın görünməyə başladı. Oxşarlığın dərəcəsi hər ikisinə əyan oldu.

– Kibritin olar? – İkinci adam zənlə baxıb birinci adamdan soruşdu. Səsinə bilərəkdən bir az laübalilik qatdı.

O, əlini cibinə salıb alışqan çıxardı, ona uzatdı.

O, siqareti yandırmağa tələsmədi. Pencəyinin cibindən bir siqaret qutusu çıxarıb içindən birini götürdü, sonra qutunu ona sarı tutdu:

– Çəkirsən?

Könlü istəmirdi, ancaq bir siqaret də o götürdü. Qutunu eşələyəndə üstündəki adı oxuyub duruxdu, amma üstünü vurmadı. Siqaretin adı «Şipka» idi. Bolqar siqareti. Gənclik illərinin unudulmaz dadlarından biri.

– İndi bu siqareti tapmaq olmur.

Alışqanın işığı bir anlıq hər ikisinin üzünü yenə də bu qaranlığın içindən çəkib çıxardı. Siqaret yandırmaqla məşğul olsalar da, əslində, bu ani işıqda bir-birinin sifətini daha aydınca görmək istədiklərindən altdan-altdan, tələsik bir-birinin üzünə diqqət etdilər.

Odun işığı söndü. Siqaretlərini yandıra bilmişdilər. Bir müddət ikisi də susub ciddi-cəhdlə ciyərlərini siqaret tüstüsü ilə doldurmaqla məşğul oldu.

– Biz tərəflərdə xeyir ola? – O, nəhayət, soruşdu. Yaxın adamdan soruşan kimi soruşdu.

– Heç, elə-belə. Yol gedirdim…

Onun tüstü ilə dolu ağzından tüstünün öz üstünə bulud kimi alıb gətirdiyi qəribə bir səs çıxdı. Təxminən «belə de…» mənasına uyğun gələrdi.

– Mən elə bildim, adam axtarırsan.

– Belə də… Buralarda bir tanış olurdu.

– Sən elə özün də tanış gəlirsən mənə. Adın nədi?

– Elə sən də… Mənim adım?

– Əlbəttə. Burda bizdən başqa adam var?

– Mənim adım… Kamal.

– Doğrudan? Adaşıq ki. Mən də Kamalam. Bizim məhlədə yaşayır axtardığın adam?

– Yox, heç kimi axtarmıram. Elə-belə tanış idi. Sən özün… buralarda yaşayırsan?

Cavab onu diksindirdi.

– O balkon mənimdi.

Əlini uzadıb qarşı tərəfdə ikinci mərtəbədəki tanış, amma açıq balkonu göstərdi.

Siqaretin var gücü ilə ciyərinə çəkdiyi tüstüsü onu boğdu, öskürdü.

– Çoxdan çəkmirsən, deyəsən? – Yeni tanışı soruşdu.

– Çoxdan, çoxdan… – o cavab verdi.

Diqqətlə bir-birini süzdülər. Heç bilmədi ki, necə oldu belə bir təklif etdi:

– Mən üzü aşağı gedəcəkdim. İstəsən gedək mənimlə. Azdrama tərəfə.

– Gedək. – O tez razı oldu. Düşündü ki, bu yerdən uzaqlaşmaq lazımdı. Bu açıq balkonun üzbəüzündə daha dayana bilməyəcəyini anladı.

Mirzə Fətəli küçəsi ilə geri dönüb bir xeyli getdilər, Mirzağa Əliyev küçəsinə çatanda sola, üzü aşağı döndülər.

– Aşağıda, Çadrovıda (Mirzəağa Əliyev küçəsində) əntiqə pivnoy var. Mən elə ora gedirdim. Pivələyək?

– Getdik.

Üzüaşağı gəlib Azdramanı sol tərəfdə buraxdılar və elə tindəcə neçə-neçə illər bundan öncəki məşhur pivəxanaya çatdılar. O nədənsə əmin idi ki, bu pivəxana artıq çoxdan sökülüb gedib, yerində isə poçtxana tikiblər.

– Şəhərdə yeganə yerdi ki, qışda pivəni çaynikdə isidib verirlər. İçmisən?

Əlbəttə, içmişdi. Amma o zamanlar.

– İçmişəm, – dedi.

Həmən pivəxana idi ki, vardı. Piştaxta, stollar – hamısı öz yerində, balıq da hamankı şor balıq, bişmiş noxud da az qala hamankı idi.

– Mən əvvəl elə bildim… qızbazlığa gəlmisən bizim məhləyə. – O gülümsədi. Təbəssüm yaraşırdı ona.

– Yox.

– Nolar?! Olanda olur. Sən… şey eləmə. Nolar ki.

– Yol keçirdim…

– Əccəb eləyirdin.

– Dedim, görüm səni hardan tanıyıram. – Onun da üzünə xoş bir təbəssüm qondu. Ürəyində «deyəsən, mənə inanmır» düşündü.

– Yadına düşdü?

– Yox. Bəs sənin?

– Mənim də yadıma düşmədi.

Pivədən qurtum-qurtum içdikcə canlarına rahatlıq qarışıq bir yumşaqlığın keçməsini hiss etdilər. Amma balıq bir az artıq duzlu idi.

– Duzu çoxdu, – o təsdiq elədi.

– Sən hardasan? Yəni… harda işləyirsən?

– Mən?

– Burda bizdən başqa adam var? – O bayaq məhlədə, balkonun altında aldığı zərbəni qaytardı. Amma şuxluqla qaytardı. Ətrafa boylandı. O biri masada iki-bir, üç-bir əyləşənləri guya baxdı, görmədi.

– Mən özüm yazı-pozu adamıyam. Elmdi, ədəbiyyatdı… Belə də…

– Aaaaa… – O əlində çəkdiyi siqareti söndürdü, ciddiləşdi. «Şipka» artıq pivə stəkanlarının, noxud, balıq qablarının arasında əzişmiş bir halda sürətlə arıqlamaqda idi. Qutudan özü kimi əzik bir siqaret çıxartdı. Barmaqlarının arasında ova-ova:

– Mən də nə zamansa istəmişdim yazı-pozu adamı olum, inanırsan?! Şeir-zad da yazırdım bir ara. Məktəbdə! Sonra isə…

Sonrasını ona elə gəldi ki, o bilir.

– … sonra isə həkim olmaq qərarına gəldim. – Sözünü fikirli-fikirli bitirdi.

O bilmədi ki, bu sözləri ilk dəfə gördüyü bu adama nə üçün danışır. «Yazı-pozu» sözü onu tərpətmişdi.

O isə «həkim» sözündən tutuldu. Özünün yeniyetməlik arzusu yenə yadına düşdü. Nizamini xatırladı. Xəstəxana palatasında ölümcül bıçaq yarasından tabsız-tavansız uzanıb ağır-ağır can verən ilk uşaqlıq dostu Nizamini. Haman gün idi. O, qərara gəldi ki, hökmən həkim olacaq.

– Ədəbiyyat deyirsən. Bu pivnoya vaxtilə bilirsən kimlər gəlib? – Onun gözləri məhəbbətlə işıqlandı. – Əlağa Vahid… Sənin özünün kitabınzadın var?

Onunla danışmaq xüsusi bir ləzzət idi. Bilmirdi niyə, amma bu belə idi. Unudulmuş bir dad ağıza, dodağa, dilə necə qayıdırsa bu görüş də onun üçün həmən dad idi. Amma – onunla ədəbiyyat barədə heç danışmaq istəmirdi. Nə olur-olsun, təki ədəbiyyatdan danışmayaq. Ordan-burdan danışaq, uşaqlıqdan, qocalıqdan, məhlədən, şəhərdən, qızlardan… Tək bir

ədəbiyyatdan başqa nədən istərsə. Özü də ona görə yox ki, məhz bu yeni tanışı, adaşı ilə ədəbiyyatdan danışmağı ona müsibəti-Kərbəla kimi gəlirdi. Yox, yox, bir də yox. Ümumən, ədəbiyyat barədə danışmaq onun üçün həmişə məşəqqət idi və məşəqqətdən başqa bir şey deyildi.

Birinci sualı çoxmənalı bir tərzdə cavabsız buraxdı. Elə bildi ki, məsələ həll olundu. Ancaq növbəti sual onu az qala əsəbiləşdirdi:

– Ən çox sevdiyin yazıçı kimdi?

Heç bilmədi ki, nə üçün düzgün, səmimi cavab verdi. Yəqin, əsəbiləşdiyi üçün belə oldu. Ona elə gəldi ki, tanınmaz və əlçatmaz bir yüksəkliyin soyuq hənirtisi adaşının ədəbiyyat təşnəsini söndürər:

– Borxes! – cavab verdi və bununla ədəbiyyat söhbətini xətm eləmək istədi.

Bax, elə bu an onu əməlli-başlı çaşdıran haman məqam baş verdi. Təəccübdən ağzı açıq qaldı. Heç gözləmədiyi halda adaşı qımışıb:

– Argentinalı Borxes… Xorxe Luis Borxes! – dedi.

Bunu o heç gözləmirdi. Əlağa Vahiddən bir sıçrayışda gəlib Borxesin yanında durasan. Adaşının üzünə baxdı. Özün də qımışa-qımışa. Həm qəribə idi, həm ağlasığmaz. Niyəsə birdən ona qarşısıalınmaz bir həvəs gəldi. Eləcənə ədəbiyyatdan danışmaq istəyi beyninə, canına hakim kəsildi. Özü də məhz onunla danışmaq istədi.

«Deyəsən mənim Borxesi tanımağım onu heyrətə saldı». – O düşündü.

– Argentinalı Borxes… – O da təkrar elədi. Təəccübü hələ tam keçməmişdi.

– Niyə məhz Borxes? – Adaşı sual dolu gözlərini onun üzünə dikdi.

– Yaxşı sualdı. Bilirsən, mənə elə gəlir ki, Borxes heç kimə bənzəmir. O birilər bir-birinə bənzəyirlər. Borxes isə yox. O birilər bir-birinə ona görə bənzəmirlər ki, onlar oxşar süjetlər yazırlar…

Nəfəsini dərdi, pivədən iki-üç qurtum az qala həsrətlə içdi, bir siqaret yandırmaq istədi, amma fikrindən daşındı. Onun maraq dolu üzünə baxıb sözünə əvvəlki həvəslə davam etdi:

–… hə…, ona görə bənzəmirlər ki, oxşar süjetlər yazırlar. O birilər ona görə bir-birinə bənzəyirlər ki, ümumiyyətlə süjet yazırlar.

Yenə siqaret paçkasını ələşdirdi. Paçkadakı son siqareti götürüb yenidən yerinə qaytarmaq istədi:

– Bu isə mənim üçün maraqsızdır. «Şipka» qaldı?

– Eybi yox, sən çək, buradan almaq olar. Alarıq.

Siqareti yandırdı. Dərin bir qullab vurdu. Artıq ona çox şey yavaş-yavaş əyan olmağa başlayırdı. Amma sual verməyə qorxurdu. Belə bir haldan qorxurdu ki, verəcəyi sualın cavabını o özü çoxdan bilir. Düşündü: «gəlsənə belə bir təcrübə edim?! Görək düz tapmışam, ya yox?...»

– Sənin nə zaman həkimlik beyninə düşdü, yadındadı?

Və cavabı gözləmədən:

– Mərc gəlləm ki, bu, xəstəxanada olub, – dedi və pivə bokalını sağlığa qaldıran kimi qaldırıb təntənə ilə onun üzünə baxdı.

Yediyi noxud az qaldı onun boğazında qalsın, düşündü: «Hardan bilir?» Sonra ürəyi yerinə gəldi. Düşündü ki, «Həkimlik adamın yadına harda düşər, xəstəxanada düşər də…»

– Hardan bildin? – Ani sükutdan sonra soruşdu.

– Xəstəxanada… Nizaminin ölümündən sonra.

– Sən… Nizamini tanıyırdın? – O artıq çaşqın deyildi, sonsuz marağını isə gizlətmək belə istəmirdi.

– Tanıyırdım. Sakit ol. Sakit ol, qulaq as. Qulaq as. Mən…

Amma sözünün davamını gətirmədi. «Nəyə lazımdı?» təəssüflə düşündü. Elə bil, heydən düşdü. Uçan balkon və o balkonun içində özü gəldi durdu gözlərinin düz qabağında. Susdu.

– Düz deyirsən, Nizami ölən gün idi, mən bu fikrə gəldim. Həkim olmaq ən böyük arzum idi. Üç dəfə Tibb Universitetinə qəbula getdim, kəsildim. Başqa heç yer gözümdə deyildi. Niyə – bilmədim. Arzum ürəyimdə qaldı, anam özünə dərd elədi…

O, Nizaminin gözlərini xatırladı. Xəzər dənizinin suları kimi masmavi gözlərini.

Gözləri açıq qalmışdı. O isə heç cür anlaya bilmirdi ki, Nizaminin ata-anası, bacıları nə üçün birdən zar-zar ağlaşmağa başladılar. «O ki hələ ölməyib, hələ ölməyib. Gözləri axı hələ açıqdı». Beynindən ancaq bunlar keçirdi. Nəhayət, həkimlərdən biri əlini sürtüb Nizaminin gözlərini qapadı. Bu mavi gözlər son dəfə ona baxdı, lap uşaqlıqda velosiped sürdükləri vaxtdakı kimi «irəli, ancaq irəli bax» son dəfə səssiz-səmirsiz bu sözləri pıçıldadı və çox asanlıqla yumuldu.

– Mən də vaxt vardı, həkim olmaq istəyirdim. Amma heç vaxt bu barədə ciddi düşünmədim. İmtahan verməyə də getmədim.

– Mən isə getdim. – O hansısa məchul bir nöqtəyə gözünü dikərək fikirli – fikirli dilləndi. – Bəlkə də elə buna görə həyatım alınmadı. Bilirsən, – o dikəldi, – mən tez-tez bir yuxu görürəm…

Onun damarlarında az qala qanı dondu.

– … balkonumuzu görürəm. Tut ağaclarını, Nizamini, Nizaminin qırmızı-sarı velosipedini… Balaca uşaq idim. Balkonda sakit durmazdım, elə hey atdanıb düşərdim. Anam da hər dəfə deyərdi: a gədə, balkon uçdu, sakit ol. Bundan sonra yuxumda hər dəfə görürəm ki, balkon, həqiqətən, mənim təpik səslərimdən uçub küçəyə dağılır, anam hövlnak küçəyə qaçır, məni taxta-tuxtanın, dəmir parçalarının arasından həyəcan içində rəngi qaçmış halda çıxarmağa çalışır. «Kamal, bala, necəsən?» deyir. Səsi qulağımdan heç getmir.

– Qəribə yuxudu, – dedi və düşündü, – «tez buradan getmək lazımdır. Bura mənim yerim deyil».

O hiss elədi ki, adaşı yorğunlaşıb. Elə özü də artıq qəribə bir halda idi. Xəstəxana söhbəti iləmi, yoxsa pivə iləmi gələn qurtum-qurtum, cümlə-cümlə gərginlik çıxıb canından hələ də getməmişdi, niyə, nə üçün – bu suallara cavabı yox idi.

– Gedək? – O soruşdu.

– Gedək: – O cavab verdi.

Pivəxanadan çıxdılar. Məhzun bir yaz gecəsi idi. Şəhərdə havalar yavaş-yavaş istiləşməyə başlayır, adamlar ağır geyimlərini soyunurdu. Soyuq olmağına artıq soyuq deyildi, amma ağacların bəzisi yüngülvari istiyə

aldanıb tumurcuq açmağa hazırlaşırdı. Səni səndən yaxşı tanıyan adama necə nifrət edərsənsə onlar da eynən o cür, ürəklərində bir-birinə nifrət, bir-birinin üzünə belə baxmaq istəmirdilər. Sağollaşmadan getməyi ikisi də beynindən eyni zamanda keçirdi. «Belə yaxşıdı». «Əlbəttə, belə yaxşıdı. Görəsən kim kimin yuxusudu?»

Qəfildən… «Ah, unutdum» – deyə beynindən sürətlə bu fikir keçdi:

– Unutdum. Alışqanı unutdum. İndi gəlirəm… – deyərək o, pivəxanaya qayıtdı.

Nədənsə o da onun arxasınca getdi. İkisi də qayıdıb yenidən pivəxanaya girdilər.

… Pivəxanadan çıxdılar. Məhzun bir payız gecəsi idi. Havalar üzü soyuğa doğru gedirdi, adamlar da başlamışdılar yavaş-yavaş plaş-paltoya keçirdilər. Ağaclar kədərlə yarpaq və çiçəklərinə nəzər yetirir, yaxındakı şaxtalardan qoruna bilməyəcəklərini özlərinə dərd edirdilər. Səni səndən yaxşı tanıyan adamı necə sevərsənsə, onlar da ürəklərində coşqun və anlaşılmaz məhəbbət bir-birinin üzünə diqqət və qayğıyla baxdılar.

– Gedək bizə. Vallah düz deyirəm. Bizim ev yaxındadı.

– Yox, sağ ol. Gecdi. Çox xoş bir gecə oldu. Sağ ol. Özündən muğayat ol.

– Elə sən də özündən muğayat ol.

Yenə də həmən diqqət və məhəbbətlə bir-birinə baxdılar. Sonra möhkəm-möhkəm əl sıxıb ayrıldılar, hər biri dönüb öz yolu ilə çıxıb getdi.

*2008-ci il*

# Parisin seçimi

*Əli Sultanlının xatirəsinə*

O zaman ki, küt bir külüng kimi torpaqdan dikəlib ətrafdan fərqlənmək istəyən bu dağdan üzü aşağı uzandıqca dənizdən dənizə qədər uzanan bu düzənliyə baxırdın, hər şey, hər bir hərəkət adi sürətini artırmış kimi görünürdü. Buludlar da sürətlə qaçırdı, otlar, ağaclar da sürətlə boy atırdı, adamlar da sürətlə hərəkət edirdilər, şəhərlər, kəndlər daha tez tikilir, böyüyür, məhv olurdular. Amma o zaman ki, aşağıdan yuxarıya külüng kimi havanı ikiyə bölən bu dağa tərəf başını qaldırıb nəzər salırdın, o zaman adama elə gəlirdi ki, hər şey – göy üzündəki buludlar, dağın ətrafında fırlanan günəş, ay, ulduzlar qəribə bir tənbəllik içində, son dərəcə sakit və laübali bir durğunluqdadırlar.

…Hər şey dünənki kimi ola bilərdi, bu dəfə olmadı. Zevs sabah-sabah ağlına nə gəldisə yenə şıltaqlıq etdi, gurultuyla şimşəkləri Olimp dağından Elladanın başı üzərində sağa-sola fırlatdı. Ona baxıb Poseydon da dənizin dərinliyindən suyun üzünə çıxdı, baş qaldırıb şıltaq dalğaların üzərinə zərif-zərif toxunan sakit mehi üfürüb-üfürüb yoxdan və heçdən möhtəşəm bir fırtına yaratdı. Bircə anın içində az qala göy yerə, yer göyə qarışdı. Göy

üzündə qara buludlar ağ buludları qabaqlarına qatıb qovduqca qovdular. Göylə yerin arasında qapqara yağışlar sudan uca hasar yaratdılar.

«Bəs mənə nə gəlib, Zevsin səsinə səs vermək lazımdı.» düşünən Borey çayları, bulaqları yerindən oynatdı, şahə qaldırdı. Onun əmriylə küləklər qalın meşə ağaclarını bir-birilə öpüşdürdü. Dağdan aşağıda isə adamlar qorxudan az qala evlərinin içində döşəməyə çevrilib bərkimiş torpağı bir az da dərinə qazıb gizlənmək istədilər. Kahinlər tələsik Zevsə və Poseydona qurbanlar kəsib nəzirlər verməyə başladılar. Bilmək olmazdı, Şimşəkoynadanın şıltaqlığı hələ nə qədər sürəcək. Əslində, onun bugünkü hərəkətinin bir səbəbi, mənası yox idi, aşağıdakılardan bir kimsə onu qəzəbləndirəcək heç bir əməlin sahibi olmamışdı. Şıltaqlıq olmağına əməlli-başlı şıltaqlıq idi. Zevs barmaqlarının ucundan Olimpdən üzü aşağı nişan alıb tuşladığı şimşəklərin qulaq deşən ağır səsindən tezcə də özü yoruldu, aşağıdakıların təlaşını göz önünə gətirib dodaqaltı qımışdı, «bu günlük bəsləridi, qoy unutmasınlar ki, mən istəsəm, onların başına nələr gələ bilər» – düşündü.

Hamıdan əvvəl Hera əl-ayağa düşdü:

– Bu nə həngamədi?! Heç düşünürsən? Axı hər şeyin bir vaxtı-vədəsi var. Unutdunmu, bu gün toy gecəsidi.

– Toy gecəsi???

– Peleyi, Fetidanı unutdunmu?

Əslində, unutmuşdu. İndi, sadəcə, bunu boynuna almaq istəmirdi. Poseydon peyda oldu. O, deyəsən, Zevsin bu səhərki şıltaq oyununun beləcənə tez bitməsindən narazı idi. Heranı görüb başa düşdü ki, onun bu işdə barmağı var. «Yenə bu qadınlar…» deyə ürəyində Heranı yamanlasa da bir söz demədi. Zevs ona bic-bic göz vurdu:

– Bu gecə toy imiş. Sən isə…

– Mən isə?..

– Əlbəttə, sən! Bu nə oyundu?! Bütün Elladanı qatdın bir-birinə… – Şimşəkoynadan yarızarafat, yarıciddi bir halda bu səhərki həngamədə Poseydonu günahlandırmağa çalışdı.

– Nə deyirəm, mən deyirsən, qoy mən olum. – Poseydon öz hökmdar qardaşının bu növbəti şıltaqlığını da səmimi bir könül xoşluğu ilə qəbul elədi.

– Yaxşı ki, gəldin. – Kefi kökələn Zevs Poseydonu Heraya tərəf itələdi. – Qulaq as və eşit! Bu toyda mən deyirəm, hamı iştirak etməlidi, Hera isə etiraz edir, yox deyir, onu dəvət etməyək. Sən nə deyirsən?

– Kimi? Kimdən söz edirsiniz? – Poseydon əlindəki üçbuynuz nizəsini ehtiyatla bir kənara qoyub maraqla soruşdu.

– Erida! Eridanı deyir! – Hera gözlərini Zevsdən çəkməyərək Poseydona cavab verdi.

– Bax, gördün, deyir ki, guya o, toya gəlsə nifaq salar. Səncə cəsarət edər? – Zevs bütün möhtəşəm görkəmi, əzəməti ilə Poseydona tərəf çevrildi. Onun bütün bədəni, bütün daxili, bütün əzələləri tarıma çəkilmişdi. Damarları nəhəng çaylar kimi idi, sümükləri dağlara, təpələrə, dərisi isə taxıltelli sarı zəmilərə bənzəyirdi. Zevs nəhayətsiz qüvvə və sonu olmayan energiya toplusundan ibarət idi. Poseydon hiss elədi ki, damarlarında qanı donmağa başlayır. Dənizlərə hökm eləmək şimşəklərə hökm eləməkdən qat-qat asan imiş.

– Cəsarət eləməz. Heç vaxt! – Əvvəl-əvvəl Poseydon səmimi – qəlbdən nifaq ilahəsi Eridanı müdafiə etmək istədi.

– Edər! – Hera məftun gözlərini əzəmətli Zevsdən heç cür çəkə bilmirdi, amma öz qəti cavabını yenə də kənara – Poseydona tərəf ünvanladı.

– Belə isə, Hera həqiqəti söyləyir, qoy Erida bu toyda iştirak etməsin! – Poseydon tezcə və asanlıqla Heraya güzəştə getdi.

– Eh, sən də qadın sözünə uydun… – Zevs Poseydonun Heraya bu cür «yan getməsindən», əslində, məmnunluq duydu, amma büruzə vermək istəmədi.

– Yaxşı. O zaman qoy siz deyən kimi olsun. – Zevs Hera deyənə özünün yox, qardaşı Poseydonun tərəf çıxmasından razı qalaraq son qərarını verdi.

– Yaxşı. Mənim qərarım belədir: qoy Erida bu toyda iştirak etməsin!

Sonra Zevs Heraya baxdı:

– Sən deyən oldu, razı qaldın?

Heranın gözləri güldü.

Allahlar qərara aldılar ki, Peley ilə Fetidanın toy məclisi kentavr Xironun böyük mağarasında qurulsun. «Böyük məmnuniyyətlə razılıq verirəm» deyən Xiron mağaranı sahman-səliqəyə salmaq üçün neçə gün, neçə gecə əlləşdi, çalışdı. Allahlar ziyafətə gələn zaman mağarada, hər künc, hər bucaq az qala işıq saçırdı. Zevs ətrafa gözucu nəzər saldı, məmnun qaldı. Yuxarı başa keçib əyləşdi. Hera onun sağ tərəfində, Poseydon isə sol tərəfində oturdular. Sonra Heranın yanında Afina, Poseydonun yanında isə Afrodita özlərinə yer elədi. Apollon, Ares, Hefest, Hermes və başqa Allahlar və ilahələr hay-küylə özlərinə yer seçməyə başladılar. Nəhayət, bütün Allahlar böyük və təmtəraqlı ziyafət masasının ətrafında əyləşmiş oldu. Masanın aşağı küncündəki yerlər Peley və Fetida üçün idi. Allahlar toplaşdıqdan sonra onlar da öz yerlərini tutdular. Toy məclisi başlandı.

Ziyafət çox nəşəli keçirdi. Allahların, xüsusilə də, Zevsin qəhqəhəsindən az qala qulaq tutulurdu. Hər kəs ən maraqlı saydığı əhvalatı xüsusi bir məzə ilə Zevs üçün danışırdı. Çox zaman bu əhvalat yer üzündə yaşayan adi adamların – bəni-insanların axmaq və sadəlövh hərəkətləri ilə bağlı olurdu. Bəzən də allahların öz aralarındakı anlaşılmazlıqlar həm Zevsi, həm Poseydonu, elə Heranın özünü və Afroditanı əyləndirirdi.

Get-gedə ağız deyəni qulaq başladı eşitməməyə. Onu demək vacibdir ki, hadisə və əhvalatlar da təkrar olmağa başladı. Bütün bunlar o demək idi ki, toy məclisi artıq öz adi, təbii məcrasına düşmüşdür. Bu gecə Allahlar həm özləri özlərindən, həm də baş Allah Zevsdən xeyli razı idilər. Bir-birilərilə mübahisə və münaqişə etmədən keçən məclislər Olimpin ölməz sakinləri arasında çox da tez-tez baş vermirdi. Və elə bütün gözəgörünməz və ucsuz-bucaqsız Sonra üçün məhz bu toyun xüsusi təkan verəcəyinə inanmaq çox çətin idi.

Toya təkcə nifaq ilahəsi Erida dəvət olunmamışdı. Heranın təkidi ilə o biri Allahlar da bir-bir bunu Zevsdən xahiş etdilər. Zevs də onların sözünü yerə salmadı. Zevs yaxşı bilirdi ki, hərdən-birdən Allahlara nifaqsız, münaqişəsiz keçən bir gecə də bəxş etmək olar və belə gecə Allahlar tərəfindən ona – Zevsə edilən sözsüz itaətin canını, mayasını qoruyan özülü yalnız və yalnız bir az da bərkidər.

Beləliklə, Eridanı toya çağırmadılar. Və elə indi ağacların arasından Xironun mağarasına göz dikib həsəd və nifrətlə mağaranı baxışları ilə az qala deşən Erida özünə heç cür yer tapa bilmirdi. Paxıllıq, kin, xəbislik onun qəlbinə hakim kəsilmişdi. Gözləri par-par yanır, dodaqları öz-özünə nəsə pıçıldayır, beynində fikir fikri sürətlə qovurdu. Erida, Xironun mağarasından göylərə ucalan qəh-qəhə səslərinin gurultusu altında mağaranın ətrafında oğrun-oğrun gəzişən, ziyafətə qarqaşalıq salmaq üçün üsul və yollar arayan Erida öz acıq və qəzəbini tökmək üçün hər şeyə hazır idi. Bir xeyli düşündü və… əlbəttə! Nəhayət! Eridanın ağlına, nəhayət, çox məkrli və hətta ağıllı da demək olardı buna, bir fikir gəldi. «Tapdım!» deyə qəmqüssəsi bir andaca sevincə çevrilən ilahə Erida fırtınadan da sürətli bir quşa çevrilib Hesperidlərin uzaqdakı güllü-çiçəkli bağçasına tərəf uçdu. Qızıl alma! Ona qızıl alma lazım idi. Bircə dənə. Bircə dənə qızıl alma! Erida bilirdi, o bu alma ilə nə edəcək. Bu alma nəinki bu günkü toy ziyafətini qanqaralığa çevirəcək, həm də onu uzaq-uzaq hadisələrin qəribə, ağlagəlməz yollarına gətirəcək. «Siz mənim intiqamımın acısını dadıb məni hələ xeyli xatırlayacaqsınız!» – Hesperidlər bağından almanı dərərkən Erida ləzzətlə bunu düşündü. Nifaq ilahəsi az sonra əlində qızıl alma yenə də Xironun mağarasının qarşısında peyda oldu. Elə buradaca bitən dəfnə ağacının xırdaca bir budağını qoparıb uzun və iti dırnaqlarıyla çərtərək bıçaq kimi bir şey düzəltdi. Almanın gözəl üzünə bu sözləri yazdı: «Gözəllərin gözəlinə çatacaq!».

Erida yazdığını bic-bic süzüb dodağı qımışdı.

…Allahların başı Aresin böyük həvəslə danışdığı qanlı-qadalı bir savaşın xırdalıqlarına elə qarışmışdı ki, heç biri bu gözəl, öz içindən ətrafa işıq saçan qızıl almanın masanın yuxarı başına – Zevsin və ətrafındakı ilahələrin qarşısına necə gəlib düşdüyündən xəbər tutmadı. Alma isə artıq Hera, Afina və Afroditanın düz qənşərində onların hər birinə yanıq verirmiş kimi «gəl-gəl» deyirdi və Poseydon almanı diqqətlə süzdükdən sonra gözlərini qıyıb «Gözəllərin gözəlinə çatacaq!» sözlərini özündən asılı olmadan elə ucadan oxudu ki, Ares də, onun sözünü kəsərək şuluqluq salan digər Allahlar da qəfildən səslərini kəsdilər. Ortalığa narahat bir sükut çökdü. Poseydon bu dəfə yavaşdan dediyini bir daha təkrar elədi:

– Gözəllərin gözəlinə çatacaq…

– Yəni, kimə? – Zevs də artıq almanı görmüş və Poseydonun sözlərini eşitmişdi. Öz sualı ilə ağlına gələni elə o dəqiqə də dilinə gətirdi və dərhal da «səhv etdim» düşünüb peşman bir halda üzrxahlıqla əvvəl Heraya baxdı, sonra Afinaya, lap axırda isə guya istəməyə-istəməyə Afroditaya ötəri bir nəzər saldı.

Yenə ortalığa həmən qəribə sükut çökdü. Zevsin sualına Allahlardan heç biri cəsarət edib cavab vermədi. Handan-hana sükutu Hera pozdu:

– Yəni, mənə! Yəqin, məni nəzərdə tutublar!

– Səni? – Afroditanın təəccübünün həddi-hüdudu yox idi. – Səni? Bəs mən o zaman kiməm səncə? Gözəllik ilahəsi deyilmiyəm mən? Əlbəttə, alma mənimdir!

– Xeyir, alma mənə çatacaq! – Afinanın bu yersiz mübahisəyə qoşulacağını, deyəsən, Allahlardan heç biri gözləmirdi. – Bəli, mənə çatacaq. Hera və Afrodita heç zaman əvvəl düşünüb sonra danışmırlar. Mən isə əvvəlcə düşünürəm, sonra danışıram. Mənim fikrimcə, ən gözəl ilahə elə mənim özüməm.

– Sən???

– Bəli, mən. Yoxsa, Hera elə bilir ki, o, artıq bütün ilahələrin əvəzinə danışa bilər?!

– Bunlar görəsən nəyin mübahisəsini edirlər? Mən sussam yaxşıdır. – Afrodita heç kimə, yəni, əslində hamıya müraciət edərək yalançı bir sakitliklə dilləndi. – Mən kiməm ki?! Ata, sən görürsən?

Zevs istədi özünü eşitməzliyə vursun. Afrodita isə öz sualında israrlı idi:

– Ata! Söylə! Mən kiməm? Mən gözəllik ilahəsiyəm, ya deyiləm?!

– Sus! – Heranın qəzəbi çox ciddi idi.

– Yox, niyə ki? – Afina fürsətdən istifadə edərək bu ilahələrin hər ikisini bir-birilə toqquşdurmaq istədi. – Bu xanım gözəllik ilahəsi deyil, bə kimdi?

– Sən də sus! Alma mənimdir dedim! – Heranın qəzəbli səsi mağaradan çölə yol alıb dörd bir tərəfi lərzəyə saldı.

Erida bu dəhşətli səsi və bu səsin özü ilə gətirdiyi həqiqi qəzəbi eşidib və hiss edib durub gizləndiyi yerdəcə asudəliklə köks ötürdü, öz-özünə

«belə-belə işlər» deyə düşünüb dalı-dalı qaranlığın içinə çəkilərək yox oldu. «Mən öz intiqamımızı aldım!»

Mağaranın içində isə artıq mübahisələr get-gedə qızışıb daha da kəskinləşirdi. Nə Zevs, nə də o biri Allahlar bir-birilə az qala didişən üç ilahəni sakitləşdirməyin yolunu axtarıb-axtarıb heç cür tapa bilmirdilər.

– Alma mənə çatmalıdır. Mənəm gözəllik ilahəsi! – Afrodita şivəli-şivəli, sağa-sola başını çevirib sanki gözəlliyini bir daha nümayiş etdirirdi.

Cavan Allahlar, xüsusilə də, Hefest hiss edilirdi ki, onu dəstəkləyirlər, amma, bu sözdə deyil, gözdə və daha çox ürəkdə belə idi.

– Xeyir, alma mənə ünvanlanıb! – Afina ağıllı və diqqətli gözlərilə ətrafını sınayıcı baxışla seyr edir və özünə ciddi müttəfiq arayırdı.

Başqa Allahlar baxışlarını Afinadan qaçırmağa çalışdılar. Yalnız Apollon ona çox gizlicə başı ilə «hə» işarəsi verdi.

– Alma yalnız və yalnız mənim olmalıdır! – Heranın sözləri artıq əsl hökm kimi səslənirdi və belə deyərkən o, gözlərini qırpmadan Zevsin düz gözlərinin dərinliyinə baxırdı.

– Dayanın! Bəsdi! – Nəhayət, Şimşəkoynadan öz səsini ucaltdı.

Hamı başa düşdü ki, Zevs artıq bu uzanıb gedən mübahisədən bezib, nəhayət, bir qərara gəlmişdir.

– Bəsdir! Mən bu mübahisəni bu cür bitirməyi qərara alıram. Bu mübahisəni Allahlar çözməyəcək! – Zevs nəfəs dərib ətrafına göz gəzdirdi. Sükutun özü də ona gizlicə pıçıldadı ki, düzgün qərardır, çünki bütün digər Allahlar rahatlıqla köks ötürməyə başladılar.

– Allahlar bu mübahisəni çözə bilməz! – Zevs Allahların əhval-ruhiyyəsini tutmuş olduğundan rahat-rahat sözünə davam etdi. – Bunu etsə-etsə bəni-insan edəcək. O öz qərarında daha tərəfsiz olar… Yəni… ciddi olar.

– Doğrudur!

– Bəs kim?

– Kim bunu edəcək?

– Görəsən kimə belə bir işi etibar etmək olar?

– Ciddi və tərəfsiz… Doğru qərardır!

Allahlar fikrə getdilər. Zevs özü də düşünə-düşünə qaldı. Bir xeyli beləcə sükut içində vaxt keçdi. Cavab isə yenə Zevsdən gəldi. O, üzünü Apollona tutdu:

– Apollon! Sən bir qədər əvvəl öz sevimlin Troya padşahı Priamın kiçik oğlu Parisdən danışırdın. Dedin ki, indi şahzadə olsa da ata evinə qayıdandan sonra yenə də öz əvvəlki işi ilə, qoyun otarmaqla məşğuldur.

– Bəli, ulu Zevs, Paris bu gün də çobanlıq edir.

– Mən qərarımı verdim. Bu mübahisəni Paris həll edəcək. Almaları üç ilahədən birinə – ən layiq olana qoy Paris versin!..

Toy məclisi gecədən xeyli keçmiş, amma vaxtından əvvəl, beləcə narahat bir nigarançılıqla bitdi və Allahlar hamısı ürəklərində Eridanı söyə-söyə (çünki bu mübahisəni, bu nifaqı salanın məhz Erida olduğunu artıq onlar anlamışdılar) ürəklərində yarızarafatla, yarıciddiyyətlə Parisin halına acıya-acıya, yavaş-yavaş Olimpə doğru üz tutub dağılışmağa başladılar. Sonuncu qonağı yola salıb – bu isə Ares idi – kentavr Xiron ziyafət boyu Allahların hüzurunda cınqır belə çıxarmadan utana-utana oturub bir küncdə qalmış Peley ilə Fetidaya üzünü tutub belə dedi:

– Siz bilirsiniz ki, mənim adıma müdrik Xiron deyirlər. Bu gecəki sizin toyunuz Sonra nə cür gələcəksə, onun artıq çöhrəsini göstərdi. Nə gələcəksə, nə cür gələcəksə, əsası bu gecə qoyuldu. Bunu sizə mən, qoca kentavr Xiron deyirəm.

...Troyanın altıncı padşahı, Apollonun sevimlisi qoca Priamın oğlu Paris uzun illərin ayrılığından sonra öz ailəsinə yenicə qovuşmuşdu. Hələ Paris körpə olarkən öncəgör kahinlər onun Troyaya bədbəxtlik gətirəcəyini söyləyərək atası Priamı və anası Gekubəni də buna inandıra bildilər. O zaman Priam öz körpə övladını uca qala başından üzüaşağı tulladaraq bu şəkildə öldürmək istəyir. Paris xoşbəxt bir təsadüf nəticəsində sağ qalır, onu çobanlar tapıb övlad kimi bəsləyirlər. Priam uzun illər öz amansız hərəkətinin üzücü peşmançılığını çəkir və nəhayət, Allahlar onu sevindirirlər. Paris artıq boya-başa çatmış yetkin bir gənc kimi Priam və anası tərəfindən tapılıb şah ailəsinə qaytarılır. İndi o şahzadə Hektordan sonra artıq yaşa dolmuş Priamın ən böyük ümididir. Bəli, yalnız Hektordan sonra, əlbəttə ki,

Hektordan sonra. Çünki həm Troya camaatı, həm də saray əhli Hektorun ağıllı və bacarıqlı siyasəti nəticəsində ona son dərəcə sədaqətlidir. Bunu Paris artıq yaxşı bilir. Paris yalnız ikincidir. Moyralar – bu taleyazan ilahələr onun taleyinə yalnız ikinci olmaq yazıblar. Bunu artıq heç cür düzəltmək mümkün olmayacaq. Hektor, həqiqətən, əsl qəhrəman və əsl dövlət başçısıdır. Parisə isə ürəyindəki hisslər heç cür rahatlıq vermir, «sən, yalnız sən Troyaya layiq başçı, layiq padşahsan» deyə qulağına ardı-arası kəsilməyən pıçıltılar gəlirdi…

Həmən gün öz köhnə peşəsindən əl çəkə bilməyən Paris İlionun ətrafında Şah ailəsinin böyük bir qoyun sürüsünü otarırdı. Bir daşın üstündə oturub yenə də dərin fikrə dalmışdı. Elə bu zaman qəfildən Parisin oturduğu yerdən bir qədər aralı – ora isə dəfnə ağaclarının bitdiyi kiçik bir meşəlik idi – bu meşəlikdən üç ucaboylu qadın çıxıb düz Parisə tərəf irəliləməyə başladı. Paris başını qaldırıb aram-aram ona yaxınlaşmaqda olan bu qadınlara diqqətlə baxdı, onları tanımağa çalışdı. Tanıya bilmədi. Amma hansısa bir qüvvə onu ayağa qalxmağa məcbur elədi.

Bu qadınlar ayaqlarını torpağa basıb yerimirdilər, onlar az qala torpağa heç toxunmurdular. Bu qadınlar bütün vücudları ilə ətrafa işıq saçır, bütün harmonik hərəkətləri ilə dünya ahənginin içindən çıxıb seçilirdilər. Bunu görən Paris anladı ki, qarşısındakı bu üç qadın adi adamlar deyil, onlar əsl ilahələrdir. Paris gözlərinin qamaşacağından ehtiyat etdiyinə görə onların üzünə baxıb onları tanımağa cəhd eləmədi. Paris elə beləcə ayağa durmuş, başı aşağı şəkildə, itaət və qabiliyyətlə təzimdə əyilmiş qaməti ilə, bəli, məhz bu cür, ilahələri qarşıladı. Belə bir duruş öz-özlüyündə ehtiramlı bir salamlamağa bərabər idi.

İlahələr Parisin iki addımlığında dayanıb durdular.

– Görürəm ki, sən Paris, qarşında duranların kim olduğunu və hardan gəldiyini artıq bilirsən. – İlahələrdən biri Parisin müti duruşunu qiymətləndirdi və ona müraciətlə amiranə şəkildə belə dilləndi.

Paris yenə də başını yuxarı qaldırmadan son dərəcə yüksək təvazökarlıqla cavab verdi:

– Bilirəm, siz Olimpin sakinlərisiniz.

– Elədir… – İkinci ilahə təsdiq etdi. Onun səsi əsl fleyta səsini xatırlatdı.

Qoyunlar sakitcə otlaqda dayanıb durmuş, ilahələr gəldikdən sonra tam bir hərəkətsizliyə düçar olmuşdular. Havada balaca bir meh də əsib eləmirdi, göydəki buludlar səbirlə dayanıb aşağıdakı bu görüşün nə ilə bitəcəyinə maraq edirdilər.

– Sən bilməlisən ki, biz yalnız bizə lazım olan zaman özümüzü bəni-insana göstəririk. Sən bizə baxa bilərsən, – deyə birinci ilahə lütfkarlıqla icazə verdi.

– Mən bunu bilirəm. Çox sağ olun. – Paris yenə də ehtiyatla cavab verdi, başını isə hələ də qaldırmağa cürət etmədi.

Səsi ilə fleytanı xatırladan o biri ilahə daha səbirsiz idi. O belə dedi:

– Gəlin məsələni uzatmayaq. Nə üçün gəldiyimizi ona açıb deyək. Paris, biz sənin yanına Zevsin göstərişi ilə gəlmişik.

Paris damarındakı qanın donduğunu hiss elədi. «Mən nə günahın yiyə-siyəm?» – deyə yaddaşını arayıb, ələk-vələk elədi, çox düşündü, çox daşındı, amma ağlına hansı günah işlədiyi barədə dürüst bir şey gəlmədi.

– Sənin günahın yoxdur… hələ. Paris, nəhayət, başını qaldır və bizim hər birimizə ayrı-ayrılıqda nəzər sal. Diqqətli ol. – Sərt bir halda bunu deyən Hera idi. – Mən Herayam.

Paris bu dəfə əmrə tabe oldu, başını qaldırdı, ilahələrə baxdı, onların möhtəşəm varlığından vəcdə gələrək ürəyindəcə «əhsən!» dedi.

– Almanı ona göstər. – Afina Heraya məsləhət verdi. – Nə etməli olduğunu ona anlat. Mən isə Afinayam. – Afina Parisi çox böyük diqqətlə süzdü.

– Paris, gəl məni də tanı. Mən Afroditayam. – Səsi ilə fleytanı xatırladan üçüncü ilahə isə Parisin üzünə son dərəcə ilıq bir təbəssüm göndərdi.

Parisin yanaqları allandı. Hera qərara gəldi ki, Parisə məsələnin kökünü açıb-ağartmaq vaxtı gəlib:

– Paris, mənə diqqətlə qulaq as. Qarşında üç ilahə vardır. Mən Herayam, bu Afinadır, bu isə Afroditadır. Bu almanı görürsən? – Heranın Parisə doğru uzatdığı əlində qəflətən bir alma göründü.

Paris həyatı boyu bu gözəllikdə alma görməmişdi.

– Bu almanı görürsən, deyilmi? – Hera sualını təkrar etdi.

– Almanın üstündəki yazını oxu! – Afina Parisə dedi.

– Ən gözələ çatacaq… – Afrodita səbirsiz halda yazını Parisin əvəzinə oxudu.

Paris Afroditanın dediyi ilə kifayətlənmədi, almanı ona uzatmış Heradan böyük bir ehtiramla qəbul edib, üstündəki yazını ucadan bir də özu oxudu:

– Gözəllərin gözəlinə çatacaq!

– Gördün? – Afroditanın gözləri yenə şıltaq bir təbəssüm içində süzüldü.

Hera isə ciddiliyindən əl çəkmirdi:

– Paris, biz üç ilahənin mübahisəsinə sən son qoymalı və almanı bizlərdən birinə sən verməlisən.

– Kimi ən gözəl hesab edirsənsə, ona. – Hətta Afina da bu məqamda səsinə gizli bir istilik qatdı.

– Mən? Niyə mən? – Paris təəccüblə soruşdu.

– Zevs belə istədi, – deyə Afina cavab verdi.

– Bəli, Zevs belə istədi. – Hera acı-acı təkrar elədi.

– Mən bilmirəm, sizlərdən hansınız daha gözəlsiniz. Siz üçünüz də əsl gözəllik mücəssəməsisiniz. – Paris yenə də böyük bir ehtiram və gizli ehtiyatla ilahələrə belə dedi.

Ürəyində isə acı-acı düşündü: «Birinə almanı verib özümə bir himayədar qazanacağam, o biri ikisi isə mənə ömürlük düşmən olacaq». Paris niyyət etdi ki, hiylə ilə də olsa, bu münsif vəzifəsindən birtəhər boyun qaçırsın.

– Sən münsifsən. Və sən bundan boyun qaçıra bilməyəcəksən. Boşuna özünü yorma. – Hera Parisin qəlbindən keçənləri dərhal duydu.

«Elə isə kimə? Mən bu lənətəgəlmiş almanı kimə verim? Seçimimi nə cür edim ki, yenidən əziyyətlə gəlib qovuşduğum bu saraydan qovalanmayım?» – Heranın sözlərindən sonra Parisin beynindən sürətlə məhz bu fikirlər gəlib keçməyə başladı.

– İstəsən, biz sənə kömək edə bilərik… – Hera Parisin dadına çatmaq istədi.

– «Necə?»

– Sən özün bu seçimi edə bilərsən, ya yox? – bu dəfə Afina Parisə sual verdi.

Paris yenidən diqqətlə ilahələri bir-bir süzməyə başladı. «Mən bunların hansına verim almanı? Üçü də gözəllərin gözəlidi. Hərəsinin öz gözəlliyi… Hera… kimdə belə dərin, nüfuzedici baxış var? Afina… boya bax, əndama bax… Əsl amazonkadır. Hələ Afrodita… ağzı, burnu, gözləri şəhvət dolu, ehtiras dolu, ah… Mən nə edim, necə edim?..

Paris qətiyyətlə Afinaya cavab verdi:

– Yox, mən özüm seçim etməkdə çətinlik çəkirəm.

– O zaman… – Hera nəfəs dərib diqqətli gözlərini Parisin üzünə dikdi. – O zaman biz hər birimiz sənə ən qiymətli hədiyyəmizi verməyə hazırıq. Onlardan birini qəbul et və almanı o hədiyyənin əvəzi kimi bizim birimizə ver!

Paris «Hədiyyə» sözünü eşidən kimi gözləri qıyıldı, artıq təkcə qulaqları ilə deyil, bütün tarıma çəkilmiş vücudu ilə ilahələri dinləməyə başladı. İlk sözə Afina başladı:

– Dinlə məni, Paris. Sən əgər almanı mənə vermiş olsan… – Afina sözlərinə xüsusi bir ehtişam verməyə çalışdı, – mən… mən səni dünyanın ən müdrik adamı edərəm!

«Kentavr Xirondan da müdrik?» deyə düşünüb Paris Afinaya hörmətlə baş əydi. Sonra sual dolu gözlərini Heranın üzünə dikdi.

– Əgər almanı mənə versən, – Hera təmkinlə və yavaş-yavaş danışmağa başladı, – əgər ən gözəl ilahə kimi sən Paris məni seçmiş olsan, o zaman mən Hera səni bütün Asiyaya hökmran edərəm.

«Yəni, Troyaya?!» Paris buna az qala inanmaq belə istəmədi, amma eyni hörmətlə Heraya da baş əyib maraq dolu gözlər ilə üçüncü ilahəni – Afroditanı süzməyə başladı.

Afrodita isə belə dedi:

– Dinlə məni, Paris. Yaxşı dinlə və yaxşı düşün. Sən bizim aramızdan seçib ən gözələ çatacaq bu almanı mənə versən, mən səni… mən səni, bəli, dünyanın ən gözəl qadınına qovuşduraram.

«Ən gözəl qadın – yəni, gözəl Yelena! Elladada, Asiyada ondan gözəl kim var ki?»

İlahələr susdu. Onlar Parisin qərarını gözləməyə başladılar. Paris isə cavab verməyə tələsmirdi, əlindəki bu qəşəng qızıl almanı o üzünə, bu üzünə çevirir, qaşlarını çatıb düşünürdü. Nəhayət o, qərara gəldi. Səbirsizliklə ondan cavab gözləyən ilahələri bir də ayrı-ayrıca, təpədən dırnağadək süzüb gözdən keçirdi. «Nəhayət, arzuma yetişdim!» deyə düşünüb qətiyyətlə almanı üç ilahədən birinə uzatdı.

Almanı alan İlahənin gözləri güldü. Sevinci hədsiz, qüruru sonsuz oldu. O biri ilahələr isə zəhmlə susdular, gözəl üzlərinin rəngi qapqara qaraldı.

– Mən səni sabah arayıb tapacağam. – Hera gözdən itməzdən əvvəl sevinc və minnətdarlıqla Parisə bu sözləri dedi və o biri ilahələri yenə də qürurlu bir baxışla süzüb əlindəki almanı ucaya qaldırdı.

Almanın isə sahibəsi, Hera olmuşdu. Paris almanı, əlbəttə ki, Heraya vermişdi. Ancaq və ancaq Heraya! Bu bir həqiqət idi və sonrakı bütün başqa yozumlar, tarixçilərin və şairlərin dedikləri bu həqiqətə uyğun deyil.

Üç ilahə dəfnə meşəliyinə doğru geri qayıda-qayıda elə havadaca əriyib başladılar yox olmağa. Parisin qəlbi yaxın hakimiyyətin şirin dadını elə indidən hiss edərək həyəcanla vurdu. Qoyun sürüsü hərəkətə gəldi, quzular mələşdilər və itələşə-itələşə Parisin dörd bir yanında sıxlaşmağa başladılar. Buludlar yenə də öz yollarına düzəldilər.

Sabah!.. Sabah Hera Parisi tapacaqdı. Sabah qoca Priam Aidin səltənətinə yollanacaq, qəhrəman Hektor vaxtilə Prometeyin zəncirə çəkildiyi Qaf dağına qaçıb canını bu cür qurtaracaq, Paris isə öz arzusuna – Troyaya hökmran olmaq arzusuna, nəhayət ki, çatacaqdı.

*2009-cu il*

# Çəngəl çiçəyi

Həmən gün XXVI Sais sülaləsinin ilk fironu, Aşağı və Yuxarı Nil əyalətlərinin həqiqi fatehi, bütöv Misirin hakimi l Psammetix ölkəsinin baş şəhəri Memfisdə öz dəbdəbəli sarayının taxt otağında əyləşib beynində nə zamandan bəri qərarlaşdırdığı fikri götür-qoy eləyirdi. Bir qədər keçəndən sonra firon şəhərin «Yeddi ağac» adlanan hündürlüyündə Ptax allahının şərəfinə tikilmiş məbədin Baş kahinini hüzuruna istədi. Baş kahin bu güdrətli fironun ilahi nəzəri qarşısında duran zaman l Psammetix taxtından qalxıb onu xüsusi ehtiramla salamladı və belə dedi:

— Psammetix səni unutmayıb. Çox illər bundan əvvəl sən ona böyük xidmət göstərmisən. On iki əyalət hakimlərinin ziyafəti zamanı o öz mis dəbilqəsini kuzə kimi şərab tökmək üçün sənə uzatdı, amma sən on bir əyalət başçısına qızıl kuzə vermişdin…

Ani sükut kürəyinə soyuq tər gələn Baş kahinə imkan verdi ki, bu məqam üçün lazım bildiyi sözləri özündə güc tapıb desin:

– Qızıl yox, məhz mis küzədən şərab içən şəxsin Misir xalqına başçılıq edəcəyini, qüdrətli firon olacağını allahlar bəyan etmişdilər.

– Elə idi. Allahlar öz iradələrini bildirmişdilər. Amma o biri on bir hakim elə guman eləmişdi ki, gənc Psammetix onlara hiylə gəlmək istəyib və bilərəkdən mis kuzədən şərab içir…

– O zaman mən onları inandırmaq üçün əlimdən gələni etdim. Mənim huşsuzluğuma, qızıl kuzələrin birini unutduğuma və sənin tamamilə təsadüfən başındakı mis kuzəni şərab üçün mənə uzatdığına onlar asanlıqla inanmadılar. – Baş kahin dedi.

– Həqiqətən elədir. Buna inanmaq, doğrudan da, çətin idi. Baş kahin necə, o zaman buna inanmışdımı? – Psammetix diqqətlə Baş kahinin gözlərinin içinə baxdı. Baş kahin gözlərini yana qaçırmadı, əminliklə belə cavab verdi.

– Səhərlər günəşin, gecələr ayın, ulduzların varlığına inanan kimi inanmışdım.

Psammetix Baş kahinə taxtın qarşısındakı yumşaq döşəkcənin üstündə yer göstərdi, özü isə yenə də qızıl həşyəli uca taxtına əyləşdi.

– O zamandan bəri Nil çayının çox bulanıq suları axıb keçdi, – Psammetix yuxarıdan aşağı Baş kahini diqqətlə süzdü. – Mən isə unutmamışam.

– Qoy allahlar səni hifz etsin! Ptax və Amon və Ra sənə yar olsun! – Baş kahin qırxıq başını ehtiramla sinəsinə endirdi.

Psammetix Baş kahinlə qərarlaşdırdığı söhbəti necə və hardan başlayacağını düşündü. Sonra belə dedi:

– Aşağı və Yuxarı Nil bizim qüdrətimiz sayəsində, nəhayət, birləşdi və Misir öz qədim möhtəşəmliyini bərqərar elədi…

– Allahlar sənə yar olsun!

– Bu asan iş olmadı. Yunan əsgərləri Psammetixə köməyə gəldilər.

– Allahlar səni hifz eləsin!

-Assiriyalılar qorxaq tülkü kimi qaçıb getdilər və Psammetixin həşəmətini Aşağı və Yuxarı Nil əbədilik qəbul etdi.

– Ptax səni qorusun!

– Sən, Ptax məbədinin Baş kahini, mənə bir müşkül məsələdə kömək etməlisən.

Baş kahin titrək baxışlarını Psammetixin qızıl həşyəli taxtında yaşıl-qırmızı rənglər içində par-par yanan paltarının ətəklərinə qədər ancaq qaldıra bildi. Psammetix isə öz baxışlarını aparıb Baş kahinin qırxıq başı üzərindən böyük və uzun taxt otağının düz bağlı dəmir qapılarına tuşladı. Və belə davam elədi:

– Baş kahin anlayırmı, Misirin əvvəlki dəbdəbəsini bərpa etmək nə qədər çətin bir işdir?!

– Anlayır. Yenə də Ptax sənə yar olsun.

– Baş kahin anlayırmı, bizi assiriyalılar kölə halına salmaq üçün Misirin mənliyini əlindən almaq istədilər?!

– Anlayır. Amon və Ra səni qorusun.

– Ptax məbədinin Baş kahini! Psammetix Misirin qədim şöhrətini özünə qaytarmaq istəyir. Misir xalqının özünə inamını bərqərar eləmək istəyir.

– Allahlar sənə yar olsun.

– Misiri yunanların köməyilə birləşdirmək hələ işin tam olaraq başa çatması deyil.

– Göydə Günəş, yerdə sən – Psammetix…

– Vaxt vardı, mənim xalqım özünü ədalətli olaraq dünyanın ən qədim xalqı sayırdı. Bizəmi taydırlar yunanlar? Torpaq üstə gəzən və dili dilimizdən ayrı, allahları Amon – Ranın xidmətçiliyinə belə layiq olmayan karilər? Yoxsa assiriyalılar? Lap yoxsa frigiyalılar? Kuşitlər?

– Allahlar Misiri qorusun!

– Bizim dilimiz deyilmi ən qədim torpaq dili? Bu dildə danışan xalq deyilmi dünyanın ən qədim xalqı?.. – Psammetix sözlərinə ara verdi. – Amma adamlar unutqandılar. Onlar bunu unutdular. Unudanın isə cəzası var, unudan günahkardır!

– Adamlar… çiçəkdirlər…

Ptax məbədinin Baş kahininin dərin bir hüznlə söylədiyi bu sözlər Psammetixin hədsiz təəccübünə səbəb oldu. O soruşdu:

– Baş kahin beləmi dedi: adamlar çiçəkdirlər?!

Sual verəndən sonra Psammetix verdiyi sualı da unutdu, harda olduğunu da. Fikir onu uçurub uzaqlara apardı.

Daş sütunlu görüş otağına sükut çökdü. Baş kahin nəfəsini dərib Psammetixin uçub getdiyi yerdən nə zaman geri dönəcəyini gözlədi. Nəhayət, Psammetix geri döndü və düşüncəli-düşüncəli Baş kahinin ona dediyini artıq öz sualı kimi bir daha təkrar elədi:

– Adamlar çiçəkdirlər?!

Psammetixin səsi bu dəfə mis kimi cingildəmədi, o hələ uçub getdiyi yerdən tam qayıtmamışdı, gözləri öz hədəqələri içində qıyıldı, üzünün əzələləri gərildi. – Baş kahin, əgər adamlar çiçəkdirsə, o zaman çiçəklər nədirlər?

Günəşin son saçaqları Firon sarayının göyə dikəlmiş əyri sütunlarını, nəhəng qapısını, quşların yuva qurduğu damını yalayıb yox olduğu vaxt idi. Baş kahinin heysiz səsi firona ancaq çatdı:

– Çiçəklər də o zaman adamdırlar. Ptax və Amon və Ra Psammetixi qorusun!

Psammetixin və Baş kahinin söhbəti bu yerdə kəsildi. Gizli qoruma başçısı gəldi və Firona onun gözlədiyi xəbəri gətirdi.

O dedi:

– Üç qadının dilləri artıq kəsilmişdir. İki nəfər misircə danışmayan və anlamayan frigiyalı çoban artıq tapılmışdır. Sabah səhər şəhər gözətçisi Parasaxın və qul bazarının alverçisi Takifanın arvadları doğacaq və körpələr ana bətnindən çıxan kimi elə o dəqiqə saraya fironun yanına gətiriləcəkdir. – Gizli qoruma başçısı hər iki dizi üstə çökmüşdü və sözlərini bitirdikdən sonra yerindəcə daş olub susdu. Onun son sözünün son səsi hələ taxt otağının sükutunda cingildəyib qurtarmamışdı ki, Psammetix Baş kahinə müraciətlə dedi:

– Psammetix istəyir, Misir xalqı öz qədim şöhrətini yenidən özünə qaytarsın. Özünün ən qədim dünya xalqı olmasına bir daha inansın. Aşağı və Yuxarı Nilin birləşməsi az imiş. Xalq özü bu birləşməyə layiq olmalıdır. – Psammetix bir daha hamıya sübut etmək istəyir ki, misirlilər dünyanın ən

qədim xalqıdır və assiriyalılar da, liviyalılar da, hətta yunanlar da misirlilərə heç vaxt qədimlikdə çata bilməzlər.

Fironun işarə etməsini görməsə də bütün vücudu ilə bunu hiss edən gizli qoruma başçısı qalxıb dalı-dalı qapıya qədər getdi və qapının yanında qapını açmadan elə havadaca əriyib yox oldu.

– Bunu sübut etmək üçün Psammetix təcrübə keçirəcək, bir il, il yarımdan sonra bu təcrübənin nəticəsi əyan olacaqdır. İndi isə Psammetix belə istəyir: Baş kahin xeyir-duasını versin, uyğun bildiyi ayinləri yerinə yetirsin.

– Əzəmətli Psammetix bu təcrübənin sirrini Ptax məbədinə açarmı? – Baş kahin ehtiyatla soruşdu.

– Açar. Sabah səhər doğulacaq bu iki körpə, dil açıb danışana qədər heç bir insan səsi eşitmədən şəhərdən uzaq yerdə, dağların döşündəki bir ma-ğarada saxlanıb bəslənəcək. Onlara söz deməmələri üçün dilləri çıxarılmış qadınlar xidmət göstərəcək. Yeməklərini isə mağaraya Misir xalqının dilində danışmayan çobanlar aparacaqlar.

Psammetix yenə susdu. Təcrübənin sirrini sona qədər açıb-açmamaq barədə düşündü. Açmaq lazım olması qərarına gəldi. Onun üçün də Baş kahin:

– Bir ildən və yaxud ilyarımdan sonra nə baş verəcəkdir? – deyə soruşandan sonra həşəmətli firon ona bu cavabı verdi:

– İl yarımdan sonra insan dilində bircə kəlmə belə eşitməyən bu körpələr dil açdıqları zaman ilk sözləri nə olacaq – Baş kahin bunu düşündümü?

– Onlar ilk olaraq hansı dildə danışacaqlarsa, firon bu dili ən qədim dil sayacaq?! – Baş kahin artıq sirri anlamışdı və sualdan daha çox özü-özünə cavab verirdi.

Psammetix Baş kahinin sözlərinə ancaq bu əlavəni elədi:

– Həmən xalqın dili ən qədim dil, həmən xalqın özü isə torpaq üstündə yaşamış ən qədim xalq elan ediləcək.

– Ptax və Amon və Ra müdrik Psammetixi hifz eləsin.

Baş kahin səmimi bir ehtiram içində başını aşağı, sarayın daş döşəməsinə sarı əydi. Psammetix başa düşdü ki, Baş kahin onun tədbirindən məmnun qalmışdır. Belə dedi:

– Ptax məbədinin Baş kahini! Sən bu təcrübənin icraçısı təyin edilirsən. Sən özün nəzarət edəcəksən: mağarada böyüyən bu uşaqlar heç bir başqa dilin heç bir sözünü eşitməsinlər! Xidmətçilər, gözətçilər, yemək bişirənlər – heç kim iki çoban və iki dilsiz qadından başqa bu mağaranın həndəvərinə belə yaxın gəlməməlidir. İndi isə get qurbanlarını hazırla, ayinlərini icra et. Xəzinəm sənin üçün ağzı açıq doğma evin kimi olacaq. Allahlar Misir xalqından öz inayətlərini əskik etməsinlər.

– Allahlar müdrik Psammetixi qorusun.

Taxt otağına çökən ağır sükutdan ürəyinin necə şiddətlə vurduğunu az qala qulağında eşidən Baş kahin başa düşdü ki, Psammetix onunla söhbətini bitirmişdir. Fironun işarəsini gözlədi ki, hüzurdan azad olsun. Amma fironun ona zillənmiş düşüncəli gözlərinin dibində bir sual daha gizlənmişdi. Firon bu son sualını verərkən səsi artıq əvvəlki kimi sərt və quru deyildi:

– Baş kahin söyləsin. Adamlar çiçəyə, çiçəklər isə Adama necə çevrilə bilirlər?

Baş kahin boğazını yüngülcə arıtlayıb səbr və hüzur içində firona belə cavab verdi:

– Qoy Allahlar Psammetixə yar olsun. Mənim cavabım belədir. Adamlar çiçəkdirlərsə, o zaman çiçəklər bəs nədir və çiçəklər adamlardan başqa heç nə ola bilməzlər. Adama çiçək deyilirsə, adam kimi tanıdığımızın mahiyyəti o zaman çiçəyə çevrilir. Belə olan halda çiçək kimi tanıdığımız da dönüb adam cildinə girir, adam kimi görünür.

– Hər bir hal üçün söylədiklərin doğrumudur?

– Bəli, doğrudur.

– Əgər Psammetix söylərsə ki, Nil boyu aşağı-yuxarı üzüb gedən gəmilər balıqdırlar, o zaman balıqlar da gəmiyə dönə bilərmi?

– Dönə bilər.

– Ptaxın məbədi Allah evidir…

– Allah evi Ptaxın məbədidir. Ptax sənin köməyin olsun.

– Ağaclar da uça bilməyən quşlardır?..

– O zaman quşlar çevrilib uça bilməyən ağaclar olacaq.

– Dağlar Allahların ruhudur?..

– O zaman Allahların ruhu dağlardır.

– Bax, Baş kahin mən söyləyirəm, – Psammetix həyəcan içində coşdu. – Mənim yuxularım mənim yaşamaq istədiyim yerdir. Sən məni mənim yuxularımdan birinin içində ömürlük saxlaya bilərsənmi?

– Sənin yaşam yerin sənin yuxundur. Amma mən səni yuxunun içində saxlamayacağam.

– Yəqin ki, sən bunu bacarmazsan. – Psammetix təəssüf etdi.

– Bacararam, amma Ptax bunu mənə qadağan edir. Mən bunu etsəm, Ptax mənim ruhumu cismimdən çıxarıb məşəqqətlərə düçar edər.

– Sən çiçəkləri adamlara döndərə bilərsən???

– Mən bunu edə bilmərəm. Amma mən Psammetixə adamlara dönmüş çiçəkləri göstərə bilərəm.

– Göstər!

– Olmaz, müdrik Psammetix. Ptax hər ikimizə – mənə də, sənə də sonsuz qəzəb edər.

Fironunu alışıb-yanan gözləri öz qəfil işığını itirməyə başladı. Elə bu zaman Misirin paytaxtı Memfisin də səmasını bütün günü kürə kimi qıpqırmızı yanan günəşin son şüaları həvəssiz-həvəssiz tərk edib gözə görünmədən yox olub itdilər.

Bu görüşdən il yarım vaxt keçdi. Yenə günlərin birində Ptax məbədinin Baş kahini həyəcan içində fironun sarayına gəlib onunla təcili görüşmək istədiyini bildirdi. Firon Baş kahinin nə üçün gəldiyini artıq bilirdi.

– Baş kahin də mən bildiyimi bilirmi? – Psammetix gözlərini yana dikərək önündəki döşəkcənin üstünə eynilə il yarım əvvəl olan kimi çöküb qalmış Baş kahindən soruşdu. Baş kahin cavab verdi:

– Baş kahin Psammetixin bildiyini bilir. Allahlar Psammetixi qorusun. Təcrübə başa çatdı.

– Körpələr hansı sözü ilk olaraq dillərinə gətirdilər? – Psammetix bu sualın da cavabını artıq bilirdi.

– O söz «bekos» sözü oldu…

Psammetix narahat halda taxtın içində qurcuxdu….

– … Çobanlar son dəfə mağaraya girərkən hər iki uşaq iməkləyə-iməkləyə çobanlara tərəf süründü və onlar «bekos» dedilər.

– «Bekos»… Nədir mənası bu sözün? Psammetix Misir xalqının dilində belə bir söz tanımır. Baş kahinə, necə, bu söz tanışdır?

– Xeyr, Baş kahin də Misir xalqının dilində belə bir söz tanımır.

Firon açıq-aşkar pərtliyini gizlətmək istəyirdi və səsinə qəsdən etinasız bir ahəng verdi:

– Bəs o zaman bu söz, nədir onun adı – «bekos» sözü hansı xalqın dilindəndir? Baş kahin bu sözü başqa xalqların dilində axtardımı?

– Axtardı. Allahlar fironu qorusun.

– Harda tapıldı bu söz?

Bu dəfə firon nə qədər çalışsa da həyəcanını gizlədə bilmədi. Fironun gözləri iki ac canavar kimi Baş kahini az qala yemək istəyirdi. Baş kahin bunu duydu və dərin hüzn və təəssüflə belə dedi:

– «Bekos» deyilən söz frigiyalıların dilində çörək deməkdir. Allahlar fironu hifz etsinlər.

– Frigiyalıların dilində? Bu… söz? Çörək?!

– Bu belədir.

Firon oturduğu taxtın bir küncünə sığındı. Gözlənilməz nəticə onun qəlbini amansız od atəşində yandırsa da, o çalışıb əsl halını biruzə vermək istəmirdi.

– Frigiyalılar, eləmi? Deməli, frigiyalılar. Olsun! – Psammetix, nəhayət, qərara gəldi – Qoy sabah Baş kahin təcrübənin nəticəsini Ptax məbədində elan etsin. Frigiyalıların dili ən qədim dil, frigiyalılar isə ən qədim xalq elan edilsin.

Baş kahin bu sözlərin Psammetix üçün bir işgəncə olduğunu artıq anlamışdı. Susub qaldı. Psammetix əlinin sərt bir işarəsi ilə çaşqın hala düşmüş Baş kahini hüzurdan buraxdı. Ağır-ağır geriləyib Baş kahin firon sarayının

görüş otağını tərk etdi. Geniş saray meydanına çıxdı, Ptax məbədinə doğru yol aldı. Sağında, solunda məbədin xidmətçiləri əlləri sinələrində lal-dinməz onunla bir addımlayırdılar. Yolla keçənlər Ptax məbədinin Baş kahinini gördükləri zaman hörmət əlaməti olaraq ayaqlarını saxlayır, əllərini dizlərinə toxundurub onu salamlayırdılar. Günəş Baş kahinin düz qırxıq başının üstündə idi və o, beynini deşən günəş işığını Allahlardan bir cəza kimi qəbul edib Ptax məbədinə qədər xidmətçilərin onun üçün tutmaq istədikləri çətirin kölgəsi altına girmədi. Yol boyu fironun il yarım əvvəl ona həvalə etdiyi vəzifənin öhdəsindən gələ bildiyi üçün Ptaxa dualar etdi, fironun qəzəb və iztirabının soyuması üçün nəzirlər vəd etdi, məbədə yetişən kimi isə göstəriş verdi ki, Ptaxın şərəfinə qurbanlar kəsilsin.

Firon Psammetix Baş kahin sarayı tərk edər-etməz gizli gözətçi başçısını yanına istədi: Başçı gəlib quru daş üstünə diz çökdü. Firon ona belə dedi:

– Mən bu təcrübədən arzu etdiyim nəticəni ala bilmədim. Bunun bir günahkarı vardır. Söylə mənə! Mağaraya körpələrə yemək-içmək aparan çobanlar haralı idilər?

– Frigiyalılar idi.

Fironun gözləri istehza ilə qıyıldı:

– Belə. Amon – Raya and olsun, mən bu sirri çözəcəyəm. Sən! Onları bir-birinə bağlayıb iki gün beləcə saxla! Heç bir şey! Nə yesinlər, nə içsinlər. İki gündən sonra mənim yanıma gətir!

Fironun gözlərinin dibində qəfildən bir işıq topası yandı və tezcə də söndü.

Üç gündən sonra Baş kahini yenə də fironun yanına dəvət etdilər. O gəldi.

– Səninlə şəhərdən çıxıb daş karxanalarının yanından keçib Alçaq dağlar vadisinə gedəcəyik. – Psammetix dedi.

Sarayın arxa həyətində iki kəcavə artıq onları gözləyirdi. Kəcavələrin yanında misirli əsgərlərin əhatəsində həbəş qullar əmrə müntəzir idilər. Firon birinci kəcavəyə oturana qədər saray həyətində olan hər kəs əllərini dizlərinə toxundurub hərəkətsiz qaldı. Baş kahin ikinci kəcavəyə əyləşdi.

Döyüşçü dəstəsi irəlidə və keşikçilər arxada kəcavələr Memfis şəhərinin Fiv qapılarından çıxıb zınqrovlu ilanlar kimi qıvrılan Ərəbistan dağlarının arasından keçdi. Bir xeyli bu dağların arasıyla yol gedib üç il əvvəl firondan küsüb Həbəşistana köç edən misirli əsgərlərin düşərgəsinə fironun özünü zorla çatdırdığı o məşum yerə çatdılar. Firon Psammetix bu yeri gözəl xatırlayırdı. O zaman ona arxa çevirib düşmən tərəfə keçən əsgərləri heç bir vəchlə dilə tutmaq və Misirdə saxlamaq mümkün olmadı. Misir allahları həmən gün ondan üz çevirmişdilər. Üzü günəşdən qapqara yanıb ancaq gözlərinin içi parıldayan gənc bir döyüşçüyə son ümidlə baxıb «Allahlarınızdan üz çevirib arvadlarınızı, uşaqlarınızı kimin ümidinə qoyursunuz?» soruşdu. İndiyədək o cavan döyüşçünün verdiyi sərt cavab Psammetixin yadındadır.

– Allahlarımızı biz öz qəlbimizdə aparırıq. – Sonra əli ilə qarnından aşağıdakı dəmir lələklərin gizlədə bilmədiyi uzun və ətli əzasına işarə edərək əlavə etdi: – Bu sağ olsun, arvad-uşağı hər yerdə tapmaq olar…

Firon onun kəcavəsi ilə yanaşı addımlayan xidmətçiyə işarə etdi və gizli keşikçi başçısını yanına istədi. Gizli keşikçi başçısı iti addımlarla yenə də yoxluqdan peyda oldu və firona yanaşıb yavaş səslə pıçıldadı:

– Döyüşçüləri saxlamaq olar. Çatmışıq.

Bu yerin çox qəribə bir mənzərəsi var idi. Kəcavədən enən Baş kahin sağ tərəfdə sıra ilə bir-birinə sıxılmış quru dağların döşündə əvvəl-əvvəl heç bir qəribəlik sezmədi. Yolun o biri tərəfinə diqqət etdi. Sağdakı bu quru dağlardan fərqli olaraq, qəribəydi, sol tərəf yamyaşıl çəmənlik, çiçəkli bir yer idi. Yaşıl, qırmızı, sarı rənglər bu çəmənlikdə bir-birinə qarışmışdı. Baş kahin arxasını çiçəkliyə çevirən və əllərini belinə qoyub boz və quru dağların ətəyində gözlərilə nəsə arayan Psammetixin arxasında dayandı. Keşikçilər, xidmətçilər ehtiramla bir kənara çəkilmişdilər. Yenə də əlinin bir işarəsi bəs oldu ki, gizli keşikçi başçısı hardansa gəlib firona yaxınlaşdı. Fironun ondan yavaş səslə nə soruşduğunu Baş kahin belə eşitmədi. Gizli keşikçi başçısı sağ əlini dağların ətəyinə tərəf uzatdı. Necə olmuşdu ki, elə ilk baxanda bunu görməmişdi?! Arxadakı boz və quru dağlar öz ətəklərində böyük, ucu biz çəngəlləri necə gizlədə bilmişdilər?! Baş kahin

ilk öncə bu çəngəllərin altı olduğuna diqqət etdi. Firon ona sarı dönmədən soruşdu.

– Baş kahin bu çəngəlləri görürmü?

– Görürəm. Allahlar sənə yar olsun.

– Baş kahin daha nə görür?

Baş kahin çəngəllərə bir daha diqqətlə baxıb bu dəhşətli mənzərəni artıq tam olaraq görə bildi. Hər çəngəlin başında nə idisə tuluq kimi bir şey vardı, amma bu tuluq qıvrıla-qıvrıla zəif-zəif hərəkətlər edirdi. Tuluqlar, əslində, bu çəngəllərə keçirilmişdilər. Baş kahin, nəhayət, anladı ki, bu tuluqlar tuluq deyil, insan bədənləridi, başları, əlləri var. Dəhşətli və dözülməz ağrıdan tuluqlardan inilti səsi belə gəlmirdi, iniltiyə belə bu hələ ölməmiş, çəngəllərin üstünə taxılmış bədənlərin gücü yetmirdi. Bəzən hansısa bir gücün eşqinə özlərindən xəbərsiz bu bədənlər bəzi hərəkətlər edirdilər, ancaq bu hərəkətlər o qədər gücsüz idilər ki, öz saplağı üstündə solmaqda olan zərif mehin incə ləçəklərini tərpətdiyi çiçəkləri xatırladırdı.

– Baş kahin çəngəl çiçəklərini gördümü? Bu adamlar əsl çiçək kimidirlər. Saplaqları da öz yerində. Saplaq olmasa çiçək olmaz. Baş kahin idi, deyirdi: insanlar çiçəkdir. Həqiqətən, elədir.

Firon Psammetix bu mənzərəni zövqlə seyr etməkdə davam edirdi. Altı çəngəldə hələ də qıvrılan bu adamlardan ikisi südəmər körpə, ikisi qadın, ikisi də kişi idilər. Körpələr, demək olar ki, artıq tərpənmirdilər və onların bədənlərinə keçirilib dikəldilmiş bu çəngəllər daha çox açılmamış qönçəyə oxşayırdılar. O birilər pardaxlanmış çiçəklər kimiydi. Baş kahin başını yerə dikib gözlərini qara torpaqdan yuxarı qaldıra bilmədi.

– Bu adamlar məni aldatmağa çalışmışdılar. İki körpə, iki dilsiz arvad və iki çoban … İndi isə onlar çiçəyə döndülər. Baş kahin haqlı idi. – Psammetixin sözlərindəki rişxəndi hiss etməmək mümkün deyildi.

Firon öz intiqamını ala bildiyinə görə məmnun idi. İkiqat məmnunluğu isə ona görə idi ki, Baş kahinə də sübut etmişdi: insanlar çiçəyə ancaq bu cür çevrilə bilərlər. Bu ancaq çəngələ keçirildikdə baş verə bilər. Niyə Baş kahin bildiklərini heç də həmişə onunla bölüşmək istəmir?! Allahlardan, xüsusən də, Ptax allahından çəkinir. Qoy çəkinsin! O,

Psammetix isə Misir xalqının intiqamını bu frigiyalı çobanlarda qoymadı qalsın.

Artıq kəcavəsinə qalxmaq istəyən firon Baş kahinin arxadan kürəyinə iti neştər kimi sancılmaq istəyən pıçıltısından diksindi.

– Psammetix lütf edib mənə diqqət edərmi?

Firon maraq və təəccüblə Baş kahinə baxdı. Onun qırxıq və eybəcərləşmiş üzündə heç bir dəyişiklik görmədi və rahat-rahat köks ötürdü:

– Söylə!

Baş kahin sol əlini bir-birinin arxasınca dağ ətəyi boyu basdırılmış çəngəllərin düz qarşı tərəfində yolun o biri üzündəki al, qırmızı, sarı çiçəkliyə tərəf uzatdı.

Firon Baş kahinin işarə etdiyi o tərəfə ani bir nəzər saldı, sonra baxışını döndərib Baş kahindən «nə olsun?» soruşmaq istəyirdi ki, nə isə onun baxışlarını yenidən ağır-ağır çiçəkliyə tərəf yönəltdi. Baş kahin cınqırını belə çıxarmadan əllərini dizlərinə toxundurub hərəkətsiz qalmışdı. Firon Psammetix isə təəccübdən bərəlmiş gözlərini gördüyü bu mənzərədən ayıra bilmirdi.

Yolun o biri üzündəki çəmənlikdə rəngbərəng çiçəklər göz önündəcə bir-bir torpaqdan ağır-ığır dikəlib sarı, qırmızı libaslara bürünmüş adamlara çevrilirdilər.

*2008-ci il*

# Adı özündən uzun Gülü qah-qah xanımın nağılı

*Məhəmmədhüseyn Təhmasibin xatirəsinə*

Günlərin bir günü Sarı divlə Kələ divin sözləri bir sevgili nigar üzündən çəp düşür. Bu deyir, o eşitmir, o deyir, bu eşitmir. Uzun illərin ayrılmaz könül sirdaşı olsalar da, nəhayət, onların da arasından Şıraşır bulağın dəcəl suları özünə yol eləyib axıb keçir. Bu ayna kimi təmiz və lal suların üzündə Adı özündən uzun Gülü qah-qah xanımın gözəl və unudulmaz çöhrəsi, elə bil, yapışıb qalmışdı. Dağın-daşın ceyranı, cüyürü, vahiməli meşələrin pələngi, ayısı, çölün-düzün qurdu, çaqqalı su içmək üçün başını Şıraşır bulağın dadlı suyuna əyəndə hər dəfə bu çöhrəni görürdülər. Dörd bır tərəfdə söz-söhbət ancaq bu münaqişədən gedirdi. İki qardaş divin bir-birindən küsməsi, bu küsmək azmış, bir-birinə hətta dava günü təyin etməsi cəmi canlılar aləmini məyus və pərişan etmişdi.

Bu acı xəbər dağları, düzləri aşıb gəlib Adı özündən uzun Gülü qah-qah xanıma çatdı. Adı özündən uzun Gülü qah-qah xanım ağ eyvanlı, büllur çilçıraqlı sarayında oturub aya deyirdi, sən çıxma, mən çıxacağam, günə də deyirdi, sən də çıxma, mən çıxacağam. Xəbəri eşidən kimi işıqlı çöhrəsinə kölgələr düşdü, qaşları çatıldı, nə çatıldı. Çox düşündü, çox daşındı, nəhayət, belə bir qərara gəldi. Məmləkətinin ən güclü pəhləvanlarını yanına istədi.

Hamıdan əvvəl hələ heç bir kimsənin yerindən tərpədə bilmədiyi qoşa pərli əmudu əlində quş lələyi kimi oynada-oynada Təxtiçiraq pəhləvan gəldi, diz çöküb söylədi:

– Əmr etmisən, mən gəlmişəm. Ayağına sərilmişəm. Nə istəyin varsa söylə. Canla-başla yerinə yetirməyə hazıram, biləsən.

Bunları söyləyib əlindəki əmudu sağına-soluna elə bir sürət ilə fırlatmağa başladı ki, qoşa pərli əmud az qaldı bunun əlindən çıxsın və Adı özündən uzun Gülü qah-qah xanımın düz başından dəysin.

Gülü qah-qah xanım mehriban bir tərzdə Təxtiçiraq pəhləvanı birtəhər sakitləşdirib oturduğu taxtın sağında ona yer göstərdi. Təxtiçiraq pəhləvan əlindəki əmudu bir tərəfə qoyub elə təzəcə bardaşını qurub oturmuşdu ki, saray həyətindən bir dəli nərə səsi eşidildi. Bu, Nəhəngani-nəhəng pəhləvanın səsi idi. Az keçmədi, çox keçdi, çox keçmədi, az keçdi, bunlar oturan taxt otağının qapısı birdən taybatay açıldı, otağa par-par parıldayan sivri bır qılınc yavaş-yavaş girməyə başladı. Qılıncın ucu yox, bucağı yox. Üç dəfə taxt otağını dolanandan sonra, nəhayət, qılıncın qəbzəsi göründü. Sonra bu qəbzədən bərk-bərk yapışmış barmaqlar, sonra da bir dəmirbilək əl göründü. Əl öz arxasınca dəmirbilək Nəhəngani-nəhəng pəhləvanı çəkib içəri saldı. Bu da gəlib Gülü qah-qah xanımın oturduğu taxtın düz qarşısında dizlərinin hər ikisini yerə basdı, sonra xeyli uca səslə dedi:

– Əmrinə müntəzir mənəm. Hər cəfana dözən – mənəm. Canım sənə fəda, canım. Nə istərsən, istə, sənin sözün mənim üçün qanundur.

Adı özündən uzun Gülü qah-qah xanım bu pəhləvana da xeyli şəfqətlə baxdıqdan sonra özünün sol tərəfində ona yer göstərdi. Nəhəngani-nəhəng pəhləvan Təxtiçiraq pəhləvana yüngülcə baş əyib keçib ədəblə taxtın sol tərəfində əyləşdi.

Üçüncü gələn Əş-əş pəhləvan oldu. Əş-əş pəhləvan divdən dönmə pəhləvan idi. Başı az qalırdı, göylərə çata. Kimin yanında əlini ağzına tutub qışqırsaydı, qulağı partlardı. Kimə qaşlarını çatıb zəhmlə baxsaydı, bağrı yarılardı.

Bu da gələn kimi üzünü Gülü qah-qah xanıma tutub çox uçadan səsləndi:

– İkiləri xan əkbəri!..

Bunları deyib nə illah etdisə daha sözünün dalını gətirə bilmədi, kirimişcə Gülü qah-qah xanımın qarşısında durub qaldı, qəzəbindən şeşə bığları əsim-əsim əsməyə başladı. Bunun bığları hələ çox əsəcəkdi, amma Adı özündən uzun Gülü qah-qah xanım incə əliylə işarə edib Əş-əş pəhləvanı da qənşərində oturtdu. Hər üç pəhləvan yerlərində qurcuxub bir-birinin üzünə maddım-maddım baxmaqda idilər ki, Gülü qah-qah xanım nazik boğazını yüngülcə arıtlayıb onların intizarına son qoydu və həmişəki naz-qəmzə ilə sözünə başladı:

– Gün buralara, kölgə dağlara...

Bu sözlərdən sonra hamı ətrafdakılar qulaqlarını şəkləyib nəfəs belə çəkmədən tam bir sükut içinə girdilər. Adı özündən uzun Gülü qah-qah xanım məmnun halda söhbətinə davam etdi:

– ...kölgə dağlara. Ey mənim məmləkətimin adlı-sanlı, seçmə pəhləvanları! Bəs bilin və agah olun ki, küfəzlikdə misli-bərabəri olmayan Sarı divlə məmləkətin ən göyçək divi sayılan Kələ divin dava günü artıq təyin olunmuşdur...

Bu yerdə pəhləvanların hər birinin sinəsindən odlu bir "ah" nidası qopdu. Hamısı sidq-ürəklə, dərindən dərin təəccüb və təəssüf etdilər.

– Bəli, həqiqətən, belədir ki var. – Adı özündən uzun Gülü qah-qah xanım sözünə davam etdi. – Təəssüf ki, bu dünyada heç nə əbədi deyildir. Necə ki, bizim bu divlərin də qardaşlığı əbədi olmadı. Qismət deyilmiş. Bir də hayıf, min də hayıf, min üstünə bir də hayıf... Məmləkətin düşmənləri sevinə-sevinə bir deyəcək, yüz güləcək, yüz deyəcək, bir güləcək. Gün buralara, kölgə dağlara...

Gülü qah-qah xanım sözlərini bitirib şümayil barmaqlarını bərk-bərk bir-birinə sıxaraq dizlərinin üstündə daraqladı. Kədərli çöhrəsi halsız-taqətsiz bir tərzdə gup-gup guppuldayan sinəsinə əyildi. Gur saçları açılıb ətrafa töküldü. Bir xeyli sükut içində beləcənə vaxt keçdi.

Pəhləvanların ürəkləri yeddi dağ keçisinin dərisindən tikilmiş yay kimi sıxılmışdı. Hərdən-birdən başlarını qaldırıb dərindən bir ah çəkirdilər və sonra naçar-naçar başlarını yenə də yerə dikirdilər.

Ətrafdakı sükutu pozmağa heç kimin cürəti çatmırdı.

– İkiləri xan əkbəri! Anam-bacım Adı özündən uzun Gülü qah-qah xanım! – Nəhayət, cəsarətə gəlib sükutu pozaraq Əş-əş pəhləvan ağır-ağır dilləndi. – Anam-bacım, günahların hamısı... İkiləri xan əkbəri...

Əş-əş pəhləvanın sözünü bu yerdə Təxtiçiraq pəhləvan yarımçıq kəsdi:

– Ey Əş-Əş pəhləvan! Doğrudur, sən divdən dönmə pəhləvansan, sözün qanundur. Amma biləsən ki, indi kiməsə günah oxumağın heç vaxtı deyil. Biz gərəkdir düşünək ki, nə tövr edək, bu ixtilafın qarşısını alaq. Təki bizim məmləkət divlərinin arasında hərb olmasın. Bütün aləm bizə qah-qah çəkib gülər. Gün buralara, kölgə dağlara.

Son sözlərini deyəndə Təxtiçiraq pəhləvan altdan-altdan adı özündən uzun Gülü qah-qah xanıma baxdı görsün ki, danışığı onun xoşuna gəldi, ya yox. Gülü qah-qah xanım başını ehmalca razılıq əlaməti olaraq tərpətdi.

Bunların bu cür gizli baxışmasını Nəhəngani-nəhəng pəhləvan da gördü. O da Təxtiçiraq pəhləvanın dediyini təsdiq etməyə tələsdi. “Düz deyir, düz deyir...” dedi.

– Bəs belə isə bir tədbir tökün, indi biz nə edək? – Gülü qah-qah xanım ümidlə soruşdu.

Hər üç pəhləvan, artıq Əş-Əş pəhləvan da onlara qoşulmaq qərarına gəlmişdi, cani-dildən, səmimiyyətlə bir-birinin sözünü kəsməyə başladılar:

– Bunun ancaq bir yolu vardır! Bircə, başqası yoxdur. İkiləri xan əkbəri!..

– Nə yoldur o yol?

– O yol o yoldur ki...

Bu yerdə nökərlər xəbər gətirdi ki, bəs bir atlı çapar gəlib təcili Gülü qah-qah xanımı görmək istəyir.

– Gəlsin. – Gülü qah-qah xanım əmr etdı. Hamı hüzurdakılar təlaş içində yeni bir bədxəbəri gözləməyə başladı.

Çapar içəri girən kimi Gülü qah-qah xanım incə, uzun boynunu ona sarı çöndərib nəvazişlə soruşdu:

– Səni kim göndərib?

Çapar başını əyib cavab verdi:

– Mən Sarı divdən Adı özündən uzun Gülü qah-qah xanıma xəbər gətirmişəm.

– O zaman məhtabın adını söylə!

– Məhtabın adı "Naqquli"dir. – Çapar cavab verdi.

– Gülü qah-qah xanım mənəm, nə xəbər gətirmisən, söyləyə bilərsən. – Adı özündən uzun Gülü qah-qah xanım bu dəfə açıq-aşkar təşviş içində üzünü çapara tutdu.

– Ey Adı özündən uzun Gülü qah-qah xanım! Bütün divlərin ən məşhuru Sarı divin vəsiyyətini dinlə! Sarı div əmr etdi sənə söyləyim ki, artıq sabah sübh tezdən sənin mübarək adını əlində və qəlbində bayraq edərək o, amansız və ölümcül bir hərbə qədəm qoyacaq. Uzun illər boyu sənin gözəlliyindən aldığı şərəfi və... bağışla məni, ləzzəti ona halal et və onun son hədiyyəsini qəbul elə!.. Sarı div sənə bu sehirli almanı vəsiyyət etdi. Onu yesən ölüm Allahı səndən əbədiyyən gen gəzəcək. – Çapar birnəfəsə dediyi bu sözlərdən sonra bir anlıq nəfəsini dərdi və dediklərinə yavaş səslə bu sözləri əlavə etdi:

– Sən özün bu dünyadan bezənə qədər.

Sonra çapar çiynindəki xurcundan bir qızıl alma çıxartdı, Adı özündən uzun Gülü qah-qah xanımın önünə qoydu və bir kənara çəkilib durdu. Bu çapar susunca nökər dübarə hövlnak içəri girdi:

– Qibleyi-aləm, bir çapar da gəldi. Bu da səni çox təcili görmək istəyir.

– Gəlsin... – Adı özündən uzun Gülü qah-qah xanım bütün vücudu, (həm də qəlbi) ilə dərin bir qəm dəryasına batdı.

Təzə çapar içəri daxil olan kimi gedib Gülü qah-qah xanımın qarşısında diz çökdü. Gülü qah-qah xanım bu çapardan da haman sehirli sözü, yəni mehtabın adını söyləməsini istədi. Bu çapar da dedi: "Naqquli". Bundan sonra çapara "danış" əmri verildi və "danış" əmrini alınca çapar dərin bir hüzn içində sözünə başladı:

– Mənim ağam, mənim sahibim Kələ div sənə öz sevgili salamlarını göndərir. Bil və agah ol! Sabah sübh tezdən Kələ div dilində və ürəyində sənin mübarək adın ölümcül hərb meydanına qədəm qoyacaq. Bu fani dünyanı tərk etməzdən əvvəl o istədi ki, sənə özündən bir yadigar qoyub getsin. O yadigar budur! – Belə deyib çapar xeybəsindən bir yekə qızıl üzük çıxarıb Gülü qah-qah xanımın ayaqlarının altına qoydu:

– Bu üzük sehirli üzükdür. Onu barmağına taxdınsa səni bir bəniadəm görməz. Div görər! – Çapar məclisdəki pəhləvanlara "xala, xətrin qalmasın" baş endirib sözlərinə belə bir əlavə etdi.

Gülü qah-qah xanım nökərlərə əmr etdi ki, uzun yol gəlib yorulmuş bu çaparların xidmətlərində dursunlar, yemə-içmələrini versinlər. Bunlar da dincəlib onun qərarını gözləsinlər. Çaparlar baş endirib çıxdılar. Gülü qah-qah xanım bircə-bircə sağında-solunda oturmuş pəhləvanları yenə də kədərli bir baxışla süzüb belə söylədi:

– Gün buralara, kölgə dağlara. İndi sözünüz nədir? Vaxta az qaldı. Bu hərb gərəkdir baş tutmasın. Amma necə? – Əş-Əş pəhləvanın yerində qurcuxduğunu görüb Gülü qah-qah xanım sözünü belə bitirdi:

– Gəlin, bu işin günahkarını indi axtarmayaq. Lazım olsa, sonra axtarıb taparıq.

Pəhləvanlar Adı özündən uzun Gülü qah-qah xanımla razılaşdı. Hamı yenidən dərin fikrə getdi. Bir xeyli beləcənə ağır bir sükut içində vaxt yavaş-yavaş ötməyə başladı. Gülü qah-qah xanım çox düşündü, çox daşındı, nəhayət, belə bir qərara gəldi. Əlini əlinə vurub nökərlərə buyurdu:

– Mərcani cadu xanımı çağırın, gəlsin!

Çağırdılar, Mərcani cadu xanım tək gəlmədi, ətrafındakı üç xanımla bir yerdə gəldi. Bunlar Sədət qönçə xanım, Xanı xanım və Minagərdən xanım idi.

Mərcani cadu xanım Adı özündən uzun Gülü qah-qah xanımı görən kimi gözünü yumub ağzını açdı, ağzını yumub gözünü açdı, əlini əlinə vurdu, dişinin dibindən çıxanı çıxarıb qoydu ortalığa:

– Əkil-bəkil quş idi? Bir dama qonmuş idi? Xeyirdimi, şərdimi, olandımı, yalandımı? Nə oldu ki, yada düşdük? Qarğa uçub sar qalıb, yeri, yurdu dar qalıb. İş ki çətinə düşübdü, sənə ahu-zar qalıb... Bilirəm, nə baş veribdi, yaxşı bilirəm. Yaydan sonra yaz gələr. Sənə bu da az gələr. Vaxtında mən sənə söyləmədimmi ki, bu binəva-biçarələrə yazığın gəlsin, bunlar da... nolsun, divdilər, nədilər, bunların da axı qəlbləri-ürəkləri var?! Söylədim? Söylədim! Esitdin? Esitdin! Amma bir qulağından alıb o biri qulağına ötürdün, o biri qulağından alıb bu biri qulağına ötürdün. Mən sənə söyləmədimmi, qız, ki, gəl sən razılıq ver, mən bir cadu edim, sən Adı özündən uzun Gülü qah-qahdan cəmi vur-tut iki dənəcə düzəldim, gedin, siz də xoşbəxt olun, o binəva-biçarələr də xoşbəxt olsunlar?! Söylədim ki, söylədim! Başa düşürsən, onların ikisi də səni dünyalar qədər seviiiir... Bircə bu nazənin huri mələklərə bax... – Mərcani cadu xanım Sədət qönçə xanıma, Xanı xanıma və Minagərdən xanıma işarə etdi. – Bax, bir də bax, görürsən necə xoşbəxtdilər?! Necə bir-birinə oxşayırlar?!. Deyə bilərsən bunların hansısı hansından yaranıb? Bu dünyaya qan udduran pəhləvanlar da elə bunun arzusunda deyilmiydilər?! Desinlər. İdilər! Onların sifarişidir, biləsən. İndi nə oldu, nə olmadı, gəldin çıxdın mən qoca nənən deyənə, çıxmadın?! Onda razı olmadın, indi daha məndən nə istəyirsən? Niyə qoymursan məni, bu gözəl-göyçək qızlarımla bir yerdə bu gen dünyada rahat nəfəs alım, yaşayım?! Sən bir Əş-Əş pəhləvana bax! Sən bir buna bax... Necə bunlar bir-birinə yaraşırlar... Bu təbiətin yaratdığı, bu da mən qoca nənənin yaratdığı!!! Əkil-bəkil quş idi? Əkil-bəkil quş idi!!! Bir dama qonmuş idi? Bir dama qonmuş idi!.. Eh...

Mərcani cadu xanım bunları birnəfəsə deyib bir ləhzə nəfəsini dərdi, bardaş qurub bir tərəfdən bu da əyləşdi.

Təxtiçiraq pəhləvanın gözü qalmışdı Xanı xanımda, Əş-Əş pəhləvanın gözü qalmışdı Sədət qönçə xanımda və Nəhəngani-nəhəng pəhləvanın gözü qalmışdı Minagərdən xanımda. Gözlərini bunlardan bircə

an belə çəkmədən bu pəhləvanlar elə bil cuşa gəldilər, bir-birinin sözünü kəsə-kəsə Mərcani cadu xanımın dediklərini təsdiq etməyə başladılar:

– Düz deyir, doğru söyləyir, doğru deyir, düz söyləyir. Elə biz də onu deyirdik... demək istəyirdik... Gəl sən bu işə razılıq ver. İkiləri xan əkbəri...

Bunlar belə deyəndən sonra Adı özündən uzun Gülü qah-qah xanım başa düşdü ki, Kələ divlə Sarı divin bir-birilə hərbə girməsinin qarşısını ancaq və ancaq Mərcani cadu xanımın təklifinə razı olmaqla ala bilər.

– Nə deyirəm ki... mən razı. – Nəhayət, utancaq bir halda dilə gəlib gözəl başını yenə sinəsinə əydi və hamı hüzurdakıların ürəyindən tikən çıxartdı.

Mərcani cadu xanımın məqsədi vardı. Devlərin Gülü qah-qaha göndərdikləri sehirli hədiyyələrə tamah salmışdı. Odur ki, soruşdu:

– O alma ilə o üzüyü mənə bağışlarsanmı? Əkil-bəkil quş idi?..

Adı özündən uzun Gülü qah-qah xanım "bağışlaram, gün buralara, kölgə dağlara..." cavab verdi.

Mərcani cadu xanım hamıya işarət etdi ki, otaqdan çıxsınlar. Otaqda qaldı bir Gülü qah-qah xanım, bir də Mərcani cadu xanımın özü. Bir müddət keçdi, Mərcani cadu xanım da otaqdan çıxdı.

Pəhləvanlar və xanımlar təkrar otağa girdikləri zaman bir-birinə üzbəüz oturmuş və diqqət içində bir-birinin ora-burasına baxan iki huri-mələk gördülər. Bu dünya gözəllərinin ikisi də Adı özündən uzun Gülü qah-qah xanımlar idi. Hamı ürəklərində Mərcani cadu xanıma "əhsənül-əhsən" deyib rahatlıqla köks ötürdü. Qərara aldılar ki, gecənin xeyrindənsə səhərin şəri yaxşıdır, sübh tezdən Adı özündən uzun Gülü qah-qah xanımların hər ikisi, və o biri xanımlar, pəhləvanlar, nökərlər, naiblər, qaravaşlar, cariyələr hamısı bir yerdə divlər məskəni Naqquli vadisinə, bu qardaş davasının qarşısını almağa yola düşsünlər.

Bəli, o biri gün sübh tezdən yola çıxmaq məqsədilə səfərə hazırlaşmağa başladılar. Artıq gecəyə az qalırdı. Divlər məskəni Naqquli vadisinə qədər yol asan yol deyildi, bu yol bir ağır yol idi. Gethaget gedəcəkdilər. Hamı dərin bir fikir içində sabahkı günün onlara nə nəsib

edəcəyini düşünə-düşünə hərə bir küncə çəkilib gözlərinin acısını almağa başladı.

Sübh tezdən yay günəşin ilk şüaları hələ büllur sarayın minalı gümbəzində bərq vurmamış çaparlar sevincək atlarına süvar olub xoş xəbərlə Divlər vadisinə doğru çaparaq yola düşdülər. Sarayın qarşısında kəcavələr artıq bəzədilmiş, atlar, qatırlar yəhərlənmişdi. Nökərlər, qaravaşlar yola çıxmaq əmrni gözləyirdi. Pəhləvanlar atlara, xanımlar qatırlara mindilər. Adı özündən uzun Gülü qah-qah xanımlar ikisi də bir kəcavəyə mindi. Karvanbaşı isarət etdi, karvan hərəkətə gəldi.

Yol boyu dəvələrin boynundan asılan zınqırovların ahəngdar səsinə qulaq verə-verə Köhnə Adı özündən uzun Gülü qah-qah xanım dərin düşüncələrə qərq olub qalmışdı. Üzünə gözəl bir təbəssüm qonmuşdu. Naqquli vadisində hər iki divlə keçirdiyi məhtablı gecələrin vaqeələri bir-bir gözlərinin qarşısından gəlib keçirdi. Budur, Sarı dev yenə də ağzı köpüklənə-köpüklənə cürbəcür şücaətindən danışır... Budur, Kələ divin göyçək çöhrəsini yenə qara buludlar alıb... Adı özündən uzun Gülü qah-qah xanım belə düşünürdü. “Vaxtında Divlər məskəni Naqquli vadisinə yetişib qardaş divlər arasındakı savaşın qarşısını ala biləcəyəmmi?! Günahkar mənəm, mən özüməm, heç bir başqası deyil. Mərcani cadu xanım çox doğru deyirdi. Sarı div də, Kələ div də məni bütün qəlbləri ilə sevirlər. Məhtablı gecələrdə onlar bunu dəfələrlə sübut ediblər. Bütün məmləkətin bu məhəbbətdən xəbəri var. Mən isə... mən isə tək ola-ola hər ikisinə mehr bağlamışdım, bu düzgün deyil, heç düzgün deyil. Onlardan ancaq biri mənimki ola bilər. Amma hansı?? Gün buralara, kölgə dağlara. Gün buralara, kölgə dağlara.”

Bunları düşünə-düşünə köhnə Adı özündən uzun Gülü qah-qah xanım başını çöndərib təzə Adı özündən uzun Gülü qah-qah xanımı sınayıcı bir nəzərlə süzdü. Təzə Gülü qah-qah xanımın gözləri, elə bil, işıqla dopdolu idi, üzünün bütün əzalarını təbəssüm bürümüşdü. O da öz düşüncələrinin burulğanında batıb qalmışdı. O da Naqquli vadisindəki məhtablı gecələri, amma bir az başqa cür xatırlayırdı. Budur, Sarı div yenə də ağzı köpüklənə-köpüklənə özünün cürbəcür şücaətindən danışır... Budur, Kələ divin göyçək

çöhrəsini yenə qara buludlar alıb... Düşünürdü. “Görəsən, vaxtında Divlər məskəni Naqquli vadisinə yetişib qardaş divlər arasındakı savaşın qarşısını ala biləcəyəmmi?! Günahkar mənəm, mən özüməm, heç bir başqası deyil. Mərcani cadu xanım doğru deyirdi. Sarı div də, Kələ div də məni bütün qəlbləri ilə sevirlər. Məhtablı gecələrdə onlar bunu dəfələrlə sübut ediblər. Bütün məmləkətin bu məhəbbətdən xəbəri var. Mən isə... mən isə tək ola-ola hər ikisinə mehr bağlamışdım, bu düzgün deyil, heç düzgün deyil. Onlardan ancaq biri mənimki ola bilər. Amma hansı?? Gün buralara, kölgə dağlara. Gün buralara, kölgə dağlara.”

Xeyli bu cür fikirlərə qərq olub yol getdilər.

O biri yolçular da başları biri-birinə elə qarışmışdı ki, özlərindən başqa hər şeyi unutmuşdular. Təxtiçiraq pəhləvanın atı az qala Xanı xanımın qatırına yapışacaqdı. O, bir bəni-insanın qaldıra bilmədiyi qoşapərli əmudunu ilk dəfə qaldırmağının tarixçəsini şirin-şirin nəql etməkdə idi.

Nəhəngani-nəhəng pəhləvan ağzını, gözünü açdıqca açaraq huş-guşla onu dinləyən Minagərdən xanıma öz uzun qılıncını havada silkələyə-silkələyə cürbəcür hərəkətlər göstərirdi və əlinin deyil, qılıncının boy atıb uzanmasının sirrindən danışırdı.

Əş-Əş pəhləvan isə tam bir sükut içində, bir kəlmə danışmadan hayıl-mayıl olaraq ondan gözlərini heç cür çəkə bilməyən Sədət Qönçə xanımın əlindən bərk-bərk yapışmışdı və onlar da biri at, biri qatır üstündə beləcə dinməzcənə yol gedirdilər.

Köhnə Gülü qah-qah xanım bu sevgililəri hüsn-rəğbətlə süzə-süzə belə bir qərara gəldi. “İlk seçim Təzə Gülü qah-qah xanımınkı olmalıdır. Gün buralara... Nə görüb hələ o bu dünyada?! Heç nə görməyib. Devlərin hansı onun xoşuna gəlsə, qəbulumdu, eybi yoxdur, qoy o biri mənimki olsun. Kölgə dağlara. Təki bu savaşın qarşısı alınsın.”

O biri təzə Gülü qah-qah xanım isə bundan fərqli olaraq, belə düşünürdü. “İlk seçim təzə Gülü qah-qah xanımınkı olmalıdır. Gün buralara... Nə görüb hələ o bu dünyada?! Heç nə görməyib. Devlərin hansı onun xoşuna gəlsə, qəbulumdu, eybi yoxdur, qoy o biri mənimki olsun. Kölgə dağlara.. Təki bu savaşın qarşısı alınsın.”

Karvan Naqquli vadisinə çataçatda idi. Vadinin məşum sakitliyi hamının canına xof salmışdı. Karvanın zınqırovlarının səsi batmışdı, eşidilmirdi. Yolun sağına-soluna vahimə hopmuşdu. Pəhləvanlar da artıq səslərini çıxartmırdılar, əməlli-başlı quzuya dönmüşdülər. Xanımlar böyük bir maraq içində ətrafı seyr edirdi. Hamısının ürəyi təlaşla vururdu. Sarı divlə Kələ divin savaşının qarşısı alınıbmı, alınmayıbmı? Çaparlar vaxtında yetişib Mərcani cadu xanımın hünərindən Naqquli vadisindəki canlılara və cansızlara xəbər çatdıra biliblərmi, bilməyiblərmi?..

"Savaşın qarşısı alınıbsa – xoş. Yox, əgər alınmayıbsa... Bunu yaratmağın nə mənası vardı?" – Köhnə Adı özündən uzun Gülü qah-qah xanım təzə Adı özündən uzun Gülü qah-qah xanıma qaşlarını çatıb qəfildən iti bir nəzər saldı.

Təzə Adı özündən uzun Gülü qah-qah xanımın isə gözlərindən xeyli səmimi bir mehribançılıq və sevgi yağdı. Gözlərini qaçırmadan köhnə Gülü qah-qah xanımın düz gözlərinin içinə baxa-baxa o da ürəyində başqa cür düşündü: "Savaşın qarşısı alınıbsa – xoş. Yox, əgər alınmayıbsa... Bunu yaratmağın nə mənası vardı?"

Elə bu zaman Naqquli vadisinə yavaş-yavaş günəş doğurdu.

*2008-ci il*

# İstintaq

**Yeni həyata başlamazdan əvvəl, qeyri-müəyyən vaxtlarda.**

Olub. Dəfələrlə özü sınaqdan keçiribdi ki, dənizin lap dibinə baş vurandan sonra orada davam gətirib qalmaq mümkün deyil. Sudakı hansısa naməlum qüvvə onun müqavimətsiz vücudunu qov kimi alıb gətirib suyun üzündən bir qədər aşağıda, ancaq özünə bəlli yerdə saxlayır. Nə sudan yuxarı başını çıxarda bilirsən ki, nəfəs alıb yaşamaq mümkün olsun, nə də təkrar suyun dibinə baş vura bilirsən. Can atdığın dibə enmək artıq mümkün olmur, orada qərar tuta bilmirsən. Dənizin dibi səni özündən itələyir.

**İyirmi yaşla qırx yaş arasında.**

O yavaş-yavaş və məqsədəyönlü şəkildə dibə can atırdı. Heç kimin gözünə görünməyəcəyi bir yerə. Heç kimdən özünün xəbər tuta bilməyəcəyi, heç kimin ondan xəbər, ən vacibi də elə bu idi, heç kimin ondan xəbər tuta bilməyəcəyi dib! Gözəgörünməzlik! Məqsəd bu idi.

Ondan soruşan olsaydı ki əgər, sənin ən böyük arzun bu dünyada nədir, de bizə, biz onu yerinə yetirək, yəqin ki, elə bu gözəgörünməzlik xiffətini deyərdi. Arzu, doğrudan da, xeyli zamandı əməlli-başlı xiffətə çevrilmişdi. Ta ki uşaqlığından indiyənəcən bu arzu-xiffət onun əvvəl qəlbinə,

sonra beyninə, daha sonra bütün ruhuna hakim kəsilmişdi. Gənclik illərinin bu arzu ilə bağlı bir necə məqamı vardı ki, indi onları az qala utana-utana xatırlayırdı. Gecələr gözəgörünmədən kimlərin yatağına girməmişdi?! Amma zaman keçdi, gəncliyin hamıya yaxınlaşmaq ehtirası yavaş-yavaş, özündən xəbərsiz hamıdan uzaqlaşıb qaçmaq, heç kimin gözünə görünməmək niyyətinə, xiffətinə çevrildi.

**Yeni həyatın (yeni mənzilə köçməyinin) ilk günü. Sabah tezdən.**

...Güzgü yenə də saçının ağlığını olduğundan artıq göstərdi. "Bu güzgü məni mənə bir cür, başqalarına başqa cür göstərir. Hayıf!" Özünə güzgüdə bir xeyli diqqətlə nəzər yetirib hələ bir bic-bic göz vurandan sonra, nəhayət, güzgüdən aralanaraq balaca, amma bir adam üçün son dərəcə rahat döşənmiş otağa keçdi.

**Köhnə həyatın son günlərindən biri. Saat 18:30.**

Hələ hava öz işığını axıra qədər qeyb eləməmişdi, o, böyük və yaraşıqlı yazı masasının arxasında rahat-rahat yellənən qara dərili kreslonun məstedici yumşaqlığına bataraq mürgü vurmağa başladı. Əlbəttə ki, öz əvvəlki mənzilində idi.

**Yenə həmən gün. Saat 19:34.**

Qəfildən qulağına bir səs gəldi. Səsin gətirdiyi xəbər onun üçün nə vaxtdan bəri həyata keçirmək istədiyi, artıq detallarını beynində götür-qoy elədiyi haman gizli niyyətini reallaşdırmaq üçün son işarə oldu. Stəkan son damlaya qədər su ilə doldu və o bütün qəlbi ilə əmin oldu ki, artıq geriyə yol yoxdur. Xəbər isə bundan ibarət idi...

**Yeni mənzilə köçməmişdən bir ay və on gün əvvəl.**

... Bu balaca və səliqəli həyət elə ilk baxışdaca xoşuna gəldi. Həyətin sahibəsi Nəimə xanım ətli qollarını gizlətməyə yer axtara-axtara ciddi-cəhdlə səsinə mülayimlik verməyə çalışırdı:

– Məəttəl qalmasaydım, həyətə yad adam salmaz idim... Əslində, ailə istəyirdim, daha sən ki öz ayağınla özün gəlmisən... Ailəlisiz siz?

– Yox.

– A...a...a... nə əcəb?..

Mənzil bir otaq, bir balaca mətbəx kimi bir bucaqdan, həmən mətbəxdən o tərəfdəki anlaşılmaz, hücrəyəbənzər, heç yerdən işığı düşməyən, amma yenə də işıqlı dördkünc bir dəhlizdən ibarət idi. Həyətdən içəri girən kimi əvvəl mətbəx gəlirdi, küncdəki krantdan damcılayan suyu Nəimə xanım cəld tərpənib "xırp" bağladı, sonra həmən otaq gəlirdi, – o qədər böyük deyildi, amma o qədər balaca da deyildi - ona sərf edərdi. Hücrəyəbənzər dəhlizdən isə ağlı bir şey kəsmədi.

– Burdan da, istəsən əgər istifadə etmək olar... – Nəimə xanım onun səssiz çaşqınlığını əlüstü başa düşdü. – Pal-paltar yığmaq olar, qonağın gəlsə... bir dənə çarpayı – balacasından bura yerləşdirmək olar mən bilən...

**Yeni mənzildə yeddi gün, yeddi gecədən sonra.**

Həmən gecə yuxuyagəlməz bir gecə idi. Dəhlizdən qəribə səslər eşidilməyə başladı. Ya pişik miyoldayırdı, ya da uşaq səsiylə kim idisə ağlayırdı. Yorğanın altındaca büzüşdü, canını vicvicə aldı. Az sonra bu səslər başqa bir səslə əvəz olundu. Döşəmənin cırıltısından belə başa düşmək olurdu ki, balaca dəhlizdə kim isə ora-bura gəzişir və hərdən-birdən dodaqaltı donquldana-donquldana deyinir. Bu səslər qulağına aydınca gəlib girməsəydi, elə bilərdi ki, yuxu görür. Həyatında ilk dəfə idi ki, belə xoflanmışdı. Səhərəcən yuxusu ərşə çəkilmədimi, çəkildi.

**Yeni mənzilin təmirindən üç gün əvvəl.**

Əlimədəd soraqlaşıb-eləmədən elə birbaşa ayaqları onu gətirib Nəimə xanımın həyətinə salmışdı. Məhəllə də, həyət də, ev də onun ürəyincə idi. Beşcə dəqiqənin içində hər ikisi bütün təklif-tələblərini razılaşdırıb qurtardılar. Elə sabahı gün Əlimədəd ustaları töküb təmirə başlaya bilərdi.

– Amma, sən Allah, ustalarına tapşır, həyəti çox zibilləməsinlər. Özləri də sakit gəlib ədəb-ərkanla sakit də çıxıb getsinlər. Tək arvadam, söz-söhbət

nəyə lazım?! – Nəimə xanım səsinə nazlı bir ciddiyyət qataraq bu cürə demişdi.

– Mənim də sizdən bir xahişim var. Burda təmir getdiyini bir adam qonum-qonşu bitməsin.

– Danışdıq. Bu məhlədə kimdən soruşursan soruş, mən sirriçində adamam. – Nəimə xanım çoxmənalı bir tərzdə gözlərinii zilləmişdi onun gözlərinin içinə və dediyinin sübutu kimi uzun müddət qırpmadan baxmışdı.

**Təmirdən sonra ikinci gün. Gecə saat 00:32.**

Camaatın ayağı küçə-bacadan kəsiləndən sonra Nəimə xanımın həyətinin qabağında bir maşın dayandı. Əliməded əlində iki böyük yük çantası maşından düşüb həyətə girdi. Gəlib təzə mənzilin qapısında çantaları əlindən yerə qoydu. Ciblərini eşələyib bir uzun açar çıxarıb qapını açdı, içəri daxil oldu, sonra çantaları gətirdi, qapını ayağının dalı ilə itələyib bağladı. Otağa keçdi, əynində gödəkçə çarpayının yanındakı kresloya çökdü. Rahat-rahat gərnəşib köks ötürdü. Canındakı yorğunluq hüceyrə-hüceyrə onu tərk eləməyə başladı.

**Həmən gün. Gecə saat 00:38.**

Beynindən sürətlə bu keçdi ki, qapını arxasınca bağlayıb təzə mənzilinə daxil olanda, əslində, qapını bütün keçmişinin üzünə bağlamış oldu.

**Yeni mənzilə köçəndən üç gün sonra.**

Onun yoxa çıxmağının səs-küyü özünün gözlədiyindən böyük oldu. Gecə düşənə qədər evdən çıxmadığına, yorğan-döşəkdə heç nə barədə düşünmədən elə-beləcə eşələnib illərin ağrısını canından çıxardığına görə Nəimə xanımın onun üçün aldığı qəzetləri ancaq axşamlar diqqətlə nəzərdən keçirirdi. Hətta bir-iki dəfə müxtəlif telekanallar onun itməyilə bağlı verilişlər də hazırlayıb efirə buraxmışdılar. Bəzi verilişlərə maraqla baxmışdı. Bütün bunları tamam kənar bir adam haqqında olan kimi qəbul etməyə yavaş-yavaş alışırdı. Yaxınlarının uzaqdakı təlaşı isə öz qurbanı üçün göz

yaşı axıdan timsahları yadına salırdı və bu artıq zərrə qədər onun vecinə deyildi.

**Yeni mənzilə köçəndən sonra.**

Gecələr şəhərə çıxırdı. Özünü yenidən doğulmuş kimi hiss edirdi. O qədər rahat, o qədər asudə idi ki... Həvəs və ləzzətlə bu küçə mənim, o küçə sənin quş kimi az qalırdı uçsun. Orda-burda iki-bir, üç-bir üzləri-gözləri paltarlarının rənginə qarışmış adamlar görəndə əvvəl-əvvəl bunların kim olduğunu, nə iş ilə məşğul olduğunu başa düşməmişdi. Əsasən, böyük zibil yeşiklərinin yanında eşələnən bu adamlar baxan, amma görməyən baxışlarını çöndərib etinasız-etinasız başdan-ayağa qədər onun üzərindən sürüşdürəndə və təkrarən tələsmədən, ağır-ağır öz işlərinə davam edəndə yalnız bu zaman o, məsələni anlamış və əti ürpəşmişdi. Sonralar, tənha gecələrin alaqaranlığında bu adamlara isnişdikcə onun özünə də qəribə gəlirdi ki, əvvəl-əvvəl necə olmuşdu ki, o bu zərərsiz, nəcib adamlardan o cür diksinə bilmişdi.

**Yeni mənzilə köçəndən on üç gün sonra. Gecə saat 3:57.**

Ona əyan oldu ki, bu evsiz-eşiksiz, keçmişi və gələcəyi məhv olmuş iztirablı adamlarla onu birləşdirən bir sirr var. Amma sirrin özü nədən ibarət idi – bunu hələ bilmirdi. Dumanlı bir şəkildə ancaq onu duya bildi ki, elə bil, o da, bu adamlar da dünyanın heç bir başqa məxluquna bəlli olmayan son dərəcə vacib bir məlumata malikdirlər.

**Yeni həyatın bütün digər gecələri.**

Gecənin Bakısı bir başqa Bakı idi. Bu zaman şəhər ağır-ağır nəfəs alırdı, evlər onun hüceyrələri idi. Şəhər gecələr bəzən xoruldayırdı, bəzən də bu xorultu eynən yorğun və ruhu narahat adamlarda olan kimi iniltiyə çevrilirdi. Olurdu ki, şəhər yuxuda diksinirdi. Olurdu ki, şəhər yuxuda danışırdı. Kəlmələri seçib ayrı-ayrılıqda başa düşmək çətin olsa da bütün bunları o da, onun təzə yoldaşları da açıq-aşkar hiss edirdilər. Əvvəl-əvvəl bu adamların bəzisinin özü-özü ilə danışdığının şahidi olduğundan

"başları xarabdı, nədi?" – düşünmüşdü. Sonra daha diqqətlə nəzər yetirib anlamışdı ki, yox, bunlar dəli-zad deyillər, bunlar bu cür özləri-özləri ilə yox, bunlar bu cür şəhərlə danışırlar.

**Yeni həyatın on dördüncü gecəsi.**

Əvvəllər iyrəndiyi, qoxusunu götürə bilmədiyi nəhəng və iyli zibil yeşiklərindən artıq kənar gəzmirdi. Onların içində o birilər kimi hələ eşələnməsə də hamıyla bir yerdə səhərə yaxın sakit bir yerdə balaca bir tonqalın ətrafında salınmış və ordan-burdan, lap elə bəzisi bu zibil yeşiklərindən tapılan və ortalığa çıxarılan dişə gələn hər nə var isə ondan ibarət ümumi süfrənin bir kənarında artıq o da otururdu. Bu azdanışan, az yertutan, başları aşağı, bir-birlərilə ünsiyyətlərini az qala ancaq əl və bədən hərəkətlərilə həyata keçirən adamların arasında rəngi torpaqdan seçilməyən və kədərli baxışları ilə ürək sızladan qəribə birisinin gizli nəzərini üzündə tutdu. Öz-özlüyündə nə üçünsə ona belə bir ad qoydu: Sərgərdan.

**O gecədən bir gün sonra. Saat 4:25.**

Sərgərdan onun ürkək hərəkətlərində nə isə duymuşdu. Əlimədədi balaca tonqalın yanından bir kənara çəkib ona belə dedi:

– Sən əgər özünü camaatdan ayırsan onda daha bizim yanımızda nə işin var?! Səndən şübhələnərlər. Bu adamlarla bir yerdəsənsə bir yerdəsən, yox əgər bir yerdə deyilsənsə, daha buralarda gözə görükməsən yaxşıdır.

– Gözə görükməsəm nə olar ki? – Əlimədəd etinasız şəkildə sual verdi. Aldığı cavabdan isə xoflandı. Cavab bu idi:

– Başın salamat olar.

**Yeni mənzilə köçəndən iyirmi gün sonra. Gecə saat 3-ə yaxın.**

Kimsəsiz Bakı küçələri və bağları ilə gəzib-dolaşdıqdan sonra yolunu köhnə evinin yanından saldı. Aşağıdan yuxarı gecədən xeyli keçməsinə baxmayaraq yuxarı mərtəbədə hələ də işığı gələn üç böyük pəncərəyə baxa-baxa, elə bil, gözünün önündəymiş kimi otağın içində qızlarını görməyə başladı. Qəmli-qəmli onun (itkin ataları) barəsində biri o birinə deyirdi:

– Yazığın başında bir iş var. Barı xəbəri tez çıxaydı...

– Axır vaxtlar gözümə birtəhər dəyirdi. Çox fikirli idi. Nə isə... Uşağın müəlliməsiylə danışdın?

– Axır ki, tapıb danışdım. Bilirsən nə istəyir? Bunun mənə dediyinə bax, sən Allah...

**On dəqiqə sonra.**

Qızlarının söhbətini az qala qulaqlarıyla eşitdikdən sonra keçmiş həyatından hansısa parçalar gəlib yadına düşdü. Balaca qızı hələ heç məktəbə də getmirdi. Ondan üç yaş böyük bacısının əlindən çay stəkanını zorla alıb ona çay gətirəndə tələsib ayağı büdrəmiş, uşaq üzüqoylu yerə yıxılmışdı. Böyük qızı bu balacanın üstünə necə qışqırdı... Amma unutmuşdu: yıxılandan sonramı qışqırdı, yoxsa yıxılmamışdan əvvəl qışqırıb onu qorxutmuşdu. Sınmış stəkanın qırıntısı uşağın üzünə necə dərindən girmişdisə, çapıq hələ də durur. İndi bu əhvalatı dumanlı şəkildə bir daha gördü, məqamların ardıcıllığı bir-birinin içinə girmişdi. Bəzi hallarda isə artıq baş vermiş məqamdan əsər-əlamət qalmırdı. Bəlkə elə qızlarının elə indicə eşitdiyi söhbəti də həqiqətin özü yox, həqiqətə yaxın bir şey idi?!

**On beş dəqiqə sonra.**

Sərgərdan ona dedi:

– Allahın göndərdiyi həqiqət yalnız bir dəfə baş verir. Sonradan nə xatırlayırsan, nə düzüb qoşursansa həmən həqiqətə yaxınlaşmaq cəhdidi.

Artıq yanına düşüb hər yerə onunla gedən, səhərin ilk hənirtisi gələn zaman həyət qapısına qədər onu ötürən, elə bil, onu qorumaqla məşğul olan Sərgərdan sanki bu sözləri özü-özünə deyirdi.

**Qızların söhbətindən üç gün sonra.**

Həmən gün yenə yuxusu ərşə çəkildi. Canında bir üşütmə vardı. Günorta vaxtının küçədən özü ilə gətirdiyi səs-küy az qala otağının içinə girmişdi. Yataqdan qalxıb mətbəxə çay qoymaq üçün gedəndə ürəyinə nəsə damdı, dəhlizin pərdəsini qəfildən çəkib nə görsə yaxşıdır – gördü ki, quru

yerdə yumaq kimi büzüşüb təzə tanışı Sərgərdan mışıl-mışıl yatıbdır. Torpaq rəngli üzünün, alnının qırışları şırım-şırım idi. Köhnə, nimdaş köynəyinin içindən nəydisə par-par parıldayırdı. Bu adam necə gəlib girib bura, nə zaman gəlib – Əlimədəd heç nə başa düşə bilmədi. Pərdəni çəkib təzədən qayıdıb yerinə girdi. Görəsən, Naimə xanımın (ev sahibəsinin) bundan xəbəri var?! Çətin! Bu nə iş idi düşdü?! İndi nə etməliydi?! Gedib onu təpikləyib qovmağa halı və həvəsi yox idi. Amma bu vəziyyət ilə barışmaq da olmazdı. Onun sirri faş ola bilərdi. Gecə sərgərdanlığı ilə gündüz rahatlığının bir-birinə uyuşmadığını artıq gizli saxlamaq mümkün olacaq, olmayacaq...

– Mən bu sirri heç kimə açmaram, arxayın ola bilərsən. Amma sən özün də çox davam gətirə bilməyəcəksən. – Yatdığı yerdəcə qəfildən gözlərini açıb başının üstündə Əlimədədi görən Sərgərdan yarıyuxulu bir səslə mızıldandı və qurcuxub o biri tərəfə (divar tərəfə) çöndü.

– Heç olmasa elə gəl, elə get ki, ev sahibəsi xəbər tutmasın. – O, naəlac qalaraq ancaq bunu pıçıldaya bildi.

**Sonrakı günlər.**

Əlimədəd hər dəfə səhərin alaqaranlığında, xoruz ban verməmiş həyət qapısının ağzında Sərgərdandan ayrılardı, həyəti keçib otağına girəndən az sonra dəhlizdən gələn səsdən başa düşərdi ki, Sərgərdan artıq qapı ağzında öz yerindədir. Onun gözəgörünməzdən, hansı deşikdən keçib gəlib dəhlizə girməsi Əlimədəd üçün müəmma idi ki, müəmma idi.

**Yeni mənzilə köçəndən üç ay, üç gün sonra.**

...Həmən gün Naimə xanımın həyəcanının həddi-hüdudu yox idi. Günortadan keçmişdi. Əlimədədin yanına özünü hövlnak saldı:

– Bax, buna deyərəm insanlıq, buna deyərəm qabiliyyət!.. Xəbərin oldu həyətə gələnlər nəyə gəlmişdilər?!

**Bundan üç saat əvvəl.**

Həyətə açılan balaca pəncərədən Əlimədədin gözünə sataşdı ki, həyətdə üç kişi var. Nəimə xanım (ev sahibəsi) onlarla ayaqüstü nə danışdı-danışmadı, sonra ora-bura baxa-baxa gedib hamısı Nəimə xanımın evinə keçdilər. O kişilər nə zaman çıxıb getmişdilər – daha bundan Əlimədədin xəbəri olmadı.

**Həyətə gələnlərin gedişindən sonra.**

Ev sahibəsi indi həmən adamlar barəsində danışırdı. "Görəsən bu arvad niyə belə sevinir?!" Artıq anlamışdı ki, Nəimə xanımın (ev sahibəsinin) üzdəki bu həyəcanının arxasında yolunda duracaq hər şeyi yıxıb-dağıtmağa qadir olan böyük bir sevinc seli axıb gəlməkdədir. Bu sevinc selinin sularında batmaq təhlükəsindən qurtulmaq üçün onun yeganə əlacı dinməz-söyləməz bu selin girdabına girib su ilə bir axmaqdan başqa bir şey deyildi.

– Yox, xəbərim olmadı, nəyə gəlmişdilər ki?.. – Əlimədəd ev sahibəsinin sualına həqiqətən təəccüb dolu sualla cavab verdi.

– Evimizi sökürlər! – Nəimə xanım təntənəli şəkildə müjdə verirmiş kimi birnəfəsə dedi.

"Sökürlər?! Bəs sən nəyə sevinirsən, ay zalım?" – deyə düşünən Əlimədəd çaşqınlığını biruzə vermək istəməsə də özünü saxlaya bilmədi və dilinə bu sözləri gətirdi:

– Yəni, əməlli-başlı sökürlər? Niyə sökürlər, nə üçün sökürlər – bir şey demirlər?!

– Niyə demirlər?! Deyirlər. Yerində uca bina tikəcəklər. Onbeşmərtəbə.

– Bəs...

Nəimə xanım Əlimədədin sözünü kəsdi:

– Bilirsən bir metrəsini həyətin neçəyə alırlar?

**Bir dəqiqəlik sükutdan sonra.**

Hər şey ona agah oldu. Göydələnlərin əzəmətli zəfər yürüşü artıq bu tənha məhəlləni də ayaq altına alacaqdı. Ən ağrılı olan isə bu idi. Ürəyində min cür əzab-əziyyətlə boya-başa çatdırmaq istədiyi niyyəti yarımçıq qalmışdı, baş tutmamışdı. Qədərə inandığından Sərgərdanın sözləri onun üçün bir işarə oldu.

**Həmən gecə. Saat 07:36.**

– Sənin Allahın sənin niyyətinə bu şəkildə "yox" deyir. Ona qulaq asıb itaət eləmək borcundur. Sənin Allahın mənim dostumdur, o həmişə istədiyini bu cür çatdırır...

Sərgərdanın bu sözlərində mənanın nədən ibarət olduğunu anlamasa da, dərinə getmək, nəyisə aydınlaşdırmaq istəmədi. Yalnız indi ona məlum oldu ki, nahaq yerə belə etməyib. O zaman isə beynində ancaq bu idi: yaşadığı həyat onun üçün bir daha dəyişirdi.

**Yeni həyatla vidalaşmaqdan bir həftə, köhnə həyata qayıdışdan bir gün əvvəl. Son gecə gəzintisi. Saat 5:03.**

Sərgərdan ayaqları bir-birinə dolaşa-dolaşa gah onun yanınca gedir, gah da gözdən itir, arxada qalır, sonra yenə peyda olurdu. Nəsə burnunun altında mızıldana-mızıldana qalmışdı və Əlimədəd onun dediklərini hərdən aydın bir şəkildə eşidirdi, hərdən də heç bir şey eşitmirdi. Getdikcə güclənən soyuq külək düz üzlərinə vururdu, bir-birinin arxasında küləkdən gizlənə-gizlənə artıq doğmalaşmağa başlayıb buna tam macal tapmamış döngələrin, küçələrin, həyətlərin ya içindən, ya da yanından ötüb keçirdilər və Əlimədəd yenicə tanıdığı və isnişdiyi başladığı gecə adamlarını yenə də öz həmişəki yerlərində görürdü. Bu, bir vida gecəsi idi. Təkcə bu adamlarla deyil, gecə Bakısı ilə deyil, həm də öz arzusu, boya-başa çatdıra bilmədiyi niyyəti ilə vida gecəsi.

Sərgərdan mızıldana-mızıldana deyirdi:

– Sən elə bilirsən, axır olmayıb?! Ay-hay... Əvvəl baş verən kimi axır da baş veribdir. Əvvəldə söz var idi? Var idi. Bax, sənə deyirəm. Axırda da

söz var olubdu. Amma sizin heç biriniz bunu bilməmisiz, duyuq düşməmisiz. Mənə elə baxma. Mənim əsas məqsədim hadisələrin üfüqünə çatmaq idi, mən isə ondan yan keçdim. Siz isə, biləsən... axırdan sonra yaşayırsız...

Külək vıyıldayırdı.

**Həmən məkan. İki dəqiqə sonra.**

Əlimədəd başa düşə bilmədi ki, bu sözləri ona Sərgərdan deyir, yoxsa küləkdi gətirib qulağına doldurur. Bir də başını küləkdən qaçıranda Sərgərdanı daha yan-yörəsində görmədi. Yox olmuşdu, nəydi?! "Gecə harda olsa gəlib çıxar" – əvvəl-əvvəl beynindən ildırım sürətilə bu fikir keçdi. Sonra isə ürəyinin düz içinə hardansa gəlib bir parça qərib qüssə girdi və daha oradan çıxmadı. Ürəyi qısıldı.

**Bir an sonra.**

O, başa düşdü ki, Sərgərdanı görmək ona bir daha heç vaxt qismət olmayacaq...

*2005-ci il*

# Ay işığı

Quşlar xəbər gətirdi. “Arifə xala ölüb”.

“Buna nə oldu birdən-birə?! İki ay əvvəl turp kimiydi...” Atam iki ay əvvəl kəndə toya getdiyini xatırlayıb dodaqaltı öz-özü ilə danışa-danışa yemək qabını qabağından yavaşca o tərəfə itələdi və qalxıb pəncərə ağzındakı köhnə, yırğalanan kreslosuna oturdu. Küçədən zınqrovunu çala-çala tramvay keçdi.

Arifə xala bizim xalamız deyildi, atamızın xalası idi. Kənddə ata-baba evimizdə yaşayırdı. Bizdən başqa heç kimi yox idi, tək-tənhaydı. Heç qalmağa yeri də yox idi. Niyə belə olmuşdu – bu, bir başqa hekayətdir.

Atamın ondan gizlində zəhləsi getsə də, kənddəki evimizdə yaşamaq üçün ona icazə vermişdi. “Tək adamdı, bir kəsi qalmayıb, yazıqdı, küçələrə düşməyəcək ki. Doğma xalamdı, Allaha da xoş gedər, biz də həyət-bacadan arxayın olluq.” Atam həmişəki kimi düşüncələrini beyninin içində saxlaya bilməyib dilinə gətirmişdi, bu sayaq bizimlə də, guya, məsləhət edib qərarını vermişdi. Amma bu, məsləhətdən daha çox bəraətə oxşayırdı.

Arifə xala mənim yadımda nə qoca, nə də cavan bir görkəmdə qalmışdı. Qara, ətli sifəti vardı, sifətində yekə-yekə xalları vardı, xalların ətrafında, boynunda tüklər çıxırdı. Qolları kişi qolları kimi qüvvətli idi. Nar ağacının arxasındakı əl quyusundan vedrəylə suyu elə cəld çəkirdi ki, az kişi bunu belə bacarardı.

Di gəl, atam bu qarasifət, yekəqarın arvadı sevmirdi ki, sevmirdi. On iki yaşım vardı, bunu evdə hətta mən bilirdim. Böyük qardaşım Əşrəfdən bir dəfə bunun səbəbini soruşub öyrənmək istədim, yalandan boynumun dalından bir sillə vurub üstümə çımxırdı: "Sənin nəyinə gərək? Get dərsini oxu. Sənlik deyil." Mənim pərtliyimi görüb sözlərini yumşaltmaqçün belə bir əlavə də etdi: "heç mən özüm də düz-əməlli bilmirəm."

Sonralar, çox sonralar, qardaşım əlacsız xəstəliyə tutulandan sonra mənim evimdə qaldığı zaman məndə artıq qəribə bir həvəs yaranmışdı. Ailəmizin, nəslimizin kökünə getmək, "kim kimdir?" sualına cavablar axtarmaq, babalarım, ulu babalarım haqda məlumat yığmaq həvəsi məni rahat buraxmırdı. Əşrəf isə canlı, təəssüf ki, hələ canlı ensiklopediya idi. Nəslimizin şəcərəsini qonşu kəndlərə, şəhərlərə, hətta İrana, Türkiyəyə aparıb çıxarır, mənə nəslimizdəki ağsaqqallar, ağbirçəklər, igidlər, gözəllər barədə əsrarəngiz rəvayətlər, əhvəlatlar danışırdı.

Mən əvvəl-əvvəl heç cür başa düşə bilmirdim ki, Əşrəf özü bütün bunları hardan bilir. Məndən beşcə yaş böyük idi, biz bir evdə yaşamışdıq. Onun bildiklərini, əslində, mən də bilməliydim. Amma Əşrəf, elə bil, vaxtından xeyli tez qocalmışdı. Onu bazar qocaltmışdı. İşinin vaxtı-vədəsi yox idi. Məktəbi də buna görə axıra çatdırmadı, bazara alışdı. Xüsusilə, atamdan sonra ev-eşiyi bazardan qazandığıyla yola verirdi. Amma bazar da bir başqa məktəb idi. Onun bazarı mənim məktəbimdən daha "ağıllı", daha zəngin çıxdı. Şəcərə ilə bağlı bildiklərinin çoxunu bazara alverə gələn ellilərimizlə söhbət edə-edə onlardan öyrənmişdi.

Atam bu dünyadan köçəndən sonra qardaşım mənə əsl atalıq etdi. Mənim boynuma düşən ancaq oxumaq, onun boynuna düşən mənim adam balası kimi yaşamağımı təmin etmək oldu. Daha sonra erkən yaşımda məcburən beynimə evlənmək həvəsi salıb atamın kirələdiyi evi gecə-gündüz

işləyib yığdığı pulla alıb mənə bağışladı, toyumu edib özü evdən çıxdı, çalışdığı bazarda gecələr qarovulçu işləyib elə ordaca da balaca bir otaqda yaşadı. Həyatı boyu evlənmədi, ancaq mənimlə, yaxından, uzaqdan da olsa, mənimlə nəfəs aldı, uğurlarıma sevindikcə sevindi.

Onun əlacsız xəstəliyi barədə xəbər tutanda artıq gec idi. Ayaqları şişmişdi, yeriyə bilmirdi, bir qoluna mən girdim, bir qoluna bir iş yoldaşı vardı, o girdi, bazardan çıxarıb birtəhər maşına mindirdik, gəldik bizə. Bazarda, onun qaldığı o quş damında "Dur, qalx, gedirik bizə" deyəndə heç bir etiraz etmədi, ancaq yazıq-yazıq üzümə baxdı, gözlərindən yanaqlarına səssiz-səmirsiz yaşlar axdı.

Sinəsi dəftər idi. Qohum-qardaşla, kənd adamları ilə bağlı bilmədiyi bir məsələ yox idi. Mən o zaman, o uzun qış gecələrində Əşrəflə etdiyim maraqlı söhbətlərin sayəsində öyrəndim ki, həmən bu Arifə xala atamın ən böyük istəyinin həyata keçməsi yolunda əngəl olub. Anamın vəfatından qısa bir müddət keçər-keçməz bəlkə də keçmiş günahını yumaq istəyən atam yenidən evlənmək, özü də qonşuları Pəriyə evlənmək fikrinə düşərkən heç kim yox, elə Arifə xalası onu bu əməlindən daşındırıb.

– Alı, bax, sənə nə deyəcəm?! Bu daşı ətəyindən töksən, yaxşıdı. Balaların körpədi, yazıqdı, bundan bulara ana olmaz. Baxan deyər, dilsiz-ağızsızdır. Amma bunun fikri özündə deyil, heç deyil. – Sonra isə atamın daşa dönmüş üzünə diqqətlə baxaraq biz eşitməyək deyə səsini qısıb gözlərini də nədənsə bərəldərək son zərbəsini endirmişdi. – O gecə sən toyamı getmişdin, səhərə yaxın qayıdıb gəldin ha, mən bax, bu gözlərimlə bunları samanlıqdan çıxan yerdə gördüm.

Atamdan bir müddət səs-səmir çıxmayıb. Handan-hana o, udqunub keyimiş bir səslə:

– Samanlıqdanmı çıxan yerdə? Bizim samanlıqdan?? – deyə soruşub.

– Samanlıqdan, samanlıqdan. Sən toya gedən gecə. Zülmət gecəydi, Alı, yadındamı? Amma ayın ağappaq işığı düz bunların üstünə düşməmişdimi, düşmüşdü. Bu özü irəlidə, tələsə-tələsə gedirdi, elə bil, qovanı vardı. Zaman da arxasınca yavaş-yavaş gəlirdi, cüllüt boynunu dartıb şübhəli-şübhəli o yan bu yana boylanırdı. Məni görmədilər.

Arifə xalanın səsində sirli bir ahəng vardı, nəydi, atam çaşqın qalmışdı, dinib-danışmırdı. Xüsusilə, arvadın ay işığını şahid gətirməyi atama yaman pis təsir eləmişdi.

Samanlıq dediyi yer qoyun-quzunun vaxtilə saxlandığı tövlə idi. Həyətin dal tərəfindəki böyük, hər halda o zaman bizə böyük görünən bu tövlədə indi qoyun-quzu saxlanmasa da, bütün tövlə həmişə başdan-başa samanla döşənmiş olardı.

– Bizim bu samanlıqda ha? – Atam çaşqın bir halda əlini samanlığa tərəf uzadaraq sualını təkrar eləyib.

– Eh, eh, eh... inanmırsan, sən mənə, Alı, inanmırsan.

Həmən gecə atam, həqiqətən, qonşu kəndə toya getmişdi. Anam öləndən sonra ilk dəfəydi, toya gedirdi. Bizim yanımızda, guya, həvəssiz idi, amma Surxay əmi, atamın dostu, eləcə də, o biri dostları gəlib onu yarızarafatla, deymələrlə "qıdıxlayıb" maşına mindirdilər. Atam duruxmuş halda, səssiz-səmirsiz bizim üzümüzə baxmadan, qaşqabaqla yanımızdan keçib evdən çıxdı. Mən qaçıb pəncərəyə dayadım alnımı, ürəyim qısıla-qısıla gördüm ki, atam hələ maşına minməmiş dostlarına gülə-gülə nə isə deyir.

Mənə bunu çox sonralar Əşrəf danışdı. Pəri arvad gəncliyində atamın sevgilisi olmuşdu. Yəni, atam onu sevib, o da atamı. Qapıbir qonşuydu, günü bizim həyətdə keçərdi. Bunların bir-birinə aşiqliyini bütün kənd bilirmiş. Vaxt olub, Pərigilin evində hər gün atamın elçilərini gözləyiblər. Amma atam əsgərliyə gedib qayıdanda uzaq Belorusiyadan rəsmi arvadıyla qayıdıb gəlib, yəni, mənim və Əşrəfin anasıyla. O üzdən Pəri arvad da ərə getməyib oturub qalıb evlərində. Anası, atası, qardaşları dünyasını dəyişib, o özü isə indiyənə qədər — tək-tənha... Pəri arvad, mən bunu yenə də sonralar, Əşrəfin dilindən eşitdim, ona da quşlarmı xəbər gətirmişdilər, Pəri arvad bütün bu illər, bu ağır aylar və günlər atamı, yalnız atamı sevib durubmuş. "Atam da, deyəsən, onu..." – Əşrəf əlavə edib dedi.

– ... ay işığı qəşəngcə düşmüşdü düz bunların üstünə, kölgələri də həyətin tufarıyla əyilə-əyilə gedirdi, amma ətraf zülmət qaranlıq idi...

Arifə xala beləcənə atama Pəri arvadı yamanladıqca yamanladı, atam da ona inandı, anamın ilindən bir az sonra daha kənddə duruş gətirib qal-

madı, qala bilmədi, bəlkə də əlinə bəhanə düşdü, kim bilir, heç Əşrəf də bunu biləmməz, qərəz, atam bir həzin yaz axşamı bizi başına yığıb köçüb gəldi şəhərə. Stadiona gedən yolda bir yöndəmsiz evin birinci mərtəbəsində üçotaqlı balaca bir mənzil kirələyib ora yığışdıq. O yadımdadı ki, kirələdiyimiz mənzil olan evin düz qabağından tramvay zınqıldaya-zınqıldaya elə gedərdi ki, elə bil, dəmir təkərləriylə guruldayıb böyük otağımızın içindən keçib gedir. İndi o tramvaydan əsər-əlamət yoxdur. Elə bil, heç olmamışdı.

Yadıma bir də o yapışıb qalıb ki, atam bir taksi maşını almışdı. Gündüzlər bazar-dükan və ev işlərilə məşğul olar, adətən, gecələr işə gedərdi. Getməzdən əvvəl yeməyini yeyib otaqdakı yeganə pəncərənin qarşısında hardansa tapıb gətirdiyi yırğalanan qırmızı məxmərli köhnə kresloya oturar, ağzında papirosu, dala-qabağa cırtacırt yırğalana-yırğalana pəncərədən o tərəfdəki zülmət qaranlığa baxdıqca baxardı. Hərdən də huşa gedib beş-on dəqiqəliyinə mürgülərdi.

Arifə xala rəhmətə gedən il mən məktəbin sonuncu sinfində oxuyurdum. Arifə xalanı sabah basdıracaqdılar. Biz kəndə getməyə hazırlaşırdıq.

– Sən üç-dörd gün məktəbdən qala bilərsən? – Atam məndən soruşdu.

– Qoy o getməsin, nə işi var yasda... — Stolun üstündən qabları yığışdırıb mətbəxə aparan Əşrəf etiraz eləmək istədi, — dərsi çoxdu onun...

Atam tərəddüd içində sual dolu gözlərini mənə dikdi. Mən "həyasızlıq" etdim:

– Mən tək qalmayacağam. Tək qalmaq istəmirəm mən. Heç nə olmaz, kitablarımı götürrəm özümlə. – Bu şəkildə mənim oxumağıma xüsusi qısqanclıq və tələbkarlıqla yanaşan, məktəb məsələlərində mənə "qan udduran" Əşrəfi sakitləşdirmək istədim.

Atam başını yelləyə-yelləyə mənə baxıb bizim balaca mətbəximizdə şaqqaşaxla çirkli qabları yumağa başlamış Əşrəfə səsləndi:

– Deyir, elə vacib dərsim yoxdu, kitablarını özüylə götürəcək...

– Yaxşı, nə deyirəm, hazırlaşsın. – Əşrəf həmişə mənimlə 3-cü şəxslə danışan kimi danışırdı. Qab yuya-yuya nə düşündüsə, razılıq verdi. Məni üç günlüyünə tək evdə qoyub getmək daha "qorxulu" idi.

Atam mənə baxıb, gülümsündü, yəni, "ay qırışmal, işin düzəldi."

Quşlar xəbər aparmışdılar. Pəri arvad həyət qapısının ağzında bizi gözləyirdi. Çiyninə saldığı qara həşyəli yaylığın ucunu didişdirə-didişdirə, baxışını atamla qardaşımdan qaçırıb üzünü mənə tutdu və qısa bir "hesabat" verdi:

– Çox gözləyə bilmədilər, apardılar. İndilərdə qayıdallar. – Sonra əlini uzadıb cod və titrək barmaqlarını başımda gəzdirdi. Mən şəstlə qəmgin-qəmgin durmuşdum.

Sonra biz həyətə keçdik.

Həyətin ortasında havaxt əkildiyi bilinməyən nar ağacının altında vaxtilə asfalt yerə mıxlanmış uzun stolun üstünə süfrə çəkilmişdi. Süfrədə qəndqabılar, halva var idi. Əşrəf ora-bura boylanıb əlində tutduğu içi çay və limon dolu paketi mənə uzatdı. Stolun o başında samovarın suyu qaynayırdı. Biz keçib oturduq. Pəri arvad gəlib paketi məndən aldı, qabağıma bir açar qoydu, yenə üzünü yana tutub öz asta səsilə:

– Evin açarıdı, – dedi. — Həyət qapısının qıfılı yoxdu. Almaq lazımdı.

Atam gözünü su quyusunun hərəkətsiz mancanağına dikib sakitcə durmuşdu. Pəri arvad bir kənara çəkildi, evin pilləkəninə söykənib donub qaldı. Üzündən-gözündən, bütün vücudundan pərişanlıq yağırdı. Ürəyim qısıldı. İstədim, bu arvadla bir kəlmə də olsa, kəsim, pərtlik aradan götürülsün, atam məni qabaqladı:

– Bu necə oldu, belə oldu? İki ay əvvəl... pis deyildi. – Atam gözlərini quyudan çəkmədən dediyi bu sözləri bilinmədi ki, kimə deyir, özünəmi deyir, bizəmi deyir, yoxsa Pəri arvadamı deyir.

Atama cavab verməyə tələsməyən Pəri arvadın yorğun səsində nisgil oynadı:

– Bir aydı yerdə yatırdı. Məni istədi, xəbər göndərdi, mən də gəldim. Dedi ki, mənnən qal, bu gün-sabahlığam, uşaqlara dedi, hələ bir şey demə... Çox söhbətlər elədik, halallaşdıq... – Pəri arvadın son sözlərində bir eyham vardı, onları eynən atam kimi, fikirli-fikirli, özü-özüylə danışırmış kimi dedi.

Atam qulaqlarınacan qıpqırmızı qızardı.

Qonşular qəbristanlıqdan qayıdıb gəldilər, bir-bir həyətə girməyə başladılar. Biz ayağa qalxdıq, "Allah rəhmət eləsin" sədaları altında atam sağ əlini ürəyinin üstünə tutub baş əyə-əyə başsağlıqlarını qəbul elədi. Surxay əminin yanında duran saqqallı kişi barmaqları arasında oynatdığı qara təsbehi cibinə qoyub fatihə verdi. Adamlar, olardı səkkiz-doqquz nəfər, hərə bir yer tapıb oturdu. Pəri arvad samovarın başına keçib dəm çaynikini dəsmalla bürüdü. Mən stəkan-nəlbəkini stolun üstünə düzməyə başladım. Saqqallı kişinin quran oxuyan səsi ətrafa həzinlik yaydı.

...Üç gün sonra sabah obaşdandan biz atamın taksi maşını ilə şəhərə qayıdırdıq. Əşrəf qabaqda, atamın yanında, mən arxada, mənim yanımda isə Pəri arvad başında qara həşyəli yaylığı oturmuşduq. Atam qaşlarını çatıb diqqətlə maşın sürür, yol boyu nə birimizin üzünə baxır, nə də birimizlə bir kəlmə dinib danışırdı.

Dünən gecə isə nar ağacının altında mən atamın qardaşımla etdiyi söhbətin şahidi olmuşdum. Əslində, onlar söhbətlərini mənim yanımda edirdilər. Bu, bir növ ailə məşvərəti də sayıla bilərdi. Atam mənə baxır, amma sözlərini Əşrəfə deyirdi:

– Bizim işimizə yarayar. Sən də artıq yoruldun yemək bişirib qab yumaqdan.

– Mən ki, bir söz demirəm.

– Şahinin də üst-başı təmiz gəzən vaxtıdı...

– Sən necə lazım bilirsən, elə də elə.

– Mətbəxdə yer salıb yatar, yerimizi darısqal etməz. Əziyyəti də dəyməz.

– ...Dəyməz, əlbəttə, dəyməz.

Atam bir xeylaq sükut içində durub qaldı. Papirosunu tüstü-duman içində sonuncu dəfə közərdib güclü bir qüllab aldıqdan sonra, nəhayət, düşünüb-daşınıb bu sözləri də bizə çatdırmağı lazım bildi:

– O söhbət də ki... biləsiniz, kökündən yalanmış. Rəhmətlik bu beynəvaya şər atırmış. Hamısı dediyi yalan-palan... Ay işığı belə gəldi, ay işığı belə getdi... Ölüm ayağında sirrini açıb, günahını yuyub. İstəmirmiş bizim evlənməyimizi bu adam, istəmirmiş. Niyə, nə üçün – bilmirəm. Niyəsini

hıqqanıb ki, son nəfəsində desin, deyə bilməyib, sözü ağzında qalıb, canı çıxıb... – Atam son sözlərini ağzından ürəyindən tikən çıxaran kimi çıxardı.

Qardaşım da, mən də soruşmadıq ki, bunları sənə, ay ata, kim dedi, nə zaman dedi, bu xəbəri sənə kim gətirdi?! Kim səni buna belə asanlıqla inandırdı?! O boyda ay işığı, o boyda kölgələr hara yox oldular?!

...İndi mən qardaşım Əşrəfin dəfnindən geri dönərkən bu uzaq illərin hadisələrini xatırlaya-xatırlaya düşünürəm ki, nə yaxşı, biz o zaman qurddalayıb məsələni atamıza kimin xəbər verdiyini soruşmadıq. Nə yaxşı ki, bu xəbər gətirənə elə inandıq ki, şübhə və tərəddüdə qəlbimizdə bir misqal yer qalmadı. Allah Əşrəfə rəhmət eləsin, Əşrəf müdriklik eləmişdi. "Yox" desəydi, atam onun sözündən çıxmayacaqdı. Həyat tamam başqa bir məcraya düşüb tamam başqa bir şəkildə davam edəcəkdi. Nə olacaqdı, nə olmayacaqdı... Bunu mən düşünmək belə istəmirəm. Yaxşı ki, elə belə də oldu. Atam ömrünü rahat yaşayıb rahat bir şəkildə son nəfəsini verdi və bu dünyadan köçünü sürüb arxayın getdi, arxada gözü qalmadı.

Pəri arvad isə son nəfəsinə qədər onun iyini bizdən aldı, ölüm yatağında belə atamın adını sayıqladı. Huşu qalmamışdı, hamımızı bir-birinə qarışdırırdı, hamımızın adını unudurdu, bircə Alının adını unutmamışdı. Onun tükənmək bilməyən "Çağırın, çağırın, Alı gəlsin..." yalvarışlarına, nəhayət, mən dözməyib deyəndə ki, ay arvad, sən kimi çağırırsan, Alı düz beş ildi ölüb, Alı yoxduuu, məlul-məlul mənə baxıb göz yaşını birdən leysan kimi axıtmadımı?! "Bəs bunu siz mənə indiyənədək niyə deməmisiz?! Niyə bunu məndən saxlamısız?!" deyib zar-zar zarımadımı?!

Bu eşqin müqabilində atamıza o xəbəri kim gətirmişdi, kim gətirməmişdi – bunun bir mənası varmıydı?! Xəbəri gətirənə inanmamaq mümkünmüydü?!

Xəbəri quşlar gətirmişdi.

*2012-ci il*

# Kamera teatrı

O buralara hardan gəlib çıxmışdı – bunu bilən yox idi. Hamı onu bu yerlərin ən qədim sakini kimi tanıyırdı. Ağıl-nəsihət verməyi sevərdi.

Tez-tez dediyi söz bu idi: Adamdan hətta «adın nədir?» soruşsalar əvvəl düşünüb sonra cavab verməlidir.

Bu, Əhməd müəllimin, belə demək mümkünsə, həyat devizi idi.

Sizif nəhəng bir daşı min bir zülümlə itələyə-itələyə dağ başına qaldıran kimi o da burda peyda olandan sonra günləri günlərin üstünə əziyyətlə qoyub böyük bir elmi-tədqiqat müəssisəsində sayılıb seçilən, işini yaxşı bilən mütəxəssisə çevrilmişdi.

Çoxu onu dərin və ağıllı bir adam kimi tanıyırdı, bütün suallara cavabı vardı. Amma Əhməd müəllim həyatda ola bilməzdi ki, kiminsə sualına birdən, düşünmədən cavab versin. Düşünməyi də nanə-turşusuyla olardı.

Cavabını dəqiq bildiyi suala hətta bir müddət gözlərini qıyıb əzab-əziyyətlə cavab axtaran adam obrazını yaratmaqdan o, xüsusi həzz alardı.

Bu zaman özünə kənardan baxmağı da unutmazdı. Budur, balacaboylu, arıq, uzun burnu ilə o dəqiqə diqqət çəkib boyunu və arıqlığını unutduran bu ortayaşlı adam əlində tutduğu qalın şüşəli eynəyini fırlada-fırlada dərin fikrə gedib.

Ona çox ağır sual veriblər. Sual, təxminən, belədir: "Azərbaycanın paytaxtı haradır?". Bu adamın gözləri həmsöhbətinə deyil, yana baxır. Üzünün əzələləri gərilib. Daxili həyəcanını güclə ört-basdır edib.

Ətrafda hamı nəfəsini dərib bu ağır sualın cavabını gözləyir. Həmsöhbəti artıq sual verməyinə də az qala peşmandır.

Bir az da keçir, həmsöhbət artıq çıxıb getməyə bəhanə axtarır. Otaqdakılar buna imkan vermirlər.

Bütün gərginliklərin əsl kulminasiya məqamında cavab özünü daha gözlətmir.

Bu məqamı çox gözəl hiss edən Əhməd müəllimin ağzından "Bakı" kəlməsi, nəhayət, çıxarkən xeyli sirli səslənir. Sual verənin çiynindən ağır bir yük götürülür. Ətrafdakılar "uf" deyə pıqqıldamaqlarını zorla saxlayır, Əhməd müəllimin isə gözlərinə xeyli dərində yaxşı gizlədilmiş məmnunluğun zəif əks-sədası qonur.

Bu, Əhməd müəllimin balaca teatrı idi. Bir aktyordan ibarət kamera teatrı. Daha doğrusu, bu teatrın bir daimi, bir də gəldi-gedər aktyoru (və ya aktyorları) vardı. Daimi aktyor o özü idi. Sual verənlər və suala yığışıb cavab gözləyənlər isə, əlbəttə ki, dəyişirdilər.

Həyat bizə öyrədir ki, dünyada əbədi heç nə yoxdur. Günlərin bir günü Əhməd müəllim öz prinsipinə dönük çıxır. Bunu ondan heç kim gözləmirdi. Gərək belə olmayaydi, amma olur. Əgər ondan soruşsaydılar ki, o məşum günü sənin üçün yenidən, olduğu kimi geriyə fırlatsaydılar, sən necə hərəkət edərdin, Əhməd müəllim öz "Kamera teatrı"nın səhnəsindən bir anlığa çıxıb belə deyərdi: "Birinci dəfə necə etmişdimsə, indi də eləcənə edərdim."

Söhbət ondan getmir ki, "kişinin sözü bir olar." Söhbət ondan gedir ki, Əhməd müəllim o günün həm ağrısını, həm də ləzzətini eyni hissin içində harda olmasından asılı olmayaraq bu gün də yaşayır.

...O qadını isə nə bu əhvalatdan əvvəl, nə də sonra görən olmadı. Elə bil ki, o, Əhməd müəllimi iş yoldaşlarının gözü qarşısında "ifşa" etmək üçün məxsusi olaraq ora gəlmişdi. Gəlməyi ilə getməyi bir oldu. Onu gördüyündə Əhməd müəllimin özünü necə itirdiyini hamı yaxşı xatırlayır.

Gün isə pis başlamamışdı. Əsl işdən əvvəl yüngülvari sual-cavab "atışması" artıq ənənə halını almışdı. Sabah tezdən birinci sualın yeni cavabı çox adamın marağına səbəb oldu. Bu cavab kifayət qədər "duzlu" idi.

– Vəziyyət necədir, Əhməd müəllim? – Şöbədə bir yerdə çalışdığı iş yoldaşına nakam məhəbbəti ilə hamının ürəyini ağrıdan, saçları vaxtından əvvəl tökülməyə başlayan şişman Qanturalı ondan soruşdu.

Kamera teatrının səhnəsini işıqlandıran projektorlar yandı.

– «V»-si düşüb... – Əhməd müəllim yenə xeyli düşünəndən sonra gözlərini qıyıb cavab verdi.

İlk çaşqınlıqdan sonra qulaqları Əhməd müəllimdə olan duruxmuş şöbə işçiləri, nəhayət, cavabın mənasını anlayaraq rahatlıqla nəfəs alıb başlarını tərpədə-tərpədə baxışdılar. "Cavab, bax, belə olar! "V" əgər "vəziyyət" sözündən düşürsə, deməli, yerdə nə qalır?! Qalır — əziyyət! Ay səni, müəllim! Fıştırığın gəlsin!"

Əhməd müəllim bu dəfə də özündən razı halda uzun burnunu dik tutub teatr səhnəsini tərk edir...

O naməlum qadın min il eyni yolu gəlirmiş kimi yarıqaranlıq, əyri-üyrü dəhliz boyu balıq suda üzən kimi əyilib-büzülərək keçib heç kimdən bir şey soruşmadan düz Əhməd müəllimin oturduğu otağın qapısı ağzına gəldi. İçəri girib Əhməd müəllimi gözlərilə axtarıb tapdı, oturduğu masaya yanaşdı. Əhməd müəllim onu gördüyündə, hər halda iş yoldaşlarına bu belə gəldi, rəngi ağaran kimi oldu. Naməlum qonağın ilk sözləri kifayət qədər bərkdən səsləndi:

– Buranı zorla tapdım. Başa düşmürəm, məndən niyə gizlənirsən?! Deyə bilərsənmi, məqsədin nədir?

Otaqda 4-5 adam var idi, havadan isə dava-dalaş qoxusu gəlirdi. Kimsə özünü işlə məşğul olan adam kimi göstərsə də nəfəsini kəsib bu ça-

ğırılmamış qonağı gizlicə dinləməyə başladı. Kimsə də eləcənə açıq dinlədi. Əhməd müəllimin çaşqınlığını isə onlar verilmiş suala cavabın həmişə olduğu kimi gecikməsi ilə deyil, əksinə, suala cavabın tələsik verilməsilə müəyyən etdilər. Kamera teatrında sanki istirahət saatı başlamışdı. Yox, teatrı, sadəcə, unutmuşdular. Əhməd müəllim təəccübdən gözləri böyümüş halda haman qalınşüşəli eynəyini birtəhər gözünə taxdı və yazıq-yazıq bu çağırılmamış qonağa baxaraq az qala birnəfəsə cavab verdi:

– Heç bir məqsədim yoxdur. Mən səndən niyə gizlənim ki?! Mən səndən qətiyyən gizlənmirəm. Çox axtardım səni o zaman, hara yox oldun, bilinmədi. Ancaq yuxuma girirdin. Hər şey birdən baş verdi. Mənim nə günahım?!

"Ancaq yuxuma girirdin" sözlərini eşidən Qanturalı gözünü qaldırıb otağın o biri başında oturan Selcan xanıma baxdı. Selcan xanımın yanaqları allandı.

– Elədi. – Qadın "Mənim nə günahım?" sözlərinə cavab verirdi. - Mən nə deyirəm ki?! Göz yumub açınca… Olsun. Neyləmək olardı?! Bu işlər elə belə də olur. Səninlə nə zaman görüşə bilərik? – Qadın ətrafına gözucu nəzər atıb səsini azacıq qısdı.

– Harda istərsən, orda görüşək. Nə zaman desən, mən hazıram. O da burdadır? – Əhməd müəllim, ürəyi şiddətlə vursa da, pıçıltıyla soruşdu.

Qadın başı ilə "hə" dedi. Əhməd müəllim yazıq bir görkəm aldı, başını aşağı salıb həyəcanlı vaxtlarında olan kimi əlindəki eynəklə oynamağa başladı. Sonra Qadın yaxınlıqdakı çayxanada görüş barədə vədələşib Əhməd müəllimə çoxmənalı bir baxış atdı, yəni, "Bax, yersiz bir hərəkət eləməyi beynindən çıxart, at! Gördün ki, mən səni yerin deşiyindən də olsa, taparam. Heç hara yox ola bilməzsən." Daha sonra təşəxxüslə dönüb otaqdan çıxdı. Əhməd müəllim iş gününün sonuna qədər bir adamla kəlmə kəsmədi. İş yoldaşları da onun bu acı halını nəzərə alıb qəribə qonaq barədə heç nə soruşmadılar.

…Qadın müəssisənin qapısından çıxıb üzbəüzdəki balaca bağçaya tərəf yönəldi. Gedə-gedə düşünürdü ki, onun bu qədər vaxtdan sonra gəlib axtardığını tapmağı hansısa ali bir ədalətin təzahürüdür, başqa şey deyil.

Sən axtarırsansa, sən tapırsan. Başqa cür ola bilməz. Bağçada qadını bir ortayaşlı kişi gözləyirdi.

– Nə oldu? Görə bildin? – Kişi soruşdu.

– Gördüm. – Qadın dodağının ucu ilə cavab verdi.

Kişi rahatlıqla köksünü ötürdü. İkisi də, bağçanın dibində bir ağaclıq vardı, gedib o ağaclığın altındakı çayxanada bir stolun ətrafında oturdular.

– Nə dedi? Təəccüb elədi? – Kişi maraqla soruşdu.

– Yox… Nəyə təəccüb edəcəkdi ki?!

– Bizim onu tapmağımıza deyirəm…təəccüb etmədi?!

– Yox, təəccüb etmədi. O özü yaxşı bilir vəziyyəti… – Qadın üsulluca Kişiyə belə bir cavab verdi.

Kişi ətrafına boylanıb çayçını axtardı.

Nə qədər qəribə səslənsə də, bu qadını və bu kişini Əhməd müəllimlə birləşdirən xətt Əhməd müəllimin indi yaşadığı dünyanın coğrafi sərhədlərinə sığmırdı. Xətt gedib-gedib hansısa bir nöqtədə mil kimi üzüyuxarı qalxırdı. Göylərin yeddi qatından keçirdi. Sonra da buralardan hətta ulduz şəklində görünməyən, uzaqlığı xəyala belə gəlməyən bir planetə doğru səmt alırdı. Bir göz qırpımında da ünvanına çatırdı. İndi bu balaca çayxanada üzbəüz əyləşib saçları buruq çayçı oğlanın nə zaman çayla gələcəyini gözləyən qadınla kişini elə bu xətt idi ki, gətirib bu dünyaya çıxarmışdı. Zamanları az idi. Buradakı işlərini başa çatdırıb həmən xətlə geri qayıtmalıydılar. Özü də hökmən Əhməd müəllimlə bir yerdə geri qayıtmalıydılar. Yoxsa, bu iki nəfər havasızlıqda olan kimi boğulub-boğulub məhv olmağa məhkum idilər.

Buruqsaç oğlan əlində çay podnosu gəldi. İşgüzar tövrlə stəkan-nəlbəkini, balaca çayniki, ləbləbini, kişmişi, şokoladı, limonu podnosdan bir-bir götürüb stolun üstünə düzdü. İki stəkan-nəlbəki əvəzinə, nədənsə, üçünü qoydu. Qonaqlar dinməz-söyləməz çay içməyə başladılar.

Əhməd müəllim bağçanın o biri başında görünəndə Qadın Kişiyə başı ilə yüngülcə bir işarə verdi.

– Odur? – Kişi az qala gözlərilə soruşdu.

– Özüdür ki, var. – Qadın da eyni şəkildə sakitcə cavab verdi.

Əhməd müəllim ürəyi sıxıla-sıxıla onlara yaxınlaşdı və üzündə yarı-məzlum, yarınaçar bir ifadə, dinib-danışmadan, salamsız-kəlamsız keçib stolun arxasında o da oturdu. Oturan kimi qalınşüşə eynəyini qəhvəyi zolaqlı boz pencəyinin döş cibindən çıxarıb əlində oynada-oynada ora-burasına baxmağa başladı. Elə diqqətlə eynəyə baxırdı ki, elə bil, bundan vacib işi yox idi.

Qonaqlar Əhməd müəllimin bu cür "oyun oynamağından" belə hiss etdilər ki, o, vaxtı uzatmaq istəyir. Qadın təəssüflə Kişiyə baxdı. "Bu yenə aradan çıxmaq istəməsin?!"

– Bax, sənin bizimlə yenə gizlənpaç oynamaq niyyətin varsa… — Qadın üzünü Əhməd müəllimə tutub çox ciddi şəkildə sözünə davam etmək istəyirdi ki, Kişi onun dediklərini sərt bir şəkildə qəfildən yarıda kəsdi:

– Biz sənə nə qədər deməliyik eyni sözləri? – Kişi qərara gəldi ki, söhbəti o özü davam etməlidir. – Sən bizimlə oyun oynayırsan??

Suallar beləcə kəskin şəkildə qoyulsa da, suala bağlı kamera teatrı hələ də pərdələrini açmırdı. Əhməd müəllim özünün yaratdığı o balaca teatrı bu dəfə unutmuşdu. Əhməd müəllim heç bir oyun oynamadan, üzünə az qala şapalaq kimi dəyən bu suallara bir an belə düşünmədən əzbərçi uşaqlar kimi tələsik cavab verməyə başladı:

– Mən oyun oynamıram. Siz mənə nə deyirsiniz, nə demirsiniz, mənə bunun dəxli yoxdur. Məni nə üçün izləyirsiniz? Məndən nə istəyirsiniz? Mən qərarımı qəbul etmişəm. Mən ora qayıtmaq istəmirəm. Başa düşürsünüz? İstəmirəm! – Əhməd müəllim, nəhayət, əlində oynatdığı qalınşüşəli eynəyini qatlayıb stolun üstünə qoydu. Səsini ucaltdığı üçün özündən narazı qaldı.

– Sən bunu başa düşürsən ki, nə müddətdir, sən uzun bir yuxunun içindəsən? Başa düşürsən ki, sən bu yuxunun içində azmısan?– Kişinin sualları yenə də şapalaq kimi şaqqıldayırdı.

– Bizi də bu yuxunun içində azdırmısan…— Qadının səsi bir az yuxulu kimi gəldi. – Sən ayılmalısan. Ayılıb bizi azad etməlisən. Biz sənin yuxundan özümüz çıxa bilmirik.

– Mən heç kimə heç nə borclu deyiləm. Mən heç nə etməməliyəm. Günah sizin özünüzdədi. Gərək gəlib mənim yuxuma girməyəydiniz. Sizin orda, özü də ikinizin bir yerdə nə işiniz vardı?! Görürsünüz, bu suala heç birinizin cavabı yoxdur.

Qadınla Kişi, həqiqətən, Əhməd müəllimin yuxusunda idilər. Əslinə baxsan, Əhməd müəllimin bütün həyatı artıq bir böyük yuxudan ibarət idi. Elə iş yerinin yanında yerləşən balaca bağçada ağaclar altındakı bu çayxana da yuxunun içində idi, aralarındakı söhbət də yuxuda baş verirdi. İş yeri, iş yoldaşları, kamera teatrı, hər şey yuxunun içində idi. Əhməd müəllim bu yuxudan ayılmaq istəmirdi. Qəribə idi, amma beləydi. İndi üzbəüzündə outrub ləzzətlə çay içən bu Qadınla Kişinin mənsub olduqları, onun özünün də doğulub boya-başa çatdığı o uzaq dünya ilə Əhməd müəllimi bu gün artıq heç nə bağlamırdı. Ağacların xışıldayan yarpaqları, günəşin istidən yandırması və küləyin adamları quş kimi uçurması, göydən yerə qucaq-qucaq, lopa-lopa yağan qar, ən əsası isə iş yerindəki yoldaşlarının ona səmimi münasibəti, bilmədikləri hər məsələ barədə sual vermələri, ehtiramla ondan cavab gözləmələri… bütün bunlar Əhməd müəllimi üç ildi ki, yuxuya gedib gəldiyi bu yeni dünyasına bərk-bərk bağlayıb durmuşdu. O biri, doğulduğu dünyanı Əhməd müəllim gördüyü bu yuxunun içində hərdən xatırlayanda qanı bərk qaralırdı, artıq o dünyanı Əhməd müəllim heç sevmirdi, adını da belə qoymuşdu: “Yarpaqları xışıldamayan dünya”. İndi “Yarpaqları xışıldamayan dünyadan”, əslində isə, o dünyadan deyil, onun yuxusunun içindən gələn bu iki nəfər onu vaxtilə həsrətində olduğu və, nəhayət, qovuşduğu yeni, əziz dünyasından ayırmaq istəyirlər.

– Mən sizi buraxsam, bu yuxu dağılar. Mən sizi yuxunun içində bunu istəməyə-istəməyə saxlamışam. Özünüz düşünün, siz burada mənim nəyimə lazımsınız?! – Əhməd müəllim fikirli-fikirli danışırdı. – Mən istəmirəm, yuxu dağılsın. Bilirsiz, burada iki üstəgəl iki … beş edir… Hərdən …

Başqa dünyalarda iki üstəgəl iki həmişə dörd edirdi. Əhməd müəllimə elə gəldi ki, sonuncu dəlil çağırılmamış qonaqlar üçün kifayət dərəcədə gözlənilməz və inandırıcı olmalıdır.

Qonaqlar ona inanmadılar.

Söhbət xeyli uzansa da bir nəticə vermədi. Səhər tezdən elə buradaca görüşmək barədə razılaşıb ayrıldılar. Əhməd müəllim iş yerinə qayıtdı. Vicdan əzabı onun qəlbini əzirdi.

– Əhməd müəllim gəldi! Əhməd müəllim, Əhməd müəllim!.. – Onu görcək şöbə işçiləri hərəsi bir tərəfdən sevincək çığırışdılar. Görünür, burdakılar onun üçün darıxa bilirdilər. Bunun özü nəyə desən dəyərdi.

Əhməd müəllimin üzünə kədərli bir təbəssüm qondu. Beynində bayaq çayxanadakı söhbəti götür-qoy edirdi. Düşünürdü, ölçürdü, biçirdi. Bununla belə o keçib yerinə əyləşəndən sonra otaqdakıları bir-bir gözdən keçirib "buyurun, mən qulluğunuzda hazıram" deyə onların nə deyəcəklərini, əslində yağdıracaqları sualları gözlədi. Gözlərinin dibinə yenə həmişəki mərhəmət dolu ifadə çökdü. Oyun başlayırdı. Elə birinci sualdan sonra Əhməd müəllim kamera teatrının işıqlarını yandırdı və keçib səhnəyə çıxdı. Sağına-soluna göz gəzdirib, camaata baş əydi və gözləmə pozası alıb dayandı.

– Əhməd müəllim, insan eyni vaxtda iki adamı sevə bilər? – Birinci sual bu oldu.

İşin axırı olduğundan hamının kefi bir az kök idi və sualı verən Selcan xanım Əhməd müəllimin bu dəfə də cavab üçün dərin fikrə getdiyini, gözlərini qıyaraq xəyala daldığını görüb oxun hədəfə dəydiyini zənn etdi, sualın cavabını maraqla gözləyən yoldaşlarına gizlicə göz vurdu.

Bu gün Əhməd müəllim yanına gələn o naməlum qadın qonağı ilə müəmmalı şəkildə çıxıb getdiyindən işdə az olmuşdu, işin axırına ancaq gəlib çıxmışdı, ona görə də sual-cavab məqamının həmişəki ləzzətini doyunca çıxarmaq imkanı xeyli aşağı idi. Vaxt bütün suallara çatmayacaqdı. Bir az əvvəl otaqdakılar hansı sualları verəcəklərini öz aralarında müəyyən etmişdilər. Selcan xanımın hazırladığı sual birinci səslənəcəkdi. Sualı verdikdən sonra isə Selcan xanım üzbəüzündəki şişman Qanturalının diqqətli baxışından gözlərini qaçıracaqdı.

Əhməd müəllim kamera teatrının səhnəsinə çıxıb dərindən nəfəs aldı. Sonralar Samirə adlı bir qız "O, cavab verməzdən əvvəl dərindən bir ah çəkdi…" deyəcəkdi. Deyəcəkdi və qəfildən hönkürtü ilə, zülüm-zülüm

ağlayacaqdı. Hamı əvvəllərdə olan kimi mənalı-mənalı baxışsa da heç kimin bu zaman dodağı belə qaçmayacaqdı.

Deməli, Əhməd müəllim kamera teatrının səhnəsinə çıxıb dərindən ah çəkdi. Qaşları düyünləndi. Bugünkü cavab, sonralar bunu da hamı boynuna aldı ki, Əhməd müəllimin şah rolu idi. Əhməd müəllimi tanımaq olmurdu. O, elə bil, bir başqa dünyadan qaçıb bura gəlmişdi. Geriyə isə qayıtmaq istəmirdi. Səsi ilə, tonu ilə, ədası ilə yarpaqları xışıldayan dünyanın cazibəsindən danışırdı. Əhməd müəllim onlarla vidalaşırdı, elə bil. Təkcə otaqdakılarla deyil, bu dünya ilə, iki üstəgəl ikinin beş elədiyi bu qəribə dünya ilə vidalaşırdı. Nəhayət, Əhməd müəllim susdu. Ani sükutdan sonra:

– Sağ ol, Əhməd müəllim! – Bu sözlər kiminsə düz ürəyinin içindən qopub gəldi.

Selcan xanımın sualı səslənəndən sonra gülməli bir cavab gözləyənlərin ümidi puç çıxmışdı. Əhməd müəllim öz kamera teatrında hər tərəfdən üstünə düşən gur projektor işığı altında səhnənin düz ortasında qərar tutub verdiyi cavabı sağa-sola baş endirməklə tamamlayırdı. Hamını ciddi şəkildə düşünməyə vadar edən o cavab isə, təxminən, bu sözlərdən ibarət idi:

– Eyni zamanda iki dünyada yaşamaq olarmı? Həm olar, həm də yox. Bir ürək eyni zamanda həm sevinc içində, həm də sonsuz qüssə ilə döyünə bilərmi? Həm döyünə bilər, həm də yox. Soruşursan ki, eyni vaxtda iki adamı sevmək olar, ya olmaz?! Niyə də olmasın, sevməyinə sevmək olar. Amma bir məsələ var. Eyni zaman ərzində iki və daha çox adamla görüşən qadınlara biz nə deyirik? Fahişə deyirik. O biri tərəfdən, biriylə görüşəndən sonra başqası ilə görüşənə fahişə demək olarmı? Olmaz! Ola bilər ki, bir qadın həyatı boyu iki adamla görüşsün, amma eyni vaxtda. Bu adam fahişədir. Ola da bilər ki, həyatı boyu yüz adamla görüşsün, amma bir-birindən sonra – bu, bir başqa məsələdir. Ürək nədir? Ürək bir quşdur, bir budaqdan o biri budağa qonyr. Amma əvvəl bir budaqda olur, sonra o birinə qonur. İkisinə eyni zamanda – mümkün deyil. Ağır olan isə bilirsiz, nədir? Hər sonra qonduğu budaqda əvvəlki budağı yaddan çıxardığını, beləliklə, nəhayət, rahatlıq tapdığını düşünən, amma bunun belə olmadığını yəqin bilən ürəklər var. Biçarə ürəklərdir.

Otağa sükut çökdü. “Sağ ol, Əhməd müəllim!” nidası da elə bu sükutdan sonra kiminsə ürəyinin ən dərin yerindən qopdu. Elə bil, bu ürəkdən həmən sözlə bir yerdə qara bir tikən kolu da ağır-ağır çıxdı.

Bu axşam alınmadı. Əhməd müəllimin həmişəkindən xeyli təbii şəkildə rola girməsi belə otaqdakıları şənləndirmədi. Hamı kamera teatrında deyilənləri ciddi qəbul edərək beynində nəyisə saf-çürük eləməyə başladı. Ən maraqlısı isə bu oldu ki, gözlənilməz bir halda Selcan xanım əməlli-başlı pərt oldu. Pörtmüş halda heç kimlə sağollaşmadan çıxıb getdi. Hamı buna diqqət etdi və adamlar altdan-altdan Qanturalını süzdülər. O isə dönüb qızın arxasınca belə baxmadı. Samirə gedib alnını otaqdakı yeganə pərdəsiz pəncərəyə yapışdırdı, nəfəs verib pəncərəni nəfəsinin isti buğuna bürüdü:

– Qar yağır… – dedi.

Bu son görüşün orası da maraqlıdır ki, naməlum qadın barədə heç kim soruşmadı.

Sabahı gün Əhməd müəllimi işdə görən olmadı. Kim idisə xəbər gətirdi ki, səhər tezdən onu qarşı tərəfdəki bağçanın çayxanasında bir qadın və bir kişi ilə bir yerdə, açıq havada çay içərkən görüb. Lopa-lopa yağan qar onları üç nəhəng heykələ döndəribmiş. Bundan sonra Əhməd müəllimi bir daha “gördüm” deyən olmur. Doğrudan da, Əhməd müəllim necə ki, buralarda nagahan peyda olmuşdu, o cür də günlərin bir günü qeyb olub gedir.

…Xətt sehrli xalça kimi yer üzündən ağlasığmaz sürətlə uzaqlaşmağındaydı. Xəttin üstündə bir qadın və iki kişi vardı. Kişilərdən biri qadınla eyni istiqamətə baxırdı – xəttin üz tutub getdiyi istiqamətə. O biri Kişi isə gözlərini əks istiqamətdən ayıra bilmirdi. Onun baxışları gəldiyi yerə geriyə zillənmişdi. Orada getdikcə kiçilərək işıqlı nöqtəyə dönməkdə olan bir ulduz vardı. Nəhayət, bu ulduz kiçilib-kiçilib vaxtilə kamera teatrının səhnəsinə düşən işıq zərrəsi boyda oldu. İşıq zərrəsi artıq çox-çox uzaqlarda qalırdı və bir an sonra gözdən tamamən itəcəkdi ki, Kişi üzünü o işıq zərrəsindən çöndərib səfər yoldaşlarının baxdığı səmtə o da baxmağa başladı.

*2011-ci il*

# Üçrəng pişik balası

Aləm dağılırdı. İsti otaqda oturub tənbəl-tənbəl bayırdakı qara, şaxtaya, çovğuna baxaraq o, belə düşünürdü: "Əlbəttə, son zamanlar mövsümlər bir-birinin içinə girib. Qışda yay, yazda qış, payızda yay… adi hala dönüb. Təmiz yay, təmiz payız, təmiz qış axtarıb tapmaq mümkün deyil. Bu gün isə maraqlı istisnadır. Fəsil qış fəslidir. Hava da əsl qış havasıdır. Çoxdandır, bu cür uyğunluq yox idi. Əsl tarazlıq günüdür. Nə isə baş verəcək".

Elə bu tarazlıq günündə Yasin qəfildən anladı ki, uzun zamandan bəri ona rahatlıq verməyən, qeyri-müəyyən ağrısı canına, ruhuna acı və əzab gətirən o hissin adı nəymiş. İndiyənə qədər bu acıyla mübarizə aparmaq onun üçün çox ağır idi. Ona görə ağır idi ki, əvvəllər o bu hissin adını bilmirdi. Özünü qaranlıq otaqdakı kimi köməksiz hiss edirdi. İndi isə bu ad artıq məlumdur. Bu qorxulu adı öz kövrək qanadlarında pəncərənin o tərəfində küləyin atıb-tutduğu, heç cürə yerə düşüb ərimək istəməyən qar dənəsi gətirdi.

Hissin adı nifrət idi.

Birdən-birə əti ürpəşdi. İlk ağlına gələn fikir bu oldu: "Ola bilməz! Nifrət hara, mən hara?! Bir Allah bəndəsinə yaraşan hiss deyil bu". Amma özü də get-gedə daha artıq əmin olurdu: bu elə belədi ki, belədi. Ən azından ona görə belədi ki, bu söz ona görükəndən sonra birdən-birə bütün canına, ruhuna bir rahatlıq yayıldı. O başa düşdü ki, bundan belə yaşlılıq həyatının yeni bir dönəmi başlayır. O bu sözlə, əlbəttə ki, sözün özü ilə deyil, sözün gətirdiyi anlayışla, yox, yenə də dəqiq olmadı, bu anlayışın adı olduğu hislə dostluq və dinc anlaşma şəraitində yaşamalıdır, yaşamağa məhkumdur.

Bu hissin rəngi də vardı. Gözdincəldən bir rəng idi. Rəngi ağ, yox, buna ağ demək çox azdı, ağappaq idi. Pəncərədən baxdığında uzandıqca uzanan o tərəfin eyzən büründüyü rəng kimi.

O heç kimi sevmir, sevə bilmir. Bu ki əsl bədbəxtlikdir. Belə yaşamaq olarmı?! Olmaz! Amma hələ harasıdır?! Allah, Allah, dəhşətlisi də elə budur- çünki səbəbi yoxdur, o ki hamıya – təkcə insanlara, yox, hamıya, bütün canlılara nifrət edir. Bunu kim ona desəydi, inanmazdı, gülərdi. İndi isə zərrə boyda qar dənəsi onu buna inandırmışdı. Həyəcandan ürəyi hövr elədi, hətta ağlamsındı belə, istədi, özünəyazığı gəlsin, gəlmədi. Bəli, bu minvalla ağ pambığ tarlasına çevrilməkdə olan dünyanı pəncərədən seyr edə-edə son zamanlar bütün ruhuna hakim kəsilən o nifrət hissinin artıq əsl sahibi olduğunu Yasin, elə indi, nəhayət ki, birdəfəlik anladı.

Həşərat, həşərat… Bir belə həşərat?! Niyə hamı bu qədər uzaq, bu qədər yad, bu qədər soyuq və mənasızdır?! Niyə o, elə bil, başqa planetdən gəlib, bu adamlarla heç bir mənəvi bağlılıq hiss eləmir, varsa da üzülmüş sap kimidir bu bağlılıq?! Gözünün qabağında kiminsə canı çıxa, acımaz! Niyə, nə üçün onun ürəyi beləcə daşa dönüb, hətta o özü özü üçün bu qədərinə tanınmaz olub?! Necə gəldi, necə çıxdı belə bir hala, necə oldu ki, bu boyda kin, nifrət çanağına döndü – o bunu xatırlamır.

Amma yox. Xatırlamır, ancaq bilir. Artıq bilir. İllərlə içində boğub zərrə-zərrə, qarış-qarış gizlinə qovduğu ən xırda anlaşılmazlıqlar, umu-küsülər, narazılıqlar bulaqlar kimi nəhəng bir daşdan sızıb-sızıb bir böyük dənizə – nifrət dənizinə çevrilibmiş. Solmazmı? Solmaz! Əlbəttə ki, elə

bircə bu yaşılgöz "sona" bütün qadınlara və qadınlığa nifrət etməyin tək bir səbəbi ola bilər.

Yarım saat əvvəl Solmaz ona zəng eləmişdi:

– Canım-gözüm, başımın tacı, necəsən? Bu soyuqda neynirsən? Evin istidimi? Yeməyin varmı? Tənbəllik eləmə, gəlirsən, dur gəl bizə. Anam düşbərə bişirib…Yox, yox, nə deyirəm mən, gözümün işığı, sən bu havada evdən eşiyə çıxma, istəyirsən, mən sənin yanına gəlim? – Solmaz dil töküb yarızarafat, yarıgerçək az qala yalvarırdı.

Yasin susurdu.

Solmaz həmişəki kimi əl çəkmədi:

– Niyə susursan? Danış da, canım-gözüm, mənimlə. Darıxmışam e, səninçün. Sən… darıxmısan sən də? Nolar, demə də, hər şeydən zindeyi-zəhləm gedir, bu gün bu sözü demə… Gəlim?

Nəhayət, Yasin bütün bu suallara bircə kəlmə ilə cavab verdi: "Yox!"

Yasin bunu deyib telefonun dəstəyini yerə qoydu. Belə hallarda həmişə dalbadal zəng eləyən Solmazdan bu dəfə səs çıxmadı. Otağı yenə də ölü bir sükut bürüdü. Qulaqlar cingildədi.

Bu sükutda rəisi Həmidağa müəllim gəlib yadına düşmədimi, düşdü. Son zamanlar Solmazla olan hər söhbətdən, hər görüşdən sonra gecə vaxtı ulduzlu göydə ay yada düşən kimi Yasin də bu kişini yadına salırdı. Gəmilərin təmiri idarəsində Həmidağa müəllim hörmət və izzət sahibi idi. Yasin bir dəfə gecə vaxtı Solmazı öz evlərinin yanında onun maşınından düşən yerdə görəndən sonra daha Həmidağa müəllimin üzünə baxa bilmirdi, iyrənirdi. Elə bil, kişinin ona borcu vardı, ya da söz verib əməl eləməmişdi…

Üçü də bir idarədə işləyirdi. Bəlkə təsadüfən bu hadisə baş vermişdi?! Burda ayıb axtarmağın bir mənası vardımı?! Bəlkə heç kimin heç bir günahı yox idi?! Bəlkə yox, yəqin ki, bu elə belə idi. Yasin məntiqlə bunu başa düşürdü. Solmazın ona münasibətinə də inanırdı. Amma yenə də əlində deyildi. Unuda bilmədiyi bir şey vardı. O zaman tində daldalanan Yasin acı-acı baxıb görmüşdü ki, Solmaz Həmidağa müəllimin maşınından, "elə bil ki", gizlənə-gizlənə çıxır. Tələsik də gedib sağa-sola baxmadan

həyatlərinə girmişdi. Şübhəliydimi, bəlkə də. Hər halda Yasinə bu, belə görünmüşdü.

O gecədən sonra təkcə Həmidağa müəllimdən deyil, bütün o yaşda olan, Həmidağa müəllim isə onlardan xeyli yaşlı idi, və vəzifəcə ondan imkanlı adamların hamısından acığı gəlməyə başladı. İçini qurd gəmirirdi. Əzabının həddi-hüdudu yox idi. Bu əzabı çəkməməyin yolu yox idimi, əlbəttə, var idi. Amma o bu yolu özü üçün tam qapamışdı. Bunun ən asan yolu məsələni açıb Solmazın özündən soruşmaq idi. O isə bilərəkdən bunu Solmazdan soruşmurdu. Sadəcə, içindəki iniltili, üzücü səsi dinləyirdi. O səs mişar kimi kəsirdi. Mişar səsi bir müddətdən sonra onun qulağında yavaş-yavaş doğma bir musiqi səsinə döndü. Yasinə bu zaman elə gəldi ki, o, əzab çəkməyin özündən zövq almağa başlayıb.

Daha kimlər var? Çox adam var. Qohumlar var, qonşular var, yaxınlar, uzaqlar, tanışlar, bilişlər… var. Hamıdan ona mənfi energiya gəlir, hamıdan. Hər kəs, elə bil, öz ruhunun ən çirkli, ən ağır yerini onun üçün saxlayır, ona ötürür. O isə… O da cavabsız qoymur bütün bunları. O da elə-belə nifrət etmir dörd ətrafına. Onun cavabı onun nifrəti idi. Sən demə, bütün bu zəhlə getmələrin, acıq gəlmələrin hamısının onun indiyənədək tanımadığı bir ümumiləşmiş adı var – nifrət!

Yox, nifrət yox, NİFRƏT!!

Yasini qorxudan məsələ tək bu deyildi. Adamlar, yaxşı, bu, aydındır. Bunu hardasa anlamaq olar. İtlərin, pışıklərin bəs nə günahı?! Onlara da axı nifrət edirdi. Quşlar, istər səs salsın, istər uçsun, istər budaqda otursun, onu ancaq əsəbiləşdirirdi. Toyuq-cücə səsi onu özündən çıxarmaqla məşğul idi. Hələ it hürüşü, pişik miyoltusu lap dəli edirdi.

Yasin oturduğu yerdəncə pəncərədən o tərəfdə lopa-lopa yağan qara baxıb düşündü: "Bəlkə mən, həqiqətən, dəli oluram, axı bu, deyəsən adi əsəb pozuntusuna oxşamır…"

Beynindən "pişik miyoltusu" sözləri keçmişdi ki, sükut pozuldu, oturduğu yerdəcə Yasinin qulağına bayırdan səs gəldi. Uşaq səsinə oxşadı. Kim idisə ağlayırdı. Özü də elə-belə ağlamırdı, zar-zar ağlayırdı. Əvvəlcə fikir

vermədi. "Ölsün, kimdisə ölür, ölsün. Ruhum da inciməz. Mən zalım adamam…"

Səs isə kəsilmir, getdikcə güclənirdi. Yasin hiss elədi ki, onsuz da yorğun əsəbləri yenə də gərildi və o, daha yerində otura bilməyəcək. Nəhayət, dözməyib ayağa qalxdı, pəncərəyə yaxınlaşdı. Diqqətini cəmləyib pəncərədən bayıra baxdı, nəsə seçməyə, səsi "axtarıb tapmağa" çalışdı.

Qar bütün ətrafı ağappaq, yupyumşaq örtüklə örtmüşdü. Dünyanı kiminsə gözündən gizlətmək istəyirdi. Təkcə onun yaşadığı evin qarşısındakı min ilin qoca qarağacı idi, qarı yaxın buraxmırdı. Onun nəhəng gövdəsi, ayrı-ayrı qalın budaqları qışın bu qış vaxtı öz ağac rəngini hələ də qoruyub saxlamışdı. Bu nəhəng ağacın ancaq üst budaqları orda-burda çətir kimi qarla örtülüydü.

Yasin gözlərini qıyıb uşaq ağlamasının hardan gəldiyini axtara-axtara gözü Qarağacın hündür budaqlarının birində büzüşüb oturmuş və ehtiyatla ora-bura boylanan qara bir pişik balasına sataşdı. Uşaq səsini bu pişik balası çıxarırdı. Pışıklər adətən miyoldar, bu isə əsl uşaq səsi ilə ağlayırdı. "Ay səni görüm, təpəsi üstə yerə gələsən, sənin orda nə işin vardı ki, indi də belə yalvarırsan?!"

Ağaca bəlkə də sərçə dalınca çıxıb bir-birinə möhkəmcə sarmaşmış qol-budaqların əyri-üyrü dolambacları arasında geriyə yolunu azmış bu balaca pişik balası hərdən budağın üstündən aşağı tullanmaq istəyir, ehtiyatla bütün bədəni ilə üzü aşağı gərilir, öz aləmində nəyisə ölçüb-biçir, amma tullanmırdı, məsafə böyük idi deyin, geri çəkilirdi. Yenə başlayırdı zarımağa.

Yasin pəncərədən çəkilib yerinə oturdu. "Təklik. Ancaq təklik. Hər şeyin dərmanı təklikdir. Heç kimi görmək istəmirəm. Hamıdan zəhləm gedir. İşdən də, nəhayət, çıxmaq vaxtıdır. Bəsdir, səhər-axşam bunların simasız simalarına baxdım. Adamın ürəyi bulanır."

Əti ürpəşdi, elə bildi, əlində qurbağa tutub saxlayıb. Bir anlıq irəlidə, yaxın bir zamanda heç kimi görmək məcburiyyətində qalmayacağı o gözəl günlərini xəyalında canlandırmağa çalışdı…

"Nə kişi kimi kişidirlər, nə arvad kimi arvad. Elə bil, dünyanın axırıdır, elə bil, hamı son gününü yaşayır. Bunların toy məclisləri, bunların yas məclisləri… Bunların yolda dəli kimi maşın sürməkləri, bunların bir-birilə anqıra-anqıra danışmaqları… Bunların pışikləri də körpə uşaq kimi ağlayıb sısqayır, bunların adamları da işləri düşəndə ilan dili çıxarır, amma işləri düşməyəndə yanından elə keçir ki, elə bil, Şah Abbasın nəvəsidi. Babaları Babəkdi, Şah İsmayıldı, Koroğludu. Öz babalarını unudublar, ya da öz babaları kökündən olmayıb. Əməlləri göz qabağında. Hər biri ürəyində o birini söyür, hər biri o birinə paxıllıq edir. Naşükürlük, mərdiməzarlıq alınlarına yazılıb. Burunlarının ucundan o tərəfi görmürlər. Ən qədim tarix bunlarındır, ən qədim dil bunlarındır. Adamın əti tökülür. Dəyər adına bir dəyər yaradıblarsa o da dilləridir. Başqa şey deyil. Bu dilin də ən gözəl, ən əxlaqlı sözü "ayıb" sözüdür. Bunlara tanış olmayan, amma çox yaraşan "ayıb" sözü. Belə də dərd olar?!"

Ürəyində özü-özü ilə danışa-danışa Yasin bir də gördü ki, həyətdə, qarağacın altında durub, özü də soyuqdan tir-tir titrəyir. Pışik balası, doğrudan da, çox hündür bir budaqda azıb qalmışdı. Geri də qayıda bilmirdi, aşağı da tullana bilmirdi. Özü də bu pişik balası qara deyildi, üçrəng idi. Sarı, ağ, qara rəngləri vardı.

"Deyirlər, üçrəng pişik xoşbəxtlik gətirir. İndi biz bunu görərik." – Yasin düşündü.

Qarağaca qalxmaq üçün uşaqlıqda ağacın gövdəsində oyulmuş ayaq yerləri unudulmamışdı, təpəsinə qədər dəfələrlə dırmaşdığı qarağacın, tanış gövdəsini qucaqlayıb ən etibarlı dost kimi üzünü onun qabarlarına dayadı, soyuqdan əsim-əsim əsən barmaqlarını əvvəlcə ağacın gövdəsinə sürtüb-sürtüb tumarladıqca yanağına, barmaqlarına istilik gəldiyini hiss elədi, qanı qaynadı. Qarağac dərin bir yuxuda idi, elə yuxudaca mürgülü-mürgülü xışıldadı. Yasin dərindən bir köks ötürüb aramla, yavaş-yavaş, çətinliklə də olsa, ayaqlarını haman deşiklərin birinin içinə salıb o birindən çıxara-çıxara pışıyk balasına tərəf yuxarı dırmaşmağa başladı. Bu zaman pişik balası zarımağını kəsib diqqətlə ona baxdı.

"Bu ola bilməz, bu, mən deyiləm, bu, mən ola bilmərəm. Axı, mən canlı olan hər şeyə nifrət edirəmsə, hər şeydən bezmişəmsə, hansı ağılla bu iyrənc pişiyin dalınca…"

Pışık balasının qısılıb büzüşdüyü budağa çatmağa lap az qalırdı. Ayağının birini ağacın gövdəsindən ayırıb yaxındakı budağın üstünə qoydu, yenə "ah" çəkib nəfəsini dərəndən sonra ağırlığını salıb o biri ayağını da bu birisinin yanına gətirmək istəyirdi ki, soyuqdan buz kimi olmuş budağın üstündə ayağı xapdan sürüşdü. Qeyri-ixtiyari əlini üçrəng pişik balasına sarı atdı. Amma yox. Bu dəfə ayağıyla hövlnak, kor-koranə axtardığı hansısa quru budaq şaqqıltıyla ayağının altındaca qırıldı və o,göz açıb yummağa macal tapmamış içi dolu un tayı kimi "gup", arxası üstə yerə, qarağacın altına yıxıldı. Heç bir ağrı hiss eləmədi. Yerə yıxılmağıyla Yasinin canını tapşırmağı bir oldu. Üçrəng pişik balası cınqırını da çıxarmadı, ona elə gəldi ki, bütün bunlar əvvəlcədən elə bu cür də nəzərdə tutulub.

Sonrası heç kimin yadında deyil.

*2012-ci il*

# Həzin yay axşamı

*Vaqif İbrahimoğlunun xatirəsinə*

Bağ mövsümü idi. Bərəkətli, uca tut ağacının altındakı çəmənlikdə bir yay axşamı üç qız və dörd oğlan dövrə vurub bardaş qurmuşdular. Orxan isə eyvanda oturub, guya ki, kitab oxuyurdu, amma kitabdan çox tənbəl-tənbəl bu "gənclərə" göz yetirib onların hansı həngamədən çıxacaqlarını gözləyirdi. Dövrənin ortasına taxta bir tabaq qoydular. İçiboş pivə şüşəsi tapdılar, onu da gətirib qoydular bu tabağın üstünə. Deyəsən, hazırlaşırdılar şüşəni fırlatmağa.

Bu oyunda kimin harda və kimin yanında oturması, görünür, çox önəmli idi. Orxanın qardaşı Qoşqarın bir yaxın dostu vardı – Şahin, bu il ali məktəbə qəbul olub bir neçə günlüyə Orxanın bağına qonaq gəlmişdi, bu məsul işlə böyük canfəşanlıqla o məşğul olurdu. Amma oyuna başlamaq üçün lazım olan mizan heç cür alınmırdı. Onu orda oturdurdu, durub yerini dəyişirdi, bunu burda oturdurdu, bu da elə.

Nəhayət, Şahinin gücü ona çatdı ki, hamını taxta tabaqdan eyni məsafədə əyləşdirdi. Qızlar iki ayaqlarını bir başmağa dürtüb bir-birinin yanından ayrılmadılar. Onları ayırıb aralarına oğlan “soxmaq” Şahinə “qismət” olmadı. Füzuli demiş, “üç səf qız oturdu, üzbəsurət də üç səf oğlan...” Gərək ki, dahi şair belə demişdi. Bəlkə də belə deməmişdi.

Oyunun məğzi isə bunda idi. Hamı dövrə vurub oturandan sonra pivə şüşəsini tabağın hamar üstündə fırlatmaq lazım idi. Pivə şüşəsi fırlanıb-fırlanıb, nəhayət, ağzı kimə tərəf durardısa o, ayağa qalxıb dövrədəkilərin hansını istəsə öpə bilərdi. Əlbəttə ki, oğlanlar kimi öpəcəklərini bəri başdan yaxşı əzbərləmişdilər. Adam bilmirdi, buna uşaq oyunu desin, ya ki, böyük oyunu?!

Orxan düşünürdü: “Bizim vaxtımızda biz belə oyunlar oynamırdıq. Məktəbdə oxuduğumuz zaman qızlarla ən isti təmasımız “əl-ələ” oyunu idi. Əlin ələ toxunması bizim üçün artıq sirr idi. Hamımız bir-birinin dalınca iki-iki, əl-ələ tutuşub dayanar, əllərimiz bir yerdə göyə qalxardı. Tərəf-müqabili olmayan biri gəlib bu göydə bir-birindən bərk-bərk yapışan əllərin tuneli altından keçib ürəyi istəyən birini seçər, əlləri bir-birindən ayırar, seçdiyinin əlindən tutub gedib tunelin axırında onunla durardı. Adətən oğlan qızı seçərdi, qız oğlanı. Sonra növbəti dəfə kim tək qalardısa əyilə-əyilə gəlib tuneldən bu da keçərdi. Beləcə, saatlarla yorulmadan, hay-küylə “əl-ələ” oyunu davam edərdi. Bu oyunla bağlı qəribə və əziz xatirələr var. “Əlim onun əlinə dəyib...” deyə xoşbəxt olan və əlini iki gün yumayan vardı, sevdiyinin başqası ilə əl-ələ verdiyinə görə davaların düşməsi vardı, aşkar sirlər onsuz da aşkar idi, gözlənilməz halda kimin kimi seçməyinə görə gizlinlərin üzə çıxması vardı, qərəz, oyundan sonra sinifdəki dəstələr arasında söhbətlər, müzakirələr günlərlə bitmək bilməzdi.” Əllərin yaddaşı vardı.

...Bu yeddi nəfərdən üçü qız idi və onların üçü də Orxangilin bağ qonşularıydı. Orta məktəbin ya doqquzuncu, ya da onuncu sinif şagirdləriydilər. Oğlanlardan biri Orxanın qardaşı Qoşqar artıq İnstitutun üçüncü kursunda həkimlik öyrənirdi, onun dostu Şahin isə təzəlikcə ali məktəbin tələbəsi olmuşdu. O da həkim olacaqdı. O biri qonşu Mustafa

kişinin balaca nəvəsi Əziş idi, özünün də ləqəbi vardı: Cüllüt. Bu, bir od-yalov idi, özündən böyük oğlanların arasına özünü soxsa da, heç bir dələduzluqda onlardan geri qalmırdı. Hə, bir də Mak Donalds çağırdıqları (nə üçün, niyə??) biri vardı. Onu Orxan o qədər də yaxşı tanımırdı. Gözlərindən cin yağırdı, danışanda da ağzını əyə-əyə danışırdı, elə bil, ağzının içində daş vardı. Ağzını açan kimi elə bilərdin, gülür. Amma sonralar gördülər ki, ağzındakı daş deyil, əyri dişlərini düzəltmək üçün dişlərinin üstündən taxdığı protezdir.

Qızlar Orxan üçün daha maraqlı idilər. Məhlədə bir dəstə qız vardı. Adam gördüyündə çaşan bu qızlar Orxangilin darısqal bağ yolunun sağındakı və solundakı bağ evlərində yaşayıb bütün yayı bu ürəküzən bağ yerlərində keçirməyə məhkum olunmuşlardı. Artıq yavaş-yavaş püxtələşməyə, əyin-başlarına, ənlik-kirşanlarına fikir verməyə başlayan bu gözəlçələr, görəsən, dünyanın hansı şəhərlərində, hansı əyləncə yerlərində olmaq istəməzdilər?! Böyük oyunlarına girən vaxtları çatmamışdımı?! Xəyallarında nələr qurmurdular?! Kimləri özlərinə məftun etmirdilər?! Amma! Amma və lakin onlar uzun və qızmar yayı bu bağlarda oturub əncir-üzüm yeməyə məcbur idilər. "Bakı – Abşeron" yolu onların, hələ ki, yeganə marşrutu idi. Ən maraqlı əyləncə dəniz və bu cür oğlanlı-qızlı toplantılar olurdu. Sabahdan axşama kimi Orxanın bağının qapısına yaxın üzbəüz skamyalarda oturub darıxa-darıxa tum çırtlayır, gic-gic söhbətləriylə onlardan zəli kimi, milçək kimi əl çəkməyən oğlanlarla, daha çox isə bir-biri ilə sonsuz-saysız, hər şeydən və heç nədən söhbətlər edirdilər. Axşam tərəfi Orxan şəhərdəki işini bitirib bağa qayıdanda bu qızlar onu az qala "urra" ilə qarşılayırdılar. Maşını dar darvazadan bir az əl-qol ilə, daha çox "sağa, sola, stop, saxla, saxla!" bağıra-bağıra həyətə salmağa kömək edir, sevimli Orxanı əhatəyə alır, əl-ayağına pişiklər kimi dolaşa-dolaşa maşından düşməyini belə gözləmədən iki daşın arasında günün vacib hadisələrini tələsik, bir-birinin sözünü kəsə-kəsə ona xəbər verirdilər. Bu qızlar Orxandan xeyli kiçik olsalar da onun əsl dostları idilər. Onu böyük sevinclə qarşılayır, üz-gözlərində də bu yazılırdı: "Nə yaxşı bu gün tez gəldin, Orxan dayı,

öldük biz, al bizi bu malçişkaların əlindən..." Malçişkalar onlardan iki-üç, bəlkə də dörd-beş yaş böyük idilər.

– ...öldürdülər bunlar bizi. Təsəvvür edirsən, Orxan day, bitlzları tanımırlar...

– Biz tanımırıq?! Ay-hay! "Tanımırıq..." Biz sizi dolayırdıq.

–Tanımazlar, inanıram, tanımazlar. Onlar heç Don Kixotu da tanımırlar. – Təbii, Orxan qızların tərəfində idi.

– Ay-yay-yay... Doğrudan deyirsən??? – Təəccübləri çox "səmimi" alınırdı. Kənardan baxan elə bilərdi ki, bunlar Don Kixotu tanıyırlar.

– Həri, əlbəttə ki, "ay-yay-yay".

...Və indi, axşamın bu axşam çağı, özü də ola belə bir yay axşamı, oğlanlarla öpüşməyə hazırlaşan bu qızlar Orxanın tanıdığı qızlarmıydı?! Ona elə gəldi ki, indi tut ağacının altındakı balaca çəmənlikdə dövrə vurub oturmuş, pıqqıldaşa-pıqqıldaşa bir-birilə baxışan bu üç qız hansısa dərin bir məqsəd uğrunda çalışan ön kəşfiyyat dəstəsidir.

Başçıları Həlimə adlı yaraşıqlı bir qız idi. Onun iki tərəfində isə bizim qapının ağzından əl çəkməyib səhərdən axşama qədər tum çırtlayan iki yöndəmsiz qız rəfiqəsi oturmuşdu. Həlimə o biri rəfiqələrindən həm yaraşığı ilə seçilirdi, həm də daha sadə geyimi ilə. Özü də yaşından böyük görünürdü. Elə bilərdin, ali məktəb tələbəsidir. Əlbəttə ki, başda Qoşqar olan bu "lotuların" oyunla bağlı əsl məqsədi bəlli idi – Həlimə! Oğlanların üzünə baxanda kimin üçün ağızlarının suyunu axıtdıqlarını anlamamaq mümkün deyildi. Bu biri iki qız isə əsl "satdıq mala" əlavə (yamaq) idilər. Həlimənin üzündə-gözündə, bütün vücudunda... sözəgəlməyən bir cazibə vardı. Azacıq xam baxan baxışları, amiranə danışıq və hərəkət tərzi, hərdən utanmaz-utanmaz, hərdən isə yalançı utancaqlıqla baxan yaşıl gözlərini danışdığı, amma daha çox mübahisə etdiyi adamın düz gözlərinin içinə zilləyib onun beyninə "mən... buyam... sən... mənim... üstünlüyümü... qəbul etməyə... bilməzsən... bilməzsən... ölsən də... məni... bəyənməyə... bilməzsən..." sözlərini ayrı-ayrılıqda, cəsarətlə göndərməsi Həliməni bütün ətrafda qeyri-rəsmi "primadonna" etmişdi. Hamının yanında Orxanla həmişə az qala ərklə danışan, əsl enerji dağarcığı olan Həlimə qızların

qeyri-rəsmi "duayeni" idi. Orxanı "ağlayıb-sısqayıb" (əslində, nazlanıb) "birtəhər" razı salaraq bəzi axşamlar balaca maşınına ən azı yeddi-səkkiz qız yığıb dənizə çimməyə aparmağa məcbur edə bilən yeganə qız o idi. Biçarə oğlanlar bu zaman üst köynəklərini çıxarıb başları üstdə yelləyə-yelləyə maşının dalınca "kim kimi ötdü" deyə ləhləyə-ləhləyə qoyurdular üstünə, nə qaçırdılar — "saatda yüz iyirmi ilə".

...Orxanın bu vaxtacan yadında dəqiq qalan odur ki, bu Həlimə onu təklikdə görəndə yanaqları qıpqırmızı qızarır, qaşının biri təəccüblə yuxarı dartılırdı. Nə dinirdi, nə də danışırdı. Əvvəl-əvvəl Orxan bunun fərqində deyildi. Bir müddət keçdi. Orxan bunun fərqində o zaman oldu ki, təklikdə Həlimə ilə qarşılaşanda başladı hiss eləməyə ki, onun özünün də yanaqları belə təkbətək görüşlər zamanı ağırlaşır, isinir.

...Orxanın xalası içəridən bir stəkan çay gətirib qoydu onun qabağına. Sonra səsləri-küyləri bağı başına götürmüş uşaqlar tərəfə diqqətlə nəzər yetirib:

– A bala, bunlar yenə nə oyun çıxarırlar? Vay,vay, vay... – Və bir cavab gözləmədən yenə dönüb girdi evə.

– Hələ bu harasıdır?!.. – Orxan onun arxasınca yavaşdan elə səsləndi ki, xala eşitməsin.

Dörd oğlanın dördü də, kiçikli-böyüklü, əməlli-başlı "qızmışdı". Orxan görüb hiss edirdi ki, qızlarda da bir balaca gərginlik var, amma onların həyəcanı kifayət qədər dərindəydi. Oğlanlar isə... aşıb-daşan hislərini heç cür gizləyə bilmirdilər. Ondan, adətən, çəkinən bu "malçişkalar" indi Orxanı əməlli-başlı unutmuş, qan iyi alan akulalar kimi ovlarının ətrafında belədən-belə, elədən-elə üzüşürdülər.

Həzin yay axşamı idi. Havada ləzzətli bir sərinlik vardı, ola bilərdi ki, xəzri başlasın, amma indi başlamazdı, gecə — bəlkə... Yay axşamlarının "əziz" qonağı olan ağcaqanadlar nə üçünsə həmən axşam yox olmuşdular. Belə vaxtlarda Qoşqar deyirdi: "Vertolyotlar" bu gün uçuşa çıxmayıb...

Həlimə üz-gözündə guya istəməyə-istəməyə, bir balaca da nümayişkaranə şəkildə iki qızın arasında bardaş qurub əyləşdi, bu zaman onun alabəzək tumanının ətəkləri çəkilib dizlərindən xeyli yuxarı qalxdı.

Ətrafdakılardan heç kim, deyəsən, buna fikir vermədi. O biri qızlar da sərbəst oturmuşdular, amma onlar tez-tez tumanlarını dizlərinə tərəf sürüşdürüb ayaqlarını "örtməyi" yaddan çıxarmırdılar. Həlimə bunu etmirdi. Orxana elə gəldi ki, bu saat Həlimə anadangəlmə çılpaq olsaydı belə, yenə kiminsə onun bədəninə baxıb-baxmamağı vecinə olmayacaqdı, o bunu sadəcə, hiss etməyəcəkdi. Ona elə gələcəkdi ki, bədəni ağac kimi, daş kimi, ulduz kimi, ay kimi... nə bilim, daha nə kimi bir şeydi, kim baxırsa baxsın, ağac, daş, ulduz, ay ki bunu hiss etmirlər....

Birdən, "nə mənə, nə sənə", Orxanın özünün-özünə bərk acığı tutdu. O, bu boyda kişi, niyə hayıl-mayıl olub gözlərini bu yaraşıqlı qızın gözəl, yumru dizlərindən, qaralmış, əzələləri tarıma çəkilmiş baldırlarından ayıra bilmir?! Həlimənin gənclik təravəti ilə dolu aramsız, saqqız qoxulu sərt nəfəsi aralarındakı altı-yeddi metrəlik məsafəni qətiyyətlə keçib gəlib Orxanın üzünə toxunur, saçlarını tumarlayır, sonra burnuna, ağzına dolub onu bihuş edirdi. Birdən Orxana elə gəldi ki, Həlimə nə danışırsa, kiminlə danışırsa, həqiqətdə bu belə deyil, həqiqətdə Həlimə yalnız onunla danışır. Ətrafda heç kim, heç kim yoxdur. Altdan-altdan o ancaq Orxana baxır, üzünə-gözünə tökülən qapqara saçlarını üzündən əli ilə yığmır, Orxanın xoşu gəlsin deyə kinodakı qadınlar kimi dodaqlarını büzüb onları aşağıdan yuxarı üfləyir. Mərmər kimi hamar, çılpaq ayaqlarını da bu qız ancaq Orxan üçün beləcənə açıb qoyub...

Bu son fikir beynindən keçmişdi ki, qəflətən ayıldı. "Dayan, zalımın oğlu, dayan! Hara zilləmisən, ay səni, yaramaz, gözünü?! Olmaz! Heç olmaz! Birdən kimsə hiss elər, görər ki, sən bu uşağa belə baxırsan, ayıbın ayıbı olar." Orxan özünü böyük bir günah tutmuş adam kimi hiss etdi, gözlərini qaçırıb tələsik kitaba dikdi və avtomatik olaraq qarşısındakı çaydan bir qurtum aldı. Çay soyumamışdı, Orxanın ağzı əməlli-başlı yandı.

Oğlanlar ucadan deyib-gülür, utanmadan əllərini əllərinə sürtürdülər. Qızların vəziyyəti isə müəmmalı idi, oyun onların sanki boyunlarına düşmüşdü. Amma geri də çəkilmək istəmirdilər. Şahmatdakı kimi pat vəziyyəti yaranmışdı. Oyunçular qaydaları tam müəyyənləşdirə bilmədiklərindən oyun hələ də başlanmırdı.

– Bəlkə belə edək?! Şüşənin ağzı kimə düşsə, o... tut ağacına dırmaşsın. Yox, qoy o, şeir desin... — Qizlar son müqavimət göstərməyə cəhd etdilər.

Cəhd zəif idi, əlbəttə ki, nəticə vermədi. “Akulalar” heç bir kompromisə doğru “üzmək” niyyətində deyildilər, onlar amansızcasına yalnız bir şey tələb edirdilər: “Öpüş! Öpüş! Ancaq öpüş!!! Oyunun öz pozulmaz qaydası var, onu dəyişmək olmaz!” Bu tələb onların düyünlənmiş qaşlarında, hədəqəsindən az qala çıxan gözlərində açıq-aşkar yazılmışdı.

Qızlar yenə bir-birilə baxışdılar: “Bunlardanmı çəkinəcəyik?! Ay-hay...”

– Başlayaq? – Qoşqarın dostu Şahin soruşdu. – Yoxsa...

– Qorxma qızım, sizi burda heç kim yeməyəcək... — Bu ədəbaz sözləri isə balaca Cüllüt dedi. Oğlanlar hırıldadılar.

Deyəsən, Cüllütün bu sözlərindən sonra Həlimənin üz-gözünə sərt bir ifadə qondu, qaşları çatıldı:

– Başlayaq! – Həlimə alt dodağını büzüb irəli gətirdi, saçı bu dəfə üzünə düşməsə də başını geri ataraq aşağıdan yuxarı bərkdən üflədi və altdan-altdan yenə də Orxan tərəfə nəzər saldı. “Başlayaq” sözünü elə qətiyyətlə dedi ki, sanki kiminləsə ölüm-dirim savaşına girəcəkdi, sanki oğlanların bilmədiyi nəyi isə o bilirdi. Onun qətiyyəti o biri qızlara da keçdi.

– Başlayaq. Kim birinci fırladır?..

– Siz fırladın. – Mak Donalds irişə-irişə, guya, jest elədi və guya, xəlvətə salıb Qoşqara bic-bic göz vurdu. Orxan oturduğu balkondan bu sırtıq irişməni açıq-aydın şəkildə gördü. Əti töküldü.

Şüşənin birinci fırlanışı çox çəkmədi. Dörd-beş dövrə... və şüşənin ağzı Həlimənin sağ tərəfində oturmuş qızı top ağzı kimi nişan alıb dayandı. Qız özünü itirdi.

“Oh... oh... oh... ah... ah...ah... ha-ha-ha...” və başqa buna bənzər cəngəllik səsləri çəmənliyi bürüdü. Ən çox da, aydın məsələ, oğlanların səsi idi. Qızlar yenə də bir-biri ilə ani baxışdıqdan sonra hədəfdəki çil-çil qız ayağa qalxdı, əvvəl sağına, sonra soluna baxdı, guya heç kimi tapmadı, yəni, layiq bilmədi, təzədən yerinə oturdu. Çiynindən qucaqlayıb Həlimənin yanağından öpdü. Bu dəfə qızlar gülüşdülər.

– Olmadı! Vallah, olmadı!.. Yanındakını olmaz. – Bir bəhanə tapa bilməyən qoçaqlar partladılar, qətiyyətlə etiraz etməyə başladılar, çünki, anladılar ki, belə gedərsə "ideya" məhv ola bilər.

Həlimə əl-qol ata-ata dağ şəlaləsini xatırladan gur səsi ilə onların səsini çox asanlıqla batırdı:

– Niyə, niyə olmaz?? Elə olar ki... Kimi istər, onu da öpər!

Orxanın qulağı əks-səda "rejimində" işləməyə başladı. "Kimi istər... onu da öpər... onu da öpər... onu da... öpər...öpər...öpər..."lərin sayı-hesabı yox idi.

Şahin yenə sükanı əlinə almaq istədi, az qala qışqırdı:

– Oyunun mənasını itirirsiz... olmaz ki...

Səslərini də zəhmət çəkib qısmırdılar. Artıq Orxanın balkondan bunları eşidib-eşitməməyinin heç bir əhəmiyyəti yox idi. Böyük-kiçikliyin başqa vaxt kəskin cızılan sərhədləri itmişdi.

– Əlbəttə, belə getsə, oyunun mənası qalmır, eh...

– Niyə ki, yaxşı qalır. – Qızlar təslim olmaq istəmirdilər. — Kim kimi istəsə öpsün. Siz də elə eləyin.

Həlımə bu sözləri söyləyən çil-çil qızın ətəyindən çəkdi. Əyilib qulağına nəsə pıçıldadı, ikisi də pıqqıldadı.

Cüllüt hirsini Şahinin üstünə tökdü:

– Sən də fırladırsan bunu, yaxşı fırlat da...

Şahin Qoşqara göz vurdu: "Darıxma..."

Qoşqar daha hiyləgər idi, Həlimənin son sözlərindən tutub buraxmadı:

– Nolar, düz deyirlər, kim kimi istəsə onu da öpsün.

– Sonra bizdən inciməyin... — Bu mənasız sözləri isə Mak Donalds dedi və beləliklə, bu hind serialının birinci seriyası bitdi.

Bu dəfə şüşəni Cüllüt elə bərk fırlatdı ki, uşaqlar üçün, elə Orxanın özü üçün də bu, bir ömür qədər uzun gəldi...

...Hər şeyi unutmuşdular. Öpüşün biri bir qəpik idi. Oğlanların hamısının "ürəyi yerinə gəldi", hamısı Həlimənin üstünə cumurdu. Həlimənin yanaqları öpüşlərdən allanmışdı. Amma qəribə olan başqa idi. Həlimə özü

heç cür şüşənin ağzına tuş gəlmirdi. Nəhayət, bu, oyundakıların da diqqətini cəlb elədi.

"Bu qız, görəsən, kimi öpəcək?!" Orxan nə qədər çalışırdı, bu mənasız sözləri başından çıxara bilmirdi.

Axırda məsələni Cüllüt "həll elədi". Şüşənin ağzını, demək olar ki, göz görə əliylə Həliməyə tərəf çevirdi. Qızlar "oh" eləyib istədilər, hay-küy qaldırsınlar, amma Həlimə ki, dodağını dişləyib dinmədi, bunlar da çox dərinə getmədilər. Hardasa, ədalət öz yerini tutmuşdu, bu qədər vaxt ki, bunlar oyun oynayırdılar, "yazıq" Həlimə öz hüsn-rəğbətini, hələ ki, bildirməyə imkan tapmamışdı. Hamı onun üçün belə bir fürsət yaranmasına sevindi.

– Təbrik! Təbrik! – Nədənsə, hətta qızlar da səslərini başlarına atıb qışqırışdı. Bilinmirdi, kim kimi və nə üçün təbrik edir.

Orxanın indiki kimi həmən səhnə gözünün qabağındadı. O bu gün də hər şeyi aydından aydın xatırlayır. Ona görə belə aydın xatırlayır ki, əslində, unutduğu gün olmayıb.

...Həlimə, yavaşıdılmış kadrdakı kimi tələsmədən, yavaş-yavaş ayağa qalxır. Yenə də yavaş-yavaş dövrə vurub oturmuş və ürəklərində min bir dillə Allahlarına yalvaran oğlanların arxasından keçir. Və Həlimə... Orxan oturan balkona tərəf yönəlir.

Budur, Orxanın gözləri önündə maraqlı kadrlar bir-birini əvəz edir: Mak Donalds gözlərini bərk-bərk yumub, Şahin əsəbi-əsəbi irişib ayaqlarını var gücü ilə qaşıyır. Cüllüt qollarını sinəsində çarpazlayıb yerindəcə dikəlib və donub. Qoşqarın üzünə qonmuş o ciddi ifadəni isə Orxan sonralar bir daha görmədi.

...Həlimə qaça-qaça gəlib düz Orxanın qarşısında dayandı. Orxan hələ də bir şey anlamadan ağır-ağır ayağa qalxdı. Onlar üzbəüz dayandılar və Orxana elə gəldi ki, onların ürəkləri bir-birinin döyüntü səsini eşidir. Bir anmı keçdi, min ilmi keçdı?! Qız baxışlarını ondan qaçıraraq dərindən bir "ah" çəkib əllərini Orxanın boynuna doladı və dodaqlarını bərk-bərk dayadı Orxanın üzünə. Dodaqlarının yarısı Orxanın dodaqlarının üstünə

düşdü, amma bu, çəmənlikdən onlara maddım-maddım baxanların gözündən uzaq, gizli şəkildə baş verdi.

Onların hamısı — gənc, diribaş, ağıllı qızlar və oğlanlar özlərinə o qədər inanırdılar ki... Həyat yaxın və uzaq gələcəkdə onlar üçün nə hazırlayırdı?! "Bakı – Abşeron" marşrutundan bezib hələ dünyaya səpələnməyə macal tapmamış bu nur parçalarını yaxın, uzaq gələcəkdə nə ğözləyirdi?! Kim bunu bilirdi?! Həmən həzin yay axşamı isə onlar xoşbəxt, asudə, qayğısız idilər. Həyat hələ onlarla zarafat eləməmişdi. Hələlik bərkdən və ürəkdən gülüşürdülər və nədənsə hamısı bir yerdə elə bərkdən çəpik çaldılar ki, Həlimə Orxanı öpəndən sonra pörtmüş bir halda, əsl qalib ədası ilə balkondan enib onların yanına qayıdanda...

On beş il əvvəlin hadisəsini Orxan bu gün niyə xatırladı?! Hər şeyin bir mənası var. Bu gün işdən çıxıb avtobus dayanacağına tərəf gedəndə qarşıdakı "bahalı" mağazadan bir xanım çıxdı, onlar üzbəüz gəldilər. Çox yaraşıqlı bir xanım idi. Zəngin geyimi vardı. Diqqətli baxışlarını Orxanın üzündə saxlaması artıq yaşlanmış, saçları ağarmağa başlayan bu, adətən, qadınlara münasibətdə ehtiyatlı kişini cəsarətləndirdi və o, ürkək bir salam verdi. Nə olar, olar. Uzaqbaşı nifrətli bir baxış altında ötüb keçəcəkdi.

— Salam... – Qadın salamı az qala sevincək aldı və ayaq saxladı.

Orxan sual dolu gözlərini qadının üzünə zillədi. Qadın Orxanı onun unutduğu bir şəfqətlə, qəribə bir canyananlıqla süzürdü. Özü isə bir söz demirdi, elə bil, gözləyirdi, Orxan nə isə desin.

– Belə... necəsiniz?

Bundan ağıllı bir şey tapıb demək onun ağlına gəlmədi. Qadın Orxanın çaşqınlığını görüb onu tanımadığını dərhal başa düşdü, qətiyyən pərt olmadı, amma bütün yaraşıqlı çöhrəsini səmimi bir təəssüf ifadəsi bürüdü:

– Orxan da qocalarmış... — Onun yumşaq səsi nəvazişlə dolu idi.

"Aha, nə yaxşı..." Orxanın ürəyi guppuldadı, "deməli, tanışıq. Nə isə demək, danışmaq lazımdır, susmaq olmaq, olmaz... "

– Siz... siz... – Yenə də dili topuq vurdu, bilmədi, sözünü necə davam etsin. – Yadıma sala bilmirəm. Siz...

Qadın üzündə həmən təbəssüm başını yelləyib, yəni, “sənə güvəndiyim dağlar...” Orxanın yanından keçdi. Orxan həyatı boyu bir çox fürsətləri əldən vermişdi. Bu fürsəti isə əldən vermək olmazdı, heç olmazdı. Arxasınca düşüb nə illah elədisə, o, adını söyləmədi. Bir ipucu da vermədi ki, onu haradan tanıdığını Orxan yadına sala bilsin. Xəz paltosunun ətəklərini yuxarı yığıb Orxanın onun üçün saxladığı taksiyə oturandan sonra sonuncu dəfə ona qərib bir vida təbəssümü bəxş edib, necə deyərlər, qeyb oldu. O təbəssüm, təxminən, bu demək idi: “Ax, zəmanə, zəmanə, Orxan da qocalarmış...”

Orxana elə gəldi ki, o, bir uşaqdır və cırnatmaq üçün ona bir oyuncaq göstərib sonra əlindən alıblar.

O axşam Orxan sevimli xalasının, anasının vəfatından sonra onun qeydinə qalan yeganə adamın yeddisinə gedirdi. O, hələ də çaşqın və qanıqara bir halda çadıra girəndə çadır artıq az qala boşalmışdı. Qoşqar yoldaşları ilə bir tərəfdə oturmuşdu. Onu görüb ayağa qalxdılar. Orxan da elə onların yanına keçdi. Fikrində həmən yaraşıqlı naməlum xanıma nə isə sübut edə-edə başsağlıqlarını qəbul etdi. “Kim idi o?! Axı çox doğma bir tövrü vardı. Ola bilməz ki, tamam yadımdan çıxa, heç cür ola bilməz...”

Qoşqardan başqa üç nəfər idilər. Orxana hörmət və maraqla baxırdılar. Birini tanıyırdı. Qoşqarın, elə Orxanın da, artıq belə demək olardı, dostu Şahin idi.

– Uşaqları tanıdın? – Qoşqar məhəbbət və sədaqət dolu gözlərini ona dikib təbəssümlə soruşdu. Əslində, bu, “niyə gec gəldin, niyaran qaldıq...” demək idi.

Orxan da təbəssümə təbəssümlə cavab verdi, gülümsədi. “Mənimki bu gün tanımazlıqdan gəlib... Heç, narahat olma, balaca işim çıxmışdı...””

– Ənvər yadına gəlmir?

– Mak Donalds. – Ənvər irişə-irişə Orxanın yadına nəyisə salmağa çalışdı.

– Əlbəttə, əlbəttə, tanıdım.

– Necəsiz, Orxan müəllim?! – Mak Donalds, yəni, Ənvər qabiliyyətlə soruşdu.

Ucaboylu yaraşıqlı oğlan isə gözləmədi ki, Qoşqar onu təqdim etsin.

– Yadınıza gəlir, Orxan müəllim, bir dənə Cüllüt vardı...

Cüllüt... Əlbəttə, xatırlayır. Necə unuda bilərdi?! Əlbəttə! Mak Donalds, Şahin, Cüllüt, bir də əziz qardaşı Qoşqar. O unudulmaz həzin yay axşamının qonaqları. Dövrə vurub çəmənlikdə qızlarla bir yerdə bardaş qurub şüşə fırlatmaları, onun balaca maşınına doluşan qızların, xüsusilə də, Həlimənin eşqinə maşının dalınca dənizə qədər "ləhləyə-ləhləyə" qaçmaları, daha nələr, daha nələr yada düşmədimi, yada düşdü. Orxana elə gəldi ki, bu uşaqlar hələ də o tozlu bağ yolu ilə qışqırışaraq "maykalarını" başları üstdə fırlada-fırlada dənizə tərəf qaçmaqlarındadılar.

Qəfildən Orxanın beynindən, elə bil, ildırım keçdi. Necə ola bilər ki, bayaq onu tanımadı?! Əlbəttə ki, o idi. Gərək ən azından qaşının təəccüblə yuxarı dartılmasından tanıyaydı. "Orxan da qocalarmış..." O idi, o. Başqa heç kim elə doğma ola bilməzdi. Orxan rahatlıqla köks ötürdü.

— Bu gün köhnə tanışlarla görüş gününə dönüb. Bayaq yolda biri də qarşıma çıxmışdı... – Orxan gözlərində niskilli bir təbəssüm, o uzaq və yaxın zamanda olduğu kimi yanaqlarının yenə də ağırlaşdığını hiss elədi.

Qoşqar və onun dostları Orxandan yolda hansı köhnə tanışını gördüyünü soruşmadılar. O da demədi.

*2011-ci il*

# Sirri-zəmanə

*Professor Vaqif Aslanovun xatirəsinə*

Səhər yuxusunun şirin vədəsində sol böyrünə, elə bil, xəncər soxdular. Diksinib ayıldığında, gözləri hələ yarıyumuluykən kiminsə cod səsi yuxunun axırıncı vaqelərinin içindən Fərhad Qürublunun qulağına yavaşdan, amma təkidlə pıçıldadı ki, tez ol, dur ayağa, get yazı masasının üstündən Səvvab Təbrizinin iki gün əvvəl oxuduğun, özü də, guya ki, diqqətlə oxuduğun risaləsinin üzköçürməsini al əlinə, on dördüncü səhifədə aç və yuxarıdan yeddinci sətri bir də oxu.

Elə də etdi. Tələm-tələsik əl-üzünü yuyub dama-dama köynəyini əyninə keçirə-keçirə özünü o biri otaqdakı yazı masasının arxasına saldı. Masanın sağ küncündə atılıb qalmış "Yuxuların idarə olunması" adlı qara cildli üzköçürmə, elə bil, onu gözləyirdi. Gözəyarı açdığında üzköçürmə birinci dəfədən özünün on dördüncü səhifəsində açıldı.

Yuxarıdan yeddinci sətirdə orta əsr təbir elminin mükəmməl bilicisi Səvvab Təbrizi belə yazırdı:

"Mənim yazdığım bu əsər ki, var, boş yerdən yaranmamışdır. Əlbəttə ki, onun bir mənəvi sələfi vardır və yox deyildir. Mənim ustadım dünyanın bir çox vacib sirlərini öz kamil yaradıcılığında yad və şərh etmiş məşhur Nüveyş əl-Zəmmani olmuşdur. Mən indi risaləmin əvvəlində sidq-ürəklə bəyan eyləyirəm ki, "Yuxuların idarə olunması" adlandırdığım bu əsər Nüveyş əl-Zəmmaninin "Kamilüt vacib" adlı indi artıq hər hansı bir yerdə bulunması imkansız olan nadir əql və zəka mücövhərindən sərbəst bir iqtibasdır. Şəxsi-alimlər bu əsəri dönə-dönə axtarmış, amma tapa bilməmişlər.

"Kamilüt vacib"in bəhs etdiyi bir çox sirlərin içərisində ən möhtəşəmi "Sirri-zəmanə"dir. Bu sirr xoşbəxtliyin şirəsini almağın disturudur. Sirri tapan xoşbəxt olub ölməzliyi də qazanacaqdır, çünki, gördüyü yuxuların içində ulduzlar özü ona yol göstərə-göstərə bir zəmanədən o birinə aparacaqlar. Sirrə dost olmaq istəyən gərəkdir, "Kamilüt vacib"in özünü tapıb oxuya. Olsun ki, oradan bir eyham, bir işarət özünü o şəxsi-alimə biruzə verə. Əgər kim sirrədost seçilsə eyham özünü ona göstərəcək. Başqasına – yox! Risalələrin belə oyunları olur. Səbr və mətanət!"

Vəssalam! Bu qədər!

Acgözlüklə bunları oxuyub Fərhad Qürublu ona təəccüb etdi ki, birinci oxunuşda necə olub ki, belə bir vacib parça onun diqqətini çəkməyib. Səvvab Təbrizi, əlbəttə ki, təvazökarlıq edib. "Yuxuların idarə olunması" əsərinə başdan-ayağa iqtibas demək çox böyük ədalətsizlikdir. "Kamilüt vacib" onun onurğa sütunu ola bilər, amma "Yuxular..."ın öz canı və öz qanı var. Buradakı şərhlər, əlavələr, ricətlər Təbrizinin əsərini, həqiqətən, orta əsr elmi fikrinin ən görüntülü nümunələrindən birinə çevirmişdi. Özündən sonra təbir və nücum elmi ilə məşğul olanlar bunu heyranlıqla və dönə-dönə qeyd ediblər.

Səvvab Təbrizi ilk dəfə "Sirri-zəmanə" adına Əl-Zəmmaninin risaləsində rast gəldiyini deyir. Təbrizidən üzü bu yana onlarla, yüzlərlə elm və irfan sahibləri, Təbrizinin dediyi kimi "şəxsi-alımlər", bu gün adama elə gəlir ki, əməlli-başlı dəli olub həyatlarını ancaq və ancaq bu açılmaz sirrin, yəni, xoşbəxtliyin və ölməzliyin disturunun axtarışlarına sərf ediblər. Ömürləri Əl-Zəmmanini, onun vasitəsiylə də "Sirri-zəmanə"ni axtarmaqla

keçib. Nəticə isə olmayıb. Bu adamlar həyatları boyu eləcənə "xoşbəxtlik nədi?" sualının cavabını tapmadan sonunda yanıqlı bir ah çəkərək göydəki ulduzlar kimi sakitcə sönüb dünyalarını dəyişiblər.

"Sirri-zəmanə"nin izini orta əsr əlyazmalarında axtarmaqdan vaz keçən, rəsmi şəkildə onun ılğım olduğunu söyləyən alim, heç bir kənar adam yox, indi görüşünə getdiyi elmi rəhbəri Vaqif Əsirzadə oldu. Vaqif Əsirzadə görkəmli risaləşünas idi. Orta əsrlərdə yazılmış hər bir əsər onun üçün bir başqasına müasir roman açıq olan qədər açıq idi. İlk dəfə o oldu ki, yuxusuz gecələr boyu oxuyub inandıqlarına, usanmadan apardığı axtarışlarına "asi" çıxdı. Bu, birdən-birə, gözlənilmədən baş verdi. Evdə, işdə, həyətdə-bacada bir neçə gün pərişan və laübali gəzən Vaqif müəllim, nəhayət, dözməyib yaxınlarına, o cümlədən, Fərhad Qürubluya bəyan etdi ki, düzdü, o, xoşbəxtliyin sirrini tapmadı, amma ona xoşbəxtliyin dadını hiss eləmək nəsib oldu. Sonra da dodaqlarıyla səssiz-səssiz bəzi şeylər pıçıldadı. Bu pıçıltıdan heç kim bir şey anlamadı. Dodaqların səssiz tərpənişini oxumağı bacaranlar isə deyə bilərdilər ki, Vaqif Əsirzadə səssizcə-səssizcə bunu pıçıldayır: "Təbrizi doğru demirmiş, Əl-Zəmmani "Sirri-zəmanə"nin müəllifi deyildir. "Sirri-zəmanə" qalmayıb, çünki Təbrizi onu açıbdır və özü dediyi kimi sirri əsirlikdən azadlığa buraxıbdır. Təbrizi sirrə qovuşubdur. Amma o, bunu xələflərindən gizlin tutmaq istəyibdir. Xələfləri həmişə bu sirrin axtarışında olmalıdılar. Çünki əbəs bildiyin bir şeyin uğrunda həyatını fəda etmədinsə yaşamağın mənası itər. Yeni sirrdostu, sirr qoruyan peyda olmalıdır. Oyun davam etməlidir. Sirr yenə də axtarışların burulğanında itməlidir. Sirr var kimi olmalıdır. Sirr isə artıq yoxdur. Var – Təbrizi!"

O, elmi rəhbərinin yanına bu cür narahat və qatmaqarışıq fikirlərlə gəldi. Söhbətə birbaşa keçdi. On dördüncü səhifə ilə bağlı dedikləri ortalığa elə o dəqiqə ağırlıq və gərginlik gətirdi. Vaqif müəllim ona diqqətlə qulaq asıb başını "eh" deyə yellədi, sonra:

– İnandırıcı deyil! – dedi. – "Yuxuların idarə olunması" orta əsrlər təbir elminin ən kamil əsərlərindən sayılır. Əl-Zəmmani barədə isə

deyilənlər fantaziyadı, başqa şey deyil. Noldu, bu qədər adam oxudu, amma bu sətirləri görmədi?! Hanı əlyazma? Ver bura!

Vaqif müəllim on dördüncü səhifədəki haman başıbəlalı yeddinci sətri bir dəfə oxumadı, iki dəfə oxumadı, nəhayət, neçənci dəfə oxuyandan sonra dərin fikrə getdi və artıq Fərhad Qürublu özü də yerində qurcuxa-qurcuxa qalıb bilmədi ki, Vaqif müəllim bu sətirləri növbəti dəfə oxuyur, yoxsa lal-dinməz gözünü dikib əlyazmaya və ətrafda nə varsa, hər şeyi unudub?! Nəhayət, Vaqif müəllim üzünü Fərhad Qürubluya tutdu:

– Təbrizi risaləsinin çox nadir, qiymətli bir üzköçürməsi vardı, Milli kitabxanada bilirsənmi, necə diqqətlə, necə ehtiyatla saxlanırdı?! Cavan idim, bu üzköçürməni istəyə-istəyə qalmışdım. Kartotekada adı getsə də, soruşanlara gah deyirdilər, "yoxdur", gah deyirdilər, "əldədir", gah da deyirdilər, "restovrasiyadadır". Beləəə...

– İndi bir çətinlik yoxdur. – Fərhad Qürublu pauzadan istifadə elədi.

Vaqif müəllim bu dəfə ona çox mənalı-mənalı baxıb gülümsündü:

– O üzköçürməni mən, bir zülüm, əldə eləyib oxumuşam. Özü də çox diqqətlə oxumuşam. O üzköçürmədə burda yazılan parça yoxdur. Təsəvvür edirsən, sən bir sirrdostusan!..

– Yox... təsəvvür etmirəm. – Fərhad Qürublu səmimiyyətlə boynuna aldı. Doğrudan da, belə bir perspektivi o təsəvvür etmirdi.

Bir müddət sükut içində oturub hər ikisi gözlərini pəncərədən həyətə dikdi.

– Mənə diqqətlə qulaq as. – Vaqif müəllim səsi titrəyə-titrəyə sükutu pozdu. O, hələ də həyəcanlı idi və özünü ələ almağa çalışırdı. – Sənə bir şey deyəcəyəm. Bilirsənmi, səndəki bu yazı mənim "Sirri-zəmanə" ilə bağlı təsəvvürlərimi yenə qarışdırdı. Bir halda ki, səni ona doğru yönəldirlər, "Sirri-zəmanə" bu günədək gəlib çıxıb, deməli.

Fərhad Qürublu çaşıb qalmışdı.

Və bu cür çaşıb qalmış Fərhad Qürublu əməlli-başlı düşünməyə, eşitdiklərini beynində həzm eləməyə imkan belə tapmadı. Çox keçmədi, Vaqif müəllim adəti üzrə məsələni yenə də sürətlə ona lazım olan müstəvinin üzərinə gətirdi. Artıq səsi titrəyib eləmirdi.

–Sənin üçün çox maraqlı bir şans açılıb. Sən gərək hökmən bu işin dalına düşəsən...

– Axı... Niyə mənim üçün?

– Bu sətirlər, bilmək istəyirsənsə, necə deyim... özləri özlərini sənə oxudublar. Məni başa düşürsən? Bəlkə elə mən özüm də bu üzköçürməni oxumuşam, amma sən görənləri görməmişəm. Sən sirrdostusan. – Vaqif müəllim Fərhad Qürubluya ilk dəfə görürmüş kimi baxdı, bayaq dediyini təkrar elədi.

– Belə şey ola bilməz! – Fərhad Qürublu sidq-ürəklə təəccübləndi.

– Ola bilər!

Fərhad Qürublu son cəhdini etdi:

– Bəs axı siz deyirdiniz... "Sirri-zəmanə" yoxdur. O, bu günümüzə gəlib yetişməyib...

– Yox, o deyilənlərə qulaq asma! Onları unut! – Vaqif müəllim əllərini havada yelləyərək qəti şəkildə onun sözünü kəsdi. – Sən artıq "Sirri-zəmanə"nin izinə düşmüsən. Əldən buraxacaqmısan? Səni sirrədost biliblər, Təbrizi ancaq səninlə danışır. O göstərdiyin sətirləri səndən başqa oxuyan olmayıb. O səni, fikir ver, heç bir başqa adamı yox, ancaq səni digər bir əsərə yönəldir. O, sənə deyir: axtarmaq lazımdır, özü də harda axtarmaq lazımdır, onu da deyir. Səni təbrik edirəm. Mən sənə "Kamilüt-Vacib"i axtarmaqda kömək edəcəm.

– Əl Zəmmaninin "Kamilit-vacib"ini???

– Bəli, onu. Deməli, o varmış! Təbrizi onu uydurmayıb. Uydurmuş olsaydı, o indi səninlə danışmazdı. Mənim ağlıma bir fikir gəldi. – Vaqif müəllimin gözləri parıldayırdı. – "Kamilüt Vacib"i axtarmağın yolu var. Bu yol "Sirlərin sərgüzəşti"ndən keçir. Hacı Mir Həsən ağa Səyyah! Başa düşürsən məni? Özü də burdakı üzköçürmə yox, sən burdakını azından beş dəfə oxumusan. Leninqraddakı! Minabəxşinin üzköçürməsi! Nə tapsan, onda tapacaqsan...

...Bir xeyli söhbət etdilər. Pəncərədən o tərəf çoxdan qaranlığa qərq olmuşdu. İnstitut dəhlizlərindən səs-səmir gəlmirdi. Deyəsən, bu boyda binada ancaq ikisi qalmışdı. Nəhayət, Vaqif müəllim ayağa qalxdı. Onlar

dinməz-söyləməz otaqdan çıxıb qaranlıqda bir-birinin səsindən yapışa-yapışa zor-güc mərmər pilləkənlərlə aşağı düşdülər, yalnız birinci mərtəbədə qəflətən işığa çıxdılar. Onları qəflətən görürkən az qala səksənən gözətçilərin narazı baxışları altında sakitcə binanı tərk etdilər.

Vaqif müəllim sözünün üstündə durdu. İnstitutun hesabına Fərhad Qürublunu Leninqraddakı mötəbər Dövlət Şərqşünaslıq kitabxanasına ezamiyyətə, Hacı Mir Həsən ağa Səyyahın "Sirlərin sərgüzəşti" risaləsinin çox qədim bir üzköçürməsini oxumağa göndərdilər.

Bu risalənin Bakı üzköçürməsini Fərhad Qürublu Vaqif müəllim deyən kimi, həqiqətən, beş dəfə oxumuşdu. Risalənin az qala hər parçasını, şişirtmək olmasın, əzbər bilirdi. Amma Dövlət Şərqşünaslıq kitabxanasının oxu zalında outrub sifarişini gözlərkən belə bir qəribə hala düşəcəyini təxmin etməzdi. Dəqiqələr bitib tükənmək bilmirdi. 1578-ci ildə xəttatlar ustadı Həkim Minabəxşi (bu, Həmədani Seyfül-mülkün Həmədanda zindana salınmasından sonra qəbul etdiyi ləqəbi idi) tərəfindən yazılması təxmin edilən üzköçürməni gətirib ona təqdim edəndə və, nəhayət, bu əfsanəvi üzköçürməni əlində tutanda həyəcandan onu soyuq tər basdı. Tər kürəklərindən başlayıb tumanına qədər axıb getdi. Rəngi ağardı. Sonradan adının Svetlana olduğunu öyrəndiyi qıyıqgözlü kitabxanaçı qız onun bu halından təşvişə düşüb başını az qala Fərhad Qürublunun üzünə yapışdıraraq və bu zaman saçlarını silkələyib onların huşaparan rayihəsini bəlkə də bilərəkdən onun donqar burnuna yayaraq nəvazişli və ehtiraslı bir səslə soruşmuşdu:

– Sizə nə oldu, özünüzü necə hiss edirsiniz?..

...Onunla üzköçürmə arasındakı əlaqə, yəni, üzköçürmənin onunla "danışması" bu dəfə son səhifələrin birində baş verdi. Baxmayaraq ki, müəllif Hacı Mir Həsən ağa Səyyah burada nəticə olaraq sirrə canatım hissinin insan ruhuna verdiyi əzmkarlığı, bu əzmkarlıqdan doğan digər gözəl halları təhlil edir və bu zaman, nədənsə, qadın zərifliyini də bura əlavə edib bir xeyli bu barədə danışır və birdən, nə mənə, nə sənə, mətləbdən kənara çıxır. Burada Hacı Mir Həsən Ağa Səyyah, elə bil, məxsusi onun üçün, Fərhad Qürublu üçün belə yazırdı:

"Bil və agah ol, ey qərib! Bu kitabda "Sirri-zəmanə" axtarmağın əbəsdir. Mənim xələflərim, bilirəm, xoşbəxtlik disturunun mən tərəfdən burda gizlədildiyini yazacaqlar, kimlərisə də buna inandıracaqlar. Çox zəhmətlər sərf ediləcək. Çifaidə, bu, belə deyil. Hərgah bu belə olsaydı, bəni-adəmlər içində məndən xoşbəxti yer üzündə olmaz idi. Mən bu sirrin arxasınca yorulmadan sərvəti-elm dəryasına baş vuran qəvvas oldum. Bu kitab haman dəryadan yığdığım incilərlə süsləndi. Ən çox da Zatineyi- Ağ dərvişin sərvətindən bəhrələndim. Ey mənim olmayanı məndə axtaran! Ustadlar ustadı Zatineyi- Ağ dərvişin "Rənglərin hikməti" əsərini tap və onu diqqətlə oxu. "Sirri- zəmanə"nin izinə sən fəqət orda düşə biləcəksən."

Bu ricətdən sonra mətn özünəxas bir təmkinlə yenidən əsas mətləbə qayıdır və müəllif bir qədər əvvəl ki, sirrə canatımın qadın gözəlliyi ilə əlaqəsindən söhbət açmışdı, yenə də bu gözəlliyin vurğunu kimi haman əlaqədən danışmağına davam edir.

...Fərhad Qürublu Bakıya qayıdan kimi yenə də təngnəfəs, ürəyi ata-ata İnstituta, elmi rəhbəri Vaqif Əsirzadə ilə görüşə tələsdi.

–... Deməli, əslində, Zatineyi Ağ dərvişi axtarmaq lazımmış. "Rənglərin hukməti"ymiş, deməli... – Fərhad Qürubluya diqqətlə qulaq asıb bir xeyli sakitcə oturduqdan sonra Vaqif müəllim adəti üzrə gözlərini qıyıb, sanki öz-özünə, düşüncəli bir halda dilləndi.

Vaqif müəllim gedər-gəlməz yol desəydi, bundan yaxşıydı. Nüveyş əl-Zəmmanini tapmaq Ağ Dərvişi tapmaqdan çox-çox asan idi. Zatineyi-Ağ dərvişin "Rənglərin hikməti" əsəri hər kəs üçün əsl elmi fantom idi. "Rənglərin hikməti" barədə yalnız o məlum idi ki, belə bir əsər, bəli, nə zamansa yazılıb imiş. Onun barəsində müxtəlif əsrlərdə və əsərlərdə ağızdolusu danışmayan yox idi. Əsərin şöhrəti Azərbaycandan çox-çox kənarlara gedib çıxmışdı. Azərbaycanda onun üzköçürməsi yox idi. Üzköçürmələrin sorağı İngiltərənin Kralıça Yelizaveta kitabxanasından, Amerikanın Kolumbiya universitetinin Harriman İnstitutundan, Peterburq kunstkamerasından gəlirdi. Amma bu üzköçürmələrin birini də "əlimdə tutmuşam" deyən yox idi. Məsələ yenə qəlizləşirdi.

...Evinə çataçatda Fərhad Qürublunu qəfil yağış haqladı. Yağış göydən üzü aşağı xəsisliklə ötürülən xəbər kimi yavaş-yavaş, yekə damlaları bir-birini qovmağa tələsməyən işarə-işarə yağırdı. Fərhad Qürublu düşündü ki, bu qəribə yağış üçün heç bir fərqi yoxdur, o hara və nə zaman yağır. Bu yağış bəlkə də bu saat heç bura yox, zamanın tamam başqa bir küncünə yağır. Dodağı qaçdı. Amma gərək qaçmayaydı. Əslində, Fərhad Qürublu düşünən kimiydi. Yağış haraydısa, buralara oxşamırdı, həmən buralara oxşamayan yerə, gərək ki, Təbriz idi, bu dar və əyri küçə də Təbrizin Çuxurlu məhləsində idi, bəli, şəkk-şübhə yox idi, yağış ora yağırdı. Bu yağışın altında ondan irəlidə uzun əbasının ətəklərini çirmələyib qoluna yığmış, balaca, yastı evlərin arasındakı əyri-üyrü küçəylə gölməçələrin üstündən az qala hoppana-hoppana, hoppanmayanda isə axsaya-axsaya bir uzunsaqqal qoca kişi idi, deyinə-deyinə gedirdi.

Fərhad Qürublu evinin hündür arkasının altına çatanda qəfildən yağan yağış eləcənə qəfildən də kəsdi.

... İki gündən sonra Vaqif müəllim özü Fərhad Qürublunu axtarıb tapdı.

– Maşını çıxart, gəl arxamca. İnstitutun həyətində səni gözləyirəm.

Hara gedəcəklərini dəqiq bildirmədi:

– Aeroport tərəfə sür.

Yol boyu bir xeyli danışmadılar. Maşın şəhərdən çıxandan sonra Vaqif müəllim dedi:

– Bir məsələ məni həmişə düşündürüb. Səvvab Təbrizi deyir ki, "sirri-zəmanə"ni tapan adam ölməyəcək. Demək olar ki, bu barədə yazan bütün müəlliflər bunu deyir. Amma diqqət elə... onların hamısı dünyasını dəyişib. Bu, bir. Deməli, heç biri bu hikməti tapa bilməyib...

Vaqif müəllim yenə də susdu. Elə bil, ürəyində götür-qoy edirdi ki, fikrini sonacan açıb töksün ortalığa, yoxsa yox.

Nəhayət, qərara gəldi:

– Bilirsən, mən sənə bir mətləbi hələ də açmamışam. Amma indi açmaq istəyirəm...

– Diqqətin yolda olsun! – Vaqif müəllim Fərhad Qürublu diqqətini yoldan yayındırmasın deyə söhbətini kəsdi.

Bir azdan maşın yağış zolağından çıxdı. Göyün üzü yenə açıldı.

– Yağış kəsdi. – Fərhad Qürublu ehtiyatla dilləndi və bununla sanki Vaqif müəllimə deyirdi ki, daha qorxmamaq olar, başladığı söhbəti davam etsin.

– Nə deyirdim mən?! – Vaqif müəllim, elə bil, yuxudan ayıldı, yerində qurcuxub ürəkləndi. – Həəə... Bir məsələ barədə mən çox düşünmüşəm. Bəlkə elə ona görə bu sirri-əzimin arxasınca axıra qədər düşmədim. Məsələnin canı, bilirsən, əslində, nədədi?!

– Nədədi ki?.. – Fərhad Qürublunun səsi səmimi təəccüblə dolu idi.

Vaqif müəllim qısa teatral pauzadan sonra cavab verdi:

– Mətləbin adında. “Sirri-zəmanə” sözündə... – Yenə haman pauza. Maşından bir müddət ancaq motor səsi eşidildi.

– Sirri-zəmanə... – “Yəni, nə??”

– Bu ad sənə heç bir şey demir?! – Vaqif müəlilim bu dəfə pəncərəyə baxmaqdan vaz keçib üzünü Fərhad Qürubluya çevirdi, gözlərini diqqətlə onun üzünə, daha doğrusu, profilinə zillədi.

Gəlib Mərdəkana yetişdilər. Maşın yastı evləri bir-birinə qısılmış geniş küçəyə dönüb bir qara darvazanın qabağında dayandı. Qapını qaşqabaqlı bir oğlan uşağı açdı. O, qonaqları həyətə salandan sonra qabağa düşərək dinib-danışmadan onları yaşıllığı tüğyan edib dəlicəsinə bir-birinə sarmaşan güllü-bağçalı həyətin o biri başındakı birmərtəbəli evə tərəf apardı. “Qıyıqgöz Svetlana bu gülləri görsəydi, ağlı başından gedərdi. Bir buketə əlyazmanı alardım ondan.” Fərhad Qürublu Leninqradı, Dövlət Şərqşünaslıq kitabxanasını, qıyıqgöz Svetlananı xatırladı.

Onlar ayaqqabılarını qapı ağzında çıxarıb içəri, geniş və işıqlı aynabəndə keçdilər. Qaşqabqlı oğlan həyətdə qaldı, üzünü pəncərəyə dayayıb içəriyə tamaşa eləməyə başladı.

Uzun aynabəndin yuxarı başında bir enli taxt vardı. Taxtın arxasında divara bir xalça vurulmuşdu. Bulağa başını əyib su içmək istəyən və bu zaman boynunu əyib məlul-məlul aynabənddəkilərə baxan ceyran rəsimli

bir xalça idi. Taxtın üstündə isə rahat bir şəkildə bardaş qurub bir uzun saqqallı, üz-gözündən nur tökülən qoca kişi oturmuşdu. Vaqif müəllim kişinin yanına tələsdi, imkan vermədi ki, o, ayağa qalxsın. Bunlar qucaqlaşıb öpüşdülər. Təbəssüm, elə bil, bu kişinin dodağına, üzünə yapışıb qalmışdı. Əl-ələ verib bu kişi Fərhad Qürublu ilə də gülərüzlə görüşdü.

Çay gəldi, yanında mürəbbəsi.

–A bala, Fərhad, yaxın gəl. Belə qərib oturma, niyə sən bəs bu cürənə qısılıb qalmısan?! – Xeybər baba sinəsinə düşən uzun saqqalını əliylə yana eləyib irəli əyildi. – Bu mürəbbənin hökmən dadına bax, həyatin gilasıdı...

Fərhad Qürublu oturduğu kətili Xeybər babanın yaxınındakı balaca, dəyirmi mizə yaxınlaşdırdı...

Vaqif müəllim əsas mətləbə çayını içib qurtarandan sonra keçdi. Üzünü Xeybər babaya tutub ucadan səsləndi:

– Xeybər baba!

Xeybər baba ehmalca başını tərpətdi, yəni," buyur, qulağım səndədi".

– Xeybər baba, bizə Ağ dərvişin əlyazması lazımdır. Bir-iki günlüyə. Məni ki, tanıyırsan...

Fərhad Qürublu qulaqlarını şəklədi. "Zatineyi-Ağ Dərviş, burda, Mərdəkanda??? Yox, canım, burda əlyazma nə gəzir?! Onda ki, "Rənglərin hikməti" ola?!"

Xeybər baba gözlərini indicə çay içdiyi armudu stəkana dikib susurdu. Bir müddət üçü də beləcə sükut içində oturdular. Sonra, nəhayət, Xeybər baba özünü taxtın üstü ilə bir qədər geri verib arxaya çəkildi. Əlini gəzdirib xalçanın dalından bir boxça kimi bağlama çıxardıb açdı. Bağlamanın içində bir qalın, qara cilddə, uçot dəftərinə oxşayan dəftər var idi.

– Mən sənin gəlişinin məqsədini bilmişdim. Bunu deyirsən? – Xeybər baba dəftəri göstərib soruşdu. Onun dodaqlarında yenə də xeyirxah bir təbəssüm vardı.

Vaqif müəllim udqunub Fərhad Qürubluya baxdı, Fərhad Qürublu – ona.

– Bu dəfə necə, əminsən? – Xeybər baba Vaqif müəllimin gözlərinin düz içinə baxdı.

– Əminəm. – Vaqif müəllim cəsarətlə dedi. – Bunun oxuduqlarında ricətlər var. Buna, – başı ilə Fərhad Qürubluya işarə etdi, – əlyazmalardan cürbəcür xəbərlər ötürülür.

– Müxtəlif əlyazmalarda fərqlər ola bilər. Bu təbii haldır, sən ki, bilirsən...

– Təbrizidən Nüveyşə, ondan Səyyaha, indi də Ağ Dərvişə... Əlyazmalar onu risalədən risaləyə aparır, baba. – Vaqif müəllim səsini qısıb xısın-xısın pıçıldadı, elə bil, bizi bu boş otaqda gözlə görünməyən birisi dinləyirdi. – Son ümid "Rənglərin hikməti"nədir.

Xeybər baba yenə də xeyli mülayim bir tərzdə nəyisə təsdiqləyirmiş kimi başını tərpədə-tərpədə bu dəfə Vaqif müəllımə deyil, Fərhad Qürubluya üzünü tutdu və əlindəki dəftəri ona uzadıb mülayim, amma qəti səslə dedi:

– Üç gün. Üç gündən sonra bu dəftər geri qayıtmalıdır.

Fərhad Qürublu əvvəlcə Vaqif müəllimə baxdı. O, başı ilə işarə etdi, bundan sonra Fərhad Qürublu ona uzadılmış qara cildli dəftəri ehtiyatla Xeybər babadan aldı.

Geri dönərkən nə Fərhad Qürublu Vaqif müəllimdən bir söz soruşdu, nə də Vaqif müəllim Fərhad Qürubludan bir söz soruşdu. Evə çatan kimi Fərhad Qürublu bir onu bildi ki, əlini-üzünü yuyub keçdi yazı masasının arxasına. Ürəyi döyünə-döyünə qara cildli əlyazmanı qarşısına qoyub bir müddət açmadı, eləcə ona tamaşa elədi.

... O vaxtdan üç gün keçdi. Fərhad Qürublu axşama yaxın, bu dəfə tək, Mərdəkandakı o geniş, enli küçəyə maşınını sürüb haman qara darvazanın önündə saxladı. Darvazanın qapısı bağlı deyildi, qapı, elə bil, öz-özünə açılıb onu içəri dəvət etdi. Yenə haman güllü-çiçəkli bağçanın ortasındakı cığırla gedib həyətin o biri başındakı birmərtəbəli evə yanaşdı. Pəncərəni taqqıldatdı, içəridən "gəl" deyən mülayim səsi eşidəndən sonra qapını açıb tanış aynabəndə daxil oldu. Salam verdi, salam aldı. Xeybər baba taxtın üstündə öz yerində oturmuşdu. Əlində təsbeh, qabağında bir qalın kitab vardı. Xalçadakı bulaqdan su içən ceyran onun arxasından yenə

məlul-məlul boylanırdı. Xeybər baba Fərhad Qürublunun gəlişinə qətiyyən təəccüblənmədi. Gözəl təbəssümü yenə üzünə yayıldı.

– Gəl, yaxın gəl, keç otur, xoş gəlmisən sən. – Əli ilə Fərhad Qürubluya üstündə oturduğu enli taxtın sağ küncündə yer göstərdi.

– Xeybər baba, mənim vaxtım bu gün bitirdi, mən gəldim. Buyur əmanətini. – Fərhad Qürublu göstərilən yerdə əyləşib əlində tutduğu qara cildli dəftəri Xeybər babaya uzatdı.

– Sağ ol, sağ ol... – Xeybər baba məmnun bir halda dəftəri ondan alıb yanına qoydu, cod barmaqlarıyla cildini sığalladı.

O günkü qaşqabaqlı oğlan çay gətirdi, dinməz-söyləməz çay içdilər. Meyvə gətirdilər, Fərhad Qürublu meyvəyə toxunmadı.

Xeybər baba təkid etdi:

– Həyətdəndi, sən bir bu qaysının dadına bax.

Fərhad Qürublu qaysının birini yedi, ikisini yedi, üçünü yedi, çox dadlı qaysılar idi. Xeybər baba çay içə-içə dodağında yenə həmən təbəssüm altdan-altdan qaysıları bir-bir yeyən bu cavan oğlanı diqqətlə süzür, amma ki, bir şey soruşmurdu. Elə bil, onun səbrini imtahana çəkirdi. Nə soruşurdu ki, Vaqif müəllim bəs noldu, o niyə bu dəfə gəlmədi, nə də soruşurdu ki, əlyazmanı oxuyub ortalığa bir şey çıxarda bildinmi?! O da susurdu, bu da. Qaysıları yeyəndən sonra Fərhad Qürublu ayağa qalxmaq istədi. Xeybər baba onu saxladı:

– Bir ləhzə səbr elə. – Hələ də barmaqlarıyla sığalladığı "Rənglərin hikməti"ni bir tərəfə qoyub Fərhad Qürublunun çiynindən yüngülcə basdı və təkrar yerinə oturtdu.

Fərhad Qürublunun ürəyi həyəcanla vurdu:

– Xeybər baba, qoy mən gedim... – Yavaşca mızıldandı.

– Yox, belə gedə bilməzsən. Sənə deyəcəyim var. – Xeybər babanın səsi ciddiləşdi.

Fərhad Qürublu naçar susub onun nə deyəcəyini gözlədi. Xeybər babaya yaxın oturmuşdu deyin, onun zəfəran ətri gələn barmaqlarıyla "Rənglərin hikməti"nin cildini sığallayıb ağır-ağır nəfəs almasını öz nəfəsi kimi hiss etdi. Qocanın nəfəsi onun nəfəsinə qarışırdı. Bu zaman Fərhad

Qürubluya nə oldu, nə olmadısa, birdən-birə qəhər onu boğmağa başladı, elə bil, özündən xəbərsiz tilsimə düşdü. Gözünün qabağından bir dəstə atlı idi, çaparaq keçib getdi. Xalçadan məlul-məlul baxan ceyran xalçadan çıxıb Xeybər babaya yaxınlaşdı, başını onun dizinə sürtməyə başladı. Hardansa sel kimi yağan yağış altında Təbrizin Çuxurlu məhləsindəki o dar, əyri-üyrü küçə uçan xalça kimi uçub gəldi, bu evin darvazasından o tərəfə döşəndi. Bu küçə ilə axsaya-axsaya deyingən bir qoca kişi yol gedirdi... Artıq Fərhad Qürublu Xeybər babanın üzünü görməsə də, nədənsə, əmin idi ki, yağışın altında bu əyri-üyrü küçə ilə axsaya-axsaya, tələsik yol gedən ağ saqqallı, deyingən qoca kişi və indi onunla yanaşı bu taxtda oturan, ağır nəfəsini bihuşdarı kimi hiss etdiyi, gözəl təbəssümü ilə onun qaysıları yeməyinə nəzər yetirən və bu zaman uzun saqqalını sağ əlilə didişdirən Xeybər baba eyni adamdılar.

“Bu adam axsamalıdı, bu adam hökmən axsamalıdı. Mən bir şeyi qəti bilirəm. Səvvab Təbrizinin Əl-Zəmmani barədə dedikləri uydurmadır. “Sirri-zəmanə” də Səvvabındır, onu açan da Səvvabdır, özü də indiyənə qədər ölməyib, yaşayır. Budur xoşbəxtliyin disturu, budur ölməzlik! Bəs elə isə nə üçün o, Əl-Zəmmaninin arxasında özünü gizlədib durub?! Hamını mövcud olmayan, uydurma bir adın ətrafında birləşdirib?! Hamını Əl-Zəmmaniyə qibtə eləməyə inandırıb, yox, inandırmayıb, məcbur edib?! Bu Səvvab Təbrizi necə adam olub?! Öz möhtəşəm qələbəsinin dadını heç kimsə ilə bölüşmək istəməyib. Adam var ki, öz qələbəsinə gizlicə sevinə bilir. Heç kimin bu qələbədən xəbəri olmasa da, öz qələbəsinin ləzzətini təkcənə öz-özlüyündə yaşaya bilir.

Bu da belə birisiymiş. İndi gör necə rahat-rahat oturub ceyranların əhatəsində... Bu adam hökmən axsamalıdı. Əvvəllər mən hərdən gülümsəyib öz-özümə belə deyərdim: Bu Əl-Zəmmani ki, özünü belə gizlədib, əcəb zarafatcıl adammış. Amma, əslində, bəlkə də gərək belə deyəydim: Bu Səvvab Təbrizi yaman zarafatcıl adam olub...” Fərhad Qürublu belə düşünürdü.

Xeybər babanın səsi xəncər kimi sol böyrünə girib onu, elə bil, yuxudan ayıltdı. Qara-qura ki, onu basmışdı, o qara-qura gözlərinin önündən çəkilib getdi. Fərhad Qürublu rahat bir nəfəs aldı. Xeybər baba deyirdi:

– Bax, oğul, deməsən də mən bilirəm ki, sən yenidən qayıtdın gəldin Səvvab Təbrizinin "Yuxuların idarə olunması"na. Ağ Dərviş səni yenə Səvvaba qaytardı. Elədi, elə deyil?! Yenə də başladığın nöqtəyə gəldin. Axsaq Səvvabla başlamışdın, axsaq Səvvabla da tamamladın. Nə gözəl... sən heç təəccüb etmədin. Bəli, bəli, Səvvab axsaq idi, ayağını çəkirdi... Bilirdin bunu? – Xeybər baba gözlərini qıyıb soruşdu.

Fərhad Qürublu çoxbilmiş adamlar kimi cavab əvəzinə üzünə qeyri-müəyyən bir ifadə yapışdırdı. Xeybər baba dərinə getməyib sözünə davam etdi:

–... Mən üç gün əvvəl siz bura gələndə bilirdim ki, elə belə də olacaq. Sən gəldiyin nöqtəyə qayıdacaqsan. Hələ yaxşı ki, risalələr səni Seyid Sarı Dərdəçarənin "Ruhi və rahi kəvakib"inin içinə aparıb salmayıblar. O isə tamam başqa bir dünyadır. Ora edilən səyahət heç vaxt bitmir. Ulduzdan ulduza, ulduzdan ulduza... Oradan belə asanlıqla çıxa bilməzdin. Allaha şükür elə ki, onlar sənə qıymayıblar. Qaytarıb gətiriblər səni başlanğıc yerinə, axsaq Səvvabın yanına. Əlbəttə, ömrün boyu Allahına şükür eləməlisən ki, sirri-zəmanəni tapmamısan və sən, əslində, sirrədost ola bilməmisən. – Xeybər baba son sözlərini deyib rahatlıqla köksünü ötürdü, sonra yenə də dodağının ucunda həmən tanış təbəssüm belə bir əlavə elədi. – Sirri saxlamağın vacib idi. Risalələrin belə oyunları olur.

Fərhad Qürublu Xeybər babaya qulaq asıb qurtarandan sonra sarsılmış və mat bir halda ayağa durarkən yadından çıxarıb hətta soruşmadı ki, bu "onlar" dediyiniz kimdırlər, "onlar" məndən nə istəyirlər, niyə "onlar" öz oyunları üçün məni seçiblər, Xeybər baba da bunu ona demədi.

... Xeybər baba dikəlib taxtdan elə qalxdı ki, elə bil, uzun sürədi qaldığı qürbət ölkəni tərk edir. Qıvraq addımlarla qapının ağzına gəldi. Fərhad Qürublu ürəyi ata-ata gözü onda idi. Gördüyü mənzərə onu pəjmürdə etdi. Bu qoca kişi qətiyyən axsayıb eləmirdi. Fərhad Qürublu təəssüflə onun rahat yerişinə baxıb bir qədər əvvəl ağlına gələn o əcayib fikirlərdən, Xeybər babanı Səvvabla eyniləşdirməyindən indi əti ürpəşdi. Xeybər baba Təbrizin Çuxurlu məhləsindən ola bilməzdi, Xeybər baba sadəcə özünü ağıllı göstər-

məyə çalışan onlarla, yüzlərlə kənd ağsaqqallarından biridir. “Bu nə qarabasmadır, məni basır, əlbəttə ki, bu, o deyil.”

Qapının ağzında ayaq saxlayıb Xeybər baba öz mehriban səsilə Fərhad Qürublunun pərtliyini yumşaltmaq istədi. Astadan, bir az da sirli tərzdə ondan soruşdu:

– Sən heç “Sirri-zəmanə”dəki “zəmanə” sözünə fikir verdinmi?

– Yox, fikir vermədim, nədi ki?

– Əsas sirr elə bu sözün içində gizlənib. Əl Zəmmanini əgər Səvvab uydurubsa, sən isə, bilirəm, indi belə düşünürsən, Ağ dərviş Nüveyş əl Zəmmani deyil, o, mövcud olmuş birisidir. Bu şəxsin üzə çıxmayan başqa bir risaləsi də var, adı “Həsrətin surəti”dir. Bu əsəri o, Sehirbazlar dərəsində yaşadığı zaman yazmışdır. Bəlkə bunu çox az adam bilir. Sənə də ona görə deyirəm ki, başına gələnləri ürəyinə salmayasan. “Sirri-zəmanə”nin bir dəfə tapılmasından sonra dübarə, ikinci dəfə tapılması qeyri-mümkündür. Heç kim onu bir daha tapa bilməz, çünki o şəkildə ki biz başa düşürük, o şəkildə o, artıq yoxdur!

...”Həsrətin surəti” əsərində Ağ dərviş yazır ki, zaman bir bölünməz, əvvəli və sonu olmayan varlıqdır. Zəmanə isə tam bunun əksi olaraq bölünən varlıqdır. Hər əsrin, hər dövrün, hər ölkənin, hər kimsənin belə öz zəmanəsi var. Zəmanələr birləşirlərsə, o vədə onlar böyük zamanı yaradırlar. Əksinə mümkün deyil. “Sirri-zəmanə” öz dövründə, öz zəmanəsində üzə çıxdı. Üzə çıxan kimi də onu tapdılar. Məsələ bitdi. O, bir şəxsin qisməti oldu. O biri zəmanələrdə sirri-zəmanənin özü yox idi, adı var idi. Axtaranlar onun özünü deyil, adını axtarıblar, sən daxil... Xoşbəxtliyin sirri, əgər tapılıbsa, o biri zəmanəyə keçə bilmir, elə öz zəmanəsində qalır. Ağ dərviş belə deyir. Ağ dərvişin bu sözləri aşkar bir şəkildə onu da əyan edir ki, sirri-zəmanəni tapan şəxs Ağ dərviş olmayıb və Ağ Dərviş eləcə öz zəmanəsində ölümə məğlub olub qalıb. Bir söz, o və onun kimi bütün digər şəxsi-alimlər zaman səyahətinə çıxa bilməyib. Səvvab, axsaq Səvvab isə bunu edə bilib. – Qocanın son sözlərində gizli özündənrazılıq, özünüöymə hiss edildi. O, nəfəsini dərib susdu. Fərhad Qürublu acı-acı gülümsədi.

Onlar – Xeybər baba və Fərhad Qürublu aynabəndin qapıya bitişik pəncərəsi önündə dayanıb bir müddət sükut içində həyətə baxır, üstündə vızıltıyla bir sürü arı uçuşan qızılgül kolundan gözlərini çəkə bilmirdilər. Arıları başa düşmək olardı. Yazın yaz vaxtında bu kol elə gözəl güllər gətirmişdi ki... Hamısı da, elə bil, həsrətlə, arzu-kamla açmışdı.

Vidalaşarkən Fərhad Qürublu onun qırışıq, büzüşük üzünə, kədərli, bulannıq gözlərinə, uzun saqqalına son dəfə diqqət və ehtiramla baxdı və bu zaman qəfildən hiss elədi ki, bu qocanın təbəssümünün dibində çox şey var, hətta hər şey var, bu təbəssümün dibində bircə təbəssümün özü yoxdu.

Aynabəndin qapısını arxasınca örtüb həyətə çıxandan sonra, elə bil, Fərhad Qürublunu arxadan kimsə adıyla çağırdı, bəlkə Xeybər baba nə isə hiss edib təbəssümünün dərəcəsini dəyişmək istəmişdi, amma Fərhad Qürublu geri boylanmadı. Bu qoca, təəssüf ki, axsamırdı və, əlbəttə ki, o, Səvvab Təbrizi deyildi.

Fərhad Qürublu ətrafı gül-çiçəklə dolu cığırla darvazaya sarı tələsdi. O, həyatın mənası və mənasızlığı, xoşbəxtlik və bədbəxtlik, sevgi və nifrət barədə, yaşadığı bu dünya ilə yaşamadığı o biri, başqa dünyalar barədə düşünürdü. Darvazaya yetişib qapını açmaq üçün əlini atdığı an qəfildən ağlından keçdi ki, darvazadan o tərəfdə indi nə onun maşını var, nə o geniş küçə var, nə də qaşqabaqlı oğlan ordadır. Darvazadan o tərəfdə Təbrizin Çuxurlu məhləsinin əyri-üyrü küçəsidir, uzandıqca uzanıb gedir, özü də bu küçəyə indi leysan yağış yağır. Qapını açmağıyla diksinməyi bir oldu. İldırımın şaqqıldaması və yağışın yağması eyni anda baş verdi.

Fərhad Qürublu, nəhayət, darvaza qapısından o tərəfə keçəndən sonra pəncərədən onun dalıyca baxan çəlimsiz, mumiya kimi qupquru bu qoca da rahatlıqla köksünü ötürdü, əliylə saqqalını tumarlaya-tumarlaya dönüb aynabəndin yuxarı başındakı taxtına tərəf getdi. Gedərkən möhkəmcə ayağını çəkib bu qoca axsayırdı.

*2012-ci il*

# Pəncərə

Günün günorta çağı hər şeyin adidən də adi olacağını son dərəcə etinasızlıqla gözlədiyi bir vaxt ətraf, elə bil, onun bu etinasızlığına cavab verdi. Qəflətən gözəgörünməz elektrik cərəyanları bir-birinə sarmaşıb-qarışdı, onun və heç kimin görmədiyi rəngbərəng, əyri-üyrü şimşək xətləri işıqlı havada səssizcə parıldadı və BU baş verdi.

O, iş yerinə tələsirdi. Baksovetin yanında küçəni keçib üzüaşağı Nizami muzeyinə tərəf getməliydi. Küçəni keçib nədənsə, heç özü də bilmədi, niyə arxaya boylandı. Adilik çərçivəsinə sığmayan nə idisə – bunun adını "nəsə" qoyaq – birdən-birə məhz burada onun diqqətini özünə çəkdi. Bu, çox sürətlə baş verdi. Burun pərələrinin tərpənişini, burnunun içindəki tüklərin oyanışını, bir-birinə sarmaşmasını, bu halın az qala asqırmağa gətirməsini, bir an sonra bədənindən vicvicə keçməsini, ürək döyüntülərinin tezləşməsini, gözünün önünə rəngbərəng göyqurşağına bənzər zolaqların gəlməsini o, beyninin ən dərin qırışlarının birində belə izah etdi: "Nə isə həmişəki kimi deyil. Bir an bundan əvvəl nəsə baş verdi."

Duyduğu bu dəyişmədən sonra ona elə gəldi ki, ağacların yarpaqları ancaq ona nə isə demək üçün xışıltı saldı, yoldan keçən maşınların, avtobusların onu həmişə əsəbiləşdirən iyrənc səsləri eşidilmədi, o özünü quş lələyi kimi yumşaq və yüngül hiss elədi. Eyni zamanda onu da hiss elədi ki, ətraf hər şey dağlar qədər güclü, dənizlər qədər əngindir. Onun özü də, yanından keçib gedən bu adamlar da, deyəsən, Apollon kimi gözəl və Zevs kimi möhtəşəm olmuşdular. Bax, bu hiss ona tanış deyildi. Nə isə baş vermişdi, yüz faiz bu "nə isə" artıq baş vermişdi.

...Beləliklə, o, özü də səbəbini bilmədən arxaya boylandı. Baksovetin yanında küçənin artıq onun keçib gəldiyi o biri tərəfində gözünə nə dəydisə, diqqəti yay kimi tarıma çəkildi. Bu, bir atlı idi, üzüaşağı dördnala çapıb getdi. Amma… Dayan, dayan!.. İlahi, bu ki… Çapıb gedən, axı, atlı deyildi. Ata minmiş atlıya oxşayırdı, amma atlı deyildi. Nəfəsi təngidi, udqundu. Qorxa-qorxa özü-özünə etiraf etdi. Bəli, çapıb gedən… kentavr idi. Qara, şəvə saçları şəlalə kimi çiyninə tökülmüş kentavr küçəni burulub gözdən itməmiş böyüyən gözlərilə ona tərəf təəccüblə baxaraq böyük bir şövqlə, bəlkə əzabla, inanılmaz sevinclə, bəlkə kədərlə, coşqun həvəslə, bəlkə heysiz bir halda kişnədimi, qışqırdımı, nərəmi çəkdi – bunu demək çətindi. Maşınların əhatəsində Ellada meşələrinin içində ağacların arasıyla çapan kimi maşınların heç birinə toxunmadan, sağa, sola əyilib-burulub kentavr gözdən itdi. Elə bil, min il maşınların arasıyla bu cürə çaparaq qaçmışdı.

"Bir şey deyil, əlbəttə ki, bu mənim gözümə göründü." Beynindən gəlib bu sözlər keçmişdi ki, yenə nə gördüsə, az qaldı ağzı açıq qalsın. Kentavrın burulub Səadət sarayına tərəf çapdığı küçədən dörd şir qoşulmuş günəş kimi işıqlı bir arabada sərvlər sərvi kimi boylu-buxunlu, gözlərindən az qala od çıxan, amma çöhrəsindən nur və işıq yağan, qızılsaçlı gözəl bir gənc gəlib keçdi. Bir çiynində bu gəncin ağzınacan dolu ox qabı və yay, o biri çiynində isə arfa var idi. Şübhəyə artıq yer yoxdu. Onu qara basmırdı. Bu, Apollonun özü idi.

Ona elə gəldi ki, yuxu görür. Məsələni izah etməyin ən asan yolu da bu deyilmiydi?! Amma, yaxşılığamı bunu yozaq, pisliyəmi bunu yozaq, hər necə olsa da, bunu biz deməliyik: o, yuxu görmürdü. O, həqiqətin düz için-

də ilişib qalmışdı, başqa yerdə deyildi. Özü də vurnuxa-vurnuxa ilişib qalmışdı. Gözlərini bir neçə dəfə bərk-bərk yumub açdı, ətrafında nə vardısa, hər şeyi yenə də həmin qəribəlik çərçivəsində görəndən sonra özü də böyük bir kədər və təəccüb içində istəməyə-istəməyə bunu anladı.

"Bəs bu adamlar??? Onların niyə bəs gözünə mənim gördüklərim görünmür?" Bu sualın özünə görə məntiqi vardı və o bu məntiqin sirrini açmağa son dəfə cəhd göstərdi. Nətijə isə belə oldu. Diqqətlə göz yetirib gördü ki, ətrafdakı adamlar kentavrlara da, Apollonun arabasına da xeyli alışqanlıqla baxırlar. Bu, onlar üçün adi bir mənzərədir. Hətta kentavrların çoxalmasına baxmayaraq (onlar isə get-gedə çoxalıb eynən birinci kentavr kimi belədən-belə, elədən-elə dördnala çapıb gedirdilər) adamlar üçün onlar adi, tanış məxluqlar kimi idilər. Onlar üçün bu günorta çağı qəribə heç nə baş vermirdi. "Bu da sualın məntiqi." O acı-acı gülümsündü.

Nəfəs dərmədən İstiqlal küçəsi ilə üzüaşağı, işinə tərəf getməyə başladı. Ürəyinə dammışdı ki, kentavrlarla və Apollonla başlayan bu qəribəliklər zənciri belə tez və asanlıqla bitməyəjək. Sabirin heykəlinin yanından ötərkən onu sözün əsl mənasında, elə bil, ildırım vurdu. İki səbəbə görə. Əvvəla, bu heykəlin yerində həmən pyedestalda başında şlyapa, ədəb-ərkanla Puşkin əyləşmişdi. İkinci də, küçənin sonunda bir qədər solda yeniyetmə və utancaq qız kimi sinəsinə sıxdığı bir-birindən küskün yazıçı heykəlləri ilə bir yerdə Nizami muzeyinin özü adəti üzrə durub ucaldığı yerdən yerli-dibli yox olmuşdu. Yox idi bu muzey. Allah, Allah!.. Nizami muzeyi yox idi, vəssəlam.

Amma ən qəribəsi bəlkə də bu deyildi, ən qəribəsi o idi ki, muzeyin yerində indiyənə qədər ancaq kino və şəkillərdə gördüyü müdhiş və əzəmətli Paris Notr Dam kilsəsi ucalmaqdaydı. Kilsənin üstündəki qaramtıl buludlar isə bu yerlərin buludlarına oxşamırdı, elə bil, kilsənin möhtəşəm qüllələrinə ilişib Fransadan buracan yol gəlmişdilər. Kilsənin ətrafında iki-bir, üç-bir uzun, çəhrayı baldaxon geyinmiş qəribə rahiblər dolaşırdı. Yenədəmi yuxu görürdü?! Maddım-maddım baxıb gözlərini çəkə bilmədiyi Paris, yox, Bakı Notr Dam kilsəsi yavaş-yavaş böyük, özü boyda bir əcayib

Kvazimodaya çevrilərək ona göz vurub "sən hələ üzünü çöndər, dənizə tərəf bax!" dedi.

Qəlbinə əvvəlcədən dolan bir vahimə içində üzünü çöndərib dənizə tərəf baxmadımı, baxdı. Baxışları dənizə gedib çatmadı heç. Uşaqlığından alışıb-tanıdığı "Azərbayjan" kino-teatrı da öz yerində yox idi, elə bil, o da uçub harasa getmişdi. Yerində isə naxışlı, sahman-səliqəli Şəki xan sarayı vardı. Xan sarayı, adama elə gəlirdi ki, özü də bura necə gəlib düşdüyündən xəbərsizdir və nədənsə, kiməsə, ya nəyəsə əzilib-büzülür. Onun qabağında kələğayısı başından sürüşüb düşmüş Natəvan, adam gərək düzünü deyə, öz həmişəki yerində oturmuşdu. Bu heykəlin bircə üzünün ifadəsi dəyişmişdi. Yanından keçən adamlara baxır və üzündə lal bir təəccüb "siz bilmirsiniz, bu tərəflərdə nə baş verir?" soruşurdu.

Sağ-sol hurilər və çiyni qanadlı mələklərlə dolu idi. Onlar adi adamların arasıyla heç nə olmayıbmış kimi keçib gedirdilər. Adi adamlar da özlərini elə aparırdılar ki, sanki min illərdi həyat elə bu cür gəlib keçib və onlar elə həmişə bu mələklərlə bir yerdə, mehriban bir ailədə yaşayan kimi yaşayıblar. Bu fikir pisinə gəldi. Elə bu vaxt o özünə söz verdi ki, bundan sonra nə görsə daha təəccüblənməyəjək. “Su üzü mübarəkdir,” – düşündü, – “Dənizə, dənizə tərəf gedim,” deyə qərar verdi.

Şəki, yox, artıq Bakı Xan sarayının yanından ötüb üzü dənizə tərəf yol aldı və dəniz bulvarını şəhərdən ayıran yeraltı keçidə çatanda qəlbini qəflətən naməlum bir kədər bürüdü. Bir an sonra bu kədər naməlumluq niqabını çıxardı və o qorxa-qorxa, hələ keçidə girməmiş üzünü dənizə sarı tutdu. Nahaqdan qorxmamışdı. Xəzər dənizi öz həmişəki yerindən qeyb olmuşdu, keçidin o biri tərəfində dəniz yox idi. "Ah" çəkib dizləri titrəyə-titrəyə keçidə enməyə başladı. Çıxanda nə görsə, yaxşıdır. Dəniz göyəmi uçmuşdu, yerəmi girmişdi, yox olmağına yox idi, yerində ucsuz-bucaqsız bir səhra uzanır, səhrada isə Misir ehramları bir-birindən qarşılıqlı hörmət məsafəsində aralı, amma ləyaqətlə durub üzü (?) şəhərə baxırdı. Lap irəlidəki ehramın qarşısında haman o məşhur başı adam başı, bədəni şir bədəni Sfinks necə ki tarix kitablarında rəsmi verilir, eynilə o cür qarnı üstə sərələnib qalmışdı. Özü də, Sfinks daşdan deyildi, canlı idi, hərdən yerindən dəbərir, başını sa-

ğa sola çöndərirdi. Elə bu an Sfinksin lap qarşısından üzündən-gözündən işıqsaçan Apollon özünün ram edilmiş şirlər qoşulu arabasını bu dəfə aram-aram sürüb keçdi. Şəhəri gəzməyə çıxmışdı, nədi?! Bu, Sfinksin xoşuna gəlmədi. Sfinks qaşqabağını tökdü.

Qəribəliklər həddindən artıq çox idi. O bu qəribə günortanın içində naçar qalıb bilmirdi ki, neyləsin, hara üz tutub getsin. Şəhərdə kentavrlar cövlan edir, çiyni qanadlı mələklər belədən belə, elədən elə evində – cənnətdəymiş kimi gəzişir, ağacların arxasından orda, burda nimfalar, driadalar görünür, tezcə də xəfif qəhqəhələr içində qaçıb kimlərdənsə gizlənir, qədim Misir ehramlarının ətrafında kahinlər dua edə-edə dövrə vururdu. "Bircə Eyfel qülləsinin yeri əskikdir" deyə düşünmüşdü ki, elə bil, kimsə onu sağ böyründən dümsüklədi, "Başını qaldır, Dağüstü parka tərəf bax!" dedi. Başını qaldırdı, Dağüstü parka tərəf baxdı. Teleqüllənin yerində əsl Eyfel qülləsi idi, şəstlə durmuşdu və günün günorta çağı olsa da, bu qüllə gecələr olduğu kimi başdan başa tez-tez rəngini dəyişən işığ selinə bürünmüşdü.

O daha heç nə barədə düşünmək istəmədi. Onun əvəzinə, ondan bir kəlmə belə soruşmadan hər şeyi düşünüb qərarlaşdırmışdılar. Onun düşünməyinə ehtiyac qalmamışdı. Baş verən nə idisə, çox möhtəşəm bir başlanğıcdan, bəlkə də sonucdan xəbər verirdi.

"İndi mən evə necə gedəjəyəm?" Elə bu beynindən keçmişdi ki, yolun kənarında, Kukla teatrının düz qabağında (adam öləcək, gərək bu dəfə də düzünü deyəsən, Natəvanın heykəli kimi Kukla teatrı da olduğu kimi öz yerində idi) iki kürən at qoşulu gözəl bir kareta dayandı. Karetanı sürənin qalın bığlı sifəti ona tanış gəldi. Bu adam nəvaziş dolu, amma sərt bir səslə "brrr…" eləyib atların yüyənini elə çəkdi ki, atlar az qala şahə qalxıb sonra da ayaqları ilə yerə mıxlandılar. Karetanın qapısı açıldı və içəridən dirsəyinəcən ağ əlcək geyinmiş bir qadın əli gözəl əda ilə onu içəri dəvət etdi.

Qətiyyən ehtiyat etmədən o özünü karetanın içinə atdı. Və elə o an kiminsə yalın, yumşaq ovucu nəvazişlə onun gözlərini qapadı, o, dodaqlarına kiminsə incə dodaqlarının dəydiyini, və sonra da yapışdığını hiss elədi. Öpüş o qədər dadlı idi ki, onu az qaldı huş aparsın. Dodaqlarında gah çiyə-

lək ətri, gah portağal ətri, gah da bal ətri hiss edirdi. Karetaya isə əsl bihuşdarı səpmişdilər, elə bil, yüzlərlə əlçatmaz dağ çiçəyinin ətrini bir yerə yığmışdılar və onun burun pərələri indi bu yüzlərlə çiçəyin hər birinin qoxusunu ayrı-ayrılıqda içinə çəkirdi…

Yaxşı olan hər şeyin sonu tez çatır. Nəhayət, kareta onun evinin qarşısında dayandı. Yenə qulağına həmən sərt, amma nəvaziş qatılmış "brrr…" səsi gəldi. Bu səsdəki sərtlik "b"-nin, nəvaziş isə "r"-nin, daha doğrusu, "r"-lərin hesabına idi. Atlar bu nəvazişə cavab olaraq həzin səslə bir ağız kişnədilər. Bu zaman haman yumşaq ovuclar onun gözlərini qapamaqdan vaz keçdi, üzünə bir-iki titrək sığal çəkdi, bu isə o demək idi ki, o, gözlərini aça bilər. O, gözlərini açdı. Sığal, əslində, "əlvida" imiş, karetanın içində heç kəs yox idi.

Karetanın sürücüsü şallağını atların başı üzərində şimşək kimi bir də şaqqıldadanda o bu adamı tanıdı. Gözlərinə inanmadı, ola bilməz, amma kim bilir… Özünə söz verdi ki, bu barədə heç kimə, heç bir vaxt, heç bir söz deməyəjək. Atlar yerindən götürüldü və bu adam üzündə bığlarına yaraşmayan, ürkək bir təbəssüm ona son dəfə təəssüf və peşimançılıqla baxıb yox oldu.

Evinin qapısına qədər adətən haylı-küylü məhlədə bu dəfə bir adam belə qarşısına çıxmadı ki, onunla bu qəribə günortanın sirləri barədə qeybət etsin. Bayır qapını açıb mənzilinə daxil oldu. Nə qızları evdə idi, nə də oğlanları. Arvadı da işdə idi, axşam gələjəkdi. Görəsən, bütün bunlar barədə onlar nə deyəcəkdilər?! Eyni görüntüləri onlardamı gördülər?! Bu şəhərə nə olmuşdu?! Bu sirri, nəhayət, bir çözən olacaqdı, yoxsa olmayacaqdı?! Birdən-birə o hiss elədi ki, bərk yorulub. Günün təəssüratı təkcə yeni deyildi, həm də əzici idi.

Gedib yerinə girdi və gözlərini yumdu. Elə bil, onu döymüşdülər, sümüklərinəcən canı ağrıyırdı. Hər şeyin əlacı yuxuda idi. Bircə o, tez gələydi. Tez gəldi. Asanlıqla yuxuya getdi. Nə gözəl yuxu idi bu yuxu…Yuxuda, nəhayət, ürəyi yerinə gəldi. Bu gözəl yuxuda o gördü və inandı ki, hər şey həmişəki kimi öz qaydasındadır, heç nə bu şəhərdə dəyişməyib və o müdhiş "nəsə" baş verməyib. Nə kentavr, nə Apollon?! Mələklər çiyinlərindəki

ağır qanadlarını yığışdırıb harasa yox olmuşdular. O, Baksovetin yanında iki-üç nəfərlə birgə qadağan olunmuş yerdən küçəni tələsik keçib yavaş-yavaş Nizami muzeyinə tərəf yol aldı. Adamların yanından ötərkən ani də olsa, onların baxışlarını tutmaq istəyir, ona təəccüblə baxanlara günahkarmış kimi gülümsünürdü. Ürəyi sevinirdi. Sabir həmişəki məzlum görünüşü ilə Akademiyanın altındakı bağda öz yerində qımıldanmadan oturub qalmışdı. Nizami muzeyi də heç hara itməmişdi, yerindəydi, "Azərbayjan" kino-teatrı da. Onun işlədiyi binanın üçüncü mərtəbəsinin dəhlizində bir köhnə, taxta çərçivəli pəncərə vardı, dənizə çıxırdı. Tez-tez bu pəncərənin qabağına yığışar, iş yoldaşları ilə bir yerdə siqaret çəkərdilər. Hərdən yaxındakı dənizdən gələn təmiz havanı almaq üçün pəncərəni açardılar. Yaşını unudub tələsə-tələsə, demək olar ki, birnəfəsə hündür pilləkənlərlə yuxarı qalxdı, hövlnak dəhlizdəki pəncərəyə yanaşdı, xoşbəxtlikdən ətrafda heç kim görünmürdü, ürəyi həyəcandan ata-ata üzünü pəncərənin çatlamış şüşəsinə dayadı. Gözlərilə həsrətlə dənizi axtardı.

Misir ehramlarından əsər-əlamət yox idi. Dənizin uzaqdakı dalğaları ağarmağa, yaxındakı dalğaları isə oynamağa başlamışdı. Bir azdan xəzri əsəcəkdi.

– Aaa, buna bu gün nolub, bu niyə ağlayır?! – Yuxuda yanından keçən və ona təəccüblə baxan qızların xısın-xısın gülüşüb dediyi bu sözləri o, eşitmədi.

# Bir sevgi hekayəti

*Azər Mustafazadəyə*

"Canım qardaşım. Əvvəla, salam. Necəsən? Uşaqlar necədir? Yasəməndən bir xəbər varmı? Aradan sürətlə illər keçdi. Necə oldu ki, bütün bunlar bu cür oldu – mən indi bunu ağlıma sığışdıra bilmirəm. Hamının qəlbini qırdım. Mənim özüm də az iztirab çəkmədim. Məni bu boyda həngamədən sonra qəbul edəcəksinizmi – bunu Allah bilir. Qayıtmaq istəyirəm. Hamı üçün çox darıxmışam. Qayıtmazdım. Amma daha dözə bilmirəm. Anam üçün, sənin üçün, Zəhra üçün ürəyim hövr eləyir. Bir az da belə getsə, ölləm. Sən bir evdəkilərin ağzını ara, gör mənim qayıtmağıma onlar nə deyirlər?! Səndən təcili cavab gözləyirəm. Sevimli qardaşın Hamid."

Samid iyirmi ildi ki, xəbəri-ətəri gəlməyən böyük qardaşı Hamiddən aldığı bu kiçik məktubu oxuyandan sonra bir müddət evdə fikirli-fikirli gəzdi və heç kimə məktub barədə bir kəlmə söz demədi.

Deməli, belə. Hamid qayıdır. Samid bilirdi, əvvəldən onun ürəyinə dammışdı ki, nə zamansa bu sərgüzəşt elə belə də qurtaracaq. İçi doldurulmuş şar kimi nə zamansa bu əhvalat da «fıssss» eləyib yatacaq. Geci vardı,

tezi vardı. Düşünürdü: «Kimdən başlayım?! Bu xəbəri birinci kimə deyim?! Deməyinə dəyərmi?! Mənası varmı?! Atam sağ olsaydı, görəsən neylərdi?! Bilirəm, bilirəm, – Samid acı-acı başını buladı. – Üzündə-gözündə bir şey göstərməsə də ürəyində sevinə-cəkdi. Niyə bu avaranın biri avara götürüb məktubu mənə yazıb, məni araçı eləyib?! Bu qədər zaman keçib. Mən, axı, neyləyə billəm?!»

Samid və Hamid doğma qardaşlar idi. Hamid böyük qardaş idi, Samid kiçik. Samidin xasiyyəti həlim idi, hamıyla yola gedə bilirdi, qılığı vardı. Hamid isə əsl bəla idi. Hələ orta məktəbdə oxuyarkən ipə-sapa yatmazdı. Valideynləri məktəbin yolunu Hamidə görə tanımışdılar. Ləqəbi vardı: Düzünəqulu. Ölsəydi, gərək sözün düzünü deyəydi. Artıq ali məktəbdə oxuyarkən üçüncü kursda dekan yalanını çıxartmışdı, özü də bütün potokun qarşısında.

– Siz özünüz bizə dediniz ki, sabah dərsə gəlməyin. Haşım müəllimin özü nədir ki, dərsi də nə ola.

Böyük bir auditoriyaya ölü bir sükut çökmüşdü. Bu sözlərə səbəb isə dekanları Eldar müəllimin özü olmuşdu. O, dərsə gəlib-gəlməyənləri yoxlamaq üçün Hamidgilin potokuna girəndə hər kəsi yerində görüb ağzını əyə-əyə az qala dodaqaltı belə demişdi:

– Ay sizi, bəs deyirdiniz, heç kim bu dərsə gəlmək istəmir?!

Hamid də bu zaman ayağa qalxıb dekanın yalanını çıxartmışdı. Haşım müəllim rəngi qıpqırmızı qızarsa da həmişəki həlim təbəssümü üzündə başı ilə dekana işarə etmişdi ki, «bənd olma!» O da «guya ki» bənd olmamışdı, irişə-irişə üzünü Hamidə tutub:

– Səndə olan fantaziya kimdə olsaydı…

Bilinməmişdi ki, bu fantaziya kimdə olsaydı, nə olardı. Eldar müəllim sözünün dalını gətirməmişdi. Haşım müəllimi otağın bir küncünə çəkib xısın-xısın ona nə isə deyəndən sonra çönüb heç kimin üzünə baxmadan tələsik otaqdan çıxmışdı.

Nəticə özünü semestrin axırından o tərəfə qoymadı qalsın. Sessiya zamanı Hamidin dalbadal aldığı «ikilər» (axırıncı «iki»ni qulağımacan qıpqırmızı qızarmış Haşım müəllim gözünü ondan qaçırıb özü yazdı) kifayət

elədi ki, Hamidi 3-cü kursu başa vurmadan universitetdən xaric etsinlər. Atası, qohumları, tanışları nə illah elədilər, Eldar müəllim sözündən dönmədi: «gedəcək ki, gedəcək!» dedi. Hamidin rəhmətlik atası çox yalvardı o zaman Hamidə ki, ay Düzünəqulu, gəl, səni aparım bu dekan müəllimin yanına, üzr istə, de ki, bilməmişəm, peşman olmuşam… Kimə deyirdin, iki ayaq bir başmağa girmədimi, girdi, yox ki, yox!

Evdə hamı özünü inandırmışdı ki, atasını qəbr evinə Hamidin hərəkətləri aparıb. Universitetdən sonra özünə iş axtarmaq, yenidən təhsilini davam etmək barədə düşünmək əvəzinə, bu adam durub-durub neyləsə yaxşıdır. Bu adam bir-iki gün ora-bura gəzəndən sonra gəlib evdə hamıya elan eləmişdi ki, evlənmək qərarına gəlib. Həyatının yeganə mənasını tapıb, bu hər adama nəsib olmur, deməli, Allah-taala onu axır ki, başqalarından seçib ayırıb, bu hadisə milyonda bir adamın başına gəlir və s. və i.a. Atası hamının yanında ondan soruşanda ki, sən həyatının mənası olan adamı neçə gündü tanıyırsan, ay Düzünəqulu, Hamid onun üzünə əzəli düşmən kimi baxıb əsəbi halda:

– Bunun heç bir mənası yoxdur. Ağıllı adam üçün iki gün tanıdın, yoxsa iki il – heç fərq eləməz… – demişdi. Kişi peşman-peşman başını aşağı dikib susmuşdu. Daha heç kəs Hamiddən bir söz soruşmamışdı. Məlum olmuşdu ki, o, həyatının mənasını iki gündü tanıyır. Anasının əli ağzında qalmışdı.

Bu o dövr idi ki, müstəqillik yeni-yeni başlayırdı. Türkiyə ilə gediş-gəliş çoxunun başını havalandırıb bihuş eləmişdi. Varlı qohum axtarışları çoxları üçün ilğım olsa da, bəziləri bunun mənəvi və real ləzzətini dadmağa başlayırdı. Hamidgilin ailəsi bu «bəzi» ailələrdən biri idi. Atası Cəbi kişinin 2-ci Dünya müharibəsində almanlara «plen» düşən, müharibədən sonra isə fırlanıb-fırlanıb Türkiyədə məskunlaşan doğmaca əmisi oğlu peyda olmuşdu. Yasin əmioğlu xeyli varlı biri idi, özü də, deyəsən, əməlli-başlı əliaçıq idi. Türkiyədən xəbərlər göndərirdi. Sərmayə qoyub birgə iş qurmaq istəyirdi. Özü gəlmək istəyirdi, Cəbini, övladlarını qonaq çağırırdı. Ailə üçün yeni və çox xeyirli perspektivlər açılırdı. Belə bir zamanda Cəbi kişiyə işləyən, çalışan, gedib-gələn, zirək, bir sözlə, arvadı Pərnisəyə dediyi kimi «qaz vurub qazan dolduran» oğul lazım idi. Bu avara isə «evlənmək istəyi-

rəm» deyib durur. Hələ bu azmış, ən maraqlısı heç bu da deyil, evlənməklə iş bitsəydi, nə vardı?! Hamid sevgilisi, gələcək arvadı Svetlana ilə onun tarixi vətəni Rusiyaya getmək, orada yaşamaq istəyirdi. Svetlana institutdan ədalətsiz olaraq xaric edilib, onun arzuları tar-mar olub, qız depressiyadadır, məhz indi onu dəstəkləmək lazımdır, onun buna ehtiyacı var, nəhayət, bu evlənmək məsələsi Hamidin şəxsi işidir, onun artıq iyirmi dörd yaşı var və o, Svetlanaya söz verib. Yas qurmaq da lazım deyil… Ata və ananın yanıqlı-yanıqlı köks ötürməkdən savayı bir əlacları qalırdımı, qalmırdı.

Gecələr Hamidlə Samid öz yataq otaqlarına çəkilən zaman hamının yanında səsini udub duran Samidin dili açılırdı, o, qardaşının hərəkətinə haqq qazandırırdı. Onu bir az da həvəsləndirirdi. Samid gecədən xeyli keçənə qədər Rusiya, ordakı imkanlar, qısa müddət içində milyoner olmaq şansı, hətta rus şairləri barədə uzun-uzadı söhbətlər edərdi. Gündüzlər cəsarət edib deyə bilmədiklərini beləcə gecələr üyüdər, tökərdi.

– Sən Allah, doğru deyirsən? Sən də belə düşünürsən? Ay Allah, sən, sən… Gəl bir yerdə gedək!.. –

Hamid kiçik qardaşının canyananlığından əməlli-başlı vəcdə gələrək düşünürdü ki, o, həqiqətən xoşbəxtdir, çünki onu anlayan belə bir balaca, əziz, sevimli qardaşı var. Evdəkilər isə Hamidi anlamadılar. Hamid məcbur qalıb evdən çıxdı. Svetlanagilə köçdü. Evdən gedəndən on gün sonra toy edərkən nə ata-anası, nə də bacısı Zəhra toya gəldi. Hamid isə heç kimi yox, sevimli qardaşı Samidi gözləyirdi. O da gəlmədi. Bir-iki dost-tanış, Svetlananın qohumları, ailə dostları, cəmi on beş adam, vəssəlam. Svetlanagilin Nərimanov prospektində «finski domikləri» vardı, o evin həyətində məclis qurdular. Svetlananın atası Nikolay Valentinoviç qonaqlar dağılışandan sonra Hamidlə toy süfrəsinin ətrafında dübədü oturub ona da, özünə də yekə bir bokal dolusu qırmızı şərab süzüb fikirli-fikirli belə dedi:

– Yaxşı olmadı, Hamid, heç yaxşı olmadı. Mən bunlara demişdim. – Toydan sonra ortalıqda yıryığış edən arvadı Ninanı və qızı Svetlananı nəzərdə tuturdu. – Ata-ananın xeyir-duası çox vacibdir, bu, bəlkə də ən vacib bir məqamdır. Mən sənin, sənin yeni qurulmuş ailənin sağlığına içirəm. Sənin ata-ananın sağlığına, bacının, qardaşının sağlığına içirəm. Nə

mən deyən olsun, nə sən deyən olsun. Allah deyən olsun. Hər şey düzələcək. Sağ ol. Sən əsl kişisən. Ola bilər, kimsə desin, pis adamsan, tərs adamsan, nə bilim, necə adamsan, amma mən deyirəm, kişi adamsan. Ona görə yox ki, atanın, ananın iradəsinə tabe olmamısan, qətiyyən! Ona görə ki, ürəyinin dediyilə hərəkət eləmisən. Ürəyinin dediyilə hərəkət eləyən kişilər ən qəliz kişilər olur. Sağ ol.

Bunları deyib qaynatası Nikolay Valentinoviç şərab dolu bokalı çəkmişdi başına, sonra ayağa qalxıb səndələyə-səndələyə gedib girmişdi evə və qalxmışdı dar, əyri pilləkənlərlə düz çardağa, yerdən salınmış yatağa yıxmışdı özünü. Ər-arvadın yeni yataq otaqları artıq bu çardaq olacaqdı. Əsas yataq otağını onlar bu gecədən başlayaraq cavanlara təhvil vermişdilər. Ata üzünü yastığa soxub göz yaşını heç cür saxlaya bilmədi.

Svetlana gəlinlik paltarını dəyişib anasına qab-qacağı yığışdırmaqda kömək edirdi. Bir də baxıb gördü ki, atası həyətdə yoxdur, Hamid isə gözlərini qarşısındakı şərab dolu bokala zilləyib oturduğu yerdəcə donub qalıb. Gəlib onun yanında oturdu. Əlini çiyninə saldı, qısıldı sevgili ərinə:

– Fikir eləyirsən? Fikir eləmə. Hər şey yaxşı olacaq. Bax, görəcəksən, hər şey yaxşı olacaq…

– Heç biri, başa düşürsən, heç biri gəlmədi. Barı Samid gələydi… – Hamidin səsi az qala titrəyirdi.

Artıq soyuqlamağa başlayan həyətdə yeməkdən sonra orda-burda qalaq-qalaq yığılıb qalmış qabqacağın arasında əllərini sinəsində çarpazlamış pəjmürdəhal Hamid bilmirdi ki, üç gün əvvəl onun toy məsələsi atası evində əsl müzakirəyə çıxarılıb. Toya heç kimin getməyəcəyini qərarlaşdıran məşvərət iştirakçıları Hamid adlı oğlunun olmamasını bəyan edən atanın birdən hıçqırıqlar içində boğulduğunu görüb bir səslə Hamidin qarasınca «Allah sənin bəlanı versin!» deyə qorxu içində çığrışıb kişinin başının üstünü aldılar. Nəfəsi təngiyən Cəbi kişi birdən səsini «xıp» kəsib əlinin qəti hərəkətilə camaatı başından o tərəfə elədi, boğuq səslə dedi:

– Bu məsələ burda qurtardı! Ölsəm, bu adam ölümün üstünə gəlməsin, ölsə ölüsünün üstünə getməyəcəyəm! Kəsin bu ağlamağı! Bir də bir adamı ağlayan görməyim. Durun, gedin işinizin-gücünüzün dalıyca.

Samid, sən sabah İstanbula, Yasinə telefon elə. Denən ki, mən səni onun yanında öz vəkilim edirəm. Bitdi bu iş, bitdi.

Otağı ölü sükut bürüdü. Bir müddət bu sükutu Hamidin anası Leyla xalanın xısın-xısın, içdən gələn ağlamağı pozdu. Qaşlarını bərk-bərk düyünləmiş Cəbi kişi isə səsini çıxarmadan çoxdan eşitmədiyi sevimli musiqiyə qulaq asırmış kimi diqqətlə bu ağlamağa qulaq asmağa başladı.

…Məktubu alıb oxuduğu o gecə Samidin gözlərinə yuxu getdimi, getmədi. Uzun illərin tarazlaşmış, müəyyən ahəng almış həyat yolu birdənbirə nəzərdə tutulmayan bir döngə ilə üzləşirdi. Bu döngəyə dönmək bu gün heç kimə lazım deyildi. Atasının sözləri xəncər kimi beynini deşdi. Samid yerində qurcalandı. Bu sözləri atası ölənədək dedi, yorulmadı: «Nolsun ki, mən onun toyuna getmədim, səni ki göndərdim, sən ki, o toya getdin. O isə ənəsliyindən evə gəlmədi, saymadı bizi.»

Samid bu hadisəni həyatı boyu əzabla xatırlamışdı, hamıdan gizləmişdi, bu gün heç kim, hətta anası belə bilmir ki, Cəbi kişi toy günü səhər Samidi yanına çağırıb belə demişdi:

– Ay bala, indi neyləyək, bu eşşək çıxdı, amma bu söhbəti də acı bağırsaq kimi uzatmağına dəyməz, deyirəm. Əlacımız nədi?! Gərəkdi ki, özü gələydi, indi dedim axı, eşşəkdi, nə gözləyirsən?! Toyuna hələ bir utanmayıb xəbər göndərib, toy qızgilin evində olacaq, bizi çağırır…

Cəbi kişi iki-üç gün əvvəl dediklərini, elə bil, unutmuşdu, nəydi, bu gün onun səsində həlim nöqtələr vardı. Amma yenə də arvadının, qızının yanında yumşaldığını göstərmək istəmirdi və sözlərini ancaq Samidə deyirdi:

– Bax, sənə deyirəm, nabadə, bir adam bunu bilə. Barışıqdan… indiki halda söhbət gedə bilməz. Amma nə zamansa bu olmalıdı. Körpüləri tam yandırmayaq. Bu toya sən get. De ki, özün gəlmisən, sənin bu hərəkətindən guya bizim xəbərimiz yoxdur. Bilsək, nə bilim nə edərik, bir şey uydurub deyərsən. Özün də onunla əlaqə saxla. Qandır bu eşşəyə ki, arvadını da götürüb gəlsin, onun üzünə baxmasam da, əlacım nədi, bağışlaram qızın nə günahı?! – Kişini bu yerdə az qalmışdı, qəhər boğsun, «öhö-öhö» eləyib büruzə verməmişdi. Elə öskürə-öskürə sözünü belə tamamlamışdı. – Anasına yazığı gəlsin, arvad mum kimi əriyib, bu gün-sabah ölər bu, qalmaz…

… İndi yenə də o söhbəti xatırlayarkən təzə-təzə vaxtlarda olan kimi Samidin, elə bil, sinəsinin içinə kiminsə amansız barmaqları girib ürəyini sıxdıqca sıxdı. Bu barmaqlar onun ürəyini, elə bil, inək əmcəklərini sıxan kimi sıxıb süd sağırdılar. Ürəyindən misqal-misqal çıxan inilti bu gün çox aydın bir şəkildə həmən ilk ağrını ona xatırlatdı. O isə belə güman edirdi: qardaşının sifətinin cizgiləri yadından çıxdıqca o ağrı da korşalacaq. Hökmən yox olacaq. Əslində, bu elə belə idi. Ağrı artıq yox idi. Bu qədər vaxt idi, nə qardaşı vardı, nə də ağrı. Bu gün ağrı bu məktubla geri qayıtdı. Gözlərini bərk-bərk yumdu. Bilirdi ki, qaranlıqda Hamidin üz cizgiləri bir-birinin ardınca onun qapanmış göz qaranlığında işıq verə-verə peyda olacaq, bu isə ağrını ancaq şiddətləndirəcək, yenə də bərk-bərk yumdu gözlərini. Yanılmırdı, gözlərinin qaranlığında o – qardaşı peyda oldu…

…Vaqzalda vida vaxtı idi. Samid onları ötürməyə gəlmişdi.

– Bilsələr burdayam, öldürərlər məni. – Samid riyakarcasına, irişə-irişə Hamidə dedi.

– Yəni, deyirsən o dərəcədə?! – Hamid ürəyi parçalansa da bürüzə vermədi.

– Hə, indilik gərginlik necə vardı, eləcə də qalıb. Cəbi dedi, toya getsən, öldürrəm səni, “uf” demərəm. Yaxşı elədin, sən evə gəlmədin. Çatan kimi məktub yaz. Mən sənə gəlmək zamanını özüm deyəcəyəm. Hə, bir də… dedi ki… ölsəm, ölümün üstünə gəlməsin. Sən məndən xəbər gözlə.

Samid inamsız bir ümidlə onun üzündə nəsə axtaran qardaşının daxili həyəcanından anladı ki, bu gediş son gedişdir. Qatar yerindən tərpəndi, vaqonlar bir-birinə dəyib şaqqıldayaraq yavaş-yavaş uzaqlaşdı. Amma hələ xeyli zaman Hamid vaqonun pəncərəsindən başını çıxarıb qardaşının getdikcə balacalaşan kölgəsinə baxdı. Ürəyi qısıldıqca qısıldı.

İndi isə iyirmi, düz iyirmi ildən sonra Hamid səbrsizliklə məktubuna cavab gözləyə-gözləyə qalmışdı. Həmişəki kimi yenə də son ümid yeri Samid idi. Ancaq Samid onu ailəsi ilə, anası, bacısı Zəhra ilə, Yasəmən ilə barışdıra bilərdi. Anasından arxayın idi. Bütün bu ayrılıq illərində bircə gün də olmamışdı ki, onun üçün ürəyi sızlamasın. Hiss edirdi ki, anası da eynən onun kimi əzab çəkir, başqa cür ola bilməz. Bacısından isə könlü

qırıq idi. Hamidin fikrincə Zəhra özü onu axtarıb tapmalı, atası-anası ilə arasında vasitəçi olmalıydı. Nə isə… Olan olmuşdu, gedən getmişdi, qalan qalmışdı. Ona heç kimin rəhmi, günahlarını bağışlaması lazım deyildi. O özü özünün hakimi idi. O özü heç zaman özünü bağışlamayacaqdı. Ancaq orası da vardı ki, o özünü günahkar saymırdı və saymayacaqdı. Qəribə idi. Atasının ruhu ilə bu ayrılıq illərində nə qədər danışıb durmuşdu, onunla hər şey barədə, universitetdən qovulması, evlənməsi, Rusiyaya köçməsi, burda həyat yolunun ağ-qara zolaqlara bölünməsi, evləri, ən çox da onun və anası üçün burnunun ucunun göynəməsi barədə nə qədər desən qovrula-qovrula danışmışdı. Gec də olsa onu inandırmağa çalışmışdı. Amma bir dəfə də olsun ondan üzr istəməmişdi. Atasının «Ölsəm, ölümün üstü-nə gəlməsin» sözlərini vidalaşıb ayrılarkən Samid ağlamsınıb ona demişdi. Bu sözlərin ağırlığını Hamid bu gün də çəkirdi. Cəbi kişinin yasına da vaxtında xəbər tutmadığı üçün deyil, bu sözlərin şlaqbaum kimi «Yekaterinburq-Bakı» yolunu kəsdiyi üçün getmədi. Aradakı uçurum daha da dərinləşdi. İllər elə bu cür, yeknəsaq şəkildə keçib getməyinə davam etdi.

Birdən-birə nə baş verdiyi onun özü üçün də müəmma idi. Son bir-iki ay olardı ki, yerində sakit otura bilmir-di. Gecələr yuxusuna anası girirdi. Anası ona deyirdi: «Gəl, oğul, gəl, atan getdi, mən getməliydim, o getdi, sən isə gəl, məni tək qoyma!» Anası ağ buludların arasında əllərini ona doğru uzatmış bir halda gözlərində məzlum bir yalvarış yavaş-yavaş ondan uzaqlaşırdı. Səhərlər yuxudan qan-tər içində qəfildən səksənib ayılırdı. Svetlana onun bu halını son zamanların uğursuzluğu və bundan irəli gələn yorğunluqla izah edirdi. Bir dəfə isə gecə yarısı Hamidin sayıqladığını və yuxuda anasını çağırdığını, onunla az qala unutduğu doğma dilində nə isə danışdığını eşitmişdi. Qardaşı Samidə məktub yazmağı da elə o səhər mətbəxdə qəhvə bişirə-bişirə Svetlana ona məsləhət görmüşdü.

– Bu düşmənçilik axı nə qədər davam edəcək?! Bu axı düzgün deyil. Bilirsən, mən də Bakı üçün darıxmışam…

– Mən darıxmamışam!

– Nolar, mənim xətrimə, yaz bu məktubu. Oğlumuz da qohumlarını görər… Bəlkə elə nənəsi də onu gözləyir?!

Orta məktəbi iki il əvvəl bitirən və ali məktəbə qəbul ola bilməyən oğlanları Zaur Xabarovskda hərbi xidmətdə idi. «Uzaq, isti Azərbaycanda nənəsi onu gözləyir» fikri onu soyuq Uzaq Şərqdə necə və nə təhər isidəcəkdi – bunu Hamid bilmirdi. «Zaur, görəsən, bu məktub məsələsinə necə baxar?!» – Hamid düşündü.

Hamid hələ onu bilmirdi ki, əziz və sevimli qardaşı Samid onun toyunda iştirak etmək tapşırığını atasından ala-ala toya gəlməmişdi, səhərisi gün isə atasına demişdi ki, toya getdim, amma üzümə də baxmadılar. Bundan başqa sevimli qardaşı ilk ayrılıq günləri və ayları Hamidin Rusiyadan yazdığı məktubları da evdə heç kimə göstərməmiş, özü özünü isə aldatmağa çalışmışdı ki, bununla qarşıdurmanın kəskinliyini azaldır. «Bu cür həyat Hamidə lazım deyil, Hamidlik deyil. O heç vaxt iş adamı ola bilməz. Hamid pul qazanmağın ləzzətini heç vaxt bilməyib.» Samid bu cür düşüncələrlə özü-özünə təskinlik verir, sönük vicdanını aldatmağa çalışırdı.

Az keçdi, çox keçdi, Samid düşündüklərinin o biri hissəsini də təmkinlə həyata keçirməyə başladı. Türkiyədəki əmisi nəvəsi Ceylan Yasinqızına evlənib İstanbulda varlı bir şirkətin başına keçdi. İndi böyük iş adamı olan Samidi təkbaşına hakimiyyət əzazil və xəbis bir adama çevirmişdi. Bax ki, Hamiddən gözlənilməz bir şəkildə gələn son məktubu da evdə heç kimə göstərmədi. Kim ondan hesab istəyəcəkdi?! Atası artıq həyatda yox idi. Qaynatası və atasının əmisi oğlu Yasin bəyin bütün bu məsələlər vecinə də deyildi – o, qoca və əhlikef bir adam idi. Anası Leyla çox qocalmışdı, artıq Hamidi güclə xatırlayırdı. Arvada elə gəlirdi ki, Namid ölüb və bu xəbəri ondan indiyənəcən gizlədirlər. Bunu bildiyini isə üzə vurmurdu. Bacısı Zəhranın başı əyyaş ərinə və narkoman oğlanlarına qarışmışdı. Arvadı Ceylan isə çoxdan ondan ayrı, Türkiyədə öz həyatı ilə yaşayırdı. Samidin dodaqlarından üzünə acı və miskin bir təbəssüm yayıldı.

Bizim Leyli-Məcnunun eşq hekayəti isə belə başlamışdı. Hamid Svetlananı ilk dəfə Universitetdən sənədlərini götürməyə gələndə gördü. Pilləkənlərlə gözündən səssiz-səssiz sel kimi yaşlar axan ağ paltar və qırmızı ayaqqabı geyinmiş, əlindəki qara çantasını bərk-bərk sinəsinə sıxmış, saçlarını səliqə ilə boynunun arxasına yığmış və ayaqlarının altına diqqətlə

baxa-baxa bir qız enirdi. Pilləkənlərlə üzüyuxarı dekanlığa qalxan Hamidin yanından ötəndə bu qız qəfildən büdrədi, az qaldı, yıxılsın. Hamid bir onu bildi ki, qızın çiyinlərindən bərk-bərk tutdu, amma bu dəfə ikisi də düzdü, yixılmadılar, amma bir-birindən yapışaraq eləcənə mərmər pilləkənə oturdular. Tir-tir titrəyən bu qızın gözlərindən dayanmadan səssiz-səssiz yaşlar axırdı. Hamid özü də bilmədi, nə üçün qızın üzünə dağılmış şabalıd rəngli saçlarını əli ilə tumarlayıb üzündən yığmağa başladı. Svetlana da bilmədi ki, nə üçün buna icazə verdi və nə üçün Hamidə qısıldı.

O da bu Universitetdə oxuyurmuş və o da elə indicə üçüncü ikisini almışdı və Hamid kimi Universitetdən qovulmuş sayıla bilərdi. Onlar əl-ələ tutub əvvəlcə yuxarı dekanata qalxdılar, dekanları Eldar müəllimin istehzalı baxışları altında Hamidin sənədlərini aldılar, sonra isə Universitetdən çıxıb yenə də bir-birinin əlindən bərk yapışaraq üzüaşağı, bulvara tərəf getdilər. Üç gün üç gecə bir yerdə oldular. Səhərlər, günortalar axşamlar əl-ələ, göz-gözə, o küçə mənim, bu küçə sənin, gecələr telefonda – səs-səsə. Sonrası isə bəlli idi – toy! Vəssəlam.

Hə, son nöqtəni qoymazdan əvvəl bir də onu hökmən demək lazımdır ki, Svetlana uşaqlıqdan üzü bu yana həmişə nədənsə, kimdənsə qorxardı. Yanından sürətlə keçən maşından, itdən, pişikdən qorxardı, atasından qorxardı, anasından qorxardı. Müəllimlərdən, kurs yoldaşlarından, qonşularından qorxardı. Bakıda qalmaqdan qorxardı, Rusiyaya köçməkdən qorxardı. Hamiddən isə gördüyü andan bu günə qədər bir dəfə də olsun qorxmamışdı. Eşq dediyimiz hekayət bu idi və bundan başqa bir şey deyildi.

…Məktubda adı keçən Yasəminin isə kim olduğunu Samid gecə yarıyacan yataq otağında o baş bu başa var-gəl edə-edə, sonra da yatağında o tərəf bu tərəfə çevrilə-çevrilə nə qədər xatırlamağa çalışdısa da, xatırlaya bilmədi.

*2015-ci il*

# Qədiməli kişi və onun bülbülü

Bağ mövsümü deyildi. Uzun qış gecələrinin birində bizim bağda növbəti yeyib-içmədən sonra isti otaqda bir-birimizə qısılmışdıq. Bilgəli Rüstəm kişi bizim xahişimizlə bir əhvalat danışmağa başladı. Sən demə, çox da uzaq olmayan keçmişdə Bilgə kəndində bir yaşlı, əslində, Rüstəm kişi "qoca" deyirdi, inandırıcı olması üçün mən "yaşlı" yazıram, qərəz, bir yaşlı kişi varmış. Adı Qədiməli olan bu kişi bütün ətrafda məşhur imiş. Təkcə Bilgədə deyil, məsələn, Nardaran, Buzovna, Mərdəkan kimi kəndlərdə də yaxşı tanınırmış. Xeyir, Rüstəm kişi onu şəxsən tanımayıb. O ölərkən Rüstəm kişinin iki, ya üç yaşı olardı. Elə o zamandan bu vaxtacan kənddə Qədiməli kişinin söhbəti bitib tükənmək bilmir. Nəydi bu arıq, bəlkə də cılız, yaşının bu ahıl vaxtına baxmayaraq başının bütün tükləri, özü də qapqara və ağzının bütün dişləri, özü də cabəca yerində olan bu adamın məşhurluğunun səbəbi?! Rüstəm kişi dediyi sözlərin təsirini mavi gözlərini heyrət-

dən böyütməklə artırıb yenə də özünün ən mötəbər istinadgahına – Bilgə çayxanasına "sitat verdi". Sən demə, Bilgə çayxanasında danışırmışlar ki, Qədiməli kişinin məşhurluğunun səbəbi nə az, nə çox onun dənizdə üzmək məharətindəymiş. Qədiməli kişi Bilgədə dənizə girib saatlarla (bəli, bəli, saatlarla!!) dənizin ortasına doğru üzə bilirmiş. Yenə də saatlarla üzüb geri qayıdırmış. O, əslində, elə bu məharətinin hesabına yaşayır, tanış-bilişlə, daha çox tanımadıqları adamlarla mərc gəlir, hər dəfə də mərci udurdu.

Rüstəm kişi, əslində, "günahsız" idi, o, çayxanada deyilənləri bizim üçün təkrar edirdi. Biz də ki, yeyib-içəndən sonra məzələnmək üçün fürsət gözləyirdik. Pıqqıltımızı güclə saxlayırdıq. Öz aramızda Rüstəm kişini Baron Münhauzen çağırırdıq.

Ağlına görə yox, bəlkə daha çox ağılsızlığına görə skeptik dostumuz Zakir nazik dodaqlarını büzərək söhbətin şirin yerində Rüstəm kişinin sözünü heç kimin gözləmədiyi halda kobudluqla yarıda kəsdi. Dözə bilməmişdi:

– Dənizin ortasınacan?! Üzə-üzə gedib İrana çıxardı ki… – Öz sözlərinə onun-bunun üzünə baxa-baxa bərkdən, özü də, necə – "ha-ha-ha…" eləyib güldü. Amma heç kim Zakiri dəstəkləmədi, buna görə də onun son sözləri xeyli qətiyyətsiz səsləndi. – İnandırıcı deyil e, sənin danışdıqların…

Bu gözəl axşamı bu cür ancaq Zakir korlaya bilərdi. Ancaq Zakir bu gözəl gop söhbətini axıracan ləzzətlə dinləməyimizə mane olardı. Heç kim Rüstəm kişinin Bilgə çayxanasından dost bağına bir sovqat kimi daşıyıb gətirdiyi söhbətlərin həqiqətə nə dərəcədə uyğun gəlib-gəlmədiyini onun üzünə vurmazdı. Bu, Rüstəm kişinin xətrini çox istədiyimizdən idi. Bir də ki… məzələnməyin gərək öz məqamı gələydi. Qoy bir Rüstəm kişi – Bilgənin və ətraf kəndlərin bu baron Münhauzeni sözünü öz bildiyi kimi danışıb qurtarsın. Ondan sonra idi həngamə. Dözmək, əhvalatın sonuna qədər gözləmək lazım idi. Suallar ortada gəlsəydi, hiyləgər Rüstəm kişi öz dediyi sözləri elə ustalıqla dəyiş-düyüş edəcəkdi ki, ona sonradan heç nəyi sübut etmək mümkün olmayacaqdı. Özü demişkən, o, əldəqayırma yox, həyat professoru idi. Müəllimi də kəndin ağsaqqallarından biri, hamımızın böyük hörmətlə xatırladığımız atası Zülfüqar kişi idi. Söhbətin ortasında suallar –

olmazdı! Biz bunu indiyə qədər bu "tupoy" Zakirə heç cür başa sala bilməmişdik. Suallar sonra veriləcəkdi. Mətləbin gözləri verəcəyi sualın "ağırlığından" indidən bic-bic qıyılmışdı.

– Belədə üzə-üzə gedib İrana çıxardı ki bu… – Zakir bayaq dediklərini ortalığa çökən sükutun kövrək ab-havasında artıq tam inamsız şəkildə, bu dəfə elə bil, yalnız özü üçün təkrar elədi. Çox istəyirdi ki, onun dedikləri özündən başqa kimisə güldürsün, amma yenə alınmadı. İsti otaqda oturub möhkəm yeməkdən sonra çay içən bizlər Zakirin bu vaxtsız və ağılsız müdaxiləsinə yanıb-tökülsək də (tələsir, tələsir!), Zakir uzatmasın deyə, çox bənd olmadıq. Hərə öz ürəyindəki gülüşü ilə bu dəfə də səssiz qalmağı üstün tutdu. Halımızı büruzə verməmək üçün dodaqlarımız çeynəm-çeynəm oldu. Bir-birimizin üzünə də baxa bilmirdik ki, birdən Zakirin dediklərinə ("dəlidən doğru xəbər!") rəğbətimiz Rüstəm kişi tərəfindən "ifşa" edilər. Rüstəm kişi Zakirə saymazyana tərs bir nəzər salıb gözlərini qəribə bir əda ilə süzdü və heç nə olmayıbmış kimi söhbətinə davam elədi:

– Zakir, sən dayan. Tələsmə. Sən hələ qulaq as. Öyrən! "Yəni, sənin ağlın kəsən məsələ deyil." – Bu sözləri yarıeyham və xətrinə dəyməsin deyə yarıehtiyatla deyərək Rüstəm kişi gözlərilə bir-bir bizi süzdü. Sonra sözünə aramla, hətta bir qədər də ağır-ağır davam etdi:

– Bakıdan pullu adamlar məxsusi onun "interesinə" durub Bilgəhə gələrmişlər. Mərc qoşurdular, uduzurdular, qəribədir, vallah, uduzmaqlarından hələ bir ləzzət də alırdılar.

– Bax a, ləzzət alırmış… – Kim idisə, deyəsən, Vahid idi, Rüstəm kişini bir az da qızışdırmaq üçün aksenti dərinləşdirirdi.

– Həri, həzz alırdılar. Saatlarla üzüb gedərdi, hamı da bilərdi ki, bəli, bu, Qədiməlidi, misalçun, üç saatdan sonra qayıdacaq, ya da dörd saatdan sonra qayıdacaq, baxır mərcə. Dediyi vaxta da hökmən qayıdarmış. Deyirlər, iki gün dənizdən çıxmamaqdan mərc çəkənlər olub, yenə də uduzub. – Rüstəm kişi əməlli-başlı qızışırdı. Bizə də elə bu lazım deyilmiydi?! – Evdəkiləri də niyaran qalmazdı. Kişinin mərifətini, əlbəttə ki, bütün məhlə bilirdi. Həri, həri… iki gündən sonra. Mən səhv-zad eləmirəm. Güclü üzən olub.

Rüstəm kişi sözünü bitirib nəfəsini dərdi. Qabağındakı çaydan qurtum-qurtum içməyə başladı. İndi, bəli, "müzakirə"yə başlamaq olardı. Biz bir-birimizlə baxışdıq. Birinci Əbülfət özünü saxlaya bilmədi. Buyur, sənətkar. Sənin heç zaman hövsələn olmayıb. Ürəyin partlar özünü hamıdan əvvəl ortalığa atmasan. Sənətkar biz tərəfə bic-bic baxaraq dedi:

– Bir sual olar? Bəlkə dənizə girib dizəjən gedəndən sonra oturub suyun içinə?!

Gülməkdən qarnımızı tutduq. Uşaqlıqda Əbülfətə demişdilər ki, sənin yaxşı zarafat eləməyin var, danışığın da çox duzludur, qızların yaman xoşuna gəlir. Əslində, bunu Mətləb demişdi və, əslində, o, belə deməklə, Əbülfətlə məzələnmişdi. Bu "fağır" da, "ürəyitəmiz", inanmışdı. O vaxtdan bizim əsəblərimizlə oynamağındadır. Amma hərdən zarafatı ilə "onluğa" vurur. İndiki kimi.

– Yox, vallah, yox, siz, deyəsən, zarafata salırsız, istəyirsiz, bu saat gedək çayxanadakılardan bir-bir soruşaq. – Rüstəm kişi vaxtında "şeş qoşa" atmış oyunçular kimi əllərinin içini qaşıya-qaşıya bu sözləri elə inamla dedi ki, elə bil, bizi azından Qaaqa məhkəməsinə getməyə dəvət edirdi.

İndi artıq gülmək də, sataşmaq da, zarafatlaşmaq da olardı. Nəhəng su kütləsi bəndi aşmışdı. Rüstəm kişi səbrlə atmacaları dinləyir, tövrünü də pozmurdu. Sanki son sözünü deməmişdi, hələ vacib deyəcəyi vardı. Əllərini yana açdı:

– Qoymursuz, axı, sözümü qurtarım. Mən hələ sözümü qurtarmamışam, camaat.

– Buyur, Rustam bek, buyur. – Mətləb yalançı ciddiliyini güclə "bərpa" etdi. – Qoyun kişi sözünü qurtarsın. Bəlkə, doğrudan da, bu adam üzəüzə gedib İrana çıxıb, özünün də xəbəri olmayıb…

– Zarafata salma, Mətləb.

Rüstəm kişi xeyli ciddiləşdi. O, nəyə görəsə ümid edirdi ki, Mətləb onu dəstəkləyəcək, amma belə olmadı. Rüstəm kişi daha gözləmədi ki, ona sual versinlər, söhbətinin əsas məqamına keçdi:

– Bu Qədiməlinin evində bir dənə bülbülü var imiş. Hər səhər səsini atarmış başına.

– Bülbülü də varmış bunun ki… Bülbül də bunun yanında üzə-üzə gedib çıxıb İrana?! – Əbülfət artıq şitlik eləməyə başlayırdı. Bir dəfə üzünə xoş baxanda, yəni, sözünə güləndə, artıq yolunu azırdı.

Rüstəm kişi atmacalara, siqaret tüstüsünə qarışıb otağı bürüyən səs-küyə fikir vermədən aramla əhvalatın ardını danışmağa başladı. O belə edincə otaqdakı səs-küy də yavaş-yavaş yatdı.

– …Bir dəfə Qədiməli kişi dənizdən qayıtmır. Qoca adamdı, bəlkəm ürəyi tutur, ya bir başqa səbəbdən – kim bilir?! Bir söz, bu adam dənizdə batıb qalır. Ölüsünü də tapmırlar. Evdə bunun yasını tuturlar, üçünü, yeddisini, qırxını verirlər. Maraqlı nədir – bilirsiz?! O bülbül ki, hər gün səhər-səhər cəh-cəhi bütün məhləni başına götürərdi, o bülbül düz Qədiməlinin qırxı çıxana qədər bir dəfə də oxumur.

– Bir də qırxından sonra oxuyur? – Bu dəfə mən özümü saxlaya bilmədim. – Rüstəm, sən lap ağ elədin a…

– Həri, vallah, çayxanada belə deyirlər. Bülbül bir də bunun qırxından sonra oxuyur.

– Bəlkə bülbülün səsi batıb?.. – Yəqin, duyuq düşdünüz. Bu, yenə də Əbülfətdir.

Rüstəm kişi bu dəfə də Əbülfətin dediyinə məhəl qoymadı. Ümumiyyətlə, o, Əbülfəti, Zakiri heç vədə ciddiyə almırdı. Gözaltı baxdığı, fikrini öyrənməyə çalışdığı adam ya Mətləb olardı, ya da Vahid. Hərdən-birdən də – mən.

– Mat-məəttəl qalmalıdı. Adamın az qalır, inanmağı da gəlir… – Mətləb yenə ortalığı qızışdırmaq istəyirdi.

Rüstəm kişi başı ilə Mətləb deyəni təsdiqlədi:" İnan, inan, Mətləb."

Gözlənilməz olsa da, bu "bülbül" keçidinə inanan təkcə Zakir oldu. O, çox mənalı-mənalı susub durmuşdu. Elə bil, heç kimin eşitmədiyi bir səsi dinləyirdi. Heç kimin eşitmədiyi bu səs rəng alıb rəng verib Zakirin üzündə, gözündə, yanaqlarında oynayırdı. Elə bu zaman tərslikdən bağda işıqlar sönmədimi, söndü. Axşam hamıdan xəbərsiz gecəyə keçdiyindən içəri qapqaranlıq zülmət oldu.

– Darıxmayın, indi yanar. – Mən ev sahibi kimi yaranmış bu namünasib sükutu şux bir səslə pozmağa çalışdım. Amma sükutun "təhər-tövründən" duyuq düşdüm ki, işığın qəfil sönməyilə eyni zamanda hamının ürəyi eynən mənim ürəyim kimi nigarançılıq və kədər içində sıxılmağa başladı.

Elə bu sükutun içində qulağım əvvəlcə xeyli zəif, sonra çox aydın şəkildə bir bülbül cəh-cəhini tutmağa başladı. Bəli, heç şübhə yox idi, bülbül idi, özü də şövqlə oxuyurdu. Bu quş hardan gəlib bura çıxmışdı?! "Bəs deyirlər, guya bülbül qaranlıqda oxumur?!" Beynimdən bu fikir keçmişdi ki, Rüstəm kişinin qəmli səsi ayrı-ayrı sözlərə parçalanıb zülmət qaranlıqda işım-işım işıldadı. Rüstəm kişi, elə bil, məni eşitmişdi:

– Oxuyur. Bülbül əgər ürəyi istəyirsə, qaranlıqda da oxuyur.

Qərəz, bu bülbül hardan gəlmişdi bu evə, sonra da hara uçub getdi, bunu kimsə bilmədi. Bir xeyli bu quş qaranlıqda şövqlə, Rüstəm kişi demiş, "ürəklə" oxudu, oxudu…

İşığın yanmağı ilə bülbülün səsinin kəsilməyi eyni vaxtda baş verdi. Elə bil, quşcuğaz öz ecazkar səsi ilə işığı yandırıb sonra da yox oldu. Uşaqların bir-birinin üzünə çaşqın-çaşqın baxmağından aydın olurdu ki, onlar da bülbülün səsini eşidiblər. Hər şeyə realistcə yanaşan Vahid dərin düşüncələr içində qalın qaşlarını çatıb əminliklə dedi:

– O quş, evdə harasa açıq qalıb, uçub ordan içəri girib.

Murad durub bir-bir pəncərələri yoxladı. Fikirli-fikirli başını buladı.

– Möcüzədi, vallah. – Əbülfət maddım-maddım onun-bunun üzünə baxa-baxa qalmışdı. Millət susurdu. Heç kimin ağlına gəlmirdi ki, belə bir sual versin, axı, qışın bu vaxtında bülbül adlı quşun buralarda nə işi var?!

Murad pəncərələri yoxlamasaydı da, hamımız bilirdik, elə Əbülfət də biz qarışıq, bilirdik ki, bu, elə-belədən deyil. Bu qədər adamın hamısının birdən-birə qulağına eyni səs gələ bilməz. Quş, həqiqətən, bir az əvvəl oxuyurdu. Var idi bülbül, yox idi bülbül, bilmirəm, amma o oxuyurdu. Məqamın sirri vardı. Səsindəydi. Bir müddət hamımız susub qaldıq.

Nəhayət, Mətləb vahiməli, sirli məqamlardan ki qorxurdu:

– Yaxşı, ay Rüstəm, – dedi, – mən səninlə razı. Bütün nə danışmısan, hamısına inanıram. İranı qoyaq qalsın bir tərəfə. Zakirdi də, ağzına nə gəlir deyir. Bəs bu iki gündə bu adam acıyıb eləmirdi heç? Ac-acına üzürdü?

Mən əlüstü bildim ki, Mətləb, nəhayət, bu sualı verməklə, əslində, məqamın sirrindən diksinib qaçmaq istəyir, bizi əvvəlki əhvala qaytarmaq istəyir.

Rüstəm kişi isə sakitcə bir kənarda oturub mürəbbə ilə çay içə-içə, elə bil, bu sualı gözləyirdi:

– Yaxşı sualdı. – Rüstəm kişi qalib bir ədayla dilləndi, çünki, əvvəla, hamı kimi o da bülbülün səsini eşitmişdi və bunu, nədənsə, bayaqdan bəri dediklərinin ən yaxşı sübutu kimi qəbul edirdi. Ona görə də artıq Qaaqa məhkəməsinə heç bir ehtiyac qalmamışdı. İkincisi, Rüstəm kişi bu suala bülbülsüz də hazır idi. Mənə elə gəlir ki, bu cür suallar, yəqin ki, çayxanada da tez-tez səslənir. Baron Münhauzen otaqda sükutun bərqərar olmasını səbrlə gözləyib bir bölük cahilə, yəni, bizə bu dəfə azacıq da olsa gizlətməyə lazım bilmədiyi açıq-aşkar bir istehza ilə belə cavab verdi:

– Deməli, belə. Görənlər danışır ki… mən görməmişəm, görənlər danışır. Qədiməli kişi, Allah ona rəhmət eləsin, uzun bir vədəylə dənizə çıxanda özü ilə evdən bir qazan bozbaş götürərmiş. Bu adam bozbaş qazanı qarnının üstündə üzərmiş. Acanda da bu bozbaşdan yavaş-yavaş yeyərmiş… Bunu mən demirəm. Çayxana əhli deyir. Bunu bütün kənd bilir.

*2015-ci il*

# Köhnə məhlə

Günlərin bir günü bizim bağda Rüstəm kişi bərk içkili idi. Dili-ağzı söz tutmurdu. Nə ayaq üstə dura bilirdi, nə də oturduğu yerdə oturub qala bilirdi. Hamımız axşamçağı oturub yemək zamanı bir qədər araq içdik. Rüstəm kişi ciyəri yanırmış kimi, qədəh qədəh dalıycan dalbadal içdi. Çox keçmədi, az keçdi, içki onu tutdu. İçkili olduğu zaman adətən xeyli sakit olardı, indi isə dil boğaza qoymurdu. Onu sakitləşdirmək istəyən hər kəsə güclə də olsa gülümsəyib belə deyirdi:

— Sən elə bilmə, mən içkili deyiləm. Qətiyyən! Məni içki tutmur, bunu bütün Bilgə bilir…

— Bilirik, əlbəttə, biz də bilirik…— Hərəmiz bir tərəfdən, onu qucaqlayıb heç cür divana oturda bilmirdik.

— Yooox!.. Oturmaq istəmirəm mən. Mən şəhərə, köhnə məhləmizə getmək istəyirəm!!

— Hara, hara?? – Biz təəccüb içində qaldıq.

— Köhnə məhləmizə. Məni Petra Montinə aparın daaa, nolar? – Bütün uşaqlığını, gəncliyini həmən Petra Montində, Təzə Pirin altındakı

məhlədə keçirmiş Rüstəm kişi gözləri axa-axa bizə az qala yalvarırdı. Artıq gecə düşmüşdü. Bir-birimizin üzünə çiyin çəkib təəccüblə baxmaqdan başqa nə edə bilərdik?! Nəhayət, biz onu divana otuzdura bildik.

— Ay Rüstəm, gecənin bu vaxtı? Nə itirmisən sən o köhnə məhlədə? — Əbülfəz məqama qəti dəxli olmayan məntiqi tərəfdən məsələyə yanaşmağa çalışdı, keçib Rüstəm kişinin sağ tərəfində oturdu.

— Həri, Əbülfəz, həri. Gecənin bu vaxtı!

— Otur, sən hələ bir otur, bu çayı iç…— Muxtar əli əsə-əsə Rüstəm kişiyə tünd bir çay gətirdi.

— Muxtar, bunlar bilməsə də sən ki, bilirsən. Sən axı bilirsən, Muxtar, məni içki tutmur…— Rüstəm kişi Muxtara qınaqla baxıb başını buladı, kövrəlib ağlamsınandan sonra həzin-həzin sözünü tamamlamağa çalışdı.– Sən axı bilirsən, ay Muxtar, sən axı bilirsən…

Uşaqlıqdan ta ki külfət sahibi olana qədər Muxtar Rüstəm kişini nəhəng bir maqnit kimi özünə çəkən həmən köhnə məhlədə onların qapıbir qonşuları olmuşdu. Uşaqlıqları, demək olar ki, bir keçmişdi. İndi Rüstəm kişinin bu halına biz məzələnib zarafata salsaq da, Muxtar bizdən fərqli ürəkdən dilxor olmuşdu. Rüstəm kişinin durmadan dediyi «sən axı bilirsən…» sözlərinin əsl mənasını anlayan deyəsən, elə təkcə Muxtar idi, çünki bu sözlərin artıq içki ilə heç bir əlaqəsinin olmadığını hamımız, kimi tez, kimi Əbülfəz kimi gec, biz də anladıq.

— Bu çayı iç, Rüstəm… – Muxtar özü də artıq hansısa kədərli xatirələrin içindən güclə boylanırdı.

— Elə çıxır ki, Muxtar, mən bu dünyada ən avam adam olmuşam…

— Heç elə çıxmır, nöyçün elə çıxmalıdır?! – Muxtar onunla bir uşaqla danışan kimi danışırdı. Hardansa bir adyal da çıxarıb çiyinlərinə atdı. – Bu adyalı sal çiynivə…

— Muxtar, Muxtar… Mən məhləyə getmək istəyirəm. Mən avam deyiləm, Muxtar.

— Bir az dincəl, gedərik. Çayı iç amma.

Muxtarın son sözlərini Etibar birbaşa başa düşdü. Həmən gün bağda bir maşın vardı, o da Etibarın maşını idi. Gediləcəkdisə, onunla gediləcəkdi.

— Gecənin bu vaxtı şəhərə getmək olar? Bir də ki, mən özüm də axı içkiliyəm. Mən gərək yatım, başım ayılsın…

Rüstəm dili dolaşa-dolaşa Etibarın bu son sözlərindən tutmadımı, tutdu, yenə də ağlamsındı:

— Etibar, ay Etibar, nolar, məni köhnə məhləmizə çatdır. Üç dəqiqə, çox yox, üççə dəqiqəlik işim var…

Etibar dilxor oldu:

— Mən bu halda şəhərə gedə bilərəm, Rüstəm? – Çox «məntiqli» bir sual verdi.

— Yaxşı, sonra, sonra… — Muxtar gizlicə Etibara göz vurdu ki, bu söhbətin yeri deyil.

— Bu yatmalıdır. Çalış, yat, ay Rüstəm… – Əbülfəz elmi kəşf edən adamlar kimi ciddi idi.

Məlik Validlə otağın ortasındakı stolun ətrafında oturub nərdə başları möhkəm qarışmışdı. Qulağının ucu ilə Əbülfəzin son sözlərini eşidib istehza ilə:

— Ay Rüstəm, nə istəyirlər, qardaş, bunlar səndən?! Sən bəyəm içkilisən? Mən bir şey hiss eləmirəm, — başını nərdtaxtadan ayırmayan Məlik nərdə davam edə-edə biz tərəflə də söhbət eləməyə başladı.

— Ay Məlik, sən ki, bilirsən məni içki tutmur.

— Bunu kim bilmir?! Bilgədə hamı bunu bilir ki… – Məlik zərləri əlinin içində əməlli-başlı cütləyib «atdı». Validi hirsləndirirdi. Bilirdi ki, Valid bu atışı saymayacaq, onu təzədən atmağa məcbur edəcək, bu dəfə heç nərdtaxtaya tərəf baxmadı, çönüb Rüstəmlə «söhbətinə» davam etdi:

— Hara getmək istəyirsən sən?

— Sən niyə zər atırsan?! — Valid əsəbiləşib bununla Məliki şadlandırmağı özünə rəva bilmədi, daxilən bir qəzəb içində olsa da, üzdə sakit-sakit dedi. — Elə götür bu zərləri, əlinnən necə istəyirsən qoy da.

— Rüstəm, demədin axı sən, ürəyin hara getmək istəyir? – Məlik etinasız bir halda Validin dediklərinə fikir vermədi. Onun öz adam hirsləndirmək üsulları var idi.

Yatanın yadına bilə-bilə daş salırdı. Muxtar əməlli-başlı Məlikə hirsləndi:

— Görürsən alçağı?! Yatanın yadına daş salır.

— Məlik…— Rüstəm yalvarış dolu səsiylə indi də Məliki yumşaltmağa çalışdı .

— Buyur, Rüstəm. Niyə siz bunu belə bərk-bərk tutmusuz, qaçacaq bəyəm bu?! Qoyun bir görək nə istəyir də?! — Məlik yalançı bir canyananlıqla bizə təpindi. – Buyur, Rustam bek.

— Sən nərdini oyna. Buraynan işin yoxdu. Qoy bir hövr dincəlsin. – Muxtar çay stəkanını Rüstəmin heysiz barmaqlarının arasına heç cür yerləşdirə bilmirdi.

— Məlik, ay Məlik. Məni apar da öz maşınınla köhnə məhləyə. Mən köhnə məhləyə getmək istəyirəm, axı, Məlik. Nolar?! — Rüstəmin gözləri süzülür, baxışları axırdı.

— Getmək istəyirsən, aparrıq. – Məlik bu sözləri elə inamla dedi ki, mən elə bildim, bu saat hamımız minirik Məlikin maşınına, bir yerdə gedirik köhnə məhləyə. Amma, onu tanımaq lazımdı, Məlik maşınsız idi, onunçün belə ürəkli danışırdı. Hərgah maşını burda olsaydı belə, içkili halında bu adam rulun arxasına ömründə keçməzdi.

— Məlik!.. Bəsdı! – Muxtar səsini qaldırdı.

— Rüstəm, qoy mən bu tası da udum qurtarım… həll edəcəyəm. Edəcəyəm dedim, deməli, edəcəyəm. Mən yoruldum bu adamı udmaqdan, bu uduzmaqdan yorulmadı. – Məlik başını onun zəvzəməsinin bitməsini səbrlə gözləyən Validə tərəf döndərdi, — düz oyna, hardaydı sənin bu daşın?..

Nərdin şaqqıltısı yenidən qulaq deşdi.

— Məlik… ay Məlik…

— Bir az gözünü yum, yat. – Muxtar az qala Rüstəmə yalvardı.

— Yatmaq istəmirəm, Muxtar. Mən məhləyə getmək istəyirəm. Mən o adamdan bir kəlmə söz soruşacağam, Muxtar. O adamdan… mən yatmaq istəmirəm… — Rüstəm kişi sözləri bir-birinə qatıb qarışdıra-qarışdıra dodaqaltı yenə nələrsə dedi. Biz bir şey anlamadıq.

Əbülfəz Etibara baxdı, Etibar mənə, mən də təzədən Əbülfəzə. Əlbəttə ki, Muxtarın bildiyi elə şey vardı ki, biz bilmirdik. «O adam» kim idi və Rüstəm kişi ondan nə soruşacaqdı?! Nərdtaxta oynayanların fikri nərddə idi, onlar bir şey duymadılar.

— Nə soruşacaqsan ondan, ay Rüstəm? – Hiyləgər Əbülfəzin səsi həlimdən həlim çıxdı.

— Nə alçaq-alçaq danışırsan sən?! Nəyinizə lazım nə soruşacaq?!

İki daşın arasında Əbülfəzin bicliyi işə düşmüşdü, Rüstəmdən söz çəkmək istəyirdi. Adətən sakit və həlimtəbiətli Muxtar lap hövsələdən çıxdı. Boyca və cüssəcə özündən iki dəfə böyük olan Əbülfəzin az qala nəfəsini kəsəcəkdi. Bu məqamda Muxtar öz balaca boyu ilə özündən üç dəfə böyük olan Etibarın da üstünə gedər, bir an belə düşünməzdi. Heç kim Muxtara söz qaytarmadı.

— İşiniz yoxdu bununla, qoyun bir özünə gəlsin. – Muxtarın bu dəfə səsində anlaşılmaz kədərli çatlar duyuldu. – Heç nə soruşmayacaq, siz arxayın olun. Bu, bir az yatsa, yaxşı olar.

— Muxtar, sən məni düzgün başa düş, qardaşım. Bu vaxtı şəhərə maşın sürmək… olmaz. – Etibar, nədənsə, başladı Muxtara izahat verib bəraət qazanmağa.

— Başa düşürəm, heç ehtiyac da yoxdu maşın sürməyə. Siz danışmayın, sakit olun, bir azdan yadından çıxacaq.

— Muxtar! Məni deyirsən? Mənim yadımdan çıxacaq?! Mənim hər şey yadımdadı, Muxtar. Heç nə, heç zad… mənim yadımdan… əsla!.. Mən məhləyə getmək istə… — Sözünün axırını yenə başa düşmək olmadı. Rüstəmin başı yana əyildi, əlindəki çay stəkanı yerə düşüb sındı, ləzzət elədi, çay Əbülfəzin üstünə töküldü. Hamı səksəndi və gülüşdü.

Valid başını nərddən ayırmadan bir əlini yuxarı qaldırıb muradına çatmaq istəyən, amma çatmayanlar kimi peşimanşılıq çırtığı çaldı. Zər verməmişdi.

— Uşaqlar… nolar, biriniz məni… məhləyə çatdırın daa, nolar, uşaqlar… – Rüstəm kişi onun-bunun üzünə üzüntülü bir yalvarışla baxa-baxa artıq tutuquşu kimi ancaq bu sözləri deyirdi.

— Qorxmayın, qorxmayın, xeyirliyədi! – Nərd oynaya-oynaya biz tərəfi də nəzarətdə saxlamağa çalışan Məlikin səsi guruldadı. — Əbilinin köynəyi, gör, nə vaxtdı atılasıydı. Ay qardaşım, nə qədər yuyub geyərlər məktəbdən bu günə qədər bu kitayski bamazını, köynək süzülüb qalmışdı, indi atar onu, təzəsini alar qardaşım. Hələ bir dənəsini də mənimçün alar. – Kefinin kök olması səsindən, danışığından bilinirdi. Nərddə vəziyyəti, deməli, yaxşı idi. Əbülfəzdən çox, öz intonasiyası ilə Validə «əzab» verirdi.

— Həri, bu saat, səninçün əla bir köynək alacaq qərdeşin. Razmerin yadımdan çıxıb amma. – Əbülfəz bir əski ilə üstünün çayını təmizləyə-təmizləyə Məlikə cavab verdi. Xasiyyəti belə idi. Hər atmacaya hökmən cavab verməliydi.

Muxtar əyilib sınmış stəkan qırıntılarını yerdən bir-bir götürməyə başladı. Mən mətbəxdən süpürgə gətirib ona kömək eləmək istədim.

— Ver, ver bura, sən indi bu qırıntıları hər yerə yayarsan… — Muxtar süpürgəni mənim əlimdən dartıb aldı. Hirsini süpürgəyə salıb stəkanın qırıldığı yeri az qala qaşıya-qaşıya süpürdü, qırıntıları xəkəndaza yığdı, aparıb zibil yeşiyinə tökdü.

Otağın havasında hər şey əriməkdə idi. Artıq biz özümüz də ayaq üstə güclə dururduq. İçkili idik, həm də gecədən xeyli keçmişdi. Divanda yarıuzanmış vəziyyətdə qalan Rüstəm kişi bizi əldən salıb özü əməlli-başlı xəyallar aləminə dalmışdı. Ləzzətdən yarıyumulu gözlərilə ancaq özünün gördüyü bir vaqeəni seyr edirdi. Səsi gəlməsə də, hərdən yanıqlı-yanıqlı inildəyirdi. Ona baxanda adamın ürəyi ağrıyırdı.

Muxtar daha dözmədi, səndələyə-səndələyə gəlib Rüstəm kişinin düz başı üstündə durdu. Ona tərəf baxmasa da, Rüstəm kişi, elə bil, bunu hiss elədi:

— Muxtar, ay Muxtar… — deyə zarıdı.

Muxtar nə mənə, nə sənə, birdən-birə qolunu Rüstəm kişinin boynuna keçirdi:

— Qalx, qalxginən, gedirik.

Ən çox qorxan Etibar oldu. Çünki Muxtarın sözlərini həqiqət kimi qəbul elədi. Nəsə demək istəyirdi ki, Muxtar başı ilə ona işarə elədi: «Qorxma!»

Rüstəm kişi, üzündə yaralı bir təbəssüm, əli ilə Muxtarın çiynini qamarlayıb, heç kim gözləmirdi, dik ayağa qalxdı, qalib kimi bir-bir bizi süzdü.

— Gəl, Rüstəm, gəl… Çiynimdən bərk yapış…

Muxtar başladı yavaş- yavaş, ehtiyatla Rüstəm kişini otağın ortasındakı uzunsov stolun ətrafında gəzdirməyə. Nərdoynayanlar da əllərini nərddən çəkib oynamaqlarını saxladılar. Biz hamımz lal-dinməz olub stolun başına fırlanan bu iki nəfərdən — bütün ağırlığını cılız bədənli, gözləri yaşla dolu, dişini dişinə sıxmış Muxtarın çiyinlərinə salmış, bir-birinə dolaşan, ora-bura ilişən ayaqlarını arxasınca güclə sürüyən Rüstəm kişidən və onun ağırlığı altında ikiqat olub heç kimin üzünə baxmayan Muxtardan gözlərimizi çəkə bilmirdik. Muxtar hərdən dişlərinin arasından zorla bu sözləri çıxarıb, elə bil, uşaq başı aldadırdı:

— Məhləyə gedirik, ay Rüstəm, az qalıb, çatırıq… Çatdıq, bax, bu da məhlə… Görürsən, bu da köhnə məhləmiz… Bax, bax ora, görürsən, işıqları yanmır. Yəqin, evdə yoxdular. Başqa bir vaxt gəllik. Qayıdaq bağa, uşaqlar gözləyir, nigaran qalarlar, gecdi, qayıdaq.

Bir dövrə, iki dövrə, üç dövrə… Rüstəm kişi stolun ətrafına fırlana-fırlana gözlərini dörd açıb bizə baxır, gülümsər, mülayim bir baxışla başını ehmalca tərpədib salam verir, bizim balaca otağımızı birinci dəfə görürmüş kimi diqqətlə nəzərdən keçirirdi. Nəhayət, Muxtar Rüstəm kişini yenidən həmən divanın yanına gətirib əvvəl-əvvəl üsulluca öz yerinə otuzdurdu, sonra da onu divana uzandırdı. Rüstəm kişinin səsində artıq inilti yox idi:

— Muxtar, ay Muxtar, — Rüstəm kişinin səsi sirli bir şəkildə astadan gəldi. – Mən gördüm, ikinci mərtəbənin işıqları yanmırdı. Sən də gördün, Muxtar?

— Mən də gördüm. Yat, yat, Rüstəm.

— Mən dəm deyiləm a, Muxtar.

— Kim deyir ki, sən dəmsən?! Bütün Bilgə bilir ki, səni içki tutmur. – Üzü az qala maskaya dönmüş Muxtar belə bu sözləri deyərkən dodaqucu təbəssümünü gizlədə bilmədi.

— Həri… bunu bütün Bilgə bilir. Bunu düz dedin. Amma məhlə dəyişib, Muxtar. Məhlə çox dəyişib. Adamlar başqa olub. Ay gidi dünya… – Bunu deyib Rüstəm kişi dərindən bir ah çəkdi, gözlərini yumdu və daha danışmadı. On saniyə keçmədi, onun yoğun xorultusu otağı başına götürdü.

— Mane olmayaq. Qoy, yatsın. Durun, durun, çıxaq həyətə. – Məlik birinci ayağa qalxdı, əllərini yana açıb ləzzətlə gərnəşdi.

— Hara qaçırsan? Oyunu qurtar, sonra! – Valid onu buraxmaq istəmirdi.

— Sən necə gönüqalın adamsan?! — Məlik «əsəbiləşdi», yalandan əsəbiləşməyi vardı. — Gözüvün qabağında görmədin nələr oldu?! Görmürsən güclə yatızdırdılar bunu?! İndi biz durub tappatarap nərd oynayaq?! Guya ki, heç nə olmayıb?! Mən bacarmaram.

Aydın məsələ idi, zərin üzü dönmüşdü və Məlik oyunu uduzmaqdaydı, onunçün də əlinə fürsət düşmüşdü, cığallıq edib aradan çıxırdı.

Bir-birimizin dalınca həyətə çıxdıq. Səma artıq ağarır, ulduzlar orda-burda yavaş-yavaş əriyirdi. Payızın sonları olsa da hələ o dərəcədə soyuq deyildi. Tut ağacı axırıncı yaşıl yarpaqlarıyla sirli-sirli xışıldayırdı. Hamımız fikirli-fikirli siqaretə güc vermişdik. Nə o vaxt, nə də sonra bunu birimiz də boynumuza almadıq, amma ulduzların yavaş-yavaş əriməyə başladığı o səhər hər birimizin xəyalı öz köhnə məhləsinə uçub getdi. O məhlədə həyatımızin ən əziz günləri bir-birinə qısılmış balaca, əyri-üyrü evlərin qapısı ağzında qurulmuş zivələrdən təstim işarəsi tək ağ paltarlar kimi asılıb qalmışdı. Baxdıqca baxırdıq.

Əbülfəz qaşqabaqlı idi. Məlikin gözləri yol çəkirdi. Validin qaşları çatılmış, üzünə heç birimizə tanış olmayan təbəssüm qonmuşdu. Etibar dodaqaltı nəsə pıçıldayır, Muxtar siqareti sümürdükcə sümürürdü. Dinib-danışmırdıq. Rüstəm kişinin köhnə məhlədə kiməsə vermək istədiyi suallar

barədə, işığı gəlməyən ikinci mərtəbə barədə nə biz Muxtardan bir kəlmə söz soruşduq, nə də o bizə bir kəlmə söz dedi.

İçəridə rahat-rahat yatmağında olan Rüstəm kişinin isə yoğun xorultusunun səsi zəifləmək bilirdimi, bilmirdi.

*2012-ci il*

# Tumsuz nar

*Bilgəli Zülfüqar dayının xatirəsinə*

Yay olsun, qış olsun, bizim, yəni, bir neçə uşaqlıq dostunun əsas görüş yeri Bilgədə Rüstəmgilin evində olardı. Rüstəmin atası Zülfüqar dayı bu kəndin sinəsi xatirələrlə dolu, beyni yaşadığı illərin təcrübəsiylə yüklü, sayılan-seçilən ağsaqqallarından idi. Gənc yaşlarından "keşməkeşli" həyat yolu onu əvvəlcə türməyə, ordan alman müharibəsinə, özü də birbaşa ştrafbata, müharibədən sonra təzədən evə və yenə də qısa bir müddətdən sonra təkrar türməyə atmışdı. Biz Rüstəmin kiçik qardaşı rəhmətlik Aslanla məktəbin birinci sinfində oxuyanda ataları türmədə idi. Üç qardaş və bir bacını anaları dişini-dişinə sıxıb yarıac, yarıtox böyütdü. Bu minvalla günlər keçdi və biz doqquzuncu sinifdə oxuyanda Zülfüqar dayı axırıncı dəfə türmədən qayıdıb gəldi. Daha şəhərdə yaşamaq istəmədi, əsli ki, Bilgədən idi, onu tutmuş "bədliyin" ayağını sındırmaq fikriylə arvad-uşağını başına yığıb Təzə pirin altında Petra Montindəki evindən Bilgəhə, köhnə ata-baba evlərinə köçdü. Aslan o zaman evdən qaçmaq, köhnə məhlədə bir qohum-

larıgildə qalmaq istəyirdi, anası bizə, biz də ona yalvardıq, kəndə tez-tez gələcəyik deyə ona “kişi” kimi söz verdik, o da daşı ətəyindən tökdü. Zülfüqar dayı Bilgədə gül alverinə başladı – əkdi, becərdi, satdı, ailəsiylə yöndəmsiz, darısqal ata-baba evində yaşaya-yaşaya elə onun yanındaca yeni, ikimərtəbəli gözəl bir ev tikdi.

Beləcənə, biz dostların bir ümumi bağ evimiz göydən, necə deyərlər, zənbillə düşdü.

O zamanlar Bakı kəndlərində həyətdə parnik salıb gül əkmək təzə-təzə dəbə düşürdü. Qərənfil Sovetlərin böyük-böyük şəhərlərinin bazarlarında bir göz qırpımında satılıb qurtarardı. Qərənfilçiləri daim malla təmin eləmək üçün xüsusi gül aparıb – gətirən dəstələr var idi. Bu adamlar həyətləri bir-bir gəzib qərənfilləri həyət sahibindən hələ butaykən alardı, əvvəlcədən pullarını verib rahatçılıqla yaxın, uzaq qürbət şəhərlərin bazarlarında gül satanlardan sifariş gözlərdilər. Zülfüqar dayı etibarlı mal yiyəsiydi. Müştərisi əskik olmazdı. Əlinə yaxşı pul gəlməyə başladı.

Arıq, ucaboylu, ovurdları batıq, hərəkətləri tənbəl, gözləri isə civə kimi daim hərəkətdə olan Zülfüqar dayı bir az da Qarabağın pambıq bəylərini xatırladırdı. Qərənfil işi çox əziyyətli iş idi. Parnikdə gülə baxmaq, böyütmək, qurdunu təmizləmək, gübrəsini vaxtlı-vaxtında vermək, bir söz, nazını çəkmək asan deyildi. Həyətdə həmişə fəhləsi olardı. Fəhlələrlə bir yerdə böyük oğlu Rüstəm də qan-tər içində əlləşərdi. Zülfüqar dayı ikimərtəbəli, təzə tikdirdiyi evinin hələ rəng çəkilməmiş balkonunda oturub rəhbərlik edər, sağa-sola göstərişlər verərdi. Bir də pul işinə özü baxardı. "Bədliyin" ayağını sındırmışdı. Təzə ikimərtəbəli evi tikdirib qurtarmış, Aslan üçün maşın da almışdı… Əslində, maşını, şişirtmək olmasın, bizim üçün – Aslanın dostları üçün almış da sayıla bilərdi. Aslan maşını sürürdü, biz də maşının kefini sürürdük.

Hər dəfə Bilgəhə, onların evinə gələndə adətən qaşqabaqlı Zülfüqar dayı bizi dodaqlarının ucuna qonmuş zərif (və zəif) təbəssümlə qarşılardı – bu, heç mənim yadımdan çıxmaz. Həqiqətən də, ürəyində çox sevindiyini ("oğlunun dostları qonaq gəlib") hamımız hiss edirdik. Ürəyində həm də onunçün sevinirdi ki, bizim gəlməyimizlə müharibə xatirələrini bir daha

danışmaq üçün əlinə fürsət düşürdü, beynində isə bu zaman o, məncə, belə fikirləşirdi: "Nə əhvalat danışsam, bunlar udacaqlar, əsl mənim malımdılar".

Biz – onun "malları" Bilgəhdəki bu evin qapısından öz evimizə girən kimi ərklə girərdik. Yeməkdən yeyib, çaydan içə-içə onun bizə "sırıdığı" əfsanələri həqiqət adı altında, guya ki, mal kimi yeyərdik. Sonra da analiz edib gülməkdən az qala ölərdik.

– Aton bizi lap hərif sayır, xəbərin var?! – Bir dəfə Əbülfət gülməkdən uğuna-uğuna Aslana dedi.

Biz tez ətrafa boylandıq. Bu adam danışığını haçan bilmişdi ki… Yaxşı ki, kişi eyvanda yox idi.

Ağıldankəm Zakir onun dediyinə belə bir düzəliş verdi:

– Əsas məsələ qarnımıza yediyimizdir, beynimizə yediyimiz deyil.

Bu isə artıq "dəlidən doğru xəbər" idi.

Belə gəliş-gedişlərin birində mənim ağlıma hətta belə bir fikir gəlmişdi ki, biz axı, deyəsən, Bilgədəki bu evə Aslandan, Rüstəmdən daha çox Zülfüqar dayını görməyə, onun ağlasığmaz tarixçələrinə, müharibədəki sərgüzəştlərinə qulaq asmağa gəlirik.

Söhbətdən sonrakı əsas işimiz nəydi – nərd oynamaq! Zülfüqar dayının azarı Mətləbi nərddə udmaq idi, di gəl, bunu bacara bilmirdi. Mətləb hər dəfə Bilgədən qucaq dolu qərənfillə qayıdardı. Tası beş qərənfildən oynayırdılar.

Bir gün iki-üç saat nərd oynayandan sonra Zülfüqar kişi növbəti məğlubiyyətindən sonra təzədən qızışdı. Mətləb isə heç nə olmamış kimi:

– Bəsdi, Zülfü dayı, yoruldum, başım ağrıdı. Mən qoy bir stəkan çay içim, özümə gəlim, – deyə stolun arxasından durdu, qollarını gen açaraq gərnəşdi, geniş eyvanda qalib pəhləvanlar kimi ora-bura gəzişməyə başladı. Bu, bir növ, "aradan" çıxmaq demək idi. Kişini od götürdü:

– Gör necə əlimi kəsir?! Görürsüz?! – Zülfü dayı daxilən bərk hirslənsə də bizə baxıb hirsini boğa bildi, – Ay uşaq, buna çay gətirin, – deyib nərdin daşlarını, hətta Mətləbin daşlarını da, yenidən taxtaya düzə-düzə səsləndi:

– Gəl görüm, gəl, bura Bilgədi, burda udub qaçmaq yoxdu! Cütdəyib udursan, mən sənə bir söz demirəm, sonra da qaçırsan?! Gəl, stəkannan atacaqsan zəri, gəl…

Mətləb, əlbəttə ki, yalandan özünü naza qoyub kişini haldan çıxarmaq istəyir, həmişəki kimi özündən üyüb üyüdürdü. Bu isə Zülfüqar dayını daha çox əsəbiləşdirirdi.

– Ay Zülfü dayı, sən mənnən bacara bilməzsən. Mən bu nərdin ustasıyam, sən axı arif adamsan, bunu bilirsən. Yox bir, "zər verir." Olmadı ki… Zər verər kimə? Zər verər oyunçuya!

– Gəl, gəl, indi görəcəyəm, sən necə ustasan, necə oyunçusan. Burdakıların hamısı görəcək.

– Kişiynən işiniz yoxdu, durun, durun, çıxın bayıra. Yallah, gedin, gecədi… – Aslan bizə göz vura-vura atasının tərəfini saxladı. Mətləbin uduğu qərənfillərə o da şərikidi, onunçün də bugünlük oyunun bitməsini istəyirdi.

– Hara aparırsan bunları?! Otur yerində! – Zülfü dayı hirsini Aslana tökdü. – Bilirəm, şəriksən onunla. …Ancaq bilsin! Bu həyətdən udub getmək olmaz. Səhərəcən oynayacaq. Qayıt, qayıt!..

– Gecdi, qoy uşaqlar getsinlər. Bəsdi oynadın. Sabah yenə gələllər. – Rüstəm şirin-şirin danışaraq məsələni həmişə olduğu kimi sülh yoluyla həll eləmək istədi.

Zülfüqar dayı böyük oğlu Rüstəmin sözünün üstünə heç vaxt söz deməzdi, odur ki, indi də içində partlaya-partlaya nərdtaxtanı hirslə bağladı, üzünü yana çevirərək dedi:

– Get, üstlərində dur, bax ki, artıq gül dərməsinlər. Necə ki dedim: düz otuz dənə!!

Mətləb balkondan təşəxxüslə, əsl müharibə qalibləri kimi düşə-düşə yastı-yastı dedi:

– Olmadı ki, Zülfü dayı. Otuz beş dənə! Əlimi niyə kəsirsən?! Yeddi tas udmuşam. Hərəsi eləyir beş qvozdika, cəmi də eləyir otuz beş. Artıq gül mənə bir dənə də lazım deyil. Mən təmiz adamam…

Kişi artıq hirsini unutmuşdu, amma Mətləbin sözlərindən çox, bu sözlərin "günahsız" deyiliş tərzindən yenidən alovlandı:

– Otuz dənədən bir dənə də artıq olmaz!! Axırıncı tası saymıram, oyun yarımçıq qaldı. Gələn səfər zəri stəkanda atacaqsan! Görüm necə cütləyəcəksən?!

– Neyçün axırıncını saymırsan? Açıq-aydın mars idi dəəə. Gərək axıreycən mən zər atıb oynayaydım, sən də dayanıb baxaydın?! Mənə deməzdilər, bunun başı xarab olub, özü-özüynən nərd oynayır?! – Mətləb kişini hələ də haldan çıxarmaq istəyirdi. Amma yox, alınmadı, Zülfüqar dayının hirsi duman kimi uçub getdi, dodağının ucuna yenə həmənki zərif təbəssüm gəlib qondu.

– Ay Zülfü dayı, bu, ömür boyu cığaldı. Cütləyir, bu adam, özün ki, bilirsən, xeyri yoxdu, öyrəncəli barmağa nə tövbə, stəkanın içində də cütləyəjək. – Mən guya situasiyanı yumşaltmaq istəyirdim, amma öz ölüvay qvozdika payımın hayında olduğum üçün bunu deyib Mətləbə göz vurdum. O isə… neyləsə yaxşıdı?! Mənə tərəf dönüb elə baxdı ki, guya, onu təhqir etmişdim:

– Mən stəkanın içində zər jütləyirəm?! Nolar?!

Bu o demək idi ki, sənə bu gün qvozdika düşmür. Aydın məsələdi, razılaşmanı pozmaq üçün bəhanə axtarırdı, tapdı. Eybi yox, mənim də öz kontr-arqumentim var. Vecimə də almadım.

Əsl mərəkə evə qayıdanda Mətləbin maşınında düşdü. Gülləri çoxbilmişliyindən bizdən uzaq yerdə, maşının baqajnikində gizlədib rahat-rahat maşını sürən Mətləb, təbii ki, nə Murada, nə Zakirə, nə mənə, nə də bir kəlmə ilə də olsun, bu mərəkədə iştirak etməyən Vahidə gül vermək istəmirdi. Bu hələ azdı, maşın sürə-sürə bizi hələ bir ələ də salırdı:

– Sizin heç birinizə gül düşmür. Bəlkə üç dənə qərənfil Vahidə verdim. O da bəlkə. Əgər özünü yaxşı aparsa… – O, gözaltı Vahidə nəzər saldı.

– Mənə heç nə lazım deyil. – Mətləbin yanında az qala ədavətlə oturmuş Vahidin sözləri çox kəskin səsləndi. O, qaşlarını çataraq gözlərini qabaq pəncərədən zülmət gecənin bilinməz bir nöqtəsinə dikib qalmışdı.

– Hayıf! Sən orda kişinin dörd qoşasını çahar-sə deyəndə mən sənin yalanını çıxarmadım. Gərək çıxardaydım. Eybi yox, sən görərsən gələn səfər. – Arxada mənə qısılmış Əbülfətin səsi bir az yuxulu gəldi. Mürgü vura-vura danışırdı. Əbülfətin adətiydi, həmişə sonradan Mətləbə etdiyi yaxşılıqlar üçün peşman olurdu.

– Əlbəttə, lap düz deyir Əbülfət. O görəjək gələn səfər. Hökmən görəcək. Bu günün sabahı yoxdu, var! – Vahlid yenə zülmət qaranlıqdakı həmən məchul nöqtədən gözlərini ayırmadan kinayəylə, acı-acı dilləndi. Zakir nə mənə, nə sənə, bərkdən "ha-ha-ha" eləyib güldü. Hamımız diksindik.

Mətləb hərdən altdan-altdan zənlə Vahidə baxırdı. O, nəyə eyham vururdu, Mətləb də, biz də yaxşı başa düşürdük. Zülfüqar kişinin digər əsas rəqibi həmişə Vahid olardı. Vahid də Mətləb kimi kişini asanlıqla udurdu, amma bunu şişirtmədən, məzələnmədən edirdi. Pambıqla baş kəsirdi. Vahidin aramızda ləqəbi vardı: "qəddar"! Əlbəttə ki, bu günün acı təjrübəsini Vahid heç zaman unutmayacaqdı və onun Rüstəm kişi ilə oyun seanslarında Mətləb bir də heç vaxt gül üzü görməyəcəkdi.

Bir müddət qulağımıza anjaq maşın motorunun səsi gəldi.

– Yaxşı da, ay Əbülfət, sən düz adamsan axı, dörd qoşanı haçan gördün? Bəlkə gözüvə göükübü?! Çahar-cə. Yadında saxla: çahar-sə. Məndə səhv olmur. Məndə bir dənə səhv tapan adama mən premiya verərəm. Yaxşı, sənə də üç dənə gül. – Mətləb diqqətlə gözucu Vahidə baxıb açıq-aşkar ona acıq verir, arada bizimlə məzələnirdi.

– Apararsan o üç dənə gülü bazarda satarsan, qatıq alıb sürtərsən başıva. – Əbülfətin yuxusu qaçdı, səsi qəzəbli çıxdı. Əllərini ki, güldən üzmüşdü, onunçün belə cəsarətlə arxasındakı körpüləri yandırırdı. Qanı əməlli-başlı qaralmışdı. Mən belə başa düşdüm ki, bunun sabah kiminləsə görüşü var, güllər onun üçün çox vacibdir. Zakir yenə xapdan "ha-ha-ha" elədi və xapdan da səsini kəsdi.

Mətləb bəyəm bunu bilmirdi, yaxşı bilirdi. Yerini rahatlayıb söhbətin istiqamətini dəyişdi:

– Bu birisi hələ bir gör nə deyir?! Mən guya zərləri stəkanın içində cütləyirəm. Sağ ol, vallah. – Eyham mənə aid idi. – Siz hamınız Zülfü dayıya "balet" edirdiz…

– Yaxşı, nə deyirəm ki, vermək istəmirsən, vermə. – Mən də əlimi gül payından üzüb məsələyə başqa tərəfdən – açıq-aşkar şantaj yoluyla yanaşmağa qərar verdim. – Mənim sənə borcum nə qədər idi?

Mətləb səksəndi:

– Onun bura nə dəxli var?

– Var dəxli, böyük dəxli var…

Yenə bir müddət maşın motorunun səsini eşitdik.

Mətləb fikrə getdi, maşını sürə-sürə yaranmış "problemin" xeyirli və zərərli tərəflərini beynində götür-qoy edib, nəhayət, nəticəsini çıxardı, başa düşdü ki, güllərin hamısını "mənimsəyə" bilməyəcək, hökmən bölüşməlidi, artist kimi birdən hirsindən "partlamadımı, partladı":

– Sizin başınız xarab olub? Siz zarafat-zad başa düşmürsüz?.. Bu nə söhbətdi edirsiz? Mən sizdən gül gizlədəcəyəm?! Zakir, sən də bunlara inanırsan?

Zakir çaşıb nə deyəcəyini götür-qoy edincə Muraddan da, nəhayət, səs çıxdı:

– Gizlətsən, yaxşı cayıl olmazsan ki… – Bayaqdan bəri susan Muradın bu sözlərindən sonra biz hamımız, hətta Vahid də, uğunub getdik. Maşın şəhərə çatdı.

…Bu sözün – "yaxşı jayıl olmazsan!" sözünün öz tarixçəsi vardı. Zülfüqar dayının yanında həmişə onun bir köhnə dostu olardı. Kişi onu iş dalıyca göndərərdi. Kəndin bütün xəbərləri bunda idi, kimi desəydin, barəsində hər şeyi bilirdi. Cin kimi adam idi. Adı Əzizağa idi. Bir dəfə balkonda oturub çay içdiyimiz yerdə ağlıma nə gəldisə, dərindən, hərtərəfli düşünmədən Zülfü dayıya nə mənə, nə sənə belə dedim:

– Ay Zülfü dayı, biz ki bu yolu şəhərə gedib-gəlməkdən lap əldən düşdük. Bizə bu tərəflərdə bir bağ yeri tapsaydın, alıb qonşu olardıq…

Zülfü dayı qoymadı, mən sözümü bitirim:

– Əzizağa! – səsləndi.

– Bəli, eşidirəm. – Əzizağa stulunu yaxına çəkdi.

– Gör, uşaq nə deyir. Buna bir bağ yeri tap. Yaxında bir şey var?

Əzizağa əlini atıb gündən qaralmış çirkli boynunun dalını qaşıdı, sonra gözlərini həyətin hasarının üstündən ora-bura dolandırıb cavab verdi:

– Var, bu yaxında bir dənəsi var. Həmidağanın qardaşının yeridi. Satır.

– Deginən Həmidağaya, mənə simsar adamlardı, qiymət məsələsində yuxarıdan getməsin.

Əzizağa bizim, xüsusilə də, mənim bu işə marağımın ciddi olduğunu görüb bağı tərif eləməyə başladı. Onun dediklərindən belə anlaşıldı ki, satılan bağ yeri, həqiqətən, yaxşı bir yerdir, iki göz istəyir, tamaşa eləsin. Düzdü evi yoxdu, amma hasarı, quyusu, meynə ağacları, tutu… Əladı, əla.

– Əzzağa, – mən müdaxilə etdim. – Bu yerin sahibini deyirsən ki, yaxşı tanıyırsan, belədi?

– Həri, həri, belədi. Zülfüqar da onu yaxşı tanıyır. Bizim adamdı.

– Qiymətini danış, bir-iki günə biz də gələk, bağa baxaq. Olar?!

– Olar, olar, neyçün olmasın?! Nə vaxtı istəyirsən, o vaxtı gəl.

Doğrudan da, maraqlı variant idi. Mən uşaqlarla baxışdım. Aslan başı ilə "xeyir-dua" verdi.

Mən bir az da ürəkləndim. Üzümü yenidən tutdum Əzizağaya, bu dəfə qətiyyətlə dedim:

– O adama deynən ki, bağın sənədlərini hazırlasın.

– Həri, həri, deyərəm. Hər şey hazırdı… Sən hansı sənədlərdən danışırsan? – Əzizağa ani sükutdan sonra sidq-ürəklə təəccüb etdi.

– Əzizağa, bazardan alma, fındıq almırıq ki biz. – Mətləb söhbətə qarışıb səbrlə ona izah etməyə çalışdı. – Həmidağa bağ satır, bu da pul verir. Sənəd verilməlidi, ya yox?!

Əzizağa fikrə getdi. Bir müddət bundan səs çıxmadı. Hamımız susduq. Zülfüqar dayı da bizimlə bahəm səbrlə Əzizağanın nə cavab verəcəyini gözləməyə başladı.

– Noldu, bir çətinlik var? – Vahid barmaqlarını şaqqıldadaraq Əzizağadan soruşdu.

– Yoox, nə çətinlik... Amma mən biləni bağın sənədi-filanı yoxdu.

– Necə yəni, sənədi yoxdu? Bəs alqı-satqını necə edəjəyik? – Mən bu sənəd söhbətindən sonra həvəsdən düşməyə bəhanə axtarırdım.

– Sən xətircəm ol. Ver puluvu, al bağıvu.

– Bəs birdən mən bu bağda ev tikmək istədim?..

– Tik! Kim sənə söz deyə bilər?! Tik evini, yaşa. Heç kim sənə bir söz deyə bilməz. Biz burda döyülük bəyəm?! – Əzizağa şəstlə Zülfüqar dayının üzünə baxdı. Zülfüqar dayı ağır-ağır başını tərpədib onun dediklərini təsdiq elədi.

– Əzizağa! Həmidağanı hamımız tanıyırıq, deyirsən. Çox gözəl. Yaxşı, bəs birdən on ildən, iyirmi ildən, əlli ildən sonra, sən də, mən də bu dünyada olmayanda bunun uşaqları, nəvələri gəldilər mənimkilərin yanına ki, bəs biz sizi tanımırıq, bu bağ yeri bizim babamızındı, bu da sənədlərimiz, çıxın burdan. Onda necə olacaq?

Əzizağanın gözləri nifrətlə qıyıldı:

– Onda onlar yaxşı cayıl olmazlar ki…

Biz bir neçə an çaşıb qaldıq. Sonra sözləşmiş adamlar kimi hamımız birdən qarnımızı tutub gülməkdən uğunub getdik. Zülfüqar dayı hətta bizə baxıb o da bığaltı qımışdı. Ay səni, Əzizağa!.. Sən gəl, mənim bir ətək pul verib aldığım bağı geri tələb elə, əvəzində nə az, nə çox, yaxşı cayıl olma. Ürəkdən tikən çıxmazmı, çıxar. Əzizağa bizə təəccüblə baxır, heç cür başa düşə bilmirdi ki, bizim hamılıqla bu cür ürəkdən gülüşüb qəhqəhə çəkməyimizə səbəb nədir?!

…Bu "yaxşı cayıl" söhbətindən uzun müddət sonra mən, nəhayət, öz köhnə arzuma çatdım, kəndin bağ yerində balaca bir sahə aldım. Zülfüqar dayı özü də bir gün maşına minib gəldi, bir xeylaq bağın ora-burasına baxıb xeyir-duasını verdi. Gedərkən dodaqlarının ucunda haman o zərif təbəssüm əlində gətirdiyi qəzetə bükülü bir ağac parçasını mənə uzatdı:

– Sən… çox gözləmə… – Kişi artıq düşmüşdü, tez-tez təngnəfəs olurdu, odur ki, aramla danışırdı. – Ağacları əkdir... Payızın axırı əsl vaxtıdı. Mən sənə… bir dənə nar çubuğu gətirmişəm. – Bundan, biləsən, heç kimdə yoxdu…

"Ay Zülfü dayı… Necə yəni, heç kimdə yoxdu?!"

– Sənə deyirəm, heç kimdə yoxdu, deməli, yoxdu! Bu nar tumsuz nardı. Bu sortun dənəsində tum olmur. – Zülfüqar dayı mənim beynimdən keçənləri əlüstü "oxudu".

Mən daha dözmədim:

– Ay Zülfü dayı, ay Zülfü dayı, day bu boyda da yox da… – Gülməyimi isə güclə saxladım. Hayıf, bizim uşaqlar burda deyillər.

Zülfüqar dayı daha danışmadı. Dodaqlarında haman təbəssüm gözlərini qıyıb mənə bir mənalı baxış atdı, həyətdən çıxıb qapıda onu gözləyən maşına ağır-ağır minərkən:

– Sağ ol, özündən muğayat ol, – dedi.

Zülfüqar dayı həmən payızın axırlarında bu dünyadan köçüb getdi. Son nəfəsini verərkən, sayıqlayıb nə barədəsə marşal Jukovla mübahisə edirmiş. Bu kişinin məzəli, ağlasığmaz söhbətləri üçün biz bu gün də darıxırıq. Bilgə kəndinin Baron Münhauzeni o qədər fantastik əhvalatlar bizə danışmışdı ki… Türmə həyatından, "vor zakonlardan", ştrafbatdan, müharibə vaxtı qarovulda durarkən Jukova güllə atmağından…

Zülfüqar dayının mənimlə son söhbətini də onun növbəti (təəssüf ki, sonuncu) məzəsi kimi qəbul edib bu barədə dostlara nanə-turşusu ilə danışdım. Xeyli gülüşdük. Biz onu ancaq bu cür – gülə-gülə yad edə bilərdik.

Ən çox gülən Mətləb oldu:

– Ay səni, Zülfü dayı… Necə deyib? Tumsuz nar?.. Kişi fantazyordu da…

Vaxt tez keçir, vaxt keçdi. O nar ağacı böyüdü və ilk meyvələrini böyük bir səxavətlə gətirdi. Mən hər dəfə o ağaca baxanda qəlbimə qəribə və anlaşılmaz bir qüssə qonur. Nəyinsə qəribçiliyini çəkirəm. Siz inanmayacaqsınız, amma o ağacın narının dənəsində, Zülfüqar dayı deyən kimi, həqiqətən də, tum olmadı. Şirin nar dənəcikləri adamın ağzında rahat-lukum kimi əriyirdi. Biz hamımız mat-məəttəl qalmışdıq.

*2015-ci il*

# Uca qaya başında

Günlərin bir günü biz ayrılmaz dostlar bağda oturub səssiz-səmirsiz, hərə öz fikrində, zoğal mürəbbəsi ilə çay içirdik.

Nə oldu, nə olmadı, niyəsini, nə üçününü biz bilmədik, elə sakit-sakit oturduğu yerdəcə Rüstəm kişinin gözləri qıyıldı, xəyalı uzaqlara uçmuş şəkildə, ahəstə və bir az da sirli səslə bizdən soruşdu:

— Möcüzə istəyirsiz, sizə bir möcüzəli əhvalat danışım?! Sonra da bizim cavabımızı gözləmədən Rüstəm kişi bu əhvalatı danışmağa başladı. Günlərin bir günü qonşu kəndlərin birində, kəndin adını nə o dedi, nə də biz soruşduq, dənizin qırağında bir uca qayanın başında bir arvad, çox yaşlı bir arvad, səsini başına atıb qışqırırmış:

— Ay aman, ay aman, qoymayın, ay camaat, yetişın, imdad! Xilas edin!..

— Nolub, ay arvad, səsini niyə atmısan başına? –Yaxınlıqda kimlərdisə iş görürmüş, kisələrə qum yığırmışlar, aralarında bu arvadı tanıyanlar olub, işlərini saxlayaraq bir-birinə göz vura-vura buna üz tutub soruşublar.

— Zorlayırlar! Zorlayırlar!!! Ay aman!!! Xilas edin! And verirəm sizi on iki imama, xilas edin məni! – Arvad ağappaq saçlarına, qırışıq üzünə-gözünə əl atır, batıq səsini daha da ucaldır, haray-həşirindən qalırmı, qalmır. Adamlar gülüşüb bunun dediyinə inanmırlar:

— Biz səni yaxşı tanıyırıq, ay Səkinə arvad. Sənin ən azı səksən yaşın var. O hansı axmaqdı, sənə tamah salıb? Niyə qışqırırsan, sən onu söylə.

Qurbağa gölünə daş atırlar. Bir ara arvad tərəfdən səs-səda eşidilmir, Səkinə arvadın özü də qayanın arxa tərəfinə keçib gözə görükmür.

— Noldun sən, səsin niyə bəs kəsildi?! – İşlərinə davam edən adamlar yüngülcə gülüşərək soruşurlar. Amma qayalıqdan yenə də səs gəlmir. Nəhayət, bir belibükük qoca arvad bu uca qayanın arxasından ah-zarla çıxıb üst-başını cırpa-çırpa, qara həşyəli yaşıl tumanını gömgöy damarları çıxmış əliylə hamarlaya-hamarlaya, yanını basa-basa, asta addımlarla qum yığan bu adamlara tərəf gəlməyə başlayır. Onun bir əlində qırmızı yaylıq varmış. Bu dəfə o qışqırıb eləmir. Heç kimin üzünə baxmadan dəniz qırağının qumunu bellə kisələrə yığan adamların yanından sakitcə, başıaşağı ötüb keçir. Amma gedə-gedə dodaqltı mırıldanıb öz-özünə belə deyir:

— Qoymazlar ki… qoymazlar, adam olub-keçənləri yada salsın, mərdiməzarlar qoymazlar…

Adamlar yenə işlərinə ara verib dəsmalla boyunlarının tərini silir, dodaqaltı qımışıb mənalı-mənalı bir-birinin üzünə baxır və başlarını bulayırlar: «Ay səni, Səkinə arvad, oyunun olsun».

Səkinə arvadın olardı o zaman səksən-səksən beş yaşı. İndi dediyimə isə bəlkəm inanacaqsız, bəlkəm də inanmayacaqsız, amma bu, əsl möcüzədi, özü də həqiqətən olmuş əhvəlatdı, həri, vallah, çünki qum yığan fəhlələr bizim çayxanada bunu necə olub, elə də danışırmışlar…

Rüstəm kişi başını tərpədə-tərpədə özü-özünü təsdiqləyərək bu dəfə söhbətinə, nədənsə, hüznlə davam edir. Sən demə, Səkinə arvad kəndə gedən yolda hələ gözdən tam itməmiş həmən uca qayanın arxasından gənc, gözəl, yaşıltuman bir qız sıçrayıb çıxır. Qızın, elə bil, içi qaynayır, coşub-daşır, külək oynadan qara saçları dağınıq — tökülüb üzünə, çiyninə. Od-yalovdu, sanki.

Əllərini atıb bütün dünyanı qucaqlamaq istəyir, nədir?! Qaraçılar kimi oynaya-oynaya, qayalıqda qalmış kiməsə əlindəki qırmızı yaylığı yelləyə-yelləyə, çaşqınlıq içində ona baxan fəhlələrə heç bir fikir vermədən bu qız Səkinə arvadın arxasınca qaçır.

Səkinə arvada yetişməyə az qala ayaqlarını yerdən aralayıb irəli tullanır və bu dəfə havada qanad açıb ona doğru əməlli-başlı uçur, yetişincə arxadan onu bərk-bərk qucaqlayır və bu zaman cavan qız qoca arvadın içində əriyib yox olur.

Qum daşıyan adamlar onu da görüblər ki, gənc qızın indicə tərk etdiyi qayanın başında bu dəfə enlikürək, nazikbığlı, ortaboylu bir cavan oğlan peyda olub və bu qızın arxasınca baxa-baxa qalıb. O, peşiman bir halda əlini əlinə vururmuş, yəni, «vay səni», bəlkəm də qıza deməyə nəyisə unudub, kim bilir?! Səkinə arvad isə, elə bil, heç nə baş verməyib, taqətsiz əlində tutduğu qırmızı yaylığı dəniz tərəfdən yavaş-yavaş əsməyə başlayan xəzrinin ağzına verib yelləndirərək arxasına çönmədən, yanını basa-basa və hərdən də dodaqaltı deyinə-deyinə kəndə tərəf getməyinə davam edib…

*2012-ci il*

# Çil-çil toyuq

Əsl mərəkəydi. Toyuq-cücənin haray-həşiri həyəti başına götürməmişdimi, götürmüşdü. Onlara baxıb çəpərə qısılı qalmış pəyədə tənha qoyun mələyə-mələyə özünü ora-bura çırpırdı, amma ona fikir verən yox idi. Qaşları ciddi-cəhdlə düyünlənmiş arıq, inadcıl oğlanın əlindən canını götürüb həyəti qıy vura-vura neçənci dəfə yanpörtü dövrələmə qaçan, bəzən isə az qala qanad açıb uçan, uçan zaman həyətin ortasındakı qocalmaqda olan alma ağacının yerlə sürünən bir-iki budağına tüklərini yolduran Çil-çil toyuğun dəhşətli qaqqıltısı ətrafda pərən-pərən düşən bütün o biri toyuqların canına vəlvələ salmışdı. Hərəsi bir tərəfə dürtülüb bu anlaşılmaz müsibətdən canını qurtarmaq istəyir, başqa vaxt təşəxxüslə gəzib onlara gün-dirrik verməyən xoruzlar isə indi hamıdan qabaq sivişib aradan çıxırdılar. Amma xoruzlarla da heç kimin işi yox idi. Oğlanın gözünü qan tutmuşdu, nəydi, heç nə gözünə görükmürdü bir Çil-çil toyuqdan başqa. Niyə, niyəsini özü də bimirdi. "Nıx" dediyini deyənlər kimi eləcənə Çil-çil toyuğun dalınca belədən-belə, elədən-elə şütüyürdü.

Bu dəfə toyuğun dalınca boş, qara çəlləyin yanından yanakı qaçan yerdə müvazinətini saxlaya bilməyib dizi üstə yerə yıxıldı. Çəllək su çəlləyi

idi və həyətin arxa, tikənli çəpərinə sıxılmış quyunun ağzınacan gedən, ora-burasına çay daşı basılmış cığırın üstündə iki gün idi ki, böyrü üstə çevrilib eləcənə qalmışdı, götürüb kənara qoyan yoxdu. Çil-çil toyuq yenə bərkdən qaqqıldayıb çəlləyin üstündən "budurannı" quş kimi atılıb uçmadımı, uçub getdi düz quyunun ağzında ancaq yerə dəydi. Yerdən qalxıb qanadlarını çırpdı, heç nə olmayıbmış kimi sağa-sola əsl qəhrəmanlar kimi şəstlə gəzişməyə başladı. Həyatına bir az əvvəlki amansız qəsd təhlükəsini tamamən unutdu.

Vəliş yıxıldığı yerdən dikəlib ufuldaya-ufuldaya çəlləyin üstünə oturdu, özündən üç-dörd metrə o yanda, quyunun yanında ondan gizlənməyi ağlına belə gətirməyən Çil-çil toyuğa nifrətlə baxdı. Vəlişin dizi bərk sıyrılmışdı, amma yara ki, hələ isti idi, o qədər də bərk göynəmirdi. Hırsindən rəngi ağardı, dişini-dişinə sıxdı, "sən ki, məni beləcənə xınc elədin, sən toyuq ol, mən də mən, indi ölsəm də səni tutub bıçaq altına verəcəm." Vəliş bu dəfə, guya ki, hiyləyə əl atdı, ayağını çəkə-çəkə Çil-çil toyuğa oğrun-oğrun, yavaş-yavaş yaxınlaşmağa başladı.

– Fərasətin yoxdu, a bala, sənin fərasətin yoxdu, sən elə şeir dalınca şeir yaz. Bir ölüvay toyuğu tuta bilmirsən…

Nənəsi evin həyətə açılan aynabəndində Nuh əyyamından qalmış sevimli taxtında oturmuşdu. Bayaqdan onun toyuqlarla əlləşməsinə deyinə-deyinə tamaşa eləyir, hərdən başını "eh… hayıf, hayıf…" deyə yırğalayırdı. Çil-çil toyuq onun sevimlisi idi. Vəlişin bu boyda toyuq-cücənin içində məhz Çıı-çil toyuğu seçməyi, onun dalınca ora-bura qaçmağı Xeyransa arvadı xeyli pəjmürdə eləmişdi. Vəliş yaşlanmış, amma hələ canı sulu qalmış nənəsinin deyingən səsini aynabənd tərəfə baxmasa da qulaqlarında apaydın eşitdi və hikkəsindən bu dəfə üzünün rəngi qapqara oldu. Aralıdan onun halına baxan Xeyransa arvad daha dözmədi, yerindən dik qalxıb evin içinə keçdi. Hava sərinləyirdi.

Çil-çil toyuq Vəlişlə öz arasında bəlli bir məsafə saxlayırdı, yanpörtü baxıb Vəlişin hər bir hərəkətini izləyir, imkan vermirdi ki, Vəliş ona tutula biləcəyi məsafədən daha çox yaxınlaşa bilsin.

– Sən mənnən zarafat elirsən?! Gəl, gəl yanıma, səni tutub başını yavaş-yavaş kəsəcəm, elə rahat olassan, elə rahat olassan, gəl, gəl… – Vəliş çalışıb səsinin qorxulu çıxmaması üçün bu sözləri hətta gülməli bir nəvazışlə deyirdi.

Çiyninə qara, yun şalını salıb təzədən aynabəndə çıxan nənəsi bu dəfə bunları eşidib əli ağzında qalmışdı, yenə hayıfsılana-hayıfsılana başını yellədi.

Çil-çil toyuq Vəlişin bu hiyləsinə uydumu, uymadı. Vəliş nə qədər ehtiyatla ona yaxınlaşmağa çalışsa da, toyuq bayaq "qıy" vurub yenə Vəlişin ayaqlarının arasından sivişib çıxdı, uça-uça gedib bu dəfə məğrurcasına cigır üstdəki çəlləyin üstünə qondu. Ancaq indi Vəliş dizinin tam gücüylə göynəməsini hiss elədi, "uf" eləyib özünü quyunun yanındakı kətilin üstünə verib oturdu, ayağının sıyrılan yerinin ora-burasını diqqətlə gözdən keçirməyə başladı.

– Nənə, ay nənə, nolar, ordan məə yod gəti gə dəəə… – Vəliş nənəsinə səs elədi.

Bir az keçdi, Xeyransa arvad əlində yod qabıyla bir çimdik ağ pambıq yanını basa-basa və deyinə-deyinə quyunun yanına gəlib yetişdi:

– Noldu, a şair, bu bir dənə zavallı toyuğun əlində girinc olub qaldınmı?! – Vəliş anlamadı, nənəsi bu sözləri deyə-deyə onu ələ salır, yoxsa onun əzvaylığına hayıfsılanıb belə danışır.

– Asandı? Bax bir nooldum… Yavaaaş!.. – Vəliş dizini nənəsinə göstərəndə Xeyransa arvad ağ pambığı yod qabının içinə batırıb ehtiyatla Vəlişin yarasına basdı. Gədənin ufultusu göyə çıxdı.

– Vay. Vay… Erməni qan gördü. Sus, sus, sən Allahın, ayıbdı. Kərəmgil hasarın o tayından eşidər, sənə qız verməz. Bir toyuğun əlində qaldın, amma şeir yazıb qızları yoldan azdıra bilirsən. Bə sabah mən olmayım, toyuğunuzu kim tutacaq, ağzısüddü Sədaqət tutacaq?!?!

– Görmürsən yıxıldım?! Tutulası zibildi bu?!

– Heç nə olmaz. Sən də qanını qaraldıb eləmə. Gələllər, bir istəkan çaylarını içəllər, gedəllər. Məndən daha toyuq-plov istəmə. – Xeyransa arvad hər ehtimal lağım atdı, "görən, bu fərsiz indi nə deyəcək?!"

– Nənə…

– Bə nə təhər olsun, yaxşı, sən tutdun, mən kəsib bişirmədim, hıı?.. Bə nə təhər olsun bu?! – Xeyransa arvad sözünü hirslə desə də, ürəyində Çil-çil toyuğun tutulmamasına rahat-rahat sevinib dururdu.

– Nənə, axı mən bu adamlara söz verdim… Niyə sən məni bunların yanında biyabır elirsən? Axı qızın böyük qardaşıdı. Axı qonaq gəlib… Mənim ixtiyarım yoxdu ki, onu bir-iki dostuyla evə yeməyə çağırım?! Vallah, mən başımı götürrəm, bu evdən çıxıb gedərəm… – Vəliş bu sözləri şeir kimi odlu-odlu deyərkən gözaltı Xeyransa arvadı süzürdü.

– Söz verdim, söz verdim… Bunun fərasətinə bax, Bakıdan gələnlərə söz verməyinə bax… Evə qonaq çağıran olub… – Xeyransa arvad astaca, öz-özünə mızıldandı, üzü-gözü qaraldı. – "Evdən çıxıb gedərəm…"

Vəliş nənəsinin təhər-tövründən, sözü deməyindən başa düşdü ki, məsələni həll edə bilib, nənəsi özü toyuğu tutacaq. Nişanlısı Sədaqətin Bakıda həkimlik oxuyan qardaşı Valehi və onunla bir yerdə kəndə qonaq gəlmiş iki dostunu böyük kişilər kimi, ərklə ki, sabah evlərinə yeməyə dəvət eləmişdi, Allah onun qoca nənəsindən razı olsun, Vəliş evin böyüyü kimi onlara toyuq plov qonaqlığını verə biləcək. Bu dostlardan biri Vəliş üçün göydəndüşmə idi. Bakıda hərdən-birdən şeirlər, hekayələr çap eləyən məşhur "525-ci qəzet"də işləyirdi. Bu gün səhər Valehgilin evində tanışlıq əsnasında Valeh dostlarına başını yelləyə-yelləyə açıq-aşkar istehzayla belə demişdi:

– Bizim yeznəmiz də ki… məktəb qızlarına cürbəcür şeirlər yazır, baxma, yaxşı da yazır.

Özünü "qələm adamı" kimi təqdim edən Sərtqaplanın – qonaq gələn dostlardan birinin – bu sözləri eşidib gözləri bic-bic qıyılmışdı. O, Vəlişin sədaqətli baxışından xumarlanıb belə demişdi:

– Oxumaq pis olmazdı… Nə verər, oxusaq?!

Elə bu zaman qonaqların qabağına çayları qoyan Sədaqət qardaşının sözlərini eşidib pörtmüşdü. Valeh bunu görüb dodağını dişləmiş, tez dediklərini zarafata salmışdı:

– Amma day elə şeirlər yazmır. Day vətənpərvər mövzuda yazır. Elədi, Vəliş?

Qulaqları çuğundur kimi qızaran Vəliş ürəyi ata-ata, altdan-altdan Sədaqətə baxıb Valehin sözlərini başı ilə təsdiq eləmişdi, "hə, elədi..." Yadına isə bu zaman indi ona çay verən üz-gözü pörtmüş Sədaqət yox, elə dünənləri uçuq çəpərin o biri tərəfində duran Sədaqət düşmüşdü. Çəpərin o tərəfində durub qız onun dediklərini, elə bil, eşidirdi, amma anlamırdı. O isə Sədaqətin məlul-məlul baxan gözlərinin düz içinə tapança gülləsi kimi bu misraları sıxırdı:

*Ürəyində saxlasan*
*Xatırlamayacaqsan.*
*Xatırlamaq istəsən,*
*Ürəyindən sil məni...*

Misraların arxasında isə qorxa-qorxa bu dikbaş sözlər gizlənmişdi: "İstər nə illah edirsən et, mən çıxıb şəhərə gedəcəyəm. Getməsəm, ürəyim partlar. Səni də sonra gəlib özümlə aparmasam, mən heç atamın oğlu deyiləm..."

Çox qəribə bir iş oldu. Bir göz qırpımında uçuq çəpərin yanından qayıdıb gələn və indi onun qabağına çay qoyan Sədaqətin vücudunda əriyən dünənki Sədaqət Vəlişin gözünün içinə baxa-baxa o gün vermədiyi cavabı öz balaca, kişmişi gözlərilə bu gün verdi və belə dedi: "Xatırlamayacağam. Ürəyimdə saxlayacağam. Heç vədə səni mən xatırlamayacağam..." Və bu sözləri Sədaqətin gözlərindən oxuyub Vəliş özü də bilmədi ki, ürəyi niyə birdənbirə sıxıldı.

...Vəliş nənəsi sarıdan lap arxayın olmaq üçün bu dəfə səsinin "padxalim" yerinə saldı:

– Nənə, başına dönüm, nolar xoruz kəsmə, elə Çil-çil toyuğu kəs, nolar... Könnümə o düşüb.

– Sən bir buna baxırsan?! Yaxşı hələ, tərpətmə ayağını görüm...

Xeyransa arvad dodaqaltı söylənə-söylənə çöməlib "ah, uff ..." eləyən Vəlişin dizinə bayaqdan ki, ehtiyatla yod sürtürdü, bu dəfə var gücüylə yodlu pambığı necə basdısa gizildəyən təzə yaranın üstünə, gədənin cızdağı çıxdı, gözündən yaş gəldi. Amma nənəsinin xoşuna gəlməyə çalışdı, bu dəfə özünü bərk tutdu, cınqırını çıxarmadı. Xeyransa arvad gözünə həqiqi yaş, dodağına isə yalançı və əyri təbəssüm gəlmiş Vəlişi tərs-tərs süzüb "evdən çıxıb gedənə bax...", dərindən bir "Ya Allah!" dedi, sonra əllərini dizinə basaraq çöməldiyi yerdən ağır-ağır dikəldi, gözlərini ora-bura gəzdirdi. Çil-çil toyuğu axtarırdı. Çil-çil toyuq bu dəfə həyətin o biri başına, təndirəsərin yanına gedib çıxmışdı. Dimdiyilə torpaqda nəsə eşələyib qurddalayırdı. Amma bir gözü yanpörtü bunlarda idi. Xeyransa arvad kefinin kök vaxtlarında olan kimi Çil-çil toyuğu həlim, mehriban səslə əzizləməyə başlamadımı, başladı:

– Çil-çil gözəldi, Çil-çil qəşəngdi, Çil-çil toyuq deyil ki, Çil-çil əsl tovuz quşudu, Çil-çil mənim bir dənəmdi, mənim evimin-eşiyimin dirəyidi, umudumdu mənim, tənha günnərimin yaraşığıdı... Çil-çilim gəlsin, gəlsin, gəlsin yanıma, gəl nənəyin yanına, gəl...

Həqiqətən, Xeyransa arvadın Çil-çil toyuğu əzizləyən səsində ancaq toyuğun başa düşdüyü bir başqa cazibə vardı, bir məhrəm ahəng vardı, ya nəydisə, Çil-çil toyuq həmişə olduğu kimi bu dəfə də heç nədən çəkinmədən, qorxmadan ayaqlarını şəstlə, dik-dik ataraq doğma səsin iziylə Xeyransa arvadın uzun, qara donunun yerlə sürünən ətəklərinəcən gəlib bunlara yaxınlaşdı. Amma gərək yaxınlaşmayaydı. Bu, qəfildən, bir anın içində baş verdi. Toyuq "hıq" eləməyə də macal tapmadı. Nənəsinin gen tumanının arxasından Vəliş qəfildən elə sıçrayıb çıxdı ki, ən qatı düşmənin də bu məqamda ələ keçməkdən başqa bir yolu qalmazdı. Çil-çil toyuq heç nə başa düşmədi.

Vəlişin üzü-gözü sevincdən əyilmişdi. Çil-çil toyuğu hər iki əlində bərk-bərk tutub hərbi qənimət kimi başı üzərinə qaldırdı, sıyrılmış dizi hələ də sızıldasa da özünü zəfər paradında gedən qalib və qəhrəman əsgərlərə oxşadaraq ayaqlarını yuxarıdan aşağı çırpa-çırpa "ədəb-ərkanla" qabağa

düşdü. Nənəsi köksünü ötürüb yanını basa-basa, şalını çiynində düzəldə-düzəldə onun arxasınca gedir və yavaşdan belə deyirdi:

– Ə, a gədə, a şair, ayıfdı, yenə meymunluq eləmə, qonşular görəllər. Heç olmasa bu yazığı belə dimdik, əlində baydaq kimi göyə qovzayıb getmə, vallah, ayıfdı… Kimə deyirsən?! Ə, sənə qız verənin…

Yanından keçib getdikləri alma ağacının aşağı budağına Çil-çil toyuğun xırdaca-xırdaca tükləri ki, ilişib qalmışdı, bu tüklərin bir-ikisi budaqdan ayrılıb havada ora-bura uçuşur, onların ətrafında tənbəl-tənbəl dövrə vururdu.

*2012-ci il*

# Dünyanın ən ucaboylu karliki

Elə bu zaman Şişman Hənifə qəfildən söhbətə müdaxilə etdi:

– O, dünyanın ən ucaboylu karliki idi. Yəni, karliklərin arasında ən ucaboylusu idi. Özü bunu bir dəfə mənə fəxrlə demişdi.

Mənim qəribəmə gəlsə də, məclisdəkilər yerlərindəcə dəbərib bir-birilə baxışdılar və başlarını tərpədə-tərpədə həvəslə onunla razılaşdılar. "Olar, olar, niyə də olmasın?!" Elə bil, hətta rahat-rahat köks də ötürdülər. Pis səslənmirdi: "karliklər arasında ən ucaboylusu…"

Mən isə başqa şeyə mat qalmışdım. Onların belə bir məqamda belə asanlıqla Karlik Babacanı "satacaqlarına", bu cür "ayağa verəcəklərinə", açığını deyim ki, inanmazdım. "Karlik" sözünə gətirirəm. Sağlığında ona bu sözlə heç vaxt və heç kim müraciət etməmişdi. Yanında bu sözü ağzına

alan olmamışdı. Heç kimin ağlına gəlməzdi. Çünki, o, bizim uşaqlıq dostumuz idi, biz isə o zaman dostumuzu boy-buxununa görə seçmirdik.

Amma bəlkə də yemək masasının ətrafında oturanları "ən ucaboylu" sözündəki müsbət məna çaları çaşdırmışdı. Əlbəttə, başqa cür ola bilməzdi, bu elə beləydi ki, vardı. Yas məclisində, dəyirmi masanın ətrafında oturub, möhkəm yeməkdən sonra çay və qəhvə içən bu adamlar, yəni, biz Babacanın ən yaxın altı dostu idik. Hərdənbir siqarasının gur tüstüsünü enli burun pərələrindən və ağzından parovozun bacasından çıxan ağ düman kimi püfüldəyib tavana buraxan Şişman Hənifə, əslində, siqar çəkməkdən çox bizim altımıza da acıq verirdi.

Mən, belə baxanda, özümə bunların yaxın dostu deməzdim, çünki ayda, ildə bir dəfə, toyda, ya da bu günkü kimi yasda onlarla görüşmək imkanım olurdu, mən bunlar üçün artıq yaxın tanış idim. Babacanın da yaxını idim, vəssəlam. Uşaqlığımız bir yerdə keçsə də, gəncliyimiz bir-birindən sərt şəkildə ayrılmışdı. Seyid Qəmbərdən başqa, Seyid Qəmbər istisna idi. Mən bu yas məclisinə həm Babacanın, həm də mənim indiyənə qədər "şərikli" dostumuz sayılan Seyid Qəmbərlə bir yerdə gəlmişdim. Onunla küçədə təsadüfən görüşdük, "xoş-beş, on beş…"

– Nə var, nə yox? – Mən soruşdum. Seyidi xeyli vaxt idi, görmürdüm.

– Heç… – Seyid cavab verdi.

– Hara belə?

– Sənin bəs xəbərin yoxdu?

– Nədən, noolub ki?..—Məni maraq götürdü.

– Hə, deməli sən bilmirsən… - Seyid mənim sözümün səmimiyyətinə inandı. - Karlik Babacan üç gün əvvəl ölüb, bu gün evində məclis var, üçüylə yeddisini birləşdiriblər.

Mən xeyli təəccübləndim və təbii ki, hayıfsılandım. Necə olub ki, mənim xəbərim olmayıb:

– Yox, mən axı Montində oluram, xəbər tutmamışam. Nəyiydi bunun, ay yazıq… qırx yaşı təzəcə tamam olmuşdu ki…

– Montində olmağın bura nə dəxli var?! – Seyid mənim "izahatıma" yüngülcə əsəbiləşdi. – Gedirsən, gedək bir yerdə. Uşaqlar hamısı olacaq. Orda söhbət elərik.

– Gedək, gedək. Mənim ki, bir işim yoxdu, evə gedirdim. Uşaqları da çoxdandı, görmürəm.

"Uşaqlar" dediyim haman bizim bu dost, tanışlarımız idi. Hamımız bir məhlədən çıxmışdıq. Uşaqlığımız Təzə Pirin altındakı o birmərtəbəli məhlədə keçmişdi. Sonra hərə bir tərəfə dağıldı. Kimsə kiminləsə daha tez-tez görüşdü, kimsə dostdan yaxına, tanışa çevrildi, kimsə o birilər barədə artıq özündən yox, kimdənsə xəbər aldı – bütün bunlar qocalmağa doğru gedən yolun çox təbii bir qanunu idi. Biz isə yavaş-yavaş qocalmağa doğru gedirdik.

Karlik Babacanın evi elə bu həndəvərdə idi, irəlidən sağa burulub çatacaqdıq. Yol gedə-gedə qəflətən ürəyim sıxılmadımı, sıxıldı. Üzümə diqqətlə baxıb Seyid Qəmbər narahat oldu:

– Nooldu sənə, rəngin ağaran kimi oldu…

– Heç… Heç. Təsir elədi mənə bunun ölümü… - Mən cavab verdim.

Biz addımlarımızı yeyinlətdik.

…Şişman Hənifə ümumi sükut içində sözlərini təkrar etdi:

– Elədir ki, var. Karliklərin ən ucaboylusuydu. İçmişdi, özü bunu mənə dedi.

Şişman Hənifə yenə bir topa bulud kimi tüstünü içinə çəkmədən eləcə ağzının ucundan çölə püflədi. Sonra xeyli çoxbilmiş və mənalı baxışla məclisdəkiləri bir-bir süzərək barmağıyla siqaranın enli gövdəsini ehtiyatla taqqıldadıb külünü qabağındakı külqabıya tökdü.

Keçəl Bağır əli ilə tüstünün ona tərəf gələ-gələ əyilib-düzələn parçasını qovalamaq istədi, əli havada yellənə-yellənə qaldı, bir parça tüstü Keçəlin barmaqları arasından yol eləyib zorla da olsa özünü onun ağzına, burnuna dürtdü.

– Öhö, öhö… dedik axı, bunu çəkirsən, çıx balkona çək. Boğdun sən bizi ki…

Şişman Hənifə Keçəl Bağırın ona ünvanlanmış sözlərini vecinə aldımı, almadı, elə bil, ona yox, boşluğa deyilirdi bu sözlər.

– Balkon soyuqdu. Qış, elə bil, birdən, qəflətən girdi… – Bu sözləri isə Ağaqulu dedi. Onun da öz ləqəbi vardı. Onun ləqəbi "Cırtdan" idi. Məncə, Ağaqulu Karliki "satmaqlarına" peşman olan birinci adam oldu. Bu, onun üz-gözündən bilindi. Üzünü yana tutub Şişman Hənifə tərəfə baxmaq da istəmirdi. Şişmanın yanında oturmuş Zümzümə Mərifət isə başını bulaya-bulaya:

– Kimə deyirsən? Sən bunu tanımırsan? – dedi və durub stulunu Şişmandan uzaqlaşdırdı. Şişman yalnız sırtıq-sırtıq, səssizcə irişdi.

Ləqəblərə gəlincə. Bu ləqəblərin heç biri həqiqətə uyğun deyildi. Təkcə Karlik Babacanınkından başqa. Babacan isə, həqiqətən, karlik idi. Özü də sirkdə işləyirdi. Ağlaya-ağlaya güldürməyin mükəmməl ustası idi. O biri ləqəblər, əslində, əksinə effekt yaratmaq üçün qoyulmuşdu. Uşaqlıq dövrünün qəribəlikləri sayıla bilərdi. Ağılsıza ağıllı, gücsüzə güclü, kifirə gözəl deyərdik və düşünməzdik ki, axı bu ləqəblər paltar kimi dəyişən deyillər, onlar xal kimi, bədən ləkəsi kimi bu adamın canına əbədilik yapışacaq və onunla bir yerdə həyat yolu ilə addımlaya-addımlaya gedəcəklər.

Şişman heç də kök birisi deyildi. Yeməkdə hamımıza "fora" verərdi, amma heç kökəlməzdi. Keçəl Bağırın indinin özündə belə saçının şəlalə kimi gurluğu, məncə, hamımızın gənclikdən üzü bu yana qibtə yerinə çevrilmişdi. Cırtdan" dediyimiz Ağaqulu isə nəhəng birisi idi. Əyninə alacağı paltarı mağazalardan asanlıqla tapmırdı. Seyid Qəmbər seyid deyildi, ləqəbi də sonrakı vaxtın, artıq gənclik illərinin yadigarı kimi qalmışdı. Eləcə gəncliyində bir dəniz araq içəndən sonra birdən-birə içkini tərgitdi və namaz qılmağa başladı. Biz də tez adını dəyişib onu "Seyid" çağırmağa başladıq. Zümzümə Mərifət aramızda ucadan, bəlağətli danışan idi. Məclisdə, toyda, nişanda nitq deyənimiz o idi, ya özü qabağa düşürdü, ya da biz onu qabağa verirdik. Elə danışırdı ki, elə bil, qışqıra-qışqıra nərə çəkir. Zümzümə… Mərifət… Sözün və mahiyyətin üzbəüz duruşundakı gözəlliyə fikir verdinizmi?

Niyə belə edirdik, bu ləqəblər bizim həyatımıza niyə və necə girirdi – bunu demək, əlbəttə ki, çətindi. Niyə biz bir-birimizi olduğumuz əndazədə, görkəmdə görə bilmirdik, bəlkə görmək istəmirdik – bunu demək isə mümkün deyildi. Hər ləqəbin arxasında böyük bir formalaşma və cilalanma tarixçəsi dururdu, bu qəti belə idi. Mənim də ləqəbim vardı. Mənim ləqəbim Məcnun idi. Niyə – bilmirəm. Əslində, bilirəm. Qızlara tez-tez vurulurdum – ondan.

Qonaq otağında uzun (bir az əvvəl, deyəsən, dəyirmi demişdim… nə isə, eybi yoxdu, üstündən bu qədər vaxt keçib, üzürlü sayıla bilər) yemək stolunun ətrafında yas mərasiminə yığışmış bu adamlar, yəni, biz, bayaq dediyim kimi, mərhum Karlik Babacanın kimi yaxın, kimi uzaq uşaqlıq dostları idik. Yeməyi təzəcə bitirib çaya keçmişdik. Söhbət bütün yas məclislərində olan kimi ordan-burdan, adda-budda mövzuların həndəvərində dolaşıb gedirdi.

Vaxtaşırı heç nədən, tamamilə əlaqəsiz olaraq (əslində isə, çox adi qabiliyyət bunun belə olmasını tələb edirdi), mərhum Karlik Babacan gəlib yadımıza düşürdü, bu zaman bizlərdən kimsə gözünü qaldırıb otağın yuxarı başında divarın uca yerində asılmış Karlikin şəklinə baxır, canyananlıqla "Allah rəhmət eləsin sənə, ay Babacan, səndən yox idi…" deyir, sonra hamı bu sözləri hayıfsılana-hayıfsılana təkrar edir, beləcə, söhbət edə-edə biz, Seyid Qəmbərin sözü olmasın, "plastinkanı dəyişirdik", yəni, mövzunu təzələyirdik.

Qəribə idi, Karlik Babacanın divardakı şəkli çox canlı idi, ucları yuxarı burulmuş bığları, elə bil, tərpənirdi, qaşları alnına doğru qalxıb çatılırdı, xallı burnunun ucu tərləyirdi. Bir-birinin lap yanında yerləşmiş iki alov dili kimi oynayan gözlərinin dərin yerindən hərdən bic təbəssüm, hərdən isə ümidsiz kədər boylanırdı. Şəkil elə bir dəqiq nöqtədən çəkilmişdi ki, guya o da xeyli maraqla yuxarıdan bizim söhbətimizə qulaq asırdı. Birdən Keçəl Bağır Karlikin şəklinə başı ilə işarə edib məclisə müraciətlə belə dedi:

– Ona bax, ona bax, gör qulaqlarını necə şəkləyib bizə qulaq asır. İndi gəlib sənin bu yalanını üzünə çırpar, onda görərsən…

O bu sözləri Babacandan, guya ki, məzəli bir hadisə danışan və bu zaman gözləri bic-bic gülən Şişman Hənifəyə dedi.

Şişman Hənifənin danışdığı "məzəli" hadisə isə bundan ibarət idi.

– Siz bilirdiz ki, bu Babacan, – Hənifə geriyə çevrilmədən əli ilə arxasındakı şəklə işarə etdi, – hər gecə yerinə girəndən sonra gözünə yuxu gedənəcən bir-iki dəqiqə zır-zır ağlayırmış? Sirkdəki ağlamaqdan yox eee, həqiqətən ağlayırmış. Özü mənə danışıb.

İçmişdi bəlkə də... hə, yaman çox içmişdi, ondan çıxmayan iş... ağzına gələni danışırdı. Bilmirəm, niyə dedi, amma dedi, elə olur, gözümdən yaş krantdan su gələn kimi gəlir. Amma, sən Allah, heç kim bilməsin. – Sözünün bu yerində Hənifənin gözləri işıldadı.

Biz bir-birimizin üzünə baxdıq, tezcə də başımızı yerə dikdik. Zümzümə Mərifət istədi onun sözünü kəsə, "bəlkə valı dəyişək?" dedisə də, olmadı. Şişman ona məhəl qoymadı, mərdiməzar idi, hökmən deyəcəklərini deyəcəkdi. O, davam etdi:

– Sözümü kəsmə, maraqlı söhbətdi... Siz heç onu piyan görmüşdüz, yox, görməmişdiz. Mən isə görmüşəm. Ay Hənifə, toyumun birinci gecəsidi, danışırdı, yanıma bir azdan arvad gəlib girəcək, məni yenə gic ağlamaq tutub. Özümü heç cür saxlaya bilmirəm. Yorğanı da çəkmişəm başıma, ancaq hıçqırıram. Bu da ki, – Şişman Hənifə gözü ilə otaqdan o tərəfə, mətbəxə, yəni, Karlikin arvadı olan tərəfə işarə elədi, – soyunub, bəzənib-düzənib gəlib yatağın lap yanında... çaşıb qalıb, başa düşə bilmir ki, yorğan altından bu hıçqırıq nədi, niyədi, heç nə başa düşmür...

Neyləyim, neyləməyim, dişimi sıxdım dişimə, özümü yığışdırıb birtəhər ələ aldım, yorğanı üstümdən atdım, yorğanın altında da ki, lütünəquluyam, başladım bərkdən hırtıldamağa, guya, elə bayaqdan gülürəm. Ağlamaqdan hırtıldamağa keçmək, özün bilirsən, asan bir şeydi mənimçün.

Elə böyük fərqi də yoxdu buların. Arvad elə bildi, mən bayaqdan gülürəm, bir mənə baxdı, bir mənim boyuma-buxunuma baxdı, o da başladı gülməyə. Amma, əslində, o ağlamalı idi, Hənifə, o, gül kimi arvad, vücudunu, elə bil, mərmərdən töküblər - boyu, buxunu... mənim nəyimə

gəlmişdi?! Nədi, nədi, kiməsə bəlkə acıq vermək lazımmış. Nə qədər soruşdum, demədi - kimə. Qərəz… Bir müddət evliliyimizdən keçdi, Karlik davam etdi, artıq gecələr mənə ağlamaq tez-tez yox, hərdən gəlir. Gələndə o da, yəni, bu da – Şişman yenə mətbəx tərəfə işarə elədi, – mənimlə bir yerdə başlayır zır-zır ağlamağa. Bu niyə ağlayır – inanırsan bir dəfə soruşmamışam, özü də demir. Soruşmaram. Könül birliyi ki, demirlər, bəlkə bu elə odu, hm?! Karlikin dediyi sözlərdi, mən ölüm.

Şişman Hənifə susdu. Masanın ətrafında oturanların heç birindən səs çıxmadı. Biz hamımız pərt olmuşduq. Karlik bu sözləri Şişmana demişdisə də sirr kimi demişdi, o isə indi bu sirri faş edirdi. Ortalığa namünasib sükut çökdü. Mətbəx tərəfdə bu zaman milçək uçsaydı, biz onun səsini eşidərdik.

…Şişman Hənifə Keçəl Bağırın sözlərini eşidib əvvəlcə duruxdu, sonra hətta diksindi. Diksinməsinə isə səbəb Bağırın sözləri olmadı, həmən o hadisə oldu. Sonralar bunu heç cür unuda bilməyən və dəfən-dəfən müxtəlif tədbirlərdə yada salan məclis əhlinə məlum o hadisə də elə bu zaman baş verdi.

…Və elə bu zaman o hadisə baş verdi. Karlik Babacan nə mənə, nə sənə, bir göz qırpımında divardakı öz şəklinin içindən atdanıb düşdü yerə, qaça-qaça gəldi Hənifənin yanına, bacardığı qədər yuxarı tullanıb onun üzünə tüpürmədimi, tüpürdü. Biz ancaq "tfu sənin abırsız, satqın üzüvə!" sözlərini güclə eşitdik. Yenə bir göz qırpımında Karlik yenə də qaça-qaça gedib divardakı şəklinin içinə atdanıb girdi və ordan bizə qaşlarını çatıb bayaqkı maraqla baxmağına davam etdi. Həm maraqla baxırdı, həm də, elə bil, heç nə baş verməmişdi.

– Mən dedim sizə, siz inanmadız. Dedim mən, indi gəlib bunun üzünə tüpürəcək? Dedim, demədim? – Keçəl Bağır altdan-altdan bizi süzüb yorğun və məmnun bir halda bayaqkı sözlərini təkrar etdi.

Hamımız susub oturmuşduq. Şişman Hənifə əlini atıb dəsmalını cibindən elə çıxartdı ki, elə bil, tapança çıxarır və indi Karlikin şəklini nişan alıb vuracaq. Əvvəlcə tərs-tərs çönüb şəklə tərəf baxdı və sonra dəsmalla üzünün tüpürcəyini silməyə başladı. Sildi, sildi, sonra birdən ayağa qalxdı. Artıq biz də oturmaq həvəsində deyildik. Hər kəs yerindən durdu.

Getməyimiz məsləhət idi. Otağın havasından məşum bir gərginlik qılınc kimi sallanmışdı. Rəhmətliyin arvadı boynunu burub əlləri qoynunda ağır-ağır bayır qapının ağzına gəldi. Biz evdən bir-bir çıxdıqca ona başsağlığı verməyə başladıq. Zümzümə Mərifət bəlkə də birinci dəfəydi ki, uzun danışa bilmədi. Səsi də xeyli yavaşdan çıxırdı. Sıxıla-sıxıla dedi:

– Sən ki, bilirsən, o bizə qardaş kimi idi. Allah səbr versin, sənin özünə də Allah ürəyincə versin. Onun əziyyətini çox çəkdin...– Mərifət udqundu.

Babacanın arvadı Mərifətin pauzasından istifadə elədi, ürəyində sözü varmış:

– Sağ olun, hamınız çox sağ olun. O, sizinlə nəfəs alırdı. Allah sizinkilərə də rəhmət eləsin. Əziyyət çəkdiniz... – Karlikin arvadı, həqiqətən, qəm və kədər mücəssəməsi idi.

Hərəmiz nəsə bir söz tapıb bu boylu-buxunlu, hətta indiyənə qədər yaraşığını itirməmiş, həyatını bizim karlik dostumuza həqiqətən qurban vermiş bu gözəl və vəfalı xanıma təsəlli kimi dedik. Amma aradakı pərtlik hələ də qalmışdı. Gözümüzün önündən bir neçə dəqiqə əvvəl baş vermiş o qəribə mənzərə çəkilib getmirdi. Karlikin arvadı bircə Şişman Hənifəyə əlini uzatmadı. Onun əli havada asılı qaldı. Bu xanım heç birimizin üzünə baxmadan gözlərini yana çevirib, əslində, Şişmana bəlkə də birinci dəfə "siz"lə müraciət edərək qəmli və bir az da yanıqlı səslə ürəyindəkiləri belə dilə gətirdi:

– Mən sizin dediklərinizi eşitdim. Siz ona "karlik" dediniz. Noolar, olsun, bu, bir həqiqət idi. Amma... Babacanın indi elədiyi hərəkətə mən qətiyyən haqq qazandırmasam da, bircə onu bilirəm ki, o, dünyanın bütün karlikləri arasında ən ucaboylusu idi.

Siz bilmirsiniz. O, hər gün bunun əzabını yaşayırdı. Mən isə ona ancaq bu sözlərlə təskinlik verə bilirdim. Mən ona deyirdim: sən dünyanın ən ucaboylu karlikisən, niyə bu qədər özünü üzürsən?! Ən ucaboylu! Mən ərimlə fəxr edirdim. O yataq söhbətini isə, eşidirsiz, mənim ərim heç kimə danışa bilməzdi. Heç kimə! Siz o söhbəti uydurmusuz. Uydurmadı başdan-başa sizin dedikləriniz. – Bu gözəl arvadın bir də gördük, üzü əyildi, gözləri

doldu, səsi isə qorxulu bir pıçıltıya dönüb kobud bir ahəngə büründü. Bu, bir an sürdü. Sonra tezcə də hər şey əvvəlki halına qayıtdı: – Eybi yox, olur, həyatdı… – Arvad sözünü bitirib burnunu çəkdi, daha bir söz demədən sakitcə dönüb mətbəxə qayıtdı.

Şişman xoruz kimi qıpqırmızı qızarıb qalmışdı. Bir kəlmə də ağzından söz çıxarıb danışa bilmədi.

Biz pəjmürdə bir halda pilləkənləri ağır-ağır enib, nəhayət, küçəyə çıxdıq. Hava soyuq idi və qaralmaq istəyirdi. Günün qəribə vaxtı idi - nə axşam kimi axşam düşürdü, nə də gündüz kimi gündüz idi. İki dəqiqəyə qədər evin qabağında dayanıb diqqətimizi bir yerə toplamadan ordan-burdan danışdıq. Mətləbə dəxli olmayan boş-boş şeylərdən. Şişman hələ də pərtlik içində susurdu. Onun üzünə heç birimiz baxmaq istəmirdik. Amma ayrılarkən yenə dözmədi, döyüşə doymayan yenilmiş pəhləvan kimi ürəyindəkiləri bir daha açıb boşaltdı:

– Vallah və billah, bu adam o sözləri mənə demişdi. Demişdi, sabaha sağ çıxmayım, demişdi. Niyə siz mənə inanmaq istəmirsiz axı, niyə? Siz elə bilirsiz, bu arvad istədiyindən deyirdi o sözləri?! İstədiyindən demirdi, azadlığa çıxıb, onunçün deyirdi. Bu nə zülümdü, Ay Allah, heç kim mənə inanmaq istəmir…

Yalvara-yalvara onun-bunun üzünə baxa-baxa qaldı. Hayıf, onunçün vacib olan hələ də bizim ona inanıb inanmamağımız idi. Üzü qızarmışdı, əlləri titrəyirdi. Son sözlərini deyəndə ağlamsındı və səsi titrədi. Eynən balaca, cığal uşaqlar kimi…

Başımızı bulaya-bulaya daha bir kəlmə söz danışmadan Şişmanı yolun ortasında tək-tənha buraxıb hərəmiz bir tərəfə dağılışdıq. Mən avtobus dayanacağına tələsdim. İndicə olmuşların tabut içi kimi ağır, qaranlıq, anlaşılmaz ahəngi məni üzürdü, rahat buraxmırdı. Amma axşam Seyidlə zəngləşəndə mənim üçün bəzi şeylər aydın olacaqdı. Seyid deyəcəkdi:

– Bəs sən bilmirsən?.. Hə, bilmirsən, sən axı Montində yaşayırsan… Şişmanı arvadı bir ay olar evdən qovub. Çox böyük bir qələt eləyib bu.

Nəysə, telefon söhbəti deyil. Oğul-uşağı da analarının tərəfini tutublar. Deyirlər, iti görək, qurdu görək, Hənifəni görməyək…

Hələlik isə mən yüngülcə üşüyə-üşüyə yaxındakı avtobus dayanacağına tərəf gedirdim və gedə-gedə belə düşünürdüm: "Əslində, Karlikin bu sözləri Hənifəyə deyib-deməməyi vacib deyil. Vacib olan odur ki… Karlik bunun üzünə gəlib tüpürəndə hamımızın ürəyindən tikən çıxartdı."

*2012-ci il*

# Mənə uçmağı öyrət

Kimsə çox-çox yuxarılardan baxsaydı görərdi ki, bu balaca həyət göylərə qanad açıb uçmağa can atan ağappaq quşa bənzəyir. Xüsusilə də, baharın ilk çağında. Həyətin o biri başında quyunun ağzına qədər gedən cığırın hər iki tərəfinə səf-səf düzülmüş alça ağacları çiçəkləyəndə. Sonuncu alça ağacı öz ucubiz budağını torpağa endirib bu quşun dimdiyi olmuşdu. Cığır isə həyəti şimşək kimi ortadan yarıb keçir, sonra da sonuncu alça ağacının ətrafından hərlənib həyətin dal tərəfindəki palçıq hasara sığınmış köhnə Cin quyusunun ağzına qədər gəlib çatırdı.

...Quyunun içindən qəflətən ağappaq bir quşcuğaz "pırr" eləyib uçdu. O səksəndi.

Quşcuğaz, elə bil, onun quyuya yaxınlaşmağını gözləyirdi. "Pırr" eləyib quyunun içindən uçan zaman havada tələsik dövrə vurub onun başı üstünü aldı, onunla bir göz bərabərində havada qalıb ciddi-cəhdlə qanad çalmağına davam elədi. Quşcuğaz qanadlarını bu cür çala-çala havada bir nöqtədə durub qalmaq üçün zor-güc bir neçə an ancaq davam gətirdi, san-ki bununla ona nə isə çatdırmaq, demək istəyirdi. Amma qanad çalıb-çalıb

heydən düşdü, demək istədiyini, təbii ki, deyə bilmədi və kor-peşman uçub uzaqlaşdı. Ondan bir quru səs qaldı: "pırrr…"

Cin quyusunun ağzında həmişə nazik dəmir örtük olardı, indi bu örtük harasa yox olmuşdu. Miras müəllim dizləri titrəyə-titrəyə elə durub qaldığı yerdən quyunun açıq ağzına baxdı. Quyu "varını verib" sakitləşmişdi.

Quyunun ağzına qədər gəlməyə isə onun cəsarəti çatmadı. Quyuya yaxın yerdə "quş dimdiyi"nin, yəni, sonuncu alça ağacının altında bir yekə, ora-burasını mamır basmış, yarısı torpaqda gizlənmiş qədim daş vardı, bir-təhər eləyib o daşın üstünə yanını basdı. Həyəcanlı idi, bədənində bir vicvicə gəzirdi, ürəyi az qala hövr eləyirdi. Dərindən nəfəs alıb verdi və əlini aparıb çiyninə atdığı pencəyinin cibindən ata yadigarı gümüş papiros qabını çıxardı. İçindən bir papiros seçib titrəyən barmaqları ilə onu əzişdirməyə başladı.

Bir xeyli vaxt gəlib keçdi. Miras müəllim düşüncələr içində hələ də üzü Cin quyusuna tərəf heykəl kimi daş üstündə oturub qalmışdı. Bayaq onu səksəndirib quyudan uçan o balaca, ağappaq quşcuğazdan isə artıq əsər-əlamət yox idi. Xəyalı Miras müəllimi keçmişə aparmamışdımı, aparmışdı. Xəyala daldıqca Miras müəllimin dodağının ucuna təbəssüm qonub yavaş-yavaş bütün üzünə yayılırdı.

Qırx beş il əvvəl də eynən belə bir isti yay günü idi. Onda da günortadan təzəcə keçmişdi. Üstünü mamır basmış elə bu daşın üstündəcə nənəsi Sərvinaz arvad gen, allı-güllü tumanını dörd bir yanına yayaraq yorğun-arğın oturmuşdu. Arvad – qoca arvad, tuman – cavan gəlin tumanı. Qoca nənəsi bu rəngli tumanın içində cavanlığın içindəki qocalıq kimi görünməz olub itib batmışdı.

On beş yaşlı Miras onun qarşısında günahkar adamlar misalı başıaşağı dayanıb durdu. Miras əsl əzabkeşlər kimi içini yeyə-yeyə beynində nənəsinin onu özüylə nə üçün bu quyunun yanına gətirib gəldiyinin səbəbini axtarırdı. "Görübdür yəqin. Məni bu həndəvərdə milyon faiz görübdü." Nənəsinin üzü-gözü puçur-puçur tər idi, özü də bərk tövşüyürdü. Elə bil, buraya, bu daşın yanına həyatin o başındakı birmərtəbəli, yastı-yapalaq

evdən deyil, çox-çox uzaqlardan ağır bir yol qət edib gəlmişdi. O, təngnəfəs bir səslə dedi:

– Bəri bax, a gədə. Mən öz gözlərimlə gördüm… yenə sən gecələr bu quyunun həndəvərində dolaşırsan. Oxuduğun axmaq kitablardan gəlir. Lüt qızın xiyalıdı səni rahat qoymur. Kəndin o avara-uvarasına qoşulmusan. Yoxdu orda qız. O qız çoxdan ölüb gedib. Allah ona nəhlət eləsin. Amma Cin, ola bilər ki, hələ də ordadı. Bunu o gicinəqulu dostlarına da de. Babamın öldüyü gündən bəri Cini görən olmasa da mən bilirəm, Cin ordadı. Sən uşaqlıqda damdabacadan necə qorxardın, yadındadı?! Bə bu cindən niyə sən qorxmursan?!

Əlbəttə, bunlar onun yadında idi. Nənəsinin gecələr ona danışdığı qorxulu nağılların qəhrəmanı olan damdabaca, illər keçəcək, onun yadından çıxacaqdımı, çıxmayacaqdı. Hələ bu harasıdı, damdabacanın üstünə onlarla, yüzlərlə sehirbazlar və cadugərlər, sirli, müəmmalı eşq macəraları barədə oxunan kitabların da əfsunkar ağırlığı çökəcəkdi, gecələr yuxusuna şeytanlar, cinlər, əcinnələr oynaya-oynaya girəcəkdi və bütün bunlar hamısı bir yerdə ibarət olacaqdı beyni cürbəcür şeytani torlara ilişib qalmış macəraçı Mirasdan. Amma bu sonralar olacaqdı. Hələlik isə o, quyu içindəki lüt qızın buxarlanıb quyunun dərinliyindən ucalan inikasını görmək üçün kəndin o biri cavanları kimi quyunun həndəvərində hər gecə keşik çəkirdi. Bu buxarlanma ancaq zülmət gecələrdə, bu gecələrin göyümtül rəngə çalan zərifliyində baş verirdi. Bu zaman quyudakı qız lüt-üryan olub öz bədəninin inikasını quyudan yuxarı, işıqlı dünyaya göndərirdi. Görənlər bunun bir kino qədər ecazkar və ehtiraslı olduğunu deyirdilər. Miras müəllimin dodaqlarının ucuna zərif bir təbəssüm qondu. Yadına həyətlərindəki uçuq quyuda həqiqi cinin yaşadığını ilk dəfə eşitdiyi zaman necə sevindiyi düşdü. Bu xəbəri ona məktəb dostu Ələsgər verdi:

– Cin sizin həyətdə yaşayır. Necə olub, sən bunu indiyənədək bilməmisən?! Amma məni gecə həyətə buraxsan, bir yerdə o kinoya baxardıq…

– Ömründə olmaz. Nənəm bilsə, məni də, səni də öldürər! – Miras sevincdən ürəyi ata-ata cavab vermişdi. Fikri isə qəti şəkildə belə idi. O bu kinoya ancaq təklikdə baxacaq.

…Nənəsi onun yavaş-yavaş tüklənən və ziyilli üzünə özünün işığını itirmiş, bulannıq gözlərilə bir xeyli tamaşa elədi, sonra nə fikirləşdisə, köksünü dərindən ötürdü. Arvadın rəngi qaraldı və o, sözünə balaca isteh-za ilə, amma aramla belə davam elədi:

– Gülürsən?! Əlbəttə, gülərsən. Gül, gül. Bax, o damdabaca bu cinin yanında boşuna bir şeydi. Heç nədi. Bu quyuda əsl cin yaşayıb. İnanmırsan sözümə?! Bəlkə hələ indi də yaşayır…

Sərvinaz arvad bulanıq gözlərini döndərib zənlə onun üzünə baxdığı an, həm də bir ildırım sürətilə qırx beş il bəriyə nəzər atdı. Orada yaşlı bir kişiyə dönmüş, saçları bəmbəyaz ağarmış Miras müəllimin dodağının qaçdığını oturduğu yerdən necə tutub gördüsə ("gülürsən" sözünü də elə bununçün dedi), onun bulanıq baxışlarını üzündə deyil, ürəyinin ən dərin yerində iynə kimi hiss edən Miras müəllimin canına yenə bayaqkı vicvicə düşdü. Bir müddət sonra isə nənəsi artıq heysizləmiş baxışını təzədən qaytarıb yanında oturtduğu gənc Mirasın mısmırıq yağan ziyilli üzünə dirəmişdi. Miras müəllim yenə də qırx beş il sonrada qalmışdı. Baxışlarının kəskinliyinə ümid eləməyən arvad bu dəfə dediklərinə həqiqət donu geyindirmək üçün üz-gözünü qəribə şəkildə əyişdirdi. Yəni, mənim özüm bu cindən elə qorxuram, elə qorxuram…

– İnanıram, niyə ki inanmayım?! – Gənc Mirasın üz-gözünün qırışığı açılmadı.

– İnanmırsan. Amma yenə özün bilərsən. Xeyrini də sən görəssən, zərərini də.

Qoca nənəsi yenə də zənlə bu gənc nadürüstün üzünə baxıb, bu dəfə, nədənsə, köksünü ötürdü. Nakam oğlunun sonbeşik yadigarına ağır söz deməyə dili gəlmədi. Əli ilə onu yanına çağırdı, könlünü almaq üçün başını tumarladı, allı-güllü tumanının yan cibindən iki-üç noğul, şəkər çıxartdı, "aç əlini, aç…" deyə-deyə güclə Mirasın əlinin içini şirniylə doldurdu:

– A gədə, a cındırışın… biri cındırış… Nağılların vaxtı keçdi. İndi ki mənə inanmırsan, mən də sənə nağıl yox, olmuş bir əhvalat danışacağam. Bu qızın əhvalatını. Cin onu elə bilirsən, öz xoşuyla aparıb?! Zorla aparıb. Heç kəs cinilə öz xoşuna addım belə atmaz. Odu, nişanlısı dəli-divana oldu, itdi,

getdi dağda, dərədə qurda-quşa yem oldu… Hər gecə nümayişinə düzülür-süz ha, o qızı deyirəm, ağzını əymə… Fikrin məndə olsun. Gərək indi hələ bunu mən sənə danışmaya idim, balacasan, anlayacaqsan, anlamayacaqsan, bir olan Allah bilir.

Səlvinaz arvad susdu, nəfəs dərdi. Bunları o deməliydi, o deməyib bəs kim deyəcəkdi?! Çünki məsələ beləydi ki, arvadın başqa çıxış yolu yoxuydu. Mirası addım-addım izləməyə artıq taqəti qalmamışdı. Bir də gördün, Cin bunu da aparıb saldı quyuya, o zaman neyniyəcək?! Cinə bir köməkçi lazımdı, ya yox?! Deməzmi, bunca illər mən sənin ulu babana xidmət elədim, indi də sən mənə şunu gətir, şunu qoy?! Deməzmi?! Deyər! Ona görə də Sərvinaz arvad bir yanıqlı "ah" çəkib hələ yetişməmiş bu gəncə köhnə quyunun əhvalatını danışmağa qərar verdi. Nənəsi boynundan ehmalca basıb onu elə ətrafına yaydığı allı-güllü tumanının üstündəcə oturtdu, başını bərk-bərk qucaqlayıb, güclü əli ilə qarnına sıxdı, didişdirdi-buraxdı, didişdirdi-buraxdı. Nənəsinin səsi isə heysizləmişdi, amma yenə də sirli və qorxulu idi:

– A gədə, qulaq ver, indi sən mənə qulaqlarını dörd aç, çox diqqətlə qulaq ver. Sözlərimi də qəribçiliyə salma. Oxuduğun kitabları beynindən çıxart. Eşit və bil. Bu quyunun dibində hələ mənim babam nəql eyləyərdi ki, bir cin yaşayır. Bəlkə bu cin indi də ordadı. Quyunun adı o vaxtdan qalıb Cin quyusu. Cini görənlər olmuşdu, amma quyuda yaşayan bu cinin bir kəraməti vardı. Kim ki, gəlirdi onu görməyə, onunla söhbət eləməyə cəsarət edirdi, Cin özünü o adama göstərməyinə göstərirdi, amma sonra, yəni, Cindən ayrılıb evinə gələndən sonra Cin elə bir qurma qurdu ki, adam Cini büsbütün unudurdu. Unudurdu, vəssəlam. Cinin dedikləri də, qiyafəti də, üzü-gözü də dərhal bu adamın yadından silinib çıxırdı…

– Cin, – Sərvinaz nənənin səsi pıçıltıya keçdi,—mənim babam Kəlbəli dəmirçinin cini idi. Sənin ulu babanın. Ona da öz babasından yadigar qalmışdı. Qulaq ver dediyimə, ağılnan qulaq ver…

Qonşu kənddə Mirzə Səbzəli deyilən müəllim vardı, kənd məktəbində tarixdən dərs deyərdi. Atının nalını ancaq bizim kəndə gətirib Kəbləli dəmirçiyə vurdururdu. O, bir isti yay günü növbəti dəfə yenə atını

nallatmaq üçün Kəbləlinin yanına gələndə özü ilə bir qəribə kişi də gətirdi. Atın ayağı nalsız idi deyin, addımlarını yavaş-yavaş, ehtiyatla atıb gəlirdi. At həm də başıaşağı, könülsüz gəlirdi. Bütün diqqəti səkkiz-on metr ondan arxada yeriyən bu qəribə kişidə idi. Bu kişi pay-piyada olub düşmüşdü Mirzə Səbzəlinin atının dalınca. Ayaqları yalın idi. Əynində uzun ağ paltar var idi – bu ona həm köynək idi, həm də şalvar. Bu adamın üzü-başı tüksüz idi, gün vurub qapqara qaraltmışdı. Enli, əyri qaşları isə az qala gözlərinin üstünü tuturdu. Qəribəliyi o idi ki, yeridikcə hərdən uzunqulaq kimi tullanmağı vardı. At bu zaman əməlli-başlı hürkürdü.

Mirzə Səbzəli xoş-beşdən sonra ərklə keçib dəmirçi dükanının qapısının ağzındakı kətili altına çəkib oturdu. İsti bir yay günü idi, Mirzə cıbından çıxardığı dəsmal ilə üzünün, boynunun tərini sildi, bir o tərəfə, bir bu tərəfə baxandan sonra soruşdu:

– Kəbləli kişi, sən bu… məxluqu görürsən? – Başını çöndərmədən sol əlinin baş barmağı ilə haman enliqaşlı qəribə kişiyə işarə elədi. Məxluq Mirzə Səbzəlidən bir qədər aralı, onun sol tərəfində elə yerdəncə çöküb səssizcə oturmuşdu.

Kəbləli dəmirçi artıq atın başının üstünü almışdı. Boynunu tumarlayırdı. Başını günahkar kimi aşağı sallayan atın sinəsi hələ də şiddətlə vurur, gözləri bərələ qalmışdı. Kəbləli dəmirçi atın qulağına nəvazişli sözlər deyə-deyə qabaq ayağını birdən tutub arxaya burdu. Diqqətlə atın ayağının altına baxıb başını buladı. İri bir mıx necə dibinəcən girmişdisə ayağının düz altına, Kəlbəli o mıxın harasından kəlbətini ilişdirəcəkdi, onu düşündü. Mirzənin sualına ağızucu:

– Görürəm,– dedi. Başını zorla da olsa çöndərib Mirzə Səbzəli ilə gəlmiş bu adama bir daha nəzər saldı. Sonra nə düşündüsə atın ayağını buraxıb bu kişini xüsusi bir diqqətlə gözdən keçirdi.

Kəlbəli dəmirçi əllərilə dizlərini bərk-bərk qucaqlayaraq bir küncə çəkilib yerdəncə oturmuş bu adamdakı qəribəliyi ancaq indi hiss elədi. Onun üzündən-gözündən tər hələ də sel kimi axıb gedirdi. Tez-tez nəfəs… yox, buna nəfəs deməzdilər, nəfəs almırdı, ləhliyirdi. Dili ağzından bir qarış bayıra çıxmışdı. Gözlərini gizlədirdi, başını qaldırıb adamın üzünə

dikinə baxmırdı, elə bil, nədənsə çəkinirdi, ya utanırdı, fikrə-xəyala getmişdi, nəydi?! Həqiqətən, zavallı bir görkəmi vardı. Kəbləli dəmirçinin, nə üçünsə, ürəyi sıxıldı. Kəlbətinlərin birin götürüb o birin yerə qoydu. Gözlərilə içəridə, zindanın ətrafında əyri nalçərini axtardı.

– Kəlbəli, hələ bir dəqiqə nəfəsini dər və mənə diqqətlə qulaq ver. İstəyirəm, biləsən.

Mirzə Səbzəli ta səbrlə gözlədi ki, Kəlbəli dəmirçi atın tərli boynunu tumarlayıb sonra əllərini bir əskiyə silə-silə gəlib onun yanında bir kətil çəkib altına, o da otursun, ta ki bundan sonra söhbətinə belə davam elədi:

– Babam mənə danışardı ki, hər adamın bir cini olur. Bəzən bu cin özünü ətrafa biruzə verir, bəzən biruzə vermir. Bir adamın bir başqası ilə dost olması üçün bu adamların hər şeydən əvvəl gərəkdir ki, cinləri görüşüb anlaşsın. Bu cinlər anlaşa bilsə idilər, bəli, bu adamların dostluğu baş tuturdu, yox, əgər anlaşa bilməzdilərsə, o zaman bu adamlar nə illah eləsəydilər də, bu dünyada dost ola bilməyəcəkdilər.

Bunu eşidən o qəribə məxluq ilk dəfə yavaşdan səs çıxardı, dodaqaltı öz-özünə mızıldandı:

– Cin ayrı, şeytan ayrı. Onu şeytanlar üçün deyiblər.

Onun sözlərini eşidən olmadı.

Kəlbəli dəmirçi isə xatırladı ki, nə zamansa eynən belə bir söhbəti onun da babası elərdi.

– Belə bir söhbəti vaxtilə mən də öz babamdan eşitmişəm. – Kəlbəli dəmirçi başını tərpədə-tərpədə söylədi.

– Elədi. Eşitməmiş olmazdın. Sənin rəhmətlik babanla mənim babam dost olubmuşlar.

– Eləmi? Mən bunu bilməmişəm. – Kəlbəli dəmirçi təəccüb və maraqla nədənsə Mirzə Səbzəliyə yox, yerdəncə oturub qalmış bu zavallı və enliqaş kişiyə baxdı.

– Bəli, bəli, bunu mən də dünənə qədər bilmirdim. Dünən bu söylədi.

– Kimdir bu kişi, Mirzə? Babalarımızı hardan tanır? Mən bu adamı oxşada bilmədim. – Kəlbəli dəmirçi aşkar diqqət və maraqla bu kişini süzdü.

Mirzə Səbzəli köksünü dərindən ötürüb bir "ah" çəkdi, sonra belə cavab verdi:

– Bu adam deyil, Kəlbəli, bu, bir cindir. Bəli, bəli, heç təəccüb etmə. Dünən qaş qaralan vaxt idi. Bir də baxıb gördüm, bizim quyunun həndəvərində kimsə dolaşır. Şübhələndim və yaxınlaşmaq istədim ki, baxam görəm kimdir. Amma mən bunu etməmiş o özü yaxınlaşıb özünü mənə tanıtdı. Əvvəl-əvvəl bir yüngülcə ətim ürpəşdi. Sonra danışdıqca gördüm ki, xeyir, bu cin zərərdidə bir cinə oxşamır. Nə isə… Məndən xahiş elədi ki, onu sənin yanına gətirim gəlim. Sənə deyəcəkləri varmış. – Son sözünü Mirzə Səbzəli səsini alçaldıb az qala pıçıltıya keçdi. – Sənin rəhmətlik babanın cini olub bu.

Mirzə Səbzəlinin alçaq səslə, az qala pıçıltıyla dediyi bu sözləri dinlədikcə Kəlbəli dəmirçinin çiynindən ta ki tumanınacan soyuq tər axıb getdi…

Kəlbəli dəmirçi öz cinini həyatda bu cür tapdı. Daha doğrusu, babasıının cini gəlib onu neçə illərin ayrılığından sonra bu cür tapdı. Nümayişi-etibar deyilmiydi, əlbəttə ki, nümayişi-etibar idi. Hər adama qismət olmur.

O gündən Kəlbəli dəmirçi bu Cini gətirib həyətindəki köhnə quyunun yanında ona yer düzəltdi. Amma iki gündən sonra Cin gedib girdi bu quyunun içinə, daha çıxmadı, orda qalmaq istədi. Quyunun suyu onsuz da sovulmuşdu, ona görə də Kəlbəli dəmirçi qəlbində narazı qaldısa da, bir söz demədi. O vaxtdan bu köhnə quyu Cinin məskəni oldu. Adına da Cin quyusu deməyə başladılar.

Qocaldıqdan sonra Kəlbəli kişi evdən bayıra qədəm qoymurdu, evin içində də gəzib eləmirdi, tərpənməz hala gəlmişdi. Harda gətirib oturtsaydılar, səsiz-səmirsiz orda da oturub qalırdı. Heç kimlə dinib danışmırdı. Bəzən səhər tezdən gətirirdilər onu həyətin ortasında ən uca alça ağacının altındakı taxtın üstündə uzandırırdılar, dörd tərəfinə yastıq, mütəkkə düzürdülər ki, tərpənsə yumbalanıb yerə yıxılmasın, bir də axşam yadlarına düşürdü, gəlib aparıb salırdılar yerinə, ordaca yatıb qalırdı. Evdə deyirdilər ki, belə tənha vaxtlarda Kəlbəli kişiyə quyudan çıxıb bir cin gəlib

baxır. Oturur saatlarla bunun yanında, su istəyəndə suyunu verir, ehtiyacı olanda çiyninə alıb ayaqyoluna aparır. Kəlbəli kişi ancaq bu cinlə xosun-xosun söhbət edirdi. Yorulub yatanda isə Cin bunun yanında oturub mad-dım-maddım elə hey üzünə baxır, baxışını bir an belə yana çəkmirdi.

Babası Kəlbəlini çox qoca, artıq heydən-əldən düşmüş halında Sərvinaz arvad körpə uşaq ikən görmüşdü. Onu çox dumanlı şəkildə xatırlayırdı. Üzünün cizgiləri yadından çıxmışdı, amma onunla bağlı məqamlar, özü də nanə-turşusu ilə, bu günə qədər gözünün önündən çəkilmirdi. Qoca artıq çox heysiz idi, oturduğu yerdəcə, bir də görürdün, fırfıra kimi ora-bura fırlanan gözlərini yumub huşa gedir, xumarlanıb yatırdı, amma qısa bir müddət keçirdi, qəflətən gözlərini açıb dörd ətrafına diqqət edirdi, elə bil, məxsusi kimisə axtarırdı. Balaca Səlvinazı ilk dəfə bərk-bərk bələyib ona göstərəndə heç nə başa düşməmişdi, balaca körpədən daha çox onun-bunun üzünə səssizcə baxandan sonra yenə gözlərini sağa-sola gəzdirib kimisə axtarmış, tapa bilməmişdi. Naçar halda gözlərini yumub sakitcə yuxuya getmişdi...

Cavanlığında Kəlbəli dəmirçi baməzə bir kişi olmuşdu, məşhur bir sözü varmış, deyərmiş ki, hər adamın bir cini olmalıdır. Bu cin adamın qulluğunda durub onun üçün hər şey eləməyə hazır olmalıdır. Qoçaq adamların cinləri fərasətli cinlər olur. Mənim də bəxtimə belə bir avara cin düşüb, mənim də cinim bu fərsiz cindi. Kəlbəli dəmirçi qonşularına Cin haqqında cürbəcür ağlasığan və sığmayan əhvalatlar danışırdı. Məqsədi isə bu idi ki, qəfildən Cini həyətdə qonum-qonşudan görən olsa onun qiyafətindən və özünü qəribə tərzdə aparmasından qorxmasınlar.

Cinin xəbəri hardasa tələsik, tez, bir başqa yerdə yavaş-yavaş kəndin yaxın və uzaq səmtinə yayıldı. Adamlar, xüsusilə də, cavanlar bütün gecə növbə ilə Kəlbəli dəmirçinin həyətinin arxa tərəfinə yığışır, Cini bir dəfə görmək üçün palçıq hasarın arxasındakı quyunun keşiyini çəkirdi. Onlar Cinin gecələr, daha çox isə sübh tezdən quyudan çıxıb toyuq-cücə hininə getməyini gözləyirdilər. Cin hər sabah obaşdandan, xoruzlar banlamamış gedib həyətin bu biri başında o zaman bir yarıuçuq hin vardı, o hinə girər, toyuq-cücənin haray-həşirinə məhəl qoymadan samanlıqdan bir-iki

yumurta götürüb yenə də quyunun ağzına geri qayıdardı. Hərdən kefi kök olanda hasar dalında gizlənib onu güdənlərə qaşlarını çatıb tərs bir baxış atar, yalandan onlara "hu, hu, hu" deyib çımxırar, həmlə edirmiş kimi atdanıb-düşərdi.

Hasarın o tərəfində duranların isə bayaqdı, ödləri ağızlarına gəlir, hərəsi bir tərəfə pərən-pərən səpələnirdi. Bu zaman Cin dumbul kimi şiş qarnını tutub güldükcə gülür, uğunub gedirdi. Cəsur olub qaçmayanla isə Cin çəpərin bu tərəfində, o cəsur isə o biri tərəfində durub söhbət edərdilər. Əlbəttə, qorxub qaçmayan olurdusa, Cinlə danışmaqda əvvəl-əvvəl çətinlik çəkirdi, amma bu çox çəkmirdi, bir-iki dəqiqədən sonra bu adam özünə gəlir, bir kəlmə ordan, bir kəlmə burdan, bir də baxırdın ki, söhbət uzanıb, bunlar öz deyib-gülməklərində, günəşsə artıq çıxıb göy üzündə öz yerini tutub, xoruzlar banlayır. Cinlə həmsöhbət olanların içində ən üräklisi döş cibində həmişə təzə-tər qızılgül gəzdirən Şəmistan vardı, o idi. Cinə cəsarət eləyib belə demişdi:

– Sənin sehrin də var, yoxsa ancaq elə-belə, üz-gözündən cinə oxşayırsan?

– Nolub mənim üz-gözümə? İstəyirsən sənə sehr edim, söylə, ürəyin nə istir? - Şəmistanın cəsarətindən heç də xoşlanmayan Cin Şəmistandan lovğa-lovğa bunu soruşmuşdu. Sonra çönüb sifətini turşutmuş, təkəm-seyrək tüklərini bir-bir biz kimi başında durquzmuşdu.

Şəmistan çox fikirləşmiş, çox düşünüb-daşınmışdı. Əsas fikri-zikri, niyyəti Cinin bu harın, özündən razı halını, lovğalığını vurub yernən yeksan etmək idi. Düşünmüşdü: "Var-dövlətmi istəyim, sağlıqmı istəyim, nə istəyim, mən ki bilmirəm. Yox, qoy Həmidəni istəyim, onu mənə calamaq dünyanın ən ağır işidi, qız ölsə də, quyruq ələ vermir, cin bunu heç bacarmaz. Var-dövlət tapar, bəlkə quyunun dibində qızıldan-filandan, xəzinədən-zaddan nəsə var, sağlamlıq da bunun üçün çətin bir iş olmaz, otdan-cücərtidən dərmanlıq bir şey düzəldib verər, amma Həmidə… Bu, qəliz məsələdi. Bu, əlindən gəlməz."

– Sən Həmidəni istirsən. Ürəyindən Həmidə keçir, eləmi? İstirsən, bu qız səni sevsin, hımı?!– Cin Şəmistanın tüklü üzünə, üzündə tük altından

bir-birini basıb keçən yaşına yaraşmayan dərin qırışlara diqqətlə nəzər yetirib müjdə verirmiş kimi gözünü qıydı və son sualını verdi. – Sən elə bilirsən, bu mümkün deyil?

Cinin bu mərifətindən çaşıb qalmış Şəmistan heysiz bir halda ancaq başını tərpətdi, ölüvay bir "hə" işarəsi verdi.

Cin onun sözünü gözləmədi:

– Çox mümkündür. Bu gün axşam onu bura, bu hasarın yanına gətir. Sabah isə elçilərini göndərərsən!! – Cin bulanıq gözlərini qıyıb yenə də o mənfur lovğa ədasıyla əmr etdi.

Həmidə kəndin gözəli idi.

Axşam çağı Şəmistan nə cür dillər töküb, nə cür vədlər verməyi qərarlaşdırmışdı, amma heç birinə lüzum olmadı. Həmidə Şəmistanın təklifini eşitcək gözləri parıldadı və elə o dəqiqə qız Cinlə görüşmək üçün razılığını verdi. Həyəcandan ürəyi şiddətlə döyünən Həmidənin yanına düşüb Şəmistan onu hasarın bu biri tərəfinə, Cin quyusunun yanına gətirdi. Ətrafda ins-cins yox idi. Yalnız Cin onları həyət tərəfdə durub artıq gözləyirdi.

Bu günə qədər Cinin xəbərin eşidib üzünü görməyən Həmidə elə ilk dəqiqədən Cindən nə qorxur, nə də hürkür. Xeyli maraq və diqqətlə onu süzməyə başlayır. Saçları çiyinlərini örtən, qaraqaş, qaragöz, xoş əndamlı bu qızı görən Cin isə az qala ağlını itirir və bir könüldən min könülə Həmidəyə vurulur. Qızın əlini əlinə alır. Nə edir, nə etmirsə, Həmidənin ürəyində elə bir tufan qopur ki, qız Cinin əli əlinə dəyincə hər şeyi unudur. Bütün yaddaşı bir anda buxarlanıb göyə uçur. Evini, eşiyini, ata-anasını, bacılarını, hamını, hamını unudur. Üzünə-gözünə bir başqa işıq gəlir, baxışları dəyişir. Həmidə Cinə bu yeni baxışları ilə baxıb gülümsəyəndə daha da gözəlləşir. Bu zaman Şəmistan diqqət edib görür ki, qızın həmişəki cazibəsinin üstünə bir başqa cazibə də gəlib. Şəmistanın yanlarında olub-olmamasına heç bir fikir vermədən Həmidə başlayır Cinin suallarına nazla cavab verməyə.

– Sən bu oğlana niyə zülm elirsən? – Cinin ilk sualı belə olur.

Qız cavab verir:

– Onun borcudu sevdiyi adamın nazını çəksin.

Cin gözlərini yana dikib bu dəfə alçaq səslə soruşur:

– Sən bilirsənmi, sənin nazını çəkməyə bu yer üzündə razı olmayan bəndə, nəinki bəndə, məxluq olmaz?

– Bilirəm, niyə bilmirəm ki?! Amma o bəndə olmayan məxluq da bilməlidi ki, mənim nazım böyükdü, çox böyükdü… Bir də ki, mən özüm istərəm, kim mənim nazımı çəksin, kim isə çəkməsin.

Cin qalın qaşları altından bu dəfə alov püskürən gözlərini Həmidənin təpədən-dırnağa qədər vücudunda gəzdirir, qızı göz görə iti baxışlarıyla soyundurub sonra yenidən geyindirir və bu dəfə belə deyir:

– O məxluq, biləsən, sənin əmrinə müntəzirdi, o məxluq sənə də özü yaşadığı qədər uzun ömür vəd edir. Elə uzun ömür ki, yüzlərlə insan ömrü qədər yaşamaqdan bezib ola bilər ki, bir zaman gələr və sən istərsən, bir quşa çevrilib səmada pərvaz edəsən. O məxluq özü sənə uçmağı öyrədəcək.

Həmidənin gözləri bu sözlərin laylası altında süzülür, nə süzülür, qız az qalır, bihuş olsun, biixtiyar dilindən bu sözlər çıxır:

– Mən ki, nə zamandı səmada pərvaz eləməyin həsrətindəyəm. Mənə uçmağı öyrət…

Və bu zaman Cin qəfildən çönüb Şəmistana deyir:

– Sən get, bir azdan geri dönüb qızı apararsan.

Cin ilə Həmidə arasında gedən söhbət Şəmistana elə gəlir ki, "quş dili"ndədi, bu söhbətdən Şəmistan heç bir şey anlamır. Onu da anlamır ki, nə üçün qəlbində heç bir şübhə, heç bir tərəddüd duymadan Cinin əmrinə tabe olur və onları bir yerdə buraxıb gedir. Amma çox uzaq getmir, yaxındakı ağacın arxasına keçib oradan bunları güdməyə başlayır. Görür ki, Cin Həmidəyə nə deyirsə, Həmidə üzü-gözü gülə-gülə, dodaqları tərpənir, o da nə isə buna deyir. Şəmistan eşitmir, Həmidə isə Cinə "mənə uçmağı öyrət, noolar… mənə uçmağı öyrət…" sözlərini təkrarən pıçıldaya-pıçıldaya ağ, uzun qollarını qorxmadan açıb dolayır bu idbar və çirkin Cinin boynuna. Cin bu əndamı yanmış qızı quş kimi alır arıq əllərinə, keçirdir palçıq hasarın o biri tərəfinə və bunlar bu şəkildə Şəmistanın gözün-

dən itirlər. Ta bundan sonrasını, lap elə əvvəlini Şəmistan xatırlamır. Elə ağacın arxasında ola-ola, özü də bilmir, niyə, yəqin ki, adətkərdəliyindən pencəyinin döş cibində gəzdirdiyi qızılgülü götürüb acgözlüklə bir neçə dəfə qoxlayır. Gülün ki, bir az əvvəl ətrindən adamın huşu başından gedirdi, indi heç bir iyi-zadı gəlmir.

Gözəl Həmidə o gündən yoxa çıxır. Atasının-anasının on qızından biri olan Həmidəyə evlərində üç-dörd gün ağlayıb-sısqayıb bir azdan unudurlar, gedir. Sonralar da belə bir qızlarının olub-olmadığını doğru-dürüst yada sala bilmirlər. Soruşanda səmimiyyətlə təəccüb edib deyirmişlər ki, bizim elə əzəldən doqquz qızımız olub.

O gündən kəndə səs düşür ki, Cin quyusunda Cin artıq tək qalmır, o bu quyuda öz təzə sevgilisiylə yaşayır. Qoca qarılar gizlin-gizlin bir-birinə deyirdilər: "Cinin sevgilisi, başqası deyil, bə kimdi bu sevgili, bilmirsən, yox, sən bilirsən, hə, mən bilirəm, mənə də qırxbuğum Sərvinaz söylədi. Cinin sevgilisi elə o qəfil yoxa çıxan Həmidədi. Eləmi? Elə, elə! Onu görüm, nəhlətə gəlsin, satdı özünü bir cinə. Hər günorta quş cildində quyudan "pırrr" eləyib çıxıb uçur göyə. Ağ günə çıxıb. Qırxbuğum Sərvinaz deyir ki, mən onu uçuşundan tanıram, Həmidədi. Uçub, uçub yenə qayıdır xarabasına… "

Şəmistan bu hadisədən sonra evdən bayıra ayaq qoymadı, bir adamı görmədi, bir adamla görüşmədi. Gecələrin birində heç kimə bildirmədən kəndi tərk edib getdi. Ata-anasını ağlar qoydu. Onun sorağı xeyli müddət sonra gah bu şəhərdən, gah biri şəhərdən gəldi. Oxuyub bitirdiyi İnstitutların birində məşhur ədəbiyyat müəllimi olmuşdu. Deyirdilər ki, Həmidə ilə Cin əhvalatını o, heç zaman xatırlamırmış. Hər şey yaddaşından silinmişdi. Sonralar institutda Mirasın da müəllimi olarkən bir kənddən olduqlarını biləndə Şəmistan müəllimin həmişə yanar ocaq kimi alovlu gözlərinin dibinə qəfildən gəlib bir qaraltı çökmüşdü.

Şəmistan müəllim guşənişin, adamayovuşmaz biriydi. Qohum-qardaşını yaxın buraxmırdı. Heç kimi ya qocaldığından həqiqətən tanımırdı, ya da tanımaq istəmirdi. Həyatının axırına yaxın lap tək-təkcənə qalmışdı. Artıq işə də gəlib-getmirdi. Hərə bir cür qocalır, Şəmistan

müəllim pis qocalmışdı. Üz-gözünü saqqal basmış, gözləri, elə bil, uçuruma düşmüşdü. Ev içində özü-özünə zorla qulluq edə bilirdi. Miras və bir də iki tələbə yoldaşı ürəklərində ona acıyıb hərdən-birdən yanına gedir, bacardıqları qədər qulluğunda dururdular. Bir gün gələndə zəngi nə qədər basdılarsa, qapıya yaxınlaşan olmadı. Qonşuda açar varmış. Qapını açıb içəri girdilər. Otaqdan kəskin bir iy gəlirdi. Şəmistan müəllimin qollarını gen tutub çarpayıdan üzüüstə yerə yıxılmış cəsədi çoxdan soyumuşdu. Barmaqlarının arasında qup-quru qurumuş qızılgül vardı.

Həqiqət naminə onu demək lazımdır ki, Mirzə Səbzəlinin və nənəsinin söhbətində çoxlu açıq qalmış məqamlar var. Məsələn, – Miras müəllim daşın üstündə oturub fikirləşirdi, – Cin nə üçün, səbəb nə olur ki, ulu babasının cini ola-ola onun yanından çıxıb gedir və bir də uzun zaman keçdikdən sonra Mirzə Səbzəlinin həyətindəki quyunun yanında peyda olur?! "Sənə deyəcəkləri varmış..." Mirzə Səbzəli Kəlbəli dəmirçiyə, gərək ki, belə deyir. Nə imiş Cinin deyəcəkləri?!

Sonra. Nənəsinin sözlərinə görə Kəlbəli dəmirçi Cindən qonşulara "ağlasığan və sığmayan" söhbətlər edirmiş. Babası Kəlbəli belə deyirmiş: "... hər adamın bir cini olmalıdı. Bu cin adamın qulluğunda durub onun üçün hər şey eləməyə hazır olmalıdır. Qoçaq adamların cinləri fərasətli olur. Mənim də bəxtimə bu avara cin düşüb, mənim də cinim bu fərsiz cindi. Kəlbəli dəmirçi qonşularına Cin haqqında cürbəcür ağlasığan və sığmayan əhvəlatlar danışırdı." Bunları o, nənəsindən eşidib. O zaman sual olunur. Niyə Kəlbəli dəmirçi öz Cinini fərsiz adlandırır?! Onun haqqında qonşularına hansı ağlasığan və sığmayan əhvalatlar danışır?! Müəmma? Müəmma!

Sonra. Həmidə ki, Cin tərfindən quyuya salınır və quşa döndərilir, bu qız nə zamana qədər quyuda yaşayır?!

Sonra. Bu qız, yəni, Həmidə həqiqətənmi kəndin yarısının dediyi kimi Cinə vurulub könüllü olaraq onunla quyuda yaşamağa qərar verib, yoxsa kəndin o biri yarısının qəti inamına görə Cin qızı bu işə tilsim və sehir vasitəsilə vadar və məcbur edib?! Çünki bu hadisədən sonra Həmidənin evində ata-anası da bu adda qızları olduğunu (yəqin ki, Cinin təsirilə)

unudub getmişdilər, xatırlamırdılar. On qızdan biri olmasın, dünyamı dağılacaqdı?! Hətta Həmidənin atasını gecələrin birində Cin quyusunun həndəvərində ondan-bundan gizlənərək lüt-üryan qızın "kino"sunun başlanmasını gözləyən yerdə görənlər də olmuşdu.

Miras müəllim bunları beynindən keçirdikcə qəribə bir tərəddüd içində qaldığını hiss edirdi. Bu gün quyudan "pırr" eləyib uçan quş həmən Həmidə olmasın?!

Və sonuncu anlaşılmaz məqam. İndiyənə qədər Cin bu quyudadı, yoxsa yox?! Cin sağdı, ya ki, ondan artıq əsər-əlamət qalmayıb?!

Bütün bunlar Miras müəllimə əndazəli və ölçülü-biçili, uzun bir şeir kimi gəlirdi. Bu elə həqiqətən şeir idi ki, vardı. Cinin buralara gəlib çıxması, küsüb getməsi, sonradan qayıtması, quyuda məskən salması, kəndin ən gözəl qızına vurulması, qızın da onun sevgisinə sevgi ilə cavab verməsi, hətta quşa döndərilməyə də razılıq verməsi (razılıq verməmişdisə də – elə bunun özü!) bütün bu uzun eşq macərası şeir deyildi də, nə idi?! Bir vaxtlar gecələr soyunub lüt-üryan olan Həmidənin bütün kəndin ağlını başından alan və quyudan duman kimi buxarlanıb yavaş-yavaş yuxarı, göyə doğru üz tutan quyu içindəki mərmər vücudunun quyu üstündəki inikası, bu zaman quyunun dərinliyindən əks-səda kimi eşidilən boğuq və anlaşılmaz sözlərin ehtiras və həyəcanla bir-birinə sarmaşıb rəqs, əlbəttə ki, rəqs, başqa heç nə yox, dəli bir rəqs eləməsi və bu dəli rəqsin şeirdən başqa heç nə olmaması Miras müəllimə gün kimi aydın idi. Şeir səsləri altında quyunun dibindəki lüt-üryan vücudun buxara, bəlkə dumana dönmüş inikasının quyunun içindən yavaş-yavaş, rəqs edirmiş kimi çıxıb əyilə-düzələ göylərə yol almasını seyr eləmək üçün hasarın o tərəfində gözlərilə sübhü açan kənd növcavanlarıyla bir yerdə vaxtilə onun özü, Miras müəllim qəlbi çırpına-çırpına, amma hasarın bu tərəfində alça ağacına qısılıb bütün bədəni titrəyə-titrəyə o möhtəşəm anı gecə-gecə gözləməmişdimi?! Bu zaman quyunun içində nə cür ləzzətli hadisələrin baş verdiyini dönə-dönə xəyalında canlandırmamışdımı?!

Həmidənin kənd əhlinin dilində əfsanəyə çevrilmiş gözəl vücudunun ağ dumana dönmüş inikası quyunun ağzından çıxıb ulduzlu göylərdə

əriyən kimi elə o an aşağıda, quyunun dibində ehtirasla rəqs edən o əcayib səslər də kəsilir, ətrafa ölü bir sükut çökürdü. Bu filmə gözlərini dörd açıb, nəfəslərini qısıb, ağızlarının suyunu axıda-axıda baxanlar, nədənsə, bundan sonra səssiz-səmirsiz, heç nəyi müzakirə etmədən (filmdən əvvəl isə sital-sital müzakirələr bitirdimi, bitmirdi) hərə başını aşağı dikib yorğun bir əhvalla, fikir içində istəməyə-istəməyə öz həyatinə, evinə dağılırdı. Ancaq uzaqlarda bir-iki köpək özlərini qurda bənzədib bir-iki ağız ulaşırdı, yəni, yadımıza salırdılar ki, televizorda olan kimi dünyanın səsi alınmayıb, bilin, səs var, amma indi məqamı deyil.

Qadın əynindəkiləri bir-bir, lüt-üryana qədər soyunursa, bu bir şeirin əvvəldən axıracan misra-misra deyilməsidi. Şeir deyilib qurtaranda və artıq sonuncu misra qalmayanda, qadın elə bu zaman sonuncu əşyasını soyunub əynindəkilərdən xilas olur və ətrafa sükut çökür. Lüt qadın sükut kimi bir şeydir. Miras müəllim ki ədəbiyyat müəllimi idi, ona görə də nə zamansa nənəsinin ona danışdıqlarını başqa görüntülərə çevirib təsəvvüründə canlandıra bilmirdi.

... Cin quyusunun yanındakı qədim daşın üstündə xeyli vaxt dinməz-söyləməz oturub qalmış Miras müəllim, nəhayət, başını silkələyərək keçmişin xəyal-düşüncələrini özündən uzağa qovdu, bir kibrit alışdırıb bayaqdan bəri barmaqlarıyla əzişdirdiyi papirosu yandırdı. Sinədolusu tüstünü içinə çəkib ciyərlərinə ötürdü. Papirosu ləzzətlə çəkib qurtarandan sonra əllərini dizinə basıb daşın üstündən quş kimi ayağa qalxdı, qorxusuz-hürküsüz gedib quyunun yanında bir tərəfə atılıb qalmış girdə dəmir lövhəni çəkib-sürüyüb quyunun ağzını bərk-bərk örtdü. Bu zaman quyu yolundakı sonuncu alça ağacının quş dimdiyinə bənzər budağı tərpənib ehmalca cığıra toxundu. Çox-çox yuxarılardan baxan olsaydı, elə bilərdi, ağappaq bir quşcuğaz dimdiyini aralayıb nəsə demək istəyir.

*2013-cü il*

# Qədim mayyalara cavab

*Nihel Hacıyevanın xatirəsinə*

Dünyanın axırından sonrakı günün söhbətidir. Hələ eralardan əvvəl qəribə bir uzaqgörənliklə qədim mayya xalqı dünənki gün üçün dünyanın dağılacağını vəd etmişdi. Amma şükür, hər şey ötüşdü. "Dünən" öz aramlı yerişiylə dünyamızdan ötüb-keçib gecənin içində əridi və o biri günlər kimi əbədiyyətə qovuşdu. Bu zaman kainatda ciddi bir dəyişiklik olmadı. "Qara deşiklər" yenə də gözəgörünməz sualtı minalar, bəlkə də nəhəng akulalar kimi qalaktikamızın həndəvərində ölçüyəgəlməz vahiməli ağızlarını açıb möhtəşəm maqnit gücüylə bizi hadisələrin üfüqünə sarı cəzb etməyində, biz isə dirənməyimizdəyik ki, dirənirik.

Elə bunu duymaq nə qədər gözəldir ki, balaca dünyamız bu gün yenə öz əvvəlki iş rejimindədir – çalışır, sevir, nifrət eləyir, ağlayır, gülür, yaşayır, bir sözlə, elə bilir ki, ciddi işlərlə məşğuldur. Hamı sağ və salamatdır. Adamlar sevinə-sevinə bir-birini təbrik edir, bəziləri belə "gic-gic" şeylərə əvvəlcədən inanmadığını cidd-cəhdlə kiminsə yadına salırdı. Amma dünən bu adamların əsəbləri tarıma çəkilmişdi və günün sonunda, saat 12-yə bir dəqiqə qalmış onlar ürəkləri ata-ata, bədənləri əsə-əsə, dodaqları ilə səssizcə "Ya Allah, mənə yazığın gəlsin" pıçıldaya-pıçıldaya

gözlərini qorxu içində bərk-bərk yummuşdular – buna əminliklə and içmək olar.

Mənə isə elə gəlir ki, dünən gecə dünyanın sonu oldu. Bu baş verdi. Və indi biz bu sondan sonra yaşayırıq. Biz bir-birimizin yuxusuna köç etmişik. Heç olmasa, bu şəkildə biz qədim mayyaları aldada bildik.

Mən bilirəm, nə edəcəyəm. Səhər-səhər bunu artıq düşünmüşdüm. Mən bu gün hökmən gərək elə bir şey edim ki, başqa vaxt bunu etmək ağlıma da gəlməsin. Nə isə qeyri-adi, heç kimin… yox, heç özümün də özümdən gözləmədiyim bir iş. Bilmirəm, nə, amma nəsə eləməliyəm. Dünyanın davamına mənim də nəsə bir töhfəm olmalıdı. Qədim mayyalara cavab kimi… Bu fikirlər işdən qayıdıb yaşadığım evin piyada yoluna çatanda yenə gəlib beynimə girdi və mən elə bu zaman maşın yolunu keçib bizim qarşıdan boşluq içində sal qaya kimi ucalan onmərtəbəli, zəhmli binamızın adda-budda, müxtəlif mərtəbələrə səpələnmiş işıqlarını gördüm. Ürəyim rahat bir arxayınçılıqla vurdu. Görünür, dünənki günün xofu mənim də canımdan tam keçməmişdi. Qədim mayyalar niyyətlərini saf ürəklə tutub əhdlərinə vəfalı çıxsaydılar, bu bina indi öz yerində olmaya da bilərdi.

Bizim binanın altında kiçik bir baqqal dükanı var. Son alacağımı, adətən, burdan alıram. Dükanın sahibi və satıcısı eyni adamdır – Rəşad. Kefi kök idi. Məni görüb gülümsündü:

– Gördün, qonşu, hələ dünyanın axırına çox var?! Odu, dünən axşam Putin də televizorda dedi ki, dünyanın sonu olsa-olsa milyard ildən sonra olacaq, eşitdin? O vaxta kim ölə, kim qala… ha-ha-ha… Sən uduzdun.

Dünən ki, evə qayıdanda dünyanın dağılmasıyla bağlı onunla mərc gəlmişdik, mən mayyaların tərəfində idim, onu yadıma salırdı. Mərci uduzmuşdum. Dünya dağılmamışdı.

– Borclu borclunun sağlığını istər. Çörək saxlamısan? – Mən soruşdum.

– Həri. Təp-təzə.

Rəşad əlini atıb piştaxtanın altından bir dənə sellofana bükülmüş zavod çörəyi çıxartdı:

– Dünyanın öz yoluna davamı münasibətilə sənə kiçik bir hədiyyə… Uduzan sən, hədiyyə verən – mən. Ha-ha-ha…

Mən mağazadan çıxıb bir az da irəlilədim və yolu burulub binamızın dar və uzun həyətinə girmək istəyirdim ki, qəfildən qarşımı on beş-on altı yaşında bir oğlan uşağı kəsdi. Adi dilənçi idi. Son vaxtlar beləlləri lap çoxalmışdı. "Əmi, əmi, qurban olum sənə, acından ölürəm, nolar…" Bir söz, sülənti və başqa heç bir şey! Beləlärindən zindeyi-zəhləm gedir və mən onlara pul vermirəm. Əhəmiyyət vermədən yanından ötüb yoluma davam etdim. O isə yalvara-yalvara qırsaqqız olub dalımca gəlməyə başladı, birdən lap həyasızlaşıb gödəkçəmin ətəyinə də əl atdı. Addımlarımı yeyinlədib onun iyrənc səsindən canımı qurtarmağın yolunu fikirləşirdim ki, səhər-səhər özümə verdiyim söz yadıma düşmədimi, düşdü. Axı bu gün mən nə isə qeyri-adi bir iş görməliydim. Hətta özümdən də heç zaman gözləmədiyim bir iş! Bu oğlan əlimə göydən düşmüşdü.

"Belə bir perspektivə nə deyirsən?" – Mən beynimdə öz-özümə sual etdim. – "Bu idbar varlığı evə aparıb yedirdib-içirdib cibinə pul, əlinə əyin-başdan ibarət bağlama versəm, görəsən, necə olar? Bu mənim dünyanın davamına töhfəm olarmı? Qədim mayyalara cavabım kimi?! Çox ola bilər ki, mən səhv düşünürəm. Bəlkə, həqiqətən də, indi səhv bir iş edəcəyəm və bunu özümə heç vaxt bağışlamayacağam, kim bilir?! Amma bəlkə kiminsə bir başqasının yuxusunda bu, səhv-zad deyil, doğru hərəkətdir?! Biz axı bir-birimizin yuxusundayıq… Nəticə acınacaqlı olsa, uzaqbaşı bir neçə gün əzab çəkəcəyəm. Olsun! Bəs arxama düşüb zəli kimi məni izləyən bu iyrənc səsin sahibi hər gün əzab, işkəncənin içində deyil?! Bəs biz həyatımızda heç olmasa bir dəfə dilənçilərə minnətdar olmamalıyıq ki, onlar bizə imkan verirlər biz onlara yaxşılıq edə bilək?!" Dodağım qeyri-ixtiyari qaçdı. Məncə, əlimə yaxşı bir fürsət düşüb. Nə olar, olar. Belə düşünüb qərarımı verdim. Dalımca sızıldaya-sızıldaya gələn və məndən əl çəkməyən bu gədədən axı mən niyə qaçmalıyam? Yol boyu özüm-özümlə oynadığım "bir aktyorun teatrını" daha uzatmayıb getdiyim yerdəcə ayaq saxladım və qəfildən ona sarı çöndüm.

Dilənçi oğlanın təhər-tövründən cin hürkürdü.

... Çaşqınlığından nə edəcəyini bilməyən qonağı az qala itələyə-itələyə öz subay mənzilimin qapısından içəri saldım. Gödəkcəmi çıxarıb divardakı asılqandan asdım. Əlimdəkiləri mətbəxə apardım, ona isə səsləndim ki, soyunsun. O, hələ də qapı ağzında dayanıb nə edəcəyini bilmirdi. Düşündüm ki, ona çox da diqqət yetirməyim. Qoy macal tapıb özünə gəlsin, otağa, şəraitə alışsın.

Dəhliz tərəfdən səs-səmir gəlmirdi.

– Sən hardasan? – Mən əlimdə mətbəx bıçağı qapı ağzına gəldim.

Oğlan yox olmuşdu. "Bu hara itdi?!" Təəccüblənməyə macal tapmamışdım ki, vanna otağından unitazın suyunun şaqqıldayan səsi eşidildi. Bir azdan qonağım vanna otağından çıxdı.

– Əl-üzünü yaxşı-yaxşı yudun? – Mən soruşdum.

– Nədi ki? – O, əlimdəki bıçağa gözucu nəzər salıb sakitcə soruşdu.

– Yusan yaxşıdı. Bir azdan yemək yeyirik. Ac deyilsən? Mən möhkəm acmışam.

O cavab vermədi. Qayıdıb sözəbaxan, ağıllı uşaqlar kimi təzədən vanna otağına girdi. Mən mətbəxə keçməzdən əvvəl dəhlizdəki qarderobda qurtdalandım. Çoxdandan qalma güllü, amma təmiz, iki, ya üç dəfə geyilmiş bir köynəyim vardı, tapıb vanna otağının ağzından ona uzatdım. Qonağımın əynindəki köynək lap üzülüb getmişdi, hətta köynəkdən qəribə, sərt turşu iyi gəlirdi.

– Bu təmizdi, istəsən, bunu gey, – dedim. O, cavab verməyib məhzun bir baxışla mənə baxdı. Mən köynəyi asılqandan asıb təzədən mətbəxə qayıtdım.

Bacım səhər bizə gəlmişdi. Bunu ən azı mətbəxin sahman-səliqəsindən bilmək olardı. İki-üç gündən bir gəlib mənim evimdə əl-ayaq eləyir, təmizlik işləri görür, nə isə bişirir, düşürür, nə isə öz evindən bişirib gətirirdi. Bu gün də yeməkdən bol idim. Çalışdım ki, masanın üstündə hər şey sahman-səliqəli olsun. Bu çəngəlin yeri, bu bıçağın, sular, kompot bu tərəfdən, salfetkanı belə qoyaq, bir sözlə, masanın üstünü öz bildiyim kimi bəzəməyə başladım. Bir az keçmişdi ki, arxamda bir hənirti hiss elədim. O, səssizcə gəlib arxamda dayanmışdı. Əynində mənim verdiyim köynək

vardı. Küçədəki iyrənc səsi hara itib getmişdi, bir az qalın, bir balaca məxməri səslə soruşdu:

– Mənim köməyim lazımdı? – Bu məxməri səs, elə bil, çox-çox uzaqdan gəldi.

– Yox, sağ ol. Sən keç, istəyirsən otur burda. – Mən ona yer göstərdim.

O yerinə keçə-keçə:

– Mənim adım Hüseyndir. – dedi.

Yerinə oturandan sonra isə əlavə elədi:

– Əsl adım Nazirdi. Amma hamı küçədə məni Hüseyn çağırır. Birtəhər çıxır. Nazir, özü də… dilənçi. – Altdan-altdan mənim üzümə baxaraq çarəsiz-çarəsiz gülümsədi. – Gülməlidi bir az. Hüseyn adına isə adamlar işığa gələn kimi gəlirlər…

– Çox gözəl. Mənim də adım Farizdi. Tanışlığımıza şadam. "Hər şey gərək sahman-səliqəylə olsun."

– Mən də… şadam. Küçədəkinə görə… – O, deyəsən, üzrxahlıq eləmək istəyirdi.

– Çıxart yadından getsin. Boş şeydi. – Mən bu mövzunu inkişaf etdirmək istəmədim. "Bu mövzunu bəri başdan qapatsaq, düzgün olacaq," – düşündüm.

Nazir canlandı. Bildirmədən baxıb gördüm ki, onun yanaqları allanıb və gözləri işıldayır. Otağı elə oturduğu yerdəncə o tərəf-bu tərəfə çönərək sakit-sakit, hətta məhrəm-məhrəm gözdən keçirməyə başladı. Onun özünü aparmağı, danışığı, oturuşu, hərəkətləri artıq küçədəki Hüseynin hərəkətləri deyildi, mənim yanımda indi küçədəki Hüseyn yox idi, ola bilər, Nazir vardı.

– Burda tək yaşayırsan? – Nazir soruşdu.

– Tək yaşayıram. Bacım var, hərdən gedib-gəlir. Yaxınlıqda olur.

– Hm… lap tək çətin olar… – Onun səsi bu dəfə də uzaqdan gəldi. Qəribə idi, bu səs gah uzaqlaşırdı, gah yaxınlaşırdı.

Mən düşündüm ki, birdən-birə bu bataqlığa, yəni, ana-bacı mövzusuna, doğmalar, tənhalıq, təklik kimi ürəküzən, qəliz söhbətlərə girmək düzgün olmaz. Ona görə mən bu xətti də tutub getməkdən vaz

keçdim. "Hürkütməsəm, yaxşı olacaq." Nə isə, susdum. Amma o "hürkən" bir adama heç oxşamırdı. Söhbət öz-özünə hərlənib yenə mənim qaçdığım mövzunun üstünə gəldi. Məncə, o özü bunu istədi.

– Mənim heç kimim yoxdu. Heç anam da yoxdu. Bilmirəm, nə zamansa olub ata-anam, yoxsa yox…

– Rəhmətə gediblər? – Mən stolun üstündə boşqablara yer eləyə-eləyə ehtiyatla soruşdum.

– Yəqin ki. Bəlkə də. Bilmirəm. Amma getməsəydilər, məni axtarıb tapardılar. Düz demirəm?! Sən necə bilirsən?..

Mən heç nə bilimirdim. Nazir (sonralar bildim ki, bu adı da ona yetimlər evində qoyublar) öz həyatını mənə bir film kimi danışdıqca düşünürdüm ki, bütün talelər, istər xoşbəxt birisinə məxsus olsun, istər bədbəxt birisinə – hamısı bir-birinin eynidir. Eyni stereotip süjet – eyni doğuluş, eyni hiss-həyəcan, eyni yanlışlıqlar, eyni səhvlər, eyni peşmançılıqlar, eyni üçbucaq: sevgi-məhəbbət-ayrılıq, məhəbbət-ayrılıq-sevgi, eyni naməlum gələcək, eyni ölüm, sonra hər şey təzədən, eynu doğuluş…

Nazir yedikcə danışır, danışdıqca bir az da həvəsə gəlir, coşur, bir-birindən ağlamalı, dramatik situasiyalar qurur, böyük bir qabiliyyətlə filmlərdə olan kimi olmazın ehtiraslar yaşayan əzabkeş bir gəncin canlı obrazını yaradırdı. Mən əsl Bollivudsayağı bir tarixçə dinləyirdim. Əlbəttə ki, bu oğlanın dediklərinə sonadək inanmırdım, çünki bu cəfəngiyyata ağlı başında olan bir adam inanmazdı. Onunla görüşdüyüm dəqiqədən üzü bu yana heç nə həqiqətə oxşamırdı. Amma özümə ki, söz vermişdim, gərək bu oyunu axıra qədər oynayaydım. Bəlkə kiminsə yuxusunda bunlar həqiqətdir?! Ona görə də o danışdıqca hərdən-birdən ona mülayim bir səslə, daha çox üz-gözümlə "züy" tuturdum, "hə", "elədi", "yox a?" kimi sözlərlə ona öz loyallığımı nümayiş etdirməyə çalışırdım.

Nazirin olardı, dediyim kimi, on beş-on altı yaşı. Nə arıq idi, nə kök. Bir az burnu sivri və uzun idi, sir-sifətinin əndazəsinə uyğun deyildi. Hə, bir də gözləri xumar-xumar, məhzun-məhzun baxırdı. Bacım belə

baxanlara "xam baxır" deyir. Xam baxanların isə gözləri çəp olur. Nazirin də gözləri azacıq çəp idi. Üzünə təbəssüm gələndə bu çəplik itirdi.

Mənim onu yavaş-yavaş, bicliklə söhbətə çəkməyimə ehtiyac olmadı. Nazir, elə bil, yemək yediyi vaxtın içində qarşısına belə bir məqsəd qoymuşdu ki, küçələrə düşüb nə üçün bu ikrahedici işlə, yəni, adamların ətrafında zəli kimi fırlanıb-dolaşıb dilənçiliklə məşğul olmasına mənim gözümdə haqq qazandırsın. Məni inandırmağa çalışırdı ki, onun taleli gəncin bu dünyada, bu vətəndə başqa bir çıxış yolu yoxdu. Ürək qızdırdığı adamlar – öz müəllimi və sevdiyi qız – öz sinif yoldaşı ona elə bir xəyanət ediblər ki, əslində, Nazir gərək onların ikisini də öldürəydi, amma o, müəllimini bıçaqlayıb və yetimxanadan qaçıb. Özü də hansı müəllimini – onun hər bir dərdinə şərik olub canyanğısı ilə ən ağır anlarında yanında olan, həmsirri saydığı, ən böyük sirrini etibar etdiyi, sevgisi barədə yalnız ona danışdığı, yolunda az qala ölümə getməyə hazır olduğu kimi, kimi – Xasay müəllimi.

– Bilirsən, bu Xasay necə adam idi?! Ən çətin dərs onunku idi – riyaziyyat! İki rüb mənim qiymətimi elə-belədən, heç nədən yazmışdı. Axşamlar bizim yataqxanada növbə çəkəndə gecə yarısından xeyli keçmiş kitabxanada outrub onunla nə qədər söhbətlər edərdik… Təklikdən, həyatdan, keçmişdən, gələcəkdən. O yaxşı bilirdi ki, mənim heç kimim yoxdur. Bizdə belədi. Kiminsə xalası var, kiminsə əmisi, kiminsə qohumu, yaxın, ya uzaq. Mənim isə heç bir kəsim, heç kimim… Xasayın otuz yaşı olardı. Amma ailə qurmamışdı. Ailə qurmağın qorxusu vardı canında… Nə isə. Bunu demək istəmirəm. Bu barədə ancaq mənimlə söhbət edər, mənimlə məsləhətləşərdi. Gecələr vağzalda yük daşıyıb pul qazanmasını da ancaq mən bilirdim. Söz vermişdi ki, bir dəfə məni də özüylə aparacaq, eh… Hərdən də soruşurdu, bu sevdiyim qızın, Leylanın yəni, xoşu nədən gəlir, kimi var, kimi yoxdur… Mən nə biləydim, alçaq bunu niyə soruşur?!

– Özünü haqlı sayırsan? Heç peşmançılıq keçirmədin onu bıçaqladığınçün?

– Bir qram da özümü günahkar saymıram. Bircə ona yanıram ki, arxadan vurdum onu, gözlərini görmədim. O da görmədi məni. Gərək görəydi.

Sən mənim yerimdə olsaydın neynərdin, Fariz? – Nazir, deyəsən, yavaş-yavaş unudurdu ki, biz onunla indicə tanış olmuşuq, mən onun məktəb, lap elə küçə yoldaşı deyiləm. Bu, bir tərəfdən yaxşı idi.

– Hmmm…

– Yox, açıq söhbət… Məndən bütün bunları öyrən, sonra get qıza qırmızı şarf al, bağışla… Özünə də bərk-bərk tapşır ki, bunu heç kimə demə, illah, çəpgöz Nazirə demə. Sən fikir vermisən, qıza deyib, gözləri Nazirin çəpdi. İt qızı da bunun hədiyyəsini qəbul eləyib… Təsəvvür eliyirsən?

– Əlbəttə, yaxşı hərəkət deyil. – Bundan başqa söz tapa bilmədim ona deyim, hiss elədim ki, bu dəfə səsim biganə və soyuq çıxdı.

O, əksinə, qızışdı:

– Yaxşı hərəkət deyil??? Çox alçaq hərəkətdi. Heç mən o qızı, tutalım ki, sevmirəm. Yenə də alçaq işdi. İnsan belə bir iş tutar?! Kimə, kimə, öz yaxın bildiyin adama… O adama ki, sənin üçün ölümə gedər. Vacibdi, Leyla olsun, vacibdi?.. Gərək onu da vuraydım. İt qızı, it… – Nazir qızışıb başlamışdı, az qala, öz-özü ilə danışmağa, birdən mən yadına düşürdüm, duruxurdu. – Sən elə bilmə, Fariz, mən kinli deyiləm… Amma çəpgözlüyün bura nə dəxli? – Mənim soyuq tərzimdən sonra Nazir, deyəsən, ehtiyat elədi ki, kənardan baxana zalım adam təsiri bağışlaya bilər. Belə düşünmüşdüsə, bu da pis deyildi.

Nazir davam edirdi:

– Mən… bunu vurandan sonra aydın məsələdi ki, məktəbdən, yataqxanadan qaçdım. Qıza dəymədim, yazığım gəldi. Bir dənə söz dedim ona. "Sənin taxsırın yoxdu…" dedim. Yəni, taxsır məndədi ki, sənə inanmışam. Üzünə də baxmadım, çıxıb getdim. Nadya xala var, bilmirəm niyə, ancaq mənim yanıma məktəbə hərdən-birdən təkcə o gəlirdi, o da uşaqlıqda. Bir-iki dəfə evinə də aparmışdı. Əvvəllər şübhələnirdim ki, bu mənim anamdı. Yox, deyilmiş. Xaç çəkib and içdi. Bəs kimimdi, onu da demir. Eybi yox, onsuz da öyrənəcəyəm. Bir dəfə bu Xasay dedi ki, onlarda, xristyanlarda müsəlmana yalandan and içmək günah deyil. Nə isə… Mən bu Nadya xalagildə gizləndim. İlk günlər evdən bayıra çıxmırdım. Ürəyim partlayırdı. Amma bir

məktəb dostum var, Saday, mənim üçün Nadya xalagilə gəlib xəbər gətirirdi, deyəndə ki, krizisi bunun qurtardı, üç gün krizisdə qaldı, indi həkimlər deyir, Xasay yaşayacaq, inanmazsan, Fariz, mən ağladım. Özümçün sevinmirdim, başa düşürsən, onunçün sevinirdim. Niyə – onu da bilmirəm. Alçağın biriydi. Mən axmaq isə ona ürək qızdırmışdım. Amma, vallah, qəribə işdi, hər gecə yuxuma girirdi, hər gecə Allaha yalvarırdım. Üç gün, üç gecə. Görükür, o da mənim səsimi eşitdi. Çox pis iş görmüşdüm mən. Amma Allah səsimi eşitdi, günahımdan keçdi. Hadya xala deyir, Allah sənin günahından keçib. Çünki üç gün, üç gecə yatmayıb Allaha yalvarmısan. O da yalvarırmış… Sən necə bilirsən, o əclafın diri qalması o deməkdi ki, Allah mənim günahımdan keçib?

Nazir danışdıqca yavaş-yavaş balaca yumağa dönürdü. Məhzun baxan, mən indi fikir verdim, çəp gözlərini qarşısındakı nimçədə sonuncu tikəsinə zilləyib durmuşdu. Ona baxıb mənim ürəyim sızıldadı. O bu son sualını bəlkə də indiyənə qədər özü-özünə milyon dəfə vermişdi. Bir tərəfdən güman edirdi ki, belədir, yəni, Allah onun günahından keçibdir, o biri tərəfdən isə yenə şübhəsi vardı. Yəqin ki, ömrünün sonuna qədər bu sualı özünə verəcəkdi.

– Deməli, peşmansan?.. Tutduğun işi bir də görməzsən, sidq-ürəklə tövbə edirsən?..

Mən bu sualları verərkən bir "dəli" ümidim vardı, güman edirdim ki, o, məhzun baxışlarıyla mənə baxıb "peşmanam, çox peşmanam…" deyərək başını sinəmə qısıb hönkür-hönkür ağlayacaq. Üz-gözü tutqun idi, əlləri əsir, səsi titrəyirdi. Bu dəqiqə o, özü müəllifi olduğu filmin tam içində idi. Bollivud filmi elə belə də davam etməliydi.

– Qəti peşman deyiləm!! – Nazir, elə bil, qəfildən yuxudan ayılıb dirçəldi, onun səsi codlaşdı. Sonra oturduğu yerdəcə bütün bədənini silkələdi və nədənsə çox sərt bir şəkildə öz çəp və dikbaş gözlərini üzümə dikdi. Filmin içindən çıxmışdı. O məhzun baxışlar bir anın içində uçub hara getdi?!

Onun hərəkətlərindəki bu gözlənilməzlik məni diksindirdi.

– Aydındı…– Mən dedim.

Əslində isə, heç nə aydın deyildi. Nazir öz söhbətini belə tamamladı:

– Bircə onu bilirəm ki, mən onun sayəsində bu zibilə düşmüşəm. Bu alçaq işlə məşğulam. – Dodaqlarında yenə ona yaraşan, bu zaman burnunun uzunluğunu harasa itirən o məhzun təbəssüm oynadı. – Hara gedə bilərəm ki?! İşə düzələ bilmərəm, məktəbə də qayıda bilmərəm. O saat tutacaqlar. Nadya xaladan başqa bir adamım yoxdur. Bizim bu məhlənin dəstəbaşçısı deyir ki, bir az da "işlə", çıxıb get burdan. Birbaşa Rusiyaya! – Son sözlərini yekə kişilər kimi qətiyyətlə dedi və gözləri işıldadı. – Görək hələ başımıza nə gəlir…

Bir müddət ikimiz də nə dindik, nə də danışdıq. Mən fikir içində idim. Əlbəttə, səhv idi, əvvəlcədən səhv idi bütün bunlar. Mayyalara cavab vermək axı kimin nəyinə lazım idi?! Kimə desən, gülər, düz də elər. Birdən-birə yorulmuşdum, bütün həvəsim itmişdi. İndi mən neyləyim, bu adamı gecə evdə saxlayım, yoxsa bir eyhamla ona başa salım ki, yedin-içdin, al bu da sənə cibxərcliyi, bu paltar, bu ayaqqabı (beynimdə tələm-tələsik ona verəcəklərimi götür-qoy edirdim), artıq getsən yaxşı olar?! O çıxıb getsəydi bircə, mən tək qalsaydım bircə… Bu, bir xoşbəxtlik olardı. Vurnuxa-vurnuxa qalmışdım. Nə edəcəyimi bilmirdim. Çıxış yolunu isə Nazir özü tapdı.

– Mən gedim. Gecdi.

– Bəlkə… – Mən yalandan dil-ağız eləmək istədim. İlahi, bu, kimə lazım idi?!

– Yox, qala bilməyəcəm. Sağ ol. Bilmirəm, məni niyə bura gətirdin, onu da bilmədim, mən özüm niyə bura gəldim, amma sağ ol. Çoxdandı, heç kimlə belə danışmamışdım. – O, böyük adamlar kimi ədəb-ərkanla, dediklərini ölçüb biçə-biçə danışırdı. – Nadya xalanın bir xəstə qonşusu var, Mustafa dayı, onun da heç kimi yoxdu. Yaşlı adamdı, yataqdan durmağı əməlli-başlı zülümdü. Vaxtilə Nadya xalaya nəsə yaxşılığı keçib. İndi arvad ona qulluq edir. Nə isə… Mən axşam evə yemək çatdırmalıyam. Gecikmişəm. – O ayağa qalxdı.

… Nazir üçün tələsik hazırladığım bağlamanı əzilib-büzülmədən əlinə aldı. Böyük bir həvəs və daxilimdəki sevinclə stolun üstündə, buz

dolabında bütün yeyiləsi nə vardısa yığıb ayrıca bir bağlama düzəltdim. Elə bil, bir az rahatlaşdım. Qapının ağzında təpədən üzü aşağı son dəfə onu süzdüm. Ayaqqabıları lap köhnə idi.

– Çıxart bunları. Ala, bax, üç-dörd dəfə geymişəm… –Az qala zorla öz ayaqqabılarımı elə buradaca qapı ağzında ona geyindirmək istədim.

– Razmerimiz eyni deyil… – Nazir gülməyini güclə saxlayırdı. – Ayağıma olmayacaq…

Mən peşman-peşman ona baxdım.

– Sən darıxma. Əynimdəki bu paltarlar mənim iş paltarlarımdı. – Nazir bic-bic üzümə irişdi. – Evdə yaxşıları varımdı. Mustafa əmiyə isə bəlkə yaradı. – Nazir beynində nəyisə götür-qoy edə-edə ayaqqabıları diqqətlə nəzərdən keçirdi. – Amma o da bir yana gedə bilmir ki…

"Hə, Mustafa əmi, əlbəttə, Mustafa əmi, o yaşayan evin qonşuluğundakı həmən kimsəsiz yataq xəstəsi…"

– Əlbəttə, istəsən, kimnənsə başqa bir şeyə dəyişdirərsən. Daha nə? Mustafa əmi səninçün, görürəm, çox əziz adamdı…

Nazir qapıdan çıxdığı yerdə beynində, elə bil, nəyisə götür-qoy edirdi. Nəhayət, bir qərara gəlib ayaq saxladı:

– Sağ ol, Fariz, sağ ol. Bir xahişim… amma səndən var. – Onun üzündə elə indicə gördüyüm həmən təbəssüm yenə harasa itdi. Burnu yenə az qaldı göz deşə.

– Buyur. – Mən sevincək oldum. Özümə mat qalmışdım. Bu dəqiqə, deyəsən, mən onunçün əlimdən gələn və gəlməyən hər şeyi eləməyə hazır idim.

O isə təzədən çəpləşmiş gözlərini məndən qaçıra-qaçıra, üzümə baxmadan dedi:

– Sabah bir-birimizi küçədə görsək… biz tanış deyilik.

Mən onsuz da sarsılmış vəziyyətdə idim, bu sözlərin nə anlama gəldiyini düşünməyə macal tapmadım, o mənim cavabımı gözləmədən tələsik qapıdan çıxdı. Liftə tərəf baxmadan pilləkənlərin başında yox oldu. Elə onuncu mərtəbədəncə pilləkənləri iki-bir, üç-bir atdana-atdana aşağı enməyə başladı. Mən uzun müddət qapının ağzında dayanıb onun

uzaqlaşan ayaq tappıltılarına qulaq verdim və gözlədim. Soruşsaydılar nə gözləyirsən, cavab verə bilməyəcəkdim. Film isə bitmişdi. Uzaqlaşan ayaq tappıltıları titrləri yazırdı.

…Bir qədər əvvəl onun qapı ağzında dediyi sözlər isə heç cür huşumdan çıxmırdı. Bağlamanı yığa-yığa mən ondan Mustafa əmi barəsində soruşdum:

– Mustafa əmi səninçün, görürəm, çox əziz adamdı. Bu kişiyə sən niyə belə bağlanmısan? Ona qulluq edirsən, dərmanını alırsan, yeməyini aparırsan… Nəyindi, axı o sənin heç kimin deyil.

– Heç kimimdir, düz deyirsən. Necə deyim bunu sənə?! Atama oxşayır. Onunçün. – Bir anlıq üz-gözünü işıqlı bir təbəssüm bürüdü. Burnu, bayaq bunu demişdim, gülümsəyən kimi sivriliyini, uzunluğunu itirib kiçilirdi, sifətinin ölçülərinə uyğun gəlirdi, indi də elə oldu. Gözlərindəki çəplik yoxa çıxdı. Baxışları mülayimləşdi, məhzunlaşdı.

"Dayan, dayan, o axı demişdi ki, atamı, anamı görməmişəm. Xırda bir şeydə yalan danışan adam nə desən uydura bilər." Qaşlarımın çatıldığını görüb Nazir üz-gözü hələ də həmən təbəssümün içində öz məxməri, yaxından gələn səsilə bu dəfə də belə dedi:

– Hə, sən düz fikirləşirsən, mən atamı görməmişəm. Amma… heç nə eliyə bilmirəm. Oxşayır.

*2013-cü il*

# Korneliusun ölümü

*Vidas Kavalyauskasa*

1784-cü ilin üstünə-başına lopa-lopa axşam qarı yağmaqda idi. Kral qəsrinin yaxınlığındakı ikimərtəbəli evin birinci mərtəbəsində böyük, yarı-qaranlıq və kitablarla dolu otağın bir küncündə içində çırtaçırt odunları yanan sobanın qabağında bir yumşaq kresloya oturub sümüklərinə qədər yavaş-yavaş canının qızışdığını ləzzətlə hiss edən bu qoca kişi şəhər Universitetinin Böyük möhrünün qoruyucusu qoca professor Kornelius idi və o bilirdi ki, gün bitənə qədər o, bu dünyadan köçüb gedəcək. Ona görə də səhər-səhər Universitetdə tələbələrilə görüş zamanı son olaraq dediyi sözləri, əslində, onun vida sözləri kimi də qəbul etmək olardı. Soyuq daş divarların arasında son dəfə tələbələrinə o bunları dedi:

– Mənim əziz tələbələrim. Biz sizinlə çox yuxusuz gecələr, narahat gündüzlər keçirdik. Sizi çox sevirəm. Yerin mərkəzinə doğru səyahət yolumda sizlər məni tək buraxmadınız. Yerin mərkəzi əzabın, iztirabın mərkəzi imiş. O bizim şəhərimizin, ulu kralımızın yuxusunda görüb

Litvaniyanın paytaxtı kimi əsasını qoyduğu sevimli şəhərimizin baş meydanında yerləşib. Alma – materimizin düz önündə. İztirabla dolu bir meydan… Bu meydanda çəkilən əzab dünyanın heç bir başqa yerində çəkilməyib. Bu iztirabı, bu əzabın xatirəsini daima qəlbimizdə yaşatmalıyıq, onu unutmaq olmaz. Unutsaq, Yerin mərkəzi sürüşüb başqa bir məkana yerləşəcəkdir. Yerin mərkəzinin çəkdiyi əzabı, iztirabı özünüz də unutmayın, gələcəkdə başqalarının da unutmasına imkan verməyin. Bu mənim sizlərə vəsiyyətimdir…

İndi isə o, axşamın yavaş-yavaş gecəyə keçdiyi və keçə bilmədiyi, yağan qar ilə qəribə bir məşumluq gətirən vaxtında yarıyuxulu, yarıoyaq bir vəziyyətdə öz sevimli, yumşaq kreslosunda oturmuşdu, könlü rahat idi və həyatının ayrı-ayrı mənzərələri vaqeə-vaqeə gözləri önündən keçirdi. O düşünürdü. Həyatında, görəsən, sonradan düzəltməyə çalışmadığı, deməli, hiss eləmədiyi bir səhvi olubmu?

Səhv, yanlış… Dərindən baxanda bu nədir? Başqa paralel dünyaya getməyin yeganə yolu. Kornelius bunu tələbələrinə də aşılamağa çalışırdı. Axı həyat təkcə bu dünyadan ibarət deyil. Gələcək nəsillər bunu nə zamansa anlayacaqlar. Hər hansı bir səhv artıq variantdır. Başqa dünyaya düşmək imkanıdır. Və "səhv", əslində, sənin seçmək hüququndur.

Nə zamansa ona elə gəlirdi ki, bu yaşadığı dünyada həyatı boyu nə edibsə, ölümün mənasını deyil (ona isə elə gəlirdi ki, həmişə buna can atıb), əslində, həyatın mənasını axtarmağa cəhd edib, həyatı anlamağa çalışıb. O, elə bilirdi ki, yazdığı qalın traktatlar onu ölümün sirrini anlamağa yaxınlaşdırır. Bihudə düşüncələr… İlk dəfə bunu ona uzaq ölkələr keçərək Görükməz təpə adlanan dağın yanında məskən salmış sehrbazlar diyarından gəlmiş uzun bir dəvə karvanının mirzəliyini edən Hacı Mir Həsən ağa Səyyah dedi. "Sən, böyük ustad, həqiqət axtarışındasan, bu isə həm də həyatın mənasını axtarmağın deməkdir." – Səyyah belə dedi. Bu qədər sadə.

Korneliusun əsas elmi uğuru, bütün dünya elmi dairələrində qəbul edilən nailiyyəti Yer üzünün mərkəzinin harda olmasının dəqiq tapılması idi. Orta əsrlərdən yavaş-yavaş sıyrılıb çıxan dünya elmi üçün bu çox cəsarətli bir axtarış idi. Yerin mərkəzinin harda yerləşməsilə bağlı məşhur

dünya alimləri tərəfindən irəli sürülən çoxlu təkliflər vardı. Hamı mərkəzi öz ölkəsində, öz şəhərində görmək istəyirdi. Elmi təkliflər bir-birindən sübutlü, bir-birindən dəlilli idi.

Mübahisələrə bəzən krallar, imperatorlar da qatılırdı. Onlar öz məmləkət və şəhərlərinin namizədliyini təmsil etdikləri dövlətin bütün imkanları və gücü ilə dəstəkləməyə çalışırdılar. Kornelius yaxşı xatırlayır, Habsburqlar sülaləsinin vəliəhdi Vilhelm Sadədil xüsusilə canfəşanlıq edirdi və hətta bu məsələ ilə bağlı ondan az ehtiras nümayiş etdirməyən Osmanlı sultanına təhdid dolu məktub da yazmışdı. Bunun cavabında Sultan 4-cü Əhməd onunla görüşə Venanın qala divarları altına uzaq əcdadının durduğu yerə qədər gələcəyini bəyan elədi. Özü də bunu təmtəraqlı bir şəkildə rəsmi hərbi libasını geyinərək Vilhelm Sadədilin səfirini Topqapı sarayına çağırıb bildirdi. Prussiya kayzeri məcbur oldu ki, məsələyə qarışaraq onları soyuqqanlı olmağa, məsələni elmi müstəvidən kənara çıxarmamağa səsləsin. Ehtiraslar bundan sonra sanki səngidi.

Hələ elmi və elmətrafı rəqiblər… İspan inkvizisiyası Korneliusu hədələməklə kifayətlənmədi. Gizli sövdələşmələrə qədər irəlilədi, amma Kornelius əzmində möhkəm idi. Papa kilsədən kənar elan olunacağını istisna etmədiyini ona eyhamla çatdırmaq istəyirdi. Amma Savoyya kardinalı bunu Korneliusa xeyli yekəxana bir tərzdə bildirdi. Yenə alınmadı. Elmi dairələrdə getdikcə daha çox adam onun meyarını əsas kimi götürməyin tərəfdarına çevrilirdi. Başqa meyarlar mürəkkəb və qəliz meyarlar idi. Bəziləri isə gülməli idi. Onların elmə heç bir dəxli yox idi. Korneliusun dodaqlarına təbəssüm qondu. Milan kilsəsinin "İnadcıl rahiblər" adlı ruhani birliyi tərəfindən gələn təklif, əlbəttə, gülməli idi. Xoruzun sabah tezdən banlayandan sonra hansı tərəfə gedəcəyinin Yerin mərkəzinə nə dəxli ola bilərdi?!

Korneliusun isə irəli sürdüyü meyar çox sadə və nəinki mantiyalı elm adamları, hətta geniş əhali üçün anlaşıqlı idi. İnsanın nəfəs alması qədər sadə. Kornelius bu meyarı yavaş-yavaş həm xristian, həm müsəlman, həm də buddist alimlərin beyninə yeridib onların təqdirini qazandı. İlk əvvəl ona nail oldu ki, meyar onun adı ilə adlandı: Kornelius meyarı. Bu, o

dövrün elm aləmində çox böyük nailiyyət idi. İndiyə qədər və güman ki, bundan sonra da əbədiyyətə qədər dünyanın mərkəzinin müəyyənləşdirilməsi meyarı dünyanın bütün elm mərkəzlərində, universitet və kilsə kafedralarında Kornelius meyarı adlandırılacaq. Kornelius oturduğu rahat yerində ləzzətlə qurcuxdu, asudə-asudə dərindən köks ötürdü.

Nəhayət, dünyanın mərkəzi bir çox uzaq ölkələrdə, lap elə dəvə karvanı ilə bura qədər gələnlərin ölkəsində – çox adama adı bəlli olmayan onun kiçik ölkəsində müəyyənləşdi! Bunu bütün dünya alimləri, onlara baxıb bütün ölkə hökmdarları qəbul etdilər. Onun kəhrəba kimi zərif şəhərinin baş meydanı dünyanın mərkəzi seçildi. Hacı Mir Həsən ağa Səyyah deyirdi ki, sizin ölkənin kiçik adı hələ də axıra qədər tələffüz olunmayıb, sizin əhali bu sözün yarısını, bəlkə də yarısından çoxunu ürəklərində saxlayıblar.

…Qar hələ də lopa-lopa yağır. Qar Yer üzündə ancaq onun şəhərinə belə yağır. Qar onun damı yastı evinin üstünü artıq tamam örtüb. Qar artıq damdan keçib otağın içinə yağır. Qar artıq onun ruhuna yağır. Adının üstünə yağır.

Bu adamın yadına düşür ki, onun əsl adı Kornelius deyil, onun əsl adı Hacı Mir Həsən ağa Səyyahdır. Bu bir şərqli adıdır. Adı xatırlayandan sonra gerisi asandır. Yadına düşür ki, o sərgərdan kimi dünya ölkələrinin birindən o birinə gedir, öz ölkəsinə dönməyin yolunu axtarır, axtarır, tapa bilmir. Bütün bunlar vaqeə-vaqeə onun işığını itirməyə başlamış gözləri önündən keçir.

O da yadına düşür ki, arzuladığı kimi məmləkətinə qayıdıb sehrbazlar dərəsinə geri dönmədi. Bunu ona keçib getdiyi şəhərlərdən birində qoca bir rəmmal tövsiyə etmişdi. O bu tövsiyəyə əməl etmədi. Elə bu balaca kəhrəbalar ölkəsində karvandan ayrılıb qaldığı üçün Karvanbaşı ona qəzəb edib qəpiksiz buraxdı. Sonrakı mənzərə-vaqeə onu göstərir ki, Kornelius adlı bir ustad onu özünə şəyird götürür. Ustada çox ölkələr gəzən və şərqi tanıyan birisi lazımdır. Ustadın həyat məramı – Yer kürəsinin mərkəzini axtarıb tapmaqdır!! Çox oxumaq çox görmək deyilmiş...

Ustad ehtirasla can atdığı arzusuna bu dünyada yetişmir. Dünyanın mərkəzinin bu şəhərdə olmasını hələ hamı qəbul etməyib. Korneliusun meyarı hamı üçün keçərli deyil. Amma o hər şeyi hazırlayıb bu dünyadan köçür. Ölərkən onun Həsən Səyyaha vəsiyyəti bu olur. O deyir:

– Bu işin son nöqtəsini sən qoymalısan. Sənin inamın, məntiqin bunu etmənə yardımçı olacaq. Amma sən mənim adımı götürməlisən. Mən sən olmalıyam ki, sən zamanı gələndə və Yerin mərkəzini tapanda bunu həm də mən tapmış olum.

Səyyah ustadın vəsiyyətinə əməl edir. Gecəni gündüzünə qatır və Yerin mərkəzini tapır. Bütün dünyaya sübut edir ki, Kornelius meyarına görə yerin mərkəzi bu şəhərdə, bu meydandadır. Hamı qəbul edir ki, Yerin mərkəzini o, Kornelius tapıb. Korneliusun gözündən yanağına bir damla yaş axır.

... Sabah tezdən böyüklü – kiçikli minnətdar şəhər əhalisi, onları bütün dünyada məşhur edə bilmiş, Yerin mərkəzinin məhz bu şəhərdə, bu şəhərin baş meydanında olduğunu bütün dünyaya sübut etmiş Böyük Universitet möhürünün qoruyucusu qoca professor Korneliusu son mənzilinə aparmağa – basdırmağa gəlir. Onların gəlişindən bir az əvvəl evdən bir adam çıxıb yağan qar lopalarının arasıyla qəribə bir yerişlə, dövrə vura-vura uzaqlaşır və gözdən itir. Bu, Səyyahdır.

...Kornelius isə tərpənməz bir halda hələ də öz kreslosunda oturub. Bir damla göz yaşının axıb gəldiyi yerdə, gözünün ölü dibində belə bir uzaq mənzərə canlanır və onun nəfəssiz bədənini qaldırıb kilsəyə aparmağa gələnlərin gözünə bunlar görükür...

– Meyar! Meyar!! – Kornelius əllərini hiddətlə silkələyə-silkələyə az qala bağırır. – Meyar yoxdur. Başa düşürsən, dürüst meyar tapılmır!

– Var meyar! – O, qəlbi əzab dolu ağrıdan qovrula-qovrula deyir. – Dünyanın mərkəzi ən böyük əzabın çəkildiyi yerdir. Dünyanın ən əzablı, iztirablı nöqtəsi isə burdadır, bu şəhərdə, bu meydandadır. Sənin mənə danışdığın əhvalatdadı, sənin atanla vidalaşmağındadı. Budur meyar! Dünyanın heç bir başqa nöqtəsində bu boyda əzabı heç kim çəkməmişdir.

... Açıq gözlərin dibində vaqeə vaqeəni əvəzləyir. Qalib düşmən şəhər müdafiəçilərinin cəsədini şəhərin baş meydanında yanbayan düzüb. Bu müdafiəçilərin ölüsündən də intiqam almaq ehtirası onların ağlını başlarından çıxarıb. Bütün şəhər əhli əsgərlərin əhatəsində bir-bir bu cəsədlərin yanı ilə dairə vuraraq gəzdirilir. Öldürülənlərin yaxınları və əzizləri ancaq bu cür üzə çıxmalıdır. Cəsəd sahibi könüllü üzə çıxmırsa onu üz-gözündən də tanımaq olar. Ana öz övladının cəsədinin yanından etinasız keçə bilməz. Ağlamalı-sısqamalıdır.

Qaliblərin diqqətli baxışları anaların, ataların üzünə, gözünə zillənib. Övladının cəsədini tanıyıb üz-gözü dəyişənlər bir kənara sürütdənib elə yerindəcə məhv edilir. Kornelius sonralar sübut etdi ki, sonuncu belə müsibət Romada İmperator Kommodun vaxtında olmuşdu. O öz düşməni olan senatorları edam edərkən onların ölümünə ağlayanları, üz-gözlərində hətta təəssüfə bənzər bir ifadə olanları vəhşicəsinə öldürtdürürdü. İmperatordan intiqam ala bilən heç kim sağ qalmamalıdır.

...Balaca Kornelius belə bir uzun cərgədə vəhşi əsgərlərin süngüləri altında anasına qısılaraq addımlayır. O heç cür anlamır ki, nə üçün onlar yerə uzanmış və açıq gözlərini onlara dikmiş atasının yanından bu cür biganə və ləngimədən keçib gedirlər. Kornelius gözlərini atasının cəsədindən ayırıb anasına nəsə demək istəyir, ana bunu hiss edib uşağın üzünə baxmadan onun əlini bərk-bərk, sümükləri şaqqıldayana qədər sıxır, Korneliusun barmaqları bir-birinə sürtülüb əzilir, ağrıyır, o, anasının qorxusundan cınqırını çıxarmır. Gözünün yanı ilə Kornelius baxıb görür ki, atasının onun arxasınca baxan gözləri gülür, ağaran dişlərinə təbəssüm qonub. Bu zaman Kornelius hiss edir ki, onun da gözləri niyəsə gülür, yanaqlarına isə səssiz göz yaşları süzülür.

*2013-cü il*

# “Platon, deyəsən, xəstələnib...”

*Yəhya Məmmədovun xatirsəsinə*

Şahlar, sultanlar, imperatorlar və onların bənzərləri haqqında tarixi, fəlsəfi, külturoloji tədqiqləri kifayət qədər oxuyandan sonra o, nəhayət, belə bir nəticəyə gəldi ki, bu mövzu onun mövzusu deyil. Milli Akademiyanın Dil və Təfəkkür institutunun elmi işçisi Zahid Fərzəli, beləliklə, heç də "bənzər" mövzusundan əlini birdəfəlik çəkmirdi. O bununla, sadəcə, "hökmdarlar" xəttini bu mövzunun içindən uzaqlaşdırırdı. "Bənzər" probleminə marağını isə qətiyyən qeyb etməmişdi. Cavanlığına baxmayaraq tanınmış alim olan Zahid Fərzəli bundan sonra "bənzərlər"in qədim və orta əsr Azərbaycan klassik şair və yazıçılarının həyatındakı rolunu tədqiq etməyi qarşısına məqsəd qoyacaqdı.

O əmin idi ki, qədim şairlər yaşadıqları müxtəlif dövrlərdə, ta ki fotoqrafiyanın icadına qədər, öz bənzərlərilə sirli və maraqlı münasibətlər yaşayıblar. O da təbiidir ki, söhbət ancaq tanınmış və məşhur şairlərdən gedir.

Bu fikrini və məqsədini işlədiyi institutun Elmi Şurasında bir qədər təmtəraqlı şəkildə bəyan etdikdən sonra Zahid Fərzəli qaliblər ədası ilə iş yerinin dəhlizlərində gəzişən zaman rəqibini elə indicə naməlum fəndə salıb məğlub etmiş pəhləvana oxşayırdı. Rəqib dediyimiz mövzu idi – bənzərlər qalereyası mövzusu. O isə, nəhayət, bu mövzunun sərhədlərini dəqiqləşdirib başının üstünü alan, fənd işlədib nəfəsini kəsməyə hazır olan pəhləvan.

Bizə məlum olan bu səbəbdən Zahid Fərzəli özünü xeyli xoşbəxt hiss edirdi.

İlk olaraq Zahid Fərzəlinin yadına, əlbəttə ki, ədəbiyyatımızın sönməz günəşi Füzuli düşməliydi, o da düşdü.

Füzulinin bənzəri varmıydı, yoxmuydu, o bunu bilmirdi. Yəqin ki, şah bənzəri kimi bənzəri olmazdı – buna ehtiyac yox idi. Amma Füzulidə ikiləşmə var idi. Bu ikiləşmə bənzərin bir başqa forması, təcəssümü deyilmiydi, idi. Bu düşüncələr onu müəllimi Kamran Abbaslının təhrikiylə Füzuli qəzəlinin sonuncu beytinə gətirdi. "Füzulinin qəzəl sonunda öz-özünə müraciəti digər şairlərin qəzəl sonundakı özlərinə müraciətdən fərqlənir." Müəllimi – Füzulini və daha kimləri ona ürəkdən sevdirmiş, indi artıq özünə danılmaz ustad saydığı mərhum Kamran Abbaslı belə deyirdi.

Digərlərində bu, nə qədər formal, qəzəl janrının tələblərinə riayət xətrinə və adicə janra yarınmaq kimi səslənirdisə, – Kamran Abbaslı israrla davam edirdi, – Füzuli özünün sonda səslənən "ey Füzuli!" müraciətilə son dərəcə canlı və oynaq idi, elə bil, şair öz-özünə deyil, bir başqasına üz tutub dediyini deyir. Bu başqası da qəribə bir başqası idi. Onda uşaq məsumluğu vardı. Amma eyni zamanda bu bir başqası həm də Füzulinin özü idi. Həm özü idi, həm də özü deyildi.

Bu cür müzakirələr zamanı Müəllim, Zahid Fərzəlinin yadına Heraklitin məşhur sualını salırdı: "Bir çaya iki dəfə girmək olar, yoxsa yox?". Sonra da Bertran Rasselin bu suala cavabını xatırladırdı: "Həm olar, həm də olmaz." Di gəl, ay Zahid Fərzəli, bunu adam kimi başa düş, görüm, necə düşürsən?! Necə yəni, həm olar, həm də olmaz?!

Bir dəfə isə Müəllim lap ağ elədi, ona dedi ki, əgər sən bu iki məqamı eyni vaxtda təsəvvür edə bilmirsənsə, səndən nəinki dilçi, ümumiyyətlə, alim çıxmayacaq. O vaxt Zahid Fərzəli bərk təəccüblənmişdi. Bu axı necə ola bilər?! Aristotelin sözü olmasın, insan ya diridir, ya da ölüdür. Çaya ya girirsən, ya da girmirsən. Bu boyda əksliklər bir yerdə ola bilməz axı…

Təkəbbürlü Müəllim isə onun bu təəccübünə, sadəcə, saymazyana bir istehza ilə gülümsünmüş və dediklərini bir daha təkrar etmişdi. Bu zaman o, Rasselin cavabını hətta bir qədər dəyişdirmişdi:

– Həm həmən çaydır, həm də həmən çay deyil. Bax, bunu lazımdır təsəvvür eləmək!

"Bu adam məni ələ salır!" – o zaman belə düşünən Zahid Fərzəlinin daxilində tufanlar oynamış, əlacsızlıqdan dili-dodağı əsmişdi. Necə nifrət eləmişdi Kamran Abbaslıya, bunu bir Allah bilir. Həm ona nifrət eləmişdi, həm də ona dərin pərəstişdən özünü xilas edə bilmədiyinə görə özünə nifrət eləmişdi. Bax, budur, ikisi bir yerdə, bu dəfə alındı! Həm sevgi, həm nifrət. Çay isə… Çay isə qəliz məsələdi. Bir çaya iki dəfə həm girmək olar, həm də olmaz – o bu iki məqamı bir yerdə təsəvvür edə bilmir və heç zaman da təsəvvür edə bilməyəcək. Deməli, ondan alim çıxmayacaq. Təəssüf, çox təəssüf.

İndi isə… o bunların ikisini eyni vaxtda təsəvvür edə bilir. Amma kinayəsi dilinin ucunda həmişə hazır olan Müəllim artıq həyatda yoxdur. Kamran Abbaslı ilə onun tələbəsinin indiki qabiliyyətini eyni məqamın, Avqustinin böyük anının içinə salmaq mümkün olmadı. Yenə də təəssüf…

İlk dəfə məhz Müəllim onun diqqətini "Platon, deyəsən, xəstələnib" cümləsinə yönəltdi. Sonralar müəllifin özü haqda danışmasına, özü də bir cümlə ilə böyük bir mətləbi ehtiva etməsinə o, Platonun "Kratil" adlı dialoqunda olan kimi daha heç yerdə rast gəlmədi. Müəllim bu cümlənin vurğunu idi. Yox, belə deyək: o, bu cümləni sevirdi. Bu cümlənin əfsunundan çıxa bilmirdi. Yavaş-yavaş, nəhayət, öz sevgisini sevimli tələbəsinə də "yoluxdura" bilmişdi. Zahid Fərzəlii Platonun bu zəif, naçar, məzlum cümləsindən müəllimi qədər təsirlənmişdi. Kamran Abbaslı rahat nəfəs ala bilərdi. Estafet sədaqətli və qaynar bir ürəyə ötürülmüşdü.

Qadının gücü onun zəifliyindədi, deyirlər. Bu cümlənin də gücü zəifliyində idi.

Sevgi estafetini sevimli tələbəsinə ötürəndən sonra Kamran Abbaslı rahat nəfəs aldı və onun bu mənfur cümləyə marağı qat-qat azaldı. Məsələn, belə bir məqamı yada salmaq olar.

Zahid Fərzəliyə elə gəlirdi ki, müəlliminin və sonralar özünün də çox sevdiyi Borxesin hətta özü haqda yazdığı "Borxes və Borxes" hekayəsində belə "Platon, deyəsən, xəstələnib" cümləsinin dramasına yaxınlaşan ehtiras yoxdur. Müəllimi isə onunla razılaşmırdı. Kamran Abbaslı bu barədə başqa cür düşünürdü. Bir dəfə aralarında hətta çox ciddi fikir ayrılığına gətirən mübahisə də oldu. Kamran Abbaslı deyirdi ki, sən Platonu Borxes qədər tanımırsansa, bu isə belədir, o zaman sənin qiymətverməndə ən adi "dostluq" prinsipi işləməlidir. Borxesinki daha tutumludu, vəssəlam. Zahid Fərzəli, müəlliminin Borxesə qarşı bu "sədaqətsizlik" nümayişini anlamır, mübahisə edir, dirənirdi. Allah, Allah, necə də gülməli idi onun tərsliyi?! İndi, əlbəttə ki, razılaşardı. İndi bu cümlə onun gözündə təkcə zəif deyildi, həm də miskin idi. Amma indi Borxes vurğunu Kamran Abbaslı yox idi. Bu yoxluq Ziyad Fərzəlinin ürəyini üzürdü.

Ona aydın idi ki, özünə müraciətlə özü haqda danışmağı hökmən bir-birindən ayırmaq lazımdır. Özü haqda çəkinmədən əsərin içində danışan ən maraqlı müəllif isə, heç şübhəsiz, Platon idi. "Kratil"də təsvir olandan daha gözəl, daha mükəmməl bu, özünü harda göstərə bilərdi?!

Platon "Kratil" adlı dialoqunda ölümə məhkum edilmiş ustadı Sokratın zindandakı son saatlarını təsvir edir. Ölüm ayağında təsəlli vermək üçün onun yanında olan dostların bir-bir adını çəkir. Özünün bu ağır məqamda müəlliminin yanında olmamasını isə belə izah edir: Platon, deyəsən, xəstələnib…

Məhbəsdə ölüm hökmü ilə yatan bir adamın görüşünə gəlmək, görünür, o uzaq zamanlarda da qorxulu imiş. Kimsə deyə bilər ki, belə deyil, mətndə buna işarə yoxdur. Əlahəzrət Fakt isə başqa şey deyir və o deyilən bundan ibarətdir: Platon zindana öz müəllimi ilə vidalaşmağa gəlməyib!

Platon, əslində, bu əsərində özü öz barəsində yazır. Qəribə olan isə budur ki, özü özü haqda yazanda o, "deyəsən" sözünü işlədir. Belə çıxır ki, sən demə, Platon tam əmin deyilmiş, nəsə bu məsələdə şübhəli bir məqam varmış… guya!!! Əslində isə, bu mətndəki "deyəsən" sözü Platonun vicdanı ilə qorxusu arasındakı məsafədir. Əzabı, tərəddüdü, şübhəsi, iztirabıdır.

"Deyəsən" sözü bədii cəhətdən bu cümlənin "farağat" duruşuna bir plastika gətirir, onun quluncunu yumşaldır. Nəticədə, cümlədəki hökmü, informasiyanın ağırlığını əridir, mətnin gərginliyini azaldır. Platon bir insan kimi səhvini açıq-aşkar hiss edir, hadisənin üstündən xeyli zaman keçsə də, o özünü bağışlamır. Onun əzabı dərin qatları olan, ikiüzlü "deyəsən" sözünün içinə sığışıb. Özü haqda yazdığı gizli peşmançılıq etirafı həmən məzlum cümlənin dərinliyindən bu günəcən boylanmaqdadır.

Kamran Abbaslı istedadına həmişə inandığı tələbəsinin Platonu belə ciddi-cəhdlə müdafiə etməsinə ürəyində haqq qazandıraraq o zaman belə demişdi:

– Dirənməyin xoşuma gəldi. Buradan Füzuliyə və onun öz-özünə müraciətinə bir addımlıq yol qalır. Düşünürsən, nə deyirəm?!

Bu ilhamverici sözlərdən sonra Zahid Fərzəli əməlli-başlı dirçəlmişdi. O "bir addımlıq yol"u bu günəcən min bir əzabla gedirdi və aylar, illər keçməsinə baxmayaraq, gedə-gedə dişini-dişinə sıxıb sürətini nə qədər artırırdısa da, Axilles heç zaman tısbağanı ötüb keçə bilmədiyi kimi o da öz imkanlarını ötüb keçə bilmirdi və ancaq indi ləhləyə-ləhləyə gəlib Müəllimin dediyi o sirli, amma sadədən sadə məqama yetişə bilmişdi.

O məqam isə bundan ibarət idi. Füzulinin özünün-özünə müraciəti o biri şairlərin öz-özlərinə etdikləri müraciətə bənzəmir. Bu müraciət çox-çox gizli xətlərlə Platonun "deyəsən" sözünə gedib bağlanır. Amma necə?!

Müəllimi ona öyrətmişdi ki, Şərq ədəbiyyatında qəzəlin sonunda müəllif öz adını çəkən zaman bunu, adətən, ənənəyə sədaqətini nümayiş etdirmək üçün, bir növ "xala, xətrin qalmasın" edir. Füzuli isə, xeyir. O burda özü-özü ilə mübahisə etmədən ötüşə bilmir. Füzuli, elə bil, arzu-kamla, ciddi-cəhdlə, tələsə-tələsə qəzəlin sonuna can atır ki, özünü həmən qəzəli yazdığı o son gecə son dəfə neştərləsin. Sanki bütün qəzəl bir yana, sonluq

isə o biri yanadır. Qəzəlin sonundakı Füzuli qəzəli yazan Füzulinin həmsöhbəti, övladı, atası, dostu, hətta düşmənidi. Eynən Məcnun ona köməyə gedən Nofəlin qoşununu daşladığı kimi Füzuli də öz-özünü daşlayır. Elə bil, o qəzəl boyu sözlərin arxasında gizlənib, biz onu görmürük. Qəzəlin sonunda isə dəniz səthində, sözlərin sakit boy sırasında əvvəlcədən görünməyən nəhəng bir dalğa qəfildən hündür və qorxunc dağ kimi peyda olur və hər şeyi öz ənginliyinin içinə alır. Bu sözləri deyərkən Kamran Abbaslının gözləri süzülür, səsi ahəstiyir, elə bil, o öz-özüylə danışırdı.

Kamran Abbaslı bir səhər işə gələrkən elə otağın ağzındaca üzünü Zahid Fərzəliyə tutub şux səslə dedi:

– Danışmışam, sən elə indi get Əlyazmalar fonduna, qədim nüsxələr şöbəsinə. Mənim adımdan yaxınlaş Səlvinaz xanım var, ona. Ən göyçək qadın odu orda, baxan kimi tanıyassan. O sənə bir əlyazma verəcək. Gətirib gəl mənə, gözləyirəm. Tez ol, ləngimə.

Onun Səmhari ilə tanışlığı belə başladı.

Füzuli haqqında yazan və həyatda onu görən yeganə təzkirəçi Səmhari idi. Təəssüf ki, o, müasirləri tərəfindən layiqincə qiymətləndirilməmişdi. Bəzilərinin fikrinə görə, bunu anlamaq olardı. O, elə dərin bir mütəfəkkir, elmdə öz dəst-xətti olan ustad söz və zehin sahibi deyildi. Bu adamın ən əsas məziyyəti Füzulini həyatda görməsi və gördüyü adamı canlı olaraq təsvir edən ilk və son şəxs olmasıdır. Biz indi əgər Füzuli haqqında, onun həyatı, yaşayışı, görünüşü ilə bağlı azacıq da olsa təsəvvürümüz varsa, bunu Səmharinin yazdığı "Əsrari-kəvakib" əsərinə borcluyuq. Sonra şairin həyatından kim yazıbsa, bu əsərin təsiri ilə yazıb. Bir başqaları isə düşünürdülər ki, elə bircə buna görə Səmharinin adı ədəbiyyat tarixində ədalətsiz olaraq qiymətini almayanların siyahısına cəsarətlə daxil edilə bilər.

O bir başqa sualdır ki, bəs nə üçün bu təzkirəçilər, əlyazma sahibləri, mirzələr Füzuli ilə bağlı Səmharinin adını bir dəfə də olsun çəkməyiblər, onu, bir növ, unudublar. Belə bir müəllifin varlığı və yazdıqları haqda nə ədəbiyyat tarixində, nə də orta əsrlər fəlsəfi tədqiqtlarda heç bir məlumata rast gəlmirik?! Bu sualın öz cavabı vardır. Cavab isə sadədir. Səmharini ciddiyə almayıblar.

Səmhari yazır ki, Füzulini ilk dəfə gördüyü zaman onun özünün, Səmharinin on iki-on üç yaşı olub. Amma belə kiçik olmasına baxmayaraq bu uşaq artıq yaşlanmış bir şairi elə qüdrətlə yadında saxlayıb və çox sonralar öz kitabını yazarkən onu elə canlı şəkildə təsvir edib ki, oxucu sanki Füzulini öz yanındaymış kimi yaxından görür, bu azmış, hələ nağıllarda olan kimi onun keşiyini çəkən təbiətin hənirtisini də hiss edir.

Səmharinin şair haqqında yazdığı hissə budur. O öz əlyazmasının əvvəlində, 58-ci səhifədə bunları yazır:

"Füzuli ləqəbi ilə şeirlər yazan əməli-saleh Məhəmməd ibn Xülus, ibn Əhməd, ibn Hamid mənim rəhmətlik atamın Kərbəlanın şəhər bazarı altındakı Yetimlər məhəlləsi adlanan səmtində yerləşən mülkünün üzbəüzündə bir kiçik, palçıqdan tikilmiş evdə yaşayırdı. Bizim evlərin arasından bazar yolu keçirdi, yolun da qırağı ilə o biri tərəfə yaxın yerdən bir kiçik arx axırdı.

Mən balaca uşaq idim, olardı on iki, on üç yaşım. Evimizin hasarına dırmaşıb küçə ilə bazara gəlib-gedən adamlara, tacirlərin malını bazara daşıyan səsli-küylü arabalara, atlı cəngavərlərə, piyada zəvvarlara, Kərbəla ziyarətçilərinə tamaşa etməkdən doymazdım. Hər üstü yük dolu dəvə başını yırğalaya-yırğalaya evimizin qabağından keçib gedəndə mən elə biliridm ki, o mənə salam verir. Mən də onun salamını alırdım.

Axşamın həzin zamanında arxın o biri tərəfində bir kişi görünərdi. Əynindəki uzun bəmbəyaz köynəyi kəfənə oxşayan bu orta yaşlı kişinin başında adətən qara rəngli dəsmalı olardı. O, arxın o biri tərəfindəki həyətin palçıq hasarına dirənmiş taxta oturacağa oturar və başlardı əlindəki uzun xurma çubuğunu torpaq üstündə ora-bura gəzdirib qəribə işarələr cızmağa. Fikri-zikri bu işarələrdə olardı. Hərdən başını onlardan ayırıb arxın lil sularına gözünü dikər, bir müddət qımıldanmadan baxardı, uzaqdan mənə elə gələrdi ki, bu adam arxla danışır, nəsə deyir, arxın suları da ona cavab verir. Hərdən də, axşam ərzində bir, ya iki dəfə, başını qaldırıb arxın bu biri tərəfinə, bizim ev tərəfə, hasarın üstündə oturan bu balaca oğlana, yəni, diqqətlə onun tərəfə baxıb gözlərini torpaqda işarələr cızan çubuqdan çəkməyən mənə nəzər salardı." Bunu Səmhari belə yazır.

"Mən bu zaman cəhd edirdm, başımı bağçamızda bitmiş xurma ağacının hasara dırmaşan quru budaqlarının arxasında birtəhər gizlətməyə çalışırdım. Bir dəfə hətta arxın o biri tərəfindəki adam mənim ona göz ayırmadan baxmağımdan bəlkə də rəncidə olub əlindəki çubuğunu mənə tərəf silkələdi. Amma bəlkə də rəncidə olmamışdı, bir məqam mənə elə gəldi ki, o hətta gülümsəyir, çubuğunu silkələyib bu şəkildə mənə, elə bil, nə isə bir işarə göndərir. O zaman mən hasarın üstündən sürüşüb-düşüb oğurluq üstə yaxalanan adam kimi ürəyim ata-ata evimizə qaçmışdım. Evdə mənə demişdilər ki, qorxma, nəfəsin gəlsin yerinə, o adam Məhəmməd Füzuli adında bir fəzilət sahibidir. Ondan qorxmağa ehtiyac yoxdur. Şairdir.

Mən atamdan soruşdum:

– Ey mənim mehriban atam, şair nədir?

Atam mənə cavab verdi:

– Şair bizim hiss etmədiyimizi hiss edir, deyə bilmədiyimizi deyir, başa düşmədiyimizi başa düşür. O, Allah-təalanın sevimli bəndəsidir.

…Mən Füzuli adlanan o məşhur insanı ilk dəfə bu cür görmüşdüm. Bir dəfə isə qəribə bir iş oldu.

Mən heç cür marağıma güc gələ bilmirdim. Onun əlindəki çubuqla torpaqda nə şəkillər çəkdiyini bilməkdən ötrü hər axşam hasar üstdə od içində qovrulur, yanıb yaxılırdım. Hasar üstündə ta ki gecədən xeyli keçənə qədər oturduqdan sonra ayağa qalxıb aram-aram evinin qapısından balaca həyətinə girib yox olanacan, gözdən itənəcən mən bu adamı izləməkdən yorulmurdum. Arzu edirdim ki, cızdıqlarını pozmaq bu dəfə yadından çıxacaq. Amma bir faidəsi yox idi. Hər dəfə ayağa qalxmazdan öncə bütün yazdığı işarələri çubuqla ora-bura üstündən əyri-üyrü xətlər çəkib pozurdu.

Bir gecə isə belə olmadı. Onu həyətdən çağırdılar. Ev tərəfdən, deyəsən, zəif bir səs gəldi. O, əlindəki çubuğu havada saxladı, hasarın o biri tərəfinə qulaq verdi, nədənsə səsi eşidəndən xeyli sonra diksindi, sonra çubuq əlində gedib tələsik həyətə girdi. Bu dəfə çubuğu torpaq üstündə gəzdirib bayaqdan bəri çəkdiyi işarələri pozmağı unutdu.

Mənim ürəyim şiddətlə vururdu. Əsl zamanı gəlmişdi. Nəhayət, mən qonşumuzun torpaq üzərində çubuqla nə çəkdiyini gedib öz gözlərimlə görəcəkdim. Bir az da hasar üstə gözləmək qərarını verdim.

Hava tamam qaraldı, ulduzlar göy üzündə öz yerlərini tutdular. Ay o qədər uzaqda idi ki, işığı güclə gəlib bizim evimizin həyətinə çatırdı. Küçədən adamların ayağı büsbütün kəsildi. Nə gələn qaldı, nə gedən. Mən ehtiyatla hasardan sürüşüb küçəyə düşdüm.

Əyilə-əyilə gəlib arxın qarşısında dayandım. Elə ayağımı atıb bu bir addımlıq arxın o biri tərəfinə keçmək istəyirdim ki, qəfildən qulağıma bir səs gəldi. O səs mənə dedi: "Tələsmə və ayağının altına diqqət elə." Mən başımı aşağı əyib ayağımın altına diqqət elədim. Bir şey görmədim. Sonra üstündən "hop" eləyib keçmək istədiyim bu kiçik arxa diqqətlə baxdım. Bu zaman isə, bəli, qorxudan gözlərim həqqən dörd oldu. Bəs mən nə gördüm?!

Ya imam Hüseyn, mən hələ belə şey həyatımda görməmişdim. Arx deyildi bu. Bu bir enli və dərin, itiaxan, dalğalı və qapqara sularının şaqqıltı saldığı qorxunc bir çay idi. Bu qorxunc çayı, mən özümü öldürsəydim də, nə üzüb o biri sahilinə keçə bilərdim, nə də gəmi olsaydı, gəmiylə keçə bilərdim. Bu çayı heç səyyah Sindbadın özü də gəmisi ilə üzüb keçə bilməzdi. Mən qorxmuşdum. "Bismillah" deyə-deyə kor-peşman, suyum süzülə-süzülə geri qayıtdım. Evimizin hasarı, şükr olsun, yerində idi. Hasarın üstünə dırmaşdım. Həyətə tullanmazdan əvvəl döyüşdə məğlub olmuş əsgər kimi son dəfə başımı çevirib arx tərəfə baxdım. Arx həmənki kiçik arx idi, lilli suyu yenə də həvəssiz-həvəssiz, zorla axıb gedirdi."

"Əsrari – kəvakib" əsərində böyük şair Füzuli haqda olan hissə Səmharinin dedikləri bu sözlər ilə beləcənə bitir. Kitabda isə Səmhari Füzuliyə aid yazdığı bu hissədən sonra mağara şairi Müşriqə keçir. Kitabın bu yerində dağlara çəkilib yalnız bundan sonra rahatlıq tapan və müdriklik zirvəsinə qalxıb insanlarla hər cür əlaqəsini kəsən, ancaq yazdıqlarını bir oğlan uşağı ilə aşağı, adamların arasına göndərən (bu oğlan uşağı yenə də haman Səmhari özü idi) və müqabilində yer-yeyəcək, pal-paltar alan Müşriq Sübhanverdi barədə Səmhari özünün fəlsəfi izahlarına keçir. Füzuli ilə bağlı məqamlara isə Səmhari bir daha qayıtmır.

Füzulinin həyatı ilə əlaqədar başqa bir qiymətli məlumat naməlum bir müəllifin "Günahların aqibəti" əsərində əksini tapıbdır. Bu əsər Səmharinin əsərindən xeyli sonra yazılıb və ondan daha məşhurdur. İlk dəfə bu naməlum müəllif diqqəti ona çəkir ki, Füzulinin qəzəl sonunda özünə müraciət etməsi bütün digər müəlliflərdən fərqlənir. Nə üçün belədir – bunun öz sirri var. Naməlum müəllif bizim marağımıza səbəb olan bunları deyir:

"Füzuli özü boynuna almışdır ki, o, qəzəl sonunda özünə müraciət etmir. Füzuli artıq əlyazması itmiş bir müxəmməsində keçmiş şeirlərini nəzərdə tutub belə deyirmiş: Mən qəzəl sonunda çox zaman özüm özümə müraciət etmirdim. Evimin qabağından tənbəl-tənbəl axıb gedən kiçik və lilli arxın o biri tərəfində hasar üstdən mənə saatlarla usanmadan və diqqətlə baxan bir balaca oğlan uşağına deyirdim son sözlərimi. Əsl Füzuli qəzəlin sonunda mən yox, o olurdu. O oğlan hasar üstündə olmayanda belə mən yenə də onun təəccübdən iri açılmış gözlərini xatırlayıb onunla danışmağıma davam edirdim."

Əlbəttə ki, Füzuli oğlan uşağı deyərkən Səmharini nəzərdə tuturdu.

…Zahid Fərzəli gecəli-gündüzlü ömrünü sərf edib öyrəndiyi "İkiləşmə və öz-özünə müraciət" adlı mövzu zaman keçdikcə onun özünü gerçək həyatda təqib etməyə başladı. Hər şey Müəllimin ölümü ilə başladı. Bakıdan Lvova uçarkən göydə naməlum bir səbəbdən qəzaya uğrayan təyyarənin bəxtsiz sərnişinləri arasında Kamran Abbaslı da var idi. Bu xəbər bütün elm və ədəbiyyat aləmini silkələmişdi.

Bir müddət keçdi və günlərin bir günü institutda belə bir xəbər ayaq tutub yeriməyə başladı ki, bəs guya Kamran Abbaslını Truskavetsdə parkda mineral su içən yerdə görən olub. O, guya Truskovetsə təyyarə ilə yox, qatarla gedibmiş. Adamlar əməlli-başlı sevinməyə macal tapmamış, "yox, oxşadıblar" deyə başqa bir xəbər gəldi. Sonrakı xəbəri isə artıq Müəllim özü göndərmişdi. O, həyatının sonuna qədər bu balaca, amma sevimli şəhərdə qalmağı barədə dostlarına, uzaq qohumlarına bildiriş göndərirdi. Deyəsən, Kamran Abbaslı həm var idi, həm də yox idi. Zahid Fərzəli öz-özünə möhkəm söz verdi ki, vaxt tapıb hökmən özü təyyarəyə

minib Lvova, ordan da Truskovetsə gedəcək və bu şübhəli məqamın üstünə, əlbəttə ki, birdəfəlik işıq salacaq.

Bir müddət sakitlik oldu. Kamran Abbaslının varlığı, yoxluğu ilə bağlı anlaşılmaz və gərgin bir tərəddüd, ümidsiz bir şübhə təkcə adamların ürəyində deyil, institutun dəhliz və divarlarında da gizildəyə-gizildəyə qalmışdı. Hamı, elə bil, ən son xəbərin müntəzirində idi. Və, nəhayət, bu son xəbər də gəlib çıxdı. Xəbər belə idi. Müəllim, nəhayət, bu günlərdə Bakıya qayıdıb. Daha sonra bu xəbərə kiçik bir əlavə edildi. Bakıya dönəndən sonra o, bir dəfə də olsun evdən bayıra çıxmayıb, bir həftədir evində xəstə yatır. "Allah-Allah, bu nə qarabasmadır?!" deyə düşünən Zahid Fərzəli "bu gün yanına gedərəm, sabah yanına gedərəm", bu cürə günü günə satdı və bir gün artıq özünün də inandığı, bəlkə inanmaq istədiyi sonuncu ağır xəbəri eşitdi. Müəllim vəfat etmişdi. Çox üzülsə də dəfnə gedə bilmədi. Bunun üzürlü səbəbi oldu. Sadəcə o, dəfn zamanı Bakıda deyildi. Türkmənistana "Maxtımqulu" günlərinə dəvətliydi. Ora isə getməyi Zahid Fərzəli çoxdan arzu edirdi.

Vətənə qayıtdıqdan sonra İnstitutda səhər tezdən əvvəl-əvvəl iş yoldaşları ilə Müəllimin müəmmalı ölümünü müzakirə etdilər. Sözləşdilər ki, elə axşama yaxın qəbir üstünə getsinlər. Elə bil, adamların üstündən yük götürülmüşdü. Müəllimin macəralı həyatı, nəhayət, özünün rahat sonluğuna qovuşmuşdu. Hər kəs iş otağına dağılırdı ki, İnstitutun katibəsi əlindəki kağız parçasını yelləyə-yelləyə şux addımlarla onlara yaxınlaşdı. Yenə də Truskavetsdən xəbər gəlmişdi. Kamran Abbaslı onların hamısına, Zahid Fərzəliyə isə xüsusi olaraq, salam göndərirdi və ondan Türkmənistandakı konfransın necə keçməsini maraq edirdi. Ətrafda hamı çaşıb qalmamışdımı, çaşıb qalmışdı.

…"Platon, deyəsən, xəstələnib" cümləsindən daha məzlum, daha zərif və daha gözəl cümlə, görəsən, yer üzündə varmı?!

*2013-cü il*

# Asiman və Zəminə

Bu hekayə bir qəmli hekayədi, bir qəmli hekayədi. Daş olmuş ürəkləri yumşaldıb, qəlbə çevirən hekayədi. Bilən biiir, ürəyin qəlbə çevrilən məqamında adam hətta ağlını itirə bilər. Gözünə cin-şəyatin görükər. Beyninə heç vədə fərqində olmadığı mətləblər gəlib girər. Cənnətə, cəhənnəmə gedib qayıdar. Sonra birdən sustalar, heydən düşər və adama elə gələr ki, yenidən doğuldu, bu doğuluşdan əvvəl isə nə baş verib, nə baş verməyib, onunla yox, başqa birisiylə baş verib.

Hər şey xeyli adi bir şəkildə başladı. Günün bir səfeh vaxtı var – nə hələ işıq tamamilə yer üzündən çəkilib, nə də hələ qaranlıq tamamilə ətrafı alıb – bəzi adamlar belə vaxta "şər qarışanda" deyir. Bir an da keçəcək və axşam düşəcək. Bax elə bu an, "axşam indicə düşdü" deyə biləcəyimiz həmən bu an Asimanın gözləri kəndin mərkəzində yerləşən Radio meydanında ondan iki-üç metr aralıda, qızlarla bir dayanıb gülə-gülə söhbət eləyən Zəminəyə sataşdı. Bir sinifdə oxuduğu və gündə yüz dəfə, min dəfə gördüyü bu qızın üzündə ilk dəfəymiş kimi baxışları gəzməyə

başladı. Asimanın qəlbindən bu zaman səbəbini özü də anlamadığı bir gizilti keçdi. Radio meydanı deyilən poçt idarəsinin qarşısındakı meydana yavaş-yavaş kənd camaatı toplaşırdı. Poçt idarəsinin qapısına dayaq kimi pərçim edilən köhnə və əyri dirəkdən asılmış radiodan həftədə bir dəfə bir məhəbbət verilişi vardı, adı belə idi – "Məhəbbətin qanadları" – o səslənəcəkdi. Evlərdə ki radio yox idi, sevilən bu verilişə qulaq asmağa, demək olar ki, kəndin əksər camaatı bura gəlirdi. Veriliş bir azdan başlayacaqdı. Hələysə qonşular, qonşu olmayanlar, dağın ətəyindəkilərlə çayın o biri tayında yaşayanlar – kənd də balaca kənd deyildi – bir-birilə min illərin həsrətliləri kimi şirin-şirin hal-əhval tutur, söhbət edirdilər. Oğlanlar məktəbdə baş verənləri bir daha deyə-gülə, əl-qol ata-ata bir-birinə danışır, özü də aktyorlar kimi səsləriylə oynaya-oynaya danışırdılar. Özlərini bu şəkildə onlardan azca aralıda topalaşmış qızlara göstərirdilər.

Bu əsnada özü də anlamadan Asimanın gözləri bu qızların arasında duran Zəminəni diri-diri yeməyə başlamadımı, başladı. Nə isə qədim bir hadisəni hap-gopla, ləzzətlə danışan Müzəffərə qətiyyən qulaq vermədən baxışıyla qızın gözlərini axtarır, tapır, zilləyirdi qara gözlərini onun yaşıl gözlərinin düz içinə. Nəydi, nə deyildi, amma indi, meydanda axşam düşən bu vaxt qız onun gözünə başqa cür dəymişdi. Niyə belə olmuşdu, başa düşəmmirdi. Zəminə bu axşam saçlarını səliqəylə üzündən yığmışdı, sir-sifəti açılmışdı, sağ yanağındakı xal da xeyli sirin görünürdü, bəlkə bundandı, bəlkə isə ondandı ki, əslində, Zəminə də ona bu cür baxmamalıydı, yaşıl gözlərilə ona deməməliydi: "bax, baxa bildiyin qədər bax, mən buyam, bax, üzümə yaraşıq xalım da var, nədi, yoxsa birinci dəfədi görürsən, ağzının suyu axıb getdimi, elə getdi… sil, sil ağzıyın suyunu, abırsız…" Amma bəlkə də nə bu idi, nə o idi, göy üzündə iki-bir, üçbir peyda olub maraqla onları seyr edən ulduzlar idi buna səbəb?! Bu ulduzlar bu dəfə çox yaxına gəlmişdilər, başlarının lap üstündə idilər, hərarətləri onlardan xəbərsiz canlarına girir, qanlarına işləyirdi, bəlkə səbəb bu idi?!

"Sil, sil dodaqlarını, bax beləcə axıdarsan ağzının suyunu…" Sanki bunu eşidib Asiman əlini ağzına apararaq biixtiyar pencəyinin qoluyla

ağzını sildi və bu zaman Zəminənin yaşıl gözlərinə hiyləgər bir təbəssüm doldu, sonra qız çiynini oynadıb boynunu yana döndərdi, elə bil, yadına qəflətən nəsə düşdü, ciddiləşmiş gözlərilə kimisə axtarmağa başladı. Əlbəttə ki, Kərimi axtarırdı, başqa kimi axtaracaqdı ki?! Bütün kənd cavanları bunu bilirdi ki, kəndin "Leyli-Məcnun"u kimdi. Əlbəttə ki, Asimanın can dostu, qan qardaşı Kərim Məcnun idi, bu şər qarışan vaxta qədər isə dostunun sevgilisi kimi bacılığa qəbul etdiyi Zəminə Leyli idi. Bəs bu "Leyli" nə üçün onun baxışlarının isti ahənginin içində mum kimi əriyib haldan-hala düşür?! "Nə qədər kinayə edirsən et, nə qədər saymazyana ədan var, əsirgəmə, amma mən bilirəm, sən özün dartıb mənim baxışımı saldın öz üzünə, gözünə..." Asiman onun cəmi bir, ya iki qucaq yaxınlığında duran qızın süzülüb gedən yaşıl gözlərinin içinə bu sözləri göndərdi.

Kərim o axşam Radio meydanına gəlmədi. O verilişə qulaq asmaq Asimana da qismət olmadı. Elə Zəminəyə də qismət deyilmiş. Veriliş başlamamış qız yanındakı rəfiqələrinə nəsə deyib onlardan aralandı, çaya tərəf yol aldı. Zəminəgilin evi çayın o biri tayında təzə tikilən evlərdən idi. Yalandan bir o tərəfə getdi, bir bu tərəfə gəldi, Asiman da xəlvətə salıb meydandan sivişdi, ayaqları onu bu biri yana apardı, məktəbin arxa həyətindəki Qarağacın böyründən hərlənib çaya düşmək olardı. Beləcə, ordan yolunu salıb əyilə-dikələ, evlərin, bağçaların, ağacların arasından o biri yolla gedən Zəminənin uzaqdakı kölgəsini izləyə-izləyə çayın körpüsünə tərəf getdi. Beyni guppuldayır, ürəyi şiddətlə vururdu. Beynindəki guppultudan və ürəyinin səsindən başqa heç nə duymur, heç nə eşitmirdi. "O baxdı, qızlardan aralanan zaman mənə baxdı, baxdı..." Ancaq bu sözlər fırlanırdı beynində, bəlkə həmən guppultunu da bu sözlər salırdı, bu sözlərlə özünə ürək-dirək verirdi, çünki nə qədər ehtiyatla getməyə çalışsa da gah ayağının altından qurbağa qaçıb canını qurtardı, məktəb həyətində hardansa Sarı it gəlib heç vədə etmədiyi bir hərəkəti eləməyə başladı, ona, Asimana hürdü. Sağ tərəfdə Kəlbəligilin çəpərindən bir quş pırıldayıb çinarın təpəsinə soxdu özünü. Asimana elə gəlirdi ki, ürəyinin guppultusudu, quşları, həşəratı yerindən eləyir və bunların səsini bu saat Zəminə də eşidir və ürəyində ona gülür. Amma gərək belə düşün-

məyəydi. Zəminə çaya tərəf tələsə-tələsə yol gedə-gedə nə üzü, nə də könlü gülürdü. O, dişlərini bərk-bərk sıxıb yol gedirdi, üzündə də xeyli ciddi bir ifadə var idi. Əslində, o da bunu anlaya bilmirdi ki, qəlbi, könlü niyə belə həyəcan içində döyünməkdədi. Bəli, qızın ürəyinin səsi, düzdü Asimanınkı kimi şiddətli olmasa da, hər halda qulaqlarında səslənməkdə idi. Geriyə, yana-yörəsinə baxmasa da Zəminə duyurdu ki, Asiman onun arxasınca gəlir. Qız, elə bil, onun gizli hənirtisini eşidirdi. Qızın sinəsi atır, yanaqları allanmışdı. Beynində hər şey bir-birinə qarışmışdı, amma bütün bədəninə yol getdikcə isti qan yayılırdı, gözlərinin dibi gülürdü, könlünün dərinliyində qönçələr açılırdı. Niyə belə idi – bilmirdi.

Qaranlıq, əlbəttə, artıq düşmüşdü. Ulduzlar yenə uzaqlaşdılar. Bu dəfə onlar göy üzündə duz kimiydilər, işıqları çayın üstündəki körpüyə tənbəl-tənbəl gəlib zorla çatırdı. Zəminə körpünü keçəndə başını döndərmədən, gözucu baxıb sezdi ki, Asiman on- on iki metr aralıda gizlənə-gizlənə durub qalıb. Zəminənin dodaqlarına bayaqkı qəribə, az qala hiyləgər bir təbəssüm yenə gəlib qondu. Asiman isə durduğu yerdən artıq qızı düz-əməlli görüb seçəmmirdi. Ordan-burdan gəlib işıqdı çatırdı, işığın dalınca kölgəydi görükürdü və Asiman bir onu bilirdi ki, qızın bu uzun və enli kölgəsinin dalınca düşüb getməlidi. Nəhayət, Zəminəgilin evinə gəlib çatanda cırcıramalar qəflətən bir toy başladılar ki, Asiman da, Zəminə də ürəklərinin guppultusunu bir andaca unutdular.

Qız həyətə girib qapını bərk-bərk arxasınca çırpdı, qapının cəftəsini bərk-bərk bağladı. Asiman bir müddət yolun bərisindəki çinar ağacına sıxılıb qaldı, maddım-maddım Zəminəgilin evininin yeganə işıq gələn pəncərəsinə baxmağa başladı, amma bir adam görünmədi bu pəncərədə. Nə illah elədi, fikrini bir yerə cəmləyə bilmədi. Bir xeyli vaxt beləcə keçdi. Nəhayət, Asiman ağacdan aralanıb yavaş-yavaş çay tərəfə, körpüyə sarı geri döndü. Gedərkən bilmədi ki, evin bu biri, işıq gələn pəncərəsinin yanındakı qaranlıq pəncərəyə yanağını dayayıb Zəminə gizlin-gizlin onun arxasınca baxır və bu zaman qızın qanı qaçmış, ağappaq ağarmış dodaqları elə hey bu sözləri pıçıldayır:"Allah, indi nə olacaq, nə olacaq indi, Allah?!" Zəminənin az qala səssiz və bitib tükənməyən pıçıltısı imkan vermirdi ki,

bayaqkı o hiyləgər təbəəssüm təzədən gəlib qızın dodaqlarına bir daha qonsun.

Asiman isə körpünü keçəndə suyun dəcəl şırıltısı onun yadına bunu saldı: sabah məktəbdə Kərimi görəcək. Bəlkə də Kərim indi gəlib Radio meydanına çıxıb. Getsinmi, məhəbbət verilişinin sonuna qulaq asmağa çatdırsınmı özünü?! Yox, indi o heç kimi görmək istəmirdi. Hamıya nifrət eləyirdi. Kərimə, Zəminəyə, Radio meydanında ağızlarını açıb məhəbbət verilişinə qulaq asan yar-yoldaşına, hamıya, ən çox da özünə. Məktəbin həyətinə çatmadan sola, qoşabulağa sarı döndü. Evlərinə tərəf.

Səhəri gün tezdən məktəbə gələ-gələ Asiman yol boyu düşünürdü ki, qan qardaşı Kərimlə görüşmək onunçün çətin olacaq. Çətin olmadı. Elə Zəminənin özü ilə də üz-üzə gəldiyində nə o, nə bu heç nə ilə ürəklərindəkiləri biruzə vermədilər. Məcnunun heç nədən xəbəri yox, Leyli də özünü elə aparırdı ki, elə bil, dünən axşamkı Zəminə bu deyildi. Arada Zəminə üzü pörtmüş halda dərsin şirin yerində səsinin asta yerinə salıb yanında oturmuş Kərimdən öz nəvazişli səsilə soruşdu:

– Dünən axşam niyə gəlmədin?

– Dədəmin yanına getmişdim.

– Bəs axı... söz vermişdin axı...

Kərim dinmədi. Daha onlar bu söhbəti uzatmadılar. Düz arxalarında oturub bütün vücudunu gərərək onların arasındakı hər hansı söhbətə qulaq kəsilmiş Asiman rahat-rahat arxa söykənəcəyə kürəyini dayadı, bu sözlərdən sonra bir dəfəlik rahatladı. Qızın nəvazişli səsinin çox-çox dərinliyində gizlənmiş incikliyi duydu və bu zaman onun tarıma çəkilmiş ruhuna bir sərinlik yayıldı.

Tarix dərsi idi. Həmişə olan kimi Türyan müəllim bu gün də bir maraqlı bəhanə tapıb onları öz sevimli mövzusunun içinə salmışdı. Antik mifologiyadan, yunan allahlarından danışırdı. Deyirdi ki, hətta allahlar da o qədim zamanlarda hər şeyə qadir qüvvə deyildilər. Buna inanmaq bir qədər çətin idi. Türyan müəllim deyirdi:

– Elə məsələlər vardı ki, allahların da gücü çatmırdı, onları həll eləsin. Hətta baş allah Zevs də bacarmırdı. Tale işlərinə allahlar heç cürə qarışa bil-

mirdilər. Tale işləri Moyra adında bacı ilahələrin əlində idi. Moyralar insanların taleyini yun kimi əyirirdilər. Nə cür alınırdı, alınırdı. Onlar heç kimə, heç bir allaha tabe deyildilər. Moyralar insanların taleyini necə istəyirdilər, elə də düzüb qoşurdular. Tale ilahələri olan moyra bacıları çox böyük gücə malik idilər…

Bu zaman Müzəffər yerindən şux bir səslə soruşdu:

– Bə bu ilahələr özləri hardan pırtlayıb çıxmışdılar? Bütün o biri allahlar axı hardansa bir yerdən çıxmışdılar?! Belə deyil? Qumru nənə aşağıda elə hey əlində nəsə toxuyur. O da bizim moyradısa, vay bizim halımıza, amma o bizim kənddidi…

Qumru nənə məktəbin gözətçisi idi. Həmişə qapının ağzında oturub əlində ip toxuyardı. Üzündə yekə ətli xalları vardı, bu xalların ətrafında isə uzun-uzun tüklər qələm kimi bitmişdi. Altdan-altdan heybətli, bulanıq gözlərilə məktəbə gələn, məktəbdən gedən uşaqlara bir baxardı, bir baxardı, adamın qorxudan bağrı yarılardı. Hərdən-birdən də dodaqaltı mırtdanardı. Onun yanından ötüb keçəndə təkcə uşaqlar yox, böyüklər də özlərini yığışdırırdı. Qumru nənə eynən muzeydəki qədim və qorxulu eksponatlara oxşayırdı.

Sinifdə bir-iki nəfər gülüşdü. Türyan müəllim Müzəffərə tərs-tərs baxıb acıqlandı:

– Yenə boş-boş danışmağından qalmırsan, eləmi? Tənəffüsdə gələrsən, mən sənə göstərərəm onlar hardan çıxmışdılar, Qumru nənə hardan gəlib sənin kənddin olub… – Deyim tərzi ilə Müzəffərə heç də yaxşı şeylər vəd etməyən Türyan müəllimin Müzəffərin bu yersiz müdaxiləsindən sonra, elə bil, birdən-birə həvəsi uçub uzaqlara getdi, səsi mis kimi oldu. – Belə. Davam edirəm. Yazın. Bolşeviklər… başa düşürdülər ki, onlar… hakimiyyəti silah gücünə… ələ almasalar, ələ almasalar, onların özünü Müvəqqəti hökumət, Müvəqqəti hökumət… süpürrüyüb… tarixin arxivinə atacaq… Arxivinə! Atacaq! Nöqtə.

Məktəbdən çıxıb evə gedəndə, hərəsi bir tərəfdən qapıya yaxınlaşan yerdə, Qumru nənənin zindan baxışları altında Asiman və Zəminə az qala bir-birilə toqquşacaqdı. Yenə Kərim hardasa ləngimişdi, nəydi?! Bu dəfə də

o hiyləgər təbəssüm qızın dodaqlarında idi. "Nədi, yoxsa bu gün də axşam gəlib kəsdirəssən çinarın altını?" Asiman Zəminənin yaşıl gözlərində açıq-aşkar bu sözləri oxudu. "Gələcəyəm!" o da gözlərilə cavab verdi.

Bu, bir həftə sonra Radio meydanında "Məhəbbətin qanadları" radio verilişinin növbəti dəfəsində baş verdi. Asimanın ürəyinə dammışdı ki, Zəminə bu axşam Radio meydanında olmayacaq. O da ürəyinə dammışdı ki, nə olacaqsa bu axşam olacaq. Qızgilin evinin qarşısında qaranlığın içində çinara sıxılıb büzüşmüşdü, soyuq olmasa da tir-tir əsirdi. Zəminə həyətdə ora-bura gedir, anasının yuyub sərməyə macal tapmamış paltarları zivəyə sərirdi.

– Gec oldu, mən çatdırmaram, nağıldan qalmayım. Sən bunları zivəyə sərərsən. – Anası bu sözləri deyib yaylığını başında düzəldə-düzəldə daha cavab da gözləmədi və arxasına baxmadan tez eləyib evdən çıxdı, qapı ağzındakı qonşu arvadlarla bir yerdə Radio meydanına sarı tələsdilər.

Asiman qızın özünü yenə də görmürdü. Amma Asimanın söykəndiyi çinarın yanındakı işıq dirəyindən sarı rəngli ürəküzən, zəif bir işıq parçası Zəminəgilin həyətinə düşürdü. Onun həyətdə paltar sərərkən əl-qol atmasını, yaş paltarları son dəfə sıxıb bu zaman alnının tərini silməyi unutmaması, tez-tez başını çöndərib həyət qapısından o tərəfdəki çinara tərəf boylanması Asimanın gözlərindən kənar, çəpərin o tərəfində baş verirdi, amma əvəzində Asiman qızın evin divarına yapışmış kölgəsini görürdü. Zəminənin vücudu nə cürə və hansı hərəkəti edirdisə, divardakı kölgə bunu qəbul edib şəklini çəkir, o dəqiqə yolun o tərəfinə, çinarın altına göndərirdi. Asiman isə kölgənin divarda yazdıqlarını öz bildiyi kimi "oxumağında" idi. "Bir az, lap az qaldı, döz, qoy paltarları sərim qurtarım, az qaldı… gözlə, gözlə…"

Doğrudan da çox keçmədi, paltarlar sərilib qurtardı. Zəminənin kölgəsi bir qədər də həyətdə ora-bura dolaşdı, sonra yavaş-yavaş gedib girdi həyətin yan tərəfindəki töylənin içinə. Asiman kölgənin ona ötürdüyü bu işarəni də qəbul edib balaca çəpəri səssiz-küysüz birdəfəyə aşıb keçdi içəri, tullananda hesabını düz tutmamışdı deyin, əvvəl-əvvəl zivədən asılmış yaşı axan ağ, boz paltarların arasında itdi, onların içində bir qədər

vurnuxub, əl-qol atıb çıxanda kölgə bu dəfə hövsələsiz bir halətdə töylənin qapısı ağzında görükdü, yəni, "bə sən harda qaldın?" və o, artıq qətiyyətlə kölgəyə tərəf getdi. Beləcənə Asiman yaş paltarlardan sıyrılıb gəlib girdi Zəminəgilin töyləsinin içinə. Heyvandan səs-soraq hardaydı, kəndin qoyunları dağdan hələ qayıtmamışdı. Zəminəgilin inəkləri əvvəldən yox idi. Töylə idi, onlar idi.

Zəminə töylənin içində harasa itmişdi. Kölgə də yox olmuşdu. Hər tərəf zil-qaranlıq idi. Asiman az qala xoflanacaqdı ki, bu zaman töylənin damındakı tüstü bacasından içəri ulduzlarınmı, ayınmı zəif işığı gəlib yetişdi və kölgə yenidən peyda oldu.

Kölgə yerə sərilmişdi və kölgənin üstündə bir qız heykəli dayanmışdı. Bu, Zəminə idi. Asiman onun qarşısında gəlib duranda Zəminə yavaş-yavaş yerə oturdu, daha doğrusu, Zəminə kölgəsinin üstünə arxası üstə yavaş-yavaş uzandı. Asiman da qıza baxıb kölgənin üstündə, onun yanındanca yerə çökdü. Bunların biri, iraq-iraq, sinə daşına oxşadı, o birisi isə baş daşına. Bir an keçdi, min il keçdi, Asiman bir onu bildi ki, bütün vücudu əsə-əsə yıxıldı bu sinə daşının üstünə. Bir əlilə kölgənin kənarını yorğan kimi çəkib ikisinin də üstünü örtdü, o biri əlilə qızın başının altına dayaq verdi ki, başı quru yerə dəyməsin. Sonrası asan oldu. Bu kölgə yorğanın altında dodaqlar dodaqları axtarıb tapdı, əllər əllərə, köküslər köküslərə dirəndi, ayaqlar ayaqlara sarmaşdı, saçlar saçlara qarışdı. Kölgənin altında vücud vücudun içində əridi. Ruhları bədənlərini tərk edib bir neçə anlığa uçub göylərdə pərvaz elədi. Lüt-üryan olmuş bədənlərini bacadan düşən ulduz işığından Zəminənin yorğana dönmüş kölgəsi gizlətdikcə gizlətdi.

…Zəminə səhəri gün kefi kök bir halda xoşbəxt-xoşbəxt evdən bayıra çıxıb məktəbə yola düşdü. Amma çox keçmədi, yarı yoldan heysiz-heysiz evə qayıtdı.

– Noldu sənə, qız? – Anası Zəminənin bu cürə yarı yoldan dönməsini anlamayıb niyaran qaldı. – Niyə yoldan qayıtdın? – Soruşdu.

– Heç… – Zəminə əzgin səslə cavab verdi. – Başım ağrıdı.

Səsində qızın nə vardısa anası bu dəfə bunun üzünə, boy-buxununa zənlə baxıb başını buladı və dedi:

– Keç otağına, uzan. At başını yastığa. İnşallah, keçib gedər. – Ürəyində isə düşündü: "Vaxtı çatıb bunun. Boy-buxunu arvaddaşıb. Ərə vermək lazımdı."

Üç gündən sonra məktəbin arxa həyətində Qarağacın altında Zəminə qıpqırmızı qızarmış üzünü yana tuta-tuta hər şeyi özü açıb Kərimə danışdı.

– ... Bağışlama məni, heç zaman bağışlama. Mən səni bağışlamazdım.

Kərimin heyrətdən nitqi tutulmuşdu, ağzını açıb bir kəlmə danışa bilmədi. Ancaq barmaqlarını yumruq kimi sıxdıqca sıxdı.

Üç gün də keçdi. Həftə başa çatdı. Kərim ilim-ilim itmişdi, heç harda görükmürdü. Haman axşam Radio meydanında "Məhəbbətin qanadları" hekayəsinin son radio verilişi olmalıydı. Veriliş başlayandan bir az sonra ürəyi bərk-bərk döyünən Zəminə qızlardan yenə də ehmalca aralanıb evlərinə tərəf tələsdi. Yolla gedə-gedə duyurdu ki, ötən səfərki kimi arxasınca gələn var. Sevincdən sinəsi atlayırdı. Ötən səfərki tək qızın ürək döyüntüləri yenə "gup-gup" vurur, dodaqlarında yenə haman hiyləgər təbəssüm oynayırdı. Çayın körpüsünü tələsə-tələsə keçdi. Nəfəsi təntiyir, qarşıdakı görüşün həsrəti sinəsini isti təndir kimi qızışdırırdı. Təngnəfəs evlərinə çatıb həyət qapısından içəri keçəndə naz ilə başını azacıq yana əydi və bir daha əmin oldu ki, kölgə hələ də onunladır, demək olar ki, eyni vaxtda gəlib evə yetişiblər, budur, yolun o tərəfində dayanıb durub, amma bu dəfə çinar ağacına arxasını verməyib, ağacın yanındakı işığı yanmayan dirəyəcə çiynini söykəyib donub qalıb.

Az sonra Zəminə töylənin ortasında durub bütün vücudu həyəcandan tir-tir titrəyə-titrəyə Asimanı gözləyirdi. Bu dəfə töylənin içinə heç bir yerdən işıq düşməmişdi. Ay da yox idi göydə, ulduzlar da yox idilər. Məşum bir gecəydi. Qız bir onu bildi ki, arxadan yaxınlaşıb onu bərk-bərk qucaqladılar. Həsrətli bir nəfəs boynunu od parçası kimi yaladı. Zəminə diksindi. Bu o deyildi.

Zəminə küreyinin ortasına sancılan bıçaq zərbəsini, demək olar ki, hiss eləmədi. Elə bil, kürəyinə isti bir əl dəydi. Yerə yıxılmazdan əvvəl beynindən son dəfə bu keçdi: "Bəs Asiman… o niyə gəlmədi?! Biz axı…"

Asiman bu zaman məktəbin arxa həyətində qoca Qarağacın altında, gözdən kənar bir yerdə neçə saat idi ki, qarnındakı dərin bıçaq yarasını iki əlilə qucaqlayıb yıxılıb qalmışdı. Səmaya baxan açıq gözlərində belə bir sual gizlənmişdi: "Məndə günah varmıdı?!"

Bəlkə də o haqlı idi. Bu, bəlkə də Asimanın günahı deyildi. Bu, Kərimin də günahı deyildi. Zəminənin? Zəminənin heç günahı deyildi. Bəs o zaman kimin idi bu günah?!

Moyraların olmasın?!

*2013-cü il*

# Atama deyin ki, mən xoşbəxtəm...

Xoruz bir qara-qışqırıq salmışdı, birnəfəsə elə çığırırdı ki, elə bil, tutub başını kəsməyə aparırlar. Qəzənfər kişi evin balaca, amma uzunsov həyətinə çıxan eyvanda stolun arxasında məlul-məlul oturub çənəsini iki əliylə bərk-bərk sıxdığı çəliyinə dirəmişdi. Gözlərini dikmişdi eyvanın altındakı qızılgül kolunun üstündə bir nöqtədə hərlənən arıya. Gözləri yol çəkirdi. Düz arxasında qapının ağzında elə yerdəncə çöküb Sürəyya arvad oturmuşdu və səssiz-səmirsiz, zülüm-zülüm ağlamağında idi. Gözlərindən yaş axdıqca axır, çiyinləri diksinən kimi oynayır, içini çəkir, hərdən əlindəki yamyaş dəsmalla gözünü silirdi. Gözlər sürtülüb silinməkdən qıpqırmızı olmuşdu.

"Barı şivən salsaydı... Saçını yolsaydı..." – Qəzənfər kişi yana-yana düşündü.

Qəflətən xoruzun çığırtısı kəsdi. Bir-iki saniyə ara verib bu çığırtı təzədən başladı və Qəzənfər kişi başını həyət qapısına tərəf çöndərməsə də

duyuq düşdü ki, qapını açıb kimsə həyətə girdi. Xoruz özünü sabahdan birtəhər aparırdı. Tezdən-tezdən həyətdə üstünə cummadığı adam qalmamışdı. Şəstlə ayaqlarını ata-ata, dimdik yerişlə nəvəsi Zeyninin, sonra Qəzənfər kişinin üstünə getdikcə-gedirdi. Axırda Qəzənfər kişi əsası ilə xoruza nə təhər vurdusa qıy çəkib yox oldu getdi, bir az əvvələ qədər səsi gəlmədi. İndi yenə başladı.

Həyət qapısını aşıb içəri girən adam kəndin ağsaqqallarından biri, Qəzənfər kişinin uşaqlıq dostu Həzibala idi. Həzibalanın gəlişi Qəzənfər kişini təəccübləndirmədi. Çünki o, ürəyinin gizli yerində bu gəlişi gözləyirdi. Sürəyya nənə "uy" eləyib içini çəkdi. Qəzənfər kişi ona tərs-tərs baxıb başı ilə işarət verdi: "Keç içəri!" Arvad dinməz-söyləməz itaət elədi, keçib otağa girdi, amma qapının ağzını yarıyacan açıq qoydu. Qaranlıq otaqda görünməsə də Qəzənfər kişi bildi ki, Sürəyya arvad qulağını dörd eləyib eyvandakı söhbətə qulaq asacaq.

Həzibala kişi həyət qapısından eyvana doğru şəstlə gedən yerdə həyətin dibindəki tut ağacı ilə evə gedən cığırın arasında çəpər kimi bitən gül kollarının arxasından bir xoruz, elə bil, xoruz deyildi, qartaldı, zəhlətökən səsiylə "qıy" vurub alçaqdan uça-uça kişinin üstünə cummadımı, cumdu. Həzibala kişi özünü itirmədi. Əlindəki dəmir başlı çomağını hərrəyib bu xoruza necə əmud vurdusa xoruz gəldiyi yolla uçub tut ağacının altında leş kimi torpağa sərildi. Qanadları son dəfə açılıb yığıldı. Daha bu xoruzdan nə səs çıxdı, nə də bu xoruz tərpənmək nədi, daha tərpənmədi.

Həzibala kişi qətiyyən təhər-tövrünü pozmadan, heç nə olmayıbmış kimi azca ləngər vura-vura gəlib eyvanın üç-dörd pilləkənini dik-dik qalxdı və Qəzənfər kişinin qarşısındakı stulu altına çəkib onunla üzbəüz oturdu.

Qəzənfər kişinin bayaqkı məlul halından əsər-əlamət yox idi. Üzünün cizgiləri codlaşmış, baxışları sərtləşmişdi.

– Salam, Qəzili.

Qəzili dediyi Qəzənfər kişi idi, yaxınları, tayı-tuşu onu belə çağırırdı. Qəzənfər kiçi Həzibalanın salamını başı ilə aldı.

– Sabahın üzü açılmamış belə isti?! Gör indi günorta nə olacaq… – Həzibala cibindən çıxadığı dəsmalla tərləmiş boynunun dalını silə-silə ora-bura boylandı.

– Xoruzu niyə heylə elədin? – Qəzənfər kişi Həzibalanın üzünə baxmaya-baxmaya yavaşca və etinasız bir səslə soruşdu.

– Bə neynəyəydim?! Qoyaydım düz gəlib gözümü çıxaraydı?! Görmədin başımın üstünü quzğun kimi necə almışdı…

Qəzənfər Həzibalanın ərklə dediyi bu sözlərdən sonra daha dinmədi. Gözlədi görsün, Həzibala nə üçün gəldiyini necə, nə üzlə söyləyəcək. Bunun bu sabah durub bura gəlməsi elə-belə deyildi. Nəysə bir xəbərlə gəlmişdi. Həzibala uzun illər Qəzənfər nəsliylə qonşu kənddəki (artıq qonşu yox, birləşmiş bir böyük kənd də demək olardı bu iki kəndə) Qəhrəman nəsli arasında gah gizli, gah da açıq gedən davanın arada gedib-gələn, söz aparıb gətirən, təkliflər verib görüşlər təşkil edən və hər iki tərəfin inandığı elçisi idi. Həm Qəzənfər kişinin, həm də Qəhrəman kişinin uşaqlıq dostu, etibarlı adamı idi. İndi də, deyəsən, ağ dəsmal qaldırıb gəlib. Odu sönüb külü qalan davanın üç gün bundan əvvəl son hadisədən sonra yenidən qızışması, özü də çox bərk, çox pis qızışması vardı.

– Allah rizasına, çaydan-sudan, nə varsa… ciyərimiz yandı, ay uşaq… – Həzibala ətrafa, daha çox qapı tərəfə göz atıb dilləndi.

Qəzənfər kişi təhər-tövrünü dəyişmədən astadan "öhö" eləyib öskürdü, yəni, icazə verdim, "çay gətirin".

Bir müddət ikisi də dinməz-söyləməz oturdu. Nəhayət, Sürəyya arvad hər əlində bir stəkan çay eyvana çıxdı, qıpqırmızı qızarmış gözlərini qonaqdan gizlədə-gizlədə gətirib çayları bunların qabağına qoydu. Nə qənd gəldi ortalığa, nə də şəkər, eləcə iki stəkan acı çay.

Gözucu Sürəyya arvadı süzüb Həzibala dərindən köksünü ötürdü. Çay stəkanını əlinə alıb ora-burasına baxdı, baxdı, sonra soruşdu:

– Qəndi yoxdu bunun?

Qəzənfər kişi bu sözləri ikibaşlı qəbul elədi. Başqa vaxt Sürəyya arvadın üstünə çımxırar, qaş-qabağını tökərdi, indi isə Həzibalaya tərs-tərs baxıb suala sualla cavab verdi:

– Qəndi neynirsən?! Hortuldat getsin.

Həzibala dillənmədi, çay ki, soyuq idi, birnəfəsə başına çəkdi, stəkanı qaytarıb stolun üstünə qoydu:

– Oxxay… Sağ ol, ay Sürəyya. Allah ölənləriyin yerin behiştlik eləsin, çox sağ ol.

Yenə ortaya namünasib sükut çökdü. Nə Qəzənfər kişi, nə də Sürəyya arvad qaytarıb bir kəlmə söz demədilər. İkisinin də ürəyi bərk-bərk vururdu. Qəzənfər kişinin üz-gözündən bir şey oxumaq olmurdu, baxışları yenə də sərt idi, Sürəyya arvad isə bir himə bənddi, gözündən yaş yenə dağ başında şəlalə kimi səssizcə tökülüb axacaqdı. Qəzənfər kişi bunu duyub bu dəfə arvada tərs bir baxış atdı, başıyla "keç gir içəri!" işarətini verdi. Sürəyya arvad səssizcə içini çəkib içəri keçdi.

Sükutu Qəzənfər kişiylə gözəgöz gəlməkdən çəkinən və elə hey yerində narahat-narahat nə isə qurddalayan Həzibala pozdu. O, hələ də oynayan baxışlarını həyətdəki bir gül kolundan o birinə keçirə-keçirə uzaqdan gələn bir səslə yavaşdan dedi:

– Bildin yəqin. Məni Qəhrəman göndərib…

Dedi və susdu. "Uf" eləyib cibindən çıxardığı dəsmalla üz-gözünün tərini sildi. Qapının o biri tərəfində ürəyi səksəkəli durmuş Sürəyya arvadın gözlərindən yenə səssiz-səmirsiz yaş durmadan axmağa başladı.

Qəzənfər kişi çox gizli bir həsrətlə elə bu sözü gözləyirdi, onu eşidib ürəyinə bir tərəfdən yüngüllük gəldi, amma yenə də dişin dişinə sıxıb təhər-tövrünü pozmadı. Yalnız gözlərinin dibi bir anlıq işıqlandı. Gözlərinin dibindən, elə bil, bir parça od çıxıb tezcə də yox oldu. "Hm…" eləyib danışmadı. Ürəyinin guppultusunu gicgahlarında eşitməyə başladı. Amma yenə də heç nə olmayıbmış kimi üzünü Sürəyya arvada tutdu:

– Zeyni getdimi mən deyən yerə?

Sürəyya arvad taqətsiz cavab verdi:

– Getdi, getdi, harda olsa indi gələr…

Həzibala elçi gəldiyini bəyan edəndən sonra altdan-altdan, gözucu Qəzənfər kişini süzməkdə idi. Başqası elə bilərdi ki, onun dedikləri ev sahibinin vecinə deyil. Amma Həzibala yaxşı bilirdi ki, üç gün bundan

əvvəl Qəzənfərə gəlib çatan xəbər kişinin ürəyini necə haldan hala salıb. Hələ Sürəyyanın vəziyyəti budu, göz qabağındadı. "Qəzili özünü sındırmır. Amma zərbə yaman dəyib. Üz-gözündən görünür. Kim olsa bundan betər günə düşər. Qəzilidi, dözür. Allah bilir, beynində nə qurğular qurur. Qəhrəmanın da, nəvəsinin də qanını içməyə hazırdı. Gözlərini gizlədir. Qan tutub gözlərini. Mən bilirəm, bu adam intiqam almasa ürəyi partlayacaq. Mən başıdaşlı indi nə edim?! Nə təhər başlayım, hardan başlayım?!" deyə fikirləşə-fikirləşə Həzibala söhbəti hansı məcraya salacağını beynində götür-qoy elədi. Nəhayət, qərara gəldi ki, deyəcəklərini yüngülvarı şuxluq pərdəsinə bürüyə-bürüyə davam etsin. Bəlkə bu şəkildə Qəzənfərin ürəyini almaq mümkün ola. Amma belə deyilmiş…

– Qəzili, əlbəttə ki, mənim sənə məsləhət verməyim doğru olmaz. Amma bax… – Həzibala səsini lap qısdı. – İş işdən… necə deyərlər… keçib. Bir qız əvvəl-axır bir oğlanındı. Sənin nəvən – mənim nəvəm deməkdi. Zeynəbi mən beşikdən tanıram. Elə deyilmi?! Qəhrəmanın da nəvəsi bir yaxşı oğlandı. –Həzibala artıq söhbəti rahat bir yola saldığını sandı, sözləri üyürə-üyürə bir-birinin yanına düzməyə başladı. – Özünün də biznesdinədi, ondan varıdı. İndi işdi olub. Hər birinizin yeganə nəvəsidi. Bəlkə elə Allah qurban olduğum özü belə məsləhət buyurub ki, bu düşmənçilik bu cürənə tamamilə yox olub getsin?! Hə?! Axı nə qədr olar?! Ölənlər öldü, getdi, barı qalanlar bir xoş, rahat gün görsün… Razısan mənnən?!

…Qəzənfər kişinin isə huşu bayaqdı uçub uzaqlara getmişdi. Qəhrəman nəsliylə düşmənçiliyin başlandığı günlərə. O zaman hələ əziz-xələf oğlu Nəməd də doğulmamışdu. Qəzənfər kişi bığıburma, beyni qanlı bir cavan idi. Kəndin seçilən, sözü, hərəkətilə özünə hörmət qazanan bir gənc idi. Qolu güclü, beli möhkəm, kürəklərində kəl gücü vardı. Çoxunun mübahisəli işini səbrlə dinləyib həll edərdi. Ədalətli adam olmağı ona özündən böyüklərin də hörmətini qazandırmışdı. Məktəbi bitirib əsgərlikdən təzə qayıtmışdı. İkicə ay sonra Tatarıstandan kəndə üç nəfər əsgər dostu qonaq gəldi. Eynən bunun kimi kəl… Boyunları, çiyinləri eyzən əzələ, boyları-buxunları bir tamaşa… Həzibala da düşərdi bunların yanına, Kürə çimməyə gedəndə kənd cavanları, elə həyətdəki qızlar da yüngülcə

yaşmaq tutub tamaşaya durardı. Eh, getdi o günlər…. İndi ayağını zorla atır, gözləri sulanıb, yaş yetmiş həndəvərində, çəliksiz yeriməyə çətinlik çəkir. Nə isə…

…Əsgərlikdən təzə qayıtmışdı, Stalini bədnam eləyib mavzoleydən çıxardıqları günlər idi. Təkcə şəhərlərdə yox, kəndlərdə də adamlar çaşıb qalmışdılar. Şəhərdəkilər yenə nəyinsə ucundan-qulağından eşidib bilirdilər. Ağılları, məntiqləri ilə məsələni anlayırdılar, anlamağa çalışırdılar. Kənddəkilər isə ümumi çaxnaşmanın hənirtisini ancaq hiss edirdilər, kortəbii narahatlıq keçiridilər. Nəyi isə gözləyirdilər. Nəyi?! Heç kimin bu suala cavabı yox idi. Camaat əsəbi olmuşdu, bir-birinin sözünü həzm edə bilmirdi. Dünən bir cür, bu gün başqa cür danışanların, raykom katiblərinin, kolxoz sədrlərinin nə üçün, nə səbəbə bu cür dəyişmələrini başa düşmürdülər, qəbul edə bilmirdilər. "Bu adam bu gün öz rəhbərinə belədisə, sabah mənə nə cür olar?!" kimi fikirlər yarıgizli, yarıçılpaq şəkildə beyinləri dolaşmaqdaydı və dolaşırdı.

Yazın axırları olardı. Sel-su daşmışdı. Kür öz böz sifətini göstərməyə bəhanə axtarırmış… Bir axşam Qəzənfərgilin inəyini Kürün suları alıb apardı. İnəyi xilas etmək mümkün olmadı. Qəzənfərin, anasının, "vay-vay" deyə-deyə əlacsız durub qalmış qonum-qonşunun gözü önündə inəyi böyürdə-böyürdə dalğalar altına aldı. Qəzənfər əlacsızlıqdan az qala gözlərindən yaş gələcəkdi, özünü suya vurmaq istəyirdi. Anası Pəri arvad yıxılıb oğlunun dizlərini qucaqladı, onu fikrindən zorla daşındırdı. Az qala hərəsi dağ boyda şahə qalxan dalğaların qoynuna girmək ölümün açıq-aşkar qoynuna girmək kimi bir şey idi. Çox adam orda-burda sahildə durub bu mənzərəni kimi canyanğısıyla, kimi də laqeyd-laqeyd seyr edirdi. Qəflətən arvadların "ah-oh"una qarışıb Qəzənfərin qulağına bir hırtıltı səsi gəlib yetişdi.

Başını çevirib gördü ki, qonşu kənddən Qəhrəman adlı həmyaşıdıdı. Qəhrəman kənd cavanlarının arasında durub əliylə suların qoynunda itən və batmaqda olan inəyi göstərib nəsə deyir və əməlli-başlı rişxəndlə gülürdü. Qəzənfər Qəhrəmanı özünə dost bilirdi, evlərinə getmişdi, evlərində olmuşdu. İndi isə, Qəhrəmandan çıxmayan iş, eləcənə inəyə

ləzzətlə baxa-baxa dişlərini ağardırdı. Qəzənfər kinli-kinli Qəhrəmanı süzdü. Onun qəzəbli baxışlarını zərrə qədər vecinə almayan Qəhrəman özünü yığışdırdımı, yığışdırmadı. İndi də gözlərini Qəzənfərin düz üzünə zilləyib, elə bil, nəyinsə acığını çıxardırdı, dişlərini ağartmaqda davam etdi. Daha cin Qəzənfərin başına vurdu, özünü saxlayıb dözə bilmədi. Ürəyində "mən indi sənin ağaran dişlərini qana boyayaram" deyib Qəzənfər bir onu bildi ki, iki sıçrayışda Qəhrəmanı əzik yastıq kimi bürmələyib altına saldı. Yumruq yumruq dalınca buna vurur, bütün hirsini, acığını özünə indiyənə qədər dost bildiyi bu adamdan çıxmaq istəyirdi.

– Nəyə irişirsən, ə, nədi, inək görməmisən batan yerdə?! Gəl, gəl bura, səni də onun yanına aparacam… – deyə-deyə Qəhrəmanı suyun içinə tərəf sürüməyə başladı. Kürün sahildə marığa durmuş sakit suları da, elə bil, bunu gözləyirmiş kimi yolundan çıxıb hiyləgərcəsinə onlara yaxınlaşmaq, bir məqam tapıb Qəhrəmanı Qəzənfərin kəlbətinə dönmüş əllərindən qapıb dalğalar oynayan qucağının düz ortasına aparmaq istəyirdi. Ətrafdakı adamlar bu zaman, elə bil, yatıb qalmışdılar, birdən-birə yuxudan ayıldılar və cəld tərpəndilər. Qəzənfərin anasının tükürpərdici çığırtısı altında hərə bir tərəfdən güc verib Qəhrəmanı Qəzənfərin əlindən aldı, gədəni yarımcan halda sudan, yəni, xatadan-baladan kənar bir yerə sürüdülər…

– …İndi bu uşaqlar bir-birlərinə könül veriblər. – Həzibalanın yumşaq, ilanı yuvasından çıxaran səsi çox uzaqdan gəlirdi. – Mən sənə doğrusunu deyirəm, Qəzili. Qızı zorla aparmayıblar. Özü gedib. İnanmırsan, sən Allahın, bax bir bu telfona. Görəssən. Zeynəb balam sizə burda ismarış göndərir. İndi belə şeylər var. Televizor kimi…

Həzibala cibindən bir qara telefon çıxardıb stolun üstünə qoydu. Qəzənfər kişi ağır-ağır gözünün ucuyla telefonu süzüb baxışlarını yenə kənara çəkdi. Yenə dillənmədi.

"Hm… Bunun dinib danışmamağı mənim nəsə xoşuma gəlmir…" – Həzibala beynindən keçirdi.

– Qulaq asmaq istirsən? – Ümidlə Qəzənfərdən soruşdu. Sonra birdən "ölmək ölməkdi, xırıldamaq bə nədi?!" düşünüb, səsinə yenə də şuxluq qataraq bu ürəksıxan vəziyyətdən bu dəfə də zarafatla çıxmaq istədi. – Ay

canım, ay gözüm, bə siz yas niyə qurmusunuz? A Sürəyya, bir bəri gəl… – Yenə ərklə üzünü evin açıq qapısına tutdu. Bir gözü isə Qəzənfərdə idi, ehtiyat edirdi ki, birdən bu cür danışığı onun xoşuna gəlməz. Qəzənfərdən hər şey gözləmək olardı. Qəzənfər kişidən yenə səs çıxmadı.

Sürəyya arvad kabus kimi eyvana çıxdı.

…İnəyi sel aparan günün elə o biri axşamı Qəhrəmanın altı, yeddi nəfər qohum-qardaşı, hamısı atlı, Qəzənfərgilin evinə basqın etdilər. Aralarında bir Qəhrəmanın özü yox idi. Hamısı atlı idi. Qapıya çıxan Qəzənfəri atının döşünə salıb Qəhrəmanın Düli deyilən özündən böyük bir dəli qardaşı qamçılaya-qamçılaya Kürün sahilinə apardı. Bir əlilə qamçını var gücüylə Qəzənfərin harasına gəldi çırpırdı, o biri əlilə tüfəngin lüləsini tuşlamışdı Qəzənfərin üstünə. O biri atlılar, kimi çomaq, kimi taxta, kimi dəmir parçasıyla silahlanmışdılar. Qəhrəmanın qardaşlarının, əmisi oğlanlarının ağzından söyüş düşmürdü, Düli isə hərdən tüfəngin ağzını göyə tutub atəş açırdı. Kürün sahilində Düli atdan endi. Ona baxıb o birilər də atlarından endilər. Qəzənfər bu adamlarla Kürün arasında qaldı. Naçar-naçar sağına-soluna boylanır, bilmirdi ki, neyləsin. Artıq sakitləşib məcrasında rahat-rahat uyuyan Kürün sahilində o axşam Qəzənfərin qanına susamış bu adamlardan savayı heç kim gözə dəymirdi. Qəzənfərin gözləri qızarmış və hədəqəsindən çıxmışdı. Ürəyində anasıyla vidalaşırdı. Öz ölümündən qorxmurdu, amma anasına yazığı gəlirdi. Bilirdi ki, arvad onun ölümünə dözə bilməyəcək. Bağrı çatlayacaq.

– Ə, köpəkoğlu, sən bizə sataşırsan? Sən bilirsən, küçük, mən kiməm?! Sən mənim qardaşımı tək görmüsən? Doldurummu ə, gülləynən sənin qarnını?!..

Tüfəngi Qəzənfərə tuşlayıb duran Dülinin gözlərindən qan damırdı. Səsi heyvan səsinə oxşayırdı. Vəhşiləşmişdi, nəydi, üz-gözünün cizgiləri bir-birinə qarışmışdı.

Qoşalülələin tətiyi şaqqaşaq çəkildi. Qəzənfər gözlərini qeyri-ixtiyari yumdu.

Arxasında Kürün suları bir anlıq, elə bil, nəfəs dərib onlar da səssiz qaldılar. Hər tərəf sükuta qərq oldu, hər tərəf…

– Barı sağ-salamatdımı, sən hələ onu de. – Sürəyya arvadın dözümsüz, təlaşlı səsi ağzından odlu ah kimi çıxdı."Bu arvad Qəzilidən əvvəl parçalar adamı. Mən bunu yaxşı tanıram. Gözləri yaşla doludu, bir xeyli göz yaşını töküb. Amma parça-parça elər, uf da deməz…" Həzibala Sürəyyanın daşa dönmüş üzünə, hələ də yaşlı gözlərinə diqqətlə, gizli bir qorxu ilə baxıb fikrindən bu sözləri keçirdi.

– Mənim əziz bacım, mənim mehriban bacım, sağdı, salamatdı sənin gözəl-göyçək nəvən. Bizim balamız, nəvəmiz, ciyərparəmiz. Özünün də, biləsən, üzü də gülür, könlü də gülür. Biz niyə burda yasa batmışıq, mən onu anlamıram… Qəhrəman, bilirsən, nə deyir?! Deyir, Zeynəb daha mənim öz balamdı. Onu Elmandan çox istəyəcəyəm.

Qəzənfər kişinin beyninə qəflətən dəli bir istək girdi. Elə indicə bütün gücünü yığıb ayağa qalxmaq və bu Həzibalanın hülqumundan yapışıb boğmaq, boğduqca boğmaq istədi. Eynən o uzaq ildəki kimi.

…Kürün qırağında Qəzənfər gözünü bir də yumub açanda qollarına, biləklərinə nə təhər güc gəldisə, ayaqları nə təhər yerdən aralandısa, uçub şahin kimi qondu Dülinin sinəsinə, Düli nə baş verdiyini hələ anlamadan yıxdı onu öz üstünə, kürəyini isə verdi torpağa – özü altda qaldı, Düli üstdə sipər kimi. Qəzənfər haman ağır, kəlbətin əllərilə başladı bunu boğmağa. Dülinin əlləri, barmaqları naçar və hövlnak havada gəzirdi, tüfəng açıldı, amma gülləsi yan getdi. Düli ilə gələnlər vəziyyəti bu cür görüb bir andaca başlarını itirdilər, bunların ətrafında dövrə vura-vura bu ikisini dartışdırmağa, kimisi yalvarmağa, kimisi hədələməyə başladı. Amma nə illah elədilər, Dülini Qəzənfərin daşa dönmüş əllərindən qopara bilmədilər. Qəzənfərin barmaqları həqiqi məngənəyə dönmüşdü, Düli artıq xırıldayırdı. Bir neçə saniyə də keçdi, Dülinin rəngi qapqara qaraldı, dili az qala bir metrə ağzından bayıra çıxdı. Qəzənfər əlində Dülinin tüfəngi artıq canını tapşırmış Dülinin altından sıçrayıb necə çıxdısa, onu-bunu nişana alırmış kimi tüfəngi necə sağa-sola fırlatdısa ətrafdakılar pərən-pərən düşdü, hərəsi bir yana dalı-dalı çəkildi, qaçıb getdi. Ata minən çapıb "vay" xəbərini apardı, üzəngiyə ayağını sala bilməyən atla bərabər birayaqlı-

birayaqlı qaçıb at arxasınca sürütdəyə-sürütdəyə hadisə yerindən uzaqlaşdı.

İki gün sonra Qəzənfərin anası Pəri xalanı Qəhrəmanın kiçik qardaşı Nərbala vurub öldürdü. Yaxşı tir atardı, sapandla quşu gözündən vurardı. İyirmi metr aralıdakı məktəb binasının damından Qəzənfərgilin həyəti əl içindəki kimi görsənirdi. Pəri arvad həyətdə tək idi, böyük bir qazanda su qaynadırdı. Ürəyinə nə damdısa arvad çevrilib məktəbə sarı gözlərini qıyıb baxdıqca baxdı. Üzündə ətli xallar vardı, təbəssüm o xallara bir-bir ilişib bütün üzünü bürüməyə macal tapmadı, məktəbin damından bir ovuc işıq açıldı. Güllə gəlib sinəsindən dəydi. Sinəsi qana bulaşmış Pəri arvad yerə çökdü. Bir onu bildi ki, yavaş-yavaş arxası üstə uzandı. Nəfəsini dərindən alıb-verməyə başladı. Hövlnak səsə qaçıb qonşunun növrəstə qızı Sürəyya özünü yetirdi. Arvadın başının üstünü aldı. Pəri arvad qızın üz-gözündən bərk qorxduğunu gözünün ucuyla sezib sinəsindəki yarasını əli ilə gizlətdi və toxdaq bir səslə qıza dedi ki, qorxma, başımı dik elə. Qız tez yerə oturub Pəri arvadın başını dizlərinin üstünə aldı, əliylə alnını, üzünü tumarlamağa başladı. Ağlar bir səslə:

– Pəri nənə, Pəri nənə… Noldu sənə?.. Ay Allah, noldu sənə, ay Pəri nənə?

Pəri arvad axıb gedən gözlərini Sürəyyaya çöndərib qızın üzünə necə baxdısa qız sözünü ağzında kəsib susdu. Pəri arvadın üzündəki xallara ilişmiş bayaqkı təbəssüm sürüşüb dodaqlarına düşdü. Arvad bütün vücudunu bürümüş ağrıya dözərək güclə də olsa son sözlərini Sürəyyaya deyə bildi:

– Qəziliyə… mənim sözlərimi… olduğu kimi çatdır. Qəhrəman nəsli ilə… daha başqa ölüm söhbəti eləməsin. Bu… son olsun. Mənnən… qoy bu savaş bitsin. Mənim intiqamımı… almağı düşünsə… südümü ona… halal eləmirəm… Elə belə də deyərsən. – Sonra da işığını itirməkdə olan gözlərini son dəfə qıyıb belə bir əlavə elədi:

– Bilirəm…– dedi,– bir-birinizə necə… baxdığınızı… Qəzilidən muğayat olasan… Mən deyənləri… unutma… Allah… sizi xoşbəxt eləsin.

Bu sözləri deyib Pəri arvad dərindən bir "ah" çəkdi və gözlərini yumub son nəfəsini verdi.

Pəri arvadı torpağa tapşırdıqları günün sabahı qonşuları Əhməd dayı, arvadı Güldəstə xala, qızları Süräyya Qəzənfərgilə gəldilər. Həzibala da onlarla idi. Əlindəki Quranı ortaya qoyub Əhməd dayı qızına dedi:

– Söylə Qəziliyə anasının ölməmişdən qabaq dediyi sözləri.

Qəzənfər əhvəlatı eşidib əvvəlcə elə bildi ki, ürəyi bu dəqiqə dayanacaq. Həyəcan və ehtirasla düzüb-qoşduğu niyyətlər, arzular əriyib dumana dönürdü, "intiqam" deyə alışıb-yanan vücudu sustalırdı. Gözünü yumub xəyalında canlandırdığı ən məşəqqətli cəza planı kağızdan evcik kimi uçub dağılırdı. Qəzənfər gözlərini qıyıb sevdiyi qonşu qızın, yəni, Süräyyanın üzünə-gözünə xeyli diqqətlə baxdıqca baxdı. Süräyya şübhəylə onu gözdən keçirən, az qala rentgendəymiş kimi varlığını dəlib-deşən bu baxışlardan çəkinib eləmədi. Necə dik-dik baxırdı Qəzənfərin üzünə, eləcə də baxmağına davam elədi. Əli Quranın üstündə idi. "Mənim intiqamımı almağı düşünsə, südümü ona halal eləmərəm..." Beynində qızın ona dediyi bu sözləri fırlada-fırlada Qəzənfərə bir an elə gəldi ki, beləcənə dik bir baxışla ona Süräyya deyil, anasıdı, durub baxır. Necə də oxşayırdılar bir-birinə. Bu oxşayışın sirrini düşündükcə Qəzənfərin ürəyinə isti bir mayeydi, axdı gəldi, ruhunu təmizlədi, nifrətini, kin-küdurətini yuyub apardı, sinəsində tüğyan edən ehtirasını yumşaltdı...

– Bala, mərhumə ananın son sözünə əməl etməyin vacibdir. – Əhməd dayı bir böyük kimi məsləhət verdi. – Həzibalanı göndərək, "sülh bayrağını biz qaldırdıq, siz də qaldırın" xəbərini qoy o tərəfə yetirsin. Nə deyirsən sən?

Qəzənfər qəflətən haldan – taqətdən düşmüşdü, elə bil, on kişi əlbir olub onu xub döyüb xurd-xəşil etmişdi. Əhməd dayının bu sualına handan-hana yorğun bir halda başı ilə "hə" cavabı verdi:

– Özünüz bilərsiz... Necə deyirsiz, elə də olsun...– Qəzili gözlərindən biixtiyar çıxan yaş damcılarını əlinin arxası ilə elə tez sildi ki, kənar bir kimsə görməsin. Həqiqətən, Süräyyadan başqa bunu görən olmadı

... Həzibala cibindən bir telefon çıxartdı. Ora-burasını qurddalamağa başladı. Çox qurddalandı, nəhayət, telefonda özünə lazım olan düyməni tapdı. Düyməni basanda telefonda Zeynəbin şəkli göründü. Bir də başqa bir düyməni basdı, bu dəfə telefondan Zeynəbin səsi gəldi. Həzibala gizli bir qürurla qırmızı həşyəli qara telefonu stolun üstünə qoydu, başını çevirib əvvəlcə Süráyya arvadı, sonra isə Qəzənfər kişini mənalı baxışlarla süzdü. Daha sonra elə bir diqqət və məhəbbətlə bu danışan telefona baxmağa başladı ki, sanki Zeynəb bu dəqiqə telefonun içindən tullanıb bu eyvana, babasının, nənəsinin yanına gəlib düşəcəkdi.

Zeynəbin telefondan gələn səsi zərrə qədər əzab-əziyyət çəkən adamın səsinə oxşamırdı. Zeynəb çox böyük bir inamla, hətta bir az da əzbərçi uşaqlar kimi birnəfəsə bunları deməyə başladı:

– Babalı, nənəli (Zeynəb dil açandan babasını və nənəsini belə çağırırdı), biləsiz, məni heç kim zor ilə, güc ilə Elmana gətirməyib. Mən özüm, öz xoşumla bu evə gəlmişəm. Biz bir-birimizi məktəbdən tanıdıq. Nənəli, mən çox istədim, sənin sözünə əməl eləyim, olmadı. Çox istədim, buna nifrət edim, alınmadı... Deyirəm biləsiz, biz bu qərarı bir yerdə vermişik və öz həyatımızı özümüz qurmaq istəyirik. Sizin bir-birinizə bu cür nifrət dolu münasibətinizi, illərdi davam edən düşmənçiliyinizi biz qəbul eləmirik. İkimiz də təhsilimizə davam edəcəyik, ikimiz də burda, Bakıda qalıb yaşayacağıq. Çalışacağıq ki, sizləri də dost eləyək. Allahın köməyilə, inşallah... Nənəli, atama de ki... (bu yerdə Zeynəbin səsində bir titrəyiş hiss olundu), mən xoşbəxtəm. Birdən fikir eləyər, eləməsin. Bir də de ki, məni bağışlasın. Eyni sözləri Elman da deyir. Sağ olun. Salamat olun. Məndən qəti niyaran qalmayın. Babalı...

Qəzənfər kişinin ürəyi hövr eləyirdi, az qalırdı, ağzından çıxsın. Gözləri sulanmışdı. Nəvəsinin səsinə qulaq asa-asa çənəsini çəliyinə dayayıb necə ki, bayaqdan susurdu, eləcə də susmağına davam etdi. Zeynəb öz alovlu nitqini babasının adını çəkib bu cür yarımçıq kəsəndə kişinin beynindən "Qız sözünün dalını gətirmədi, qəhərləndi..." sözləri keçdi. Ürəyinin içinə, bu dəfə, elə bil, kort xəncər soxdular, ürəyi elə sıxıldı, elə sıxıldı ki... Amma yenə biruzə vermədi. Həzibaladan daha çox Süräy-

yaya görə biruzə vermədi. Qəzənfərin telefon söhbətindən sonra da beləcənə dinməz-söyləməz susqunluğunu daha heç cür sinirə bilməyən Həzibalaya isə elə gəldi ki, Zeynəbin telefonda dediyi sözləri Qəzənfər eşitmədi. Həzibala böyük bir təəssüf içində çiyinlərini çəkdi."Daha nə edə bilərdi?!" Telefonu ehtiyatla stolun üstündən götürüb cibinə qoydu.

Sürəyya arvadın əli ağzında qalmışdı. Gözlərinin yaşı qurumuşdu. "Bu qızın dillərinə bax hələ sən… Bu nə zaman belə dil açdı?! Bu nə zaman oxumağa getdiyi şəhərdə Qəhrəmanın nəvəsini tapdı?! Bunlar nə zaman bir-birinə könül verdilər, məhəbbət bağladılar?! Məktəbdəmi oldu bu iş?! Mən dediklərimi bə niyə bu qız bir qulağından alıb o biri qulağından verdi?! Bunlar niyə bir-birinə nifrət eləmədilər, bir-birindən iyrənmədilər bizim kimi? Niyə? Nə baş verir, Allah?! İndi nə olacaq?! Nəmədə nə cavab verəcəyik?! Gədənin ürəyi partlamasa yaxşıdı. Qəzənfər ki, belə dinməz-söyləməz oturub, bunun da beynində qurdlar oynaşır əlbət…"

Qəzənfərin beynində qurdlar oynaşmırdı. O ürəyi sıxıla-sıxıla, əlacsız halda labüd sonluğun astanasına gəlib çıxan, taleyinə baş əyən bir adam kimi belə düşünürdü: "Hər şey beləcənə də bitməliydi. Bu hadisə bizə, illah da ki, mənə bir cavab deyilmi?! Nənəm demişdi axı, ürəyində intiqam saxlayıb yaşama. Düzdü, nənəmdən sonra ölüm-itim olmadı, amma yenə də çox nahaq sular axdı. Bir-birimizə çox nahaq zülmlər etdik. Nifrət, kin, küdurət… əkildikcə biçildi, biçildikcə əkildi… Bunlar noolacaq, bunlar hara uçub gedəcək?! Yəni, bunlar puçmu olacaq?! Yoxsa bu müharibə yenidən başlayıb qızışacaq?! İndi sən bu qıza baxırsan?! Gör bir bunu… Citdənəlik boyu hara, bizim başımıza ağıl qoymağı hara?! Haqq olur hamımıza, haqq olur. Südəmər dediyin nədi, təkcənə o boyda şəhərə gedib oxumaq nədi?! Atama deyin ki, mən xoşbəxtəm. Hm…"

– Nə deyirsən Qəzili, mən gedim Qəhrəmana nə xəbər çatdırım?! – Həzibalanın ehtiyatla verdiyi bu sual, əslində, onun gəlişinin əsas məqsədini açıq-aşkar bir şəkildə ifadə edirdi.

Qəzənfər kişi ağır-ağır başını çevirib arxasında bayaqdan bəri kabus kimi dayanıb durmuş Sürəyya arvadı süzdü. Arvadın gözlərinin dibində bu dəfə gizli bir rahatlıq sezdi. Üç gün idi ki, Qəhrəmanın nəvəsi Elman

tərəfindən qaçırılma xəbərini aldıqları nəvələri Zeynəbin telefondakı inamlı səsi ikisinin də alışıb-yanan, tüğyan edən qəzəbinə bir ovuc da olsa, su çiləyə bilmişdi. Qəzənfər kişi Süreyya arvadı tərs-tərs süzəndən sonra eynən onun kimi rahatlıqla köksünü ötürdü və intizarla ondan cavab gözləyən Həzibalanın üzünə baxmadan ahəstə-ahəstə belə dedi:

– Nəməd burda deyil, Rusetdədi. Ona xəbər göndərmişik, yoldadı, gəlir. Gəlsin, söz onunkudu.

Həzibala bildi ki, Qəzənfərdən daha heç bir söz eşitməyəcək. Dərindən asudə bir nəfəs aldı. Çiynindən elə bildi, yük götürüldü. Ona elə gəldi ki, boynuna qoyulan vəzifənin yarısını artıq yerinə yetirib. "Qəzili əvvəlki Qəzili deyil. Əlbəttə, Allah qoysa, bu iş düzələcək..."

İsti getdikcə artırdı. Gün təpəyə qalxmışdı. Həzibala yenə dəsmalla üzünün, boynunun tərini silərək:

– Di yaxşı, mən gedim, bunu da olsa çatdırım Qəhrəmana, – dedi. – Həzibala, başını Qəzənfər kişiyə tərəf əyib səsini alçaltdı. – Qəzili, Vallah, hər şey yaxşı olacaq. Görəssən. Sən bacar, ürəyinə salma...

Qəzənfərin üzünün bir cizgisi də tərpənmədi. Baxışıyla yenə gül kolunu deşib susdu. Birdən-birə bu gül kolunun içində gizlənmiş aı qırmızı qızılgül, elə bil, tərpənib canlandı.

Əvvəl-əvvəl bu gül Qəzənfərin anasını basdırdıqları günün səhərisi onların evinə gəlib hamının yanında əlini Qurana basaraq Pəri arvadın son sözlərini ötkəm-ötkəm ona deyən və bu zaman gözlərini onun gözündən çəkməyən gənc Süreyyaya çevrildi. Sonra qızılgülə dönmüş gənc Süreyyanın xəyalı yavaş-yavaş əriməyə başladı və onun yerini telefonda Zeynəbin bayaq gözucu, ötəri süzdüyü rəsmi tutdu. Sonra o qızılgül Zeynəbin müxtəlif yaş dövründəki ayrı-ayrı rəsmlərinə çevrilməyə başladı. Budu, Zeynəb çağa vaxtı, budu, iməklədiyi vaxt, anasının ölümünü ondan uzun müddət gizləmişdilər – Zeynəbin indiyənə qədər anasının yolunu çəkən gözləri, qızın böyüyüb məktəbə getməsi, sevib əzizlədiyi hörüklərini yığıb-yığışdıra bilməməsi ("eynən anayın hörükləridi, onunku da belə gur idi" nənəsi demişdi), Süreyyanın qızın saçlarını darayıb hörməkdən bezar olması, Zeynəbin Bakıya oxumağa getməzdən bir gün əvvəl dal otaqda

qapını bağlayıb saatnan zülüm-zülüm ağlaması…İki ay əvvəl isə son görüş zamanı, tətilə gələndə elə hey "babalı, babalı" deyə-deyə gedib-gəlib heç nədən ona sarılması… Qızın gözləri qəribə işıldayırdı, Qəzənfərin ürəyinə damdı ki, bunun bir qəmbərqulusu var, deyəsən, qız böyüyübdü. Budu, buyur, qoşulub qaçdı. Bu günü də gördük. Özü də kimlə kimlə Qəhrəmanın nəvəsi ilə… Sözə bax, "atama deyin ki, mən xoşbəxtəm." Bə biz?! Biz də xoşbəxt olduqmu?! Qəzənfər kişi daha bu barədə düşünmək istəmədi. Kolun dibində gizlənmiş al qırmızı qızılgül yenə öz təbii ölçülərini aldı…

Həzibala gəldiyi cığırla həyət qapısına tərəf gedərkən xoruzun o tanış, həyasız çığırtısı təzədən başlamadımı, başladı. Həzibala təəccüb etdi. Gül kollarının başı üstündən boylandı və bayaq xoruzun gedib düşdüyü tut ağacının altına baxdı. Xoruz tərpənməz bir halda sərilib qaldığı yerdəydi. Ağzından bir lomba qızıl qan gəlib düşmüşdü torpağa. Pəyəni dövrələyib tövlənin bu biri tərəfindən çıxan bir qoyun o qanı yalayırdı.

Qoyun gül kollarının arxasında mat-məəttəl dayanıb onu seyr eləyən Həzibala tərəfə ağzını hərdən açıb-yumurdu. Xoruzun bayaqkı çığırtısı indi də bu qoyunun ağzından çıxırdı.

*2013-cü il*

# Səhvlərimizin qrammatikası

*Ağamusa Axundovun xatirsəsinə*

Eyvazlı bütün diqqətini toplayıb baxandan sonra, nəhayət, başa düşdü ki, bu adam kimdi. Bu, Koroğlu idi!

Bığları burma, qoç Koroğlu bir cıqqılı dağın döşündə əlində tutduğu əyri misri qılıncı buludsuz, əngin göylərə tuşlayıb şəstlə durmuşdu. O biri əlilə də yanında ona qısılıb qalmış, başını sağa-sola çöndərib nə edəcəyini bilməyən Qıratın boynunu tumarlayırdı. Qırat tez-tez fınxırırdı. Bu zaman onun iri, ətli dodaqlarının arasından dişləri ağarırdı. Atın dişlərindən biri ağarmırdı, işım-işım işıldayırdı, çünki qızıldan idi. Bu qızıl diş haralardansa təngnəfəs gəlib özünü onların yanına çatdıran bir nərmənazik gün saçağını top kimi sinəsinə qəbul edib elə o dəqiqə üzbəüzə, misri qılıncın tiyəsinə göndərirdi. Bu ikisinin arasında qalmış gün saçağı usanmadan şövqi-bərq ilə parıldayır və bu zaman göz qamaşdırırdı.

Üç gün əvvəl isə, sən təsadüfə bax, Eyvazlının yuxusuna gəlib Babək girmişdi. Bu dəfə o, bir neçə əsr daha qədimə "reys" eləmişdi və belə bir səyahətin baş tutmasına indi özü də təəccüb edirdi.

Əl-üzünü yuyub üzünü qırxandan sonra Eyvazlı mətbəxə keçdi. Səhər yeməyinin hazırlığını gördü. Sabah-sabah dar, amma xudmani mətbəxin bir küncündə (əslində, bu mətbəxin hər bir yanına künc demək olardı) oturub pəncərədən düz gözünə vuran bir sırtıq günəş saçağı ilə başını sağa-sola qaçıraraq yüngülvari "mübarizə" etdi. Sonra fikri yayındı və o, əlindəki isti qəhvə dolu fincandan ləzzətlə qurtum qurtum dalınca aldı. Bu dəfə fikirli idi. Fikirləşirdi, axtarırdı son zamanlar sərasər onun yuxusuna girən bu xalq qəhrəmanları ondan nə istəyir, nə verib ondan alammırlar – heç cür tapammırdı.

Ağıllı fikirlər Eyvazlının beyninə, adətən, səhərə yaxın gəlib girirdi. Bunun səbəbini o belə izah edirdi. Gecə yuxusundan sonra beyin dincəlmiş olur, ondandı. Bu sabah da yuxudan ayılıb çarpayıda yerdəmi ala-ala ağlına gələn ilk ağıllı (bir başqa dünyada – ağılsız!) fikir bu oldu ki, Koroğlu onun qəhrəmanı deyil. Əvvəlcə bu əndribani fikir Eyvazlını səksəndirdi. O təlaşa düşdü. Sonra, sadəcə, qanı qaraldı. Beynindən keçdi ki, deyəsən, böyük bir qələtin astanasında artıq gəlib durmuşdur. Başını bulayaraq bu sərsəm fikri qovalamaq istədi. Amma lənətəgəlmiş əndribani fikir eynən mətbəxdə onun üzünə-gözünə qonan o sırtıq, zəhlətökən günəş saçağı kimiydi. Beyninin içində dəcəl keçi kimi bir qırışdan o biri qırışa atdanırdı və öz xoşuna heç hara yox olub getmək istəmirdi. Eyvazlı əlini atıb pəncərənin nazik pərdəsini çəkdi.

Qəhvəsini içib qurtarandan sonra Eyvazlı adəti üzrə fincanı cəld bir hərəkətlə ağzıüstə çevirib nəlbəkinin içinə basdı. Səbirsizliklə gözlədi. Fal açacaqdı. Gördüyü yuxunu hökmən yozmaq lazım idi. "Bugün" ona nə hazırlamışdı?! Qəhvənin lili üzüaşağı fincanın divarlarına çökə-çökə əyri-üyrü xətlər cızıb ona nə isə deməliydi. Bu qəhvə xətləri onu heç zaman aldatmamışdı. Eyvazlı qəhvə xətlərinin ötürdüyü məlumatı dəfən-dəfən sınaqdan keçirmişdi.

Elə təkcə bunu xatırlasaq, bəs edər. Universitet illərinin ılıq xatirəsi… Qəfildən sinif otağının sakit tənhalığında peyda olmuş Mirey Matyeyə oxşayan o naməlum qıza elə o andaca aşiq olub qızı öpəcəyini hətta saat və dəqiqəsinəcən ona xəbər bildirməsi nəyə desən dəyərdi. Qəhvə xətləri bu barədə xəbəri sabah-sabah demişdi. Düzdü, öpüş qəhvə xətləri deyən kimi, yəni, dodaqdan dodağa alınmamışdı – onun dodaqları sürüşə-sürüşə bu naməlum qızın ancaq üzündə gəzə bilmişdi. Zəng vurulmuş, uşaqlar dəstəylə onların bir küncə sığındığı sinif otağına soxulmağa başlamışdılar. Elə bu zaman bir-birinə qaynayıb qarışan tələbələr arasında qız yox olmuşdu və Eyvazlı bir daha o qızı heç harda görməmişdi. Hər nəydisə, belə məqamlar həmən uğursuz öpüşdən sonra yoxa çıxmış o qız kimi unudulan deyildi və indiyənədək o öpüş hərdən-birdən hardansa bir canlı kimi zühur edir, pudluq daşlar kimi gəlib onun nazik, o uzaq öpüşün portağal dadını özündə qoruyub saxlayan dodaqlarından asılırdı …

Qəhvə xətlərinin tamamən quruyub öz yerini tutmasını gözləməyə Eyvazlının hövsələsi çatmadı. Eyvazlı fincanı cəld bir hərəkətlə nəlbəkinin içindəcə arxası üstə çevirdi. Başını əyib gözlərini qıyaraq diqqətlə fincanın içinə baxdı. Əyri-üyrü xətlər yuxarıdan aşağı yazılmış Çin heroqliflərinə oxşayırdı. Çin heroqlifləri qara-qura bir mətnə dönüb ona nə isə deməyə çalışırdı. Eyvazlı bu qara-quranı höccələyib oxumağa başladı. O, sözləri asanlıqla oxuyur və mənanı anlayırdı. Qrammatikanın olmamağı məsələni qat-qat asanlaşdırırdı.

Fincanın içindəki xətləri oxuduqca Eyvazlı düşünürdü. Yox, yox, yenə də yox! Koroğlu qəhrəman deyil. Belə qəhrəman olmaz. Eynilə, Babəkin nəyi bundan yaxşıdır?! Bir az da dərinə getmək olar. Lap elə Şah İsmayılın özünü götürək. Hm, amma burda bir az ehtiyatlı olmaq gərəkir. Şah məsələsi bir az qəliz məsələdir. Yaxşısı budu, Eyvazlı Şah İsmayılı bu dəstəyə qatmasın. Ağzıgöyçəklər və ağlıgöyçəklər min əfsanə uyduracaq. Yox, niyə ki… amma… orası da var ki, lakin o da inkaredilməzdir ki, bu şəxsiyyətlərin hamısı, Şah İsmayıl başda olmaqla, öz dövrlərinin buzunu qıran, gələcək üçün yolaçan adamlar olublar. Seçilən, fərqlənən adamlar... Nəhəngdirlər, buna şübhə yoxdur. Bir neçə gün əvvəl nəşriyyatın "Qədim

ədəbiyyat" şöbəsində işləyən bir həmkarı (adını xatırlamır) "dəlidən doğru xəbər" rejimində yaxşı dedi. O olmasaydı, yəni, Şah İsmayılı nəzərdə tuturdu, biz bu gün necə deyə bilərdik ki, bir xalq kimi bizim də ayağımız 16-cı əsrə dəyib?! Bir tərəfdən baxanda doğru sözdür. Bizim ayağımız böyük tarixin içində hər onilliyə, hər əsrə tappıltıyla dəyməyib axı. Olsa-olsa, yüngülvari, mələklər kimi, üzdən, ahəstə…

Eyvazlının tanıdığı və ünsiyyətdə olduğu bir Ağıllı şeytan vardı. Ağıllı şeytan belə hallarda Eyvazlının qulağına onun ruhunu oxşayan həlim bir səslə pıçıldayırdı ki, azı buna görə bu nəhənglərin qədrini bilmək vacibdir. Eyvazlı Ağıllı şeytanı çox gözəl başa düşürdü.

Amma Ağıllı şeytanla yanaşı bir Dəli şeytan da var idi. Dəli şeytan isə belə məqamlarda öz zəhlətökən, cır səsilə belə deyirdi: Yox, nərə çəkib qılınc çalan bu adamlar qəhrəman-zad deyillər. Onları qəhrəman eləmək səhvdir. Koroğlu öz padşahına asi çıxıb, dövlətçiliyə qarşı qılınc çalıb. Ən böyük qəhrəmanlığı da, deyəsən, elə Nigarı götürüb qaçırmağı olub…

Dəli şeytanla razılaşmamaq çətin idi. Amma bu zaman Eyvazlıya elə gəlirdi ki, o, kiməsə, nəyəsə xəyanət edir. Bu zaman Eyvazlı əməlli-başlı əzab çəkirdi. Elə bilirdi ki, əynində heç nə yoxdur və o, hamının gözü qabağında anadangəlmə, lüt–üryan durub. Hamı onu beləcənə, lüt görür, o da öz ayıb yerlərini heç cür eləyib gizlədə bilmir. Qışqıra da bilmir, izah edə də bilmir, əlilə ora-burasını tuta da bilmir. Bundan betər bu dünyada heç nə yox idi, ola da bilməzdi.

Adam yanında dinmirdi, xəcalətdən səsini çıxarmırdı, amma təklikdə özü ilə heç cür bacara bilmirdi. Əzab çəkə-çəkə hər şeyi anlayırdı. Anlayırdı ki, Dəli şeytanın dəlilləri poladdan möhkəmdir, amma… Eyvazlının qəlbinin içində yenə də bir səs pıçıldayırdı ki, düzgün deyil belə düşünmək, ələlxüsusus da, belə danışmaq. Nəticəsi ola bilər. Adamı tutarlar, adamı daşqalaq edərlər. Bu zaman onun kürəyinə soyuq tər gəlirdi. Qəhrəmanlara qiymət verməyi sevsə də, etiraf etmək lazımdır ki, Eyvazlı təbiətcə qorxaq idi. Həmişə Dəli şeytanla "dərdləşəndən" sonra canına beləcənə xof düşərdü. Xüsusilə, Şah İsmayılla bağlı Dəli şeytanın onun beyninə saldığı hərzə-hərzə düşüncələr Eyvazlını çox pərişan edirdi. Başqa bir tərəfdən də

sevinirdi ki, duyuq düşüb təpinəni yoxdu. Bilirdi ki, əgər balaca təpinən olsa, "Mürşidi-kamilim!" deyə bağıra-bağıra üzü geriyə, düz 16-cı əsrə qədər hövlnak qaçacaq, ürəyi əsə-əsə özünü sevimli Şahın ayaqları altına atacaq, əvfini yalvaracaqdı.

Eyvazlı səhər yeməyini bu cür pərakəndə düşüncələr içində yeyib bitirdi. Əlində tutub ora-bura tərpətdiyi fincanın divarlarında özünə yer eləmiş əyri-üyrü qara qəhvə zolaqları pozuq olsa da, səsli bir xəttə dönüb qulağına onu həyəcanlandıran belə sözlər pıçıldayırdı:

"Təəssüf ki (bir başqa dünyada: nə xoş ki), yuxuda olanlar həyatda baş vermir, həyatda yuxudakının əksi baş verir. Koroğlunu isə, ey Eyvazlı, sən çox da ürəyinə salma. Koroğlu hələ sənə sübut edəcək ki, o, həqiqətən, qəhrəmandır. Bu günün axşamı önəmli bir hadisə baş verəcək və bu hadisə sənin həyatını dəyişəcək. Sən o hadisə ilə təkbətək, üzbəüz qalmalısan. Buna hazır ol."

Əyri-üyrü, hələ tam qurumamış qəhvə xətləri bu xəbəri ona tələsik ötürüb eləcənə də tələsik fincanın divarlarında bir-birinin içinə girərək bir-birinin içində əridilər. Eyvazlının ürəyi sıxıldı.

Qapıdan çıxarkən adəti üzrə divardan asılmış qədim və üstü ləkəli güzgüyə diqqət etdi və beynindən hər dəfəki kimi yenə də eyni nimdaş sual keçdi: "Dünən bu güzgüdə gördüyüm sifət bugünkü sifətdi, ya yox?!" (Bu sual bütün başqa dünyalarda eyni cür səslənirdi).

Günəşli bir gün idi. Küçə boyu irili-balacalı evlər gah bir-birinə tərəf əyilib bir-birinin içində əriyir, gah da qəddi-qamətlərini düzəldir, tovuz quşu kimi cilvələnirdi. Gün adamın təpəsini deşir, tər boynundan ayağına qədər şırhaşır su kimi axıb gedirdi. Kölgə axtarıb altına girmək Eyvazlının ağlından keçmədi. Çünki ağlından keçsəydi belə bunun faydası olmayacaqdı. Gün işığı var idi, binalar var idi, onların əyilib-düzəlməkləri var idi, amma onların kölgəsi yox idi. Gün başına vura-vura, tərini tökə-tökə Eyvazlı beləcənə yol gedirdi, amma hara üz tutub getdiyini o an unutduğundan hansı küçədən hansı küçəyə keçməyi vecinə belə deyildi. Gedə-gedə gözünün qabağına hərdən Koroğlunun, hərdən də Şah İsmayılın məktəb

dərsliklərindəki şəkilləri gəlirdi. Bu zaman gözlərini bərk-bərk yumurdu. Amma bu halında da o, yolunu gözləri açıqmış kimi inamla gedirdi.

Yol özü onu gətirib çalışdığı nəşriyyat binasının qapısı ağzına çıxardı. Ağır, hündür taxta qapını təkcə əli ilə deyil, az qala qapıya yapışdırdığı çəlimsiz bədəninin olan-olmaz ağırlığı ilə yavaş-yavaş aralayıb özünü birtəhər içəri saldı.

Geniş, mərmər pilləkəndən canına yayılan sərinlik Eyvazlının huşunu bir anın içində yerinə qaytardı. Eyvazlı pillələri qalxa-qalxa keyflə düşündü ki, bu gün çərşənbədir və onun görməli olduğu bir iş yoxdur… amma yox! Lənət şeytana və onun bütün köməkçilərinə! Mərmər pilləkənin bir qırıq yeri vardı, ora ayağını qoyan kimi, ayağı az qala büdrədi və yadına düşdü...

Allahın bəlası düşdü yadına. Günorta zamanı Eyvazlının yanına şeirlər kitabının plana salınmasıyla bağlı şeirləri özündən, özü şeirlərindən betər, son dərəcə idbar və özündən müştəbeh bir şair gələcək. Məşəqqətmi? Məşəqqət!.. Adamla görüşün qaçılmazlığı bir anın içində onun qanını qaraltdı. Şairi görməyə Eyvazlının gözü yox idi, ondan zindeyi-zəhləsi gedirdi. Amma onun barəsində düşündüyü həqiqəti üzünə deyə bilmirdi. Dili gəlmirdi. Az qala utanırdı. Bəlkə də, kim bilir, qorxurdu… Ürəyində şairə ad da qoymuşdu: "Vampir!" Öz-özünü isə Dəli şeytanın təkidilə inandırmışdı ki, şair, həqiqətən, vampirdir və bu vampir hər görüşdə gizlin-gizlin, ləzzətlə onun qanını sovurur…

…Vampir üzbəüz kresloya özü boyda sual kimi yayxanıb oturanda Eyvazlı bu dəfə də ona hansı cavabı verəcəyini qəti şəkildə müəyyənləşdirməmişdi. Daha doğrusu, hansı cavabı verəcəyini bilirdi, o cavabı Dəli şeytan onun üçün elə havadaca gözlərinin qabağında "şparqalka" kimi yazdı. Eyvazlı bunu oxuya biləcəyindən əmin idi, amma Eyvazlı bu oxuyacağı cavabı nə cür ifadə edəcəyini bilmirdi. İş beləcənə yavaş-yavaş müşkülə dönürdü. Elə bu zaman, məhz söhbətə başlamazdan əvvəl, nə oldu, nə olmadı, Eyvazlının gözləri önündən vaqeə kimi biixtiyar bunlar keçdi…

…Harri Potterin sehirbazlar dünyasında bir küçə var, o, Eyvazlı bu küçədədir. Küçə sehirbazlarla doludur. Küçənin sağında, solunda əcayib

malların dolu olduğu vitrinli mağazalar da sehirli idilər. Bu mağazalardakı müxtəlif malların – dəftərlərin, kitabların, məktəbli çantalarının, köynək və şalvarların, eynək və şapkaların adam kimi dilləri vardı və onlar dil açıb müştərilərlə danışırdılar. Sehirli mağazalarda sehirbazlar alış-veriş edirdilər. Onlar hərdən müştəriyə belə deyirdilər: "Mənə inanmırsan, malın özündən soruş…" Müştəri də bundan sonra malın özüylə danışmağa başlayırdı. Sehirbazlarla yanaşı bu küçə ilə mutantlar gəzişirdi. Cürbəcür, bir-birinin qarışığı olan heyvanlar başqa bir dünyadakı (Eyvazlının tanıdığı dünyadakı) adamlar kimi dal ayaqları üstündə gedib-gəlirdilər. Burda xoruz başlı ayı da var idi, ayı başlı xoruz da var idi, eynəkli qartal da var idi, şir baslı qoyun da var idi, bir sözlə, burda kim yox idi?! Hələ baxıb tanımadığı nə qədər məxluqat var idi burda. Qorxuluydumu? Qorxuluydu! Eyvazlını elə bir vəhmə bürüdü ki, daha bu küçədə qalmağa dözəmmədi, gözlərini bərk-bərk sıxıb özünü hövlnak qaytarıb gətirdi yenə də öz iş otağına, vampir şairin yanına saldı.

…Və indi onun qarşısında ayaqlarını bir-birinin üstünə sallayıb oturmuş bu vampir Harri Potterin küçəsindəki xortumu uzun, qoltuğunda qalın kitab aparan sallaqdodaq filə oxşayır. Orada fil iki ayağı üstündə yeriyir və gözləri alışıb-yanırdı, yəqin, belə hallarda o da vampir kimi öz fil beynində qafiyə axtarırdı. Eyvazlı düşündü: fil qafiyəsi görən nə boyda olar?!

Ətrafa nəzər salıb öz otağına qayıtdığına əmin olan Eyvazlı rahat bir nəfəs alaraq bığaltı gülümsədi. (Niyə bığaltı? Eyvazlının axı bığları yox idi. Amma yox, bir başqa dünyada, lap elə Harri Potterin sehirli küçəsinin uzanıb getdiyi dünyada Eyvazlı əlini bığına çəkmişdi, ona elə gəlmişdi ki, yuxudadı, ayılmaq üçün bığını dartmışdı, orada onun bığları var idi…).

…Beləliklə, Eyvazlı rahat nəfəs alıb dodaqucu gülümsədi. Həqiqətən də, ən böyük biclik, çox doğru deyiblər ki, düzlükdü. O niyə axı bu boyda dərdi öz çiynində tək çəkməlidir?! Olmaz ki, sözünü birdəfəlik desin və hər şey də bununla qurtarsın, getsin…

Vampirin ağaran dişləri, əlbəttə ki, əsl uzun və ucubiz vampir dişləri idi. Bu dişlər çox asanlıqla və çox rahat bir şəkildə adamın boğazına

sancılıb qanını soura bilər. Eyvazlı birdən çox aşikar şəkildə boynunun iki bir-birinə yaxın nöqtəsinin arı sancmış kimi gizildədiyini hiss elədi. Beynindən guppultuyla bunlar keçməyə başladı. Sən, Eyvazlı bu Vampirə heç nə sübut edə bilmirsən, bilməyəcəksən, özünü öldürsən də, partlasan da bu mümkün olmayacaq, çünki siz ayrı-ayrı Azərbacan dillərində danışırsınız. Bəlkə də siz ayrı-ayrı dünyalardasınız. Sənə elə gələcək ki, dünyaların birində işə gəlməyinə gəlmisən və əynində köynəyin, şalvarın var, bu dünya üçün bu təbiidir. Amma hansı döngədənsə keçəndə sən qəflətən başqa bir dünyaya düşmüsən və orda sənə baxıb səni lüt görürlər. Bəlkə də sən evdən çıxanda səhvən başqa bir dünyanın – lütgəzənlər dünyasının qanunlarına görə şalvarını geyinməmisən. Bu sənin yadından çıxmayıb, sən, sadəcə, dünyaları dəyişik salmısan, buna görə də indi içində partlaya-partlaya qalmısan. Heç nə edə bilmirsən…

Vampir isə həmişəki laübali, çoxbilmiş tərzilə, dodaqlarının ucundakı istehzalı təbəssümü ilə son dərəcə yalançı bir səbr və ədəb-ərkanla üzbə-üzündə oturub sənə mərhəmətlə baxır. Onun hər şeydən, Eyvazlının beynindən keçən hər şeydən xəbəri var. Eyvazlı birdən başa düşdü. Vampirin məqsədi aydından aydın imiş – onu hövsələdən çıxarıb açıq söhbətə çəkmək…

– Mən sizinlə açıq danışacağam. – Eyvazlı daha dözmədi, qəti qərara gəlmiş adamlar kimi hətta ayağa qalxıb sözünə başladı. Onun səsində qəribə bir inam hiss olundu. – Kim nə deyib sizə bilmirəm, amma mən düşündüyümü deyəcəm. Riyakarlıq edə bilmirəm. Mən belə düşünürəm… Bu şeirlər… bunlar şeir deyil… Vallah, şeir deyil, billah, şeir deyil. – Eyvazlı ürəyində "uf" deyib pauza verdi və təzədən yerinə oturdu, barmaqlarını bir-birinə sıxıb şaqqıldatmağa başladı. Aydın idi ki, o, belə bir "qəhrəmanlığa" hazır deyil, ona görə də birdən-birə dediklərinə peşman oldu, növbəti dəfə "uf" eləyib narahat şəkildə yerində qurcuxdu. Eyvazlı üçün başqasını utandırmaqdan daha pis heç nə ola bilməzdi.

Əlbəttə, Eyvazlı gərək pauza verməyəydi. Elə bil, özünün də ürəyinə dammışdı ki, balaca bir pauza versə, Vampir daha onun sözünü sonadək dinləməyəcək, hökmən sözünü kəsəcək. Onu əməlli-başlı, necə deyərlər,

alıb gedəcək. Kaş belə olmayaydı. Eyvazlı belə bir ümidlə dərindən köks ötürdü, yerindəcə qısılıb qaldı. Ona elə gəldi ki, bir neçə an yox, bir neçə il keçdi. Vampirin cır səsi Eyvazlının yadına Dəli Şeytanı saldı.

– Sən davam elə, özünü darıxdırma. Mən səni diqqətlə dinləyirəm… – Vampirin dodaqları amansız və istehzalı bir təbəssümün ağırlığından əyildi. Adam bu dəfə o öz idbar təbəssümünü gizlətməyə də çalışmadı, əmin oldu ki, onun təbəssümü Eyvazlının "yeddi qatından keçdi", yalnız bundan sonra ayaqlarının hansınısa hansınınsa üstündən götürüb (Eyvazlının bir diqqəti onun ayaqlarında qalmışdı, amma ayaqlar bir-birinə meynə tingləri kimi qaynayıb qarışdığından bunu dəqiq ayırd edə bilmədi) haracan gəldi, deyəsən, lap elə otağın ortasınacan uzatdı. Kresloda şirin-şirin qurcuxub yerini uzun bir söhbət üçün rahladı. Eyvazlı seytnota (çaşqın bir hala) düşdü.

Əlbəttə ki, Eyvazlı təkcə bu dünyada deyil, mövcud olan bütün sonsuz dünyalarda da qorxaq idi. Sözünü bir su içimində dəyişmədimi, dəyişdi. Naçar bir halda, gözlərində və səsində yalvarış Vampirə dedi:

– Yox, yox, siz məni düzgün başa düşün. Mənim şeir zövqüm elə də yaxşı deyil. Əsla. Əsla sizin şeirlərinizə mənim siz deyən elə bir… iradım, sözüm yoxdur. Məni düzgün anlamadınız… Şeirlərinizin… özünəməxsus tərzi var. Hm… Siz bir bizim şöbə müdiri ilə danışsanız… məncə, daha doğrusu, bu olar...

Nəşriyyatın poeziya şöbəsinin müdiri Göymirzəli ilanla yola getməyi bacaran köhnə ədəbiyyat adamı idi. Lazım gəlsə, şeir yazan əjdəha ilə də dil tapardı, hamını da razı salardı. Göymirzəli nə zamansa hətta bir xalq şairinə belə demişdi:

– Vallah, halal olsun. Billah, halal olsun. Sən istəmisən ki, bir səfeh şeir yazasan, sən də onu yazmısan. Əhsənül-əhsən. Elə bilirsən asandı?

– Əlbəttə, asan deyil… – Xalq şairi Göymirzəliyə minnətdarlıqla baxandan sonra əlində hazır tutduğu dəsmalla tərli, daz başını silə-silə nə danışdığını, necə tələyə düşdüyünü isti-isti ağlına belə gətirmədən əlüstü cavab vermişdi…

İki göz istəyirdi, Eyvazlının biçarə halına tamaşa eləsin.

– Deməli, sən deyəcəyini dedin, qurtardın?!– Vampir boğazını yüngülcə arıtlayıb süni bir razılıqla və qətiyyən tələsmədən incə-incə, yağlı-yağlı danışaraq səsinin şirin yerinə saldı. Gözləri bir an sonra alacağı ləzzətdən ulduz göydə axan kimi axıb getdi.

Eyvazlı hiss elədi ki, haman xalq şairi kimi tora düşməkdədir, soyuq tər yenə də başladı boynundan köynəyinin içiylə kürəklərinə qədər axmağa. Dodaqaltı öz-özünə nə isə mızıldadı. Vampir onun mızıltısını təsdiqləyici cavab kimi qəbul elədi.

– Deməli, qurtardın… İndi də sən zəhmət çək, mənə qulaq as. – Vampirin səsi bir anın içində dəyişib codlaşdı, hətta bu səs Eyvazlıya bir qədər vahiməli gəldi.

Vampir xeyli qətiyyətli və ciddi bir şəkildə, nəhayət ki, bu gənc hərifə əməlli-başlı dərs vermək qərarına gəlmişdi. "Çox dözdüm mən sənin cəfəngiyyatına… Sirlərin açılma zamanıdır. Eybi yox, zərbə ağır olacaq, amma dözümün çatsa, anlayacaqsan… Bizi də bir adam əvvəl-axır anlamalıdı, ya yox?!"

Eyvazlının balaca otağındakı səsli divar saatını hamı bəzək kimi qəbul edirdi, çünki saatın kəfkiri divardan asıldığı vaxtdan indiyənə qədər eləcənə donub qalmışdı. Birdən-birə bu kəfkir öz-özünə hərəkətə gəlmədimi, gəldi. Eyvazlı diksindi və mat-məəttəl qaldı.

– Mən sənin yaşında, balası… – Vampir heç nəyə fikir vermədən arzu-kamala danışmağa başladı, – ulduzdan ulduza uçurdum. Gəlib sizin bu camış iyi verən üfunətli dünyanıza düşəndə, daha doğrusu, ilişəndə, – bu yerdə Vampir üz-gözünü nifrətlə büzüşdürdü, – ilk əvvəl başa düşmədüm ki, bu qədər sonsuz ulduz arasında iki üstəgəl ikinin dörd elədiyi belə bir dünyada necə oldu ki, qalası oldum. Səhv etdim. Çox böyük səhv etdim. Sonra, çox sonra bu səhvimin səbəbini anladım. Amma gec idi. Bilirsənmi, səbəb nə oldu? Bu dünyanın havasında hər şey bir-birinə qarışmışdı, hər şey bir-birinə oxşayırdı. Adamlardan tutmuş ağaclara, daşlara qədər hər şey. Onlar hamısı bir-birilə qafiyəydilər. – Vampir neştərini daha dərindən batırmaq istədi. – Hər şeyin bu dünyada qafiyəsi vardı. İndi də var. Sənin də qafiyən var. Sevgilin, dostun, ürək qızdırdığın

birisi yoxdu ki, deyim, bax, sənin qafiyən budu. Sənin qafiyən bilirsən, nədi? Amma inciməyəsən. Sənin qafiyən… bir atdı. At. Sən ata çox oxşayırsan… Nə isə… Bu, bir başqa mövzudu. Deyəcəyəm. Deməsəm, ölləm. Bu dünyanın havasında qafiyələr oynaşır. Mən hər şeyin mahiyyətindəki qafiyələri deyirəm. Mən onları görürdüm. Mənim səhvim məni bura salan səhv cümlənin naçar mübtədası qədər əlacsız idi. Altından indiyənə qədər çıxa bilmirəm. Mənim səhvlərimin qrammatıkasını yazmaq olar, balası… Sənsə mənə nə deyirsən?! Sən Allah, qoy görüm nə deyirsən?! Sənsə mənə deyirsən, qulaq qafiyəsi belə gəldi, kök qafiyəsi belə getdi, misranın içində o söz yerində deyil, bu söz artıqdır… Mahiyyətin qafiyəsindən danış sən, övladi-kəbir, mahiyyətin qafiyəsindən…

Bunları birnəfəsə vulkan kimi püskürəndən sonra Vampir dili ilə qurumuş dodaqlarını yaladı və susdu. Ortalığa namünasib bir sükut çökdü, amma uzun sürmədi. Sükutu Vampirin özü pozdu. Qarşısında bir günahkar kimi, məzlum və yazıq-yazıq oturmuş Eyvazlını ("Allah, mənim günahım nədi?") bu dəfə açıq-aşkar şəfqətlə süzdü. Gözlənilmədən iztirab dolu ahənglə, öz-özü ilə danışırmış kimi dediklərinə belə bir əlavə etdi:

– Sənin nə günahın?! Sənin ki bir günahın yoxdur… Bilirsən, mənə qəribə gələn nədir? Niyə bizi tərk elədilər?! Sual budu. Yoxsa ki… Olum, ya ölüm… Cəfəngiyyat!

Axşama yaxın Eyvazlı suyu süzülmüş bir halda iş yerini tərk etdi. Yenə küçələri, döngələri bir-birinə qarışdıra-qarışdıra, ordan vurub burdan çıxaraq, burdan vurub ordan çıxaraq sanki dövrələmə, dairələr cıza-cıza yuxarı məhəllədəki evinə tərəf istiqamət aldı. Yol gedə-gedə o belə düşünürdü: "Vampirin dedikləriylə bu sabahkı qəhvə falı arasında, görəsən, bir oxşarlıq varmı?! Qəhvə falı axı başqa şey demişdi. Onun dediyi axı axşam baş verməliydi. Bu gün axşamüstü mənim həyatımda çox mühüm bir hadisə olmalıdı... Bəs niyə heç nə baş vermir?! Eyvazlının dodaqlarına acı bir təbəssüm qondu.

Axşam yavaş-yavaş, hüznlə düşürdü. Dar dalanla əyri diki qalxıb birmərtəbəli və ikimərtəbəli böyüklü-balacalı evlərin bir-birinə qısıldığı küçəyə dönən zaman gözünün qarşısında belə bir mənzərə canlandı.

Yaşadığı evin qapısı ağzına bir at gətirib bağlamışdılar. Ətrafda bircə tanış adam belə gözə dəymirdi. Axşamın bu vaxtında bu balaca küçə ilə ora-bura Harri Potterin küçəsində olan kimi mutantlar gəzişirdi. Adam-fillər, kenquru-balıqlar, şir-ceyranlar, dovşan-qarğalar bir-birilə min illərin mehribanı kimi söhbət edirdilər… Bilmədi, niyə, amma bu adi, heç bir qarışığı olmayan atı evinin qabağında görəndə Eyvazlının ürəyində bayaqdan bəri özünə yer eləmiş gərginlik əriməyə başladı.

At boynunu uzadıb ona tərəf məhrəm-məhrəm, ürəkdən fınxırdı. Fınxıran zaman atın dişləri ağardı. Eyvazlının diqqətini çəkdi ki, bu atın ağzında bir dişi qızıldandır. Atı tanımazdımı, o saat tanıdı. Qırat idi. Bu dəfə sevincdən, ya həyəcandan Eyvazlının damarında qanı coşdu, ürəyi əsim-əsim əsməyə başladı. Ondan çıxmayan iş – cuşa gəlib sağ əlini kəmərinə atmaq istədi, amma yadına saldı ki, qılınc adına bir şey orda yoxdur.

Eləcənə ürəyi əsə-əsə atın yanından əlini onun belinə ehmalca sürtərək (bir başqa dünyada şappıltıyla vuraraq) keçib evin qapısına toxunmazdan əvvəl başını qaldırdı, ikinci mərtəbədəki həmişəqaranlıq pəncərəyə nəzər saldı. Bu, qonaq otağının pəncərəsi idi və qonaq otağına ayda-ildə bir dəfə girən olardı, ya olmazdı. Eyvazlı bu gün də qonaq gözləmirdi. Pəncərədən işıq gəlməməli idi…

Pəncərədən işıq gəlirdi.

*2014-cü il*

# Vakxanaliya mövsümündə çalıquşu

Camal həkim yorğun-arğın bir halda təpə üstündəki evinə gəlib yetişəndə səhərin gözü hələ açılmamışdı. Üzü həyət qapısına tərəf durub əlini açar üçün cibinə saldı. Bir xeyli bu cibində, o cibində açar axtardı. Arxasında dərin bir dərənin boşluğu vardı və o bilirdi ki, indi dərənin o tayında yaşıl sərv ağaclarının cərgəylə sıralandığı yerdə şəfəq al qan içindəki ciyər parçası kimi sökülməkdədi.

…Biçarə qız palatada gözlərini açan kimi Camal həkimin dərin qırışlı üzünü başının üstünə əyilmiş gördü. Qızın qara, azacıq qan sızmış gözləri ağır-ağır həkimin üzündəki bir qırışdan o biri qırışa gəzdi. "Görəsən, mən hardayam?" – qız düşündü.

Hər şey isə belə başlamışdı.

Axşam düşürdü. İkimərtəbəli, balaca qəsəbə xəstəxanası onu bürüyən qaranlığın içində özü boyda başqa bir qaranlığa çevrilirdi. Qəflətən xəstəxananın həyətinə sürətlə bir maşın girdi. Cansız, taqətsiz bir qızı üç kişi maşından çətinliklə endirib az qala əlləri üstdə xəstəxana otağına gətirdirlər. Dedikləri bu oldu ki, qızın evdə qəflətən halı xarablaşıb, qısa müddət hətta huşunu itirmiş halda özündə-sözündə olmayıb, özünə gəldikdə isə artıq dili söz tutmurmuş.

Qızı xəstəxanaya təhvil verən kişilər içkili idilər və bunu gizlətməyə çalışırdılar. İkisi yaşlı, biri də bir cavan oğlan idi. Qızı palataya yerləşdirəndən sonra tələsik, az qala gizlincə çıxıb getmişdilər. Baş həkim, növbətçi həkimi çağırıb dedi ki, bu işdən, əslində, bu adamlardan heç gözü su içmədi və o, səhər tezdən polis çağırmağı düşünür.

– Mənə belə gəlir ki, qıza təcavüz ediblər. Fikir verdinsə, bədənində qara ləkələr vardı. Döyüblər, elə bil… Bunun dilini hökmən sabaha qədər açmaq lazımdı. – Baş həkim alnını ovuşdura-ovuşdura belə dedi və sonra başını qaldırmadan, altdan-altdan sual dolu baxışını növbətçi həkim Camal həkimin üzünə dikdi.

– Əlbəttə, əlbəttə…– Camal həkim onunla razılaşdı.

"Demək asandı. Damcılıq altında huşu-başı özündə olmayan bir qızcığaz, möcüzə lazımdı ki, heç olmasa, gözünü açsın, dili qalsın hələ bir yana." – Bu düşüncə ilə Camal həkim xəstənin palatasına qayıtdı. Xəstəni çarpayıya uzadıb sol qoluna damcılıq keçirmişdilər. O hələ də gözlərini açmamışdı. Huşu özündə deyildi. Gecə növbətçisi tibb bacısı Sədirə xəstənin başı üstdə oturub damcılığa nəzarət edirdi. Sədirənin üz-gözündən yuxu tökülürdü. Camal həkim onu yatmağa göndərdi.

– Mən burdayam. Ehtiyac olsa, səni oyadaram. – dedi.

Bütün gecəni palatada keçirən Camal həkimin yarıgözü damcılıqda qaldı. Aramla, tələsmədən gombul şüşədəki damcı damcı dalınca yuxarıdan aşağı ucuna iynə keçirilmiş rəngsiz, polietilen boruya düşür, ordan da zavallının sol qolunun venasına taxılmış iynədən bütün canına yayılırdı. Gecə yarısından azacıq keçmişdi ki, qızın göz qapaqları tərpəşən kimi oldu. Qanı qaçmış dodaqları azca aralandı və o, nəsə pıçıldadı. Həkim

tələsik əlini atıb xəstənin damcılıqda olmayan sağ biləyini əlləşdirdi, nəbzini yoxladı. Nəbz ahəstə-ahəstə titrəməyə başlamışdı.

…Camal həkim bu qızı görən kimi adını Çalıquşu qoydu. Qızı xəstəxanaya gətirənlər bir-birindən xəbərsiz hərəsi bir ad demişdi. Baş həkimi şübhəyə salan məqamlardan biri də elə bu idi. Cavan oğlan xəstəxananın qeydiyyat şöbəsində anket dolduran qəbul şöbəsinin işçisinə belə cavab vermişdi ki, qızın adı Fəridədi, familiyasını isə bilmir, onun özü hadisə baş verən evdə təsadüfi qonaq olub. İki kişidən biri artıq palatada tibb bacısına demişdi ki, qızın adı, deyəsən, Fəzılədi. O biri başı daz, qaşları ağappaq ağarmış kişinin isə baş həkimə verdiyi məlumata görə qızın adı Aşiqəydi. Aşiqə bu adamların qohumuydu. Özü rayonda yaşayırmış, ailəsi göndərib şəhərə ki, mümkünsə bir iş tapıb işləsin. Danışarkən bu kişinin gözləri civə kimi ora-bura qaçırdı və o, tez-tez dəsmalını çıxarıb tərləmiş boynunun dalını silirdi.

Bu üç kişi qəfildən peyda olduğu kimi qəfildən də yoxa çıxdı. Nə baş həkim, nə də tibb personalı qızın adını xəstəxana dəftərinə nə cür qeyd eləməyi uzun müddət müəyyənləşdirə bilmədi. Camal həkim yarıciddi, yarızarafat belə bir çıxış yolu təklif elədi:

– Burda fikirləşməli bir şey yoxdu ki. Yazın hələlik adını "Çalıquşu", qurtarıb getsin…

– Çalıquşu???

Qeydiyyatdakı qız təəccübləndi, amma bir kəlmə artıq söz demədən xəstənin adını dəftərə elə belə də yazdı.

Və indi Camal həkim çarpayıda büzüşüb qalmış bu taqətsiz, fağır, köməksiz, yazıq qızcığaza baxdıqca qəlbinin yavaş-yavaş ılıq şəfqət hissilə dolduğunu hiss edirdi: "Bu, Çalıquşudu. Özü də əsl Çalıquşudu. Gec də olsa, odu, gəldi."

Bu axşam bir qəribə axşam idi. Palatanın zəif işığı yanmaqdan çox titrəyir, bayırdakı qaranlığın xofu qəlbə qüssə gətirirdi. Gözlərini qızın üzündən çəkə bilməyən Camal həkimin də qəlbinə anlamadığı qüssə gəlib dolmuşdu. Camal həkim düşünürdü ki, düzmü edib ömrü boyunca həyatına işıq gətirən bir Çalıquşu axtarıb-axtarıb, amma tapa bilməyincə

indiyənədək tək-tənha qalıb. Vaxtilə özünü inandırmışdı ki, hardasa onun taleyində bir Çalıquşu var. Bir də ona inanmışdı ki, bu Çalıquşuna həyatda rast gəlmək şərt deyil. Taleyində olan həyatında olmaya da bilər. Camal həkim çoxdan idi ki, onu görmək ümidini büsbütün itirmişdi. Az qala Camal həkim onu unutmuşdu. O zavallı isə budur, gec də olsa, gəlib. Qarşısındakı çarpayıda köməksiz bir halda uzanıb qalıb. Təsadüf idimi?! Bəlkə də. Qanunauyğunluq idimi?! Niyə də yox?!

…Çalıquşu gözlərini açıb başının düz üstündə uzunburun, ortayaşlı bir kişinin sifətini gördü. Camal həkim diqqətlə qızın üzündə müxtəlif nöqtələrə baxır və çalışırdı anlasın ki, qızın donuxmuş gözlərinə o özü görükür, yoxsa yox…

– Əgər məni görürsənsə, əgər eşidirsənsə, gözünü yum, aç… – Camal həkim qıza çox həlim bir səslə müraciət elədi.

Əvvəlcə qızın burnuna naşatır, dərman iyi doldu. Sonra o, eşitdiyi əmrə tabe olub gözlərini aydın bir şəkildə yumub açdı. Zəif səslə ancaq bunu soruşa bildi:

– Mən hardayam?

Camal həkim dərindən, rahat nəfəs aldı.

…Gecə yarıdan keçmişdı. Növbətçi həkimdən, yəni, ondan, qonşu palatada hərdən "ah" edib yuxusunda diksinən tibb bacısı Sədirədən və həyətdə oturduğu balaca qarovulçu budkasında gözlərini qaranlığa dikib dərin fikrə getmiş qarovulçu Qədir kişidən başqa xəstəxanada işçi adına heç kim yox idi. Bu gecə heç xəstə də qalmamışdı. Xəstələr yerli camaatdan ibarət idi və qaranlıq düşən kimi yatmağa evlərinə getmişdilər.

Çalıquşunun qolu hələ də damcılıqda idi, amma vəziyyəti dəqiqəbə-dəqiqə, anbaan yaxşılaşırdı. Yanaqlarına, dodaqlarına qan gəlir, qara gözlərinin dibində işıltı sezilirdi. Sözləri get-gedə aydın və rabitəli olurdu. Qızın anadangəlmə bir şirinliyi vardı – yavaş-yavaş bu şirinlik üzünə-gözünə, danışığına qayıdırdı. Bir gözü Camal həkimdə, o biri gözü başı üstündəki damcılıqda incə səsilə narahat bir halda eyni sözləri neçənci dəfə təkrar etdi:

– Həkim, vallah mən heç kimdən şikayətçi deyiləm. Gəlin, siz bir yaxşılıq eləyin, buraxın məni, çıxım gedim. Səhər bilirəm, çağırassız, polis gələcək. Nolar, etməyin…

Camal həkim Çalıquşu adlandırdığı bu qızın belə tez yaxşılaşmasından daxili məmnunluq duyur, səsini bir musiqi kimi dinləyirdi. Onlar artıq min ilin tanışları kimi söhbət edirdilər. Yavaş-yavaş, hiss edilmədən söhbət "xəstə-həkim" münasibətindən kənara çıxdı. Qız çəkinmədən qəfil avtomobil qəzasında həlak olmuş əri haqda danışır, atası evində başına gələnlərdən, arzu-niyyətindən, balaca oğlundan söz açır, amma elə ki, söhbət dünənki hadisənin və adamların üstünə gəlib çıxırdı, dişləri kilidlənirdi, ağzından yalvarış dolu sözlərdən başqa heç bir söz çıxarmaq mümkün olmurdu. Yenə də:

– Siz Allah, həkim, yalvarıram, kömək eləyin mənə, burdan çıxım gedim. Vallah, mən yaxşıyam. Heç kimdən də şikayətçi deyiləm. Mən hökmən burdan getməliyəm, hökmən… – deyib dururdu.

Çalıquşu elə yanıqlı-yanıqlı sısqayıb elə məhzun-məhzun yalvarırdı ki, sanki bütün həyatı bu saat burdan çıxıb getməyindən asılı idi. Onu dinlədikcə Camal həkimin ürəyi yavaş-yavaş yumşalırdı.

– Axı sən mənə Çalıquşu dedin. Niyə dedin? – Qız həkimin tövründə nə isə hiss edib gözlənilmədən "sən"ə keçdi. Səsində şıltaq bir əda yarandı. – Mən bəyəm o kinodakı aktrisaya oxşayıram? İndiyənə qədər bunu mənə deyən olmamışdı, bilirsən?!

– Yox, oxşamırsan. – Camal həkim gözlərini yana qaçırdı və nə oldu, nə olmadısa, düşündüyünü dilə gətirərək, – amma hər adamın həyatında bir Çalıquşu olur, – dedi.

Bu gözlənilməz sözdən sonra qızın gözləri parıldadı və ona sanki yeni həvəs gəldi:

– Kömək elərsən mənə? – Çalıquşu bütün vücudunu sarmış dəli bir ümid içində həkimin canına işləyən mənalı bir pıçıltıyla soruşdu.

– Yox, bunu eləyə bilmənəm. Burdan çıxmaq asan deyil. Səni qeydiyyatdan keçiriblər.

Bunu eşidən Çalıquşunun gözlərindən yaş bir an içində bulaq suyu kimi axıb getdi. Səssiz-səmirsiz ağlayan Çalıquşunu qəhər az qala boğurdu. Ona baxdıqca adamın ürəyi elə sıxılırdı ki… Camal həkim qızın bu əzablı halına dözmədi. Biixtiyar damcılıq altındakı əlini əlinə alıb tumarlamağa başladı. Qız sakitləşdi. Hıçqırığı kəsildi. Camal həkimə elə gəldi ki, Çalıquşu onun əlini yüngülcə sıxan kimi oldu. Həkimin qəlbi sürətlə döyündü və o, qızın əlini buraxdı.

Nəhayət, xeyli tərəddüddən, düşünüb-daşınandan sonra Camal həkim bir qərara gəldi. Qızın qarşısına şərt qoydu:

– Bəsdi, ağlama, – dedi. – Sən mənə dünənki əhvəlatı olduğu kimi danış, mən də burdan çıxıb-çıxmamağın barədə bir qərara gəlim. Razısan?

Qızın qəlbinə yenə haman dəli ümid gəlib doldu və tezcə də yox oldu:

– Sən mənə onsuz da inanmırsan ki… İnanırsan mənə? – O, məlul-məlul həkimə baxdı.

– Bilmək olmaz. Bəlkə hələ fikrimi dəyişəcəm?! – Camal həkim birdən-birə kallaşmış bir səslə qıza cavab verdi. Özü də təəccüb elədi ki, səsi niyə bu cür dəyişdi.

Çalıquşu içini çəkdi. Qızın, elə bil, gözləri açıldı. Əlini atıb üzünə tökülmüş telini tələsik yana yığdı:

– Başa düşdüm. Nə istəsən, elərəm. İstəyirsən… qapını bağla…

Çalıquşunun gözəl gözləri bir an içində dəyişib şəhvətdən axdı. Səsi ehtirasla doldu. Adyal altda vücudu tərpəşdi. Camal həkim təəssüflə düşündü ki, o bais oldu qızın bu cür dəyişməyinə.

Çalıquşu dərin bir maraq içində idi, alışıb-yanan gözlərini həkimin üzündən çəkmirdi. Təklifinə cavab gözləyirdi. Bu dəfə qaşları çoxmənalı bir şəkildə yuxarı dartıldı və o, işvəli-işvəli gülümsədi:

– Peşman olmassan…

– Olmaq üzrəyəm. – Camal həkimin səsinin quruluğu hər şeyi əvvəlki düzənə qaytardı. Qonşu palatadan tibb bacısı Sədirə yuxusundaca diksinib dərindən bir "ah" çəkdi, mürgülü-mürgülü kiməsə deyindi, sonra təzədən yuxuya getdi.

Çalıquşunun adyal altdan çıxmağa hazır çılpaq baldırı adyal altdaca yaxşı-yaxşı gizləndi. Qız əlacsız bir halda başını yenə yastığa atdı. Göz yaşları yenə biixtiyar axdı. Camal həkim stolun üstündən bint götürüb onun gözlərini, üzünü səbrlə, ehmal-ehmal silməyə başladı.

– Mən batdım, mən bədbəxt oldum… Mən onu bir də görməyəcəyəm. – Çalıquşu qəhər içində öz-özünə pıçıldadı.

– Sakit ol, özünə gəl… Kimi görməyəcəksən?

– Oğlumu! Körpəmi! Kimi…

– Sən hələ bir söylə, razısan mənim şərtimlə? – Camal həkim ciddi tərzdə soruşdu.

Qızın gözlərində sual yazıldı.

– Sən mənə dünən baş verəni, olub-keçəni danışırsan…– Camal həkim yada saldı.

Çalıquşu həkimə baxıb "başqa əlacımmı var?" düşündü.

– Başqa çıxış yolun onsuz da yoxdur. – Çalıquşunun beynindən keçənləri Camal həkim dilinə gətirdi.

Çalıquşu yanıqlı bir ah çəkərək başına gələnləri aramla ona danışmağa başladı:

– Bilirəm ki, nədən başlayım, bilmirəm. Mənim atam bir kasıb kişidi, bazara gedib-gəlir, onun-bunun əlinə baxır… İndi-indi mən onu başa düşürəm. Dedi ki, Salehlə danışmışam, söz verib sənə kömək eləyəcək, uşağı tapacaq. Ərimin ailəsi ərim öləndən sonra məni rayona atamgilə göndərəndə min bəhanəylə uşağı məndən saxlamışdılar. Beş il... – Çalıquşu acı-acı gülümsədi, – beş il ilim-ilim itib yoxa çıxdılar. Əjdərin qəfil ölümü bir tərəfdən, oğlumun dərdi bu biri tərfdən… Əlim heç bir işə yatmırdı. Atam narazıydı, istəyirdi, məni təzədən ərə versin, anama deyirdi, xalxln qızları yıxılmış evin dirəyidilər, özlərinə də, ailələrinə də gün ağlayırlar. Bu isə ağlamaqdan başqa bir iş bilmir... Sənsə deyirsən Çalıquşu…– Son sözləri həkimə ünvanlayandan sonra həmən istehzalı, acı təbəssüm yenə qızın dodaqlarına qondu.

– Saleh kimdi? – Camal həkim soruşdu.

– Məni bura gətirən… dazbaş… Atamın köhnə müdiri.

Əvvəlcə Çalıquşu atasının bəzi sözlərini dilə gətirib həkimə söyləmək istəmirdi, amma nə düşündüsə onları da danışdı. Atası ona eşitdirə-eşitdirə anasına belə demişdi:

– Bəsdi yatıb-yatıb un çuvalına tay oldu. Ölənlə ölməzlər. Adam kimi ərə getməyi düşünsün. Odu, Saleh, köhnə müdirümüz, hər dəfə şəhərdən gələndə deyir. Heç nəyə baxmanam, bu dəqiqə alaram onu deyir.

Məni Salehə sırımaq atamın köhnə dərdi-səri idi. Mən bədbaxt başımı götürüb Əjdərlə altı il əvvəl qaçmasaydım, bu hələ o vaxt məni Salehə satasıydı. Mənsə Əjdəri sevmişdim, Əjdər də məni. Nə onun ailəsi razı idi bu işə, nə də mənim ailəm. "Götür məni, qaçaq gedək..." Əjdərə dedim. Qaçdıq, getdik. Allah verdi cəzamızı. O öldü, mən qaldım.

Çalıquşu artıq özü də anlamırdı ki, nə üçün ürək qızdırıb ən məhrəm, ən gizli sözlərini, söz hələ nəydi, düşündüklərini ilk dəfə gördüyü bu həkimə söyləyir. Ürəyi, elə bil, çoxdan idi yük altında əzilirdi, o da indi bu yükü bir-bir çıxarıb atır, atdıqca yüngülləşirdi. "Bəlkə insafa gəldi, üzündən, gözündən pis adama oxşamır, gözütoxdu, tamahsızdı..." Belə düşünüb Çalıquşu yenə də ümidlə sözünə davam etdi:

– Sabah balamı gətirməlidilər mənnən görüşə. Bağrıma basıb aparacam onu. Hara? Necə? Bilmirəm. Dazbaş söz verib. Bir ay mənim evimdə qal, dedi, sənin işini düzəldim. Yerin dibindən tapdıracam oğlunu, dedi. Dünən bir ay tamam oldu. Bu bir ayda mən bunun evində görmədiklərimi gördüm. Şəhər evində də, bağ evində də hər gün həngaməydi. Cürbəcür qadınlar, kişilər... Elə bil, dünyanın sonuydu. Gecə yox idi, gündüz yox idi. Bir arzu-kamla sabahın gözü açılmamış kef məclisi qururdular ki, sanasan, hər gün bunlar üçün axırıncıdı, elə bil, qadın nədi, heç doyunca çörək üzü də görməyiblər. İnsan nə qədər yeyərmiş?! Nə qədər içərmiş?! Bu boyda malın-dövlətin başından aşa, gözün yenə də ac qala... Hamısı, elə bil, dəli olmuşdu. Kim kimlə yatıb dururdu, bilinmirdi. Bu bir ayı mən elə bildim, əməlli-başlı dəlixanadayam. Dostları danışırdı ki, Saleh, tutulmamağının kefini çıxarır... Salehin şəhərdə böyük vəzifəsi vardı, işdən qovmuşdular, amma özünə dəyməmişdilər.

– Sən hələ bir soruş, bəs mən necə oldu gəldim bunun evinə?! Məni bunun evinə öz ailəm göndərdi. Bir gün, olardı, təxminən, bir ay bundan

əvvəl atam bazardan qayıdıb evin içində var-gəl eləyə-eləyə anamla xosunlaşdı. – Çalıquşu davam etdi. – Dedi, hayıfdı ona Allahın verdiyi bu gözəllik. Hər bir qız baxdıqca göz oxşayan yaşıl zəmi kimidi. Amma o yaşıl zəmiyə gərək yaxşı-yaxşı yağış yağa, suyu bol ola, sahibi karlı ola. Bir söz, Saleh şəhərə çağırır bunu. Deyir, uşağı da tapacam, lap istəsə ikinci arvad kimi siğə də elərəm.

Salehin uşağımla bağlı verdiyi söz səbrimi tükətdi. Tənələrə, atmacalara da dözəsi halım qalmamışdı. Anama dedim, razıyam, şəhərə getməyə. Salehdi, nədi, o dazbaşın adresini verin mənə. Yox, dedi, özüm səni aparacam. Anam məni gətirdi bunun evinə. Necə deyərlər, əldən-ələ təhvil verdi. – Çalıquşu yenə hıçqırdı. –…Məni dünən qovmaq istəyirdi. Döydü, söydü, alınmadı. Verdiyi sözdən axırıncı gün qaçdı. Amma qaça bilməz. Bu bir ayda onun haqqında o qədər şeylər öyrənmişəm ki… Üzünə dedim, öldürsən də məni, sabah uşağımı görüb sonra öləcəm. Hünərin var, gətirmə uşağı. O da məni bu hala saldı... Amma qorxdu. Ürəyimə damıb, sabah körpəmi görəcəm. Sən axı bir yaxşı adamsan… Çıxar məni burdan. Qoy bir balamı tapım, istərsən, apar məni evinə, ömür boyu bir qəpiksiz qulluqçuluğunu elərəm. Bir qarın çörəyə. Eləmərəm?! Elə elərəm…– Çalıquşu yaş dolu gözlərini yana qaçırdı.

Camal həkimin ürəyi yarpaq kimi titrədi.

– Sənin dərdin bilirsən, nədi?! Sən ölümdən qorxmursan. Bilirsən ki, bu adamlar səni öldürə bilələr, amma yenə də qorxmursan. Bu, məni üzür. – Camal həkim, nəhayət, bir qərara gəldi və qətiyyətlə ayağa qalxdı.

…Zülmət qaranlığın içində qarovulçunun həyətdəki budkasına çatanda Çalıquşu bərk-bərk ona sığındı. Bütün vücudu əsim-əsim əsirdi. Camal həkim düşündü, bəlkə qızdırmadı. Amma yox, Çalıquşu həyəcandan beləydi.

– Aç qapını, Qədir kişi, Sədirədi, ötürək, getsin evinə. Səhərdən ayaq üstdədi. Çox yorulub.

– Xəstə qız özünə gəldi? Çalıquşu? – Qədir kişi fikirli-fikirli "Sədirə"yə ötəri nəzər salıb Camal həkimdən soruşdu.

– Yox hələ, özünə gəlməyib. Yatır…

Qarovulçu Qədir kişi pəncərənin dalından hansısa düyməni basdı və qapı açıldı. Sədirə – Çalıquşu Camal həkimin əlini bərp-bərk sıxdı, üzünü Qədir kişidən gizlədərə-gizlədə dar keçiddən özünü bayıra atdı və bir anın içində qaranlıqdan əridi. Bu elə tez baş verdi ki, Camal həkim mat-məəttəl qaldı. Sanki Çalıquşu heç əzəldən yox imiş. Bu adda bir adamı, elə bil, bu axşam bu xəstəxanaya gətirib eləməmişdilər.

…Camal həkim yaşadığı evin qapısı ağzına çatanda Çalıquşunun vida zamanı ona dediyi son sözləri düşünürdü. Qədir kişinin budkasına çatmamış ikisi də eyni zamanda ayaq saxlamışdı. Başlarının üstündə çox yaxınlarda özünə yer eləmiş ulduzların işığından gizlənərək şam ağaclarının qaranlığına çəkildilər. Ağlamaqdan qızarmış gözlərini gizlətməyə çalışan Çalıquşu ürəyinin dərinliyindən gələn bir istəklə bütün vücudu ilə Camal həkimə qısıldı, şişmiş və qara-qara ləkəli üzünü onun köksündə gizlətdi. Bir müddət beləcə dayanıb durdular. Çalıquşu pıçıldadı:

– Sən özünə dərd eləmə. Mən yaşaya bilmirəm. Bilsəydim, ölümdən qorxardım.

Camal həkimin evi yerləşən təpənin üstündə, arxasındakı dərənin boşluğunda dörd bir tərəf sükut içində idi. O, səhərin gözü açılmamış səs salmamağa çalışıb küçə qapısını ehtiyatla açdı. İçəri girərkən beynindən sürətlə bu fikir keçdi: Çalıquşunu görmək bir daha ona nəsib olmayacaq. "Bəlkə də belə yaxşıdı…" düşünüb dodağının ucu ilə acı-acı gülümsədi. "Niyə belə yaxşıdı?" sualına cavab aramaq istəmədi. Taqətsiz idi. Birdənbirə hiss elədi ki, bütün vücudu çoxdan, lap çoxdan qupquru quruyub, anladı ki, bunun səbəbi var, çünki çox güman, əvvəlcə ruhu vücudunu tərk edib və beləliklə, içi bombalanboş qalıb, sonra isə o özü, özü boyda bir qaxaca çevrilib… Camal həkim hələ də gülümsəyirdi.

"Məni yaşıl bir zəmini uçan quşlardan qorumaq üçün taxtaya bağlayıb əllərimi yana mıxlayasan və torpağa sancasan…"

*2014-cü il*

# Kölgə

*Qədim Şra Sinda rəvayəti*

Qədim zamanların birində Şra Sinda adlı Cadugərlər ölkəsində bir sənətkar yaşayırdı. Günlərin bir günü günorta vaxtı evinə gedən yerdə sonuncu tin ayrıcına çatıb sağa dönərkən o, hiss elədi ki, kölgəsi bədənindən ayrıldı və sola döndü. Sənətkar kölgəsinin arxasınca təəccüblə baxıb yoluna davam etdi. Yaşadığı evin qapısına qədər kölgəsiz gəldi.

Bu çox qəribə hiss idi və indiyənə qədər o, heç zaman belə vəziyyətə düşməmişdi. Quş kimi yüngül olmuşdu, elə bil, çəkisi yox idi. Evə çatan kimi bu məsələnin mahiyyətini, ona nə zərər verə biləcəyini öyrənmək istədi. Məhlədə bir neçə cadugər vardı. Ən yaxında olanı iki küçə o yanda yaşayırdı. Onun dalınca adam göndərdi.

Cadugər gəldiyində Sənətkar günorta vaxtı baş verən hadisəni olduğu kimi ona danışıb hadisəyə aydınlıq gətirməyini xahiş elədi.

Kölgəsiz necə olacaqdı? Kölgəsiz yaşamaq bir adama indiyə qədər müyəssər olmuşdumu? Bu, qorxulu deyilmiydi?

Cadugər ona diqqətlə qulaq asdı və gözlərini yumub bir dəqiqəyə yaxın sükut içində qaldı. Sonra özünə gəldi və belə dedi:

– Sən bu gün həmən tin ayrıcında cadugərə çevrilmisən. Bunu mələklər də edə bilər, şeytanlar da. Onlar zaman-zaman bunu edirlər. Mən də anamın qarnında cadugər olmamışam. Belə bir axşamların birində çox-çox illər bundan əvvəl mənim də kölgəm bədənimdən ayrılmışdı. Mən də o vaxtdan cadugər oldum. İnsanlara xidmət eləmək yolunu seçdim.

Sənətkar bunu eşidib sevindi. Cadugərə qiymətli hədiyyələr verdi. Cadugər gedərkən Sənətkar ondan xahiş elədi:

– Səndən ricam budur ki, bunu heç kimə deməyəsən. Mən cadugərliyimdən ancaq öz həyatım üçün istifadə etmək istəyirəm.

Cadugər cavab verdi:

– Əsas məsələ budur ki, sən cadugərliyini gizlədib insanlara xidmət eləməkdən vaz keçsən, kölgən yenidən gəlib səni tapmaq, sənə yapışmaq istəyəcək. Sən bacardıqca öz kölgəndən qaçmalısan. Kölgən səni tapsa, o daha sənin davamın olmayacaq, o səndən dəhşətli intiqam alacaq. Bir dəfə cisimdən ayrılan bir daha cisimə birləşməz. Kölgənin yenidən sənin cisminə qayıtması sənin ölümün deməkdir. Sən Karanın (ölüm mələyinin) diyarına gedəcəksən.

Bu sözlərdən sonra Sənətkar xeyli düşündü. Kölgəsindən qaçıb gizlənməyi necə həyata keçirəcəkdi, bunun planını qurdu. Bütün gecəni ağır düşüncələr içində keçirdi. Nəhayət, o, kölgəsindən gizlənməyin yolunu tapdı.

Sənətkara bir cadugər həyatı lazım deyildi. O öz sənətkar həyatını davam eləməyi, özü üçün yaşamağı qərara aldı. Ona qibtə edənlərə o belə deyirdi: "Siz yerdə sürünənlər mənə göylərdə pərvaz etdiyim üçün həsəd aparırsınız. Mən isə sizə deyirəm:, bilin və agah olun. Göylərdə sizin üçün maraqlı heç nə yoxdur. Göylərdə, ümumiyyətlə, maraqlı heç nə yoxdur".

Sənətkar kölgəsini bir daha görməmək üçün, daha doğrusu, kölgəsinin onu bir daha tapmaması üçün ilk öncə adını azdırmaq istədi.

Adını yanına çağırdı. O artıq bunu edə bilirdi. Və o təəccüb eləmədi ki, adı bir anın içində onun çağırışı ilə qarşısında zühur elədi.

– Mən istəyirəm ki, sən dönüb başqa bir sözün libasına bürünəsən və görünüşünü dəyişəsən. Biz kölgəmizdən gizlənməliyik. O bizi yenidən tapmamalıdır.

Adı onun qarşısında müticəsinə baş əyib dedi:

– Necə arzu edirsiniz, elə də olsun.

Adını dəyişəndən sonra Sənətkar istədi ki, öz görünüşündə müəyyən dəyişiklik eləsin. Bunu da eləmək çətin olmadı. Bir anın içində Sənətkar ağsaçlı, ağbəniz birindən qarabəniz və daha cavan bir adama çevrildi. Köhnə görüntüsü mütəəssir bir halda ondan uzaqlaşıb havadaca əridi. Daha sonra evi dəyişmək, iş yerini dəyişmək, qohum-əqrabasından üz döndərib onlar üçün yox olmaq lazım idi. O elə etdi ki, qohumları artıq onu görə bilmirdi, o isə istədiyi zaman qohumlarını görüb başqa qiyafətdə, başqa ad altında onlarla söhbət edə bilirdi.

Sənətkar bununla da kifayətlənmədi. Ən çətin məqam yaxınlaşırdı. Sevgilisini dəyişmək lazım idi. Bu elə də asan olmayacaqdı. Kölgə onun sevgilisini elə onun özü qədər tanıyırdı. Bu vəfalı qız ona elə isnişmişdi ki, nə zamansa ayrı ola biləcəklərini ağlına belə gətirmirdi. Amma Sənətkar bu çətin işin də öhdəsindən gələ bildi. İndi o, əvvəllər, yəni, özünün kölgəli zamanlarında tanımadığı gözəl bir qızla sevişirdi. Hər gün ya Sənətkarın evində, ya da qızın bağçasında onlar görüşürdülər. Qızın bağçası köhnə sevgilisinin qonşuluğunda idi. Bu saf məhəbbət hətta Sənətkarın artıq onu tanımayan və onun həsrətindən ağlayıb-ağlayıb az qala gözlərinin nurunu itirmiş köhnə sevgilisini də riqqətə gətirirdi. Yeni sevgilisi ağ-ağ çiçəkləri açmış gilas ağacının altında oturub onun başını nəvazişlə dizləri üstünə alır, incə barmaqları ilə yorğun gicgahlarını yumşaq-yumşaq ovuşdurur, zərif səsilə Sənətkarın bəstələdiyi tanış mahnıları onun özü üçün oxuyurdu.

O bu məftunedici səsi dinlədikcə ruhu dincəlir, köhnə sevgilisini gördüyü zaman ona əzab verən düşüncələrdən xilas olurdu.

Bir dəfə gecənin bir yarısı evində yatdığı zaman Sənətkara elə gəldi ki, həyətdən kimsə onu çağırır. Ayağa durub həyətə çıxmaq istədi, amma

qapını açan zaman fikrini dəyişdi. Həyətdən gələn səs kölgəsinin səsinə oxşayırdı. Cadugər olduğu üçün o bunu son dəqiqədə hiss edə bilmişdi. Səs elə yazıq-yazıq, elə yanıqlı-yanıqlı onu çağırırdı ki, Sənətkarın ürəyi sıxıldı, amma o yenə də özünü ələ alıb həyət qapısını bərk-bərk bağladı və qulaqlarını pambıqla tıxadı.

Sabahı gün Sənətkar bu əhvəlatı sevgilisinə danışdı. Beləliklə, sevgilisi onun sirrini bilən yeganə canlı, cadugər olmayan insan oldu. Qız həmişəki nəvazişlə onun başını dizləri üstə alıb sığalladı və bu dəfə ona tanış olmayan hansısa qəmli bir mahnını zümzümə eləməyə başladı. Mahnını tanımaması Sənətkara qəribə gəldi. Cadugər olduğu üçün o, bu mahnını tanımalıydı.

– Bu mahnını sən başqa adın və başqa vücudun içində yaşayanda bəstələmisən. Sən onu unutmusan? – Sevgilisi zərif səslə ondan soruşdu.

– Unutmuşam… – O, gözlərini yana qaçırıb tutqun və fikirli bir halda cavab verdi.

Onun qorxduğu başa gəlmişdi. Kölgəsi onu tapmışdı. Sona qədər kölgədən gizlənmək mümkün olmamışdı. O gecədən sonra onun cadugərliyinin gücü əriməyə, azalmağa başladı.

Bir gün sənətkar sevgilisinin yanına gələndə onu evdə görmədi. Sevgilisi görüş yerini səhv salmışdı. Qonşuluqda yaşayan köhnə sevgilisi həmən gilas ağacının altında oturmuşdu, dedi ki, sevgiliniz sizinlə sizin evdə görüşəcəyini güman edirdi. O indi şəhərin dar küçələri ilə sizin evə tərəf gedir, bir az tələssəniz onun arxasınca gedib ona çata bilərsiniz. Gedə-gedə o, mahnı oxuyur. Siz onun səsindən yapışa bilsəniz, özünü də tapacaqsınız.

Sənətkar nə qədər gücünü bir yerə yığdısa da sevgilisinin hansı küçə ilə getdiyini özü üçün aydınlaşdıra bilmədi. Cadugər kimi gücü xeyli zəifləmişdi. Son gücünü toplayıb qızın zərif səsini qulaqlarında zorla eşidə bildi. Sənətkar bu səsdən yapışıb əyri küçələrdən keçə-keçə sevgilisinin iziylə getdi. Səs get-gedə daha zəif eşidilirdi. Amma Sənətkar yaxşı bilirdi ki, bu səs onun çox-çox əvvəllər də yazdığı qəmli mahnını oxuyur.

Səs onu tanış yolla köhnə evinə sarı apardı. Həmən tanış tinə çatanda sevgilisinin səsi qəfildən qırıldı və elə bu an Sənətkarın bədəninə ağır bir yük daxil oldu. Kölgəsi ondan ayrılan yerdə yenidən onun bədəninə girdi.

Sevgilisi Sənətkarın evinə çatıb qapını döyəndə içəridən səs gəlmədi. Kimsə qapını açmadı. Yol ilə gedən bir cadugər qıza kömək elədi. Dua oxuyub qapını açdı, "bizim işimiz cadugər olmayanlara xidmət eləməkdi" deyib qızın nədənsə qorxduğunu hiss etdi və onunla bir yerdə içəri daxil oldu.

Sevgilisi çarpayıda tərpənməz bir halda uzanmış bu ağsaçlı, ağbəniz adamı az qala tanımadı. Sənətkarın açıq gözləri təəccüblə ona baxırdı. Ağzı balıq ağzı kimi açıq qalmışdı. Bədəni hələ isti idi. O, bir az əvvəl keçinmişdi.

*2014-cü il*

# Qar

*Əbdürrəhimbəy Haqverdiyevin xatirəsinə*

Qış qurtardı, yaz gəldi, qar yenə yağmadı ki, yağmadı. Həsən əmi qışdan bəri elə hey deyinib durmuşdu:

– Qar hökmən yağmalıdı. Adamın gözü qar görməlidi. Yoxsa olmaz.

– Həsən əmi, ay Həsən əmi, qar yağacaq? – Həyətdə gözlərindən cin çıxan qonşu uşaqlar yaşı ötmüş, dizləri taqətini, gözləri itiliyini itirmiş bu qoca kişinin arxasınca gülüşə-gülüşə qaçaraq həmişəki suallarını yağdırdılar.

– Yağacaq, hökmən yağacaq… Keçən il də yağmadı. Bu il hökmən yağacaq.

Dodaqaltı öz-özü ilə danışa-danışa Həsən əmi həyəti keçib küçəyə çıxdı, dalına düşüb qaçışan uşaqları o dəqiqə unudaraq üz tutdu yaxınlıqdakı məhlə bazarının içindəki balaca, rahat, söz-söhbətli çayxanaya. Bu çayxana ona ikinci evi kimydi.

Yol boyu rast gəldiyi adamlar, tanıdı, tanımadı, saxlayıb eyni sualı Həsən əmiyə verir, eyni arxayın və ümidli cavabı da ondan alırdı:

– Qar yağacaq, Həsən əmi?

– Yağacaq, mütləq yağacaq, get, xətircəm ol…

Bu sual və bu cavab artıq nə zamandan bəri hər gün, hər saat beləcə təkrar olurdu. Amma bu, Həsən əmini qətiyyən hövsələdən çıxarmır və Həsən əminin təmkinini zərrəcə pozmurdu. Hər dəfə cavab verməzdən əvvəl Həsən əmi gözucu da olsa, üzüyuxarı – göyə tərəf diqqətli bir baxış atır, bununla verdiyi cavabın doğru-dürüstlüyünü sanki yoxlamış olurdu.

Çayxanada Həsən əminin öz məxsusi yeri var idi. Keçib asta-asta öz yerinə əyləşər, armudu stəkanda qabağına gələn çayın isti-soyuqluğunu dodağı ilə yoxlayandan sonra qaytarıb nəlbəkiyə qoyar, bundan sonra başını qaldırıb ətrafına nəzər salardı.

– Salam, Həsən əmi.

– Həsən əmi, necəsən?

– Qar yağacaq, Həsən əmi?

Həsən əmi ordan-burdan ona ünvanlanan "qar yağacaq?" sualından qətiyyən inciməzdi. Eyni sualı ona dörd tərəfdən yağdıranlar, bəlkə, bunu bilmirdilər ki, gün ərzində Həsən əmi yüz dəfə, min dəfə bu suala eyni cavabı artıq verib. Bunu bilmədiyindən hər soruşan sualını təzə sual kimi soruşurdu. Qarın yağıb-yağmayacağı məsələsi Həsən əminin gözə görükməsilə, demək olar ki, eyni vaxtda adamların beyninə girir, onları düşündürməyə başlayırdı. Başqa bir vaxt "qar" söhbəti heç kimi maraqlandırmazdı. Uzun illər bu belə olmuşdu, bu gün də beləydi.

Onu da demək lazımdır ki, bu şəhərə artıq beş il olardı ki, qar yağmaq bilmirdi. Soyuq, şaxta düşürdü, tufan qopurdu, hətta ağacları kökündən qoparan küləklər əsirdi, amma qar… yağmırdı. Həsən əminin "yağacaq, qar hökmən yağacaq" sözlərinin hər biri kompasını itirib okeanda azmış gəmilər kimi öz sahilini axtara-axtara qalmış və vurnuxurdu. Bu sözlər qarı yağmayan qışdan üstü-başı tərtəmiz çıxıb isti yay günlərinədək gəlib özünü çatdırırdı. Adamlar öz həmişəki suallarını artıq təkcə qışda yox, yayda da verməyə başlamışdılar. Onları, bəlkə də, başa düşmək olardı. Beş il qar üzü görməmək asan məsələ deyildi. Bu adamlar elə bil, çox vacib nəyisə salıb qeyb eləmişdilər. Nəfəsləri kəsilə-kə-

silə qalmış, ciyər dolusu havanı ciyərlərinə çəkə bilmirdilər. Gözləri yorğun və mənadan xali baxışların qəbristanlığına dönmüşdü. Səbəbsiz-filan hamı kəmfürsət olmuşdu, boş-boşuna darıxır, boş-boşuna hövsələdən çıxır, bircə anın içində sir-sifətlər qapqara qaralır, adamlar bir-birini acılayır, heç nədən, səbəbsiz bir-birini günahlandırırdılar. “Qar” söhbəti isə onları güldürür, şənləndirir, bütün acılarını lağ obyektlərinə yönəldirdi.

…Çayxana isti yaz günləri adətən necə olurdusa, indi də eləydi – tünlükdən və tər iyindən baş gicəllənirdi.

Tər tökə-tökə qaynar çayını püfləyib içən Qəddar ləqəbli Malik Həsən əminin çayxanaya daxil olduğunu görüb nifrətini, kinini qətiyyən gizlətmədi. Bir qədər əvvəlki söhbəti yenidən təzələdi:

– Bax, budu, özü də gəldi. Düz demirəmmi, ay camaat, nə qədər olar bu milləti aldatmaq? "Qar yağacaq, qar yağacaq" deyib aylarla, illərlə hamıya ümid verdi, uşaq kimi baş aldatdı. Beş ildi, beş ildi, qar üzünə həsrət qalmışıq, a kişilər…

– Keçən il də ha dedi, yağacaq, yağmadı. Mən isə ona inanmışdım. – Qəddar Malikin ittihamına Cin Şamil də qoşuldu. Elə bil, ağız bahəm eləmişdilər.

– Bu il də yağmadı… Amma vəd eləmişdi. – Bu isə artıq Mirzə Kamranın qəmgin səsi idi.

– Ələ salıb bu adam bizi… – Bu sözləri Həsən əminin yaxını sayılan Hacı Həmdulla dedi, amma dodaqaltı elə dedi ki, heç kim eşitmədi, bircə Həsən əmidən başqa. Bu sözləri eşitcək Həsən əminin qəddi əyildi.

Həsən əmi elə bu cür qəddi əyilmiş keçib öz yerinə əyləşdi. Yan-yörəsindəki adamların belə donquldanması, əlbəttə ki, əhvalını pozmuşdu. Amma halını bürüzə vermədi. Əli ilə işarə edib çayını istədi. Çay gəldi. Həsən əmi çaydan bir qurtum ancaq ala bildi. Qəddar Malikin səsi yenə qəzəblə guruldadı:

– Yağacaq bu andıra qalmış qar, ya ki, yağmayacaq? Bunu bizə bir adam, nəhayət, doğru-dürüst deyə biləcək, ya yox?.. Biz nə vaxta qədər yalançı münəccimlərə inanıb qalacağıq?..– Qəddar Malik heç cür sakitləşmək bilmirdi.

– Oğul, Malik, qar qışda yağar, yayda qar yağmaz… – Molla Güləli ki, Həsən əminin yavuqluğunda o da öz yerində oturub çayını içirdi, işə müdaxilə etmək istədi. İstədi, adamların hirsini yumşaltsın, onun üçün dediklərini mümkün qədərincə yumşaq səslə, vird edirmiş kimi deməyə başladı. – Bu sualları indi verməzlər. Fəsil bahar, yaz fəslidir, oğul. Çiçəklər açan, quşlar cəh-cəh vuran, ağaclar meyvələnən fəsildir. İnşallah, qış gələr, o zaman bu barədə danışarıq. Xudavəndi-aləm əgər istərsə, qar yağacaqdır, əgər istəməzsə… o zaman daha nə etmək olar – kim nə deyir, desin, qar yağmayacaq.

Molla Güləli əlindəki təsbehin daşlarını çevirə-çevirə Həsən əmiyə ötəri bir nəzər salıb başı ilə işarə elədi, yəni, "işin yoxdu, deyib-deyib sakitləşəcəklər, yetər ki, sən danışma…"

Həsən əmi Molla Güləlinin bu işarətini nəzərə almadı. Elə bil, inada düşmüşdü:

– Yağacaq, mütləq qar yağacaq, – dedi. – Adamın gözü gərəkdir ki, qarı görsün.

Həsən əminin sakit bir tövrlə dediyi bu sözlər çayxanadakıları lap hövsələdən çıxartdı. Molla Güləlinin sözləri bir anda unuduldu.

– Necə yağacaq? Nə zaman yağacaq? Günəş adamın, az qalır, beynini əritsin. Sən bizi, əlbəttə ki, ələ salmısan.

Həsən əminin rəngi mizin üstündəki süfrə kimi tamamən ağarmışdı. Ürəyinin səsini qulaqlarında eşidirdi. Amma yenə özünü o yerə qoymadı, təmkinini pozmamağa çalışdı:

– Yağacaq. Mütləqa yağacaq. İnan buna. – Titrək səsi dodaqlarının ucuna güclə gəlib çatdı.

– Nə zaman? Zamanını söylə! Bu saat söyləyəcəksən!

Adamlar yerlərindən qalxıb Həsən əminin oturduğu mizi dövrəyə aldılar. Hamısının üz-gözündən yuxulu hiddət tökülürdü.

– Yağacaq…

– Bax, deyirəm, sabah qar yağmasa, sən bir də buralara ayaq basma. Eşitdin? Yoxsa… yoxsa səni doğulmağına peşman edərəm, bəlli bil. Eşitdin,

nə dedim, a kişi, mən? – Qəddar Malikin üzü-gözü nifrətdən əyildi. Əl atıb Həsən əminin hülqumundan yapışmaq istədi, çəkdilər apardılar bir tərəfə.

– Eşitdim...– Həsən əmi başını aşağı dikib xeyli yavaşdan cavab verdi.

Həsən əmi ürəyi əsə-əsə evinə sarı gedirdi. Kişi həqqən bərk qorxmuşdu. Bayaq çayxanada bu qədər adamın ona bu cürə kin-küdurət yağdırması, hələ uşaqlığından bəri tanıdığı Qəddar Malikin ona əl qaldırması, boğazlamağa çalışması Həsən əmini əməlli-başlı çaşdırmışdı. Gedə-gedə hərdənbir başını qaldırıb ucsuz-bucaqsız, qəribə müdhiş rənglərə boyanmaqda olan göy üzünə nəzər salır, bu zaman dodaqaltı öz-özünə nə isə mızıldanır, elə bil, dua edirdi.

Həyət uşaqları qışqırışa-qışqırışa yenə də ora-bura qaçmaqdaydılar. Onun gəlişindən xəbər tutmadılar, yoxsa soruşacaqdılar:

– Həsən əmi, Həsən əmi, qar yağacaq?

Həsən əmi də gündən qaralmış boynunun tərini əzik bir dəsmalla silə-silə cavab verəcəkdi:

– Yağacaq. Hökmən yağacaq.

Həsən əminin halı heç yaxşı deyildi. Evə keçib birtəhər özünü yorğan-döşəyə saldı. Tir-tir titrədir, sonra da tərləyirdi. Daxmasının evin damındakı yeganə pəncərəsindən günəş işığı yavaş-yavaş çəkilib gedirdi. Həsən əmi baxışlarını sonuncu günəş şüasına ilişdirib ondan bərk-bərk yapışdı.

...Yaz günəşinin son şüasının pəncərədən çəkilməyilə yekə-yekə, ağappaq qar lopalarının şəhərə yağmağı, demək olar ki, eyni vaxtda baş verdi. Qar lopaları, elə bil, çətir açıb torpağa doğru ahəstə-ahəstə uçuşurdular. Havada asudəlik, azadlıq, dinclik və əmin-amanlıq qoxusu var idi. Az bir zaman içində yağıb bitmək bilməyən qar hər tərəfi dümağ rəngə bürüdü. Şəhər əməlli-başlı qaldı qarın altında.

Üç gündən sonra çayxanada rəng-rufları sapsağlam, əhvalları şad-xürrəm oturub çay içənlərdən kimsə birdən xatırladı ki, qar yağdığı gündən bəri Həsən əminin ayağı bura dəyməyib. Adamlar narahat oldular. Beş-altı kişi, başda Molla Güləli, durub getdilər Həsən əminin evinin

qabağına. Həyətdə qartopu oynayan uşaqlar şəhərə qar yağandan sonra Həsən əmini görmədiklərini bunlara söylədi.

Bu adamlar üstünü yarısınacan qar basmış taxta qapını bir xeyli döydülərsə də, içəridən səs-soraq gəlmədi. Həsən əmi həm içəridə idi, həm də içəridə deyildi. Bunlar qapını döydükcə Qəddar Malik qapının kandarına çöküb hönkür-hönkür ağladı.

*2015-ci il*

# Uçuş

Hər ayın axırıncı cüməsi Aladağ kənd camaatı bir nəfər kimi böyüklü və kiçikli, qocalı və uşaqlı axşam düşənə və zil qaranlıq ətrafı bürüyənə yaxın kəndin çiyin söykədiyi Ala dağın başına qalxar, buradakı sıldırım qayanın ucuna gəlib bir-birinin ardınca boşluğa tullanar, havadaykən hər biri kürəyindən ağappaq iki qanad çıxarar və quş kimi uçardı. Bu zaman kəndlə göy üzünün arasını qatmaqarışıq bulud tozu tutardı. Aladağ kəndinin başı üstündə belədən belə, elədən elə uçuşan adamlar aşağıdan baxana ulduz tozu kimi görünərdi.

Kənd camaatının səmada uçuşu çox davam eləməzdi. Bir, ya iki saat ancaq çəkərdi. Sonunda hamı öz həyət qapısının önündə, elə bil, paraşütlə, ahəstəcə yerə enər, yuxulular kimi səndələyə-səndələyə özlərini həyət qapısından içəri salardılar. Çiyinlərdən çıxmış qanadlar yenə də öz yerinə çəkilərdi.

Çox-çox illər bundan əvvəl ilk dəfə bu uçuşa camaatı məhərrəmlik zamanı kəndə qonaq gəlmiş bir dərviş alışdırdı. O, bir axşam nə düşündü, nə düşünmədi, adamları başına yığıb kəndin arxasından bir böyük qanad kimi açılıb ucalan Ala dağın başına çıxdı. Adamlar dağın başındakı sıldırım

bir qayanın lap ağzına qədər gəldilər. Bir addım da atsaydılar, hellənib boşluğa düşəcəkdilər. Dərviş Dərdəçarə onlara dedi:

— Bu, çətin bir iş deyil. İstərsəniz əgər, biriminci mən pərvaz edim, siz isə tamaşa eləyin.

Dünyamalı kənddə hörməti olan, ehtiyat sahibi bir şəxs idi. Hamının əvəzinə o dilləndi:

— Yaxşı olardı. Baxıb öyrənərdik. Biz bunu heç birimiz bacarmırıq. Nə görmüşük, nə də eşitmişik…

Arxadan Kərim kişinin zəif səsi gəldi. Elə bil, öz-özünə dedi:

— Biz uçub göyə qalxsaq, görəsən, dünya dağılmaz ki?!

Kimsə ona etiraz elədi. Söz sözü çəkdi və söz sözə qarışdı:

— Yox, niyə dağılsın…

— Bir başqa adamın bundan xəbəri olmasa, daha yaxşıdı…

— Yox, bu baş versə, dünya o saat dağılacaq.

— Axı dünyanın bizimlə nə işi? O niyə dağılmalıdı?

—Baxın, yaxşı-yaxşı baxın… O qədər asandı bu…

Dərviş Dərdəçarə sıldırım qayanın düz ucuna yaxınlaşdı. Ayaqlarını bir-birinə cütlədi. Aşağıda boşluq qaraldıqca qaralır, Ala dağın başına isə o biri uzaq dağlar tərəfdən ağ və yumşaq duman gəlirdi. Dərviş əllərini yana gen açdı, daha bir kəlmə də söyləməyib suya atılan kimi özünü ürəklə boşluğun içinə atdı. Bunun qanadları havadaykən fışqırıqla çiyinlərindən çıxdı. Qanad çalıb dərhal yuxarıya şığıdı, yetişmiş dumanın üstü ilə dağın ətrafına bir geniş dövrə vurdu və yenə də qanad çala-çala dağın başındakı sıldırım qayanın üstünə, bayaq durduğu yerə uçub qayıtdı, ayaqlarını ahəstəcə yerə toxundurdu. Dərvişin qanadları yenə də çiyinlərinin içinə yığıldı. Bir müddət sükut içində ancaq zəif külək səsi eşidildi. Nəhayət, heyrətdən quruyub qalmış adamların ağzından qibtədolu bir yanıqlı «əhsən» sədası çıxdı. Bir balaca tövşüyə-tövşüyə Dərviş bunlara belə dedi:

— Gördüüz? Burda bir çətin iş yoxdu. Əsas olan odu ki, niyyətini doğru-dürüst təyin edə biləsən. Ürəyində inanasan ki, həqqən uçacaqsan. O zaman uçacaqsan.

Biriminci bu işə elə Dünyamalının özü əl qoydu. O, dərindən bir ah çəkib irəli çıxdı. «Biriminci mən olmasam, o birilər ürəklənməz» düşündü və ehtiyatla sıldırımın lap ucuna ayaq basdı.

— Haqqınızı halal edin. La ilahə illəllah… — Geriyə baxmadan uca səslə söylədi və kəlmeyi-şəhadətini dilinə gətirdi.

…Dünyamalı kişinin ləqəbi vardı. Səyyah. Ticarətlə məşğul olduğundan çox yerlər gəzib dolaşmışdı. Dünyamalı Səyyah dünyanın haralarında olmuşdu, necə qəribə hadisə və vaqeələr görmüşdü, amma belə ləzzətlisini heç harda görməmişdi. Qanadları öz-özünə ağrısız-filansız, rahatlıqla fışıldayıb çiyinlərindən çıxdı və bu qanadlar eləcə öz-özünə aşağı, yuxarı həmahəng bir tərzdə hərəkət eləməyə başladı. Göyün üzündə Dünyamalı kişi ağır çəkisinin yox olduğunu, özünün bir quşa döndüyünü hiss elədi. Ağappaq duman onun vücudu altında bir yumşaq döşəyə dönmüşdü. Sirri Xudamı? Sirri Xuda! O uçurdu. Kişinin bütün bədəni ləzzətli və ehtizazlı bir coşqu içində idi. Başını yana əyib o tərəf, bu tərəfə baxmağa çalışdı. Kənd adamları dərin heyrət içində qayanın başından onun uçuşunu seyr edirdi. Hərdən də Dünyamalı kişi dumana baş vurur, bu zaman adamlar onu gözdən itirir, amma onlar qorxuya düşməyə macal tapmamış Dünyamalını yenə pənbə dumanın üstündə pərvaz edən görürdülər. Güldəstə arvadın əli ağzında qalmışdı. Dünyamalının dodağına təbəssüm qondu.

…Zil qaranlıq Aladağ kəndini mehriban uşaq kimi ağuşuna alandan az sonra kənd adamları hamılıqla Dünyamalının isti və geniş töyləsində Dərviş Dərdəçarənin başına yığışdı. Həmən gün Dünyamalı Səyyahdan savayı heç kim ürək edib uçmaq üçün özünü qayadan aşağı atmamışdı. Belə olduğu üçün onlar utanırdılar. Susub durmuşdular və deməyə bir kəlmə söz tapammırdılar. Sükutu Dərviş Dərdəçarə pozdu:

— Bu biriminci gün idi, ona görə də çox fikr eləməyin. Məcburiyyətnən olmaz bu iş. Gərəkdir, ürəkdən istəyəsən bunu. Gözəl olan sonrasıdı. Sonra adamın canına illərlə yığışıb qalmış bütün qaramatı, çirki və pası, bütün nifrini və kini, bütün küdurəti səmada əriyib itib gedir. Sən olursan balaca uşaq təkin günahsız və məsum bir bəndə.

Adamlar ağızlarını açıb huş-guşla Dərviş Dərdəçarəyə qulaq tutulmuşdular. Qəfil səslənən sual bəzilərini diksindirdi:

— Nə deyirsiz, sabah axşam bu işi birdəfəlik görüb qurtarmaqçün qalxaqmı dağın başına? Bu gün olan kimi olmayacaq ki?

Bu sualı dörd tərəfə göz gəzdirib Dünyamalı kişi vermişdi. Ondan başqa ki, bu axşam dağın başından atılıb səmada uçmağa cəsarət edən olmamışdı deyin, Dünyamalı kişi bəri başdan sabah üçün işini ehtiyatlı tuturdu.

— Bə sən özün uçan zaman nə hiss elədin? — Kərim kişi alçaqdan, könülsüz-könülsüz soruşdu.

— Heç nə. Yüngüllükdən savayı heç nə. Elə rahat oldum…

Adamlar bir-birinin üzünə baxa-baxa qaldılar. Bəziləri köks ötürdü.

Həmin gecə Dünyamalı kişi yatıb yuxusunda kənardan öz uçuşunu gördü. O özü dağın başında qalmışdı, bir başqa Dünyamalı ətrafdakı dumanlara qarışa-qarışa göy üzündə qanad çalıb aşağı, yuxarı pərvaz edirdi. Kişinin ləzzətdən dodaqları qaçdı. Yuxusunda gülümsəməyə başladı, dodaqaltı mızıldandı.

…O gün, bu gün kənd əhli göydə uçmağın sirrini Dərviş Dərdəçarədən yadigar kimi qəbul edib bu günə qədər yaşatdı. Həftədə bir dəfə bu nəcib işlə məşğul olmağa başladı.

Kənd adamlarının bu cürə göydə qanad açıb uçmaqları ancaq kənd əhlinə əyan idi. Kəndə bir kənar adam gəlib bunun şahidi olurdusa əyyami-qədimdən belə qurulmuşdu ki, o adam kənddən çıxıb gedən kimi gördükləri büsbütün huşundan, hafizəsindən silinirdi. Kəndin sirri kəndin içində qalırdı, qırağa çıxmırdı.

Göyə ayaq açandan, əslində, qanad açandan sonra kənddə evlərin qapısı daha açıq qalırdı, həyət qapılarının üstündə qıfıl olmurdu. Kənd adamları bir-biri ilə kimi qardaş-bacı, kimi də mehriban sevgili kimi idi, qocanın qoca yeri vardı, cahılın cahıl yeri. Hamı bir-birinə can deyib, can eşitməsə də, kimsə kimsənin dalınca danışmaz, qeybətini etməzdi. Adamlar bir-birinin üzünə gülümsəməyə başlamışdılar, qaşqabaqlı baxışlar əriyib getmişdi. Könüllərə xoş bir ahəng gəlmişdi. Amma yavaş-yavaş zaman keç-

di, vədə dolandı. Yenə yavaş-yavaş göylərin rəngi, adamların huyu dəyişdi. Artıq göyə pərvaz edənlərin çoxu uçmaq, yüngülləşmək, təmizlənmək naminə yox, itirdiklərini axtarmaq, başqa həyatlərdə nə baş verdiyini görmək, özünə dəxli olmayan şeylərdən hali olmaq üçün uçurdu. Adamlar uçmaqla uçmamaq arasındakı fərqi artıq hiss etməyirdilər. Amma adətkərdə olmuşdular, uçmağı tərk edə bilmirdilər.

Həmən hadisə belə axşamların birində baş verdi.

Növbəti uçuş zamanı idi. Adamlar göydən yerə baxa-baxa gözlərilə nəsə axtarırdı. Mürsəl əmi əlini gözünə durbin kimi tutmuşdu, o həyət sənin, bu həyət mənim, baxışlarıyla yer deşirdi. Axtardığı çil toyuq neçə gün idi, evdən fərar düşmüşdü. Mürsəl əmi onu Canavar Həşimin dal həyətindəki təndirəsərdə gördü. Yazıq toyuq hövlnak ora-bura vurnuxur, amma heç cür yol tapıb dörd tərəfi bağlı təndirəsərin içindən bayıra çıxa bilmirdi.

Mürsəl əmi qıy vurub ley kimi təndirəsərə tərəf şığıdı. Heç ayaqları ilə yerə dəymədən əyilib çil toyuğu qamarlamağı və təzədən göyə ucalmağı bir oldu. Çil toyuq Mürsəl əminin qoynuna eləcə doğma balası qısılan kimi qısılıb qalmışdı, cınqırını da çıxarmadı. Boş təndirəsər ağzını gen açıb çil toyuğun dalınca baxa-baxa qaldı.

Həmən axşam Məşdəli Dadaşın oğlu məktəbli Məmiş hamı ilə bir yerdə göyə uçmağa getmədi, çünki xəstələnmişdi. Rəngi-rufu saralmış, gözləri, elə bil, yol çəkirdi. Anası Mələk oğlunun əlacsız və çarəsiz eşq xəstəliyinə düçar olduğunu bilirdi. Ana ah çəkib iki kömbə çörəklə bir sini qatığı mizin üstünə qoydu, mizi də çəkib gətirdi çarpayının baş tərəfinə.

— Mən istəmirəm evdə tək qalmağı. İstəmirəm, istəmirəm…

Məmiş elə zarıdı ki, anasının ürəyi sıxıldı.

— Sən bir az döz, mənim ağıllı oğlum. Biz tez qayıdıb gəllik.

—Ana, ay ana… — Məmiş dilinin ucuna gələn sözü udqunub demədi, susdu, ancaq anasına nəsə qəribə bir həsrətlə baxdı.

Anası daha ləngimədi, nəmlənmiş gözlərini əlinin dalı ilə silib evdən çıxdı. Məşdəli həyətdə gözləyirdi. O da pərişan idi. Evin pəncərəsindən içəri məlul-məlul baxıb hər ikisi səssiz-səmirsiz Ala dağın başına yol aldı.

Mələk ilə Məşdəli yan-yana uçurdular. Çox ucadan uçurdular. Məşdəli fikirli idi. Mələk arvad ürəyində niyyət eləyib belə düşünürdü. «Allahım, mən ki, indi sənə bu göyün üzündə yerdəkindən bu qədər yaxınam, mənim diləyimi yerinə yetir.  Qoyma mənim balam bu xəstəliyin əlində naçar qalsın. Qoyma ki, bu kişi uşağın xəstəliyini ürəyinə salıb dərd eləsin. Sənə pənah gətirdim, ey bir olan Allah…»

…Hər ikisinin bir gözü evlərində, həyatlərində idi. Qəflətən Məşdəlinin gözünə həyətdə bir kölgə dəydi. Qaranlıq düşürdü deyin, yaxşı-yaxşı seçib ayırammadı. Məşdəli uçuşunun səmtini dəyişdi, bir az aşağı endi və qarnı üstünə çöndü. Bu dəfə daha diqqətlə baxıb Məşdəli bu kölgəni tanıdı. Ürəyi sıxılmadımı, sıxıldı.

— Nədi, nə gördüyündü?

— Heç, elə bil… gözümə dəydi, nəydi, biləmmədim. Elə bil, Həlimə idi, həyətə girmişdi.

— Sən Allah, boşla görək. O hələ hardan gəlib beyninə düşdü sənin?

Bu zaman Kərim əmi onların yanından sağa dönürdü, bir anlıq qanadlarını havada açıb saxladı, göydəcə tərpənməz qaldı.

— Siz də gördüüz? — Nəfəsi təntiyə-təntiyə soruşdu. — Həlimə sizin həyətə girdi.

Daha bundan sonra bu ikisinin həyətə girən adamın Həlimə olmasına şəkk-şübhəsi qalmadı.

Bir anın içində əyrisinə çevrə vurub aşağı enmək, evə qayıtmaq istədilər. Amma hardansa uçub gələn Şahsənəm qarıyla düz burun-buruna gəldilər. Qarı arvadın gözləri axıb gedir, dünya-aləmi fərq eləmirdi.

— Ölürəm, ay Məşdəli, mənə imdad…

Şahsənəm qarı ancaq bu sözləri heysiz dilinə gətirə bildi. Sonra da qanadları sustaldı, heysiz qaldı və arvad daş kimi torpağa düşməyə başladı.

Bunlar öz dərdlərini unutdular. Bir tərəfdən Məşdəli, bir tərəfdən də Mələk şahin kimi şığıyıb özlərini Şahsənəm qarının yanına yetirdilər. Onunla bir yerdə uça-uça aşağı alçalmağa başladılar. Məşdəli sağ çiynini, Mələk isə sol çiynini arvadın qarnına dayaq kimi dayadı. Şahsənəmin

qanadları eləcənə heysiz bir yük olub çiyinlərindən sallanırdı. Onların ətrafında biçarə Kərim kişi gah bu, gah o tərəfdən uçur və bilmirdi ki, nə eləsin. Beləcə, bunlar bir-birinə kömək edə-edə, yavaş-yavaş aşağı enə bildilər.

Torpağa bu dəfə bərk dəydilər. Şahsənəmgilin həyət qapısının ağzında Məşdəli və Mələk hərəsi bunun bir qolundan yapışıb yıxılmağa qoymadı. Bu ikisi və arxadan Kərim kişi qarının əndamlı vücudunu az qala sürütdəyə-sürütdəyə birtəhər gətirib həyətə saldılar. Sonra da arvadı həyətin ortasındakı qollu-budaqlı Qarağacın altındakı uzun skamyaya yanpörtü oturtdular. Kərim kişi quyunun ağzındakı vedrədən bir parç su gətirdi.

Şahsənəm qarı özünə gəlib gözlərini açanacan və dərindən «ah» çəkənəcən bir az zaman keçdi. Kərim kişi, nəhayət, Məşdəliyə dedi:

— Siz narahatsız, bilirəm. Çıxın gedin, mən burdayam. İndi, elə bil, nəfəsi aramla gedib gəlir. Bir qorxusu yoxdu daha.

Məşdəli və Mələk həyət qapısından çıxa-çıxda Şahsənəm qarının zəif səsi onları haqladı:

— Sonra mənə deyərsiz bu qancığın qızı nəyə gəlmişdi…

Onlar evdə nə Məmişi, nə də Həliməni tapdılar. Həyətdə və tövlədə də həmçinin. İkisi də ilim-ilim itmişdi.

— Mən bilirdim, bu, belə qutaracaq. Uşağı başdan eləyib aparacaq bu hayasız. Mən bilirdim…

— Gərək elə əvvəldən bunu yaxına buraxmayaydıq.

— Doğma qızımız kimi saxladıq, hər arzusunu, istəyini əlüstü yerinə gətirdik… eh…

— İndi bu işin sonrası necə olacaq? Gədə də bunun xəstəsi…

— Gədə də bunun xəstəsi… — Məşdəli arvadının sözlərini ağzını əyərək təkrar elədi. —Qız bundan əl çəkən deyil. Təzədən qayıdıb gəlibsə, bu da bununla gedibsə… Ax, Həlimə, Həlimə…

Həlimə kəndə müxbir işlədiyi qəzet tərəfindən göndərilmişdi. Məqalə yazası idi. Məktəbdən yazacaqdı. Məktəbin qarovulçusu Məşdəli Dadaşın

evini seçib onlarda qalmağı da bu üzdən idi. Məlumatları bir də iç tərəfdən yoxlamaq istəyirdi.

Məşdəli Dadaş və arvadı Mələk onu öz evlərində, həqiqətən, doğma adamları kimi qəbul etdilər. Həlimə cavan, ətli-canlı, gənc və qüvvətli əndamından gözəgörünməz və istiqaməti bilinməz şüalar saçan, sağlarını üz-gözündən güclə yığıb yığışdıran, işindən danışan zaman xam baxan gözlərinin hər birindən az qala yüz tərəfə qığılcımlar sıçrayan bəstəboy bir qız idi. Nə gözəl idi, nə də çirkin. Belələri də olur. Ancaq onda bir çoxlarında olmayan qəribə bir cazibə var idi. Məşdəli deyirdi ki, bu qız traktoru da baxışları ilə arxasınca süründürə bilər. Bir məqaləni yazmaq üçün kənddə görüşmədiyi adam qalmadı. Məktəbdə girmədiyi dəlmə-deşik qalmadı. O qədər gic-gic sual verdi ki (bəlkə də, özünü gicliyə qoyurdu), Şahsənəm qarı axırda təngə gəlib bunu həyətindən qovdu. Ondan soruşmuşdu ki, sən öz ilk məhəbbətini necə xatırlayırsan? Təəccüblü deyildi ki, o, kəndin sirri barədə duyuq düşdü və camaatın dalınca Ala dağa çıxdı. Uçuşu görəndən sonra az qaldı özünü adamların dalıyca qayadan atsın aşağı, Məşdəli tutub qoymadı, yoxsa qız un çuvalı kimi gedib düz dərənin dibinə nə zaman çatıb yerə dəyəcəkdi, bunu bir Allah bilirdi. Qərəz, Şahsənəm qarı demişkən, Aladağ kəndi Aladağ kəndi olalı belə zülüm görməmişdi. Bu, bir Allah bəlası idi. Kimdənsə eşitmişdi ki, buraları tərk edib gedəndən sonra o, bütün gördüklərini unudacaq. Bunu biləndən sonra başlamışdı cürbəcür üsullara əl atmağa. İndi də yazı yazırdı, mikrofona danışırdı. Hardansa fotoapparat tapıb şəkillər çəkirdi. Kənddən də çıxıb getmirdi ki, getmirdi.

— Bilirsən, Məşdəli Dadaş, mən bu uçuş barəsində yazmalıyam. Elə bilirsən, bu, mənə lazımdı? — Həlimənin xam baxan gözləri bic-bic qıyıldı. — Yox, xeyir, bir daha xeyir. Bu, kəndə lazımdı. Axı siz Azərbaycanı bütün dünyada məşhur edə bilərsiz. Başa düşmürsüz?.. Bütün dünya tökülüşüb gələr bura. Heç bilirsən, nələr olar?! Kəndə yollar çəkilər, evlər, otellər, teatrlar tikilər. Yeni iş yerləri açılar. Məncə, aeroport da tikərlər. Azərbaycanın mənəvi paytaxtı olar bura. «Aladağ kəndi və səmanın sirləri…»

Sanki yazacağı məqalənin adını da artıq müəyyənləşdirmişdi. Son sözləri ağzını əyib xüsusi sirli bir pafosla dedi.

Məşdəli Dadaş fikirli-fikirli başını buladı. Mələk arvad şirin səslə:

— Gəl, a bala, çayın soyudu. Çayını iç, çörəyini ye… — deyə onu süfrəyə çağırdı.

Bir adam Həlimə vəcdə gəlib danışdıqca, əli ağzında onun dediklərinə ciddən qulaq kəsilirdisə, o da Məmiş idi.

Məktəbin son sinfində oxuyan Məmiş bir könüldən min könülə vurul-muşdu özündən yaşca xeyli böyük olan Həliməyə. Məşdəli Dadaş bundan duyuq düşmüşdü. Gecə yerinə girib yataqda o tərəf bu tərəfə qurcuxandan sonra arvadına pıçıltıyla:

— Bu gədənin yaxşı sevgilisi vardı. Şahsənəmin nəvəsi… adı nəydi? — demişdi.

— Gülsüm…

— Hə, Gülsüm. Bu gədə, mən gördüyümü görmüşdüm, Gülsümə vurğundu. Tam əmin-amanlıqla deyirəm ha… Həlimə necə elədisə, soxdu güclə özünü bunun qəlbinə… Güclə. Bizimki də əfəlin biri… İndi baxıb görürsən. Bir-birindən göz çəkə bilmirlər. Bu nə yaşda, o nə yaşda…

O biri otağın açıq qapısı arxasında hərəsi bir divara söykənmiş qonşu çarpayılar arasında şirin-şirin pıçıldaşmalar gedirdi. Yaş söhbəti gələndə Məmiş də, Həlimə də pıqqıldaşdılar.

Bir gün sonra Məşdəli Dadaş dişini dişinə tutub qızarmış halda qızın əşyalarını çantasına yığdırıb aldı əlinə və qabağına salıb gətirdi avtobus stansiyasına. Özü biletini aldı, avtobusa mindirdi və şəhərə yola saldı. Nə o, nə də bu yol boyu bir kəlmə kəsib danışmadılar.

…Məmiş evlərinə ancaq bir həftədən sonra axşamüstü qayıdıb gəldi. Sağalmışdı. Rəngi-rufu açılmışdı.

Keçib şəstlə stolun başında atası ilə üzbəüz oturdu. Məşdəli başını qovzayıb zənlə bunun üzünə baxdı, amma bir söz demədi. Anası yemək hazırlayırdı. Ortalığa sükut çökdü.

İki gün əvvəl Həlimənin qəzetdə çıxan məqaləsi kənddə əldən ələ gəzmişdi. Adamlar məqaləni dördgözlə oxudular. Həlimənin məqaləsinin

adı belə idi: «Aladağ kəndinin məktəbinin bu günü və sabahı». Məqalədə ancaq məktəbdən, onun təmirindən, məktəbin qarovulçusu Məşdəli Dadaşın nəinki müəllimlər, bütün şagirdlər tərəfindən necə sevilməsindən, olmazın hörmətindən, kənd uşaqlarının dərslik ehtiyacından, kompüter çatışmazlığından və bir də yuxarı sinif şagirdlərindən iki nəfərin — Məmişlə Gülsümün gələcək arzularından söhbət gedirdi. Məqalədə kənd camaatının göyə uçuşu barədə bir kəlmə belə yox idi. Uzaqdan uzağa buna eyham belə vurulmamışdı. Məşdəli Dadaş mat-məəttəl qalmışdı. Çünki ürəyinə dammışdı ki, bu qız onların uçuşu barədə bildiyini və gördüyünü kənddən çıxıb getsə də yadından çıxarmayıb. Məmişi sonradan qayıdıb yanınca aparması nahaqdan deyildi. Ona görə də Məmişin indi yemək zamanı birdən-birə, elə bil ki, öz-özünə dediyi sözlər Məşdəli kişiyə heç də yad gəlmədi:

– Hər şey onun yadında qalmışdı. Hər kəsin uçuşunu yada salıb danışıb gülürdü. Şəkillər də yaxşı çıxmışdı. Mən ona heç nə demədim. Özü. Şəkilləri də cırdı, atdı, sonra…

Məşdəli Dadaş ağır-ağır ayağa qalxıb otaqdan həyətə çıxdı.

*2016-cı il*

# Mağara

Gecə yağmağa başlayan yağış səhərə yaxın qəfildən kəsdi. O, yağışı bəhanə edib işə getmək istəmirdi, amma indi bu mümkün olmayacaqdı.

– Sən necə adamsan?! Bu gecə demədinmi, sabah bütün günü bir yerdə olacağıq?! Getmə işə. – Ürkək-ürkək ona baxan arvadı gözlərilə, az qala, yalvardı.

O bilmədi, sözünə sahib çıxmamaqda onu günahlandıran arvadına nə cavab versin.

"Alınmır ki, alınmır. Heç nə barədə düşünməmək, heç nəyin dərdinə qalmamaq, qayğıdan, narahatlıqdan kənar, bircə gün də olsun, yaşamaq – alınmır".

Bu düşüncələrlə indi o öz iş otağına girmək üçün dəhlizi sağa dönəcək, əlini cibinə salıb otağın açarını çıxaracaqdı.

Qapını açıb içəri girdi. Otaqdakı dəyişiklik o dəqiqə diqqətini çəkdi. Otağın küçəyə açılan yeganə pəncərəsindən əvvəllər onun heç vaxt görmədiyi bir xalça asılmışdı və bu xalça pəncərənin üzünü tamamən tutmuşdu. Belə ki, pəncərə heç görünmürdü. Xalçanın canlı naxışları, rəsmləri var idi. Xalçada təsvir edilən yer bir bazar küçəsi idi, bu bazar

küçəsində sağda, solda balaca dükanlarda canlı görünən adamlar ciddi-cəhdlə alış-verişlərini edirdilər.

Gözlərini xalçadakı rəsmdən ayıra bilmirdi. Kim gətirib bu xalçanı asıb bura? Bu haranın küçəsidi? Burada indi hansı zəmanə, hansı əyyamdır? Bu sualların bir cavabı yox idi.

Xalçada təsvir edilən bazara şübhə və həsrətlə baxıb keçdi, xalça ilə üzbəüz qupquru yerdən dizlərini qucaqlayıb oturdu. Otağa hardansa soyuq dolurdu. Üşüyən kimi oldu.

İlk əvvəl nənəsi yadına düşdü. Nənəsini xatırlayandan sonra üzünü görmədiyi babası və babası ilə bağlı o qəribə əhvalat. Bu dükanların birində onun babası alver edə bilərdi. Bu dükanların biri papaqçı dükanı ola bilərdi. Babasının günlərin bir günü müəmmalı şəkildə yox olması nənəsinin uşaq vaxtı ona danışdığı sehirli bir nağıl kimi yadından çıxmamışdı.

Xalçadakı bu bazarın canında nə sirr vardısa, elə bil, ona gizlin işarələr göndərirdi. Onu, bir növ, ahənrubə kimi öz içinə çəkirdi. Heyiflər olsun ki, onun yaşadığı şəhərdə artıq belə bazarlar yoxdur. Nə vaxtsa olmuşdu, indi yoxdur. Bu şəhər də bir zamanlar başqa şəhər idi, yavaş-yavaş elə dəyişdi ki, heç kim duyuq düşmədi. Nənəsi o itib getmiş şəhərdən, babasından elə maraqlı əhvalatlar danışardı ki. Babasının papaq dükanı vardı. Özü tikib elə dükandaca özü satardı. Aşqabad elindən qaragül dərisi gələrdi məxsusi Hacı Rahimin adına. Orada quzunun dərisini anasının qarnındaca üzüb boğazından çıxarırlar. Əsl qaragül bu idi. Başqa dəriyə Hacı Rahim yaxın düşməzdi. Nəinki şəhərin say-seçmə adamları, dörd ətrafdan imkanlı adamlar papağı ancaq Hacı Rahimə sifariş verərdilər.

...O artıq böyüyüb məktəbə getməyə başlamışdı. Günlərin bir günü qoca nənəsi düşündü ki, daha zamanı qalmayıb, vaxt yetişibdi və o, illərlə ürəyində saxladığı sirri, nəhayət ki, açıb nəvəsinə deməlidi. Anlarmı, anlamazmı – onu Allah bilər. Yadında saxlasa bəsidi, indi anlamasa da, sonra anlar. Başqa çarə yox idi.

Və günlərin bir günü artıq bəlli bir qərara gələndən sonra dünyada hamıdan çox sevdiyi mehriban, əziz, üzü-gözü büzüşmüş nənəsi aynabənddə oturub titrək barmaqlarıyla tütün çubuğuna ot basıb doldurdu və kibriti çəkdi. Bir an duruxub qaldı, gözünü oddan ayıra bilmədi. Odun işığına baxdıqca baxdı. Nəhayət, çubuğundakı otu yandırıb tüstüsünü arzu-kamla ciyərlərinə çəkdi.

– Dinlə məni, quzu bala. Dediklərimi unutmayasan. – Nənəsi onun keçəl başını dizinin üstünə sıxıb tumarlamağa başladı. O başa düşdü ki, arvad uzun bir hekayət danışmağa hazırlaşır. Ləzzətdən gözləri süzülüb getdi.

...Babası Hacı Rahimin dayısı Xaşal Qurbanı sel aparan il idi. Uzun-uzun leysan yağışlar yağırdı. Hacı Rahim o gecə eyni qaydayla yağmağa başlayan yağışa yenə təəccüb elədi. Təəccübünə səbəb o idi ki, baxanda bilinmirdi, pəncərə arxasından gördüyü bu yağış sütunları göydən yerə enir, yoxsa yerdən göyə qalxır.

– Yenə başladı yağmağa. Sabahacan bu leysan kəsməz. Sabah bütün gün də yağsaydı... – Hacı Rahim əlini əlinə sürtdü, gözlərini qıyaraq pəncərədən küçəyə bir daha diqqət etdi.

Arvadı Sayad yorğan-döşəyi rahlayırdı, tənbəl-tənbəl soruşdu:

– Yağsa, neyləyəsiydin ki?!

– Heç bir şey. Bazara çıxmazdım. İstərdinsə, sənlə bir yerdə mağaraya gedərdik. Nə dersən?

– Səninki elə gəzmək olsun, harasa getmək olsun. – Sayad nazla cavab verdi. – Hüsigilə də xəbər verəkmi? – Hüsi qapıbir qonşuları idi.

– İstərsən, deyərik, istəməzsən, demərik. – Hacı Rahim bu Hüsi söhbətini uzatmadı. Bəlli oldu ki, mağaraya Sayadla tək getmək istəyir.

Səhərisi gün yağış eynən o şəkildə yağmağına davam elədi. Hacı Rahim ki, arvadına söz vermişdi, bazara çıxmasın və onu mağaraya aparsın, sözünün üstündə durdu. Hazırlıqlarını görüb əllərində xurcun evdən çıxdılar. Həyətdəki faytona qaşqa atı qoşub düzəldilər yola. Yağış hələ də yağmağındaydı.

Mağara dedikləri şəhərin kənarındakı Alaca dağın döşündə bir məşhur görüş yeri idi. Vaxtaşırı imkanlı adamlar, sevgililər, dost-yoldaşlar yığışıb bura istirahət adıyla gəlir, xüsusən, yayın isti günlərində içi sərinliklə dolu mağaranın dərinliklərinə doğru getdikcə gedir, oralarda bir balaca gölə bənzər yer vardı, ətrafında yer tapıb süfrə açır, səsli-küylü məclis qurur, qaranlıqda şamları yandırır, kefə baxırdılar. Mağaranın divarları bu yerdə xeyli hamar idi, bu hamar divarlara şam işığından uzun-uzun kölgələr düşüb oynayırdı.

Əsas məsələ mağaranın gün ərzində birinci kimin tərəfindən tutulması idi. Buranın yazılmamış qanunu var idi. O da bu idi ki, mağara birinci gələn cütlüyün ixtiyarında olardı. Birinci gələn cütlük qalib ədasıyla mağaranın ağzına bir bardaq su qoyardı. Yəni, sonra gələn götürüb bu sudan içdikcə içə bilər, amma mağaraya girə bilməz. Geri dönməlidi. Mağaranın bu günlük sahibi artıq var. Bu bir bardaq suyun qanunu hələ bir dəfə də pozulmamışdı. Bardağı aşırıb üstündən keçən olmamışdı.

Fayton dağ ətəyinə çatar-çatmaz gənc Sayadın sinəsi başladı gup-gup vurmağa. Ürəyinə qara-qura fikirlər girdi ki, bu gün nəsə baş verəcəkdir, çox nahaq eləyib onlar bu gün bura gəldilər. Hacı Rahim isə faytonçunun yerində xeyli diqqətli oturmuş və fikri-zikri, elə bil, ancaq qaşqa atın yüyənində idi. Sayad daha dözmədi, arxa oturacaqdan irəli əyilib əllərilə Hacı Rahimi qucaqladı, bir istədi qışqırsın, gəl qayıdaq evimizə, istəmirəm, bu gün mağaraya girməyək. Nə illah elədi, qışqıra bilmədi, ağzından zorla çıxan titrək səsini də, o səsə bürünmüş sözləri də yağan yağış alıb islada-islada uzaqlara, deyəsən, yuxarı harasa apardı.

Su bardağını mağaranın ağzına qoydular. Sayad özü ilə gətirdiyi şalların birini, al qırmızı olanını Hacı Rahimin çiyninə saldı, o biri yaşıl şalı isə öz çiyninə atdı. Onlar həm özləri bir-birinə qısıldılar və həm də mağaranın içərisinə doğru addımları bir-birinə dolaşa-dolaşa yol getməyə başladılar.

...Nənəsi söhbətin bu yerinə çatanda nəfəsini dərdi. Sönmüş çubuğunu təzədən yandırdı. Yenə kibritin oduna sulanmış gözlərini qırpmadan baxdı, baxdı, sonra yanıqlı bir ah çəkdi.

...Sayad mağaradan tək-tənha, tir-tir titrəyərək çıxdı. Özündə-sözündə deyildi. Hacı Rahimə nə oldu, nə olmadı, o mağarada nə baş verdi, nə baş vermədi, bu kişi hara yox oldu – Sayad sonralar onu sorğu-suala tutanlara hətta düz-əməlli bir cavab tapıb verə bilmədi. Şübhələnməyənlər "Allah bilən məsləhətdi" söylədilər, şübhələnənlər fikir içində "lənət şeytana" deyib barmaqlarını dişlədilər. Qərəz, o boyda kişi bir parça əppək olub çəkildi qeybə, yox oldu getdi.

– Biz sağa döndük, – nənəsi ilk dəfə idi, bunları danışırdı deyin, sözünə aramla davam elədi. – Balaca, gözdən uzaq bir cığır vardı, əsas yoldan çıxıb bu cığıra düşdük. Hacı bu cığırı, mən elə bilirəm, tanıyırdı. İnamla əlimdən tutub məni bir balaca meydançaya gətirib çıxartdı. Meydançanın bu tərəfində biz durmuşduq, o biri tərəfində bazar var idi. Adamlar hay-küylə alış-veriş edirdilər. Hacı bu mənzərədən duruxmuşdu. Bir kəlmə söz demədən, ruhlar kimi məlul-məlul son dəfə mənə baxdı və əlimi buraxıb səndirləyə-səndirləyə bazardakı adamlara tərəf getdi. Çiynindəki qırmızı şalını ki, görürdüm, heç düşünmədim ki, mən onu itirə bilərəm. Amma o qəflətən bazardakı adamlara qarışıb yox oldu. Adamlar, elə bil, onu uddular. Mən qırmızı şalı bir daha görmədim. Qışqırmaq istədim, səsim çıxmadı. Dalınca qaçmaq istədim, ayaqlarım tutuldu. Bazar da, adamlar da başladılar yavaş-yavaş gözümün qabağında əriyib yox olmağa. Qorxumdan yerimdə donub qalmışdım. Bir onu bildim ki, hövlnak geri döndüm, getdiyim yolla gəlib çıxdım mağaranın ağzına. Su bardağının yanında yerə çöküb bu sudan içdikcə içdim, sonra huşumu itirdim. Gözümü açanda artıq evdə idim. Mağaraya bizdən sonra gələnlər məni alıb evimizə gətirmişdilər. Evdə gözümü açar-açmaz "Hacı, Hacı" çağıra-çağıra ora-bura çox baxdım, düşündüm ki, yəqin, mənimlə zarafat edir. Hacı heç yerdə yox idi. Bir daha mən onu görmədim.

Bu hadisədən çox-çox illər sonra Təbrizdən bir nəfər qonaq gəlmişdi, başında qaragül dərisindən papaq vardı. Sayad arvad baxan kimi dedi:

– Onun işidi, o tikib. – Dedi və rahatca köksünü ötürdü.

...O, qətiyyətlə ayağa qalxdı və xalçanı pəncərənin üstündən dartıb yerə saldı. Pəncərədən o tərəfə açılan mənzərə eynən xalçadakı rəsmin artıq

canlı təkrarı idi, başqa şey deyildi. Bazar küçəsinin səsi-küyü otağı doldurmağa başladı. Bütün bunları o sanki gözləyirdi. Rahat-rahat köksünü ötürdü. Qətiyyən təəccüb və tərəddüd etmədən ayağını atıb birinci mərtəbədəki iş otağının açıq pəncərəsindən o tərəfə keçdi və birbaşa bazarın içinə düşdü.

Ayağı yerə dəyən kimi canının hər məsaməsinə isti qan yayılmağa başladı. Vücuduyla hiss elədi ki, bura qədər doğma yer dünyanın heç hansı guşəsində ola bilməz. Birdən duruxdu və yadına saldı ki, vaxtı azdı. Bazar onu ahənrüba kimi çəkib içinə salmadan evə tələsməlidi. Çünki arvadı Sayad siyahı verib, bazardan alacağı əti, düyünü, mer-meyvəni evə çatdırmaq lazımdı, axşama qonağı var.

*2015-ci il*

# Göyəzən dağının ilahəsi

Çox-çox qədim zamanlarda kəndin yuxarı tərəfindən külüng kimi yüksələn Göyəzən dağında bir İlahə yaşayırmış. Bu İlahə çox gözəlmiş. O, hərdən gecə vaxtı lüt-üryan bir halətdə dağın başından kəndə enir, ay işığı altında (yaxud, qaranlıqda) vücudu par-par yana-yana kəndin əyri-üyrü yollarıyla o tərəf-bu tərəfə gəzişirdi. Elə bil, kimisə axtarırdı. Gəzərkən İlahə ayaqlarını torpağa elə ahəstə endirirdi ki, ayaq səsləri eşidilmirdi. Yastı-yapalaq komalarında yerlərinə girib yuxuya getməyə çalışan kənd əhlinin qulağında isə bu zaman ağır-ağır və zəhmli şəkildə nəydisə "gup-gup" guppuldayırdı. Adamlar səksəkə içində yerlərində ora-bura qurcuxurdular.

Kənd adamları içində ayıq-sayıqları vardı, onlar qəhvəxanada mırt vura-vura İlahənin gəlişinə xüsusi məna verirdilər. Bu adamlar ata-babalarından eşitmişdilər ki, İlahənin gecə vaxtı lüt-üryan kəndi gəzib dolaşmasında bir hikmət var. İlahə, guya öz qurbanını axtarır və onu öz kamına çəkir. Bu qurbanın özü yox, ruhu hava-su kimi İlahəyə lazımmış. Ruha "layla" oxumalıydı, oxumasaydı, saralıb solacaq, gözəlliyini

itirəcəkmiş. Kənd adamları belə deyirdi: İlahə özü ki, övlad üzünə həsrət idi, bu səbəbdən guya kənddəki körpəli qadınlara qibtə edirmiş. Qurbanı tapandan və ruhu bu qurbanın canından çəkib çıxarandan sonra İlahə Göyəzən dağının ən hündür yerinə qalxacaq – orada yaşadığı mağaranın başından bir qaya parçası mağaranın ağzına quş qanadı kimi çətir çəkib durmuşdu – o qayaya bu zavallı ruhu zincirləyəcək, sonra da hökmən laylasını oxuyacaqmış. Niyə belə edirmiş?! Sirri-əzəm! Zavallı ruhlar sonra hara yox olurmuş?! Sirri-Xuda!

Kəndin kənarında öz kasıb, yastı-yapalaq daxmasında bir tək-tənha kişi yaşayırdı. Adı Cındırqulu idi, özü də olardı bu kişinin əlli yaşı. Həyatı adına oxşayırdı: bir həsir idi, bir Məmmədnəsir. Uşaq yaşlarından tək və tənha, sakitdən sakit, fağırdan fağır birisiydi. Onun-bunun qoyun-quzusunu otarıb dolanırdı. Kiminəsə meşədən odun yığıb gətirirdi. Kimininsə ilnən su üzü görməyən töyləsini təmizləyirdi. Nə verirdilər, yeyirdi, nə bağışlayırdılar, geyirdi və hər yaşadığı gün üçün gecə yerinə girəndə Allahına sidq-ürəkdən şükür duası edirdi. Cındırqulunun özü kimi mülayim, sakit bir dostu vardı. Qonşu idilər, bir yerdə böyümüşdülər. Cındırqulu ilə İmamyar hələ uşaqkən əhd eləyib ömürlük qardaşlıq andı içmişdilər. Göyəzən dağının ətəyində hamıdan gizlinə çəkilib biləklərini bıçaqla çərtərək bir-birinin qanını sümürdükcə sümürmüşdülər. Qanın dadı hər ikisinə acı gəlmişdi.

Tale belə gətirdi. Kənddə Nazpəri adlı bir qız daha vardı. Onu cavan yaşlarında ikisi də eyni vaxtda sevdi. Nazpərinin qızlar bulağından su içən vaxtı idi. Hər dəfə çiynində səhəng bulaqdan dönəndə bu qan qardaşlarını bulaq yolunda bir yerdə görüb qıpqırmızı qızarırdı. Və qardaşlar amansız eşq alovunun nə zaman könüllərinə girməsindən xəbər belə tutmamışdılar. Əvvəlcə qızın beləcənə utanıb qızarmasına tamam başqa rəng verib buna bir zarafat kimi baxdılar. Bu gülüb demişdi, "sənə baxır", o gülüb demişdi, "yox, sənə baxır…"

Bir müddət sonra nə oldu, nə olmadısa, Nazpəri başladı onlardan xüsusi bir əda ilə yaşmanmağa və bu zaman həm Cındırqulu, həm də İmamyar yavaş-yavaş Nazpəri ilə bağlı zarafatlarından əl çəkib könül

verdilər kədərə – deyə-gülə etdikləri söhbətlər əvəzinə qaraqabaq halda oturub qəm-qüssəyə batdılar, bir-birinin üzünə maddım-maddım dirənib öz məzlum hallarına ürəkləri sıxıldı və "ah" dalınca "ah" çəkməyə başladılar. Dərddən gözləri qan ağladı. Və nəhayət, həsrət dolu gecələrin birində qardaşlar bir-birinə söz verdilər ki, onlardan biri hökmən bu Nazpərini el adəti almalıdı. Qız Nazpəri onlardan hansını seçib sevsə, o biri ona qardaş olacaq, eynən bunlar bir-birinə qardaş olan kimi.

Vaxt vaxtı qovdu, zaman yetişdi və günlərin bir günü Cındırqulu ilə İmamyar könüllərini Nazpəriyə açmaq qərarına gəldilər. Qardaşları gördüyündə rəng verib rəng alan Nazpəri onların heç birini bəyənmədi. Cındırquluya belə bir xəbər göndərdi. "Əvvəlcə adını dəyişsin, sonra mənim kimi bir qızın xəyalını eləsin." İmamyara isə belə bir xəbər gəldi. "Getsin tayını tapsın, necə ki, tapıb Cındırqulunu."

Nazpəri kəndin say-seçmə igidinə ərə gedəndən sonra qardaşlar gurultulu toy gecəsi ikisi də eyni vaxtda yasa batdı, bir-birinin üzünə baş qaldırıb baxa bilmədilər. Nazpərinin həsrəti, az qalmışdı, onları bir-birinə tamamən yad, hətta düşmən eləsin. Amma olmamışdı, onlar elə toyun səhəri günü dərdü-qəmi ürəklərindən silib atmağa özlərində güc tapmışdılar, qanları yenə bir-birinə qaynamış – Cındırqulunun canında gəzən İmamyarın qanı, İmamyarın canında gəzən Cındırqulunun qanı qardaşları biri-birinə tərəf ahənrüba kimi çəkmiş – onlar söz qoyub eyni vaxtda, eyni gündə, hətta eyni saatda, eyni dəqiqədə Nazpərini unutmuşdular və bundan sonra ikisinin də eyni açılmış, sidq-ürəklə bir-birinin üzünə baxıb gülümsəmiş, yenə bir-birinə can verməyə hazır olmuşdular. İmamyar uzun burnunu Cındırqulunun qoltuğuna soxub qoxlaya-qoxlaya həsrətlə demişdi:

– O qız bir qara yeliydi, üstümüzdən əsib keçdi. Elə billik, o adlı adam bu dünyada olmayıb. Nə deyirsən, qardaş?

Cındırqulunun ürəyindən tikən çıxmışdı, sən demə, o da bu sözləri İmamyardan həsrətlə gözləyirmiş:

– Nəinki olmayıb, heç indi də yoxdur, əziz qardaş.

Sonra qan qardaşları bir-birinə sarılıb o üz, bu üz doyunca opusmüşdülər.

…Haman gecə əzgin bir yorğunluq içində yorğan-döşəyə girən Cındırqulu Allahına həmişəki kimi şükür duası etməyə də heyi gəlmədi, gözləri ahəstə-ahəstə öz-özünə yumuldu və indi o, təzəcə yuxuya getmişdi. Qəfildən diksinməyilə yuxudan ayılmağı bir oldu. Gecənin bu qərib sakitliyində həyətdən qulağına "gup-gup" səslər gəlməyə başladı. Bəlkə də, ürəyinin səsi idi, çünki Cındırqulunun sinəsində ürəyi elə şiddətlə döyünməyə başladı ki, nəfəsi təngidi. Yorğanı ehtiyatla üstündən kənar eləyib yerindən qalxdı. Ayaqları titrəyə-titrəyə otaqdakı təkgöz pəncərəyə yanaşdı. Özü də bilmədi niyə, amma alnını gətirib pəncərənin soyuq şüşəsinə dayadı. Bütün bədəni tir-tir əsirdi.

Pəncərədən baxıb gördü ki, bu aysız, ulduzsuz gecədə onun balaca həyəti qatı zülmət, qapqara qaranlıq içindədi. Hətta qapının ağzındakı qollu-budaqlı yüz ilin qarağacını belə görmək mümkün deyil. Amma eyni zamanda ona elə gəldi ki, bütün ətraf işıqlı bir süd rənginə bürünüb. Hər yer dümağ işıqdı. Və birdən bu işığın (bəlkə də, qaranlığın) içində nə gördü, nə görmədisə, ürəyi az qala sinəsindən çıxıb yerə düşmədimi, düşdü. Ağlı yerindən oynamadımı, oynadı. Həyəcandan az qaldı huşunu itirsin.

Həyətdə Cındırqulunun gözünə görükən isə bir kölgə idi, başqa şey deyildi. Amma əsl qəribə olan oydu ki, kölgə lümbələnlüt kölgə idi. Bəlkə də, bu, bir xəyal idi. Yox, Cındırqulu hövlnak gözlərini ovuşdurdu, bu, xəyal deyildi, bu, VAR idi. Amma bu VAR olan belə bir zülmətdə və hətta belə bir işıq selində necə VAR ola bilərdi – o, bunu anlamırdı.

Cındırqulunun ürəyi qəflətən necə sıxıldı, Allah, necə sıxıldı. Xəyalı on illər əvvələ, bulaq başına getdi. Kimi yadına salsa, yaxşıdı – Nazpərini. Həyətdəki kölgə heç kimə yox, Nazpəriyə oxşamışdı. Nazpərini itirdiyi zaman da bu hala düşmüşdü. Onda da, indi də elə bilmişdi ki, həyatının sonu çatıb. Biixtiyar gözləri yaşla doldu, boğazına qəhər gəldi. Əlacsızlıq eynən o vaxtkı kimi bütün ruhunu bürüdü. Eyni zamanda Cındırqulu təəccüb edirdi. Başqa vaxt ondan soruşsaydılar ki, heç kölgə də lüt olarmı, o bu

suala, yəqin ki, ağzını büzərdi. İndi isə, budu, o gördüyünü görür, lüt bir kölgə onun həyətinə girib və zülmət qaranlığın işıq selində işıldayan gözlərini (kölgənin də gözləri olarmış, İlahi! Var idi, var idi…) onun pəncərəsinə, bəlkə də, elə onun gözlərinə dikib. Eynən gözləri Nazpərinin gözləri idi. Əgər beyninin bir qırağında əmin olmasaydı ki, kölgə İlahənin kölgəsidi, and içərdi ki, indi həyətdə duran bu lümbələnlüt qız Nazpəridi, başqa heç kim deyil.

Bir müddət Cındırqulu, ürəyi şiddət içində vura-vura (və eyni zamanda sıxıla-sıxıla) təkgöz pəncərənin önündə donmuş halətdə dayanmağına davam etdi. Beynindən qatmaqarışıq və sürətli fikirlər bir-birinin ayağını bastalaya-bastalaya keçib getdi. Nəhayət, o, Nazpərinin xəyalı ilə vidalaşdı, bu dəfə özünü qəti inandırdı ki, kölgə, şübhəsiz, Göyəzən dağının İlahəsinin kölgəsidi, gecə kəndə gəlib öz növbəti qurbanını axtarır, gəzib-gəzib evlərin birindən bu qurbanı tapacaq, alıb aparıb bədbəxtin ruhunu Göyəzən dağının başında batmanlıq zincirlərlə qayaya zincirləyəcək, başlayacaq bu ruha uşaq kimi layla oxumağa. O zavallı adam da bu dünyadakı həyatını artıq ruhsuz yaşayacaq. "Mənəmi növbə yetişdi?!" – Cındırqulu həzin-həzin düşündü.

Ruhsuz yaşamaq – Cındırqulu bunu artıq bilirdi – ölümdən betərdi. Çünki sən daha heç nədən qorxmursan. İnsan olan bəndə isə qorxmasa olmaz. Cindən, şeytandan, devdən, qurddan-quşdan, çaydan, seldən, ildırımdan, ölümdən, həyatdan, lap elə bu İlahənin özündən qorxmalıdır. Qonşusu, min illərin sadiq dostu, qan qardaşı İmamyarın ruhu dağın başındakı mağaranın ağzından ağ paltar kimi asılıb qalmadımı? İlahənin kölgəsi ilə görüşəndən sonra İmamyar ruhsuz yaşamırdımı?! O həlim, mehriban, səmimi, qəlbində Allah qorxusu gəzdirən İmamyar hara yox oldu? Yerinə gələn qorxunc və əzazil bu adam kim idi?! Hamıya saymazyana baxmağa, Cındırquluya isə az qala nifrət bəsləməyə qalxmadımı?! Nədi, nədi, Cındırqulu kəndin ortsındakı qəhvəxanada onun barəsində belə demişdi:

– Heç yaxşı iş olmadı. İmamyar belə deyildi. Bunu elə bil, canavar dişləyib. Hamıyla kəc gəlir. Xisləti dəyişib. Bu adamın gözəl ruhu hara uçub getdi?! Hayıf, hayıf…

Qəhvəxanaya ölü bir sükut çökdü. Birdən, elə bil, göy guruldadı, ildırım çaxdı. Bu, İmamyarın nərəsi idi.

– Sən… sən nə danışdığındı? Sən kimsən???

Demə, İmamyar bir az əvvəl içəri girib bir tərəfdə sakitcə-dinməzcə çəkilib oturubmuş və camaatın onun barəsində nə deyib demədiyinə qulaq verirmiş.

– Sənin nə işinə mənim ruhum nooldu, noolmadı… Başın bədəninə ağırlıqmı edir? – İmamyarın gözləri nifrətdən böyüdü, təhər-tövrü də, sözləri də təhdidlə dolu idi.

Cındırqulu möhkəmcə pərt oldu. O gözləmirdi ki, İmamyar onu camaatın yanında bu cür xınc edər.

İmamyar yerindən qalxıb uzun qollarını yelləyə-yelləyə yaxınlaşdı Cındırquluya, oturduğu yerdəcə bir əlilə onu necə boğazladısa, quş kimi qaldırdı havaya. Sonra o biri əlilə bunun üzündə elə bir şapalaq partlatdı ki, Cındırqulunun qulaqları cingildədi. Təpəsindən od çıxdı. Az qala huşunu itirdi. Amma yıxıldığı yerdən məzlum-məzlum qalxarkən cınqırını belə çıxarmadı. Şapalaq üzünə dəyəndə ancaq eləmişdi, gözlərini İmamyarın gözlərindən yana qaçırmışdı. Çünki İmamyarın bir anlıq alışıb yanan gözlərinin dərinliyində "Mən nə edirəm? Ay aman… Mən niyə edirəm?" suallarını oxumuşdu.

Hamı şaşırıb qaldı. Qəhvəxananın qabağından keçən uşaqlar, gəlinlər, qızlar səs-küyü eşidib dayandılar. Nə baş verdiyini maraq etdilər. Hətta Cındırquluya bir an elə gəldi ki, onların arasında Nazpəri də var və qızın kinayəli gözləri par-par parıldayırdı.

…O zaman gecə yarısı alnını pəncərənin soyuq şüşəsinə dirəmiş Cındırqulunun qəlbinə qorxu yavaş-yavaş gəldi, amma qəflətən yoxa çıxdı. Keçirdiyi sarsıntını birdən-birə sakit və rahat bir soyuqqanlılıq əvəz elədi. "Mən də İmamyarın gününə düşdüm, mənə də növbə çatdı. İndi mənim də ruhum bədənimdən çıxacaq."

Həyətdə Kölgə təkidlə işarə edib onu yanına çağırırdı. Cındırqulu yuxudaymış kimi gözləri yumulu bir halətdə evdən eşiyə çıxdı.

– Mənimi çağırdın? – Ağzını açıb danışmaq istəyirdi ki, Kölgə incə, zərif bir səslə ondan soruşdu:

– Cındırqulu, sənin bu həyatda ən böyük arzun nədir?

Bu səs Cındırqulunun qəlbinə bir məlhəm kimi yayıldı. Ruhunu oxşadı. Səs incə-incə olub ruhunun ən dərin yerlərinə qədər gedib çıxdı. Həyətdəki səs bitdi, Cındırqulunun içindəki səs isə bitmədi. Uşaqlıqda anası ona belə bir ecazkar və mülayim səslə layla oxuyardı:

"Oğlum, məzlum balam, bəsdi, daha ağlama. Nə istirsən sən? Yat, nəhayət, yat, yat, şirin yuxuya bat, bat…"

Cındırqulu mat-məəttəl qalıb gözlərini Kölgədən çəkə bilmirdi. "Bu, olmasın, olmasın, mənim anamdımı?" – beynindən sürətlə belə bir fikir gəlib keçdi.

– Olmaya, tanımadın, Cındırqulu, sən məni?! İstərsən anan bil, istərsən sevgilin… Mənəm, Cındırqulu, mənəm, tanımadınmı?!– Kölgə öz zərif səsilə deyirdi. Səs zərif olmağına zərifdi – səsin zərifliyi anasının səsindəki zəriflik idi. Amma Kölgənin gözləri Nazpərinin gözləri kimi iki parlaq atəş olub yandıqca yanır, yandırdıqca yandırırdı.

Cındırqulu hiss elədi ki, artıq tamam taqətdən düşüb, içinə dolan səsi daha içində saxlaya bilmir, səs onu tərk eləməyə başlayıb. Bir də onu hiss elədi ki, ruhu da bu səsin arxasınca bədənini tərk edir. Ruhu canından çıxdıqca onun beyninə, vücuduna qəribə, əvvəllər bilmədiyi, tanımadığı bir istilik yayılırdı.

– Mənim ardımca nəbadə gəlməyəsən. – Kölgə deyirdi. – Mən indi sənin canından çıxan bu sənə gərəksiz ruhunu səndən alıram, onu aparıb gözdən uzaq bir yerdə gizlədəcəm. O sənə gərək deyil. Onun əvəzinə mən sənə güc və qətiyyət, cəsarət və qorxmazlıq verəcəm. Sən canındakı bu lazımsız ruhun ağırlığından azad olandan sonra özün də görəssən ki, nə qədər yüngülləşəssən, nə qədər qorxmaz, cəsur olassan. Hamıdan fərqlənəssən. Cəsur olmaq istərsən?

– İstərəm, elə istərəm… Nə bacarırsan et mənimlə. Qurtar məni bu ağırlıqdan. – Cındırqulu hiss elədi ki, taqəti yavaş-yavaş özünə qayıdır, vücudu sirli bir ahənglə dolur. Bədənində əzələlər tarıma çəkilir.

– Bir şərtim olacaq. Gəlmə ardımca… ardımca gəlmə.

Cındırqulu bir istədi, bu səsin və bu kölgənin arxasınca, o da çıxıb getsin, getsin uzaq uzaqlara, lap elə Göyəzən dağının başına, ömür-billah heç kimi o görməsin, heç kim də onu görməsin, amma səsin sehri, səsin amansız və qəddar, incəcik də olsa, dönməz qətiyyəti imkan vermədi. Cındırqulu həyətdə ikən ruhu, nəhayət, onun canını tərk edib suyusüzülmüş incik (günahkar) uşaqlar kimi düşdü İlahənin yanına, tutdu İlahənin əlindən və onlar bir yerdə həyətdən çıxıb gözdən itdilər. Çarəsiz Cındırqulu heç nə edə bilmədi.

Bir neçə gündən sonra Cındırqulu qəhvəxanada əyləşib fikirli-fikirli qəhvə içirdi və haman qorxunc hadisə də elə bu zaman baş verdi. İmamyar qəhvəxananın qapısını ayağı ilə təpikləyib içəri daxil oldu. Gəlib əda ilə onun iki addımlığında durdu, əllərini belinə qoyub tərs-tərs (bir az da zənlə) ona baxdı. Elə bil, duyuq düşmüşdü. Cındırqulunun əvvəlki Cındırqulu olmamasını, elə bil, duyurdu. Hiss edirdi ki, qan qardaşı dəyişib. Ürəyinə damdı ki, nə isə baş verəcək. "Ya mənə verən Allah, ya ona" – düşündü.

– Dur, itil burdan, cındırın biri cındır!!! Bilmirsən, bu yer mənimdi?! – İmamyar qorxunc bir səslə az qala bağırdı.

Ətrafdakılar nəfəs almağı belə unudub bu ikisinə həm qorxu, həm də təəccüb və maraqla tamaşa eləməyə başladılar. Cındırqulu başını aşağı dikib ağır-ağır qəhvəsini içirdi. Təhər-tövrünü pozmadan qəhvəsini içib qurtardı. Sonra yavaş-yavaş yerindən durdu. Qəddini dikəltdi. Dərindən nəfəs aldı, bəlkə də, köksünü ötürdü. Və birdən Cındırqulunu, elə bil, dəyişdilər. Qəflətən heç kimin gözləmədiyi halda Cındırqulu sıçrayıb bir ləhzədə İmamyarın başının üstünü aldı və bu başı bərk-bərk qoltuğunun altına sıxdı (əslində, qucaqladı) və hardansa əlində peyda olan qəməni bir göz qırpımında onun düz boğazına soxdu. Gözləri bərələ qalmış İmamyar cınqırını belə çıxarmağa fürsət tapmadı. Hamı ətrafdakılar dəhşət içində quruyub qaldılar.

– Gəbər, məlun. – Cındırqulu başı kəsilmiş qoyun kimi fınxıran İmamyarın artıq taqətsiz nəşini nifrətlə bir tərəfə itələdi.

Ətrafdakılar gözlərini Cındırquludan çəkə bilmirdi. Onun üzü tamamən tanınmaz olmuşdu. Üzünün orası-burası eybəcər şəkildə əyilmiş, qan daman gözləri hədəqəsindən çıxmış və dili-dodağı əsim-əsim əsirdi. Cındırqulu əlində qanlı qəmə qəhvəxanadan eşiyə çıxanda bədheybət bir heykələ bənzəyirdi. Qəlbində isə indiyənə qədər ona tanış olmayan bir gözəl və könüloxşayan naməlum hiss cövlan edirdi. Cındırquluya elə gəldi ki, hər tərəfində çiçək açmış əbədi bir bahar içində uyuyan bu dünya-aləm başdan-başa onun və Nazpərinindi.

Bir xeyli beləcə zaman keçdi. Qəhvəxanadakılar artıq eşiyə çıxmışdılar. Hamı heykəl kimi donub qalmış Cındırqulunu əhatəyə almışdı. Yaxından, uzaqdan qaçıb səsə gəlmiş qız-gəlinin, uşağın arasında onun gözləri yenə də dolanıb-axtarıb Nazpərini tapdı. Qız Nazpəri Cındırqulunun bu halətinə içini çəkib eləcə əli ağzında o da bir başqa heykələ çevrilib durmuşdu.

Bu zaman hamının gözü qarşısında hadisənin davamı baş verdi. Cındırqulu gözü Nazpərinin gözünə sataşandan sonra, elə bil, silkələnib ağır bir yuxudan ayıldı. Bir, əlində tutduğu və İmamyarın qanına bulaşmış qəməyə baxdı, bir də qanrılıb qəhvəxanada artıq səssiz və tərpənməz halda yıxılıb qalmış İmamyarın cəsədinə baxdı. Başını qaldırıb göyə də baxmaq istədi, gözlərinə Göyəzən dağı gəldi. Və sonra Cındırqulu yaralı aslan kimi inildəyib-böyürüb çox düşünmədən əlindəki qanlı qəməni var gücü ilə ürəyinin düz üstünə sapladı. Kim idisə "aman, Allah!" – dedi. Ətraf sükuta qərq oldu.

Cındırqulunun ki üzü-gözü kindən və nifrətdən bir az əvvəl əyilib eybəcər hala düşmüşdü, indi hamının gözü qabağındaca yavaş-yavaş düzəlməyə, hətta gözəlləşməyə başladı. Qəmə eləcənə ürəyinin başında, sonsuz təəccüb gözlərində Cındırqulu əllərilə havanı tuta-tuta, dalı-dalı gedib qəhvəxanada yıxılıb qalmış İmamyarın cəsədinin üstünə o da yıxıldı.

…Axşam asta-asta, ehtiyatla Göyəzən dağının dik ucundan addım-addım üzü aşağı, kəndə tərəf enirdi. Dağ başının ən uca yerində bir mağaranın ağzının üstünü quş qanadı kimi bir qaya almışdı. Bu qayanın iki qəlpəsinə Göyəzən dağının gözəllər gözəli İlahəsi iki ağappaq ruhu üzbəüz

asıb aralarında lüt-üryan durmuşdu və hərdən-birdən bu ruhları əzizləyirmiş kimi onlara əli ilə toxunub dodaqaltı nə isə mızıldanır, elə bil, layla oxuyurdu. Uzaqdan baxan olsaydı, kənd evlərinin həyətində qurulan zivələrdən asılmış ağ köynəklərə bənzədərdi bu ruhları. Meh vurub onların qollarını, bədənlərini hərdən bir-birinə toxundururdu.

*2014-cü il*

# Sağlıq

*Müəllimlərin xatirəsinə*

İndi də elə bu məclisin sonuna yaxın həmən ətürpədən əndiribadi fikir yenə gəlib ox kimi onun beyninə sancıldı. Bədənindən, elə bil, elektrik cərəyanı buraxdılar, bütün vücudu gizildədi və o, bir neçə anlığına ətrafındakılardan ayrıldı. Başqa bir məkanamı düşdü?! Bir onu bildi ki, diksinən kimi oldu. Yuxuda olur bu cür, elə bil, boşluğa yuvarlanırsan, uçunursan. İnanılası deyildi, amma onun özü heç istəməzdi ki, son zamanlar tez-tez beyninə girib onu beləcə həyəcanlandıran bu əndiribadi fikir həqiqətə çevrilsin. Belə ola bilməzdi, amma kim bilir?! Ortada xeyli kiçik gerçəklik faizi ola bilərdi. Və bu onu qorxudurdu.

Fikir isə bundan ibarət idi: o, heç zaman ölməyəcək.

…Məclis həmişə olduğu kimi hay-küylə keçirdi. Yeddi nəfər sadiq orta məktəb dostu — 8 «b» sinfinin köhnə şagirdləri artıq qırx il olardı ki, ayda bir dəfə, iki dəfə görüşüb beləcənə asudəlik içində yeyib-içir, boyat xatirələri isidib neçənci dəfə delikates kimi bir-birinə sırıyırdılar. Bu restorana da artıq alışmışdılar — xudmani, ayrıca otaq, televizor, demək olar ki, ev şəraiti… Nə vacib işləri olsaydı, bu məclislər həmişə tam heyətlə keçərdi, onları buraxmaq olmazdı.

— Yox, sənin yadından çıxıb. Keçən dəfə belə danışmırdın…

— Bilə-bilə axırını dəyişdirir. Sərf eləmir axı…

— Xeyir, vallah yox. Axırda axı mən özüm boynuma aldım ki, topu məktəbə mən gətirmişəm. Özüm dedim. Hamınızın yanında dedim. Dedim, demədim? Dedim.

— Özün demədin.

— Dedi, amma elə dedi ki… Arif əsl istintaq qurmuşdu…

— Arif müəllim otuzdurdu səni yerinə. Hələ «muçenik» elədi səni.

— Bəli, bəli, həzərat. Mənim yaxşı yadımdadı. Dedi ki, sən başqasının günahını boynuna alırsan. O cür ustalıqla sən ki dedin o sözləri.

— Mən neyniyə bilərdim? Boynuma aldım, inanmadılar.

— Almasaydın, ondan yaxşı idi…

Bu «top» məsələsi uzun illərdi qaranlıq bir keçmişdə qalmış məktəb illərinin əziz söhbəti idi. Onlar bu yarıdedektiv hadisənin hər ştrixini, hər hərəkətini ciddi şəkildə dönə-dönə təhlil etməkdən yorulmurdular.

Məsələ isə bundan ibarət idi. Çiskin bir payız günü Etimad sinfə top gətirmişdi. Böyük tənəffüs zamanı 8 «b»-nin oğlanları sinifdəki qızları çığırda-çığırda dəhlizə çıxartdılar. Birinci cərgədəki partaları arxaya sürütdədilər. Balaca meydança alındı. İki dəstəyə bölündülər. Oyun təzəcə qızışırdı. Birdən heç kimin gözləmədiyi halda kim idisə topa elə bir zərbə vurdu ki, top gedib düz pəncərənin ortasından dəymədimi, dəydi. Pəncərə şaqqıltıyla ortadan sınıb çilik-çilik olmadımı, oldu. Hamı yerindəcə quruyub qaldı. Şüşə qırıntıları məktəbin həyətinə, gediş-gəlişin gur yerinə parıldayan yağış damlaları kimi yağmağa başladı. Həyətdən keçənlər diksinib yana çəkildilər. Bir nəfər cır səslə aşağıdan qışqırdı:

—Vəhşixanadı, məktəb deyil ki… Vəhşidilər bunlar!! Vələdüznadılar!!

Beş dəqiqə keçmədi ki, əlində yekə bir şüşə parçası tutmuş cır səsli, balacaboy, üzündəki sevinc dolu o mənfur ifadəni heç cür gizlədə bilməyən kişiylə məktəbin direktoru Sona müəllimə hövlnak sinfə daxil oldular. Sona müəllimənin rəngi ağappaq idi, otağa ötəri göz atan kimi məsələni əlüstü başa düşdü. Uşaqların üzlərinə belə baxmadı, amma əllərini, ayaqlarını xü-

susi diqqətlə gözdən keçirdi. Arxayın oldu ki, əli, qolu, ayağı yaralanan yoxdur. Sonra acıqlı-acıqlı şüşəsi sınıq pəncərənin yanına keçib aşağı boylandı, başını çoxmənalı şəkildə buladı. Yəni, «Görün, mən sizin başınıza nə oyun açacam…» Cır səsli kişi əlində bayraq kimi tutduğu şüşə parçasını xüsusi əda və səliqəylə jurnal stolunun üstünə qoydu. Sona müəllimə məktəbin rəsm müəllimi cavan, enerjisi fontan vuran Arif müəllimi sinfə çağırtdırdı:

—Neynirsən elə, amma öyrən gör, bu topu bu məktəbə kim gətirib.

Top sinfin ortasında yetim uşaq kimi atılıb qalmışdı. Elə bil, cüzamlı idi, heç kim ona yaxın durmaq istəmirdi. Top tərəfə baxan belə yox idi.

— Baş üstə! — Arif müəllim bütün bədənini sim kimi dartıb əllərini əsgər kimi yanına sıxdı. Cır səsli kişinin də bədəni onun kimi tarıma çəkildi.

Bundan sonra isə əsl müsibət başladı. Arif müəllim sinifdə istintaq qurdu.

… —Allah üzümüzə baxmışdı ki, o alçağın başına düşməmişdi o şüşə. Yadınıza gəlir nə boyda idi əlindəki şüşə parçası?!

— Bayraq kimi əlində tutub sinifə girəndə mən bilirsən, necə qorxdum…

— Sona müəllimənin rəngi ağappaq olmuşdu… — Zakirin gözləri o uzaq günü yada saldığından, ya da içdiyi arağın təsirindən — süzülüb getdi.

— Fasilə edəcəyik, yoxsa?.. Bu top söhbəti qurtarmadı?! — Hənifə birdən-birə darıxdı. — Plastinkanı dəyişin…

Hənifə demək istəyirdi ki, söhbəti dəyişin.

— Neynirsən sən fasiləni? — Vahid qaşlarını bərk-bərk çatıb ona tərs bir baxış atdı. — Yedin, doydun?

— Həri, çay içmək istəyirəm, olmaz?! — Hənifə günahkar adamlar kimi məlul-məlul dilləndi.

Stolun üstündəki yeməklər yeyilib bitməmişdi. Sonuncu araq şüşəsi yarıdan çox dolu idi. Altı nəfərə «əlli-əlli» rahat vura bilərdilər.

— Bunu da içək, sonra keçək çaya. Nə deyirsiz?! Çay olacaq? Deyirlər ki, olacaq… — Malik əlini araq şüşəsinə uzatdı.

— Mən süzərəm. — Vahid özü içmirdi, amma adamları içirtməyi sevirdi. Şüşəni Malikdən alıb altı nəfərin hər birinə, təbii ki, özündən başqa, misqal dəqiqliyilə araq süzdü. — Olacaq, çay da olacaq, tort da olacaq…

Kamran qəfildən ayağa qalxdı. Bu o zaman baş verdi ki, ölümsüzlük haqqındakı həmən əndirabadi fikir gəlib onun beyninə artıq girmişdi. O, sağlıq demək istəmirdi. Amma fikrini dəyişdi.

Məclisdə isə ara qarışıb məzhəb itmişdi. Hərə öz kefində idi.

Zakir Etimada nəsə deyib onu güldürməyə çalışırdı, amma Etimadın dodağı da qaçmırdı. Hənifə əlində pult diqqətlə televizorun kanallarını bir-birinə qarışdırmaqla məşğul idi. Malik sağa-sola baxıb, elə bil, kimisə axtarırdı, öz-özünə nəsə deyirdi, dodaqları səssiz-səssiz tərpənirdi. Muradla Vahid pıçıldaşırdılar. Nəhayət, hamı bir-birinə baxa-baxa başa düşdü ki, Kamran, deyəsən, danışmaq istəyir, hətta bununçün ayağa belə qalxıb. Kamran isə səssizcə, bir az da ədalı-ədalı ayaq üstdə durub gözləməyində idi. Buna deyərdilər, qəd tutub. Yavaş-yavaş hamı sakitləşdi və ortalığa sükut çökdü.

Etimad köksünü ötürüb yavaş və kədərli səslə dedi:

— Buyur, qardaş. Son söz qoy sənin olsun. — Etimad «son söz» dəlisi idi. İndi də, elə bil, əziz tikəsini boğazından kəsib Kamrana verirdi.

— Belə... Əzizi-mənlər! Mənim bir sağlığım olacaq. — Kamran sözünə belə başladı.

Amma elə o dəqiqə onun sözünü yenidən hay-küylə kəsdilər. Çünki Zakir yavaşdan «ha-ha-ha» eləyib göz-qaşını oynada-oynada barmağı ilə Hənifəni ona-buna göstərməyə başlamışdı və bu şəkildə onun oğrun-oğrun başqa bir işlə məşğul olduğunu «ifşa» edirdi.

— Sakit. Qulaq asın. Səbətnən gilasın nağılı deyil... Kişi söz danışır... Bəsdi, televizorla oynadın... Böyümədi də bu adam. Bu gün-sabah əlli yaşın olacaq... — Camaat hamı birdən-birə Hənifənin üstünə düşdü. O isə televizorun səsini alıb indi də kanalları rəngli mənzərələr kimi bir-birinə vurub keçirdi. Aydın məsələ idi — intim axtarırdı. Pultu onun əlindən zorla aldılar.

Kamran təhər-tövrünü pozmadan sözünə davam elədi:

— Əzizi-mənlər! — Bu, onun sevimli xitabı idi. — Biz ki ayda bir dəfə, iki dəfə bu gözəl məkanda toplaşırıq, məclis qurub bugünkü kimi yeyib-içirik, deyib-gülürük, ötən günləri yada salırıq, eyni əhvalatları az

qala hər dəfə eyni həvəslə bir-birimizə ilk dəfəymiş kimi danışırıq bunun qiyməti — kim nə deyir, desin, — mənim gözümdə milyondu. Məktəb illərinin qiyməti yoxdu.

— Topu kim gətirmişdi, cəzanı kimlər çəkdi…

Hənifə ortaya bir atmaca atdı, eynən həmən top kimi və bu zaman Kamrana elə gəldi ki, o zaman topu pəncərəyə vurub şüşəni sındıran da elə bu Hənifənin özü olmuşdu. Hənifənin atmacasına reaksiya verən olmadı.

— Mənlik deyil…— Yalnız Etimad atmacaya ciddən etiraz elədi.

Kamran yenə müəmmalı və ədalı şəkildə susub gözlədi. Murad çəngəllə stəkanı döyəclədi.

— Xamuş! Bir susun, görək bu adam nə deyir…

— Bu adam onu demək istəyir ki, — Kamran Murada minnətdarlıq dolu bir təbəssümlə baxdı. — Bizim bir-birimizdən ayrı kimimiz var?! Heç kimimiz yoxdu. Birimiz ağıllıyıq, birimiz dəliyik. Birimiz etibarsızıq, birimiz hələ də uşaq qalmışıq. — Kamran əli ilə yanında oturmuş Hənifənin başına tumar çəkdi. — O birimiz qırdı-qaçdı… Əgər biz ağlımız kəsəndən sonra bir-birimizi tapıb dost olsaydıq, bu isə mümkün deyildi, hər baxan düz deyərdi ki, bunların ağlı, həqiqətən, yoxdu. Bu adamları axı bir-birinə heç nə bağlamır… Bunlar niyə dost olmalıdılar?! Bəs o zaman belə bir sual ortaya çıxır. Biz nə üçün bu günə kimi bir yerdəyik?! Və nə üçün bizim bizdən başqa bir kampaniyamız yoxdur?! Razısız mənimlə?

— Maraqlı söhbətdi… — Ehtiyatı əldən verməyən Vahid ağır-ağır dilləndi. «Bu hara yozur görəsən?!»

Kamran isə davam elədi:

— Mən bilirəm ki, ağlım kəsəndən sonra, məsələn, Hənifə kimi… adama ömrüm boyu «tamah» salıb dost olmazdım. Yox eee… Mənim qərdeşimdi o… — Kamran məzəli bir ahənglə sözünü zarafata çevirdi.

— Adamdı o?! — Zakir məsələni ciddi qəbul etdi.

— Heç gör mən səni yaxına buraxırdım?! Filosofa bax… — Hənifə də söz altında qalmadı, xasiyyəti belə idi, hökmən bir cavab tapıb deməliydi.

— Hə… — Kamran Hənifəyə cani-dildən məhəbbətlə baxdı və Hənifəni uşaq kimi əzizlədi. — Qərdeşimdi bu mənim… — Sonra Kamran yenə əsas

mövzuya qayıtdı. — Nə isə… Bəs biz niyə bir-birimizdən əl çəkə bilmirik, qırx ildi bir yerdəyik?! Birinci sinifdən bu günə qədər qırx il… Bir-iki ilə əlli yaşımız olacaq…

— Hənifənin iyirmi yaşı olacaq… — Bu da Malikin əsas zarafatlarından idi.— O axı inkişaf eləmir… Onda deqradasiyadı.

— Qoyun sözümü qurtarım, sonra qırın bir-birinizi… — Kamran gördü ki, Hənifə əlini gizlicə su dolu stəkana sarı aparır. Suyu Malikin üzünə çırpmaq istəyirdi. Kamran ərklə onu birəlli də olsa qucaqlayıb stəkanı götürməyinə mane oldu və dayanmadan sözünə davam elədi:

— Öz sualıma özüm də cavab verirəm. Biz niyə bu günə qədər bir yerdəyik? Çünki bu, bizdən asılı olmayıb. Allah gətirib bizi bir-birimizin yanına. Bax, bu mənim qərdeşim Hənifəni birinci sinifdə oturdub mənim yanımda. Mənim seçki imkanım olmayıb. Olsaydı…

Zakirin yadına Füzuli düşdü:

— Olsaydı, mənim bir ixtiyarım, olmaz idi səndən özgə yarım… Ha-ha-ha…

Bu yersiz gülüşdən dərhal sonra Zakir ciddiləşib Zərbəli müəllimi xatırladı:

— Allah Zərbəli müəllimə rəhmət eləsin.

Söhbət yenə də məcrasını dəyişdi.

— Allah hamısına rəhmət eləsin. Allah Rübabə müəlliməyə, Sona müəlliməyə, Nabat müəlliməyə…

— Arif müəllim… — Bu, Etimad idi.

— Mariya Semyonovnaya, Sadığa, Mustafaya… Hacıya… Türyana… Şərqiyyə…

— Şərqiyyə sağdı…

— Noolar? Ona da zəhmət düşür.

— Allah onların hamısına rəhmət eləsin… — Malikin, deyəsən gözləri dolmuşdu, kövrək idi deyin, səsi həzin gəldi.

Onlar öz müəllimlərini xatırlayırdılar. Xatırladılar, qurtardı.

— İndi də keçirəm sözümün sağlıq hissəsinə… Bitirirəm. Məni diqqətlə dinləyin. — Kamranın ürəyi birdən-birə sıxıldı. O, bu sağlığı hökmən

deyib sona çatdırmaq istəyirdi. Ona elə gəlirdi ki, sağlıqdan sonra o əndirabani fikir bir daha onu narahat etməyəcək.

Kamran bir əliylə yanında oturmuş Hənifənin başına yenə də sığal çəkdi, o biri əlində tutduğu qədəhi isə düz başının üstünə qaldırdı, uca səslə dedi:

— Mən içirəm bu badəni bizim aramızda bu dünyada axırıncı kim qalacaqsa onun sağlığına. Heç kim bilmir, o axırıncı adam bizim aramızda kim olacaq. Amma kimsə olacaq. Hamı gedir bu dünyadan, heç kim bu dünyanı tutub qalmır.

— Əlbəttə, ölüm haqdı… — Vahidin səsi molla səsinə oxşadı. O, dostlar arasında yeganə namaz qılan idi.

— Bəli, o adam ki, onun alnına yazılıb və o bizim hamımızdan sonra gedəcək o biri dünyaya, mən təklif edirəm, bunu içək o xoşbəxtin sağlığına.

Məclisdəkiləri söz tutdu və onlar bir müddət dinib-danışmadan deyilən sağlığı «həzm» eləməyə çalışdılar.

— Nə danışır bu? Siz bir şey başa düşdüz?! — Nəhayət, Zakir araya çökən səssizliyi pozdu. — Necə yəni, axırıncı adam? Deməli, belə çıxır ki, o adam tək qalacaq?..

— Bəli, əzizi-mən, kimsə axırda tək qalacaq. Bu bizdən asılı deyil ki… Kim axırda qalacaq onun sağlığına… Məsələn, Hənifənin…

— Mənə lazım deyil. İçməyin mənim sağlığıma. İstəmirəm. — Hənifə qaşqabağını salladı. Bu dəfə o, son dərəcə ciddi idi.

— Nolar?! Onda Zakirin sağlığı… — Kamran nəvaziş dolu təbəssümlə Zakirə baxdı.

— Niyə mən? Mən niyə? İstəmirəm! Mənim də sağlığım olmasın! — Zakir kobud bir tərzdə Kamranın sözünü kəsdi.

— Başa düşürəm. O zaman… könüllü yoxdu?

Yenə səslər bir-birinə qarışdı, hamı bir ağızdan danışdı:

— Yoxdu, könüllü yoxdu. Bu çox axmaq sağlıqdı, Kamran. Başqa plastinka qoyun… Mənə lazım deyil…

– Ay gic, deməli, bu adam bizim aramızda hamıdan çox yaşayacaq, başa düşürsən?

– Cəhənnəmə ki… İstəmirəm.

– Axırıncı?

– Adamın ürəyi partlayar…

– Hə, tək, quqquluqu…

– Sən də istəmirsən?

– Yox, mən niyə? Mən də istəmirəm…

– Kamran, sənin bu sağlığına heç kim qol qoymadı… Başqa sağlıq de, içək. Yoxsa…

— Topu kim gətirmişdi, onun sağlığına…

— Yox, şüşəni kim sındırdı, onun sağlığına…

— Yaxşı ki, şüşə o kişinin başına düşmədi. Sona hirsindən əsirdi. Arif nə oyundan çıxmadı, topu kimin gətirdiyini öyrənmək üçün… Amma heç kim Etimadı satmadı…

Dostlar ümidlə Etimada baxdılar. O, sağlığı öz üstünə götürə bilərdi.

— Çox sağ olun, uşaqlar…— Etimadın üzünü məsum bir təbəssüm gəzdi. — Amma qoy bu sağlıq mənim sağlığım olmasın…

Kamranın sağlığı, əlbəttə ki, alınmamışdı. Onlar daha bir kəlmə də danışmadılar. Qədəh qədəhə toqquşdurmadan araqlarını başlarına çəkdilər. Elə bil, ölmüş bir adamı, sonra imkan olmayacaq deyə əvvəlcədən yad edirdilər. Malik qədəhini qaytarıb yerə qoydu. Əllərinin dalı ilə gözlərini qızaranacan ovuşdurdu. Sonra… Sonra isə turşu xiyardan ləzzətlə bir dişdəm aldı və qəfildən çırtıq çala-çala məşhur mahnının ahəngində səsini başına atdı:

— Deyin görək çay olacaq??? Deyirlər ki, çay olacaq…

Zakir ürəkdən qəhqəhə çəkdi:

— Ha-ha-ha…

*2016-cı il*

# Edam vaxtını dəyişmək olmaz

Edam vaxtına nə az, nə çox düz iki gün, dörd saat, iyirmi beş dəqiqə qalırdı.

Onu artıq təkadamlıq kameraya keçirmişdilər. Yerində uzanıb gözlərini rəngsiz tavana zillədi. Əllərini başının arxasında daraqladı. Beləcə sabahdan axşama qədər uzanmaqdan başqa heç nə edə bilmirdi. Bu hal onun ən sevimli halı idi. Yenə də saniyələri ölçüb daha dəqiq vaxtı müəyyənləşdirməyə ərindi və düşündü ki, hətta bunu etsəm belə, tam dəqiq rəqəmi heç zaman tuta bilməyəcəm, çünki saatları, hətta dəqiqələri fikrində, beyninin içində «həbsxana»ya salıb saxlaya bilərsən, amma saniyələr necə və hardan aradan çıxırsa, sürüşüb çıxır və dəqiqlik heç cür alınmır.

İki gün, dörd saat, iyirmi dörd dəqiqə qaldı…

Əzab çəkib həmin o müdhiş anı xatırlamaq, o anı, dəqiqələri, saatları bütün nanə-cövhəri ilə yenidən yaşamaq özünün özündən intiqam almasının yeganə yolu idi. Artıq beş aydan çox idi ki, təkadamlığa keçirilmişdi. Bu cür saatları, dəqiqələri hesablamağa o özü özünü məcbur eləmişdi. Ya xatirələrin ağuşuna girmək, ya da zamanın. Düşünürdü ki, başqa cür o, dəli ola bilər. Gözünün qabağına cin-şəyatin gəlirdi. Cin-şəyatinlərin əlində yekə-yekə bıçaqlar var idi. Və o bıçaqlar kimlərinsə, günahsız qurbanların kürəyinə saplanırdı. Qurbanlar cavan, yaşlı kişilər, qadınlar, körpələr, hətta südəmərlər olurdu.

İnanılası olmaya bilər, amma o, edam gününün tez gəlməsini arzulayırdı. Doğrudur, öz-özünə bunu etiraf edə bilmirdi: qorxurdu ki, burada keçirdiyi bir-birinin eyni olan ekiz günlərin birində hakimlərinin dediyinə o da inansın. Şükufəni öldürdüyünü boynuna alsın. Özü öz hakiminə çevrilsin.

Necə dolduracaqdı bu təklik içindəki ekiz günlərini?! Kitab oxuya bilmirdi, çünki fikrini bu müdhiş hadisədən başqa heç nəyə yönləndirməyə heyi gəlmirdi. Yazı yaza bilmirdi, nə yazacaqdı ki?! Başqa nə qalırdı?! Bircə dəqiqələri izləmək, kiçik və böyük əqrəblərin hərəkətinə göz qoymaq… Fikri tez-tez onu Sünbüllü gölün ətrafına aparırdı. Yenə həmən qayıq, yenə hönkürtü ilə ağlayıb onu haldan çıxaran Şükufə, yenə Şükufənin kürəyinə saplanmış bıçağın iri dəstəyi… Şövqi indi də Şükufənin hönkürtüsünü kamerada eşitməyə başlamışdı, hətta indi burda da ona əsəbiləşməkdən özünü güclə saxlaya bilirdi.

Həbsxanadakı qayda-qanunla ona saat (nə qol saatı, nə də otaq saatı) saxlamaq olmazdı. Əvvəl dil uzadıb xahiş eləmişdi, sonra hətta yalvarmışdı, bunlar bir nəticə verməmişdi. Daha sonra nəzarətçi Bığ Həşimə rüşvət vermişdi. Ağzının alt cərgədəki qızıl dişini laxlatmış, diş heç cür yerindən tərpənmək istəməyəndən sonra dişi sapa ilişdirib olmazın zülümlə birtəhər çıxarıb dibindəki laxtalı qanıyla bir yerdə Həşimə vermişdi. Əvəzində Bığ Həşim Şövqi yaşayan evə gedib atasının yadigarı olan köhnə qol saatını ev sahibəsindən onun üçün alıb gətirmişdi.

—Mən hələ heç kəsə bir belə yalvarmamışdım. Bu nə axmaq arvadmış sənin ev sahibən. Ev tapmadın qalmağa bu boyda şəhərdə?.. — Bığ Həşim saatı ona təhvil verərkən Balaxanım arvada (məhlə adı At Balaxanım idi) ilan dili çıxarmağını yadına salıb rəngi allandı. Şövqi isə bu zaman kövrəldi:

— Baxma tərsliyinə, ürəyi yumşaqdı. Neçə dəfə qutab bişirib yanıma gəlib… — Yadına Balaxanımın ətli əndamı, şirin dili, süzgün baxışları düşdü və acı bir təbəssüm Şövqinin dodaqlarına qondu. Məhlələrini, balaca həyətlərini xatırladı. Düşündü: «Onun xoşuna gəlməmisən. Yoxsa səni elə-belə buraxmazdı…»

Təxminən, bir həftə əvvəl Şövqi həyatında çox vacib bir qərar verdi. Artıq bütün gücünü, əslində, əzabını və məşəqqətini bir yerə toplayıb inandı ki, daha doğrusu, özünü inandırdı ki, bu ağır, ağlasığmaz cinayəti heç bir başqa adam yox, məhz o, Şövqi törədib. Nə hakimlər, nə, prokurorlar, nə də həbsxana nəzarətçiləri burda olduğu dörd il altı ay, on iki gün ərzində onu buna zərrə qədər də olsun inandıra bilməmişdilər. Nəhayət, o özü özünü inandırmışdı. Düşünmüşdü ki, belə olsa, cəzanı daha rahat qarşılaya bilər. Nə qədər zülüm çəkdi bu illər ərzində, İlahi. Diddi, yedi içini, tökdü mənəviyyatını çölə, əlacı olsaydı, neçə dəfə qanına qəltan edərdi özünü. Edam onu heç maraqlandırmırdı. Hakim qərarını elan edəndə halına təfavüt etməmişdi. Hamı məhkəmə zalında oturanların gözü bir anda çönüb onun üzünə dikilmişdi. Və ordakıların hamısı onu bu cür möhkəm xarakterə malik birisi kimi soyuqqanlı qatil ola biləcəyinə son dəfə tərəddüdsüz inanmışdı. Amma əlbəttə, belə deyildi. Onun çəkdikləri ilə çəkəcəyi arasında fərq böyük idi və bura qədər çəkdikləri sonuncu çəkəcəyindən qat-qat ağır idi. O çəkdiyini çəkib qurtarmışdı. Edam indi ona qurtuluş kimi görünürdü. Yox, qurtuluş kimi yox, əsl azadlıq kimi görünürdü.

O, gözlərini yumub xatırlayırdı. Qayıq suların üstünə pənbə döşəyə sərilən kimi sərilib heysiz qalmışdı. Ancaq yüngülcə yırğalanmağa heyi çatırdı. Günəş sağ tərəfdə batırdı və o, baxışlarını Şükufənin çiynindən hələ də çəkə bilmirdi. Qızın açıq çiyinləri iki saat gün işğının altında qalıb az

qala qıpqırmızı qızarmışdı. Çiyninin sağ tərəfində qızarmamış balaca bir zolaq vardı. O zolaq qapqara idi, elə bil, Şükufəni nə iləsə ağır, küt bir şeylə orasından vurmuşdular. Bu zolaq əvvəllər yox idi.

— Deməyəssən noolub çiyninə?

Bu sualı, bəlkə də, artıq yüzüncü dəfə idi verirdi, cavabında isə iki dəfə «qapıya dəydim», bir dəfə də «vallah, qapıya dəymişəm, billah qapıya dəymiçəm» sözlərini eşitmişdi. Bütün sonrakı cavablar sükutdan ibarət olmuşdu.

Qızın çiyinləri öz-özünə qalxıb düşməyə başladı, amma səs-səmiri çıxmırdı. Şükufə için-için, xısın-xısın, səssiz-səmirsiz ağlamağa başladı. Bilirdi ki, Şövqinin bu dünyada qadın ağlamasından zəhləsi gedən qədər heç nədən zəhləsi getmir. Yenə də özünü saxlaya bilmədi.

— Ağlasan, döyüləssən… — Səsinə doyunca zəhər qatdı. Şükufə hönkürdü.

İki gün, dörd saat, iyirmi dəqiqə…

Qayığı sahilə yönəltdiyi yadındadı. Qayıqdan çıxmağı, qıza tərəf baxmadan ağacların arasındakı maşınına tərəf getməsi yadındadı. Düşündü ki, Şükufəni maşında gözləyəcək.

Maşından baxıb gördü ki, qız qayıqdan düşənə oxşamır. Qayıq Şükufənin ağlamasının ahəngində su üstündə gah sağa, gah da sola əyilirdi. Sular yavaş-yavaş qaranlığın rəngini alırdı. Sünbüllü gölün ətrafında qaranlıq ancaq qara rəngdən ibarət deyildi. Bu qaranlıq xoflu qaranlıq idi. Ağaclardan gələn məşum yarpaq xışıltıları bu xofu daha da qorxulu edirdi. Şövqinin ürəyi şiddətlə vurdu. Şükufəni çağırmaq istədi, amma hələ ki, hirsi yatmamışdı, bacarmadı. Gözləməyə də ürəyi darıxdı. «Cəhənnəmə ağla, gora ağla. — Şövqi hirs içində düşünüb özünə bəraət qazanmağa çalışdı. — Ölsən də aborta gedəssən, qalsan da gedəssən.

Şövqi maşının açarını burdu. Qayıqdan gələn hönkürtü səsi gücləndi, motorun səsinə qarışıb qəribə və üzüntülü (eyni zamanda əttökən) bir naləyə çevrildi.

…Təkadamlıqda çox belə arxası üstdə uzanmış vəziyyətdə gözlərini tavana zilləyib o axşamı xəyalından keçirmişdi. Ağacların başı üstündən

asta-asta aşağı enən qaranlığın eynən duman kimi ətrafı bürüməsi, yarpaqların həmən müdhiş xışıltısı, Sünbüllü gölün sularında göy üzündəki ayın gəlib əli-qolu bağlı əsirlər kimi hərəkətsiz qalması… Belə gecələrdə nə isə dəhşətli hadisə baş verir.

Sonralar dəfələrlə özünü qınamışdı ki, gərək nə qədər hirsli olsaydı da Şükufəni tək qoyub gölün sahilindən çıxıb getməyəydi. Yəqin ki, belə etsəydi o müdhiş hadisə baş verməzdi. Şükufə də, qarnındakı üçaylıq körpə də sağ qalardı. Təxminən, bir saatdan sonra daşı ətəyindən töküb ora, Sünbüllü gölə qayıdanda isə gördüyü bu olmuşdu.

Şükufə hələ də qayığın içindəydi, uzaqdan onun yanpörtü vəziyyət almış siluyetini zorla da olsa seçmək olurdu, amma ətraf tam bir sükuta qərq olmuşdu. Nə səs vardı, nə səmir. Qayıqdan ağlamaq səsi gəlmirdi. O müdhiş sükutu Şövqi heç unuda bilmir. Bir neçə andan sonra onu anladı ki, sükut ürəyini qısmağa başladı. İlk dəfə idi ki, Şükufənin hönkürtüsü üçün qəribsədiyini hiss elədi. Elə bu zaman yaxınlıqda bir cırcırama səsini başına atmadımı, atdı. Şövqi diksindi.

Şövqinin damarlarından qəribə bir gizilti keçdi. O öz hərəkətinə — qızı incitdiyinə, ona yerli-yersiz hirslənməsinə, axşam vaxtı bu adamsız yerdə təkcənə buraxıb getməsinə elə peşman oldu ki… «Mən bir də buna ağlayanda təpinməyəcəm. Heç güldən ağır söz də deməyəcəyəm. Məni sevdiyini bu adam dəfələrlə sübut edib. İşdən çıx dedim, çıxdı, belə oturma, oturmadı, mənsiz bir addım atma, atmadı. Mənim üçün hər cür cəfaya hazırdır… Bayaq necə yanıqlı ağladı… Mən axı bunu niyə ağlatdım?! » düşünüb ürəyi sızlaya-sızlaya qayığa yaxınlaşdı. Qayıq tərpənməz idi. Ağzını açıb ilk sözünü demək istədi. Belə deyəcəkdi:

— Saxlayırsan saxla uşağı.. Bir şey fikirləşərik. Acından ölməyəcəyik ki. Qoy, hər şey sən deyən kimi olsun…

Şükufənin bədəni qayığın içində namünasib bir vəziyyətdə yanpörtü uzanıb qalmışdı. Açıq bərələ qalmış gözlərilə yana elə baxırdı ki, sanki Şövqidən nəsə soruşmaq istəyirdi. Həmişə belə idi. Bir şey soruşmaq istəyəndə xam baxışlarını yana dikib soruşardı. Ancaq gözləri bu dərəcədə açıq olmazdı. Şövqi, ümumiyyətlə, insan gözünün bu boyda açıq olmasını

indiyənə qədər görməmişdi. Qayığın başında heykəl kimi quruyub bir müddət maddım-maddım qızın halına tamaşa elədi. Qız, əlbəttə ki, ölmüşdü. Kürəyindən düz ürəyinə qədər yekə bir bıçaq saplanıb qalmışdı. Şükufəni öldürmüşdülər. Şövqi quruyub qaldı, gözlərini qızın açıq gözlərindən çəkə bilmədi. Handan-hana Şövqi özündə təpər tapıb donuq vəziyyətinin içindən birtəhər çıxdı və titrək barmaqlarını zorla uzadıb ovcunun içi ilə qızın gözlərinin üstünə, elə bil, zərif bir sığal çəkdi. Şükufənin göz qapaqları, elə bil, bir himə bənd imiş, qapandı getdi.

… Hakim təhlil naminə təhlil eləməyi sevənlərdən idi. Prokurorun dediyinə şübhə ilə yanaşdı.

— Mənim inanmağım gəlmir ki, müttəhim öz işini görüb qurtarsın, sonra da soyuqqanlı şəkildə cinayət yerindən uzaqlaşıb getsin. Bu adam bir saatdan sonra təzədən cinayət yerinə qayıdıb gəlib. Ağlabatandı? Deyil. Məncə, o ikinci dəfə qayıdandan sonra bu cinayəti işləyib… — Bunları deyib hakim sual dolu gözlərini, nədənsə, Şövqinin üzünə dikdi. Elə bil, Şövqi onun mülahizəsini dəqiqləşdirməliydi. Şövqi qeyri-ixtiyari başını tərpətdi.

— Möhtərəm hakim, mən ora qayıdanda… axşam artıq düşmüşdü. Hər tərəf qaranlıq içindəydi. Mən əvvəl-əvvəl seçə bilmədim ki, o artıq… o… ölüb… — Şövqinin dedikləriylə başını tərpədib hakimin dediklərini təsdiq etməsi arasında bir təzad var idi.

— Bəs axı polis işçiləri başqa cür deyir… — Hakim bic-bic qımışdı. — Sənin dediyin isə həqiqətə uyğun gəlmir. Bunu sənə neçə dəfə sübut etmişik. Bəsdi də… — Hakim hər şeyi dəqiq bildiyini zənn edirdi.

Mühakimənin son günü ona artıq heç kim qulaq asmırdı. Prokuror üçün də, hakim üçün də, hətta gözlərini ondan təkidlə qaçıran vəkil üçün də məsələ gün kimi aydın idi. Bətnində üçaylıq körpə gəzdirən günahsız bir qadını plan qurub Sünbüllü gölə qayıq gəzintisinə aparan və orada xəlvətə salıb arxadan kürəyinə əvvəlcədən özü ilə gətirdiyi yekə bir bıçaqla ölümcül zərbə endirib həyatına son qoyan şəxs bütün bu adamların fikrincə məhz o, Şövqi idi. Motiv hamıya bəlli idi. Aborta məcbur etmək (motiv problem deyildi, bunu Şövqi özü boynuna almışdı), buna razılıq ver-

məyəndə isə... Hamı belə bir həqiqətə inanmışdı: bu zaman Şövqinin yalnız bir çarəsi qalırdı ki, bu da qızı hökmən öldürmək idi.

— Şövqi, yaxşı oğlan, al boynuna, bir işdi istəmədən etmisən, cin başına vurub, özünü-sözünü bilməmisən. Vallah, düzü budu ki, bizi də yorma, özünü də... — Hakim yazı masasının üstünə əməlli-başlı yayxanıb az qala Şövqiyə yalvardı. Elə bil, uşaq başı aldadırdı. Şövqi isə yenə də heç nə anlamırıdı. Sonuncu məhkəmə iclasından bir qədər əvvəl o, həmən hadisənin ayrı-ayrı detallarını, epizodlarını unutmağa başlamışdı.

Uzun aylar davam edən və özü ilə iztirabdan, bir də dəhşətli yorğunluqdan başqa heç nə gətirməyən bitib-tükənməz mühakimələrdən sonra, nəhayət, ona ölüm cəzasını səsləndirdilər. Hamı, hətta nə qədər qəribə olsa da, Şövqinin özü belə asudə nəfəs aldı. Nəhayət, ürəyini sızladan zəif sevincə bənzər bir hissin qanına dolduğunu duymağa başladı. Az qalıb. Lap az qalıb. Nəhayət, dincələcəkdi. Hakimlərdən yox, özündən dincələcəkdi. Canı qutaracaqdı. Azadlıq vardısa da, yoxdusa da elə bu idi, başqa bir şey deyildi. Təki edamın vaxtını dəyişməyəydilər. Təki onun bivec qohumları və dostları cürbəcür yollarla onun boğazına keçməkdə olan kəndiri açmağa çalışmayaydılar. İş burasındaydı ki, açmağına kəndiri aça bilmirdilər, amma edamın vaxtını uzatmağına uzada bilirdilər. Hər dəfə yenidən hansısa balaca bir detal «yada» düşürdü, vəkillər canfəşanlıqla öz şəxsiyyətlərini gözə soxurdular və hər şey yenidən başlayırdı. O, bütün işkəncə yolunu — hadisənin əvvəlindən axırınadək təzədən keçirdi. Bu isə dözülməz idi.

Bircə edamın vaxtını dəyişməyəydilər. O indi-indi anlamağa başlayırdı. Azadlığa gedən yol kəndirdən keçirmiş... Əsl və tam azadlıq ölümlə başlayır.

Şükufə və onların doğulmayan körpələri bu yolu keçdilər.

— Ölsən də, qalsan da aborta gedəssən. — Şövqi codlaşmış, nifrət dolu səsini özü də az qala tanımırdı. — Hələ bunun zarımasına bax bir. Qalx. Qalx, gedək. Gec oldu. İşim-gücüm var mənim. Eşitmirsən? — Şövqi son dəfə Şükufəyə bu sözləri dedi və ikrahla qızın hələ də atdanan çiyinlərinə baxdı. Şükufə indi də için-için ağlayırdı, ancaq çiyinləri atılıb

düşürdü. «Mən bunun nəyinə hayıl-mayıl oldum, Allah?! Yox, bu adam məni caduya salıb…Bircə Allah bunu öldürəydi, canım qurtaraydı…»

Daha arxasına da baxmadı. Tövşüyə-tövşüyə tələsik gedib ağacın altında saxladığı maşınına mindi. Motoru işə saldı. Şükufə motorun səsini eşidib, nəhayət, gəlməliydi. Amma o, necə ki, tərpənməz bir halda qayıqda oturmuşdu, eləcə də oturub qalmağındaydı.

«Cəhənnəmə ki, gəl…» — Şövqi pəncərədən bayıra tüpürdü. Sonra qaza basaraq sükanı var gücüylə sağa fırlatdı və ağacın altından maşını sürüb çıxardı, xam daşlıqla yola sarı sürdü. Yola çıxmağa iki metr qalmış tanış milis işçilərini gördü. Elə bil, kolluqda gizlənmişdilər, onu görüb çıxdılar. Güdürdülər, nədi?! Bu iki növbətçi tanış idilər. Həmişə Şükufə ilə buralara gələndə onu başqalarının girə bilmədiyi yerəcən — bu həndəvərdəki yeganə qarağacın altınacan maşını sürüb saxlamasına icazə verirdilər. Başqalarının belə imtiyazı yox idi.

— Şövqi müəllim, çoxdandı ki, yox idin, komandirovkadaydın? — Qırmızısifət şişman polis irişə-irişə maşının şüşəsinə tərəf əyilib içini gözdən keçirdi. Şövqi hiss elədi ki, o bunu gizli şəkildə edir.

Şövqi sorğusuz-sualsız sağ siyirmədə saxladığı iki beşliyi elə şüşədəncə qırmızısifət polisin uzanmış əlinə dürtdü. Beşliklər qırmızısifətin ovcunda timsah ağzında balıq kimi yox oldular.

— Sağ ol, çox sağ ol, həmişə gəl, gözləyəcəyik. — Qırmızısifətin üz-gözü də, səsi də ciddiləşdi.

Məhkəmədə qırmızısifət polisin əminliklə dediyi sözlərlə gözlərindəki süni üzüntü bir-birinə heç uyğun gəlmirdi.

— O axşam müttəhimdən, bir də zərəçəkəndən başqa o həndəvərdə kimsə fırlanmadı. Biz heç kimi görmədik. Maşını sürətlə sürüb getdi. Mən hələ təəccüb etdim ki, bu adam cüt gəlmişdi, bəs niyə tək getdi… Sonra aradan bir müddət keçəndən sonra biz ikimiz, serjant Həsənovla mən qayığa yaxınlaşdıq…

— Müttəhim gedəndən nə qədər sonra siz qayığa yaxınlaşdınız? — Vəkil bu sualı verərkən hələ də ümid edirdi ki, bəlkə bu vaxt ərzində kimsə başqa adam (yaxud adamlar) qayığa yaxınlaşa bilərdi.

— Elə böyük vaxt keçmədi. Təxminən on dəqiqə… — Qırmızısifət polis düşünürmüş kimi gözlərini qıyıb, guya ki, xatırlamağa çalışdı.

— Bəs bu vaxt ərzində siz heç bir səs-səmir, qışqırıq eşitmədiniz?

Qırmızısifət günahkarmış kimi başını yerə dikib mızıldandı. Səsi zorla eşidildi:

— Yox… eşitmədik. — Qırmızısifətin cavabı bir qədər inamsız səsləndi. Vəkilə cəsarət gəldi:

— Heç kəs, yaxında, uzaqda bir adam gözünüzə dəymədi?

Qırmızısifət yenə də həmən zəif səslə, amma daxili bir qətiyyətlə dilləndi:

— Yox, dəymədi. — Qırmızısifət polis son cavabını verərkən nədənsə vəkilə yox, günahkar-günahkar müttəhim kürsüsündə oturmuş Şövqiyə baxdı. Yəni ki, bağışla məni, mən nə edə bilərəm?!

Şövqi isə bu zaman köksünü rahat-rahat ötürdü. Hər şey bu adam deyən kimiydisə, deməli, göylərdə ədalət var və elə buna görə də o, Şövqi bu saat burda, müttəhimlər kürsüsündə oturub və inşallah, haqlı cəzadan göylər gəlib yerə birləşsə də yaxa qurtara bilməyəcək.

Məhkəmə iclaslarının sonuna yaxın zalda adətən çox adam olmurdu. Hakimdən, prokurordan, vəkildən və katibədən başqa bir kənarda divara söykədilmiş skamyada üç nəfər polis otururdu. Məhkəmə otağında Şükufənin anası və yaxın qonşuları Ağca var idi. Bir də Şövqinin dostları Adil ilə Samid hər məhkəmə iclasına səliqəylə gəlirdilər. Axırıncı cərgədə hamıdan aralı tanımadığı bir kişini isə Şövqi iclaslarda görməyə artıq adət eləmişdi. Bu adam sakitcə gələr, kirimişcə oturar, heç kimin üzünə baxmaz, gəldiyi kimi gözəgörünmədən çıxıb gedərdi. Donqar burnu, daz başı var idi. O kim idi, nə üçün burda idi, bunu demək çətin idi. Şövqi hərdən hakimin, ya da prokurorun məkrli suallarına cavab verməyə çətinlik çəkəndə o kişinin adətən sinəsinə əyilmiş daz başına baxırdı. Özü də bilmirdi niyə, amma anlar olurdu ki, məhz bu adamın gözlərini tutub onun gözlərinin düz içinə baxmaq, baxmaq istəyirdi. Şövqiyə əvvəllər elə gəlirdi ki, bu adam Şükufənin hansısa qohumudu. Sonralar isə elə bildi ki, onun yaxın gələcəkdəki cəlladıdı. Cəllad qurbanını öyrənmək, xasiyyətinə bələd

olmaq, kəndiri necə və hansı məqamda boğazına keçirmək mümkünlüyünü, ya da tapançanı başınamı, yoxsa ürəyinəmi yönəltməyin məqsədəuyğunluğunu müəyyən eləmək üçün gəlib burda oturur, deyilənləri beyninə yığır, bir söz, öz işini keyfiyyətli görməyə hazırlaşırdı. Görünür, cəllad üçün onun həqiqətən günahkar olub-olmamağının mənası vardı. Bəlkə də, cəllad onun günahkar olmasına inanmasaydı, edamı onun üçün ağrısız həyata keçirəcəkdi, kim bilir?! Daz kişi hələ bir dəfə də olsun başını çöndərib onun üzünə baxmamışdı.

Edam vaxtına bir gün səkkiz saat, qırx dörd dəqiqə qalırdı.

Axırıncı məhkəmə iclasından sonra dostlarından heç bir xəbər yoxdu. Bu iclas bitərkən hakim ona son söz verdi. O zülümlə ayağa qalxıb dedi ki, əziyyətinizi halal edin. Xüsusən zaldakı dostlarına — Adilə və Samədə müraciətlə dedi sözlərini. Bu sözləri deyib halallıq istərkən birdən qanının damarda donduğunu hiss elədi. Hansısa diləgəlməz bir hiss səsə çevrilib ona pıçıldadı ki, dazbaş kişi düz onun üzünə baxır. Yox, sadəcə baxmır, gözlərilə onun üzünü deşir. Nəhayət, Şövqi sözünü bitirib halsız şəkildə yerinə oturdu. Dazbaş isə yenidən üzünü ondan çevirib başını sinəsinə saldı.

Şükufəgilin qonşusu Ağca arvad Şövqinin son sözlərindən sonra burnunu bərkdən çəkib ortalığa çökmüş sükutu pozdu:

— Allah sənin cəzanı versin! Günahsız bəndəyə necə qıya bildin sən? – Ağca arvad qızışdı:

Bu sözlərdən sonra Şükufənin anası səssiz-səmirsiz göz yaşlarına boğuldu. Çiyinləri eynən Şükufənin çiyinləri kimi atdanıb düşməyə başladı. Şövqinin dodaqları ani olaraq qaçdı. Bunu görcək Ağca arvad qızışdı:

— Buna bax, hələ gülür bu. Azdı sənə ölüm. Səni şaqqalamaq lazımdı…

Edam vaxtına yeddi saat əlli bir dəqiqə qaldı.

İndi bu ölüm kamerasında qaldığı sonuncu gecə o özünü məcbur eləyib yatmaq istəyir, amma yata bilmir. Göz qapaqları heç cür yumulmur. Ona elə gəlir ki, sabah, edamdan əvvəl, yəqin ki, onun son xahişini nəzərə

alacaqlar. Yadındadı, bu xahişi mühafizəçilərə utana-utana deyəndə onlar bir-birinin sözünü kəsə-kəsə belə cavab verdilər:

— Bizlikdisə, arxayın ola bilərsən. Hökmən.

Hətta onlardan biri Bığ Həşim yüngülvari doluxsundu da:

— Əlbəttə, biz hər şeyi başa düşürük. Həyatdı. Xətircəm ol.

Əlbəttə, son xahiş çox vacib idi. Bəlkə də, onu gözləyən əbədiyyət qədər önəmli idi. Ən axmaq şeylər bu son məqamda gəlib özünü onun yaddaşına dürtürdü. Şükufə ilə ilk dəfə hamıdan gizlənə-gizlənə kinoya getməyi, Şükufəyə üstündə sonradan gördükləri balaca deşiyi olan al-qırmızı kəlağayı alıb ad gününə hədiyyə verməsi və qızın barmağını bu deşiyə keçirib uğunub getməsi, sonra Şükufənin onu utana-utana evlərinə dəvət eləyib anası ilə tanış eləməsi, qızın ona sevgi dolu şeir yazması, gecə səhərə qədər sevişəndən sonra günəşin ilk şüaları ilə bu şeiri bir-birinə yataqda oxumaları, Şükufənin ondan utanmaqlığı, hətta gülən zaman çiyinlərinin necə atılıb düşməsi, üzündəki zənəxdanı, gözlərinin xam baxışı… çox şey, çox şey yadında idi.

Amma nə illah eləyirdi yadına salsın ki, mühafizəçilərdən dünən axşamüstü son dəfə nəyi xahiş edib, yadına sala bilmirdi, bu onun yadından çıxmışdı. Ürəyi hövr edirdi.

Bir saat iyirmi üç dəqiqə…

Kameraya adamlar daxil olur.

Və ancaq bu zaman onun gözlərinə işıq gəlir. Nəhayət, qəlbinə rahatlıq dolur. O xatırlayır…

*2015-ci il*

# Səsimdən yapış

Uzun zamandı bir-birimizdən xəbərimiz yox idi. Ali məktəbdə bir yerdə oxumuşduq. Təmasımız ya sürəkli, ya da adda-budda olurdu. İki-üç ay əvvəl küçədə onu qəfildən görəndə xeyli dəyişmişdi. Az qala ağlamsınaraq mənə ürəyini açıb tökdü ki, daha gözlərimlə bacara bilmirəm, eynəyimin şüşələri +10-a çatıb, bununla belə yenə də çox şeyi görmürəm, hara baxıram, hər şey qarışır bir-birinə, mənə elə gəlir ki, mənim gördüyüm o andaca nə cür olursa, dəyişir, əvvəlki halından çıxır, itir, yox olur. Bir sözlə, aləm qarışıb bir-birinə. Sabah yox, o biri gün əməliyyata gedəcəyəm. "Yastığın yüngül olsun" deyib üzümə qəmli ifadə verdim.

Bir yas məclisində təsadüfən üzbəüz oturduq. Darıxan adamlar kimi elə hey ətrafına boylanır, kimisə axtarırdı. Mənə etinasız-etinasız baxır, elə bil, məni tanımırdı. Əvvəlcə nə cür reaksiya verəcəyimi bilmədim.

Mən özüm də eynəksiz olduğu üçün birdən-birə onu tanımamışdım. Çünki tanıdığım gündən bu günəcən tələbəlik dostumu harda görmüşdümsə, gözü eynəkli görmüşdüm və mənə həmişə elə gəlmişdi ki, eynək çoxdandan bəri onun təbii bir əzasına çevrilib. Qonşu stolda kiməsə

gülümsədi, ondan tanıdım. Dişlərini ağardıb bu cür yalandan gülümsəməyi ancaq o bacarırdı.

– Hər şey normaldı? – Məhrəm adamlar kimi soruşdum. – Əməliyyat necə keçdi? Bağışla, yanına gələ bilmədim.

– Normaldı. – Üzünün ifadəsindən gördüm ki, avtomatik olaraq saymazyana cavab vermək istəyir. Amma elə ki, səsimi, intonasiyamı eşitdi, gözlərini - rəngsiz gözlərini (sən demə, rəngsiz də göz olurmuş) həzin bir maraqla yavaş-yavaş ətrafdan yığıb üzümə dikdi, maddım-maddım baxdıqca baxdı, elə bil, nəyisə xatırlamaq istədi. Əlbəttə ki, xatırlayıb rahat köks ötürdü. – Baxıram, eynəksizsən daha, maşallah. Əməliyyatdan sonra adam tanımırsan?! Xeyirdimi?

Maraq və hətta həsrətlə baxışlarını nərdivan kimi üzümə dirəyib duranda isə daha dözmədim, bu dəfə bilə-bilə kobud olmağa çalışdım:

– Deyəsən, artıq bu bədbaxt dünyamız sənin sağalmış gözlərinə başqa cür görünür?! Mənəm, mən. Otuz illik can bir, tən ayrı qardaşın. Yəqin adımı da unutmusan. Düz eləmisən. Vecinə də alma. Sən nə birincisən, nə də sonuncu. Yəni, adam unudanlar sırasında...

O, mənim səsimi musiqi nömrəsi ifa edən çalğıçılar bundan əvvəl musiqi alətlərini yoxlayıb nəvaziş və diqqətlə dinlədikləri kimi dinləyirdi.

– Vay, vay, vay... – Əvvəlcə vaysılandı, sonra səsinə təəccüb dolu bir ahəng verdi. – Doğrudan, bu sənsən?! Sənsən. Səsini eşidəndən sonra tanıdım. İnanmazsan, mən elə indicə ora-bura baxıb səni axtarırdım, bilirdim, hökmən burda olmalısan. Amma... sən özün də, elə bil, xeyli dəyişmisən. – Zənlə gözlərini üzümə dikdi.

Məni birdən belə bir fikir sarsıtdı ki, üzümdə, gözümdə acgözlüklə gəzişən baxışları ilə o, başqa bir şey deyil, mənim özümü deyil, ancaq mənim səsimi axtarır.

Yas yerindən birlikdə çıxdıq. Yolda qoluma girib mənə dərdini danışmağa başladı.

Dostum gözündəki əməliyyatdan sonra artıq heç bir köhnə tanışını tanımırmış. Üzlər onun üçün başqa, tamam yeni üzlərə çevrilmişdi. Yollar, küçələr, binalar da həmçinin. Öz evlərinə gedən yolu da unutmuşdu,

evlərini də, yaşadığı mənzili də. Bu hələ harasıdı, arvadını, uşaqlarını da əməliyyatdan sonra ancaq səsləri vasitəsilə bir-birindən seçirdi.

– Əvvəl-əvvəl bilmirdim, vəziyyətdən necə çıxacağam. Yaxşı ki, məni xəstəxanadan evə bizimkilər gətirdi. Yoxsa evi necə tapacaqdım, inanırsan, təsəvvür eləmirdim. Evdəkilər mənə eynən paravoz Anna Kareninaya baxan kimi baxırdılar. – Bu sözləri deyib şit-şit dişlərini ağartdı.

Bu, curluq etdiyimiz köhnə zamanlardan bu günəcən yeri gəldi-gəlmədi aramızda işlətdiyimiz nimdaş bir zarafat idi. Mən bu dəfə ona qoşula bilmədim, çünki beynimə bir qəribə fikir girmişdi, məni əyri-üyrü yollara çəkirdi.

– Mən indi çalışıram, yenicə tanıdığım adamların ən əvvəl səslərini, sonra üzünü-gözünü yadımda saxlayım. Asan deyil. Bayaq özün yas yerində gördün ki... Səni, səni tanıya bilməmişdim. – Özünü yığışdırıb köksünü ötürdü və nədənsə mənim qolumu bərk-bərk sıxdı.

Daha belə fürsət ələ düşməzdi. Hökmən bu məsələni öyrənməliydim. Həqiqətənmi, bu saat onun qarşısında duran adam, yəni, mən əməliyyatdan əvvəlki mən idim, yoxsa yox?! O vaxtkı mən ilə indiki mən arasında fərq var idimi, əgər var idisə, nə dərəcədə idi?! Bunu ondan yaxşı heç kim bilə bilməz. Özü axı bayaq belə dedi: sən də, yəni, mən də dəyişmişəm, həm də tanınmayacaq dərəcədə. Üzbəüzümdə oturduğu halda, gözlərini üzümə dikdiyi halda məni ora-bura boylanıb kənarda axtarırdı...

O mənim sualımı əvvəl-əvvəl doğru-düzgün başa düşmədi. Tez cavab verdi:

– Axı dəyişən sən deyilsən, mənəm. – Bu tələsik cavabla mənə elə gəldi ki, o, boynunu məsələdən qaçırmaq istəyir.

Amma mənim izinə düşmək istədiyim bir başqa müəmma idi. Və mən inadımdan dönməyəcəkdim.

– Qulaq as mənə. Sən məni bayaq yasda üzümə baxa-baxa tanımadın, eləmi?

– Əvvəl-əvvəl sifətini yarıyacan kölgə tutmuşdu... - Bu bir bəhanə idi. Üzünü yana çevirdi.

– Bura bax... – Mən onun paltosunun yaxasından yapışıb üzünü üzümə çevirdim və təkidlə gözlərinin düz içinə baxdım. Ürəyimi sanki neştər çaldı. Gözlərində həmişəki eynək yox idi deyin, indi bu adamın gözləri onun üzündə süni əza kimi idi. Adamın qəlbinin, ruhunun içinə nüfuz edir, qırılmış kompas kimi belədən belə, elədən elə fırlanırdılar.

O məsələnin mənim üçün nə qədər ciddi olduğunu əllərimlə paltosunun yaxasından tutub silkələyəndə, deyəsən, anladı. Birnəfəsə üyütməyə başladı:

– Sakit ol, səsin ki, var, mənim üçün sənin səsin həmənki səsdi. Bu yetər. Mən sənin səsindən yapışıb səni tanıdım... bu bəs deyil?! – Az qala yalvarırdı. Yaxasından ki hələ də bərk-bərk yapışmışdım, buraxdım. O, günahkar adam kimi baxışlarını yenə də məndən gizləyə-gizləyə sözünə davam elədi. – Yaxşı. Yaxşı. Deyəcəyəm. Sən özün bunu istədin. Amma məni qınama. Bilmək istəyirsənsə, mən səni indi də tanımıram. Səsin olmasa idi, yəni, sən sussa idin, hələ də tanımayacaqdım. Elə bil, kimsə, başqa bir kimsə amma sənin köhnə səsinlə mənə dedi: səsimdən yapış.

Mən nəfəs dərmədən ona qulaq asırdım. O isə get-gedə kəskinləşən və yadlaşan səsiylə deyirdi:

– Bax, indi sən özün, biləsən, o vaxtkı sən deyilsən. O vaxtkı sən nooldun, bunu mən bilmirəm. Sənə elə gəlir, sən osan. Sən isə o deyilsən. Bu gün mən səni görüb tanımayanda sən artıq o deyildin. Yasdan sonra sən bir başqasısan. Bəlkə də, yasdan daha əvvəl başqası idin, amma bunu bilmirdin?! İndi bildin?! Ağlın artdımı?! – Onun səsində artıq bir istehza var idi.

Qəribə idi, amma mən artıq sakitləşmişdim. Əlimi aparıb onun paltosunun ora-burasını düzəltdim, qırışlarını tumarladım. "Bu adamın ağlı uçub gedib ki. Necə yəni, səsimdən yapış?! Gör məni haralarda azdırmaq istiyir..." – düşündüm.

Ayrılmazdan əvvəl son dəfə diqqətlə gözlərinin içinə baxdım. Xatırlamağa çalışdım. Yox ki, yox. Bu rəngdə gözləri mən, vallah və billah, heç haçan görməmişəm. Bu rəngin adını da tapmaq çətin idi. Hər rəssam rəngi rəngə qarışdırıb onu ala bilməzdi. Bu rəngin arxasında etibarlı

istehkam kimi gizlənmiş gözlər isə... artıq mənim ürəyimin düz içinə, qanıma, canıma tuşlanıb beynimi deşirdi... Ümumiyyətlə, bu adam kim idi və mən indi onunla niyə yolun ortasında durmuşam və nədən söhbət edirəm – onu da anlamadım. "Yasda üzbəüz oturmuşduq, tanış da olmadıq, mənasız-mənasız danışırdı. Adi yasiçi söhbət... Çıxanda ilişdi mənə, buraxmadı..."

Ondan, nəhayət, ayrılanda elə bildim ki, ağır bir bəladan canımı qurtardım. Rahatlıq içində evimə tərəf yol aldım. Bütün ruhuma hakim kəsilmiş, amma əsla tanış olmayan bu qəribə rahatlığın içində mənə elə gəldi ki, vampirlər qan axtaran kimi onun da səs axtaran baxışları mənim qanımda-canımda hələ də ilişib qalıb və mənimlə bir yol gedir. Bir az da belə keçdi və mən artıq hara getdiyimi kəsdirə bilmədim. Ətrafda hər şey mənə yad kimi gəlirdi. Tanımadığım, böyüklü-balacalı binalar, geniş və əyri-üyrü küçələr belədən-belə, elədən-elə baş alıb gedirdi. Mənim yaddaşıma birdən-birə nooldu? Mən haradayam? Ora-bura baxıram, boylanıram, ürəyim təntiyir, artıq nəinki buranı, heç haranı tanımıram. Ev ünvanım niyə yadımdan çıxmalıdı ki?! Evdə axı mənim gözləyənim var. Məni gözləməliydilər. Amma kim? Kim məni gözləyəcəkdi? Mənim evim vardımı, yoxdumu? O harada idi?! Yavaş-yavaş hiss edirəm ki, əvvəlki kimi düşünə də bilmirəm, fikirlərim bir-birinə ilişir. Bayaq danışdığım dili də yavaş-yavaş unuduram. Mən kiməm?!

...O, ürəyi hövlnak dar bir küçə ilə dörd tərəfinə boylanaraq tələsə-tələsə gedir, hərdən qaçıb geri qayıdır, hansısa həyətə yenidən baxır və bu ara nigaran gözlərilə nəyi isə, kimi isə axtarır. Nəhayət, əlbəttə ki, haldan-heydən düşür, bir balaca evin yöndəmsiz qapısı ağzında yekə bir daş var, əlacsız, ümidsiz halda o daşın üstünə oturub öz-özü ilə anlaşılmaz bir dildə nəsə danışır, dərindən köksünü ötürür, əllərilə başını qucaqlayır və beləcə donub qalır.

*2016-cı il*

# Hacı Mir Həsən ağa Səyyah

1455-ci ilin şaxtalı bir qış gecəsi idi. Hacı Mir Həsən Ağa Səyyah yoldan-izdən, gözdən-nəzərdən uzaq bir dağın köksündə yara kimi açılmış Hüngür mağarasında özünün təkcənəlik vaxtına bürünüb bir soyuq daşın üstünə oturmuşdu. Qarşısında günortadan qaladığı ocaq var idi. Ocaq artıq özünün son alov parçasını mağaranın qara divarlarına təntənəli bir tərzdə elə indicə göndərdi, parıldaşan dili ilə onları bir anlıq nura qərq elədi və bu zaman divarda cürbəcür kölgələr peyda oldu, guya ki, burda çox adam var idi, təkcə Hacı Mir Həsən ağa deyildi. Səyyah yenicə tamamladığı və bir yekə kağız qalağından ibarət olan bu qalın əlyazmanı dizlərinin üstündə bərk-bərk sıxıb tutmuşdu. Bir az əvvəl biriminci səhifənin üst tərəfində öz adını, sonra da əsərin adını xətt sala-sala yazmışdı: Hacı Mir Həsən ağa Səyyah – "Sirlərin sərgüzəşti". Gözlərini bu yazıdan çəkə bilmirdi.

Onun illər əvvəl hamıdan aralanıb tərki-aləm olmasının və bu gözdəniraq mağaraya sığınmasının əsl səbəbi uzun və iztirablı günlərinin, gecələrinin bəhrəsi olan bu qorxulu yazı idi. Onu yazmağa başlayandan az sonra şəhər əhlinin təhdid və hədələrindən, tənə və təqiblərindən, evinin yandırılmasından, küçədə gedərkən arxasınca təngnəfəs gələnlər tərəfindən az qala daşqalaq edilməsindən sonra, nəhayət, bir zülmət gecə yarıyanmış evinə yapışıq töylənin birküncünə qısıldığı vaxt gizlicə gəlib onun həyətinə girənlərin açıq-aşkar belə bir söhbətini eşitdi. Və o söhbətdən sonra Səyyah, nəhayət ki, qəti qərara gəldi.

O ulduzsuz zülmət gecə həyətə üç kişi girmişdi. Əvvəl-əvvəl öz aralarında yavaşdan danışırdılar. Səyyah təkcə qulağı ilə deyil, bütün vücudu ilə bayırdan gələn və ürəyinin döyüntüsünə qarışan bu səsləri tutmağa, eşitməyə çalışırdı. Bu elə də çətin olmadı. Çünki mövzu bəlli, bu adamların nə dedikləri yaxşı məlum idi. Təzə bir şey demirdilər, bütün şəhər əhlinin yek fikrini dilə gətirirdilər. Şəhərdə hər kəs müqtədir bir mirzə və alim kimi tanınan, dünyanın hər bir yerində olub və bu yerlərdən hikmətlər öyrənib özü ilə gətirən Hacı Mir Həsən ağanın yenicə yazmağa girişdiyi "Sirlərin sərgüzəşti" risaləsini bilxassə özünə qarşı bir qəsd hesab edirdi. Hər kəsin ki sirri var idi, o sirri bu şəxs ordan-buradan, bəzən yaxından, bəzən də getdiyi uzaq ölkələrdən hansısa üsul ilə öyrənib aləmə faş eləməyə başlayacaqdı. Sirri-əzimlərin aşikar olacağı gecəni Səyyah bir dəfə şəhər əhlinin seçmə adamlarına vəd eləmişdi. Bunu onun öz dilindən eşidənlər olmuşdu və xəbər ildırım sürətilə dörd bir tərəfə yayılmışdı. İndi anlayırdı ki, səhvin böyüyünü elə bu zaman edib. Təlaş və tüğyan edənlərin sayı bir deyildi, yüz deyildi. Buna dözmək olardımı, olmazdı.

...Həyətə girənlərdən biri onun öz qonşusu, can dostu Həsənəli idi. Həsənəli birdən-birə yanında durub pıçıltı ilə danışanların sözünü kəsdi, onlardan fərqli bir halda səsini başına atdı və xeyli ucadan səslənib belə dedi:

– Sabah son vədədi. Biləsiniz, camaatın səbr kasası daha daşdı. Onu kəsib dağda-dərədə quşlara, heyvanlara yem edəcəyik.

– Yavaş ol... – Yanındakı kim idisə Həsənəlinin bərkdən danışmağına mane olmaq istədi. Bu adamı Səyyah səsindən tanımadı.

– Bəli, doğru buyurursan. Səbr kasası daşdı. Sabah, hökmən sabah bu iş, olsun, nəhayət ki, bu adamın təhdidlərinə son qoyulsun... – Bunu deyərkən təkrarən pıçıltıya keçəni isə Səyyah tanıdı. Şəhər həkimxanasının rəisi yanında gecə baxıcısı idi.

– Sən təhdid nəyə deyirsən? De ki, böhtanları... – Yenə Səyyahın tanımadığı adamın səsi gəldi. Qonşusu Həsənəlinin gur səsi bu yerdə danışanın sözünü yenə də səbirsiz kəsərək gecənin qaranlığında parıldadı:

– Bax, sübh tezdən bu iş bitməlidi və bitəcək. Ağalar siz də gələrsiniz, bütün şəhər sel kimi bura axışacaq. Sübh tezdən ha, eşitdiniz?

– Eşitdik, eşitdik. Bağırma. Yatanı da oyadarsan...

İndiyənə qədər Səyyah anlamır ki, bu sözləri Həsənəli kimə ünvanlayıb deyirdi, ona, yoxsa yanındakılara. Ona görəmi ki, Həsənəli belə bərkdən qışqırırdı, o eşitsin?! Bəlkə də və çox güman ki, bu, belə idi. Deməli, bu iş sabah tezdən baş verəsidi. Ona ölüm fitvasını, demək ki, artıq çıxarıblar və bu, küçədə-bacada ona hücum edib söyüş yağdıranların, daş atanların kortəbii işinə bənzəməyəcəkdi. Əlbəttə ki, qonşusu Həsənəli, gənclik illərinin can və qəlb dostu bu adamların yanında belə bağırmağıyla bu xəbəri məhz ona eşitdirirdi, şübhəsiz, bu belə idi. Mağarada həvəsi olanda və keçmişdə baş verənləri acı bir yuxu kimi beynində götür-qoy etmə istəyi yarananda Səyyahın dodaqlarının ucuna xəfif bir təbəssüm qonurdu. Amma bəlkə də, belə deyildi, bəlkə də, Həsənəlinin ona nifrəti o dərəcədə idi ki, bu tənumənd kişi hislərini, hətta səsini artıq qısa bilmirdi. Bəlkə də, Həsənəli özünün o ağır sirrini heç cür unuda bilməmişdi?! Unutduğunu dəfələrlə and içib onu əmin-aman etsə də, unuda bilməmişdi. Dəfələrlə and içməyin özü elə bu sirrin unudulmadığına açıq-aşkar işarət deyilmiydi?!

Həsənəlinin sirri bundan ibarət idi ki, Həsənəli öz doğmaca anasının qatilinə çevrilmişdi. Doğrudur, bunun öz səbəbi var idi, amma səbəb sirrin özündən də müdhiş və qorxulu idi. Bu işi tutandan sonra Həsənəli adını dəyişib təğyiri-libas oldu, bir müddət hər yerdən ilim-ilim itdi. Atasının bir

dostu ki, padşahın vəziri idi, onun sayəsində yavaş-yavaş üzə çıxdı. Sonra onlar qonşu, daha sonra dost oldular. Az olardı ki, axşam yeməklərini bir-biri bahəm ya bunun evində, ya da onun evində yeməsinlər. Həsənəli uzun və uzaqdan qurdları ulaşan qış gecələrindən biri öz sirrini ona, Səyyaha açdı, bu qətlin səbəbini ancaq Səyyah bildi və Həsənəli əsl adını təkcə ona dedi, ona etibar elədi. İndi sirrin faş olmasının qorxusu deyilmiydi Həsənəlini belə qeyzləndirən?! Amma səsini başına nahaqdan atmadı, bunun bir mənası var idi. Səyyahın dodaqlarına yenə o ürkək, bu mağaraya yolazmış təbəssüm gəlib qondu. Gur yanan tonqalın alov dilləri mağaranın zil qara divarlarında oynadı.

...Elə haman gecə yanmış evinin bəzi salamat əşyalarını toplayıb vəfalı eşşəyini töylədən çıxartdı, onun belinə şellədi, bir hissəsini də öz çiyninə yüklədi. Həyətdən çıxdığında ikiqat olmuşdu, birtəhər belini düzəldib baxışını Həsənəlinin üzbəüzdəki evinə saldı. Evin işıqları yanmırdı. Bir pəncərənin pərdəsi isə yarıyacan açıq idi, elə bil, orda pərdənin arxasında kimsə durmuş idi və o kimsə gözlərini gecənin qaranlığına zilləyib ona doğru tuşlanmış baxışları ilə bu qaranlığı deşməkdə idi. Səyyah qorxudan ürəyi ata-ata məhlədən uzaqlaşıb tini döndü, amma bu zaman ürəyi dözmədi, qayıdıb başını tinin ucundan çıxardı və Həsənəlinin pəncərəsinə tərəf bir də baxdı. Bu dəfə pəncərənin ucuna şam qoyulmuşdu və onun zəif işığı gəlirdi.

Elə haman gecənin qaranlığındaca birbaşa bura, Hüngür mağarasına gəlib yetişdi. Eşşəyin yükünü boşaldandan sonra onu təkrar aparıb aşağı kəndlərdən birində bir dirəyə bağladı. Heyvanın izinə düşüb onu mağarada tapa bilərdilər. Sonra, artıq işıqlaşana yaxın Səyyah mağaraya qayıtdı, evdən imkan edib gətirdiklərini yavaş-yavaş mağaranın sol küncündə yerbəyer etməyə başladı. Bu zaman Səyyahın gözlərindən axan yaş ağarmış saqqalından süzülüb yerə tökülürdü.

O zamandan Səyyah Hüngür mağarasına sığındı. Görünür, dünyalar gəzib mərifət və əxlaq, fəzilət və iman sahibi olmuş bu şəxsin alnına belə yazılıbmış: sən öz həyatını mənalı bildiyin, amma mənasız, mənasız bildiyin, amma mənalı bir əməlin yolunda puç edəcəksən. İllərlə

qazandığın hörmətini və izzətini gəlib beyninə girmiş və səni gecələr yatmağa qoymayan, ürəyində hövr edən boş bir amalın uğrunda bada verəcəksən. Sirləri açmaq, sonra da çözmək, səbəb və nəticələri bir-birinin yanına düzmək istəyəcəksən. Düşmənlərini sevindirəcək, dostlarını pərt edəcəksən. Və ömrünə burada, heç kimin görüb tapa bilməyəcəyi, Allahın da unutduğu bir mağarada son verəcəksən. Uşaqlıqda elə hey eşidərdi, deyirdilər, bu mağarada qorxulu bir ruh gizlənib. Müdhiş bir tilsimi var buranın. Buna görə ətraf kəndlərin adamları belə bu yerdən kənar dolanmağa çalışırdılar, ondan yan keçirdilər. Bura gələn cığır çoxdan itib yox olmuşdu. Mağara zaman-zaman tamam qərib bir yerə dönmüşdü. Bir də onu deyirdilər ki, mağaranın divarlarında qorxulu yazılar yazılıb. Amma Səyyah bu yazıları nə qədər axtardı, görə bilmədi. Bəlkə, qaranlıq idi, ondan, amma bəlkə də, gözləri artıq yaxşı seçmirdi, ondan. Təkcə onu seçə bildi ki, mağaranın divarlarında ayrı-ayrı yerlərdə çiçəyə oxşar ləkələr var. Bu ləkələr çox hündürdə idi, bəzi yerlərdə silinib pozulmuş kimiydilər və Səyyah onları əhəmiyyətsiz saydığından daha bu ləçəklər barədə düşünmədi, Səyyah onları unutdu.

Zaman beləcə keçib getməyə başladı. Aylar, illər – sürətlə, günlər, saatlar – zülümlə, yavaş-yavaş. Onu dəli olmaqdan xilas edən bir şey var idi, o da yazdığı və bu zaman özünü unutduğu əlyazma idi. Bir də onun özü üçün uydurduğu, əslində, onun yox, buralara yaxın Görükməz təpə deyilən yerin altındakı Sehirbazlar dərəsinin sakinlərinin özləri üçün uydurduqları, nə zamansa onu da buna inandırdıqları "təkcənəlik" deyilən vaxt. O artıq bu vaxtın içinə girməyi bacarırdı. Əvvəl-əvvəl çətin olurdu, çünki nəfəsini lazım olan qədər içinə yığıb saxlaya bilmirdi. Yavaş-yavaş, inadla məşqlər etdi, dərədəki sehirbazların təlimini xatırladı və istədiyinə nail oldu. İndi artıq təkcənəlik vaxtının içinə girib yazdığı mətn özü quş kimi uçub onu arxasınca çəkib aparırdı. Özü ilə gətirdiyi vərəqlər, saatbasaat, günbəgün qaralır, onun binayi-əzəldən bərbad, əyri-üyrü xətti ilə dolurdu. Mağara geniş idi deyin, durub içində gəzişə bilir, bu zaman dünyanın gəzib gördüyü ayrı-ayrı şəhər və məmləkətlərini bir daha gözləri önünə gətirir, vaxtın qədim bir düyünündə qalmış uzaq ölkələrin

rayihəsini, elə bil, burnunda, dadını damağında dilində hiss edirdi. Amma yaxınlarda baş verənlər yadından çıxmağa başlamışdı. Niyə bura qaçıb gəldiyini də artıq güclə ya xatırlayır, ya xatırlamırdı. Bir şeyi isə dəqiq bilirdi. Mağara onun xilas yeridir və buranı tərk etmək olmaz. Qulaq verərdi, mağaradan kənardakı səsləri bir-birindən ayırardı. Əsasən, yaxınlıqdan qurd-quş səsi gələrdi, uzaqlarda at kişnər, bəzən qoyun-quzu mələşərdi. Bu səslərə uyğun olaraq günün vaxtını və yaxınlıqda kimsənin olub-olmamasını ayırd edib ayağını mağaradan kənara qoyar, bir, ya iki saat təmiz havanı ciyərlərinə çəkərdi. Beləcənə, zaman keçdi, o, mağaraya alışdı, mağara ona. Özü-özünü azuqə axtarmağa və tapmağa öyrətdi.

Bir dəfə isə, bura gəldiyinin birinci ayının sonunda, qəribə bir iş oldu. Bütün diqqətini kağıza, qələmə verib təkcənəlik vaxtının içinə girməyə çalışdığı bir məqam idi. Birdən mağaranın ağzından ona xeyli tanış və doğma eşşəyinin səsi gəldi. Əvvəcə Səyyahın canını qorxu aldı. Amma səsdən sonra ətrafa ölü bir sükut çökdü və bu sükutun içində o, öz sevimli heyvanının səsini bir daha eşitdi. O bu səsə inanıb bayıra çıxdı. Mağaranın ağzında durub boynunu əymiş heyvanın belinə böyük bir azuqə tayı yüklənmişdi. Səyyah vəfalı heyvanı titrək, kövrək səsilə əzizləyə-əzizləyə azuqəni yerə boşaltdı. Heyvanın boynunu bərk-bərk qucaqladı, qulağına bu sözləri pıçıldadı: "Ətrafda olan hər şey ölümün min bir təzahürüdü. Sadəcə üzünə niqab tutubdu və bizdən guya ki, gizlənibdi. Qətiyyən belə deyildir. Sağa baxıram, sola baxıram, darıxıram". Sonra bir xeyli bu vəfalı heyvanın tükünü tumarladı, içini dərindən çəkib yüngülcə, sığallayırmış kimi əlini yanbızına vurdu. Heyvan itaətlə başını aşağı salıb gəldiyi cığırla dönüb geri getdi və aşağıda gözdən itdi. Sonralar, ayda bir, ya iki dəfə o heyvan gəlib mağaranın ağzında durar, fınxırtısından Səyyah bilərdi ki, azuqə payını yenə kimdisə aşağıdan göndərib. Dodağı qaçardı.

Mağaranın girəcəyi buranı xüsusi tanımayanların gözündən yetərincə gizlənmişdi. Səyyahın bu gizli mağaraya sığınması, burada yarıac, yarıtox olsa da, amma sakit və mütəvazi bir həyat sürməsi bir tərəfdən öz həyatını qoruması üçün idisə, o biri tərəfdən beynini və qəlbini deşib ona rahatlıq verməyən bu yazını yazıb sona çatdırmağın ehtiraslı həyəcanı ilə bağlı idi.

Hamıya görk olsun deyə uzun, məşəqqətli bir yola çıxmışdı. "Siz hamınız padşahınıza layiqsiniz" dediyi və padşahlarına həqqən asi olan həmşəriləri onun üçün ən təhlükəli adamlar idi və onların hamısı, əlbəttə ki, təkcə həmşərilər, deyil, bu məmləkətin hamısı əməlli-başlı onun qanına susamışdı. Adamlar amansız idilər, çünki Səyyahın ağıllı, məntiqli ittihamları onlar üçün ölümdən bətər idi. Padşahdan yox, Səyyah bu adamlardan qorxmuşdu və qaçıb canını onlardan qurtarmağa çalışmışdı. İndi isə, nəhayət, qorxu və təlaş, amma daxilindəki yüksək əzm və mətanət hesabına yazıb başa çatdırdığı bu mətn artıq, budu, doğulub. Bir qalaq vərəq onun titrəyən dizlərinin üstündədir. Səyyah bu mətnin az qala ürək döyüntülərini eşidir, nəfəsini duyur. Əlyazmanı tamamlayıb öz yaralı ürəyindən tikən çıxardan Səyyah yalnız bir şeyi dumanlı və yorğun beynində fırladıb-fırladıb ona cavabı heç cürə tapammırdı: bütün bu ağrı-acıdan sonra o indi xoşbəxtmi idi, yoxsa bədbəxt?!

Əlyazma Səyyahın dizləri üstündə özünə sakit bir ana qucağı bulmuşdu və dərin yuxuya getmişdi. Səyyah özü də heyrətli bir sükut içində idi. Əlyazmanın doğuluşundan sonra o, öz təkcənəlik vaxtının içindən çıxmağa hələ ki, tələsmirdi və qımıldanmadan yenicə doğulmuş bu əlyazmaya heyranlıqla tamaşa edirdi. Burda onun həyatı, xalqının, dövlətinin həyatı, tanıdığı, rastlaşdığı padşahların, ağaların, xanların həyatı, onların sevdikləri və nifrət etdikləri zövcələrin, sevgililərin, övladların və qardaşların həyatı, onun özünün ilk məhəbbətindən tutmuş, itirdiyi əzizlərinin həyatı, keçmiş dünyada, neçə-neçə ölkələrdə görüb tanıdıqlarının, uzaq Kəhrəbalar diyarındakı ustadlarının və şəyirdlərinin, sevib sevildiklərinin həyatı, bəlkə, dünyanın, bəlkə, kainatın həyatı öz gizlinləri ilə, öz sirləri, tilsimləri, möcüzləri ilə onun, ancaq onun qəlbindən, gözlərindən keçib, dilinə, ağzına, sonra da qələminin ucuna hərdən göz yaşı, hərdən də qəhqələrlə axıb sözbəsöz, cümləbəcümlə bu lənətə gəlmiş, amma yenə də sevimli vərəqlərə bir sərin dağ seli kimi tökülmüşdü. Səyyahın vücudu soyuqdan titrəyə-titrəyə qalmışdı, ancaq Səyyahın üşüməyi yox idi. Buna səbəb əlyazmanın tamamlanmasından dolayı vücuduna yayılan həzin və hıçqırıq dolu bir hərarət idi. O, donmuş

əllərini hərdən əlyazmadan aralayıb ağzından çıxan şaxtalı nəfəsinin buğu ilə isidir və qarşısında nə zamansa gur tonqal kimi çatılmış bu böyük kül yığnağına yorğun bir baxışla göz qoya-qoya, dodağının ucunda haman yolazmış təbəssüm beynindən bunu keçirir:

"Bura niyə belə qaranlıq zülmətə döndü?! Bu mağaranın ki, içi həmişə gur işığa qərq olardı?! Bu tifil ki, yatıbdı, yuxudan axı ayılar və bu qaranlıqdan qorxar..."

Səyyah əlyazmanın dərdini çəkir. O unudubdu ki, bu, bir uşaq deyil, bu, bir kağız topasıdı. Amma yox. Onun beynində yenə də iki şey bir-birinə qarışır. İndi də ona elə gəlir ki, qucağındakı kağız topası deyil, uşaqdı. Və Səyyah artıq sönmüş tonqala baxıb bu dəfə də belə düşünür:

"Görəsən bu lənətə gəlmiş, amma dünyanın ən gözəl yaranışı olan, içi ilan-qurbağa dolu yazını artıq közərən və sönməyə tələsən və elə indicə sönməyə hazır olan bu tonqalın içinə atsam, onu yenidən alışdırıb gur işığını bir daha görə billəm, yoxsa, yox, görə bilmənəm?! Bu tifil də gözlərini açandan sonra haman işığı görə bilsəydi, nə dərdim, qoxmazdı..."

Barmaqları isə ondan xəbərsiz dizlərinə qısılmış əlyazmanın vərəqlərini bir-bir sığallayır, sığallayır...

*2016-cı il*

# Açar söz

*Umberto Ekosun xatirəsinə*

Bir neçə polis işçisi hadisə baş vermiş mənzildə, giriş qapısının sağında həyəcandan özünə gələ bilməyən şişman südçü arvadı stula oturdub başının üstünü ley kimi almışdı. Hərəsi bir tərəfdən, yavaş-yavaş, ürkütmədən onu sorğu-suala çəkirdi. Polislər cinayət yerinə yetişəndə mənzildə ancaq o varmış. Sağdan, soldan sual sual dalınca yağırdı.»Adın, familiyan, nə işlə məşğulsan, harda yaşayırsan, bu mənzilə niyə gəldin, qətlə yetirilmiş ev sahibəsini hardan tanıyırsan, ərin kimdi, uşaqların?..» Sonra karuseldəki kimi yenidən: «adın, familiyan…»

Südçü arvad heysiz idi, bərk tərləmişdi. Tər ondan sel kimi axırdı, amma tərini silmək yadından çıxmışdı. Huşu özündə olsa da, ona elə gəlirdi ki, artıq canını tapşırıb, sorğu-sual edənlər isə inkir-minkirlərdir. Növbəti sualları hökmən bu olacaq: «Həyatın boyu neçə adamın toyuğuna «kiş» demisən?» Arvad ümidlə gözləsə də, nə «inkir», nə də «minkir» bu

sualı ona vermədi. Əvəzinə neçənci dəfə «adın, familiyan, təvəllüd tarixin…» O, təəccüb içində idi və kor tutduğun buraxmayan balaca əzbərçilər kimi təngnəfəs halətdə özü-özünə, dodaqaltı bu sözləri deyib dururdu: «Vallah, mən həyatım boyu heç kimin toyuğuna «kiş» deməmişəm. Demərəm də, o bir olan Allah şahiddir…» Bu zaman yalvarış dolu gözləri hədəqəsindən çıxa-çıxa gah «inkirin», gah da «minkirin» üzündə gəzirdi.

…Onlar (qadın və kişi) dəhşətli cinayət baş vermiş bu mənzilin aynabəndində, sorğu-sual aparılan yerə yaxın, giriş qapısının sol tərəfində üz-üzə gəldikləri zaman nə isə ürəklərinin dərin bir yerində ağrı içində qıvrılıb hər ikisinə bu sözləri pıçıldadı: «Bir-birinizə diqqətlə baxın, siz, deyəsən, bir-birinizi tanıyırsınız…»

*Qəhrəman Tesey və gözəl Ariadna küləklərin dalğalarla oynadığı bu adsız dənizin kənarındakı yarıyadək suya girmiş uca qaya başında dayanıb gözlərini bir-birindən çəkə bilmirdilər. Krit adasında üzü dənizə açılan bu müdhiş qayanın düz arxasından bir dağ ucalırdı. Qaya ilə birləşdiyi yerdə dağın ağzı, elə bil, nəyəsə bərk təəccüb edəndən sonra açıq qalmışdı. Bu, qaranlıq bir mağara ağzı idi. Düz qayanın üstündən dağın ürəyinə doğru aparan, adı dillərdə əzbər, qorxulu və böyük bir mağara ağzı. Uzaq, yaxın yerlərdən yem kimi gətirilən qul və əsirlərin qənimi yarıöküz, yarıinsan Minotavr, o dəhşətli qaniçən burada yaşayırdı. Tesey arxası mağaraya durmuşdu. Ariadna isə Teseyin arxasındakı bu boşluğa gözləri sataşdıqca ürəyi həyəcandan daha şiddətlə vururdu. Ayrılıq məqamı idi. Sevgililər vidalaşırdılar. Bir azdan Tesey Minotavrla savaşmaq üçün mağaranın içinə girib labirintin dolambaclı yollarında gözdən itəcəkdi. Tesey azacıq titrəyən barmaqlarıyla Ariadnanın küləklər qarışdıran saçlarını oxşaya-oxşaya nəvazişlə dedi:*

*— Mən gözəl Ariadnanı sevdim…*

*– Mən də səni sevdim, qəhrəman Tesey. Sənin qayıtmağını mən elə burada, mağara ağzında lal-dinməz durub illər gəlib keçə yenə gözləyəcəyəm. — Gözəl Ariadnanın ürəyi atlandı.*

*– Allahlar bunu istəsə, mən geri dönəcəyəm. Sənin verdiyin bu ipi aça-aça dönəcəyəm.*

*— Mən inanıram, sən bu savaşdan qalib çıxacaqsan. Allahlar kömək edəcək və Tesey Minotavrı yenəcək. Mənə verdiyin sözü isə unutma. O, vacib sözdür.*

*— Unudarammı? Biz ikimiz də bu mənfur adadan birlikdə çıxıb gedəcəyik. Sən mənim məmləkətimdə kraliça olacaqsan!*

*– Ah, qəhrəman Tesey…- Gözəl Ariadna Teseyə qısıldı.*

*Dalğalar şaqqıldaya-şaqqıldaya özlərini qayanın dibinə çırpıb onların son sözlərini eşidilməz etdi…*

— Bu bir cinayətdir. -Kişi fikirli-fikirli dedi.

— Yox, bu, bir intihardır.- Qadın etiraz etdi.

— İntihar üçün səbəb lazımdır. Heç kəsin belə səbəbi ola bilməz. Mümkün deyil!

— Hər intihar etmək istəyən adam intihar etmək üçün min səbəb tapar.

— Min səbəbin hamısı bir yerdə yenə belə dəhşətli nəticəyə gətirib çıxarmaz.

— Sən əvvəlki kimi … Çox sevirsən e, mübahisəni. Dəyişməmisən. Bu barədə danışmaq istəmirəm. — Bir an sonra isə qadın partladı. — Belə cinayət olar??? İntihardı…

— Sən də dəyişməmisən. Təkcə gözlərinin rəngi … yaşıla çalmağa başlayıb. — Kişi söhbətdən qaçırdı, amma o da özünü saxlaya bilmədi. — Olar! Gör səbəb nə boyda imiş…

Qız qalasının arxa tərəfindəki kolabənzər koppuş ağacların kobud nəvazişlə araya aldığı balaca çayxanada bir kişi və bir qadın üzbəsurət oturub çay içə-içə — qıraqdan baxana elə gələrdi ki, bunlar dostcasına söhbət edirlər — tənbəl və süzgün baxışla bir-birinin üzünə baxır, sonra eyni tənbəl və süzgün halda baxışlarını yana qaçırır, bir-birindən doyub-usanmış neçə illərin ər-arvadı kimi özlərini aparırdılar. Yenə də qıraqdan baxana elə gələrdi ki, yolçəkən gözlərinin altı torba salmış, çəkdiyi siqareti axırıncıymış kimi acgözlüklə ciyərinə deyil, bütün varlığına sümürən, yorğun halda o tərəf, bu tərəfə baxıb, elə bil, kimisə gözləyən bu kişi yamanca darıxır. Onun qarşısında ədalı şəkildə ayağını ayağının üstünə

aşırıb oturmuş sığallı, sahmanlı, dəbə uyğun bədəninə az qala yapışmış alabəzək, qolu və sinəsi açıq paltarının ora-burasını, ətəyini tez-tez sığallayıb düzəldən qadın isə (nə zamansa ona yaraşıqlı da demək olardı, indi isə o, həyəcanlı idi…) kişini yeni söhbətlərə çəkmək üçün bəhanə axtarır. Amma bu, ilk baxışda belə görünürdü. Bir qədər sonra aydın olacaqdı ki, bu heç də belə deyil. Qıraqdakı stolun arxasında oturub gözündə eynək, başını qarşısındakı nə zamansa təəccübdən ağzıaçıq qalan kompüterə soxmuş, amma bu iki nəfəri gizli-gizli süzən yaşılköynək oğlan üçün qəflətən hər şey dəyişdi, yəni, qəflətən hər şey ona aydın oldu.

Həm kişi, həm də qadın qıraqdan kiminsə onlara kəsik-kəsik baxdığını hiss elədi. Hər ikisinin beynindən eyni fikir keçdi." Mən niyə belə edirəm?! Niyə bu adamla belə soyuq danışıram?! Bu görüşü axı mən illərdi həsrətlə arzulamışam. Məgər belə deyil?!"

– Belədi.

– Belədi…

Eşidilməz sualın cavabına eyni anda dilləndilər. Və bu zaman bir-birinin tələsik, hövsələsiz cavabından hər ikisi diksindi. Hələ bir utanan kimi də oldular. Qadın birdən-birə üzünə hardansa gəlib qonmuş yalançı şəfqətlə kişidən soruşdu:

– Heç demirsən, necəsən, nə təhərsən? Nəylə məşğulsan?!

– Soruşmursan, necə deyim?! Pis deyiləm. Redaksiyadayam. Sən necəsən, neynirsən? – Kişi verdiyi sualı elə o dəqiqə unutdu. Üzünü çevirib kompüterdə işləyən yaşılköynək oğlanı diqqətlə gözdən keçirdi.

– Mənəm də… – Qadın, nəhayət, kişinin etinasızlığından bezdi. — Hara baxırsan? Qulaq as, gəl səninlə saziş bağlayaq.

— Yəni?.. – Kişi üzünü döndərib ona baxdı.

Qadın nə düşündüsə, birdən-birə ciddiləşdi, üzünü-gözünü qətiyyət bürüdü. Kişiyə belə dedi:

– Yənisi yoxdu. Bir müddət… bir-birimizi görməyə məhkumuq.

— Anlamadım…

— Demək istəyirəm ki, oyun oynamayaq. Nə sən geri çəkiləcəksən, nə mən. Hələ sənə mənim köməyim də dəyə bilər. Elədi???

– Elədi…

Kişinin səsindəki əlacsızlıq qadına sirayət etmədi. O, qətiyyətini hələ də qoruyub saxlayırdı. Tələsik bir halda kişinin son sözündən tutdu:

— Deməli, hər şeyi unuduruq, biz səninlə ilk dəfədi görüşürük, şərtləşdik?

— …

— Deməli, şərtləşdik? — Qadın inadcıl idi.

– Şərtləşdik, deməli.

Bu söz oyunu bir anlıq hər ikisinə artıq keçmişdə qalmış asudə və könül rahatlığı ilə dolu əziz günləri xatırlatdı. Sözlərin yerini dəyişib bir-birilə şıltaq uşaqlar kimi ecəşmələri evliliklərinin təzə vaxtında tez-tez olardı. Qadının ürəyi atlandı.

*…Teseyi gördüyü andan Ariadna ona ürəkdən vurulmuşdu. Bilirdi ki, Krit adasının hakimi atası Minos Teseyi aşkar ölümə göndərir. Hətta Tesey mağaranın ürəyinə qədər gedib bədheybət Minotavrı tapıb ona qalib gəlsəydi belə, o, yüzlərlə yolu bir-birinə dolaşıb-qarışan bu labirintdə azacaqdı, geriyə, işıqlı dünyaya çıxmaq üçün əsas olan yeganə yolu tapa bilməyəcəkdi. Ariadna xəlvətə salıb Teseyə dedi:*

*— Sən Minotavrı axtara-axtara labirint yollarında azacaqsan. Bunu düşündünmü?*

*— Moyralar alın yazımı nə cür yazıblarsa, elə də olacaq. Başqa çıxış yolum yoxdur.*

*— Amma çıxış yolu var… — Gözləri işıldayan Ariadnanın şəhvətli pıçıltısında qəribə və həzin bir ümid titrədi…*

*Teseyin baxışları yad sahillərinə üzüb gəldiyi adsız dənizin lal suları üstündən qartal kimi qanad çalıb uzaqlara zilləndi. Şəhər akropolunun önündə ağ libasa bürünərək tərpənməz durub onu — illərdən bəri həsrətində qalıb güclə tapdığı öz doğma oğlunu ölüm-dirim səfərinə göndərmiş atasının bədbəxt xəyalı gözünə göründü. Labirintdə onu nə gözləyirdi?! Vəhşi Minotavrla döyüşdən Tesey salamat çıxacaqdımı?! Tale onu yenidən doğma yurduna, atası kral Egeyə qovuşduracaqdımı? Geri dönəsi olsa atasına verdiyi vədi yerinə yetirərək gəmisinin dor ağacından ağ yelkən qaldırıb onu havada dalğalandıra biləcəkdimi?!*

*— Məni diqqətlə dinlə… — Ariadnanın məşum səsi çox-çox uzaqlardan, az qala Olimp dağının ətəklərindən gəldi…*

Ağzıaçıq kompüterdən gözlərini ayırmayan yaşılköynək oğlan qadınla kişini unutmuşdu. İki stol o tərəfdə oturub açıq, bəlkə də gizli bir ləzzətlə söhbət edənlərdən biri — yavaş-yavaş yaşlılıq yoluna qədəm qoyan, amma yaşlanmaq istəmədiyi hər hərəkətindən görünən Nazilə adlı bir xanım idi. Bu xanıma hələ də cazibədar demək olardı. Belə görünürdü ki, özünə son dərəcə inamlıdır, amma orası da vardı ki, bu inamın Nazilə xanımla üzbəsurət əyləşib xırda qurtumlarla çayını içən dalğın baxışlı, sıx, qısa saçları tamam ağarmış, sivri burnunu başını sağa, sola aparmaqla, əlinin içi ilə tumarlaya-tumarlaya gizlətməyə çalışan bu kişiyə (kişinin adı Səlim idi) heç bir dəxli yoxdur. Hətta belə demək olardı — Nazilə xanım nə qədər gizlətməyə çalışsa da, hiss edilirdi ki, əslində, o, həyəcanlıdır. Səlimin isə fikri başqa yerdə idi.

— Bığları neylədin? Cavan görükmək istəyirsən?

— Ola bilər. Səninlə nə zaman ayrıldıq? Yeddi il olar, ya…

— Ola da bilər, olmaya da. — Nazilə xanım bu sözləri süni bir etinasızlıqla dedi və elə o dəqiqə də özünə bərk acığı tutdu. Heç hənanın yeridimi, yeri deyil. Pərtliyini gizlətmək üçün sərt bir hərəkətlə başını yelləyib saçlarını üzünə dağıtdı, sonra da onları alnından, üzündən yığıb təkrar səliqəyə salmağa başladı.

— O zaman qırxdım getdi. – Səlim qarşısında məlul-məlul oturub gizli bir həsrətlə (həsrətlə, əlbəttə, həsrətlə!) ötən günləri xatırlamağa çalışan bu qadına ötəri bir nəzər saldı, yenə də tələsmədən əlindəki armudu stəkandan bir qurtum alıb, stəkanı səliqəylə qaytarıb nəlbəkiyə qoydu. Kompüterdə yazan oğlan ətrafda heç kim yoxmuş kimi əllərini ləzzətlə yana açıb gərnəşdi.

— Hər sən yadıma gəlib düşəndə, birinci bığların… — Nazilə xəfifcə pıqqıldadı. Səlimin isə dodağı yüngülcə qaçdı.

Səlimin dilinin ucuna gəldi və o, bir istədi, soruşsun, «deməli, yadına düşürmüşəm», amma «lənət şeytana» soruşmadı. Köhnə yaralar qaysaqlanıbsa, onları qoparmaq təkcə ağrı deyil, günah kimi bir şeydir.

Bu iki nəfəri bu gün çox qəribə, əcaib bir hadisə görüşdürmüşdü. Amma yox, qəribə olan bugünkü hadisə deyildi. Qəribə olan bir-birindən ayrılalı yeddi il ərzində nə küçədə, nə bir məclisdə bir dəfə də olsun bir-birini görməmələri — bax, bu idi əsl qəribə olan. Bir ixtisasın sahibi idilər, Universitetdə hüquq fakültəsində, daxil olandan bitirənə qədər, bir yerdə oxumuşdular. Sonuncu kursda evlənəndən sonra Nazilə uzun müddət (boşanana qədər) işləməsə də, tələbəlik illərində aldığı möhkəm bilik üzücü beş ildən sonra işə düzələn zaman karına gəlmişdi. Bu gənc xanımın hər hansı mürəkkəb məsələnin təsadüfi hallarından bacarıqla yan keçib məğzinə nüfuz etməsi, istintaqın qayda-qanunu, sahman-səliqəsilə yanaşı, dərin psixoloji məqamlarına da cəsarətlə baş vurması onun professional, təcrübəli həmkarlarını səmimi-qəlbdən təəccübləndirirdi. Nazilə insanların taleyini həll edən çox ciddi bir təşkilatın (prokurorluğun) köhnə, dolanbac dəhlizlərində yaşlıların onu çağırdığı «ay mənim qəşəng balam»dan «Nazilə xanım»a çox tez çevrildi.

...Səlim və Nazilə dastanını bir daha xatırlamaq, ayrı-ayrı xırdalıqları nəzərə almadan bu dastanı bütün möhtəşəmliyi ilə bərpa etmək hər ikisi üçün asan deyildi. Amma onlardan asılı olmadan söhbət zamanı bir-birinin üzünə, gözünə, saçına, əlinə baxış baxış dalınca sataşdıqca bu dastan öz möhtəşəmliyilə yenidən, bir daha məqam-məqam sanki havada hansısa gözəgörünməz enerji kombinasiyalarında canlanır, dağılıb yaddaşın müxtəlif yuvalarına səpələnmiş bu qırıntılar ağrılı və tanış hissələrə çevrilir, indi burada oturmuş Səlim Nazilənin arxasında, Nazilə isə Səlimim arxasında çoxdan unudulmuş əhvalatları, vaqeələri həqiqətən seçib görməyə başlayır, sözləri, cümlələri, hətta onların o zamankı deyiliş intonasiyasını yenidən eşidirdilər. Umu-küsülər, tikənli-neştərli atmacalar, hədyanlar yenidən yada düşürdü. Eynən zəhlətökən ağcaqanadlar adamdan bu cür əl çəkmirlər.

Beləliklə, Nazilə yarıciddi, yarışuxluqla soruşdu:

— Təzəlikcə bığ saxlayırsan?

— Səninlə yollarımız ayrılan vaxtdan bəri…- Səlim əlindəki armudu stəkandan bir qurtum alıb zənlə Nazilənin düz gözlərinin içinə baxdı.

…İndi o bu nimdaş çayxanada oturub tənbəl-tənbəl yaxından, uzaqdan gəlib keçən adamlara baxırdı. Qabağındakı kompüteri az qala unutmuşdu. Çayxana həyətinin sağ küncündə qollu-budaqlı tut ağacının sıx-sıx bir-birinə yapışmış yarpaqları arasından süzülüb boynunu, qollarını işıq zolaqları dolaşırdı. Birdən yol tərəfdən səs gəldi. «Sən məni ötə bilməzsən, heç haçan ötə bilməəəəəzsəəəən!..» On-on iki yaşlı bir qız uşağı yolun başında göründü. Sürətlə çayxanaya tərəf qaçan bu qızın uzun saçları havada paraşüt kimi açılmışdı. Qızcığaz bir anın içində tut ağacının arxasından tini burularkən sürətini yığammayıb az qaldı yıxılsın. Bu an onun üzündəki qorxu dolu ifadəni Səlim aydınca gördü. Qız yıxılmadı, sürətini yığışdırıb özünü saxlaya bildi və tini birtəhər burulub gözdən itdi. O, gözdən itəndən ancaq sonra yolun başında töyşüyə-töyşüyə, ləhləyə-ləhləyə hərdən yeriyən, hərdən qaçan tosun bir oğlan uşağı göründü. Bu da olardı həmən qızın yaşında. Oğlan tini burulana qədər Nazilə baxıb gördü ki, qıza çata bilməyəcəyini başa düşən bu zavallı dodaqlarını bir-birinə bərk-bərk sıxıb gedir, özü də bıçaq vursan hirsindən qanı çıxmaz.

— Bıçaq yaralarının sayını gördün arvadın bədənində? — Nazilə laübali bir tərzdə üzünü döndərib Səlim tərəfə baxmadan soruşdu.

— Gördüm. Dəhşətli mənzərəydi. – Səlim o mənzərəni bir daha gözü önünə gətirdi. Öz mənzilində amansız bir şəkildə qətlə yetirilmiş qadının lüt bədənində saysız-hesabsız bıçaq zərbələri vardı. Cəsədi otağın ortasında üzüqoylu yerə sərələnmişdi.

…O axşam hər ikisi susqun qalıb durmuşdu. Ağıllarına gələni dilə gətirmək hər ikisi üçün çətin idi. Üzlərində-gözlərində qarışıq fikirlərin əyri-üyrü izləri var idi. Sükutu birinci Aydın pozdu. O dedi:

— Mən sən deyəni beynimdə götür-qoy elədim. Amma…

Mətanətin fayton atları kimi hərəsi bir yana çəkərək baş alıb gedən fikirləri bir nöqtədə donub qaldı. Mətanət təkcə qulaqlarıyla deyil, gözləri, ağzı, burun pərələrilə də Aydının dediklərinə diqqət kəsildi.

— Bir əmması var. — Aydın dedi.

— Nə əmma? Niyə?..

— Var bunun bir əmması. — Aydın fikirli-fikirli təkrar etdi.

Ər və arvad gecədən xeyli keçənə qədər «xosunlaşdılar». Nə danışdılar, nə danışmadılarsa, bir də o acı söhbətə boşanma gününə qədər qayıtmadılar.

Artıq o söhbətdən sonra boşanma günü də özünü çox gözlətmədi. Boşandıqları gün Aydın baxışlarını yana qaçırıb acı-acı:

— Adam gərək özünü başqalarından ağıllı saymasın. Sən elə bilirsən, mən sənin əsl niyyətini anlamayacaqdım?! — dedi.

— Nə idi o mənim «qara» niyyətim? — Mətanət az qala təngnəfəs oldu.

— Özün yaxşı bilirsən, nə idi. Mən o söhbətə qayıtmaq istəmirəm.

— Yox, niyə ki… — Mətanət var gücünü toplayıb onu boğan qəzəbini gizləməyə çalışdı. – Qurtardı o söhbət, qurtardı.

Mətanət bircə onu hiss elədi ki, ürəyinin içindən tok keçdi. Aydınla tanışlığının ilk dəqiqəsindən bu indiki ana qədər aralarında baş vermiş hər şey birdən-birə gözlərinin önündən, amma rəngini itirmiş halda gəlib keçdi. Nənəsinin sözləri özünü onun beyninə soxdu: «sidqim sıyrıldı». Mətanətin sidqi sıyrılmadı, Mətanətin pisinə gəldi. Aydın, onun Aydını gərək belə deməyəydi. Bu sözlərdən sonra biryerdəolma sonsuzluq axarından çıxıb real bir müddətin cizgilərini aldı. Ayrılma məqamının acı və soyuq nəfəsi gəldi.

*…Ayrılıq anı gəlmişdi. Ariadna var gücünü toplayaraq onu boğan hıçqırıq və göz yaşlarını saxlamağa çalışırdı. Amma əbəs!.. Səssiz göz yaşları dayanmaq bilmədən onun soyuq yanaqları ilə üzü aşağı sürüşürdü. Ayrılıq əzabının kabusu çökmüş bu çöhrəyə baxmağa Teseyin taqəti qalmadı. «Əlvida, sevimli Ariadna, əlvida,» deyə ürəyində pıçıldadı. Sonra qəti hərəkətlə əllərini qızın əllərindən*

*qoparıb Ariadnanın onun üçün gətirdiyi ağır ip kələfini yerdən götürdü, çiynindən aşırdı. Ariadna artıq neçənci dəfə dediyi sözləri bir daha tələsik təkrar eləməyə başladı: «Unutma, bu sənin xilasındı, ipi aça-aça get, sonra da onu kələfə yığa-yığa geri dön. Yalnız bu halda sən mağaradan qayıdıb işıqlı dünyaya çıxa bilərsən. Sən Minotavrı yenəcəksən. Mən səni burada, bu qayanın üstündə, bu kolun qırağında oturub səbrlə gözləyəcəyəm.»*

*Qayadan aşağıda dənizin azğın dalğaları şiddətlə özlərini qaya daşlarına çırpır, cürbəcür biçimlərdə ağ dairəciklərə çevrilən köpüklər bir-birinin içində ehtirasla əriyirdi. Nə zamansa Afroditanı doğan bu köpüklər, elə bil, bir daha canlanmaq ehtirasıyla buğlana-buğlana bir-birinə qarışır, bir-birinin içində əriyir, suların köksündə ancaq ölümsüzlərin oxuya biləcəkləri bir yazı yazaraq aşağıdan yuxarı sevgililərə nəsə deməyə çalışırdı. Təbii ki, nə Ariadna, nə də Tesey bu yazını oxuya bilmir, ağ dairəciklərə dönən köpüklərdə onlar ancaq gözəl Afroditanın şəhvət dolu surətini görürdülər…*

Bu iyrənc cəsədi ilk görən südçü arvad olmuşdu. O, hər səhər, dediyinə görə, bu mənzilə süd gətirirmiş. Böyük bir otaqda orda-burda qan ləkələri, otağın ortasında isə ayaqları tamam namünasib bir vəziyyətdə aralanmış, üzündə təəccüb dolu acı təbəssüm yapışıb qalmış bu cəsədi görüb az qala özündən gedən bu arvad keçirdiyi sarsıntıdan sonra güclə özünə gəlib ona ilkin istintaq quraraq sualı sual dalınca yağdıran polis işçilərinə artıq neçənci dəfə and-aman edirdi ki, mənzilin bayır qapısı açıq olduğundan o, qapını azca, lap azacıq aralamışdı. Bəlkə də gərək bunu etməyəydi. Əlbəttə, gərək etməyəydi. Bəs sonra, sonra nə baş verdi? Südçü arvad nəfəsini içinə çəkib içəridən bir səs-səda gəlib-gəlmədiyinə diqqət kəsilmişdi. Elə bu zaman – südçü arvad söhbətin bu yerində az qala özünü öldürürdü – «elə bu zaman içəridən, yaxından deyil, iç otaqların birindən bir səs gəldi: keç içəri, keç, qapı ağzında qalma.» O, bu səsi yaxşı tanıyırdı. Hər sabah, təxminən, saat 7 ilə 8-in arasında bir ildən çox olardı ki, o bu səsin sahibəsinə – 40 yaşına çatmış, amma hələ də 30 yaşın cazibədarlığını itirməmiş ev sahibəsi Teyyubə xanıma uzaq Yasamaldakı həyətindən öz doğmaca inəyinin südünü gətirirdi. İnəyin adı da, əgər inanmırsız, deyə

bilərəm: inəyin adı Kürəşdi. Az qalmışdı, hələ belə bir əlavə də eləsin: istəsəniz, ondan da soruşa bilərsiz. Cinayət yerinə birinci gəlib çıxmış cavan və göygöz, şeşəbığ kapitan ona nə cür baxdısa əlini «vaxsey» deyə ağzına tutub daha danışmadı. Bəli, bu səs Teyyubə xanımın səsi idi – qətlə yetirilmiş ev sahibəsinin həmişəki cod, səbirsiz səsi. «Yenə səhər-səhər siqaret çəkib…» deyə düşünən südçü arvadın bayır qapı ağzından böyük otağa, cəsədin yanına gəlib yetişməsi nə qədər vaxt ala bilərdisə (bu isə, təxminən, yarım dəqiqədən çox çəkməzdi) ev sahibəsinin bu cür vəhşiliklə öldürülməsi də düz həmən vaxta sığmışdı. Hələ südçü arvad şeşəbığ polis kapitanını çaşdıran belə bir əlavə də elədi:

— Mən dəhlizdən keçib içəri otağa girməmiş uzaqdan səsimin bərk yerinə salıb «öhö-öhö» elədim. Soruşdum, ay Teyyubə xanım, sən hardasan, içəridəsən? Bu dəfə onun səsini eşitmədim. Amma, yox… həri, həri, indi xatırladım, bu zaman, otaqdan zəif bir xırıltı səsi idi, gəldi. Mən də bu xırıltıya gedə-gedə gəlib yazığın cəsədinin üstünə çıxdım. İraq elə, pərvərdigara, uzaq elə.

Südçü arvadı «pişiyim-pişiyim» polis şöbəsinə apardılar. Sonra hadisələr yenidən çayxanada davam edir. Kompüterdə işləyən eynəkli, yaşılköynək oğlan yenə də sürətlə yazmağındadır…

— Səncə, kiminsə evə girib bu qısa vaxt içində adam öldürməsi mümkündür? Özü də ağır bıçaq zərbələriylə…

— Yox…yəqin ki…

— Onda belə çıxır ki,»ümid» qaldı südçü arvada…

— İnanmıram…

— Mən də inanmıram.

— Sən, ümumiyyətlə, bu həyatda nəyə isə inanırsan? — Söhbətin mövzusunu dəyişmək üçün bəhanə axtaran Samirənin qəfildən gizli bir qəzəblə səslənən sualı Nazimi düşüncələrdən ayırdı.

— Nə demək istəyirsən?..

— Heç… Heç nə. Heç nə demək istəmirəm. — Samirə artıq verdiyi sualdan peşman olmuşdu…

Nizami «köhnə palan və köhnə samanın» açılacağından qorxuya düşdü. Ehtiyatla Cəmilənin üzünə baxdı. Yox, onun bu həyatda baş verənləri bir daha açıb-ağartmaq, eşələmək, münasibətləri yenidən çözələmək qədər zəhləsi gedən iş yoxdur. Elə o biri həyatda baş verənləri də. Nə oldu, oldu. Olanlar bir dəfə yaşanar. Xatırlamağa nə hacət?! Buna yol vermək olmaz. Olmaz! Olan olub, keçən keçib. Cəmilə söz davasının mübariz əskəridi. Ona bu sahədə güc yetirmək mümkün deyil. Heç deyil. Adama göz görə-görə sübut edər ki, qatıq ağ deyil, qaradır.

— Sən, elə bil ki, mənə nəsə demək istəyirsən…

— Sən də, elə bil ki, nəsə eşitmək …

— Sən başla.

— Mən niyə? Sən eşitmək istəyirsən, sən başla…

Cəmilənin ürəyi şiddətlə vurmağa başladı. Səbəbini özü də bilmirdi. Zənlə Nizaminin gözlərinin düz içinə baxdı. «Bu, doğrudanmı, sənsən?» — beynindən sözlər ildırım sürətilə keçdi.- » O zaman açar sözü söylə! Söylə, açar sözü, söylə.»

— «Yox, sən söylə. Mən o sözü deməyəcəyəm.»

Nizami baxışını qaçırdı. Bu qadın açar sözü söyləsəydi, o zaman Nizaminin həyatının davamını heç kim təsəvvür edə bilməzdi. «Təki, sən olmayaydın…» -düşündü.- «Mən elə bilirdim, səni bir yox, bir neçə ömür sərasər sevmək olar.»

«Söylə, o sözü, söylə» — Cəmilə gözlərilə Nizamiyə yalvardı.

— Elədi. Sənə nəsə demək istəyirəm. Deməliyəm. Dilimin ucundadı… Yadımdan çıxıb…

Cəmilə pərt oldu. Nizami isə çaşıb qalmışdı. Hətta açar sözü xatırlamadığına sevindi.

Südçü arvadı gecədən xeyli keçənə qədər polis idarəsində saxladılar. Sorğu-sualın nə əvvəli, nə də sonu vardı. Bir şeyi on dəfə soruşurdular. Südçü arvad bir yana, sual verənlərin özləri də əməlli-başlı heydən düşmüşdülər. Şeşəbığ kapitan yorğun-arğın, əsnəyə-əsnəyə və əlbəttə ki, heç bir altməqsəd güdmədən, elə-belə:

— Yaxşı bəs, uuuxxx… cinayət yerinə birinci kim gəldi? — əsnəyərək əli ilə sinəsinə vurub az qalacaqdı ki, verdiyi sualı o dəqiqə unutsun. Südçü arvadın cavabı isə onu ahənrüba kimi özünə çəkib sabahdan bəri girib çıxa bilmədikləri bu dolaşıq labirintdə yenidən azdırdı.

— Birinci mən… hə də, otaqda olan o gəlini gördüm. Necə huşumdan çıxıb, baxırsan?! Birinci o qız gəldi. Jurnalistdi, müstəntiqdi, kimdi?! Amma mən axı heç bilmədim ki, o, necə oldu, gəldi ora çıxdı?! Çaşıb qalmışdım. Qışqırmağa da heyim yox idi. Bir də gördüm, bayır qapıdan gizlicə çıxıb gedir… — Südçü arvad bu sözləri deyib qorxa-qorxa şeşəbığ kapitanın üzünə baxdı. Elə bu zaman şeşəbığ kapitan dodağını dişlədi.

*…Elə bu zaman Minotavrın çox uzaqdan, labirintin əyri-üyrü, tanış yollarını dolaşaraq sürətlə özünü Teseyə çatdıran xırıltılı və vahiməli səsi eşidildi. Tesey bir anlıq ayaq saxlayıb təkcə qulaqları ilə deyil, bütün vücudu ilə bu səsə diqqət kəsildi. Qəbzəsi gümüşdən qısa qılıncını bir əlində bərk-bərk sıxanda o biri əlindəki ip kələfini də barmaqları qeyri-ixtiyari yumularaq eynilə o cür bərk-bərk sıxdı. Minotavrın çıxardığı səsin əcaib əks-sədası qan dondururdu. Səsə görə Minotavr yaxında olmamalıydı. Buna baxmayaraq, Tesey yenə də ehtiyatla, əlindəki ipi gözəl Ariadnanın dediyi kimi yavaş-yavaş aça-aça, ətrafına diqqətlə göz qoya-qoya yoluna davam etdi. Qarşıdan yol iki əks tərəfə ayrılırdı. Biri sağa aparırdı, o biri sola. Cəmi ikicə addım atıb Tesey sağa döndü və gözdən itdi.*

… Şəfiqə gözlərilə çay gətirən oğlanı axtardı. «Bu hara yox oldu?» deyə təəccüblə Əşrəfə baxdı. Lazım olmayanda göz qabağında gül yarpağı kimi bitib çəkilmək bilmirdi, indi isə… yox olmuşdu. Əşrəf çiyinlərini çəkdi.

— Gəl, biz qalxaq, harda olsa başımızın üstünü alacaq. — Əşrəf dedi.

– Qalxaq. – Şəfiqə ayağa qalxdı.

Çayçı oğlan elə o saat sanki yerin dibindən çıxıb onlara yaxınlaşdı və cidd-cəhdlə stolun üstündəki stəkan-nəlbəkini yığışdırmağa başladı. Şəhər satıcıları arasında dəbə düşmüş o mənasız və əttökən «təklifi» ağızucu bu da elədi:

— Qonaq olardınız…

Əşrəfin əti ürpəşdi, çayın pulunu stolun üstünə ataraq cavab vermədi.

Onlar çayxana həyətindən üzüaşağı küçəyə çıxdılar. İstinin axmaq vaxtı idi. Qızmar günəş düz başlarının üstündə qaynar qazan kimi idi. İki stol onlardan o tərəfdə başını kompüterə soxmuş yaşılköynək oğlan tənbəl-tənbəl onların arxasınca baxdı…

— İndi bunun pulunu verməyib gedək, dalımızca lələyə-lələyə düşüb gələcək… Mən belələrini yaxşı tanıyıram. — Əşrəf heç cür bu yekəbaşlığa («qonaq olun») alışa bilmirdi.

– Fikir vermə…

– Mən redaksiyaya getməliyəm. — Əşrəf üzünü-gözünü yana qaçıraraq dedi.

— Mən də gedirəm. Polisə dəyim, hələ bəlkə ora bir də qayıtdım.

Şəfiqə cinayət yerinə təklikdə getməyi, orada səbəbli-səbəbsiz vaxt keçirməyi uzun illər ağır cinayət axtarışları ilə məşğul ola-ola öz iş üsulunda adətə çevirmişdi. İndi cəsəd artıq orada olmamalıydı, yeni icad olunmuş robosensor üsulu ilə bütün otaqda, eləcə də dəhliz və pilləkənlərdə əl-ayaq izlərinin surəti artıq kompüterə köçürülmüşdü. Şəfiqə sükut içində, bir xeyli o məşum otaqda tək-tənha ora-bura var-gəl edəcək, nəyisə anlamağa çalışacaq, amma nəyi — bunu özü də bilmirdi. Adətən, belə var-gəlin nəticəsi olurdu. Özünü gah cinayətkarın, gah da caninin yerinə qoya-qoya, otaqda ən ağlagəlməz yerlərə göz gəzdirə-gəzdirə qəfildən doğru istiqamətin ona «gəl-gəl» deyən isti nəfəsini duyurdu. Şəfiqə bilirdi: əsas məsələ istiqamətin doğru seçilməsidir. İstiqamət doğru seçilirsə doğru yol öz-özünə gəlir.Ayrılmazdan əvvəl hər ikisi üzbəsurət durub yenə də nəyisə xatırlamağa çalışdılar.

— Sağ ol. Görüşərik. Bir şey məlum olsa…

— Görüşərik.

— Redaksiyanın məndə telefon nömrəsi var. Mən səni taparam. Mənə başqa bir sözün yoxdu?

— Kimin, mənim?..

— Yox, mənim. Mənə elə gəldi ki, sən mənə nə isə demək istəyirsən. «Açar sözü unutma, söylə.»

— Deyəsən yox. Bəs sən? «Açar-söz olmayaydı…»

— Deyəsən… mən də yox. Hələlik. — Şəfiqənin ürəyindən nəsə qırılıb yerə düşdü.

— Hələlik. — Əşrəfin fikri yenə də uzaqlarda idi.

Ayrıldılar. Nazilə sağa, Əşrəf isə sola getdi. Əşrəf az qala quş kimi uçurdu.

…Səlimə cinayət baş verən yerə yenidən gəlib çıxanda hava yavaş-yavaş qaralırdı. Soyumağa meyilli payız axşamı bir azdan gecəyə çevriləcəkdi. Asta-asta, tam zülmət içində mənzilə aparan dik pilləkənlərlə yuxarı qalxdı. Mənzilin açarını səhər burda olarkən şeşəbığ kapitandan almışdı, evin qapısını acdı və içəri girdi.

Mənzil kifayət qədər böyük idi. Qapıdan içəri girən kimi hündür pəncərələri binanın balaca həyətinə açılan geniş aynabəndə girirdin. Aynabənddən yol iki istiqamətə ayrılırdı — biri dar dəhlizlə hamam-tualet tərəfə, o biri isə birbaşa qonaq otağına. Otaqların qapısı həm şüşəbəndə açılırdı, həm də qonaq otağından yataq otağına qalın, tünd çəhrayı rəngdə pərdə ilə arası tutulmuş yol vardı, o yol bir-birinin içində olan o biri otaqlara aparırdı. «Burda azmaq olar» düşünüb südçü arvad qonaq otağından keçərək cəsədi elə bu yataq otağında tapmışdı. Öldürülən ev sahibəsinin səsi isə südçü arvad and-aman edirdi ki, əvvəlcə qonaq otagından gəlirmiş…

Səlimə qonaq otağında o yan, bu yana gedib var-gəl eləməyə başladı. Sağ divardakı iki pəncərədən o tərəfdə bu otağın uzunluğuna bərabər uzunluqda aynabənd idi. Deyəsən, evdəkilərin gün keçirdikləri əsas yer bu aynabənddi. Səlimə aynabəndə çıxdı. Həyətə açılan pəncərə sürahisinin düz altında balaca yemək masasının üstündə iki çay stəkanı, qəndqabı, boş meyvəqabı, iki qab, iki çəngəl…Qabların birində kəsilmiş alma dilimi çəngəlin ucunda qalmışdı. Yaralanmış almanın özü qabın yanında idi.

Stəkanların ikisində də çaylar ancaq yarıya qədər içilmişdi. Səlimə ağzında turş alma dadı hiss elədi.

Yenidən içəriyə keçdi. Qonaq otağının ortasında böyük dəyirmi yemək masası, ətrafında stullar, divar boyu içi cürbəcür servislərlə, qab-qacaqla dolu servantlar dururdu. Səlimənin diqqətini həm də o çəkdi ki, otağın yuxarı tərəfindəki divanın üstündə bənövşəyi rəngdə bir qadın jaketi atılıb qalıb. Eyni rəngdə, eyni biçimdə onun özünün belə (bəli, eynən belə) bir jaketi vardı. «Kimsə bunu görüb götürməyibsə… Bu niyə burda qalmalıdı? Öldürülənə məxsus olmamalıdı, çünki onun dolu bədəninə heç uyğun gəlməz… O zaman bu kimin jaketidi? Südçü arvadınkı da deyil — belə jaket onunçün çox… «yağlı» olardı. Səhərdən burda çalışan əməliyyatçıların arasında isə qadın yox idi. "Yaxşı, sən vurmadın, mən də yıxılmadım, bəs nə oldu?..» Səlimə başa düşdü ki, bu jaket məsələsində bir sirr var…

…Qəfildən Afətin beyninə bir iti neştər ildırım sürətilə bu yandan girib o yandan çıxdı. Ürəyinə daman şübhədən vəhmələndi. Əlini atıb yavaş-yavaş jaketin iç tərəfini o yan bu yana çevirib asılqanını axtardı. Asılqanın bir yanı qırıq idi. Bunu görən kimi Afətin ürəyi guppuldadı…

…Vaqif günün bütün sonrakı hissəsini redaksiyada oturub vaxtını ikinci, üçüncü dərəcəli qəzet materiallarının hazırlanmasına sərf etdi. Diqqəti çox dağınıq idi. Hələ də Samirə ilə bugünkü görüşün «mənfi energiyasının» təsiri altında idi. Bu qız haqqında çox eşitmişdi, amma belə yaxın ünsiyyətləri heç olmamışdı. Eşitmişdi ki, qadın olmasına baxmayaraq öz işinin professionalıdır, haqqı nahaqqa verməyəndir, dəmir məntiqi var, xeyli yaraşıqlı olması da öz yerində. Ona nədənsə elə gəlirdi ki, bu qaragöz, iti baxışlı qızı çoxdan tanıyır, amma hardan, amma necə — məsələnin bu tərəfi xeyli qaranlıq idi. Vaqif əmin idi ki, bunu məcburən də olsa hökmən yadına salacaq. Bəzən dilinin ucuna yapışaraq tərslik edib heç cür işıqlı dünyaya gəlmək istəməyən o son dərəcə vacib söz kimi bu da xatırlanacaq. Xatırlanacaq ki, Samirə ilə onu birləşdirən nədir, niyə bu qız ona birdən-birə belə doğma göründü, niyə Vaqif onun hər hərəkətini, hər sözünü yüz ilin

yaxını kimi qəbul edə bildi, niyə, niyə, nə üçün??? Vaqif heç istəmirdi, bu qadın barədə düşünsün, amma düşünməyə bilmirdi.

...Əsas olan isə başqa şeydi. Uzun zamandan bəri qəlbini verdiyi Dürdanə onun beyninin düz içində oturub Samirə ilə bağlı nə vardısa, bu istiqamətdə Vaqif nə düşünürdüsə, hamısına nəzarət edirdi. Əlbəttə, Dürdanə ondan heç nə soruşmayacaqdı. Gün ərzində Vaqifin əhvalındakı dəyişməni hiss etsə də (bunu hiss etməmək isə mümkün deyildi), bir kəlmə ilə də olsun, daxili gərginliyini büruzə verməmişdi. Dürdanə üçün dəqiq sərhəd var idi. Onun bir qadın kimi əsas prinsipi bu idi: kişinin kişi yeri var, arvadın arvad. Bəlkə də xüsusi gözəlliyi ilə bir elə seçilməyən bu qız elə bu xüsusiyyətinə görə uzun illərdən bəri bir yerdə işlədikləri Vaqifin məhəbbətini qazanmışdı. Bəli, qazanmışdı, çünki, ilk gördüyü gündən, yox, gündən yox, dəqiqədən vurulduğu Vaqif ona ürəyini açan zaman üzünün bir qırışığı da tərpənməyən Dürdanə o gecə evə necə gəlib çatdığını bilməmişdi, axşam saat səkkiz hələ olmasa da, soyunub yerinə girmiş və səhərə qədər oyaq qalmışdı — gah ağlamış, gah qəlbi fərəhdən və sevincdən şiddətlə vurmuş, gah da üz-gözündə təbəssüm şirin xəyallara dalmışdı...

Redaksiyada gün beləcə üzüntülü və dolambaclı fikirlərin axarında keçdi. Vaqif, elə bil, quyuya düşmüşdü, heç cürə oradan çıxa bilmirdi. Gizli-gizli Dürdanəyə baxır, istər-istəməz onu Samirə ilə müqayisə edir, sonra da bu müqayisəni etdiyinə görə özünə nifrət edirdi. Labirintdən çıxmaq üçün ip ucu yox idi, ip ucu...

*...Tesey Ariadnanın ona verdiyi ipi aça-aça qaranlıq labirintin yolları ilə irəliləyirdi. «Həqiqətən, bu ipi özümlə götürməsəydim, bu qaranlıq dünyadan necə qayıdıb çıxa bilərdim?! Bura eynən Aidin səltənəti kimidir.» Yenə Minotavrın müdhiş, qandonduran böyürtüsü eşidildi. Səs bu dəfə lap yaxından gəldi. Əks-səda yox idi. Hər tərəf səssizliyə qərq oldu.*

...Mənzilin içində ölü bir sükut hökm sürürdü. Afaq o otaqdan bu otağa, bu otaqdan o otağa gedib-gəlsə də uzaqdan, yaxından bu mavi jaketi gözlərilə deşməyə bilmirdi. Nəhayət, dözmədi, götürüb bir daha jaketin

astarını üzünə çevirdi. Mat qaldı. Asılqan qırıq idi. Onun jaketinin də asılqan ipi beləcə qırılıb qopmuşdu, tənbəllik eləyib tikməyə ərinmişdi. Belə… belə… Afaq otaqda sağa gedir, sola gedir, düşünür, xatırlamağa, anlamağa çalışır, amma jaketin bura necə gəlib düşməsini heç cür anlaya bilmirdi. Divanda oturub jaketi bir daha əlinə aldı, ora-burasını artıq neçənci dəfə diqqətlə nəzərdən keçirməyə başladı. Bəlkə… Yox, bu lap ağ oldu ki…

*Ata və oğul adsız dənizin kənarındakı sıldırım qayanın başında durub vidalaşırdılar.*

*— Mən səni bu uca qayanın başında dayanıb gözləyəcəyəm. Sənin gəmini, Tesey, ilk mən görməliyəm. Amma…*

*— Söylə ata, nə ürəyindən keçir, hamısını söylə, əmr et!*

*— Mən istəyirəm ki, sənin qələbə çalmağından birinci mən xəbər tutum. Amma necə?..*

*— Bunu Elladada birinci sən biləcəksən, ata!*

*— ??*

*— Ulu Zevsin köməyilə mən Minotavrı yensəm, mənim dənizçilərim dor ağacından ağ yelkən asacaqlar. Yox əgər…- Teseyin səsi kədərlə doldu.- Əgər mən bu savaşdan sağ çıxmasam və bir daha vətənə dönmək, sənin əlini öpmək mənə qismət olmasa, o zaman dor ağacından qara yelkən asılacaq.*

*Qəhrəman Teseyin atası Egey onu hüznlə dinlədi. Sonsuz qüssə və sevgi onun qəlbini doldurmuşdu. Sevimli oğlu Teseyin başını titrəyən sinəsinə sıxaraq o, yavaş bir səslə son xahişini etdi:*

*– Bircə səni bu gedər-gəlməz yoldan saxlaya bilsəydim. Amma bilirəm. Bu mümkün deyil. Yalvarıram, Tesey, unutma, geri ağ yelkənlə qayıt. Yoxsa, mən də sənin ardınca Stiks çayının sahillərinə, Aidin səltənətinə yollanacağam. Sənsiz mənə bu dünyada həyat yoxdur. Zevs köməyim olsun…*

*…Qayalardan aşağıda, adsız dənizin başqa bir sahilində dəcəl suların qoynunda kiçik bir gəmi səbrsizliklə Teseyi gözləyirdi. On iki dənizçi əllərində avar hazır vəziyyətdə idilər. Hündür qaya üstündən onları izləyənlərin nifrətli baxışları altında Tesey Ariadnanın əlindən bərk-bərk yapışaraq onunla bir yerdə yaxın daşların üstündən gəminin düz göyərtəsinə tullandı. Sevinc içində bağırışıb Teseyi*

*salamlayan dənizçilər dərhal avarları hərəkətə gətirdilər, onları əvvəlcə ehmal-ehmal, sonra, sahildən kifayət qədər aralanandan sonra isə daha dərindən və həvəslə sulara batıraraq gəmini kağız oyuncaq kimi dalğaların üstü ilə uçurdular.*

*Krit adasında dənizin içindən sıyrılan uca qayanın başında arxasını mağaraya çevirib heykəl kimi tərpənməz qalmış Ariadnanın atası Minos sürətlə uzaqlaşan gəmidən ona baxanların gözündə balaca bir nöqtəyə dönməkdə idi. Eyni balaca nöqtəyə Minosun gözlərində, nəhayət, gəmi də döndü.*

…Nə qədər ağlasığmaz olsa da, artıq şübhə ola bilməzdi. Divanın üstündəki jaket onunku idi. Jaket onun, Şəbnəmin evində qarderobdan səliqə ilə asılmaq əvəzinə burda, cinayət törədilmiş bu otaqda, divanın üstündə atılıb qalmışdı. Ağlasığası deyildi. Heç deyildi, amma belə idi.

Əlindəki jaketin astarına, üzünə yenə də diqqətlə baxa-baxa fikri qarışdı. Hansısa əyri-üyrü vaqeələr, uzaq həyatın yarımçıq məqamları yavaş-yavaş gözlərinin qarşısında canlanmağa başladı. Bəziləri tanış gəlirdi, bəziləri tanış gəlmirdi. Gördüyü isə bir röya kimiydi. Bu röyada hərdən-birdən Nadirin də surəti qaranlıqdan süzülüb çıxırdı. «Bu adamın nə işi var mənim həyatımda?!» — Şəbnəm, hələ ki, düz-əməlli bir şey anlaya bilmirdi. Nadirlə bugünkü tanışlıq, ürəyinə dammışdı ki, adi tanışlıq deyil. Nadirlə onu çox dərin qatlarda nə isə birləşdirir. Beyninin bu dərin qatlarında qəribə sözlər bir-birinə qarışmaqda idi, qəribə mənalar sayrışırdı və tanış olmayan xaotik hisslər onu artıq yormağa başladı. Niyə Nadir bu qədər doğma idi?! Nə idi bunun mənası, nə?! Yox, indi bu çözümün sırası deyil. Əsas məsələ jaket məsələsidir. Onun (onun, onun!) jaketi bu mənzildə, bu divanın üstündə niyə olsun?! O bu jaketi özü ilə bura gətirməmişdi, buna yüz faiz əmin idi. Yenə fikri qarışdı. Bəs bu uzun burun, bu uzun burunu ora-bura başını döndərməklə gizlətmək cəhdi, sözləri özünə sərf etməyəndə tez-tez, tələsik tələffüz edərək sözün sonunu «yeməsi» və bir də sözə çevrilməsi mümkün olmayan, ancaq hiss edilə bilən bir sürü başqa məqamlar… necə izah olunmalıdır?!

Kim idi bu adam?! Şəbnəmin yaddaşına söz ola bilməzdi — o, Nadirin nüfuzlu, oxunan qəzetləri az qala zəbt edən, şəhərin və ölkənin

criminal həyatı ilə bağlı bir-birindən maraqlı məqalələrini çox böyük gözlənti və həvəslə oxuyurdu. Nadirə professional jurnalist kimi simpatiyası vardı. Ancaq bu qədər. Onlar bir dəfə də olsun görüşməmişdilər. Bir-birilə bu günə qədər söhbət etməmişdilər. O zaman niyə? "Nə üçün bu adam bu qədər doğmadır" sualı Şəbnəmə rahatlıq vermirdi. Hər hərəkəti, hər sözü yüz ilin yaxın adamınınkı idi. Şəbnəm hiss edirdi ki, müəmmanın həlli dilinin ucundadır. Açar söz! Axı açar bir söz olmalıydı. Nadirlə onu faciə görüşdürmüşdü. Amma bu görüş kifayət deyildi, elə bil, bir müəmma bu görüşün ətrafında fırlanırdı. Onlar bir-birini heç cür tanıya bilmirdilər. Şəbnəmə elə gəldi ki, bir az da diqqətini cəmləsə, bir az da güc versə, nəinki Nadirlə bağlı məsələni aydınlaşdıracaq, hətta jaketinin bu mənzilə necə gəlib düşməsinin sirrini də açıb çözəcək. Bu iki məsələ bir-birilə əlaqəlidir. Kimdir Nadir? Onları bağlayan nəsə var. Hökmən var. Buna Şəbnəmin şübhəsi yoxdu…

*…Tesey bu əyri-üyrü yolların birində, nəhayət ki, Minotavrın səsini deyil, hənirtisini eşitdi və aydın şəkildə qoxusunu duydu.*

*Minotavrın Elladanı qorxuya salan vəhməsi varmış. Onun öküz başı insan bədəninə əməlli-başlı ağırlıq edirdi.Tesey var gücünü toplayıb bu əcaib varlığın əvvəlcə iki buynuzunu ələ keçirdi. Başı gülməli şəkildə yana əyilmiş Minotavrın gözləri bərələ qalmışdı, xırıldaya-xırıldaya ağzının yapışqan kimi suyu tökülürdü. O, nə baş verdiyini anlamırdı. Teseyin ağlasığmaz cəsarəti bu savaşın aqibətini çox tez həll elədi. Minotavrın başının kəsilib bədənindən ayrılması bir göz qırpımında baş verdi. Öküz başı insan bədənindən ayrılandan sonra da Minotavr dişlərini ağarda-ağarda, maddım-maddım Teseyə baxmağında idi. Tesey Minotavrın başını bir torbaya salıb dikəldi. "Allahlara eşq olsun!" ucadan səslənib torbanı çiyninə atdı, aça-aça gəldiyi Ariadnanın ipini bu dəfə yığa-yığa geriyə, labirintin girişinə doğru yol aldı…*

…Xatirələrdən heç cür yaxa qurtara bilməyən Nərminin gözü qarşısında tanış və yarıtanış vaqeələr yavaş-yavaş bir bütöv mənzərə yaratmaqda idilər. Bu balaca otaq ona heç də yad gəlmir. O burada yaşayır.

Çarpayıda onunla yanaşı uzanmış bu kişi isə onun əridir. Bu kişi, əlbəttə, Samirdir. Nərmin yalnız indi başa düşür ki, Samirə qarşı duyduğu doğmalığın əsl səbəbi hardan gəlir. Samir ona deyir:

— İstidi, yata bilmirəm. Aman Allah, bu nə təhər bürküdü…

Nərmin arxasını ona çevirib cavab vermir. Nərmin bu axşam ondan küsüb.

— Noldu sənə?.. Yenə küsdün?!

Nərmin dinmir. Samir qızın bu hərəkətinin səbəbini bilir. Arxası ona uzanmış Nərmini qucaqlamağa çalışır. Nərmin dartınıb onun qolları arasından çıxır. Samir yenə nəsə deyir. Nərminin könlünü almağa çalışır. Əslində, Nərminin küsməyi yalançı küsməkdir, bir az keçsin, bu küsməkdən əsər-əlamət qalmayacaq…

…Gözlərini yumaraq divan üstündə hərəkətsiz oturub qalmış Fəridə əlindəki jaketi ora-burasına çevirərək, elə bu yaşıl jaketin üzündə ekranda olan kimi Kərimin əsəbi halda nəsə dediyini görür, amma aydın eşitdiyi sözlərin mənasını anlamır.

— Yaxşı, yaxşı, sən nə təhər deyirsən, qoy elə olsun. — Nəhayət, Kərimin son sözlərini Fəridə eşidir və anlayır. Amma anlayan kimi də unudur. Bu an həmən yaşıl jaketin «ekranında» çayxanadakı kompüterin arxasından çəkilməyən yaşılköynək oğlan görünür. Onun üzünə hiyləgər bir təbəssüm qonub…

*Gəmi bu mənfur adanı sürətlə arxada qoymaqda idi. Ariadnadan bu cür əlacsız ayrılandan sonra Teseyin heç nə vecinə deyildi. Çaldığı qələbəni də unutmuşdu. Bir könüldən min könülə vurulduğu gözəl Ariadnanın hicranından sərxoş kimi idi. Özünü yerin dibində, Aidin səltənətində hiss edirdi. Dərin fikirlər aləminə batıb çıxa bilmirdi. Tesey unutmuşdu ki, səfərə çıxarkən atasına söz verib: əgər qələbə ilə geri dönərsə gəmisində qara deyil, ağ yelkən qaldıracaq və atasını sevindirəcək. Belə olmazsa, atası Egey özünə qəsd edəcək. Əfsuslar! Teseyin əzablı fikirləri bu balaca adada tərk edib məhv olmağa düçar etdiyi sevimli Ariadnanın yanında idi, başqa yerdə deyildi. Tesey atasına verdiyi sözü unudur.*

*...Teseyi üzüntü və səbirsizliklə gözləyən atası Egey hər gün gəlib dəniz sahilindəki sıldırım qayanın başına çıxır, gözlərilə uzaq sularda ağaran yelkəni arayırdı. Budur, Krit adası tərəfdən bir qaraltı gözə dəyir. Şübhə yoxdur, bu, Teseyin gəmisidir. Gəmi sürətlə yaxınlaşır. Diqqətlə baxanda artıq gəminin gövdəsi, göy sularda bir-birilə yarışırmış kimi batıb qalxan avarları, dor ağacı görünür. Heyhat!.. Uzaqdan oğlu Teseyin gəmisini tanıyan kral Egey dor ağacından ağ deyil, qara yelkənin asıldığını görür. «Tesey məhv olmuşdur. Tesey artıq yoxdur. Mənim yaşamağımın mənası qalmadı...» Kral Egey zar-zar ağlayır.*

*Oğlundan sonra həyatının mənasını puç sayan ata özünü qayanın başından dənizə atır. Dənizin suları kral Egeyi qoynuna alıb ehmalca itələyə-itələyə Aidin səltənətinə doğru aparır.*

Nəhayət, Aliyə və Bəhram ümumi bir razılığa gələ bildilər. İrəli sürülən plan tükürpədici bir plan idi. Bundan daha dəhşətlisini təsəvvür etmək mümkün deyildi. Amma plan hökmən baş tutmalı idi. Onlar yeni həyatlarında da bir-birini hökmən tanımalıydılar. Bunun üçün nəsə son dərəcə fövqəladə bir hadisə baş verməli idi. Bu fövqəladə hadisə onları bir-birilə görüşdürməliydi. Aralarında bir açar söz olmalıydı. Bu açar söz vasitəsilə onlar yenidən bir-birini tanımalıydılar. Açar söz vacib idi. Çünki üz-üzə gəlmək hələ bir-birini tanımaq demək deyil. Yeni həyatda bir yerdə olmaq üçün, yenidən bir-birinin qolları arasında uyumaq üçün, dodaqlarını bir-birinə yapışdırmaq üçün, sən demə, cəmisi ikicə məqama ehtiyac var: fövqəladə bir hadisəyə və açar sözə.

Onların heç biri bütün varlıqları kimi inandıqları «ölümdən sonrakı yenidən doğuluşlarında» talelərinin başqa bir adamla birləşə biləcəyini ağıllarına belə gətirmək istəmirdi. Bir şeyə, elə bir ciddi əsasları olmasa da, bir şeyə qəti inanırdılar ki, onların yeni doğuluşu da hökmən bu dünyada, hətta bu şəhərdə baş verəcək. Bundan sonrası isə «asandır» — həmən iki, cəmisi iki məqam... Xeyli müddət idi ki, Aliyənin müxtəlif təklifləri Bəhramın dəmir məntiqi qarşısında tab gətirmirdi. Aliyə belə deyirdi:

— Bəlkə və çox güman ki, biz səninlə yenə də öz evlərimizdə doğulduq. Ola bilər, ya...

— Ola bilər. Hətta mən düşünürəm ki, elə belə də olmalıdır. — Bu ehtimalla Bəhram razılaşırdı.

— Məktəblərimiz evlərimizə yaxın olduğu üçün bizi məhz öz məktəbimizə verəcəklər. Düzdü?

— Düzdü.

— Düzdü… O zaman qalır, bir söz tapıb onu bir-birimizə deməyimiz. Açar söz… Nədi, bu da xoşuna gəlmədi?!

— Çox xoşuma gəldi. Bir az hind filmlərinə oxşadı. Amma bir şey var axı. Onu nəzərə almaq lazımdır ki, biz bir-birimizi tanımadan hardan biləcəyik ki, bu sözü sən məhz mənə deməlisən?! Ya da ki, mən o sözü məhz sənə deməliyəm?! Başa düş axı, biz o zaman bir-birimizi ta-nı-ma-ya-ca-ğıq. Bir məktəbdə oxuyan, hərdən məktəb dəhlizlərində, ya da ümumi iclaslarda — akt zalında görüşən, amma bir-birinə etinasız iki nəfər olacaq. Biz o zaman bilməyəcəyik ki, bizim bundan əvvəlki başqa doğuluşumuz zamanı birgə həyatımız olub və bu başqa həyatda biz bir-birimizi sevmişik, hətta evlənmişik…- Bəhramın dodağı qaçdı. – O dərəcədə sevmişik ki, indi başımızı gör bir necə əndiribadi fikirlərlə qatırıq…

Küsüşmə də elə bu sözlərdən sonra baş verdi.

— Həqiqətən, sən… sevsən, belə danışmazsan. Görürsən, necə asanlıqla hər şeyi zarafata çevirirsən?!..

… ???

Bəhram özü bu məsələ ilə bağlı, hələ ki, heç bir təklif verməmişdi. Bəhram susurdu. Aliyə xeyli ümidsiz bir şəkildə ondan real bir təklif gözləyə-gözləyə gün-gündən göz önündə bir çiçək kimi solur, şuxluğunu, təravətini yavaş-yavaş itirirdi. O özü də Bəhramın dediklərilə bir tərəfdən razılaşırdı ki, məsələ xeyli çətin, xeyli qəliz məsələdir. Son dərəcə dərin və məsuliyyətli yanaşma tələb edir. Hətta belə də demək olar: həllolunmaz məsələdir. Amma ehtiras vulkanı alovlanmışdı və indi artıq öz pik nöqtəsini keçib yavaş-yavaş sönməkdə idi. Məqam öz sirriçindəliyini itirməkdəydi. O söndükcə Aliyə də peşiman-peşiman susurdu, hətta elə bir zaman kəsiyi oldu ki, onlar uzun müddət bu mövzuya qayıtmadılar. Bir-birilə çox az-az, xüsusi ehtiyac olanda, «xala xətrin» danışmağa başladılar.

Bu hal, xüsusilə, Bəhram üçün dözülməz idi. Canından çox sevdiyi arvadını bu cür naçar görmək ona əzabdan başqa heç nə vermirdi. Bəhramın beyni gizlicə — Aliyədən xəbərsiz gecə-gündüz bu məsələ ilə məşğul olduğundan Bəhram pərvanə odun ətrafında min oyundan çıxan kimi vurnuxa-vurnuxa qalmışdı. Bu hal uzun müddət davam edə bilməzdi, necə ki etmədi. Nəhayət, günlərin bir günü Bəhram redaksiyadan tələm-tələsik və bir qədər də həyəcan içində evə qayıdanda mətbəxdə nə iləsə qurtdalanan Aliyə ona tərəf dönmədən yavaşdan, məsum bir səslə belə dedi:

— Mən, bizim məsələnin çarəsini tapdım.

Uzun müddət bu mövzu ilə bağlı söhbət olmadığından, Bəhram əvvəl-əvvəl Aliyənin nə demək istədiyinin fərqinə varmadı. Amma Aliyənin sözündən çox səsi onu diksindirdi. Bir an keçdi, ya keçmədi, hər ikisinin beyni işıqlandı və qəlbləri şiddətlə vurmağa başladı.

*… Gözəl Ariadna dincəlmək üçün yenicə yan aldıqları səfalı bulaqları, sıx və sərin meşəsi olan bu kiçik adada uca bir ağacın altında yatıb hər şeydən xəbərsiz bərk yuxuya getmişdi. Onun yanında uzanıb Tesey də şirin-şirin yatırdı. Qəflətən Tesey diksinib yuxudan ayıldı. Gözlərini döyə-döyə çaşqın bir halda ətrafına baxdı. Sonra nə düşündüsə dərhal dəlicəsinə ağacın altından sıçrayıb Ariadnanı tərk etdi və Hipnosun təsirinə düşmüş adamlar kimi ləngər vura-vura gəmiyə qayıtdı. O, səsini ucaltmadan dənizçilərə yelkəni tələsik və sakitcə qaldırmaq əmrini verdi. Tesey və onun on iki səfər yoldaşı var gücləri ilə avarlara yatıb istirahət üçün yan aldıqları bu balaca adadan sürətlə uzaqlaşdılar. Avarlar dənizin şıltaq sularına ehmalca dəydikcə dənizçilərə elə gəlirdi ki, gəminin yanı ilə onların görə bilmədikləri gənc bir qız üzür və o qız üzə-üzə yavaşdan ağlayır. Avarların ucundan qayıdıb dənizə tökülən damcıların səsi bu gənc qızın göz yaşlarının səsi, damcıların özü isə qızın göz yaşları idi.*

*Ağacın altında hər şeydən xəbərsiz dərin yuxuya dalmış Ariadna qəflətən yuxusunda diksindi…*

*Gəmi bu adadan uzaqlaşdıqca Teseyin fikirləri bir-birinə qarışmaqdaydı.Tələsik yola düşdüklərinə görə Tesey gəminin dor ağacındakı yelkəni dəyişmədi. Atası Egeyə verdiyi sözü yerinə yetirmədi. Asmalı olduğu ağ*

*yelkən barədə unutdu. Teseyin gəmisi başı üstündə səmt küləyinin yelləndirdiyi qara yelkən Ellada sahillərinə üz tutdu.*

*Tesey ürəyindən qara qanlar axa-axa gəminin göyərtəsində durub məhzun baxışlarını Ariadnanı tərk edib qoyduğu bu kiçik adadan ayıra bilmirdi. Amma əlindən bir iş də gələ bilməzdi. Allahlar onunla oyun oynadılar. Ariadnanın yanında uzanıb yatarkən Tesey bir yuxu gördü. Onun yuxusuna ölümsüzlərdən biri olan Dionisi girmişdi. Məhz Dionisi Teseyə gözəl Ariadnanı buraxıb adanı tələsik tərk etmək əmrini vermişdi. Gözəl Ariadnanı təsadüfən adada görüb anındaca ona vurulan Dionisi onu özünə arvad edib Olimpə aparmaq fikrinə düşmüşdü. Tesey hiddət və həyəcandan bütün vücudu titrəsə də, Dionisinin əmrindən boyun qaçırmağa cəsarət edə bilmədi…*

— Eşidirəm. Sözünü de.

Cəmilənin səsi soyuqqanlı idi, amma ürəyi səbirsizlikdən gup-gup vururdu.

"Bilirsənmi, mən sənsiz nə qədər yaşaya bilərəm?! Üç gün. Üç gündən sonra ağzım sudan çıxmış balıq kimi səssizcə açılıb, yumulacaq". Cəmilə bunu belə bilirdi. Cəmilə həm də onu bilirdi ki, Fərhad açıb-ağartmasa da, gecə-gündüz onların problemini düşünür. Başqa cür ola bilməzdi. Yadına evliliklərinin ilk vaxtları düşdü. O məsələ belə başlamışdı. Bir gecə yataqda heç birinin gözünə yuxu getmirdi. O tərəf, bu tərəfə o qədər çöndülər ki, nəhayət, hər ikisi yoruldu. Bir müddət yataqda heysiz düşüb hərəkətsiz qaldılar. Fərhad əlini atıb Cəmilənin saçlarını qarışdıra-qarışdıra tumarlamağa başladı:

— Cəmilə, yaxşı qız, sən o biri dünyaya inanırsan? — Fərhadın səsində bir qüssə, bir xiffət var idi.

Cəmilə ondan belə sual gözləmirdi. Amma sual xoşuna gəldi. Yuxuların ərşə çəkildiyi vaxtın sualı idi. Qızın gözləri ləzzətdən süzüldü:

— Mən inanıram. Bəs sən?..

— Mən bir az başqa şeyə inanıram.

— ???

— Bilirsən, mən ona inanıram ki, adam öldükdən sonra yenidən dirilir.

Cəmiləni maraq götürdü:

— O necə olur elə?

— Mən nə bilim?! "Necə olur?!" – Fərhad onu yamsıladı. Cəmilə dodaqlarını büzdü. – Olur da. Nə təhərsə olur. Olmalıdı. Başqa cür ola bilməz. Mümkün deyil…

… Ortalığa namünasib bir sükut çökdü. Asif az qala təəssüf etdi ki, arvadı ilə onu çoxdan narahat edən bir mövzuya bu şəkildə qəfildən toxundu. İnanmadı ki, Tamilla onu başa düşəcək. Tamilla isə bir kəlmə danışmadı, amma fikrə getdi. Asifin ona dediklərini «həzm» eləməyə çalışdı. Çox gizli mənalardan söhbət açırdı Asif. Özü də inamla danışırdı. Hiss olunurdu ki, dediklərini uzun müddət beynində götür-qoy edib.

Sükutu Tamilla pozdu:

— Asifka, biz ki bir-birimizi bu qədər istəyirik… Ölüm niyə bizi ayırmalıdı?! Bu düz deyil axı…— Tamillanın dodaqları büzüldü, o, az qala ağlamsındı.

Asif özü də nə zamansa baş verəcək bu məqamı ədalətsiz məqam sayırdı, amma bu məqamın müqabilində gücsüzlüyünü də başa düşürdü. Tamilla, nəhayət, özünə gəldi, susub diqqətlə cavab gözlədi. Onun bu halı Asifə təsir elədi. Asifə elə gəldi ki, qız çarəsiz adamlar kimi ondan bir kömək, bir imdad gözləyir. Onun isə əlindən heç nə gəlmir. Asif bacardığı qədər Tamillaya ürək-dirək verməyə çalışdı:

— Bilirsən, mən nə düşünürəm?! Mən öləndən sonra hökmən, hökmən yenidən doğulacağam, başa düşürsən?! Bilmirəm, necə — amma hökmən doğulacagam! — Asif uzandığı yerdəncə əlini atıb çarpayının yanındakı stulun üstündə şalvarı vardı, cibindən eşələyib siqaret qutusunu tapdı. İçindən bir siqaret çıxarıb yandırdı. Həsrətlə tüstünü sinəsinə çəkdi.

— Çəkmə…- Tamilla ona həm nəvaziş dolu səsilə, həm də nazik yorğanüzünün altında balıq kimi qıvrılan vücudu ilə qısıldı. — Bəs mən?! Mən necə olacağam, Asifka?

Asif Tamillanın sözünə fikir vermədi, amma əli ilə havada quruyub qalmış tüstünü açıq pəncərə tərəfə qovdu.

— ... Sən necə olacaqsan?! Qorxma, sən də mənim kimi olacaqsan. Amma bu işdə çox ağır bir məqam var. — Asif təəssüflə, — çox ağır... — deyə təkrar edib Tamillaya sarı çöndü.

— Nədi, nədi, nədi o ağır olan məqam, gözümün işığı?? — Tamillanı artıq məqam-filan düşündürmürdü. Tamillanın şirmayı barmaqları yavaş-yavaş Asifin sinəsindəki buruq-buruq tüklərlə oynamağa başlamışdı. Asif onun barmaqlarını ovcunun içinə alıb yüngülcə sıxdı, nəvazişlə tumarladı:

— Dayan, dayan deyirəm. Sənə bu dediklərim maraqlı deyil?

— Maraqlıdı... Çox maraqlıdı. — Tamilla könülsüz-könülsüz bədənini ondan bir balaca aralayıb guya ki, diqqətlə qulaq asmaga hazırlaşdı.

Asif gözünün ucu ilə arvadının göz qamaşdıran çılpaq boynunu, yaraşıqlı qollarını həsrətlə süzüb yenə də səsində təəssüf dilləndi:

— O məqam budur. Hayıf ki, insan yenidən doğulandan sonra əvvəlki həyatını heç cür xatırlaya bilmir. Bunu bacarmır.

Ortalığa sükut çökdü.

Bir azdan Tamilla onun fikirlərini öz bildiyi kimi davam etdirməyə çalışdı:

— Çox... maraqlıdı, çox qəlizdi. Amma yox, dayan görüm. O zaman biz belə də düşünə bilərik: biz hər birimiz bu həyata sonsuz dəfə gəlmişik.

Tamilla dərindən düşünməyib söz dediyi vaxtlarda olan kimi yenə də «doqquzluğa» vurmuşdu.

— Gəlmişik! — Asif sevinən kimi oldu, çünki Tamilla onunla onun «dilində» danışmağa başlamışdı. Asif dediklərinə asanlıqla bu cür münasib həmfikir tapacağına ümid etmirdi. — Əhsən sənə. Məsələnin canını əlüstü tutdun.

— Mən beləyəm, – deyə nazlı bir cavab gəldi. — Təəssüf, təəssüf... Bu niyə belədi, Asifka?

— ...bir də təəssüf... Bax, bunu mən bilmirəm. — Asif kədərli bir səslə cavab verdi.

Tamilla düşüncəli-düşüncəli Asiflə razılaşdı ki, doğrudan da bu məqam çox ağır, çox dözülməz, "Asifka, sən düz deyirsən, ədalətsiz bir məqamdır." Əgər insan yenidən doğulandan sonra öz əvvəlki həyatını, sevib-sevildiyi adamları, doğmaları, əzizləri, tanışları, dostları, yadları (??) xatırlaya bilsəydi, həqiqətən də bu, çox gözəl olardı, ölmək də indiki kimi belə qorxulu olmazdı."

— Hayıf… – Tamilla sidq-ürəklə təəssüf etdi. — Yəni, bu heç cür mümkün deyil?!..

Özü də öz sualına cavab verdi:

— Mümkün deyil…

Bir az keçdi. Sükutun uzanacağından, bəlkə də Asifin yuxuya getməsindən qorxub Tamilla:

— Asifka, ay Asifka!.. – deyə onu çağırdı, daha doğrusu, dümsüklədi.

-Nədi?

— Asifka, bəlkə… bilirsən, ağlıma bir fikir gəldi…

— Ay səni Allah güldürsün. Ağlına nə gəldi?

— Sən elə həmişə beləsən. Deməyəcəyəm. Mənim ağlıma fikir gələ bilməz də…

— Yaxşı, de görək, naz eləmə.

— Sənsən daha, keçdim günahından. – Tamilla ciddiləşdi. – Bəlkə biz səninlə bu indiki həyatımızda şərtləşək, bir-birimizə parol kimi bir şey…belə bir tanıma sözü deyək?! Nə cürsə razılaşaq ki, yeni dünyamızda o sözü deyib bir-birimizi tanıya bilək?!

Asif gülümsədi. «Bu boyda da sadəlövhlük olar?!» Əlindəki siqareti dolabın üstündəki külqabıya sürtə-sürtə söndürdü:

— Yat, daha gecdi, yat görək yata biləcəyik?! Sən də artıq zəhərləndin bu fikirlərlə…

-Yatırsan?! Gecən xeyrə, Asifka. — Tamilla istəməyə-istəməyə o biri böyrü üstə çevrildi.

— Şirin yuxular…

Bir saata yaxın, elə bil, gözlərinə yuxu getməyən heç bunlar deyildi. Gözlərini yummaqları ilə yuxuya getməkləri bir oldu.

Günlər yavaş-yavaş, bəzən isə sürətlə ötüb keçirdi. Bir-birinə söz vermiş adamlar kimi onlar evdə nədən söhbət eləsələr də, o məsələ barədə bir kəlmə belə kəsmirdilər. Bu dünya, o dünya, yeni həyat, köhnə həyat, əslində, onları yenə də əvvəlki kimi çox maraqlandırırdı, amma hər biri bunu öz-özlüyündə, öz beynində götür-qoy edir, bir-biriyləsə bu barədə kəlmə kəsmirdilər…

… Budur, yenə həmən yarıqaranlıq, yarıişıqlı vaqeələr divanın arxasındakı küncdən peyda olub Gülnarənin gözü qarşısında canlanır. Budur, Gülnarə evdə iş görə-görə, küçəyə çıxarkən, bazarda-dükanda alış-veriş edərkən cidd-cəhdlə açar-söz axtarır. Bunu onun gərgin baxışlarından, çatılmış qaşlarından aşkarca hiss etmək olur. «Necə ola bilər, axı necə ola bilər ki, biz yenidən doğulaq, yenidən dünyaya gələk, amma hər şeyi unudaq, bir-birimizi tanımayaq, axı necə ola bilər?!..» Gülnarə aramsız bu barədə düşünür, bunun bir çarəsini arayırdı.

Kərim isə belə məqamlarda həmişəki kimi təsadüfə arxalanmağa üstünlük verirdi. Özünü hər şeyi unutmağa, bu barədə düşünməməyə məcbur etməyə çalışır, ona elə gəlirdi ki, həmən açar söz birdən-birə, qəfildən onun beyninin dərinliklərində gur işığa bürünəcək və onlar ikisi də həyatlarının sonuna qədər bu işığa bürünmüş sözü ürəklərinin ən isti yerində qoruyub saxlayacaqlar. Zamanı gələndə o sözü özləri ilə o biri dünyaya aparacaq, bu söz vasitəsilə bir-birini yeni dünyalarında da tanıya biləcəklər. O zaman isə onlar daha təcrübəli olacaqlar, buraxdıqları səhvləri bir daha təkrar etməyəcək, naqisliklər və nöqsanlar əvvəlcədən onların həyatından silinəcək və beləcə hər şey uğurla nəticələnsə, bu parol-söz sürət qatarı kimi heç yerdə lazım olandan çox dayanmadan onları bir həyatdan o biri həyata aparacaqdır. Ən əsası, ən vacibi isə onların bir-birinə bu möhtəşəm sevgisi, onların həyatı hər dəfə bir az da olsa təmizlənib təkmilləşəcək, nəhayətdə, ideala, bəlkə bunu ölümsüzlük də adlandıra bilərik, bəli, sonunda ideala çevriləcəkdi. İdeala qovuşmağın ən məntiqli və ən «məsləhətli» yolu elə budur…

Bir gecə gözünə yenə yuxu getməyən Gülnarə qəfildən Kərimə sarı çevrildi. Allah bilir, neçənci yuxunu seyr edən sevimli ərinin doğma çöhrəsinə bir müddət zənlə baxandan sonra onu ehtiyatla dümsüklədi:

— Kərimka, ay Kərimka, yatmısan?! Ayıl, nolar, yatma , gözümə bax…- Bu arzu idi, xahiş idi, əmr idi, bilinmədi.

Kərim onun axırıncı sözlərini zorla eşitdi, ürəyində deyinə-deyinə o biri tərəfə çevrildi, gözləri yumulu halda Gülnarənin dümsüklərinə cavab olaraq ayağıyla dal-dalı bir təpik atdı, sonra anladı ki, bunun köməyi olmayacaq və o, gözlərini açmağa məhkumdur, yenə ürəyində deyinə-deyinə, bu dəfə bu biri böyrü üstünə, Gülnarəyə tərəf çevrildi.

— Kərimka, ay Kərimka…

— Nədi, nə deyirsən, ay Allahın cəzası?..-Kərimin gözləri hələ də yarıyumuluydu.

— Yatma deyirəm. Gözümə bax! — Bu isə artıq əmr idi.

Kərim naəlac qalıb gözlərini açdı. Gözlərini açınca yuxusu bir andaca uçub getdi. Çünki diksinmişdi. Gülnarə üzünü az qala onun üzünə toxundurub durmuşdu, gözlərini də qırpmadan düz onun gözlərinə zilləmişdi. Onun belə qorxulu oyunları olurdu. Qeyri-şüuri olaraq Kərim dumanlı beynilə təyin eləməyə çalışdı ki, saat neçədi. Hər halda gecədən xeyli keçmişdi.

— Nədi, nə olub, niyə yatmırsan?..

— Gözümə bax! — Gülnarə yorğan altından çılpaq ayaqlarını onun ayaqlarına sürtməyə başladı. Müqavimət göstərməyə dəyməzdi.

— Nədi, nə deyirsən? — Kərimin dodağına incə bir təbəssüm qondu, amma qızın diqqətli baxışlarından başa düşdü ki, məsələ o düşündüyü kimi deyil. — Eh… yuxumu qaçırdın…

– Qaçsın qoy sənin yuxun. Kərimka, mən, deyəsən, tapdım axı…

*…Tesey atasının faciəli ölümündə ancaq özünü günahlandırırdı. Hər gün gəlib Egey sahilindəki o məşum qayanın üstünə çıxır, uzaq sahillərə baxdıqca baxır, dənizin ortasındakı o mənfur, kiçik adanı axtarıb tapmağa çalışırdı. "Ariadna! Hər*

*şeyə bais o oldu. O mənim həyatımı məhv etdi. Ariadna, Ariadna… İndi sən haradasan, sevimli Ariadna?!..”*

*Beləcə, gün günü, ay ayı əvəzlədi. Elladada, Afinada çox qarışıq sular axdı. Tesey yaşlandıqca çoxlu səhvlərə yol verməyə başladı. Afina camaatı ilə onun arasında uçurum yarandı. O, dostlarını, düşmənlərini doğru-dürüst seçməyi bacarmadı. Günlərin bir günü onun da Aidin səltənətinə getmək vaxtı gəlib çatdı. Əvvəlcə qocalmış Teseyi Afinadan sürgün etdilər. Elə uzaq sürgündə də o, hiylə ilə öldürüldü. Onu aldadıb dəniz kənarındakı uca bir qayanın başına aparmış, oradan da aşağı itələmişdilər. Amma Tesey nəfəsi qədər sevdiyi Afinaya ölümündən sonra hələ qayıdacaqdı. Afinada ölümündən sonra onu əsl triumf gözləyəcəkdi. İranlılarla ağır ölüm-dürüm müharibəsində o öz həmvətənlərinin qəhrəmanlıq simvoluna çevriləcəkdi.*

…İlk anda Zaurun ağlından keçdi ki, soruşsun: «Nəyi, sən nəyi tapdın?» Amma soruşmadı. Zümrüdün gözlərinə baxan kimi ona hər şey aydın oldu.
Yuxusu harasa qaçıb getdi. Sirli bir məqam gəlmişdi. Zaur bilmirdi ki, sevinsin, yoxsa kədərlənsin:

— Yaxşı, de görüm, nə deyirsən?!

— Zaurka, bir məqam, tamamilə, bizim yadımızdan çıxıb. — Zümrüd xeyli ciddi bir tərzdə sözünə davam etdi.

— ???

— Demək istəyirəm, biz çalışmışıq ki, məsələni ikimiz arasında həll edək. Biz isə gərək bu işə başqa adamları da qataq.

— ???

— Yəni, biz öz sirrimizi başqalarıyla gərək bölüşək.

— Onda o, sirr olmadı ki…

— Olmasın. Amma məsələ ancaq bu cür həll ola bilər.

Zaur fikrə getdi. O, Zümrüdün dediklərini beynində götür-qoy etməyə başladı. “Əlbəttə, düz deyir. Mən də artıq bilirəm ki, bu iş iki adamın işi deyil. Amma o biri adamı, yaxud adamları necə tapaq?! Hardan,

necə?!" Yenidən yuxuya getmək asan olmayacaqdı. Gərək yuxu qayıdıb özü gələydi.

… Bu vaqeələri Səmayə əlində çəhrayı jaket divanın üstündə əyləşib seyr edə bilirdi. Gözlərini otağın qaranlıq pəncərəsinə dikmişdi. Bu pəncərə şüşəsi, üzərində cürbəcür işarələr, hərəkətlər peyda olan ekran kimiydi. Səmayə gördüyü vaqeələri bu pəncərə-ekranda seyr edirdi. Burada seyr etdikləri o qədər tanış, o qədər doğma idi ki…

*…Yuxudan ayılan kimi Gözəl Ariadna gözlərilə sağa-sola nəzər yetirib Teseyi axtardı, amma tapmadı. Əvvəl-əvvəl ağlına bir şey gəlmədi. Uzandığı yerdən durmaq istəyəndə gözlərini gur işıq seli aldı, başı gicəlləndi. Özünə gələndə isə gördü ki, bu işıq seli ona istiqamət göstərir. Ariadnanı bu istiqamət dəniz kənarına, Teseyin gəmisinin sahilə yan aldığı yerə gətirdi. Gəmi öz yerində yox idi, ətrafda nə bir səs, nə bir hənirti. Bu zaman Ariadna başa düşdü ki, Tesey onu aldadıb və bu adada tək buraxaraq gəmisi ilə üzüb gedib. Dəhşətli bir xəyanət!!! Ariadnanın ölümdən qurtardığı bu insan onun özünü kimsəsiz bir adada ölümə düçar etmişdi. Allahlar bu zülmü, bu cinayəti bağışlarlarmı? Bağışlamazlar!*

*«Ulu Zevs, sən özün mənim intiqamımı Teseydən al» deyə Ariadna üzünü göylərə tutdu. Elə bu zaman Ariadnanın gözləri qamaşdı. Bayaqkı işıq zolağı bu dəfə göydən yerə doğru, düz onun yanına süzülüb gəlməkdə idi. İşıq zolağı süzülüb-süzülüb Ariadnanın düz qənşərində torpağa toxunan kimi başında dəfnə yarpağından çələng, uca boylu, gözəl bir gəncə çevrildi. Gülər üzlü, başdan-ayağa işıqla dolu bu gənc istədi ki, Ariadna onu tanısın. Ariadna onu tanıdı. Bu, Olimp dağının ölümsüz allahlarından biri olan Dionisi idi…*

Pəncərədən çölə baxana bayırın soyuğu, şaxtası göz üşüdərdi. Otaq yavaş-yavaş soyuyurdu. Rəhilənin planı bu idi: «vaxta ki, onlar o biri dünyaya gedəcəkləri o məşum ana qovuşanda, yəni, öldükləri zaman yenidən doğulacaqlarına inanırlar, əlbəttə, elə etməlidirlər ki, yeni həyatlarında da bir-birlərini tanısınlar. Bu cür möhtəşəm sevgi yer üzündən birdəfəlik yox olub itə bilməz. Bu ən böyük ədalətsizlik olardı. Çətini yeni həyatlarında bir-birini tanımaqdır. Tanıdılarmı — başqa cür

olmayacaq, bir-birini yenə sevəcəklər, buna şübhə yoxdur. Onlar təkcə bu dünyada yox, onlar bütün kainatda bir-birlərini sevmək üçün yaranıblar. Nə isə elə bir iş tutmaq lazımdır ki, o iş bunları öz-özlüyündə bir-birinə yaxınlaşdırsın, onlar yenidən bir-birini tanısınlar…»

— Çox güman ki, biz səninlə yenə də eyni həyat yolunu seçəcəyik. Sən necə bilirsən? – Rəhilə soruşdu.

— Çox güman. – Rəhim onunla razılaşdı.

— Mən cinayətkarları tutuqlamaqla məşğul olacağam, sən isə qəzetçiliklə.

— Tutalım, belə olacaq.

— O zaman bizim milyonda bir olsa da, şansımız var.

Rəhilə hər hansı bir məsələni çözməyə başlayanda bu çözüm prosesinin özünə olan aludəçilik onun bütün ruhuna hakim kəsilirdi. Rəhim bunu bildiyindən diqqətini cəmlədi. Rəhilə Rəhimin ciddiliyini hiss edib ruhlandı və sözünə belə davam etdi:

— Ya sən, ya da mən elə bir iş tutmalıyaq ki, hamı bu işdən sarsılsın. Məsələn… bu, bir cinayət ola bilər… Kimisə, kimlərisə elə bir şəkildə … o dünyaya göndərmək olar… olar ki, biz ikimiz də özümüzdən asılı olmadan bu işin ətrafında fırlanaq. Sonrası asandı. Biz bir-birimizi tanıyacağıq. Hökmən tanıyacağıq…

Rəhilə öz professional təxəyyülünü işə salmışdı. Rəhim onun sözünü kəsmədən diqqətlə dinləyirdi.

…— Başa düşürsən, mən nə demək istəyirəm?! — Rəhilə getdikcə özü də bilmirdi ki, nə danışır. O artıq improvizə edirdi.

— Rəhilə xanım, sən nə dediyini heç düşünürsən? — Rəhim bu deyilənlərin perspektivini ən abstrakt şəkildə təsəvvür etməyi belə ağlına gətirməkdən qorxdu. — "Bircə səni bu gedər-gəlməz yoldan saxlaya bilsəydim…" deyə düşündü.

Rəhilənin isə beyninə bir şey girdisə, onu oradan çıxarmaq müşkül məsələ idi.

…Vaqeələr bir-birini əvəz elədikcə Xədicə şüşə kimi qırıq vaqeə parçalarını birləşdirməyə çalışırdı. Bu parçalar həvəssiz-həvəssiz birləşib tezcə də yenidən dağılır, dağıldıqdan sonra tamam başqa bir biçim alırdılar. Birdən otaq işıqlandı. Elə bil, kimsə evin bütün işıqlarını birdən yandırdı. Pəncərədəki ekran yox oldu. Qapı tərəfdən güclə eşidilən bir hənirti səsi gəldi. Kim idisə bayır qapını yavaş-yavaş, ehtiyatla açıb içəri girmişdi. Xədicə heç də qorxaq qadın deyildi, amma bu dəfə damarında qanının donduğunu hiss elədi. Dəhlizdəki qədimi saat zəhmli və boğuq səslə havanı doldurmağa başladı.

…Onlar o biri, ölümdən sonrakı həyatda görüşmələri barədə şərtləşəndən sonra bütün digər adamlar kimi illə, ayla deyil, həftəylə, günlə, saatla qocalmağa başladılar. Bir həftə onları görməyən adam gördüyündə mat-məəttəl qalırdı; saçlar ağarır və tökülür, dişlər çürüyür, düşür və protezlər onların yerini tutur, gözlərin işığı gedir, eynəklər taxılırdı…

Həqiqətən də, Xavər deyən kimi oldu. Əhməd gözlərini bu fani dünyaya yuman gündən düz üç gün sonra Xavər gecənin bir zamanında üç dəfə dərindən nəfəs aldı, verdi. Dördüncü dəfə nəfəs aldı, amma qaytara bilmədi, canını tapşırdı.

Elə o an yeni doğulan bir qız uşağının qaraqışqırığı onu doğan ananın ağrıdan qıvrılan iniltisinə qarışdı. Belə qışqırığı bu doğum evində ikinci dəfə idi ki, eşidirdilər. Üç gün əvvəl eyni doğum evində doğulan bir oğlan uşağı da eynən bu cür qaraqışqırıq salmışdı…

*… Onu düşmənləri hiylə ilə dəniz kənarındakı uca bir qaya başına aparıb arxadan itələyərək üzüaşağı hellədilər. Dənizə tərəf uçduqca o ancaq bir kəlmə sözü beynindən keçirməyə macal tapdı: «Ah, Ariadna…»*

*Uzun illərin arxasından Ariadna əlində ip kələfi qayanın altında peyda olub ağarmış saçları üzünə səpələnmiş Teseyin cansız cəsədinin üstünə əyildi və ip kələfini ehmalca onun sinəsinin üstünə qoydu. Kim bilir, Tesey Aidin səltənətinə səyahət etdiyi zaman onu bu çətin, tanış olmayan yolda nələr gözləyirdi.*

…Bunu etmək o düşündüyü qədər də çətin olmadı. Nə etdiyini başa düşmürdü. Bircə onu bilirdi ki, nəhayət, plan baş tutmuşdu. Qanına qəltan olmuş qadın artıq qışqırmırdı, müqavimət göstərməyə də taqəti yox idi. Aldığı bıçaq yaralarından yerə sərildi. Bədənindəki ağrıları unudub əli ilə qan fışqıran boğazından tutmağa çalışdı. İlk zərbəni Səbinə ora endirmişdi. Sonra yenə, sonra yenə. İndi də əlində qanlı bıçaq bir kənarda dayanıb yerdə qıvrılıb açılan, heç nə anlamayan və dəhşətdən böyümüş gözlərini ona zilləyən bu arvada o da eyni cür — heç nə anlamayan bir baxışla, az qala təəccüblə baxdı. Arvad artıq xırıldamağa başlayanda Səbinə mənzilin qapısı tərəfdən gələn səsə boylandı. Mənzilə kimsə girirdi. Sonra divar saatı vurmağa başladı.

Səbinə əlindəki bıçağın dəstəyini çarpayının üstündən yerə sürüşmüş yorğanın bir ucuna silib yerə atdı. O, səsin gəldiyi tərəfdən deyil, dövrələmə gedib o biri qapıdan aynabəndə keçdi və addımlarını səs salmasın deyə ehtiyatla yerə basa-basa, amma sürətlə mənzilin açıq qapısından bayıra çıxdı. Pilləkənlərlə tələsik aşağı enməyə başladı. Hələ də özündə deyildi. Nə baş verdi, nə baş vermədi — anlamırdı. Bircə onu bilirdi ki, bu yerdən tezcə uzaqlaşmalıdır. Buna baxmayaraq, addımları yavaş-yavaş öz adi ahəngini aldı və Səbinə binanın qapısından çıxan kimi beş dəqiqə əvvəl nə baş verdiyini xatırlamayaraq yavaş-yavaş öz yolunu gedən bir bağça müəllimasinə bənzədi. Bağça müəllimasi iki tin piyada gedib yanından ötən bir taksini saxladı, tələsmədən əyləşib köhnə iş yerinin adını sürücüyə dedi:

— "Gül-çiçək meydanı"nın arxasındakı prokurorluğa.

Maşın sürət yığıb göz qırpımında bu müdhiş yerdən uzaqlaşdı.

…Dürdanə redaksiyadan çıxan zaman qəribə bir yağış başladı. Qəribəliyi onda idi ki, şəhərin qızmar yay günündə belə yağışın yağması nəinki ağlasığmaz, hətta möcüzə qədər əlçatmaz bir xülya idi. Elə bil, göydən yerə rəngbərəng iplər sallanmışdı. Elə bil, göylərin yeddinci qatında bu iplərin bir kələfi vardı, kimsə bu kələfi səbrlə açırdı. Dürdanə əvvəlcə istədi, tələsik gedib metroya girsin və islanmaqdan qorunsun.

Amma fikrini dəyişdi. Metroya tərəf yavaş-yavaş, hətta istəməyə-istəməyə addımlamağa başladı. İki-üç addımdan sonra tamamilə islandı. Qəribə idi, bütün şəhərin yağışı bir yerə toplanıb heç bir başqasının deyil, düz onun başına, vücuduna yağırdı. Dürdanənin ətrafında isə seyrək damlalar tənbəl-tənbəl onun-bunun üstünə qonmaqda idi. Qəfildən başlayan bu yağış, elə bil, hər damlası ilə Dürdanənin bütün həyəcanlarına, tərəddüd və şübhələrinə nöqtə qoyurdu. Bütün sualları yuyur, yerinə inamlı nöqtələr düzürdü. Yeni latın əlifbasındakı "i"lərin üstünə qoyulan nöqtələr kimi. Bu nöqtələr məsələni qətiyyətlə qapayır, köhnə səhifəni bağlayırdı, yeni işıqlı və maraqlı səhifələr açırdı. Dürdanə bütün varlığıyla çox rahat bir sakitliyin, yüngüllüyün içinə girmişdi. Əzablarını, yuxusuz gecələrinin yorğunluğunu, Vaqifin xiffətini, hər şeyi, hər şeyi bu yağış yuduqca yudu.

...Qız yağışın altında yavaş-yavaş özünə gəldi.Özündə olmamasının isə bir səbəbi vardı. Bu gün səhər inanılmaz hadisə baş vermişdi. Dürdanə, nəhayət, dözməyib Vaqifin arxasınca düşərək onu izləmişdi. Ürəyinə daman şübhənin arxasınca Vaqifin dalınca əvvəlcə cinayət baş verən evin yanına, sonra isə onun və bu yaraşıqlı qadının arxasınca yaxınlıqdakı çayxanaya qədər getmişdi. Artıq neçə saatdı ki, bunun əzabını çəkirdi, bu hərəkətini özünə bağışlaya bilmirdi. Utandığından işin sonuna qədər gözləmək də istəmədi, üz-üzə gəlməmək üçün Vaqif redaksiyaya qayıdana qədər tələsik ordan çıxdı. Haman yağış da elə bu zaman başladı.

...Dürdanə çayxanada baş verənləri öz gözlərilə görürdü. Dürdanə onlardan bir qədər aralı, yaşılköynək oğlanın düz arxasında oturub gizlənə-gizlənə bu iki nəfərə göz qoyurdu. Bir söz belə eşitməsə də, hərəkətlər, mimikalar, jestlər öz-özlüyündə hər şeyi açıb ona danışırdı. Yaraşıqlı qadın Vaqifdən intizarla nə isə gözləyirdi, Vaqifin isə susub bu işdən yayındığını Dürdanə o saat anladı. Məsələ burasında idi ki, Dürdanə onların arasında nə baş verdiyini yaxşı bilirdi. Bu ani tanışlığın möhtəşəm tarixi üzə çıxacaqdı, yoxsa yox — Dürdanə buna əmin deyildi. Vaqif açar sözü deyəcək, deməyəcək?! Açar söz tələffüz olunsaydı və onlar bir-birini tanısaydılar, bu, hər şeyin sonu demək olacaqdı. Onları daha bir-birindən ayırmaq mümkün olmayacaqdı. O, Dürdanə — Vaqifin bu dünyadakı

sevgilisi açar sözün mövcud olduğunu bilirdi. Vaqifin ondan gizli heç nəyi yox idi.

— ...Mən sənə, istəsən, həmən açar sözü açıb deyə də bilərəm. — Vaqif bir gecə susub fikrə getmiş Dürdanənin yanında ona tərəf dirsəklənib təmiz vicdanla düz qızın gözlərinin içinə baxdı. O, başqa dünyadakı etirafını elə indicə etmişdi.

— Yox, demə, bu, mənim sirrim deyil.

Vaqif minnətdarlıqla Dürdanənin əlini axtarıb yorğanın altında tapdı və nəvazişlə sıxdı. «Bu ürək sahibinin qəlbini ağrıtmaq, onu kədərlə doldurmaq rəvadımı, günah deyilmi, əlbəttə, rəva deyil, əlbəttə, günahdı...» — Vaqif belə düşündü.

"...O, açar sözü demədi, deməli, o mənimdir, mənim də olaraq qalacaq, o getmək istəmir, o mənimdir, mənimdir..." Dürdanə vedrədən düz başına tökülən yağış altında metroya tərəf yeriyir, dodaqlarına qonan təbəssüm isə, əslində, təbəssüm deyil, möcüzə olduğunu, elə bil, anlayaraq öz yerini bir az da möhkəmlədir, dodaqlarından başlayıb Dürdanənin üzünə-gözünə, gözündən də o tərəfə sürüşüb naməlum yerə — əməlli-başlı bir labirintin içinə düşür, onun dolambaclı yollarını qətiyyətlə keçib bütün ruhuna yayılırdı.

*...Krit adasında azğın küləklər əsirdi.*

*«...Söylə, söz ver ki, mağaradan qalib kimi dönəcəksən. Hökmən, mütləq dönəcəksən. Mən hər açılan sabahı sənin güclü qolların arasında açmaq istəyirəm. Bircə səni qoruya bilsəydim... Ah, Tesey, Tesey...» — Gözəl Ariadna beynində dəniz küləkləri kimi dolaşan bu hərcayi fikirlərdən qaçmaq üçün bütün bədəni ilə bərk-bərk Teseyə qısıldı:*

*— Söylə, mənə bir şey söylə. Elə bir şey olsun ki, mən burada oturub səni gözlədiyim zaman hər an, hər dəqiqə mənim qəlbimə sığal çəksin. O söz mənim qəlbimdə yaşayıb mənimlə birgə səni gözləsin. Hər an... Hər an... — Ariadna ehtirasla az qala bağırdı. Külək sözləri onun ağzından qapıb alırdı.*

*— Mənim sənə sevgimin adı olsun o söz.*

*— Sənin mənə olan sevginin adımı?..*

*— Mənim sənə olan sevgimin adı. — Tesey anladı ki, bundan dəqiq cavab tapmaq mümkün deyil. — Onun adı budur. Biz geriyə bir yerdə qayıdacağıq. And olsun Zevsə — bu belə olacaq!*

*Külək vıyıltıyla hər sonrakı an daha şiddətlə əsir, həm Teseyin, həm də Ariadnanın ağzından çıxan sözləri şikar kimi qamarlayıb dənizin ortasına, oradan da daha uzağa, Elladaya, Olimp dağının ətəklərinə aparırdı.*

…Qətibədən ayrılıb çayxanadan çıxandan sonra Vaqifin çiyinlərindən, elə bil, daş götürüldü. Bir daha heç bir zaman! Heç bir zaman, heç bir vəchlə bu qadınla görüşmək olmaz!! O səni özüylə o biri, başqa dünyaya aparmaq istəyir. Yox! Yox! Bir də yox! Ona bu dünyadan və Dürdanədən başqa heç nə lazım deyil. O istəmir. İstəmir, vəssəlam! Onun başqa dünyalara nəfəsi çatmadı. Açar sözü isə bir qədər əvvəl Vaqif bilə-bilə demədi. Amma az qalmışdı, desin. Qəflətən gözləri yaşılköynək oğlanın gözlərinə sataşdı. Yaşılköynək oğlan başını kompüterdən ayırıb ona təəccüblə baxırdı, yəni, «doğrudanmı, sən o sözü demək istəyirsən?!» Vaqif o sözü desəydi, onlar bir-birinə yenə də bağlanacaqdılar. Olmaz. Dürdanə! Ancaq Dürdanə! Əslində, gərək — Vaqif düşünürdü, — əslində, o bu dəhşətli cinayətin baş verdiyi yerə getməməli idi. Qətibənin bu «çağırışına» cavab verməməli idi. Hər şey qorxulu yuxularda olan kimi oldu. Sonadək inanmırdı ki, Qətibə bu işi tuta bilər. Ancaq Qətibə bu cinayəti etdi və Vaqifi bu şəkildə öz yanına çağırdı. Baş tutmuşdu. Onların planı, daha doğrusu, Qətibənin planı baş tutmuşdu.

Baş tutmuşdumu??? Xeyr, baş tutmamışdı. Sevən ürəklər bizim qulağımıza başqa şeylər pıçıldayır. Vaqifin onun yanına qayıtmayacağını anlayan Qətibə əlində asılqanı qırıq jaket pərişan bir halda mindiyi taksidən «Gül-çiçək» meydanında düşəndən sonra onu bir daha görən olmur. İş yerində o şeşəbığ polis kapitanı gəlib uzun-uzadı sorğu-sual edirsə də bu nişanədə olan qadın barədə kimsə bir söz söyləyə bilmir. Belə bir qadının burada nə zamansa işlədiyini heç kim xatırlamır. Beləliklə, onu anlamaq olar ki, hər dünya yenə də öz məhvəri ətrafında fırlanmağına davam edir.

…Vaqif və Dürdanəyə gəlincə. Onlar bu gün də bir evdə və bir yerdə yavaş-yavaş, səbrlə yaşayıb qocalmaqlarındadılar. Uzaq yay günü hara və nə üçün yağdığını dəqiq bilən o dəhşətli yağışı onların heç biri bir dəfə də olsun xatırlamayıb. Dövriyyədən çıxmış lazımsız dəmir pul evin bir küncündə itib öz-özünə paslanan kimi, açar söz də yaddaşın bir küncünə atılıb qalıb. Unudulub. Başqa cür ola da bilməzdi.

Mənə nədənsə elə gəlir ki, bu deyilənlərdən nəticə çıxarmaq bizə yenə də müyəssər olmayacaq.

*…Teseyin isə əhvalatı bizə bəzi şeylər öyrədir. Bunları bilmək faydalıdır. Labirintə girməzdən əvvəl oradan çıxmaq barədə düşünməlisən. Bu, əsas şərtdir. Lazım olan yerdə və lazım olan vaxt sənin yanında sənin Ariadnan olmaya bilər. Bu bir.*

*Xəyanətin ödənci var. Hətta yenilməz güc qarşısında belə sevdiyin adama xəyanət etmə. Çünki xəyanət səni əvvəlcə unutqanlığa gətirəcək, sarsıntı və faciələrə yol açacaq. Bu iki.*

*Və nəhayət. Uca sıldırım qaya başında arxanı heç kəsə çevirmə. Bu da üç.*

*2012-ci il*

# İkincisiz

– Sən məni daha sevmirsən…

– Elə deyil. – Samirin yuxusu qaçmağa başladı.

– Yox. Elədi. Mən bilirəm. Sevmirsən. – Cəmilənin ağzından kəsik-kəsik çıxan səs parçalarını həzin bir inilti bir-birinə güclə yapışdırdı.

Yataqda qurcuxa-qurcuxa qalmışdılar. Nəfəsləri az qala bir-birinə qarışırdı. Samir başa düşdü ki, söhbət bu dəfə də uzanacaq. Amma nəsə olsa deməliydi:

– Mən… sevirəm…–dedi, amma bu, inandırıcı çıxdımı?!

Cəmilə onun səsindəki açıq-aşkar tərəddüdü qulaqardına vurdu və artıq hücuma başqa müstəvidən keçdi:

– Kimi? – Cəmilə qandonduran faciəvi bir pıçıltıyla soruşdu.

– Səni… özümü…

– Özünü – hə! Məni isə… sevmirsən. Sevmirsən… sevmirsən… sevmirsən… sev…

Samir dərindən bir «ah» çəkdi. Sevimli ömür-gün yoldaşını yenə də adi həqiqətə – onu çox, lap çox, dünyalar qədər sevdiyinə inandırmaq lazım gələcəkdi. Bu, artıq məşəqqətə dönürdü. Hər dəfə yenidən, hər dəfə

yenidən! Cəmilənin özü lap çox əzab çəkirdi, sabah tezdən gecəki söhbət üçün üzülürdü, gənc gəlinlər kimi utanıb qızarırdı, gözünü ondan qaçırdıqca qaçırırdı. Bəs Samir? Samir üzülmürdümü? Samir də eynən onun qədər üzülürdü. Çıxış yolu, elə bil, yox idi.

Beləliklə, Samir dərindən bir «ah» çəkib həmişəki dəlillərini (onun aləmində bu dəlillər çox inandırıcı idi) səbir və hövsələ ilə artıq neçənci gecə ortaya qoymağa başladı:

– Bilirsən, mənim balam, sən və mən axı bir bütövün içindəyik. Mən ikimizi bir yerdə sevirəm, səni və özümü, başa düşürsən bunu?!

– Başa düşmürəm. Başa düşmək istəmirəm. Sən – sənsən, mən də mənəm. Biz bir-birimizin içində deyilik. Bax, bunu mən başa düşürəm.

– Vallah və bllah ki, yox. Yox, yox və bir də yox… Təkcə biz bir-birimizin içində deyilik. Dünyada nə varsa, hamısı bir-birinin içindədi. Bir bütövdü. Anla bunu, nəhayət. Anlasan o zaman inanacaqsan – mənim səni sevməməyim imkansızdır.

Samir bunları deyib qəflətən içində qəribə bir yorğunluq hiss elədi. Əslində bu, bir yüngüllük olmalıydı, amma yorğunluq oldu. Əməlli-başlı yorğunluq. Ona görə bu yorğunluq qəribə idi ki, ağır bir işlə məşğul olmamışdı, yük daşımamışdı, idman zalında özünə «əl» qatmamışdı. Yorğunluğun fiziki əsası yox idi. Sadəcə, hiss elədi ki, birdən sustaldı. Bütün daxili tarımsızlığa büründü, əzələləri boşaldı. Vücudunun içində əzalarını ayrı-ayrılıqda hiss elədi. Hiss elədi ki, ürəyi sıxılmağa başladı. Nəfəsi ağırlaşdı, havası çatmadı.

– Ürəyim sıxıldı… – deyib bu üzücü söhbəti burada kəsmək, nəhayət, yuxuya getmək istədi. Sabah tezdən durasıydı. «Qadın olmağa nə var ki… İş adlı bir anlayışları yoxdu. İşləsələr də, işləməsələr də, fərq eləməz – iş anlayışları yoxdu.»

Samir yataqda o biri böyrü üstünə çevrildi. İndicə düşündüyünü, yəni, qadınların iş anlayışlarının olmaması fikrini dilinə gətirmək istədi və gətirdi, amma onu sözlərə çevirmədi, eləcə, o fikir xəfif təbəssümə dönüb dodaqlarına qondu. Dodaqlarındakı o təbəssümlə də yuxuya getdi.

Cəmilə arxasını ona çevirən ərinə nifrətlə (amma bu nifrət o qədər böyük idi ki, öz içinə sadə bir sevgi selini də yığa bilmişdi) baxıb o da hikkə ilə arxasını Samirə çevirdi. «Kişilərə nə var ki. Hər şeyi zarafata çöndərə bilirlər. Onlar üçün həyat və zarafat – eyni şeydi. Amma darıxma, Samir müəllim, bu söhbətimiz burada bitmədi, heç bitmədi».

Samir yuxu görürdü. Yuxuda hər şey bir-birinə qarışmışdı – rənglər, çalarlar… Özünəməxsusluqlar lazımsız təfərrüat kimi itib ərimişdi. Göylə Yer, dağla dəniz, ağacla çay, insanlar – qadınlar, kişilər, balaca uşaqlar, körpələr, qocalar, qarılar, evlər, binalar, yollar, tarlalar, meşələr, bulaqlar, itlər, pişiklər, atlar, qoyunlar, öküzlər, camışlar… hər şey bir-birinin içində idi, hər şey sanki birnəfəsə deyilmiş möhtəşəm bir Sözə çevrilmişdi. Bu Söz əvvəldən var idi, əvvəlin də əvvəlində var idi, sadəcə, onu görmək, duymaq, hənirtisini, eşitmək hamıya hər zaman qismət olmurdu. O Söz anlaşılmazdan tədricən anlaşılana çevrilən musiqi kimi doğulurdu. O var idi, amma onu heç kim eşitmirdi.

Samir Qəribli yuxunu həyat kimi yaşayırdı. Onun indiyə qədər gözləri sanki qapalı idi, indi-indi görməyə başlamışdı və gördüklərini özündən başqa da kiməsə göstərmək istəyirdi. «Bax, diqqətlə bax, budur sənə demək istədiklərim, görürsən o bütöv yox deyil, var. Sən bunu görürsən? Bəs deyirdin sevmirəm səni?! İndi inandın?!»

Yuxuda gördükləri əvvəl gördüklərindən çox fərqli idi. Amma fərq nədə idi – bunu dərk edə bilmirdi. Bunu sözə gətirmək, söyləmək asan deyildi. Bəlkə heç mümkün deyildi. Hardasa beyninin dərinliyində o hiss edirdi ki, indi gördüklərinin rəngi yoxdur. Rəng ancaq birdən çox olan nədəsə mövcud ola bilər. İkinci olmasa rənglər müxtəlifləşməz, başqa olan nəyinsə üstünü örtə bilməz. Yuxuda da ikinci yox idi, hər şey birin, vahidin içində idi. İkincisiz dünya varmış. Varmış. Olmaya bilməzdi. `Amma buna inananlar yoxdu.

Cəmilə də yuxu görürdü. O, yuxusunda görürdü ki, ömür-gün yoldaşı Samir fəzada fırlana-fırlana ondan uzaqlaşır, ikiləşir, hətta üçləşir, dördləşir… «Bu qədər Samir mənim nəyimə gərəkdir?! Mənə biri bəsdir. Bunların axı biri mənim Samirimdir, o birilər mənimki deyil. Hansıdı o?!

Hansıdı mənim Samirim?! Məni sevən, məni dünyalar qədər sevən Samirim hansıdır?» Bu nazik və qalın su sellərinə dönən sualların arasında Cəmilə əməlli-başlı çaşıb qalmışdı.

Yuxular elə ona görə yuxudur ki, səhərisi gün unudulmağa məhkumdular. Bütün gün onlar üçün birnəfəsə keçmədimi, keçdi. Gecə gəldi və yenə də həmən «sevirəm-sevmirəm» söhbəti yataqda başladı.

Ucsuz-bucaqsız fəzada isə bir-birinin içində ən müxtəlif mahiyyətlər uçur, birləşir, ayrılır, yenə birləşir, bir möhtəşəm vahid əmələ gətirirdilər. Əlbəttə ki, Samirlərin hamısı bu uçan vahidin içində idilər. Birindən başqa. Bu Samir öz evinin mətbəxində oturub səhər yeməyini yeyirdi və Cəmilənin dəmlədiyi çayı gözləyə-gözləyə gecə gördüyü yuxunu ciddi-cəhdlə yadına salmağa çalışırdı.

*2018-ci il*

# Epiloq

***(olmayan romanın sonluğu)***

*Mövlud Mövludun xatirəsinə…*

…Nəhayət ki, bütün bu ayrılıqlardan sonra onlar bir axşamüstü həmişəki yerlərində, özü də təsadüfən görüşdülər. Aradan iyirmi il keçmişdi. «Bu illər bir uzun qış gecəsi kimi imiş» – görüş zamanı ağlından keçirdiyi ilk fikir bu oldu. Nə ürəyi tez-tez döyündü, nə də damarında qanı dondu. Artıq seçim edilmişdi.

Burası bir şəhər bağı idi. Tənha heykəli ilə, hovuzu ilə, alabəzək skamyaları ilə, ağacları ilə bağ, elə bil, silkələnib yavaş-yavaş qış yuxusundan çıxmaq istəyirdi. Havalar artıq qızmağa başlamışdı. Hərdən-birdən yağışlar yağsa, küləklər əssə də ətrafda hər şey yazın gəlişindən xəbər verirdi. Yazın gəlişindən xəbəri səhər obaşdandan səs-səsə verib oxumağa başlayan sığırçınlar verirdi. Yaz bu şəhərə həmişəki kimi qəribə şəkildə girirdi. Bağdakı tənha heykəlin artıq başına qonub ondan əl çəkməyən quşların çirkli təcavüzündən bezməyə başlaması ilə, bağın ortasındakı fəvvarəsi işləməyən, amma həmişə suyu ağzınacan dolu

hovuzun ətrafına qorxmadan uçub qonan qarğaların dimdiklərindəki hardansa tapdıqları quru çörək parçasını hovuzun suyunda isladıb elə oradaca yemələri ilə, evlərin balkonuna uçub gələn və balkonda qədd tutub gəzən göyərçinlərin və sərçələrin inanılmaz cəsarəti ilə, bir həftəyə ətri aləmi başına götürəcək iydə ağaclarının sivri yarpaqlarının sirli-sirli xışıldaması ilə, küçə itlərinin heç nədən səssiz-səssiz bir-birinin dalınca dəli kimi dövrələmə qaçması ilə, bir də onun ürəyinə bu ağır qışdan bəri ilk dəfə həzin bir axşam mehi kimi rahatlıq hissinin gəlib dolması ilə yaz gəlirdi.

Onun həyatı, nəhayət ki, bir düzən almışdı. Bu düzənə heç bir düzənin olmaması da demək olardı. Və indi artıq o, rahat şəkildə bütün bu macəraya – son iyirmi ildə başına gələnlərə isə əsl macəra demək olardı – «əlvida» deyə bilərdi. Niyə də yox?! Onların məhəbbəti, bu sevgi xəttinin əyilib-əyilib üçbucağa, sonra hətta dördbucağa çevrilməsi əvvəllər də qeyd edilən kimi onu diksindirməmişdimi, sonra isə o bununla barışmamışdımı və bütün bunlar son görüş zamanı Zalxaya etiraf etdiyi haman o düzənə çevrilməmişdimi?! Bu düzən ona rahatlıq, gözlədiyi rahatlıq yox, əksinə, əzab, ağrı, zülüm, bir sözlə, yenə də o düzənsizlik gətirməmişdimi?!

Bunların hamısını o axşam Əhməd Zalxaya danışdı, susmadı, heç nəyi yadından çıxarmadı, sözlər özləri bağda dövrələmə qaçışan itlər kimi bir-birinin dalınca düşdü. Sandıqlar açıldı, gizlinlər üzə çıxdı, hər şey deyildi. Səmimi-qəlblə etiraflar edildi. İlk dəfə idi ki, o, Zalxanın hər kəlməsinə inandı. Zalxa da, gözlərindən görünürdü, ona inanmışdı. Son görüşlərini elə belə də adlandırmaq olardı: Əhmədin Zalxaya və Zalxanın Əhmədə etiraf gecəsi.

Sonra, neçə il sonra onun yadına bu bağ, bağın fəvvarəsi işləməyən, amma suyu həmişə dolu olan hovuzu, quşları, itləri, pişikləri düşdükcə düşəcək və o anlaya bilməyəcəkdi ki, o zaman, yəni, indi etdiyi etirafı düzmüydü etdi və düzmüydü ki, Zalxaya da, əslində, imkan verdi ki, o da öz etirafını etsin. Düzənsizliyin ucu iyirmi il əvvələ (bəlkə də sonraya) gedib çıxacaqdı.

– Səninlə biz bir də bu həyatda görüşsək, o zaman sənə deyəcəyim bir söz daha varımdır. Yox, yox… indi deməyəcəyəm, o zaman, o zaman hökmən, bəlkə iyirmi il sonra… – Əhməd bilmədi ki, bu sözləri kim dedi, o, yoxsa Zalxa?! İyirmi il sonranı da elə dəqiq tapmışdılar ki…

Əhməd xəstəxanadan çıxıb bilə-bilə yolunu o bağın yanından saldı. Heykəl öz yerində, hovuz öz yerində, quşlar – budaqlarda. Hər şey yazın gəlməsini gözləyir. Ona elə gəldi ki, kiminsə ona borcu var, o isə bu adamın kim olduğunu unudub. Xatırlamaq istədi, yaddaşını işə salmaq istədi, amma hiss elədi ki, özünü zorlamağa başladı. Həkimin dediyi sözlər gəlib bu məşəqqətli yadasalma prosesinin qarşısını lay divar kimi kəsdi: "Qətiyyən, amma qətiyyən zehninizi zora salmayın, özünüzü yormayın, nəyisə unutdunuzsa, xatırlamağa çalışmayın, uçdu getdi, deməli, belə lazımdı. (Ümid qalırdı borclunun öz borcunu onun yadına salmasına). Siz ancaq dincəlməyə, xoş emosiyalar qəbul etməyə çalışın. Buna hazır olun. Əvvəli bir az çətin olacaq. Amma görəcəksiniz, sonrası yağ kimi gedəcək, özünüz də bundan ləzzət alacaqsınız. Həyat xoş emosiyalardan, xoş emosiyalardan, bir daha xoş emosiyalardan ibarətdir. Bunu yaddan çıxarmayın. Yüz il yaşarsınız".

Hər şey, əlbəttə ki, göründüyü kimi deyil. Alt tərəfi var. Amma bəlkə də bu alt tərəfi biz özümüz uydurmuşuq. İnsan ağıllanana qədər gördükləri ilə kifayətlənə bilirdi və bu onun həyatına heç bir əyər-əskiklik gətirmirdi. «Alt tərəf» biz ağıllanandan sonra üzə çıxdı. Biz ondan imtina ediriksə, deməli, ağlımızdan imtina edirik. Düzən və düzənsizlik – bir yerdə elə bunun özüdür. Evə gəlib çıxana qədər beynindən əyilib düzəlib ancaq bu sözlər keçdi. Yenə də yadına şəhər bağında bir-birinin dalınca dövrələmə qaçışan sahibsiz itlər düşdü.

Xəstəxanaların özünəməxsus iyi olur. Adamlar kimi. Xəstəxanadan çıxıb evinə tərəf şəhər bağının yanındakı küçə ilə gedərkən o düşündü ki, küçələrin də hər birinin öz məxsusi iyi var. Yanından ötdüyü binalara baxdı. Bunların da iyi var, yox deyil. Bu barədə düşünmək xoşuna gəldi. Birdən anladı ki, bu iy məsələsini haracan desən uzatmaq olar. Lap elə yazılan bu cümləyə qədər. Sözə qədər. İçdiyi dərmana qədər.

O gecənin də öz iyi var idi. Əllər, ayaqlar bir-birinə sarılmış, dodaqlar bir-birindən qopmaq istəmir.  Gözlər bir-birinə baxmaqdan qaçır…

Niyə hər şeyin dadı-duzu bu belə olduqca qaçıb gedir?! Budurmu, son nəticə və son rahatlıq?! Əvvəl yoxmudur?! Olubmu, olmayıbmı?! Axır necə?! Biz əvvəldəyik, yoxsa axırdayıq?! Evə çatıb qapını açmadan əvvəl başını qapıya dirədi. Qapının qoxusunu aldı. Qapıların da öz qoxusu var idi. Mənzilindən isə kif qoxusu gəlirdi. Yataq otağına keçib soyundu, əynini dəyişib mətbəxə keçdi. Hər tərəfdə səliqə hökm sürürdü. Deməli o, xəstəxanada ikən Səlimə gəlib öz işini vicdanla görmüşdü. Səliməni yada salanda dodaqları qaçdı. Onun hər işi lazım oldu, olmadı, necə tələsə-tələsə gördüyünü yadına saldı. Suyu qaynatdı, çayı dəmlədi. Balaca stəkanını tapıb çıxartdı, çayı hətta stəkana tökdü. Amma içmədi, kabinetə keçdi. İçində qapqara çayı buğlanan stəkan qaldı mətbəxdə stolun üstündə.

İndi artıq rahat nəfəs almaq olar. Qoşqar müəllim deyir ki, bəli, vaxt gəlib yetişdi, sən artıq öz işini yavaş-yavaş sona çatdıra bilərsən. Sakitliyin – var, rahatlığın –var, ən əsası isə vaxtın – var. Sağlamlıq deyirdin, o da var. Axı heç kim inanmayacaq – bunların da hər birindən iy gəlir. Sağlamlıqdan, rahatlıqdan, sakitlikdən, vaxtdan… Hər birinin öz iyi var. İyləri gəldikcə onlardan qaçmaq istəyirsən və sənə elə gəlir ki, qaçıb canını qurtara biləcəksən.  Bunu Qoşqar müəllim bilmir?! Bilmir, bilsə, deməz.

İndi burada, bu məqamda sanki olmuş bir hadisənin sonluğunu, boş qalmış yerlərini doldurursan, sanki indi yekun vurmaq vaxtı, nəticələri üzə çıxarma zamanıdır. Amma yox, sən sona doğru getdikcə özündən xəbərsiz bir də görəssən ki, əvvələ doğru yol almısan, gəlib kino lenti kimi əvvələ yığılmısan, bir azdan hər şey başlayacaq əvvəldən axıra qədər sənin gözünə görükməyə. Axıra gəlib çatdığını düşünən yerdə gəlib əvvələ çıxacaqsan. Qoşqar müəllim dediyi kimi budur dialektik inkişaf, yaxud sən düşündüyünü düşün, gör fələk nə düşünür.

Küçə ilə gedə-gedə küçənin o biri tərəfində onunla bir addımlayan bağın axırına (bəlkə də əvvəlinə) çatdı, bir tin də ötüb keçdi, bağ arxada qaldı. Gəzdikcə ciyərlərinə dolan təmiz hava onu az qala bihuş edirdi. Xəstəxanadan hamı maşınla çıxıb evinə gedir, o isə piyada yola düzəlmişdi.

Küçələrdə gördüyü adamlar hamısı təzə adamlar idi, heç biri ağ xalatlı deyildi. İdris həkimin məsləhətləri yadına düşdü. Doğrudan da çalışıb hər gördüyün, eşitdiyin, toxunduğun şeydən ləzzət almalısan. Yoxsa, görməyə, eşitməyə, toxunmağa sərf elədiyin vaxt boşuna gedəcək. İnsan bir dəfə yaşayır – bu, məlum məsələdir. Bəs niyə ona elə gəlir ki, **bu, heç zaman baş verməyəcək?!**

Qarşıdakı tini dönüb Dövlət kitabxanasına tərəf aparan yola çıxacaqdı. Tini dönərkən qəribə bir hadisə baş verdi. Elə bil, sözləşmişdilər. Qarşılaşdılar. Əhmədə elə gəldi ki, onları bir-birinə qarşı hansısa bir qüvvə gətirdi, çünki bu boyda təsadüf ola bilməzdi. O elə bildi ki, aradan iyirmi il yox, heç iyirmi gün də keçməyib. Əvvəlcə istədi, özünü vursun görməməzliyə. Amma etmədi. «Utanası bir işim yoxdu, niyə belə edim ki?!»

Zalxanın onu görcək üzü-gözü lap elə iyirmi il əvvəlki kimi dəyişdi. Zalxa gülümsəyirdi və ərklə onun qolundan yapışdı:

– Hara, yoxsa düz keçmək istəyirsən?! Allahın bir quru salamını da çox görürsən?!

– Yox, niyə ki?!

– Gördüm, gördüm, düz keçib gedirdin, mən saxlamasaydım… Sağ ol, vallah, sağ ol…

Əlbəttə ki, o yenə də zarafat edirdi. Əhmədin özü də bu zarafat tonunu ondan alıb davam etdi.

– Səni görməmək olar?! Maşallah, istəsən də olmaz. Xeyli… çoxalmısan.

– Demək istəyirsən, kökəlmişəm?! Yaraşmır mənə?! –Zalxa ciddiləşdi. Sonra söhbəti dəyişdi:

– Eşitdim, eşitdim, xəstəxanada olmusan. Nə vaxt çıxmısan?

Yalan deməyin vaxtı yetişdi:

– Üç gündü.

– Bəs niyə bayırda gəzirsən?! Bilirsən, nə qrip gəzir?! Sağlam adamları vurub yıxır.

Görüş barədə vədələşmələri öz-özünə alındı. “Görüşək, nə deyirsən, olan-keçənləri yad edək… Olar, niyə də olmasın…”

Ona elə gəldi ki, bir daha onlar bir-birindən ayrılmamalıdılar. Əgər həyat onları iyirmi il əvvəl ayırıb indi tamamilə təsadüfən (bəlkə də qanunauyğun şəkildə) iyirmi il sonra yenidən bu kafedə, bu masanın arxasında üzbəüz otuzdurmuşdusa, deməli bu həyatda, Qoşqar müəllim nə deyirsə desin, Ali bir Həqiqət  yox deyil, var…

Küçələri gəzdikcə yorulmurdu, sanki nə vaxtsa itirdiyi enerjini yenidən içinə yığırdı. Bu enerji deyilən coşqun hiss canına yeriyib qanında oynadıqca  onun yaşamaq həvəsi artırdı. Diaqnozunu biləndən sonra hər şey, sən demə, asandan asan olurmuş. Hadisələrin sonunda həkimbaşı ilə söhbətini xatırladı. «Hələ vaxta varmı?! İki-üç ayınız var.» Bu müddət ərzində çox iş görmək olar. Xəstəxanadan çıxana qədər düşündü-daşındı və ona elə gəldi ki, həkimlərin qoyduğu diaqnozdan sonra ömrə yekun vurmaq olar. Amma yox. İndi küçəbəküçə gəzdikcə, mağazaların vitrininə, yanından ötən adamların üz-gözünə baxdıqca, restoran və kafelərin küçələrə çıxarılan stullarında oturmuş müştərilərin ciddi-cəhdlə əllərindəki menyunu oxumalarına elə onlar qədər ciddi-cəhdlə diqqət yetirdikcə ürəyinin dərinliyində hiss elədi ki, o hələ yaşaya bilər. Lap elə tutalım ki, onun düşündüyü kimi olmadı. Ən pis halda iki-üç ay özü də az müddət deyil. Kifayətdir. Romanın epiloqu üçün bəs edər. Ən pis olan o idi ki, nəsə yarımçıq qalaydı. Əvvəlcədən bilsəydi ki, xəstəxanada bu qədər vaxt itirəcək, bəlkə də romanı yazmağa başlamazdı. Romanı bitirən kimi xəstəxanaya düşməsi, mədəsindəki ağrılar (sonra məlum oldu ki, bu, ürək ağrılarıdır) epiloqun ancaq adının yazılışı ilə nəticələndi. Epiloqun özü yazılmadı. Epiloqsuz isə olmazdı. Heç olmazdı. Romanda buna aşkar işarələr var idi. Ona elə gəlirdi ki, ən vacib deyiləsi sözləri o, məhz epiloqa saxlayıb. Bəzi qaranlıq yerlər burada açılacaq, mövcud boşluqlar burada doldurulacaq. Epiloq bəlkə də romanın özü qədər vacib bir… hələlik virtuallıq idi.

Bütün əlavə demək istədiklərini unutduğunu anlayanda onu dəhşət bürüdü. Bu, o demək idi ki, romanın özünü də tərəddüdsüz cırıb küçəyə

atmaq olar. Kabinetə keçən kimi yazı masasının arxasındakı sevimli kreslosuna oturdu və siyirtmədən ağ bir kağız çıxarıb qarşısına qoydu. Sonra isə qəribə bir şey oldu. Bu, ilk dəfə idi ki, başına gəlirdi. Əhməd maddım-maddım ağ kağıza baxıb dururdu. Onun fikri çox-çox uzaqlarda gəzirdi, o bilmirdi, bu ağ kağız parçası ilə nə etmək lazımdır. Əlindəki qələm bəlkə də ilk dəfə sözünə baxmırdı. Ona elə gəldi ki, o, hərfləri də unudub. Şəhər bağında şövqlə oxuyan sığırçının səsi qulağına dolmuşdu və o səsin yaxın gələcəkdə oradan çıxmağına heç bir ümid yox idi. Hərdən bu sığırçının cəh-cəhinin arasına qoca, yox qoca yox, yaşlı bir qadın səsi gəlib zorla özünü dürtürdü. Əhməd uzaqdan uzağa anlayırdı ki, bu, Zalxanın səsidir. Şəhər bağında onun dişsiz ağzından çıxan sözlərdir. İndi anladı ki, Zalxanın ağzında bir neçə dişi yox idi, özü də deyən kimi o diş həkiminə tələsirdi. Amma axı o, Zalxa ilə şəhər bağında görüşməmişdi. Onlar şəhər kitabxanasına dönən yerdə, tinin başında qarşılaşmışdılar. Bəs romanda da axı bu barədə – onların ilk dəfə harada görüşmələri barədə uzun-uzadı mülahizələr yürüdülmüşdü. Bunun mənası var idimi, yaxud mənası nə idi?! O indi bu epiloqla hansı hadisələrə qayıdacaq, nəyi gizlədəcək, nəyə son verəcək, nəyi qabardacaq, nəyi açıqlayacaqdı?! O dəqiq bilirdi ki, bütün bunları unutmayıb, bütün bunlar onun beyninin bir gizli nöqtəsində ilişib qalıb. Amma o yuxudaymış kimi xatırlaya bilmirdi. Bütün epiloq hazır şəkildə onun beynində idi və eyni zamanda bu epiloqun heç bir sözü qələmin ucuna gəlib çıxa bilmirdi.

– Səninlə görüşdüyümüzdə dişlərim hamısı yerində olacaq, arxayın ola bilərsən… yenə çoxalacağam. – Zalxa irişdi.

Küçələr arxada qaldıqca və o hər dəfə yeni küçəyə keçdikcə arxasında sanki lay divar ucalır, köhnə küçə əriyib yox olurdu. Yerində boşluq qalırdı. Təyyarədə uçan zaman pəncərədən baxıb gördüyü və hər dəfə dəhşətə gəldiyi boşluğa bənzəyən boşluq. Ancaq nələrəsə, kimlərəsə oxşatdığı ayrı-ayrı bulud parçaları hərdən bu boşluqda üzüb durur, bir azdan onlar da əriyib gedirdilər.

Əvvəlcə ağrılara dözmək çətin olacaq. Amma deyilənlərə görə indi iynələr var ki, adama hər şeyi unutdurur. Ağrını heç hiss belə etmirsən.

Hər şey öz-özünə yoxalır. Elə bil, yuxuya gedirsən. (Oyananda (oyansan) sənə elə gəlir heç nə hələ başlamayıb.) Bu, ən yaxşı variantdır. Belə olarsa, hamı üçün yaxşı olar. Amma… Küçələrin birində (bu, Teatr küçəsi idi) yadına saldı ki, o, düz iyirmi il əvvəl Zalxanı bu küçədəki teatra dəvət etmişdi. Hansı tamaşa idi – adını indi xatırlamırdı, yadında qalan o idi ki, oğlanla qız sonunda əl-ələ verib özlərini uçurumdan aşağı atırlar. Tamaşaya baxan hər kəs kimi bu ikisi də qəhərlənmişdi. Zalxanın hətta az qalmışdı gözlərindən yaş süzülüb gəlsin. Əhməd belə düşünmüşdü. Nə düşündüyünü xatırlamadı.

Təyyarədən baxdığı zaman bulud topalarının əriyib öz formalarını itirməsi yatıb gördüyü yuxuya bənzəyirdi. Bunu o, xəstəxanada ikən özü üçün müəyyən etmişdi. Hər oyandığı səhər gecəki yuxusunu sanki xatırlayırdı. Amma bu ümumi konturlarda baş verirdi. Bütün təfərrüatlar, məlum olurdu ki, unudulub. Həm xatırlayırdı, həm də unudurdu. Özünə zəhmət verib yada salmağa çalışdıqca yuxunun olub qalan konturları da yavaş-yavaş süzülüb əriyir və o bir an əvvəl nəyi xatırlamağının özünü də unudurdu. Paltarını dəyişdiyi yataq otağındakı tənha çarpayısına baxıb köksünü ötürmüşdü. Ondan hələ də Zalxanın iyi gəlirdi.

İndi də Zalxa onun həyatından yox olandan sonrakı iyirmi il gözlərinin qarşısından aybaay, günbəgün keçib gedirdi. Bu küçədən o küçəyə, bu xatirədən o birisinə…

Hər arxada qoyduğu küçə göydəki buludlar kimi əriyib yox olurdu. Hər xatirə də eləcə. Sanki bu xatirələr özlərini ona son dəfə göstərir, bununla da onun həyatındakı missiyalarını bitmiş hesab edirdilər. O anladı ki, bir daha onların heç birini xəyalında canlandıra bilməyəcək. Onlar göz görə yox olurdular. Anlamağa çalışdı. Milçək qədər zəhlətökən bir sual beyninə ilişib qaldı. Bəs onlar indən belə harda yaşayacaqdılar, onların məskəni hara olacaqdı?! Anlaya bilmədi. Bircə onu anladı ki, daha xatirə ovuna çıxa bilməyəcək. Elə bulud ovuna da. Çünki daha heç bir zaman təyyarəyə minməyəcək. Cürbəcür adam və heyvan forması alan buludlar hər dəfə onlara dərin baxış atdıqca yeni biçimlər ala-ala daha göz qabağında əriməyəcəklər. Xatirələr də eləcə. O indi özünü əli ova çatmayan

xatirə və bulud ovçusu kimi təsəvvür edirdi. Amma nə baş vermişdi ki?! Bəlkə bu xatirələrin heç biri həqiqətdə olmamış hadisələrin ilğımlarıdır?! Amma hadisə olmasa onun xatirəsi necə ola bilər?! Hadisə yox, xatirəsi isə var. Bu mümkündürmü?! Öz ləpizdən qabağa düşə bilərmi?!

Real olan isə ancaq və ancaq həkimbaşının özünün ona qoyduğu diaqnoz idi. Əsl epiloq bu idi. Yazmadığı roman kimi, şeir kimi, esse kimi, hekayə kimi, əslində, yaşanmamış həyat kimi bu epiloqdan kənarda heç nə yox idi. Bu yaşanmamış həyat indi nazəndə sevgilini xatırladan bir ilğıma dönüb kimi özünü ona göstərirdi. O inanmaq istəyirdi ki, belə bir həyat həqiqətdə olub. O, yəni, Əhməd də bu həyatı yaşayıb.

Küçələrin birində bir paltar dükanının yanından keçərkən gözü vitrindəki maneken qıza sataşdı. Maneken elə bil, canlı idi. Ona baxıb gülümsəyirdi. Əyninə geyindirdikləri paltarın rəngi ağ idi deyin, Əhməd onu xəstəxanadakı tibb bacısı Zəhraya oxşatdı. Manekenin özü isə Zəhraya qətiyyən oxşamırdı. Zəhra qaraşın idi, bu maneken isə – sarışın.

Hər dəfə Zəhranı palatada gördüyündə ürəyi yeyin-yeyin döyünür, nəfəsi az qala təngiyirdi. Bu yaşda eşq gülməli idi, amma bu gülməli eşq çox şeyi adama unutdura bilərdi. Palata yoldaşı Həsənin sözləri yadına düşdü. Həsənə görə hər bir adamın özündən qabaqda gedən şeytanı var imiş. Əgər iki nəfərə dostluq eləmək nəsibdisə, əvvəlcə onların şeytanları bir-birilə görüşür, sövdələşir və razılığa gəlməyə çalışırlar. Əgər razılığa gəlirlərsə, bu dostluq baş tutur, razılığa gəlmirlərsə, bu dostluq baş tutmur. Əhmədin və Zəhranın şeytanları razılığa gəlmişdilər. Zəhranın şeytanı da əgər vardısa, özü qədər, yəqin ki, işvəli və gözəl idi.

– Sənin evində heç olmasa qədrini bilirlər?! – Əhməd elə birinci görüşdə söhbətə zarafatla başladı.

– Söz veriblər ki, qədir ağacı əkəcəklər. – Tibb bacısı əlindəki iynəni onun yanına batırmaq üçün hazırlaya-hazırlaya eyni şuxluqla ona cavab verdi.

– Əkməsələr, mənə hökmən, amma hökmən deyərsən… – Əhmədin iynənin necə vurulduğundan xəbəri olmadı.

Niyə mənim qarşıma elə bircə kəlmə ilə məni anlayan bunun kimi birisi bu günə qədər gəlib çıxmadı?! Hər dəfə xəstəxanada Zəhranı gördüyündə bu sözlər fırlanıb beynindən keçirdi.

Zəhra ilə xəstəxanada razılaşdılar – Zəhra hər gün işdən sonra gəlib ona evdə iynəsini vuracaqdı.

Axşam qapını açanda Zəhranı az qala tanımadı. Zəhra ağır iş gününü yola verən adama oxşamırdı. Gümrah idi. Elə bil, onun xoşuna gəlmək üçün hələ bir saçına tumar da vermişdi. Paltarı əyninə kip oturmuşdu – belə paltarda Əhməd qızı birinci dəfə görürdü. Xəstəxanadakı açıq-saçıq söhbətlər, eyhamlar və şivələr bir andaca təzədən yada düşdü.

– Hara keçim? Əlimi yuyacam. İsti su qoymaq lazımdır.

Əhməd qızı mətbəxə ötürdü. Zəhra bu evdə elə bil, çoxdan yaşayırdı, əlüstü qazı yandırdı, çaydanı su ilə doldurdu və piltənin üstünə qoydu.

Əhmədə bir an elə gəldi ki, bu qadın onun min illərdi sevdiyi həmən qadındır. Bəlkə dəyərdi hələ bir az da bütün bu məşəqqətə. Bu adamla, elə bil, həyat daha maraqlı ola bilər. Bəs Zalxa?! Onu necə edəcəkdi?! Sabah ona nə deyəcəkdi?! Bərkə düşmüş, küncə qısnadılmış bir adamın son ümid yeri haradır?! Zəhra bu sualın cavabını bilirmi?! İnanmağı gəlmədi. O isə bilir. Yaşadığı binanın on yeddinci mərtəbəsi. Ordan şəhəri seyr eləmək heç ağlına gəlməyib. Çardaxdan qalxıb dama keçə bilər. Əsl şəhər seyri o zaman başlar. Bu ki, əməlli-başlı müharibədir. İmkan vermək olmaz ki, bir xəstəlik, gözəgörünməz bir şiş sənə qalib gəlsin. Sən ona qalib gələssən. O səni yox, sən onu öldürəssən. Öz epiloqunu özün yazassan. Sən həyatın özünü yaza bilmədin. Eyb eləməz. Epiloqu yazarsan. Amma kim bilir, bəlkə də həyat elə bu epiloqdan ibarət imiş, özü isə yox imiş. İlğım ki ilğım. Nə gözəldi buranın mənzərəsi. On yeddinci mərtəbənin əvəzini heç nə verməz. Gör bu gözəlim Bakı haraya qədər uzanır. Min il adam bu şəhərdə yaşasa yenə də aza bilər. Aşağı baxmaq olmaz. Başı gicəllənər. «Nəhayət ki, – o düşündü – seçim edildi». Seçimi düzgün eləməkdən vacib heç nə yoxdur. O öz həyatının ən vacib məqamlarında səhv eləmişdi. Epiloq səhv sevmir. İndi artıq səhv etmək olmaz.

Sabah Zalxa ilə görüşə gedə bilməyəcək.

Zəhra qapının zəngini çala-çala qalacaq.

Onun özü isə bir Allah bilir, harda, hansı şəkildə… Allah bilən məsləhətdir. Amma Allah bunu heç kimə məsləhət bilmir axı. Bu, onun gözündə günahdır – belə deyirlər. Aşağı baxmaq olmaz. Adamın başı gicəllənər. Yuxarı da baxmaq olmaz. Göylərin tutqun üz-gözündən məzəmmət yağır. Bu həyatı o yaşamışdımı, lap elə bu Zəhra, bu Zalxa həqiqətən varmıydılar?! O və onun xəstəliyi həqiqət idimi?! Bəlkə o, həyatın özündən sağ-salamat çıxa bilməmişdi, epiloqa qədər özünü çatdıra bilməmişdi?!

Qapını itələyib mənzilə daxil olanda (nədənsə qapı bağlı deyildi, onu içəridə, elə bil, gözləyirdilər) hələ heç kimi görməsə də hiss elədi ki, mətbəxdə kimsə var. Evdən adam iyi gəlirdi. Ürəyi az qala dayandı. Başa düşə bilmədi niyə, amma mətbəxdəki adamı tapıb qucaqlamaq, bərk-bərk köksünə sıxmaq, nəfəsini nəfəsinə vermək istədi. Bu da doğru seçim deyil, amma… Amma onu da xatırlaya bilmədi ki, mətbəxdəki bu adam kimdir.

Unutmuşdu ki, dünən özü açarın birini Zəhraya vermişdi. Əgər bu gün evə gəlsəydi, ona qapını açan bir adam olmalı idi…

2020-ci il

# MÜNDƏRİCAT

### *Roman*

Sirlərin sərgüzəşti .................... 9

### *Povest*

Tarixsiz gündəlik .................... 159

### *Hekayələr*

Qərar .................... 265
İlişin qayıtmağı .................... 290
Son gəliş .................... 300
Xaron, mərhəmətli, Xaron .................... 307
Dəvə yağışı .................... 312
Adaşlar .................... 321
Parisin seçimi .................... 333
Çəngəl çiçəyi .................... 346
Adı özündən uzun Gülü qah-qah xanımın nağılı .................... 358
İstintaq .................... 369
Ay işığı .................... 380
Kamera teatrı .................... 388
Üçrəng pişik balası .................... 398
Həzin yay axşamı .................... 405
Sirri-zəmanə .................... 417
Pəncərə .................... 433
Bir sevgi hekayəti .................... 440
Qədiməli kişi .................... 450
və onun bülbülü .................... 450
Köhnə məhlə .................... 457
Tumsuz nar .................... 466
Uca qaya başında .................... 476
Çil-çil toyuq .................... 479
Dünyanın .................... 486
ən ucaboylu karliki .................... 486
Mənə uçmağı öyrət .................... 496

Qədim mayyalara cavab....512
Korneliusun ölümü....524
"Platon, deyəsən, xəstələnib..."....530
Asiman və Zəminə....541
Atama deyin ki,....551
mən xoşbəxtəm.......551
Səhvlərimizin qrammatikası....566
Vakxanaliya mövsümündə çalıquşu....578
Kölgə....588
Qar....593
Uçuş....599
Mağara....609
Göyəzən dağının ilahəsi....615
Sağlıq....625
Edam vaxtını....633
dəyişmək olmaz....633
Səsimdən yapış....644
Hacı Mir Həsən ağa Səyyah....649
Açar söz....657
İkincisiz....696
Epiloq....700

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 05.01.2020.
Format: 70x100 1/16. Qarnitur: Palatino Linotype.
Həcmi: 41, 5 ç.v. Tiraj: 1000. Sifariş № xx.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az